# AZƏRBAYCAN

QƏZETİ

1918-1920

## XI CİLD

(Avqust 1919)

**TRANSLİTERASİYA EDƏNLƏR**

**Mehdi Gəncəli**
Filologiya üzrə fəlsəfə doktoru

**Azad Ağaoğlu**
Filoloq, tərcüməçi

**ELMİ REDAKTOR**

**Teymur Kərimli**
Akademik

**ADA Universitetinin**
**təşəbbüsü və dəstəyi ilə nəşr edilir.**

# MÜNDƏRİCAT

**Ön söz**
**Oxucuların diqqətinə**
**Nömrə 240** (1 avqust 1919) ........ **1**
**Nömrə 241** (3 avqust 1919) ........ **27**
**Nömrə 242** (4 avqust 1919) ........ **53**
**Nömrə 243** (5 avqust 1919) ........ **79**
**Nömrə 244** (6 avqust 1919) ........ **105**
**Nömrə 245** (7 avqust 1919) ........ **131**
**Nömrə 247** (10 avqust 1919) ........ **157**
**Nömrə 248** (11 avqust 1919) ........ **183**
**Nömrə 249** (12 avqust 1919) ........ **209**
**Nömrə 250** (13 avqust 1919) ........ **235**
**Nömrə 251** (14 avqust 1919) ........ **261**
**Nömrə 252** (15 avqust 1919) ........ **285**
**Nömrə 253** (17 avqust 1919) ........ **303**
**Nömrə 255** (19 avqust 1919) ........ **329**
**Nömrə 256** (20 avqust 1919) ........ **355**
**Nömrə 257** (21 avqust 1919) ........ **375**
**Nömrə 258** (22 avqust 1919) ........ **395**
**Nömrə 259** (24 avqust 1919) ........ **413**
**Nömrə 260** (25 avqust 1919) ........ **439**
**Nömrə 261** (26 avqust 1919) ........ **465**
**Nömrə 262** (28 avqust 1919) ........ **491**
**Nömrə 263** (29 avqust 1919) ........ **517**
**Nömrə 264** (31 avqust 1919) ........ **543**
**Adlar göstəricisi** ........ **569**

# ÖN SÖZ

ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək, lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da (mərhum professor Şirməmməd Hüseynovun çalışmaları xüsusilə yada salınmalıdır), "Azərbaycan" qəzeti kimi mühüm bir nəşrin müasir oxucu üçün əlçatan olmasını təmin edəcək bu səviyyədə bir iş, 30 illik müstəqillik dövründə həyata keçirilməmişdir.

"Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də, Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və

Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir.

“Azərbaycan” qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır.

Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən ADA Universiteti qürur duyur.

**Hafiz PAŞAYEV,**
**ADA Universitetinin Rektoru**

# OXUCULARIN DİQQƏTİNƏ

“Azərbaycan” qəzetini transliterasiya edərkən, mətnin orijinallığını qorumaqla birgə, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışdıq. Bu səbəbdən, bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəldi. Məsələn, “çox” yerinə qəzetdəki kimi “çoq”, “yox” yerinə “yoq”, “etməyi” yerinə “etməgi”, “kimi” yerinə “kibi”, “nömrə” yerinə “numero” və s. yazmaq, oxucunun işini çətinləşdirməkdən başqa bir şeyə yaramayacaqdı. Üstəlik, bu sözlərin fərqli yazılışları qəzetdə bəzən eyni səhifədə yanaşı istifadə edilmiş, yəni imla birliyi prinsipi nəzərə alınmamışdı. Bu qəbildən olan sözlərin müasir yazılışına üstünlük verməyin, daha doğru bir addım olacağına inandıq.

Eyni zamanda, “teatro”, “qəzetə”, “böylə” kimi bəzi sözlərə toxunmadıq. Çünki əvvəla, bu sözlər qəzetdə həmişə eyni cür yazılmışdır; ikincisi də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Osmanlı türkcəsində və müasir Türkiyə türkcəsində indiki zaman şəkilçisi olan “-yor” qəzetdə qaydasız və pərakəndə bir şəkildə işləndiyi üçün (eyni cümlədə həm “-yor”, həm “-ır, -ir, -ur, -ür” şəkilçisindən istifadə edildiyini görmək mümkündür) mətndən çıxarılmışdır. Şeir parçalarında vəznin pozulmasına yol verməmək üçün “-yor” şəkilçisinin saxlandığı istisnalar da var.

Yer adlarını, fərqli versiyaların işlənməsi baxımından (Bolqarıstan – Bolqariya, Lehistan – Polşa, Macarıstan – Venqriya və s.) qəzetdəki kimi saxladıq, fəqət yazılış baxımından müasirləşdirdik (“Bulqarıstan” yerinə “Bolqarıstan”, “Kiyef” yerinə “Kiyev” və s.). Eləcə də, “Bakü” yerinə bugünkü kimi “Bakı” yazdıq. Soyadı sonluqlarını da (“-of”, “-yef” və s.) müasirləşdirməyi (“-ov”, “-yev” və s.) məqsədəuyğun hesab etdik.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etməyi münasib görmədik. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğunu mətnin içində kvadrat mötərizədə göstərdik. Bu halda, kvadrat mötərizədəki sözlər normal mətndən daha kiçik şriftlə verilmişdir. Məsələn: "...xəstəliklərin bittamam rəf'inə [tamamilə aradan qaldırılmasına] qədər..." Qəzetdəki mətndə səhvən buraxılan sözləri də kvadrat mötərizə içində əlavə etdik. Bu halda, kvadrat mötərizədəki sözlərlə normal mətnin şrifti eynidir. Məsələn: "...Xarici [İşlər] nazirinin..."

Hər nömrədən sonra əlavə edilən "Qeyd və şərhlər"də, oxucular üçün faydalı məlumatlar yer alır. Qəzetdəki mürəttib xətalarından bəziləri (xüsusilə əhəmiyyətli olanları) də burada göstərilmişdir. Əlbəttə, bütün xətaları göstərmək lazım və mümkün deyildi. Xüsusilə Birinci Dünya müharibəsində Qərb cəbhəsi xəbərlərində keçən toponimlər qəzetdə demək olar ki, həmişə səhv yazılmışdır. Bu toponimlər mümkün qədər bərpa edilmiş, eləcə də "Adlar göstəricisi"nə əlavə edilərkən, toponimin aid olduğu dildəki yazılışı da verilmişdir.

Şeir parçalarında rastlanan çətin anlaşılan söz və ifadələrin lüğəti də "Qeyd və şərhlər" bölməsində verilmişdir.

Cildin sonunda "Adlar göstəricisi" verilmişdir. Mətndəki bütün şəxs, yer, dövlət, xalq, qurum, idarə, təşkilat, şirkət və s. adları, hətta bəzi xüsusi terminlər "Adlar göstəricisi"nə daxil edilmişdir.

**Mehdi Gəncəli** **Azad Ağaoğlu**

# آذربایجان

جمعه‌لردن ماعدا هر گون چیخان سیاسی، علمی و اقتصادی تورک غزته‌سیدر.

محل اداره‌سی: گنجه «آذربایجان» اداره‌سی

بر نسخه‌سی ۱ روبله‌در

تورک و اسلامیه متعلق مقاله‌لر «آذربایجان» محررلکنه گوندریلملیدر.

درج اولونمیان اوراق مرجع اولنماز.

آبونه شرائطی: ... ۳۰ روبله، آیلغی ۸ روبله

خارجه ایچون: ۴۰ روبله، آیلغی ۱۰ روبله


## اعلان

[illegible]

واطنه نظری یهوده حالی جواشیر.

[illegible]

## حکومت امرلری

[illegible]

## آذربایجان حکومتنك قرارلرندن

۱۵ ایلول ۱۹۱۸

[illegible]

## گنجه ۸ ذی‌الحجه

[illegible]

# XI CİLDƏ MƏXSUS QEYD

"Azərbaycan" qəzetinin 9 avqust 1919-cu il tarixli 246-cı və 18 avqust 1919-cu il tarixli 254-cü nömrələrini tapmaq təəssüf ki, mümkün olmamışdır.
Külliyatın nəşri başa çatmadan bu nömrələr əldə edilərsə, transliterasiyası son clddə veriləcəkdir.

Cümə, 1 avqust 1919-cu il, nömrə 240

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 4 zülqədətül-haram sənə 1337. 1 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Doktor Bəhram bəy Axundov, öz qardaşları Əliəkbərə bəy, Cəmil bəy və əmiləri Nəsir bəy Axundovlar kamali-hüzn və təhəssürlə öz bacısı oğlanları **Rəşid bəy Axundovun** iyul ayının 30-da 1919-cu ildə fəcianə [faciəvi] surətdə vəfat etdiyini öz qövm-əqrəba və dost-aşnalarına məlum edirlər. Pəsməzar [yas mərasimi] iyul ayının 31-də və avqust ayının 1-də Nikolayevski küçədə nömrə 27, doktor Bəhram bəy Axundovun mənzilində olacaqdır.

*5495*

## Hökumət Teatrosunda
## Axşam tamaşası
## OPERA

Zülfüqar bəy və Üzeyir bəy
qardaşlarının müdiriyyəti
Cümə günü, zilqədə ayının 4-də
(ağustos ayının 1-də 1919-cu ildə)
mütəntən [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Leyli və Məcnun"** operası.
Məcnun - Sarabski; Leyli -
Hacıbababəyov. Biletlər indidən teatrın
kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam
saat 9-un yarısında.

## SİRK "MODERN"

Cümə günü ağustosun 1-də bütün Avropada şöhrət tapıb "hava kralları" adı qazanmış Sandarov qardaşlarının birinci qastrolu olacaqdır.

Bu gün məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 34-cü günüdür. 33-cü gün 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Svoboda, Zakoroyko ilə qəti mübarizə etməkdən imtina etdiyinə görə, bu gün P. N. Yelizarov güləş mübarizəsini vücuda gətirən və arası kəsilməyən mübarizə təyin edir: Svoboda – Zakoroyko. Və hərgah Svoboda bu gün mübarizəyə gəlməzsə, "qorxaq" hesab olunacaq və onun yerinə Naməlum, Zakoroyko ilə qəti mübarizə edəcəkdir.

2-nci revanş mübarizəsi: Gənc Əli – Djavani.

3-ncü: Baxtillov – Tələbə D. U.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda. Mübarizə Yelizarovun təhtinəzarətində [nəzarəti altında] olacaqdır.

*5494*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]
### Əxzi-Əsgər İdarəsindən elan

Azərbaycan Cümhuriyyətinin Mərkəzi Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsi cümlə əhaliyə elan edir ki, qəzalarda və şəhərlərdə vaqe əxzi-əsgər idarələrində verilən şikayətlər 1915-ci ildə nəşr olunmuş Əxzi-Əsgər Qanununun 296 və 297-ci maddələri və Azərbaycan Cümhuriyyətinin həmin 1919-cu tarixdə may ayının 26-da vəz olunmuş qərardadının əvvəlinci fəslinin 4-cü maddəsinin hökmlərinə görə lazımdır verilə həman o məhəlli [yerli] idarələr vasitəsilə ki, onların qətnamələrindən şikayət olunur. Bu şikayətlər düzünə Mərkəzi İdarəyə göndərilən və ya verilən halda, əsla etina olunmayacaqdır və biəncam [nəticəsiz] qalacaqdır. Məhəlli idarələrin qətnamələrindən şikayətlər həman qətnamələr məlum edilən gündən 4 həftə keçənədək verilmək lazımdır. Bu elanı çap etməyə sair qəzetələr də dəvət olunur.

*Müdiri-idarə:*
*S[üleyman] Musabəyzadə*
*Baş katib namına: Rəcəbli*

## MƏŞİXƏTİ-İSLAMİYYƏ İDARƏSİNDƏN
### [ŞEYXÜLİSLAMLIQ İDARƏSİNDƏN]

- Nuxu şəhəri əhli Molla Bilal Hacı Məhəmməd əfəndi oğlu Nuxu qəzasından Birinci Biləcik prixoduna molla təyin edilmişdir.

- Göyçay uyezdindən Molla Əbdülkərim İsa əfəndi oğlu Şahsünni prixoduna molla təyin edilmişdir.

- Bakı qəzasından Corat prixoduna novxanılı Molla Əbdürrəhim Molla Əbdülkərim oğlu molla təyin edilmişdir.

*Məşixət sədrləri:*
*Mustafa Əfəndizadə,*
*[Axund Ağa] Ağaəlizadə.*

## ÜMUM AZƏRBAYCAN MÜSƏLMANLARINA!

Möhtərəm qardaşlar! Bu günlərdə Azərbaycan Məşixəti-İslamiyyəsinə [Şeyxülislamlıq İdarəsinə] yetişən xəbərlərdən anlaşılır ki, bəzi qardaşlarımız növbənöv hiylə və təzvir [saxtakarlıq] və cürbəcür üzr və bəhanə ilə övlad və əqrəbasını əsgərlikdən xilas etməyə çalışırlar və xilas edirlər. Və hakəza [eləcə də], əsgər üçün lazım olan atları hökumətə verməkdən imtina edirlər yaxud yarar, səhih-salamat atları gizlədib, yaramaz, şilşikəst atları hökumətə göstərirlər.

Həqiqətdə bu tövr hərəkat xilafi-şəriət [şəriətə zidd], əzim [böyük] bir cinayət, din və vətənə böyük bir xəyanətdir.

Zənnimcə, bu tövr hərəkat bizə əski rus hökumətindən yadigar qalıb ki, bu əsgər yığmağı və at yığmağı o hökumətin zamanında olan əsgər və at yığmağa qiyas etmişik. Və lakin bu əsgər və at yığmaq ona qiyas olunammaz. Bu məsələyi-şəriyyəmizi [şəriətimizin hökmünü] kamalınca anlamamaqdandır. Zira bu hökumət o hökumət kimi olmayıb, bəlkə özümüzün təsis etdiyimiz və əsasi-dinimiz olan Quran məfadınca [Quranın mənasına görə] itaəti vacib bir hökumətdir.

Necə ki, 4-cü surənin 62-ci ayəsində bizə xitabən buyurur:

*"Ey mömünlər, Allaha və Allahın rəsuluna itaət ediniz və özünüzdən olan ülul-əmrə [idarəçilərə], ricali-hökumətə [hökumət adamlarına] itaət ediniz."*

Pəs [elə isə], hökumətin mütləqa əmrindən çıxmaq Quranın buyurduğundan çıxmaqdır. Nərədə qaldı ki, mükəlləfiyyəti-əsgəriyyə ola, hansı ki, məhz mükəlləfiyyəti-əsgəriyyə və onun ləvazım və mütəəlliqatı [ona lazım və dəxli olan işlər] barədə Qurani-mübin [yaxşını yamandan ayıran Quran] neçə-neçə ayətlərdə və o cümlədən 8-ci surənin 42-ci ayəsində bizə əmr edib buyurur:

*"Düşmənlərə qarşı durmanız üçün var qüvvənizlə çalışıb müntəzəm qüvvə və at və sairə hazır ediniz. Öylə qüvvəniz olsun ki, onunla Allahın düşmənlərini və özünüzü müdafiə və düşmənlərinizi irhab edəsiniz [hədələyəsiniz], qorxuya salasınız."*

Və hakəza [eləcə də], əsgəriyyət səmərə və qayəsi olan din və vətən müdafiəsində fədayi-can edənlər xüsusunda əsgəriyyətə tərğibən [rəğbətləndirərək; həvəsləndirərək] Qurani-Kərim 3-cü surənin 163-cü ayəsində buyurur:

*"Din, vətən, irz və namus uğrunda qətl olunmaq, Allah yolunda qətl olunmaqdır. Qətl olunanları ölü zənn etmə, bəlkə onlar Allah indində [yanında] diri və mərzuqdurlar [rizqi verilənlərdir]".*

Və hakəza mükəlləfiyyəti-əsgəriyyədən qaçanlar və övlad-əqrəbasını qaçıranlar və üzr və bəhanə ilə xilasına çalışanlar vətən, din, irz və namus uğrunda mal və dövlətini verməkdən, bəzl və infaqdan [əsirgəmədən xərcləməkdən, sərf etməkdən] çəkilənlərə təhdidən və tərhibən [hədələyərək və qorxudaraq], Qurani-əzimin 9-cu surəsinin 24-cü ayəsində buyurur:

*"Ya Məhəmməd (səlləllahu aleyhi vəsəlləm), möminlərə xəbər ver ki, ey möminlər əgər atanız və oğlanlarınız və qardaşlarınız və arvadlarınız və əqrəbanız və kəsb etdiyiniz əmvalınız [qazandığınız mallarınız] və kasadından qorxduğunuz ticarətiniz və pəsəndidə olan [xoşunuza gələn] evləriniz, məskənləriniz Allahdan və Rəsulundan və Allah yolunda – Allah yolu, din uğuru deməkdir – cihad etməkdən sizə istəkli olsa, müntəzir olunuz Allahın əzabına."*

Əziz və möhtərəm qardaşlar və dindaşlar! Quranımızın buyurduğunu eşitdiniz və anladınız, indi insaf ediniz, əsgərlikdən qaçmaq və övlad-əqrəbalarını xilasa çalışmaq və yaxşı atları gizlətmək şəriətimizcə müvafiq olarmı? Əlbəttə olmaz və cüzi yarım-yamalaq, bir azca əsgər hazırlamaq və bir neçə yüz tüfəng, patron sərəncam etməklə var qüvvəmizlə çalışıb ədanı [düşməni] irhab edən [qorxudan] qədər qüvvə hazır etməyi tə'kidən əmr buyuran ayeyi-kərimənin öhdəsindən çıxarıqmı? Haşa, sümmə haşa [əsla, qətiyyən!]. Bu əsrdə böylə yüngül qüvvələrlə ədayi-Allahı və ədamızı [Allahın düşmənlərini və öz dümənlərimizi] irhab edib xof və xətrə [qorxu] sala bilərizmi? Heyhat, indi ədayi-vətəni irhaba böyük əsgər kütləsi və ona yetər qədər top, pulemyot və kafi qədər möhkəm at və əsr müqtəzasınca [əsrin ehtiyacına uyğun] avtomobillər və bəlkə təyyarə və qəvvasə [üzən, gəmi] və drednot və sairlər lazımdır. Və bu ləvazımı tək hökumətin üzə-

rinə buraxıb, özümüz kənara çəkilib öz işlərimizə məşğul olmaq din, vətənimizi əcnəbi cövlangahı və irz və namusumuzu alçaqlar seyrangahı etmək deyil, nədir?

Bəs, qardaşlar, başımıza gələn bəlalardan bir dərsi-ibrət alalım, bir dəfə xabi-qəflətdən [qəflət yuxusundan] ayılalım, hökumətimizə müavinətdən geri durmayıb hər növ fədakarlıqda bulunalım. Lazım qədər əsgər və at verəlim. Mal və dövlətimizi din, millət, irz və namus uğrunda fəda edəlim, həm dünyada izzət və hüququmuza sahib olalım və həm axirətdə nicat və səadətə nail olalım.

*Bakı, 30 təmmuz 1919*
*Məşixət sədri: Mustafa Əfəndizadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabəd)*

**Şəfi bəy Rüstəmbəyli** - Bələdiyyə vəkilləri seçkisi haqqındakı qanun layihəsinin məruzəçisi sifəti ilə çıxaraq deyir ki:

Məlumunuzdur ki, hazırda davam edən bələdiyyə məclislərinin vəkalət vaxtı çoxdan tamam olmuşdur və seçki qanunumuz olmadığından hökumətimiz sabiq qanunu dəyişdirib yeni qanun vəz etməyi [qoymağı] lazım bilmişdir. Bunun üçün də bir komissiya təsis edilmişdi.

Həman komissiya demokratik əsas üzərinə bir qanun layihəsi tərtib vermişdir. Həddi-zatında [əslində] bu qanun təzə bir şey olmayıb, sabiq Müvəqqət Rusiya Hökuməti tərəfindən tərtib verilmiş demokratik qanundan ibarətdir. Ancaq komissiya onu Azərbaycan həyatına tətbiq etmiş, ona görə də məhəlli şərait təqazasınca [yerli şəraitə uyğun olaraq] bəzi maddələri buraxmış, bəzilərini qismən dəyişmiş, bəzən də yeni maddələr əlavə etmişdir.

Məsələn, bizim layihənin birinci maddəsi Rusiya qanununda yoxdur. O maddədə Daxiliyyə Nəzarəti qərar verir ki, Qanun layihəsinin qəbul və rəsmi qəzetədə elamından [nəşr edilməsindən] bir həftə sonra seçkilər başlansın.

Rus Hökumətinin əvvəlki qanununda ikinci maddə mövcibincə [ikinci maddəyə əsasən], bələdiyyə vəkilləri dörd il müddətinə seçilirlərdi və seçkilər köhnə üsul ilə icra olunurdu. Bu isə çox çətinlik və əngəl çıxarırdı. Amma bizim Daxiliyyə Nəzarətimiz bunu dəyişib vəkalət müddətini ancaq üç il qəbul etmişdir.

Üçüncü maddə seçkidə hankı şəxslərin iştirak edə bilmələrinə aiddir. Burada mühüm bir məsələ ariz olmuşdur [meydana çıxmışdır]: Azərbaycan təbəəsi olmayanlar seçmək və seçilmək ixtiyarına malik olsunlarmı, yoxmu? Hökumət tərəfindən tərtib verilmiş qanun layihəsinin 3-cü maddəsi ilə bu məsələ həll olunur və denilir ki, seçkidə ancaq Azərbaycan Cümhuriyyəti vətəndaşları (yəni, Azərbaycan təbəələri) iştirak edəcəklərdir.

Qanunun 4-cü maddəsində əsgəri xidmətdə bulunanların hüququndan bəhs edilir. Bu maddə mövcibincə əsgərlə zabitan [zabitlər], seçmək hüququndan məhrum edilirlər. Bu maddə dəxi heç bir hökumət tərəfindən qəbul edilməmişdir.

Amma təcrübədən görüldüyü üzrə, əsgəri xidmətdə bulunanlar seçkidə iştirak etdikdə çox qarışıqlıqlar olur. Buna görə, əsgər və zabitanlar seçə bilməzlər, ancaq özləri seçilə bilərlər.

5-ci maddə ilə intixabçıların [seçicilərin] yaşı təyin edilərək 21 yaşını ikmal etmiş [tamamlamış] hər bir şəxsə seçki ixtiyarı verilir.

6-cı maddəyə görə, bir şəhər dairəsində bir ildən az yaşamış olan şəxslər seçkidə iştirak edəmməzlər.

Bundan əlavə, köhnə seçki qanununa görə intixablar [seçkilər] iki həftə zərfində qurtarmalıdırlar. Fəqət bu mümkün olmadığından, Daxiliyyə Nəzarətimiz qanun layihəsinin 7-ci maddəsi ilə bu müddəti bir ayadək təhdid etmişdir [məhdudlaşdırmışdır].

8-ci maddəyə [görə], işbu qanunun Məclisi-Məbusanda qəbulundan sonra bələdiyyə idarələri seçki hazırlıqlarına şüru etməlidirlər [başlamalıdır]. Bələdiyyə idarələrinə ixtiyar verilir ki, lazım gəldiyi təqdirdə şəhəri müəyyən seçki dairələrinə təqsim etsin [bölsün].

Nəhayət, sabiq Rusiya qanununa görə, seçkilər haqqındakı şikayət Senatadək gedə bilərdi. Amma 9-cu maddəni hökumət böylə təshih etmişdir [düzəltmişdir] ki, son mərhələ İstinaf Məhkəməsi [Məhkəmə Palatası] olsun.

İştə, bu qanun layihəsi və hökumətin təshihləri. Bundan əlavə, layiheyi-qanuniyyəyə [qanun layihəsinə] Komissiyada baxıldıqda, Komissiya dəxi bəzi təshihləri təklif etmişdir.

Məsələn, birinci maddədə denilir ki, qanun layihəsi qəbul edildikdən bir həftə sonra bələdiyyə idarələri yeni seçkilər hazırlamağa şüru etməlidirlər. Fəqət,Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komissiyası bəzi şəhərlərin uzaqlığını, yaxınlığını nəzərə alaraq bir təshih təklif edir ki, qanun, məhəllində [yerində] alınıb rəsmi surətdə təbliğ edildikdən bir həftə sonrayadək hazırlıqlara şüru edilsin. Çünki öylə şəhərlər var ki, məsələn Zaqatala kimi ki, 10 gündən sonra da qanun oraya çatıb təbliğ ediləmməz.

Bundan əlavə, Komissiya bir təshih də təklif edir ki, Ağdaş ilə Zaqatala şəhər olsun. Bir də Şuşa ilə Nuxunun nüfusu [əhalisi] təqribən bərabər olduğu halda, Nuxu qlasnılarının miqdarı 24, Şuşanınkı isə 54-dür. Komissiya təklif edir ki, Nuxunun qlasnısının miqdarı Şuşa kimi 54 olsun.

Seçkilərdə kimlərin iştirak etməsi məsələsini Komissiya müttəhidül-rəy [yekdilliklə] qəbul edəmmədi. Komissiyada bu məsələ müzakirə olunarkən Malxazyan buyurdu ki, biz təbəəlik məsələsini burada keçirə bilmərik. Bir də bələdiyyə idarəsi siyasi bir müəssisə deyil, sırf xozyaystvennı bir idarədir [təsərrüfat idarəsidir]. Burada hamının mənafeyi var, bu məsələdə hamı mənfəətdardır. Binaənileyh [ona görə], şəhər dairəsində yaşayan ümum camaatın seçməyə də, seçilməyə də ixtiyarı olmalıdır. Seçilməyə ixtiyar verilməsə də, barı seçmək hüququ vardır.

Vansoviç isə əksini isbat edirdi. Seçkidə həmişə o adamlara ixtiyar verilir ki, siyasi işlərə də qarışmaq haqqına malik olsunlar. Təcrübə isə göstərmişdir ki, bələdiyyə idarələri həmişə siyasi işlərə qarışmışlardır. Hətta böyük siyasi rollar oynamışlardır. Ona görə, bələdiyyə idarələri seçkilərində bu xüsusu nəzərə alma-

lıdır. Bu mülahizələr ilədir ki, bir məmləkətin təbəəsi olmayan bir şəxs oranın seçkilərinə iştirak etməməlidir.

Çox müzakiratdan sonra komissiyalar əksəriyyəti-ara [səs çoxluğu] ilə qərar verdi ki, seçkilərdə ancaq Azərbaycan təbəələri iştirak etsinlər. Bu məsələdə bir səslə razılıq əmələ gəlmədi.

Komissiyada ixtilafı mövcib olan [ixtilafa səbəb olan] ikinci məsələ də intixabçıların yaşı məsələsi idi. Bəziləri 20, 21 və 25 yaş təklif edirlərdi. Komissiya əksəriyyəti-ara ilə 20 yaşı qəbul etdi.

İştə,Ləvayehi-Qanuniyyə Komissiyası, Daxiliyyə Nəzarətindən varid [daxil] olmuş qanun layihəsini öz təshihi ilə bərabər təsdiq üçün təqdim edir.

**Aşurov** - Layihənin birinci maddəsində denilir ki, qanun elamından [nəşrindən] bir həftə sonra seçki işlərinə başlansın. Mən buna heç vaxt razı ola bilmərəm. Çünki, doğrudur, qanun vermək Parlamanın işidir. Ancaq mən öz tərəfimdən məsləhət görməyirəm ki, Məclisi-Məbusan vaxt təyin etmək kimi işlərə qarışsın. Bələdiyyə idarələri öz işlərində müstəqil, camaat tərəfindən seçilmiş bir idarədirlər. Onlar öz işlərini yaxşı bilirlər. Onlar hər zaman qışqırmışlar ki, tezliklə seçki qanunu verilsin. Hətta bu barədə çoxdan bizə müraciət etmişlərdir.

Amma biz qanun layihəsini 3 ay özümüz ləngə saldıqdan sonra bələdiyyə idarələrindən bir həftə müddətində işə başlamalarını tələb ediriz. Halbuki, çox ola bilər ki, duma heç bir həftə yığıla bilməsin. Məsələn, Parlamanda kvorum yoxluğu kimi, orada kvorum olmaz. Yainki, siz istilərə görə tətil etmək istədiyiniz kimi, bir daha duma dəxi az-çox müddətə tətil edər. Binaənileyh, mən təklif edirəm bir həftə haqqındakı maddə qanundan götürülsün. Əgər işin tez başa gəlməyini istəyirdiniz, qanunu tez qəbul edəydiniz. Çün maddə əsla həyata düz gəlməz. Şayəd bu maddə qoyulsa da, barı bir həftə yox, bir qədər artıq vaxt təyin edilsin.

Bir də, bələdiyyə vəkillərinin müddəti-vəkalətindən bəhs olunur. Deyirlər ki, əgər Bələdiyyə Məclisi 4 il müddətinə seçilsə, müddəti-vəkaləti axırınadək vəkillərin bəziləri istefa verib, bəziləri də digər səbəblərə görə çıxarlar, vəkil miqdarı azalar. Bu surətlə də kvorum yığmaq müşkül olar. Nəticədə şəhər işləri təxirə uğrar. Mən elə bilirəm bu, bir dəlil deyil. Bizim seçki üsulumuz hamınıza məlumdur. Hər firqə Bələdiyyə Məclisinə 10 adam keçirirsə, siyahısında 20 namizədi olur. Ona görə də çıxanları əvəz edə bilir.

Fəqət, müddəti-vəkalətin az olmasının böyük mənfi cəhəti var. Məlumunuzdur ki, Bələdiyyə İdarəsi böyük bir müəssisədir. Xüsusən Bakı kimi böyük bir şəhərin Bələdiyyə Məclisi. Böylə müəssisəni idarə etmək üçün şəhər işlərinə aşina və baxəbər [tanış və xəbərdar] adamlar lazımdır. Bir də lazımdır ki, bələdiyyə vəkilləri öz işlərinə tamamilə bələd olsunlar. Bu isə yüngül bir məsələ deyildir. Şəhər işlərinə tez bir zamanda bələd olmaq çox çətindir. Onun büdcəsini, sair işlərini öyrənmək üçün uzun müddət lazımdır. Öyrənmədən də idarə etmək olmaz. Böylə olan surətdə 4 il müddət çox deyildir. Necə hələ onu 3 il etmək əsla fayda verməz.

Bundan əlavə, məsələnin maliyyə cəhəti də az əhəmiyyətli deyildir. Özünüzə

gərək məlum olsun ki, hələ köhnə zamanlarda Bələdiyyə Məclisi seçkilərinin 3-4 yüz min manat xərci olurdu. İndi isə, yəqin ki, bir neçə milyon sərf etmək lazım gələcəkdir. Bələdiyyə seçkiləri nə qədər tez-tez icra edilsə, yəqin ki, xərc də o qədər çox olacaqdır. Ona görə, maliyyə cəhətindən də 4 il müddəti 3 ildən xeyirlidir.

Əsgərlərin iştirakı məsələsinə gəlincə, mən də bunun tərəfdarıyam ki, əsgərlər seçkiyə iştirak etməsinlər.

Bundan sonra Əhməd Cövdət əfəndi danışaraq, qabaqkı natiqə, xüsusən müddəti-vəkalət haqqındakı rəyinə etiraz edir. Nəhayət, layiheyi-qanuniyyənin birinci qiraəti [oxunuşu] səsə qonularaq, əksəriyyəti-ara ilə qəbul və ikinci qiraətə keçilməsi qət edilir. İkinci qiraət gələn iclasa qalır.

## TELEQRAF XƏBƏRLƏRİ

**Müsəlmanlar Londonda**

London - Türkiyəyə sülh müahidənaməsi [sazişi] təslim edilməsi münasibətilə Esseks salonunda vaqe olan məclisdə Yaqub Həsən təklif eyləmişdir ki, Türkiyədə İngilis İmperiyası kimi federasyon ola. Trakiya və Asiyayi-Suğra [Kiçik Asiya, Anadolu] türklərin əlində qalmalı və bu yerlərə Sultan hakim olmalıdır. Beynənnəhreyn, Ermənistan, Suriya, Fələstin və Ərəbistan Sultanın təhti-himayəsində [himayəsi altında] muxtariyyətli olmalıdır.

Yaqub Həsən demişdir ki, Türkiyə müqəddaratı bu cür həll edilərsə, aləmi-islamın məmnuniyyətinə bais ola bilər.

Qahirə - Son Misir hadisatında dəmiryolların təxrib edilməsinə görə, Misir ölkəsini hərbi məmurlar 219 min 642 lirə cərimə etmişlərdir.

Berlin - İstanbuldan varid olan [gələn] bir paroxod ilə Türkiyədə qalan alman saldatları vətənlərinə övdət etmişlərdir [qayıtmışlar].

**Dabravolların məlumati-rəsmiyyəsi**

- Volqa nəhrinin sağ tərəfində, Vladiqafqaz dairəsində müvəffəq olduğumuzdan, Hacı-Tərxanda həyəcan vardır. Hacı-Tərxan quberniyasında bolşeviklər tərəfindən səfərbərlik elan edilmişdir. Fəqət bu səfərbərlik nəticə verməmişdir. Əhali qaçır. Tsaritsın cəbhəsində düşmənlər var qüvvələri ilə çalışırlar ki, bizim yürüşümüzü saxlasınlar. Bizim kəşfiyyatçılarımız onların nə yerə cəmləndiklərini kəşf edir.

- Don cəbhəsində: Yelan səmtində biz 3 kənd işğal eylədik. Balaşov səmtində, Talov mövqifi [stansiyası] yanında atışma davam edir. Düşmənlər yürüşlə Vasilyevka-Modin xəttinə çıxmışlardır. Onlara qarşı tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

- Xarkov cəbhəsində: Kursk və Sumı dairələrində heç bir təbəddülat [dəyişiklik] yoxdur. Poltava səmtində bizim tərəfimizdən Skroxodovo mövqifi işğal edilmişdir.

- Konstantinoqrad cəbhəsində qızğın müharibə davam edir.

- Yekaterinodar cəbhəsində kəşfiyyatçılar işlərində davam edirlər.

- Dnepr cəbhəsində: Dnepr nəhrinin şərq tərəfindən düşmənlər Aleksandrovka yanına keçmək istəsələr də, mü-

vəffəq olmamışlardır. Kovel şəhəri dairəsində bizim süvari dəstələrimiz iki qəsəbəni müharibə ilə almışlardır. Düşmənlərin əks həmləsi tərəfimizdən dəf edilmişdir.

Sunjensk səmtində düşmənlərin Krasnı Kutun üzərinə olan həmləsi dəf edilmişdir. Zenkovsk səmtində bizim hissələr düşmənləri Kalantayev kəndindən çıxarmışlardır. Burada 100 nəfər əsir, bir qədər pulemyot alınmışdır. Poltava səmtində düşmənlər zirehli qatarın müavinəti ilə İskrovka mövqifi üzərinə yürüş etmişlərdir. Fəqət onları geriyə oturtduq. Əsir və pulemyot alınmışdır. Valki şəhərinin cənub tərəfində bir neçə kəndlər işğal edilmişdir. Bizim hissələr Berestovaya nəhrini keçərək, Konstantinoqrad şəhərinə yaxınlaşırlar. Yekaterinoslav səmtində bizim süvarilərimiz Yekaterinodarın 130 verstliyində vaqe Solonenkoye kəndini işğal etmişlərdir. Aleksandrovka səmtində adi atışma davam edir.

- Krasnoyar səmtində təbəddülat [dəyişiklik] yoxdur. Balaşov səmtində bolşevik ordusu Balaşov dəmiryol boyu ilə irəliləyərək Rodniçok mövqifini [stansiyasını] işğal etmişlərdir. Bizim hissələrimiz Borisoqlebskin şimal qərb hissəsində yürüş edərkən düşmənlərin təzyiqi altında Tyukovka kəndinə çəkilmişlərdir. Bu dairədə qızğın müharibə davam edir.

İyul ayının 11-də bizim alaylarımız Alfyorovka kəndi ilə Novoxopyorsk şəhərini işğal etmişlərdir. Talovaya mövqifindən Buturlin[ovka] üzərinə düşmənlərin yürüşü davam edir.

**Bolşeviklərin məlumatı**

- Olonetsk - Olonetsk uçastokunda dabravollar fin sərhədinədək qovulmuşlardır. Fərarilərin sözünə görə, fin dabravollarının əksəri cəbhəni buraxıb evlərinə qayıdırlar.

- Kiyev - Kobulyats qəzasının kəndçiləri qərar qoymuşlardır ki, bilatəxir [dərhal] ümumi səfərbərlik elan edilib Denikin ordusu ilə müharibə etsinlər.

- Londondan verilən xəbərlərə görə, Əyanlar [Lordlar] Palatası müttəhidül-rəy [yekdilliklə] sülh müahidənaməsi [sazişi], İngiltərə ilə Fransa arasında əqd edilən müahidənaməni təsdiq etmişdir.

Moskva – Luj[ski] səmtində, Pskov dairəsində, Luqanın 50 verstliyində bizim qitəatımız yeni səngərlər işğal etmişlərdir. Pskov dairəsində düşmənlərin təzyiqi ilə Pskovun şərq hissəsinə çəkiliriz.

Moloduxi səmtində Radoşkoviçi yanında bizim hissələr düşmənləri dəf etmişlərdir. Kovel səmtində Sartın 20 verstliyində bir neçə kəndlər işğal etmişlərdir. Proskurov Jimerin[ski] hissəsində Kamurokçini işğal eylədik. Moqilyov-Podolski səmtində Vapnyarkanı işğal eylədik.

Çernomor [Qara dəniz] kənarında Fransanın hərbi gəmiləri Oçakovu atəşə tutmuşlardır. Cənub cəbhədə Poltava-Xarkov səmtində Xarkovun 80 verstliyində vaqe İskrovkadan ötrü müharibə gedir.

Valuysk səmtində Novı Oskolun 20 verstliyində yeni səngərlər işğal eylədik. Novoxopyorsk-Boriseqlebsk səmtində bizim hissələr Alfyorovkanı işğal eylədik. Volqa nəhrinin Ural kənarında səhra partizan ştabını tövqif [həbs] eyləmişik. Bu ştab 30 nəfərdən ibarətdir. Çarev səmtində düşmənlərin cümləsi dəf edilmiş-

dir. Ural səmtində bizim yürüşümüz davam edir.

Yekaterinodar - Fransız qəzetələrinin dediyinə görə, Almaniyada cahangirlik [imperializm] ölməmişdir. Orada "Mülki müdafiə" namında bir müəssisə təşkil edilmişdir. Bu müəssisənin planına görə hər bir kənd, qəsəbə və şəhər mülki və milli qoşun verir. Bunların miqdarını da naçalnik təyin edir. Böyük kənd dəstələri yüngül və ağır toplar alırlar. Toplarla bərabər 3 min top gülləsi] və hər tüfəngə də 500 patron verilir. Hərbi idarələr və komandanlıq istər müharibə zamanında, istər məşqdə köhnə alman afiserlərinə verilir. Bundan görünür ki, Almaniya Hökuməti siyasi asudəliyi müdafiə etmək bəhanəsi ilə cahangirlik planı və müharibə hazırlığı görür. Müttəfiqlərin notasına baxmayaraq, Almaniya Polşa və Çex-Slovak cümhuriyyətləri üzərinə həmlə hazırlayır. Berlində açıq-açığına dabravollar [könüllülər] hazırlanır və bunlar şərq cəbhəsinə sövq edilir.

- Bolşevik qəzetələrinin yazdığına görə Trotski istefa vermişdir.

## SÜLH ƏTRAFINDA

Amsterdam - Kayzeri-məxlunun [taxtan salınmış kayzerin] təslimini Müttəfiqlər Hollandadan tələb etməyəcəkdirlər. Yalnız Cəmiyyəti-Əqvam namından [Millətlər Cəmiyyəti adından] Hollandadan təvəqqe edəcəklər ki, Vilhelmə bildirsin ki, o, Beynəlmiləl Məhkəmə qarşısında durmalı, yaxud Hollandadan çıxmalıdır. Hollanda Cəmiyyəti-Əqvam üzvü olduğu üçün bu təvəqqeni rədd etməyəcəkdir. Beynəlmiləl qanunlara dara [vaqif] olan bir fransız demişdir ki, kayzer Vilhelm mənəvi əsasları pozması ilə ittiham ediləcəkdir. Kayzeri edam etmək, yaxud həbsə almaq olmayacaqdır. Fəqət Belçikanın bitərəfliyini pozması və böyləliklə müharibəni başlaması ciddi surətdə müzakirə ediləcəkdir. Hohensollern nəsli qətiyyən taxtdan məhrum ediləcəkdir, tainki Vilhelm dünyaya bir dəxi xətrə [təhlükə] təşkil edəmməyəcəkdir. Vilhelm üçün xüsusi bir yer təyin ediləcəkdir ki, orada yaşasın. Oradan çıxmasına müsaidə verilməyəcəkdir.

London - Avam Kamerasında Lloyd Corc bəyan eyləmişdir ki, imperator Vilhelm Londonda mühakimə ediləcəkdir.

## QƏZETƏLƏRDƏN

**Çeçen qəzetəsi**

Yaxın bir zamanda Qroznıda çeçen qəzetəsi nəşr ediləcəkdir. Qəzetə rus, çeçen və kumık dilində çıxacaqdır.

- Fin boğazında ingilis torpedosu tərəfindən bolşeviklərin "Andrey Pervozvannı" namında gəmisi qərq edilmişdir.

- İstanbulda alınmış olan məlumata görə, admiral Kolçak ordusu Kama nəhri boyunda bolşeviklərə böyük qələbə çalmışdır. 4 bolşevik alayı məhv edilmişdir. 600 nəfər əsir və bir çox qənimət alınmışdır. Şimaldan Kazan dəmiryolu ilə təzə qoşunlar gəlir.

- "Tayms" qəzetəsi yazır: Finlanda Hökuməti tərəfindən alınmış olan səhih

xəbərlərə görə, Petroqrad cəbhəsində külli nemes saldatları və afiserləri vardır.

**Qriqoryev qətl edilmiş**

Romanya “Press büro”su yazır ki, Ataman Qriqoryev Odessada bolşeviklər tərəfindən qətl edilmişdir.

**35 min rublə**

Tersk idarəsi qərar qoymuşdur ki, hər bir qətl edilən kazak üçün inquşlar 35 min rublə verməlidirlər.

**Müttəfiqlər və bolşeviklər**

Fransızlar bolşevik Rusiya Hökuməti əleyhinə müharibə hərəkatı davam etdirilməsi tərəfdarıdırlar. İngilislər aşkar deyirlər ki, iş Vilsondan asılıdır. Amerika heyəti izhar edir ki, bundan belə Rusiya işlərinə müdaxilə etmək Amerika tərəfindən təsvib edilməyəcəkdir [bəyənilməyəcək, təsdiq edilməyəcək]. Bununla belə, Amerika bolşevik hökuməti düşmənlərinə maddi müavinət edə bilər.

**Abluka**

Onlar Şurası qət etmişdir ki, hökumət Bela Kunun əlində olana qədər Macarıstan ablukası [blokadası] davam etdirilsin.

**İş müddətinin artırılması**

Müttəfiqlər tərəfindən tələb edilən vəzifələri tezliklə ifa etməkdən ötrü Almaniya Hökuməti Fəhlə İttifaqına təklif etmişdir ki, bundan belə 8 saat əvəzinə fəhlələr 10 saat işləsin. İki saatın haqqı hökumət tərəfindən veriləcəkdir.

**Kim müqəssirdir**

Hindenburq, Betman-Holveq və Lüdendorf rəsmi surətdə izhar etmişlər ki, onlar müharibənin hər bir məsuliyyətini Vilhelm üzərindən götürüb öz öhdələrinə alırlar.

**Böyük Romaniya**

Romaniya Hökuməti Böyük Romaniya xəritəsi təb [çap] etdirmişdir. Bu xəritədə Bessarabiya, Bukovina, Transilvaniya, Banata və Dobruca Romaniyaya daxil edilirlər. Bessarabiyanın nəinki rus əhalisi, hətta moldavlar da romaniyalılara mənfi surətdə baxırlar.

**Avstriyanın verəcəyi**

- Avstriya Hökuməti 1921-ci ildən başlayaraq 30 illik müddətinə qədər təzminati-hərbiyyə [müharibə təzminatı] verməlidir. Gəmilər hamısı tamamilə Müttəfiqlərə verilir.

- Çexlər və Cənubi slavlar Avstriya borcunu ödəməkdən ötrü milyon yarım frank qızıl verməlidirlər. Bunun çox hissəsi çexlər üzərinə düşür.

**Kamışin altında**

Dubovkadan gələn və Tsaritsının alınmasını görən bir nəfər Kamışin altındakı əhvalı böylə təsvir edir:

Tsaritsın bu səbəblərə görə işğal edilmişdir: Bolşeviklərin piyada əsgərləri arasında pərişanlıq var. Hər bir ciddi müharibə əsnasında bolşevik əsgərləri geri çəkilirlər. Tsaritsında da böylə olmuşdur. Bolşevik əsgərlərini tanklar qorxudurlar. Tsaritsın cəbhəsində 3 tank iştirak edirmiş. Tsaritsında müdafiə işlərini idarə edən Filatov və Adamsk[i] dabravol əkskəşfiyyatçı xidmətində imişlər.

Kamışinə üç tərəfdən hücum edilir.

Yəqin ki, indiyə qədər Kamışin alınmışdır. Hacı-Tərxana gəldikdə, Hacı-Tərxan dabrovollar tərəfindən alınmışdır.

**Petrovskdan kömək**

Neçə gün bundan irəli Petrovskdan Quryevə iki paroxod mühimmati-hərbiyyə [hərbi ləvazimat] və bir neçə İngiltərə hidroplanı göndərilmişdir.

- Son məlumata nəzərən Petroqradda vəziyyət çox müşküldür. Şəhər təxliyə edilir. Trotski əmr vermişdir ki, təslim olmadan əvvəl Kronştadt qalası partladılsın. Bundan əlavə, bütün dəmiryol körpüləri dağıdılmalıdır. Fin ərkani-hərb [qərargah] idarəsi bəyan edir ki, iyunun 29-da 7 ədəd bolşevik gəmiləri Olenetsdə ştabı bombardman etmişlərdir. 14 ədəd bolşevik gəmiləri bombardmanda iştirak etmişlərdir. Sahildən atılan topla bir gəmi qərq edilmişdir. Quruda müharibə davam edir. Fin mətbuatı xəbər verir ki, 25 min nəfərdən ibarət ordu fin sərhədindədir.

## TÜRKİYƏDƏ

**İzmir hadisələri**

"İstiqlal" qəzetəsinin verdiyi məlumata görə, Türkiyə Hökuməti Akhisar şəhərinin yunan əsgərləri tərəfindən təxliyə edilməsi haqqında rəsmi xəbər almışdır. Ödəmiş və Aydın şəhərlərinin də yunanlılar tərəfindən tərk edildiyi haqqında şayiələr dövran edir.

**Yunan Baş Komandanı**

Neçə vaxt əqdəm [qabaq] İzmirə getmiş olan yunan əsgərləri Baş komandanı general Paraskevopulos Səlanikə [Salonikiyə] qayıtmışdır.

**Yunan əsgərlərinin tələfatı**

Parisdən İstanbul qəzetələrinə xəbər veirlər ki, fransız Palatasının üzvü Marenin tutduğu siyahıya görə, türklərlə olan axırıncı toqquşmada yunan əsgərlərinin tələfatı 12 min 800 nəfər, bir tək öləndən ibarətdir. Yaralıların miqdarı və siyahısı bu yaxınlarda yazılıb aşkar ediləcəkdir.

**Çətəçilərdən şikayət**

İzmir, Aclıq, Aydın və Suk mitropolitləri Vilsona, Lloyd Corca, Klemansoya, Venizelosa müraciətlə yunan əhalisi əleyhinə ümumən, əsgərlər əleyhinə isə xüsusən əməliyyatda bulunan türk çətəçilərindən şikayət etmişlərdir. Həmin çətəçilərin əməliyyatı bu axır vaxt geniş bir dairə alıb, məzkur [deyilən] rayonlarda olan bütün yunan əhalisini təhdid edir.

**Tibbiyyələr**

Səhhəti-ümumiyyə naziri əmr vermişdir ki, Türkiyə Tibb Darülfününuna Türkiyə qadınları da qəbul edilsinlər.

**Fərid Paşa və ittihadçılar**

Klemansonun məktubunu aldıqdan sonra [Damad] Fərid paşa teleqrafla Parisdən İstanbula xəbər vermişdir ki, ittihadçılar əleyhində tezliklə ən şiddətli tədbirlər ittixaz edilib [tədbirlər görülüb], hərc-mərclik içində olan vilayətlər mühasireyi-əsgəriyyə altında elan edilsin.

**İstanbul mətbuatı daşnaklar haqqında**

İstanbulda olan erməni mətbuatı

müttəhid Ermənistan istiqlaliyyəti əqdi elan edildiyi münasibətilə daşnaklar əleyhinə yazmağa başlamışdır. Mətbuat daşnakları, gələcək Ermənistanı daşnaklaşdırmaq və Poqos Nubar paşa yerinə daşnak qoymaqda müttəhim edir.

## İRANDA

**Mazandaran əhalisinin tərksilah edilməsi**

"Rə'd" qəzetəsinin yazdığına görə, İran Hökumətinin əmri ilə Mazandaran və ətrafında olan əhalinin tərksilah edilməsinə başlanmışdır. Mazandaran qitəsində [bölgəsində] olan hamı şəhər əhalisi tərksilah ediləcəkdir. Bu münasibətlə Barforuşa hökumət 400 nəfər kazak göndərmişdir. Digər bir dəstənin vürudu [gəlməsi] gözlənir və dəstənin başında rus polkovniki durur.

Məşhədsər ilə Saridə dəxi əhali tərksilah edilir. Mazandaran general-qubernatorunun əmri ilə bir neçə şəhərlərdə idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi rejim] elan edilmişdir. Böyləliklə, saat 8-dən sonra əhalinin dişarı çıxmasına müsaidə edilməyir.

**Xorasan sərhədində**

Türküstan bolşevikləri ilə İran Hökumətinin əlaqəsi fənalaşdığından Xorasan qubernatoruna əmr verilmişdir ki, Türküstan sərhədinə Bacgirana bir qədər İran qoşunları göndərilsin. Qubernator bu günlərdə Hacı Rza xanın təhti-idarəsində [rəhbərliyi altında] məhəlli-məzkura [adı çəkilən yerə] 500 nəfər sərbaz [əsgər] göndərmişdir. Hələlik bolşeviklər İranı hədələməyirlər.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Azərbaycan dəmiryollarına avans təriqi [yolu] ilə xidmətçilər üçün taxıl almaq üçün 6 milyon manat verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyonluq fonddan Türüq və Məabir Nəzarətinə 2 milyon manat buraxılsın. Fəqət hər ay məbləğin bir hissəsi qaytarılmalıdır.

- Maliyyə nazirinin Dövləti Vergi qanununun 45 və 46-cı maddələri mövcibincə [maddələrinə əsasən] gəlir miqdarının artması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Dövləti kontrolun Nəzarətlərin əcnəbi valyutası alması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nəzarətlərə tapşırılsın ki, əcnəbi valyutası lazım olduqda, Maliyyə Nəzarətinə müraciətdə bulunsunlar.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Batumda qalmış azərbaycanlıların vətənlərinə qayıtması üçün para buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə Batum general-qubernatoruna verilmək üçün 20

min manat buraxılsın.

- Maliyyə nazirinin Nəsir Hacı Məhəmməd oğlu Tağıyevin Maliyyə Nəzarəti cənbindəki [nəzdindəki] İstiqraz şöbəsi xırda əmanət müfəttişi və Dövləti Əmanət Sandıqları [Dövlət Əmanət Kassaları] müdirliyinə təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Müşarünileyh [haqqında danışılan şəxs] təyin edilsin.

- Ümuri-Xeyriyyə və Nafiə nazirinin Mavərayi-Bəhri-Xəzərdəki [Zakaspiyskdəki] [Azərbaycan] təbəələrinə müavinət üçün para təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Xariciyyə Nəzarətinə 20 milyonluq fonddan 75 min manat buraxılsın. Qızıl-Arvadda iaşə məntəqəsi təsisi üçün 50 pud un buraxılmaqla, Tazəşəhərdə açılmış yeməkxana və yataqxana üçün məxaricat verilsin.

- Məsai [Əmək] nazirinin müfəttişlik məxaricatı üçün məbləğ təxsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Avqustun 1-dən işbu sənənin axırınadək 20 milyonluq fonddan Məsai Nəzarətinə müfəttişlik məxaricatı üçün hər ay smetanın 12-dən bir hissəsi miqdarında istiqraz açılsın. Müfəttişlik xidmətçiləri siyahısı məsələsi Kiçik Şuraya verilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Məsai Nəzarəti [Əmək Nazirliyi] Ticarət və Sənaye Nəzarətinə Gədəbəy zavodu fəhlələri müvəkkillərinin təliqəsini [rəsmi müraciətini] göndərərək rica etmişdir ki, onlara Hacıqabul mövqifindən [stansiyasından] on min pud taxıl aparılmasına izin verilsin. Zira, o ətrafdakı möhtəkir və qaçaqçılar taxılı gizli olaraq Ermənistana aparmalarından naşi [apardıqlarına görə], taxılın qiyməti bahalaşmışdır.

- Morvanov nam [adlı] bir tacir Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, məvaciblərin artmasından naşi [artması səbəbindən] kəndi emalatxanasını, müəssisəsini qapatmaq məcburiyyətindədir. Zira, fəhlələrə verməyə belə para yoxdur. Tacir rica etmişdir ki, məvacib vermək üçün Sənaye və Ticarət Nəzarətindən ona İrana 5 min pud dəmir aparmağa icazə verilməsi haqqında Məsai Nəzarəti təşəbbüsatda bulunsun.

- Məsai Nəzarəti Maliyyə Nəzarətindən rica etmişdir ki, fəhlələrin ciddi əhvalından naşi gəlir vergisi alınmasında fəhlələrə müyəssər olduqca güzəştdə bulunsun.

- Şimali Qafqaziyadan müxəlləfat [ev əşyası] və fəllahət-ziraət [kənd təsərrüfatı] alətləri ilə kəndi yerləri Qars nahiyəsinə qayıtmaqda olub Samur mövqifində saxlanılan köylülər Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti nəzdində Azərbaycandan buraxılmaları haqqında təşəbbüsatda bulunmuşdular. Hökumət icazə vermişdir.

- Göyçay qəza qaimməqamı [qəza rəisi] [Lütfəli bəy] Zülqədərovun qaçqınlar üçün ianə toplamaqda çalışmasından dolayı Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti kəndisinə izhari-təşəkkürlə, Daxiliyyə Nəzarətinə də bu barədə məlumat verilmişdir.

- Bakıdan vəzifəsi ifası üçün əzimət etmiş [getmiş] Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Dəftərxanası müdiri qüvvətiylə

Fiskinin vəzifəsi müvəqqəti olaraq həman Dəftərxana müdiri müavini Ştamma mühəvvəl edilmişdir [tapşırılmışdır].

## AZDIR

**- 3 -**

Ağdam – Şuşa-Yevlax, Yevlax-Cəbrayıl, Şuşa-Cavanşir və Yevlax-Gorus şose yollarının ortasında şose yollar düyümü təşkil edən, layihəsi tərtib verilib də torpaq işləri tamamilə görülmüş, fəqət övzayi-hərbiyyədən [müharibə vəziyyətindən] dolayı inşası təxirə düşüb də şimdi övzayi-siyasiyyə təqazası [siyasi vəziyyətin tələbi] ilə mütləqa xəttini dəyişməli olan Yevlax-Şuşa dəmiryolunun üstündə vaqe bir mərkəzdir.

Zəngəzur dağlarından Muğan səhrasına, Kür qırağınadək böyük bir məsafənin taxıl, pambıq və sair əkin məhsulunun ümdə bazarı Ağdamdır. Ümum vilayətlərdən Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına gələn əttariyyə [ətriyyat və ədviyyat], xərəzi [xırdavat], bəzzaziyyə [manufaktura, parça] və sairə kimi fabrik malları, ziraət alatı [alətləri], makina və qeyrə kimi zavod məmulları həp Ağdam təriqi [yolu] ilə gedir.

Dörd qəzadan ibarət olan Qarabağ mahalının birinci mərkəzini təşkil edən Şuşa şəhəri ilə ancaq Ağdam rəqabət edir. Həm də o dərəcə rəqabət edir ki, müharibədən qabaq Şuşa camaatı Ağdamın bunca tərəqqisindən qorxuya düşərək mərkəzin oraya keçəcəyindən ehtiyat edirlərdi. O dərəcə rəqabət edir ki, Şuşanın bir çox taciri şəhərdən köçüb orada alış-veriş edirlər. Öylə rəqabət edir ki, oktyabr ayında yeni məktəblər açılması təsəvvür edildiyi zaman darülmüəlliminlərdən [pedaqoji seminariyalardan] birisinin də Şuşa əvəzinə Ağdamda açılması təsəvvür olunurdu.

Köhnə naqis statistikanın verdiyi qeyri-mükəmməl məlumata görə, ildə Ağdam təriqi ilə bir milyona qədər fabrika, zavod məmulatı gedirdi. Taxıl, meyvə, pambıq, yemiş, biyan, düyü və sairə kimi əkin məhsulatına gəlincə, Ağdam dörd qəzanın yeganə mərkəzidir. Şuşa şəhərinə lazım olan ərzaq şeyləri Ağdamdan alınır. Əsgərandan Ordubada, Araz yaxa Tərtərədək neçə yüz kəndin alış-verişi Ağdam iləәdir. Sair şəhərlərdən gələn mal yenə Ağdamdan keçir. Bu surətlə bir vilayətin ticarət mərkəzi Ağdamdır.

Ağdam 1918 sənəsinədək bir kənd, daha sonra bir qəsəbəçə hesab olunurdu. Son zamanlar Ağdam öylə sürətlə tərəqqi edirdi ki, Nikolay dövründə Şuşa-Yevlax dəmiryolu inşası əsnasında bu yol dəxi Ağdamdan keçsə, o halda Ağdam bütün ətrafı öldürər deyə qəsdən yolu kənardan çəkmək istədilər (çünki yolu çəkdirən erməni idi. Ona görə, mərkəzi dağətəyi erməni kəndlərinə çəkmək istəyirdi).

1918 sənəsi iyun ayında istiqlala doğru birinci addımlar atarkən, Ağdamda ilk dəfə türk-islam hökumət müəssisələri yaradılarkən, Ağdam "bəldə" elan edildi. Qlasnılar, Bələdiyyə rəisi və sairə təyin edildi. "Ağdam bələdiyyə idarəsi" yazılı möhür hazırlandı. Xülasə, bir şəhər idarəsi quruldu. Məşhədi Dadaş oğlu Məşhədi Cəfər (Çəmənli) Bələdiyyə rəisi təyin edildi.

Səhv etməyirsəm, hazırkı Ağdam məbusu [millət vəkili] Əliverdiyev Qara bəy əfəndi dəxi orada qlasnı təyin edilmişdi. Bu surətlə həyatda çoxdan bəri şəhər halı almış olan Ağdam artıq rəsmi surətdə də şəhər həyatı ilə yaşamağa başladı. Əvət, Ağdam şəhər idi. Şəhər olmağa müstəhəqdir [layiqdir].

Aradan bir il keçdi. Azərbaycan Məclisi-Məbusanında şəhər seçkiləri haqqında bir layiheyi-qanuniyyə müzakirə və qəbul edildi. O layihədə Ağdaş ilə Zaqatalanın da şəhər elan edilməsi təklif və qəbul olundu. Qazax məbusu Qazaxın şəhər elan olunmamasına etirazla oranın da şəhərlər sırasına salınmasını tələb etdi. Şübhəsiz ki, təklifi qəbula keçdi. Qazax şəhər oldu. 20 qlasnı qərar verildi.

Lakin Qarabağ məbusları ağızlarına su aldılar. Xüsusən, hamıdan ziyadə mənfəətdar, hətta borclu olan Ağdam məbusu Qara bəy nə qədər gözlədik səsini çıxarmadı. Biz nə eşitdik, nə də qəzetədə oxuduq. Bəlkə o gün Qara bəy orada yoxmuş. Qarabağ məbuslarının heç biri orada deyilmiş. Əgər orada yoxmuşlarsa, daha pis. Saniyən [ikincisi] də, qanun layihəsi, zənnimizcə, nagəhani bir şey deyil ki, bir gün orada olmamaqla iş bitib getsin. Layihə, əvvəla, komissiyada tərtib verilir. Sonra nəzarətə [nazirliyə] təqdim olunur. Bədəhu [sonra], orada təsvib edildikdən [bəyənildikdən] sonra Parlamana göndərilir.

Parlaman onuLəvayehi-Qanuniyyə [Qanun Layihələri] Komissiyasına göndərir. Sonra Parlamanın ümumi iclasına gəlir. Orada üç dəfə qiraət olunur.

Görülür ki, bir qanunun yazılması ilə təsdiq edilməsi arasında nə qədər vaxt keçir, nə qədər idarə və müəssisə gəzir. Əgər Qarabağ məbusları, xüsusən Ağdam məbusu əfəndi bunun heç birindən xəbərdar olmadığını üzr gətirsə, üzr betər əzgünah [üzrü günahından betər]!

Əks surətdə, əgər bu qanundan xəbərli oldusa, nə üçün Ağdamın adını bir dəfə çəkmədilər, səslərini bir dəfə çıxarmadılar? Ağdamı əhəmiyyətsizmi sayırlar? Öylə isə nəyin əhəmiyyəti varmış?

Ağdamın şəhər olmasında bütün dörd qəzadan ibarət Qarabağ əhalisi mənfəətdardır. Binaənileyh [ona görə], Qarabağ tərəfindən seçilmiş ya firqə siyahısı ilə keçmiş olan Qarabağ məbuslarının, xüsusən Ağdam məbusu Əliverdiyev Qara bəy əfəndinin vəzifəsi idi bu xüsusda çalışsın. Amma çifayda [nə xeyri; təəssüf ki]. Odur ki, biz deyirik məbuslarımızın fəaliyyəti azdır!

*Qarabağlı*

## MİLİS NƏFƏRATI VƏ FİRQƏBAZLIQ

Azərbaycan kimi azadə məmləkətlərin daxilində dini və siyasi partiyaların zühur və davamına heç bir mümaniət [maneçilik] göstərilməz. Lakin bu partiyaların müridləri [tərəfdarları] hökumət dairələrində ənvai [müxtəlif] məmurluğa dəvət olunduqları halda, vəzifələri ilə bərabər xüsusi məsləklərini də icra və yürütməyə haqları yoxdur. Məmur hankı vəzifəni daşıyırsa daşısın, hankı rütbədə bulunursa bulunsun, qabaqca məmurdur. Məmləkətin xadimi, hökumətin tə-

rəfdarıdır. Binaənileyh [ona görə], məmur vəzifə başına qonduğu halda səhər xanəsindən çıxarkən partiya etiqadını qapısı ağzında basdırıb məmurluğuna şüru etməlidir [başlamalıdır]. Əhali ilə özünəməxsus məsləki nöqteyi-nəzərlə heç bir müamilə yapa [rəftar edə] bilməz. Bəlkə, hər nə yapmalı olarsa, hamısı hökumətin qəbul etdiyi əsas qanunlarına mütabiq [uyğun] olacaqdır. Məmurluq işlərindən fariğ [azad] olan kimi yenə hər kəs nə işə məşğul olur-olsun, hankı məsləkə sitayiş edir etsin, buna heç kəsin sözü olammaz. Fəqət, vəzifədən kənar və məmurluqdan asudə vaxtlarda ancaq böyləcə rəftar etmək caizdir.

Ələlxüsus, öylə məmurluqlar vardır ki, politikaçılığı əsla və qət'a [qətiyyən] çəkəmməzlər. Bunlardan birisi əsgərlik və birisi də polis məmurluğudur. Birinciləri vətənin xarici və ikinciləri də daxili müdafiəsi üçün yaradılmışlar. Binaənileyh, bunların politika ilə heç bir rə'fü rücuları [qalxıb-düşmələri, oturub-durmaları] olmasın gərək.

Qoşun hissələrindən paytaxtımıza daxil olan günləri yazmışdıq ki, əsgər libasını daşıyan şəxslərin əsgərlikdən başqa sair vəzifələri ola bilməz. Binaənileyh, əsgər qışlada [kazarmada], küçədə, bazarda, xülasə hər yerdə əsgərlikdən savayı heç bir məsələyə müdaxilə etməməlidir ki, əsgərlik şərəf və ehtiramını qaib etməsin. Qışlalar politika meydanı deyil ki, hər mübəlliğ [təbliğatçı] üçün oraya yol verilsin. Bu gün həman məsələyə yenə müraciət edirik. Səbəbi isə bəzi əsgərlər və polis nəfəratı [nəfərləri] tərəfindən şəhərin bir neçə cəhətində çadralı türk qadınlarının hüququna qarşı bəzi narəva [xoşagəlməz] hərəkətlər və təcavüzlər olmuşdur.

"Azərbaycan"ın sabiq nömrələrinin birisində mündəric [dərc olunmuş] "Kimin əmri ilə və nə üçün?" ünvanlı məqalədən məlum olur ki, Bakıda "Təəssüb" adlı bir firqə icad olunmuşdur. Bu firqənin ümdə məsləki "zorla olsa da, arvadları bulvara qoymamaq"dır. Milis nəfəratı bu firqəyə üzv yazılaraq çadralı xanımların bulvara daxil olmaqlarına mümaniət göstərirlərmiş!

Etiqadımız bunadır ki, qubernatorun və qalabəyinin [komendantın] bu firqədən xəbərləri yoxdur. Müəssisləri [təsisçiləri] isə tamamən kənar adamlar olaraq milis nəfəratını da öz tərəflərinə cəlb etmişlərdir. Bu fəqərədə [məsələdə] neçə şey diqqətimizi cəlb edə bilmişdir:

1. Dübarə, səbarə [ikinci dəfə, üçüncü dəfə] təkrar edirəm ki, polis nəfəratı şəhər küçələrində əhalinin nizam və asayişinə baxmaqdan başqa sair məsələlərə və ələlxüsus firqə işlərinə müdaxilə edə bilməzlər.

2. Madam ki, qubernator və qalabəyidən izin hasil edilməmişdir, milis nəfəratının da bu kimi firqələrə daxil olmaq haqları yoxdur.

3. Bir vaxt arvadların açıq gəzməyindən narazı qalan əfəndilər bu gün pərdeyi-ismətlərindən ayrılmayan xanımlara nə bəhanə tapıb, onları Allahın hava kimi nemətindən məhrum qılmaq istəyirlər?

4. Hürriyyətli bir məmləkətdə, istər arvad olsun, istər kişi, heç kəsin şəxsi hüququna təcavüz ediləmməz. Binaənileyh "təəssübçülər" nə haqla ağalıq etmək istəyirlər? Bu arvadların təfərrüc-

gahlara [gəzinti yerlərinə] getmək üçün sahibləri izn verirlərsə, sairləri nə ixtiyarla bunların işlərinə qarışırlar?

5. Qamçı zoru ilə əhalinin haqqını qəsb etmək mümkün olsaydı, nikolayların taxt və tacları böylə tezliklə tarümar olmazdı. Təcrübə göstərir ki, haqq sözü camaat kamali-şövq və zövqlə dinlədiyi halda, batil sözü hətta top-tüfənglə də qəbul etməmişlər.

6. Bir firqə ki, Tanrının insanlara əta etdiyi abu-hava kimi nemətləri arvadlara şayəstə [layiq] və rəva görməyə, kişi ilə arvadın müsaviyyül-hüquq [bərabərhüquqlu] olmasına çalışarmı?

7. Bulvarın saf havasından bu isti vaxtlarda istifadə etmək qəbih [pis, qəbahətli] bir hərəkətdirsə, bəs nə üçün "Təəssüb" firqəsinin əzaları [üzvləri] hamıdan çox bulvarda gəzirlər? Hələ, Allah bilir ki, nə kimi hərəkətlər də törədirlər. Barı təfərrücgahlarda özlərinin nəzakətlərinə artıq diqqət edəydilər ki, təsadüfən kənardan müsəlman arvadları bunlara rast gəldikləri halda xəcalət çəkməyəydilər.

8. Sərxoş ingilislər tərəfindən müsəlman arvadlarına yapılan təcavüzlərə qarşı (hərgah olmuşsa) bu ağalar hankı şikayətləri etdilər, hankı etirazlarda bulundular? Burada müsəlman arvadının günahı nədir? Bir günah varsa, o da biz kişilərdədir ki, kənardan gözlənilən təcavüzlərə qarşı biçarələri müdafiəyə hazırlaşmamışıq.

"Xoxo gəldi, qaç!" tərbiyəsi ilə tərbiyələnən qadınlar, əlbəttə ki, özlərini hətta aciz sərxoşlardan da müdafiə edəməzlər. İndi bir qədər mülahizə olunsun ki, hərgah sabah darülfünun [universitet] açılar, bu çadralı qadınlar neçə yüz tələbə hazır edə bilmişlər? Gimnaziyalar xaricilərin əllərində olduğu kimi, darülfünunumuz damı özgələrə qismət olacaqdır? Böylə mühüm məsələlərin həllinə çalışmalıdır. Yoxsa, arvadların təfərrücgahlarda bulunmasından hələ qeyrətə rəxnə [ziyan] toxunmaz.

Milis nəfəratının hərəkatına gəldikdə, ümidvaram ki, bunların vəzifəsini rəisləri layiqincə anlatsınlar. Daha gözəl olardı ki, bunların düsturül-əməlləri [təlimatnamələri] risalələrdə çap olunaydı və bu risalələri milislər həmişə ciblərində gəzdirərək bunlardan başqalarına əməl etməyib, əhalinin siyasi və ictimai işlərinə də qarışmayaydılar. Bilxassə, arvadların çadralı bulvara getmələri ilə atası evinə getmələrinin fərqi yoxdur. Əgər, ümumiyyətlə, arvadın evdən çıxması caiz deyilsə, o halda yenə milislər, "təəssübçülər" deyil, şeyxülislam və müftiyə aid məsələdir.

*Fərhad Ağazadə*

## YUSİF VƏZİROVUN MƏRUZƏSİ

*(mabəd)*

Krımda bir Müdiriyyət təşkil edildi. Müdiriyyət ibarət idi bir baş müdirdən, Ədliyyə, Maarif, Xariciyyə, Mövqufat [vəqflər, vəqf edilmiş mal-mülk], Ədyan [dinlər] kimi 5 müdirlərdən ki, hərəsi müstəqil öz idarələrini dolandırmaqda idilər. Bu müdirlər 300 minə baliğ olan [çatan] Krım türklərini idarə edirdilər. Bununla bəra-

bər, Krımın bir də Məclisi-Məbusanı var idi.

Krım Müdiriyyəti maddi cəhətdən təmin idi. Zira, Krımda mövqufat adı ilə millətin böyük bir sərvəti var ki, onunla bütün Krım türklərinin mədəni və ictimai işlərini idarə etmək olar. Krımın 89 min desyatinlik bir mövqufatı var ki, bu böyüklükdə yer tamamən abad olub, onda böyük məhsuldar bağlar və binalar vardır.

Krımlılar kəndilərinin nüfusca [sayca] azlıqlarını nəzərə almayaraq, köhnə Tatar xanlığını təşkil etmək fikrinə düşdülər. Hər yerdə olduğu kimi, qeyri-müsəlman ünsürlər bunun əleyhində idilər. Hələ Krımda – ki əksəriyyət orada müsəlmanlarda və tatarlarda deyil – krımlılar istəyirdilər ki, Osmanlı şahzadələrindən birisini özlərinə xan təyin etsinlər. O zamanlar Krımda bulunan almanlar da buna müvafiqət etdiyindən [razılaşdığından], qeyri-müsəlmanlar açıqdan-açığa müsəlmanlarla ədavətə başladılar. Krımlılar bu fikirləri ilə bütün Krımda məskun olanları öz əleyhlərinə qaldırdılar. Halbuki, tatarlar xanlıq təşkil etmək qüvvəsində deyillər.

Krımlılar bizim qan qardaşlarımızıdr. Onların səadəti bizim səadətimiz, fəlakəti bizim fəlakətimizdir. Biz hər xüsusda krımlı qardaşlarımızı hürr və sərbəst görmək istəyiriz. Lakin burasını da etiraf etməlidir ki, Krımın qüvvəsi qayət azdır. 150 sənədir ki, onlar Rusiya hakimiyyətinə keçmişlər. Bu müddətdə onlar Rusiya mədəniyyətindən layiqincə istifadə edə bilməmişlər. Krımda yalnız bir nəfər mühəndis, iki nəfər hüquqşünas və beş nəfər doktor vardır ki, müstəqillən [müstəqil olaraq] yaşamaq istəyən bir millət üçün bu, qayət az bir şeydir. Milləti və ümuri-məmləkəti [dövlət işlərini] idarə etmək üçün Yevropa elmləri ilə mücəhhəz [təchiz olunmuş] ziyalılar lazımdır. Orta sinif, bir millətin müqəddəratını kəndi əlinə alıb idarə etmək səlahiyyətində deyildir. İdarə üçün çoxlu qüvvələr lazımdır ki, məəttəəssüf [təəssüf ki], Krımda bu yoxdur. Bunun üçün onlara söylədim: məqsədim hər xüsusda sizə müavinət etməkdir. Lakin, sizdə qüvvə yoxdur. Xanlıq fikrini təqib etməklə, yalnız siz başqalarını öz əleyhinizə qaldırarsınız.

Bir də İsmayıl bəy Qasprinski vətənini siz öylə təsəvvür etməyiniz ki, mədəni bir ölkədir. Bununla bərabər İsmayıl bəyin işdə, dildə, fikirdə birlik şüarı Krımda kəndisinə hazırkı halda bir çox tərəfdarlar deyil, əleyhdarlar qazanmışdır. Demək olar ki, bütün Krım tatarları İsmayıl bəyin əleyhinədir. Onlar deyirlər ki, İsmayıl bəy doğrudan-doğruya krımlıların fikrini azdırdı. O, Turan fikrini təqib etməklə, nəinki krımlıları Turanla birləşdirə bildi, bəlkə onları tatarlıqdan da uzaqlaşdırdı. Bunun üçün "Tərcüman" qəzetəsi qapanıb əvəzində "Millət" qəzetəsi çıxdı. Krımlılarda qızğın bir tatar cərəyanı var. Bu xüsusda onların bir çox yazıları və mənzumələri var. Bir şeirləri var ki, məəttəəssüf onu fəramuş etmişəm [unutmuşam]. Orada şair qayət həyəcanlı bir surətdə deyir: "Əgər məni cəhənnəmə də sürüyüb salsanız, mən yenə tataram".

Vaxtımız az olduğundan bu qədərə kifayət edirəm. Bir qədər də Denikin haqqında sizə məlumat vermək istəyirəm.

Almanların zamanında Denikinin qüvvəsi yoxdu. Krım Müdiriyyətində sabiq İstanbul səfiri Çarıkov da var idi. Bu, hər nə qədər Maarif vəziri idi isə də, lakin tamamilə xarici siyasətlə məşğul idi. Çarıkov Sazonovun fikrinə qarşı bir fikir çıxarmışdı. Bu da, ədəmi-mərkəziyyət fikri idi. O, Rusiyanı ədəmi-mərkəziyyət üsulu ilə idarə etmək istəyirdi. Çünki sabiqdə Rusiyada yaşayan bütün qeyri-ruslar getgedə Rusiyadan ayrılmaqda və Rusiya ilə birləşmək istəməməkdə idilər. Çarıkov bunları yalnız ədəmi-mərkəziyyət üsulu ilə əski Rusiyanı ehya [bərpa] etmək fikrinə düşmüş idi. Bununla bərabər, Rusiyanın paytaxtını da Petroqraddan Kiyevə köçürmək fikrində idi. Bununla da tam şiddəti ilə Ukraynada qaynamaqda olan milliyyət fikrinin əleyhinə çıxmaq istəyirdi.

Alman vəkilləri ilə tatar vəkilləri buna etiraz etdilər. Çarıkov ən nəhayət Denikini dəvət eylədi. Denikin Krıma gəldikdə, şiddətli fəaliyyətə başladı. Onların fikri bu idi ki, hər zaman Rusiyaya sadiq qalan tatarlardan və müsəlmanlardan qüvvə toplayıb bir ordu təşkil etsinlər. Bu ordu vasitəsilə Rusiya inqilabına bir xatimə çəksinlər. Krımın əsilzadələri murzalar Denikinin ətrafına toplaşdılar. Tatarlardan əsgər cəm etmək istədilər. Bunun üçün bir qurultay dəvət edib onunla bütün Krımın fikrini bilmək xahişində bulundular.

Qurultay açıqdan-açığa Krım Müdiriyyətinə etimad etdiklərini, yalnız Müdiriyyətə inanıb onun qərarlarına əməl edəcəklərini bildirdi və əsgərlikdən imtina etdi. Bundan sonra Denikin qurultaylıların əleyhinə çalışmağa başladı.

Bu tarixdən başlayaraq şiddətlər və təzyiqlər icra edildi. Bu hərəkətlər, yalnız Krım tatarları əleyhinə deyil, bütün Rusiyada zühur edən milliyyət məhsullarının əleyhinə idi.

Denikin və onun başına toplaşanlarda yanlış bir zehniyyət vardı. Onlar Rusiyanın bütün inqilabını təsadüfi bir şey bilirdilər. Onun üçün də bunu yatırıb əski Rusiyanı bütün əzəmət və həşəməti ilə yenidən ehya etmək istəyirdilər. Qəribədir ki, bunu da hər kəsdən artıq Rusiyada milliyyət cəhətincə əzilib təzyiq edilməkdə olan tatarların və müsəlmanların əli ilə yapmaq istəyirdilər. Budur ki, bir müsəlman korpusu təşkili fikri doğdu.

***

Necə ki məlumunuzdur, inqilabın əvvəllərində hər yerdə əsgərlərin arasında təşkilatlar düzəlməyə başladı. Bununla bərabər, bir də milli polklar vücuda gəldi. Bu cümlədən olaraq Romaniya sərhədində bulunan tatar əsgərlərinin də arasında bir təşkilat əmələ gəlmişdi. Krım tatarları bundan istifadə etmək istəyirdi. Hətta o zaman Kiyev müsavatçıları istəyirdilər ki, bu əsgərlərin bir qismini Qafqaza göndərtsinlər. Sonra anlaşıldı ki, bu milli tatar polkunun bir də iç üzü varmış.

Bu təşkilatı məşhur Kaledin düzəldirmiş. Kaledinin fikri bu idi ki, bu əsgərlər vasitəsilə Rusiyanın cənubunda qaynamaqda olan milliyyət fikrinə ağır bir zərbə vursun. O zaman 600 nəfərədək rus zabiti Krıma toplanmışdı. Onların məqsədi bu idi ki, ibtida Krımdan əsgər toplasınlar. Sonra Şimali Qafqaz və Azərbaycandan əsgər cəm edib bolşeviklərlə müharibəyə başlasınlar.

Onlar deyirdilər ki, rus saldatının əxlaqı pozulmuş, bolşeviklik fikri onlara sirayət etmişdir. Budur ki, rus saldatlarına etibar etmək olmaz. Müsəlmanların isə sədaqətlərinə şübhələri yox idi. Bu fikirdən onlar çəkinməyirdilər.

Əlaltından Kaledin və onun həmməslələri iş görürdülər. Zahirdə isə buna milli bir rəng verilirdi. Hətta bu barədə tatar zabitlərindən bir neçəsini İstanbula göndərdilər. Türklərin də hüsntəvəccöhünü təşkil edilmək istənilən müsəlman qolordusunun [korpusunun] lehinə qaldırmaq istədilər. Sonradan bu işin üstü açıldı. Budur ki, müvəffəq olammadılar. Qolordu dağıldı, bütün silah və ləvazimati-hərbiyyə Denikinə həvalə edildi. Bu uğurda sərf edilən 6 milyon para da hədərə getdi. Bununla "Vahid Rusiya"çıların Krımdakı planları baş tutmadı.

*(yenə var)*

## BAKI XƏBƏRLƏRİ

### Bələdiyyə İdarəsində

- Şəhərdə ordu ehtiyacı üçün at həcz [müsadirə] edildikdə, bir çox ixtilaflar əmələ gəlir. Qradonaçalnik cənabları Bələdiyyə İdarəsinə məlum etmişdi ki, nəcasət arabalarının atları həcz edilməyəcəkdir. Halbuki, işbu vəd qövldən feilə [sözdən işə] gətirilməyir. Bələdiyyə İdarəsi qradonaçalnikə müraciətən rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda [sərəncamda] bulunmaqla at sahiblərinə təhriri [yazılı] vəsiqələr verilsin.

- Bələdiyyə İdarəsi ilə şəhər konkaları icarədarları miyanında [arasında] əqd edilmiş müqavilənamə işbu günlərdə təsdiq ediləcəkdir.

### "Müsavat"da Müsalihə və Mürafiə şöbəsi

- Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" əmələlər [fəhlələr] ilə sahibkarlar arasında qalxan ixtilafları bərtərəf etmək [aradan qaldırmaq] üçün Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] adlı xüsusi bir şöbə təşkil etmişdir. Şöbəyə az vaxt içində bir çox əmələlər tərəfindən şikayətlər gəlmişdir. Şöbə ciddiyyətlə bu şikayətləri təhqiq etməyə məşğuldur.

- Bakı istehlak cəmiyyəti "İnsan" bununla öz üzvlərinə və qeyrilərə elan edir ki, cəmiyyətin dükanından bu gündən etibarən çörək buraxılmağa başlanmışdır. Ağ çörək 4 rublə, ikinci sort 3 rüblə 25 qəpik və qara çörək 2 rublə 50 qəpik. Ünvan: Birinci Paralelni və Deviçanski küçələrin küncündə.

### Qovulmuş fəhlə

Balaxanıda vaqe qazma neft quyusu müdiriyyəti bir neçə əmələni səbəbsiz xidmətdən kənar etmiş olduğundan, Türk Ədəmi-Mərkəziyyət firqəsinin Müsalihə və Mürafiə şöbəsi Baş fabrika müfəttişinə müraciətən binagüzarlıqda bulunmasını rica etmişdir.

### Parlaman komisyonlarında

- Balaxanı-Sabunçu mahalında vergi polisi təsisi haqqında Parlamanın Maliyyə-Büdcə Komisyonuna xüsusi bir qanun layihəsi daxil olmuşdur.

- Doğrudan-doğruya alınan vergi və gömrük miqdarlarının hərbi zamanlara müvafiq alınması barəsindəki qanunun təcdidi [yenilənməsi] haqqında qanun

layihəsi Parlamanın Ləvayehi-qanuniyyə [Qanun Layihələri] Komisyonunda müzakirə edilib, Maliyyə-Büdcə komisyonuna göndərilmişdir.

- Aksiz vergisini təmin etmək üçün rəhn qəbulu haqqındakı qanunnamənin təbdili [dəyişdirilməsi] haqqında layiheyi-qanuniyyə Parlamanın 31 təmmuz [iyul] iclasının müzakirati-yövmiyyəsinə [gündəlik müzakirəsinə] daxil edilmişdir.

**Hökumət böhranı haqqında**

Hökumət böhranı haqqında dövran edən xəbərlərin əsli yoxdur. Mövsuq [etibarlı] mənbədən aldığımız xəbərlərə nəzərən, Parlamanın ən nüfuzlu fraksiyaları arasında indiki hökuməti müdafiə etmək haqqında tam etilaf [razılıq] vücuda gəlmişdir.

**Ziyafət**

29 iyulda Salyan qışlalarının [kazarmalarının] Zabitan Cəmiyyətində yeni təşkil olunmuş Beşinci Bakı alayının komandiri və Zabitan Cəmiyyəti tərəfindən bir ziyafət düzəlmişdi. Ziyafətdə hökumət üzvləri, Parlaman əzaları [üzvləri] və generallar iştirak etmişlərdir.

**Hərbi flot**

"Rusiya" qəzetəsinin verdiyi xəbərə nəzərən Kaspi dənizində olan hərbi flot İngiltərə komandanlığı tərəfindən Dabravol ordusu ixtiyarına verilirmiş. Aldığımız doğru məlumata görə, bu xəbər yalandır. İngiltərə Hökuməti Dabravol ordusuna müvəqqəti olaraq 2 hərbi vapor [gəmi] və bir neçə müxrib gəmi verir ki, Kaspi dənizində bolşeviklərlə müharibə etsin.

**Ərzaq paylanması**

3 min pud şəkər, bəzzaziyyə malı [manufaktura, parça], ayaqqabı və qeyri şeyləri camaat arasında paylamaq məsələsini həll etmək üçün iyulun 29-da Ticarət, Sənaət və Ərzaq Nəzarətində məhəllə nümayəndələrinin, kooperativlərin və cəmiyyəti-xeyriyyələrin müttəhid [birgə] iclası vaqe olmuşdur. Qərara alınmışdır ki, bu şeylərin 25 faizi hökumət xidmətçilərinə verilsin. 75 faizi isə kooperativ dükanları vasitəsilə hər adama bir girvənkə qənd qiyməti 20 rubladən olmaq şərti ilə əhali arasında paylansın. Ayaqqabı və bəzzaziyyə malı isə məhəllələrdə paylanacaqdır. İki-üç gündən sonra Ticarət Nəzarətinin kontrolu altında paylanmağa başlanacaqdır.

**Bələdiyyə İdarəsi**

Bakı Bələdiyyə İdarəsi təzədən hökumətə müraciətən 5 milyon borc istəmişdir ki, xidmətçilərin iyul məvacibini versin. Maliyyə naziri 2 milyon yarım buraxılmasına söz vermişdir.

**İngilislər və Bakı nefti**

Alınan xəbərlərə görə, indi təmizlənməkdə olan Bakı-Batum neft trubası qurtarandan sonra İngiltərə Hökuməti Azərbaycandan iki milyon pud cövhər (kerosin) alacaqdır.

**AZƏRBAYCANDA**

**İskəndərzadə**

Qəzetəmizin keçən nömrələrindən birisində Salyan müxbirimiz [Rüstəm] İs-

kəndərzadənin qətli xəbər verilmişdi. Fəqət, idarənin təşəbbüslərinə rəğmən, bu vaxtadək onun kimlər tərəfindən qətl edildiyi və qatil nə olduğu barəsində bir şey öyrənə bilmədik. Şimdi məqtulun [qətl edilənin] anası idarəmizə bu xüsusda bir məktub yazmışdır ki, eynilə dərc ediriz. İştə məktub:

*"Müdiri-möhtərəm əfəndi, aşağıdakı bir qaç sətir izahatımın dərcini acizanə rica edirəm.*

*Zalımları ədlin nə zaman məhv edəcəkdir,*

*Məzlumların çıxmadadır göylərə ahı.*

*Bir millətin, bir tayfanın, bir qövmün mənəviyyatca təali etməsinə [ucalmasına] və o millət, tayfanın tərəqqi yollarını öyrənməsinə mətbuatın ən birinci va-sitə olduğu varəsteyi-izahdır [izaha ehti-yacı yoxdur].*

*Gələlim məqsədə, on sənələrdən bəri mətbuat[d]a millət uğrunda yorulmadan çalışan mühərrir Rüstəm İskəndərzadə, məlumunuzdur ki, 1919 sənəsi həman təmmuz [iyul] ayının 14-də, axşam saat 12-də evə gəldiyi zaman Salyan edadi məktəbinin qarşısında, bazardan 15-20 arşın kənara karvansaraların qarşısında bədəfkar [cinayətkar] bir əldəqayırılma seyid olub Mirələkbər Hacı Mirtağı oğlu tərəfindən qətl edilmişdir. Bir çox görən şahidlər vardır, lakin qorxusundan deməyir. Polis məmurları təhqiqatda bulunmayırlar. Səbəbi də Ağa Mirəşrəfdir. Bunu ümumi Salyan əhalisi bilir ki, mərhum İskəndərzadəni həman ağaya ən yaxın mənsub olan Mirələkbər qətl edibdir. Müstəntiqə görən şahidləri istintaq etməyə aparacaqdım, şahidlər getmədi, səbəbi cavab verdi, mən gedib deyə bilmərəm ki, Ağa Mirəşrəf mənə adam göndərmişdi, məbada gedib şahidlik edəsən. Bu da bizim üləmamız.*

*Nahaq yerə mənim oğlumu öldürməkləri başqa, şahidləri də qoymayırlar desinlər. Mən olmuşam zəlil və kor, övrət tayfası bir adamam və köməyim yoxdur. Özüm də fəqirəm. Bilməyirəm hansı hökumətə ərzi-halımı deyəm. Mənim millət uğrunda çalışan oğlumu bir şəxs qətl edibdir ki, öz millət milliyyətini anlatmayır. Əfsuslar olsun ki, bir milyonlarla canlar öldürdü, ancaq mən sizi o qədər inandıra bilərəm və Qurana and içirəm mənim oğlumu Mirələkbər öldürübdür.*

*Müdir əfəndi, ərzi-hal isə çoxdur. Lakin qorxumdan deyə bilmirəm. Görən şahidlərə cəza verilməyincə deyə bilməyəcəklər amma həman bizə məlum olasıdır ki, 1915 sənəsi həmşirəm [bacım] barəsində onu "Yeni iqbal" qəzetəsinin 152-ci nömrəsində yazmamışdı. O vaxtdan bəri bununla batinində ədavəti var idi və eşitmişdik mərhum İskəndərzadəni öldürəcəklər və Ağa Mirəşrəf tərəfindən gəlib hər gün mənə deyirdi ki, sənin oğlunu qətl edəcəyəm. Dörd günədək məlum olar.*

*Dörd gün tamam olmamış bu iş vaqe oldu.*

*Ərzi-hal isə çox, yazmaq mümkün deyil. Müstəntiq olub gəlib məni danışdıra, onda mən ərzi-halımı söylərəm. Ancaq qəzetə müdirindən bunu rica edirəm, mənim heç kəsim olmadığından bu yolda qəzetə müdirindən həqqi-divan ilə yardım istərəm. Mənim millət yolunda canını fədaya verən oğlumun nahaq qanı yerdə qalmasın. Belə ki, ərizə yazdırmağa param yoxdur ərzi-halımı yazdı-*

*ram. Axırı bunu balaca oğluma yazdırıram. Qorxuram onu da şəhid edələr.*

*Müxbiriniz olan İskəndərzadə Rüstəmin təsvirini göndərdim. Baxınız, tamaşa ediniz, onun təsvirinə qəzetənizin bir guşəsində yer verməyiniz acizanə rica olunur.*

*Mirtükəzban Mirəsgər qızı"*

**İdarədən**: Son zaman vilayətlərdə müxbirlərimizə və Bakıda mühərrirlərimizə çox əziyyət edildiyindən, hökumətin nəzəri-diqqətini bu xüsusa cəlb və müxbirimiz İskəndərzadənin qatilinin bir an əvvəl tutulub cəzayi-səzasına [layiqli cəzasına] yetirilməsini xahiş ediriz.

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78, 10-1-ədək.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür.

Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfününu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Mərdəkanda diş həkimi**
**M. İ. Slutkin**

Naxoşları Almazovun bağında (aptek qarşısında) qəbul edir.

*5498*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə arpa və buğda lazımdır**

Arpa və buğdası olan şəxslər şənbə günü avqust ayının ikisində saat 11-də nümunələri ilə bərabər yuxarıda zikr olunan Nəzarətin Təsərrüfat Komissiyasına (Sadovı küçə, nömrə 3, Lalayevin evi) gəlməlidirlər. Və bu arpa-buğdaya Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin skladında [anbarında] (Sadovı 3, Lalayevin evində) baxılacaqdır.

*T-192*

Bakı istehlak cəmiyyəti **"İnsan"** bununla öz üzvlərinə və qeyri şəxslərə elan edir ki, cəmiyyətin dükanında bu gündən etibarən çörək buraxılmaya başlamışdır. Ağ çörək gir-

vənkəsi 4 rublə, ikinci sort 3 rublə 25 qəpik, qara çörək 2 rublə 50 qəpik.

Ünvan: 1-nci paralelni və Dəvəçinski küçələrin küncündə nömrə 42.

*5496*

**Satılır**

Yaxşı işləyən lokanta. Nikolayevski küçə, sabiq "Kaspi" idarəsi qarşısında, 3-41.

*5497*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-İran Astarası*

17-ci körpüdən düşənbə və pəncşənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-178*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Məşixəti-İslamiyyə İdarəsindən**

səh. 2. "Şahsünni": qəzetdə "Şahsənəmli" getmişdir; indiki Zərdab rayonunun Şahhüseynli kəndi nəzərdə tutulur.

**Ümum Azərbaycan müsəlmanlarına!**

səh. 3. "Necə ki, 4-cü surənin 62-ci ayəsində...": Müvafiq ayə, 4-cü surənin (Nisa surəsinin) 59-cu ayəsinin bir qismidir.

"o cümlədən 8-ci surənin 42-ci ayəsində…": Müvafiq ayə, 8-ci surənin (Ənfal surəsinin) 60-cı ayəsinin bir qismidir.

"Öylə qüvvəniz olsun ki, onunla Allahın düşmənlərini və özünüzü müdafiə və düşmənlərinizi irhab edəsiniz, qorxuya salasınız.": Burada qeyri-dəqiqlik var; belə olmalıdır: "Öylə qüvvəniz olsun ki, onunla Allahın düşmənlərini və öz düşmənlərinizi qorxuya salasınız."

"3-cü surənin 163-cü ayəsində…": Müvafiq ayə, 3-cü surənin (Ali-İmran surəsinin) 169-cu ayəsidir.

"9-cu surəsinin 24-cü ayəsində…": Müvafiq ayə, 9-cu surənin (Tövbə surəsinin) 24-cü ayəsidir.

**Teleqraf xəbərləri**

səh. 7. "Konstantinoqrad": Ukraynanın Xarkov vilayətində, indiki Krasnoqrad şəhəri.

"Yekaterinodar": Rusiyada, indiki Krasnodar şəhəri.

səh. 8. "Yekaterinoslav": Ukraynanın Dneprepetrovsk vilayətində indiki Dnepr şəhəri.

**Sülh ətrafında**

səh. 9. "Hohensollern": II Vilhelmin də mənsub olduğu Prussiya kralları və Alman

kayzerləri sülaləsi; qəzetdə bu söz təhrif edilmişdir.

"Avam Kamerası": ikipalatalı Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 10. "Kamışin altında": qəzetdə səhvən "Kamışef altında" getmişdir.

səh. 11. "Quryev": Qazaxıstanda şəhər; indiki Atırau şəhəri.

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

**Türkiyədə**

səh. 11. "İstiqlal": İstanbulda 1918-ci ilin axırlarından 1919-cu ilin axırlarına qədər nəşr edilmiş qəzet.

"İzmir, Ayasuluq, Aydın və Sökə": qəzetdə təhrif edilmiş olaraq belə getmişdir: "İzmir, Aclıq, Aydın və Suk". İzmir və Aydın Türkiyənin qərb vilayətləri, Ayasuluq İzmirin ilçəsi, Sökə isə Aydının ilçəsidir. "Ayasuluq" ilçəsi hal-hazırda "Səlcuq" adlanır.

**İranda**

səh. 12. "Barforuş": İranın şimalında, Mazandaran əyalətində şəhər; hal-hazırda Babül adlanır.

"Məşhədsər": İranın Mazandaran əyalətində, Xəzər dənizi sahilində şəhər; indiki Babülsər şəhəri.

"Sari": İranın şimalında şəhər; Mazandaran əyalətinin inzibati mərkəzi. Qəzetdə bu ad təhrif edilmiş və "Sara" kimi getmişdir.

**Vükəla Şurasında**

səh. 13. "Qızıl-Arvad": Türkmənistanda şəhər; indiki Sərdar şəhəri.

"yeməkxana və yataqxana üçün məxaricat": qəzetdə "məxaricat" sözü təhrif edilmişdir.

"Kiçik Şura": Azərbaycan Cümhuriyyəti hökumətində ikinci dərəcəli məsələlərə baxmaq üçün nazir müavinlərindən təşkil olunan şura.

**Azdır**

**- 3 -**

səh. 14. "bəldə": bələdiyyə idarə edilən yer; kiçik şəhər.

**Yusif Vəzirovun məruzəsi**

səh. 17. "Krımda bir Müdiriyyət təşkil edildi.": Rusiyada Vətəndaş müharibəsi illərində Krım yarımadasında qurulan Krım Regional Hökuməti nəzərdə tutulur. 1918-ci ilin iyunundan 1919-cu ilin aprelinə qədər mövcud olmuşdur.

səh. 18. "Tərcüman": Krım tatarlarının 1883-1918-ci illərdə Bağçasarayda çıxardıqları qəzet.

"Millət": Krım tatarlarının 1917-1920-ci illərdə Simferopolda çıxardıqları qəzet.

**Bakı xəbərləri**

səh. 21. "müxrib gəmi": yüksək manevr qabiliyyətinə malik, zirehli hərbi gəmi; destroyer.

**Azərbaycanda**

səh.22. "Zalımları ədlin nə zaman məhv edəcəkdir, / Məzlumların çıxmadadır göylərə ahı": beyt türk şairi Ziya Paşanındır.

"Yeni iqbal": 1915-1917-ci illərdə Bakıda çap edilmiş qəzet.




*"Azərbaycan" qəzetinin 241-ci nömrəsinin 1-ci səhifəsi*

Bazar, 3 avqust 1919-cu il, nömrə 241

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 6 zülqədətül-haram sənə 1337. 3 ağustos 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

## HÖKUMƏT TEATROSUNDA (Sabiq Mailov)

Təcil edin [tələsin] görməyə! Bu gün axırıncı Hindustan tamaşası. Təcil edin görməyə!!!

Hindustanın pək məşhur sahirlərindən [sehrbazlarından] Qazalius göstərəcəkdir qədim Misirin tarixi bir guşəsini və gizli olaraq "Odisseya", "cadulanmış meyvə" və qeyri sahir [sehrli] şeylər. Güc, hünər və fənn özümüzdədir! Qazalius göstərəcəkdir insan nə sayaq özünə pulsuz ziyafət stolu açar və o stolun üstündə hər cür xörəklər mövcud olar və hər kəs bunları bilməkdən ötrü lazımdır bu sahir artistin tamaşasına gəlsin. Tamaşaçıların gözlərinin qabağında bir övrət yox olacaqdır. Bu təəccüblü sahir Avropa və dünyanın qeyri qitələrində çox nişan və medallar almışdır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

*7402*

## SİRK "MODERN"

Yekşənbə günü ağustosun 3-də 1919-cu ildə bayram tamaşası Sandarov qardaşlarının üçüncü qastrolu olacaq.

Bu gün məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 36-cı günüdür. 33-cü gün 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Kalişeviç – Qırmızı Maska.

2-nci revanş mübarizəsi: Raqenbaum – Naməlum.

3-ncü: Zakoroyko – Jan-de-Kolon.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda. Mübarizə Yelizarovun təhtinəzarətində [nəzarəti altında] olacaqdır.

*5499*

## MALİYYƏ NƏZARƏTİ
## ELAN

Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar [Dövlət Əmanət Kassaları və Kiçik Kredit] İdarəsi Şurayi-Vüzəranın [Nazirlər Kabinetinin] 1919 sənəsi həziran [iyun] qərarı əsasına istinadən elan edir ki:

1) 15 avqustdan (1919 sənə) Azərbaycan Dövləti Əmanət Sandıqları nizamnaməsi ilə mütabiq [uyğun] olmaq üzrə zirdəki [aşağıdakı] 12 Azərbaycan xəzinələri, yəni Bakı, Gəncə, Qazax, Zaqatal, Ağdaş, Göyçay, Quba, Şəki, Petropavlov-

ka, Salyan, Şamaxı və Şuşa xəzinələri cənbində [nəzdində], Azərbaycan posta və teleqraf idarələri cənbində 35 şöbə ilə Azərbaycan Dövləti Əmanət Sandıqları mərkəzi idarələri açılır. Azərbaycan Dövləti Əmanət Sandıqlarına daxil edilən əmanətlər hökumətin bütün vəsaiti ilə dəröhdə edilərək hər zaman heç bir məhdudiyyəti haiz olmamaq [məhdudlaşdırılmamaq] üzrə tamamən tədiyyə edilir [təmin edilir, ödənir]. Əmanətlərə sənəvi [ildə] 3.6 % ayrılır.

2) Yuxarıda göstərilən xəzinələr cənbində vaqe Rusiya əmanət sandıqları keçən 1918 sənəsi eylül [sentyabr] 15-dən etibarən kəndi əlaqələrini, fəaliyyətlərini kəsmişlərdir. Azərbaycan Hökuməti xalq mülahizatı dolayısı ilə [xalqın maraqlarını nəzərə alaraq], 12 xəzinə cənbində açılmış Azərbaycan Dövləti Mərkəzi İdarələrinə 12 xəzinədə vaqe 1918 sənəsi eylülünə qədər sabiq sandıqlardakı əmanətlərin qaytarılmasını və para ilə tədiyyəsini həvalə etmişdir. 1918 sənəsi 15 eylülə qədər idxal edilən əmanətlərin para ilə tədiyyəsi yeni açılmış sandıqlarda Azərbaycan Dövləti Əmanət Sandıqları Mərkəzi İdarəsi tərəfindən nəşr olunub Maliyyə naziri ilə 18 təmmuz [iyul] 1919 sənəsində təsdiq edilən qəvaid [qaydalar] ilə hər ayrı əmanətə təyin olunan nisab [norma] ilə qismən həftədə iki yüz (200) rublə verməklə tətbiq edilir. Faizli kağızlar ilə olan əmanətlər isə heç bir məhdudiyyəti haiz olmamaqla tamamən sahiblərinə qaytarılır.

*İmza etdi: Maliyyə naziri*
*Əliağa Həsənzadə*
*Dövlət Əmanət Sandıqları və Xırda*
*Etibar müdiri:*
*[Nəsir bəy] Tağıyev*

## İXTAR

İdarəmizə rusca və tükcə bilən iki mühərrir lazımdır. Şərait pək yüngül və maaş pək münasibdir. Xahiş edən bulunarsa, türkcə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət buyursunlar.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*29 təmmuz iclası*

İclas səhər saat 11-də Həsən bəy Ağayevin sədarəti, Əhməd Cövdət bəyin katibliyi ilə açılır. Məsaili-yövmiyyə [gündəlik məsələlər]:

1) Daxil olmuş kağızlar, o cümlədən təbəəlik haqqında qanun layihəsi;

2) Bələdiyyə məclisləri seçkisi haqqındakı qanun layihəsinin ikinci qiraəti;

3) Spirt və alqol [alkoqol] məhsulatı rüsumunun təmdidi [uzadılması] haqqında qanun layihəsi;

4) Xidməti-əsgəriyyə müddətinin təyini haqqındakı layiheyi-qanuniyyə;

5) Azərbaycan xətti-hüdudunda sərhəd qaraqolu təşkili haqqında layiheyi-qanuniyyə;

6) Torpaq vergisi və gəlir mədaxilinin 1919 sənəsinədək təmdidi haqqın-dakı layiheyi-qanuniyyə;

7) Nəşri-elan layiheyi-qanuniyyəsi;

8) Maliyyə Nəzarəti indində [nəzdində] bir şura təsisi haqqında layiheyi-qanuniyyə;

9) Fabrik müfəttişliyi qanununun təğyir və təbdili [dəyişdirilməsi] haqqında qanun layihəsi;

10) "İttihad" fraksiyasının hökumətə sualı.

Təbəəlik haqqındakı layiheyi-qanuniyyə Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komissiyasına göndərilir və əsgərlik barəsindəki qanun axıra salınır. Bu surətlə ibtida bələdiyyə vəkilləri seçkisi haqqındakı layihənin ikinci qiraətindən başlanır. Birinci maddə (bir həftə zərfində seçki hazırlıqlarına şüru edilməsi [başlanması] məsələsi) uzun mübahisələrə bais olur.

**Aşurov Ağa** - Keçən dəfə dəxi mən bu xüsusda fikrimi bəyan etdim. Məncə bu surətlə bir həftə məhdud vaxt qoymaq səhvdir. Gərək işə şüru edilməsi [başlanması] üçün vaxt qonulmasın. Qanun ancaq onu təyin edə bilər ki, filan vaxtadək gərək bələdiyyə məclisləri seçilib qurtarsın. Məsələn, rus qanununa görə tələb edilmişdi ki, gərək yanvarın 1-dək bütün şəhərlərdə bələdiyyə məclisləri seçilib qurtarsın. Şimdi biz dəxi qərar qoya bilərik ki, seçkilər, məsələn noyabrın 1-dək, ya dekabradək qurtarmalıdırlar. Böylə olar. Amma işə nə vaxt şüru edilməsini təyin qılmaq məncə səhvdir. Bir də burasını nəzərə almalıdır ki, bir həftə, ya filan qədər vaxt təyin etmək seçkiləri təmin qılmaz. Əgər böyləliklə möhlət verilməsi intixabatın [seçkilərin] tez başlanmasını təmin üçün isə, bununla məqsədə çatmaq müşkül olar. Əvvəla, mümkündür ki, bir həftə zərfində Bələdiyyə İdarəsi iclası baş tutmasın. Yaxud başqa səbəblər olsun. Bundan əlavə, əgər siz bununla seçkinin tez icrasını təmin etmək istəyirsəniz, Bələdiyyə İdarəsi təxirə uğratmaq arzusunda olsa, birinci həftə içərisində iclas qurar, müəyyən qərara gələr, sonra yenə işi təxirlə görər. Özü də deyər ki, qanuna əməl etdi, birinci həftədən başladı. Fəqət iş çoxdur, yetirməyir. Bu surətlə görürsünüz ki, vaxt qoymaqla məqsəd əldə etmək çətindir. Amma tezliklə seçkilərin icrasını başqa yol ilə təmin etmək olar. Məsələn, vaxt qoyarsan ki, filan müddətədək dum seçkiləri qurtarmalıdır. Əgər məqsəd seçkini təmin isə təklif edirəm bir həftəlik müddət götürülüb, seçkilərin nə vaxtadək qurtarması barəsində bir müddət təyin edilsin.

**Məhəmmədbəyov Heybətqulu** - Bu ki yeddi gün vaxt qoyurlar, onu təyin etmək heç mümkün deyildir. Məlumdur ki, seçkilərə şüru etmək üçün bələdiyyə idarələri gərək qabaqca pul buraxsınlar. Seçkilərin də, özünüzə məlumdur ki, xərci çoxdur. Odur ki, hələ qabaqca bələdiyyə idarələri gərək bu məbləği haradan alacağını düşünsünlər, alsınlar. Bilirsiniz ki, indi hava çox istidir. O qədər hümmət və ciddiyyətlə çalışmaq mümkün olmayır. Ona görədir ki, zənnimcə, bu təyin edilən kimi bir həftə içində işə şüru etmək olmayacaqdır. Bir də, qanun birdəfəlik deyil, deyəsən bu qanun təsdiq edildikdən bir həftə sonra işə başlansın. Qanun həmişəlikdir. Əgər birinci dəfə intixabat hazırlıqlarına şüru etmək üçün bir həftə vaxt qoysaq, gələcək seçkilər üçün vaxtı necə təyin edəcəklər? Yoxsa, hər dəfə yeni qanun çıxarıb yeni vaxt qoyacağız?

**Rüstəmbəyli Şəfi bəy** - Burada təklif olunur ki, intixabat işlərinə şüru etmək üçün müəyyən vaxt qoyulmasın. Amma bizcə vaxt təyin etməmək çox çətindir. Ağa Aşurov cənabları deyirlər ki, bir həftə təyin edilərsə, Bələdiyyə İdarəsi qa-

nuna görə həman birinci həftə zərfində ilk iclasını qurar, qanuna əməl etmiş olar. Amma sonra seçkini vaxtında icra etməz. Lakin zənnimə görə, Bələdiyyə İdarəsi birinci iclası qurduqda yəqin ki, həmin iclasda intixabatın nə vaxtadək qurtarmalı olduğu məsələsini müzakirə və qət edəcəkdir və o surətdə, heç şübhəsiz vəqti-müəyyənədək [müəyyən edilmiş vaxtadək] intixabatı icra edib bitirmək məcburiyyətində qalacaqdır. Bu vəchlə biləks [əksinə], məncə işə şüru edilməsinin vaxtı təyin olunduqda məqsədə ərişər və intixabatın vaxtlı-vaxtında icrası təyin edilmiş olar. Bundan əlavə, məlumunuzdur ki, şəhərlərin uzaq-yaxınlığı var. Biz bilməyirik bu qanun hankı şəhərdə nə vaxt alınacaqdır ki, onun da vaxtını təyin edək. Öylə olan surətdə ümum şəhərlər üçün filan vaxt seçkilər qurtarmalıdırlar deyə bir vaxt təyin etmək olmaz. Bir də deyirlər, işə şüru edilmək üçün vaxt təyin edilməsin. Böylə olan surətdə pəs verdiyimiz qanun nə vaxt qanun gücünə minsin? Bunu təyin etmək lazımdırmı, ya yox? Bunu deyə bilərdilər ki, 7 gün azdır. Bu olar. Əgər 7 gün az isə, o halda iki həftə, bəlkə daha da artıq vaxt təyin etmək olar. Amma vaxt qoymamaq heç vaxt mümkün deyildir. Bir də deyirlər ki, istidir, ciddən çalışmaq mümkün olmayır. Məncə bu bir bəhanə deyildir. Çünki məsələn keçmiş seçkilərdə daha isti vaxt işləməyə məcbur olduq. Bütün yay aylarını seçki işləri ilə məşğul olmaqla keçirdik. Heç o zaman istidir deyən olmayırdı. Halbuki, indi qabaq payıza gedir və işlərimiz çox da istiyə düşməyəcəkdir. Bununla bərabər, nə qədər isti olsa da, borcumuzdur intixabat işlərinə şüru edək. Binaənileyh, mən təklif edirəm seçki işlərinə başlamaq üçün mütləqa vaxt təyin edilsin. İntəhası, ərz etdiyim üzrə, bəlkə bir həftə azdır. O halda daha artıq üç həftə vaxt təyin edə biləriz.

**Aşurov** yazılı təklif verir ki, birinci maddədə bir həftə möhlət atılıb, layihə böylə təshih edilsin ki, seçkilər yanvarın 1-dək qurtarsınlar. Səsə qoyulduqda əksəriyyəti-ara [səs çoxluğu] ilə Aşurovun təshihi rədd edilib, birinci maddə komissiyanın tərtib verdiyi kimi qəbul olunur.

Uzun mübahisəni mövcib [mübahisəyə səbəb olan] maddələrdən birisi də bələdiyyə vəkillərinin müddəti-vəkaləti məsələsi olmuşdur.

**Bağır Rzayev** deyir ki: Bizim zənnimizcə, siyasi və ictimai həyatda bu zəmanədə çox tez-tez təbəddülat [dəyişiklik] olur. Ola bilər ki, bu gün əksəriyyətin lazım bilib seçdiyi adamlar əhvali-siyasiyyə, ya ictimaiyyə öylə dəyişər ki, yarın camaat arasında etibardan düşər. Əksəriyyət onun bələdiyyə vəkilliyini lazım görməz. Çünki seçilən adamlar əhvali-siyasiyyəyə tabe olurlar. Ona görə də tez-tez dəyişiklik ola bilər. Binaənileyh, mən təklif edərdim, bələdiyyə vəkillərinin müddəti-vəkaləti üç il əvəzinə, iki il təyin olunsun. Bir də, bu bizim birinci qanunumuzdur. Hələ qanunları biz təcrübədən keçirməmişik. Müddəti-vəkalətin nə qədər olmasının yaxşı nəticə verdiyi[ni] bizə gələcək təcrübə göstərər. O vaxt təcrübəmiz əsası ilə də təyin edəriz. İndilik mən iki il təklif edirəm.

**Aşurov** - Keçən dəfə layiheyi-qanuniyyədə müddəti-vəkalət üç il qoyulduqda mən dörd il təklif etdim. İndi isə hələ üç ilə də razı olmayıb, iki il təklif edirlər

və buna dəlil olmaq üzrə siyasətin tez-tez dəyişməsini göstərirlər. Doğru, hər işdə olduğu kim, şəhər işlərinin də siyasətlə əlaqə və rabitəsi var. Fəqət bələdiyyə işlərinə sırf siyasi nöqteyi-nəzərdən baxmaq olmaz. Biləks, mümkün olan qədər bələdiyyə idarəsini siyasətdən uzaq tutmağa çalışmaq lazımdır. Bələdiyyə vəkillərinin müddəti-vəkaləti iki il olsun. Çünki şəhərdə tramvay xətti çəkilməsi, yaxud xəstəxana açılması məsələsi müzakirə edilərkən, orada səs verən eser olacaq, ya müsavatçı olacaqdır, bunun heç fərqi yoxdur. Doğrudur, bəziləri şəhərin mərkəzini abad etməyə çalışarlar. Digərləri isə kənar və ətrafların dərdini ortaya çəkərlər. Amma əsas etibarı ilə fərq yoxdur. Deyirəm şəhər işlərini siyasətdən uzaq tutmaq lazımdır. Çünki keçmiş təcrübələr bizə göstərdi ki, şəhər işlərinə sırf siyasi nöqteyi-nəzərdən baxılıb seçkiləri o mülahizə ilə icra etdikdə, siyasət üsulu çox fəna nəticələr verir. Bu üsul nəticəsində duma işləri bərbad hala gəlir, işlər sahibsiz qalırlar. Çünki o üsul ilə seçilənlər daima siyasətlə uğraşırlar. Şəhər işi isə sırf xozyaystvennı bir işdir. Xozyaystvaya isə bələd olmaq lazımdır. Bir qlasnı gəlib az müddətdə işlərə bələd olammaz. Ona görədir ki, mən təklif edirəm vəkalət müddəti uzun olsun. Bir də deyirlər ki, bizim birinci qanunumuzdur, müddəti az təyin edək. Gələcəkdə təcrübə göstərər hankı yaxşıdır. O təcrübə əsası ilə də iş görəriz. Amma məncə bu fikir yanlışdır. Çünki bu gün tətbiq etmək istədiyimiz qanun çoxdan bəri Avropada yazılmış, qəbul edilmiş bir qanundur ki, onu Rusiya qəbul edib ruscaya tərcümə etmişdir. Doğrudur, bəzi şeyləri dəyişmişdir. Amma əsas həman əsasdır ki, qalmışdır. Məsələn, köhnə Avropa qanununda dörd cəhətli seçki üsulu yox idi. Arvadlar seçkidə iştirak etməyirlərdi. Amma, Müvəqqət Rusiya Hökuməti bu maddələri əlavə etmişdir. Böylə təshihləri biz dəxi edə bilərik. Amma əsas qanun dəyişməmişdir, öylə də qalmalıdır. Bundan maəda [başqa], mən keçən dəfə söylədim, bələdiyyə seçkilərinin hələ qabaq illərdə üç-dörd yüz min manat xərci olurdu. İndi isə milyonlar sərf ediləcəkdir. Əgər müddəti-vəkalət uzun olmasa, intixablar tez-tez olacaq, bununla da hər dəfə milyonlar sərf ediləcəkdir ki, bu surətlə neçə milyonlar artıq sərf olunacaqdır. Saniyən [ikincisi] də, qlasnıların işə bələd olmaları üçün uzun vaxt lazımdır. Məsələn, bir məsələ dumada iki-üç dəfə keçdikdən sonra ancaq qlasnı bələd olur ki, bu məsələyə necə baxmalı, necə səs verməli imiş. Götürək smeta məsələsini, bir qlasnı bir dəfə mədaxil-məxaric smetası keçirməyin nəticəsini görməzsə, gələn dəfə yenə smeta müzakirəsində işə nabələd kimi baxacaqdır. Bir də yadınızdan çıxmasın ki, Bələdiyyə İdarəsində müəyyən xidmətlər dəxi var. Məsələn, uprava üzvlüyü və sairə. Müddəti-vəkalət nə qədər az olsa, təcrübəli, bacarıqlı adam oraya xidmətə getməz. Kimdir ki, hazır qulluğunu, işini əlindən buraxıb, az bir müddətə getsin, dum qulluğuna girsin. Bu surətlə, hər cəhətdən baxıldıqda, xüsusən praktikadan görülür ki, Bələdiyyə vəkilləri müddəti-vəkalətinin azlığı həmişə fəna nəticələr verir. Bu mülahizə ilədir ki, mən təklif edirəm müddəti-vəkalət çox olsun.

*(mabədi var)*

**TELEQRAF XƏBƏRLƏRİ**

**Royter agentəliyindən**

Vaşinqton - İyulun 21-i axşam çağı neqrlərlə (qaralarla) məskun olan məhəllələrdə üsyan başlanmışdır. İki adam qətl edilmişdir. Bir amerikalının başını ülgüclə kəsmişlərdir. Öldürən neqrdir. Qatillər qaçmışlardır. Qoşun küçələri mühafizə edir.

- Məclisi-Əyanda sülh müahidənaməsi [sazişi] və həmçinin İngiltərə-Fransa etilafnaməsi [uzlaşması] qəbul edilmişdir.

- Vilson Uels prinsini Amerikaya oktyabrın 31-də qonaq dəvət etmişdir. Prins qəbul etmişdir.

**İngiltərədə tətillər**

Lloyd Corc kömür mədənləri fəhlələri ilə sahibkarların ixtilafına ciddi müdaxilə etmişdir. Londonda kömürə böyük ehtiyac və azlıq hiss olunur. Həftədə yarım puddan artıq kömür işlətmək mən' [qadağan] edilmişdir. Dəmiryol idarələri əmr etmişlər ki, sərnişin və yük qatarları hərəkatının 20 faiz əskilməsinə hazır olsunlar. Məzuniyyətə gedənləri xəbərdar edirlər ki, qayıdan baş müşkülata uğrayacaqları mümkünatdandır.

Derbişirdə 30.000, Nottinqhemşirdə 23.000 fəhlə tətil edir. Həftə axırında Liddə tətil edən mənsucat [trikotaj] fabrikaları əmələsinin miqdarı 200.000-ə çatmışdır. Viqan nahiyəsində 3 min nəfərlik bir izdiham kömür mədənlərini bağlamağa məcbur etmişlərdir. Sakitlik olmayan yerlərə qoşun göndərilmişdir.

Bonar Lou bəyan etmişdir ki, hökumət var qüvvəsi ilə mədən işlərinin yaxşılaşmasına çalışır. O etiraf edir ki, bəzi adamlar İngiltərənin siyasi və ictimai üsulunu pozmaq istəyirlər və bu barədə var qüvvələri ilə çalışırlar ki, hökumətə qarşı narazılıq doğursunlar. Mübəlliğlər [təbliğatçılar] və təşviqatçılar müqabilinə hökumət tərəfindən ciddi tədbirlər görülür.

**Könüllü ordu rəsmi xəbərləri**

İyulun 29-da Şimali cəbhədə təbəddülatsızdır [dəyişiklik yoxdur]. Poltava səmtində hissələrimiz hücum ilə Poltavanı işğal etmişlərdir. Yekaterinoslav dairəsində kəşfiyyat əməliyyatı davam edir. Aleksandrovsk səmtində adi atışma davam etməkdədir.

**Malorossiyada üsyan**

Son zamanlarda Sokolovski fəaliyyətinin dairəsini vüsətləndirməkdədir. Kiyev və ətrafında dolanaraq mumaileyh [adı çəkilən şəxs] başqa dəstələrlə bir yerdə Çerniqov quberniyasının bir hissəsini işğal etmişdir. Çerniqov dəstəsi Desna çayı ətrafında artıq fəaliyyət ibraz edir [göstərir]. Üsyançılar qırmızıların cəza dəstələrini neçə dəfə məğlub etmişlərdir. O cür bir məğlubiyyətdən sonra Sokolovski Çerniqov şəhərinə daxil olub külli miqdarda kommunistlər tələf etmişdir.

Kiyev dəstəsi isə şəhərin yaxınlığında qalaraq Kiyev-Odessa dəmiryol xəttinin ətrafında işləməkdədir.

Cənubdan Kiyevi Yaşıl dəstə təhdid edir. Dəstənin qərargahı Dnepr çayının üstündə olan Tripolyeyə köçürülmüşdür. Bu dəstənin hərəkatı qırmızı qoşunu şiddətli tədabir ittixazına [tədbirlər görməyə] məcbur etmişsə də, səyləri nəticəsiz qalmışdır. Tripolye ilə Çerkassı arasında Strukun dəstəsi iş görməkdədir. Həmin dəstənin şüarı: "Qəhr olsun Şura Hökuməti! Yaşasın Könüllü ordu!"dur. Strukun dəs-

təsi zabitandan, ziyalılardan və kəndçilərdən mürəkkəbdir [ibarətdir]. Çerkassı ilə Çigirin arasında Bek ilə Angelin dəstələri müvəffəqiyyətlə əməliyyatda bulunur. Belaya Tserkov səmtində Trepovun dəstəsi qırmızılar tərəfindən məğlub edilmişdir. Üsyan hərəkatı Volin tərəfinə sirayət etməkdədir.

- Yelizavetqrad qoşunu ilə inadlı müharibədən sonra bir həftə bundan qabaq [Ataman] Qriqoryevin dəstəsi şəhərə daxil olmuşdur. Bunların şəhərə daxil olmağı əhali üçün heç bir yüngüllük gətirməmişdir. Çünki üsyançılar qətl və qarət etməyə durmuşlar.

- Şestakov mövqifində [stansiyasında] Qırmızı qoşunlar hücumla qriqoryevçiləri qaçmağa məcbur etmişlərdir. Qriqoryevin dəstəsi lazım olan nizam üzrə gündə 60-70 verst gedir. Amma, çifayda, dəstənin quldurçuluq hərəkatı əhalini ondan kənar edir. Ondan əlavə, indiyədək Qriqoryevin siyasi proqramı hələ məlum deyildir.

- Vinnitsa səmtində məğlub olub Moqilyov-Podolski tərəfinə qaçmış Petlyura hücum təşəbbüsatındadır. Qırmızılardan üçqat artıq qüvvəyə malik olan Petlyura düşməni Raxnı mövqifindən Yaroşenkaya, buradan da Jmerinka mövqifinə ricətə [çəkilməyə] məcbur etmişdir.

**XÜSUSİ TELEQRAF**

*(Öz müxbirimizdən)*

Şuşadan idarəmizə teleqraf edirlər ki, Qarabağ həyatında ayın 29-u və 30-da yeni məsud günlərə təsadüf etdik. Bu günlər Qarabağ öz ərazisində ən əziz və sevgili müsafirimiz olan Azərbaycan Cümhuriyyəti Rəisi-Vükəlası [Baş naziri] Yusifbəyli və Hərbiyyə naziri general Mehmandarovu ziyarət etmək səadətinə yetişdi.

Həman günlər əziz müsafirlərimiz öz məiyyəti [müşayiət edən şəxslər] ilə və Gəncə qubernatoru [Xudadad bəy] Rəfibəyovun müşayiəti ilə Qarabağa gələrək ayın 29-da Xankəndinə varid oldular [çatdılar]. Orada qoşunlara rəsmi-keçid mərasimi icra edildi. Rəsmi-keçidi Rəisi-Vükəla həzrətləri qəbul etdilər. Əsgərlərin rəsmi keçidindən sonra mütəəddid [müxtəlif] prizlər ilə böyük Cıdır mərasimi (skaçka) oldu. Cıdırda heyəti-zabitan dəxi iştirak edirdi. Hərbiyyə naziri həzrətləri pək məmnun qaldılar və qoşun heyəti-zabitanı ilə mühafizə əsakiri [əsgərləri] rəisinə bəyani-təşəkkür etdilər. Burada bəzi nitqlər dəxi irad edildi [nitqlər söyləndi]. Gurultulu "ura" və "yaşasın" sədaları altında sevgili vətənimizin nəşvünüması [çiçəklənməsi] və səadəti və Cümhuriyyətimizin tərəqqi və təalisinə [ucalmasına] çalışan pişrovlarımızın [rəhbərlərimizin] sələməti üçün nitqlər söylənir, qədəhlər qaldırılırdı.

Ayın 30-u səhər saat 10-da əziz müsafirlərimiz Şuşa şəhərinə varid oldular. Şəhər hasarlarından başlanmış ortasınadək hər yerdə taqi-zəfərlər [zəfər tağları] qurulmuş, küçə və bazar, evlər, balkonlar həp qiymətli xalılar, çiçəklər və bayraqlarla təzyin edilmişlərdi [bəzədilmişdi]. Şəhərə daxil olduqda ruhanilər və əhali tərəfindən əziz qonaqlara duz-çörək təqdim və "xoş gəldin" mərasimi icra edildi.

Müsafirlər buradan Hürriyyət meydanına gələrək rəsmi-keçid icra edildi və oradan piyada olaraq böyük məscidə azim oldular [yollandılar]. Mollalar və camaat tərəfindən hərarətli və məhəbbətli nitqlər irad edildi.

Cavabi nitqində Rəisi-Vükəla həzrətləri Azərbaycan türklərinin sair millətlərlə sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamaları lazım gəldiyini qeyd buyurdular. Çün sülh və müsalimət, nizam və asayiş olmadıqca, vətən yaşayıb tərəqqi edəmməz. Bundan sonra avtomobildə erməni hissəsinə rəvan oldular. Erməni kəlisasında yepiskop (keşiş) müsafirləri duz-çörəklə qarşıladı. Yepiskop türkcə pürməna [mənalı] bir nitq söyləyərək ermənilərlə türklərin dinc, səlamət yaşamaları lüzumunu tarixi dəlillərlə isbat edirdi. Erməni bazarında iki dənə gözəl alaqapı bəzənmişdi. Alaqapılar üzərində "Yaşasın Azərbaycan Cümhuriyyəti!" yazılmışdı.

Rəisi-vükəla və Hərbiyyə naziri qışlaları [kazarmaları] gəzdilər. Saat 2-də rəsmi hüzura qəbul başlandı. Saat 3-də general-qubernator [Xosrov bəy] Sultanovun evində qəlyanaltı verildi. Saat 7-də klubda nahar başlandı. Nahara 200 adam iştirak edirdi. O cümlədən bütün sinif və təbəqə nümayəndələri hazır idilər. Yemək vaxtı vətənimizin səadəti şərəfinə Rəisi-vükəla və Hərbiyyə naziri həzrətlərinin və ümum hökumət əzası [üzvləri] və general-qubernator şərəfinə, Qarabağda ermənilərlə türklərin sülh və müsalimətlə yaşamalarına nitqlər irad edilib, qədəhlər qaldırıldı.

Erməni əhali tərəfindən Kalantarov bir nitq irad edərək bu yaxınlarda Qarabağda vüqu bulmuş olan fəna hərəkətlərin bir daha baş verməyəcəyinə erməni əhali namından söz verdi. Bundan əlavə ermənilər Parlaman kürsüsündən qeneral-qubernator və əsgərlərimiz haqqında söylənən həyasız iftira və böhtanları qəti surətdə təkzib edərək, bu nitqləri söyləyənləri Qarabağ ermənilərinin mütəəssib [təəssübkeş] millətçi düşmənləri adlandırdılar.

Gecə saat 2-də yemək qurtarıb gurultulu "ura" sədası içərisində müsafirlər evlərinə qayıtdılar.

## QƏZETƏLƏRDƏN

**Əmir Faysalın bəyanatı**

İskəndəriyyə 10 - (T. H. R.) - Əmir Faysalın əhaliyə xitabən bərvəchi-ati [aşağıdakı] bəyanatı nəşr etdiyi Şamdan bildirilir:

*"Beş ay qeybubətdən [yoxluqdan] sonra övdət etdim [qayıtdım]. Mətalibatınızdan [tələblərinizdən] Qərb aləmi-mədəniyyətini xəbərdar eylədim. Əsas etibarı ilə məmləkətimizin istiqlalı təqərrür etmişdir [qərar tapmışdır]. Arzularınızı kamali-sədaqətlə nəql edib-etmədiyimi təhqiq etmək üzrə bir-iki həftəyə qədər bir təhqiqat komisyonu gələcəkdir. Bu surətlə dörd dövləti-müəzzəmənin [dörd böyük dövlətin] hüsn-niyyəti, sözlərinə sədaqəti, düsturül-əməl ittixaz etdikləri əsasati-aliyyəyə [rəhbər tutduqları ali prinsiplərə] riayətkar bulunmaları nəticəsində proqramımızın qismi-əzəmi qövldən feilə isal edilmişdir [sözdən əmələ keçirilmişdir]. Şimdi daxili proqramımız qalır ki, bu da mil-*

*lətin kəndi işidir. Bu xüsusda bütün məsuliyyət kəndisinə race [aid] olduğu kimi, müvəffəq olmaq üçün də hər dürlü vəsaitə malik bulunmaqdadır. Əhalinin vəzifəsi ictima edəcək [yığışacaq] olan Suriya Ümumi Konqresinin müqərrəratını [qərarlarını] icra etməkdir. Millətlər müvəffəq olmanızı arzu edir və mən də istiqlala layiq, kəndi ümurunuzu təmşiyətə [işlərinizi aparmağa] müqtədir olduğunuzu və iddia edildiyi kimi alınar-satılar qiymətsiz bir sürü olmadığınızı, lehinizdə-əleyhinizdə bitərəfanə şəhadətdə bulunacaq olan beynəlmiləl komisyona isbat etmənizi təmənna [arzu; xahiş] edirəm. İstiqlal məfkureyi-aliyyəsi üçün hər dürlü fədakarlığı ixtiyar edəcək bir qövm olduğunuzu cahan və tarixə qarşı elan ediniz. Bu məfkurənin hayyiz-arayi-hüsul olması [ən yaxşı surətdə gerçəkləşməsi] üçün mən də sizinlə təşriki-məsai edirəm [sizlərlə birgə çalışıram]. Hürriyyət və ədalət qəhrəmanları olan əcdadınızın əsil [əsilli-köklü] övladları olduğunuzu isbat edəcəyinizdən əminəm. Tarix, əcdadınızın şan-şərəfinə bir şahidi-adildir."*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

### İngilis Komandanlığına verilən nota

"Rusiya" qəzetəsinin 30 iyul nömrəsində Kaspi donanmasının Dabravollara verilməsi haqqında çıxan məlumatdan dolayı Azərbaycan Hökuməti İngilis Komandanlığına bir böylə nota vermişdir:

30 iyulda "Rusiya" qəzetəsində çıxan və surəti təqdim edilən bir məlumat nəşr edilmişdir ki, Kaspi donanması Dabravollara verilirmiş. Daima dövlət ərazisinin tamamiyyəti [bütövlüyü] mühafizəsində durmuş və məmləkətdə asudəliyi müdafiə etməyə səy edən hökuməticümhuriyyə kənardan məmləkətin tamamiyyətinə xələl yetirə biləcək bir qüvvətin Kaspi donanması ilə təqviyyəsinə [qüvvətlənməsinə] yol verəmməz. Zira, bu vaxtadək donanma əhalinin itminanını havi [inamını qazanmış] İngiltərə Komandanlığı əlində idi. İşbu donanmanın Azərbaycanın əleyhində olan Dabravollara verilməsi Azərbaycanın istiqlaliyyət və tamamiyyəti-mülkiyyəsinə bir hədə kimi tələqqi edəcəkdir [qiymətləndiriləcəkdir]. Binaənileyh [ona görə], işbu məsələ xalq miyanında [arasında] təbii ki, həyəcana səbəb olacaqdır. Siz ilə müsahibəyə istinadən işbu həqiqət əleyhinə ciddi etirazla rica edirəm ki, işbu zəmində baş verə biləcək həvadisin [hadisələrin] önünü almaq qəsdi ilə Kaspi donanmasının bir hissəsinin Dabravollara verilməsi haqqındakı qərardadın təsfiri [ləğvi] haqqında iqdamatda [təşəbbüsdə] bulunulsun.

## BİR MÜSAHİBƏ

Bu günlərdə müəllim nümayəndələri Maarif naziri Qaplanov həzrətlərini ziyarət edərək bərvəchi-ati müsahibədə bulunmuşlardır:

*İsrafilbəyov (Bakı Türk Müəllimləri İttifaqının sədri)* - Avqust ayının 20-dən başlanacaq Azərbaycanda mövcud türk müəllimləri ittifaqlarının qurultayına sərf etmək üçün raporla 36 min rublə istədik.

Vəkiliniz Nurməhəmməd Şahsüvarov cənabları müvafiqət [razılıq] göstərdilər. Bilməyirəm məzkur [deyilən] məbləğ[in] buraxılmasına əmin ola bilərizmi?

*Maarif naziri* - Şimdilik mənim rapordan və istədiyiniz paradan xəbərim yoxdur. Maarif Nəzarətinin maarif cədvəlində qurultaylara para buraxmağa səlahiyyət verəcək maddə yoxdur. Fəqət məzkur paranı hökumət[dən] ala biləriz.

*İsrafilbəyov* - Keçən cümə təmmuz ayının 25-də İttifaqımız tərəfindən Mart hadisəsində şəhid düşmüş və əcəli ilə vəfat edən müəllim arxadaşlarımızın istirahəti-ruhu üçün əza məclisi tərtib olundu və Yasin tilavət edildi [oxundu]. Maarif Nəzarətinə, zati-alilərinizə böyük pədərimiz [atamız] olduğunuzdan xüsusi dəvətnamələr göndərdik, vürudunuzu [gəlişinizi] çox bəklədik. Fəqət nə zati-aliləriniz, nə də Maarif Nəzarətindən bir nümayəndə olsun belə təşrif gətirmədiniz. Təşrif gətirməmənizdən dolayı müəllimlər çox təəssüf etdilər.

*Maarif naziri* - Əfəndim, mən dəvətnamə almadım. Alardımsa hər halda gələrdim. Kondratyevi çağıralım, baxalım nasıl işdir. (Maarif naziri, Kondratyevə:) Türk Müəllimləri İttifaqı dəvətnamə göndərmiş, nasıl oldu ki, mən görmədim?

*Kondratyev* - Dəvətnamə təmmuz 24, saat 2 ½-də gəldiyindən zati-alilərinizə ərz edəmmədim.

*Maarif naziri* - Mən sizə tənbeh etdim ki, məmurlar sıra ilə Nəzarətdə növbətçi olmalıdırlar. Binabərin [buna görə], həman siyahı tərtib edərək növbətçiləri yaz və bu gündən, hər halda Nəzarətdə növbətçi məmur bulunacaqdır. Növbətçi məmur kağızlardan məni xəbərdar etməlidir. İştə o qədər, gedə bilərsiniz. *(Kondratyev gedir.)*

*Axundzadə İdris (Gəncə vilayəti Türk Müəllimləri İttifaqının sədri)* - Şəhər məktəbləri müəllimlərinin maaşları Maarif Nəzarətinə tabe müəllimlərdən az olduğu məlumi-alinizdir. Şəhər müəllimlərinin maaşlarının hökumət müəllimlərinin maaşları ilə bərabərləşdirilməsi və təfavütləri isə hökumət məktəbləri misillü [kimi] yanvar ayının 1-dən hesab olunması üçün Gəncə Bələdiyyəsinə yazdınız, fəqət Bələdiyyə İdarəsi təklifinizi qəbul etmədi. İttifaq namına rica edirəm, şəhər məktəblərini himayənizə alaraq, maaşlarının artması və təfavütlərin isə yanvarın 1-dən verilməsi barəsində tədabiri-lazimədə bulunasınız. Səriyyən [dərhal, sürətlə] tədabiri-lazimə ittixaz olunmazsa, gələcək sənə bütün şəhər məktəbləri şübhəsiz qapanar.

*Maarif naziri* - Şəhər məktəblərinə sərf etmək üçün bələdiyyə idarələri hökumətdən təxsisat istəyirlər. Təxsisat verərkən müəllimlərin həyatını təmin edəcək şərtlər qoyacağız. Zənnimcə, şəhər idarələri tezliklə bizim şərtlərimizi qəbul edərlər və müəllimləri razı edərlər.

*Axundzadə* - Biz arzu edirdik hökumət şəhər məktəblərini kamilən təhtiidarəsinə [tabeliyinə] alaydı. Məzkur məktəblər Nəzarət idarəsində olarsa, maddətən və mənən təmin olunar. Öylə olmazsa, pedaqoji elmindən anlamayan Bələdiyyə rəisi keyfi istədiyi məktəbi açar, keyfi istəsə qapar. Ağlı kəsən adamları müəllim yapar.

*Nazir* - Əfəndim, biz bütün idarələri camaatın öz əlinə vermək istəyirik. Hərgah, öylə olarsa, bələdiyyə haqqı qəsb olunmuş olar.

*Axundzadə* - Məktəblərə baxmaq üçün bələdiyyələrdə pedaqojidən anlar Məkatib [Məktəblər] Komisyonu lazımdır. Gəncə Bələdiyyə Şurasında bir dənə də olsun türk müəllimlərinə yer verilməmiş. Binabərin, Gəncə Bələdiyyəsinin məktəb idarə etməsi böyük bir xətadır.

*Nazir* - Gələcəkdə bütün işlər yoluna qonular.

*Axundzadə* - Gəncə edadi proqramında mədrəsə bulunduğunu bilirsiniz. Məzkur mədrəsənin adı "Diniyyə" və yaxud "Şər'iyyə" olduğundan Ədyan və Məzahib [Dini Etiqad] Nəzarətinə tapşırılmış. Fəqət bu gün Gəncə vilayətində müqtədir türk lisanı müəllimləri mədrəseyi-diniyyə müəllimləridir. Bu sənə mədrəsədə xidmət edən müəllimlər çox az maaşla dərsə davam etdilər. Şimdi mədrəsənin smetası edadilərdən əksik hesab olunmuş. Məsələn, edadilərdə həftəlik dərs min rublədən hesab olunduğu halda, mədrəsə müəllimləri iki sinfə bölünmüş, ali şəhadətnaməsi olanlara həftəlik bir dərsinə 800 rublə, orta məktəb tamam etmişlərə isə 700 rublədən hesab olunmuş. Edadi məktəblərdə mürəbbilik haqqı 5600 olduğu halda, mədrəsədə 3600 manat verilir. Böylə olarsa, mədrəsədə mövcud müqtədir müəllimlər xidmətlərini tərk edərlər və yenidən qüvvətli müəllim mədrəsəyə girmək istəməz. Hər halda, mədrəsənin smetasını edadi məktəblərin smetası ilə bərabərləşdirməli, Ədyan və Məzahib Nəzarətinə və yaxud Məşixətə [Şeyxülislamlıq İdarəsinə] deyil, doğruca Maarif Nəzarətinə tabe etməlidir.

*Nazir* - Gəncə mədrəsəsi edadi proqramında olduğundan, əlbəttə, Maarif Nəzarəti ilə sıxı münasibətdə bulunmalıdır. Ruhani idarələr, ruhani məktəblərin işi müstəqil və ayrıca bir işdir. Doğrusu, Ədyan və Məzahib Nəzarətinə aid məsələlərlə hələlik aşna olmamışam. 5-10 günə qədər Ədyan və Məzahib Nəzarəti barəsində hökumətə məruzə hazırlayaram və mədrəsənin ehtiyacı bərtərəf edilməsi [aradan qaldırılması] üçün də çalışaram.

*Axundzadə* - Gələcək sənə xristian siniflərində türk dərsi tədris olunacaqdırmı? Bizcə, millətimizin balalarına tərbiyə etmək üçün müqtədir müəllimlərə ehtiyacımız çoxdur. Müəllimlər yoxluğundan bir çox məktəblərdə bir çox milliləşmiş siniflər qapanmışdır. Binabərin, xristian siniflərindən türkcəni qaldırmalıdır. Xristian siniflərində dərs verən müəllimlərimizi milli siniflərə göndərməliyiz.

*Nazir* - Azərbaycan qrajdanlarını [vətəndaşlarını] lisani-rəsmidən məhrum etmək olmaz. Məncə, xristian siniflərində türkcə olması vacib məsələlərdəndir.

*Axundzadə* - Əbəveyn [valideyn] cəmiyyətlərində əksəriyyəti xristianlar təşkil edirlər və canları istədiyi məsələləri əksəriyyətlə edadilərdə heyəti-tədrisiyyə şurasında keçirirlər. Və bir çox dəfələr hökumətimizin əleyhinə və amali-milliyyəmizə uymayan işlər görürlər. Binabərin, əbəveyn cəmiyyətlərinin hüquqlarını təyin edəcək yeni sirkulyar nəşr etmənizi çox arzu ediriz.

*Nazir* - Bu saat hökumət və nəzarət daha böyük və mühüm məsələlərlə məşğuldur. Əbəveyn cəmiyyətlərinin məsələsi üçüncü və dördüncü sıra məsələlərindəndir. Gələcəkdə, əlbəttə, əbəveyn cəmiyyətlərinin hüququ vazeh [açıq] surətdə yazılacaqdır.

*Axundzadə* - Məktəblərdə və idarələrdə genə çar hökumətinin möhürü istemal [istifadə] olunmaqdadır. Neyçin Azərbaycan möhürləri tərtib olunması üçün əmr verməyirsiniz?

*Nazir* - Şimdilik, Azərbaycan Hökuməti təzə gerb, möhür qəbul etməmiş. Ona binaən [ona görə], əski möhürlər dəyişməyibdir.

*Axundzadə* - Nəzarətinizdə səkkizguşəli ulduz ilə hilallı möhürünüz vardır. Məktəblər də öylə yapmalıdır.

*Nazir* - Hilal içərisində səkkizguşəli ulduz Azərbaycan Cümhuriyyəti gerbi deyildir.

*Axundzadə:* - Qeyri nəzarət məmurlarına iaşə verilir. Nədənsə Gəncə müəllimləri, ələlxüsus xalq müəllimləri iaşədən məhrumdurlar. Hər halda İttifaq əli ilə müəllimlərə iaşə verilməlidir.

*Nazir* - Bakıda Müəllimlər İttifaqı vasitəsilə müəllimlərə iaşə verilir. Gəncə mərkəzdən uzaqda olduğundan, olsun ki, alammayır. Təşkil olunacaq mərkəzi Azərbaycan Müəllimlər İttifaqı vasitəsilə Gəncə müəllimlərinə də gələcəkdə kamilən iaşə verilməsi üçün tədabiri-lazimədə bulunarız.

*Axundzadə* - Yeni smeta mövcibi [smetaya əsasən] edadilərdə dərs verən müəllimlər sinfə ayrılmalıdırlar. Edadi müəllimləri kamilən həftəlik bir dərsə 1000 rublə alırlar. Eşitdiyimizə görə, Maarif Nəzarəti maaşları təzədən artırır və əski qayda üzrə müəllimləri genə iki sinfə bölür: ali şəhadətnaməsi olanlar və orta şəhadətnamə olanlar. Alilərə hər dərsə 1500 rublə, orta məktəb tamam etmişlərə isə hər dərsə 1300 rublə verməyi qərara almış. Bizcə, zəhmət nəzərə alınmalıdır. Orta məktəblərdə dərs verməyi bacaran müəllim şəhadətnaməsi olmasa da, diplomalı müəllimlərlə bərabər maaş almalıdır. Və bir də məlumi-aliniz ya, islam və türk müəllimlərinin kamilən diplomları yoxdur. Zira, bu günə kimi Azərbaycanda türk darülfünunu [universiteti] olmadığından, diplomlu türk müəllimi də bulunmayır. Yenidən edadilərdə müəllimləri sinfə bölərsəniz, xristian müəllimləri nəfbərdar olacaqdır [faydalanacaqdır]. Türk müəllimlərinin könlü qırılacaq və maddətən qeyb edəcəkdir. Əvvəlki qərar üzrə edadi müəllimlərinə müsavi [bərabər] maaş verilməsini arzu ediriz.

*Nazir* - Mənim və hökumətimin nöqteyi-nəzəri bu barədə bambaşqadır. Heç vaxt edadilərdə bütün müəllimlər bərabər tutulammaz. Diplomlularla diplomsuzlar arasında fərq olmalıdır. Fərq olmazsa, edadilərdə dərs verən diplomsuz türk müəllimləri diplom almaq üçün səy, qeyrət etməzlər. Biz maddətən təfavüt qoymaqla, türk müəllimlərini diplom almağa təşviq etməyi arzu ediriz. Tezliklə Maarif Nəzarəti cənbində [nəzdində] bir komisyon təşkil olunacaqdır. Türk müəllimlərindən müqtədirləri həman komisyonda müayinə olunduqdan sonra müəyyən proqramla imtahan versələr, onlar da diplomlu hesab olunacaqdır.

*Axundzadə* - Milliləşdirmək üçün təzə nə kimi təşəbbüsünüz vardır?

*Nazir (yerindən hərəkət edərək):* - İştə, verdiyiniz sualların ən mühümü və ən ağırı budur. İdarələrimizi idarə edəcək gözəlcə türkcə bilən məmurlarımız yoxdur. Dəftərxana işi böyük bir işdir. Binabərin, idarələrimizi hələlik milliləşdi-

rəmməyəcəyiz. Məktəblərə gəldikdə, rüşdiyyə və ibtidailər milliləşdirilmişdir və milliləşdiriləcəkdir. Fəqət orta məktəbləri milliləşdirmək məsələsi çox ağır məsələdir. Fəqət hər halda milliləşdirmək istəyiriz. Bakıda 1 və 4-cü gimnaziyaları, Realnını, Azərbaycan[ın] qeyri şəhərlərində mövcud qız və oğlan edadilərini kamilən milliləşdirmək istəyiriz. Fəqət müəllim yox. Hər halda müəllim bulub ciddi surətdə məktəbləri milliləşdirməyi arzu ediriz. Baxalım, nasıl olacaqdır.

*Axundzadə* - Bizcə, idarələri aşağıdan milliləşdirmək mümkündür. Maarif Müfəttişliyi övraqi-rəsmiyyələrini [rəsmi sənədlərini] türkcələşdirməlidir. Bu günə qədər genə övraqlar rusca yazılır. Pristavlara Maarif müfəttişi tərəfindən gələn rusca əmrləri islam camaatı və türk müəllimi anlamayır. Hər halda Maarif müfəttişlərinə övraqi-rəsmiyyələrini türkcələşdirməsi barəsində əmr verməlisiniz. Maarif Nəzarəti Dəftərxanasına da türkcə bilir məmurlar bulunar zənn edirəm.

*Nazir* - Maarif Müfəttişliyi övraqları türkcələşdirməsi üçün binagüzarlıq olunar [sərəncam verilər]. Gözəl türkcə bilənlər ancaq müəllimlərdir. Müəllimləri də dəftərxanalara alarsaq, məktəblərdə dərsi kim verər?

*Axundzadə* - Son sualım ümumiyyətlə ittifaqlara aiddir. Hürriyyətdən istifadə edərək Azərbaycanda mövcud türk müəllimləri sinifcə birləşib ittifaqlar yapmışlar. Nəzarət ittifaqlara nə nəzərlə baxır? İttifaqların təşkil olunması hökumətə və millətə xeyirlidirmi?

*Nazir* - İttifaqların təşkili xeyirdən xali [xeyirsiz] deyil. Təşəbbüslərinizi alqışlayırız və təbrik ediriz. Cənabi-Allah ittifaqlarınıza tövfiq versin [kömək olsun].

*Axundzadə* - Təciz [narahat] etdiyimizdən dolayı əfvinizi istirham ediriz - deyərək Maarif naziri həzrətlərinin əllərini sıxaraq xudahafizləşdik.

*İdris [Axundzadə]*

## RƏİSİ-VÜKƏLA VƏ HƏRBİYYƏ NAZİR[İ] HƏZRƏTLƏRİNİN QUBA QƏZASINI TƏŞRİFLƏRİ

**Dəmiryolunda**

23 təmmuzda Qubaya təşrif gətirməkdə olan Heyəti-Vükəla rəisi [Baş nazir] Yusifbəyli Nəsib bəy və Hərbiyyə naziri general Mehmandarov həzrətlərini Quba qaimməqamı [qəza rəisi] polkovnik [Əmir xan] Xoyski əfəndi Suqayıttı mövqifində [stansiyasında] istiqbal edir [qarşılayır]. Milli bayraqlar, əlvan çiçəklər və yaşıl şaxlarla [budaqlarla] donadılmış Qızılburun mövqifinə qatar yaxınlaşdıqda gecənin bağrını yararaq: "Yaşasın Azərbaycan! Yaşasın Sədri-əzəm [Baş nazir], yaşasın Hərbiyyə naziri Səməd bəy!" sədaları ilə möhtərəm müsafirləri qarşılarlar.

Vaxtın gecliyinə, gecənin yarıdan ötməsinə (gecə saat 2) baxmayaraq, ta uzaq köylərdən gəlib böyük qonaqları ziyarət etmək istəyən əhalini Rəisi-Vükəla həzrətləri salamlayaraq müşfiqanə bir təriq ilə əhvallarını istifsar buyururlar [mehriban bir şəkildə hallarını soruşurlar].

Hər tərəfi təzyin edilib [bəzədilib] Azərbaycan üçrəngli bayraqları təməvvüc

edən [dalğalanan] Dəvəçi istasyonunda böyük qonaqlarımız qaimməqam baş müavini Səlim bəy Ağakişibəyov, Quba mövqe komandanı Məhəmməd bəy Məhəmmədbəyov, Əxzi-əsgər heyəti, Dəvəçi pristavı və bir çox toplanmış əhali tərəfindən "Ura" və "Yaşasın" sədaları altında istiqbal edilirlər.

Çarxı mövqifində yığılmış əhali, qatarı "Ura, yaşasın!" sədaları ilə qarşılayaraq ali müsafirləri təbrik edirlər. Qanlı daşnak əlləri ilə xarab edilmiş Xaçmaz istasyonu isə tanılmaz bir mənzərə almışdı. Guya keçirmiş olduğu fəlakətli günlərin intiqamını alır, təlafiyi-mafat edərək [itirdiklərinin əvəzini çıxaraq] bayram saxlayırdı. Hər tərəf çiçəklərə bürünmüş, səbzşax [yaşıl] budaqlarla donadılmışdı. Üzərində tam bir türk qüruru ilə ləngərəndaz olan [dalğalanan] milli bayraqlarımızın görünüşü, çiçəklər və yaşıllıqlar içindən sevimli çöhrəciklərini göstərən mini-mini bayraqcıqların ehtizazı [titrəyişi] nəzərə başqa zövq, dimağa [şüura, zehnə] ayrı bir nəşə verirdi.

İstasyon salonu içərisi daha dilnəvaz [könlü oxşayan] bir əda ilə süslənmiş, qiymətli xalı və parçalarla təzyin edilmişdi. Səfbəsteyi-ehtiram olaraq [ehtiramlı bir şəkildə cərgəyə düzülüb] mühafizəyə çıxmış əsgəri qitəatımızda [hərbi hissəmizdə] gözə atılan ruh yüksəkliyi həman bayram vəziyyəti ilə ahəngdar olaraq mənzərəyə daha mütəntən [təntənəli] bir əda bəxş edirdi.

Çöl işlərinin qızğın zamanı olduğu üçün hər dəqiqəsinin qiymətli olmasını nəzərə almayaraq yalnız hökumətləri rəisini və qəhrəman generallarını ziyarət etmək iştiyaqı [şövqü] ilə toplanmış əhali şənliklər yapır, dürlü Azərbaycan nəğmələri ilə tərənnümsaz olan musiqiçiləri (tar və zurna) alqışlayırdı.

Sübh saat 4 radələrində (təmmuz 24) ətrafa vəlvələəndaz olan [vəlvələ salan] "Ura! Yaşasın Rəisi-Vükəla! Yaşasın Səməd paşa! Yaşasın Azərbaycan!" sədaları altında möhtərəm zəvatı [şəxsləri] hamil olan [aparan] qatar Xaçmaz istasyonuna daxil olur. Rəisi-Vükəla həzrətləri əsgəri hissələri salamlayaraq istasyon komandanından bəratülqövl (raport) qəbul edirlər və sonra əhaliyə müraciətlə buyuraraq:

*"Təşəkkürlər olsun ki, görüşdük. Sizin vətən və hökumətinizə olan məhəbbət və ehtiramınızdan fövqəladə məmnunam. Onu bilməlisiniz ki, idraki-milliyyəsi olub vətənpərvərlik hissləri bəsləyən bir millət nə arzu edərsə nail ola bilər və şu hissləri bəsləyən bir millətə, xalqa istinad edən hökumət də kəndi fəaliyyətində müşkülata uğramaz.*

*Hüququ qəsb edilib müstəbid əllərlə boğulan millətimizin içində nə qədər qəhrəmanlar olduğunu və millətimiz əfradının [fərdlərinin] qəlbləri dərinliklərində nə qədər atəşin hisslər gizləndiyini bu axır zaman hadisələri isbat etdi. Quba əhalisi də vətənpərvərlikdə başqalarından geridə qalmadıqlarını bir çox fədakarlıqlarla göstərdilər.*

*Mən sizdə olan bu hiss və fədakarlıqları görməklə kəndimi bəxtiyar ədd [hesab] edirəm. Yəqinimdir ki, bu vaxta qədər hökumətin hər arzusunu açıq qollarla qarşılayan millətimiz min-bəd [bundan sonra] daha artıq şövq və həvəslə kəndi müməssilləri [təmsilçiləri] olan hökumət və Parlamanlarına yardımçı ola-*

*caq, millətimizi rifahi-hal və səadətə yetirmək, vətənimizi istədiyimiz nöqtəyə vardırmaq üçün lazım olarsa daha böyük fədakarlıqlardan da çəkinməyəcəkdir. O da məlumunuz olsun ki, hökumət qapıları həmişə xalq üçün açıq və millətimizin dərdlərini dinləməyə həmişə hazırdır."* – yollu müxtəsər bir nitq irad edirlər.

Rəisi-Vükəla həzrətlərinin nitqləri qulaqları çınlatan alqışlar və "Yaşasın" sədaları altında xitam bulur. Əhali tərəfindən möhtərəm qonaqların şərəfinə iki heyvan zəbh [qurban] edilir və yenə "Ura! Yaşasın!" sədaları altında şöməndüfər qatarı Xudata tərəf hərəkətə başlayır. Qusarçay mövqifində dəxi qatar yığılmış əhali tərəfindən "Yaşasın!" sədaları ilə istiqbal edilir.

Xudat mövqifi həmçinin gözəl bir tərz ilə donadılmış, istiqbala çıxmış əhali müsafir əfəndiləri təbrik qılmışlardır. Xudatda möhtərəm müsafirlər məiyyətlərində bulunan avtomobilə rakibən [minərək] Qusara əzimət buyurmuşlardır [yola düşmüşlər].

*(mabədi yarın)*

*H. R.*

## ŞƏRUR-NAXÇIVAN MƏSƏLƏSİ

**7**

Azərbaycandan Naxçıvan və ətrafına deleqat [nümayəndə] göndərilmiş [Mirabbas] Mirbağırzadə Bakıya qayıtdıqdan sonra, o zaman Azərbaycan Rəisi-Vükəlası [Baş naziri] bulunan Fətəli xan cənablarına bir bəyanat yazıb hazırladı.

Bəyanat – Yevlaxdan başlayıb Bərdə, Ağdam, Qarabağ, Cəbrayıl, Zəngilan və Naxçıvana qədər Azərbaycan daxiliyyəsinə məxsus siyasi, ictimai, ticari, sövqülceyşi [strateji], zirai, post, teleqraf, şose və topoqrafi kimi əhəmiyyətli mətalibə [mətləblərə] dair məlumat verirdi. Eyni məal [məzmun] ilə də Naxçıvan, Ordubad, Şərur, Vedi, Sürməli tərəflərinə aid müfəssəl məlumatı havi idi [əhatə edirdi].

Bu əsnalarda Bakıda Biçeraxov kazakları, Prjevalski, Hamazasp dəstələri həyasız hərəkətləri ilə bir tərəfdən Azərbaycan Hökumətini şiddətlə məşğul etmişdi, digər tərəfdən də firqələrimizin dəhşətli rəqabətləri səbəbi ilə Kabinə böhranı başlanıb sandaliyə [kreslo] fikrinə dalmaqla hökumət əzalarında [üzvlərində] süstlük hasil olmuşdu.

Azərbaycan Hökumətinin nəzəri-diqqətini hər dəfədə Naxçıvan və ətrafı müsəlmanlarının halına cəlb etməyə müvəffəq olan İrəvan quberniyası müsəlmanlarının Bakıda Həmtorpaqlılar Cəmiyyəti idi. Bu əsnalarda Qasım Camalbəyovun cəmiyyət əleyhinə başladığı hücumları səbəbi ilə İrəvan quberniyası müsəlmanlarının yeganə və həqiqi müdafiəçisi bulunan bu cəmiyyətin fəaliyyəti də səktəyə [durğunluğa] uğradılmışdı.

Bu kimi səbəblərdən dolayı Naxçıvan məsələsi rəyi-amm [referendum] ilə hasil olan Naxçıvan-Şərur camaatının arzu etdikləri kimi tezliklə həll ediləmmədi. Naxçıvandan göndərilmiş deleqatlar da qayıtmadılar, hökumət dairələrində qulluq tapıb Bakıda qaldılar. Həman bu keçən müddətlər uzunu Naxçıvan və Şərur ətrafı müsəlmanları Azərbaycan Hökuməti tərəfindən bir məlumat alammadıqları kimi, göndərdikləri deleqatları da qayıt-

madıqlarından intizarlıqdan intizarlıq içində qaldılar.

Azərbaycan Hökumətinin məşğuliyyətindən və Naxçıvan həvalisinə [ətrafına] az əhəmiyyət verməsindən Azərbaycan və Naxçıvanın zərərinə olaraq İngilis Komandanlığı və Erməni Hökuməti istifadə etməyə başladılar. Azərbaycan Hökuməti isə bura qaçqınlarına paylanmaq üçün pul təxsis etdi [pul ayırdı] və bunu əncama yetirmək üçün də Rəşid İsmayılov, Teymur bəy Makinski və Həmid Qənizadədən ibarət bir heyət göndərildi və təxsis olunan milyon pul da bunlara tapşırıldı.

Genə Naxçıvan həvalisi müsəlmanlarının taleyindən olmalıdır ki, qaçqınlarına və ehtiyaclarına göndərilməkdə olan bu pul da bu dəfə Tiflisdə dolaşdı. Həm də Naxçıvan məsələsini təkrar təxirlərə uğratdı. Bunun üçün Rəşid İsmayılov Tiflisdə həbsə alındı. Naxçıvana isə Həmid Qənizadə və Teymur bəy Makinski qaçqın pulu ilə bərabər yollandılar.

Bəhram xan Naxçıvanlı da, bəzi naxçıvanlı heyət mayın 1-də İrəvan vağzalına çatdıqda erməni hökumətinin təşəbbüsü ilə İngilis Komandanlığı tərəfindən dayandırıldı və Naxçıvana getməklərindən mən' edildilər, ancaq 4 gün sonra gedə biləcəklərini söylədilər. Məgərsə, bu əsnalarda İngilis Komandanlığının vasitəsilə Naxçıvan və ətrafına erməni istila qoşunları göndərilirmiş.

Naxçıvan, Şərur kimi qeyrətli camaatı bulunan tərəfləri təhti-tabeiyyətə [tabeçilik altına] almaq üçün göndərilməkdə olan bu erməni istila qoşunları erməni hökumətinin mövcud qüvvəsi olmaqla həp zəiflərdən, xəstələrdən, hətta ağac ilə yürüyən ruhsuz saldatlardan ibarət idi. Söz yox ki, ingilislər olmasaydı erməni hökuməti bu qüvvə deyil, bundan daha artıq qüvvələrlə Naxçıvan, Şərur, Vedi tərəfinə qədəm basammazdı.

Azərbaycan heyəti İrəvan vağzalında məhbus bir halda vaqon içində qalmaqda idi. Sonra Azərbaycan salon vaqonu heyətin əlindən alınıb dördüncü klas bir vaqona oturduldular. Bu isə ermənilərin təbliği ilə Azərbaycan heyətinə qarşı bir hörmətsizlik idi.

* * *

Deleqatla qabaqca Naxçıvan və həvalisinə getmiş olan Azərbaycan zabitlərini o əsnada ingilislər o həvalidən çıxarıb Bakıya yola salmışdılar və müsəlmanlarla münasib əlaqədə bulunan polkovnik Lautonu da Naxçıvandan qaldırıb yerinə general Devini general-qubernator qoymuşdular.

Azərbaycan heyəti İrəvan vağzalına çatıb Naxçıvana getməklərinə mane olunduqda, Müttəfiqlər komandanı general Tomson cənabları da vağzalda isbati-vücud etməkdə idi [orada idi, iştirak edirdi].

* * *

Erməni qoşunları ingilislərin rəhnümalığı [rəhbərliyi] ilə və onların qədəm yerlərinə qədəm basmaqla gedib Şərur dəhnəsi deyilən yerə çatmışlardı. Fəqət müsəlmanların qorxusundan erməni qoşunları heç bir yerdə vaqonlarından dışarı çıxmayırdılar.

Dəhnədə ikən bir gecə ətraf kürdləri erməni qoşunları üstünə hücum etdilər.

Nəticədə dörd nəfər erməni saldatı öldürülmüşdü. Bu səbəbə erməni qoşunları qorxularından orada dayanammayıb sabahla geri çəkilmiş olduqları görülmüşdü.

Bunun üzərinə, İngilis Komandanlığı tərəfindən məhəlli [yerli] müsəlmanlara nəsihətlər edilmiş, böyük vədlər verilmiş və bir dərəcə qədər də təhdid edilmişlərdi. Sonra ingilislər öz qaraqollarını Dəhnənin dağlarına və yolun iki tərəfinə düzmüşlər, erməni qoşunları da bu ingilis qaraqollarının himayəsi altında keçib Naxçıvan tərəfə getmişlərdi.

İştə, bu səyaqla yarım milyonluq Naxçıvan-Şərur demokratlarını [xalqını] cəbr ilə, ədalətsizlik təriqi [yolu] ilə erməni hökumətinə tabe etdirmək istəmişlərdi. Fəqət cəbr ilə, ədalətsizliklə tətbiq edilən bir üsulun zərərli və vəxim [təhlükəli] nəticələr verəcəyi heç də nəzərə alınmamışdı.

İştə, bu cəbr və təzyiqin təsiri ilədir ki, Naxçıvan, Şərur, Vedi, Sürməli zəhmətkeş demokratları şərəflərinin, hüquqlarının haqsız yerə tapdalanmaq intiqamını heç bir vaxt unutmayacaqlardır.

*M. B.*

## MİLLİ VƏ MƏDƏNİ İŞLƏRİMİZ

**4**

**Köçərlinin əsərləri**

Hər bir insanın mahiyyəti və məzmunu onun fikri və işi ilə bəlli olan kimi, millətin də bütün istedad və qabiliyyəti, qüvveyi-fikriyyə və xəyaliyyəsi onun ədəbiyyatında bəyan olunur. Bir milləti öyrənmək üçün onun tarixi ilə bərabər ədəbiyyatını da öyrənirlər. Millətin mənəvi həyatı geniş bir surətdə xalq ədəbiyyatında inikas eyləyir. Burada şəxsiyyət yox, bütün millət görünür. Yazılı ədəbiyyat ayrı-ayrı şəxslərin nə dərəcə xalq ümumiyyətindən ucalmasını göstərir. İstər xalq, istər şəxs ədəbi məhsullarla bütün millətin ruhunu və o ruhun incə meyil və hərəkətlərini təsvir eyləyir. İştə, bizi özümüzə tanıdan və başqalarına zinətli bir şəkildə təqdim edən ədəbiyyatımız olacaq.

Heyfa ki, indiyə kimi ədəbiyyatımıza əhəmiyyət verməmişik. Ən müqtədir ədiblərimizin əsərləri bir çoxları üçün gizli qalmışdır. Səbəb bu ki, onlar ya heç təb [çap] olunmayıb, və ya ki basılıb və çoxdan satılıb qurtarmışlar. Qarabağ şairlərinin əsərləri Almaniyada Leypsiq şəhərində 1868 sənəsində Adolf Berje tərəfindən təb olunmuşdur. Bu gün nadir bir şeydir. Mirzə Fətəli Axundovun mətbu əsərləri bir az adamlarda qalmışdır. Bir çox məqalə və məktublar heç də təb edilməmişdir. Həsən bəy Zərdabinin əsərlərindən yalnız ikisi Kiyev tələbələrimiz tərəfindən çap olunub, başqaları isə qeyri-mətbudur [çap edilməmişdir]. Xalq ədəbiyyatımız çox adamlar təşəbbüsü ilə toplanmışsa da, təb olunmuşu yoxdur. Bir çox şairlərimiz var ki, adları belə çoxlarına bəlli deyil.

Ədəbiyyatımızı müntəzəm bir şəklə salmaq və ümuma tanıtmaq əhəmiyyətli, həm də çox əhəmiyyətli məsələlərdəndir. Bu yolda 20 ildən bəri çalışması ilə və ədəbiyyatımızı nizama salması ilə məşhur Firidun bəy Köçərlidir.

Firidun bəy ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaqla bütün keçmişimizi diriltdi, şairlərimizin ülvi ruhlarını canlandırdı və həyati-fikriyyəmizi təbii yoluna saldı.

Çox heyf ki, Firidun bəy həzrətlərinin çox az əsərləri oxuculara mal oldu. Ən güzidəsi [seçilmişi, bəyənilәni] “Azərbaycan türklərinin ədəbiyyat tarixi” hələ təb olunmayıb qalır.

Müharibədən əvvəl bu əsərlərin təbi üçün Bakıda “Nəşri-Maarif” cəmiyyətinə müraciət olunmasını o vaxtlar qəzetələrdə oxumuşduq. Müharibə və inqilab ortalığı qarışdırdı, ədəbiyyat məsələsi unuduldu. İndi isə bu məsələlər üçün əlverişli bir zaman gəldi.

Bu gün Maarif Nəzarətimiz bu yolda ciddi addımlar atmalıdır. Doğrudur, kağız yoxluğu hiss olunur. Lakin bu maneə təşkil edə bilməz. Nə qədər kağız baha olsa, milli kitabdan baha olmaz. Bizə kitab lazımdır ki, bizi həm özümüzə, həm də əcnəbilərə tanıtsın. Bu kitab da ədəbiyyat tariximizdir.

Hal-hazırda Bakıda gözəl kitablar basdırmaq mümkün deyilsə, İstanbulda təb etdirmək olar. İstanbul Səfarətimiz [Səfirliyimiz] cəmi maarif məsələlərində Maarif Nəzarətimizə kömək etməyə hazır olduğu kimi, nəşriyyat işində də kömək edər.

*Yusif Vəzirov*

**BAKI XƏBƏRLƏRİ**

**Rəisi-Vükəlanın övdəti**

Srağagün axşam vaxtı Rəisi-Vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli həzrətləri səfərindən övdət etmişdir [qayıtmışdır].

**Lənkərana heyət göndərilməsi**

Srağagün Azərbaycan Hökuməti nümayəndəsi və iki nəfər İngilis Komandanlığı nümayəndəsindən mürəkkəb [ibarət] bir heyət Lənkərana azim olmuşdur [yola düşmüşdür]. Heyət polkovnik İlyaşeviçə qan tökülməksizin Lənkəran və Muğanın Azərbaycana təslim olmasını təklif edəcəkdir.

- Dövləti Müdafiə Komitəsinin sədri [Xudadad bəy] Məlikaslanovun əmri ilə Dördüncü polis müfəttişliyi müavini Məcid Axundov dövlət mətbəəsi müdiri [Vəli] Mikayılovu döydüyündən naşi [döydüyünə görə] xidmətindən əzl [kənar] edilməklə bərabər, üç ay həbsə alınmışdır.

- Üç gün bundan əvvəl Rəisi-Vükəlalıq [Baş nazirlik] vəzifəsini müvəqqəti ifa ilə müvəzzəf [vəzifələndirilmiş] [Xudadad bəy] Məlikaslanov həzrətləri Lənkəran və Kaspi donanması məsələsindən dolayı məhəlli [yerli] ingilis qüvası [qoşunları] komandanı ilə görüşüb müsahibədə bulunmuşdur. Komandan ciddi surətdə donanmanın dabravollara verilməsini təkzib etmişdir. Dabravollara fəqət [sadəcə] iki vapor [gəmi], bir qaç dənə müxrib [destroyer] verilmişdir. Məlikaslanov həzrətləri bəyan etmişlərdir ki, Azərbaycanın siyasi dəvairi [dairələri], işbu məsələdən həyəcana gəlmişdir. Ola bilsin ki, məsələ bir çox istənilməyən həvadisə [hadisələrə] səbəb olsun. Komandan nazir həzrətlərinin rəyinə şərik olaraq Baş komandanlığa teleqrafən işbu məsələ haqqındakı kəndi nəzəriyyatı ilə məa [yanaşı],

Azərbaycan siyasi dəvairinin də əlaqəsini bildirmişdir. Komandan inandırmışdır ki, Kaspi donanması İngilis Komandanlığı əlində qalacaqdır və dabravollar tərəfindən Azərbaycana heç bir qorxu ola bilməz. Lənkəran məsələsində ingilislərin mövqeləri dəyişməmişdir. Azərbaycan Hökumətinə tabe etmək üçün iqdamatda [təşəbbüsdə] bulunulmuşdur. İngilis ştabı tərəfindən verilən məlumat nazir həzrətlərini qənaətləndirmişdir.

**Lənkəran hadisatı**

İngiltərə ərkani-hərbi [qərargahı] tərəfindən Lənkərana bir zabit göndərilmişdir ki, işbu təklifləri etsin:

1) Azərbaycan Hökuməti nümayəndəsi ilə məhəlli [yerli] kəndçilər miyanında [arasında] əlaqə peyda etmək; kəndçilərə Azərbaycan Hökumətinə tabe olmaq təklif ediləcəkdir.

2) Azərbaycan Hökumətinin bütün məşru [qanuni] hüququnu müdafiə etmək.

3) Rus xidmətində olan zabitlərin kəndi yerlərinə getməsi üçün iqdamatda bulunmaq [təşəbbüs göstərmək].

**Gürcüstan ilə Azərbaycanın müştərək iqdamatı**

İşbu günlərdə Azərbaycan Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov və Gürcüstan Xariciyyə naziri Gegeçkori həzrətləri müştərək [birgə] Qafqazya İngiltərə qüvvətləri Baş Komandanı general Kori ilə görüşüb uzun-uzadı müsahibədə bulunmuşdurlar.

**Kənara nə aparmaq olar**

Ticarət və Sənaye nazirinin qərardadı mövcibincə [qərardadına əsasən] Azərbaycandan əcnəbi məmləkətlərə xüsusi işləri üçün gedəcək bir zat [şəxs] kəndisi ilə vəsiqəsiz işbu ərzağı apara bilər: 10 girvənkəyə qədər çörək, 2 girvənkəyə qədər penir, 10 girvənkəyə qədər xüşkbar [meyvə qurusu], yemiş 15 girvənkə, çay 1 çetver, qənd 1 girvənkə, kürü 1 girvənkə, yumurta 10 ədəd, şərab və başqa içki 3 şüşə və yola lazım olacaq qədər qeyri ev əşyası. Artıq olarsa, alınacaqdır. Başqa ev əşyası, yemək qabları, əlbisə, meblo [mebel] ümumi gömrükxana əsasları üzrə aparılır.

**İrandan tranzit**

Azərbaycandan aparılacaq düyünün tranzitini Nəzarət təsdiq etmişdir. Məhəlli [yerli] dəyirmanlarda təmizlənən düyünün 50 faizi, təmizlənməmiş düyünün isə 80 faizi aparıla bilər. Düyü təmizləyən dəyirman sahibi daima əhaliyə lazım qədər ehtiyat saxlamalıdırlar. Düyü sahibləri isə düyünün 10 faizi Ticarət Nəzarəti tələbi ilə öz qiymətinə verməlidir. Böyləliklə, düyü aparacaq zat hər puduna 15 manat gömrük verməlidir.

**Hacı-Tərxan bolşeviklərinin həbsi**

Bu günlərdə Fatmayı kəndi yanında Hacı-Tərxandan gəlmiş bir neçə bolşevik həbs edilmişdir. Fatmayıda həbs edilənlər miyanında [arasında] bir qadın da vardır ki, öz familiyasını deməkdən imtina etmişdir. Ehtimal üzrə və mədən dairələrində gizlənmiş bolşeviklərin tapılması üçün tədabir ittixaz edilməkdədir [tədbirlər görülməkdədir]. Lodkadan üç tüfəng tapılmışdır. Bütün həbs edilmişlər istintaqdan sonra xilas ediləcəklər.

- Avqustun 3-də Dövləti Teatro foyesində "Samopomoş" istehlak cəmiyyətinin idarəsi əzasının [üzvlərinin] iclası iniqad edəcəkdir [baş tutacaqdır]. Ruznameyi-müzakirat [müzakirə gündəliyi]:

1) Müvəkkilin intixabı [müvəkkillər seçilməsi].

2) İclasda baş qalxıza biləcək məsail [məsələlər].

Üzvlər kvitansiyaları və yaxud kartoçkaları ilə gəlməlidirlər. Bunları gətirməyən zəvat [şəxslər] dəftər üzrə təhqiq ediləcəkdirlər. Həman orada yeni üzvlər də yazılacaqdırlar və əski paylar da veriləcəkdir.

**Müəllimlər iclası**

Azərbaycan Türk Müəllimləri İttifaqı bununla Bakıda yaşayan ümumtürk müəllim və müəllimələrinə elan edir ki, ağustosun 3-də bazar günü axşam saat 5-də, Birinci Realnı məktəbinin binasında müəllimlər kursu odasında ümumi iclas olacaqdır. Məzkur [deyilən] vaxtda hamının gəlməsi rica olunur. Saat 5-də lazımi qədər müəllim toplanmasa, saat 6-da hər nə qədər müəllim olmuş olsa ikinci məclis açılıb qanuni hesab olunacaqdır. Müzakirə olunan məsələlər:

1) Müvəqqəti Mərkəzi Büro intixabı [seçilməsi].

2) Ərzaq barəsində.

**AZƏRBAYCANDA**

**Qarabağdan**

**Allahın bəxtəvər bəndələri**

Allahın bir neçə cür bəxtəvər bəndələri var ki, onların birisi də Qarabağın bəyləridir. Qışda Aranda öz mülk və samanlarında [sərvətlərində, mal-dövlətlərində] və yayda ara sakitlik olarsa, Şuşada (Qalada), olmasa Bakı və ya qeyri salamat yerlərdə gün keçirirlər.

Yay düşəndə Qalada bir az şuluqluq var idi. Ermənilər tərəfindən qorxu var idi. Buna görə də, bəylər yığılıb Ağdamda cəm olmuşdular. Bu işlərin axırını gözləyirdilər. Qalada dava olan zaman, erməni dəstələri əsgərlərin üstünə gəlməyə hazırlanan günlərdə bəylər araba və faytonlarını hazırlayıb və Bakı, Gəncəyə tərəf üzlərini çevirib və o biri tərəfdən də "bərayi-xali nəbudən mürasilə" hərdən bir yerə cəm olub "kart" stolunun üstündə Əsgəran mühasirəsinin nəqşəsini [xəritəsini; planını] çəkirdilər.

İşlərin axırı olub ara sakitlik tapan kimi bəylər yavaş-yavaş faytonlarını Şuşaya tərəf çevirdilər. İndi ağalar gəlib xatircəmliklə istirahətə məşğuldurlar. Gündüzlər hərə öz aşnasının, dostunun dükanının qabağında və axşamlar da bazar başında yığılıb öz "həyati-ictimaiyyə və əhvali-siyasiyyələrindən" müzakiratda bulunurlar.

- Ay Sarı bəy, sən öl, dünən gecə Məmiş bəylə quzu plovu vurandan elə sonra gedib klubda 18 min manatı elə bir saatda uduzdum!

- Bu sən öləsən, Cəmşid bəy, hələ mən də srağagün gejə (gecə) 25 min geri oldum!

Bu minval ilə gün batana kimi bazar başında izdiham edib laqqırtı vurandan sonra hərə öz "iqtisadi" həyatının fikrinə düşür.

Bu bəxtəvərlərin adəti-yövmiyyələri [gündəlük adətləri] ancaq o vaxt təğyir

tapır [dəyişir] ki, ya quzu plov vaxtında hazır olmaya və ya ki, təğyiri-hava olub kluba getmək bir gün təxirə düşmüş ola. İstər Zəngəzur başdan-başa cəhənnəm odu ilə yana, istər Qarabağ deyil, hətta ümum Azərbaycan zir-zəbər [alt-üst] olsun, bu Allahın bəxtəvərləri zərrəcə dilgir [dilxor] olmayacaqlar.

Bu ağaların vətənləri olan Qarabağın bugünkü halını, düşmənlərin bunların məhv-nabud [yox] olmaqları yolunda gördükləri tədbirləri, çalışmaqlarını görəndə və o biri tərəfdən də bunlarda olan qan soyuqluğu və heç bir məsələ ilə rücuları [qarışacaqları] olmayıb, ətraflarındakı vüquata [hadisələrə] və onlar üçün qurulan badalaqlara bu tövr laqeydanə baxmalarına baxanda, insan doğrudan da məbhut [mat] qalıb bunları ancaq "Allahın bəxtəvər bəndələri" deyə adlandırmağa məcbur olur.

Zəngəzurda Ararat Hökuməti qoşunları tərəfindən dağıdılmış kəndlərin qaçqınları gəlib Şuşaya da çıxıblar. Hökumət onlara mənzil tədarük edib, az-çox azuqələrinə də kəfil olmaqdadır. Lakin qaçqın, möhtac o qədərdir ki, hökumət nə qədər çalışsa da camaat, millət köməyi olmasa onların öhdəsindən gələ bilməyəcəkdir. Burada millətin öz köməyi lazımdır.

Şuşada olan Cəmiyyəti-Xeyriyyə məhəllələrdə olan fəqir-füqəranın siyahısını tutub əlinə keçən qüvvə ilə ancaq onlara aylıq maaş verib onları saxlayır. Bu iş bir nöqteyi-nəzərdən çox gözəlsə də, lakin başqa nəzərdən əlverişli deyildir. Buna görə ki, Cəmiyyəti-Xeyriyyənin siyahısında öyləri var ki, cəmiyyətin köməyi olmasa onlar gedib başqa bir mənbədən özlərinə güzəran tapa bilərlər. Böylə olanda Cəmiyyəti-Xeyriyyə öz ianəti ilə bir dəstə tənbəllər vücuda gətirmiş kimi görünür. Yaxşı olardı ki, Cəmiyyəti-Xeyriyyə idarəsi onları bir işə, sənətə qoyub öz əllərinin zəhmətləri ilə maaş qazanmalarına çalışa idi.

Cəmiyyəti-Xeyriyyənin ixtiyarında bir şal toxuyan fabrika vardı, onu da nədənsə general-qubernator ixtiyarına buraxıb fabrikadan əl çəkibdir. Bu iş ya Cəmiyyəti-Xeyriyyə adamlarının iş görməyə çalışmağa həvəsdən düşmələrini göstərir, ya da bacarmmamaqlarını. Yaxşı olardı ki, Cəmiyyəti-Xeyriyyə təzə seçki edib öz aralarına cavanlardan, işə həvəsli olanlardan və yorulmamış adamlardan çağıra idilər. O vaxt iş başqa cürə gedərdi.

*(İdarədən: Müxbir əfəndi bir şeyi görünür nəzərə almamışdır. Şuşanın dəxi, sair şəhərlərdə olduğu kimi cəmiyyət və həyati-ictimaiyyə və siyasiyyəsi bir neçə "möhtərəm" zatın inhisarı altındadır.)*

* * *

Xudavəndi-təbarəkü-taala dünya üzündə nə qədər insaf, mürüvvət yaradıbsa da deyə bilərəm ki, yüzə doxsan prosenti [faizi] ancaq Qalada müsəlman dükançılarının, alış-verişçilərinin vücudi-bahirünnurlarına nazil olmuşdur [nurlu, nurani, parlaq vücudlarına enmişdir, göydən düşmüşdür]. Bunların öz işlərinə mahirliyi, durbinliyi [uzaqgörənliyi] bir dərəcəyə çatıb ki, bunlar[a] "pervı sort" [birinci növ] spekulyant demək də azdır. Bunlara ancaq rusca "jivadyor", türkcə "qarın yırtan" demək caizdir. Bir də görürsən ki,

axşamüstü göyərtinin dəstəsi 1 manat olduğu halda sabah sübhdən həman zənbildə olan göyərtinin başqa dəstələri manat yarımdan aşağı satılmayır.

- Səbəb?

- A başına dönüm, ermənilər Daşkənddən yolu gülləyiblər. Bəlkə bu gün bazara təzə göyərti gəlmədi.

Dükançılar "jivadyorluq"da o qədər məharət qazanıblar ki, Qarabağ deyil, hətta Parisdə Sülh Konfransında da siyasi cəhətcə bir qədər dəyişiklik olan kimi dərhal qatığın, südün, göyərtinin, yumurtanın qiyməti də həman dəyişikliyə münasibətən təğyir-təbdil edir [dəyişir, başqalaşır]. Burası hamı kəsi təəccübə gətirir ki, müsəlman bazarından alınıb erməni hissəsinə gedən malların erməni bazarında qiymətləri müsəlman bazarından aşağı olur. Bu müəmmanı qanmaq istəyən ancaq "jivadyorluq" dərsini oxumalıdır.

*Qıyığ*

## QUBADAN

**Oğru tapılmışdır**

Bir zaman "İttihad" qəzetəsində Quba qaimməqamı üzərinə ittihamlar yağdırılaraq, bir neçə vaqon buğdanın guya qaimməqam satıb yeməsini yazırlardı. Xaçmaz pristavı Şıxveyis Məhəmmədov qulluqdan kənar edilib əvəzinə təzə pristav təyin edilcək, pərdə qalxıb oğru tapılmışdır. Oğru pristav özü olur. Bir neçəsinin rəfaqəti [yoldaşlığı] ilə bu xəyanəti irtikab etmişlərdir [işləmişlər]. Şıxveyis həbsxanaya salınmış, yoldaşları da bu günlərdə həbs ediləcəkdir. Təfsilatı gələcəkdə ətraflı xəbər veriləcəkdir.

**Təshih**

"Denikin agentləri" ünvanlı məqalədə xəbər verilən Xaçmazda həbs edilmiş casus müsəlman amsarlı olmayıb Nügədi əhli Əmidulla namdır [Əmidulla adlı biridir].

*Türkoğlu*

## ERMƏNİSTANDA

**Müsəlmanların yaşayışı**

Erməni Cümhuriyyəti daxilində, paytaxt İrəvanda və məmləkətin sair yerlərində ermənilərin yerli müsəlmanlar haqqında eylədikləri zülümlər və təcavüzlər:

Zəngibasar tərəfi müsəlmanlarından mühacirlərindən bir gündə 90 nəfərə qədər adam gəlib İrəvanda Azərbaycan siyasi nümayəndəsi Xan Təkinskiyə ermənilər tərəfindən qarət edilib soyulmalarından şikayət etmişlərdir.

Şərurdan İrəvana azuqə gətirməkdə olan irəvanlı Orucu iki nəfər vedili yoldaşlarıyla Qəmərli vağzalında ermənilər vaqondan endirib üçünü [də] öldürmüşlərdir (8 iyulda).

Təbrizdən gələn vaqonları Qəmərlidə İrəvan vağzalında ermənilər dayandırıb içlərində naxçıvanlı, şərurlu, vedili varsa alıb götürürlər, aparıb tələf edirlər.

Qəmərli Cəfərin qardaşını Aleksandropol vağzalında ermənilər vaqondan edirib aparmışlar.

İrəvanda Mirəli Mirheydər oğlu vağzala gedərkən yolda erməni milisiyaları silah axtarmaq bəhanəsi ilə saxlayıb axtarırlar. Silah tapılmadığı halda Mirəlinin yanında olan pullarını alıb gizlənirlər. Mirəli gəlib komendanta şikayət edirsə

də, hökumət məmuruna yaraşmayan hal ilə komendant Mirəlinin şikayətini nəticəsiz qoyub yanından rədd edir.

İrəvandan çıxıb Gürcüstana, Azərbaycana gəlməkdə olan müsəlmanları – "Siz Gürcüstana, Azərbaycana Ermənistan xəritəsini aparırsınız" deyə dəmiryollarında çox əziyyətlər verib axtarırlar.

İrəvan əhlləri Abbas Əsgərzadə, İsmayıl Musazadə, Məhəmməd qəssab, üç nəfər də İrəvan kəndli müsəlmanlarından əhl və əyalları ilə İrəvandan çıxıb erməni dəmiryolu ilə Azərbaycana gəlməkdə idilər. Bunlar haqqında yolda ermənilər tərəfindən sıx-sıx axtarışlar edilmiş, Kolagirən mövqifində isə bu kişiləri vaqondan endirib saxlamışlardır. Arvadları isə həman vaqon ilə sahibsiz yola salmışlar. Sonra kişilər erməni məmurlarına 50 min manat verib canlarını qurtarmışlar. Ondan sonra bu müsəlmanlar Kolagirəndən Sənainə qədər piyada olaraq qaçıb getmişlərdir.

**Satılır**

4 dənə qapı, dərpəncərəsi, hər bir şeyi ilə. İçərişəhərdə, Voyenni küçədə, nömrə 16, İsmayıl Muradov.

*5500*

**İtibdir**

Məhərrəm Balasadıq oğlu - 16 yaşında, tam 10 aydır ki, itibdir. Heç bir xəbər yoxdur. Acizanə rica edirəm, onun yerini, yaxud onun barəsində bir məlumatı olanlardan gəlib mənə böyük töhfə alaraq məlum etsinlər. Qluxoy pereulok, nömrə 6, Məhəmmədov.

*7408*

Yekşənbə [bazar] günü avqust ayının 3-də, 1919-cu ildə, səhər saat 10-da Hökumət Teatrosunun foyesində (Sabiq Mailov) İstehlak **"Samopomoş"** cəmiyyətinin şəhər dairəsi üzvlərinin ümumi iclası olacaqdır.

Müzakirə ediləcək məsələlər:

1) Vəkillər seçilməsi;

2) İclasda qaldırıla biləcək məsələlər.

Üzvlər gəldikdə özləri ilə bərabər pay haqqı verdiklərini təsdiq edəcək kartoçka, yaxud qəbzlərlə bərabər gəlməlidirlər. Üzvlərin qəbzləri onlar gəldikdə təftiş olunacaqlar. Təzə üzvlər yazılıb, köhnə pay haqları dəxi qəbul olunacaqdır.

*7404*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78, 10-1-ədək.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Arvad diş həkimləri**

**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**

**S. İ. Kopelioviç**

Daxiliyyə və əsabiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat

5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

***Müvəqqəti müdir: Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Azərbaycan Məclisi-Məbusanında

səh. 31. "Böylə təshihləri biz dəxi edə biləriz.": qəzetdə "biləriz" yerinə "bilməriz" getmişdir.

### Teleqraf xəbərləri

səh. 32. "Məclisi-Əyan": ikipalatalı Britaniya Parlamentinin yuxarı palatası olan Lordlar Palatası nəzərdə tutulur.

"Yaşıl dəstə": yaxud "Zelyonı dəstə", "Ataman Zelyonı" adıyla tanınan Daniil Terpilonun dəstəsi nəzərdə tutulur.

səh.33. Yelizavetqrad (yaxud Yelisavetqrad): Ukraynanın mərkəzi hissəsində şəhər; Kirovoqrad vilayətinin inzibati mərkəzi. 1924-cü ilə qədər Yelizavetqrad adlanan şəhərin adı bir neçə dəfə dəyişdirilmişdir və hal-hazırda Kropivnitski adını daşıyır.

### Xüsusi teleqraf

səh. 34. "Yepiskop türkcə pürməna...": qəzetdə "yepiskop" yerinə səhvən "İskəndərov" getmişdir.

### Qəzetələrdən

səh. 34. "qövldən feilə isal edilmişdir": qəzetdə "qövldən" yerinə "qüvvədən" getmişdir.

### Bir müsahibə

səh. 37. "mədrəseyi-diniyyə müəllimləridir": qəzetdə "müəllimləridir" yerinə "qanunlarıdır" getmişdir.

### Rəisi-Vükəla və Hərbiyə naziri həzrətlərinin Quba qəzasını təşrifləri

səh. 40. "raport": qəzetdə "ranma" getmişdir.

səh. 41. "H. R.": bu imza Hüseyn Rza Məhəmmədbəyliyə məxsusdur.

### Şərur-Naxçıvan məsələsi

səh. 43. "M. B.": bu imza Mirabbas Mirbağırzadəyə məxsusdur.

### Milli və mədəni işlərimiz

səh. 43. "Milli və mədəni işlərimiz 4": qəzetdə "4" yerinə səhvən "2" getmişdir.

"Qarabağ şairlərinin əsərləri Almaniyada Leypsiq şəhərində 1868 sənəsində...": burada, Adolf Berjenin nəşr etdirdiyi kitab nəzərdə tutulur. "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə" yaxud sadəcə "Məcmuə" kimi tanınan bu əsərin tam adı belə idi: "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamıyla mətbu olunubdur 1867 sənədə Leypsiq şəhərində".

### Azərbaycanda Allahın bəxtəvər bəndələri

səh. 46. "Allahın bəxtəvər bəndələri": qəzetdə imzasız gedən bu yazını Məhəmməd Sadıq Axundov (Aran) yazmışdır.

səh. 48. "Qıyığ": bu imza Məhəmməd Sadıq Axundova (Aran) məxsusdur.

### İtibdir

səh. 49. "Qluxoy pereulok: Bakıda, indiki Cəlil Məmmədquluzadə döngəsi."



آذربایجان

تورکجه کتابلر لازمدر

اعلان

اعلان

قسم رسمی

آذربایجان مجلس مبعوثانده

*"Azərbaycan" qəzetinin 242-ci nömrəsinin 1-ci səhifəsi*

Bazar ertəsi, 4 avqust 1919-cu il, nömrə 242

AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 7 zülqədətül-haram sənə 1337. 4 ağustos 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

## HÖKUMƏT TEATROSUNDA AXŞAM TAMAŞASI

### Drama

Bakı türk səhnəsinin aktyorları tərəfindən işbu ağustos ayının 4-də (zilqədətül-həramın 7-də) bazar ertəsi günü 19-19/1337 sənədə Mirzəağa Əlizadə cənablarının təhti-idarəsində [idarəsi altında] bu mövsümdə əvvəlinci dəfə olaraq mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır: Məşhur “Molla Nəsrəddin” məcmuəsinin müdiri Cəlil Məmmədquluzadənin yazmış olduğu **“Ölülər”** pyesası, 4 məclisdə, 5 pərdədə.

Kefli İsgəndərin rolunu ifa edəcəkdir Mirzəağa Əliyev. Şeyx Nəsrullanın rolunu ifa edəcəkdir Mim. Ayn.

Bu tamaşada Hökumət Teatrosunun müqtədir [qüdrətli] aktyorları iştirak edəcəklər. Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Baş rejissor: A[bbas Mirzə] Şərifzadə.

*4711*

## ELAN

4 avqust 1919 bazar ertəsi günü gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-291*

## SİRK “MODERN”

Düşənbə günü ağustosun 4-də 1919-cu ildə hava kralları adı qazanmış Sandarov qardaşlarının 4-cü qastrolu olacaq.

Bu gün məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 37-ci günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci revanş mübarizəsi: Naməlum – Zakoroyko.

2-nci: Gənc Əli – Makarov.

3-ncü: Djiovani – Krayevski.

Böyük benefis hazırlanır.

? ? ? ? ? ? ? ? ? ? ?

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda. Mübarizə Yelizarovun təhtinəzarətində [nəzarəti altında] olacaqdır.

*7302*

## ELAN

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti bununla Bakı əhalisini xəbərdar edir ki, ağustos ayının 4-dən etibarən Ti-

carət, Sənaye və Ərzaq Nəzarətinin Mariinski küçədə, Malakan bağı qarşısındakı mağazasında ayaqqabı, arşın malı, corab, şəkər və qeyri bu kimi şeylər ucuz qiymətlə satılacaqdır. Bununla əhalinin məzkur [adı çəkilən] mağazadan istifadə etmələri lazımdır.

## TÜRKCƏ KİTABLAR LAZIMDIR

Elmi, fənni, siyasi, tarixi, coğrafi və ədəbiyyata dair Azərbaycan və Osmanlı türk dillərində yazılmış kitablar yaxşı qiymətə alınır. Hər kəs əlindəki kitabı satmaq arzu eyləməzsə, heç olmazsa münasib qiymətlə həman kitabı yenidən çap eyləmək ixtiyarını bizə versin.

Arzu edənlər Kamenisti və Bolşoy Morskoy küçələrin küncündə Xəzər Müstəhliklər İttifaqı "Kooperatsiya"nın Müavinət şöbəsində Əliəkbər Heydərova səhər saat 8-dən 10-a kimi yaxud "Azərbaycan" qəzetəsi kantorunda Qədir Heydərova müraciət etsinlər.

*5493*

## QİSMİ-RƏSMİ [RƏSMI-HISSƏ]

**Azərbaycan Cümhuriyyəti Post və Teleqraf Nəzarətindən**

*Əmrnamə nömrə 80*

30 təmmuz [iyul], sənə 1919.

Bakı teleqrafxanasının 4-cü dərəcəli məmuru Əbülfəz Şıxməhəmmədov təyin olunur mənim dəftərxanamın birinci şöbəsinin kargüzarı köməkçisi avqust ayının 1-ci günündən.

*Əmrnamə nömrə 81*

30 təmmuz sənə 1919

Mənim dəftərxanamın kargüzar köməkçisi Nikolay Marinovski təyin olunur mənim dəftərxanama mühasibə məmuru avqust ayının 1-ci günündən

*Post və Teleqraf naziri: Camo Hacınski*

*Dəftərxana baş müdiri: Blajevski*

**Azərbaycan Cümhuriyyəti Rəisi-Vükəlası [Baş naziri] həzrətlərinin əmri**

[1]

Bakıya qayıdaraq bu gündən etibarən Rəisi-Vükəlalıq vəzifəsinə şüru etdim [başladım].

2

Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad bəy] Məlikaslanov işbu gündən etibarən Rəisi-Vükəla vəzifəsindən azad edilir.

*Rəisi-Vükəla: Yusifbəyli*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 29 təmmuz iclası

*(dünkü nömrədən mabəd)*

**Əhməd Cövdət** (sosialist) - Aşurov müariz çıxarkən [etiraz edərkən], ümumiyyətlə deyir ki, indiki üsul ilə seçilən dumalar idarəni bacarmadıqlarını göstərdilər. Əgər Aşurov indiki üsul əleyhinə danışsaydı, mən onu başa düşərdim. Amma bu qanunu, bu üsulu qəbul edib də, sonradan tənqid etməyini başa düşmə-

yirəm. Bir də, əgər Aşurov diqqətlə baxsa, görər ki, məsələn, Bakı Bələdiyyə İdarəsi keçən il bu ilkindən yaxşı işləyirdi. Halbuki, keçən il Dumada həman təcrübəsiz, bacarıqsız dediyi adamlar əyləşirdilər. Bu il isə natiq əfəndinin istədiyi zəvatdır [şəxslərdir]. Unudulmasın ki, bu ilki Duma yeni üsul ilə seçilməyib təyin edilmişdir. Həm də təyin olunan Bələdiyyə vəkillərinin siyahısını o vaxt hökumət başında duran zaman Aşurov özü tərtib vermişdi. Madam ki, böylədir, bəs nə üçün Aşurovların təyin etdikləri Bələdiyyə vəkilləri işləyə bilməyirlər? Şəhərin bütün işlərini Sentrodom [Mərkəzi Ev İdarəsi] öz əlinə alıbdır. Seçkiyə sərf olunmasına qənaət edilən milyonlarla xalq pulu “Rossiya” qəzetəsi kimi qəzetələrin nəşrinə sərf olunur. Camaatın milyonları çox öylə şeylərə xərclənir ki, əsla oraya sərf edilməməlidir. Bundan maəda [bundan başqa], millət cavan olduğu üçün nə qədər tez-tez intixabata [seçkilərə] getsə, o qədər yaxşı olar, o qədər təcrübə artar. Ona görədir ki, biz təklif ediriz Bələdiyyə vəkillərinin müddəti-vəkaləti iki il olsun.

**Rəsulzadə Məhəmməd Əmin** (Müsavat) - Bələdiyyə vəkilləri müddəti-vəkalətinin uzun ya qısa olması haqqındakı ixtilaf Ağa Aşurov ilə Əhməd Cövdətin ixtilafı olmayıb, daha əsaslı, daha dərin bünövrəli bir ixtilafdır. O, təcrübə hasil etmiş, ixtisas qazanmış, bilən, bacaran, iddiasında olan camaat xadimləri ilə təcrübəsiz, bacarıqsız-filan göstərilən camaat xadimlərinin ixtilafıdır. Aşurov deyir ki, Bələdiyyə vəkili öz vəzifəsini ancaq 4 il müddətində öyrənə bilər. Amma, məncə bu məsələ, əvvəla hər vəkilin səviyyəsinə, təşəbbüskarlığına bağlıdır. Öylə vəkil ola bilər ki, heç 10 il müddətində də vəzifəsini, şəhər işlərini öyrənə bilməsin. Amma öylələri də olar ki, bir il zərfində hər şeyi öyrənə bilər. Fəqət şimdi camaat vəkillərinin bacarıq, təcrübə və məharətini, əzmkar və təşəbbüskarlığını ölçmək üçün həkəm (münsif) kim olsun? Yəqindir ki, müntəxəblər [seçilənlər] özləri olammazlar. Çünki seçilənlərin hər biri özünü yaxşı, digərlərini pis göstərmək istəyəcəkdir. Məncə, bu məsələdə camaat həkəm ola bilər.

Bir də şübhəsizdir ki, əgər seçilənlər yaxşı çalışsalar işlərini öyrənərlər. Bundan əlavə, böylə təsəvvür etmək lazım deyildir ki, Bələdiyyə Məclisinə seçilən adamlar məktəbə öyrənməyə gedirlər. Zənnimizcə, Bələdiyyə məclislərinə anlayan, bilən, işlərə bələd, siyasətə aşna, siyasi proqrama malik olan adamlar gedəcəklərdir. Yoxsa, camaat hamını bir-bir sınayıb dişinə vurmaz ki, bu laxdır, ya bu salamatdır. Əgər böylə olsa, heç dörd il də kifayət etməz. O da az müddət olar. Amma həqiqəti-hal böylə deyildir.

Bir də deyirlər ki, müddəti-vəkalət iki il olsa, heç kəs öz mövqeyini buraxaraq şəhər xidmətinə gəlməz. Bizcə, bu da doğru deyildir. Çünki əgər camaat görsə ki, seçdiyi adam öyrənməyə deyil, bilərək gedib, işlərini də bacarır, vəzifəsini hüsn-ifa edir və onun iş başında olmasından hüsn-nəticələr alınır, şübhəsiz ki, onu təkrar seçər. Camaata da nə qədər tez-tez imtahan ixtiyarı verilsə, o qədər seçkiyə də idrakla getməyə adət edər və seçdiyi vəkilləri idrakla seçər.

Bundan əlavə, seçki üsulu pisdir, ona görə də seçilənlər işləyə bilməmişlərdir

demək nəzər aldanması, qalyutsinasiyadır. Bir müəssisə əzasının [üzvlərinin] fəaliyyətini ya ədəmi-fəaliyyətini [fəaliyyətsizliyini] zikr edərkən böyük hadisələri, səbəbləri nəzərə almayıb, üsuli-intixabatı [seçki üsulunu] mühakimə etmək səhvdir.

Keçən il fəaliyyət ibraz edilməmişsə, üsuli-intixabın fənalığından deyil, bəlkə keçirmiş olduğumuz övza və əhvalın tövlid etdiyi [vəziyyət və şəraitin doğurduğu] səbəblərin vücudundandır. Bunu inkar etmək bitərəfanə mühakiməni pozmaq deməkdir. Həm də, əski istehqaqlı seçkilər üsuluna qayıtmaq nəfinə [xeyrinə] pozmaqdır. Böylə mühakimə yalnız əski üsulu müdafiədən ibarətdir. Bu isə heç vaxt olmayacaqdır. Əski qayda bir daha qayıdılmaz.

İki il kafidir ki, bir bələdiyyə vəkili həm şəhər işlərini öyrənsin, bələd olsun, həm də hüsn-fəaliyyət ibraz edə bilsin. İki ildə öyrənməyən bir adam, əmin olunuz ki, heç dörd ildə də öyrənə bilməz.

Bu iş əsgərlikdə dəxi var. Qabaqda deyirlərdi ki, hər bir əsgər əsgərliyi ancaq dörd ildə öyrənə bilər. Amma indi fənni-hərb mütəxəssisləri kəşf etdilər və həyat təcrübəsindən məlum oldu ki, xidməti-əsgəriyyə az müddətə olub, nə qədər tez-tez əsgər yığılsa, xalq arasında əsgəri tərbiyə o qədər artar. Hamı nizama adət edər.

Xalq nizamında, camaat disiplinasında da böylədir. Binaənileyh [ona görə], biz deyiriz ki, nə kənardan təklif olunan dörd il lazımdır, nə də komissiyanın göstərdiyi kimi üç il. Bələdiyyə vəkillərinin müddəti-vəkalət vaxtı olmaq üzrə iki il kifayətdir.

**Rəhim Vəkilov** (Müsavat) - Qanun layihəsinin müəyyən bir maddəsində bəzi xırda şəhərlərin adı çəkildi. Ağdaş və Zaqatalanın şəhərlər sırasına daxil edilməsindən bəhs olundu. Amma Qazax şəhərinin əsla adı çəkilmədi. Halbuki, türklər Azərbaycana gəldikdə, Qazax, Ağdam və sairə kimi bəzi yerləri şəhər elan etdilər. İndi isə qanunda bu xüsusda bir şey yoxdur. Mən cavab istərəm, görək nə üçün Qazax şəhərlər sırasına daxil edilməmişdir?

**Rüstəmbəyli Şəfi bəy** (Müsavat, məruzəçi) -Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komissiyası bu layihəni müzakirə edərkən, müddəti-vəkaləti dörd sənədən endirib üç il etdi. Çünki dörd il davam etdikdə təcrübə göstərir ki, bir çoxları gedirlər. Kvorum yığmaq mümkün olmayır. Xülasə, komissiyanın bu işi təcrübə əsası ilə idi. Amma iki il əsla nəzərə alınmamışdı. Fəqət bir iş də var ki, seçki tez-tez olduqda, camaatın da həpsi intixablara gəlməyir. Az adamlar iştirak edirlər. Bundan əlavə, məsələnin bir maliyyə cəhəti də vardır. İntixabat nə qədər tez-tez olsa, xərc dəxi o qədər çox olur. Komissiya burasını da nəzərə almışdır.

Qazax məsələsinə gəlincə, bu barədə bizdə heç bir məlumat yoxdur. Ərəş barəsində məlumatımız var, amma Qazax barəsində yoxdur. Əgər hökumətdə bu xüsusda bir şey varsa, xüsusi bir qanun verərək oranı da şəhər etmək və orada dəxi seçki qanununu tətbiq eyləmək mümkündür. Hökumət bunu edə bilər. Amma indi böylə məlumat olmadığı halda, Komissiya bunu edə bilməzdi, mümkün deyildi.

*İkinci maddə səsə qoyulur. Əvvəl müd-*

*dəti-vəkalətin iki il olması haqqındakı təshih [düzəliş], sonra Qazaxın dəxi şəhərlər sırasına daxil edilməsi məzmunlu əlavə, rəyə vəz edilərək [səsə qoyularaq] əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur, sonra layiheyi-qanuniyyənin ikinci maddəsi səsə qoyulur və qəbul edilir.*

**Əhməd Cövdət** (sosialist) - Madam ki, Qazax şəhərlər sırasına daxil edildi, mən təklif edərdim bələdiyyə vəkillərinin miqdarı dəxi təyin edilsin.

*Təklif qəbul edilir. Səslər 20 qlasnı təklif edirlər. Bu dəxi qəbul olunur. Seçkilərə kimlərin iştirak edəcəyi məsələsi dəxi uzun mübahisələrə bais olur.*

**Sanıyev Hacıkərim** (sosialist) Təklif edir ki, intixabat məsələsində təbəəlik nəzərə alınmasın. Çünki Azərbaycan şəhərlərində bir çox əcnəbi təbəələri var ki, uzun müddətdən bəri Azərbaycan dairəsində olurlar. Şəhərlərdə mülkləri, müəssisələri-filanları var. Böylə adamlar şəhərin abadlığında mütləqa mənfəətdardırlar [maraqlıdırlar]. Ona görə də, heç şübhəsiz öz xeyirləri üçün şəhərin yaxşılığına, abadlığına, tərəqqisinə çalışacaqdırlar. Binaənileyh, bu kimi adamlara əcnəbi təbəəliyinə baxmayaraq, seçmək ixtiyarı verməlidir.

**Vansoviç** (polyak nümayəndəsi) Rusca uzun bir nitq söyləyərək, əcnəbi təbəələrinin seçkidə iştirak etmələrinin fəna nəticələrini göstərir. Yaxın həyatımızın təcrübədə nələr göstərdiyini tədadla [sadalayaraq], inqilabdan sonra Bakıda vüqu bulmuş olan seçkiləri, orada kimlərin iştirak etdiklərini, kimləri seçdiklərini və o seçki nəticəsində iş başına keçənlərin nə cür çalışdıqlarını, nə kimi fəaliyyət göstərdiklərini və şəhərimizin mənafeyinə necə xidmət etdiklərini təsvirlə deyir ki:

- Bu surətlə görürsünüz ki, kənardan gəlmə adamların seçkiyə iştirakı yabançıların dərdə ağlaması kimi mövhum bir işdir və onların seçdikləri namizədlər şəhərin mənafeyinə əsla əhəmiyyət verməyib, siyasi məsələlər, proqramlar və taktikalar ilə iştiğal edir [məşğul olur] və şəhərə heç bir xeyir verməyirlər. Bu mülahizə ilədir ki, mən deyirəm vətəndaş (Azərbaycan təbəəsi) olmayanların seçkiyə iştirak etmələri heç də məmul [arzuedilən] deyildir. Binaənileyh, vətəndaş olmayanlara seçmək ixtiyarı verilməməlidir. (Alqışlar, "bravo" sədaları eşidilir.) Fəqət eyni zamanda, öylə adamlar dəxi var ki, əsla Azərbaycan təbəəsi deyildir, lakin məhəlli [yerli] işlərdə sıxı surətdə mənfəətdar olmaqla bərabər, kəndisi təcrübəli, bacarıqlı, çalışqan, bu nöqteyi-nəzərdən də pək xeyirli adamdırlar. Bunlar uzun müddətdən bəri Azərbaycan şəhərlərində yaşamış, buranın həyatı ilə munis olmuş, burada əmlak, ticarət və sairə kimi müəssisələri var. Buranın həyati-siyasiyyə və ictimaiyyəsində həmişə ciddən iştirak etmişlərdir. Böylə adamlar şübhəsizdir ki, bələdiyyə idarələrində öz bilik və təcrübələri ilə bizə çox mənfəət verərlər. Ona görədir ki, bu kimi mütəxəssisləri yalnız Azərbaycan təbəəsi olmadıqları üçün həyati-ictimaiyyədən və fəaliyyətdən kənar etmək, onları iş başına buraxmamaq, qədhi-nəfsdir [şəxsiyyətlərini təhqir etməkdir]. Binaənileyh, mən təklif edirəm bu kimi zəvata bələdiyyə idarələrinə seçilmək ixtiyarı verilsin və qanunun eyni maddəsinə böylə bir əlavə qeyd edilsin: "Beş ildən az olmamaq üzrə şəhər dairəsində yaşamış əcnəbi təbəələrinə seçilmək ixtiyarı verilsin."

**Əhməd Cövdət** (sosialist) - Seçkilərdə iştirak etmək haqqı vermək üçün məhdud bir dairə çəkmək, filan qədər müddət yaşamağı şərt qoymaq, məncə, əsla lazım deyildir. Böylə bilirəm ki, şəhər dairəsində yaşayan ümum əhaliyə seçkidə iştirak haqqı vermək və heç bir şərtlə məhdud etməmək lazımdır. Fəqət müəyyən bir vaxt qoymaq çox lazım gələrsə, o halda, məncə olsa ancaq bir ay vaxt qoymalıdır ki, son ay müddətində şəhər dairəsində yaşayanların həpsi iştirak etmək haqqına malik olsunlar.

Bir də, Vansoviç deyir ki, inqilabdan sonra, məsələn Bakıda Bələdiyyə məclisləri seçkisi olan zaman Olonets quberniyasından gəlmiş adamlara seçkidə iştirak ixtiyarı verilirdi. Bu isə siyasi mülahizə ilə edilir və fəna nəticələr verirdi. Fəqət Vansoviç cənabları unudurlar ki, o zaman Bakı da, Olonets də Rusiya hesab olunurdu. Binaənileyh, Olonetsdən gələnlərə Bakıda əcnəbi təbəəsi kimi baxılmayır, hamı Rusiya vətəndaşı hesab edilərək intixabata da o cür iştirak edirlərdi.

Bundan əlavə, biz praktik nöqteyinəzərindən ümum əcnəbi təbəələrinin iştirakı tərəfdarıyız. Çünki Azərbaycan daxilində məsələn külli miqdarda iranlı var. Bunlar çoxdan bəri burada yaşayaraq kəsbkarlıq edir. Çoxunun mülkü, ticarəti-filanı var. Əksəriyyən bu iranlılar bir azərbaycanlı olub qurtarmışlardır. Bunları şimdi seçki hüququndan məhrum etmək olmaz. Burada təklif var ki, intixabata iştirak edə bilmək üçün son beş il müddətində Azərbaycan dairəsində yaşamış olmaq şərt qoyulsun. Fəqət biz böylə məhdudatın əleyhindəyiz. Buna görə də, təklif ediriz ki, Azərbaycan daxilində olan ümum əhaliyə təbəəlik mülahizəsi nəzərə alınmayaraq, seçkidə aktiv iştirak ixtiyarı verilsin.

*(bitmədi)*

## TELEQRAF XƏBƏRLƏRİ

Kiyev - İzmiri işğal etmək üçün göndərilən yunan qoşunları Türkiyə qoşunlarına təsadüf eyləmişdir. Venizelos İngiltərə və Fransadan imdadi-hərbiyyə [hərbi kömək] istəmişsə də, rədd cavabı almışdır. Zira Venizelos yalandan Müttəfiqlərə demişdir ki, türklər kamali-şadlıqla yunan qoşunlarını qarşılamışlardır.

Odessa - Oçakova Fransadan 1300 rus hərbi əsirləri gətirilmişdir. Oçakov icra komitəsi bunları barj və lodkalara mindirib Nikolayevə göndərmişdir. Uzaqda durmuş olan iki dabravol gəmisi bunlara atəş açmışdır. Nəhayət, barjı geri qayıtmağa məcbur etmişlərdir. Bir çox əsirlər özlərini suya atmaqla həlak etmişlərdir.

**Müharibə xəbərləri**

Qırmızı qoşunlar müharibə ilə Terexovkanı işğal etmişlərdir. Korçanı səmtində bizim hissələr irəliləmişlərdir. Korçanının 20 verstliyində bir çox kəndləri işğal etmişlərdir.

Novaskul səmtində bizim kəşfçilər [kəşfiyyatçılar] tərəfindən düşmənlərin ştabı məhv edilib, onlardan beş pulemyot alınmışdır. Povorino-Balaşov səmtində Bayçurovo tərəfimizdən işğal edilmişdir.

Şimal cəbhəsində: Onej dairəsində qırmızı qoşunlar Onejin 55 verstliyinə irəliləmişlərdir.

Qərb cəbhəsində Luqansk dairədə Plyuşi mövqifinin qərb cəhətində bizim hissələr tərəfindən 90 nəfər əsir və bir çox hərbi qənimət alınmışdır.

Pskov dairəsi: Bizim hissələr müharibə ilə Porxovun 25 verstliyində bir qaç kənd işğal etmişlərdir. Qoşunlarımız tərəfindən təkrar Qorodok qəsəbəsi alınmışdır.

Düşmənlərin təzyiqi ilə biz Proskurovu tərk eylədik. Moqilyov-Podolsk səmtində Yampol-na-Dnepre şəhəri ilə Vapnyarka mövqifini tərk eylədik.

Cənub cəbhədə bizim hissələr düşmənlərin güclü qüvvəsinin təhti-təzyiqində [təzyiqi altında] Poltava şəhərini tərk edib onun qərb tərəfində müharibə edirlər.

Kalaçev səmtində Çerikov mövqifi yaxınlığında düşmənlərin süvari dəstəsi məhv edilib, bir top ilə beş pulemyot qənimət alınmışdır.

Yelan səmtində bizim hissələr müharibə ilə Yelan mövqifini işğal etdilər.

- Şərq cəbhəsində: Ural dairəsində biz Uralsk-Orenburq xəttinə yetişdik. Uralskın 20 verstliyində bizim hissələr 40 nəfər əsir almışlardır. Bizim hissələr Troitskin 30 verstliyinədək irəliləmişlərdir. Çelyabinskin 30 verstliyində hal-hazırda qızğın müharibə gedir.

N.-ski ordu - Oçakov səmtində top atışması qızğın surətdə davam edir.

Qara dənizdə düşmənlərin hərb gəmilərinin hərəkatı müşahidə edilmişdir. Qayvoron dairəsində bizim hissələr Qayvoron və Bezımyankanı işğal etdilər. Xotmijsk dairəsində bizim hissələr hücuma keçərək Belenkoye və Borisovka qəsəbələrini işğal etmişlərdir.

**Hacı-Tərxan altında**

Samara - Hacı-Tərxan dairəsində bizim qoşunlar hücuma keçərək Vladimirovkadan düşmənləri çıxarmışlardır və onları Axtuba səmtinə püskürtmüşlərdir. Düşmənlərin bir hissəsi suya qərq edilib, qismi-digəri də tərəfimizdən təqib edilir. Əsir və qəniməti-hərbi alınmışdır.

**Bolşeviklər və ingilis flotu**

Kopenhaqdan [Kopenhagendən] verilən məlumata nəzərən, ingilis hərbi gəmiləri matroslarının arasında bolşeviklər ciddi təbliğatda bulunurlar. İngilis dilində külli intibahnamələr [vərəqələr] çap edilib, bunların arasında nəşr edilməkdədir [yayılmaqdadır]. Bu intibahnamələrdə denilir ki, inqilablı Rusiya xətrə [təhlükə] altındadır. Buna da səbəb cahangir [imperialist] Avropanın Rusiya işlərinə müdaxilə etməsidir. Bolşeviklər ingilis hərbiyyunlarına [matroslarına] təklif edirlər ki, onlar da inqilab əmələ gətirib Şura Rusiyası əleyhinə hərb etməsinlər. Hələlik bu təbliğatın səmərəsi olmamışdır.

**Yorkşir mədənlərində nə olur?**

Londondan xəbər verilir, Avam Kamerasında Konneli Ceyms Birinci nazirdən Yorkşir kömür mədənlərinin nə kimi halda olduğunu sual eyləmişdir. Lloyd Corc cavab vermiş ki, son 24 saatda qayət xətrəli [təhlükəli] və gözlənməyən hadisələr üz vermişdir və getdikcə bu hadisat kəsbi-şiddət etməkdədir [şiddətlənməkdədir]. Mübahisə əsnasında kömür

mədən əmələləri [fəhlələri] maşın və digər dəzgahlarda işləyən əmələləri dəvət etmişlər. Ona görə də, bir çox mədənlər xarab olmuşdur. 75 kömür mədənləri su altında qalıb, əmələlər suları çıxarmaqdan imtina etmişlərdir. Xətrəli əhval əmələ gəldiyindən, vəziyyət dəxi də fənalaşmışdır. Mədənlərin suya qərq edilməsindən dolayı bir çox mədən sahibləri müflis olacaqlardır. Yorkşir mədənləri İngiltərə Krallığında böyüklüyündə ikinci dairəni tutur. Hökumət mədənlərdən suyu çıxarmaq üçün oraya matroslar göndərmişdir. Hökumət mədənlərə Erik Qeddesi göndərmişdir ki, su altında qalan kömür mədənlərindən suları çıxarsın.

**Florensiyada həyəcan**

Romadan xəbər verirlər ki, Florensiyada bahalıqdan dolayı vaqe olan iğtişaş zamanında əhali artıq dərəcədə inadlıq göstərmişdir. Qəzetələr çıxmamışdır, hamısı tətil etmişlər idi. Bir çox yaralananlar var idi. Sair şəhərlərə də həyəcan sirayət eyləmişdir [keçmişdir]. Ankon[a]da mağazaçılar özləri mağazalarını zəhmət birjasına vermişlərdir. Bu mağazaların üzərində yazılmışdır: "Millət ixtiyarına zəbt edilmişdir." Təslim edilməyən mağazalar camaat tərəfindən dağıdılmışdır. Faens[a]da ümumi tətil elan edilmişdir.

**Bolşeviklərin məlumatı**
**Kolçakın ricətinə dair**

Moskva - Əsirlərin dediyinə görə, Kolçak dəstələri Perm səmtində külli miqdarda qüvvələr cəm etməkdədirlər. Onların təcili surətdə ricət etmələrində [geri çəkilmələrində] iki alayın qorxaqlığı səbəb olmuşdur ki, qırmızı süvari hissələrinin qabağında müqavimət göstərmədən fərar etmişlərdir.

**Foşun tədbiri**

Helsinqfors [Helsinki] - General Foşun əmrinə görə, hökumət tərəfindən Fransa zabitinin qan bahası olaraq bir milyon marka miqdarında məbləğ verilməyincə almanların əsirləri azad edilməyəcəklərdir.

**Kolçakın qəbulu haqqında**

Penza - "Donskiye vedomosti" qəzetəsinin yazdığına görə, Serbiya Hökuməti Kolçak hökumətini tanımış və onun bu günlərdə Belqrada varid olmuş [gəlmiş] səfirini qəbul etmişdir. İspaniya Hökuməti dəxi öz nümayəndəsini Kolçakın yanına göndərmişdir.

Nikolayev - İstanbulda yığılmış olan rus kadetləri xalq sosialistlərindən ibarət olan bir məclis Kolçakın hökumətlər tərəfindən tanımasını təbrik etmişdir.

**Ticarətin iflası**

Berlin - Almaniyanın bir çox yerlərində ticarət və mə'dəniyyat [mədənçilik] işləri get-gedə fəna bir hala düşməkdədir. Bir çox fabrikalar qapanıb və əmələlər qulluqdan kənar edilirlər.

## QƏZETƏLƏRDƏN

**Volqada**

Tsaritsından "Utro yuqa" qəzetəsinə yazılır:

9-cu ordunun yerdə qalanı zahirən

Saratov tərəfindən 4-cü ordudan imdadiyyə [kömək] alaraq çalışırlar ki, pişdar [avanqard, öncül] müharibə ilə general Vrangel ordusunun qarşısını saxlasınlar. Qırmızı qoşunlar yeni səngərlər işğal edərək Varkino-Şepkin kəndlərinin yolunu Volqanın sol tərəfində bağlamışlardır. Şimal tərəfində onların iki dəstə süvariləri vardır. Səngər iki cərgə xəndəklərlə möhkəmləndirilmişdir. Bundan əlavə, oraya 12 ədəd top qoyulmuşdur. Bunlardan əlavə, onların uzaqvuran toplarla təchiz edilən paroxodları sol cinahın müdafiəsini möhkəmləndirir. Bolşeviklər Varkinodan hücuma keçmək istəmişlərdir, lakin dərhal dəf edilmişlərdir. Fərarilərin sözünə görə, Dumenko süvarisinin bir hissəsi barj ilə Volqa nəhrinin sol kənarına keçmişlərdir. Buna da səbəb dəstə komandirinin ricası olmuşdur. Zira ətrafda olan süvari alay gücdən düşmüş imiş və imdadiyyə gəlmədən bir şey görülməyirmiş. Hərçənd bir çıxışla Kamışini almaq mümkünsə də, lakin bolşeviklər oranı dəhşətli müharibə etmədən verməyəcəkdirlər.

**Kamışinin alınması**

Don ordusu ərkani-hərbindən [qərargahından] Kamışinin alınması haqqında rəsmi xəbərlər alınmışdır. Bolşevik əsgərlərinin qalanları Tarasov yolu ilə qaçıb Don əsgərləri tərəfindən təqib edilməkdədirlər.

**Krasnovodskın bombardmanı**

Avqustun 1-də Krasnovodskdan qaçqınlarla bir paroxod Bakıya varid olmuşdur [gəlmişdir]. Gələnlərin rəvayətinə görə, bolşevik aeroplanları Krasnovodsk üzərində uçub bir çox bomba tökmüşlərdir. Bombalardan biri İngiltərə ərkani-hərbinə [qərargahına], digəri dabravol ordusu cəbbəxanasına düşüb böyük partlayış olmuşdur. Həman gecə İngiltərə və dabravol ordusu ərkani-hərbi Petrovska getmişlərdir. Şəhərdə böyük həyəcan vardır. Şəhər əhalisinin bir hissəsi Petrovska, digər hissəsi Bakıya qaçmaqdadırlar.

**İrəvan hadisələri**

Ən mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, İrəvan quberniyasındakı axırıncı hadisələr münasibətilə oraya İngiltərə əsgərləri göndəriləcəkdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**İtaliya və Azərbaycan**

İyulun 31-də Qafqaziyadakı İtaliya hərbi heyətindən Xariciyyə Nəzarətində işbu məzmunda bir kağız alınmışdır:

"İtaliya Krallığı Xariciyyə nazir və müavini həzrətləri mənə, sizə məlum etmək üçün işbu təliqəni [rəsmi məktubu] göndərmişdir:

Gedəcək İngiltərə qoşunları əvəzində Qafqaziyaya İtaliya qüvayi-əsgərisi [ordusu] gəlməyəcəkdir.

İtaliya Krallığı sizin Cümhuriyyət hökumətilə daima iqtisadi, ticarəti, maliyyə və sənaye əlaqələri peydasına çalışacağı kimi, onların təmininə də çalışacaqdır. İşbu məqsədlə İtaliya Hökuməti bütün vəsait əldə edilməsinə, məsələn texnik müşavirlər (inspektorlar) irsalına [göndərilməsinə] hökumətiniz icazə verərsə, ha-

zırdır. Buna görə İtaliya heyəti Qafqaziyada qalacaqdır ki, nə istəsəniz, yerinə yetirsin.

İtaliyada yeni-yeni işlər başlanır ki, hər iki məmləkətin hökumətləri biri-birinə müavinətdə bulunmaqla ümumi mənafeyi mühafizə və müdafiə etsinlər. Həzrətlərinizi inandırıram ki, İtaliya Krallığı Hökuməti sizin vətəninizə aid bütün məsələlərə vaqif olduğundan, ən ciddi maraqla yaxın zamanda Sülh Konqresində başlanacaq mübahisələrdə iştirak edəcəkdir."

*Zaqafqaziya İtaliya heyəti müdiri*
*polkovnik Şarles Mişel*

**Kuban və biz**

İşbu günlərdə Yekaterinodardan alınan məlumata görə, xalq miyanında [arasında] Könüllü orduya olan əlaqə büsbütün dəyişərək ixtilaf tövlid etmişdir [əmələ gəlmişdir].

İyulun 7-də, məlum olduğu üzrə Yekaterinodarda Cənubi Rusiyanın, yəni Kuban, Terek və Donun nümayəndələri iştirakı ilə bir ictima [yığıncaq] dəvət edilmişdi. Buraya Dağıstan, Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri də dəvət edilmək qət edilmişdi [qərara alınmışdı]. İşbu məsələ Rada tərəfindən Denikinin Kolçakı qəbulundan dolayı qalxmışdı. İşbu qəbul məsələsi Kuban kazakları miyanında böyük narazılığa səbəb olmuşdu. Bu məsələnin əleyhinə olduqlarından başqa, vahid Rusiya məsələsinə öylə ziddirlər ki, Denikin ilə mübarizəyə hazırlanırlar.

Kazaklar Denikinin Zaqafqaziya və Don cümhuriyyətlərinin hüququnu qəbul etdiyi haqqında verdiyi təminata heç inanmaq istəməyirlər. Zira Denikin, işi yaxşılaşan kimi Dağıstan ilə bulunduğu əlaqə üzrə digər Qafqaziya cümhuriyyətləri və Don ilə də rəftar edəcəkdir. Binaənileyh [ona görə], kubanlılar Qafqaziya nümayəndələrinə müraciətən rica etmişlər ki, çağırılacaq konfransda iştirak etsinlər. Heç olmazsa bunun mənəvi tərəfdən əhəmiyyəti olacaqdır. Zira, kubanlıların ordu və maddi cəhətləri təmin edilmişdir.

Kuban nümayəndələri daima, şimdi də deyirlər ki, Denikin ilə bərabər bolşeviklər əleyhinə iştirak edəcəklərdir. Fəqət Ukraynada Ukrayna istiqlaliyyətçiləri əleyhinə gedəmməzlər. Öz istiqlaliyyətlərini elan etmiş başqa millətlərlə də böylə müamilatda [rəftarda] bulunacaqdırlar.

Hal-hazırda isə kubanlıların fikirləri fəqət [sadəcə] vahid Rusiya və dabravollar əleyhinə mübarizədə bulunmaqdır. İşbu mübarizə üçün də qafqaziyalıların nümayəndələri mənəvi müavinət üçün dəvət edilirlər.

Kubanlıları Tiflis Konfransına çağırılmamaq təəccübə götürür. Zira Qafqaziya cümhuriyyətləri hüquqlarını paymal etmək [tapdalamaq] Kubanın da istiqlaliyyətinə böyük zərbədir. Onların əqidəsincə, istiqlaliyyətləri fəqət kəndi müqəddəratlarını əllərinə almış millətlərlə bərabərlikdə mühafizə etmək olacaqdır. İşbu kontakt isə konfrans vasitəsilə vücuda gəlir.

Təəssüflər olsun, Azərbaycan Yekaterinodar ilə əlaqənin fənalığından dolayı işbu xəbəri gec almışdır. Vaxt isə ən axırı 25 iyul olmuşdur.

## RƏİSİ-VÜKƏLA VƏ HƏRBİYYƏ NAZİRİ HƏZRƏTLƏRİNİN QUBA QƏZASINI TƏŞRİFLƏRİ

**Qusarda**

24 təmmuz Qusar həyatında unudulmaz bir xatirə buraxacaqdır. Qusar ömründə görmədiyi təntənəli bir gün keçirmiş, təsvir və təhrirə [yazıya] sığmaz böyük bir bayram etmişdir. Hər tərəfdə bayram olduğu hiss edilir.

Hər kəsin üzündə bəşaşət [sevinc] əlaməti görülürdü. Hər yer şən, hər nəzər bərraq [parlaq] idi. Evlər ziqiymət [qiymətli] xalılar və parçalarla müzəyyən edilmiş [bəzənmiş], yeni bayraqlar iftixarla şu mənzəreyi-ruhnəvazı [ruh oxşayan mənzərəni] seyr edir və artıq şu türk elindən ayrılmayacağını və şu türk sancaqlarından qoparılmayacağını ümuma bildirirdi. Minlərcə toplanmış əhali sübhün danı atmadan soqaqlara [küçələrə] dolmuş və ta Xudat şosesinin xeyli hissəsinə qədər uzayıb getmişlərdi. Əsgəri hissələrdə müşahidə olunan hərəkətlər, yapılan hazırlıqlar böyük vücudların bəklənildiyini andırırdı.

Saat 11 radələrində avtomobilin ququsu ta uzaqlardan eşidilincə, əhali və əsgər içində həyəcan qalxaraq “gəlirlər, gəlirlər” deyə yek-digərini təbşir edirlərdi [bir-birlərinə muştuluq verirdilər].

İstiqbala [qarşılamağa] çıxmış baş zabitan və süvari əsgərlər məiyyətlərində [müşayiətində] olaraq, böyük müsafirlər Qusara varid [daxil] olur və musiqiçi əsgərlərin tərənnümsaz olduğu Azərbaycan marşı nəğmələri altında avtomobildən enirlər.

Əsgərlər içində görünən nizam və intizamı və şu türk fədai qəhrəmanlarının görünüşünü, sağlam üzlərini, bəşşaş [fərəhli] çöhrələrini, qələmlə təsvirə müqtədir olammadığım bayram büsatını, bütün şu dəsgahı və ruh yüksəkliyini insan gördükdə biixtiyar gözləri yaş ilə dolur və üzünü asimana tərəf çevirərək:

– Rəbbim, şu qartallar türk yavrularıdırlarmı? Şu qəhrəmanlar vətənimizin, Azərbaycanımızın, türk elinin müdafelərimidir [müdafiəçiləridirmi]? Əgər böyləysə, artıq nədən xofumuz olsun? Oh, Rəbbim, inayətini kəsmə! – dəruni [ürəkdən gələn; daxili] bir dua ilə cənabi-haqqa yalvarırdı.

Rəisi-Vükəla həzrətləri əsgərləri salamladıqda, bir ağızdan çıxan kimi:

– Əleyküməssalam...

– Afərin! – dedikdə:

– Çox sağ ol! – sədası qoca dağlara əks-əndaz olaraq [səs salaraq, əks-səda verərək] ta asimanlara qədər yüksəlirdi.

Rəsmi-keçidi Sədri-əzəm [Baş nazir] həzrətləri qəbul edib musiqi sədası altında buraxmış olduğu əsgərin keçişini, şahinvari yürüşlərini və şu dəmir mövcələrini [dalğalarını] seyr etdikcə əzəmətli günlərimiz xatirə gəlir, sövlətləri [hücumları] ilə cahanı lərzədar edən [titrədən] ulu Teymur və Çingiz bütün böyüklükləri ilə göz qarşısında mücəssəm olurdu [canlanırdı].

Saat 12 tamamda Sədri-əzəm, Hərbiyyə naziri və məiyyətlərində bulunan Quba qaimməqamı [Əmir xan] Xoyski həzrətləri və başqa məiyyət ərkanı [müşayiət edən digər şəxslər] alay komandanları tərəfindən zabitlər yığıncağında (Ofiserski sobraniya) ziyafətə dəvət olunurlar.

**Ziyafət məclisində**

Ən əvvəl Rəisi-Vükəla Yusifbəyli Nəsib bəy həzrətləri Hərbiyyə naziri şərəfinə piyalə qaldıraraq, az zaman içində bu qədər yüksəklikləri haiz olan [uğurlara nail olan] əsgəri işlərimiz və əsgərlər içində bərpa edilən dəmir intizam ordumuzun təcrübəli və müdəbbir [müdrik] əllərdə olduğunu sübut etməsini və bununla da ordumuz başında duran şanlı qartalımız general Mehmandarov həzrətlərinə mədyun [borclu] olmamızı söyləyirlər.

Hərbiyyə naziri dəxi, hökumət başında duran Yusifbəyli həzrətlərinin fəal olduğu qədər millətini də sevmiş olmasından və onun (Hərbiyyə nazirinin) hər istək və arzusunu yetirməklə bərabər, hər inadını qəbul etməsindən ordumuzu bugünkü mövqeyə yetirə bildiyini qeydlə, Rəisi-Vükəla həzrətləri şərəfinə piyalə qaldırırlar.

Və yenə Hərbiyyə naziri həzrətləri ikinci dəfə piyalə qaldıraraq:

– Mən bu qədəhi qaldırıram şu üç qartalın şərəfinə ki, onlardan biri əxlaq və nizamca xeyli dun [aşağı] bir mərtəbəyə enmiş və bəlkə də bir haydud [quldur] dəstəsi şəklini almış Konnı [süvari] Tatarski polku bugünkü təhsinlərə [alqışlara] layiq mövqeyə yüksəltməyə müvəffəq olan [Teymur bəy] Novruzov əfəndi, ikincisi İkinci Quba alayı içində gözəl bir intizam bərpa etmiş və əsgərlərin heysiyyət və şərəfini gözədərək cismən və ruhən yüksəlmələrinə müvəffəq ola bilmiş [Şirin bəy] Kəsəmənski və üçüncüsü də daha ziyadə şu alayların şərəfli bir mövqe işğal etməsinə xidmət edən və şu yolda var qüvvəsi ilə çalışan Quba qaimməqamı polkovnik [Əmir xan] Xoyski həzrətləridir, – deyir.

Saat 2 tamamda müsafir əfəndilər Qusarı tərk ilə Xudata tərəf rəvanə olurlar. Hərbiyyə naziri həzrətləri Xudat mövqifində [stansiyasında], göstərmiş olduğu hünərindən naşi [ötrü] konnı Tatarski polk komandanı Novruzov əfəndi rütbələrinin general-mayorluğa tərfi edildiyini [qaldırıldığını] teleqrafla məlum edərək, Kəsəmənskiyə də ayrıca razılıq teleqramı göndərirlər. Xudatdan Yalamaya hərəkətlə cəbhəni nəzərdən keçirdikdən sonra Xaçmaza övdət buyururlar [qayıdırlar].

**Qubada**

Rəisi-Vükəla həzrətləri və Hərbiyyə nazirinin Qubaya təşrif gətirəcəkləri xəbəri alınmaqla, şəhər bir bayram vəziyyəti aldı. Şəhərin mədxəlində [girəcəyində] taqi-zəfər tikilib [zəfər tağı quraşdırılıb], evlər, balkonlar və bütün hökumət dəftərxanaları xalılar, bayraqlar, çiçəklər və şaxlarla donadılmağa [budaqlarla bəzədilməyə] başlandı. Şəhərin hər tərəf[in]dən zurna və tar səsi eşidilib, dükan-bazar qapanıb, əhali taqi-zəfər cənbində [yanında] toplanaraq saatlarca müntəzir dururlardı və hər gün "bu gün gəlməli olmadılar" xəbərini alıb məyus və məğmum [qəmli] qayıdırlardı.

Ayın 24-nü axşamın saat 9-na kimi bəkləmişlərsə də, yenə arzularına yetişəmməmiş, məhrum qayıtmışlardı. Həman axşam ali müsafirlər saat 10 radələrində təşrif gətirmişlərdi. Bu xəbər bir ildırım sürəti ilə şəhərin hər tərəfinə yayılmış, artıq sabaha qədər bəkləməyə səbri olmayan əhali böyük bir izdihamla müsafir əfəndilərin mənzili olan qaim-

məqamın evini əhatə etmiş və "ura", "yaşasın" sədaları ilə şadlıqlarını izhar etmişlərdir. Rəisi-Vükəla ilə Hərbiyyə naziri həzrətləri istirahət odalarından balkona çıxaraq toplanmış əhalini salamlamışlardır.

Ertəsi günü sübh tezdən əhali yenə qaimməqam evi tərəfə axın-axın axmağa başlamış və qaimməqamın evi ətrafı toplanmış əhali tərəfindən xınca-xınc dolmuşdur və partizan atlı dəstəsi dəxi əhalini bir halqa kimi araya alaraq nizamla mühafizəyə durmuşlardır. Rəisi-Vükəla həzrətləri ruhani və ağsaqqalları və yəhudi camaatı ruhani və ağsaqqallarını hüzura qəbul edib, mehribananə qonuşaraq əhval-pürsan olmuşlardır.

Saat 9 tamamda Rəisi-Vükəla həzrətləri toplanmış əhaliyə tərəf çıxdıqda, qədəmləri altında iki heyvan kəsilir və məiyyətlərində bulunan katib şikayətçilərin ərizələrini qəbul edir.

Əhali namından Quba Bələdiyyə rəisi [Rəisi]-Vükəla həzrətlərini təbrik edirlər:

*"Bu gün cümə günü olduğu üçün aləmi-islamın hər tərəfində bayram edilir. Amma biz Quba əhalisi üçün bugünkü bayram ikiqat məziyyəti havidir [ikiqat əhəmiyyət daşıyır]. Zira bu gün şəhərimizi sizin kimi ali bir vücud mübarək qədəmləri ilə təşrif buyurmuş. Keçirdiyimiz böhranlardan, fəlakətli günlərdən sonra, daşnak quldurları təpikləri altında əzildiyimizdən sonra sevimli hökumətimiz rəisinin lütfən əhvalımızdan xəbər bilmək üçün təşrifləri mütləq bir bayram və böyük bayram adlanmalıdır. Möhtərəm əfəndi, Azərbaycan istiqlalı fikri ən əvvəl zati-alilərinizin başında doğmuş və bütün Azərbaycan türklüyünün əxəssi-amalı [ən uca amalı] olan şu müqəddəs fikri vücuda çıxarmaq üçün uğradığınız müşkülatı nəzərə almayaraq, heç bir fədakarlıqdan çəkinməmisiniz. Türk kütləsinin bir zamanlar arzusu olan həman fikir, Allahül-həmd [Allaha şükür olsun], bu gün bir həqiqət olaraq meydana çıxmış və sizlərin qeyrət və həmiyyətləriniz sayəsində boynumuza taxılan əsarət zəncirləri artıq qırılmış, vətənimiz qasib [qəsbkar] və müstəbid əllərdən xilas edilib, babalarımızın müqəddəs ruhları kəndimizə qayıtmışdır.*

*Bir çox irqdaşlarımızın məsum qanları bahasına bizə mal olmuş istiqlalımızın mühafizə ediləcəyinə və bir daha təhti-əsarətə [əsarət altına] düşməyə bütün-bütünə məhv oluncaya qədər millətimiz riza göstərməyəcəyinə imanımız bərqərar olmaqla bərabər, sizin kimi zati-həmiyyətpərvərin hökumətimiz başında durması və general Mehmandarov kimi təcrübədidə [təcrübəli] qartalın ordumuz başında olması iman və etiqadımızı daha mətin surətlə təqviyə [gücləndirir] edir, əfəndim! Yaşasın Azərbaycan Hökuməti! Yaşasın istiqlal!"*

"Yaşasın" sədaları asimanlara qədər təninəndaz olur [əks-səda verir].

Bədəhu [bundan sonra], müsəlman və yəhudi ruhaniləri tərəfindən ayini-dua icra edilərək hökumət ərkanı üçün dualar edilir.

"Müsavat" firqəsi namından [Əbülqasım] Rüstəmzadə əfəndi əziz qonaqları təbrik etdikdə, "Yaşasın Azərbaycan!", "Yaşasın Müsavat" sədaları ətrafı lərzədar edir. Sonra ağac tüfənglərlə nizama durmuş çocuq əsgər alayı içindən bir çocuq çıxaraq olduqca fəsih [səlis] bir lisan-

la Rəisi-Vükəla həzrətlərini aşağıdakı sözlərlə təbrik edir:

*"Möhtərəm müsafirlərimiz, xoş gəldiniz! Bu gün sizin gəlmənizlə gözlərimiz rövşən [işıqlandı] və könüllərimiz şən oldu. Həqiqətən, əlhal [hal-hazırda] sizin yorulmaq bilməyən hümmətiniz sayəsində millətimiz möhtəşəm bir ordu, müntəzəm bir armiya görməyə nail oldu. Biz əbnayi-vətən [vətən oğulları], işbu nəzərə çarpan kiçicik alayımızla vətən yolunda əsgərlik vəzifəsinin nə qədər müqəddəs olduğunu və gələcəkdə bizdən vətənə bir bölük, müntəzəm bir alay təşkil oluna biləcəyini göstəririz. Bununla demək istəriz ki, hal-hazırda əsgərlik bizim namusumuz, qeyrətimiz və iffət və ismətimizin sədd və hasarıdır. Bu hasarı bəkləmək hər bir fərdi-əfradi-vətənə [vətən əhalisinin hər bir fərdinə] vacib və lazımdır. Biz bu alayımızla vətənə olan səmimi məhəbbət və sədaqətimizi izhar edib, əfradi-vətənə bir nümunə və örnək oluruz. Xudavəndi-əhədiyyət [bir olan Allah] ümumən aləmi-islamı və xüsusən sizi və bizi məqsədimizdə müvəffəq buyursun. Amin!"*

Və yenə "yaşasın" sədaları göylərə yüksəlir. Rəisi-Vükəla həzrətləri cavab olaraq:

*"Sizin qlavanız [Bələdiyyə sədriniz] məni çox yüksəltdilər. Deyə bilərəm ki, vətənimizdə heç bir fərqli adam yoxdur. Biz hamımız vətənin nökəriyiz. Bizim padşahımız vətən və bu torpaqdır. İştə, padşahımız olan vətənə xidmət bizim vəzifəmiz olduğu kimi, onun yolunda fədakarlığa qatlaşmaq da vicdani borcumuzdur.*

*Vətən iki şeylə mühafizə edilir. Əvvəlincisi maarifdir ki, onun təmiminə [yayılmasına] mütəəddid [çoxsaylı] məktəblərin güşadı [açılması] ilə çalışmalıdır və hökumətə də vacibdir ki, şu yolda lazımi köməkliyi etsin və edəcəkdir də. Camaat da gərək hökumətə yardımçı olub məktəblərin çoxalmasına, xəstəxanalar açılmasına sərfi-hümmət etsin.*

*İkincisi əsgərlik məsələsidir ki, əsgərliyə soyuq baxmış olarsaq, arzumuza nail olammarız. Biz gərək əsgərlik işlərinə var qüvvəmizlə çalışaq. Əsgərlikdən qaçanlar xaindirlər. Onları gərək aramızdan çıxaraq. Mən Qubadan çox razıyam, əsgərliyə həvəslə gəlirlər.*

*İstiqlalımız gəncdir və bütün cahanın gözü bizdədir. Bizim hər addımımıza diqqət edirlər. Biz imtahan veririk. Gərək bizim hər işimiz göstərsin ki, millət layiqdir. Gözümün qabağında duran bu uşaqlar (uşaqları göstərərək) sübut edir ki, bu millət yaşayacaq. Lakin biz gərək dünyaya isbat edək ki, biz yalnız özümüzü idarə etməyi deyil, başqalarını, yəni türk və islamlardan qeyrilərini də idarə etməyi bacarırız. Azərbaycan bizim vətənimiz olduğu kimi, bizimlə birlikdə yaşayan qeyri-islamların da vətənidir. Ona görə lazımdır ki, qonşularımız yəhudi və qeyrilərlə hüsn-rəftarda bulunaq. Onların da borcudur ki, vətənlərinə sadiq olsunlar. Yenə təkrar edirəm, cahanın gözü bizdədir. Yaşamağa layiq olduğumuzu isbat edəlim."*

Alqış və "yaşasın" sədaları hər tərəfi vəlvələdar edir. Saat 10-un yarısında ali müsafirlərimiz və əziz qonaqlarımız avtomobil ilə Xaçmaza əzimət edirlər [yola düşürlər].

*H. R.*

**MƏTBUAT**

Ermənistan dövləti ərazisində yaşayan və kəndisini azərbaycanlı bilib də ermənilərə tabe olmaq istəməyən sadiq türklərin qanlı faciəsi davam edir. Bu vaxtadək quldurluq təriqi [yolu] ilə hər əlinə düşən müsəlmanı, xüsusən türkü öldürməyi özünə borc bilən daşnak quldurları, nəhayət daşnak hökumətinin əmri ilə İrəvan quberniyası dairəsindəki dindaş, vətəndaşlarımızı guya qırıb qurtarmaq, ya tabe etmək qəsdi ilə nizami müharibə başlamışlardır. Fəqət hüququnu almağa əzm etmiş, erməni hökumətinin bütün "səfa və ləzzətlərini" görmüş olan hürriyyətpərvər qəhrəmanlar qana boləşmək bahasına da olsa hüquqi-milliyyələrini vermək istəməyirlər.

Buna görədir ki, Vedi, Şərur, Naxçıvan ətrafında qan sel kimi axır. Lakin "Hayastan-Aşxatavor", sanki bu da azmış kimi daha şiddətli müharibəyə dəvətlə yazır ki:

*"Türk agentləri ilə tatar bəylərinin qanlı fəaliyyəti davam edir. Mürtəce xanlarla birləşərək bunlar cavan demokratik cümhuriyyətimizin əsasını sarsıtmaq istəyirlər. Bunun müqabilinə qəti tədbirlər görməlidirlər. Müttəfiqlər Azərbaycan Hökumətini qane etməlidirlər ki, Ermənistana qarşı ədavətin heç bir səmərə verməyəcəyini öz dindaşlarına anlatsın. Qəti tədbirlərlə, ağalar və paşaların inadını sındırmaq lazımdır. Xalqı ağıllandırmalıdır. Qəhr olsun yumşaq siyasət. Qəti və ciddi tədbirlər görməlidir."*

Fəqət böylə şüar ilə inanmayırız ki, daşnak mühərrirləri sülh bərpa edə bilsinlər. Sülhün təmini üçün haqq və hürriyyət istəyən, xalqı qəti və şiddətli tədbir, yəni silah gücü ilə ağıllandırmaqdansa, daşnak politikaçılarına əqli-səlim [sağlam mühakimə] təlqin etmək və camaata yaşayış ixtiyarı vermək lazımdır.

Digər bir məqaləsində məzkur [adı çəkilən] qəzetənin baş mühərriri daha da qızır, acıqlanır, atəş və ildırım saçır. Hətta bir dərəcəyə varır ki, "tatarları" unudaraq ümum daşnak olmayanlara elani-hərb edir. Nəhayət hökumətə diş göstərir. Yazır ki:

*"Hər tərəfdən biz, türk-tatar mürtəce həşəratı ilə əhatə edilmişiz. Bizim hökumətimizin yumşaq siyasəti və təhəmmülkarlığı [tolerantlığı] dövlət əleyhinə cinayətdən ibarət bir hərəkətdir. Hamı və hər şey vətənə fəda olmalıdır. Kadet, İctimaiyyuni-amiyyun [Sosial-demokrat] və İctimaiyyuni-inqilabiyyun [Sosialist inqilabçılar] firqəsinə mənsub olanların böylə bir zamanda kənara çəkilib iştirak etməmələri xəyanətdir. Demokratiyanın şüarı «Hər yerdə əksinqilaba qarşı hərb» olmalıdır."*

Doğrudur, zəmanədə "əksinqilab" sözü öylə bir qüvveyi-incirariyyə [elastiklik] kəsb etmişdir ki, hər tərəfə çəkmək olar. Fəqət hankı tərəfə çəkəcək olarsa, qəzetə bizcə daşnaklara elani-hərb edir. Çünki "əksinqilabçı" – menşeviklər nəzərində bolşeviklərdir, bolşeviklərcə eserlər, eserlərcə kadetlər. Xülasə, hankı firqəni sorsan özündən başqalarını əksinqilabçı adlandırır. Hətta Bakıdakı bolşevik "Ədalət" firqəsi Hacı-Tərxanda yoldaşlarının qətli münasibətilə Hacı-Tərxan bolşeviklərini əksinqilabçı elan etmişdi. Bu surətlə mövcud firqələrin həpsi əksinqilabçıdır. Və çünki öylə bir firqə

yoxdur ki, daşnaklar onunla ittifaq bağlamamış və "tovariş" olmamış olsun, ona görə də, əksinqilaba hər kəs elani-hərb etsə, mütləqa daşnaklarla müharibə etmiş olar. Bu mülahizə ilə biz "Hayastan-Aşxatavor" qəzetəsinin bu sözlər.......

## YUSİF VƏZİROVUN MƏRUZƏSİ

*(sonu)*

Sizə bir qədər də bolşeviklərdən məlumat vermək istəyirəm.

Mən birinci dəfə olaraq bolşevikləri Kiyevdə görmüşdüm. O zamanlar bolşeviklərin yeni iş başına keçərək Rusiya ümuri-idarəsini [idarə işlərini] əllərinə alan vaxt idi. Ukraynaya hücum edib onların təşkil etdikləri milli hökuməti dağıtmışdılar. O vaxt bolşeviklər Kiyevdə yapmadıqları dəhşət buraxmadılar. Üç-dörd gün içərisində yalnız Kiyevdə beş min nəfərdən artıq adam qırdılar. Şəhərin küçələrində qan adəta [sanki] su kimi axır-dı. Kimsəyə fərq qoymayır, müqəssir və günahsızı yek-digərindən [bir-birindən] ayırmayırdı[lar]. Hətta məktəb çocuqlarınadək belə qırdılar. İyirmi beş gün şəhərdə qalmaqla, Kiyev kimi gözəl bir şəhəri xarabazara döndərdilər. Sonradan nemes qüvvəsi Kiyevə gəldiyində, çəkilib getdilər.

Tale məni ikinci kərə də bolşeviklərə rast gətirdi. İki ay yarım bundan əvvəl mən bolşevikləri Odessada gördüm. Bu kərə bolşevikləri büsbütün təsəvvürümün xaricində tamaşa etdim. Mən bolşevikləri Kiyevdə gördüyüm kimi hiss edirdim. Bolşevik əsgərlərini bir taqım cındır əlbisəli, nizamsız əsgər kütləsindən ibarət bilirdim. Lakin yanıldığımı anladım. Bu kərə Odessanı işğal edən Qırmızı orduda bir intizam müşahidə etdim. Bolşeviklər adəta burjuy misalı yeni və təmiz əlbisə ilə müləbbəs [geyinmiş] idilər.

Bununla bərabər, Odessada bolşeviklərin vürudundan [gəlişindən] əvvəl, hökumət dabravollarda olan zaman bir hərc-mərclik var idi. Şəhərin həyatı büsbütün alt-üst olmuş, hər zaman, xüsusən gecələr kefli əsgərlər güllə atır, xalqın hüzur-rahatını pozurdular. Əksərən soyğunçuluqlar vaqe olurdu. Şəhərdə yek-digərinə zidd iki dürlü tərzi-həyat var idi. Birisi Kiyevdə işrətdə son dərəcə ifrata varmış, digəri səfalətdən, aclıqdan son dərəcə təfritə uğramışdı. Hər küçə başında acından yerə yıxılaraq qəşş edən qadın və çocuqlara əksərən təsadüf edilirdi. Adəta bu, bir adi şey olmuşdu. Bununla bərabər, hər neçə gündən bir qəzetələrdə səfil bir ailənin tamamilə acından qırılıb öldüyü və kimsənin ondan xəbəri olmadığı oxunurdu.

Aclıq və səfalət bu dərəcəyə çıxdığı bir halda, digər tərəfdən qənnadı dükanlarında gözəl şəkərləmələr, restoranlarda ləziz xörəklər və yeməklər öz qaydası ilə satılır, şəhərin ikinci sinfi – zəngin və sərvətdar qismi əbədən [əsla] kəndi istirahətini pozmayırdı. Şəhərin bir hissəsi işsizlikdən və yoxsulluqdan qırılıb tələf olur, digər hissəsi hər gecə klublarda, əyləncə yerlərində eyş-işrətdə milyonlar sərf edirdi, görülən acı və səfalətli mənzərədən əbədən mütəəssir olmayırdı. Budur ki, yek-digərinə düşmən,

heç bir təriqlə [heç bir surətdə] barışammayan iki cərəyan müşahidə edilirdi. Bu da adi bir həyat surətini almışdı.

Mən bolşevikliyin nə olduğunu, onun qüvvətini o zaman hiss etdim. Hiss etdim ki, Rusiyada bolşevizmi doğuran Rusiyanın tərzi-həyatı olmuşdur. Bolşevizmin qüvvəti Rusiyadakı ədalətsizlikdən nəşət etmişdir [əmələ gəlmişdir]. Çünki səfalətin müdhiş qaranlıqları içərisində əzilən, inləyən və can verən böyük bir kütlənin yeganə bir ümidi, düşdüyü vərtədən [təhlükədən] xilas olmaq üçün yalnız bir çarəsi var idi. Yəni özünün xilası, nicatını yalnız bir şeydə görürdü. O da bolşevikdən ibarət idi.

Mən əsasən bolşevizmə ziddəm. Bolşevizm heç bir millət üçün, xüsusən bizim kimi əsarətdən yenicə xilas olmuş millətlər üçün heç bir səadət gətirməz. Bolşevizmin sonu hərc-mərclikdir. Biz gərək bolşevizmin öz vətənimizə gəlməsinə bütün ciddiyyətimizlə mane olaq. Bunun qarşısını almaq üçün bolşevizmi doğura biləcək ədalətsizliyi məmləkətimizdən rəf və dəf etməliyiz [aradan qaldırmalı və uzaqlaşdırmalıyız]. Bolşevizm aclıqdan və səfalətdən çıxır. Bunun üçün millətimizin əksəriyyətini təşkil edən fəhlə və kəndli sinfinin iqtisadi həyatını yoluna qoymalı, torpaq məsələsini onlara əlverişli bir surətdə həll etməlidir.

Odessada, ərz etdim ki, bolşeviklikdən əvvəl bir hərc-mərclik müşahidə edilir, ehtikar gündən-günə şiddətlənir, bazarda açıqdan-açığa pul alış-verişi edilirdi. Bolşeviklərin vürudundan sonra şəhərin intizamsızlığına bir xatimə çəkildi. Ehtikarçılıq ləğv edildi. Bolşeviklərin bir nöqsanı oldu ki, o da çörəyə məzənnə qoymaları idi. Onlar elan etdilər ki, çörək gərək üç manatdan satılsın. Bu elan çörəyin tamamilə qəhətliyinə səbəb oldu. Hətta girvənkəsi 100 manata çörək axtardım, tapa bilmədim. Şəhərdə zahirdə nizam var idi. Güclə xalqdan bir şey almayırdılarsa da, lakin tədriclə hər şeyi milliləşdirməyə başladılar.

Odessada bolşeviklərin süqutuna başlıca səbəb onlarda məruf [məşhur] olan "Den bednata" (Füqəra günü) oldu. Məlumunuzdur ki, bolşeviklər ayda bir kərə "Füqəra günü" adı ilə kasıblar faydasına ev əşyası və əlbisə toplayırlar. Hər kəsin iki dəst əlbisəsi, ayaqqabı və sairəsi varsa, birisini alırlar. Odessada dəxi böylə bir gün tərtib verdilər. Birinci olaraq Puşkin küçəsindən yığmağa başladılar. Bu küçə bir o qədər də burjuy küçəsi deyil. Arabaları o küçəyə sövq edilərək o günə məxsus seçilmiş şəxslər evlərə soxularkən məhəllə əhlində onların əleyhinə bir həyəcan başladı. Ən nəhayəti arvad-uşaq, gənc və ixtiyar ağacla, daş və isti su ilə, hətta balta ilə onlara hücum etdilər. Şiddətli bir çarpışma vüqu buldu. Nəhayət, "Den bednata"nı o gün ləğv etdilər.

Sonradan şəhərdə bolşeviklərin əleyhinə, o cümlədən olaraq yəhudilərin əleyhinə şiddətli fitnəamiz şayiələr nəşr edilməyə [yayılmağa] başladı. Guya məruf [Nikifor] Qriqoryev bir yəhudi talanı salmaq fikrində imiş. Bu fikri bilən Odessanın komissarı ki, kəndisi də yəhudi idi, bunun qarşısını almaq qəsdi ilə bu işi görürmüş. Bolşevikləri yıxmaq üçün "vahid rusiyaçılar" rus əfkari-ümumiyyəsini [ictimaiyyətini] yəhudilərin əleyhinə qaldırırlar.

Mən şəxsən yəhudi əleyhinə deyiləm. Lakin burası var ki, bolşevik komissarlarının 99 faizi yəhudidir. Sağlar buna böylə rəng verirlər ki, yəhudilər Rusiyadan intiqam alırlar. Məşhur rus ədiblərindən Dostoyevski öz dnevnikində [gündəliyində] demiş ki, Rusiyanı yıxacaq bir amil olacaqsa, o da yəhudilər olacaq. Sağlar bolşevikliyi yəhudiliyə isnad verirlər. Bundan ötrü əllərində bir çox dəlilləri də var. Əvvəla bolşeviklərin rəsmi nişanlarını yəhudiliyə isnad verirlər. Məlumunuzdur ki, bolşeviklərin nişanı qırmızı ulduzdan ibarətdir. Yəhudilərin də milli nişanı ulduzdur. Budur ki, sağların qəzetələri açıqdan-açığa bolşevikliyi yəhudi bəlası adlandırırlar.

Bir də, bolşeviklər ümumən dinlərin əleyhinədirlər. Onlar deyirlər ki, din millətlərin tiryəkidir. Moskvada məruf kəlisaların [kilsələrin] birində bulunan məşhur bir "ikona" İsanın rəsminin üzərində cəli [iri; qalın] xətt ilə yazmışlardır:

*"Din millətlərin tiryəkidir. Onları qəflət yuxusuna yatırmaqdan başqa bir qiyməti yoxdur."*

Habelə, hər kəs evində səlib [xaç] və İsanın rəsmini saxlasa, hökumətə müəyyən bir xərc verməlidir.

Bununla bərabər, ruslarda bir etiqad var idi: müqəddəslərin meyitləri hər zaman sağ və salamat qalar, onlar başqa adi insanlar kimi çürüməzlər. Bolşeviklər bunun yalan olduğunu isbat üçün bütün Rusiyada bulunan müqəddəslərin qəbirlərini camaat gözü qabağında açıb bunların yalan olduğunu aləmə isbat etdilər. Budur ki, ruslar bolşevikləri xristianlığın düşməni ədd [hesab] edir, hətta bolşeviklərlə mübarizə edən Kolçakın orduları müqəddəslərin adları ilə adlanmışlar. Onların başında ruhbanlar durmuşlardır.

Bu gün Rusiyada din tamamilə qaldırılmış, kəbin və talaq məsələsini də ləğv etmişlərdir. Onlar tamam şeyləri əsasından uçurub yerində istədikləri kimi yenidən bir şey bina etmişlər. Onlar hər şeyə ancaq zəhmət nöqteyi-nəzəri ilə baxırlar.

## BAKI XƏBƏRLƏRİ

### Tələbələr arasında

Bir qaç gündür ki, Bakı Türk Müsəlman Tələbələr Komitəsi məmaliki-əcnəbiyyəyə [xarici ölkələrə] getmək və güşadı [açılması] Bakıda ehtimal olunan darülfünuna [universitetə] daxil olmaq arzusunda bulunan tələbələrin siyahısını tərtiblə məşğul idi. İştə, nəticə bərvəchi-atidir [aşağıdakı kimidir]:

İsveçrəyə 51 nəfər, Fransaya 13 nəfər, Türkiyəyə 4 nəfər, İtaliyaya 1 nəfər, Rusiyaya 17 nəfər, İngiltərəyə 3 nəfər, Almaniyaya 11 nəfər, cümlətanı 100 nəfər. Şimdilik, məmaliki-əcnəbiyyəyə getmək istəyən tələbələrin hesabı şu qədərdir. Bakıda qalmaq istəyən tələbələrin hesabı 15 nəfərdir ki, bunlardan 14 nəfəri tibbiyə, 1 nəfəri tarix və ədəbiyyat şöbəsinə girmək arzusundadır. Siyahı davam edir.

### Lehlər Rəisi-Vükəla hüzurunda

İki gün bundan əvvəl Lehistan [Polşa] Xariciyyə heyətinin üzvü S. Qrabovski və polyaklık koloniyası üzvü mühəndis L. M. Pekarski Rəisi-Vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli cənablarını ziyarət etmiş-

lər. Rəisi-vükəla Lehistan vəziyyəti ilə pək maraqlanmış və az vaxtda bir çox məsələlərdən bəhs etmişlərdir. Heyət Azərbaycan millətinin bəslədiyi arzuların tezliklə vücuda gəlməsini təmənna etmişdir.

**Pristavın həbsi**

Altıncı polis idarəsinin pristavı Axundov müqəssirləri döyməyinə görə qradonaçalnik tərəfindən üç ay həbsə alınmışdır.

**Rəsulovun həbsi**

Qradonaçalnikin xüsusi məmuriyyət çinovniki Rəsulov möhtəkirləri həbs etdiyi zaman 26 min rublə Nikolay pulu tutub özü üçün götürdüyünə görə həbsə alınmışdır.

**Bolşevikin qaçması**

Dünən gecə saat 10 radələrində bulvar qarşısında qəflətən şiddətli atışma başlanmışdır. Camaat qorxuya düşüb dağılmışdır. Nəticədə məlum olmuşdur ki, Port uçastokunda həbsdə olan bolşevik Tetureşkin-Somov qaçmışdır. Atışma da buna görə olmuşdur. Aldığımız məlumata görə, bolşeviki tuta bilməmişlər. Camaat arasında atışmadan zərərdidə olduğu dəxi söylənirdi.

**İdareyi-zəbtiyyələrdə sui-istemal**

Rəisi-Vükəla Nəsib bəy Yusifbəyli həzrətləri cümhuriyyəti gəzərkən Ərəş uyezdində idareyi-zəbtiyyə [asayiş idarəsi] məmurları əlindən bir çox şikayətlər almışdır. Şikayətləri nəzərdən keçirəndən sonra Rəisi-Vükəla əmr etmişdir ki, Ərəş uyezdi naçalniki xidmətdən əzl [kənar] və həmin uyezdin birinci dairə pristavını həbs etsinlər.

**Sui-istemal**

Bakı qradonaçalniki qubernatora xəbər vermişdir ki, 4-cü uçastok pristavı Məhəmmədbəyovun sui-istemalı [sui-istifadəsi] və Bakı qubernatorunun ikinci xüsusi çinovniki Mehdi bəy Nəcəfbəyovun təqsirləri haqqında işləri mühüm işlər müstəntiqinə yollanmışdır.

**Kəndxudanın şikayəti**

Bakı uyezdinin Ağdərə kəndi vəkili Bakı qubernatoruna müraciətən Altıağac kəndxudası Qriqori Kotikovun əlindən şikayət etmişdir və Kotikovun malakanları müsəlmanlar əleyhinə qaldırdığını bəyan etmişdir. Vəkil Kotikovun qanunsuz hərəkətlərindən bir neçəsini sayandan sonra kəndxudanı qovlamağı və məhkəməyə verilməsini rica etmişdir.

**Rus konsulluğu**

Rəvayətə görə, bu yaxınlarda Bakıda rus əhalisinin hüququnu müdafiə üçün xüsusi bir təşkilat vücuda gələcəkdir.

**Məktəb binalarının boşa[l]dılması**

Maarif naziri Bakı qubernatoruna müraciətən rica etmişdir ki, Bakıda və Azərbaycanın başqa yerlərində ordu tərəfindən tutulmuş olan məktəb binalarının tezliklə boşa[l]dılması haqqında əmr versin, ta ki, təhsil ili başına kimi məktəbləri təmizləyib təmir etmək mümkün olsun.

**Tələbələrin əsgərlikdən azadı**

Bir neçə gün bundan irəli Bakı Türk Tələbələr Komitəsi nümayəndəsi Dövləti

Müdafiə Komitəsinin müvəqqəti sədri [Xudadad bəy] Məlikaslanov tərəfindən qəbul edilib, tələbələrin əsgərlikdən xilası haqqında müsahibədə bulunmuşlar. Nazir söz vermişdir ki, bu günlərdə hökumətlə danışıb tələbələrin tezliklə buraxılmaları haqqında təşəbbüsatda bulunar.

**Rusiyada oxuyan tələbələrimiz**

Rusiya darülfünunlarında [universitetlərində] oxuyan türk tələbələrinin neçə gün əvvəl ümumi iclasları vaqe olub xüsusi bir komitə təşkil etmişlərdir. Komitəyə S. Məhəmmədyarov, A. Məhəmmədov və Tahirov daxil olmuşlar və ümumi Tələbələr Komitəsinə dəxi girəcəklərdir.

**Fəhlələrin tətili**

İyulun 3-nə kimi tələbləri qəbul olunmadığından, Eyzenşmidt zavodunun əmələləri tətil elan etmişlərdir. Aldığımız rəsmi məlumata görə, müsəlman fəhlələri tətildən narazıdırlar.

**Daxil olmuş mallar**

Ticarət, Sənaət və Ərzaq Nəzarətinin Statistika şöbəsinin verdiyi məlumata görə, iyulun 30 və 31-i, avqustun 1-nə kimi Bakıya bu qədər mal daxil olmuşdur: Taxıl 32976 pud, furaj [yem] 8792 pud, kartofel 2471 pud, şəkər 585 pud, pambıq 1059 pud, qənd 450 pud, manufaktura 231 pud, mis 405 pud, odun 7000 pud.

**Muğan heyəti**

Avqustun 1-də Salyan təriqi [yolu] ilə ingilislərin hüzuruna Muğan heyəti gəlmişdir. Heyətin başında polkovnik İlyaşeviçin oğlu durur. Heyət Lənkəran uyezdində hökumət və idarə məsələsinin qansız həlli haqqında danışacaqdır. Gələnlərin rəvayətinə görə, Lənkəranda sakitlikdir. Hər iki tərəf bu məsələnin həllini bəkləyirlər.

**Birjada**

Laj [kurs] son günlərdə möhkəmlənir. Xüsusən Nikolay pulları artır. Keren[ski] pulları hərəkətsizdir. Minlik 1500 manat, 250 manatın minliyi 1250 manat. 500-lük 1950 manat. 100-lüklər 375 manat. Xırda azdır.

**Valyuta**

Gümüş 17 dəfə, manat isə 32 dəfə bunlardan bahadır. Funt banknot 330 manata, çek 280 manata, frank kredit 22 manata, çek 18-19 manata, İtaliya lirəsi 17 manata.

## AZƏRBAYCANDA

**Zəngəzurdan bizə yazırlar**

İyul ayının 16-cı gecəsi Zəngəzur uyezdinin Xocahan köyünün sakinləri Musa bəy Lütfəli bəy oğlu Xocahanski özündən başqa iki həmqəryəsi [kəndçisi] İsmayıl Kərbəlayı Fərhad oğlu və Əli Fətəlizadə ilə Şuşa şəhərindən üç yük mal əşya alıb və kirayə apardıqları vaxt, Qaryagin uyezdi Türkəfəndili ilə Yusifbəyli qəryələrinin arasında həman qəryələrin adamları ilə əvvəlinci Musa bəy öldürülüb, tamam əşyaları və atları yağma olunubdur. Soyğunçuların yerli əhalidən olmalarına şübhə yoxdur. İki nəfəri tüfəngli, mabaqiləri

[qalanı] tapançalarla silahlanmış və həm piyada imişlər. Qarət olunmuş at, əşya və tüfəng 80 min manata baliğdir [çatır]. Ciddi tədbirlər olunub ənqərib zamanda [tezliklə] müqəssirlər tapılıb həbs olunmasa və yağma olunan mal alınıb sahiblərinə verilməsə, qeyriləri həm iştahalandırıb sirayət edəcəyinə [yayılacağına], gediş-gəliş qət olunacağına [kəsiləcəyinə] şübhə etməməlidir. Əlan [indi] beş-üç nəfərin silahsız şəhərə gedib-gəlməsinə imkan yoxdur.

Zəngəzurda ermənilər tərəfindən hücumlar qət olunmayıb bu haladək hər gün Alın, Kəmin, Fərican, İydəli və Alavin müsəlman kəndlərinə hücum edib ziraətlərini [əkinlərini] yığmağa qoymayırlar. Qeyri yerlərdə ermənilər tərəfindən müsəlman ziraətləri odlanıbdır və yandırılıbdır.

*Zəngəzurlu*

## GÜRCÜSTANDA

**Polkovnik Qabba**

Alınan məlumata görə, polkovnik Qabba avqustun 9-na qədər Tiflisə varid olacaqdır [gələcəkdir].

**General Baratov**

İyulun 30-da Yekaterinodardan gələn general Baratov ayın 31-də Batumdan İngiltərə yük qatarı ilə çıxıb Tiflisə varid olmuşdur.

**İngiltərə əsgərləri**

"Nor aşxatavor" qəzetəsinin Batum müxbiri xəbər verir ki, iyulun 24-də Batuma İngiltərə əsgərləri gətirilmişdir. Bunlar Zaqafqaziyada olan əsgərləri əvəz edəcəklərdir.

## ERMƏNİSTANDA

Erməni Teleqraf Agentəliyi xəbər verir ki:

- Dəmiryol körpüsü xəsarətlənmiş olduğundan, Naxçıvan qitəmiz [hərbi hissəmiz] zirehli qatarımızın bir vaqonunu qoyub, yerdə qalan vaqonlar dava edəedə Xanlıqlar tərəfə geri çəkilmişdir. Böyük Vedi ətrafında tatarlar (nədənsə erməni demokrat hökuməti daima Nikolay çinovnikləri kimi Azərbaycan türklərini tatar adlandırırlar) bizim səngərlərimizə yaxlaşmış, fəqət atəşimizlə geri atılmışlardır. Sədərək ətrafındakı ucalıqları tatarlar işğal etmişlərdir. Bunların əl bombaları da var. Volçi-Vorotun iki tərəfini dəxi tatarlar işğal etmişlərdir. Əlimizdə olan məlumata görə, tatar qüvvələrini türk miralayı Xəlil bəy idarə edir.

- Dün İrəvan bulvarında bir mitinq vaqe olub bir çox natiqlər vətəni təhlükədən qurtarmaq üçün camaatı əsgər yazılmağa və hökumətə hər növ müavinətdə bulunmağa dəvət edirlərdi.

- 28 iyulda erməni agentəliyi xəbər verir ki, hökumət qət etmişdir Böyük Vedi nümayəndələrinə təklif etsin ki, erməni hökumətinə tabe olub tələblərinə əməl etsinlər.

İyulun 24 və 25-də iki günlük müharibədən sonra Baş Noraşen ətrafında polkovnik Qarakamanyanın təhti-komandasında [komandanlığı altında] bulunan

erməni qoşunları düşmənin artıq qüvvəsinin təzyiqi altında Çanaqçı və Zəncirli kəndlərinə tərəf çəkilmişlərdir.

Sarıqamış ətrafında Eyyub paşa qoşunları hücuma keçmişdir. Erməni qoşunları geri çəkilmişlərdir.

Naxçıvan ətrafında tatarlar aşağıda qeyd olunan kəndlərin yolunu kəsmişlərdir: Məzrə, hər iki Digənvir, Didivar, Gülşənabad, Birinci Nəzərabad və Qaraqala. Xilas olmuş kəndlərin əhalisi qoşunla bərabər Naxçıvan və Avlabari tərəfinə hərəkət etmişlərdir. Avlabari kəndinin əhalisi Martiros kəndinə qaçır.

Tüfəng və qranat ilə müsəlləh [silahlanmış] bir tatar dəstəsi Ağdalı adlı erməni kəndi əhalisinin alaçıqlarına hücum edərək 23 adam öldürmüş və 6 nəfəri yaralanmış, arvadlara təcavüz etmiş və 3500 baş mal qovub hamını da soymuşdur.

- İyulun 25-də erməni hökuməti böylə bir xitabnamə nəşr etmişdir:

*"Həmişə istiqlalımızın əleyhinə çalışmaqda olan xarici düşmənlərimiz Vedibasar, Şərur və Naxçıvan ətraflarında üsyan çıxarmışlardır. Üsyan təhdidamiz bir surət kəsb edir. Qəti surətdə üsyanı yatırıb, nizam və asayişi bərpa və cavan cümhuriyyətimizi təhlükəli hərəkatdan xilas etmək üçün qoşun səfərbərliyi və silah toplamaq məsələsini tez və qəti surətdə həll etmək qəsdi ilə hökumət bəzi fövqəladə tədbirlər görməyə məcbur olmuşdur.*

*Bu məqsədlə iyulun 24 və 25-də hökumət bir neçə xüsusi qanun qəbul etmişdir. Həman qanunlarla bu kimi məsuliyyətli bir zamanda silah və adam köməyi vermək qaydası və vətəndaşlıq vəzifəsini ifadan boyun qaçıranlara nə kimi cəza veriləcəyi təyin edilir.*

*Ermənistan Cümhuriyyəti vətəndaşlarının vətənə olan məhəbbəti və vətəndaşlıq vəzifəsinə müraciət edərək hökumət ümidvar olur ki, məzkur [deyilən] qanunların qövldən feilə [sözdən əmələ] gətirilməsində camaat ona hər növ müzahirət [köməklik] edər."*

## TEATRO VƏ MUSİQİ

**"Ölülər"**

Bu gün avqustun 4-də düşənbə [bazar ertəsi] günü axşam Hökumət Teatrosunda artist Mirzəağa Əliyevin təhti-idarəsində [idarəsi altında] müsəlman aktyorlarının iştirakı ilə "Molla Nəsrəddin" məcmuəsi müdiri Cəlil Məmmədquluzadə cənablarının yazmış olduğu məşhur "Ölülər" pyesi mövqeyi-tamaşaya qoyulacaqdır. Həmin pyes məlum olduğu üzrə neçə il bundan irəli Bakı səhnəsində tamaşaya qoyulmuşdu. Kefli İsgəndərin rolunu artist Mirzəağa Əliyev ifa edəcəkdir. Tamaşa axşam saat 9-un yarısında başlanacaqdır. Biletlər satılır teatrın kassasında.

## İDARƏYƏ MƏKTUB

Əsədullazadə Tabaqçı əfəndiyə!

"Azərbaycan" qəzetəsində firqəmizə yazdığınız müraciətnaməni oxuduq.

Doğrudur, "Ədalət" firqəsi küçələr küncündə, divarlar dibində aclıqdan, su-

suzluqdan və libassızlıqdan tələf olan İran füqərasının halını nəzərə alıb "Al bayraq" qəzetəsində böyük hüruflarla [hərflərlə] konsulun və tacirlərin nəzərini onlara cəlb etdi. Məzkur [adı çəkilən] ağalardan bir hiss və hərəkət görülmədikdən sonra, bəzi həssas şəxslərin iştirakı ilə müvəqqəti bir heyət təşkil olunub, qəzetə və intibahnamələr [vərəqələr] vasitəsilə Müdafieyi-məzluman [məzlumları müdafiə] komitəsi təşkili üçün iranlılara müraciət etdi.

Təəssüf ki, qarnıyoğunların şəxsi qərəzləri sayəsində məzkur komitənin qövldən feilə [sözdən əmələ] gəlməsi mümkün olmadı.

Bir də, Tabaqçı əfəndi!

"Həqiqət naminə Müdafieyi-məzluman komitəsini nə səbəbə qapadığınızı, vüsul olan ianənin nərəyə sərf olunduğunu qəzetə vasitəsilə yazıb məlum edəsiniz" deyirsiniz.

Əfəndim, biz açıq və aydın söyləyirik ki, Müdafieyi-məzlumanı biz qapamadıq. Bəlkə onu qapamağa vadar etdilər. İanəyə gəldikdə, iranlı, yaxud başqa bir yerli, bir qəpikdən min manata qədər iddia edərsə, verməyə hazırız. Çünki Müdafieyi-məzluman namına heç kəsdən bir qəpik ianə olaraq heyətə vüsul olmayıb [çatmayıb]. Hər kəs bizə ianə veribsə, qəzet vasitəsilə tələb etməsini rica ediriz.

İşin həqiqətini öyrənmədən hesab tələb etmək əsassız bir tələbdir.

"Ədalət" firqəsinin Mərkəzi Komitəsi

**İtibdir**

Gəncəli Hacı Cəbrayıl oğlunun 4-cü polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*7909*

**İtibdir**

Allahverən Kərbəlayı Hüseyn oğlunun Zəngəzur qəzasından aldığı pasportu itib. Etibardan saqitdir.

**Doktor**
**M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78, 10-1-ədək.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Hökumət Teatrosunda axşam tamaşası**

səh. 53. "Mim. Ayn.": Məhəmmədəli Sidqi Səfərov nəzərdə tutulur.

**Sirk "Modern"**

səh. 53. "Böyük benefis hazırlanır. ? ? ? ? ? ? ? ? ? ?": qəzetdə belədir.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 54. "Aşurov müariz çıxarkən": qəzetdə "müariz" yerinə "maarifi" getmişdir.

səh. 55. "Rossiya": Bakı Rus Milli Şurasının orqanı olan qəzet.

**Teleqraf xəbərləri**

səh. 58. "barj": yastıdibli, böyük yük gəmisi.

səh. 59. "Proskurov": Ukraynanın qərbində şəhər; indiki Xmelnitski şəhəri.

**Qəzetələrdən**

səh. 61. "Dumenko süvarisi": Rusiyada Vətəndaş müharibəsi illərində Qırmızı ordunun süvari korpusunun komandiri olan Boris Dumenkonun komandası altındakı dəstələr nəzərdə tutulur.

"Krasnovodsk": indiki Türkmənistanın Türkmənbaşı şəhərinin 1993-cü ilə qədərki rəsmi adı.

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

**Nəzarətlərdə**

səh. 61. "İşbu məqsədlə İtaliya Hökuməti bütün vəsait əldə edilməsinə…": tərcümə qüsurlu olduğundan cümlə anlaşılmaz hala gəlmişdir; belə başa düşülməlidir: "İşbu məqsədlə İtaliya Hökuməti mümkün olan bütün vasitələrdən istifadə etməyə…"

**Rəisi-Vükəla və Hərbiyyə naziri həzrətlərinin Quba qəzasını təşrifləri**

səh. 66. "H. R.": bu imza Hüseyn Rza Məhəmmədbəyliyə məxsusdur.

**Mətbuat**

səh. 68. "qəzetəsinin bu sözlər…": qəzetdə belədir; cümlə tamamlanmamışdır.

**Yusif Vəzirovun məruzəsi**

səh. 68. "Birisi Kiyevdə işrətdə son dərəcə ifrata varmış, digəri səfalətdən, aclıqdan son dərəcə təfritə uğramışdı.": "ifrat" və "təfrit" bir-birinin ziddidir; "ifrat" həddən artıq, "təfrit" isə lazım gələndən çox az, çox geri mənasındadır.

**Bakı xəbərləri**

səh. 72. "Eyzenşmidt zavodu": Bakıda, əsası alman əsilli Karl Fyodoroviç Eyzenşmidtin varisləri tərəfindən 1891-ci ildə qoyulan metallurgiya və maşınqayırma zavodu.

**Gürcüstanda**

səh. 73. "Nor aşxatavor": "Daşnak" partiyasının Tiflis şöbəsinin qəzeti; "Aşxatavor" qəzeti bağlandıqdan sonra, onun yerinə nəşr edilməyə başlanmışdır.



آذربایجان

اعلان

تلغراف خبرلری

*“Azərbaycan” qəzetinin 243-cü nömrəsinin 1-ci səhifəsi*

**Çərşənbə axşamı, 5 avqust 1919-cu il, nömrə 243**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 8 zülqədətül-haram sənə 1337. 5 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti bununla Bakı əhalisini xəbərdar edir ki, ağustos ayının 4-dən etibarən Ticarət, Sənaye və Ərzaq Nəzarətinin Mariinski küçədə (Malakan bağı qarşısındakı) mağazasında ayaqqabı, arşın malı, corab, şəkər və qeyri bu kimi şeylər ucuz qiymətlə satılacaqdır. Bununla əhalinin məzkur [adı çəkilən] mağazadan istifadə etmələri lazımdır.

*T-198*

## BAKI ŞƏHƏR İDARƏSİ

21 iyulda olan müzayidədə (torqda) [hərracda] satılmayan şeylər tək-tək və külli olaraq müzayidəsiz satılacaqdır. Xahiş edənlər Şəhər İdarəsində Su yolu şöbəsi müdirinə xahiş etdiyi şeyləri və onların qiymətlərini yazaraq ərzi-hal verməlidirlər. Şeylərin siyahısını Su yolu şöbəsinin dəftərxanasında səhər 6-dan 9-dək oxumaq olar.

*T-196*

Şəhər İdarəsi şəhərin səhmdaran [səhmdarlar] cəmiyyəti "Elektriçeski sila" ilə müvəqqəti olaraq aprelin 1-i 1919-cu ildən aprelin 1-i 1921-ci ilə qədər bağlaşdığı şəraitin 10-cu maddəsinə binaən [əsasən] ümuma elan edir ki, birinci ilin birinci hissəsinə, yəni aprel, may və iyun 1919-cu aylara elektrik energiyası tarifi saatına 1 manat təyin olunubdur. Bu tarif aprel-iyun aylarının neft qiymətinin miqdarından hesab edilərək pudu 2 manat 26 qəpikdən təyin olunubdur.

*Şəhər İdarəsi*

*T-197*

## SİRK "MODERN"

Səşənbə günü ağustosun 5-də 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 39-cu günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Mustafa Əhmədov – Naməlum.

2-nci: Jan-de-Kolon – Makarov.

3-ncü: Raqenbaum – Krayevski.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda. Mübarizə Yelizarovun təhtinəzarətində [nəzarəti altında] olacaqdır.

*7412*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Post-Teleqraf Nəzarətindən**

*Əmrnamə 82*

31 təmmuz 1919

Dəftərxananın birinci şöbəsi müdiri V. Y. Bortsov ərizəsinə məbni [əsasən] ifa etdiyi vəzifəsindən, həm də xidmətindən bittamam [tamamilə] və ağustosun 1-dən etibarən kənar edilir.

*Əmrnamə 83*

31 təmmuz 1919

Müvəqqətən olaraq Dəftərxanamın birinci şöbəsi vəzifəsini mühəvvəl [həvalə] edirəm üçüncü şöbə müdiri İ. A. Piletskiyə, həm də məzkur [adı çəkilən] müdirə vəzifəsindən kənar edilmiş müdirdən bütün Nəzarətə və xidmətinə dair işlərin qəbulu tapşırılır.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*
*Əslinə mütabiqdir.*
*Kargüzar R. Rəhimli*

**Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsindən**

1. Göyçay qəzasından Mırtı prixodu 4 ayrı-ayrı köylərdən ibarət olub camaatın arzu və istidasına [xahişinə] nəzərən ikiyə ayrılmış və yeni ayrılan prixod Qaraxıdır namı ilə təsmiyə edilərək [adlandırılaraq], həman köy əhli Molla Əbdüləhəd Molla Nəsrulla oğlu da oraya molla təyin edilmişdir.

2. Göyçay qəzasından Qarabaqqal prixodu məhlul olduğuna [boş olduğuna] nəzərən, Kərim əfəndi Molla Məhəmməd oğlu oraya molla təyin edilmişdir.

3. Göyçay qəzasından Xəlilli Qasımbəyli prixodunun məhluliyyətinə binaən [boş olduğuna görə] Kürdəmir əhli Molla Sultan Xəlilulla oğlu oraya molla təyin edilmişdir.

4. Cavanşir qəzasından Saatlı prixodunun məhluliyyətinə görə Cinli sakini Molla Məcid Molla Zeynal oğlu oraya molla təyin edilmişdir.

**Məşixətdən**

Bakı qəzasından Türkan prixodu məhlul olduğuna nəzərən Seyid Əbdülhəsən Mirəbdülbaqi oğlu oraya molla təyin edilmişdir.

*Məşixət sədri müfti:*
*Mustafa Əfəndizadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşevik xəbərləri**

*(Azərbaycan Simsiz Teleqraf mövqifi [stansiyası] qəbul eyləmişdir)*

Moskva - Ukrayna çölündə qayət bərəkətli olan taxıl təcili surətdə biçilir. Fabrika və zavodlarda dəxi fabrika və zavodçular olmadan iş qaynayır, çəkic də fabrikaçı olmadan öz işini görür. Əgər də bütün cəbhələrdən kəndçilər qaytarılsaydı, o zaman vətən necə tez abad olardı. Vətənimiz nə dərəcədə bərəkətli olardı. Müharibə həddindən artıq uzandı. Şimdi onu tezliklə bitirmək lazımdır.

Don hövzəsi Şimal[i] Qafqazı təmizləməli, Bakını bolşeviklər qaytarıb geri almalıdırlar. O zaman kömür, dəmir, çuqun, neft əlimizdə olub, bütün ölkə abad olardı. Yol açıqdır. Urala yaxın bir za-

manda Türküstan pambığı gələr. Denikin ilə hesablaşıb qurtarmalıdır. Bütün yay müddəti Ukraynadan çar generallarını çıxarmalıdır. Son gücümüzü işlətməli, at və adamları səfərbərliyə çağırmalıyıq. Əmələ və kəndçilər son uçurumu keçdikdən sonra qarşımıza gülüstan çıxacaqdır. Sonra səadət günəşi, azadlıq nuru parlayacaqdır.

**Cəbhədə**

Pskov dairəsində bizim qoşunlar düşmənin təzyiqi ilə yeni səngərlərə çəkildilər. Cənub tərəfdə bizim hissələrimiz Proskurovun 15 verstliyində bir neçə kəndi işğal eylədilər.

Cənub-qərb cəbhəsində - Jmerin[ski] dairəsində bizim tərəfimizdən bir neçə kənd işğal edilmişdir.

Cənub cəbhəsində - Borisoqlebsk səmtində bir müharibə ilə Kardail mövqifi [stansiyası] ilə bir neçə kənd işğal eylədik. Balaşovun 3 verstliyində bir çox top, əsir və sair qənimət almışıq.

Qırmızı qoşunlar yürüşdə davam edərək Yelanın 15 verstliyində bir qaç kənd işğal etmişlərdir. Zinovyevka ilə Nikolayevkada bizim hissələrimiz düşmən alayları ilə müsadimədə [toqquşmada] bulunmuşardır. Biz 7 ədəd top almışıq. Bundan əlavə külli əsir tutmuşuq. Kislyan[ski] dairəsində biz 120 əsir tutub min tüfəng ələ keçirmişik.

Moskva – Lütserndə avqust ayının 2-də beynəlmiləl qurultay açılacaqdır. Bu qurultayda hərb edən ölkələrin sosialistləri bu qədər tökülmüş olan qanlarda müzəffər olmadıqlarını isbata çalışıb birbirlərinə bəraət qazandıracaqlardır. Fəqət buna nail olammayacaqlardır.

**İtaliyada iğtişaş**

Parisdən xəbər verirlər ki, Roma müxbirinin sözlərinə görə, Toskana adlı yerdə vaqe olmuş və davam edən iğtişaş öz xarabazarlığı ilə müharibə cəbhələrini yada salır. 30 min nəfərə qədər burjuy açıq havada ac qalmışlardır. Ərzaq və dərman müavinəti təşkil edilir. Gecələr yandırılan od ətrafına Floransiya burjuaziyası və xidmətçilər cəm olurlar. Əhali aclıq çəkir.

**"Sülh" və Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti]**

Londondan xəbər verirlər ki, general Duqlas Heyq Aberdin Darülfününunda [Universitetində] demişdir ki, o adamlar ki, zənn edirlər biz müharibə etməyəcəyiz, səhv edirlər. Biz müharibəyə hazır olmalıyız. Həyati-ictimaiyyəmizin [ictimai həyatımızın] artıq hissəsini əsgəri təlimə verməliyiz.

**Vaşinqtonda nizamsızlıq**

Londondan xəbər verirlər ki, axırıncı müsadimə [toqquşma] əsnasında Vaşinqtonda ağlardan iki nəfəri ölmüşdür. Əsgərlər dəstələrlə şəhəri gəzirlər.

**Bolşevik həyəcanı**

Serbiya mətbuat bürosu xorvat əsgərləri arasında bolşevik üsyanı olduğu xəbərlərini təsdiq edir. Belqrada xəbər verirlər ki, fransız əsgərləri Lyublyana-Lankovodan keçdikləri zaman bolşevik əsgərləri tərəfindən atəşə tutulmuşlardır. 9 fransız zabiti və 20 əsgər yaralanmışdır.

**İtaliya əsgərləri**

Romadan xəbər verirlər ki, İtaliya əsgərlərinin Qafqaziyaya göndərilməsi mə-

sələsi ləğv edilmişdir. Qafqaziyaya İtaliya əsgəri göndərilməyəcəkdir. Belə görünür ki, İtaliya əsgərlərini ümidsiz hesab edirlər.

**İngiltərədə**

London - Londonda kömür qıtlığı əmələ gəlmişdir. Hökumət tərəfindən rəsmən sadir olan [verilən] əmrə görə, hər bir adama həftədə 120 ingilis fundundan artıq kömür işlətməyə müsaidə edilməyir. Dəmiryol idarəsi dəmiryollarına əmr eyləmişdir ki, yük və sərnişin qatarları yüzdə 20 faiz əskilsin.

- Derbişirdə 30 min nəfər əmələ tətil etmişdir. Nottinqhemşirdə 23 min nəfər əmələ tətil eyləmişdir. Lidsdə həftə axırında 200 min nəfər əmələ tətil eyləmişdir. Viqan okruqunda camaat kömür mədənlərini bağlamağa məcbur etmişlərdir. İğtişaş düşən oblastlara qoşun göndərilmişdir. Sahil əmələləri tətil etdiklərindən 200 ədəd gəmi dayanmışdır. Bonar Lui bəyan edir ki, hökumət bu halları bərtərəf etmək [aradan qaldırmaq] məqsədi ilə var qüvvəsi ilə çalışır. Amma bir çox adamlar var ki, İngiltərədə binizamlıq salmaq üçün çalışırlar. Fəqət bunların əleyhinə ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Amerikanın Sülh Konfransında yeni nümayəndəsi**

Amerikanın Sülh Konfransına intixab etdiyi [seçdiyi] təzə nümayəndəsi Polk Parisə varid olmuşdur [gəlmişdir]. Amerika Xariciyyə Nəzarəti nümayəndəsi Polk, Vilsonu və Lansinqi əvəz edəcəkdir.

**İngiltərənin məlumatı**

"Peti Parizyen" qəzetəsi yazır ki, Serbiya kralı Pyotr tac-taxtından əl çəkib də məbədnişin olmaq [məbəddə qərar tutmaq] istəyir.

**Türkiyədə**

Türkiyədə kürdlər çox qanunsuz işlər yapırlar. Türkiyə Hökuməti kürd şeyxləri ilə bu barədə danışığa girişmişdir. Fəqət məlum deyildir ki, bu şeyxlər hansı kürdlərin rəisləridirlər. Qərbi Anadoluda əhval fənadır. Yunanilərin 5 min qoşunları vardır. Türklərin isə 2 min nəfər nizami, 15 min nəfər qeyri-nizami qoşunları vardır. Türk qoşunları Sancaq tərəfini, İzmiri və Kazını işğal etmək arzusundadırlar. Bu şərtlə, Müttəfiqlər buna razı olalar.

**İtaliyanın radio xəbərləri**

Roma - Bu yaxınlarda İtaliya kralı İtaliya ilə Almaniya arasında ticarəti əlaqənin başlanacağı barəsində bir əmrnamə sadir edəcəkdir [verəcəkdir].

İtaliyanın hərbi qəzetələri yazırlar ki, 1890-cı ildə doğulanlar müstəsna olaraq, İtaliyanın bütün bəhriyyunları [matrosları] əsgəri xidmətdən azad ediləcəkdirlər.

* * *

Bazel - Vyanadan xəbər verirlər ki, Macarıstanın qırmızı qoşunları tamamilə məhv edilibmiş. Macarıstan bolşevik hökumətinin halı böhranlıdır.

**İtaliyanın iddiası**

1912-ci sənə müahidənaməsi mövcibincə [sazişinə əsasən] Avstriya Hökumətinə mütəəlliq [məxsus] olan Tyantszin torpağını İtaliya iddia edir.

**Ərzaq kontrolu**

İngiltərədə ərzaq təqsimi [bölüşdürül-

məsi] üzərində olan kontrolun ləğv edilməsi üçün hər cür tədbirlər görülməkdədir.

**Minskin alınması**

Sürixdən xəbər verirlər ki, Minsk quberniyasının Dabravol ordusu Minsk şəhərini işğal etmişdir.

**Almaniya ablukası**

Almaniyanın dəniz mühasirəsindən azad edilməsi iyulun 26-dan qüvvəyə minmişdir.

**Sülh müahidənaməsinin təsdiqi**

Sülh müahidənaməsini [sazişini] imza edən alman vəkillərinin vəkaləti doğruədd [hesab] edilmişdir. Sülh imza edilmiş və abluka [blokada] götürülmüş hesab edilir.

**Dabrovol və bolşevik cəbhələrində**

Dabrovol ordusunun rəsmi məlumatına görə, Poltava şəhəri dabrovollar tərəfindən işğal edildiyi zaman, dabrovollar əlinə bir çox mühimmati-hərbiyyə [hərbi ləvazimat] və əsir düşmüşdür. Aşkar olmuşdur ki, bolşeviklərin Poltavadan ricət [geri çəkilmə] yollarını kazaklar kəsmişlər. Müharibə şəhər ətrafında bitmişdir.

Yekaterinoslav səmtində sakitlikdir. Kamışin rayonunda general Ulaqayın dəstələri pərişan edilmiş, düşməni təqib etməklə Saratov yoluna çıxmışlardır.

Volqanın sol sahilində bolşeviklər təcili surətdə köçürlər.

Bolşeviklər Vladimirovka stasyonundan Hacı-Tərxan tərəfinə qaçmışlardır.

**Bolqariya sülh müahidənaməsi**

Verilən teleqraf xəbərlərinə görə, Bolqariyaya veriləcək sülh müahidənaməsi Frakiya və Adalar [Egey] dənizi şəraitindən başqa hazırlanıb qurtarmışdır. Amerika, İtaliya bu zəndədirlər ki, Bolqariyanın dənizə çıxmaq yolu olmalıdır.

Moskva - Qərb cəbhəsində - Ladoj [Ladoqa] gölünün sol kənarında Finlanda sərhədini keçmiş olan düşmənlərlə Karel dönəmində [bərzəxində] müharibədə davam ediriz. Fin xəlicində [körfəzində] düşmənlərin aeroplanları Kronştadt dairəsinə bomba tökmüşlərdir.

Pskov dairəsində, Proskurovun 35 verstliyində müharibə davam edir.

Ostrov səmtində bizim hissələr Ostrovun 15 verstliyində hücuma keçmişlərdir.

Minsk səmtində Minskin qərb cəhətinin 15 verstliyində müharibə davam edir.

Slutsk səmtində düşmənlərin təzyiqi altında bizim hissələr Dyana qəsəbəsini tərk etdilər.

Cənub cəbhəsində - Xarkov dairəsində bizim hissələr tərəfindən Kirillovka mövqifi işğal edilmişdir. Kamışinin 20 verstliyində hal-hazırda qızğın müharibə davam edir.

Şərq cəbhəsində - Saratov dairəsində, Volqa nəhrinin sol kənarında bizim hissələr Axtuba ilə Vladimirovkanı işğal etdilər.

Verxneuralskın şimal-şərq tərəfində biz Troitskin 40 verstliyinə yetişmişik.

Çelyabinsk dairəsində biz düşmənlərdən külli əsir almışıq.

Kamışlov dairəsində, Kamışlovun cənub tərəfinə Kamışlovdan 20 verst irəliləmişik.

İrbitin 20 verstliyində biz bir neçə kənd işğal eyləmişik.

Turinsk səmtində biz Turinsk şəhərini işğal eyləmişik.

**İngilis məlumatı**

Beşlər Şurası Macarıstan və Rusiya bolşevikləri əleyhinə mübarizə vasitələri axtarırlar. Müttəfiqlərin bütün diqqətləri general Boniyə çevrilmişdir. Bu, Macarıstanın ən rəşid generallarındandır ki, Peştə Şura Hökumətinə müavinət edib orada Qırmızı qoşun təşkil eyləmişdir. Hərgah həmin generala Müttəfiqlər azacıq müavinət etmiş olsaydılar, o Bela Kunun əleyhinə iş görərdi. Bolşevik ordusu məzkur [adı çəkilən] generalı hərbi işlərdə qayət müstəid [istedadlı] hesab edirlər. Bolşevik ordusu general bayrağı altında müharibə etməyə hazırdırlar. Xüsusi xəbərlərə görə, general Boni mötədil [mülayim] bolşevikdir. Ona görə də, Müttəfiqlər onun hərəkətinə mütəhəmmil olurlar [dözürlər]. Deməli, Müttəfiqlər bu generalı da Kolçak kimi hesab edirlər. General Boni hər şeydən artıq pula və silaha möhtacdır. General Boninin kəndçilər arasında böyük nüfuzu vardır.

Rusiya barəsində Beşlər Şurasında heç bir qətnamə qoyulmamışdır. Rusiyaya mal aparması ilə şübhə edilən paroxodlar, hətta Amerika paroxodları belə olsun, Müttəfiqlər tərəfindən təftiş ediləcəkdir.

**Odessa yaxınlığında gəminin atəşə tutulması**

Moskva - Odessadan xəbər verilir, Fransaya müharibədən ötrü göndərilmiş olan Rusiya saldatlarından 1300 nəfəri gəmilərlə Nikolayevə göndərilmişdi. Bunlar hərəkət edərkən Karantinnı sahilindən dabrovollar bunları davamlı atəşə tutmuşlardır. Barjlar geriyə qayıtmışlardır. Hərbi əsirlər suya atılmışlar ki, atəşdən xilas olsunlar. Hələlik qərq olanların miqdarı məlum deyildir. 10 nəfər yaralanmışdır. Körpülər 4 buçuq saat bombardman edilmişdir.

**Türklərin üsyanı və İtaliya**

“V. S.” qəzetəsi xəbər verir ki, türklərin Yunanıstana qarşı etdikləri üsyana italyanlar kömək edir. İtaliya hər yerdə yunanlılara qarşı əməliyyatda bulunub türklərin tərəfini saxlayırlar.

**Xorvat qoşunları**

Nauen - Serbiya ixbarat [xəbər] bürosunun xəbərinə görə, xorvat qoşunları arasında üsyan qalxmışdır deyə şaye olan [yayılan] xəbərlər tamamilə doğrudur. Belqraddan xəbər verilir ki, Lyublyana-Lankovodan keçməkdə olan fransız qoşunlarını Bolqariya qoşunları atəşə tutmuşlardlr. Fransız afiserlərindən 9 nəfər, saldatlarından 20 nəfər ağır surətdə yaralananlar vardır.

## QƏZETƏLƏRDƏN

**Xarkovda**

Xarkovdan Tiflisə gələn şəxs nəql edir ki, Xarkov burjuazlarının 18 min nəfərə qədər cəm edilmiş dabravolları Denikin ixtiyarına vermişlərdir.

**Denikinin planları**

Denikin Xarkovda demişdir ki, halhazırda onun qəsdi Kiyevi deyil, Moskvanı işğal etməkdir. Buna görə də, mü-

hüm əməliyyat Oryol, Kursk və Tula tərəfdə icra ediləcəkdir. Dabravollar ümidvardırlar ki, oralarda üsyan edən kəndlilərdən istifadə etsinlər.

**İngilislər Arxangelskdə**

Londondan Novorossiyskə teleqraf edirlər ki, İngiltərədən Arxangelskə bütün bir nəqliyyat donanması ilə külli miqdarda ərzaq və mühimmati-hərbiyyə [hərbi ləvazimat] gətirilmişdir.

**Yaponiya və Kolçak**

Yaponiya Hökuməti admiral Kolçaka əsgəri və maddi müavinət haqqında Müttəfiqlərlə müzakirətdədir.

**Yekaterinoslav altında**

Bolşeviklərin Yekaterinoslav şəhərini işğal etmək istədikləri haqqında Xarkov qəzetələri böylə yazırlar:

İyulun 10-cu gecəsi Rusiya cəbhələrində təcrübə görmüş əsgərlərindən ibarət bolşevik ordusu Pokrovskoye-Solyonoye-Dmitrovka-Mixaylovka xəttində Yekaterinoslava hücum etmişlərdir. Hücum edənlərin miqdarı bir min nəfərdən ibarət olub, 15 top, 200 pulemyot, 6 zirehli avtomobil və başqa mühimmat varmış. Bolşevik əsgərləri qüvvətli olduqlarına görə, dabravolları şimal tərəfdən şəhərin kənarına qədər sıxışdırmışlardır. Bütün gecəni şəhər həyəcan içində keçirmişdir. Bütün gecə şəhərin cənub hissəsindən nəinki top, hətta pulemyot və tüfəng atəşi eşidilmişdir. Səhərə yaxın müharibə bir qədər sakit olmuşdur. Şəhərdən dabrovollara kömək göndərilmişdir. Gündüz əhval bir qədər yaxşılaşmışdır. Bolşeviklər külli miqdarda olmaqla bərabər qəti nəticəyə müvəffəq ola bilməmişlərdir. Axşam müharibə qızışıb bolşeviklər dəxi də şəhərə artıq yaxınlaşmışlardır. Lakin əks-hücumla bolşeviklər geri qaytarılmışlardır. Kuban dabravolları bolşeviklərdən 2 mindən ziyadə əsir, 4 top, 30 pulemyot, 3 zirehli avtomobil və başqa mühimmat qənimət almışlardır. Bolşeviklər dabravollar tərəfindən 30 verst təqib edilmişlərdir. Bolşeviklər yenə də qüvvələrini yığıb təzədən hücuma başlamışlardır. Müharibədə general Şkuronun ordusu iştirak edib, böyük tələfat vermişdisə də, 600 nəfərə qədər matrosu öldürmüşdür.

**Volqada**

Alınan axırıncı xəbərlərə görə bolşeviklər öz hərbi gəmilərinin hamısını Volqa yuxarı aparmışlardır. Dabravol ordusunun müsəlləh [silahlı] gəmiləri Volqaya girib bolşevikləri kəşf etməyirlər.

**Aleksandrovsk fortu**

Keçənlərdə bolşeviklərin Aleksandrovsk fortuna etdikləri hücum nəticəsi olaraq Aleksandrovsk fortu xarab edilmişdir. İndi oranı düzəltmək işləri başlanmışdır.

**"Fiqaro" qəzetəsi Rusiya haqqında**

"Fiqaro" qəzetəsi yazdığı məqalələrində Rusiyanın Almaniya ilə ittifaqa girişməsindən ehtiyat edir. Qəzetə deyir ki, Rusiyanın almanlaşdırılması imkanı bərtərəf edilməsə [aradan qaldırılmasa], sülh müahidənaməsinin [sazişinin] imza edilməsi Yevropada asayiş olacağını təmin etməyir. Buna görə bir sərhəd qoymalıdır və bundan ötrü də yaxın hökumət-

ləri məsələsini həll etməlidir. Qəzetənin rəyincə, sülhü möhkəmləndirməkdən ötrü bu məsələnin Reyn məsələsindən artıq əhəmiyyəti vardır.

**Çinlilər bolşeviklər arasında**

İngiltərə qəzetələrinin verdikləri məlumata görə, bolşevik əsgərləri arasında 10 minlərcə çinlilər vardır. Onlar alman agentlərinin iştirakı ilə Çindən cəm edilib göndərilmişlərdir.

- Möhkəm edilmiş olan Vladimirovka iyul ayının 28-də axşam zamanı dabrovollar tərəfindən işğal edilmişdir. Qəsəbə yanır, əsir və qənimət alınmışdır.

**Arxangelskdə həyat**

Kopenhaqdan verilən məlumata nəzərən, Şimali Rusiyanın mülki idarəsi hökumət tərəfindən təşkil edilmişdir. Arxangelsklə radio-teleqrafla müxabirə [əlaqə] vardır. Dabravolların əlində 200 milyon para vardır. İngiltərədən və Amerikadan külli mal gətirilir. Məktəblər açılmışdır. Arxangelskdə 5 ədəd qəzetə nəşr olunur. Bunlardan 4-ü rus, 1-si ingilis dilində nəşr olunur.

**Şimali Rusiyada**

“Havas-Royter” qəzetəsinin Stokholm müxbiri Şimali Rusiyanın halını böylə təsvir edir: Arxangelsk Hökumətinin müvəqqəti üzvü bu günlərdə Helsinqforsdan [Helsinkidən] varid olmuşdur [gəlmişdir]. Mumaileyh [haqqında danışılan şəxs] deyir ki, guya Şimali Rusiyada getdikcə bolşeviklərə qarşı nifrət və ədavət artır. Bəzən olur ki, camaat bir bolşeviki tutub edam edirlər. Ravi [danışan şəxs] ümid edir ki, Şimali ordu bu yaxınlarda Kolçak ordusuna mülhəq olacaqdır [qoşulacaqdır].

———

İyul ayının 24-də Hebtona 800 nəfər hindu qoşunları varid olmuşlar [gəlmişlər] ki, qələbə münasibətilə təşkil edilən bayramda iştirak etsinlər. İngilis kralı bunlara nəzarət edir.

**Vaşinqtonda üsyan**

İyul ayının 21-də axşam həbəşilər (neqr) məhəlləsində üsyan əmələ gəlmişdir. İki nəfər saldat qətl edilmişdir. Bir saldatı ülgüc ilə kəsmişlərdir. Qatil həbəşilər gizlənə bilmişlərdir. Qoşunlar küçələri mühafizə edirlər.

**Almaniya və Rusiya**

Stokholm qəzetələri yazırlar: Brantinqə məxsus olan qəzetələr Şura Rusiya ilə Almaniya arasında olan yaxınlaşmanı müzakirə edərək deyirlər: Müttəfiqlər tezliklə Rusiya ilə aranı düzəltməlidirlər ki, Rusiya və Almaniya bolşeviklərinin ittifaqına mane ola bilsinlər.

———

Feldmarşal Makenzen Cənubi Macarıstanda qalmaqdadır. Orada şiddətli nəzarət altındadır.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin Bələdiyyə İdarəsi tərəfindən 25 milyonluq istiqraz [borc] barəsində qaldırılmış təşəbbüsat haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Daxiliyyə Nəzarətinə həman istiqraz haqqında bir qanun layihəsi tərtiblə Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək 20 milyon maliyyə fonddan Bələdiyyə İdarəsinə xidmətçilərə məvacib vermək üçün 5 milyon rublə buraxılsın. Fəqət işbu məbləğ veriləcək 25 milyondan çıxılmalıdır.

- Maarif nazirinin xüsusi məxaricatdan qalmış 123 min manata Qarabulaqda (Qaryagində) müəllimlər kursları güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan mətlub [tələb edilən] məqsəd üçün istənilən para Maarif Nəzarəti smetasından çıxılmaq şərti ilə buraxılsın.

- Maarif nazirinin məmaliki-əcnəbiyyəyə [xarici ölkələrə] tələbələr göndərilməsi məxaricatı üçün [bir] milyon 100 min manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], təsdiq üçün Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin 900 milyon manat Azərbaycan pulu kəsilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumətin İngilis Komandanlığına bir daha borc verilməməsi qətnaməsindən dolayı mətlub məbləği 600 milyon manatadək azaltmaqla, məruzəni təsviblə, təsdiq üçün Məclisi-Məbusana idxalı tapşırılır.

- Maarif nazirinin kütübxana üçün türk kitabları alınmasından ötrü 1 milyon manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək 20 milyonluq fonddan həman məqsəd üçün 200 min manat buraxılsın.

- Maliyyə nazirinin Azərbaycan Cümhuriyyəti nəzarətlərinin maliyyə smetaları dövləti kağızlarını təsdiq, müzakirə və icrası haqqında müvəqqəti nizamnamə tərtibi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə Məclisi-Məbusana idxalı tapşırılsın.

**27-ci firqənin [diviziyanın] raportu**

Müsəlman köylərinin ermənilər tərəfindən təxribini təhqiq üçün kapitan Quans Zəngəzura getmişdi.

Mumaileyh [deyilən şəxs] deyir ki, işbu köylər təxrib edilmişdir:

1) Ağbəsi, 2) Narmaslı, 3) Xəştab, 4) Kürdlər, 5) Atkəsi, 6) Hacıqurbanlı, 7) Sura, 8) Qacaran, 9) Qarıca.

İşbi köylərin həpsi Kapesi dağından Kəhriz çayınadək bir məsafədədirlər. Kəndlərin üzərində erməni kəndləri mövcuddur.

Ümumən 300 ev dağılaraq, 58 müsəlman qətl edilmişdir. Çocuq və qadınlar da buraya daxildir.

Kəndlərin dağılması səbəbləri ehtimal üzrə şunlardır: İyulun 5-də səhər zamanı işbu köylər 500 nəfər müsəlləh [silahlı] və əli bombalı ermənilər tərəfindən mühasirə edilir, xüsusi işarətdən sonra ermənilər təərrüzə [hücuma] keçmişlərdir. Müsəlmanların tüfəngləri az olduğu üçün çəkilib getmişlərdir. İki saatdan sonra 9 köy mühasirəyə alınıb təxrib edil-

mişdir. Demək olar ki, erməni qüvvəsi nizami deyilmişlər.

Qaçqınların əhvalı qayət fənadır. Hökumətin müavinəti lazımdır.

*Ərkani-hərb zabitanından:*
*Klatterbak*

## TƏLİFAT İŞLƏRİNDƏ EHTİYATLI OLMALI

Gürcü qonşularımız məktəb və idarələri milliləşdirmək üçün qabaqca ülum, fünun və sənayedə işlənilən istilahların [sözlərin; terminlərin] hamısını axtarıb gürcü lisanında cəmləşdirdilər. Bunları xüsusi risalələrdə təb [çap] etdirib əhali arasında intişarına [yayılmasına] çalışdılar. Odur ki, milliləşdirmək fəqərəsi [məsələsi] də gürcülər üçün asanca müyəssər ola bildi.

Gürcülər kimi biz azərbaycanlılar da vaxtlı-vaxtında elmi və fənni istilahların cəmlənməsinə çalışsaydıq, indiyə qədər yəqin ki, bir çox idarələrimiz milliləşməyə müvəffəq olardı.

İstilahların qeybubəti [yoxluğu], ələlxüsus təlifat işlərində böyük əngəllər çıxaracaqdır. Məlum olduğu üzrə, Maarif Nəzarətinin təşəbbüsü ilə bir Təlifat Heyəti təşkil edilmişdir ki, vəzifəsi məktəblər üçün türkcə ənvai [müxtəlif] təlim kitabları hazırlamaqdır. Məsələni dərindən düşünərsək, heyətdə iştirak edən zəvatın [şəxslərin] öhdələrinə aldıqları işlərin nə dərəcədə ağır, mühüm və olduqca məsuliyyətliliyini anlaya bilərik.

Həqiqətən, Azərbaycan türklərinin elm boşluğunu bir qədər mülahizə etsək, insanın canını vahimə alır ki, bu biçarələr hankı məxəzlərdən, hankı mənbələrdən istifadə edə biləcəklər. Mətnmi yazacaqlar, tərcüməmi edəcəklər, yaxud Qərb türkcəsini Şərq türkcəsinə təbdil edəcəklər [çevirəcəklər]? Bunların hankı olursa olsun, ətrafımızı bürüyən şəraitin davamı ilə çətindir. Və öylə çətindir ki, hərgah müəlliflərimiz hal-hazırdakı maneələrə baxmayaraq bir şey yaratmış olarlarsa, yəqin ki, ən böyük hünər və məharət göstərmiş olarlar.

Əcəba, bu maneələr hankılardır? Onlardan zehnimizə gələnləri burada zikr edirəm:

**1. İstilahati-ümumiyyə [ümumi terminlər] yoxsulluğu**

Tarix göstərir ki, mədəni millətlərin milliləşmək və milliləşdirmək fəqərələrindəki təşəbbüsləri ən mütəassibanə [təəssübkeş] hərəkətlərlə başlanmışdır. Məsələn, rus millətçiləri bir vaxt öylə qət etmişdilər [qərara gəlmişdilər] ki, rus lisanından əcnəbi kəlmələri qovmaq üçün onların əvəzinə rusca mütəradiflər [sinonimlərini] icad etsinlər. Bu mütəradiflər bəzən öylə süni və qeyri-təbii bir surətdə yaradılmışdır ki, rəsmi idarələrdə deyil, hətta avam rus mujikləri də qəbul etməmişlərdi. Məsələn, “qaloş” əvəzinə mokrostup (мокроступъ), “bloşad” əvəzinə “pozorişe” (позорище) və “tretuar” əvəzinə də “çistilişe” (чистилище) yazıb dedikləri halda, hamının istehzasına rast gəlirdilər. Pəs lisanı milliləşdirmək ondan ibarət deyil ki, əhalinin mali-məxsusu [xüsusi malı] olmuş məşhur əcnəbi kəlmələrini atıb da, əvəzində ana dilindən süni və gülünc istilahlar ixtira edilsin.

İstilahların milliləşdirilməyi üçün osmanlılar da çalışdılar. Fəqət Osmanlı millətçiləri ilə rus millətçiləri arasında böyük bir fərq vardır. O da bundan ibarətdir ki, yeni icad olunacaq istilahlar üçün ruslar rus lisanını məxəz qərar verdikləri halda, osmanlılar fars və ərəb lisanlarını məxəz qərar vermişlərdir. Yəni, Yevropa istilahçıları latın və yunan dillərinə mail olduqları halda və yeni istilahları həman dillərin vasitəsilə icad edərkən, Osmanlı ərbabi-fününu buna qane olmayıb, yevropalıların ehtimamı ilə hazırlanmış ləfzləri, dübarə ərəb və fars dillərinə tərcümə qıldıqdan sonra qəbul etmişlərdir.

Rus təəssübçülərinin ixtira etdikləri istilahların heç biri qəbul olunmadığı halda, osmanlılarınkı bəzən qəbul və qismən də rədd edildi. Məsələn, "termometr" və "mikroskop" kimi kəlmələrin əvəzinə "mizanül-hərarə" və "xırda-bin" kimi kəlmələri kamali-şövq və zövqlə qəbul etmişlər. Halbuki, "dur-nəvis", "naqili-səda", "ziya-nəvis", "bang-nəvis" kimi ərəb-farsca ixtira edilmiş kəlmələri rədd edib əvəzində yevropalıların teleqraf, telefon, fotoqraf və fonoqraf kimi lüğəvi ixtiraatını tamamən qəbul etmişlərdir.

Bu timsallardan aşkar olur ki, nə rusların millətçiliyi, nə də osmanlıların ərəb-fars klassikliyi elmi istilahların rədd və qəbul məsələsində böyük bir rol oynaya bilməmişdir. Dini və milli hisslərin bu yolda sərfi əbəsdir. Bunun təbii bir qanunu vardır ki, buna yevropalılarla bərabər Yaponiya kimi şərqlilər də müti olmuşlar. Bu qanun ondan ibarətdir ki, indiki miləli-mütəməddinənin [mədəni millətlərin] hankısı olursa olsun, kəşfiyyati-cədidəyə [yeni kəşflərə] latın və yunan dillərindən mə'xuz [əxz olunmuş; alınmış] bir ad qoyurlar. Bu adı hərgah almanlar qoymuşlarsa, almanlarla firənglər, ingilislər, xülasə dünyanın tamam millətləri həman adı dəyişməksizin kamali-ehtiramla qəbul edirlər.

Biz nə üçün böylə yapmayaq? Yevropalıların stenoqrafiya dedikləri yazı işinə biz "xətti-müxtəsər" kimi səqim [naqolay] bir ad qoyaq? Bunu islam millətlərindən hankısı anlaya biləcəkdir? Yaxud, lüğəviyyunumuzdan [leksikoloqlarımızdan] varmı öylə mahiri ki, yevropalıların "qalvano[me]tre"sini ərəb-fars və türk kəlmələri ilə tərcüməsinə qadir olsun?!

Pəs, yevropalıların ixtiraatını və ələlxüsus kəşfiyyatı-cədidənin istilahını tərcüməsiz və pozmaqsızın bir halda saxlamalıdır.

**2. Lisan vüqufsuzluğu**

Təlifat Heyətində iştirak edən zəvatın hamısı da olmasa, bir çoxu yalnız türk və rus lisanlarına daradırlar [vaqifdirlər]. Halbuki, öhdələrinə götürdükləri vəzifəni behəqq bitirmək üçün məzkur [deyilən] dillərdən başqa firəngcə və almancanı da bilmək iqtiza edir. Çünki ruslar bir çox şeyi almanlardan əxz etdikləri kimi, türklər də firənglərdən əxz etmişlərdir. Osmanlıların "Sent Hellen" dedikləri cəzirəni ruslar "Svyataya Yelena" adı ilə yazmışlar. Miqyasül-zamana [zamanı ölçənə] osmanlılar "kronometrə" dedikləri halda, ruslar "xronometr" demişlər. Yüzlər, bəlkə minlərcə böylə iştibahlı [şübhəli] məsələləri həll və tədqiq etmək üçün lisaniyyun və iştiqaqiyyundan [etimologiya mütəxəssislərindən] olmalıdır.

**3. Məlumati-ixtisasiyyənin yoxluğu**

Rusiyanın Ülum [Elmlər] Akademiyası sayəsində lisan, imla və istilah məsələləri çoxdan həll edilib qurtarmışdır. Bununla belə, edadiyyələrə məxsus kitabları Kirpiçnikov, Davidov kimi professorlar, Malinin kimi direktorlar ancaq yaza bilmişdir. Hələ böylə məşhur mütəxəssislərin əsərləri yenə eyib və qüsurlarla doludur. Böylə olan surətdə bizim biçarə müəlliflərimiz ki, çoxları gimnaziya və seminariya mürəxxəsləridir [məzunlarıdır], bir bu qədər nöqsanların vücudu ilə bir şey yapa biləcəklərmi?

**4. Proqramsızlıq**

Rusiyada yazılmış kitabların hamısı müəyyən proqramlara tətbiq olunaraq yazılmışdır. Lakin, yadımıza gəl[m]ir ki, milliləşəcək məktəblərin xüsusi ya iqtibas edilmiş proqramı mövcud olsun!

**5. Vaxtın təngliyi**

Dərslərin şüruuna [başlamasına] bir ay qalmışdır. Bainhəmə [bununla belə] heyət, kosmoqrafiya kimi riyaziyyatın ali dərəcələrindən kitab yazacağını xəbər vermişdir. Mümkün olarmı? Hələ eylül [sentyabr] ayında ancaq 3-cü siniflər milliləşəcəkdir. Buraya qədər mətlub [tələb olunan] kitabların təlifinə kifayət edilərsə, məncə böylə əlverişli olar.

Daha dil qarışıqlığı, imla pozuqluğu kimi bir çox şeylər vardır ki, onlara əl vurmaq istəməyirəm. Xülasə, müəllif əfəndilərə kamali-ehtiyatla davranmağı tövsiyə edirəm ki, xətaları mümkün qədəri az olsun. Bunun nəticəsi olaraq böyük maneələrin tövlidinə [meydana çıxmasına] imkan verilməsin.

*Fərhad Ağazadə*

**VƏTƏNİM**

*Seyidzadə Bədrəddin əfəndiyə*

Sıldırımlı, qarlı dağları vardır,
Al-yaşıllı gözəl bağları vardır,
Hər fəsildə uyğun çağları vardır,
Cənnət bağı bucağıdır vətənim.

Şimşəklər oynayıb ildırım çaxar,
Daşqın, coşqun sellər dayanmaz, axar.
Möhtəşəm dağları qəhr ilə yaxar,
Vulkan, atəş ocağıdır vətənim.

Dostlara gülşəndir, düşmənə zindan,
Qorxaqlara dardır, ərlərə meydan,
Hər yetən edəmməz bu yerdə cövlan,
Qəhrəmanlar yatağıdır vətənim.

Qartallar aşammaz, ucadır dağı,
Tülkülərə macal verməz duzağı,
Kor olar hər kimsə baxsa bayağı,
Tilisimli qan dağıdır vətənim.

Məzlumlara kömək etmək şüarı,
Düşkünləri qaldırmaqdır qərarı,
İgidlər məskəni, şəhid məzarı,
Qazilərin oynağıdır vətənim.

Mərkəzdədir, yolçuların yoludur,
Avropanın, Asiyanın gülüdür,
Fəxr etməyə yarar bir türk elidir,
Aləm çeşmi-çırağıdır vətənim.

*Əli Şövqi*
*Bakı, 30 iyul 1919*

## MİLLİ VƏ MƏDƏNİ İŞLƏRİMİZ

**- 5 -**

### Hürufat məsələsi

Hürufat [hərflər, əlifba] məsələsi Şərq üçün ən zəruri məsələlərdən biridir. Çünki hürufat çətinliyi milləti bu hürufatdan qaçmaq məcburiyyətində saxlayır. Bu səbəbdəndir ki, Qafqazda ruslaşmaq xalqımızın öz xahişi ilə geniş meydan almadadır. Xalqı qınamaq olmaz. Rus əlifbasına iki ay sərf etdikdə oxuyub-yazmağı öyrənirlər. Bizim hürufata isə bir il sərf olunsa da dürüst oxumaq mümkün olmur. Rus hürufu ilə bir söz yazılarsa, yazıldığı kimi də oxunar. Bizdə isə böylə deyil, yazılan sözə cürəbəcürə mənalar verilir. Əcnəbi sözləri bizim hürufat ilə yazılarsa, heç də doğru oxumaq olmaz. Bizim oxumaq və yazmamıza bir çox vaxtlar sərf olunur. Axırda da lazımi nəticələr görünmür. Hürufatımız latın hürufatı olsaydı, az bir zamanda milli maarifimiz ölkəmizin hər nöqtəsinə yayılardı. Şərqin məktəblərində uşaqlar illər itirirlər. Oradan savadsız çıxırlar. Bais hürufat. Millətini sevən bir adam hürufatımızı görərək laqeyd qala bilməz. Bizim can nöqtəmiz burada. Bu hal çoxdan bəri millət xadimlərimizi düşündürməkdədir. Mirzə Fətəli Axundov hürufat məsələsini həll etmək üçün İstanbula səfər etdi, Tehrana layihə göndərdi. Heyfa ki, Mirzə Fətəlinin fikrini anlamadılar. O vaxtdan bəri bu məsələ arabir meydana çıxdı.

Bu gün ölkəmizin və millətimizin müqəddəratı əlimizdə olduğu bir zaman hürufat məsələsi yenidən fikirləri məşğul eyləyir. Bizim nazirimiz Xudadad bəy Məlikaslanovun təklifi Nazirlər Şurasında qəbul olaraq hürufat islahı üçün çalışmağa başlanır. Bu yolda bir heyət işləyir.

Şərqdə dəfələrlə mütəassiblik sədlərini yıxan, ənənəvi hüdudları pozan və həyat tələbatından başqa heç bir şeyə bac verməyən Azərbaycan bu gün genə inqilab doğurmaq istəyir. Babaların köhnəlib dəbdən düşmüş irslərini atıb yenilik hüsula gətirir. Uğurlar olsun!

* * *

İndi baxaq görək bizə hankı hərflər və səslər lazımdır. Zənnimizcə, yeni əlifbamız 35 səsdən ibarət olmalıdır. Səslər bunlardır:

ث ت پ ب ئو او أ آ
ش ز ر ذ د خ ح چ ج
ا و ن م ل گ ك ق ف غ
ы й я ю у о е э

Bu səslərin çoxu latından alınmalıdır. Latında olmayanları icad edib uydurmalı. Təbiidir ki, soldan-sağa oxunub və yazılacaq. Nümunə olaraq bir neçə söz yazaq:

| | | |
|---|---|---|
| ل ئو ك | – | گل |
| ل أ ك | – | گل |
| ل ا ك | – | كل |
| ل ئو ك | – | كل |
| ك ا ل ا م | – | ملك |
| ك ل ئو م | – | ملك |
| ك ا ل ا م | – | ملك |
| ك ا ر ئو ك | – | كورك |
| ك ر ئو ك | – | كورك |
| ك ئو ر ا ك | – | كورك |

Yeni hürufat ilə söz, söyləndiyi kimi də yazılacaq. Bir səs neçə şəkildə olmayacaq. Yəni "sin", "sad" və ya "zeyn", "zı", "dad" kimi ənvai [müxtəlif] şəkillər olmayacaq. Hər səsə müvafiq bircə şəkil olacaq.

Əgər yeni əlifba qəbul olunarsa, oxumaq-yazmaq qayət asanlaşar. Qələtsiz yazı yazmaq az bir vaxt sərf etməklə mümkün olar. Deməli, millət oxur, yazar, müşkülat görməz, xeyri və şərini anlar.

Köhnə hürufatımız milli idarəmizdə də bir çox əngəllər törədir. Teleqrafda işləmir, dəftərxanalarda yazı maşınlarına uymur. Avropalılar bir kağızı bir necə dəqiqədə maşında basıb kopiyası ilə bərabər çıxarırlar. Bizdə isə əl ilə yazaraq bir çox vaxtlar itirirlər...

Deməyə nə hacət, millətimiz o qədər ayılıb ki, özü hürufatımızın qüsurlarını görür, bilir. Əgər hökumət bu məsələni həll edərsə, millətə unudulmaz bir xidmət etmiş olar.

Bir sual dilimizin ucuna gəlir. Əcəba Azərbaycan yeni hürufatı qəbul eyləsə və başqa müsəlman ölkələri eyləməzsə, nə təhər olar? Təsəvvür olunan sualın cavabı gödəkdir: biz qəbul eyləməliyik, vaxt gələr başqa ölkələr də görər, götürər.

Doğrudan da, nə üçün hər cəhətdən tərəqqi etmiş Azərbaycan bir nöqtədə dayanıb mürgü döyən qardaşlarını gözləsin?

Biz çoxdan bəri inqilabçılığa öyrəndik. Biz Rusiyada birinci olaraq türk qəzetəsini nəşr etdik. Biz türk aləmində Qurani-şərifi ana dilimizə tərcümə etməklə birincilik qazandıq. Aləmi-islamda birinci olaraq opera vücuda gətirdik. Azərbaycan Cümhuriyyətini vücuda gətirməklə islam tarixinə yeni səhifə əlavə eylədik. Latın hürufatını qəbul etməklə bir inqilab da yapaq və əmin olaq ki, bu inqilab əvvəlkilərdən də parlaq və məhsuldar olacaq.

*Yusif Vəzirov*

**İdarədən:** Bu məsələdə idarəmiz mühərrir əfəndinin rəyinə tamamilə iştirak etməyir [şərik olmur].

*Balaca felyeton*

## SİYASƏT

Həyati-bəşərdə böyük rol oynayan amillərdən biri və birincisi siyasətdir. Arabanı çarx (təkər) aylandırdığı kimi, dünyanı dolandıran, idarə edən də siyasətdir. Siyasətə yabançı qalan bir millət heç kəsdən umub-küsməsin. Və başına dəyən qapazların səbəbini də sormasın. Hərgah, xudanəkərdə [Allah eləməsin], soruşmağa cürət edərsə, bizim türk xalqı kimi məzlum olduğu halda zalım və günahsız olduğu yerdə bir də müqəssir və barbar adlanacaqdır.

Meyvələrin rəngləri və tamları dürlü-dürlü olduğu kimi, siyasətin də rəngarəngi, yaxşı-yamanı və acı-şirini vardır. Məsələn, adını demokrat qoy, insaniyyətpərvərlik iddiasında ol, dünyanı səadətə yetirmək arzusunda olduğunu bildir, bir maddə yaz, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] çağır, iş ortaya gəlib çıxanda maddələrini-filanını qatla qoy ci-

binə. Və əsrlərcə səltənət sürmüş qosqoca bir dövləti sandıq tulaları arasında bölmək xəyalına düş.

Bu özü bir rəngi-siyasət [siyasət hiyləsi] və maddəli siyasətdir.

Gündə bir hiylə çevir. Üsyanlar qaldır, hər addımını təqib et, məmləkətini parçala, üzərində kontrol qoy, başına qapazlar yağdır, təhqirlər yap, nə bilim daha neylə. Hüququnu istirdada [geri almağa] qalxışanda sən türksən, türk olduğun üçün də vəhşisən, vəhşi olduğun üçün də islamsan, islam olduğun üşün də barbarsan, barbar olduğun üçün də bizim kimi ağalara "illəti-qai"lərə [əsas məqsədə, əsl hədəfə çatmağa] asi oldun. İndi utanmırsan haqq və hüquq adı da çəkirsən? Biz sizin tumunuzu yer üzündən silmək istəyirik, siz yaşamaq haqqı, ədalət və qeyri bu kimi əfsanələr çalırsınız. Yaxşısı budur ki, sus! Di, intiqamını al!

Bu da bir "kulturnı" siyasətdir.

İkiüzlü ol, sifətində həya olmasın, dovşana qaç, tazıya da tut qışqır, dolablar [fırıldaqlar] çıxar, xalqı şövələyə ver [xalqı bədbəxt et], pambıqla qulaq kəs, özün də sudan təmiz çıx.

Bu, bir çox yaxşı olan siyasətlərdən biri və əlverişlisidir.

Evlər yıx, xanimanlar bərbad et, yüzlərcə köyləri atəşə tut, minlərcə məzlumları kəs, məsum çocuqları süngülər ucuna qaldır, arvadları mıxlara çal, qarınlarını yırt, mini-mini qızların ismətinə toxun. Bir sözlə, kəs, öldür, çap-tala, yandır, məhv et, sonra da bütün dünyaya haray salıb "zalım"lardan şikayət et. Göz yaşlarını axıt, yalvar, imdad istə. Bu da bir rəngi-siyasətdir.

Ancaq mən bu siyasəti qonşu kirvələrimizdən başqasına məsləhət görmürəm. Çünki böylə bir "siyasət" dolabı hər adamın hünəri deyildir.

Bolşeviklə bolşevik, menşeviklə menşevik, eserlə eser, xuliqanla qardaş, Denikinlə yoldaş ol, gündə bir maska tax, içəridən də daşnak ol.

Bu siyasət nə rəngdirsə, kimindirsə, bilmirəm.

Kəbleyi ol, füqəranın dərisini soyub ding-dəyirman ələ gətir. Ermənilər zixək gələndə türklərin qabağına yüyürüb quyruq bula, Denikinin adını eşidəndə qulaqlarını şəkk tutub şıllaqla.

Bu da kəbleyi siyasətidir.

Millətpərəst ol, xainlərə lənət oxu, camaata özünü göstər, iş başına keç, amma ara xəlvət olanda cibişdancığınızı da yaddan çıxarma. Yəni ki, "bə yek kirişmə do kar."

Bu bir gözəl, şirin və iki tamlı [iki ləzzətli] siyasətlərdəndir.

Boynuyoğun müftəxor ol, əxzi-əsgər [hərbi çağırış] günləri fürsəti fövt etməyib padloq [saxta] şəhadətnamələr verməklə gecədən fisincan plov bas və huri-qılmanlar gözünə şirin olmaq üçün gündə saqqalına həna yax.

Bu siyasət də molla siyasətidir.

Adın "camaat xadimi" olsun, milyonlarına görə etibarın da olsun, ministr olanda öylə bir qaz vur ki, qazanı da doldursun və ulu babana da bəs eyləsin.

Bu siyasət kim deyir ki, yaman siyasətdir?

Adın student olsun, min cürə eybin olsun, heç şeydən də bakın [qorxub-çəkinməyin] olmasın və heç kəsi də bəyənmə, xalqa "əxlaq" dərsi ver. Müstəntiq olduqda rüşvət almayacağına Qurana and iç, ancaq kəndlilərin qulağını öyləcə

kəs ki, nə qanı yerə damsın və nə də of desinlər. Bu siyasətə də həyasızlıq siyasəti deyərlər.

Böylə siyasətə hər adam müstəid ola [istedadı çata, bacara] bilməz.

Polisdə xidmət et, quldurdan artıq xalqı soy, yüz minlər topla keflər çək, piyanlıqdan ayılma, şapalağın göydən gəlsin, dilin də bir qarınc olsun. Amma heç kəs də səni tuta bilməsin.

Bu siyasət də kefli bir siyasətdir ki, cələ yiyəsi gələnə kimi nəşə verəcəkdir.

Gül üzlü, ahu baxışlı, sərv qamətli xanımları "reminqtonistka" [makinada yazan qadın] adı ilə dəftərxanaya doldur. Bulvarda gəzəndə birini o tərəfinə, digərini də bu biri tərəfinə al, katatsa elə [gəz, dolaş]. Nəyinə gərək, pul Azərbaycanın, ləzzət sənin.

Bu aşiqanə, şairanə və dilbəndiranə bir siyasətdir.

Şəhərlərin, milyonca xalqın nəzarətini sənə həvalə qılsınlar, etibar sahibi bilib iş tapşırsınlar, millət və xalq becəhənnəm, özünü də bədbəxt edib taxtdan salasan, tamahın da artıqlıq eyləsin, birdən-birə milyonçu olmaq istədiyin yerdə azdan da qalasan. Və öylə məharətsiz iş tutasan ki, fəndin duyulsun.

Yox, doğrusu bu siyasət məni açmır. Bu çox bəd olan siyasətlərdəndir.

*Əfi*

## BAKI XƏBƏRLƏRİ

### Müəllimlər İttifaqında

- İşbu ağustosun 3-də Azərbaycan Cümhuriyyəti Türk Müəllimləri İttifaqlarının müvəqqəti Mərkəzi Komitəsi təşəkkül tapmışdır. Komitənin vəzifəsi bütün Azərbaycan Türk Müsəlman Müəllimlərinə aid məsailin [məsələlərin] müzakirə və həlli olduğu kimi, işbu ağustosun 3-də toplanacaq nümayəndə əfəndiləri qəbul etməkdir. Müəllim əfəndilər hər bir işdən ötrü Ağabəy İsrafilbəyova müraciət etməlidirlər.

- İşbu cümə günü Birinci Realnı məktəbində bütün türk-müsəlman müəllimlərinin ümumi iclası təyin edilmişdir. Ruznameyi-müzakirat [müzakirə gündəliyi]:

1) İttifaq nizamnaməsinin təsvib [bəyənilməsi] və təsdiqi;

2) Cari məsələlər.

Müəllim əfəndilərdən vaxtında gəlmələri mərcudur [rica olunur].

### Donanma haqqında

Aldığımız məlumata görə "Qars", "Ərdahan" gəmiləri ingilislər tərəfindən təslih edilərək [silahlandırılaraq] Petrovsk şəhərinə dabravollara verilmək üçün göndəriləcəkdir. Təslihə şüru edilmişdir [başlanmışdır].

### Müəllimlərin maaşı

Şəhər məktəbləri müəllim və xidmətçilərinin maaşı avqustun 4-dən etibarən hər gün səhər saat 10-dan başlamış Bələdiyyə İdarəsi kassasından verilir. Müəllim və xidmətçilər maaşlarını ala bilərlər.

### Yeni kitab

Bəhri-Xəzər İstehlak Cəmiyyətləri İttifaqı "Samopomoş" nəşriyyatı olmaq üzrə "İctimai tibb və səhiyyə təcrübələri"

adlı yeni bir kitab çapdan çıxıb satışa qoyulmuşdur. Kitabın satışından hasil olan saf mənfəət bilafərqi-milliyyət [millət fərqi olmadan] Bakı darüleytamları [yetimxanaları] nəfinə [xeyrinə] verilir. Kitab satılır Pasajda Siqal mağazasında və Merkuryevski küçədə Dövlət Bankı müqabilində Kooperasiya kitabxanasında.

**Qradonaçalnikin elanı**

Bakı qradonaçalniki Parlaman rəisi namına bir məktub yazaraq rica etmişdir ki, siyasi firqələr onun işinə müdaxilə etməsinlər. Eşitdiyimizə görə, siyasi firqələr qradonaçalnikin bu müraciətindən çox narazıdırlar.

**Milislərdən şikayət**

Bakı polismeysterstvası və Balaxanı-Sabunçu dairəsi polis məmurları əlindən Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" idarəsinə uzun şikayətlər daxil olur. Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Təbliğat və Təşkilat şöbəsi ağustosun 1-də vaqe olan iclasında xüsusən rayonlarda işləyən mübəlliğlərinin [təbliğatçılarının] şikayətini dinləyəndən sonra polis məmurlarının qanunsuz hərəkətləri haqqında ətraflı və əsaslı məlumat toplamaqdan ötrü xüsusi bir komisyon intixab etmişdir [seçmişdir].

**Mustafa bəy Vəkilov**

Azərbaycan Məclisi-Məbusan üzvlərindən "Müsavat" fraksiyonuna mənsub Mustafa bəy Vəkilov Xariciyyə nazirinə müavin təyin ediləcəkmiş. Eşitdiyimizə görə, Mustafa bəyin namizədliyini əksər fraksiyonlar müdafiə edirlər.

**Protesto**

Eşitdiyimizə görə, Hökumət mətbəəsi müdiri Kərbəlayı Vəli Mikayılov pristav Axundov tərəfindən döyüldüyündən Dövləti Müdafiə Komitəsinin müvəqqəti rəisi Xudadad bəy Məlikaslanov tərəfindən həbsinə əmr verilmişdir. Bu əmr isə qradonaçalnik tərəfindən tezliklə icra edilmədiyindən, Axundov bir neçə gün sonra hənuz arada idi. Bu münasibətlə Türk Ədəmi-Mərkəziyyət firqəsinin Təbliğat və Təşviqat şöbəsi protesto etməyi təhtiqərara almışdır.

**Jandarma İbrahim**

Fəhlə xadimlərindən və "Müsavat" firqəsinin Bakı Komitəsi üzvlərindən Zülfüqar Məhəmmədov jandarma İbrahim Quliyev tərəfindən təhqir edilmiş və döyülmüşdür. Zülfüqar əfəndi bu barədə lazım gələn yerinə müraciət etmişdirsə də, İbrahim hələ heç bir məsuliyyətə cəlb edilməmiş durur.

**Türk yaralılarının həbsi**

Bakı Cəmiyyəti-Xeyriyəsi himayəsində müalicə olunan 15 nəfərə kimi türk əsgərləri sağalıb həmin cəmiyyət tərəfindən vətənlərinə yola salınmışdı. İndi həmin əsgərlərdən biri Bakıya qayıdıb yoldaşlarının ingilislər tərəfindən Batumda həbs edildiklərini xəbər vermişdir.

**İrəvan qaçqını**

İrəvan müsəlman qaçqınlarından Zərri Məhəmməd bəy qızı nam bir qadın 4 çocuğu ilə Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciət etdiyindən, cəmiyyət tərəfindən yetimlər yurduna yollanmışdır.

## FƏHLƏ HƏYATI

Avqust ayının 2-də 1919-cu ildə Balaxanı rayonunda olan "Ruski neft"in 10-cu qruppasından neçə nəfər əmələ Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxanı kənd şöbəsinə müraciət edib mədənlərdə komissiyalar bulunmadığını söyləmişlərdir. Şöbə tərəfindən də nümayəndələr göndərilib kəndi xahişləri ilə cənab Əli Kərimzadənin sədarəti ilə və İsmayıl Abdulla oğlunun katibliyi ilə iclas etmişlər və iclasda komissiya məsələsi müzakirəyə qoyulub atidə isimləri mərqum əşxasları [aşağıda adları yazılan şəxsləri] komissiya intixab etmişlər [seçmişlər]:

1. Sədr: Şirəli Təhməz oğlu;
2. Katib: İsmayıl Abdulla oğlu;
3. Kandidat: Heydər Hüseyn oğlu.

Seçkilər cəmi mədəndə olan fəhlələrin razılığı ilə olmuşdu[r].

*Sədr: Əli Kərimzadə*
*Katib: İsmayıl Abdulla oğlu*

## MÜƏLLİMLƏR İCTİMASINDA

Ağustosun 1-də beş Müəllimlər İttifaqı Müttəfiq İdarələrinin iclası vaqe oldu.

Sədr Ağababa bəy [İsrafilzadə] cənabları şu zeyldəki [aşağıdakı] məsələləri müzakirəyə qoymuşdur:

1. Müvəqqəti Mərkəzi Büro intixabı [seçkisi];
2. Nümayəndələr Şurası dəvəti xüsusunda;
3. Ərzaq barəsində;
4. Məramnamənin təsvib [bəyənilməsi] və təshihi;
5. Abbasqulu Vəlixanzadənin məruzəsi;
6. İdarəyə göndərilmiş məktublar.

1. Ümumtürk Müəllimlərinin hüquqlarını müdafiə etməkdən ötrü möhtərəm İdris əfəndi [Axundzadə] (Gəncə Müəllimlər İttifaqının sədri) Bakıda müvəqqəti bir Mərkəzi Büro intixab edilməsini [seçilməsini] təklif edir. Bir qədər münaqişədən sonra bu təklif iclas tərəfindən əsasən qəbul olunur. Hər ittifaq kəndi namizədini gələn iclasa ümum Bakıda yaşayan türk müəllimlərinin ictimasına [yığıncağına] siyahılarını hazırlayıb təqdim etmələri təhti-qərara alınır və bu iclas bazar günü axşam saat 5-də təyin olunur və bu barədə "Azərbaycan" ruznamələrində [qəzetlərində] elan edilməsi dəxi lazım görülür.

2. Nümayəndələr Şurasının dəvəti xüsusunda sədr Ağababa bəy cənabları böyük bir müşkülat gördüyü üçün demiş ki, əgər hökumət müavinətdə bulunub para verməzsə, o vaxt o paranı nərədən aramaq və nə tədbirlər ittixaz etməliyiz [tədbirlər görməliyiz]? Hazirunun [iştirakçıların] bir hissəsi bu məsələnin həllini gələn iclasda baş tutacaq Müvəqqəti Mərkəzi Büroya həvalə etmək istəyir. Yerdə qalan üzvlər isə, biləks [əksinə], bu işin böyük əhəmiyyətli olduğunu nəzəri-mülahizəyə alaraq Ağababa bəydən rica etmişlər ki, gələn iclasadək o, Maarif Nəzarətindən qəti surətdə bir cavab alıb iclasa məlumat versin və bu qərarla da bu məsələ əksəriyyətlə qəbul olunur.

3. Ərzaq Nəzarətindən türk müəllim-

lərindən ötrü məkulat [ərzaq] almaq barəsində dəxi sədr cənabları təşəbbüsatda bulunmuşdur. Ruznamələrdə elan edilən zaman lazımdır ki, hər bir ərzaq almaq niyyətində bulunan müəllim 600 manat gətirib sədrə versin. Zira, para verməyən müəllimlər məkulat almaqdan məhrum olacaqlardır.

4. Nizamnamənin təsvib və təshihi barəsində iclas 5 nəfərdən ibarət bir Komitə təşkil edib ona həvalə edir: 1) Bakı Müəllimlər İttifaqından Əliməhəmməd Mustafazadə, 2) Şamaxı İttifaqından Əbdülvahab Axundzadə, 3) Göyçay İttifaqından Soltan bəy [Əhmədbəyzadə], 4) Gəncə İttifaqından İdris əfəndi [Axundzadə] və 5) Nuxu İttifaqından Əhməd əfəndi [Bayramov].

Komissiya bu nizamnaməni bazar günkü iclasa təqdim etməyi öhdələrinə almışlar.

5. Abbasqulu Vəlixanzadənin məruzəsi oxunub bitdikdən sonra müzakirəyə qoyulmağını lüzum görməyirlər.

6. İdarəyə göndərilmiş məktubların məzmunundan müttəle [xəbərdar] olandan sonra Müvəqqəti Mərkəzi Büroya həvalə edilir.

## AZƏRBAYCANDA

### Salyandan

Salyan Müəllimlər İttifaqı yetimlər məktəbi güşad edib [açıb], iki aydır ki, davam etməkdədir. Küçələrdə səfil-sərgərdan qalmışları, bazarlarda yatanları məktəbə toplayırlar. 540 qədər çocuq toplanmışdır. Məxarici üçün bir neçə aylıq para var isə, lakin yenə daimi ibqası [davam etməsi] üçün sərvətdar tacirlərimizə ümid bağlayıb müavinətləri lütfən rica edilmişdir.

Bu xüsusda həm Müəllimlər İttifaqına və həm qəza qaimməqamı Əliheydər bəy Yusifov cənablarına təşəkkürat və məmnuniyyətimizi izhar etməklə, himəmi-qeyri-təənnüdanələri [inkar edilməz hümmətləri] sayəsində şu məktəbin davamı üçün təşəbbüsati-fövqəladələrini çahar-çeşmlə [dörd gözlə] bəkləriz. Zira Salyanda birinci dəfə deyil, iki, üçüncü dəfədir ki, işbu əməli-xeyrə iqdam edilir [addım atılıt]. Binaənileyh [ona görə], Müəllimlər İttifaqı camaat arasında milli hissiyyat oyandırmaqda və baxüsus nüfuz və ehtiram qazanmaqda ciddi fəaliyyətləri ilə kəndi fədakarlıqlarını ibraz edələr [göstərələr] gərək.

Şu əməli-xeyirdən başqa çoxdan bəri arzu etdiyimiz məqsədlərə, amallara şükürlər olsun yenə yavaş-yavaş nail olmaqdayız.

O solmuş çiçəkləri, ölmüş ruhları dirildib bacılarımızın həyatlarını, təmini-istiqballarını məsud edərək tərbiyeyi-ruhiyyə və cismaniyyəsinə xidmət etmək üçün birinci qədəm qoyuldu. Böylə ki, köməksiz, ümidsizlik ilə intizar içində yaşayan yetimə qızlar üçün də bir darüşşəfəqə [şəfqət evi] güşadında bulundular.

Bu işlərə qəza qaimməqamı Əliheydər Yusifov cənabları ciddi tədabir [tədbirlər] sayəsində vücuda gətirməyə var hümmətini sərf etmişdir. Lakin Müəllimlər İttifaqında, yaxud idarələrində bu babda bir kəlmə də olsun danışıq yoxdur.

Dünən şəhərin vəsətində [mərkəzində] mənzillərə baxılmışdır. Şayani-təqdir [təqdirəlayiq] olan maarifpərvər hökumət məmurlarımızın və cəmiyyətlərimizin izdiyadi-əmsalını [bənzərlərinin artmasını] Cənabi-Haqdan təmənna ediriz.

**İskəndərzadənin qətlinə dair**

*(Xüsusi bir məktubdan)*

Təəssüflər olsun ki, yoldaşımız Rüstəm İskəndərzadənin qətli xüsusunda heç bir gunə [heç bir surətdə] məlumat cəm etmək mümkün deyildir. Xah "Müsavat" şöbəsi və xah hökumət bu babda məəttəl qalmışlar.

Qəribə burasıdır ki, daruğə [darğa] və növbədəki qorodovoylar gecə Rüstəm İskəndərzadənin getdiyini görüblər. Başqa adamın keçdiyini görmədiklərini izhar edirlər. Bu vaxta kimi hələ hökumət şiddətli surətdə bunlardan qatilləri mütalibə [tələb] etməmişdir. Səbəbi isə hökumət indindədir [nəzdindədir]. Yəni mütəəddid [çoxsaylı] sənədlər və daha məlumat kəşf etməklə məşğuldur.

Qəza qaimməqamı Əliheydər bəy Yusifov cənabları həqiqətdə sadiq bir zat olduğundan, islam-türk qanı olaraq ciddi surətdə qatilləri təqib etməkdədir. Bu xüsusda azmı, çoxmu, yalanmı, doğrumu – aldığı məlumat gizli olduğu üçün kəndisi beşəxsən lazımi idarələrdə bəyanat verməyə azim olmuşdur [qərar vermişdir; üz tutmuşdur]. Olar ki, sizə də məlumat versin.

**Şamaxıdan**

Keçən iyun ayının 30-da hökumət tərəfindən təyin olunan 7 nəfərdən ibarət bir heyət gəlib Şamaxı şəhərini yeni yerdə bina etmək niyyətində olub, şəhərin ətraflarını, yəni Pirsəid, Çuxuryurd, Qurdtəpəli və Nizə kimi yerləri gəzib dolandılarsa da, şəhərin bad-həvasını, suyunu və özünün heç bir yerə sığmadığını nəzərə alaraq böylə qərardad eylədilər, dağılmış şəhərin ancaq yuxarı hissəsini, yəni rus kəlisasından şimal-qərb tərəfini abad etsinlər. Heyətin böylə qərardadından sonra, əvvəla şəhərin aşağı hissələrində yaşayan əhali özlərinə daxma qaraltmaq niyyətindən düşüb, ikincisi isə şəhərin abadan olmasını eşidən qaçqınlar gün-gündən vətənlərinə qayıdıb açıq havada yaşayıb dəqiqəbədəqiqə hökumətdən özlərinə köçmək və köməklik əmrini gözləməkdədirlər.

Ümidvarıq ki, bunların bu zillətdə yaşamalarını hökumət nəzərdə tutub tezliklə öz müavinətini göstərib, gələcək qışın qara soyuq və yağışından heç olmazsa bir hissəsini xilas edər.

*Ağamir*

## GÜRCÜSTANDA

**Dabravol ordusunun cinayəti haqqında**

Şimali Qafqaziya dağıstanlılarının Tiflisdə olan Komitəsi Dabravol ordusunun Dağıstanda ağalıq etməsi münasibətilə Dağıstan tayfaları arasında bir anket yapmışdır. Anket vərəqəsində Dağıstan camaatına müraciətən deyilir ki, Dabravol ordusunun Dağıstan torpağına gəlməsi eşidilməyən vəhşiliklərə, təcavüzata, Dağıstanın gözəl kəndlərinin xarabazara dönməsinə, əsrlərcə cəm edilmiş sərvə-

tin məhv olmasına, qətl və qarətə bais olmuşdur. Dabravol ordusunun Dağıstan torpağında bu cür ağalıq etməsini hərtərəfli aşkar etmək qəsdi ilə Gürcüstanda olan Dağıstanlılar Komitəsi həmin sual vərəqəsinə cavab verilməsini qərara almışdır. Qoy, bu vərəqə "Vahid və bölünməz Rusiya"nı təcavüzatla bərpa edənlərə təqsirnamə olsun. Dağıstanlılar Komitəsi işin əhəmiyyətini nəzərə alaraq lazımi materialları əldə etməkdən ötrü tezliklə həmin sual vərəqəsinin təkmil edilib Tiflisə göndərilməsini xahiş edir. Sual vərəqəsində bir çox maddələr vardır. O cümlədən, hansı kənddə nə qədər ev xarab olub, at, qaramal, silah və başqa şeylər aparılmışdır, həmçinin nə qədər ölən və yaralanan olmuşdur.

## ERMƏNİSTANDA

**Naxçıvanın işğalı**

Erməni agentəliyi iyulun 30-da xəbər verir ki, miqdarca bizdən çox olan düşmənin sıxıntısı altında bizim qoşunlarımız Naxçıvanı təmizləmişlərdir. Naxçıvanı tərk edərkən tələfatımız bu qərar ilə olmuşdur: 3 zabit qətl edilmiş, iki zabit yaralanmış, 23 saldat xəbərsiz qeyb olmuşdur.

İyulun 26-da 500-600 nəfərlik bir dəstə Aznaniq kəndi yanında hücum etmişdirsə də, Naxçıvan ətrafında əməliyyatda bulunan qoşunlarımız hücumu dəf etmişlərdir. İyulun 24-dən 27-dək qoşunlarımız Ağkilsə, Vardenis, Gəvəli, Ardavas, Qurs, Qozluca və Manu kəndlərini işğal etmişlərdir. Zəncirli yolu açıqdır.

Qəmərli ətrafında (İrəvanın yaxınlığıdır, bu xəbərdən anlaşılır ki, məhəlli əhali erməniləri Vedi ətrafından qovmuşlardır) 40-50 nəfərdən ibarət 2 tatar dəstəsi gizlicə bizim qaraqolxanamıza yaxlaşaraq qəflətən atəş aşmışlardır. Düşmən geri atılmışdır. Bizdən iki adam ağır surətdə yaralanmışdır.

**İran erməniləri və Ermənistan Hökuməti**

Təbrizdə nəşr olan "Zəng" nam [adlı] erməni qəzetəsi xəbər verir ki, ac erməni əhalisindən ötrü Amerikadan alınmış unun bir hissəsinin Təbrizə aparılıb satılması Təbriz Erməni Milli Şurasında və erməni camaatı arasında böyük təsir bağışlamışdır. Məzkur [adı çəkilən] qəzetə bu xəbəri verib soruşur ki:

Nə vaxta qədər bu "bir cür" hökumət oğurluq və qarət edəcəkdir. Ayaran kəndliləri ot yedikləri zamanda Axtı nahiyəsində aclıq hökmfərma olduğu [hökm sürdüyü] vaxtda, Eçmiyədzində kəndlilər qurbağa və tısbağa tutub yedikləri bir dəmdə nə cür olur ki, bu un oğurlanır? Pəs, kim bizim milləti qarətdən xilas edib unu oğurlayanlara cəza verəcəkdir?

## ERMƏNİ MƏTBUATI

**Vətən təhlükədədir**

Daşnaksutyun firqəsinin İrəvan orqanı olan "Hayastan-Aşxatavor" qəzetəsi Şərur, Naxçıvan, Vedibasar ətrafındakı hadisat münasibatı ilə "Vətən təhlükədədir" sərlövhəsi altında yazılı bir məqalədə deyir ki:

*"Budur, iki həftədir ki, biz vətən təhlükədədir deyə fəryad ediriz. Fəqət nə hökumət tərəfindən fövqəladə bir tədbir ittixaz edildiyini [tədbir görüldüyünü] görürüz, nə də camaat tərəfindən.*

*Camaat öz adi həyat və zəhmətlərinə uyaraq düşmənin qədəm-qədəm yaxlaşmasına müstəsna və heyrətamiz bir siyasi şüursuzluqla tamaşa edir.*

*Artıq aydındır ki, Vedidən başlamış Naxçıvanadək adi bir üsyan deyil, xarici düşmən hücum edir. Hətta ingilislərcə müəyyən edilmişdir ki, nəinki üsyanı idarə, hətta türk və Azərbaycan qüvayi-əsgəriyyəsi [hərbi gücləri] müntəzəm surətdə iştirak edirlər. Vedidəki müsəlman qoşunlarına komandan edən türk zabitləridir. Şərur üsyanının ruhunu isə yüzlərcə əsgər ilə Bəyaziddən keçib gəlmiş olan məşhur Xəlil bəy təşkil edir.*

*Bu surətlə aydındır ki, burası daxili düşmənlərin üsyan və xəyanəti deyil, məmləkətimiz daxilində xarici düşmənlərin hücumundan ibarətdir. Bu isə bir tərəfdən mütarikə şəraitinin [atəşkəs şərtlərinin] pozulması (yəqin bu sözlər Türkiyə haqqındadır), digər tərəfdən də (yəni Azərbaycan tərəfindən də) qonşuluq münasibatının rəxnədar edilməsindən [pozulmasından] ibarətdir. O adamlar ki, "daimi müvafiqət" [daimi uzlaşma] və "vahid inqilab cəbhəsindən" dəm vururlardı, şimdi ən alçaq xainlik və yoldaş satmaq surətində hər tərəfdən məmləkətimizə soxulmuş və dindaşlarından istifadə edərək məmləkətimiz daxilində dava cəbhəsi əmələ gətirmişlərdir.*

*Ermәni millәti ən müdhiş, qorxunc və təhlükəli bir hərb qarşısında durur. Düşmən nəinki sərhədimizdədir, hətta artıq məmləkət içərisindədir. Bu əmr [iş], pək qorxunc və təhlükəli bir əmrdir və bunu xalqdan gizlətmək olmaz.*

*Tam bir il keçmiş düşmən bizim və Müttəfiqlərin aldanıcı olmamızdan və həddindən ziyadə səhlənkarlığımızdan istifadə edərək özünü ölmüş və məğlub olmuş göstərib, qəflətən məmləkətimizə soxuldu. Bunun məsuliyyəti hamıdan qabaq Müttəfiqlərin üzərinə düşür.*

*Onlara ümidvar olaraq, onlara inanaraq, daha doğrusu onların xahişi ilə biz düşmənə qarşı bunca təhəmmülkarlıq [dözümlülük] və səhlənkarlıq ibraz etdik [göstərdik]. Biz qəti surətdə inanmışıq ki, heç bir şey ola bilməz və məğlub olmuş Türkiyə yenidən bizə hücum edə bilməz. Biz həmişə deyirdik, xəbərdar edirdik ki, yaxşı bələd olduğumuz düşmən, əsgərinin bir qismini təğyiri-libas edərək Azərbaycan qoşunu sifəti ilə saxlayacaqdır. Fəqət bizim əsaslı iştibahımıza [şübhəmizə] inanmadılar. Bizi inandırır, sakit edirlərdi. Şimdi bu gün düşmən dirilir və hər tərəfdən görülür.*

*Bunun həpsi Müttəfiqlərin təqsiridir.*

*Fəqət bizim camaatımız və hökumətimiz dəxi müqəssirdirlər.*

*Camaatın təqsiri cinayətkaranə laqeydliyi, hökumətin təqsiri isə düşmənə qarşı cinayətkaranə təhəmmülkarlıq və səhlənkarlıqdır.*

*Binaənileyh [ona görə], biz bir tərəfdən Müttəfiqlərdən qəti tədbirlərlə "məğlub" düşməni, yəni Türkiyənin yeni hərb və hücumunu dayandıraraq ittihadi-islamın yeni seylabına bir sədd çəkmələrini tələb etməklə bərabər, digər tərəfdən də məmləkətin həqiqəti-halı haqqında camaat müntəxəblərinə [seçilmiş-*

*lərinə] izahat verərək, vətəni və camaatın həyatını bu yeni müdhiş təhlükədən qurtarmaq qəsdi ilə onlardan fövqəladə tədbirlər tələb etmək üçün bilatəxir [dərhal] Parlamanın çağırılmasını tələb ediriz.*

*O vaxtadək isə biz dübarə, səbarə [ikinci dəfə, üçüncü dəfə] camaata xitabən həyat və hürriyyətlərini xilas üçün silaha sarılmağa dəvət ediriz.*

*Vətən və həyatınız təhlükədədir. Silah başına vətəndaşlar!"*

**İdarədən**: Daşnaklar, şübhəsizdir ki, qan və atəş içində boğulsalar da, səbəbini aramaq əvəzinə, ancaq əski adətləri olan fitnə və fəsadçılıqdan əl çəkməzlər. Fəqət bunca provokasiyadansa, hüququnu, hürriyyətini əldən vermək istəməyən bir millətinin tələbi ilə hesablaşmaq lazımdır. İlla heç dürlü "Silah başına!" komandası fayda verməz. Necə ki, özləri etiraf etdikləri üzrə, yorulmuş camaat daha böylə komandalara laqeyd baxır.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi! İzin veriniz qəzetəniz vasitəsilə Türk Müəllimləri İttifaqı namından müəllimləri pulsuz fabrikasına apartdırıb, fabrikaya və dəyirmana tamaşa etməyə izin verən Hacı Zeynalabdin Tağıyev cənablarına və həmçinin fabrika müdiri, ustaları və fəhlələrinə türk müəllimlərinə ehtiram etdiklərinə görə izhari-təşəkkürümü bəyan edim.

*Türk Müəllimləri İttifaqının rəisi:*
*Ağabəy İsrafilbəyov*

## İDARƏDƏN CAVABLAR

Mirbədrəddin əfəndiyə: [Rüstəm] İskəndərzadənin qətli və qatili haqqında yazılmış məktubun Mirtükəzban xanım deyil, qərəzlə düşmənlər tərəfindən yazılmış olduğunu isbat üçün göstərdiyiniz dəlillərdə bir çox yanlışlıqlar var. Əvvəla, məktub tərif etdiyiniz kimi, bisavad yazılmamışdır. Doğrudan da çocuq xətti və çocuq, fəqət savadlı çocuq imlası ilə yazılmışdır. Saniyən [ikincisi], həman məktubla bərabər idarəmizə bir şey dəxi göndərilmiş və o xüsusda eyni məqalədə öylə suzişli [yanıqlı, ürək yandıran] şeylər yazılmışdır ki, bunu ancaq oğlu ölmüş yanıqlı bir qadın yaza bilər və o şeyi ancaq ana göndərər. Bu surətlə, yazınız möhkəm bir əsas üzərinə yazılmadığından, mütəəssifanə [təəssüf ki], dərc ediləmməz. Mütəəssifanə, çünki biz dəxi istərdik müdafiə etdiyiniz bəraət qazansın. Fəqət əsaslı sübut göstərilmədikcə qane olammayız.

**Satılır**

Ucuz qiymətə aynalı bufet, stolovı saatı, tumbuçkalar və qeyri şeylər. 1-ci Qannıtepinski küçə, nömrə 166, Minasın mənzili.

*7414*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78, 10-1-ədək.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Diş həkimi B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Teleqraf xəbərləri

səh. 81. "Proskurov": Ukraynanın qərbində şəhər; indiki Xmelnitski şəhəri.

səh. 82. "Peti Parizyen" [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

"Tyantszin": Çinin şimal-şərqindəki Tyantszində Avstriya-Macarıstanın, İtaliyanın, Rusiyanın və bir sıra başqa dövlətlərin imtiyaz bölgələri var idi.

səh. 83. "Saratov dairəsində": qəzetdə "Saratov" yerinə "Sarev" getmişdir.

səh.84. "V. S.": 1721-1934-cü illərdə Berlində nəşr edilən "Fossişe çaytunq" [Vossische Zeitung] qəzeti nəzərdə tutulur.

səh. 85. "Yekaterinoslav": Ukraynanın Dneprepetrovsk vilayətində indiki Dnepr şəhəri.

"Fiqaro" [Le Figaro]: Fransız qəzeti; əsası 1826-cı ildə Parisdə qoyulmuşdur.

### Vükəla Şurasında

səh. 87. "bir qanun layihəsi tərtiblə Məclisi-Məbusana idxalı tapşırılsın": qəzetdə "Məclisi-Məbusana" yerinə "Məclisi-Müəssisana" getmişdir.

"işbu köylər təxrib edilmişdir": qəzetdə kənd adları təhrif edilmişdir, bəzilərini bərpa etmək mümkün oldu.

### Təlifat işlərində ehtiyatlı olmalı

səh. 88. "İstilahati-ümumiyyə yoxsulluğu": qəzetdə "İslahati-ümumiyyə yoxsulluğu" getmişdir.

### Siyasət

səh. 93. "sandıq tulaları": bu söz riyakar və ikiüzlü adamlar haqqında işlədilir.

"Ermənilər zixək gələndə...": "zixək" kimi oxunan sözə məna vermək mümkün olmadı.

"bə yek kirişmə do kar": (farsca) "Bir kirişmə [him-cim] ilə iki iş.

səh. 94. "cələ yiyəsi gələnə kimi": "cələ" tələ mənasına gəlir; "cələ yiyəsi gələnə kimi" isə haqq-hesab çəkilənə kimi, qayda-qanun günü gələnə kimi mənasında işlədilir.

"dilbəndiranə": qəzetdə belə getmişdir; güman ki, "dilbəranə" yaxud "dilbəndanə" olmalıdır.

### Bakı xəbərləri

səh. 94. "məsailin müzakirə və həlli": qəzetdə "məsailin" yerinə "məsaildə" getmişdir.


آذربایجان

اعلان

اعلان

تلغراف خبرلری

*"Azərbaycan" qəzetinin 244-cü nömrəsinin 1-ci səhifəsi*

Çərşənbə, 6 avqust 1919-cu il, nömrə 244

AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 9 zülqədətül-haram sənə 1337. 6 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**ELAN**

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti bununla Bakı əhalisini xəbərdar edir ki, ağustos ayının 4-dən etibarən Ticarət, Sənaye və Ərzaq Nəzarətinin Mariinski küçədə (Malakan bağı qarşısındakı) mağazasında ayaqqabı, arşın malı, corab, şəkər və qeyri bu kimi şeylər ucuz qiymətlə satılacaqdır. Bununla əhalinin məzkur [adı çəkilən] mağazadan istifadə etmələri lazımdır.

*T-198*

**TÜRKANA ZİRƏYƏ**

Hər gün gedir Pravodnik körpüsündən, Naberejnı küçədə 8-imci nömrəli körpüdə böyük barkaz "Məhəmməd" gündüz saat 12-də.

*7419*

**KAMİSYONNI-STROİTELNİ KANTOR**
**X. AVANESOV VƏ A. KƏRİMOV**

Evlərin, yerlərin, əmlaki-qeyri-mənqulə [daşınmaz əmlak] və sairlərinin satılması. Ünvan: Mariinski küçə, nömrə 16, Dadaşovun evində. Telefon nömrə 43-68. Bastaqanovun mebel mağazası qarşısında.

*7418*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERETTA**

Zülfüqar bəy və Üzeyir bəy Qardaşlarının Müdiriyyəti

Cümə günü, zülqədətül-haram ayının 11-də (ağustosun 8-də) mövqeyi-tamaşaya qoyulacaqdır Üzeyir bəyin məşhur **"O olmasın, bu olsun"** operettası. Bu dəfə Məşhədi İbadın rolunu Mirzəağa Əliyev və hamamçının Əliəkbər Süheyli ifa edib, milli əşar [şeirlər] və meyxana oxunacaqdır. Rza Darablı isə dəllək rolunda dəllək mahnısı oxumaqla dəlləyi mədh edəcəkdir. Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

**ELAN**

Bakı və Ətrafının Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqı İdarəsi həmin ağustos ayının 6-nda çaharşənbə günü axşam saat 7-də Bələdiyyə İdarəsinin salonunda Darülfünun məsələsi haqqında fövqəladə ümumi iclas dəvət olunur. Ümum İttifaq üzvlərindən rica olunur ki, təyin olunmuş vaxtda təşrif gətirsinlər.

*7417*

**SİRK “MODERN”**

Çaharşənbə günü ağustosun 6-da 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 39-cu günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qırmızı Maska – Gənc Əli.

2-nci: Kalişeviç – Baxtıllov.

3-ncü: Staroşvili – Raqenbaum.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda. Mübarizə Yelizarovun təhtinəzarətində [nəzarəti altında] olacaqdır.

*7416*

**GÖZÜMÜZÜ AÇMALIYIZ**

Son zamanlar şəhərimizdə bir çox şayiələr çıxmağa başladı. Hətta mətbuat səhifələrinə keçdi. Bunlardan bəziləri o qədər açıq yalan idi ki, əsla əhəmiyyət vermək lazım deyildi və millətimiz bu şayiələri soyuqqanlılıqla qarşılayırdı. Fəqət digər bəzi şayiələr də buraxılırdı ki, türk milləti, Azərbaycan xalqı buna laqeyd qalammaz. Odur ki, bu şayiələr yek-digərinə qarışdırılaraq camaatımızı həyəcana gətirirdi. Bu şayiələr üç dürlü idi, həm də istiqlalımız, rahatımız tərəfdarı olmayanlar bunları yek-digərinə öylə rəbt edirlərdi [bir-birinə elə bağlayırdılar] ki, ümumiyyətlə, böyük təhlükə göstərirdi.

Xəbər çıxdı ki, Bəhri-Xəzər donanmasını ingilislər Denikinə verirlər. Bu biri tərəfdən hökuməti xalq nəzərindən salmaq istəyənlər başladılar ki, Rəisi-Vükəla [Baş nazir] və Hərbiyyə naziri də Bakıdan qaçmışlardır. Parlaman dəxi üç həftə yay tətili bəhanəsi ilə qapanıb getmişdir. Guya bu son işlər dəxi donanma məsələsi ilə əlaqədar imiş.

İstiqlal fikri ilə bunca üns tutmuş, hürriyyət və istiqlalını əzizləyən bir millət arasında böylə şayiələrin nə qədər həyəcan və iztirab çıxaracağı məlumdur. Bilxassə o günlər Rəisi-Vükəla və Hərbiyyə naziri həzrətləri, doğrudan da, Quba, Gəncə, Şuşa və sairlərinə getmişlərdi, Parlamanın da 5 ağustos – 1 sentyabradək tətil məsələsi vardı. Odur ki, xalq bu şayiələrə tamamilə inanmışdı və böyük iztirab və həyəcanda idi.

Sonra Rəisi-Vükəla həzrətləri səfərdən övdət etdilər [qayıtdı]. Parlamanın tətili məsələsi də ləğv olundu. Burası şayiələrin mahiyyətini bir qədər aydınlaşdırdı. Fəqət camaat ona heç o qədər də əhəmiyyət verməyirdi. Ona görə də həyəcan tamamilə yatmadı, yatmaz da!

Zira ictimaiyyəti ən artıq iztiraba salan, həyəcana gətirən, əsəbiləşdirən donanma məsələsidir. Həm də xırda məsələ deyildir.

Bəhri-Xəzər donanması Azərbaycan düşmənlərinin əlində olduqca vətənimizin, vətən övladının ruhu, qəlbi, ürəyi olan paytaxtımız təhlükə altında bulunar. Buna da heç vaxt bizim camaatımız laqeyd baxammaz.

Bu vaxtadək Azərbaycan türk milləti donanmamızın özgələr əlində qalmasına laqeyd baxmışsa, yalnız o səbəbdəndir ki, indiyədək bizi inandırmışlar və biz hə-

mişə buna inanmışız ki, Bəhri-Xəzər donanması Azərbaycanın dostlarının əlindədir. Ona görə də dənizdən heç vaxt paytaxtımız təhlükə altında qalmaz.

Şimdi isə Bəhri-Xəzər donanmasının Azərbaycanın açıq-aşkar düşməni olan bir qüvvənin əlinə keçməsini eşidib görüncə, biz heç vaxt rahat durammayız. Vicdani-millət əsla laqeyd baxammaz. İztirab və həyəcan da bundan nəşət edir [əmələ gəlir].

Bilxassə dəniz qüvvəsi məsələsi haqqında hökumətimiz tərəfindən İngilis Komandanlığına verilmiş olan notaya cavab çıxmaması, qəzetələrdə donanmanın təhvil verilməsi haqqındakı xəbərin bu vaxtadək İngilis Komandanlığı tərəfindən təkzib edilməməsi bizi düşündürür, azərbaycanlıları həyəcana salır. Bildirir ki, vətənimiz, istiqlalımız ağır dövrlər keçirməkdə, müşkül vəziyyətdə bulunmaqdadır.

Nə qədər ki, bu məsələ aydın-aşkar bir surətdə açılmamışdır, vicdani-millət sakit olmayacaq, həyəcan və iztirab keçməyəcəkdir.

Qoy müqəddəratımızın həlli ilə uğraşan dövlət və millətlər bilsinlər ki, camaat, millət öz hüquq və ixtiyarını anlayır, müqəddəratını kəndi əlinə almağı bilir və bu xüsusda bilafərqi-sinif, silk və məslək [sinif, təbəqə və məzhəb fərqi olmadan] bütün azərbaycanlılar öz Hökumət və Parlamanına inanır, var qüvvəsi ilə ona müzahirət [kömək] edəcəkdir.

Bu gün daxili işlərimizdə firqə münaziəsi [çəkişməsi], məslək ixtilafı varsa, xarici məsələlərdə, bilxassə hürriyyət və istiqlal məsələsində azərbaycanlılar miyanında [arasında] nə fərq var, nə məslək. Ancaq azərbaycanlılıq var. Yalnız müstəqil olmaq və müqəddərati-milliyyəni öz əlinə almaq fikri var.

Bunu dost da bilməlidir, düşmən də.

Dostlarımız da, düşmənlərimiz də bilməlidirlər ki, azərbaycanlılar dostu da, düşməni də tanıyırlar. Dosta qarşı ağuş açmağı, düşmənə qarşı köks gərməyi bacarırlar. Azərbaycan türkü heç vaxt vətən və istiqlaliyyətinin müqəddəratına aid cüzi bir şeyə belə laqeyd baxammaz. Bunu hamı nəzərə almalı və bütün münasibat və hərəkətini Azərbaycan türklərinin əhvali-ruhiyyəsi, arzu və amalı, istək və diləkləri ilə rəbt etməlidir.

Öylə olmasın ki, hərc-mərc atəşinə tutulmuş Rusiya alov dəryası içində bir nizam və asayiş adası təşkil etməkdə olan gözəl vətənimiz dəxi anarxiya və nizamsızlıq yuvasına mübəddəl olsun [çevrilsin]. Qafqaziyada və bütün dünyada sülh və müsalimət [əmin-amanlıq] bərpasına çalışmaq istəyənlər bunu heç vaxt nəzərdən qaçırmamalıdırlar.

*Xəlil İbrahim*

## TELEQRAF XƏBƏRLƏRİ

*Royter agentəliyindən, avqustun 1-dən*

### İngiltərədə bahalıq

Londondan xəbər verirlər ki, Ərzaq kontrolu Dartfordda danışdığı zaman söyləmişdir ki, İngiltərə qiymətlərin aşağı düşməsinə və ehtikarlığın qurtarmasına ümidvar deyildir. Hətta arxada olan qansorucu möhtəkirlər edam edilsələr də, qiymətlər aşağı düşməyəcəkdir. Qiy-

mətlərin artmasına ümdə səbəb axırıncı beş ilin xarabazarlığı, məvaciblərin təzayüdü [artması] və hər yerdə xərclərin artmasıdır. Bu haldan qurtarmağa tək bir çarə məhsulat və məmulatın artırılmasıdır.

**Şimali Rusiyada**

Royter agentəliyinə xəbər verirlər ki, Dvina çayında su azalmışdır. İngilis əsgərlərini heç bir təhlükə təhdid etməyir. Ümid var ki, yenə təzədən su artıb və ingilis gəmiləri öz müəyyən yerlərinə hərəkət etsinlər. Məhəlli [yerli] əsgərlərin Onej cəbhəsində geri çəkilmələri əhvalı dəyişdirmişdir. Kabinə bu məsələlərə baxmaqdadır.

* * *

- Hacı-Tərxan cəbhəsində təbəddülat [dəyişiklik] yoxdur.

- Tsaritsın cəbhəsində Volqanın sol kənarında Kuban qoşunlarının bir hissəsi yürüşdə davam edərək Solonçak mövqifi [stansiyası] yanında müharibə davam edir. Partizanlar Hacı-Tərxan dəmiryolunu altı yerdən partlatmışlardır.

Volqa nəhrinin sağ kənarında general Pokrovskinin hissələri Kamışinin 10 verstliyində düşmənlərin səngərlərini işğal etdilər. Onlardan 500 nəfər əsir alınmışdır. Eyni zamanda dabravollar İlovlya üzərindən keçən körpünü işğal ilə, Kamışini arxadan çevirmə ilə Yelşanka üzərinə hücum edib Yelxovkanı işğal etmişlərdir.

Krasnı Yar dairəsində Teris nəhrinin hər iki tərəfindən yürüyən düşmənləri Don kazakları saxlayırlar.

Yelan dairəsində Don hissələri yürüş edərək müharibə davam edir.

Don cəbhəsində təbəddülat yoxdur.

Xarkov cəbhəsində Poltava səmtində bizim hissələr düşmənləri pərişan edərək Koçubeyevka və Maksimovka xəttinə çıxmışlardır. Bu yer Poltavanın 30 verstliyindədir.

Yekaterinoslav cəbhəsi - Bizim hissələr Zaporojye və Verhoviç mövqiflərini işğal edərək Verxnedneprovska yürüş edirlər. Müharibə qayət ciddi surətdə davam edir. 4-cü həmlədən sonra Kuban qoşunları şəhərə daxil olub 1000 nəfər əsir, 6 top, 1 zirehli qatar, 9 parovoz, 7 ədəd qatar qənimət almışlardır.

**Azərbaycan simsiz teleqraf mövqifi tərəfindən qəbul edilmişdir**

Moskva - Xariciyyə Komissarlığının Şərq işlərinə baxan komitəsi xəbər verir ki, Əfqanıstan ilə düzgün əlaqəyə başladığımızdan, Daşkəndə gəlmiş olan Çin nümayəndələri ilə ticarəti əlaqə barəsində danışıq başlanmışdır. Şimdi İran ilə də ticarəti əlaqə başlanacaqdır. Ona görə deyirlər, konsullar göndərəcəyiz.

**Əfqanıstanın qələbəsi**

Moskva - Şura hökumətinə Daşkənddə bulunan Əfqanıstanın general-konsulu iyulun 29-da Novçində əfqanıstanlılarla ingilislər arasında vaqe olan müharibə barəsində zeyldəki [aşağıdakı] məlumati-rəsmiyyəni bildirir:

1) Əfqan ordusu Hindustanda Vəziristan qitəsini tamamilə işğal etmişlərdir.

2) Əfqan ordusu Tank şəhərini işğal eyləmişdir. Burada ingilislərin ümdə qüvvəsi cəmləşmiş imiş.

3) Bütün Əfqanıstanın beşdən biri qədər əfqan qoşunları Hindustandan yer almışlar.

4) Əfqan ordusu Çaman şəhərində ingilisləri qətiyyən məğlub etmişlərdir. Bundan əlavə, Çaman dairəsində əfqanların müntəzəm qoşunlarından başqa 70 min nəfər də partizan qoşunları vardır ki, hər bir halda ingilislərə qarşı çıxmağa hazırdırlar.

5) Bəlucistan əhalisi ingilis təbəəliyindən çıxıb əfqanlılara mülhəq olmuşlardır [qoşulmuşlar].

6) Əfqanıstanın İrana mülhəq olması barəsində İrandan bir çox məktub alınmışdır.

7) Hindustan alayları yek-digərini mütəaqib [bir-birinin ardınca] əfqan tərəfinə keçib ingilis qüvvəsi ilə müharibəyə başlayırlar.

Bunlardan əlavə, 17 iyul tarixi ilə Kabildən alınan məlumata görə:

1) Hindistan qoşunlarının əfqanlılar tərəfinə keçməsi davam edir. Məsələn, bu günlərdə 400 nəfər süvarilər əfqanlılara qoşulmuşlardır.

2) Üsyan edən hinduların miqdarı 12 min nəfərdir.

3) İngilislər hər bir cəbhədə əhatə edilmişlərdir.

4) Hindustanda inqilab bütün şiddəti ilə davam edir.

5) Meydani-hərbdə inqilabçı hindlilər bir neçə afiser qətl eyləmişlərdir. Gündən-günə inqilab artır, ingilislər inqilabçıları həbs edirlər.

**Kamışin cəbhəsində**

Cənubi rus qüvayi-müsəlləhəsi [silahlı qüvvələri] baş komandanı xəbər verir ki, Kamışini işğal etmək üçün iyulun 12-də başladığımız əməliyyat iyulun 29-da bolşevik əsgərlərini pərişan etməklə qurtarmışdır. Bolşeviklər öz hallarını düzəltməkdən ötrü dəmiryol boyu əks-hücuma keçmişlərsə də, dəf edilmişlərdir. Kamışin altında əlimizə çox şeylər keçmişdir. 7 min əsir, 40 top, 150 pulemyot, bir çox nəqliyyat və başqa şeylər alınmışdır.

- Avqustun 1-dən xəbər verirlər ki, İlovlya dərəsində bolşeviklər təkrar əks-hücuma keçmişlərsə də, mövqelərindən çıxarılıb Dvoryanski kəndin 7 verst şimalına qovulmuşlardır. Krasnı Yar tərəfdə bolşeviklər Don əsgərlərinin təzyiqi altında Krasnı Yarın qərbində Tersa nəhrinin şimal sahilinə çəkilmişlərdir. Krasnı Yar tərəfdən düşmən hücumu dəf edilmişdir. Yelan tərəfdə müharibə davam edir.

**Don cəbhəsində**

Balaşov tərəfdə təbəddülatlı [dəyişən] müvəffəqiyyətlərlə müharibələr davam edir. Borisoqlebov və Novxopyorsk səmtində atışma var. Starı Oskol tərəfdə düşmən bir qədər ciddiyyət göstərməkdədir.

**Dnepr cəbhəsində**

Nikopol rayonunda düşmən Dnepr nəhrinin şərq sahilinə xırda bir kəşfiyyat dəstəsi göndərmişdir. Bu işin bərtərəf edilməsi [qarşısının alınması] üçün tədbirlər görülməkdədir.

## SÜLH ƏTRAFINDA

Lion - Bolqariyanın halı qeyri-müəyyən bir vəziyyətdədir. Buna da səbəb Frakiya məsələsinin bu vaxta qədər həll edilməməsidir. Bu məsələ barəsində müt-

təfiqlər arasında ixtilaf vardır. Amerika nümayəndələri bəyan edirlər ki, hərgah Frakiya Bolqariyadan alınıb da Yunanıstana veriləcək olarsa, heç şübhəsiz, Balkanlarda yeni bir ataş qopacaqdır. İngiltərə ilə Fransa biləks [əksinə], Frakiyanın Yunanıstana verilməsi tərəfdarıdırlar. İtaliya nümayəndələri Yunanıstana qarşı əvvəlki vəziyyətdə baqidirlər [qalırlar]. Yaxın Şərqdə sərhəd məsələsinin həllini çar-çeşmlə [dörd gözlə] bəkləyirlər. İtaliya bu vaxta qədər Fiume məsələsinə əhəmiyyət verdiyindən, yunan ixtilafına müdaxilə eylə[mə]mişdir.

**Klemanso və Türkiyə mürəxxəsləri**

Türkiyə mürəxxəsləri [nümayəndələri] Türkiyə sülh müahidənaməsini [sazişini] Sülh Konfransına təqdim etdikdən sonra Klemanso Türkiyə mürəxxəslərinə bir nota ilə müraciət edərək bəyan eyləmişdir ki, Türkiyə məsələsinin həlli daha çox uzun vaxt istəyir və bu məsələnin həlli bir çox digər məsələlərlə əlaqədardır. Onlar Şurasınca, hal böylə ikən Türkiyə mürəxxəslərinin Parisdə qalması mənfəət verməyəcəkdir. Ona görə də mürəxxəslərin İstanbula qayıtmalarını məsləhət görür. Klemanso əlavə edir ki, icab etdiyi təqdirdə [lazım gələrsə], Müttəfiqlər lazım bildikləri gözəl vasitələrlə Türkiyə hökuməti ilə əlaqədə bulunacaqlardır.

Paris - Türkiyə sülh mürəxxəsləri Lozannaya əzimət etmişlərdir [getmişlər].

**Bolşevik Rusiyanın ablukası**

“Deyli meyl” qəzetəsinin məlumatına görə, Müttəfiqlərin Ali Şurası bolşevik Rusiyadan ablukanın [blokadanın] qaldırılmasını qət etmişdirlər [qərara almışlar]. Abluka Komisyonunun rəyinə görə, Almaniya ilə sülh müahidənaməsi imza edildiyi andan Rusiya üzərindən abluka qaldırılmalı idi. Zira Rusiya Müttəfiqlərlə hali-hərbdə deyildir.

Paris - 15 min Amerika əsgəri avqust ayında vətənlərinə övdət edəcəkdir [qayıdacaqdır]. 136 min nəfər isə yeni müharibəyə hazırlanır.

- İngiltərənin rəsmi mənbələrdən verilən xəbərlərə nəzərən, Sülh Konfransında vəziyyət kəskinləşir. Asiyayi-Suğranın [Kiçik Asiyanın; Anadolunun] bir hissəsi tamamilə anarxiya halındadır. Türklər iranilərin müavinəti ilə cihad elan etmək istəyirlər. Türkiyənin sabiq 9-cu qolordusunun [korpusunun] altı firqəsi [diviziyası] Trabzon yaxınlığına cəm olmuşdur. Onlar böyük xətrə [təhlükə] təşkil edirlər. İstanbulda Türkiyə hökumətinin vəziyyəti möhkəm olmadığından, əhval dəxi də fənalaşır. Hökumət bu hərc-mərc xəbərlərini alaraq başını itirir. Bundan əlavə, Kolçakdan da xətrəli xəbərlər gəlməkdədir. Finlanda hökuməti təbdil edildiyinə [dəyişdiyinə] görə, finlər yenə ricət edirlər [geri çəkilirlər]. Petroqradı almaq planı yenidən müşkülata uğrayır. Hərgah finlər öz vəziyyətlərini dəyişdirməsələr, Petroqradı almaq xülyasından vaz keçməlidir.

## QƏZETƏLƏRDƏN

**Denikin qərargahı**

Vladiqafqaz Dəmiryolu İdarəsi xəbər-

dar edilmişdir ki, iyulun 29-dan başlayaraq general Denikin qərargahının Yekaterinodardan Rostova nəql edilməsi üçün tədarük görsünlər.

**Kubanda**

Bu axır günlərdə Yekaterinodardan alınan xəbərlərə görə, Kubanda məhəlli [yerli] əhali arasında Dabravol ordusu haqqında böyük nifaq əmələ gəlmişdir. Məlum olduğu üzrə, Radanın təklifinə görə, iyulun 7-nə Yekaterinodar[d]a Cənubi Rusiya hökumətləri Kuban, Don və Terek konfransı dəvət edilmişdir. Bu konfransa Dağıstan, Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrinin də dəvət edilməsi qərara alınmışdı. Bu cür konfransın dəvət edilməsi məsələsi Kolçak hökuməti Denikin tərəfindən təsdiq edildikdən sonra Rada tərəfindən qaldırılmışdır.

Denikinin bu təsdiqi Kuban kazakları arasında böyük narazılığa bais olmuşdur. Kubanlılar bu həqiqəti təsdiq etməkdən maəda [başqa] "vahid və bölünməz Rusiya" vücuda gətirilməsi hərəkatına düşmənanə durmaqla bərabər, Denikin ilə ciddi surətdə mübarizəyə hazırlaşırlar. Onlar Denikinin Zaqafqaziya cümhuriyyətləri, Kuban və qeyrilərinin hüququnu təsdiq etməyi inandırmağına mütləq inanmayıb, etiqadları bunadır ki, Denikin hökmfərma olduğu təqdirdə, onları da Dağıstan Cümhuriyyəti kimi məhv etməkdən çəkinməz. Buna görə, Kuban və Qafqaziya cümhuriyyətlərini bircə bu təhlükə təhdid etməkdədir.

Bu səbəbə görə, kubanlılar Qafqaziya cümhuriyyətlərinin siyasi nümayəndələrinə müraciət edib iyulun 7-də dəvət edilən konfransda əqəllən [ən azından] mənəvi müavinət olmaq üzrə iştirak etmələrini təklif eyləmişlərdir. Çünki kubanlıların maddi qüvvələri və ordusu vardır. Kuban Radası nümayəndələri açıq-aşkar edib və indi də söyləyirlər ki, Kuban kazakları indiyə qədər Denikin əsgərləri ilə bərabər ancaq bolşeviklər əleyhinə mübarizə etmişlərdir. Ukrayna daxilində ancaq bolşeviklərlə mübarizə edəcəklərdir. Lakin Ukrayna Xalq Cümhuriyyəti əsgərləri əleyhinə Petlyura əsgərləri mübarizə etməyəcəkdir.

Kubanlılar özlərini müstəqil elan etmiş başqa millətlər haqqında da bu cür siyasət yürüdəcəklərdir.

Vahid və bölünməz Rusiya hərəkatı ilə mübarizə dabravollarla mübarizə etməkdir. Hal-hazırda kubanlıların məqsədi bundan ibarətdir. Zaqafqaziya cümhuriyyətlərinin mənəvi müavinətləri ilə bu mübarizə planını hazırlamaqdan ötrü Yekaterinodarda konfrans dəvət edilmişdi.

Kuban Radası və hökuməti Tiflisə Zaqafqaziya Cümhuriyyətləri Konfransına dəvət edilməmələrinə artıq təəccüb etmişlərdir. Çünki Dabravol ordusunun Zaqafqaziya millətləri hüququna hər bir təcavüzü kubanlılara təsir edir.

Kubanlıların rəyincə, müstəqil olmuş Rusiya millətlərinin azadlığını ancaq Rusiyada vücuda gələn müstəqil hökumətlərin birliyi şərti ilə mühafizə etmək olar və birlik də ancaq konfrans dəvəti ilə ola bilər.

Məəttəəssüf [təəssüf ki], Yekaterinodar ilə münasibat müşkül olduğundan, məlum olduğu üzrə, Azərbaycan hökuməti Azərbaycan nümayəndələrinin konfransa dəvət edilməsi haqqında Kuban Radasının rəsmi məlumatını gec almışdır.

**Yekaterinodarda**

"U[tro] Yu[qa]" qəzetəsi yazır ki, bir para siyasi hadisələr münasibətilə Yekaterinodarda olan Sofiya Hərbiyyə Məktəbində yunkerlər arasında iğtişaş düşmüşdür. Nəticədə məktəb müdiri Şerbaçev[iç] 25 nəfər yunkerin həbs edilməsi əmrini vermişdir. Məhbuslar Ərkani-Hərb [qərargah] Baş komandanı yanına göndərilmişlərdir. Təftişatdan sonra məhbuslardan 21 nəfəri azad edilmişlərdir.

**İtaliyada iğtişaş**

Londondan xəbər verilir, Florensiya iğtişaşından maəda [başqa] Bolonya, Ankona, Romani, Toskana, Forli, Faensa, Ravenna, İvoli və Çezenada dəxi iğtişaş başlanmışdır.

**Avropada kömür qəhətliyi**

Lion - Avropanı qayət dəhşətiylə kömür qıtlığı xətrələyir [təhdid edir]. Kömür ticarətinin qeyri-müntəzəm halda olması kömür istehsalını gözlənməyən dərəcədə əskiltmişdir. Fransa, İtaliya və sair dövlətlər kömür qəhətliyindən dolayı böyük əndişəyə düşmüşlərdir. İngiltərənin xaricə çıxarmağa 23 milyon ton kömürü vardır. Halbuki keçən il 77 milyon ton kömür var idi. Avstriya nümayəndələri bəyan etmişlər ki, Avstriyada qətiyyən kömür yoxdur.

Polşada vaqe olan hadisələr[in] 20 milyon ton kömür zərəri vardır. Çexiyada 5 milyon ton kömür zərəri var. Bu da Bavariya üçün böyük xətrə təşkil edir. Zira Bavariyanın kömür cəhətindən ümidi bura idi. İtaliyada da kömür yoxdur və bunun üçün də əlac görünməmişdir.

Avropa dövlətləri istərlərdi ki, Amerikada kömürün işlədilməsinə kontrol qoyulsun və Avropaya lazım gələn kömür buraxılsın. Fəqət Amerika buna razı olacaqmı? Bu da bir başqa məsələdir.

**Braziliya Cümhuriyyəti rəisi**

Rio-de-Janeyroda vaqe olan konqre Epitasiu Pesoanı 1922-ci ilə qədər rəisicümhur elan etmişdir.

**İtaliyanın iddiası**

İtaliya hökuməti Ali Şuradan xahiş edir ki, 1902-ci il müahidənaməsincə Avstriya-Macarıstanın istifadə etdiyi Tiyan Şin yeri ona vagüzar edilsin.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin, sabiq Ərzaq naziri Lizqarın gerbovı vergi qanununu pozduğu üçün cərimə haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Dövləti müfəttiş və Ədliyyə nazirlərindən kəndi nəzərlərini təqdimi rica edilsin.

- Maliyyə nazirinin dövləti hesab dəftərlərinin aparılması haqqındakı 16 iyun hökumət qərardadı barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Layihənin təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin Tənbəki vergisi qanununun dəyişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], Məclisi-Məbusana idxalı tapşırılsın.

- Posta və Teleqraf nazirinin Bakı kontorasının təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan mətlub [istənilən] məqsəd üçün bu vaxtadək Nəzarət ixtiyarında olan 197690 manata əlavə olaraq 115 min manat da buraxılsın.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Azərbaycan Cümhuriyyəti ünvan-təqvimi nəşri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ümuri-Xeyriyyə və Nafiə nazirinin təqvim nəşrindən ötrü 122 min manat buraxılması haqqında məruzəsi təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək 20 milyonluq fonddan 100 min manat buraxılsın.

*"Azərbaycan" təfriqəsi*

## TÜRK ULUS-OYMAQ BİRLİYİ

Mövzuyi-bəhsimiz olan irq birliyi qarelərcə [oxucular üçün] bir növ yenilik təşkil edib, heyrətlərinə səbəb olacağı şübhəsizdir. Lakin irq birliyi hər millət üçün yeni olsa da, türklər üçün yeni deyildir. Əski zamanlarda əzmineyi-qəblət-tarixdə [tarix öncəsi zamanlarda] belə türklər yer birliyi, irq birliyi ilə yaşamışlardır. Çin, İran kimi müəzzəm [böyük] və qəvi [qüvvətli] dövlətləri sarsıtmışlar, qarşılarına çəkilən səddi-Çinləri yıxıb bərbad etmişlər, yurdlarına, yerlərinə bir qədəm də olsun düşməni ayaq basmağa qoymamışlardır. Bu nöqtəni eyi düşünüb eyicə anlamaq üçün türklərin ən əski və ən qədim vəziyyətlərini, yaşayışlarını, tərzi-idarələrini nəzərdən keçirmək və ətraflıca düşünmək icab edir [lazım gəlir].

Asiyanın, bilxassə bütün dünyanın ən böyük və namdar [adlı-sanlı] millətədd [hesab] olunan türk əqvamı Şimali Asiyanın (Altay dağları) və İssık-Kul civarında nəşvü-nümaya [çoxalıb-artmağa, yayılmağa] başlamışlar. Mürури-zamanla [vaxt keçdikcə] bu nəcib ailə doğub-törəmiş, çoxalıb ötəyə-bəriyə yayılmışlardır.

Bu yerlərdə türklərdən irəli kimsənin təvəttün etdiyini [yurd saldığını] tarix qeyd etməyir. Fəqət ilk əvvəl türk milləti-nəcibəsinin sükunət və icrayi-hökumətini bütün ənənat [ənənələri] və təfərrüatı ilə göstərir.

Türklərin bu məmləkəti get-gedə pək mühüm vəziyyət almış, fövqəladə genişləmişdir. Böylə ki, türk məmləkəti şərqən Bəhri-mühiti-kəbir [Sakit okean] və Japon dənizinə, qərbən Baltik və Qara dənizə, cənubən Qafqaziya, Himalaya və Hindukuş dağlarına və Moğolistan çöllərinə, şimalən Sibiryanın ən intəhasında olan Bəhri-mühiti-müncəmidi-şimaliyə [Şimal Buzlu okeana] qədər uzanmışdır.

Zənnimizcə, bu hüdudun zikri, yəni dörd tərəfin adlarını yazmaq əksəriyyətin fikrində inkisafat vücuda gətirməyəcək, düşüncəni də pək qısa, pək məhdud bir vəziyyət altına alacaqdır. Binaənileyh [ona görə], məhdudiyyəti bütün qaldırmaq, açıq bir ölçü, aydın bir statistik göstərmək məcburiyyəti hiss olunur.

Bu böyük məmləkətin hüdudu daxilindəki ərazi və nüfus [əhali] Rusiya tərə-

findən bu növlə təqsim olunaraq [bölünərək] bir cədvəl təhtinə [altına] alınmışdır:

| Qitələr [ərazilər] | Yerlərin miqdarı mürəbbe-kilometro [kvadrat kilometr] ilə | Nüfus [əhali] |
|---|---|---|
| Sibirya (Zaqafqaziya müstəsna) | 51.169.000 | 32.305.000 |
| Mançuriya | 324.000 | 7.500.000 |
| Moğolistan | 3.543.000 | 2.000.000 |
| Tibet | 1.200,000 | 1.000.000 |
| Sen-Zan* | 426.000 | 1.000.000 |
| Avropayi-Rusi (Lehistan müstəsna) | 5.447.947 | 122.500.000 |
| Fin boğazından Azaka [Azova] qədər | 4.416.908 | 75.500.000 |

Rus Qamusi-Kəbirindən [Böyük Rus Ensiklopediyasından] və Asiya xəritələrindən pək də naqis və bəzi yerlər müstəsna olaraq toplanan bu təqribi statistikdən, məzkur [deyilən] hüdud daxilində 31.936.855 mürəbbe-kilometro ərazi, 23.305.000 nüfus olduğu anlaşılır. Bu qədər əhalini bəsləyəcək ərazi, müqəddəs yurd, qiymətdar ölkələr, başabaş türklərin məmləkəti idi. Bu ucağı-bucağı bilinməz məmləkətin hər tərəfinə türk yayılmışdı, hər bir cəhətində türk qəhrəmanları yaşayırdı. Bu tükənməz məmləkətin bu başından o başına türklər neçə ilin müddətində varıb çıxa bilmişlərdir. Şimdi bu böyük türk ölkəsinin içərisində yüzlərcə Moskov, Peterburq və nəhayətsiz səhraları ortasında Tomsk, İrkutsk, Vladivostok, Xabarovsk, Semipulat [Semipalatinsk] kimi zəngin, böyük və mühüm şəhərlər binalanmışdır. Bütün ətraf və civarına dünya uzunluğunda dəmiryollar çəkilmişdir. Rus, fransız, alman və ingilis kimi dövlətlər bu [yurdun] gərək sənaye və gərək ticarətindən hesabsız istifadədə bulunurlar, dürlü-dürlü siyasətlər yürüdürlər, nüfuz icra edirlər. Halbuki türklər quşlar uçmaqla qurtara bilməyən bu böyük məmləkətdə yaşadıqları, hökmranlıq etdikləri, fatehlər bəslədikləri, qazilər yetişdirdikləri zamanda məzkur [adı çəkilən] millətlərin nərələrdə bulunduqları məlum deyildi.

Türklər bu böyüklükdə məmləkəti müəzzəm imperatorlar və şiddətli qanunlarla idarə etməyirlərdi. Sadə bir cümhuriyyət demək “ulus və oymaq birliyi” ilə idarə edirlərdi. Hər ulus və hər oymağın bir rəisi olardı. Bu rəislər arasında vüqusu [baş verməsi] ehtimal edilən münazië [çəkişmə] və münaqişənin önünü almaq və üzərlərinə hücum edəcək düşmənləri dəf etmək üçün aralarında “anda” deyilən bir üsul icra olunurdu.

Bu “anda” üsulunu türklər qayət mühüm tutarlardı. Ata bir, ana bir qardaşların arasında ixtilaf törəsəydi də, “anda” üsulu ilə qardaş olanların münaziəsi olmazdı. Türklər “anda”nı qayət sadə bir üslub, fəqət əsas etibarilə pək mətin bir sədaqət üzrə qəbul edərlərdi.

Məzkur üsulu icra üçün “ulus” və “oymaq”ların rəisləri bir yerə toplanıb bir taqım şahidlər hüzurunda qollarından bir damar yararlar, qanlarını bir fincan içinə axıdarlardı. Və o qanı südə ya qımıza qarışdıraraq rəislər içərlər və “anda” olurlardı. Mərasimi-məxsusə ilə icra olunan “anda” qərabəti-həqiqiyyədən maəda [həqiqi qohumluqdan əlavə], bir də qərabəti-rəfaqət [yoldaşlıq bağı] vücuda gə-

* Tibet ilə Moğolistan arasındadır.

tirərdi ki, hər ikisi doğma qardaş dərəcəsində tutular, qövm və qəbilələri, xısm və əqrəbaları arasında sayılarkən, fərq olunmayaraq eyni imtiyaz, eyni hüquqa məzhər [nail] olarlardı və buna "qan yalaşdılar, qarındaş oldular" deyilərdi. "And içmək", "qanı isti", "qanım qaynadı" kimi təbirlər qədim[dən] qalma adətlərimizdəndir.

Qan yalaşıb qardaş olmaq adəti zamanımızda Qərb türklərində yoxsa da, çocuqlar arasında qollarını iynə ilə qanadaraq içmək hələ də mövcud və məşhud olur [görülür]. Bu qardaş olmaq yalnız çocuqlarda qədim xatirə olaraq qalmamış, ədəbiyyatımızda belə hifz edilmişdir. O cümlədən İkinci Sultan Bayəzid həzrətlərinin dövrü şüərasından [şairlərindən] Məsihi sədrəzəmi-şəhid [şəhid baş vəzir] Əli paşa haqqında yazdığı mərsiyəsində demişdir ki:

*Sübh dəm bir əcəb uğraş oldu,*
*Hər tərəf nəreyi-şabaş oldu,*
*Dili-Paşa ilə peykani-ədu,*
*Qan yalaşdı vü qarındaş oldu.*

Yenə Sultan Səlimi-əvvəl [I Səlim] həzrətləri dövrünün şüərasından Ahi dəxi bir qəzəlinə mətlə olaraq yazmışdır ki:

*Oxların can almağa tirinlə yoldaş oldular,*
*Sinələrdə qan yalaşdılar, qarındaş oldular.*

Əski türklər o namütənahi məmləkətlərini düşmənlərdən salim saxlamaq üçün bu surətlə Amerika Cəmahiri-Müttəhidəsinə [Amerika Birləşmiş Ştatlarına] bənzəyən ulus və oymaq birliyi ittixaz [tətbiq] etmişlərdi. Bu birlik sayəsində o vaxtlar dünyanın ən qəvi, ən müəzzəm dövləti olan Çini alt-üst etmişlər. Qarşılarında nə "Yanq" və "Şanq"ın sədləri, nə də Çin "Şi Huanqı"nın 3600 kilometrə uzunluğunda, altı süvari yan-yana gedə biləcək endə yapılmış Səddi-Çini davam edə bilirdi. Dəhşətli hücumlar qarşısında aciz qalan çinlilər axırda türklərlə qız alıb-verməklə mehriyyət peyda etməyə məcbur olmuşlardır.

Türklər "ulus və oymaq birliyi" ilə əsgərliyə var qüvvələrini sərf etmişlərdi. Zira bir kərə anlamışlardı ki, yaşayışı halitəbiisindən xaric etməməli, milyonlarca insanı "mənəmlik" sevdası yolunda verməməlidir.

Məqbul [bəyənilmiş, qəbul edilə bilən] bir üsulun ittixazı ilə bütün türk irqlərini bir bayraq altına toplamalıdır.

Odur ki, iyirmi əsrlərdən ziyadə müttəhid [birgə] hökumət sürən və müdhiş hücumlarda bulunan türklərin torpaqlarına bir nəfər də olsun əcnəbi ayaq basammazdı. Gərək çinlilər, gərək iranilər bu böyük məmləkətin övzasından [vəziyyətindən] bütün-bütün xəbərsiz qalırlardı. Türklərin cəngavərliyini, sarsılmaz əzmlərini, dönməz üzlərini, bükülməz qollarını və ardı-arası üzülməyən hücumlarını görən çinlilər, iranilər onlara dürlü-dürlü adlar verirlərdi.

Məsələn, miladdan 2000 sənə müqəddəm [qabaq] hökumət sürməkdə olan Çin imperatoru Yaonun zamanında türklər "şan yunq", yəni dağ barbarları, Çinin birinci imperatorluq sülaləsi Hi-Yanın əsrində "çunq yu" təsmiyə edilmişdi [adlandırılmışdı].

Şan sülaləsi türklərin ölkəsinə "guvei tanq", yəni "cinlər məmləkəti" deyirlərdi. Çao sülaləsi dövründə isə "hidn yun", nəhayət Han sülaləsi vaxtında "hiunqnu", yəni "asi əsirlər" adlanmışlardı.

İranilər "aftalit" (bəyaz hunlar), qreklər "iskit", normanlar "fin", daha sonra ərəblər çinlilərin "cuin-cuin" təbirlərini tə'rib edərək [ərəbləşdirərək] "yəcuc-məcuc" adlandırmışlardı.

20-30 əsrlərlə davam edə gələn bu türk cəmahiri-müttəhidəsi [birləşmiş dövlətləri] miladdan 100 sənə əvvəl dəhşətli Çin hücumuna məruz qalmış, Çin ordusu türk ölkəsinə girmiş, "türk ulus-oymaq birliyi"nin rabitəsi qırılmışsa da, türk hökuməti münqəriz [məhv] olmamışdır.

Fəqət aralarına düşmən soxulduğundan ikiyə təqsim edilmişlər [bölünmüşlər]. Çinlilər bunların birinə "Şərq hiunq-nuları", digərinə "Qərb hiunq-nuları" deyirlərdi. Artıq "türk ulus-oymaq birliyi" bitmiş, yerinə imperatorluq qaim olmağa [möhkəmlənməyə] başlamışdır.

*Bakı, 2 ağustos 1919*
*Ə. Müznib*

## İZÇİLİYƏ DAİR

**-2-**

### İzçilərin adəti borcları

*Vətən*

İzçi vətəninə doğru və dərin bir məhəbbətlə bağlıdır. Vətənini alovla sevərək onun yolunda qurban etməyə hazırdır. Onun böyük və gözəl, daha artıq böyük və gözəl olmasına var gücü ilə çalışmalıdır.

*Namus*

Namus vicdan aynasıdır. Cavan izçinin namusu həmişə təmiz olmalıdır. Onun eyi və fəna işləri şu vicdan aynasında görünməlidir. Onun borclarından biri də hər gün insanlara kömək etməkdir. Şu borc izçinin namusu borcudur. Buna əməl etməyən bir izçi boş, xeyirsiz bir qoza oxşar.

*Vəd*

Məcburi olmayaraq izçinin özü tərəfindən verilmiş vəd dəyişdirilməzdir. İzçinin sözü, verdiyi vədi qranit[ə] qiyasdır [bənzər]. Onun sözü ən şərəfli yəminə bərabərdir.

*Qardaşlıq və dostluq*

Bütün dünyanın izçiləri bir-birləri ilə qardaşdırlar. Bütün izçilər insanlara yalnız olmayaraq, heyvanlara [da] dostdur. Bir çocuğa, bir qocaya, yaxud bir qadına kömək etmək üçün onlar həyatın hər yolunda fürsət arayarlar və bu fürsəti bulub sevinərlər. Dilәkləri "Hazır ol!" olduğu üçün həyatın hər hadisəsinə, gündüzün, gecənin hər vaxtında hər əsl izçi hazır olmalıdır.

*İtaət*

Hər izçi məcburi olmayaraq cavan izçilər ordusuna daxil olub bununla bərabər öz arzu, öz istəklərini ümumi faydaya itaət edir. Bunun üzərinə də iştə bütün dünya izçilərinin adəti itaətləri bənd olmuşdur. Ümumiyə itaətlik olunmazsa, itaət olmazsa, ən möhkəm daş – torpağa və ən hündür qaya – kiçik daşlara dönər. Hər izçi, hər izçiliyə alışmış bunu anlayır və anlamalıdır.

*Arzu*

İzçinin arzusu bərk çəkilmiş ox kimi

olmalıdır. Oxun ucu izçinin öz əlində olmalıdır. Kəndisini asan və məmnunluqla öz borclarına əməl etməyə hər izçi məcbur etməlidir.

*Libasın, bədənin və ruhun təmizliyi*

Bütün dünyanın izçiləri xoş gəlməsi, gözəl libas geyərlər. Çirkin izçi daha izçi deyildir. İzçinin libasının təmizliyinə və xoş gəlməsinə onun bədəni təmiz olmalı və bədənin təmizliyinə onun ruhu təmiz olmalıdır. Təmiz, xoş gəlməsi libasda – təmiz, xoş gəlməsi bədən və təmiz, xoş gəlməsi bədəndə – təmiz, gözəl bir ruh olmalı. İştə bir şey bu nöqtəyə bütün dünyanın izçiləri yürüyürlər.

*Ruhun parlaqlığı*

İzçi parlaq ruha malik olmalıdır. Heç bir hadisədə ruhdan düşməmək, ağır dəqiqələrdə islıq çalmaq, əziyyətdə gülümsünmək, qaranlıq gündə günəşin işığı kimidir. Kefsiz vaxtlarda gülümsünməyi bütün izçilər öyrənirlər.

*Ədəb*

İzçiyə onun ürəyinin qiymətli tərəfi və onun əxlaqının qaydası olduğu ədəb ona mənsub olmalıdır. Ədəblik kəndikəndinə bir nəzakətlikdir.

İştə bu, izçilərin adəti borclarıdır. Hər kəs bunu oxur, izçilik nə qədər gözəl, nə qədər fəna olduğunu anlar. İzçinin insanlığının bir hissəsi bir gözəl parçasıdır. İzçinin vətəni sevməkliyi, ruh, bədən parlaqlığı, onun qardaşlığı və ilaxır bütün cahanı heyrətə salır. Sair məmləkətlərdə izçilik o qədər böyümüş ki, bütün işlərini, bütün yanğını söndürməyi, dəniz sahilində növbətçilik etməyi, hətta öz vətənini düşməndən mühafizə etməyi izçilər özləri yapırlar. Yalnız bir İngiltərə hərb başlancağı 50 minə kimi, 50 mindən də ziyadə izçi bölük böyükləri, izçi komandanları könüllü yazıldılar. Fəqət ingilis izçiləri kəndilərini itirmədilər. Özlərini idarə etməyə çalışdılar. Qaraqolbaşılar bölük böyüklüyünü, digər artıq sinli [yaşlı] izçilər qaraqolbaşlığı əllərinə aldılar və şimdi də onu yeridirlər.

Fəqət bir neçə kəslər vardır, deyir: "İzçi əsgərə çox yaxındır. İzçilik əsgərliyə hazırlanmaq mənasındadır. İzçi hərbsevəndir."

Fəqət babamız söylədiyi "Hərb tərəfdarı deyiliz, sülh tərəfdarıyız" sözlərini təkrar edərək deyərdim: "Biz hərb sevmiriz, yalnız sülh və asayiş seviriz."

Onu da danmayıram ki, izçi vətənini sevərək vətənini mühafizə etməlidir. Fəqət kimsələr söylər: "İştə, bundan izçinin əsgərliyə yaxın olduğu anlaşılır."

Xayır! – söylədim, izçi öz vətənini, öz millətini, öz heysiyyətini müdafiə, mühafizə etmək üçün hərbi şəxs ola bilər.

Kəndim Gəncədə izçi bölüyünü təşkil etmək üçün çox çalışdım. Amma ki bir neçə şeylər qabağımı kəsdi, fəaliyyət etməyə qoymadı. Şimdi möhkəm bir arzuda olaraq şu bölüyü türk milləti arasından başlayaraq var qüvvətimlə bir neçə yoldaşlarımın köməyi ilə onu Gəncədə təşkil etməyə çalışacağam.

Fəqət unutmayalım ki, izçilik hərb tərəfdarı deyildir.

*İzçi M.R.*
*25 təmmuz sənə 1335, Gəncə*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

- 39-cu Hindu briqadasının Britaniya komandanlığına müraciətən Bələdiyyə İdarəsi məlum etmişdir ki, Bələdiyyə İdarəsi ilə Rozinov Qardaşları miyanında [arasında] əqd edilmiş müqavilənamə mövcibincə [müqavilənaməyə əsasən] 10 günədək bütün konka dəmir yolunun əşyasını həman icarədara verməlidir. Halbuki konka dəmir yolunun 13 odası və kontorası hindu əfradı [əsgərləri] tərəfindən tutulmuşdur. Bələdiyyə İdarəsi rica etmişdir ki, işbu ağustosun 12-dək odalar boşa[l]dılsın.

- Bələdiyyə İdarəsi Bakı qradonaçalnikinə müraciətən məlum etmişdir ki, konka yolları icarəyə verildiyindən dolayı bütün imarəti-mənqulə və qeyri-mənquləsi də [daşınan və daşınmaz malları da] məzkur [adı çəkilən] icarədarlara verilməlidir. Halbuki sabiq konka xidmətçiləri şimdiyədək konka yoluna mənsub evlərdə yaşayırlar. Bələdiyyə İdarəsi rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunulsun.

- Bələdiyyə İdarəsi tərəfindən xüsusi bir komisyon təşkil edilir ki, mənzil kirayəsi ilə möhtəkirliklə mübarizədə bulunsun. Komisyonun birinci müşavirəsi bu günlərdə iniqad edəcəkdir [baş tutacaqdır].

**Quliyevin dəyirmanında**

Başqa dəyirman xidmətçilərinin məvacibləri artdığı halda, [Ağabala] Quliyev dəyirmanı fəhlələrinin məvacibləri artmadığı kimi, qəbul edilmiş məvacibi müdiriyyət qəbul etmək belə istəməyir. Kəsbkarlar [Həmkarlar] İttifaqı müdiriyyətə müraciətən məlum etmişdir ki, məvaciblər qəbul edilməzsə, İttifaq tədabir ittixazına şüru etmək [tədbir görməyə başlamaq] məcburiyyətində qalacaqdır.

## "Müsavat"da

**Əmələlərə ərzaq**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin təşəbbüsü ilə Balaxanı mədən dairəsi əmələlərinə ərzaq paylamaq üçün "Müsavat"ın Balaxanı şöbəsi tərəfindən Nadir Kazımzadə vəkil intixab edilmişdir [seçilmişdir].

**Qətl**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın İstixbarat [Xəbər] şöbəsinə xəbər verilmişdir ki, iranlı Əbdülqasım Həbib oğlu lənkəranlı Yusif Zülfüqar oğlu tərəfindən güllə ilə qətl edilmişdir. Firqə xəbəri lazımi yerinə bildirmişdir.

**Suraxanıya ərzaq**

Suraxanı əmələlərinə ərzaq paylamaq üçün "Müsavat" firqəsinin Suraxanı şöbəsi tərəfindən 5 nəfərdən ibarət bir komisyon intixab edilmişdir.

**Qara şəhərə ərzaq**

Qara şəhər əmələlərinə ərzaq paylamaq üçün "Müsavat" firqəsinin Qara şəhər şöbəsi tərəfindən xüsusi heyət təşkil edilmişdir.

**Balaxanı-Sabunçu polismeysteri**

Dəmiryolunda çalışan türk əmələləri

“Müsavat” şöbəsi bürosunda iclas edərək Balaxanı-Sabunçu polismeysterinin istefa verəcəyi məsələsini müzakirə etmişlər və qərar qoymuşlar ki, Balaxanı-Sabunçu polismeysteri Səməd bəy Əliisgəndərovun istefasına etiraz etsinlər.

**Mövqifdə “Müsavat” şöbəsi**

Azərbaycan dəmiryolunun birinci Bakı mövqifində [stansiyasında] Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın şöbəsi təşkil edilib heyəti-rəyasət seçilmişdir.

**Köhnə donoslar**

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın İstixbarat şöbəsinə 1904-1905-ci illərdə verilmiş bir çox donoslar daxil olmuşdur. Donoslarda Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə və Süleyman bəy Əzimzadə, Əlimərdan bəy Topçubaşov və bir çox bu kimi millət xadimlərinin adları zikr olunur və fəaliyyətləri xəbər verilir.

Rus və Osmanlı inqilabı haqqında “Difai” komitəsi tərəfindən buraxılan intibahnamələr [vərəqələr], “Füyuzat” jurnalının məqalələri Vəlizadə nam [adlı] bir şəxs tərəfindən tərcümə edilirmiş.

Həmçinin Azərbaycan məktəblərində rus lisanının zəif keçməsi jandarma idarəsinə xəbər verilib çarəsi rica olunurmuş.

Ondan başqa, Tağıyevin ianələr verməsi, müsəlmanların İran və Osmanlı ilə münasibəti, ictima [yığıncaq] və Məkkəyə səfərləri birər-birər jandarma idarəsinə xəbər verildiyi donoslardan aydın görünür.

“Müsavat” firqəsi donosları tərtibə salmağa məşğuldur.

**Qamçılar**

Türk Ədəmi-Mərkəziyyət firqəsi polis məmurlarının əlindən qamçı-tatarıların alınması haqqında lazımi yerinə müraciət etməyi təhti-qərara almışdır.

**Balaxanıda leksiya**

Keçən həftə Balaxanı kəndində “Müsavat” tərəfindən Abbasqulu Kazımzadə leksiya oxuyacaqdı. Fəqət vaqon yolda xarab olduğundan leksiya təxirə düşmüşdü. İndi həmin leksiya cümə günü təkrar olacağı elan olunur.

**İrəvan qaçqını**

İrəvan quberniyasının Qəmərli əhli Abbas Hacı Rza oğlu “Müsavat” firqəsinə müraciətən bir xidmət istəmişdi. “Müsavat” o barədə Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciət eyləyib müvafiq cavab almışsa da, Abbas əfəndini tapammayır. Ona görə həmin qaçqından Nəzarətə müraciət etməsi rica olunur.

**Fəhlə həyatı**

Dövlət Əlibaba oğlu nam bir fəhlə işdən qovlanıb məvacibi də verilmədiyindən, “Müsavat”ın Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsinə müraciət etmişdi və onun vasitəsilə məvaciblərini almışdır.

**Musa Nağıyevin mədənində**

Balaxanıda Musa Nağıyev mədənində əmələlərlə müdiriyyət arasında vaqe olan ixtilaf “Müsavat” firqəsinin Müsalihə və Mürafiə şöbəsi sayəsində bərtərəf olmuşdur [aradan qaldırılmışdır].

* * *

**Təbəiyyət Qanunu**

Ağustosun 4-də baş tutmayan Azərbaycan Parlamanı iclasının yövmiyyeyimüzakiratına [müzakirə gündəliyinə] Azərbaycan üçün Vətəndaşlıq Qanunu (Təbəiyyət Qanunu) idxal edilmişdir.

**Qaçqınlara iş**

Beş qaçqın Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciətən münasib bir xidmət istədiklərindən, Cəmiyyət Bakı mühafizə əsgəri idarəsinə yollamışdır.

**Cəmiyyəti-Xeyriyyənin fəaliyyəti**

Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bakı Cəmiyyəti-Xeyriyyəsinə müraciətən nə üsul ilə, nə kimi təşkilatlar vasitəsilə camaata müavinət etdiyi haqqında və müavinət etdiyi camaatın müfəssəl siyahısı olub-olmadığı barəsində müfəssəl məlumat tələb etmişdir.

**İngilislər Qafqaziyada qalacaqlarmı?**

Mövsuq [etibarlı] mənbələrdən alınan məlumata görə, Azərbaycan və Gürcüstan cümhuriyyətlərinin siyasi dairələrində ingilisləri Qafqaziyada saxlamaq qət edilmişdir [qərara alınmışdır]. Bu barədə iki dövlət nümayəndələri Müttəfiqlər nümayəndəsi general Kori ilə dəxi görüşmüşlər imiş.

**Qazmaçı məktəbi**

Azərbaycan Cümhuriyyətinin Gəncədə olan Qazmaçı məktəbi Bakıya köçürülmüşdür. Məktəb həmişəlik Bakıda qalacaqdır.

**Xidmətdən əzl**

Bakı qubernatoru Rəşid bəy Axundzadə ilə vis-qubernator Müseyib Axıcanova vəzifə başından çəkilmək təklif edilmişdir.

**Şəhər idarəsinə borc**

Şurayi-Vükəla [Nazirlər Kabineti] Şəhər İdarəsinin 25 milyon borc istəməsi məsələsini Parlamana daxil etməyi qərara almışdır. O vaxta kimi 5 milyon qabaqca veriləcəkdir. Bu şərtlə ki, bu borcu Şəhər İdarəsi 50 milyonluq istiqrazi-daxiliyyədən və pud vergisini intizama salandan sonra versin.

**Bakı-Lənkəran-Astara**

Bu vaxta kimi əhvali-fövqəladədən dolayı Lənkəran ilə Azərbaycan Astarasına paroxod hərəkəti yox idi. Aldığımız məlumata görə, bu günlərdə bu şəhərlər arasında da paroxod münasibəti başlanacaqdır.

**Varid olmuş mallar**

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarətinin Statistika şöbəsinin verdiyi məlumata görə, avqustun 2 və 3-də Bakıya bu qədər mal daxil olmuşdur:

taxıl 1631 pud;
furaj [yem] 2676 pud;
qənd 238 pud;
odun 4750 pud;
manufaktura 17 pud.

**Birjada**

**Pul**

Kurs əhvalı düşkündür. Faiz 14-15 qədər enmişdir. Zaqafqaziya bonları 3-4 %, Kerenski minliklər 1275 manatdan 1450 manata, 250 manatlıqların mini 1200 ma-

nata, xırdalar 18 %. Osmanlı lirəsi qalxmışdır, qiyməti 410-420 manata. Funt, banknot 365 manata, çek 315 manata. İtaliya lirəsi 13 manata, frank 18 manata, çek 13 manata.

**Ticarət bazarı**

Şəkər 1000-1100 manata, ingilis şəkəri 1075 manata, kürü 2250 manata, boçka kürüsü 2750 manata, spiçkanın [kibritin] qutusu 1175 manata satılır. Tiflisdə papiros 50 % artdığına görə papiros qiyməti qalxmışdır.

## AZƏRBAYCANDA

**Gəncədən**

1919 sənəsi 1 təmmuzda Azərbaycan Hökumətinin Maarif Nəzarəti əmri ilə Azərbaycanın hər yerində iki aylıq müəllim və müəllimələr üçün təlim və tədris kursları açıldığı kimi Gəncədə dəxi açıldı. Kursun haiz olduğu [daşıdığı] əhəmiyyət ümum tərəfindən anlaşıldığından, hər tərəfdən müdavim və müdavimələr toplanmağa başlandı. Az bir zaman içində kursa öylə bir axıntı oldu ki, qəbul etməməyə məcbur oldu.

Maarif Nəzarəti tərəfindən Gəncədə güşad edilmiş [açılmış] kursa yüz müdavimə para buraxılmağına görə yüzdən artıq müdavim və yaxud müdavimə qəbul olunmamağı qət edilmişdi. Fəqət Gəncə qəzasının Maarif müfəttişi Cavad bəy Cuvarlı cənabları gəlmiş müdavim və müdavimələri məyus geri qaytarmayıb yüzünü hökumət parası ilə və qalanlarını həvəskar olaraq kursa daxil etmiş və onlara demiş ki:

*"Qardaşlar, bacılar, sizin həvəskar olaraq iki aylıq müəllimlik kursunda təhsil edib millətinizin gələcək səadətlərini aramanız sizin üçün zəhmət də olsa, millətiniz üçün böyük xidmətlərdir. Lazımdır ki, millət yolunda varımızdan, canımızdan keçək. Mən təvəqqe edib deyirəm ki, özünüzü həvəskar hesab edib iki aylıq təlim-tədris kurslarında ciddi çalışıb millət balalarının xoşbəxt olmaları üçün hər dürlü zəhmətlərə girişəsiniz. Gəncə kursunda nəzərləri cəlb edəcək bir şey varsa da, o da müəllimə xanımların çox olmalarıdır. Həmd olsun Allaha ki, millətimiz maarifin qədrini anlayaraq var qüvvələri ilə çalışırlar. Və bu çalışmalarının sayəsində həvəskarlara "qənaət summalarından" para buraxılması vədə verildi. Millətimiz bunu bilməlidir ki, 9 ay məktəblərdə çalışıb başlarını yoran müəllim, müəllimələr üç ay yay tətilinə möhtacdırlar. Fəqət müəllim, müəllimələr istirahəti geri ataraq çalışmaq borcları olduğunu anladılar, çalışmağa başladılar. Qardaşlar, bunu bilməlisiniz ki, yayın istisində hər gün sabah saat 7-dən başlayaraq saat 3-də qurtarmaq böyük bir əziyyətdir."*

Cavan hökumətimizi müəllim, müəllimələrimiz yaşatmaq istəyirlər. Bunların belə çalışmaların[ı] görən əfəndilər ikiqat çalışmağa başladılar.

Ələlxüsus Cavad bəy Cuvarlı cənabları ümum müfəttişlik işlərinin, hətta müdavim, müdavimələrin zəhmətlərinə qatışmış, bununla bərabər, pedaqoji və tarixi-təbii müəllimləri tapılmadığına görə Cuvarlı cənabları bu ağır vəzifəni də öhdəsinə götürərək çalışmağına davam etmişdir. Daima kəndi nitqində müdavim, müdavimələrə deyir:

*"Əfəndilər, bizim üçün istirahət lazım deyil. İstirahəti atalım da, fəqət bizdən sonra gələn övladımızın gələcək istirahəti təmin olunsun."*

*Mirsüleymanzadə*

## Qubadan

### Əksinqilab ilə mübarizə

Sərhəd boyundan bu günlər məhəlli-məmuriyyətinə [iş yerinə] Qubaya övdət etmiş [qayıtmış] qaimməqam [Əmir xan] Xoyski əfəndi övzadan [vəziyyətdən] xəbərdar olmuş və bir qaç əksinqilabçılıqda və Denikin casusluğunda ittiham edi-lən xainləri həbsə almışdır. Mövsuq [eti-barlı] mənbədən öyrənə bildiyim məlu- mata görə, əksinqilabla şiddətli müba-rizə etmək üçün heç bir vəsilədən çə-kinməməyi qaimməqam əfəndi təhtiqərara almışdır. Cənabi-Haqq müvəffəq buyursun.

### Qubernator namizədi

Şəhərdə dövran edən şayiələrə və hökumətə yaxın dəvairdən [dairələrdən] ala bildiyim məlumata nəzərən, Quba qaimməqamı Əmir xan Xoyski həzrətləri bu yaxın günlərdə Bakı qubernatorluğuna təyin ediləcəkdir. Xoyski əfəndi fəal, həmiyyətpərvər, namuslu olduğu kimi, millət və vətənini çıldırarcasına [dəlicəsinə] sevən, xain və cinayətkarların rəhm-siz düşməni olan bir zatdır. Böylə bir vücudun qubernatorluq kimi ali mənsəbə təyin edilməsi vilayətimiz daxilində asayiş və nizam və sağlam bir sulta görmək arzu edənləri şad və məmnun etsə gərəkdir. Xoyski əfəndinin qubernatorluğa təyin edilməsi ilə Bakı quberniyası polisində bir çox təbəddülat [dəyişiklik] vücuda gələcəyini yəqin etməlidir.

*H[üseyn] R[za Məhəmmədbəyli]*

## GÜRCÜSTANDA

### General Baratov

"Qruziya" qəzetəsinin mühərriri Gürcüstan Xariciyyə naziri Gegeçkoriyə müraciət edib, general Denikin nəzdində olan xüsusi şura tərəfindən məlum olduğu üzrə Tiflisə gəlmiş olan general Baratov ilə nə cür müzakirat olacağı sualını vermişdir. Gegeçkori cavab vermişdir ki, bu barədə cavab verə bilməz, çünki general Baratov hələ onun yanına gəlməmişdir və Gürcüstan hökumətinə də elə bir təklif eyləməmişdir.

* * *

Gürcüstan Məclisi-Müəssisan fraksiyalarının general Baratovun Tiflisə gəlməsinə nə nəzərlə baxdıqlarını "Borba" qəzetəsi belə yazır: Məclisi-Müəssisanda olan Eser fraksiyası üzvü Qobeçiya bu suala böylə cavab verir: General Baratovun Denikin namından siyasi təklif edə biləcəyinə nə tövr baxılması məsələsi Məclisi-Müəssisan fraksiyalarında hələ müzakirə edilməmişdir. O ki qaldı bu məsələ haqqında xüsusi mübadileyi-əfkara [fikir mübadiləsinə], bu barədə bədbinanə nəzər müşahidə edilir. Parlaman dairələrinin əhvali-ruhiyyəsi böylədir ki, Dabravol ordusunun nə siyasi platforması, nə

də onun Gürcüstan istiqlaliyyətinə münasibəti heç bir cəhətlə ümid vermir ki, tərəfeyn arasında ümumi bir dil olsun. Təsəvvür edilən müzakirat status-kvo qanununu riayətlə sırf istixbarat mahiyyətini haiz olarsa [daşıyarsa], təminat verilmək şərtiylə bəziləri tapırlar ki [bu fikirdədirlər ki], bu yolda müzakiratın əleyhinə bir söz söyləmək olmaz.

İrəvan şəhərində yaşayan müsəlmanların halı o qədər fənalaşmışdır ki, biçarələr küçəyə çıxmaqdan ehtiyat edirlər. Bir para işlər üçün Azərbaycana gedən İrəvan müsəlmanları İrəvandan məktublar alırlar ki, geri qayıtmasınlar. Çünki İrəvan şəhərinin dinc müsəlman əhalisi bu axır vaxt bir ixtilaf törəyə biləcəyini gözləyirlər.

## ERMƏNİSTANDA

### Ermənistan Müdafiə Komitəsi

Ermənistanda Ermənistan Müdafiə Komitəsi təşkil edilmişdir. Bu komitəyə Ermənistan Hərbiyyə, Daxiliyyə naziri daxil olmuşdur. Komitənin sədri hökumət rəisidir. Komitənin ixtiyarı vardır ki, daha üç nəfər dəvət eyləsin. Komitəyə ixtiyar verilmişdir ki, icab etdiyi zaman Şurayi-Vüzəradan [Nazirlər Kabinetindən] sormadan müxtəlif binagüzarlıqda [sərəncamda] bulunsun. Yalnız sonradan Şurayi-Vüzəraya bu Komitə məlumat verəcəkdir.

### İrəvan quberniyasında

İrəvandan alınan mövsuq [etibarlı] xəbərlərə görə, erməni əsgərləri Naxçıvan və Şərur uyezdlərini tamamilə tərk etmişlərdir. Erməni əsgərlərinin ruhu o qədər düşmüşdür ki, əsgəri məmurlar onları müşkülatla cəbhəyə göndərməyə müvəffəq olurlar. Erməni əsgərləri xeyli ümidsiz və davamedici deyildirlər. İrəvan uyezdində bir çox mitinqlər vaqe olmaqdadır. Bu mitinqlərdə daşnak natiqləri əhalinin ruhunu qaldırıb milli ədavəti daha da şiddətləndirirlər. Bu təşviqata görə

## İRAN İŞLƏRİ

### Urmuda

Təbriz qəzetəsi yazır: Salari-Ehtişamın atlıları bu gün Urmu şəhərinə varid oldular. Əhali bunları şadlıqla istiqbal eyləmişdir [qarşılamışdır]. Sərdari-fateh və süvarilər gəlmədən əvvəl Urmiyədə buğdanın xalvarı 300 tümən idi, şimdi həştad tümənə qədər yenmişdir. Getdikcə qiymətlər əskilir. Çörəyin batmanı 25 qran ikən şimdi 1 tümən olmuşdur. Ət də 25 qrandan 15 qrana yenmişdir. Birinci zəruri şeylər bu minval getdikcə əskilməkdədir.

### Ərdəbildə

Burada neçə gündür ki, əmniyyət hasil olmuşdur. Qəvamül-vəzarənin təhtiidarəsində [tabeçiliyində] olan ordu əməliyyata başlayıb quldurlara şikəstlik vermişdir. Quldurların başçıları qətl edilib bir neçələri də təslim olmuşlardır.

### Təbrizdə

Cümə günü Təbrizdə Sipəhsalari-əzəm bağında böyük bir məclis tərtib verilib oraya şəhərin mötəbəranı, üləması də-

vət edilmişdir. Sipəhsalari-əzəm [Baş komandan] irad etdiyi nitqində demişdir ki, Vəliəhd Tehrana getdiyi üçün şimdi ümuri-idarə mənim əlimdədir. Əlbəttə, ağayan [ağalar, zadəganlar] mənə müavinətdə bulunmazsalar, təbiidir ki, arzu etdiyim nəticələrə nail ola bilmərəm. Ona görə də lazımdır ki, bir heyəti-ədliyyə intixab edilsin [seçilsin] və mən də Tehrandan bir hüquqşünas dəvət edəcəyəm ki, ədliyyəni idarə eyləsin. Əgər bundan sonra elat yəğmagərlik [quldurluq, soyğunçuluq] edərlərsə, onlara dəhşətli cəza verəcəyəm.

## EHTİYACIMIZ

Hökumətimiz köməkliyi ilə, bu gün diqqətlə baxılarsa, şəhərlərdə, qəsəbələrdə, hətta kiçikcə bir neçə yerlərdə dərslər oxunmaqdadır. Vətənimiz Xaldan qəsəbəsində də üç sinifli bir ibtidai məktəb bulunmaqdadır. Keçən sənə bizim Xaldan camaatının məzkur [deyilən] ibtidai məktəbi çox zəif keçmişdir. Çocuqlarımız nə oxumuş, nə qanmış, nə çalışmışdır. Müəllimimiz nə oxutmuş, nə çalışmış və nə də qandıra bilmişdir. 6 ay məktəbə yüyürmüş bir ehtiyat [hazırlıq] sinfi "A" nə imiş tanımayırlar. 4 sənə kənd məktəblərində oxumuş bir üç sinifli çocuq müəllim cənablarına etina etməyirlər. Dəlil; üç ay kurs görmüş bir müəllim ki, mədrəsələrdə mövludi-şərif oxumuş ola, 4 il üsuli-cədid görmüş bir çocuğa hesab, coğrafiya başa salmağa müqtədirdirmi, ya yox? Bu sənə hökumətimiz tərəfindən bizim Xaldan məktəbinə bir müqtədir müəllim və bir müqtədirə müəllimə təyin olunması biz şagirdlər tərəfindən istida [xahiş] olunur. Bizim dərdimizə çarə, məktəbimizə müəllim və müəllimə göndərilib biz naəlaclara çarə edərlər zənnindəyiz. Ehtiyacımız müəllim və müəllimədir.

*Şagirdlər nümayəndəsi: Mustafa*

## TEATRO VƏ MUSİQİ

### "Ölülər"

Ağustosun 4-də möhtərəm Mirzəağa Əlizadənin təhti-idarəsində türk aktyorlarının iştirakı ilə Mirzə Cəlil Məmmədquluzadənin məşhur "Ölülər" faciəsi mövqeyi-tamaşaya qoyuldu.

"Ölülər" faciəsi 1916-cı sənədə birinci kərə olaraq Bakıda oynandıqda Bakı mətbuatında bir gurultu qoparmış, böyük bir mübahisə meydanı açmışdı və mühərrirlərimizin əksəri bu mübahisələrə iştirak etmişlərdi. O zaman mübahisəyə iştirak edən mühərrirlər, başda "Yeni iqbal" və "Açıq söz" qəzetələri olmaqla iki tərəfə bölünüb, iqbalçılar "Ölülər" faciəsinin əxlaq cəhətini götürür, Kefli İsgəndər kimi gözüaçıq alim şəxsin o surətlə, xüsusən xalqımızın mənfur bildiyi kefli bir halda səhnəyə çıxmasını qəbul etməyərək onun mənfi tərəfini isbata çalışırdı. "Açıq söz"çülər isə "Ölülər"i yalnız sənət və səhnə nöqteyi-nəzərindən təhlil etməklə onun müsbət cəhətini iltizam edir, onun tənqid ediləcək yerlərinin Kefli İsgəndərin şəxsiyyətində olmadığını iddia edirdi.

Bu kərə "Ölülər" əsəri haqqında müsbət və mənfi bir şey yazmayacağız. Yalnız nə surətlə oynanmasından bir qədər bəhs etmək istəriz.

Bizim artistlərimizdə qəribə bir xasiyyət vardır. Bir əsər birinci kərə oynandıqda ona böyük əhəmiyyət verir, ciddiyyətlə hazırlanır, öz rollarına diqqət edirlər. Budur ki, Bakıda hər əsərin ilk kərə oynanılması müvəffəqiyyətlə başa gəlir. Sonradan həman əsər ikinci kərə oynandıqda artistlər bir qədər etinasız olurlar. Heç bir şeyə əhəmiyyət verməyir, nəticədə teatro tamaşaları, bir növ, soyuq keçir. "Ölülər" faciəsi də həmçinin ilk kərə oynanmasına nisbətlə bir qədər soyuq keçdi. Buna da səbəb bəzi qüvvələrin mövcud bulunmadığı ilə bərabər, artistlərin adətdən xaric bir surətdə "şarj" etdikləri idi.

Şeyx Nəsrulla rolunda Məhəmmədəli Sidqi əfəndi müvəffəq olammadı. "Ölülər" faciəsinin ruhu Kefli İsgəndər ilə bərabər Şeyx Nəsrullanın vücudundadır. Bu məsuliyyətli vəzifə artisti təzyiq etməkdə idi.

Şeyx Əhməd rolunda Mirzə Muxtar [Məhəmmədzadə] cənabları fəna deyildilər. Zatən Şeyx Əhməd öylə böyük bir iqtidar da tələb etməyir.

Hacı Həsən rolunda Abbas Mirzə Şərifzadə bəzi mübaliğəkarlıqda bulunmasaydı, qayət təbii çıxardı. Məmafih [bununla belə], yaxşı denilə biləcək bir halda oynaya bildi.

Kərbəlayı Fatma rolunda xanım Lizina büsbütün bərbad bir halda idi. Bu artistka türkcə də bilməyirdi. Müvəffəqiyyətsizliyi, bacarıqsızlığı da bundan nəşət edirdi [irəli gəlirdi].

Kefli İsgəndər rolunda Mirzəağa Əliyev birinci kərə oynadığı kimi yenə müvəffəqiyyətlə oynadı. Bu gün bizim səhnəmizdə Kefli İsgəndəri yarada biləcək bir artist varsa, o da Mirzəağa cənablarıdır. Kefli İsgəndər rolu müzhik [gülməli] olmaqla bərabər, olduqca ciddidir. Onun hər sözünün, hər hərəkətinin ayrı-ayrı mənaları var. Mirbağır ağaya qarşı "9 yaşında?!" deyib təkrar etdiyi cümlələrdə bir çox işarələr və kinayələr vardır. O kinayələr tamaşaçılar üzərində lazım gələn təsirləri buraxmalı idilər.

Bu gün bir artist öhdəsinə aldığı vəzifəni müvəffəqiyyətlə ifa etmək üçün ibtida həman əsəri bilməli, müəllifin bütün məqsəd və məramını, fəlsəfəsini, hankı nöqtələrə toxunmaq istədiyini anlamalıdır. Ancaq bunları bildikdən sonra həman işarə və kinayələrə istədiyi təsiri verdirə bilər. Mirzəağa Əliyevin iqtidar və məharətini, xüsusən İsgəndər rolundakı müvəffəqiyyətini etirafla bərabər, əfvlərinə məğrurən [bağışlayacağına inanaraq] demək istəyiriz ki, səhnədə təkrar edilən "9 yaşında?!" cümləl əri hərəsi bir şeyə işarə olduğundan, ayrı-ayrı mənaları olduğundan, məncə, müəllifin istədiyi nöqtəyə toxunulmadan keçildi.

İsgəndərin oyununda ikinci bir fəqərə [məsələ] anlaşılmadı. Son pərdədə bacısı Nazlı onu məcburən Şeyx Nəsrullaya vermək istədikdə kəndisinə üz verən müsibətdən dolayı özünü qardaşının qucağına atmaq istəyir. Lakin qardaşı onu qəbul etməyərək itələyir. Bəlkə, bacısı ilə şu müamiləsi [rəftarı] başqa dürlü olmalı idi.

Nazlı rolunda xanım Olenskaya yaxşı idi. Zeynəb də fəna deyildi. Hacı Baxşəli,

Hacı Kərim, Hacı Kazım, Məşhədi Oruc, Kərbəlayı Vəli rollarındakı Əliislam [Dadaşov], Darablı Rza, Mirpaşa [Sadıqov], Xəlil Hüseynov, Anaplı, ümumiyyətən, həddindən artıq "şarj" edirdilər. Bu şəxslər ayrı-ayrı tiplərdir. Bunları yek-digərindən təfriq etməlidir [bir-birindən ayırmaq lazımdır]. Lakin bu rollarda səhnəyə çıxan artistlər, demək olar ki, surətinə girdiyi tiplərin, şəxslərin heç əhvali-ruhiyyələrini təhlil etməmişlər. Hacı Baxşəlinin, Hacı Kərim, Hacı Kazım və sairənin necə bir təbiətə malik adamlar bulunduğunu dərk etməmişlərdir. Budur ki, onlardan Darablı, Anaplı bütün diqqət və fikirlərini şarj etməyə, səhnədə adətdənkənar hərəkətlər yapmağa bəzl [sərf] etdiklərindən, müəyyən bir tip göstərməkdən aciz bulunurdular. Məmafih üçüncü səhnədə Hacı Baxşəli ilə Kərbəlayı Vəlinin mübahisələri fəna çıxmadı.

Hələ özlərindən bir taqım münasibətsiz sözlər əlavə etmələri heç bir növlə bağışlanmayacaq bir hərəkətdir. Xəlil Hüseynovun əlavə etdiyi "Qəbirdən dirilib özü gələcək buraya" zənn edirəm, kitabda yoxdur. Habelə Əbülhəsən Anaplının "İngilisdən alan qatırını ver mənə" sözü səhnədə bir cinayət yapmaqdır.

Mirbağır ağa rolunda [Bağır] Cabbarov yaxşı idi. Habelə onda da şarj var idi. Hələ axırıncı pərdədə Nazlının əlindən çıxacağını bildikdə ağlaması bir qədər təsiri ixlal etdi [korladı].

Müəllim rolunda Mirzə Muxtar [Məhəmmədzadə] zəif idi. Birinci kərə bu rolda Əliəkbər Süheyli bəy müvəffəq olmuşdu. Məharət göstərmək bir rolun böyük və uzunca olmasında deyil, bəlkə qısa bir cümləni qayət gözəl və təbii bir surətdə demək olar. İştə, birinci kərə Süheyli, oyunun başlanğıcı olan işbu müəllimi adətən yaratmışdı.

Səhnədə bəzi tərtibatsızlıqlar da vardı. Hələ qulluqçu Zeynəb və sair arvadların son moda potin ilə səhnəyə çıxmaları təsiri pozurdu.

Ümumiyyətlə, teatro fəna keçmədi. Tamaşaçılar da özlərini yaxşı aparırdılar. Zatən bu kərə teatroya bir qədər seçmə (?) adamlar gəlmişlərdi.

*Kazımoğlu*

* * *

Təxminən bir ay yarım bundan əqdəm [qabaq] Suraxanıda Benkendorf şkolasında [məktəbində] "Köhnə Türkiyə" draması mövqeyi-tamaşaya qoyulacağı elan olunub və biletlər satılmışdı. Məəttəəssüf [təəssüf ki], məzkur [deyilən] tamaşanın sabiq müdirinin müvəffəqiyyətsizliyindən dolayı tamaşa göstərilmədi. Şimdi "Köhnə Türkiyə" əvəzində işbu ağustosun 8-də, cümə günü "Zorən təbib" komediyası göstəriləcəyi və "Köhnə Türkiyə"yə bilet alan möhtərəm camaatın həman biletlərlə cümə günü bu tamaşaya təşrif gətirə bilmələri elan olunur.

## İDARƏDƏN CAVABLAR

*Sənətçiyə cavab olmaq üzrə açıq məktub yazan əfəndiyə*: Sənətçinin tam məntiq üzrə yazılmış məqaləsini məntiqsizlik kimi göstərib də kəndiniz qayət də məntiqsizcəsinə rəftar edirsiniz. Fəqət sözün kütahı [qısası] yaxşıdır. O kişi yazır ki, biçiz

mütəallimlər nəfinə [yoxsul şagirdlər xeyrinə] müsamirə verdiniz, pul yığdınız, hesab verin görək necə oldu. Doğrudur, bizlər camaat tərəfindən hesab tələb olunmasına adət etmədik. Fəqət burası protesto ediləcək bir həqarət deyil ki, hesab vermək əvəzinə münaqişəyə başlayasınız. "Sənətçi" əfəndi tam nəzakətlə hesab tələb etmişdir. Və kimsə tapılmaz ki, böylə tələbə iştirak etməsin. Uzun-uzadıya təşəkkür və protestolar, tuli-tulani [uzun-uzadı] cavablar yazmaqdansa, beş sətir yaza bilərdiniz ki, mədaxil şu qədər, məxaric o qədər, nəyə filan qədər olmaq üzrə sırf hasilat filan qədər olmuşdur və filankəsə verilmiş, ya filan yerə tapşırılmışdır. Hesab tələb etməyə hamının haqqı var və hesab vermək müsamirə heyətinin borcudur, vəssalam.

*Tabaqçı əfəndiyə*: Birinci Yardım alayı haqqındakı məqaləniz dərc edilməyəcəkdir.

*Gəncədə İzçi əfəndiyə*: Yazıları kağızın bir tərəfində yazmağınız rica olunur.

*Salyanda "Xudu" imzası ilə yazan əfəndiyə:* Əvvəla, özünüzü idarəmizə bir yaxşı tanıtdırmalısınız. Saniyən [ikincisi], rusca yazı qəbul etməyiriz. Müxabirələriniz dərc olunmaq üçün mütləqa türkcə yazılmalıdır. İdarəmiz sizi yaxşı tanımadıqca adsız, yaxud nami-müstəarla [gizli adla] örtülmüş məqalələriniz heç vaxt dərc edilməz.

*Hüseynzadə əfəndiyə*: Məsələni çox da qurcalamaq lazım deyil. Onların məqsədi millətə, dinə, ya vətənə xidmət deyil, avam aldatmaq üçün bir nümayişdir. İki il əvvəl də etdilər. Başa vurmadılar. Yenə başa vurmayacaqlar. Müvəqqət bir çıxışdır ki, bir neçə politikaçıların göstərməsi ilə icra edilir.

**İtibdir**

İsmayıl Molla Yunis oğlunun 3-cü polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*7415*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78, 10-1-ədək.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Teleqraf xəbərləri

səh. 109. "5) Meydani-hərbdə inqilabçı hindlilər": qəzetdə 5'in yerinə də 4 getmişdir.

"Krasnı Yar tərəfdə": qəzetdə "Krasnı Yar" yerinə "Krasnoyarsk" getmişdir; Rusiyanın Volqoqrad vilayətinin Jirnovski rayonunda şəhərtipli qəsəbə olan Krasnı Yar nəzərdə tutulur.

### Sülh ətrafında

səh. 110. "Onlar Şurası": Paris Sülh Konfransı əsnasında Böyük Britaniya, Fransa, Amerika, İtaliya və Yaponiyanın hərəsindən iki nümayəndənin iştirakı ilə qurulmuş şura.

"Deyli meyl" [Daily Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

### Qəzetələrdən

səh. 112. "İtaliyada iğtişaş": qəzetdə bu xəbər səhvən "Hindustanda iğtişaş" adıyla getmişdir.

### Vükəla Şurasında

səh. 112. "gerbovı": rəsmi sənədlərə yapışdırılan və xüsusi vergi ödənişini göstərən marka.

### Türk ulus-oymaq birliyi

səh. 113. "təfriqə": əsasən mətbuatda hissə-hissə çap edilən əsər.

"Türk ulus-oymaq birliyi": məqalənin adı qəzetdə "Türk ulusu oymaq birliyi" kimi getmişdir.

səh. 115. "Sübh-dəm bir əcəb uğraş oldu, / Hər tərəf nəreyi-şabaş oldu, / Dili-paşa ilə peykani-ədu, / Qan yalaşdı vü qarındaş oldu.": "Sübh çağı qəribə bir iş oldu; hər tərəf "afərin, əhsən" nərələri ilə doldu; paşanın ürəyi ilə düşmənin oxu qan yalaşaraq, bir-birinin qanını yalayaraq qardaş oldular." Şair, döyüş meydanında oxla vurularaq şəhid edilən Əli paşanın ölümünü bu misralarla təsvir etmişdir. Qəzetdə "nəreyi-şabaş" yerinə səhvən "ləğzeyi-şabaş" getmişdir.

"Oxların can almağa tirinlə yoldaş oldular, / Sinələrdə qan yalaşdılar qarındaş oldular": "Oxlarınla ox kimi kirpiklərin can almaqda bir-birinə yoldaş oldu; ikisi də sancıldıqları sinələrdə qan yalaşıb (eyni qanı yalayıb) bir-biriylə qardaş oldular.

"Yanq və Şanqın sədləri": Çinin şimalındakı dağ silsiləsi nəzərdə tutulur.

"Hi-Ya" (yaxud Sya, Şia, Xia): Eramızdan əvvəl XXI-XVII əsrlərdə hökm sürmüş Çin imperatorları sülaləsi.

"Şan sülaləsi": Eramızdan əvvəl XVII-XI əsrlərdə hökm sürmüş Çin imperatorları sülaləsi. Qəzetdə "Şan" yerinə "Şam" getmişdir.

"Çao" (yaxud Çjou, Zhou): Eramızdan əvvəl XI-III əsrlərdə hökm sürmüş Çin imperatorları sülaləsi.

"Han": Eramızdan əvvəl 206-cı ildən eramızın 220-ci ilinə qədər hökm sürmüş Çin imperatorları sülaləsi.

### İzçiliyə dair

səh. 117. "25 təmmuz sənə 1335": burada tarix rumi təqvimlə verilmişdir, miladi təqvimlə 25 iyul 1919-cu ilə uyğundur.

### Bakı xəbərləri

səh. 121. "boçka kürüsü": qəzetdə "başqa kürüsü" kimi getmişdir.

### Gürcüstanda

səh. 122. "Qobeçiya": Gürcüstan Məclisi-Müəssisanında Qobeçiya familyalı iki üzv var idi: İosif Pavloviç Qobeçiya və İvan Pavloviç Qobeçiya. Onlar qardaş və ikisi de eser idi. Burada onlardan hansından bəhs edildiyi məlum deyil.

**İran işləri**

səh. 124. “yəğmagərlik”: qəzetdə “yağıgərlik” getmişdir.

**Teatro və musiqi**

səh. 126. “Köhnə Türkiyə”: Rza Zakinin faciə əsəri.

“Zorən təbib”: fransız dramaturqu Molyerin əsəri.

**Cümə axşamı, 7 avqust 1919-cu il, nömrə 245**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 10 zülqədətül-haram sənə 1337. 7 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## TEATR "REKORD"

Ancaq 3 gün.

Təcil edin [tələsin] görməyə!

Pəncşənbə, cümə və şənbə günləri, ağustosun 7-ndə, 8-ndə, və 9-nda Qazalius bütün Bakıda yaşayan müsəlmanları bu tamaşaya dəvət edir.

Təcil edin görməyə!

Bu gün axırıncı Hindustan tamaşası!

Hindustanın pək məşhur sahirlərindən [sehrbazlarından] Qazalius göstərəcəkdir qədim Misirin tarixi bir guşəsini və gizli olaraq "Odalisa", cadulanmış meyvə və qeyri sair şeylər. Güc, hünər və fənn özümüzdədir!

Qazalius göstərəcəkdir insan nə sayaq özünə pulsuz ziyafət stolu açar və stolun üstündə hər cür xörəklər mövcud olar. Hər kəs bunları bilməkdən ötrü lazımdır bu sahir artistin tamaşasına gəlsin!

Tamaşaçıların gözlərinin qabağında bir arvad yox olacaq. Bu təəccüblü sahir Avropa və dünyanın qeyri qitələrində çox nişan və medallar almışdır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Şənbə günü uşaqlara məxsus tamaşa göstəriləcəkdir.

*7421*

## ELAN

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti bununla Bakı əhalisini xəbərdar edir ki, ağustos ayının 4-dən etibarən Ticarət, Sənaye və Ərzaq Nəzarətinin Mariinski küçədə (Malakan bağı qarşısındakı) mağazasında ayaqqabı, arşın malı, corab, şəkər və qeyri bu kimi şeylər ucuz qiymətlə satılacaqdır. Bununla əhalinin məzkur [adı çəkilən] mağazadan istifadə etmələri lazımdır.

*T-198*

## Hökumət Teatrosunda
## Axşam tamaşası
## OPERETTA

Zülfüqar bəy və Üzeyir bəy Qardaşlarının Müdiriyyəti Cümə günü, zülqədətül-haram ayının 11-də (ağustosun 8-də) mövqeyi-tamaşaya qoyulacaqdır Üzeyir bəyin məşhur **"O olmasın, bu olsun"** operettası. Bu dəfə Məşhədi İbadın rolunu Mirzəağa Əliyev və hamamçının Əliəkbər Süheyli ifa edib, milli əşar [şeirlər] və meyxana oxunacaqdır. Rza Darablı isə dəllək rolunda dəllək mahnısı oxumaqla dəlləyi mədh edəcəkdir. Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

## ELAN

1919-cu sənə 7 ağustos pəncşənbə günü gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

Müzakireyi-yövmiyyə həman qərar üzrə qalmışdır.

*T-29*

## SİRK "MODERN"

Pəncşənbə günü ağustosun 7-də 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 40-cı günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Kalişeviç – Gənc Əli.

2-nci: Əhmədov – Staroşvili.

3-ncü: Djiovani – Jan-de-Kolon.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda. Mübarizə Yelizarovun təhtinəzarətində [nəzarəti altında] olacaqdır.

**Elan:** Şənbə günü ağustosun 9-nda fransız güləş mübarizəsini təşkil edən P. N. Yelizarovun benefisi olacaqdır. Böyük sport gecəsi hazırlanır.

*7420*

## MƏLUMAT-1

Bununla, Bibiheybət mədən-zavod və ev komitələrinə məlum edirəm ki, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın rayonnı komitəsinə rayonun camaatına ucuz qiymətə olaraq ərzaq şeyləri verilməsi üçün verilən siyahıya binaən [əsasən], yuxarıda zikr olunan komitə üzvlərindən xahiş edirəm ki, ərzaq almaqdan ötrü, hər gün səhər saat 10-dan 1-ədək və axşam 3-dən 7-ədək Ərzaq Nəzarətindən Kəndçilər İttifaqı vasitəsilə ərzaq almaq üçün gəlib rayonnı komitədən icazə alsınlar.

*Vəkil: (imza)*
*T-200*

## MƏLUMAT-2

Bununla, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" Bakı dairəsi mədən və zavod fəhlələrinə elan edir ki, komitə bürosunda Bakıda Nikolayevski küçə Parlaman binasında Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsi təşkil olunmuşdur. Bütün fəhlələr, bilafərqi-millət [millət fərqi olmadan], işləri olanlar mərkəzi Müsalihə və Mürafiə şöbəsi sədri Müzəffərova saat 11-dən 1-ədək ərzi-hal verə bilərlər.

*T-201*

## BAKI APTEKLƏR CƏMİYYƏTİ KOOPERATİVİ "FORMATSİYA"

Birjevaya küçə Musa Nağıyevin evində nömrə 11, telefon nömrə 36-52 fəaliyyətə başlamışdır. Skladda hal-hazırda zeyldəki [aşağıdakı] şeylər mövcuddur:

Kalomel, pepsin şərabı, talk, efir, sink okis, Atenştedt dəmiri, bornı kislata, təmizlənmiş kislata, 72% Marsel sabunu, marqansovokislı kaliy, limu duzu, yapışqan, şerlak, Esmarx parçları, sernokislı sink və təmizlənmiş dəmir kuporosu. Efirno-valerianovı, yod və tiryək nastoykaları, kamfornı yağ.

Laboratoriya sifarişlər qəbul edib və hazırlayır.

*7422*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Posta və Teleqraf Nəzarətindən**

*Əmrnamə 77*

12 təmmuz 1919

4[-cü] dərəcəli Tərtər posta və teleqraf bürosunun müdiri Banos Gəncə posta və teleqraf bürosunun 4[-cü] dərəcəli məmuriyyətinə köçürülür. Gəncə posta və teleqraf bürosunun ali maaşlı baxıcısı İlya Çapıqin Tərtər posta və teleqraf bürosunun müdirliyinə təyin olunur. Hər ikisi temmuzun 10-dan 1919.

*Əmrnamə 78*

19 təmmuz 1919

Xarkov Darülfünunu [Universiteti] Fizik-riyaziyyə fakültəsini bitirmiş hərbi telsiz teleqraf texniki Georgi Yevgenyeviç Syaqarov təmmuzun 17-dən etibarən Post və Teleqraf Nəzarətinin cənbində [nəzdində] mühəndislik məmuriyyətinə təyin olunur.

*Əmrnamə 79*

19 təmmuz 1919

5[-ci] dərəcəli Ağdam posta və teleqraf bürosunun müdiri İvan Sariyev Azərbaycan Cümhuriyyəsinin hərbiyyə məmuriyyətinə keçməsinə binaən [görə], posta və teleqraf dairəsinin məmuriyyət siyahısından bu təmmuzun 12-dən etibarən kənar edilir.

*Əsillərini imza etmişlər:*
*Posta və Teleqraf naziri:*
*C. Hacınski*
*Dəftərxana baş müdiri:*
*Blajevski*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 29 təmmuz iclası

*(mabəd)*

**Hacı Hüseyn Əfəndizadə** (Əhrar) - Əfəndilər, mən öylə bilirəm ki, kimlərin seçkiyə iştirak edəcəyi haqqında uzun-uzadıya bəhs etmək heç də lazım deyildir. Burada Azərbaycan təbəəsi olmayanlara iştirak haqqı verilmək məsələsinin qaldırılmasına da ehtiyac yoxdur. Mən qəti surətdə deyirəm ki, biz heç vaxt Azərbaycan təbəəsi olmayanlara heç vaxt intixablarda [seçkilərdə] iştirak etmək haqqı verə bilmərik. Çünki onlara seçki ixtiyarı verilsə, bizim üçün təzə bir Sentrodom [Mərkəzi Ev İdarəsi], yainki başqa onun kimi min dürlü şeylər hazırlayacaqlar. Əcnəbilərin seçdiyi müəssisə Sentrodomdan artıq ola bilməyəcəkdir. Öylə müəssisələr isə bizə heç də lazım deyildirlər. Qaldı ki, deyirlər, beş sənə şəhər dairəsində yaşamış olanlara seçki ixtiyarı verilsin, çünki öylələri, əvvəla, şəhərlərlə sıxı əlaqə və rabitədədirlər, onlar şəhər işlərində mənfəətdardırlar. Mən deyirəm ki, nə beş sənə, nə də başqa bir müddət ola bilməz. Azərbaycan təbəəsi olmayanlara heç bir vəchlə seçkiyə iştirak ixtiyarı verilməməlidir.

**Vəkilov Mustafa** (Müsavat) - Burada sosialistlər hamıya seçkidə iştirak haqqı verilməsini tələb edərək deyirlər ki, Azərbaycan təbəəsi olmayanlar dəxi çoxdan bəri burada sükunət edirlər. Şəhər işlərində bilavasitə mənfəətdardırlar. Həm də onlar bələdiyyə işlərinə bələd, təcrü-

bəli adamlardır. Binaənileyh [ona görə], onlara aktiv seçki ixtiyarı verilməlidir ki, gəlib namizədlərini seçsinlər. Amma mən-cə, bu o qədər də doğru bir mülahizə deyildir. Doğrudur, onların içində bələd, təcrübəli adamlar var. Amma öylələri pək azdır. Əksəri isə əsla şəhər işlərinə bələd olmayan, şəhər işlərində heç də mənfəətdar olmayan adamlardır. Bu kimiləri isə adətən seçkiyə gedərkən nə intixab etdiyi [seçdiyi] namizədin bacarıq və təcrübəsinə diqqət verər, nə də şəhərin mənafeyini nəzərə alarlar. Onların ancaq bir mülahizəsi olar. Həman mülahizə ilə də çox vaxt heç də şəhərlə əlaqəsi olmayan, bələdiyyə işlərində mənfəətdar olmayan adamları seçərlər. Ona görədir ki, istər siyasi nöqteyi-nəzərdən baxılsın, istərsə xozyaystvennı [təsərrüfat nöqteyi-nəzərindən] mülahizələr nəzərə alınsın, hankı nöqteyi-nəzərdən baxılsa da, böylə adamların intixabatda iştirak etmələri bizim üçün əsla mənfəətli deyildir.

Bir də unutmamalıdır ki, bu saat bizim vəziyyətimiz necədir. Hal-hazırda bizim istiqlal və həyatımızın çox düşmənləri var. Bunlar daxildən, xaricdən, hər tərəfdən bizim əleyhimizə çalışırlar. Bizim yaşayışımız, düşüncəmiz müqabilində daxildə və xaricdə bir çox əks-cərəyanlar var ki, qəzetələr, cəmiyyətlər və sairə vasitəsilə həmişə bizim zərərimizə çalışırlar. Bunu nəzərə almamaq heç vaxt mümkün olmaz. Əlbəttə, üzərimizdə o qara buludlar olmasaydı, istiqlal və hürriyyətimiz hədə və təhlükə altında olmasaydı, o əks-cərəyanlar sakit dursaydılar, indi içərisində yaşamaqda olduğumuz şəraiti-hazirə dəyişsə idi, bəlkə, o vaxt biz təbəəliyə bu qədər də diqqət verməzdik, hamının seçkilərə iştirak haqqına malik olması əleyhində bulunmazdıq. Fəqət nə qədər ki vəziyyətimiz möhkəmləşməmiş, şəraiti-hazirə dəyişməmiş, hürriyyət və istiqlalımız təhdid və təhlükədən qurtarmamışdır, nə qədər ki o əks-cərəyanlar bütün ciddiyyət və inadı ilə bizim əleyhimizə çalışırlar, o vaxtadək biz dəxi düşünməli, işimizdə sərhesab [ayıq-sayıq] olmalıyız.

Bizə deyirlər ki, onlar şəhər işləri ilə o qədər sıxı surətdə əlaqədar və mənfəətdardırlar ki, öz xeyirləri üçün də olsa, bizim mənfəətimizə çalışacaqlardır və onların iştirakından biz xeyir aparacağız. Əgər böylə isə, madam ki, onlar Azərbaycanla bunca sıxı rabitə və əlaqədardırlar, madam ki, bizim xeyrimiz onların və onların xeyri bizimdir, madam ki, onlar bizim xeyrimizi istəyirlər, böylə isə nə üçün onlar Azərbaycan təbəəliyini qəbul etməyi sığışdırmayırlar, nədəndir Azərbaycan təbəəsi olmaq istəməyirlər? Vəqta ki, onlar təbəə olmaq istəməyirlər, o qabaqca ərz etmiş olduğum hallar var, böylə olan surətdə biz də heç vaxt təbəə olmaq istəməyənlərə, köhnə fikirlərdə olanlara seçkidə iştirak haqqı verə bilməriz.

Bu nitqdən sonra Sosialistlər fraksiyası, Vansoviç və Malxazov tərəfindən bir neçə təklif varid [daxil] olur. Malxazov sosialistlərin təklifinə şərik olaraq, özününkünü geri götürür. Vansoviçin təklifi budur ki, 25 yaşını tamam etmiş olanlara ancaq haqqi-iştirak verilsin. Bu təklif səsə qoyularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə rədd edilir.

Sonra sosialistlər tərəfindən edilmiş olan iki təklif səsə qoyulur. Birinci təkliflə

şəhər dairəsində yaşayan ümum əhaliyə seçki ixtiyarı verilməsini istəyirlər. Təklif əksəriyyəti-ara ilə rədd edilir. İkinci təkliflə son bir ay müddətində bir şəhərdə yaşayanlara haqqi-iştirak verilməsi istənilir. Bu təklif dəxi qəbula keçməyir.

Nəhayət, layiheyi-qanuniyyənin üçüncü maddəsi Parlaman komissiyasının qəbul etmiş olduğu qaydası ilə səsə qoyulur və əksəriyyəti-ara ilə qəbul olunur.

Beş dəqiqə tənəffüs elan edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Cəbhələrdə**

3 avqust

Oneq[a] işğalından ötrü qızğın müharibə gedir. Oraya dabravollar desant çıxarmaqla bərabər, iki paroxodla şəhəri bombardman edirlər. Şəhərin yanan hissəsini düşmənlər işğal etmişlərdir.

Ladoj [Ladoqa] gölünün şimal tərəfində Finlanda sərhədinin cənub tərəfinin 5 verstliyində qoşunlarımız bir neçə kəndləri işğal etmişlərdir. Bizim qoşunlar Pskov hissəsində hücuma keçmişlərdir. Bizim irəliyə yürüşümüz müvəffəqiyyətlə davam edir. Minsk şəhərinin şimal-şərq cəhətinin 15 verstliyində biz bir neçə kənd işğal eylədik.

Yekaterinoslav səmtində bizim hissələr Verxnedneprovsk üzərinə yürüş edirlər. Poltavanın qərb cəhətinin 30 verstliyində qızğın müharibə gedir. Bizim hissələr müharibə ilə Vityuqi-Burtinonovka xəttinə çıxmışlardır.

Volqa nəhrinin sol kənarında Baskunçak dəmiryolu civarında hissələrimiz bir neçə kəndi işğal etmişlərdir. Verxneuralskın 40 verstliyində biz, İletsk nam [adlı] şəhəri tutduq. Biz yenidən 500 əsir aldıq. Bu dairədə son 5 gündə 2500 nəfər əsir almışıq. Troitsk üzərinə olan yürüşümüz müvəffəqiyyətlə davam edir.

Çelyabinskin şimal tərəfindən bizim qoşunlar Miass və Teç[a] nəhrlərinin boyu ilə yürüşdə davam edirlər. Biz Dalmatovo[nu] işğal ilə Şadrinsk üzərinə yürüş ediriz.

* * *

N ordusunun ərkani-hərbi [qərargahı]. Pskovun şimal-şərq tərəfində biz bir neçə kənd almışıq. Pskovun cənub-şərq hissəsinin 20 verstliyində Kuryatyev, Rojansk, Filonovo nam kəndləri işğal eylədik. Pskov-Ostrov dairəsində biz ciddi surətdə həmlə ediriz.

Kiyev - Mayaki dairəsində su yolu (vodoprovod) tutmaq istəyən bir donanma dəstəsi tərəfimizdən məhv edilmişdir.

**İsveçrədə ümumi tətil**

Lion - Simsiz teleqraf mövqifi [stansiyası] xəbər verir ki, İsveçrənin Bazel və Sürix şəhərində əmələlərin tətili-ümumisi başlanmışdır.

**Royter agentəliyindən**

Lahey - Macarıstan və bolşevik Rusiyadan maəda [başqa] hər yerdə, hər miqdarda çay və qəhvə çıxarılmasına müsaidə edilmişdir.

Kopenhaq - Hindenburq marşal Foşa müraciətlə rica edir, o, Müttəfiqləri Kayzeri-məxlunu [taxtdan salınmış Kayzeri] məhkəməyə cəlb etməkdən vaz keçindirsin və bəyan edir ki, özünü Müttəfiqlərin ixtiyarına verəcəkdir.

London - Macarıstan heyətində tapılan sənədlərdən anlaşılır ki, Macarıstan bolşeviklərinin məqsədi Avstriya bolşeviklərinin müavinəti ilə Vyananı işğal etmək imiş. Heyətdə külli bomba və dinamit tapılmışdır.

- Almaniyanı yenidən təqsim etmək [bölmək] münasibətilə, Almaniyada hökumət böhranı olduğu şaye olmaqdadır [deyilir].

**Hindustan işləri**

Məclisi-Əyanda Lord Sinin təklifinə görə, Hindustanda islahat layihəsi tərtib etmək üçün bir komisyon təşkil edilmişdir.

Paris - Birinci zəruri şeylərin qiyməti fövqəladə bir surətdə artdığı üçün, hökumət əhalinin təzyiqi ilə ərzaq gətirilmək üçün sərhədi açmağa qərar vermişdir.

Helsinqfors [Helsinki] - Xəbər verirlər ki, Petroqradda olan bütün əcnəbi səfarətxanaları bolşeviklər işğal etmişlərdir. Orada olan bütün kağızlar zəbt, qulluqçuları həbs etmişlərdir. Bunları casusluqla ittiham edirlər. Bolşeviklər elan eyləmişlər ki, hər kəsdə silah tutularsa, atılmaqla edam ediləcəkdirlər.

Kopenhaq - Eston qəzetələri xəbər verirlər ki, Petroqrad üzərinə müvəffəqiyyətlə hücum edən Şimali Rusiya ordusu məğlub olub, Petroqrad yanında işğal etdikləri bir çox kəndləri, o cümlədən Krasnaya Qorka səngərini tərkə məcbur olmuşlardır.

Roma - Palermo, Turin, Lekkormda əhali, ərzağın bahalanmasına protesto edərək nümayişlər qurulmuşdur. Romada tacirlər, malların 50 faiz əskilməsinə rizalarını vermişlərdir.

Paris - Havas ajansı xəbər verir. Amerika sülh mürəxxəsləri [nümayəndələri] şərəfinə verilmiş olan ziyafətdə amerikanlar demişlər ki, bu vaxtadək biz Müttəfiqlərlə bərabər müharibə eyləmişik. Şimdidən sonra isə bərabər işləyəcəyiz.

**Dabravolların məlumati-rəsmiyyəsi**

Volqa nəhrinin sol kənarında olan Elton gölü civarında Qafqaziya ordusu hissələri Ural qoşunları ilə rabitəyə girişmişdir. Hacı-Tərxan cəbhəsində Volqa nəhrinin sol kənarında ikigünlük müharibədən sonra, bizim hissələr Vladimirovka ilə Axtubanı bolşeviklərə tərk etdilər. Kamışin cəbhəsində təbəddülat [dəyişiklik] yoxdur.

Don cəbhəsində - Balaşov dairəsində müharibə bizim üçün müvəffəqiyyətli olmuşdur. Don qoşunları üç top, 20 pulemyot, 300 tüfəng qənimət almışlardır. 300 əsir də tutulmuşdur. Talov[aya] səmtində donlular Buturlovkaya həmlə edib 3 top ilə 20 əsir almışlardır.

- İyul ayının 30-da Çornı Yar və Axtubada olan kəşfiyyat nəticəsi olaraq bir ingilis aeroplanı yaxdırılmışdır. Digər bir ingilis aeroplanı yanıb düşmüşdür.

- Don cəbhəsində Talov[aya] səmtində Buturlinovka dairəsində müharibə davam edir. Bobrov səmtində düşmənlər yürüş edirlər.

- Xarkov səmtində Sutçan dairəsində bizim hissələr müharibə ilə Novoçerkasskı işğal etmişlərdir. Qadyaç səmtində qırmızı qoşunlar Vorsklaya tərəf çəkilmişlərdir. Kremençuk səmtində tərəfimizdən Kobelyaki şəhəri işğal edilmişdir.

## QƏZETƏLƏRDƏN

**General Vrangel ilə müsahibə**

"Jizn" qəzetəsi müxbiri ilə müsahibə edən Qafqaz ordusunun komandanı general Baron Vrangel Qafqaziya ordusu ilə Kolçak ordusunun tezmi mülhəq olacaqları [birləşəcəkləri] sualına cavab olaraq demişdir ki, bu müddəti təyin etmək çox müşküldür. Bunlar, ordunun və Ural ordusunun müvəffəqiyyətindən asılıdır. Mənim bu saat bütün cəbhələrdə müvəffəqiyyətim vardır. Volqanın aşağısında Çornı Yar dairəsində Baskunçak gölü civarında Saratov – Hacı-Tərxan yolunu qət eyləmişik [kəsmişik]. Böyləliklə Hacı-Tərxan qruppası qət edilmişdir. Mən, zənn edirəm ki, Hacı-Tərxan müqəddəratı qət edilmişdir. Volqanın yuxarısında 5 günlük müharibədə biz, Kamışində olan düşmən dəstəsini kamilən sındırdıq. Dünən axşam, biz, Kamışini işğal eylədik. Kamışin dəstəsini Volqaya tərəf püskürdüb, onları məhv eylədik. Bu müharibə zamanında 30-dan ziyadə top, 10 min əsir almışıq. Şimal tərəfdə bizim müvəffəqiyyətimiz davam edir. Kamışini almaqla Ural ordusu ilə mülhəq olmağımıza müsaidə edir. Bu qoşunların mülhəq olmasını yaxın zamanda gözləmək olar.

* * *

- İcra komitəsi bəyan eyləmişdir ki, hər kəs general Yudeniçi ya ölü, ya diri gətirərsə o adama 500 min rublə mükafat verəcəkdir. Hər bir gətirilən ofiserə 10 min rublə veriləcəkdir.

- Tsaritsın və onun ətrafında heç bir bolşevik müəssisəsi yoxdur. Əmələ və kəndçilər özlərinin bolşeviklərə olan rəftarını dəyişdirmişlər. Komissarların tutulması xüsusunda camaat kəndisi məmurlara müavinət edirlər. Komissarların başçıları təbiidir ki, pişəzvəqt [qabaqcadan] gizlənmişlərdir. Bu vaxtadək 100 nəfərədək komissarları tövqif [tutmuş] və divani-hərbə vermişlərdir. Camaat özü də 90 nəfər komissarları tutub öldürmüşlərdir.

**Saratovda**

Saratovdan verilən məlumata nəzərən, əhali görünməmiş surətdə ərzaq müşkülatı çəkir. Yeməyə bir şey yoxdur. Azad satış mən' [qadağan] edilmişdir. Əhali aylarla ağ çörək üzü görməyir. Ət də yoxdur.

**Hacı-Tərxanın işğalı**

"Naşe vremya" yazır. Mövsuq [etibarlı] mənbədən aldığımız məlumata görə, Dabravol ordusu tərəfindən Hacı-Tərxan işğal edilmişdir. Bolşevik gəmiləri "torba"ya düşmüşlərdir. Bolşevikləri Volqa nəhrindən və dənizdən sıxışdırırlar. Bu günlərdə bolşeviklər gəmilərini təslim etmişlərdir.

**Kiyev əhatə edilmiş**

Yekaterinodar - Poltavada nəşr olunan bolşevik qəzetələri yazırlar ki, Kiyev şəhəri üsyançılarla əhatə edilmişdir.

**Minskin işğalı**

Havas, Royter qəzetəsi xəbər verir ki, Minsk quberniyası əhalisindən təşkil edilmiş olan dabravol dəstəsi Minsk şəhərini işğal etmişlərdir.

**Cənubi Rusiya Konfransı**

Cənubi Rusiya Konfransı heyəti-rəyasəti ilə general Denikinin Yekaterinodarda müşavirəsi olmuşdur. Müşavirə nəticəsində qərara alınmışdır ki, Dabravol ordusundan da Konfrans heyətinə nümayəndələr daxil edilsin. İyulun 29-da Konfrans Yekaterinodar şəhərindən Rostova köçürülmüşdür.

**İngilis əsgərləri**

Sevastopoldan teleqraf edirlər ki, alınan məlumata görə, bu yaxınlarda Sevastopola və Feodosiyaya ingilis əsgərləri gətiriləcəkdir. Bunlar Dabravol ordusunun arxasını təmin edici işlərə məşğul olacaqlardır.

**Kronştadt yanır**

"Deyli meyl" qəzetəsi xəbər verir ki, Kronştadt yanır. 7 bolşevik gəmisi ağ bayraq qaldırıb İngiltərə donanmasına təslim olmaq üçün hərəkət etmişlərdir.

**Rus pulları**

Knyaz Urusovun verdiyi məlumata görə, İngiltərə kooperativləri İngiltərədən manufaktura və başqa mallar almaqdan ötrü Rusiyaya 30 min ingilis lirəsi vermişlərdir. Çünki İngiltərədə rus pulları götürülməyir. İtaliya rus kooperativlərinə 10 min lirə verib ayaqqabı və manufaktura təklif edir.

**Qənd**

İstanbuldan Sevastopola gələn paroxodların qulluqçuları gətirdikləri qəndin girvənkəsini 10 manat Nikolay puluna satırlar.

**Donanmanın zəbti**

Sormovoda olan vaqon və maşın zavodu əmələləri Oka nəhri ilə Volqa nəhri bitişən yerdəki hərbi donanmanı zəbt etmişlərdir. Bolşeviklər donanmanın təslim edilməsini ciddi surətdə tələb etmişlərsə də, fəhlələr imtina etmişlərdir.

## AZƏRBAYCAN XARİCİNDƏ

Bu günlərdə, bir ay bundan əvvəl Bakıdan Xarkova getmiş bir gənc Bakıya qayıtmış, Xarkov, Yekaterinodar, Rostov, Pyatiqorsk, Petrovsk, Dərbənddəki müşahidatını, bu yerlərin əhvali-siyasiyyə və ictimaiyyəsini bərvəchi-ati [aşağıdakı kimi] mühərririmizə nəql etmişdir:

**Xarkovda**

Xarkovda hökumət dabravollardadır. Onlar özlərini qayət fəna aparır. Dabravol ordusunun nəfərləri hər gün sərxoş olaraq bəzi ümumi yerlərdə qalmaqal çıxarırlar. Ara-sıra ticarət əhlinə mənsub adamları tutub aparır, onlardan para aldıqdan sonra buraxırlar. Pul verməyənləri öldürürlər. Pul verənlərdən də imza alırlar ki, guya, kazaklar onunla hüsn-rəftarda bulunub kəndisindən heç bir şey almamışlar. Hər kəsdə qızıl və gümüş və yaxud yanında para olduğunu bilsələr, həman saat bir çox vasitələrlə onun sər-

vətini əlindən alacaqlar. Habelə, küçədən keçərkən birisinin yeni əlbisəsini və yeni ayaqqabısını görsələr, həman saat əlindən alacaqlar.

Son günlərdə Prut adlı bir yəhudini aparıb ondan 50 min para tələb etmişlərdi. Ən nəhayət, onun arvadı 30 min manat verib ərini kazakların əsarətindən azad etdirdi. Yəhudiləri görməyə gözləri yoxdur. Habelə, fəhlələri ümumiyyətlə çox təzyiq edirlər. Fəhlələrin təzyiqi dabravol ordusu nəfərlərinin xudsəranəliklərindən [özbaşınalığından] deyil, bununla bərabər, iş başında olanların əmri ilə fəhlələri sıxırlar. Dabravollar Xarkova gəldikdən sonra, iki min nəfərə yaxın fəhləni bolşeviklikdə müttəhim edərək Yarmaroçnı meydançasında pulemyotla tamamən onları qırdılar.

Şəhərdə məişət get-gedə bahalaşır. Qara çörəyin girvənkəsi 18 manat, qənd, çay əbədən tapılmayır. Düyünün girvənkəsi 60 manat, kişmiş 50 manat. Üçüncü növ papiros 15-16 manata satılır. Ticarət tamamən yatmışdır. Sərvətdarlar şəhərdən kazaklar tərəfindən qarət edilmələrindən qorxaraq qaçırlar. Habelə, yəhudilər də kəsrətlə [çoxluqla] şəhərdən çıxırlar. Orada bir çox müsəlman tələbəsi var. Bəzisi qulluq edirlər. Bir çoxları Azərbaycana gəlmək istəyirlərsə də lakin mümkün edəmməyirlər. Əvvəla, onlar üçün vəsiqə almaq çox müşküldür. Saniyən [ikincisi], yol xərci tapmayırlar.

**Kubanda**

Rostovda öylə bir xariqüladə əhval yoxdur. Yekaterinodarda isə dabravollar əleyhinə böyük bir nifrət müşahidə edilir. Kubanlılar ilə dabravollar arasında kəskin bir ixtilaf var. Bu ixtilafın da başlıca səbəbi Ryabovolun dabravollar tərəfindən qətl edilməsidir. İxtilaf hətta çarpışmağa mübəddəl ola [çevrilə] biləcək bir dərəcəyə vardığından, iyulun 11-də Yekaterinodarda Dabravol Baş komandanlığından bir əmrnamə nəşr edilmişdi ki, dabravol əsgərləri Yekaterinodardan çıxsınlar. Yekaterinodardakı dabravol ordusu Rostov, Xarkov və Taqanroqa gedəcəklərdi.

Kuban hökumətinin bizimlə rəftarı çox yaxşıdır. Ümum kubanlılarda azərbaycanlılara qarşı düşmənanə hərəkət müşahidə edilməyir. Kuban hökuməti bolşeviklərlə hali-hərbdə bulunursa da, Kuban xalqı bolşeviklərə bir o qədər də düşmən nəzəri ilə baxmayırlar. Son zamanlarda kubanlılar dabravolları heç görmək belə istəməyirdilər. Zatən dabravolların xalqla əlaqəsi həp bir qərar iledir. Yekaterinodarda "çaşka çay"da bir rus polkovniki özünü Azərbaycan Parlamanı üzvü adlandırmaqla bərabər, bizim haqqımızda uca səslə öz arxadaşlarına məlumat verməklə bütün "çaşka çayda"kıların nəzəridiqqətini özünə cəlb etmişdi. O deyirdi ki, guya Azərbaycan xalqı Denikinin yolunu gözləyir. Bəzi Osmanlı agentləri xalqı azdırırmış. O cümlədən olaraq Məhəmməd Əmin Rəsulzadə guya Osmanlı dövlətindən külli miqdarda para alıb xalqı Rusiyadan ayırmaq təbliğat və təşvi-qatında bulunurmuş. Əgər 500 kazak Bakıya səfər etsəymiş, iki-üç gün müddətində Bakını işğal edə bilərmiş. Bununla bərabər, Azərbaycanın ruslara, ələlxüsus Gürcüstandan qovulan rus zabitlərinə ehtiram edərək onlara müavinəti-nəqdiyyədə [pul yardımında] bulunduğunu da

etiraf edərək, azərbaycanlıların bu cür "vəzifə"şünaslıqlarını təqdir edirdi. Məzkur polkovnik bu müsahibəsini Pyatiqorskda da söyləyirmiş. Habelə vaqonda da bu kimi "məlumat"lar verirmiş.

**Dağıstanda**

Petrovskda böyük bir hərc-mərclik davam edir. İstər gündüz, istər gecələr mütəmadiyən [daim] tüfəng atılır. Dabravol saldatları hər zaman sərxoş olub küçə-bazarda dolaşırlar, yoldan gedənləri təciz edirlər [incidirlər].

Bizim pulumuzu rəsmi idarələrdə götürməyirlər. Çünki dabravol komandanlığı götürülməməsini əmr etmişdir. Bazarda alış-verişdə hər nə qədər qəbul edirlərsə də, qiymətindən aşağı alırlar. Məsələn, çörəyin məzənnəsi 5 manat olduğu halda bizim pul ilə 7 manata satırlar.

Məişət getdikcə Petrovskda çətinləşir. Ticarət əhli və ətraf kənd xalqı şəhərə mal gətirməkdən ehtiyat edirlər. Həmçinin Kuban ərzaq buraxmayır. Bunun üçün get-gedə birinci zəruri şeylərin qiyməti bahalaşır. Kuban hökuməti ilə Don hökuməti ayrı-ayrı olduğundan, əlaqələri çox yaxşı deyildir.

Bu günlərdə Petrovskda ingilislər "İraq", "Venture", "Asiya", "Bakinets" paroxodlarını ki, onlar müsəlləh edilmişlər [silahlandırılmışlar], dabravollara təhvil vermişlərdir. İngilislər Petrovskda çoxdurlar. Habelə dabravollar da çoxdur.

Dəmiryol öz qaydası ilə işləyir. Dərbəndə gələrkən Dərbənd vağzalında bizim vaqonumuzdan 22 nəfər sərnişini kazaklar düşürüb kazarmaya apardılar. Onların 6 nəfəri çeçen, 3 nəfəri dağıstanlı, 2 nəfəri rus, qalanı da bakılı və iranlı idi. Rusların birisini bolşevik komissarı olmaqda müttəhim edirdilər. Çeçenlərin 2 milyon manatadək paraları var idi. Onlar çeçenlərin məşhur tacirlərindən idi ki, mal almaq məqsədilə Bakı aşırı İrana getmək fikrində idilər. Pullarını almağa kifayət etməyib, kazaklar tədriclə əlbisələrini də soyundurdular. Məsələn, bir dəstə kazak gəlib onların yeni yapıncılarını alıb öz köhnə yapıncılarını onlara verdilər. İkinci dəstə gəlib o köhnə yapıncıları da aldılar. Üçüncü dəstə papaqlarını, dördüncü dəstə arxalıqlarını, beşinci dəstə şalvarını, altıncı dəstə də çəkmələrini aldılar. Axırıncı dəstə onların alt köynək-tumanlarını alıb öz köhnə əlbisələrindən onlara vermək istəyirdilər ki, buna çeçenlər qətiyyən razı olmadılar. "Biz öləriz, bu təhqiramiz hərəkətə razı olmarız" dedilər. Sonra bir polkovnik gəlib bizim bəzimizi azad etməklə bərabər bəzimizi həbsə göndərdi. Çeçenləri də təkrar təhtəl-hifz [mühafizə altında] Petrovska göndərdilər.

Dərbəndin vəziyyəti qayət fənadır. Dabravollar orada özlərini ağa kimi ədd [hesab] edirlər. Bildiklərini yapır, bağlara və evlərə soxulur, mehmanxanalara hücum edərək müsafirləri qarət edirlər. Dərbənddə bizim pulumuzu rəsmi idarələrdə qəbul etməyirlər. Bazarda qəbul etdikdə əskik qiymətlə götürürlər. Sabiqdə bizim pul Dərbənd və Petrovskda deyil, hətta Qroznı və Vladiqafqazda da qəbul edilirdi.

Bizim vaqonları Dərbənddən çıxarkən Samaxurda saxlayıb axtarırlar. Axtarış zamanında kazakların əllərinə keçən saat, pulqabı və sairə çalınır [oğurlanır]. Hələ bəzi müsafirlərin əşyaları da oğur-

lanır. Xüsusən vaqon hərəkət edərkən müsafirlərin papaqlarını da alıb qaçırlar. Bu kimi ittifaqlar [hadisələr] hər zaman vüqu bulur.

Bizim jandarmalarımızın müsafirlərlə fəna hərəkətdə bulunmaları hətta Yekaterinodarda da söylənməkdədir. Fövqdə [yuxarıda] zikr etdiyimiz Parlaman üzvü polkovnik, Yekaterinodarda jandarmalarımızın hərəkətlərindən pək hərarətli surətdə bəhs edirdi. Onların qanundankənar hərəkətlərdə bulunmalarını hökumətimizin zəifliyi ilə təfsir [izah] edirdi.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maarif nazirinin Bakıda çağırılmaq ehtimalı olan Xalq Müəllimləri Qurultayı üçün 35600 manat təxsisi [pul ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

İstənilən məbləğ 20 milyonluq fonddan buraxılsın.

- Ticarət və Sənaye və Ərzaq nazirinin Azərbaycandan ümumi əsas üzrə mal mübadiləsi qəsdi ilə 30 min pud darı aparması haqqında təşəbbüsatına dair məruzəsindən sonra qət edilmişdir:

Rədd edilsin.

- Hərbiyyə nazirinin 1-ci Tatarski alay komandanı [Teymur bəy] Novruzovun vəzifəsindəki yararlığından dolayı general-mayorluğa tərfisi [yüksəldilməsi] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Tərfi edilsin.

## VƏTƏNİM!

*Əli Şövqi əfəndiyə*

Sıldırımlı qayaları, dağları,
Yaylaları, səhraları, bağları,
Qaraları, ovaları, ağları,
Daşqın, coşqun seli, nefti yağları,
Xəzinələr ocağıdır vətənim!

Lalələri, çiçəkləri, gülləri,
Yasəmən, nilufər, qərənfilləri,
Dadlı meyvələri, xoş sünbülləri,
Xoş ləhcəli, sədalı bülbülləri,
Cənnətin bir bucağıdır vətənim!

Vulkanlı təpələr, al-yaşıl çöllər
Heybətli dənizlər, möhtəşəm göllər,
Xışımlı nəhirlər, acıqlı yellər,
Şəhadət edərək həpsi deyirlər:
Qəhrəmanlar yatağıdır vətənim!

Nizamilər, Xaqanilər məskəni,
Uluq xanlar, Şirvanşahlar mədfəni,
Pənah gətirənlərin olmuş mə'məni,
Aman verməz kim olarsa düşməni,
Düşmənlərin duzağıdır vətənim!

Qartallar gələmməz, şahinləri var,
İstiqbalı görər, kahinləri var.
Nəcib bir milləti, haqq dinləri var.
Nə bir zalım, nə bir xainləri var.
Bir məhəbbət çırağıdır vətənim!

Zalımlar köksüyçün vardır mizrağı,
Zəfərsiz heç geri dönməz sancağı,
Məzar olmuş şəhidlərə torpağı,
İgidlər məskəni, qazi yatağı,
Məzlumlar dayağıdır vətənim!

*Bakı, 30 iyul 1919*
*Seyidzadə Bədrəddin*

**NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]**

- Məsai Nəzarəti [Əmək Nazirliyi] Daxiliyyə Nəzarətinə və surəti Dəmiryollar Fəhlələri İttifaqına olmaq üzrə bir təliqə [rəsmi məktub] göndərərək məlum etmişdir ki, həman ittifaq sədri namı ilə Rebrux, hökumətə olan etimadı xələldar etmək [pozmaq] qəsdi ilə yaxışmayan vəsaitlə mətbuat səhifələrində Məsai Nəzarətini müttəhim etməkdə davam etdiyindən naşi [etdiyinə görə], məzkurun [adı çəkilən şəxsin] ittifaqdan çıxarıldığı kimi, hərbi zaman qanunu mövcibincə [qanununa əsasən] də təhti-məsuliyyətə [məsuliyyət altına] alınması barəsində tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

- Neftçilər İttifaqı Məsai Nəzarətinə məlum etmişdir ki, fəhlələr-müəssisədarlar əlaqəsinə aid qərardadların qəbulunu, heç olmazsa, 15 günədək təcil etməlidir [təxirə salmalıdır]. Zira o vaxtadək əlaqə təb [çap] etdirilərək başqa-başqa müəssisələrə göndərilməklə, işbu məsələ haqqındakı nəzəriyyatı toplamaq mümkün olacaqdır. Əlaqə Nəzarət tərəfindən tərtib verilmişdir.

- Bakı köylərində Köy Komitələri Təşkilatı Komitəsi Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, həmin komitələrin təmini üçün hökumət tərəfindən maddi müavinətdə bulunulsun. Bundan ötrü birdəfəlik 40 min manat və hər ay da 100 min manat verilsin. Daxiliyyə Nəzarəti işbu təşkilat məsələsini qeyri-məqbul bulmuşdur. Zira işbu məsələ zemstvoya [yerli özünüidarə qurumlarına] aid olduğu üçün ən yaxın zamanda Daxiliyyə Nəzarəti tərəfindən tərtib verilərək qanun kimi təsdiq ediləcəkdir.

**BÖYÜK VEDİ HADİSATI**

Ermənistanın siyasi nümayəndəsi [Tiqran] Bekzadyanın Azərbaycan Cümhuriyyəti Xariciyyə Nəzarəti etiraz notasına cavabı münasibətilə avqustun 1-də Azərbaycanın Ermənistan nümayəndəsi [Məhəmməd] xan Təkinski Ermənistan Xariciyyə Nəzarətinə böylə bir nota təqdim etmişdir:

*"Ermənistan Xariciyyə naziri həzrətlərinə.*

*Azərbaycan Xariciyyə nazirinin 12 iyulda verdiyi notasına Bekzadyanın cavabı məni işbu cavabı verməyə məcbur edir.*

*Cənab Bekzadyan Böyük Vedi hadisatını xəbər verməklə, doğru olduğunu isbat üçün təminat vermişdir. Müşarünileyhin [adı çəkilən şəxsin] məlumatından Ermənistan hökuməti tərəfindən irsal olunan [göndərilən] qoşun dəstəsinin nə vaxt göndərilməsi məlum deyildir. Bununla bərabər, nə vaxt Böyük vedililər tərəfindən tüfəng və pulemyot atəşinə tutulduğu, işbu dəstənin cəza dəstəsindən təfriqi [ayrılması, fərqləndirilməsi], nə vaxt cəza dəstəsinin göndərilməsi və müsəlman köylərinin nə üçün topa tutulması haqqında cənab Bekzadyan heç bir söz deməmdiyindən, mən də xülasə bir cavab verəmməm.*

*Bekzadyanın, Azərbaycan hökumətinin eyi xəbər almaması deməsinə cavab*

*olaraq məlum etməliyəm ki, erməni əsgəri hissələri iyulun 4-də Böyük Vedi köyünə yaxlaşıb və müzakirə vaxtında birinci dəfə olaraq ermənilər tərəfindən güllə patlamışdır. İşbu güllələrdən Böyük Vedi nümayəndələri Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşir bəy oğlu qətl edilmişlərdir. Bundan sonra fəqət Böyük vedililər atəş açmışlardır.*

*Müharibə axşamadək uzanmışdır. Böyük vedililərin mitralyozu olmamışdır. Böyük vedililər əleyhinə olan müharibədə piyada alayı qitəatı [birlikləri] iştirak etmişlərdir. Həman gün axşam zamanı ermənilər geri çəkilərək Böyük vedililər əlində pulemyot, tüfəng, cəbbəxana, çadır, hətta dəftərxanalarını buraxmışdırlar. Böyləliklə, Bekzadyanın dediyi kimi, Böyük vedililər nerədən isə pulemyotlarla müsəlləh olmuşdurlar.*

*Yenə cavabən deyiriz ki, həqiqətən, Böyük vedililəri pulemyot deyil, hətta dəftərxana ilə belə müsəlləh edən erməni qoşunları olmuşdurlar ki, fərar edərək müsəlmanlara buraxmışlardır.*

*Müsəlmanların nə üçün mübarizə etməsinə cavabən Böyük vedililər 300 dağılmış müsəlman köyünü, on minlərlə məqtul [öldürülmüş] müsəlmanları, xüsusən iki nümayəndənin qətlini göstərərək, köylərinin digər köylər kimi dağılması, özlərinin də digərləri kimi məqtul düşmək istəmədiyini deyirlər. Onların işbu əqidələri mübahisəyə səbəb olarsa da, fəqət dövlət əsasını dağıtmaq istədiklərini demək olmaz. Hər gün yapılan qətl-qarət və müsəlmanlar əleyhindəki iqdamatlar [addımlar, tədbirlər] Böyük Vedidən əlavə digər köyləri də Ermənistanı qəbul etməmək, başqa qonşu dövlətlərə mülhəq olmaq [birləşmək] və yaxud kontrol altında yaşamaq istəməyə vadar edir.*

*Hər gün mən milisiya əlbisəsi ilə müləbbəs olan [geyinmiş] ermənilərin qətl-qarət, evlər üzərinə çapqın yapdıqları haqqında şifahi və təhriri [yazılı] məlumatlar alıram. İşbu fəlakətlər bu yollarda deyil, İrəvanın küçələrində belə baş verməkdədir. Ermənilər müsəlmanların ağaclarını kəsirlər, bostan və bağlarını qəsb edirlər. Hətta Böyük Vedi ətrafında müharibə olduqda, o ətrafdan qaçmış müsəlmanlar mənə şikayət edərək deyirdilər ki, onlar ermənilərin müsəlman əlləri ilə əkilmiş əkinlərini yığmağı görmək istəməyirlər. Onlar bunu söylədikdə ağlayırdılar.*

*Məsələn, Ağzıbir, Maqos və digər köylərin taxıllarının nerədə olması sual edilir. Erməni hökumətinin onları xain deyə yerlərinə buraxmadıqlarından şikayət edirlər. Bir çox ilticadan [xahişdən] sonra bir para müsəlmanlara kəndi yerlərinə köçməyə icazə verildisə də, ermənilər onların mallarını qarət etdiklərindən, yenidən qaçıb dağılmağa məcbur oldular. Şimdi müsəlmanlar iltica edirlər ki, Azərbaycana köçürməklə onları ölümdən xilas etsinlər.*

*Müsəlmanların ərazisi bir çox yerlərdə ermənilərə icarəyə verilmişdir. İşbu ərazi cümləsindən Ermənistan Məclisi-Məbusanı əzası [üzvü] müsəlmanların da yerləri vardır. Son zamanda hökumət tərəfindən bu məsələ ləğv edilmişsə də, bundan bir mənfəət hasil olmamışdır. Zira ermənilər ərazini verməkdən imtina edirlər.*

*Məzkur [deyilən] həqiqətləri təsdiq üçün məndə bir çox təhriri [yazılı] sənədlər mövcuddur.*

*Cənab siyasi nümayəndə Bekzadyan, Xariciyyə nazirini inandırır ki, Ermənistanda ağ və qara irqli vətəndaş yoxdur, həpsi birdir. Hətta Ermənistan hökuməti müsəlmanları qətl edən iki erməni saldatını gülləboran etdirmişdir. Bunu mən təsdiq edəmməm. Fəqət deyə bilərəm ki, bu vaxtadək Ermənistan Məclisi-Məbusanı ölüm cəzasını təsdiq etməmişdir.*

*Bekzadyanın Azərbaycan Hökumətinin Ermənistanın daxili işlərinə müdaxilə etməməsi haqqındakı sözünə cavabən deyiriz ki, işbu hadisat Ermənistanın ixtilafsız torpağında deyil və Ermənistan vətəndaşları haqqında deyil, zira bundan ötrü və siyasi nümayəndənin müdaxilə etmə deməsi üçün Böyük Vedi üzərində Ermənistan hökumətinin, heç olmazsa, öz ixtiyarının ilk qədəmini təsis etməsi lazımdır. Binaənileyh, oraya qoşun göndərilməsini üsyan etmiş vətəndaşları cəzalandırmaq kimi adlandırmaq olmaz.*

*Rica edirəm ki, mənim səmimiyyətimi qəbul edəsiz, əfəndim.*

*Təkinski”*

- Xariciyyə Nəzarəti işbu günlərdə Parisdən bir çox məlumat almışdır ki, ən yaxın zamanda təhqiq edərək mətbuat vasitəsilə nəşrə başlayacaqdır.

## ŞƏHƏRİMİZ İDARƏSİZLİYİ

Bir millətin dərəceyi-maarifi, o millətin sakin olduğu şəhər və məhəllələrin zahiri şəkil və təmizliyi ilə mütənasibdir.

Bir millətin zövqi-ruhanisi [mənəvi zövqü], içində oturduğu mənzillərin, gəzdiyi yolların, dolaşdığı meydanların, bağçaların dərəceyi-lətafəti ilə müqayisə edilir.

Bir millətin həyati-ictimaiyyəsi, əsrari-dərunisi [daxili sirləri, daxili dünyası] zahirindən, zahiri həyatından bəllidir.

Bir millətin əxlaqı, içində ömür sürdüyü yerlərin bulunduğu halı ilə təqdir edilir [ölçülür, qiymətləndirilir].

Biz özümüzü min dil ilə mədh edəlim. Mədəniyyətə olan istedadımızı kamalifəxr ilə tərif edəlim. Adi nümayişlər ilə özgələrə özümüzü göstərəlim.

Həpsi boş, həpsi müvəqqətidir. Bir xarici, bir müsafir bizim məmləkətimizə gəldiyi vaxt, təbii, bizim dərəceyi-maarifimizi, milli fəzilətimizi, əxlaqi-ümumiyyəmizi, mədəniyyətə olan istedadımızı bilmək istəyəcəkdir.

Bunun üçün məktəblərimizi, ümumi kitabxanalarımızı, müzələrimizi [muzeylərimizi], asari-ətiqəmizi [tarixi abidələrimizi], sənayeyi-nəfisələrimizi [incəsənət əsərlərimizi], emalatxanalarımızı görmək arzu edəcəkdir.

Lakin durbin [uzaqgörən], bəsirətli bir xarici, bunları görməmişdən də dərəceyi-mədəniyyətimizi təqdir edə bilər.

Əvət! Bakının zibilli küçələrini, murdar-lıqlarını görən bir müsafir əhvali-idarəmizin, zövqi-millimizin nə halda olduğunu heç demədən, təhqiq etmədən anlar.

Hələ Quba meydanını, əsl müsəlman bazarlarını, müsəlman məhəllələrini görən bir xarici üçün artıq bir zəhmət istəməz.

Bu həyatımız, bu murdarlığa səbr və təhəmmülümüz [qatlaşmağımız], daha doğ-

rusu ünsiyyət [vərdiş] və adətimiz, bizim ruhumuzu, fikrimizi, istedadımızı olanca açıqlığı ilə göstərir.

Aman, ya rəbbi! Bu istidə, o toz-torpağa, o murdarlığa, o həyata səbr nə deməkdir?

Bugünlərdə Quba meydanından, Bazarnı küçədən keçən bir məbus [Parlament üzvü], bir hökumət ricalı [hökumət adamı] əcəba o çirkin mənzərəni, o həyatsuz [həyatı yandırıb qovuran, məhv edən] həyatı heç görməyirmi?

O yerləri görən Bələdiyyə İdarəsi əzasının [üzvlərinin] ürəyində əcəba zərrə qədər bir məsuliyyət hissi, həyası oyanmayırmı? Nədir, adi üsuli-sihhiyyəyə [gigiyena qaydalarına] belə zidd olan bu sihhiy-yəsizlik?

Şəhər bələdiyyəsi aldığı milyon borcları əcəba haraya xərc edir?

Quba meydanının halı yavaş-yavaş şəhərin özgə yerlərinə də keçir. Ən məşhur və görkəmli küçələrimizdə də zibil, murdarlıq əskik deyil.

Altı aydan artıqdır ki, müsəlman məhəllələrində yığılan zibil, torpaq təpələri çəkilib təmizlənə bilməyir. Külək olan vaxtda o təpələrdən, o yığın zibillərdən meydana gələn toz buludu, o buludların insanların üzlərini, dükanların yaş mallarını, meyvələrini nə hala saldığını görməlisiniz.

Şəhərin zibilini, toz-torpağını keçəndən sonra bir halı daha var ki, böyük və mədəni, xüsusilə paytaxtımız [olan] bir şəhərə əsla yaraşmayır. O da ümumiyyətlə dükançıların "tretuar"ları [səkiləri] qismən zəbt və qəsb etmələridir. Hələ bir çox baqqal dükanları mallarının bir çoxunu tretuara, küçəyə doldurmuş, gəlib-keçənlərin yollarını adəta kəsmişlərdir. Son vaxtlarda isə küçə başlarında, kənarlarında müstəqil meyvə sərgiləri vücuda gətirib küçənin nizam, rahat və intizamını pozmaqdadırlar. Bunlar, bu asan üstü açıq dükanlar axır vaxtlarda şəhərin hər küçəsində göbələk kimi artmaqdadır.

Şəhərin zibilliyinə, konkasızlığına, dükançıların, hər kefi istəyən meyvə satanların ümuma məxsus olan tretuar və küçələrin birər qisimlərini qəsb etmələrinə baxınca insan bu böyük və dövlətli şəhərin sahibi, bələdiyyəsi olmadığı zənninə düşür.

Bu hal isə Azərbaycan paytaxtı üçün ləkədir. Azərbaycan istiqbalı [gələcəyi] üçün ümidsizlikdir. Azərbaycan idarəsi üçün qüsurdur. Xaricilərə qarşı idarəsizliyimiz nümunəsidir. Mədəni istedadsızlığımız əlamətidir. Köhnə adətimizdən ayrılmamağımız nişanəsidir.

Doğru, bunlar xırda şeylərdir. Lakin, bilməli ki, xırda şeylər bütün həyati-ictimaiyyəmizin, üsuli-idarəmizin, qabiliyyəti-istiqlaliyyəmizin birər dilsiz şahidləridir. Buna görə, məmləkətin müqəddəratını öhdələrinə alan məbuslarla ricali-hökumət yüz minlərcə camaatın istirahətini pozan bu hala, bələdiyyənin bu tənbəllik və qanunsuzluğuna bir nəhayət verməlidir.

Milyonlarla aldığı və yenidən almaq istədiyi borclara müqabil, ondan iş və təmizlik tələb etməlidir.

Şəhərimiz idarəsizliyinə çarə edilməlidir.

*Ümidvar*

## AZƏRBAYCAN İSLAHATI

### I

**Daxiləmiz haqqında**

Hər məmləkətin qüvvəti, əzəməti daxiləsinə bağlıdır. Daxilində maddi, mənəvi bir irtibat [bağlılıq] olmazsa, xaricində də o qədər əhəmiyyəti olmaz, kimsənin etina və etibarını cəlb edəmməz, kimsə ilə əlaqədə bulunammaz.

Məmləkətdə əhali tərəfindən yaşamağa bir ləyaqət görülməzsə, hökumət acizləşər, əli-qolu bağlı əsir halına düşər, istifadə edəcəyi mənbələrdən məhrum olar, qonşu dövlətlərlə siyasi və ticarəti münasibata girişməyə müvəffəq olammaz. Çünki dövlət və məmləkətin nüfuz və etibarı, daxilindəki əmniyyət, mədəniyyətdən, əhalidəki vətənpərvərlik və hüquqşünaslıqdan [hüququnu bilməkdən] ibarətdir.

Hüquqşünas əhalisi olan hər məmləkət, hər dövlət ümum dünyanın hüsntəvəccöhünü qazanmışdır, mədəniyyətin övci-əlasına [zirvəsinə] varmışdır, cahanın bütün sərvətini kəndi ölkəsinə toplamışdır.

Tarixi-aləm, millət etdiyi ümum dövlət və məmləkət ərbabının daxilindəki tərəqqiyyatı, tarixdəki fütuhatını [fəthlərini, nailiyyətlətini] birər-birər qeyd edərək, ədalət, əmn-asayişlə yaşayanları və islahat uğrunda çalışanları təqdir, məmləkət və dövlətin nə olduğunu anlamayıb pusuda duran düşmənlərə yol açanları, vətən övladı ikən yabançılar kimi sərsərilik edənləri təlin edir [lənətləyir], namına dünya var ikən səhifələrində silinməyəcək mələnət [lənət] abidələri yapır.

Bu nöqtəni ətraflıca anlamaq üçün Birinci Sultan Osman dövründən Üçüncü Sultan Məhəmməd xanın zamanına qədər Osmanlı vətənpərvərliyini, Birinci Əhməd xandan Dördüncü Sultan Murad xan əsrinədək olan etinasızlığı və törətdiyi müdhiş nəticələri nəzərdən keçirməlidir.

Daxildəki islahat və tərəqqiyyat xüsusatı yalnız hökumətə aid deyildir. Ən böyük və ən mühüm qismi əhalinin, bilxassə vətən və hökumət sahibi millətin öhdəsindədir. Millət, milləti-hakimə olmaq məziyyətini anlayaraq yabançılara itaət etməmək, kəndi istiqlal, kəndi hökumətini möhkəmlətmək üçün ancaq və ancaq içərisində maddi-mənəvi bir irtibat vücuda gətirməli və bu irtibat sayəsində milli duyğu, milli haqq, milli səltənət silahı ilə müsəlləh olaraq [silahlanaraq], mövcudiyyəti-milliyyəsi ilə meydana çıxmalıdır.

Bu xüsusda “Əfqan tarixi” dəxi mühüm sətirlər qeyd edir. Quldurlar yatağı kəsilib, çapovulçular meydanı olan Əfqanıstan bu gün əfqanlıların vətənpərəstliyi, milliyyətpərvərliyi, istiqlaldostluğu ilə müəzzəm [böyük] bir hökumət şəklinə qonulmuşdur.

Əfqan əmiri əmir Əbdürrəhman xan həzrətləri “Tacüt-təvarix”ində deyir ki:

*“Əgər Cənabi-Haqqın tövfiqi, millətimin yardımı olmasaydı, mən kəndi başıma Əfqanıstanı vücuda gətirəmməzdim. Həman Rusiyada qalacaq və ömrümü bitirəcəkdim.”*

Binaənileyh, millət hökumətlə daima birgə çalışmalıdır. Bəlkə də, daha ziyadə çalışmalıdır. Çünki millət gördüyü və diqqət etdiyi işləri hökumət görəmməz. Hö-

kumət xarici və daxili idarələrin, münasibatın çarələrini bulmağa uğraşırkən, soqaqlardakı, ötədə-bəridəki saçmaları, dedi-qoduları görməyə vaxt bulammaz.

Bununla bərabər, hökumət dəxi nəzəri-etinadan uzaq tutmamalıdır. Zira daxilədəki müamilat [rəftar] və hərəkat başqa dürlü olarsa, zamanlarla Fransada, Portuqalda və sair yerlərdə vüqu bulan vaqeələrin zühuruna ehtimal edilər. Burasına hökumət, başqa nöqtələrinə də millət kəndisi diqqət etməlidir.

Millət yeni təşəkkül etmiş məmləkətdə quldurluğa, adam öldürməyə, qumar oynatmağa, cibgirliyə və sair bu kimi çirkin hərəkətlərə yol verməməlidir. Beş para nəfi [xeyri] üçün canavarlar çəngalından [caynağından] qanlar bahası ilə xilas edilən müqəddəs yurdumuzda bahalıq törətməyə, ərzaq və məkulatı [qida maddələrini] gizlətməklə əhalini müşkülata düçar etməyə imkan buraxmamalıdır. Böylə alçaqlıqları irtikab edənləri [işləyənləri] məqami-aidinə bildirməli, qanunən onları təhti-məsuliyyətə [məsuliyyət altına] almalıdır. Hiylə, nifaq, təməllüq [yaltaqlıq] və boşboğazlığı tərk etməli, vətənin maddi və mənəvi tərəqqiyyatına qeyrət etməlidir. Zira alçaqlıq, məmləkəti abad etməz, düşmənə cavab verəmməz, islahat vücuda gətirəmməz.

Keçmiş fəlakəti təkrarən görməmək üçün daima istiqlal və haqqi-hakimiyyət yolunda çalışmalı, milli haqq, milli duyğu, milli səltənəti göz bəbəyi kimi hifz etməliyiz. Bununla millət, millət; məmləkət də məmləkət olar.

Moskov hakimiyyəti-mənhusəsi altında əzildiyimiz zamanlar unudulmasın. O hakimiyyət bizi milli haqq, milli səltənət sövdasında görüb əzməyirdi. Yalnız yaşamağa qabil deyilsiniz deyə bizi boğurdu, edam edirdi, ötəyə-bəriyə sürürdü. Əgər o müdhiş canavar haqqi-hakimiyyət və istiqlali-millinin xəyalımızdan belə keçməsini hiss etsəydi, heç şübhəsiz ki, bizdən bir çocuq da olsun salamat buraxmazdı.

*Ayn. Ayn.*

## FƏHLƏLƏRƏ ƏRZAQ

Fəhlələrin bahalıqdan çəkdikləri əziyyəti və məşəqqəti nəzərə alaraq Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Komitəsi Bakı və ətrafının mədən dairələrində çalışmaqda olan işçilərə və zəhmətkeşlərə bilafərqi-din və millət [din və millət fərqi olmadan], ərzaq cəhətincə müavinətdə bulunmağı təhtiqərara almışdır. Buna görə, Mərkəzi Komitə Kəndçilər İttifaqı ilə danışığa girib lazımi miqdarda birinci zəruri şeylər almağa müvəffəq olmuşdur.

Alınan ərzağı fəhlələrə paylamaqdan ötrü "Müsavat" firqəsi bütün rayonlarda olan şöbələrinə müraciətən tələb etmişdir ki, ərzaq paylamaq üçün öz aralarından bacarıqlı adamlardan ibarət xüsusi heyət təşkil etsinlər. Heyət ərzağa möhtac olan fəhlə yoldaşların siyahısını götürüb saxlamalıdır və digər surətini də mərkəzə bildirməlidir ki, Mərkəzi Komitə möhtacların miqdarına görə ərzaq ala bilsin. Bu günə kimi Ağ şəhər və Qara şəhər, Suraxanı, Balaxanı, Sabunçu və bir çox dairələrdə olan şöbələr böylə heyətlər təşkil edib işə başlamışlardır.

Bahalıq və onun fəhlə həyatına təsiri siyasət və bu saat istiqlaliyyət nöqteyi-nəzərindən nə qədər böyük rollar oynadığını, aclıq və ondan da anarxiya kimi təhlükələr törətdiyini bilməyən az olsa gərəkdir. Fəhlələri möhtac olduqları birinci zəruri şeylər tərəfindən təmin etmək bir çox fənalıqları rəf edər [aradan qaldırar] və bir çox macəraçıların "fəaliyyətinə" sədlər çəkmiş olacağından "Müsavat" firqəsinin bu təşəbbüsünü təqdir etməmək olmaz. Xüsusən Bakı Kəndçilər İttifaqının bu barədə iqdamatı [təşəbbüsü] şayani-təşəkkürdür [təşəkkürə layiqdir]. "Müsavat" firqəsinə və Kəndçilər İttifaqına fəaliyyətini artırmağı tövsiyə ilə bütün işçi və zəhmətkeş arxadaşlara da bu işdən istifadə etməyi məsləhət görürüz.

*Məhəmmədzadə Mirzəbala*

## MÜSƏLMAN QAÇQINLARI VƏ AMERİKA MÜAVİNƏTİ

Qarabağ qaçqınları vəkilləri Qarabağ general-qubernatoruna böylə bir ərizə göndərib qəzetələrdə dərc edilməsini xahiş etmişlərdir:

Dünyanın mədəni millətlərindən biri olan Amerika milləti müharibədən mütəzərrir olan [zərər çəkən] Yaxın Şərq əhalisinin halına qalıb, bəşəriyyətə olan məhəbbət hissinə görə Yaxın Şərqə müavinət etmək cəmiyyəti təşkil edilmişdir. Bu cəmiyyət heç bir siyasi məqsəd təqib etməyib, bilafərqi-məzhəb və millət [məzhəb və millət fərqi olmadan], ərzaqdan korluq çəkən əhali üçün müavinət etməkdən ötrü təşkil edilmişdir.

Biz bu gözəl işin sədaqət üzrə olmasına inanırıq. Fəqət, məatəəssüf [təəssüf ki], bu işdə bilafərq bütün millətlərə münasibət əsası məhəlli [yerli] Amerika cəmiyyəti nümayəndələri tərəfindən vücuda gətiril[mə]mişdir. Öz millətlərinin arzusunu yerinə yetirmək əvəzinə bu nümayəndələr nədənsə birtərəfli işləyib, başqa bir millətin üsrət [çətinlik] və ehtiyacını nəzərə almamaqla bütün diqqətlərini bir millətə döndərmişlərdir. Belə ki, bizim Qarabağ rayonunda 40 mindən ziyadə müsəlman qaçqını vardır ki, indiyə qədər onlara məzkur [deyilən] cəmiyyət tərəfindən heç bir müavinət edilməmişdir. Amma erməni qaçqınlarına milyonlarla para sərf edilmişdir. Belə görünür ki, bu nümayəndələr bütün millətlərə bilafərq baxmaq əvəzinə, bir cür təsir altına düşüb anlaşılmaz bir siyasət aparırlar.

Məgər düşmənlərimiz bizləri vəhşi qələmə verməklə biz məhv olub qurtarmalıyızmı? Məgər bu cür bir müqəddəs və insaniyyətdost təşəbbüsatı öz öhdəsinə götürən mədəniyyətli Amerika milləti bizi nəzərə almayıb ah-naləmizi eşitməzmi?

Bu yaxınlarda məhəlli komitəyə bir Amerika kapitanı gəlmiş ki, erməni rayonlarını gəzməkdə idi. Bilafərq hamıya müavinət etmək əvəzinə erməni kəndlərinin dağılması və bəzi qətl-qarətlər haqqında məlumat əxz edirmiş. Bu siyasi hərəkətin məzkur cəmiyyət məramnaməsinə daxil olub-olmadığını bilməyirik. Hərgah belədirsə, nə səbəbə bu məlumat ancaq erməni rayonunda cəm edilib müsəlman rayonunda cəm edilməyir ki, burada ermənilərin hərəkatından külli

miqdarda əhali xəsarətə düçar olmuşdur.

Biz bu bədbəxtliklərin aşkar edilməsi əleyhinə deyilik. Lakin həqiqətlərin aşkar edilməsi və işin birtərəfli aparılmamasını tələb edirik.

Siz cənabdan acizanə rica edirik ki, bizim bu ərzi-halımızı mətbuat vasitəsilə aləmi-mədəniyyətə elan edəsiniz. Ələlümdə Amerika millətini onların nümayəndələrinin bizim vilayətdə gördükləri işlərdən xəbərdar etməlisiniz ki, onlar qardaşlıq müavinəti olan müqəddəs işdən boyun qaçırıb bir siyasətə uymuşlardır və öz millətlərinin arzu və xahişinə rəğmən, on minlərcə üsrət çəkən qaçqın müsəlmanları müavinətsiz qoyub nəzərietinaya almayırlar.

## BAKI XƏBƏRLƏRİ

**Parlaman komisyonlarında**

- Cinayət işlərində sülh məhkəmələrinin daireyi-hökmü tövsi [genişləndirilməsi] və sülh hakimləri hökmünün təqviyəsi [gücləndirilməsi] ilə əmvali-xassəyə [xüsusi mülkiyyətə] qarşı icra olunan bəzi cinayətlərə biçiləcək qanunların təbdil və təğyiri [dəyişdirilməsi və düzəldilməsi] haqqında bir qanun layihəsi tərtib verilmişdir. Məzkur [deyilən] layiheyi-qanuniyyə, Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komisyonunda təsdiq olunub, Parlaman heyəti-ümumiyyəsinə təqdim edilmişdir.

- Daxiliyyə Nəzarəti məmurları miqdarının artırılması və bunlara maaş və faiz əlavələri vermək üçün 125.768 rublə buraxılması haqqında bir qanun layihəsi tərtib verilmiş və Parlamanın Maliyyə və Büdcə komisyonuna idxal edilmişdir.

**Ləvazimat alınması**

Aldığımız məlumata görə, İtaliyadan bəzi hərbi ləvazimat, o cümlədən aeroplan, bronevik [zirehli avtomobil] və bu kimi şeylər almaqdan ötrü hökumətimiz İtaliya hökumətinin nümayəndələri ilə danışığa girişmişdir.

**Lənkəran məsələsi**

Aldığımız məlumata görə, Lənkəranda olan muğanlıların başçısı İlyaşeviç ingilislərin Azərbaycana tabe olmaq təkliflərinə demişdir ki, bu barədə onu intixab edən uprava bir söz deyə bilər. İngilislərin əmri ilə uprava cəm olub bəyan etmişdir ki, bu barədə ancaq syezd bir rəy verməyə haqlıdır. Bir neçə gün irəli, syezd dəvət ediləcək və Parlaman üzvü Cavad Məlik-Yeganov həmin syezddə iştirak edəcəkdi.

Lənkəran ətrafında 6 min nəfərə kimi silahlı müsəlman Azərbaycan Hökumətindən əmr gözləməkdədir.

**Avropaya yeni heyət**

Eşitdiyimizə görə, bəzi mühüm məsələləri İngiltərə mərkəzi hökumətinin kəndisi ilə müzakirə və həll etməkdən ötrü, hökumətimiz Avropaya yeni bir heyət göndərmək fikrindədir.

**İngilislər gedəcəklər**

Bakıda olan ingilis qüvvəsi komandanlığı hökumətimizə rəsmi surətdə məlum etmişdir ki, Londondan aldıqları əmrə görə, Rusiyadan təmiz çıxacaqlardır. O mü-

nasibətlə yavuq günlərdə Azərbaycanı da boşaldacaqlardır.

**“Müsavat”da**

- “Müsavat” firqəsinin İstixbarat [Xəbərlər] şöbəsi xəbər verir ki, Dostu Məhəmməd qızı, əri Məhəmməd Dadaşovun İngilis Komandanlığının polis müdiri tərəfindən bir il yarımlıq həbsə alındığı haqqında “Müsavat”a şikayət etmişdir. “Müsavat” firqəsinin Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsi bu barədə lazımi təhqiqat yapmaqdadır.

- Mirbabayev mədənində işləyən Yusif Səməd oğlu “Müsavat” firqəsinə xəbər verir ki, 1 il 8 aydır ki, çalışır və o müddətin 9 ayı külfətlidir. Lakin, mədən müdiriyyəti tərəfindən ona nə ailə haqqı və nə də ev kirayəsi verilmişdir. Bu barədə “Müsavat” firqəsinin Mürafiə və Müsalihə şöbəsi iqdamatda bulunub [təşəbbüs göstərib] fəhləni razı salmışdır.

**May tətili haqqında**

Balaxanıda Mantaşovun 175 nömrəli mədənində çalışan müsəlman fəhlələri “Müsavat” firqəsinə xəbər verirlər ki, may tətillərində iştirak etmədiklərinə baxmayaraq haqları hənuz verilməmişdir. “Müsavat” firqəsinin Müsalihə və Mürafiə şöbəsinin təşəbbüsü ilə fəhlələrin bu haqqı iadə edilmişdir [özlərinə verilmişdir].

**Məhəmmədxanov**

Sayad Xızı icmasının Qarabulaq kəndində olan “Müsavat” şöbəsi, Mərkəzi Komitənin İstixbarat şöbəsinə xəbər verir ki, Balaxanı-Sabunçu polismeysterstvasının 7-ci dairə okolodoçnısı [polis sahə rəisi] Məhəmmədxanov kəndə gəlib zorla ərzaq tələb etmişdir və dörd-beş adamı həbs etdirib böyük əziyyətlə dama saldırmışdır. Kəndin ağsaqqallarını, mollasını təhqir edib, “Müsavat” üzvlərini həbs etməklə təhdid etmişdir. Okolodoçnı, kəndə 4 min manat xərc qoyub, verilməyincə məhbusları buraxmayacağını xəbər vermişdir. Çətinliklə Bakıya qaçmış olan firqə üzvü camaat tərəfindən okolodoçnı Məhəmmədxanovun bu hərəkətinin qabağını almağı rica edir.

**Binəqədidə müsamirə**

Cümə günü, ağustosun 8-də Binəqədi Xalq yurdu (Narodnı dom) binasında həmin cəmiyyətin heyəti-idarəsi tərəfindən müsamirə [konsert] tərtib veriləcəkdir, tamaşalar göstəriləcəkdir.

**“Modern” sirkində**

Avqustun 4-də Modern sirkində Neizvestnı, Zakoroyko yıxa bilmədiyindən, bağladığı şərtə görə 500 manat vermişdir. Zakoroyko bu pulun yarısını Bakı şəhərinin müsəlman yetimləri nəfinə [xeyrinə] və qalanını da rus uşaqları nəfinə vermişdir. Tamaşaçılardan bir nəfəri 500 və digəri 100 manat ianə etmişlərdir. Cəm edilən 1100 manat yerinə yetirilmək üçün 8-ci uçastok pristavına verilmişdir.

**Nazirin ziyarəti**

Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov ağustosun 4-də ingilis qüvvəsinin komandanı general Şattlvortu ziyarət etmişdir.

**Hərbi gəmilərin vürudu [gəlişi]**

Bir neçə gün əvvəl Bakı bəndərinə [li-

manına] Bulvar qarşısındakı gömrükxana körpüsünə ingilis hərbi gəmiləri yaxlaşmış olduğundan, camaatda bu münasibətlə bir həyəcan oyanmışdır. Sonra, təhqiqatdan anlaşılmışdır ki, bu paroxodlar ingilis bayramı münasibətilə Bakıya gəlib, ümumi şənlikdə iştirak etsin.

**“Rossiya” qəzetəsi**

“Rossiya” qəzetəsinin müdirini təhtiməsuliyyətə [məsuliyyət altına] almaqdan ötrü Daxiliyyə naziri Bakı qubernatoruna əmr etmişdir ki, həmin qəzetənin yapdığı provokasiya haqqında lazımi materialları toplayıb Daxiliyyə Nəzarətinə təqdim etsin.

**Mənzil məsələsi**

Son günlərdə Bakıda mənzil və otaq məsələsi kəskin bir hal aldığından, Bakı qradonaçalniki Şəhər İdarəsinə müraciətən mənzil məsələsini müzakirə etməkdən ötrü xüsusi müşavirə dəvət etməyi təklif etmişdir.

**Dəmiryolunda**

Bakı-Qara dəniz və Bakı-Vladiqafqaz arasında mümaniətsiz [maneəsiz] vaqon hərəkətini yoluna salmaqdan ötrü Azərbaycan Hökuməti ilə digər tərəflər arasında bu günlərdə xüsusi əhdnamə [saziş] bağlanacaqdır.

**Birjada**

Laj təbəddülatsızdır [kurs dəyişməmişdir]. Türk lirələri bahalanmadadır. Qızıl lirələr 425 rubləyə gedir. Frank və İtaliya lirələri xəfif və düşkündür. Böylə ki, birincilər 18 rubləyə, ikincilər 14 rubləyə getməkdədir.

**Ticarət bazarı**

Spiçka [kibrit] gündən-günə ucuzlanır. Dünən qutusu 1 manat yarıma satılırdı. Şəkər (pesok) bir az qalxıb, bu saat putu 1000-1050 rubləyə satılır. Bu günlərdə Batumdan Bakıya külli miqdarda qəzetə və yazı kağızları varid olacaqdır.

## AZƏRBAYCANDA

**Zəngəzur hadisələri**

Müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılmasını təhqiq etməkdən ötrü kapitan Gvoans Zəngəzur uyezdinə getmişdir. Kapitan xəbər vermişdir ki, aşağıdakı kəndlər dağılmışdır: Ağbis, Yeməzlər, Xaştab, Kor, Dəllər, Atqız, Hacıqurbanlar, Sura, Qoçaz, Qaraçimən.

Bu kəndlər hamısı Kaps dağından Kəhriz çayına qədər olan dərədədir. Erməni kəndləri onların üzərində ağalıq edirlər.

Ümumiyyətlə 300 ev xarab edilib, 58 müsəlman arvad-uşaq ilə bərabər qətl edilmişdir. Məzkur [deyilən] kəndlərin dağılmasına səbəb budur:

İyulun 5-də səhərə yaxın həman kəndlərin əhalisi ermənilər tərəfindən mühasirə edilmişlər. Ermənilərdə bombalar varmış. Şeypur səsi ilə ermənilər hücuma keçmişlərdir. Müsəlmanların tüfəngləri az olduğundan dağlara qaçmışlardır. Arvad-uşaqlardan bir paraları xilas ola bilmədiklərindən, axırda onların meyitləri tapılmışdır. İki saatdan sonra həman müsəlman kəndləri mühasirə edilmişdir. Hücum edənlərin erməni nizami əsgərləri olduğuna sübut yoxdursa da, hər halda ermənilərin əməliyyatı nizami bir surət-

də icra edilmişdir. Həman kəndlərin qaçqınlarının halı fövqəladə surətdə fənadır. Azərbaycan Hökuməti onları xörəkdən təmin etməkdən ötrü tədbirlər ittixaz etməlidir [tədbirlər görməlidir].

*İmza: Baş ərkani-hərb polkovniki: Klatterbak*

**Lənkəranlıların istidası [xahişi]**

Düşənbə [bazar ertəsi] günü saat 12-də, Muğan nahiyə idarəsi tərəfindən Bakıya göndərilmiş nümayəndə Əhməd Zeynalov İngiltərə ərkani-hərbinə [qərargahına] böylə bir ərzi-hal vermişdir:

1 il 5 aydır ki, Lənkəranda müxtəlif siyasi firqələr bayrağı altında Muğan Hökuməti hökmfərmadır [hökm sürməkdədir]. Bu müddət zərfində daima müsəlmanlar qarətdən və nizamsızlıqdan üsrət [əziyyət] çəkmişdir. Muğanda hökumət dəyişilən zaman həmişə böyük ixtilaflar çıxıb, bəzən top atışmasına belə müncər olmuşdur [çevrilmişdir]. Odur ki, hər dəfə müsəlman əhalisi maddi və həyati mütəzərrir olmuşdur [zərər çəkmişdir].

Müsəlmanlar ələlxüsus axırıncı hadisələrdə böyük xəsarətə düçar olmuşlar. Belə ki, bolşeviklər müsəlman əhalisi dəstələrinin təzyiqi altında geri çəkildikdə hər bir şeyi xarab etmişlərdir.

Şəhər zalımların əlindən azad olduqdan sonra, hamı bu fikirdə idi ki, sakitlik olar və müsəlmanlar da öz doğma yurdları olan Azərbaycanda özlərini hər bir hadisələrdən təmin olunmuş hiss edərlər. Lakin bədbəxtanə müsəlmanlara rahat yaşamaq olmazmış. Belə ki, şəhər muğanlılar tərəfindən işğal edilib minlərcə müsəlman əhalisinin istəmədikləri hökumət qurulmuşdur.

Bu hökumət 31 nəfər üzvdən ibarətdir. Bunlardan 10 nəfəri müsəlmandır vəhalonki [halbuki] müsəlmanlar 200 mindən ziyadə olduğu halda, ruslar 10 mindən artıq deyildir. Müsəlman əhalisi muğanlılar tərəfindən təhdid edilir. Çünki Lənkəranda qalan bolşevik əsgərləri də muğanlılar tərəfinə keçmişlərdir. Ola bilər ki, yenə bolşevik hökumətini bərpa etmək üçün ixtilaf çıxsın.

Buna görə mən Muğan Hökuməti tərəfindən vəkil sifəti ilə müsəlman əhalisinin arzusunu izhar edib, 4 nəfər rus vəkillərinin rəyinə şərik olmamaqla qəti surətdə məlum edirəm ki, 200 min müsəlman əhalisi Muğan Hökumətinə deyil, ancaq Azərbaycan Hökumətinə tabe olmaq istəyir.

Buna görə, Lənkəran uyezdinin müsəlman əhalisi İngiltərə Komandanlığından xahiş edir ki, müsəlman və rus əhalisi arasında olan ixtilafın bərtərəf edilməsi [aradan qaldırılması] üçün lazımi tədbirlər görsün və Lənkəran uyezdində qanun və asayişi bərpa edib, əhalinin canını və malını qətl-qarətdən təmin etməkdən ötrü, Muğan Hökumətinin Azərbaycan ixtiyarına təslim edilməsi əmrini versin.

Bu məzmunda bir ərizə Əhməd Zeynalov tərəfindən Şurayi-Vükəla sədrinə də verilmişdir.

**Lənkəranda**

Aldığımız məlumata görə, Lənkəranın əhvalı bərvəchi-ati [aşağıdakı kimi] təsvir edilir:

Lənkəran şəhəri Muğan köylülərinin əlindədir. Köylülərin buradakı qüvvəti iki

mindən ziyadə deyildir. Şəhər, müsəlmanlar qoşun qitəatı [qoşun hissələri] tərəfindən mühasirəyə alınmışdır. Hər gün tərəfeyn miyanında [iki tərəf arasında] toqquşmalar vaqe olursa da, iş hələ böyüməmişdir.

Ağustosun 3-də iki ingilis zabiti məiyyəti [müşayiəti] ilə Lənkərana Azərbaycan heyəti varid [daxil] olmuşdur. Muğanlılara təcili surətdə Azərbaycan Cümhuriyyətini qəbulla, silahlarını vermək təklif edildi. Birinci təklifə, yəni Azərbaycan Cümhuriyyətinə tabe olmağa muğanlılar razı olmuşdurlar. Fəqət silahlarını vermək istəməyirlər. Ancaq, hələlik cavab verilməmişdir. Avqustun 5-də Lənkəranda bir qurultay iniqad etmişdir. İşbu qurultay məsələni həll etməlidir.

**Yer axtarır**

Bakı Realnı məktəbinin beşinci sinfi biçiz [yoxsul] şagirdi özünə xidmət arayır. Xidmətə böyük ehtiyacı var. Rusca və türkcə mükəmməl savadı vardır. Xahiş edənlər "Azərbaycan" qəzeti kontorunda öz adreslərini C. B. adına qoya bilərlər.

*7423*

**Doktor**
**M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78, 10-1-ədək.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat

5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Bakı Apteklər Cəmiyyəti kooperativi "Formatsiya"**

səh. 132. "kalomel": mineral; tibbdə mikrob əleyhinə vasitə kimi istifadə edilmişdir.

"pepsin şərabı": pepsin fermentindən hazırlanan dərman vasitəsi; həzm sistemini yaxşılaşdırmaq məqsədi ilə işlədilmişdir.

"talk": mineral; əsasən pudra (xüsusən uşaq pudrası) hazırlanmasında istifadə edilir.

"efir": təbabətdə, ətriyyat sənayesində və s.-də istifadə edilən orqanik maddə.

"sink okis": qeyri-üzvi kristal; kimya və əczaçılıq sənayesində geniş tətbiq edilir.

"bornı kislata": (bor turşusu) qeyri-üzvi turşu; bir çox sahədə, o cümlədən əczaçılıq sənayesində istifadə edilir.

"təmizlənmiş kislata": təmizlənmiş xlorid turşusu nəzərdə tutulur; metallurgiya sahəsində, eləcə də yeyinti sənayesində istifadə edilir.

"72% Marsel sabunu": bitki yağlarından hazırlanan ənənəvi fransız sabunu.

"marqansovokislı kaliy": kalium permanqanat; bir çox sahədə, o cümlədən tibbdə istifadə edilir.

"limu duzu": limon turşusu; yeyinti, əczaçılıq sənayelərində və başqa sahələrdə istifadə edilir.

"şerlak": şellak, təbii qatran; yeyinti, əczaçılıq, kosmetika sənayesində və başqa sahələrdə istifadə edilir.

"Esmarx parçları": alman həkimi Esmarx tərəfindən icad edilən, bağırsaqları təmizləmək məqsədi ilə istifadə edilən tibbi avadanlıq.

"sernokislı sink": sink sulfat; əczaçılıq, gübrə, yem sənayesində və başqa sahələrdə istifadə edilən kimyəvi maddə.

"dəmir kuporosu": dəmir sulfat; qeyri-

üzvi maddə; kənd təsərrüfatında, əczaçılıq sənayesində, mürəkkəb hazırlanmasında və s. istifadə edilir.

"efirno-valerianovı, yod və tiryək nastoykaları": tibbdə sakitləşdirici vasitə kimi geniş tətbiq edilmiş efir-valerian məhlulu, yod məhlulu və ağrıkəsici kimi işlədilmiş tiryək məhlulu.

"kamfora yağı": tibbi məqsədlər üçün istifadə edilir.

**Teleqraf xəbərləri**

səh. 136. "Məclisi-Əyan": İkipalatalı Britaniya Parlamentinin yuxarı palatası olan Lordlar Palatası nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 138. "Knyaz Urusovun": qəzetdə səhvən "General Urusovun" kimi getmişdir.

**Azərbaycan xaricində**

səh. 139. "Yarmaroçnı": Xarkovda meydan; indiki Konstitusiya meydanı; qəzetdə bu ad təhrif edilmiş, "Yarmoçi" kimi getmişdir.

"Ryabovol": qəzetdə səhvən "Ryabov" getmişdir.

"çaşka çay": (za çaşkoy çaya) çay süfrəsi arxasında təşkil edilən məclis; o dövrdə xüsusilə qeyri-rəsmi müzakirə, tanışlıq məclisləri belə adlanırdı.

səh. 140. "Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

**"Vətənim!" şeiri (səh. 141)
üçün lüğət:**

mə'mən: sığınacaq, pənah yeri

**Böyük Vedi hadisatı**

səh. 144. "üsyan etmiş vətəndaşları cəzalandırmaq": qəzetdə "etmiş" yerinə "etməyən" getmişdir.

**Azərbaycan islahatı**

səh. 146. "Tacüt-təvarix": Əfqanıstan əmiri Əbdürrəhman xanın avtobioqrafik əsəri.

**Bakı xəbərləri**

səh.151. "Rossiya": söhbət Bakı Rus Milli Şurasının qəzetindən gedir.



آذربایجان

اعلان

*"Azərbaycan" qəzetinin 247-ci nömrəsinin 1-ci səhifəsi*

**Bazar, 10 avqust 1919-cu il, nömrə 247**

AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 13 zülqədətül-haram sənə 1337. 10 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ZİRAƏT VƏ ƏMLAK NƏZARƏTİNDƏN

Bakı, Gəncə quberniyaları dairəsində müharibə zamanı bir para adamlar öz meyvə, üzüm bağlarını və əkiləcək yerlərini heç kimə tapşırmayaraq qoyub getmişlər. Bunları qanunsuz olaraq bir para adamlar zəbt etməsin deyə 1918-1919-cu ildə onların bir hissəsi icarəyə verilmişdir. Nəzarət bu bağların və binaların məhv olmasını nəzərə alaraq, bunları birillik müddətinə dəxi icarəyə vermişlər və bununla elan edir ki, bu bağların və yerlərin sahibləri öz yerlərini idarə etmək istərlərsə, bu barədə yerlər onların olmağını isbat edəcək şəhadətnamələrlə ərzi-hal verərək öz yerlərini idarə etməkdən ötrü icazə almalıdırlar. Hərgah ərzi-hal, yerlər icarəyə verildikdən sonra verilərsə, o vaxt yer sahibinə ancaq icarə vaxtı qurtardıqdan sonra öz yerini idarə etməyə icazə veriləcəkdir.

Bakı quberniyası barəsində: ərzi-hal Ziraət Nəzarətinin Yer şöbəsinə (Bakı, Vodovoznı küçə, Mitrofanovun evi, nömrə 8), Gəncə quberniyası barəsində ərzi-hal (Gəncədə) Gəncə Ziraət İdarəsi müdirinə verilməlidir.

*T-204*

## SİRK "MODERN"

Bazar günü ağustosun 10-da 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 43-cü günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: İki məşhur pəhləvanın görüşü Azərbaycan pəhləvanı Mustafa Əhmədov – Avropa pəhləvanı Pavel Zakoroyko.

2-nci: Dünya pəhləvanı Aleksandr Kalişeviç – Naməlum.

3-ncü revanş mübarizəsi Makarovun xahişinə görə maryak Makarov – Petroqrad pəhləvanı Jan-de-Kolon.

Tamaşa başlanacaq axşam saat 8 tamamda.

Pəhləvanların çıxışı 11-in yarısında.

Tamaşa qurtaracaq saat 12 tamamda.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7426*

## HÖKUMƏT TEATROSUNDA AXŞAM TAMAŞASI DRAMA

Bazar günü ağustosun 10-da Türk Səhnəsi aktyorlarının iştirakıyla mövqeyi-tamaşaya qoyulacaqdır
ƏDİRNƏ FƏTHİ
Cəfər Cabbarzadənin əsəri.
Ənvər bəyin rolunu Abbas Mirzə Şərifzadə ifa edəcəkdir.
Biletlər indidən teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam saat 9-un yarısında.
Baş rejissor: Abbas Mirzə Şərifzadə.

*T-207*

## MALİYYƏ NƏZARƏTİ ELAN

Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar [Dövlət Əmanət Kassaları və Kiçik Kredit] İdarəsi Şurayi-Vüzəranın [Nazirlər Kabinetinin] 1919 sənəsi 7 həziran [iyun] qərarı əsasına istinadən elan edir ki:

1) 15 avqustdan (1919 sənə) Azərbaycan Dövləti Əmanət Sandıqları nizamnaməsi ilə mütabiq [uyğun] olmaq üzrə zirdəki [aşağıdakı] 12 Azərbaycan xəzinələri, yəni Bakı, Gəncə, Qazax, Zaqatal, Ağdaş, Göyçay, Quba, Şəki, Petropavlovka, Salyan, Şamaxı və Şuşa xəzinələri cənbində [nəzdində], Azərbaycan posta və teleqraf idarələri cənbində 35 şöbə ilə Azərbaycan Dövləti Əmanət Sandıqları mərkəzi idarələri açılır. Azərbaycan Dövləti Əmanət Sandıqlarına daxil edilən əmanətlər hökumətin bütün vəsaiti ilə dəröhdə edilərək hər zaman heç bir məhdudiyyəti haiz olmamaq [məhdudlaşdırılmamaq] üzrə tamamən tədiyyə edilir [təmin edilir, ödənir]. Əmanətlərə sənəvi [ildə] 3.6 % ayrılır.

2) Yuxarıda göstərilən xəzinələr cənbində vaqe Rusiya əmanət sandıqları keçən 1918 sənəsi eylül [sentyabr] 15-dən etibarən kəndi əlaqələrini, fəaliyyətlərini kəsmişlərdir. Azərbaycan Hökuməti xalq mülahizatı dolayısı ilə [xalqın maraqlarını nəzərə alaraq], 12 xəzinə cənbində açılmış Azərbaycan Dövləti Mərkəzi İdarələrinə 12 xəzinədə vaqe 1918 sənəsi eylülünə qədər sabiq sandıqlardakı əmanətlərin qaytarılmasını və para ilə tədiyyəsini həvalə etmişdir. 1918 sənəsi 15 eylülə qədər idxal edilən əmanətlərin para ilə tədiyyəsi yeni açılmış sandıqlarda Azərbaycan Dövləti Əmanət Sandıqları Mərkəzi İdarəsi tərəfindən nəşr olunub Maliyyə naziri ilə 18 təmmuz [iyul] 1919 sənəsində təsdiq edilən qəvaid [qaydalar] ilə hər ayrı əmanətə təyin olunan nisab [norma] ilə qismən həftədə iki yüz (200) rublə verməklə tətbiq edilir. Faizli kağızlar ilə olan əmanətlər isə heç bir məhdudiyyəti haiz olmamaqla tamamən sahiblərinə qaytarılır.

*İmza etdi: Maliyyə naziri*
*Əliağa Həsənzadə*
*Dövlət Əmanət Sandıqları və Xırda Etibar müdiri:*
*[Nəsir bəy] Tağıyev*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter agentəliyindən)*

Bu gün Fəhlə Firqə İcra Komitəsi iclasında qət olunmuşdur [qərara alınmışdır]:

Nəzəri-diqqətləri buna cəlb etsinlər ki, hökumət camaatın amansız və rəhmsizcəsinə fəhlələri işlətməsinin qabağını almaqdan acizdir. Tələb etsinlər ki, hökumət birinci zəruri şeylərin qiymətləri əskiləcəyinə müəyyən söz versin, yainki istefa versin.

Veymar - Almaniya Milli Şurası iclasında bir çox natiqlər gurultulu alqışlar altında bəyan etmişlərdir ki, almanlar sülh müahidənaməsini [sazişini] ancaq məcburiyyət nəticəsində imzalamışlardır. Gərək bu gün Almaniya azad olsun. Xariciyyə naziri Müller bəyan etmişdir ki, biz həmişə müahidənamə müqabilinə protesto edəcəyiz və əgər bu gün əhdnamənin tez təsdiqinə çalışarsaq, məhz bir an əvvəl ablukanın [blokadanın] qaldırılmasına vadar etmək üçündür.

Vaşinqton - Bir qəzetə mühərriri ilə müsahibə əsnasında Vilson demişdir ki, onun zənnincə, Almaniya əhdnamə mövcibincə [sazişə uyğun olaraq] bütün şeyləri təslim edincəyə qədər Amerika qoşunları Reyn vilayətində qalmalıdırlar. O güman edir ki, Almaniyaya kəndi maliyyəsini bir an əvvəl düzəltmək imkanı vermək üçün Müttəfiqlər mümkün olan qədər tezliklə Almaniya ilə ticarəti təcdid [bərpa] etməlidirlər. Amerika Cəmahiri-Müttəhidəsi [Amerika Birləşmiş Ştatları] kredit açmaqla Avropanın təcdidinə böyük həmiyyət ibraz etmişdir [göstərmişdir].

- Reyn ətrafı vilayətlərinin işğalı haqqında Amerika, Belçika, İngiltərə və Amaniya arasında əqd edilmiş etilafnamənin [bağlanmış sazişin] məzmunu nəşr olunmuşdur. Həman müahidənaməyə görə, işğal olunmuş ərazidə Müttəfiqlərin baş hökumətini təşkil etmək üzrə bir Reynland komissiyası təsis edilməlidir. Komissiyanın ixtiyarı olacaqdır Müttəfiqlər qoşunlarını təminedici əmrlər versin. Mülkiyyə və cinayət işləri alman məhkəməsində mühakimə ediləcəkdir. Fəqət Müttəfiqlərdən birisini təhqir edənlərin işinə Müttəfiqlər divani-hərbində [hərbi məhkəməsində] baxılacaqdır. İdareyi-mülkiyyə [mülki idarə] almanların əlində qalmalıdır. Baş komissiya işğal edilmiş ərazinin hankı yerində istəsə, idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi rejim] elan etmək haqqına malik olacaqdır.

Paris - Almaniya Hökuməti Müttəfiqlərə bir nota verərək bəyan etmişdir ki, alman rəisi-cümhuru [prezidenti] sülh müahidənaməsi və Reyn etilafnaməsinin [razılaşmasının] təsdiqini imzalamışdır. Müahidənamələr xüsusi qasid vasitəsilə göndərilmişdir. Almaniya Hökuməti ümidvar olur ki, bilatəxir [dərhal] abluka [blokada] ləğv edilər və əsirlər vətənə qaytarılarlar.

London - Sülh müahidənaməsinin iqtisadi maddələri haqqında Avstriya hökuməti Müttəfiqlərə bir nota vermişdir. Müttəfiqlər həman notaya cavabən bildirmişlərdir ki, etirazların bəziləri haqlıdır və bəzi güzəştlərdə bulunmağa razıdırlar.

## CÜMƏ GÜNKÜ TELEQRAFLAR

*(Bolşevik xəbərləri)*

**Macarıstan inqilabı**

Nauendən xəbər verirlər ki, Macarıs-

tan Qırmızı ordusunun silahı alınıb tərxis edilir. Asayişi saxlamaqdan ötrü ancaq 4 min nəfər Peştədə və 20 min nəfər də Macarıstanın sair yerlərində əsgər saxlanacaqdır. Təzə hökumət əhalini Romaniya tərəfindən ola biləcək təcavüzatdan müdafiə etməkdən ötrü 5 min nəfərdən ibarət Müttəfiq əsgərlərinin Peştəyə gətirilməsini tələb edir.

**Qraf Andraşi**

İsveçrədən Peştəyə varid olan [gedən] qraf Andraşi Macarıstan siyasiyyunları [siyasətçiləri] ilə müsahibə əsnasında demişdir ki, o, burjuaznı hökuməti lazım görür. Lakin indiki hala görə müştərək nəzarətin lazım olduğunu etiraf edib, özü iştirakdan imtina edir. Füqərayi-kasibəni [proletariatı] qovmaqla burjuaznı hökumət saxlamaq olmaz. Ələlxüsus Romaniya əsgərləri Peştəyə daxil olandan sonra heç mümkün deyildir. Kommunistlər hələ meydandan getməmişlərdir. Hərgah təzə hökumət irticapərəst görünərsə, onlar təzədən çıxış yapacaqlardır.

**Romaniya əsgərləri Peştədə**

Xəbər verirlər ki, 30 min nəfərdən ibarət Romaniya əsgərləri Peştəyə daxil olmuşlardır. Hamı dükanlar qapanmışdır. Teleqraf xətti işğal edilib, dəmiryol xəttinin bir neçə yeri xarab edilmişdir.

**Vilhelm**

Avqustun başında Moskvadan verilən xəbərlərə görə, Lloyd Corc Parisdə Avamlar Kamerasında [İcmalar Palatasında] demişdir ki, hərgah Vilhelm müharibənin baisiədd [hesab] edilsə, ölüm cəzasına məhkum ediləcəkdir.

**Serbiya Kabinəsi**

Belqraddan xəbər verirlər ki, Serb-Xorvat Kabinəsi siyasi ixtilafa görə istefa vermişdir. Kabinə istefasından sonra nizamsızlıq başlanmışdır.

**Amerikada təzə toplar**

Londondan xəbər verir[lər] ki, Vaşinqtondan alınan teleqrafa görə, hökumət departmanı fransızların olduğu kimi 75 və 155 millimetrə cəsamətində topxanaya təzə toplar daxil edilməsini qərara almışdır.

*(Royter agentəliyindən)*

**Polisə tətili**

Londondan xəbər verirlər ki, iyulun 31-də polisənin tətil haqqındakı elanı Polisə İttifaqı tərəfindən buraxılmışdır ki, bu ittifaq keçmiş üsyanlara da cavabdehdir. Məvaciblər məsələsi həll edildikdən sonra həman ittifaq üzvləri azalmışdır. Şəhər polisəsi tətildə iştirak etməkdən boyun qaçırmışdır. Avamlar Kamerasında Şort demişdir ki, 20 min polisə xidmətçilərindən 546-sı öz vəzifələrini ifa etməyə gəlməmişlərdir. Hər kəs işə gəlməməsi haqqında kafi cavab verə bilməsə, dərhal xidmətindən kənar ediləcəkdir.

Liverpuldan başqa, məmləkətin başqa yerlərində tətil baş tutmamışdır. Liverpulda 1700 nəfər polisə xidmətçisindən 300 nəfəri işə gəlmişdir.

**Yaponiya**

"F. R." qəzetəsinin məqaləsində deyilir ki, Şantunq məsələsinin həlli Çin məmləkətini istiqlaliyyətdən məhrum

edir. Yaponiya kömür və dəmir almaqdan başqa məmləkətlərə möhtac olmayıb az bir zamanda Bəhri-Mühiti-kəbirdə [Sakit okeanda] hökm-fərma [hökmran] olacaq donanmasını inşa etməyə müqtədir olacaqdır. Bu, Yaponiyanın irqi xüsusiyyət iddiasından və Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] yapışdırılmadan imtina etməsidir. Bu qərarın qəbul edilməsi Versal müahidənaməsinin ümdə qüsurlarından biriədd ediləcəkdir.

**Bolşevizm təhlükəsi**

Liondan xəbər verirlər ki, Rusiyada olan Amerika sabiq səfiri xəbər vermişdir ki, hərgah bolşeviklər əleyhinə Rusiyaya kömək olmasa, bolşevizm başqa məmləkətlərə də sirayət edər [keçər].

## VÜKƏLA ŞURASINDA

- Rəisi-Vükəlanın [Baş Nazirin] Samurda toplaşmış qaçqınlara Azərbaycan torpağından keçməyə icazə vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

1) Vladiqafqaziya dəmiryolu vaqon verərsə, qaçqınların keçməsinə icazə verməli;

2) Onlar üçün 50 faiz güzəştdə bulunmalı.

- Rəisi-Vükəlanın Tiflisdəki "Lehlər [polyaklar] evi" ehtiyacı üçün 600 pud ağ buğda aparmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Burada qaçqınların hesabı artdığından və əhalinin kəndisinin möhtac olduğundan naşi [olduğuna görə] "Lehlər evi"nin təşəbbüsatı rədd edilsin.

- Rəisi-Vükəlanın Ukrayna Müstəhlikin [İstehlakçılar] Cəmiyyətinin Azərbaycandan bir vaqon buğda aparmasına icazə vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məhsulun azalması və qaçqınlar çoxalmasından baş qalxızmış ehtiyacdan naşi təşəbbüsat rədd edilsin.

- Rəisi-Vükəlanın Ədliyyə naziri müavini təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ədliyyə naziri müavinliyinə işbu sənənin iyulun 1-dən Azərbaycan İstinaf [Apelyasiya] Məhkəməsi sədri Olqert bəy Kriçinskini təyin etməli.

- Ərazi nazirinin 100 nəfər Yeddisu vilayətinin ruslarının müvəqqəti olaraq Azərbaycanda məskun edilmək haqqındakı təşəbbüsatlarına dair məruzəsindən sonra qət edilmişdir:

İşbu məsələ Daxiliyyə naziri, Ərazi naziri, Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirindən mürəkkəb [ibarət] bir komisyonun müzakirəsinə həvalə edilsin.

- Ədyan [Dini Etiqad] nazirinin Azərbaycandan aparılan kəlisa [kilsə] şamlarını gömrükdən azad etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Azərbaycandan aparılan kəlisa şamlarını gömrük xərcindən azad etməli. Fəqət Qafqaziya Sinod kontoru namından gömrükxana təriqi [yolu] ilə fəqət

həman kontor namına olması məşrutdur [şərtdir]. Bu vaxtadək həman kontor üzərində qalmış 1085 manat 30 qəpiyi ləğv etməli.

- Türuq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin cari işlər üçün 50 min manat təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumətin 1 fevral qərardadı mövcibincə [qərardadına əsasən] istənilən para 20 milyonluq fonddan buraxılsın.

- Maliyyə nazirinin dövləti müəssisələr ehtiyacından ötrü əcnəbi valyuta almaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə Nəzarətinə əcnəbi valyutası almaq tapşırılsın.

- Maliyyə nazirinin dəftərxana və aksiz məxaricatı üçün məbləğ təxsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinin məxaricat smetasına aksiz məxaricatı olaraq bərvəchi-ati [aşağıdakı] əlavəyə icazə verilsin: Dəftərxana və təsərrüfat məxaricatına 100 min manat, sənaye məxaricatına 179 min manat.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Gürcüstan Hökumətinin Azərbaycan və Ermənistan hökumətlərinə müraciəti**

İrəvan, Ermənistan Cümhuriyyəti Hökuməti sədrinə

Bakı, Azərbaycan Cümhuriyyəti sədrinə

Qars nahiyəsi və İrəvan quberniyasında son vaxtlar baş qalxızmış qanlı hadisələr Gürcüstan Cümhuriyyəti Hökumətini əndişəyə salmaqdadır. İşbu toqquşmalar Zaqafqaziyanı müdhiş qardaş müharibəsi meydanına sövq edir. Məmləkətimizin müqəddəratı Sülh Konqresində həll edildiyi bir zamanda ümumi siyasi məsələmizi gərginləşdirir və hamı Qafqaziya millətlərini ən fəna nəticələrlə təhdid etməkdədir.

Hamı cümhuriyyətlərin hökumətləri mübahisəli məsələlərin sülh üzrə həlli vasitəsilə işbu toqquşmaların səbəb və müsəbbiblərini [səbəbkarlarını] bərtərəf etməklə [aradan qaldırmaqla] milli ədavəti miyandan [aradan] qaldırmağa var qüvvətlərini sərf etməlidirlər.

İşbu vəzifə ifası vaxtımızın ciddiliyindən dolayı Gürcüstan Cümhuriyyəti Hökuməti Zaqafqaziya Konfransının fəaliyyətinin təcdidini [bərpa edilməsini] təklif edir.

*Gürcüstan Hökuməti sədri əvəzində*
*Xariciyyə naziri: Gegeçkori*

Aldığımız məlumata görə, Azərbaycan Cümhuriyyəti Hökuməti kəndi rizasını vermişdir.

* * *

Fabriçni müfəttiş Əliheydər Babayev cənabları işbu günlərdə Çornı-qorod xəstəxanasının əhvalını təhqiq üçün məhallinə [yerinə] gedib oradakı başsızlıq haqqında bir məruzə tərtib verərək Baş Fabriçni müfəttişə irsalən [göndərməklə],

Məsai Nəzarətinə [Əmək Nazirliyinə] təqdimini rica etmişdir. Məruzədən anlaşıldığı üzrə Neftçilər İttifaqı ixtiyarında olan başqa xəstəxanalardakı nizam və qayda Çornı-qorod xəstəxanasında yoxdur. Zira xidmətçilər son dərəcədə həyəcana gəlmişdirlər. Sərtəbib [Baş həkim] Məsai Nəzarətinin dekretləri haqqında eşitmək belə istəməyərək əski Nikolay qanunlarından fəna qanunlar tətbiq etməkdədir. Müfəttiş lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

## ŞİMALİ QAFQAZ CÜMHURİYYƏTİ VƏ RUSİYAÇILAR

General Denikin bir tərəfdən Şimali Qafqaz hökuməti-cümhuriyyəsini tanımayır, digər tərəfdən Şimali Qafqaz millətlərinə aid ərazidən hər ayaq basdığı yerlər əhalisini əsgər etməyə zorlayır. Madam ki, Şimali Qafqaz hökuməti-cümhuriyyəsini və şimal əqvamının [xalqlarının] hürriyyət və istiqlalını tanımayır, onların hakim olammayacağı bir yer üçün vətəndaşları əleyhinə hərbə onları məcbur etmək əşnə məzalim [daha alçaqca bir zülm] deyilmi?

Hüquqi-düvəl qəvaidi təcviz edərmi [Dövlətlər hüququnun qaydaları icazə verərmi] ki, müstövli [işğalçı] bir ordu bir məmləkətə girincə, o məmləkətin əhalisini dərhal cəbrən [zorla] silahlandırsın və vətəndaşları əleyhinə hərbə sövq etsin? General Denikin Şimali Qafqaz Cümhuriyyətini tanımayıb, yalnız vahid Rusiya hesabına çalışdığına görə, Şimali Qafqaz müsəlmanlarını hürriyyət və istiqlallarının düşməni olan rus hökuməti mənfəətinə qan tökməyə hankı qayda ilə məcbur edə bilər? Qaydadır ki, bir millət ancaq hakimiyyəti-milliyyəsi, mənfəəti-ümumiyyəsi uğrunda ölər və öldürər. Bunda isə Şimali Qafqaz millətləri, biləks [əksinə], öz düşmənləri lehinə və öz hakimiyyət və hökumətləri əleyhinə öləcəklər və öldürəcəklər.

General Denikin çeçenə, inquşa, osetinə, Dağıstana rus hökuməti namına kəndisi vali təyin edər olduqdan sonra, Rusiyanın federativni respublika olacağını elan etməsi Şimali Qafqaz millətlərinin hakimiyyətini təmin edəmməz. Qafqaziyalı millətlərdən hər birinə özlərindən birər kişinin rus hökuməti tərəfindən vali təyin edilməsi, yaxud Rus Cümhuriyyəti Parlamentosunda və ya hökumətində Qafqaz millətlərinə mənsub birər kişi bulundurulması Qafqaz istiqlal və hakimiyyətidir demək istənilirsə, Denikin hakimiyyət nədir, bilməyir. Buraxsın bizi, biz özümüz bildiyimiz kimi yapalım. Nə vaxt ki Denikin, Kolçak kimi xaricdən qarışanı olmayaraq bir millət daxili və xarici işlərini dilədiyi kimi qayırar, dolandırar, iştə, millətin hakimiyyəti odur.

Müstövli bir ordu düşmən məmləkətində vəsaiti-laziməsini tədarük ehtiyacı ilə təkalifi-eyniyyə tərhinə [natura şəklində vergi qoymağa] lüzum gördüyü təqdirdə, hüquqi-düvəl qəvaidi sərihdir [dövlətlər hüququnun qaydaları açıq-aşkar bildirir] ki, bunun məişəti-əhalini daraltmayacaq bir nisbətdə olması və hökuməti-məhəlliyyənin qəvanini mövcibincə [yerli hökumətin qanunlarına əsasən] istəyə biləcəyi əşyaya münhəsir [məxsus; məh-

dud] qalması və alınan mallar müqabilində əsmanının [qiymətinin; dəyərinin] verilməsi və ya təmin edilməsi lazım gəlir.

General Denikin, filvaqe [faktiki olaraq], rusun qeyri olan əcnəbi bir məmləkətə, Şimali Qafqaz müsəlmanları arasına girdi. Lakin hüquqi-düvəlin bu qaydasına riayət etmədi. Kəndinə, rus hökumətinə, rus həyatına pək əcnəbi olduğunu eyi bildiyi Şimali Qafqazda hər kimdən və hər hankı bir millətdən nə qopara bildi isə, ordusuna son kar olmaq niyyəti ilə qopardı, aldı. Əhalinin nə dərəceyi-təhəmmülünü [dözümünün dərəcəsini], nə də ehtiyacını gözətmədi.

Təkalifi-nəqdiyyəyə [nağd pul vergisinə] gəlincə, 1866 və 1870-71 müharibatında almanların qeyri-hüquqi olaraq yapdıqları ağır təkalifi-nəqdiyyəni şimdi Denikin Şimali Qafqaz müsəlman əqvamı əleyhinə tərh edir. Lakin bu təkalif nədir? Cəzamı? Xayır. Çünki cəzayi-nəqdi bir məhkəmə qərarı ilə olduğu halda, bu öylə bir qərara müstənid deyildir [istinad etmir].

Sonra Şimali Qafqaz millətləri Denikin qarşısında müsəlləhən [silahlı] müdafiədə bulundularsa, bu müdafiə öz hökumət və hakimiyyəti-milliyyələrini və vətənlərini müdafiədən ibarət olduğuna görə, borcları idi. Onların rus hökuməti müvacihəsində [qarşısında] heç borcları yox idi ki, təraxiləri [səhlənkarlıqları] və ya ehmalları səbəbi ilə Denikin onları təcrim və mücazat edə bilsin [cərimə edə və cəzalandıra bilsin].

Qəribdir ki, general Denikin silah yoldaşları bulunan Kuban çərkəzləri haqqında şimdi pək qaba nankorluq yapır. Keçən sənə mart əsnalarında Kuban çərkəzləri ilə Kuban bolşeviklərinin arası kötü idi. Çərkəzlər bolşeviklərlə müharibə edib məğlub olmuşlardı. Bunun üzərinə general Kornilov tərəfinə qoşuldular. Kornilov qüvvətinin əsasını bu yolda Kuban çərkəzlərindən bula bildi və bolşevik üstünə yürüdü. Bilaxirə [daha sonra] yerinə keçən Denikin də ancaq o sayədə işini şimdiki hal və dərəcəyə gətirə bildi.

Zənn etməyiniz ki, çərkəzlər vahid Rusiya qayırmaq və rus hökumətinin yenidən təsisinə çalışmaq üçün o zaman bolşevik əleyhinə yürüdülərdi. Xayır. Biləks, bolşeviklərin elan eylədikləri hürriyyəti-əqvam [xalqların azadlığı] əsasını feilən əldə etmək istədikləri zaman məhəlli bolşeviklər buraxmadılar. Niza [çəkişmə] buradan başladı və məğlubiyyətin acısı təsir etdi. Eyni təsir altında bulunan Kornilov ilə birləşmələrinin səbəbi iştə bu idi. Ondan ötrü çərkəzlərə pək ziyadə minnətdar və onların hüquqi-əsliyyələrinə pək ziyadə riayətkar olması lazım gələn Denikin, şimdi Azərbaycan, Gürcü, Ararat, Kuban cümhuriyyətləri haqqındakı müsamihəsini [tolerantlığını] belə Şimali Qafqaz Cümhuriyyətindən diriğ edir [əsirgəyir].

Türkcədə zərbi-məsəldir: “Bəslə qarğanı, oysun gözünü.” Əgər general Denikin rus olmayan ənasirin [ünsürlərin; xalqların] cümhuriyyətləri haqqında müsamihəkar isə, Şimali Qafqaz Cümhuriyyəti rus deyildir. Onun üçün digərləri qədər müsamihə və müsaidəyə layiqdir. Əgər uzunca məlum və müəyyən rus hüdudu daxilində qalanlar haqqında daha az müsamihəkar isə, Kuban Cümhuriyyəti mütləqa rus hüdudu içindədir.

Yaşatmaması lazım. Halbuki Şimali Qafqaz Cümhuriyyətini əsla tanımadığı və ona bir dəqiqə aman və zaman vermədiyi halda, Kuban Cümhuriyyətini, heç olmasa, rus Məclisi-Müəssisanının ictimasına [yığışmasına] qədər halı üzrə buraxmaqdadır.

Anlayammadığım cəhət Şimali Qafqaz dağlı əqvamının hüquqi-əsliyyeyi-istiqlallarını nə üçün bu qədər pamal və hədər etdiyidir.* Cənub əqvamının və Kuban ruslarının haqqi-istiqlalları vardır da, yalnız tək bir dağlı müsəlman əqvamınınmı yoxdur?

Mənim anlayışıma görə, general Kolçak və Denikin öylə gərək idi ki, Kuban Cümhuriyyəti haqqında nasıl düşünürlərsə, Şimali Qafqaz Cümhuriyyəti haqqında da öylə düşünsünlər. Və onu Kuban Cümhuriyyəti hal və şanında tələqqi etsinlər. Bu əsas üzərində əgər şimal əqvamı ilə aralarında bir etilaf və müqarinət [razılıq və yaxınlıq] vücuda gətirmiş olsaydılar, bolşevizm əleyhinə Şimali Qafqaz Cümhuriyyətini daha insani bir təriq [yol] ilə qolay qazanmış olarlardı.

Dərin təəssüflərlə etiraf edəyim ki, ingilislər bizim Şimali Qafqaz məsələsində çox günahkardırlar. Rusiyaçıları əllərində kirli kukla kimi oynadan ingilislər bizi inkisari-xəyalə uğratdılar [məyus etdilər]. Hərbin əvvəlinci günündən bəri hər vəsilə ilə deyirlərdi ki, bizim zəfər və qələbəmiz məhkum millətlərin xilas və qələbəsi, bəlkə, bütün insanlığın qələbəsidir. Bunu təkmil dünyanın hakimi olmağa ləyaqət iddia edən ingilis milləti söyləyincə, biz, əlbəttə, inanırız.

Şimali Qafqaziyada Şimali Qafqaz hökuməti-cümhuriyyəsindən başqa hökumət tanımayacağını ingilis hökuməti namına Baş komandan general Tomson söz verdi. Şimali Qafqaz hökumətini Sülhi-Ümumi Konqresinin qərarınadək hali-hazırı üzrə hökuməti-cümhuriyyə olaraq qəbul etdiklərini və müəyyən hüdud içində Dağıstan vilayətinin daha şimdidən Azərbaycan vəziyyətində olduğunu və ancaq Denikinin Türküstan sövqiyyatında Qroznı-Petrovsk dəmiryolundan istifadə edə biləcəyini də söylədi.

Həpsinə məət-təşəkkür [təşəkkür edərək] inandıq. Çünki söyləyən ingilis komandanı ingilis hökuməti namına söyləyirdi. Hökuməti namına söz söyləyən komandanın yalana tənəzzül edəcəyini zənn etməyə nə haqqımız ola bilər?! Heyrət! Bu məvaidin [vədlərin] cümləsi şimdi hava oldu. Yalnız Denikinin dəmir yolundan istifadəsini bir çox faizi ilə birlikdə təhəqqüq etdirdilər [həqiqiliyini meydana qoydular]. Nə kimi faizlə? Məsələn, təkmil Dağıstan vilayəti, torpağı ilə birlikdə.

Mən Londonda ingilis hökumətinin Qafqaz məsələsi ilə məşğul olub-olmadığını və bu barədə nə düşündüyünü biləmməm. Lakin Qafqaza gələn və ingilis hökuməti namına və ya ondan aldığı səlahiyyətlə söz verən və söz söyləyən ingilis komandanları Şimali Qafqaz işində bizimlə adətən istehza dərəcəsinə varmaq kiçikliyinə tənəzzül etmişlərdir. Mən istərdim ki, ingilislər Şimali Qafqaz əqvamını tövhiş edəcək [ürküdəcək] bir iş

* Çünki onlar kəndilərini müdafiə qüvvətinə malikdirlər. Güc nərdə, haqq da orada. **İdarə**

yapmış olmasınlar. Mən istərdim, ingilislərdən bu barədə öylə bir eyilik görəlim ki, aramızda münasibəti-dostanəyə səbəb olsun.

İngilislər əgər bizim həqiqi xilasımızı istəsəydilər, Şimali Qafqazı yenidən təsis etmək istədikləri Rusiyanın hüdudu xaricində göstərərlərdi. Denikini də mən' edərlərdi [dəf edərdilər; uzaqlaşdırardılar]. General Tomson pək əla bilirdi ki, Etilaf [Antanta] dövlətlərinin Şimali Qafqazı konqre qərarınadək əski Rusiya hüdudu içində buraxan bir qərari-düvəlisi [dövlət qərarı] vardır. Əgər o sözləri özünün dediyi kimi vədi-qəti halında söylər olsaydı, əvvəli-əmrdə [işin əvvəlində] öz hökuməti nəzdində təşəbbüs edəcək və şimal mühiti vəziyyətinin siyasətən icabatını [ehtiyaclarını] öz hökumətinə bildirəcək və israr eyləyəcəkdi, ta ki konqre qərarınadək Şimali Qafqaz Cümhuriyyətinin dəxi cənub cümhuriyyətləri kimi rus hüdudundan xaric buraxıldığını və vahid rusiyaçıların bu cümhuriyyət ərazisinə girməyə səlahiyyətdar olmadıqlarını ehtiva edən yeni bir qərar ittixaz [qəbul] və təbliğ edilsin.

Konqre qərarınadək məmləkətimizi düşmən əlində və özümüzü xaricdə haliintizarda buraxacaqlarına, mülkümüz, məmləkətimiz öz əlimizdə, Denikin konqrenin qərarını bəkləsə, daha adilanə olacaqdı ya. İngilis komandanı, ingilis ürfanı, əlbəttə, bunu təqdir etməz deyildi. Madam ki, bunu böylə yapmadı və yapdırmadı, sözlərini hökuməti namına deyil, bəlkə, iğfal [aldatmaq, yanıltmaq] üçün öz qafasından söyləyirdi.

Düvəli-Etilafiyyənin [Antanta dövlətlərinin] bu işdəki günahı yalnız bu miqdar deyildir. Bir tərəfdən min dürlü rica və minnətlə yardımçı gətirdiyimiz türkləri qovdular, yerinə özləri yardım etmədilər və bizi hər qüvvətdən məhrum buraxdılar. Digər tərəfdən rusiyaçılara silah və qüvvət verdilər. Və bizə dönüb: "Rusiyaçıların öz ordumuz olduğunu unutmayınız" təhdidində bulundular.

Ən son bir gün gördük ki, onların şu "bizim ordumuz" dedikləri qüvvət Şimali Qafqaz Cümhuriyyətinə aid Dağıstan ərazisinə girirdi. Bütün qüvvətini Düvəli-Etilafiyyədən alan və hər yapdığını onların nəfx [ruhlandırması] və ilhamı ilə yapan bu qüvvət cümhuriyyətimizi, nəhayət, məhv etmiş olarsa, fəlakəti-milliyyəmizi əsl kimin ehzar etmiş [hazırlamış] olması lazım gələcəyini siz söyləyiniz!

Düvəli-Etilafiyyə bir çox millətlərin zərərinə olaraq əski Rusiyanı ehyaya [diriltməyə] əcəba neyçin bu qədər uğraşırlar? Bunca məsaini [səyi] əcəba həp əyləncə qəbilindənmi sərf edirlər? Yoxsa bir səbəbə binaənmi [görəmi]? Şübhəsizdir ki, onların əski Rusiya ənqazından [xarabalıqlarından] mürəkkəb [ibarət] yeni bir Rusiya vücuda gətirməyə çalışmalarının səbəbləri vardır.

Əsbabın [səbəblərin] bir dənəsi və ehtimal ki, ən başlıcası da Heyəti-Etilafiyyəyə mənsub dainlərin [alacaqlıların] Rusiyadan alacaqları bulunan milyardları zaye etməmək üçün məhəlli-istifa [geri almaq yeri] qayırmaq olsa gərəkdir. İndi böylə olduğuna görə, Şimali Qafqaz Cümhuriyyəti diplomasisi üçün əcəba mümkün deyilmidir ki, rus düyuni-ümumiyyəsindən [ümumi borclarından] hissəsini Şimal Cümhuriyyətinin qəbul və təəhhüd edir olduğunu [öhdəsinə götürdüyünü] şimdidən təmin vəsiləsi ilə [təminat verməklə] Heyəti-Etilafiyyə ilə

Londonda yeni bir müzakirə qapısı açılsın. Etiqadımca, mümkündür. Hətta əhvali-ümumiyyənin bugünkü görünüşünə görə yeganə yol da budur.

Heyəti-Etilafiyyə əski Rusiyanın ehyasına, gördükləri röya üzərinə bilamülahizə [düşünmədən] həman başlamış deyillərdir. Onları buna sövq edən və əmri-ehyanın [diriltmə işinin] lüzumuna və ondakı mənfəət və məsləhətə onları iqna [qane] edən, əlbəttə, rusun məruf [tanınmış] əski diplomatlarıdır. Və diplomatlar Düvəli-Etilafiyyəyə bunu qılınc qüvvəti ilə cəbrən [zorla] qəbul və təəhhüd etdirmədilər [boyunlarına qoymadılar]. Millətlərə aid hər məsələ hər zaman mütləqa qılınc ilə həll və fəsl edilməz [nəticə əldə edilməz]. Bizim diplomasimiz bu həqayiqi [həqiqətləri] bilməli ikən Bakıda, Tiflisdə yalnız ingilis heyətiəsgəriyyəsi ilə işi qurtaracaqlarını zənn etmək qəflətində bulunan nüzzariqasirül-əbsarımız [dar görüşlü nazirlərimiz, uzaqgörən olmayan nazirlərimiz] Düvəli-Etilafiyyə ilə etilaf və müqarinət [razılığa gəlmək və yaxınlaşmaq] cəhətini naqabiliəfv [bağışlanmaz] bir dərəcədə ehmal və təxir etmişlər və fəlakəti-hazirəmizə bizzat [şəxsən] özləri bu təriqlə [bu yolla] səbəb olmuşlardır.

*Pşimaf*

## NƏ ÜÇÜN AMERİKA İANƏLƏRİ YALNIZ ERMƏNİLƏRƏ VERİLİR?

Batum yolu açılar-açılmaz Amerikadan Ararat Cümhuriyyətindəki erməni acları namına milyonlarca buğda, libas, hətta axça göndərilməsini qəzetələrdə bir vaxt peydərpey [dalbadal] oxuyurduq. Sonra məlum oldu ki, mədəni və insaniyyətpərvər amerikalılar təşkil etdikləri bir cəmiyyət vasitəsilə Yaxın Şərqdəki fəlakətzədələrə ciddi müavinətdə bulunacaqlar. Yevropa müharibəsinin ənvai [müxtəlif] bəlalarına mübtəla qalmış biçarə şərqlilər və ələlxüsus Ermənistandan Azərbaycana fərar etmiş müsəlman qaçqınları bu xəbərin doğru olmasını dörd gözlə bəkləyirdilər.

"Əqsayi-Şərqə [Uzaq Şərqə] Müavinət Cəmiyyəti"nin nümayəndələri Gürcüstana və Azərbaycana da təşrif gətirib hər yerdə erməni möhtaclarına, qaçqınlarına və mərizlərinə [xəstələrinə] maddi və mənəvi müavinətlərin ciddi təşəbbüsatında bulundular. Cəmiyyətin Azərbaycan nümayəndəsi Teodor Elmer cənabları Bakıya gəlib yalnız erməni füqərasının qeydinə qaldığı əsnada əhvalın çegunəliyini [necəliyini] öyrənmək üçün nisanın 24-də Xeyriyyə naziri [Viktor] Klenevski onu ziyarət etmişdir. Nazir həzrətləri Azərbaycanın ehsan və ianə işlərində yürütdüyü məsləyindən Elmar cənabını halı [xəbərdar] etmək üçün ona bir çox dəyərli və müfid [faydalı] məlumat təqdim etmişdir və sübut etmişdir ki, Azərbaycanda müstəhəqlərə [haqqı çatanlara] bilafərqi-dinü-millət [din və millət fərqi olmadan] hamıya bərabərcə kömək edilir. Hətta Zəngəzurda toplaşmış 40 min müsəlman qaçqınlarının keçirdikləri üsrəti [çətinliyi] nəzərə almayaraq, erməni füqərasına bəlkə həddindən artıq kömək edilir. Məsələn, Gən-

cədə ermənilər üçün 25 uşaqlıq bir yurd, 30 nəfər üçün də bir mərizxana açılmışdır. 100 erməniyə xörək və 750 erməniyə də pay verilir. Şəki şəhərinin yurdunda 170 nəfər və Bakının yurd-larında da hətta 1220 nəfər erməni uşaqları saxlanılır. Hələ Mərkəzi Ev Komitəsinin əli ilə erməni möhtaclarına hədsiz köməklər edilir.

Bunu dinləyərək Elmar cənabları heyran qalmışdır ki, Azərbaycanın ermənilərə bir bu qədər etdiyi ehsan və ianələrindən onu heç kəs halı qılmamışdır. (!)

Mülaqatın [söhbətin] axırında nazir həzrətləri Elmardan rica etmişdir ki, Amerika əhlinin ianə və ehsanından müsəlman miskinlərinə də qismət verilsin. Lakin Elmar cənabları bu təklifi rədd edərək cavab vermişdir ki, onun vəkaləti yalnız erməni füqərasına müavinət göstərməkdir. Fəqət bu təklifi amerikalıların Əqsayi-Şərq Cəmiyyətinin Qafqaz şöbəsi Tiflisdə həll və qəbul edə bilər. Binaənileyh Elmar cənabları öhdələrinə alırlar ki, nazirin bu haqlı istidasını [xahişini] şöbəyə təqdim etsin.

Bu mülaqatdan üç ay keçir. Lakin Amerika ianələri əvvəlki kimi yenə hər yerdə yalnız ermənilərə qismət olur. Halbuki cəmiyyətin ümdə vəzifəsi Yaxın şərqlilərin möhtaclarına müavinət göstərməkdir. Yəni amerikalıların nəzərincə Əqsayi-Şərqdə ermənilərdən başqa gürcü, ləzgi, kürd, türk və sairləri heç də yaşamayırmışlar. Buraların hamısı yalnız erməni tayfalarından ibarət olduğu üçün də Əqsayi-Şərq əhlinin, yəni yalnız ermənilərin (?) möhtaclarına kömək əmri verilmişdir.

Bəlkə bu əmr ikinci bir yanlış nəzərlə verilmişdir. O da bundan ibarətdir ki, Şərqdə, xüsusən Qafqazda müharibənin zərbələri yalnız erməni tayfasına dəymişdir. Binaənileyh [ona görə], Şərqdə ermənilərdən başqa sair millətlərdən xəsarətdidə olmadığı cəhətə, hər kəsin harada fitrə və sədəqəsi varsa, hamısını gərək erməni füqərasına göndərsinlər. Odur ki, Amerika sədəqəçiləri də sədəqələrini yalnız şərqli ermənilərə göndərirlər. (!)

Burada işlənilən səhv və xəta, əminəm ki, amerikalılara mütəəlliq [məxsus] deyil. Yer üzündə ən mədəni və insaniyyətpərvər bir millət varsa, o da amerikalılardır. Dəlilə artıq ehtiyac yoxdur.

Bəs səbəb nə olmuş ki, Amerikanın milyonlarca ehsanları yalnız ermənilərə qismət olur? Bunun səbəbi aşkardır. Özlərini məzlum və sairlərini zalım göstərmək bizim qonşuların qədimdən peşələri olduğu kimi, yəqin ki, bu dəfə də yüz cürə yalan və iftiraları ilə Amerika mətbuatını doldurmuşlar və inandırmışlar ki, Qafqazda müstəhəqq və məzlum bir millət varsa, o da yalnız ermənilərdən ibarətdir. Odur ki Amerika ianələri Azərbaycanda, Gürcüstanda və Ararat dairəsində ermənilərdən başqa, hətta acından ölsələr də, sairlərinə verilməz.

Bəzi sadədil müsəlmanların zənni: "Ermənilər xristianlardan olduqları cəhətə xristian ölkəsindən də onlara ianə göndərilməsi təbiidir" – yanlış bir zənndir. Zira Qafqazda ermənilərdən başqa sair xristianlar da az deyil. Bununla belə,

Amerika ianələri hələ ermənilərə qismət olur və böylə də davam edəcək, ta ki işlərin üstü açılmaya.

Qurulan hiylələrin bəzi cəhətləri açılmaqdadır. Böylə ki, bu günlərdə Qarabağ general-qubernatoruna müsəlman qaçqınları ərizələr verib şikayətlər etmişlər ki, Amerika nümayəndələri ancaq erməni qaçqınlarına ianə paylayırlar. Müsəlman müstəhəqqlərinin heç də hallarına yanmayırlar. Buna kifayət etməyərək, erməni xəsarətinə dair siyahılar, statistiklər tərtib verirlər. Bu fəqərədən [hadisədən] anlaşılır ki, bu iş amerikalılar əli ilə görülürsə də, fəqət baniləri bizim qonşularımızdır. Amerikanın ianələrinə yalnız özləri malik oldular. Buna kifayət etməyərək indi də tərəfgirlərin əli ilə Yevropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] özlərinə cəlb etmək istəyirlər.

Yüzlərcə dağılmış müsəlman kəndlərinə etina etməyib 5-10 erməni xəsarətdidələrinə mükəmməl siyahı tərtib verməklə bu ağalar bilirmisiniz hankı millətin müqəssirliyinə çalışırlar?

Amerika nümayəndələri ədalətdən kənar böylə hərəkətləri bizə rəva görməsinlər. Amerikalılara yaxışmayan tərəfgirlikdən əl çəkib, ermənilərlə bərabər müsəlman möhtaclarına da ianə versinlər. Hərgah bu mümkün olmasa, barı doğru və düzgün mühakimənin xatirəsi üçün hər iki tərəfin zərər və ziyanlarını siyahıya tutsunlar. Vətəndaşlarına göstərsinlər ki, təcavüzləri "zalım" tatarlar deyil, "məzlum" daşnaklar yapmışlar. Böylə olmasa, ədalətli amerikalılara nə gözlə baxılar?

*Şuşalı*

## "ÖPƏR KİM BİLİR BƏLKƏ BİR XÜLYA"

... Öpər daima pürhəvəs dalğalar
Çözülmüş, dağılmış ipək saçları.
Əsər, titrədər müztərib rüzgar
Çözülmüş, dağılmış ipək saçları.

Qayıqdan əyil, zülfünü tök suya,
Düşün, öylə asudə dal uyquya.
Öpər, kim bilir, bəlkə bir xülya
Çözülmüş, dağılmış ipək saçları

Pərişan tökülmüş suya örgülər,
Sevincdən dəniz sanki ağlar, gülər.
Hərarətlə hər dalğa öpmək dilər
Çözülmüş, dağılmış ipək saçları

Kiçik dalğalar çırpınar təknəyə,
O sevdayi-rəqsanı tutsun deyə.
Gələr, can atar, səy edər görməyə
Çözülmüş, dağılmış ipək saçları.

*30 iyul 1919*
*Ayn. Y.*

## MƏTBUAT

Məlum olduğu üzrə, Ermənistan böyük təhlükə altındadır. Vedibasar, Şərur, Naxçıvan və Qars tərəflərində türk-islamlar erməni zülmünə boyun əyməyib, Ermənistana tabe olmaq istəməyirlər. Bundan dolayı da ermənilərlə müsəlmanlar arasında böyük müsadimələr [toqquşmalar] vaqe olub, adi bir müharibə şəkli almışdır. Bu münasibətlə Tiflisdə nəşr olunan nim-rəsmi [yarı rəsmi] gürcü "Borba" qəzetəsi uzun bir məqalə yaza-

raq bu kimi çıxışların gərək Ermənistana və gərəksə bütün Zaqafqaziyaya nə qədər zərər verə biləcəyini qeyd, səbəblərini təhlil edir və önünü almaq çarələrini düşünür.

Cənubi Qafqazya hadisatının səbəblərindən bəhslə "Borba" deyir ki:

*"Osmanlı imperiyası əzasından [bədən üzvlərindən] əhalinin yüzdə 90 faizi müsəlman və ancaq 10 faizi erməni olan ərazilər kəsilir, parçalanır. Buralarda ermənilər hakim bir millət, müsəlmanlar isə haqq və hüquqsuz qul edilirlər. Bu halı saxlamaq və əbədi yaşatmaq üçün də Amerika qoşunu tələb edirlər. Əgər bunu da əlavə edərsək ki, Türkiyə vilayətləri Türkiyənin rizası hasil edilmədən və beynəlmiləl konfrans tərəfindən təsdiq olunmadan məzkur [deyilən] yerlərin nüfuzlu erməni dairələrinin protestolarına rəğmən, Nubar paşanın saqındırmalarına rəğmən Ermənistana mülhəq edilir [birləşdirilir], bunu da əlavə etdikdə aydın olur ki, Ermənistan "ittihadı" [birliyi, birləşməsi] nə kimi fəlakətlərlə nəticəpəzir olacaqdı. Hal-hazırda Kiçik Asiya Ermənistanında vüqu bulmaqda olan hadisat anarşi deyil, müharibə hazırlığı da deyil. Burası müsəlmanların, boyunlarına bağlanan erməni hökuməti əleyhinə üsyanı başlanğıcıdır."*

Buna görə də "Borba" qəzetəsinin zənnincə, Ermənistan mandatı amerikalılara verilməsi işə kömək etməyəcəkdir. Çünki:

*"Bu anarşinin səbəbləri o qədər dərindir ki, heç dürlü Amerika mandatı və – ondan daha əhəmiyyətsiz olan – Amerika qoşunu Böyük Ermənistanda nizam və asayiş bərpa edə bilməyəcəkdir. Amerikalılar mandat məsələsinin həllini təxirə salırlarsa, həman bunu etiraf [qəbul] etdiklərindəndir. Hətta əsaslı qorxu var ki, Amerika, mandatı qəbul etdikdən sonra öhdəsinə almış olduğu məsələnin qeyri-qabili-həll olduğunu dərklə bir müddətdən sonra dübarə öhdəsindən atsın."*

Daşnaksaqan mətbuatı bu işi ümum Zaqafqaz millət və cümhuriyyətlərini təhdid edən bir türk təhlükəsi adlandıraraq gürcülərdən sual edir ki, bu mübarizədə onlar ermənilərəmi, türklərəmi kömək edəcəklərdir? Bu suala cavabən məzkur qəzetədə denilir ki:

*"Biz həmişə milli ixtilafı Zaqafqaz üçün ən böyük müsibət, ən böyük mələnət [lənət] hesab etmişiz. Biz həmişə milli nifrət oyandıran, qanlı intiqam təbliğ edən siyasəti ağılsızlıq və cinayət ədd [hesab] etmişiz. Biz yorulmaqsızın təkrar etmişiz ki, Zaqafqaziya millətləri öz hürriyyətlərini və sülh və müsalimətlə [əmin-amanlıqla] tərəqqilərini ancaq ədavəti unutmaq və vahid cəbhə yaratmaqla təmin edə bilərlər. Biz kərratla [dəfələrlə] demişiz ki, qonşu millətə həqarət və imha hazırlayan firqə öz millətinə də zəncir və qəbir hazırlayır."*

Qəzetənin zənnincə, bu fəlakətin önünü almaq üçün Azərbaycan ilə Gürcüstan etmiş olduğu kimi ümum Zaqafqaziya cümhuriyyətlərinin vahid bir cəbhə yaratmaları lazımdır. Binaənileyh [ona görə]:

*"Biz erməni siyasi pişrovlarına [liderlərinə] təklif ediriz, bizə tərəf qayıtsınlar, bizimlə bərabər Azərbaycanın da qanuni bir mövqe tutmaqda olduğu*

*vahid Zaqafqaziya cəbhəsinə övdət etsinlər [qayıtsınlar]. Biz var qüvvəmizlə çalışırız ki, qonşu Zaqafqaziya millətlərinin barışmasını asanlaşdıraq. Biz Kiçik Asiyada başlanmış olan qanlı hadisata xitam vermək üçün yeganə çarə bunu hesab ediriz. Yoxsa bu işi nə Amerika mandatı yatıra bilər, nə də Amerika qoşunu."*

Məlum olduğu üzrə, bu məqsədlə gürcü hökuməti Azərbaycan və erməni hökumətlərinə müraciətlə, Zaqafqaziya konfransının təzələnməsini təklif etmiş və Azərbaycan hökuməti razı olmuşdur.

## BAKI XƏBƏRLƏRİ

### Müəllimin kursları

Şənbə günü işbu ağustosun 9-dan etibarən müəllimlər kurslarında tətbiqat dərsləri başlanacaqdır. Bundan ötrü darüleytamdan [yetimxanadan] bir qaç 7-8 sinlərində [yaşlarında] heç oxumamış, bir qaç nəfər də bir sənə oxumuş ətfal [uşaqlar] gətiriləcəkdir. Əvvəlcə təcrübəli müəllimlərdən bir neçəsi dərs verəcəkdir. Sonra kurslarda təhsildə bulunmuş əfəndilər kəndi məharətlərini göstərəcəkdirlər.

### Müəllimlər İttifaqında

Srağagün axşam Azərbaycan və Dağıstan Türk-Müsəlman Müəllimləri İttifaqının yeni intixab edilmiş [seçilmiş] müvəqqəti Mərkəzi Bürosunun birinci iclası iniqad etmişdir [baş tutmuşdur].

Heyəti-rüəsalığa işbu əfəndilər intixab edilmişlərdir: sədr Ağabəy İsrafilbəyzadə, müavini-sədr [Axundzadə] Məhəmməd Səid əfəndi, katib Gəncə Müəllimləri İttifaqı sədri [Axundzadə] İdris əfəndi, xəzinədar Zəngəzur nümayəndəsi Müseyib əfəndi. İclasda qət olmuşdur [qərara alınmışdır] ki, bütün qəzalara dəvətnamələr göndərilib Bakıda iniqad edəcək müəllimlər qurultayına nümayəndə göndərmək haqqında məlumat verilsin. Nümayəndə əfəndilər kəndi qəzaları haqqında qurultaya məruzə təqdim etməlidirlər. Büro Ağabəy əfəndiyə qurultayın məramnaməsi tərtibini tapşırmışdır. Vaxt təng [dar, az] olduğundan verilmiş ərizələrə cümə günü saat 12-də iniqad edəcək iclasda baxılacaqdır.

### Ümumi iclas

Yekşənbə [bazar] günü avqust ayının 10-da "İttihad" firqəsinin Balaxanı şöbəsinin ümumi iclası olacaqdır. Möhtərəm yoldaşlardan həmin iclasa təşrif gətirmələri rica olunur. Ünvan: Sentralnı küçə, nömrə 34. Ağa Nağıyevin mülkündə.

### Salyan ilə sərbəst mal mübadiləsi

Ticarət və Sənaət [Sənaye] Nəzarəti Salyan ilə Bakı arasında sərbəst mal mübadiləsinə müsaidə vermişdir. Lakin mallar xırda qayıqlarla deyil, Nəzarətdə siyahı olan vaporlar [gəmilər] vasitəsilə olmalıdır ki, kənara mal aparılmasın. Salyan Kür nəhri axarında vaqe olub, bütün Muğan taxılı üçün bir anbar rolunu oynayır. Ona görə Nəzarətin bu təşəbbüsü Bakı və ətrafı üçün ərzaq məsələsində böyük rol oynayacaqdır.

### Hacı-Tərxan qaçqınları

Ağustosun 7-də bir qayıqla Hacı-

Tərxandan bir dəstə qaçqın varid olmuşdur [gəlmişdir]. Qaçqınlar böyük əziyyətlərdən sonra 14 günə Bakıya yetişmişlər. Qaçqınların dediyinə görə, bolşeviklər hənuz iş başındadır. Fəqət son dəqiqələrini hiss etdiklərindən böyük qanunsuzluqlar yapırlar. Zəruri şeylərin qiyməti son dərəcəyə qalxmışdır. Çörək əsla yoxdur. Yumurtanın biri 20 rubləyə, qalan şeylər də bu qayda ilədir.

**"Əxbar" və "Haqq" qəzetələrinin qapanması**

Son vaxtlarda hökumət əleyhinə açıq-açığına şiddətli provokasiya aparan Fəhlə Konfransının türkcə "Əxbar" qəzetəsi hökumət tərəfindən qapanmışdır. Həmin günün sabahı "Əxbar" yerinə yenə həmin ruhda "Haqq" adlı qəzetə çıxarmağa başlamışlardı. Buna görə hökumət "Haqq" qəzetəsini qapadığı kimi həmin qəzetələrin çıxmasına yol verən "Turan" mətbəəsini də möhürləmişdir.

**"İskra" qəzetəsinin bağlanması**

Bakıda menşeviklərin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan "İskra" qəzetəsi mətbəəyə 23 min manat borclu olduqlarına görə bağlanmışdır.

**Dənizdə**

Bakı gömrükxana idarəsi qərar qoymuşdur ki, yüngül qayıqlar üçün xüsusi bir körpü təyin edilsin. Türkmən qayıqları "Provodnik" körpüsünə gəlməlidir. Azərbaycan qayıqları isə istədikləri yerdə dura bilərlər.

**Parlamanda**

Azərbaycan daxilində olan şəhər idarələri üçün Daxiliyyə Nəzarəti tərəfindən Parlamana təqdim edilən qanun layihəsi Parlamanın 7 ağustos iclasında üçüncü qiraətdən sonra qəbul və təsdiq olunmuşdur.

**İkinci müavin**

Parlamanın 7 ağustos iclasında "İttihad" fraksiyası üzvü Sultanməcid Qənizadə Parlaman rəisinə ikinci müavin intixab edilmişdir [seçilmişdir].

**"İttihad" və ruslar**

Bakı civarı [ətrafı] və Gəncə şəhərlərində olan rus kəlisa [kilsə] ruhaniləri rəisləri Azərbaycan Parlamanı rəisinə bir məktub yazaraq Parlamanda oturmuş rus nümayəndələrinə etimad etmədiklərini və rus əhalisi mənafeyinin müdafiəsini "İttihad" firqəsinə həvalə etdiklərini bəyan edirlər.

**Məhəmmədşah Şıxlarski**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Dəvəçi şöbəsi Mərkəzi Komitənin İstixbarat [Xəbər] şöbəsinə xəbər verir ki, orada olan müstəntiq Məhəmmədşah Şıxlarski qanunsuz hərəkətlərdə bulunur, istədiyi adamı həbs etdirir, istədiyi işə məcbur etdirir. Şöbə Məhəmmədşahın bu şahlığına bir sədd qoymağı rica edir.

**Parlaman komisyonlarında**

- Darülfünun güşadı [Universitet açılması] layihəsi Parlamanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komisyonunda müzakirə və təsdiq edilib Maliyyə-Büdcə komisyonuna təqdim edilmişdir və gələn iclasda Parlamana veriləcəkdir.

- Ticarət, Sənaye və Ərzaq Nəzarəti kəndistan xalqının ehtiyacını nəzərə alaraq mübadilə ilə aldığı çit və şəkərin bir hissəsini Bakı köylülərinə [kəndlilərinə] paylamaq üçün avqustun 4-də Kəndlilər İttifaqının ixtiyarına vermişlər. Kəndlilər İttifaqı məzkur [deyilən] şeyləri kəndlərə göndərib, İttifaqın kənd şöbələri vasitəsilə əhaliyə paylayacaqdır. O kəndlər ki, Tağıyev fabrikasından manufaktur almışdır, onlara şəkər verəcəkdir. Hansılar ki, manufaktur almayıb, onlara manufaktur veriləcəkdir. Şəkərin girvənkəsi 21 rublə, çitin arşını 10 rublədən satılacaqdır. Hər evə 2 girvənkə şəkər və hər ailəyə də 8 arşın çit veriləcəkdir.

**Lənkəran məsələsi**

Son alınmış məlumata görə, Lənkəranda vaqe olan Muğanlılar Qurultayı Azərbaycan Hökumətinə tabe olmağı qərara almışdır. Lakin quldurların hərəkətini saxlamaqçün silahlarının alınmamasını rica etmişlər.

**Yeni gömrükxana**

Naftaluq mövqifində [stansiyasında] Kaxetiyaya gedib-gələn mallara nəzarət etmək üçün xüsusi gömrükxana açılmasına şüru edilmişdir [başlanmışdır].

**Dəmiryolunda**

Son zamanlarda məlum olmuşdur ki, yollarda xarab olan vaqonları təmir etmək üçün yollamırlarmış. Bunun əvəzində yollarda olan vaqonları alıb xarab olanları buraxırmışlar. Buna görə getdikcə xarab maşınlar artır vəhalonki [halbuki] onlar təmir olunsa, böyük kömək olardı.

**Ev Sahibləri İttifaqında**

Bakı Ev Sahibləri İttifaqı məlumat üçün camaata xəbər verir ki, Daxiliyyə Nəzarəti Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] mənzil məsələsi haqqında bir layihə təqdim etmiş olduğundan, Evçilər İttifaqı hökumətə hər maddəyə əlavələr və təshihlər [düzəlişlər] ilə yeni bir layihə təqdim edib mənzil məsələsi haqqındakı layihənin təzədən baxılmasını rica etmişdir.

**Birjada**

Ümumən olmasa da, kurs qismən möhkəmlənməkdədir. Kerenski minliklərinin də alındığı müşahidə olunur. Minlik 1500 rubləyə, 250-lik 30 faiz, xırdalar zəif gedir. Nikolay pulları təbəddülatsız [dəyişmədən] dururlar. Novorossiyskdən manufaktura gələcək xəbəri Don bonlarının bir qədər artmasına səbəb olmuşdur.

**Valyuta**

Funt, banknot 375 rubləyə, çek 325, qızıl Osmanlı lirəsi 420 rubləyə, kağız lirələr 100 rubləyə. İranda kurs bu qərar ilə: Azərbaycan bonları 1000 rubləsi 74 qrana, Keren[ski] minlik 80 qrana, ingilis funtu 20 qran, çek 28 qran, Osmanlı lirəsi 34 qran.

**Müəllimlər İttifaqı**

Srağagün Azərbaycan Cümhuriyyəti Türk Müəllimləri İttifaqlarının Mərkəzi Bürosu iclasında işbu qərarlar qəbul edilmişdir:

1. Ümum Azərbaycan və Dağıstan cümhuriyyətləri qəzaları ittifaqlarına birər teleqram göndərilib qurultaya nü-

mayəndələr dəvət edilsin. Teleqramlar göndərilmişdir.

2. Qurultayın proqramı hazırlanmışdır.

Proqram işbu qərar üzrədir:

1) Qurultayın rəsmi-güşadı [açılış mərasimi];

2) Üzvlərin komisyonlara təqsimi [bölünməsi];

3) Məramnamənin təsvib [bəyənilməsi] və təsdiqi;

4) Daimi mərkəzi idarə intixabı [seçkisi];

5) Məktəblərdə qiraət üsulu;

6) Məktəb xaricindəki qiraət üsulu;

7) Yazı dərslərinin ənvası [növləri];

8) Qurultayın əhvali-hazirə haqqındakı qərardadı;

9) Pedaqoji məcmuəsi haqqında;

10) Cari məsələlər.

- Həman iclasda bir çox istidalar da [ərizələr də] müzakirə olunmuşdur. O cümlədən "İttihad" və "Səadət" məktəbləri müəllimlərinin maaşlarının verilməməsi haqqındakı istidalarına baxılıb qət edilmişdir [qərara alınmışdır] ki, lazımi yerlərdən müəllim əfəndilərin maaşlarının verilməsi ciddi surətdə tələb edilsin.

- Bakı İttifaqı sədrinin təşəbbüsatı ilə müəllimlər üçün şəkər, çay və çizmə [çəkmə] almaq üçün iqdamatda bulunulmuşdur. Müəllim əfəndilərdən rica olunur ki, 120 rublə versinlər.

- İşbu ağustosun 11-i, düşənbə [bazar ertəsi] günü saat 5-də Birinci Realnı məktəbi mülkündə bütün türk müəllimlərinin fövqəladə ümumi iclası iniqad edəcəkdir. Kafi qədər müəllim əfəndilər gəlməzsələr, ikinci qanuni iclas həman gün saat 6-da olacaqdır. Müəllim əfəndilərdən vaxtında gəlmələri mərcudur [xahiş olunur].

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən rica etmişdir ki, Nəzarət dəftərxanasının mülkü Bələdiyyə İdarəsinə lazım olduğu üçün boşaldılması haqqında lazım gələcək tədabir ittixaz edilsin [tədbirlər görülsün].

## AZƏRBAYCANDA

**Qarabağdan**

Axır ki, dilləndilər! Qarabağ dairəsində olan bir çox qaçqın nümayəndələrinin imzaları ilə srağagün general-qubernator cənablarına zeyldəki [aşağıdakı] məzmunda bir ərizə verilmişdir:

(Ərizə keçən nömrələrimizdən birisində dərc edilmişdi.)

Ərzi-halın axırında bir çox imzalar mövcuddur. Qaçqınların xahişlərinə ləbbeyk deyərək mən də bu ərzi-halı eynən burada dərc edib də, Qarabağda qaçqın məsələsi ilə bir qədər əlaqədar olduğum üçün bəzi izahat verməyi də xali-əzmənfəət [mənfəətsiz] görməyirəm.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] Qarabağ dairəsindəki nümayəndəsinin idarəsindən alınmış rəsmi məlumatdan anlaşılır ki, bu halda Qarabağda 52 min qaçqın müsəlman mövcuddur. Lakin burasını mən şəhadət edərəm ki, Zəngəzurda öylə yer-

lər var ki, oralarda on minlərcə qaçqınlar yaşayırlar və onların adları nəinki dəftərlərə düşməyib, hətta onlar heç bir tərəfdən və heç kəsdən bir qəpik belə ianət görməyiblər. Demək istəyirəm ki, Qarabağda qaçqın müsəlmanlar 75-dən 90 minə kimi vardırlar. Bunların müqabilində erməni qaçqınlarının miqdarı bunların nisfi [yarısı] miqdarında olmamasını da mən şəhadət edirəm.

O zamandan ki, Amerika nümayəndələri Şuşa şəhərinə gəlib burada komitə təşkil etmişlər, heç bir nəfər müsəlman qaçqını bunlardan bir zərrə belə müavinət görməmişlər. Hətta iş bir zaman bu məqama çatmış idi ki, Şuşa erməniləri şəhərə şayiə buraxmışdılar ki, buraya gələn amerikalılar ancaq Amerikada yaşayan sərvətdar ermənilərin tərəflərindən öz ermənilərinə kömək etmək üçün gəlmiş Amerika erməniləridirlər. Və buna görə də ancaq erməni möhtacları bunlara rücu [müraciət] edə bilərlər. Ermənilərin bu cür müfəttinanə [fitnəkar] şayiələrini doğrulandıran bir də bu oldu ki, amerikalılar Şuşaya gələn kimi bir neçə nəfər daşnakların nüfuzu altına düşüb, hər bir işləri onların ixtiyarına keçibdir.

Nümunə üçün deyirəm, amerikalıların idarələrində olan qulluqçular bircə nəfər gürcü xanımından başqa tamamilə ermənilərdən ibarətdirlər. Amerikalılar tərəfindən açılmış bütün xeyriyyələr, sənətxanalar, azarxana [xəstəxana] və lazaretlər, darüləcəzələr [möhtaclar evi] – hamısı erməni hissəsindədir.

Erməni hissəsində amerikalılardan irəli şəhər puluna açılmış gözəl və müzəyyən [bəzəkli] bir azarxana olmaqla bərabər, amerikalılar gələndən sonra genə də ikinci bir azarxana genə də erməni hissəsində açıldı. Vəhalonki [halbuki] müsəlman hissəsində olan, həm əsgərlərə, həm biçiz [yoxsul] camaata xidmət etməkdə olan ufacıq bir azarxana dəvacatsızlıqdan bağlanmağa məcbur oldu.

Bu keçənlərdə Qarabağda vaqe olan erməni-müsəlman toqquşmasının nəticəsində mütəzərrir olan [zərər çəkən] Qaybalı kənd əhalisi üçün amerikalılar hər həftə müsamirələr [konsertlər] tərtib verib ianə cəm edirlər. Qaçqınlarını öz darüləcəzələrində saxlayıb kömək edirlər. Qalmaqaldan sonra amerikalılar general-qubernator vasitəsilə müsəlmanlardan un, buğda alıb erməni qaçqınlarına müavinət göstərdilər. Lakin Qaybalıdan sonra 10-15 Qaybalı kimi müsəlman kəndləri də ermənilər tərəfindən viran edilib, müsəlmanlar da acçılpaq qalıb bərrü-biyabanlara düşüblər. Və hətta bir çoxları da Şuşaya gəlib burada küçələrə düşüblər. Amma nədənsə amerikalılar nə bunların ah-zarlarını eşidir və nə də bunların kəndlərindən qalxan yanğın alovlarını gözləri görürlər.

Bunların səbəbi nədir? Bilməyirəm! Ancaq bunu yəqin edirəm ki, Amerika milləti insaniyyət nöqteyi-nəzərindən Əqsayi-Şərq millətlərinə insaniyyət əllərini uzatdıqları halda erməni, müsəlman, xarici, qeyri-xarici sözlərini heç vaxt öz məramnamələrinə yazmayıblar və yazmazlar. Bu iş mənə və hamısına məlum və aşkardır. Lakin "Şeytan bir gün öz şəklini çirkin bir surətdə bu kağızda gördükdə dedi ki, qələm dər-kəfi-düşmənəst!"

**Salyandan**

Mərhum müxbirimiz İskəndərzadənin qətli və qatili haqqında idarəmizə göndərilmiş olan şu məktubu eynən dərc ediriz:

Rüstəm İskəndərzadənin heç bir təqsir və günahı yoxdur. Mərhumun sənəti qəzetə, mətbuat, millət və haqq yolunda çalışmaq idi. Bu isə ümumi Qafqaziya və Salyan əhalisinə məlumdur.

Məlumati-rəsmiyyə böylədir.

Rüstəm İskəndərzadənin qəzetələrdə məqalə yazmağı və teatroda oynamağı və nitq söyləməyi, doğru və haqq danışmağı üləmamız [ruhani alimimiz] Ağa Mirəşrəfin qəlbində yara imiş. Bu, məlum idi.

Axırda Ağa Mirəşrəfin oğlunun oğurluğunu aşkara çıxarmışdı. Oğurluq həmandır ki, Salyan əhalisinə verilməyə gəlmiş olan manufaktura, çay və qeyrə həman şeylər Ağanın evində camaata verilirdi. O mallardan Ağanın oğlu 40 min manatlıq oğurlamışdı. Bu iş aşkar oldu. Ağa Mirəşrəf dedi, bunu Rüstəm İskəndərzadə aşkar edib. Bu əhvalatı Salyana "komisyon" göndərilmiş Məcid bəy Rəcəbov yaxşı bilir. Bu işi əvvəla bilir, əfəndim.

Məlumat böylədir: İskəndərzadənin heç bir təqsiri yoxdur və nahaq yerə qətl ediblər. Bunu ümumi Salyan əhalisi bilir və Ağa Mirəşrəf tərəfindəndir. Qatil isə Mirələkbər Hacı Mirtağı oğlu.

Bir çox görən şahidlər var: İbrahim Kərbəlayı Nəcəfqulu oğlu, Əşrəf Abbas oğlu, Fərəc Cəfərqulu oğlu və Mollabəşir bəy Abdulla bəy oğlu. Lakin heç birisi qorxusundan deməyirlər.

Özüm fəqir, pulum yox, daha bizim əlimizdən nə gəlir?! Zəmanənin təqazası [ehtiyacı; tələbi] pul ilədir. O da bizdə yox.

Bu sözü biz İskəndərzadə qətl olunmamışdan əvvəl eşitmişdik. Mərhum özü də bilirdi və deyirdi, məni filankəs öldürəcəkdir. Bununla belə, inanmadı və dedi, mən millət, vətən və sevgili Azərbaycan yolunda çalışıram. Məni heç kəs öldürə bilməz. Mənim çalışdığım Azərbaycandan ötrüdür. Və hökumət var, kim kimi öldürə bilər?!

Hökumətin lazımıdır İskəndərzadənin qatilini cəzalandırmaq. İskəndərzadənin qətli [ilə] Salyanda adamlar qəzetə və mətbuat xüsusunda ruhdan düşdülər. Bundan böylə heç kim Salyandan əhvalat sizə verə bilməz və müxbir ola bilməz, əfəndim.

Mən qardaşım Rüstəm İskəndərzadənin nahaq tökülmüş qanını Azərbaycan hökumətindən istərəm. Bir şəxs böyük olub və güclü, pullu olduğu halda kefi istədiyi adamı öldürtdürə bilərmi? Xeyr! Amma İskəndərzadəni öldürdülər.

Böylə işlər hökumət olmayanda və başlı-başına olanda ola bilər. Böylə olarsa, gələcək əmali-istiqbalımız [gələcəkdəki işlərimiz] fəna olar.

İndi Ağa Mirəşrəfin oğlu deyibdir, Əsədulla İskəndərzadəni qardaşı kimi öldürtdürəcəyəm. Mən isəm fəqir, sənətim çəkmə silmək, çəkmə silməklə anamın və bacılarımın başını dolandırıram. Mən də bunu bir an əvvəl hər bir yana xəbər verirəm. Bunu eşidib qorxumuzdan şikayət eyləyə bilmirik. Bir daha qardaşımızın qanını iddia edə bilməzik. Heç böylə qanunsuzluq olmaz.

* * *

Dün həman ağustos ayının 1-də axşam saat 11 radələrində Cəfər bəy oğlu Əlağa [bəy oğlu] evlərinə gəldiyi zaman özlərinə mənsub və qonşusu olan Feyzulla Məşhədi Sadıq oğluna küçələrində rast gəlmiş. Gedək sənin üçün söhbət edim deyə Əlağanı Kürün kənarına aparıb, küçədə dörd güllə, bir çox bıçaq yarası ilə biçarəni düşmənanə və cəfakaranə bir surətdə yaralayıb. Məhəlli-hadisəyə [hadisə yerinə] polis məmurları gəlib təqriratını [şifahi ifadəsini] ala bilmişlər. Bir gün sonra vəfat etdi. Bədəfkar [cinayətkar] Feyzulla tövqif [və] həbs edildi.

*Salyanlı*
*2 ağustos 35*

**Zaqataladan**

Əski hökumətdən qalmış 5-6 mövqedə ibtidai məktəblərimiz var idisə də, məəttəəssüf [təəssüf ki], məzkur [deyilən] məktəblərdə dərs verəcək müəllimlərimiz yox idi. Keçən sənədə Zaqatalamızda işbu ehtiyac nöqteyi-nəzərindən müəllimlər kursu açılaraq, 25-30-a qədər ibtidai məktəblər üçün müəllim hazırlanmış oldu. Nəticəsində Zaqatalamızda 25-ə qədər ibtidai məktəbin güşad edildiyini [açıldığını] biz böyük feyz və fərəhlə gördük.

Keçən sənənin sentyabrından etibarən əhalimizə maarif işığı tülu etdi [doğdu]. Məzkur vaxta qədər çöllərdə, meşələrdə qalan məsum çocuqlarımız məktəbə doğru yönələrək artıq cəhalətə dal çevirməyə başladılar. Ümidvaram ki, bir neçə sənədən sonra münbit və son dərəcə məhsuldar vilayətimizdə bir çox ziyalı adamlarımız vücud bulacaqdır.

Bu sənə dəxi yenə vilayətimizdə müəllimlər kursu açılaraq, 50 nəfərə qədər müəllimlər müştərəkən dərsə davam etməkdədirlər.

Vilayətimiz xeylicə vase [geniş] olub 150 min nəfərə qədər əhalisi olduğundan, müəllimlərə olan ehtiyacımız bir qədər rəf olunsa [aradan qaldırılsa] da, yenə bir çox ərbabi-kamala lüzum görüləcəkdir. Bir neçə vaxt şöylə gedərsə, bütün ehtiyacatımız tədricən yoluna düşər.

Çalışan əfəndilər 1320-dən hal-hazıra kimi şunlardır:

İslam bəy Qəbulov və Nurulla əfəndi Əfəndiyev və Rəcəb əfəndi Əfəndiyev və Bayram əfəndi Kiçikxanov və Baba əfəndi Əfəndiyev. Bu əfəndilər şimdi də Zaqatalada açılmış kurs tələbələrinə dərs oxutmaqdadırlar. Bu əfəndilər Zaqatala islam qardaşlarımızın həyatına gecələr və gündüzlər uyumayıb çalışmaqdadırlar.

*Əli bəy Mahmudov*

## TEATRO VƏ MUSİQİ

**"O olmasın, bu olsun"**

Dün gecə teatro və səhnə müntəsiblərindən [xadimlərindən] birisi deyir ki:

– Niyə siz teatro və səhnəyə aid bəzi şeylər yazarkən həp mənfi cəhətlərdən bəhs edirsiniz!

Guya bir qədər mülayimətlə davranmalı imiş. Havalar isti olduğundan artistlərin vəziyyətinə girməli, onların hallarına qalmalı imiş. Həvəslərini artırmaq üçün tərğib [həvəsləndirilməli] və təşviq edilməli imişlər.

Daha bir kərə bir münasibətlə deyil-

mişdi ki, bizdə tərğib və təşviq zamanı keçmiş, şimdi artıq tənqid və təhlil zamanı gəlmişdir. Hər şey incədən-incəyə təhlil və tənqid edilməzsə, o xüsusda yazılmaz və söylənməzsə, dün gecəki fəna və qeyri-məqbul hallar hər zaman təkrar edər. Bu da bizdə bir adət məqamını alar.

Dün gecə Hökumət Teatrosunda Hacıbəyov Qardaşları Müdiriyyəti tərəfindən "O olmasın, bu olsun" operettası mövqeyi-tamaşaya qoyulurdu. Teatro tamaşalarının gecə saat 2-də tamam olması nəzərə alınaraq, mövud [vəd olunmuş] vaxtından gec teatroya başlamağa heç bir surətdə imkan buraxmayır. Sabiqlərdə olduğu kimi keçən gecə də vəqti-mövudda pərdə açılmadı. Zəng vurulmuş, işıqlar sönmüş, xalq kamali-səbirsizliklə öz mövqelərini işğal edib gözləyir. Pərdə qalxmayır. İstədiyin qədər gözlə, havanın istiliyi səni əzsin. Nə dirijor əfəndi öz mövqeyinə gəlir, nə də çıxıb xalqa bir söz deyirlər ki, artıq gözləməsin. Teatro salonunda adətən bir anarxiya, bir üsyan hökmfərmadır [hökm sürür]. Əl vurulur, fit verilir, ayaqlar yerə döyülməklə gurultu qoparılır, hətta etiraz səsləri eşidilir, səhnədən, tamaşadan hələ bir xəbər yoxdur. Tamaşaçılar arasında müxtəlif şayiələr var. Hərə bir söz deyir. Neyçin pərdənin açılmadığını, dirijorun mövqeyi-idarəsinə gəlmədiyini bir dürlü təfsir edir. Kimisi artistlərdən bəzisinin əsəbiləşərək çıxıb getdiklərini, kimisi onlardan bir neçəsinin hələ gəlmədiklərini söyləyir. Guya nərədə isə "başları" qarışmışdır. Və ya onlara böyük bir bədbəxtlik ariz olmuşdur [üz vermişdir]. Kimisi də dirijor əfəndinin qeybubətindən [yoxluğundan] bəhs edir. Guya dirijor əfəndi nərədə isə "başı qarışmış", sərxoş olmuşdur. Nəhayət, 10 tamama 20 dəqiqə qalmış dirijor əfəndi görünür, teatro başlanır.

Məlum ya, biz bu gecə haqqında müsbət bir şey yazmaq səlahiyyətində deyiliz. Çünki dirijor əfəndinin başı yerində deyil. Biz [Maqomayev] Müslüm bəyin iqtidar və məharətini təslim edir, bizdə hələ ikinci bir Müslüm bəyin olmadığını etirafla kəndisinə səmimi bir ehtiram bəsləriz. Lakin dün gecəki halı heç bir zaman əfv ediləcək və qəbul olunacaq bir şey deyildir. Hələ üçüncü pərdədə böyük bir biabırçılıq vaqe oldu. Buradakı təqsir, bəlkə, dirijordan başqasında idi. Musiqi çalınır, pərdə lazım olan yerində açılmayır, musiqi təkrar edilir, yenə pərdə qalxmayır. Dirijor qəzəblənir, adətən, qışqırmaq dərəcəsinə gəlir. Nəhayət, mövqeyini buraxaraq gedir. Onun getməsi ilə pərdə açılır.

Məşhədi İbadın toy hamamı. Artistlər lal və samit oturub yek-digərinin [bir-birinin] sifətinə baxırlar. Gözlə istədiyin qədər... Səhnədən bir soyuqluq gəlir. Artistlər nə qədər özlərinin fəna bir vəziyyətdə qaldıqlarını hiss edirlər. Yüzlərlə tamaşaçıların nəzəri altında əzilirlər. Zavallılar özlərindən bəzi sözlər quraşdırmaq məcburiyyətində olurlar.

Hamamçı Ələkbər Süheyli şikayət dilini açır. "Müştəriləri müntəzir buraxaraq dəlləyin nerədə batıb qaldığından və böylə layiq olmayan narəva rəftar və hərəkətdən" şikayətlənir. Bununla məclisdəki sükutu və bundan hasil olan soyuq-luğu bərtərəf etməyə [aradan qaldırmağa] çalışır. Lakin mümkün deyil. Nə dəllək səhnəyə gəlir, nə də dirijor mövqeyinə. Camaatda təkrar narazılıq

hərəkəti müşahidə edilir. Hətta bu narazılıq etiraz məqamını alır. Hər yerdən səslər eşidilir. Özlərinə qarşı bu qədər ehtiramsızlığı görənlər, adətən tamaşaçılar üçün bir həqarət mənasını andıran Müdiriyyətin bu qabalığından əsəbiləşənlər pərdənin salınmasını tələb edirlər.

Nəhayət, hərə öz mövqeyinə gəlir, oyuna başlanır. Bir kərə zavallı artistlərin halına girməli, istər xalqda, istər səhnədə pozulmuş və ixlal edilmiş vəziyyəti, ruh düşkünlüyünü nasıl islah edə biləcək. Budur ki, istər xorlarında, istər söhbətlərində bir zəfiyyət müşahidə edilir. Səslərinin ahəngində incə bir acılıq hiss edilir. Ümumən səhnədən o Ərəblinskilər və bu kimi müqtədir artist, vəzifəşünas sənətkarlar yetişdirən o məqami-ehtiramkaranədən bir fəryad, bir nifrin [qarğış]...

Bu münasibətlə tamaşaçılardan birinin hamam pərdəsinin nasıl bərbad bir hala salınmasına işarə ilə dediyi pək münasib bir sözü biz ədəbi bir lisanla deyiriz ki, "Məşhədi İbadın toy hamamının içinə – təqsir kimdə isə, onunla işimiz yoxdur – biədəblik etdilər..."

Artistlər oyunu haqqında böylə bir vəziyyətdən sonra, təbii, uzun bir şey yazılammaz. Ancaq bu qədər var ki, Rüstəm bəy rolunda cənab Süleyman bəy Səlimbəyov qayət bərbad bir halda idi. Əbədən [əsla] səsi musiqi ilə tutmayırdı. Oyununda da bir o qədər məharət göstərə bilmədi.

Gülnaz rolunda Qəmər xanım [Topuriya] yaxşı idi. Qəmər xanımın gələcəkdə səhnəmizdə bir qüvvət təşkil edəcəyinə ehtimal etmək olar. Bu artistkanın həm lisanı gözəldir, həm də hərəkət və rəftarı.

Sənəm rolunda xanım Olenskaya yaxşı idi. Sərvər rolunda bir artist üçün kəndi iqtidar və məharətini göstərə biləcək bir şey olmadığından bu xüsusu sükutla keçiriz. Başqaları öz rollarını oynaya bildilər.

Yenə artistlərdə bağışlanmayacaq bir hal vardı ki, o da özlərindən artıq sözlər söylədikləri idi. Birinci pərdənin axırındakı "A gədə Həsən" xoru artistlərin hərəkəti ilə tənasübsüz idi. İkinci pərdənin axırındakı xor isə yaxşı çıxdı. Bəzi yerlərdə də musiqi ilə xor qarışdırılırdı.

Xalqı bir qədər əyləndirən axırıncı məclis idi. Burada hambal rolunda Anaplı cənabları pək müvəffəqiyyətlə ibrazi-məharət etdi [məharət göstərdi]. Mirpaşa [Sadıqov] ilə İslamın meyxanası hər nə qədər xoş idisə, lakin mövzu ilə münasibəti bir qədər yox kimi idi. Bir surətdə ki, xalq bez məsələsi ilə maraqlanmayır, yəni ortada bez məsələsi yoxdur, onların bezdən bəhs açmasının nə kimi bir təsiri olar?!

*Kazımoğlu*

**"Ədirnə fəthi"**

Bu gün bazar günü, avqustun 10-da axşam Hökumət Teatrosunda türk səhnəsi aktyorlarının iştirakı ilə Cəfər Cabbarzadənin yazmış olduğu məşhur "Ədirnə fəthi" mövqeyi-tamaşaya qoyulacaqdır. Ənvər bəyin rolunu Abbas Mirzə Şərifzadə ifa edəcəkdir. Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Biletlər satılır teatrın kassasında.

**İdarədən**: Ələkbər Süheyli əfəndi keçən gecəki teatroda nə kimi fəna bir vəziyyətdə qaldığını təsvir və izahedici bir

məktub yazmışdır. Fəqət yuxarıda bu xüsusda yazılmış olduğuna görə dərcini lazım bilmədik.

**İtibdir**

Mirzə İsa Əlizadə namına Gəncə polis müdiriyyətindən al[ın]mış 432 nömrəli altıaylıq pasportla həman ada əsgərlikdən təcil [əsgərliyin təxirə salınması] şəhadətnaməsi və üçillik vergi qəbzləri itib. Etibardan saqitdir [etibarsızdır].

*7425*

**Mühasibəçiyə müavin lazımdır**

Parlaman idarəsinə elmi-xülasənin kursunu ikmal etmiş [tamamlamış] və türkcə yaxşı savadlı bir nəfər müavin lazımdır. Parlaman idarəsinə müraciət olunmalıdır.

*T-206*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bunuyla Bakı ətrafı köylərinə xəbər verir ki, Nəzarət avqust ayının 4-də kənd əhalisinə paylamaq üçün Kəndlilər İttifaqı ixtiyarına manufaktur və şəkər vermişdir. Binaənileyh, kəndlərdə təşkil edilən İttifaqın şöbələri məzkur [deyilən] şeyləri alıb köylərinə təqsim etmək üçün Ticarət, Sənaye və Ərzaq Nəzarətində "Köylülər İttifaqı"nın idarəsinə müraciət etməlidirlər.

*Ticarət, Sənaye və Ərzaq Nəzarəti İdarəsi*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Cümə günkü teleqraflar**

səh. 160. "Qraf Andraşi": qəzetdə Andraş kimi getmişdir.

**Nə üçün Amerika ianələri yalnız ermənilərə verilir?**

səh. 167. "Əqsayi-Şərqə Müavinət Cəmiyyəti": Erməni və suriyalılara yardım üzrə Amerika Komitəsi [American Committee for Armenian and Syrian Relief]. Əsası 1915-ci ildə qoyulan təşkilat əvvəlcə Osmanlı imperiyasının erməni və assuriyalı təbəələrinə yardım məqsədi güdürdü. Sonrakı dövrlərdə Yaxın Şərqə yardım üzrə Amerika Komitəsi [American Committee for Relief in the Near East] və Yaxın Şərq Fondu [Near East Foundation] adıyla fəaliyyətini davam etdirmişdir.

**"Öpər kim bilir bəlkə bir xülya" şeiri (səh. 169) üçün lüğət:**

pürhəvəs: həvəsli, çox həvəsli

müztərib: narahat; iztirablı

sevdayi-rəqsan: rəqs edən sevda

"Ayn. Y.": bu imza Əli Yusifzadəyə məxsusdur.

**Azərbaycanda**

səh. 174. "Qarabağdan": qəzetdə imzasız gedən bu yazını Məhəmməd Sadıq Axundov (Aran) yazmışdır.

səh. 175. "qələm dər kəfi-düşmənəst": "qələm düşmən əlindədir" (farsca)

səh. 177. "Bədəfkar Feyzulla tövqif [və] həbs edildi.": qəzetdə belə getmişdir: "Bədəfkar Feyzulla Tofiq həbs edildi."

"2 ağustos 35": burada tarix rumi təqvimlə verilmişdir (1335-ci il); miladi təqvimlə 2 avqust 1919-cu ilə uyğundur.

"1320-dən hal-hazıra kimi": burada tarix hicri, yaxud rumi təqvimlə verilmişdir; birinci

halda 1903-cü, ikinci halda 1905-ci ilə uyğundur.

**Teatro və musiqi**

səh. 179. "İslamın meyxanası": söhbət Əliislam Dadaşovdan gedir.

**Bazar ertəsi, 11 avqust 1919-cu il, nömrə 248**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 14 zülqədətül-haram sənə 1337. 11 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ZİRAƏT VƏ ƏMLAK NƏZARƏTİNDƏN

Bakı, Gəncə quberniyaları dairəsində müharibə zamanı bir para adamlar öz meyvə, üzüm bağlarını və əkiləcək yerlərini heç kimə tapşırmayaraq qoyub getmişlər. Bunları qanunsuz olaraq bir para adamlar zəbt etməsin deyə 1918-1919-cu ildə onların bir hissəsi icarəyə verilmişdir. Nəzarət bu bağların və binaların məhv olmasını nəzərə alaraq, bunları birillik müddətinə dəxi icarəyə vermişlər və bununla elan edir ki, bu bağların və yerlərin sahibləri öz yerlərini idarə etmək istərlərsə, bu barədə yerlər onların olmağını isbat edəcək şəhadətnamələrlə ərzi-hal verərək öz yerlərini idarə etməkdən ötrü icazə almalıdırlar. Hərgah ərzi-hal, yerlər icarəyə verildikdən sonra verilərsə, o vaxt yer sahibinə ancaq icarə vaxtı qurtardıqdan sonra öz yerini idarə etməyə icazə veriləcəkdir.

Bakı quberniyası barəsində: ərzi-hal Ziraət Nəzarətinin Yer şöbəsinə (Bakı, Vodovoznı küçə, Mitrofanovun evi, nömrə 8), Gəncə quberniyası barəsində ərzi-hal (Gəncədə) Gəncə Ziraət İdarəsi müdirinə verilməlidir.

*T-204*

## ELAN

1919 sənə 11 ağustos bazar ertəsi gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

## ALMAQ İSTƏYİRƏM

Bir dənə tütün doğrayan və bir dənə papiros dolduran, motorlu makina. Xahiş edənlər Parapetdə "Gəncə" şirkəti komisyon ontoruna müraciət edə bilərlər.

*7427*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Maarif nazirinin əmrnaməsi**

*Nömrə 231*

7 avqust 1919

26 avqust tarixli 9 nömrəli və həman sənənin 21 noyabr tarixli 144 nömrəli əmrnamələri bittəğyir [dəyişdirilərək], Maarif Nəzarəti İdarəsi dəftərdarı Mirzə Musa Mirzəzadə və məzkur [deyilən] idarənin kargüzar müavini Rəhim Kərimzadə səneyi-cariyənin [cari ilin] yanvar

ayının 1-dən yek-digərinin [bir-birinin] yerlərinə təyin olunurlar.

*Əmrnamə nömrə 230*

7 avqust 1919

Maarif Nəzarəti İdarə məmuru Murad Teymurxanova həmin avqust ayının 8-dən etibarən iki həftəlik məzuniyyət verilir.

*İmza etdi Maarif naziri: Qaplanov*

**Ticarət, Sənaət və Ərzaq Nəzarətindən**

*Əmrnamə nömrə 120*

26 iyul 1919

26 iyul tarixli və 116 nömrəli əmr ləğv ilə Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti dəftərxanasının kargüzarı F. F. Qartonq avqustun 1-dən etibarən mənsəbindən və həmişəlik olaraq xidmətindən təsviyə [ləğvetmə] təminatı verilmədən kənar edilir.

*Əmrnamə nömrə 121*

Nəzdimdə katiblik vəzifəsini ifa edən Q. K. Prokofyev avqustun 1-dən etibarən öz ərizəsi mövcibincə [ərizəsinə əsasən] mənsəbindən və həmişəlik xidmətindən kənar edilir.

*Əmrnamə nömrə 122*

29 iyul 1919

Bakı Texniçeski Komitəsi qanununun 15-ci maddəsinə görə (Sənaət Nizamnaməsinin 258-ci maddəsinin 3-cü qeydi), komitə üzvü V. B. Sklodovski Bakı Texniçeski Komitəsinin sədri təyin edilir.

*İmza etdi Ticarət, Sənaət və Ərzaq naziri: A[ğa] Əminov*

*Əslinə mütabiqdir.*

*Kargüzar əvəzi (imza)*

## TELEQRAF XƏBƏRLƏRİ

**General Şerbaçyov ordusu**

Bolşeviklərin orduya xitabən nəşr etdikləri son əmrnamədə denilir ki, general Şerbaçyov ordusu bulunan yerlərdə Dabravollar fəaliyyət göstərirlər. Bolşeviklərin məlumatına görə, Şerbaçyov tərəfindən Romaniyada təşkil edilən ordu 12 min nəfərdən ibarətdir.

**Cəbhələrdə**

Bolşeviklərin və Dabravolların son verdikləri məlumati-hərbiyyədən anlaşılır ki, bu son günlərdə yalnız bir neçə xırda müsadimə [toqquşma] vaqe olmuşdur. Yalnız Borisoqlebsk və Balaşov cəbhələrində böyük müharibələr davam edir.

**Bolqar kralının məhkəməyə cəlbi**

Beşlər Şurası müharibə müqəssirlərindən birisi olmaq sifəti ilə Bolqariyanın sabiq çarı Ferdinandın məhkəməyə cəlb edilməsinə qərar vermişdir. Ferdinandın banklarda olan 400 milyon ingilis lirəsi miqdarında bulunan parası müsadirə edilmişdir.

**Dabravolların məlumatı**

Hacı-Tərxan cəbhəsində - Bizim dəniz kənarında olan ordumuzun bir hissəsi Hacı-Tərxan kazakları ilə əlaqəyə girişmişlərdir. Bu Hacı-Tərxan kazaklarından İdil [Volqa] nəhrinin şərq kənarında bolşeviklərə qarşı mübarizə edənlərdir.

Elton gölünün şimali tərəfindən bizim partizan dəstələrimiz Canbin mövqifinə [stansiyasına] qarşı hücum etmişlərdir. Dəmiryolu bölüyünü əsir almışıq.

Kamışin cəbhəsində - İdil nəhrinin şərq tərəfində kəşfçilərin müsadiməsi [toqquşması] davam edir. Kamenka, Donskoy və Verxni Dobrinkada ciddi müharibə davam edir.

Atkar səmtində bizim hissələrimiz tərəfindən Krasnı Yar və Razlivka mövqifi işğal edilmişdir. Düşmənlər Nijni Dobrinkaya tərəf ricət edirlər [geri çəkilirlər].

Don cəbhəsində heç bir təbəddülat [dəyişiklik] yoxdur.

Xarkov cəbhəsində pişdarların müsadiməsi [avanqard hissələrinin toqquşması] davam edir.

Poltava cəbhəsində Psyol nəhrini keçmək üçün müharibə edirlər.

Yekaterinodar cəbhəsində bizim hissələrimiz Aleksandropol ilə Nikopol arasında Dnepr kənarından qırmızı qoşunları çıxarmaqla məşğuldurlar.

Dnepr cəbhəsində Dabravollar ilə düşmənlər arasında qızğın müharibə davam edir.

Donski ordu ştabı – Medvediça nəhri boyunda Saratov quberniyası daxilində Qafqaziya ordusu hissələri tərəfindən Krasnı Yar işğal edilmişdir.

Yelan mövqifində avqust ayının 2-də Yelan şəhərinin yuxarı hissəsindən qoşunlarımız yürüş edərkən düşmənlər Yablokovodan püskürdülüb Platovkidən çıxırlar.

Balatov səmtində iş görən qoşunların fəaliyyətindən məlumat alınmamışdır.

Kalov səmtində ağır müharibədən sonra avqust ayının 2-də düşmənlər Arxangelskoye mövqifindən çıxarılmışlardır.

Boyrov səmtində Don boğazında atışma davam edir.

Starı Oskol səmtində düşmənlər Berçinski kəndindən çıxaraq iki pulemyot, vintovka və patron almışıq.

- Latış press bürosu xəbər verir ki, Libavada asayişi mühafizə edən rus dəstələri bəyan eyləmişdir ki, Kolçak nümayəndəsi olan general Yudeniçə tamamilə tabedirlər. Libava üzərində rus milli bayrağı çəkilmişdir. Baltik tərəfindən bu günlərdə İngiltərənin ali komissarı varid olacaqdır [gələcəkdir].

**İngilislərin protestosu**

Sevastopoldan xəbər verilir ki, rəsmi xəbərlərə görə, ingilis hökuməti fransız hökumətindən tələb eyləmişdir ki, Fransada olan rus qoşunlarının Odessaya endirilməsini tərk eyləsin. İngilislər bu tələblərini zeyldəki [aşağıdakı] fəqərə [fakt] ilə qüvvətləndirirlər. Guya Fransada olan qoşunların əksəri sibiryalı olduqlarından, bunları Odessaya endirdikdə yenə vətənlərinə gedəmməyəcəklərdir.

**İrlandada iğtişaş əlamətləri**

Nikolayev - "Deyli nyus" qəzetəsinin yazdığına görə, İrlandada getdikcə inqilab artmaqdadır. Əmələ və kəndçilər şuraları təşkil edilmişdir. İrticakar və liberal firqələrin Parlamandakı üzvlər[i] inqilaba qarşı ciddi tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] tələb edirlər.

**Bessarabiyada**

Odessa - Bu günlərdə Benderdə (Bessarabiyadadır) Romaniya qoşunları ilə fransız qoşunları arasında şiddətli müsadimə [toqquşma] vaqe olmuşdur.

Bessarabiyada gündən-günə dəhşətli hadisələr gözləmək olar. Əhali Romaniya jandarmalarının təcavüzlərinə artıq səbir edəmməyir.

**İtaliyanın iddiası**

Liondan verilən xəbərlərə görə, Fiume İtaliyaya veriləcəkdir. Liman isə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] kontrolu altında açıq olacaqdır. İtaliya Dalmaçiyaya olan iddiasından imtina edir. Bunlar hamısı Amerikanın İstanbulu idarə etməyi qəbul edib-etməməsindən asılıdır. İtaliyanın müstəmləkə iddiaları haqqında etilaf [razılıq] hasil olmuşdur. Hərgah Lloyd Corc, Vilson razı olsalar, Sülh Konfransının işləri bitəcəkdir.

**Yaponiya siyasəti**

"M." Paris qəzetəsində Qarmil yazdığı məqaləsində Yaponiyanı xəbərdar edir ki, Şantunq məsələsində onun siyasəti bütün dünyanı Yaponiya üzərinə qaldıra bilər. Yaponiyaya lazım gəlirdi ki, Şantunqun qaytarılması haqqında Dördlər Şurası ilə olan öz gizli müzakirələrini elan etsin. Vaşinqtonda olan Yaponiya nümayəndəsi Debuçi demişdir ki, sülh müahidənaməsi [sazişi] Çin hökuməti tərəfindən təsdiq edilmədən, Yaponiya öz niyyətini aşkar edə bilməz. Başqa təbir [ifadə] ilə Çin əvvəlcədən ipi öz boynuna keçirməlidir. Hərgah Yaponiya Amerikanı təmin etməkdən ötrü tədbir görsə, əfkari-ümumiyyəni [ictimaiyyəti] öz əleyhinə qaldırar. Şantunq məsələsi xeyli mühümdür. Bu da Elzas-Loren kimi bir məsələdir. Amerika ilə düşmənçilik etmək Yaponiyaya nəf [fadydalı] deyildir. İngiltərə və Fransa bu işdə Amerikaya kömək etməyə bilməzlər.

## SÜLH ƏTRAFINDA

**Veymar**

Almaniya Milli Məclisində sülh müahidənaməsinin [sazişinin] təsdiqi haqqında olan layihənin birinci qiraətindən sonra tənəffüs elan edilmişdi. Sonra bu məsələ ətrafında ciddi mübahisələr başlanmışdır. Almaniya millətçiləri bəyan etmişlər ki, sülh müahidənaməsində kayzer Vilhelmin təslimi haqqında olan maddəyə bir qeyd əlavə edilsin və bitərəf bir məhkəmə təşkili arzu edib demişlər ki, bitərəf bir məhkəmə yalnız müharibə müqəssirlərini mühakimə etməlidir. Digər firqələr isə bu qərara zidd olmuşlardır. Sonra layihə ikinci dəfə oxunmuşdur. Üçüncü qiraətdən sonra Ebert müahidənaməni təsdiq etdirmiş və dərhal Versala göndərmişdir.

- Müttəfiqlər Hollandaya bir nota təqdim edərək kayseri-məxlu [taxtdan salınmış kayzer] ilə kronprins üzərində kontrol qoymağı təklif etmişsə də, Hollanda cavab vermişdir ki, Müttəfiqlər yalnız şayiata istinad etdiklərindən heyrətə düşür. Axırda Hollanda hökuməti əlavə edir ki, Hollanda tamamilə öz vəzifəsini və məsuliyyətini düşünür.

- Cəmiyyəti-Əqvam Etilafnaməsi Versalda bağlanan bütün əhdnamələrə [sazişlərə] idxal ediləcəkdir.

**Çin və Almaniya**

Pekindən verilən xəbərlərə nəzərən, Məclisi-Məbusan Çin ilə Almaniya arasında sülhcuyanə əlaqə başlanması haqqındakı təklifi qəbul eyləmişdir. Almani-

ya mətbuatı deyir ki, bu vaxta qədər Çin mürəxxəsləri [nümayəndələri] tərəfindən sülh müahidənaməsinin imza edilmə[mə]si göstərir ki, Şandon məsələsi barəsində Yaponiya ilə Çin arasında ixtilaf vardır.

## SON XƏBƏRLƏR

**Lənkəranın təslimi**

Dün Lənkərandan "Müsavat" firqəsinə gəlmiş olan rəsmi bir nümayəndənin dediyinə görə, ağustosun 9-da axşam muğanlıların ictiması [yığıncağı] vaqe olub, müttəfiqül-qövl [yekdilliklə] Lənkəranın Azərbaycan hökumətinə təslim edilməsi təhti-qərara alınmışdır. Bununla bərabər, muğanlılar kəndilərində olan əslihənin [silahların] təslim edilməsinə də razı olmuşlardır. Bu münasibətlə Lənkərana göndərilmiş olan Azərbaycan Hökuməti nümayəndəsi və Məclisi-Məbusan əzasından Cavad bəy Məlik-Yeqanov musiqi ilə təntənəli bir surətdə şəhərə daxil olmağa hazırlanır. Azərbaycan nümayəndəsi, Muğandakı islam-türk və könüllü dəstələri avqustun 10-da səhər şəhərə daxil olacaqlardı.

**İngilislər qalırlar**

Rəsmi dairələrdən aldığımız məlumata görə, Gürcüstan və Azərbaycan və axırda Ermənistan hökumətlərinin istidası [xahişi] üzrə Zaqafqaziyadan getmələri müqərrər olan [qərarlaşdırılan] ingilis qüvvələri Londondan alınmış olan əmr mövcibincə [əmrə əsasən] daha bir neçə vaxt burada qalacaqlardır.

## QƏZETƏLƏRDƏN

**Şərqi Qaliçada**

Londondan xəbər verilir ki, Polşa işlərinə baxan Sülh Konfransı komissiyası Polşa ilə müahidənamə [saziş] bağlandıqdan sonra Şərqi Qaliça idarəsi xüsusunda layihə hazırlayacaqdır.

**Odessadan təbid edilənlər [qovulanlar]**

Londondan xəbər verilir. İstanbuldan verilən məlumata nəzərən fransız bayrağı altında oraya "Avstriya" paroxodu gəlmişdir. Paroxodda Odessadan 250 nəfər əcnəbilər gəlmişdir. Bolşeviklər razı olmuşlar ki, Müttəfiqlərin əlində olan rus bolşeviklərindən 250 nəfəri azad etsinlər. Varid olanların [gələnlərin] arasında İtaliya konsulu Mazetti və İsveçrə konsulu acenti Reyn də vardır.

- Gündüzdən bildirildiyinə görə, Petroqradda icra edilmiş olan son ümumi səfərbərlik müvəffəqiyyətsiz olmuşdur. Bir çoxları səfərbərlikdən imtina etmişlərdir. Flot yoxdur. Matroslar ya evlərinə gedib, ya da başqa şura qulluğuna girmişlərdir.

Zavod-fabrikalar bağlıdır. 750 min nəfərədək əhali əskilmişdir. Şəhər ölü halındadır. Ərzaq yoxdur. Gizli satılan ərzaq isə böyük pullara alınır. Paytaxta gətirilən hər bir şeyi Şura adamları və qırmızı qoşunlar alırlar. Ölüm dəhşətlidir. Rəhn sifəti ilə həbsxanada 26 min nəfər saxlanıb, hər gün atıb öldürmək vardır. Dabravol ordusuna gedən afiserlərin uşaqlarını bolşeviklər cəbrən [zorla] tərbiyəxanaya vermişlərdir ki, tainki gələ-

cəkdə onların valideyni onları tapa bilməsinlər.

**Ukraynalıların protestosu**

Parisdə olan Ukrayna mətbuat bürosu qəzetələrə böylə bir məlumat göndərmişdir: Ukrayna Cümhuriyyəti heyəti Sülh Konfransına müraciətən protesto etmişdir ki, sabiq Rusiya ordusuna mənsub və hal-hazırda Fransada olan Ukrayna milləti saldatları general Denikin ordusuna müavinət üçün əsgərliyə alınırlar.

**Bolşeviklər və Romaniya**

Kişinyovdan Paris qəzetələrinə xəbər verirlər ki, Dnestr cəbhəsində bolşeviklər əleyhinə hərəkət edən əsgərlərin komandanı Romaniya generalı yanına Lenin namından bir heyət gəlib, Romaniyanın Bessarabiyaya tamamilə malik olmasını təminedici şərəfli bir sülh əqd edilməsi təklifini etmişdir. Bundan belə Romaniya nə ukraynalılara, nə də Kolçak tərəfdarlarına kömək eyləməlidir.

**Rus saldatları**

Kiyevdən xəbər verirlər ki, Fransadan gələn saldatlar valideynləri ilə görüşdükdən sonra bolşevik əsgərləri cərgəsinə daxil olacaqlarını xəbər vermişlərdir.

**Bolşevik əsgərlərinin konfransı**

Bolşevik əsgərlərinin Kiyevdə olan konfransı bir qətnamə qəbul etmişdir. Qətnamədə deyilir ki, Denikin bizim üçün qorxulu deyildir. Ancaq bizim zəfliyimiz və təşkilatsızlığımız ona müvəqqəti müvəffəqiyyət vermişdir. Konfrans bütün bolşevik əsgərlərinə və matroslara müraciətlə qüvvələrini artırmağa dəvət edir.

**Cənubi Rusiya Konfransı**

İyul ayının 19-da Konfrans Divani-rəyasəti kəndisi ilə Baş komandan nümayəndəliyi arasında olan ixtilaf barəsində dakladda bulunmuşdur. Qanunverici və qanuni-məşvərət barəsində olan ixtilaf baqi qalmaqdadır.

Konfrans Divani-rəyasəti güzəştə getməkdən imtina edir. Buna görə də Konfrans iclası iki həftə buraxılır. Bu zamanda Divani-rəyasət üzvləri Rostova əzimət edəcəklərdir [gedəcəklər] ki, general Denikin ilə bu barədə məşvərətdə bulunsunlar. Məşvərətdən sonra Konfrans iclasları Terekdə başlanacaqdır. Cənubi Rus İttifaqı məsələsi qaldırılmadığı deyil, tamamilə müzakiratdan çıxarılmışdır.

- Mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, avqust ayının 2-də Ermənistan siyasi müməssili [nümayəndəsi] Sülh Konfransına müraciət edərək, Ermənistan mandat məsələsi həll edilincəyədək ingilis əsgərlərinin Zaqafqaziyada qaldırılmasını rica etmişlərdir.

**Hacı-Tərxan fərariləri**

Avqust ayının 9-da Hacı-Tərxandan 4 nəfər fərari gəlmişdir. Bunlar Hacı-Tərxandan Petrovska yelkənli lodkada gəlmişlər. Lodkaçıya bunlar 52 min rublə mükafat vermişlərdir. Petrovskdan Bakıya isə paroxodla gəlmişlərdir. Fərarilərin rəvayətinə görə, hal-hazırda Hacı-Tərxanda bolşeviklərin 30 min nəfərlik bir hərbi qüvvələri vardır. Saldatların halı yaxşı deyildir. Hərbi məmurlar açıq-açığına Hacı-Tərxanın süqut edəcəyini

gizlətmədən söyləyirlər. Əfkari-ümumiyyə [ictimaiyyət] bu rəydədir ki, Hacı-Tərxan mübarizəsiz təslim olacaqdır. Hacı-Tərxanda ərzaq məsələsi qayət müşkül haldadır. Yeməməklikdən şəhərdə və ətrafında tif [yatalaq] xəstəliyi müşahidə edilməkdədir. Bunu da deməliyiz ki, Hacı-Tərxan bolşeviklərinin əksəri Bakı ermənilərididir. Ən görkəmli yerləri bolşeviklər işğal edirlər. O cümlədən Fövqəladə Şurada da ermənilər vardır.

**Tazəşəhərdə**

Avqust ayının 4-də ingilislər Tazəşəhərdən çıxmışlardır. Bunlar üç paroxodla şəhərdən hərəkət etmişlər. Hal-hazırda şəhərdə bir nəfər də olsun ingilis əsgəri yoxdur. Tazəşəhər üzərinə bolşevik aeroplanları gəlmiş deyə şaye olan [yayılan] xəbərlər həqiqətə müvafiqət etməyir [uyğun gəlmir]. Bolşeviklərin səngəri Tazəşəhərdən çox uzaqdır. Məsələn, bolşeviklər Aşqabaddan üç mövqif [stansiya] Tazəşəhər tərəfinə gəlmişlərdir. Hərçənd Tazəşəhər müntəzəm surətdə təxliyə edilirsə də, fəqət şəhərdə yenə bir çox fərarilər qalmaqdadır. Tazəşəhərdə ərzaq məsələsi çox müşkül bir haldadır. Çörək fəqət kartoçka ilə verilir. Xüsusi surətdə hər girvənkəsi 15 manatdan satılır. Aşqabad bonunun kursu çox aşağıdır. 1000 manat Bakı bonuna 4000 manat Aşqabad pulu verirlər. Tazəşəhərdə Bakı pulu azdır. Tazəşəhər iskələsində Kerenski pulu işlənir. 1000 manat Kerenski pula 6000 manat Aşqabad pulu verilir. Şəhərdə suya böyük ehtiyac vardır. Hər 5 nəfərə gündə bir vedrə içməli su verirlər. Həddən ziyadə olan istilərdən dolayı suya daha artıq ehtiyac hiss edilir.

**Ərəbistan məsələsi və Sülh Konfransı**

"Humanite" qəzetəsi kəndi qarelərindən [oxucularından] birinin kapitalist və cahangir [imperialist] Yevropa millətlərinin bir tərəfdən ərəb xalqının hüququnu tapdaladığını, digər tərəfdən bütün Şərqin hüzur və rahatlığını pozmaqla ümumi sülhü xələldar etdiklərini şərh edən bir məktubunu dərc etmişdir. Məktubda denilir ki:

Hazırda bir Ərəbistan məsələsi vardır. Əcəba, bu Ərəbistan məsələsi nədir? Birinci Sultan Səlim dövründə (1512-1520 sənələrində) Türkiyə dövləti ərəbləri öz nüfuzi-hökmranisinə daxil etdisə də, lakin nə onların arasında özünün sultasını bərqərar edə bildi, nə də onların ehtiram və hörmətini qazana bildi.

Məhəmməd əleyhissalamın vəfatından sonra xüləfayi-raşidinin 632-661 sənələrdə Məkkədə, Bəni-Ümeyyənin 661-744 sənələrdə Dəməşqdə, Bəni-Abbasiyyənin 750-1258 sənələrdə Bağdadda sürdükləri hökumət zamanlarında ərəblər öz lisan və ədəbiyyatlarını mühafizə edib gəlmişlərdi. Ərəbləri ümumi bir hiss, hissiyyati-milliyyətpərvəranə birləşdirmişdi. Ərəbistanda və sair türk hakimiyyətinə keçən ərəb torpaqlarındakı ardı-arası kəsilməyən iğtişaş və üsyanlar bu hissiyyatın qüvvətli bir dəlili və şahididir.

Özlərinin keçmişi, ədəbiyyatı, əski mədəniyyətləri ilə və Osmanlı imperatorluğu daxilində təşkil etdikləri 15 milyonluq nüfusları ilə qayət qüvvətli olan ərəblər monqol və türk hərbcu [hərbçi, döyüşçü] və qəhrəmanlarının sındırıb pərişan etdiklərini bir vaxt gələr abad edərlər ümidi ilə yaşayan ərəblər

hazırda böyük yəs [ümidsizlik, məyusluq] keçirirlər.

Nə üçün?

Çünki Ərəbistan məsələsini anlamayırlar. Yaxud anlamayır kimi göstərirlər. Ona hər zaman vahid bir məsələ kimi baxılmayıb, ayrı-ayrı parçalar kimi almışlardır. Onu bir çox ayrı-ayrı hissələrə – Suriya, Fələstin, Ərəbistan məsələsinə təqsim etmişlər [bölmüşlər]. Süni surətdə onu rəngarəng nüfuzlara tabe etmək istəmişlərdir. Demək, bu milləti mütəşəkkil bir hala qoymaq və diriltmək üçün onu qurd kimi parça-parça doğrayırlar.

Müharibə hərəkatının ibtidasında [başlanğıcında] ərəblər öz üzərlərində hökumət sürən türklərə qarşı mübarizə etmək üçün Müttəfiqlərə qoşulmaq xahişini izhar etdilər. Minlərlə suriyalılar əcnəbilərin hərb edən qüvvələrinə qoşuldular. Bu ümidlə ki, öz vətənlərini xilas etsinlər və müstəqil olsunlar. 1916-cı ildə Hicaz ərəbləri Türkiyə hökumətinə elani-hərb etdilər. 50 min nəfər adam istiqlaliyyət uğrunda mübarizədə davam etdi. Bununla bərabər, türk ordusuna qarşı vətənpərvəranə mübarizə etməkdə Suriya dəxi iştirak etdi. Müttəfiqlər Suriya və Fələstindəki müvəffəqiyyətlərindən dolayı yalnız onlara mədyuni-şükrandırlar [təşəkkür borcludurlar].

Şimdi müharibə bitmiş, öz istiqlaliyyətini tələb edən, bu uğurda ittihad və ittifaq edib mübarizədə bulunan və yardım gözləyən bir millətə biz nə veririz? Biz onlara bunun əvəzində müxtəlif imperializm və kapitalizm hiyləsini pərdələyən ünvanlarla yek-digərindən [bir-birindən] ayrılmaq, parçalanmaq, ölmək təklif ediriz.

Ərəb məsələsi Ərəbistan, Beynənnəhreyn (Fələstin daxil olmaqla) və Suriyaya şamildir. Bu torpaqların yerli əhalisini lisan, din, ədəbiyyat və mədəniyyət birləşdirir. Bu millətin ayrı-ayrı şərait altında olan ürfani-mədəniyyətinə baxmayaraq, keçirdiyi tarixə nəzər edilərsə, görülər ki, bunlar özlərinin bütün hərəkatını etilafla müttəhidən [öz aralarında razılaşmaqla birgə] keçirmişlərdir.

Bu yerlərin irəli düşənlərindən Suriya hər zaman bir çox hərəkətlərdə qabaqda olmuşdur. Böylə olan surətdə kəndisindən mədəniyyətcə daha aşağıda qalan Hicaz istiqlaliyyət qazandıqda, Suriya bəzi məntəqeyi-nüfuzlara təqsim edilir. Hərgah Hicaz öz xidmətindən dolayı istiqlaliyyət qazanırsa, nə üçün Suriya və Beynənnəhreyn böylə bir mükafat almaqdan məhrum edilir? Biz zahiri görünüşü saxlamaq [üçün] Şükrü Qanem, doktor Corc Samne, sair bu kimi suriyalıları meydana çıxardıq. Bunlar 40 sənədir ki, öz yerləri ilə əlaqələrini qeyb etmişlər. Bizim onlara verəcəyimiz səlahiyyətdən başqa ayrı bir mandatları yoxdur. Biz mühasirə vəziyyətində olan yerlərdən nümayəndələr heyəti dəvət etdik və inandırırız ki, bu nümayəndəlik heyəti Livan xalqının arzu və diləyini təmsil edər. Demək, biz haqq və ədalətə və Yevropa sülhünü xələldar etmək təhlükəsi mövcudiyyətinə rəğmən, çalışırız ki, həqiqəti gizlədək və onu istədiyimiz bir surətdə göstərək.

Ərəb məsələsinin yeganə ədalətpərvəranə bir surətdə həlli ərəb vilayətlərinin konfransını dəvət etməklə mümkün olardı. Bu yerlər üstündə ancaq bizdən öz dirilmələri üçün müavinət

gözlədikləri bir halda, Cəmiyyəti-Əqvam qəyyumluğu bərqərar etməklə onların gələcəklərini təmin etmək olardı. Bu vasitə ilə biz əlaqeyi-dostanə saxlaya biləriz, əks halda biz öz verdiyimiz vədi sındırmış olarız. Bununla da Şərqdə hər zaman ümumi sülhü xələldar edə biləcəyi ilə təhdid edən bir həyəcan əmələ gətirməyə səbəb olarız.

**Amerika maliyyunu [varlıları] və Cəmiyyəti-Əqvam**

Amerika Məclisi-Əyanında [Senatında] senator [Vilyam] Bora söylədiyi nitqində Amerika sərvətdarlarının Cəmiyyəti-Əqvama müavinət göstərmələri əleyhinə ciddi surətdə protesto etmişdir. Amerika sərvətdarları Yevropada böyük maliyyə əməliyyatı icra etməkdən ötrü Cəmiyyəti-Əqvamın təşkil olunmasını arzu edirlər. Məzkur [adı çəkilən] senatorun dediyinə görə, Amerikanın ümdə bankirləri maliyyə korporasiyası təşkil etmişlər ki, bununla Yevropadan ötrü milyardlarla borc almağa və ərzaqla xammal gətirməyi öz əllərinə almağa hazırlaşırlar. Bu iş onlara böyük mənfəət verəcəkdir. Onlar öz maliyyə məramnamələrini rəsmi surətdə təmin etməkdən ötrü Amerika hökumətini də bu işdə iştirak üçün cəlb etməyə çalışırlar. Bu barədə Konqreyə daxil etməkdən ötrü lazımi layihə hazırlanmışdır. Senator Boranın sözünə görə, Amerika bankirləri Yevropa sənaətinin [sənayesinin] müşkül halından istifadə etmək istəyirlər. Yevropa sənaətini müharibə ehtiyacı tamamilə məhv etmişdir. Onlar Yevropada iqtisadi ağalıq etmək istəyirlər. Senator [Filander Çeyz] Noks bu bəyanatı təsdiq edib əlavə etmişdir ki, daxil ediləcək qanun layihəsi Yevropa ticarəti ilə təmin edilmiş bir çox milyard borcu ödəməyə müqtədir olan korporasiya vücuda gətirəcəkdir.

**Fransa əhvalı**

Batumda nəşr olan "N[aş] k[ray]" qəzetəsinin rəvayətinə görə, 1916-cı ildə Fransada olan rus saldatlarından gələnləri nəql edirlər ki, Fransada bolşevizm olması haqqında bir söz belə yoxdur. İqtisadi tətillər olmuşdursa da, təsiri olmamışdır. Ancaq 1 May münasibətilə Parisdə olan təşkilatlar[d]a müxtəsər tətil və nümayiş əsgərlər tərəfindən müşkülatsız dayandırılmışdır. Hökumət öz tərəfindən fəhlələrin arzusuna müvafiqət edib və hər halda, fəhlə sinfinin mənafeyini gözləyir. 8 saatlıq iş müddəti tətbiq edilib, hər cür işlərin məvacibi artırılmışdır. Əhali arasında sakitlik və asayişdir. Hərgah bəzi adamlar tərəfindən və mətbuatda burjuylar əleyhinə narazılıq səsləri eşidilirsə də, bu adamlar bolşevikləri quldur hesab edib bolşeviklərə nifrət edirlər. Ordu arasında narazılıq yoxdur. Çünki əsgərləri yaxşı saxlayırlar. Hər saldat dörd ay bitdikdən sonra məzuniyyət alır. Hal-hazırda Fransada bir çox rus saldatları vardır ki, bunlar orada xidmət edənlər və Fransa tərəfindən işğal edilən yerlərdən qaçıb gələn hərbi əsirlərdir. Əhalinin onlara münasibatı fənadır. Bunların hamısına təklif edilir ki, vətənlərinə, yaxud işə getsinlər. Fransızlar rus saldatlarına müvəqqətən iş verirlər. Mümkün olduğu qədər fransızlar rus saldatlarından xilas olmağa və tezliklə onları Rusiyaya gön-

dərməyə çalışırlar. Rus saldatlarından çöl işlərində işləyənləri vardır. Gündə frank yarım muzd alırlar. Fransa fəhlələri isə gündə 20 frank, daha da artıq qazanırlar. Həyat ucuz deyildir. Ancaq ayaqqabı və manufaktura ucuzdur. Ərzaq şeylərindən korluq yoxdur. Çünki bu axır vaxt Amerikadan çoxlu ərzaq şeyləri gətirilir. Rusiyaya bilaaram rus əsgərləri göndərilir. Bunları bolşeviklərlə mübarizə üçün Denikinin yanına göndərirlər. Ruslar arasında şiddətli surətdə bolşevizm təşviqatı vardır. Dabravol ordusu tərəfindən mümaniət [maneçilik] göstərən yoxdur.

## TÜRKİYƏDƏ

### Türk və yunan əhalisi arasında toqquşma

Bursa vilayətində türk və yunan əhalisi arasında toqquşma olmuşdur. Bir toqquşmada türkləri geri çəkilməyə məcbur edən yunan nizami əsgərləri iştirak etmişlərdir. Bu cür toqquşmalar İzmirdə də olmuşdur. Oraya yunan əsgərləri göndərilmişdir. Türklər ehtiyat edirlər ki, yunanilər Soma-Bandırma dəmiryolunu əllərinə keçirsinlər. Türkiyə əsgəri dairələrində bu xəbərlər həyəcana bais olmuşdur ki, yunanilər əsgərlərini daha da artırmaq istəyirlər. Ona görə türklər də öz qüvvələrini artırırlar. Türkiyə Hökuməti bu işdə İtaliyanın müavinətinə güvənir. Guya İtaliya vəd etmişdir ki, Türkiyə əsgərlərinə topxana versin. (Məlum olduğu üzrə, London müqavilənaməsi mövcibincə [müqavilənaməsinə əsasən] Müttəfiqlər Türkiyəni məğlub etdikləri zaman İzmir oblastı İtaliyaya vəd edilmişdir.) Bundan əlavə, Trabzon, Sivas, Kastamonu və Ankara vilayətlərində türk dəstələri təşkil edilməsi "Həmidiyyə" paroxodunun sabiq komandanı Rauf bəyə və Mustafa Kamal paşaya tapşırılmışdır. Trabzon yaxınlığında Türkiyə sabiq vəkili Səbri bəy İtaliya pasportu ilə tutulmuşdur. O, İtaliya nəfinə [xeyrinə] təşviqat yapırmış. İtaliya məmurlarının tələbinə görə məzkur [deyilən şəxs] azad edilib tezliklə İtaliyaya getməsi üçün ondan iltizam alınmışdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Azərbaycan Xariciyyə Nəzarəti Gürcüstan Xariciyyə Nəzarətinə işbu məzmunda bir teleqram göndərmişdir:

*"Sizin teleqrafınıza cavab olaraq məlum edirəm ki, hökumətimiz daima Qafqaziya millətləri miyanında [arasında] baş qalxıza biləcək mübahisəli məsələlərin sülh üzrə həll olunması tərəfdarı olduğu üçün, iyul ayında erməni nümayəndə-sinə müvəqqəti hüdud təyini üçün müzakirata girişmək təklif edilmişdir. Zaqafqaziyanın əhvalının ciddi olduğu üçün Zaqafqaziya Konfransı fəaliyyəti təcdidinə [bərpasına] kəndi rizamızı veririz."*

### Yeni Kabinə

Məclisi-Məbusan dəvairində [dairələrində] yeni Kabinənin bu qərarla təşkil ediləcəyi söylənməkdədir. Rəisi-vükəla [Baş nazir], Daxiliyyə və Post-Teleqraf na-

ziri Nəsib bəy Yusifbəyli, Xariciyyə naziri Fətəli xan Xoyski, Hərbiyyə naziri general Mehmandarov, Ədliyyə naziri Məhəmməd Yusif Cəfərov, Ticarət və Sənaye, Ərzaq, Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri [Musa bəy] Rəfiyev, Türuq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad bəy] Məlikaslanov, digər portfellər də işbu zat miyanında təqsim ediləcəkmiş [bu şəxslər arasında bölüşdürüləcək].

## MAVƏRAYİ-QAFQAZ KONFRANSI MÜNASİBƏTİLƏ

Qafqazda yaşayan üç böyük millətlərin arasında həll edilməyə əşədd [şiddətli] ehtiyacı olan məsaildən [məsələlərdən] ən mühümü sərhəd məsələsidir ki, bunun ətrafında böyük güft-gular [söz-söhbət] dövran etməkdə və əlan [indi] etməkdədir.

Bu məsələ bu üç millətin arasında qan tökməyə səbəb ola bilərdi və Qafqazda asayiş əvəzinə daima hərc-mərclik meydana gələ bilərdi. Bunu Azərbaycan Hökuməti vaxtilə eyi düşündü və törəyə biləcək fitnə və fəsadlara yer verməməkdən ötrü Ümumi Mavərayi-Qafqaz [Zaqafqaziya] Konfransının qayəsini meydana çıxardı və konfrans Tiflisdə çağırılacaq oldu.

O vaxt erməni hökuməti, daşnaklar başda olmaq üzrə, bu işdən açıq-açığına boyun qaçırdılar. Aprelin 9-da açılacaq konfrans iki kərə təxirə düşdü. Nəhayət, konfrans baş tutdu. Fəqət bu konfransdan bir şey hasil olmayacağını hər kəs anlayırdı. Çünki daşnaklar səmimiyyətdən çox kənar idilər. Daşnaklar[ın] sərhəd məsələsinə başqa nəzərləri var idi və istədikləri torpaqları tutacaqlarına, kimin gücünə istinadən bilməm, pək əmin idilər. Sonrası vahid Zaqafqaziya cəbhəsi və ittifaq şüarını konfransda qaldırarkən, erməni nümayəndələri hökumətlərindən bu babda düsturül-əməlləri [bu barədə təlimatnamələri] olmadığını bildirdilər və İrəvana gedib düsturül-əməl almağa ehtiyacları olduğunu anlatdılar.

İki həftə tənəffüs meydana çıxdı. Həman tənəffüs şimdiyə qədər uzadıldı və aralıqda böyük naümidlik də törəndi. Erməni hökuməti bizimlə vahid Zaqafqaziya cəbhəsi təşkil etmədi. Zahirdə olmasa da, batində bizim cəbhəmizi də təhdidə aldı.

Siyasət aləmi böylə naməlum və qeyri-müəyyən halda olduğu sırada erməni hökuməti kəndi siyasətini yürütməyə başladı. Kəsrəti-islamla [müsəlmanların çoxluğu ilə] məşhur Qars, Ərdahan, Kağızman okruqlarını istila etdikləri kimi, büsbütün azəri türkləri ilə məskun Vedibasar, Şərur və Naxçıvan tərəflərini də xainlərinmi bərəkətindən və ya İngilis Komandanı nümayəndəsinin müsəlmanlara olan təkidatından naşi [təkidləri səbəbilə] istila etdilər. İmperializm şüarına müğayir [əleyhdar] və zidd olmaq üzrə elan edilmiş erməni hökuməti bu gün imperializmin ən böyük tərəfdarları olduqlarını göstərdilər.

Fövqdə [yuxarıda] zikr etdiyimiz islam vilayətlərinin istilasından sonra o yerlərdə böyük cinayətlər, böyük əziyyətlər, namus və şərəfə toxunmaq kimi mənhus

[pis] əməllər meydana çıxdı. Daha camaat tab gətirə bilməyib kəndi müqəddəratını kəndiləri həll edəcəklərini və biri qalanadək qan tökməyə hazır olduqlarını anlatdılar və erməniləri o yerlərdən qovdular.

Bu sırada ümumi Qafqaz Konfransı qayəsini meydana çıxaran Azərbaycan daşnakların yadlarına şimdi düşdülər və qəzetələrində Azərbaycan Hökuməti qan tökülməyin önünü ala biləcəyini yazmağa başladılar və Azərbaycan hökuməti millətdaşlarına məsləhət göndərməsinin lazım olduğunu söylədilər.

Bizcə, bu anlaşılmaz bir məsələ olmaqla bərabər, təəccübümüzü də mövcib [təəccübümüzə səbəb] oldu. Azərbaycanın ayrılmaz bir hissəsi olan ölkələrdə erməni hökuməti Azərbaycanı kəndisinə tərğib [rəğbət oyandırmaq] və təşviq üçün bir agent surətində dəvət edir və “Mən sənin ayrılmaz hissəndə hakim olub cinayətlər yapacağıma mənə yardımda bulun” – deyir. Pək tühaf!

Xülasə, cənubda başlanan Mavərayi-Qafqaz yanğısını söndürmək lazım olduğunu düşünən gürcü hökuməti konfransın yenidən dəvəti haqqında erməni hökumətinə və bizə də təklif etdi. Biz gürcü düşündüyü kimi bu konfransa ehtiyac olduğunu etiraf ediriz. Bu gün beş ildən bəri dövran edən hərc-mərcliyə xitam vermək və buna yol verməmək lüzumunu da pək eyicə anlayırız.

Konfrans dəvət edilərsə, müvəffəqiyyət diləriz. Fəqət bunu bilməliyiz ki, o konfransa səmimiyyətlə gəlməsək, hər kəsin qəlbində bir qayə, bir fikir olmasa, yenə böhran hökmfərma olmaqla bərabər, bir naümidlik də meydana gələrək, bu da iğtişaşın böyüməsinə, dairəsinin geniş meydan tutmasına bais ola biləcəkdir.

Konfransa gələn nümayəndələr bir kərə əvvəldən bilməlidirlər ki, fövqdə zikr olunan ölkələr erməni hökumətini qəbul etməyəcəkdir və biri qalana qədər mübarizədə bulunacaqlardır. Biz kimsənin müqəddəratına xələl vurmaq təmənnasından olmadığımız kimi, bizim də müqəddəratımızın əlimizdən getməsinə göz örtməyəcəyiz.

Konfrans dəvət edilərkən kəndi hökumətimizin diqqətini bir yerə cəlb etmək istəyiriz. İstəriz ki, “Seym” vaxtı İrəvan müqəddəratı irəvanlıların iştirakı olmaqsızın Batumda həll olunan təki, Naxçıvan, Şərur müqəddəratı da o yerlərin nümayəndəsi olmaqsızın həll edilməsin. Konfrans dəvət edərkən o yerlərdən nümayəndə çağırmalı, həm də öylə nümayəndələr ki, əlan [indi] o yerlərdə isbati-vücud edirlər [varlıq göstərirlər, yaşayırlar], nəinki Bakıda və Tiflisdə yaşayanlardan olsun ki, övzadan [vəziyyətdən] xəbəri olmaya-olmaya gedib hava qaraltsın.

O yerlərdən dəvət edilən nümayəndələr konfransa qəbul edilməsə də, genə çağırılmaları vacibdir ki, bizim konfransa gedəcək nümayəndələrimizlə xüsusi bir komisyon təşkil etsinlər və bizim nümayəndələri də övzadan hali [xəbərdar] qılmaqla bərabər, camaatın arzu, diləklərini də bildirsinlər.

O yerlərdən dəvət ediləcək nümayəndələrin də konfrans dəvət olunacaq məkana gəlib çıxmaları üçün həyatlarını erməni torpağından keçərkən erməni hökuməti təmin etməlidir. Buna etina

edilməzsə, konfransın nəticəsi də şübhə altında olacaqdır.

*Əli Səbri [Qasımov]*

## ŞİMALİ QAFQAZ CÜMHURİYYƏTİ PARLAMENTOSU

### 3

Bolşevizm mərkəz və mənbəyinə mücavirəti [yaxınlığı] səbəbi ilə Şimali Qafqaz məmaliki [məmləkətləri], Qafqaziyanın digər cümhuriyyətlərinə aid ərazidən ziyadə hərəkati-inqilabiyyəyə səhneyi-vüqu olmuş və çox xırpalanmışdır...

Gürcüstan ərazisi o mənbədən gələcək sədəmatdan [zərbələrdən] vəhlətən [birinci növbədə] mütəəssir olmayacaq qədər uzaq olmaqla bərabər, içində rus bolşevikləri nadir idi. Eyni zamanda əhali bir millətdir və silahları var idi. Gürcülər ondan ötrü mövsümünü fövt etmədilər. Sırasında hər şeyi yapa bildilər.

Azərbaycan dəxi eyni vəziyyətdədir. Fəzlə olaraq hər dürlü təərrüz [hücum] və təhlükədən qoruyacaq imdadçı türk gücü tam vaxtında gəlib çatmış idi. Azərbaycanlılar imdadçıları sayəsində işi yoluna qoya bildilər. Parlamento və hökumət təşkilatını tamamladılar.

Biz Şimali Qafqaza gəlincə, əvvəla, bu iki cümhuriyyətin rus və bolşevizm kimi şimaldan gələcək hər dürlü qəzalarına, bəlalarına qarşı səddi-Çin vəziyyətindəyiz. Biz həyatda ayaqda olduqca, biz yıxılmadıqca cənub qardaşlarımıza zəval yoxdur. Bizim müvəffəqiyyətimiz cənubun da müvəffəqiyyətidir. Biz yıxılarsaq, bizi yıxan nə isə, sonra bunlara çatacaqdır. İmdadçı gətirdiyimiz türklər azərbaycanlılara çatdığı kimi bizə sırasında çatmadı. Gecikdi. Onların gücü ilə bir iş qayırmağa vaxt bulammadıq. Qayıra bildiklərimiz də faydasız qaldı. İşimiz tam düzələcək vaxt geri qayıdıb getməyə məcbur oldular. Əllərimiz böyrümüzdə olaraq meydanda qaldıq.

Məmafih [bununla belə], çalışıldı. O zaman Tiflisdən bir dürlü ayrılmaq istəməyən o zamankı Daxiliyyə naziri [Pşemaxo] Kotsev Dağıstana pək güclüklə gətirildi. Türklər Dağıstanda ikən hüsula gələn səlahi-əmimdən bilistifadə [ümumi asayişdən istifadə etməklə], türk əsgərinin hərəkatını addım-addım təqibən hər dürlü polis və zabitə təşkilatını hər kim olsa, dərhal qolaylıqla yapa biləcək və hökumətdən izin və xəbərsiz içində bir quş belə uçammayacaq qədər məmləkəti zəbtü rəbt altına ala biləcək ikən, bu fürsəti fövt etmək üçün türklərin övdətini [qayıtmasını] bəklədi, sonra gəldi.

Nə fayda ki, "hökumət, dövlət" denilən şeyləri yalnız kitabda görmüş, bütün ömründə Şimali Qafqaz işlərindən əvvəl bir gün, bir saat olsun hökumət ümurunda [işlərində] bulunmamış bir kişi olan bu nazir mütəfəkkir və müdəbbir [tədbirli] deyildi.

Bu əsrdə və bəlkə hər əsrdə bir millətin hərəkəti-istiqlaliyyəsi əmri-xətirini [təhlükəli işini; böyük və çətin işini] sövq və idarə etmək üzrə başına keçən adamlar, o işə görə, hər halda, əvvəla lazım gələn ülum ilə mücəhhəz [elmlərlə təchiz edilmiş]; saniyən [ikincisi], icadi-tədabir istedadına [tədbirlər görmək qabiliyyətinə],

yəni fikri-icada [təşəbbüsü ələ almaq qabiliyyətinə]; salisən [üçüncüsü], namütənahi əzm və cəsarətə malik olmaq gərək ikən pək az bir müddət sonra rəyasəti-hökumət [hökumət başçısı] mə-qamına keçən Kotsev bu xəsailin [keyfiyyətlərin] ikinci və üçüncüsündən ari [uzaq] idi.

Bir Kotsevi, bir də yükləndiyi işləri mülahizə edən hər hankı bir insan vəhlətən [birinci növbədə] deyə bilərdi ki, şimala aid məsaili-ümumiyyənin [ümumi məsələlərin] tədbir və idarəsi əgər bu Kotsev əlində olacaqsa, artıq o məsail öz cərəyani-təbiisinə [təbii axarına] tərk edilmiş deməkdir. Filhəqiqə [həqiqətən], bu kişinin o məsaili nə təcilə [sürətləndirməyə], nə də təkmilə [başa çatdırmağa] təsiri olammayacaqdı. Netəkim olmadı. Çünki qətiyyən iş adamı deyildi.

Məmafih, o əsnada bolşevik və Denikin təhlükələri bir az uzaq məsafədən olduğuna baxaraq, mühiti bir dərəcəyə qədər hali-təbiisinə qoyub kimi mülahizə ilə bu rəisi-hökumət əlində işlər eyi olmasa da, bəlkə, başımıza böylə birdənbirə qiyamət də qopmaz və hər halda, bir gün bir sahili-səlamət buluruz ümidində idim. Məgər: "İza vəsədəl-əmru ila qeyri əhlihi fəntəziri saətə" hədisi-şərifi nə böyük bir düsturi-mənadar [mənalı düstur] imiş! Bütün Qafqaz cümhuriyyətləri arasında mövqeyi və mühitinin mizacı səbəbləri ilə ən ziyadə əsirüt-təşkil [qurulması ən çətin] olan Şimali Qafqaz Cümhuriyyətini təsis etmək şöylə dursun, təşəkkül etmiş hazır bir hökuməti belə ən asudə zamanda idarə edə biləcək kimi təbiət və əxlaqda deyildi.

Şübhəsizdir ki, yeni bir dövlət vücuda gətirmək və sonra işlətməklə, vücuda gəlmiş hazır bir hökuməti idarə etmək arasındakı fərqlər əzimdir [böyükdür]. Bu adam zənn edirdi ki, hökumət işi daireyi-rəyasətdə yalnız övraq [sənədlər] ilə məşğul olmaqdır və bilməzdi ki, əvvəla, məmləkətdə əmniyyəti-ümumiyyə ilə məşğul olacaq zabitə [asayiş] təşkilatı və sairə və sairə bir çox şeylər lazımdır. Ta ki bir tərəfdən əhali bu icraat və təşkilatı görsün və ərkani-hökumətin [hökumət adamlarının] vəzaifi-hökuməti [hökumət işlərini] yapa biləcək adamlar olduğuna inansın. Digər tərəfdən, hökumət də hüquqi-hökuməti ararkən bu təşkilat qüvvəti ilə əhali üzərində indəl-hacə [lazım gəldikdə] icrayi-nüfuz edə bilsin.

Kotsevin qəfləti və bacarıqsızlığı səbəbi ilə bütün işləri kəndi taleyinə buraxılası Şimali Qafqaz Cümhuriyyətinin ilk Parlamentosu məqamına qaim olmaq üzrə 28 kişilik [nəfərlik] heyət Teymurxanşurada rəisi-hökumət Tapa Çermoyevin rəyasəti altında ictima [iclas] etdi. Bu heyət Parlamento deyildi. Çünki nə nəzəriyyatda, nə də tətbiqatda hökumət icraiyyə rəisinin eyni zamanda Parlamentoya rəyasət eylədiyi görülməmişdir. Bu 28 kişilik Divani-Aliyi-Cümhuriyyət hali-ictimada [yığıncaq halında] ikən Tapa Çermoyev rəyasəti-hökumətdən istefa edib yerinə Kotsev rəisi-hökumət intixab edildi [seçildi] və məzkur [adı çəkilən] Divani-Cümhuriyyətin qərarı ilə çox keçmədən 62 kişilik bir Parlamento 20 kanuni-sani [yanvar] 1919-da Teymurxanşurada ictima etdi.

Gərək əvvəlki 28-lər divanı, gərək bu ikinci Parlamento yalnız Dağıstan vilayətinin məbuslarından [millətvəkillərindən] mürəkkəb [ibarət] deyildi. 28-lərdə ose-

tinlərdən, inquşlardan, çərkəzlərdən, çeçenlərdən də var idi. İkinci Parlamentoda kəzalik [həmçinin] şimal əqvamının [xalqlarının] kaffəsindən [hamısından] var idi. Çeçenlərdən 11, çərkəzlərdən 6, inquşlardan 4, osetinlərdən 4, dağıstanlılardan 37 məbus var idi. Çərkəzlərdən 20 qədər məbus gəlməsi lazım ikən imkansızlıq mane olmuşdu.

Bu ikinci Parlamento zamanındakı böhrani-vükəla [hökumət böhranı] əsnasında istefa edən Kotsev ikinci dəfə rəyasətə intixab edildi.

Ötədən bəri Xariciyyə naziri Heydər Bammatov idi. Heydər Bammatovun Paris məhafilində [dairələrində] özünü tanıtdığı sifətinə xələl gətirməmək məqsədilə məqamında ibqasını [qalmasını] və rəisi-hökumət tərəfindən Kabinədə vükəla [nazirlər] listəsinə Şeyxülislam yazılan Əli Hacı əfəndi Akuşinin də məşixətini [şeyxülislamlığını] Parlamento fövqəlüsul [qaydaların fövqündə] olaraq təsvib [təsdiq] etdi.

General Mikayıl Xəlilovun rəyasətə intixabı zamanında da eyni hikmətə binaən [əsasən] eyni təsvib vaqe oldu. İndi bunlar hər nə qədər Parlamento tərəfindən intixab edilən rəisi-hökumətin, Kabinəsinə kəndi idxal eylədiyi iki nazir isə də, yalnız rəisi-hökumət tərəfindən intixab deyil, sifətləri Parlamentoca da təsdiqi-sərih ilə [açıq-aşkar, şübhəsiz bir şəkildə] təsdiq edildiyi cəhətlə, içində bulunduqları Heyəti-Vükəlanın [Nazirlər Kabinetinin] istefası ilə və ya süqutu ilə saqit olmayacaqlardır, ta ki, haqlarında Parlamento süqut qərarını verə.

Rəisi-hökumətin Daxiliyyə Nazirliyi zamanından başlayan heçliyi seyyiəsi [nəticəsi, mənfi təsiri] olaraq hökumət getdikcə zəiflədi. Bu halı mühit daha qorxunc göstərmək istəyən zabitan qismi də qurd kimi ovlanmaq üçün sisli bir hava bəkləyirdi. Bu zabitan qrupunun başında rəisi-hökumət zənn olunan general [Mikayıl] Xəlilovun bulunduğunu sonra anlayırız. Denikin əsgərindən bir miqdar əsgərin Petrovska gəlməsini həman fürsətədd etdilər [fürsət saydılar] və fürsəti qənimət bildilər. Qiyamətin qopmaq üzrə olduğunu söyləyərək əhalini və Parlamentonu həyəcana düşürdülər. Halbuki o anda öylə bir təlaşa məhəl [yer] yox idi. Çünki Denikinin Türküstan sövqiyyatında Qroznıya Petrovsk xəttindən haqqi-istifadəsi Düvəli-Etilafiyyə [Antanta dövlətləri] tərəfindən tanınmış və hökuməti-cümhuriyyəyə də bildirilmiş idi.

Bu hesabla Denikin əsgərinin oraya gəlməsi fövqəl-məmul [gözlənilməz] bir şey olmadığına görə, Parlamentonun bunu lüzumundan ziyadə böyütməməsi lazım ikən, o anda kim nə kimi bir rol çevirdi, bilməm. Dağıstanlı məbuslar Parlamentoda o saata qədər mövcud olduğu anlaşılmayan "Dağıstan partisi" namını alaraq çeçen, çərkəz, osetin, inquş məbuslarından ayrı və xüsusi bir cələseyi-xəfiyyə [gizli iclas] əqd etdilər. Sonra salona gəldilər. O zaman partinin cələsədə verdiyi qərarı məbus Apaşev "Dağıstan partisi, Parlamento əzası evlərinə tayсınlar [qayıtsınlar] qərarını bilittifaq [yekdilliklə] verdi" deyə salonda ümuma təbliğ eylədi. Çeçen, çərkəz, osetin, inquş məbusları buna bilittifaq müxalif rəydə bulundular, lakin əqəliyyətdə [azlıqda] qaldılar.

Bu hadisədə şimdi bizə lazım olan nöqtə şudur ki, qərar "ilqa" və ya "fəsx"

[ləğv] kimi nəfsi-Məclisə [Məclisin özünə], heyəti-ümumiyyənin şəxsi-mənəvisinə təəllüq edəcək [aid olacaq] qeyddən xalidir. Məclisi-Məbusanı pozub yox etdiklərini ifadə edəcək söz olmadığı kimi, məbusların sifəti-vəkalətlərini və səlahiyyəti-təmsiliyyələrini mütəəssir edəcək və məbusluqlarına xitam verildiyinə, sifət və səlahiyyəti-təmsiliyyələrinin nəhayətə ərdiyinə dəlalət edəcək ləfz dəxi yoxdur. Böylə bir qərar ittixazına [qəbul edilməsinə] Məclisi məcbur edən səbəb sərihdir: Məclisin düşməni Məclisə yaxlaşmış zənn olundu. Məclisi hali-ictimada [yığıncaq halında] bulduğu təqdirdə əzaları müaxizə etməsi məlhuz idi [Məclis üzvlərini sıxışdırması ağla gəlirdi].

Səbəbi-mücbiri [məcburedici səbəbi] ilə birlikdə qərarın sərih ibarəsi [açıq-aşkar ifadəsi] təhlil edildikdə mənası: "Düşmənin, məhəlli-ictimamız [yığıncaq yerimiz] olduğunu bildiyi bu Parlamento binasında yığılmamız məbusanın və hökumət ərkanının şəxsləri üçün təhlükəli olduğundan, indəl-icab [məcburiyyətdən], axır məhəldə yığılmaq üzrə dəvət vüqu buluncaya dəyin, məbusların xanələrinə taymalarına bilamüddət məzun olduğuna [müddətsiz icazə verildiyinə] qərar verildi", deməkdir.

Əzaların xanələrinə tayması qərarı general Xəlilovun bu işdə qayeyi-amalı idi. Bu qərar verilmiş olunca başqa bir ictimada general Xəlilov: "Mən Şimali Qafqaz hökuməti-cümhuriyyəsi rəisi sifətini tərk etdim. Ancaq Dağıstan rəisi olaraq ifayi-vəzifə edirəm" demişdir.

Demək oldu ki, general Xəlilov hökuməti-cümhuriyyə rəyasəti həmuləsini [yükünü] özünün kefi ilə vərayizahrından [kürəyindən, belindən] xakə [yerə] atıb, düşmənə iltihaq eylədi [qoşuldu]. Düşmənin lehinə və namına və hökuməti-milliyyəsi əleyhinə ifa edəcəyi bir vəzifə dəröhdə etdi [öhdəsinə götürdü]. Bu barədə Parlamentonun rəyini bəkləmədi.

İştə, ondan sonra Parlamento tərəfindən rəyasəti-hökumət və Kabinə xüsusunda müzakirə vaqe olmadığına görə Şimali Qafqaz hökuməti-cümhuriyyəsi kabinəsi, rəisi ölmüş və yaxud istefa etmiş və yerinə kabinəni təşkil edəcək rəisi-digər intixab edilməmiş hal və şəklində olaraq durur.

*(məbədi var)*

*Pşimaf*

## AZƏRBAYCAN İSLAHATI

## 2

**Əhali və polis nəfəratı**

Azərbaycanın daxili islahatından biri, bəlkə birincisi əhali ilə polis nəfəratı arasında sıxı bir münasibatın bulunmasıdır. Bunların arasında əlaqə və müamilə [rəftar] eyi olarsa, məmləkətin daxilində məhəbbət və məvəddət [sevgi; dostluq] kökləşər, ixlas, iradət [səmimiyyət, mehribanlıq] təməl atar.

Bilümum [ümumiyyətlə, bütün] daxildə gözlənilən islahat el birliyi ilə vücuda gələr. Bununla həmi elin heysiyyəti, həmi də məmuriyyət şərəfi yüksələr, qüvvət, qüdrət bular və icab etdiyi [lazım gəldiyi] zamanda coşqun həmiyyət, yük-

sək ruh mənayi-xassı [həqiqi mənası] ilə meydana çıxar.

Məmləkətin əmniyyəti, əhalinin rifahiyyəti, ticarətin bollaşması, yaşayışın lətafəti, əxlaqın təhzibi [gözəlləşməsi] məmurların nəzakətinə, nizam və qaydaya riayət etmələrinə bağlıdır. Məmur nizamsevici olarsa, əhali dəxi itaətçi olar. Əxlaqlı olarsa, əxlaqlı olar. Hasili, əhalinin bütün eyiliyi-fənalığı məmurun tərzi-hərəkətinə təvəqqüf edir [bağlıdır].

Lakin gənc Azərbaycanımızda hənuz bu məsələ bambaşqadır, nəzəri-etinaya alınmışsa da, tətbiq edilməmişdir. Polis nəfəratı postaya, bazara, çarşıya getdiyinə həman əlinə bir zopa alaraq qoşurlar, haqsız və yersiz olaraq istemal [istifadə] edirlər. Qovğalar ehdasına məhəllər arayırlar [Dava salmaq üçün yer axtarırlar]. Bunun meydana çıxardığı şey müvəffəqiyyət deyil, tam mənası ilə fəlakətdir.

Bu gün milisin dəyənəyi "şərəfinə" məzhər [nail] olmamış bir adam tapılmaz. Çörəkçi döyülür, çayçı döyülür, baqqal döyülür, bəzzaz [bez, parça satan tacir] döyülür. Həp, həp döyülür.

Baxalım bu döymələr nə kimi nəticələr bəxş edir? Əhali bundan mütənəbbeh olurmu [ağıllanırmı]?

Xayır!

Zira bu döymək islahat və müvəffəqiyyət üçün olmayır, başqa bir məqsədlə icra olunur və ancaq o məqsədə çatırlar. Halbuki hər soqaqda [küçədə] yüzlərcə hökumətin əfal [feillərini] və hərəkatını təkdir edən [pisləyən] zənginlər, əsgər və zabitanı təhqir edən mütəkəbbirlər və məmurları təqbih edən [bəyənməyən, qəbahətləndirən] qoçubaşılar durur, sərbəstiyi-tammə ilə [tamamilə sərbəst olaraq] istədiklərini yapırlar, arzu etdikləri şeyləri edirlər. Bunlara kimsə söz deməyir, tənbeh etməyir.

Hətta bunların öylə irəli gedənləri var ki, zövcəsini bir tərəfə apardıqda soqaqda erkəklərə gözlərini yumdurur. (Ru-bə-divar [üzü divara]!?) Məmləkətin mötəbəranı haqqında təhqiri mövcib [təhqirə səbəb] olacaq hərəkətlərdə bulunur. Öylə hərəkətlər ki, mətbuat səhifələrində yazmağa həya mane olur. Hər daim yapdıqları yaramazlıqları kamali-iftixarla dükan qarşısında söyləyirlər. Yurdunun asayişinə, vətəndaşının rahatlığına, dövlətinin qanununa itaət və xidmət etdiklərini söyləyəcəkləri yerdə, yapdıqları fənalıqları açıq-açığına söyləyirlər.

*"Şücaət ərz edərkən mərdi-qibti sirqətin söylər"*

Bu hərəkətlər həpsi məmuriyyətin şərəfini bilməməzlikdən tövlid edir [doğur]. Bunlara məmuriyyətin şərəfini, vətəndaşlığın qiymətini anlatmalıdır. Zira hökumətin timsali-mücəssəməsi, xidmətində bulunan məmurlardır. Məmurlar məmləkətin islahatı, əhalinin dincliyi haqqında fəaliyyət göstərərsə, hökumətin şanıdır. Əksinə, fənalıq yaparsa, yenə hökumətin fənalığıdır.

Bundan maəda [bundan əlavə], zopa və sair onun kimi şiddətli cəzalar, dəhşətli şikəncələr məğlublar üzərində qaliblər tərəfindən icra edilər və təzyiq altına alınar. Nasıl ki, ruslar Azərbaycana girdikləri zaman etmişlərdir. Bulduqları insanı qətl, əşyanı yağma, qadınları əsir etdikləri kimi, çocuqları dəxi süngülərə taxmışlardır. Bu yırtıcılığın son nəticə-

sində "yeddi ev bir güvəcə möhtac oldu" fəlakəti tarixlərdə zərbül-məsəl məqamına keçmişdir.

Halbuki biz nə qalib-məğlubuz, nə də başqa-başqa millətləriz. Həpimiz türk, həpimiz islamız. Hökumət kəndimizin, yurd kəndimizin, millət də kəndimizindir. Böylə olan surətdə şiddətli müamilənin [rəftarın] lüzumu yoxdur. Hökuməti-aliyyəmizin vəz etdiyi [uca hökumətimizin qoyduğu] qanuna riayət etmək, nəticədə eyilik və islahat vücuda gətirəcək hərəkətdə bulunmaq fərzdir. Əhali dəxi milli hakimiyyət, milli istiqlaliyyətin ləzzətini, qiymətini ancaq bununla anlaya bilər. Hökumətini, yurdunu, istiqlalını və millətini sevər, məqami-zərurətdə canı ilə, başı ilə düşmənə qarşı durar. Ölər, düşmənə təslim olmaz. Ölkəsinə qədəm basmağa qoymaz.

Sabiqdə sərsərilik edən bir nəfər bu gün hökumət uniformasına məğrurən möhtərəm bir zatın başına zopa vurarsa, təbii, bu hərəkət kimsəni məmnun edəmməz. Biləks [əksinə], pusuda rəqib hazırlar. Min sənələrdən bəri gərək türk-islam aləmində və gərək ərəb-islam dünyasında üzərimizə yağdırılan fəlakətlər bunları isbat edəcək müsbit dəlillərdəndir. Bu hərəkətin islahını səmimiyyətlə arzu ediriz.

*Ayn. Ayn.*

## MƏTBUAT

### Zaqafqaziya cümhuriyyətləri və ingilislər

Məlum olduğu üzrə, neçə vaxtdan bəri ingilis qoşunlarının buradan gedəcəyi haqqında bir çox şayiələr çıxaraq, nəhayət, mühəqqəq [qəti] xəbər verilmişdi ki, İngiltərə hökuməti daxili səbəblərə görə bütün Rusiyadan və Qafqaziyadan ingilis qoşunlarının çəkilməsini əmr etmişdir. Bu münasibətlə Gürcüstan, Azərbaycan və Ermənistan hökumətləri İngiltərə hökumətinə müraciətlə qoşunlarının hələ bir müddət daha Zaqafqaziyada saxlanmasını xahiş etmişlərdir. Bu münasibətlə yazmış olduğu baş məqaləsində rusca "Azərbaycan" rəfiqimiz deyir ki:

*Hökumətlərin böylə müraciəti bir çox beynəlmiləl siyasi mülahizatdan nəşət etmişdir [irəli gəlmişdir]. Çünki adi yoluna düşmüş olan daxili həyatımız və mövcud nizam və qayda öz qüvvəmizlə təmin edilmişdir. İngilis Komandanlığı da kərratla [dəfələrlə] bunu dərk etmişdir.*

*Zaqafqaziyaya qoşun göndərdikdə İngilis Komandanlığı rus bolşevizmi ilə mübarizə məqsədini təqib etməyirdi. Zaqafqaziya cümhuriyyətləri hələ ondan da qabaq Rusiya Vətəndaş müharibəsi və rus bolşevizmindən ayrılmışlardı və öz millətlərinin xahişi ilə "rus məsələsi" dairəsindən çıxmışlardır.*

*İngilis qoşunları Zaqafqaziyada heç bir əməliyyatda iştirak etməmişlərdir. Gərək məhəlli demokratiya [yerli xalq] və gərəksə Yevropa demokratiyasını narazı salacaq iş görməmişlərdir. Burada əsla Etilaf dövlətləri [Antanta dövlətləri] prinsipinə və demokratiyasına zidd olmayan xüsusi məqsəd və məramlar təqib edilirdi.*

*Biz kərratla göstərirdik ki, Şərqdə ən zəngin yerlərə malik olan İngiltərə Zaqafqaziyadan Yevropadan Asiyaya tarixi bir yol kimi istifadə etməyə çalışacaqdır.*

*Hələ Zaqafqaziyada İngiltərənin xüsusi mənafeyini müdafiəsindən bəhs etməyiriz.*

*İngilis Komandanlığı burada İngiltərə qoşunu bulundurmaqla yeni məmləkətlərdə nizam və asayişin təmini, bizim də, ingilislərin də böyük əhəmiyyət verdiyimiz beynəlmiləl məsələlərin həlli kimi bəzi müəyyən vəzifələr ifa etməli idi. Bir çox siyasi əmrlərdən və Paris heyəti-mürəxxəsəmizin [nümayəndə heyətimizin] verdiyi məlumatdan anlaşılır ki, İngiltərə hökuməti ciddən və səmimi surətdə bizim mənafeyimiz tərəfdarıdır. O bizim milli, siyasi, müstəqil həyat arzumuza hüsn-təvəccöh bəsləyir. Bu surətlə, dövlətimizin əsasının möhkəmləşməsi və Zaqafqaziyada millətlər arasında adi münasibat bərpası İngilis Komandanlığının məqsədlərindəndir və nə qədər bu məqsədlər ələ gəlməmişdir, ingilis qoşunlarının Zaqafqaziyada qalması həyati zərurətlərdəndir.*

*Ona görədir ki, Azərbaycan Hökuməti heç vaxt ingilis qoşunlarının Azərbaycanda bulunması əleyhində olmamışdır. Biləks [əksinə], Azərbaycanın ümum siyasi dairələri kəndi milli və dövləti nöqteyi-nəzərindən ingilislərin Azərbaycanda bulunmasına hüsn-təvəccöhlə baxmışlardır. Biz daha irəli gedərək güman edirdik ki, yaxından yek-digərimizlə [bir-birimizdə] anlaşaraq bizim cavan dövlətimizə xeyirxahanə nəzərlə baxılsa, ingilislər hər cəhətdən bizimlə sıxı surətdə yaxınlaşmağa imkan bularlar. Bu mülahizələrdir ki, nəinki bizim üçün, hətta ingilislər mənafeyi üçün də ingilis qoşunlarının Zaqafqaziyada qalmaları məmuldur [arzuediləndir].*

## BAKI XƏBƏRLƏRİ

### Parlaman komisyonlarında 600 milyon dövlət pulu

Azərbaycan Cümhuriyyətinin Maliyyə Nəzarətindən təzədən 600 milyon rublə pul buraxılması haqqında Parlamanın Maliyyə-Büdcə komisyonuna bir layiheyi-qanuniyyə [qanun layihəsi] idxal edilmişdir.

* * *

Parlamanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komisyonuna Bakı gömrükxanasında bir müfəttişlik məmuriyyəti təsisi haqqında bir qanun layihəsi idxal edilmişdir.

### "Müsavat"da

- Sabunçu dairəsi işçilərinə ucuz ərzaq paylamaq üçün ağustosun 8-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Sabunçu şöbəsi 5 nəfərdən ibarət bir komisyon seçmişdir.

- Ağustosun 8-də vaqe olan iclasda "Müsavat" firqəsinin Sabunçu şöbəsi yeni heyəti-idarə intixab etmişdir [seçmişdir].

- Balaxanıda vaqe "Kaspiyski-Çernomorski" obşestvanın 41, 46, 107-ci mədənlərində müdiriyyət tərəfindən 250 nəfər fəhlə xidmətdən çıxarılmışdı. Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsinin təşəbbüsü ilə o fəhlələrdən 215 nəfəri geri qəbul edilib, qalanı üçün yer olmadığından namizəd buraxılmışdırlar.

- Yenə Balaxanıda 5-ci qruppanın 9-cu hissə mədənində çalışan fəhlələr tərəfindən üç nəfərdən ibarət heyət Türk

Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a müraciətlə məlum etmişlər ki, ayyarımlıq məvaciblərini verməyirlər. Yeni kollektiv ilə məvacib vermək istəməyir və tətil günlərinin haqlarını da verməkdən imtina edirlər. "Müsavat" firqəsi bu barədə lazımi yerinə müraciətən tədbirlər görməkdədir.

**Balaxanıda leksiya**

Cümə günü ağustosun 8-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxanı kənd şöbəsi təşəbbüsü ilə Abbasqulu Kazımzadə tərəfindən "İstiqlalımızın nasıl əldə edildiyi və o gündən bu vaxta kimi daxili və xarici siyasətləri haqqında" uzun və ətraflı bir leksiya tərtib verilmişdi. Natiq əfəndi Bakı müharibəsini, ingilislərin gəlməsini, Parlaman güşadını [açılışını], Denikin məsələsini, gürcülərlə ittifaqımızı və bundan məqsədi, ermənilərlə münasibətimizi, Qarabağ, Şərur və Naxçıvan məsələlərini, Lənkəran və Dağıstan hadisələrini, Avropa ilə münasibətimizi, fəhlə və zəhmətkeş haqqında hökumətin fəaliyyətini, bütün bu işlərdə "Müsavat"ın fəaliyyəti və iqdamatını [təşəbbüslərini; addımlarını] birər-birər söyləyib, müvəffəqiyyətlə təsvir etməyə müvəffəq olmuşdur. Camaat çox idi. Leksiyadan sonra Məşədi Həmid Paşazadə, Nazir Əlikərimzadə, Molla Abdulla əhvali-siyasiyyə haqqında, Balaxanıya su gətirmək məsələsi haqqında birər nitqlər söyləmişlərdir.

**Provokasiya**

Bakı və ətrafında olan mədənlərdəki müsəlman fəhlələri arasında qara qüvvələr ciddi surətdə provokasyonnı şayiələr nəşr edirlər [yayırlar]. Hətta bəzi mədənlərdə Denikinin Bakıda olduğu söylənir.

**Məhəmmədşah Şıxlarski haqqında**

Dünənki nömrəmizdə xəbər verdiyimiz Dəvəçidə müstəntiq Məhəmmədşah Şıxlarskinin qanunsuz hərəkəti haqqında "Müsavat" firqəsi Daxiliyyə və Ədliyyə nəzarətlərinə müraciət etmişdir.

**Abdullayevin sürgün edilməsi**

Qradonaçalnikin binagüzarlığına [sərəncamına] görə, Süleyman Abdullayev Bakı qradonaçalstvası dairəsindən sürgün edilir. Eşitdiyimizə görə, Abdullayev qradonaçalnikdən Daxiliyyə nazirinə şikayət etmişdir.

**1000 pud buğdanın satılması**

Təchizat İdarəsi Bakı qubernatoruna xəbər vermişdir ki, Xaçmaz mövqifində Müşkür uçastok pristavının ixtiyarında bulunan 1000 pud buğda bilmək olmur necə olmuşdur.

**Qoqoberidzenin həbsi**

Aldığımız məlumata görə, bolşevik liderlərindən Qoqoberidze hökumət tərəfindən həbsə alınmışdır.

**Arvad qaçmışdır**

Ağustosun 6-da saat 6 radələrində üçüncü dairə polis idarəsinə İran təbəəsi Ələsgər Baba oğlu gəlib xəbər vermişdir ki, 4 gün irəli onun ərdə olan qızı Sitarə cürbəcür bəhanələrlə əri Salman Zərbəli oğlu və qohumları Rübabə Ruhulla qızından 60 min manata qədər qiymətli əşya və pul toplayaraq qaçmışdır.

**Yeni dəmiryol məmurları**

İyulun 1-də Azərbaycan dəmiryolları üçün məmurlar hazırlayan məktəbdən 24 nəfərdən ibarət olan birinci qruppa müvəffəqiyyətlə məktəbi bitirib buraxılmışlar və təcrübə üçün dəmiryol istasyonlarına göndərilmişlərdir. İstasyon naçalniklərindən məlumat alındıqdan sonra dəmiryol müdiriyyəti tərəfindən bir çoxu istasyon naçalnikinə müavin təyin edilmişlər və qalanları da həmin vəzifə təcrübəsinə məşğuldurlar.

**Batumda neft bürosu**

Bakıdan Avropaya aparılan neftləri qəbul edib təhvil vermək üçün Batumda xüsusi büro təşkil edildiyini neft nəqliyyat bürosunun nümayəndəsi hökumətə xəbər vermişdir. Bakıda alınmış olan 300 min pud neftdən bu saat 200 min pud göndərilmişdir.

**Birjada**

Kerenski minliklər 1350 manata, 250 manatların min manatı 1250 manata, 5 yüzlüklər 1400 manata, yüzlüklər - 280 manata, Don pulları 30 faiz.

**Valyuta**

Xırda gümüşlər 17 manata, manatlar 32 manata, ingilis lirəsi banknot 400 manata, çek 350 manata, qızıl Osmanlı lirəsi 420 manata, kağız lirə 112 manata, İtaliya lirəsi 14 manata, frank kredit 18 manata.

**İranda**

Azərbaycan pulu: min manat 75 qran, Kerenski minliyi 78 qrana, türk lirəsi 34 qrana.

**AZƏRBAYCANDA**

**Çarhan qəryəsindən**

Keçənlərdə Çarhan əhalisinin zəhmətkeş və ziraət [əkinçilik] işlərində bacarıqlı olmalarına dair məlumat vermişdim. Bu dəfə məzkur qəryə [adı çəkilən kənd] əhalisinin əkinəcək yerlərinə olan ehtiyac və bu babda, nəhayət, təngliklə [çətinliklə, darlıqla] məişət etməklərindən ərz edəcəyəm.

Çarhan Şamaxı mahalında zəhmətkeş və əkinçiliklə məşhurdur. Amma bu şöhrət onların bol və bərəkətli məhsulları olur deyə deyil, bəlkə bu camaatın yorulmaz bir fədakarlıqla iş və kəsb dalınca getmələrindəndir ki, şu namı [adı] almışlar. Çarhan qəryəsinin əhalisi zəngin, mülkədar və çəndan [bir o qədər də] maldar deyillər. Doğrudur, Mart hadisatından müqəddəm [qabaq] nəzərə, bir növ, varlı və heyvanlı görünürdülər. Lakin bu qəryə Şamaxıya yaxın olmağa görə vəhleyi-ülada [hadisələrin lap əvvəlində] qəddar ermənilərin hücum və təcavüzlərinə məruz olaraq dövlətləri, heyvanların çox yarısı tələf olub getmişdir. Məlumdur ki, kənd əhllərinin güzəranı, məişəti heyvandarlıq, əkinçilik və bu kimi şeylərlə olur. Deməli, əkinçinin qazanc və gəlir mənbəyi öküzü, arabası, kotanı və tarlasıdır. Bu əsbab olmadığı təqdirdə, onların nə gunə zindəganlıq edəcəklərin [dolanışıqlarının necə olacağını] təsvirə ehtiyac yoxdur.

Şamaxı mahalında vaqe köylərin əksəri fövqdə məzkur alatın [yuxarıda deyilən alətlərin] yoxluğundan, ya azlığından naşi [ötrü] üsrət və çətinliklə imrari-həyat etməkdədirlər [ömür sürməkdə-

dirlər]. Bir çox əkinçilərə təsadüf etdim. Bunlar hadisatdan müqəddəm böyük əkinçi idilər. Məəttəəssüf [təəssüf ki], bu halda həmin adamlar əkin alatından məhrum olduqlarından, ziraət işi ilə məşğul ola bilməmişlər. Özlərini və ailələrini ruzidən təmin etməkdən ötrü kəndlərdə meyvə satırlar. Heyvan və əkin alatı tədarük etməyə də qüvvə və təvanaları [taqətləri] yoxdur.

Məhəza [bununla belə], əkin yerlərinin azlığı və kifayətsizliyi də böyük əngəl törədir. Öylə kəndlər vardır ki, istədikləri qədər toxum əkməyə yerləri mövcud deyildir. Binaənileyh [ona görə] ya az toxum səpirlər, yaxud bir mülkədardan çərəyinə yer götürürlər. O cümlədən biri də Çarhan qəryəsidir.

Çarhan əhalisinin ziraət yerləri çox azdır. Sabiq istibdad dövründə bu xüsusda hər nə qədər lazım olan yerlərə ərizələr, şikayətlər etmişsələr də, bir nəticə hasil olmamışdır. Odur ki, bir para miyanə [ortabab] əkinçilər mülkədarlardan və yaxud kəndçilərdən pul ilə haqla yer götürməyə məcbur olurlar. Vəilla [yoxsa] kəndilərinə məxsus ziraət yerləri istədikləri qədər yoxdur. Toxum əkməyə kifayət etməyir.

Əkin mövsümü yaxınlaşmaq münasibətilə bir qaç gün əvvəl Çarhanda yer bölgüsü vaqe olurdu. Əsl kəndçilərdən maəda [başqa] Çarhanda 30-a qədər sonradan gəlmə ev vardır ki, işbu 30 evin əkinəcək yerləri yoxdur. Neçə ildir bunların bir qismi muzdurluq, digər qismi də başqa adamlardan yer götürüb əkməklə güzəran edirlər. Bu dəfə yer bölgüsündə əsl Çarhan camaatı bunlara da yer vermək istədilər. Yer təqsim edildikdə [bölüşdürüldükdə] məlum oldu ki, ev başına ancaq əsl camaatın özünə bir dekar toxum yeri düşür. Bu isə dağ yerində ziraətə məşğul olanlar üçün heç məsabəsindədir [heç yerindədir].

Bir az miyanə əkinçilər yenə onun-bunun qapısına düşməyə məcbur olacaqdır. Halbuki məzkur qəryənin həvalisində [yaxınlığında] Boqos Vəroğlu və Küləxana yerləri vardır ki, olduqca münbit və məhsuldardır. Boqos yerindən fəqət bir adam istifadə edir. Bu yer o qədər vüsətlidir [genişdir] ki, bir kənd camaatının ehtiyacını pək sühulətlə [asanlıqla] ödəyə bilər. Əgər bu yerlər ziraət yerləri az olan kəndçilər arasında təqsim edilsə, arada olan tənglik və darısqallıq büsbütün dəf olub gedər.

*Əlif. Əlif.zadə*

## TEATRO VƏ MUSİQİ

**Yetimlər yurdu nəfinə teatro-müsamirə**

Çaharşənbə [çərşənbə] günü avqustun 13-də axşam Hökumət Teatrosunda artistka xanım Y. N. Olenskayanın təşəbbüsatı və türk səhnəsi aktyorları iştirakı ilə təmiz hasilatından 25 faizi müsəlman yetimlər yurdu nəfinə [xeyrinə] olmaq üzrə təntənəli bir surətdə teatro-müsamirə [teatr-konsert] tərtib ediləcəkdir. Həmin tamaşada bir pərdə "Harun ər-Rəşid", bir pərdə "Azərbaycan", "Bizim kirayənişin özünü öldürdü" komediyası və kabare olacaqdır. Kabaredə rəqslər, nəğmələr və meyxana oxunacaqdır. Bun-

dan əlavə, lotereya və bufet olacaqdır. Fasilələrdə Şuşalı Seyid oxuyacaqdır.

Xüsusi ianə vermək istəyənlər həman gecə teatroda müsamirə rəisəsi Pəri xanım Topçubaşovaya və müdiri-məsul İsa bəy Aşurbəyliyə müraciət edə bilərlər. İanə verənlərin isimləri qəzetədə hesab verildikdə ayrıca elan olunacaqdır.

Tamaşa gecə saat 3-ə qədər davam edəcəkdir. Ümidvarız ki, möhtərəm camaat yetimlərin halını nəzərə almaqla həvəslə teatroya gəlib imkan dairəsində bu xeyir işə müavinət göstərərlər.

Biletlər ayın 12-si və 13-də teatro kassasında satılacaqdır. Tamaşa axşam saat 9-un yarısında başlanacaqdır.

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bunuyla Bakı ətrafı köylərinə xəbər verir ki, Nəzarət avqust ayının 4-də kənd əhalisinə paylamaq üçün Kəndlilər İttifaqı ixtiyarına manufaktur və şəkər vermişdir. Binaənileyh, kəndlərdə təşkil edilən İttifaqın şöbələri məzkur [deyilən] şeyləri alıb köylərinə təqsim etmək üçün Ticarət, Sənaye və Ərzaq Nəzarətində "Köylülər ittifaqı"nın idarəsinə müraciət etməlidirlər.

*Ticarət, Sənaye və Ərzaq Nəzarəti İdarəsi*

***Müvəqqəti müdir: Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 184. "V. B. Sklodovski": qəzetdə səhvən "D. B. Skladovski" kimi getmişdir.

**Teleqraf xəbərləri**

səh. 184. "son verdikləri məlumati-hərbiyyədən": qəzetdə "məlumati-hərbiyyədən" yerinə səhvən "əməliyyati-hərbiyyədən" getmişdir.

"İdil nəhrinin şərq kənarında": qəzetdə "nəhrinin" yerinə "şəhrinin" getmişdir.

səh. 185. "Medvediça nəhri": qəzetdə "Medvediça şəhri" getmişdir; söhbət Rusiyanın Saratov və Volqoqrad vilayətləri ərazisindən keçən və Don çayının sol qolu olan Medveditsa çayından gedir.

**Qəzetələrdən**

səh. 189. "Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Xüləfayi-raşidin": Məhəmməd Peyğəmbərdən sonrakı ilk dörd xəlifə (Əbubəkr, Ömər, Osman, Əli); onların dövrü 632-661-ci illəri əhatə edir.

"Bəni-Ümeyyə": 661-750-ci illərdə hökm sürmüş Əməvilər nəzərdə tutulur.

**Türkiyədə**

səh. 192. "Rauf bəy": Hüseyn Rauf (Orbay) nəzərdə tutulur.

**Şimali Qafqaz Cümhuriyyəti Parlamentosu**

səh. 195. "Kotsev": bu soyadı qəzetdə təhrif edilmişdir.

səh. 196. "İza vəsədəl-əmru ila qeyri əhlihi fəntəziri saatə": Hədis (Peyğəmbərin sözü): "İş, ona layiq olmayan kəslərə tapşırıldıqda, qiyaməti gözləyin."

"Teymurxanşura": İndiki Buynaksk şəhəri. Rusiya Federasiyasının tərkibində Dağıstan Respublikası Buynaksk rayonunun inzibati mərkəzi. Əsası XIX əsrdə qoyulan şəhərin adı 1922-ci ildə dəyişdirilərək Buynaksk olmuşdur.

səh. 197. "Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

**Azərbaycan islahatı**

səh. 199. "Şücaət ərz edərkən mərdiqibti sirqətin söylər": "Qaraçı, şücaət ərz edərkən, oğurluğundan danışar"; bu misra XVIII əsrdə yaşamış Osmanlı şairi və dövlət xadimi Qoca Raqib paşaya məxsusdur.

**Bakı xəbərləri**

səh. 202. "Yeni kollektiv ilə": belə başa düşülməlidir: "Yeni kollektiv müqavilə şərtlərinə əsasən"

**Teatro və musiqi**

səh. 204. "Harun ər-Rəşid": Abdulla Şaiqin əsəri.

"Azərbaycan": İsa bəy Aşurbəylinin əsəri.

"Bizim kirayənişin özünü öldürdü": Məhəmməd Sadıq Molla Ruhulla oğlu Axundzadənin əsəri.



آذربایجان

*"Azərbaycan" qəzetinin 249-cu nömrəsinin 1-ci səhifəsi*

**Çərşənbə axşamı, 12 avqust 1919-cu il, nömrə 249**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 15 zülqədətül-haram sənə 1337. 12 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

Bununla möhtərəm camaata elan olunur ki, Parapet qarşısında olan **DARDANEL** lokantası bu gündən etibarən "Morskoy restoratorlar" təhti-nəzarətinə [tabeçiliyinə] keçmişdir. Nahar və şam təcrübəli aşpazın təhti-nəzarətində [nəzarəti altında] buraxılır. Nahar və şam vaxtı strunnı orkestr [simli orkestr] icrayi-ahəng edir.

*7433*

## ALMAQ İSTƏYİRƏM

Bir dənə tütün doğrayan və bir dənə papiros dolduran, motorlu makina. Xahiş edənlər Parapetdə "Gəncə" şirkəti komisyon ontoruna müraciət edə bilərlər.

*7427*

## ELAN

Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən bu avqust ayının 11-dən başlayaraq "Eyzenşmidt" zavodunun yanında olan (рядомъ съ заводомъ Айзеншмидтъ) Nəzarətin odun və kömür skladından [anbarından] hər adama pudu 20 manatdan bir kisədən fəzlə olmayaraq kömür buraxılacaqdır.

*T-208*

## ZİRAƏT VƏ ƏMLAK NƏZARƏTİNDƏN

Bakı, Gəncə quberniyaları dairəsində müharibə zamanı bir para adamlar öz meyvə, üzüm bağlarını və əkiləcək yerlərini heç kimə tapşırmayaraq qoyub getmişlər. Bunları qanunsuz olaraq bir para adamlar zəbt etməsin deyə 1918-1919-cu ildə onların bir hissəsi icarəyə verilmişdir. Nəzarət bu bağların və binaların məhv olmasını nəzərə alaraq, bunları birillik müddətinə dəxi icarəyə vermişlər və bununla elan edir ki, bu bağların və yerlərin sahibləri öz yerlərini idarə etmək istərlərsə, bu barədə yerlər onların olmağını isbat edəcək şəhadətnamələrlə ərzi-hal verərək öz yerlərini idarə etməkdən ötrü icazə almalıdırlar. Hərgah ərzi-hal, yerlər icarəyə verildikdən sonra verilərsə, o vaxt yer sahibinə ancaq icarə vaxtı qurtardıqdan sonra öz yerini idarə etməyə icazə veriləcəkdir.

Bakı quberniyası barəsində: ərzi-hal Ziraət Nəzarətinin Yer şöbəsinə (Bakı, Vodovoznı küçə, Mitrofanovun evi, nömrə 8), Gəncə quberniyası barəsində ərzi-hal (Gəncədə) Gəncə Ziraət İdarəsi müdirinə verilməlidir.

*T-204*

**AZƏRBAYCAN "KAZYONNI PALATASI"**

Bununla elan edir ki, iyun ayının 23-də 1919-cu ildə Azərbaycan Parlamanının təsdiq etdiyi qanununa binaən [əsasən], vergi naloqu (padaxodnı naloq) verənlərin gəliri 1918-ci ildə bir beş min (5000) manatdan yuxarı olmayıbsa, vergi naloqunu verməkdən azad edilirlər.

"Yuridiçeski və fiziçeski" vəsiqələri olanların gəliri 1918-ci ildə beş min (5000) manatdan yuxarı olmuş olubsa, 1919-cu ildə vergi naloqu verməlidirlər.

Bu adamlar uçastkovı komitələrin vergi naloqu şöbəsinə (padatnoy inspektorlar dəftərxanasında) nərədə və nə xidmətdə olduqlarını və 1918-ci ildəki gəlirlərini göstərərək lazım olan qayda üzrə ərzi-hal verməlidirlər.

Ərzi-hal yazmaqdan ötrü lazım olan vərəqələri Kazyonnı Palatada və padatnoy inspektorların dəftərxanasında almaq olar.

Ərzi-hal verməyənlər təqsirkar hesab olunaraq böyük məbləğdə cərimə alınacaqdır.

*T-209*

**APTEK MAĞAZASI**

Yaxşı işləyən, ittifaqən təcili olaraq satılır. Mağazada mənzil, telefon, elektrik işığı, hər bir şey mövcuddur.

Binası və obstanovkası qeyri bir ticarət mağazasına yarar, aptek malsız dəxi sata bilərəm.

Qubernski, nömrə 53, telefon 17-30.

*7432*

**HÖKUMƏT TEATROSUNDA AXŞAM TAMAŞASI**

Həmin tamaşadan hasil olan məbləğdən 25 faizi müsəlman yetimlər yurdu nəfinə [xeyrinə] veriləcəkdir.

Çaharşənbə [çərşənbə] günü, avqustun 13-də 1335-ci (1919-cu) ildə Bakı Türk Səhnəsinin aktyorları iştirakı ilə mövqeyi-tamaşaya qoyulacaqdır:

**"HARUN ƏR-RƏŞİD"**

1 pərdədə Abdulla Şaiqin əsəri.

**"AZƏRBAY-CAN"**

2 pərdədə İsa bəy Aşurbəylinin əsəri.

**"BİZİM KİRAYƏNİŞİN ÖZÜNÜ ÖLDÜRDÜ"**

1 pərdədə [Məhəmməd Sadıq Molla Ruhulla oğlu] Axundovun əsəri.

**KABARE**

Kabaredə iştirak edəcəklər: Xanım Olenskaya – rəqs, Hüseynağa Hacıbababəyov – segah, Nərimanov – rəqs, Sarabski – kərəmi, Qəmər xanım [Topuriya] və Nərimanov – ləzginka, Məhəmmədtağı Bağırov – qatar, Abbas Mirzə – deklamasiya [bədii qiraət], Əbülhəsən Anaplı – kupletlər, Mirpaşa [Sadıqov] və Əliislam [Dadaşov] – meyxana.

Həmin tamaşanın fasilələrində lotereya olacaqdır. Bufetdə məşhur Seyid Şuşalı oxuyacaqdır.

Teatroda yetimlər yurdu nəfinə ayrıca ianə verənlər Pəri xanım Topçubaşova müraciət edə bilərlər. İanə verənlərin adları qəzetədə elan ediləcəkdir.

Biletlər avqustun 12-dən teatroda satılacaqdır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Baş rejissor Abbas Mirzə Şərifzadə. Müsamirənin mütəşəbbisəsi Y. N. Olenskaya. Müsamirənin müdirəsi Pəri xanım Topçubaşov, müdiri-məsul İsa bəy Aşurbəyli.

**SİRK "MODERN"**

Səşənbə günü ağustosun 12-də 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 45-ci günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Staroşvili ittifaqən məğlub olduğuna görə, axırıncı Gənc Əlini revanş mübarizəsinə dəvət edir. Qəti revanş mübarizəsi: Staroşvili – Gənc Əli.

2-nci: Zakoroyko – Makarov.

3-ncü: Krayevski və Artold.

Tamaşa başlanacaq axşam saat 8 tamamda.

Pəhləvanların çıxışı 11-in yarısında.

Tamaşa qurtaracaq saat 12 tamamda.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7430*

**İRƏVAN VİLAYƏTİ VƏTƏNDAŞLAR İTTİFAQI İDARƏSİNİN MÜHACİRLƏRƏ XİTABI**

Vətəndaşlar! Gürcüstan hökumətimöhtəreməsi bir konfrans dəvət edib vətənimizdə daşnak məzaliminə [zülmünə] xitam vermək arzusunda imiş. Əvvəl, təşəkkürlər ediriz və sonra düşünürüz: əcəba, şu konferansa hüququmuzu müdafiə, tökülən qanlarımızı, pamal olan [tapdalanan] namusumuzu, dağılan camelərimizi, bihörmət olan müqəddəsatımızı, qarət olan xanə və əmlakımızı xunxar, alçaq daşnaklardan mütalibə [tələb] eyləmək üçün bizlərdən də konfransa mürəxxəslər [nümayəndələr] dəvət olunacaqdırmı?

Yox, zənn edirəm. Çünki bu barədə yazılan məqalədə hərfi-vahid [bir hərf; bir kəlmə] böylə yox idi. Əgər bizim vəkillərimiz olmaqsızın konfrans təşkil olunarsa, bizim dərdimizi kim bizim kimi şərh edə biləcək? Əlbəttə, heç kim. Çünki Azərbaycan Hökuməti bizim etimad və etibarımıza məzhər [nail olmuş] hami və hökumətimiz olmaqla bərabər, ermənilərin məzalimini konfransda onun nümayəndələri bizim kimi açmaz və açammazlar. Konfransda ermənilər bizim əlimizdən dad-fəryad edib bir neçə deleqat vasitəsilə bizlər[in] daşnak hökumətinə tabe olmaq arzusuna nail olmağa çalışacaqdır. Onda isə, genə bizim sinəmiz – daşnakların süngüləri.

Bəs bizim yeganə çarəmiz məzkur [adı çəkilən] hökumətlərdən atidə iniqad edəcək [gələcəkdə baş tutuacaq] konfransda bizim də məbusumuz olmasını ciddən tələb etməkdir və əgər tələbimiz qəbul olmazsa, konfransın qətnaməsini də kəndimiz üçün qanun deyə təlqin edəmməyiz.

O surətlə, qoy, daşnak qurşunlarından xilas olanlarımız da qırılsınlar. Qalan evlərimiz də xarabazara dönsünlər və daşnaklar da o xarabaların bülbülləri (?) olub mədəni millətlər üçün samiənəvaz [qulağa xoş gələn] nəğmələr tərənnüm eyləsinlər. Biz isə ya öləcək, ya Azərbaycandan başqasına tabe olmayacağız.

Bu məsələ, güman edirəm ki, cəmi vətəndaşları bu avqust ayının 12-də Şəhər Upravasının binasına saat 6-da ümumi iclasa cəm olmağa məcbur edir, ta ki, gələcəkdə əvvəlkilər kimi yeni tələ-at verməyəlim. Vətəndaşlar, avqustun 12-i saat 6-da Bələdiyyə İdarəsi binasında təyin edilmiş iclasa həpiniz təşrif gətiriniz. Dərdimizi söyləyəlim, çarəsini düşünəlim.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Məşixətdən**

*Əmrnamə-15*

İdareyi-Məşixətin [Şeyxülislamlıq İdarəsinin] anbardarı (arxivarius) Əbdürrəhimzadə 1 ağustos 1919 tarixindən etibarən müvəqqətən kargüzar təyin edilmişdir.

*Əmrnamə-16*

İdareyi-Məşixətin yazıçılarından Məhəmmədhənifə Axundzadə 1 ağustosdan etibarən müvəqqətən anbardar (arxivarius) təyin edilmişdir.

*Əmrnamə-17*

1 ağustosdan etibarən Məhəmmədrəsul Zeynal bəy oğlu İdareyi-Məşixətə qasid (storoj) təyin edilmişdir.

*Əmrnamə-18*

1 ağustosdan etibarən Əliağa Möhsünzadə İdareyi-Məşixətə müvəqqətən yazıçı təyin edilmişdir.

*Məşixət sədrləri:*
*Mustafa Əfəndizadə,*
*[Axund Ağa] Ağaəlizadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Qafqaziyadakı Müttəfiqlər heyətinin məlumati-rəsmiyyəsi**

**Yorkda tətil**

Londondan xəbər verilir ki, dəmiryol əmələlərinin [fəhlələrinin] izdihamlı mitinqlərində qərar qoyulmuşdur ki, bilatəxir [dərhal] ümumi tətil elan edilsin.

**İngilis mədənlərində**

Londondan xəbər verilir ki, Kömür Mədən Əmələləri Konfederasyonu Bonar Luinin üç ay müddətində tətil edilməyəcəyi xüsusda istədiyi icbarnamənin verilməməsinə qərar qoymuşdur.

**Gürcüstan teleqraf xəbərləri**

Ali Şurayi-Hərbiyyə [Ali Hərbi Şura] qərar qoymuşdur ki, Macarıstana Müttəfiqlər nümayəndələrindən mütəşəkkil bir hərbi komisyon göndərilsin. Bu komissiyaya Fransa generalı Qratsiani, Amerika generalı Bandholts, ingilis generalı Qorton, İtaliya generalı Mombelli daxildirlər. Bu heyət Macarıstan Hökuməti üzərində kontrolluq və Macarıstan qırmızı qoşunlarının tərxis edilməsinə nəzarət edəcəkdir.

**Dabravolların məlumati-rəsmiyyəsi**

6 avqust

Hacı-Tərxan cəbhəsində – Bizim Laqanın şərqi tərəfində əməliyyatda bulunan gəmilərin bir hissəsi bolşeviklərin daha güclü flotunun təzyiqi ilə cənub tərəfinə çəkilmişlərdir. Buna görə də Laqanı işğal etmiş olan qoşunlarımız oranı tərk edib bir qədər cənub tərəfə çəkilmişlərdir.

Çornı Yar dairəsində və İdil [Volqa] nəhrinin sol tərəfində təbəddülat [dəyişiklik] yoxdur.

Kamışin cəbhəsində - Tarasov səmtində bizim qoşunlar Kamenkada möhkəmlənib şimal tərəfə olan yürüşlərini vüsətləndirirlər.

Don cəbhəsində - Balaşov səmtində düşmənlərin yürüşü dayandırılmışdır.

Talovaya səmtində bizim hissələr Vasilyevkanı işğal etdilər. Düşmənləri Peçerski tərəfə təqib edirlər. Sair yerlərdə heç bir təbəddülat yoxdur.

Xarkov cəbhəsində - Bizim hissələr ciddi yürüşə girişib Kursk səmtində bir neçə qəsəbələri almışlardır. Bannoye, Dobrimskoye, Krikovka, Şlyaxovo dairəsində müharibə edirlər.

Poltava cəbhəsində - Psyol nəhri boyu ilə bizim yürüşümüz müvəffəqiyyətli surətdə davam edir. Bizim hissələr bir neçə mövqifləri işğal etmişlərdir. Düşmənlər qərb tərəfinə çəkilirlər.

Yekaterinodar cəbhəsində - Düşmənlərin Verxnedneprovsk üzərinə olan hücumu tərəfimizdən dəf edilmişdir. Bizim hissələr Bojedarovkanı işğal edib Verxovtsevo mövqifi [stansiyası] üzərində iş görən zirehli qatarın yolunu kəsmişlər. Aleksandrovskdan cənub tərəfə olan Dneprin bütün sağ tərəfi Qırmızı qoşunlardan təmizlənmişdir.

Novorossiysk - İstanbulda nəşr olunan "L'Entente" qəzetəsi xəbər verir, Rusiyanın bəzi yerləri ilə Perekop dönümündən Krım və Azovski dəniz arasında olan yerlərdə ticarət başlamaq planını Müttəfiqlər təsdiq etmişlərdir.

Kantemirovka – Bobrov uyezdində (Voronej quberniyasındadır) fərarilərinin sözünə görə, bolşeviklər təcilən nəqliyyat vasitələri hazırlayıb buğdaları daşıyırlar.

Yekaterinodar - Yevpatoriya maliyyə komissiyası ümumi iclasın qərarına görə, Yevpatoriyanın dövlətli ünsürünə dəvətnamələr göndərib üç gün müddətində Dabravollar nəfinə [xeyrinə] iki milyon para verməyi təklif etmişlərdir.

**Bolşeviklərin məlumatı**

Nikolayev - Müttəfiqlərin ali tribunalı qət eyləmişdir, Hollandaya Vilhelmə məhkəməyə gəlməyə dəvətnamə göndərilsin. Hərgah, Vilhelm öz xahişi ilə məhkəməyə gəlməzsə, Vilhelm cəbrən Londona gətiriləcəkdir. Bundan maəda [bundan başqa], müharibə müqəssiri olaraq prins Ruprext də cəlb ediləcəkdir. Prins Belçikada yapdığı rəzalətlərdən dolayı məhkəməyə cəlb edilir. Marşal Makenzen Romaniyada yanqı yapdırması və sirqətdə [oğurluqda] bulunduğu ilə ittiham edilir. Bunlardan əlavə, bir neçə generallar, o cümlədən fon Sanders Türkiyədə erməni qırğını saldırdığı üçün mühakimə ediləcəklərdir.

* * *

- İstanbulda ingilis məmurları tərəfindən bu günlərdə bir çox rus bolşevikləri həbs edilmişdir. Bunlar İstanbulda təbliğat yapırmışlar.

- Sofiyada 10 min nəfərlik bir Dabravol dəstəsi tərtib verilir. Bunlar bolşeviklərlə mübarizə edən rus dabravollarına müavinət edəcəklərdir.

Stavropol - Divani-hərb tərəfindən sabiq türkmən komisyon və müəllim Gimran[ov və] Muradov həmişəlik kürək cəzasına [katorqaya] məhkum edilmişlərdir.

**Xarkov**

"Novaya Rossiya" qəzetəsinin məlumatına görə, Petroqradda elektrik, tramvay və sair müəssisələrin əmələləri könüllü dəstələr təşkil etmişlər ki, Petroqrad təxliyəsində bu müəssisələri bolşeviklərdən mühafizə etsinlər.

Dnepr cəbhəsində - Dneprin sol kənarında atışma davam edir. Bizim flot Oçakovun sahil topları ilə atışdıqdan sonra onları iskata [susmağa] məcbur etmişlərdir. Oçakov qalası üzərində milli və ağ bayraqlar qalxızılmışdır.

**Don ştabının məlumati-rəsmiyyəsi**

Balaşov cəbhəsində düşmənlərin süvari və piyada alayları avqustun 5-də Peski kəndi üzərinə hücum eyləmişdir. Hal-hazırda qızğın mübarizə davam edir.

Boriseqlebsk dairəsində atışma davam edir. Novoxopyorsk dairəsində təbəddülat [dəyişiklik] yoxdur.

Talovaya səmtində, avqustun 5-də bizim hissələr hücuma keçərək düşmənləri Vasilyevka dairəsindən çıxarıb Kolodeyevka tərəf təqib edirlər. Şimala doğru ricət edən [geri çəkilən] düşmənlərlə eyni zamanda müharibə gedir. Bizim tərəfdən avqustun 4-də Buturlinovkaya hücum edilsə də müvəffəqiyyətli olmamışdır. Zira düşmənlər şiddətli inad göstərirlərdi.

Lis[ki] cəbhəsində düşmənlər Verxniye Markini işğal etsələr də tərəfimizdən onlar bu yerlərdən çıxarılmışdır. Sair cəbhələrdə təbəddülat yoxdur.

**QƏZETƏLƏRDƏN**

**Dabravol gəmiləri Dneprdə**

Sevastopoldan xəbər verirlər ki, Qara dəniz donanması Xerson ilə Nikolayev arasında dəniz yolunu kəsib Dnepr limanına daxil olmaqla Dneprdə abluka yapmaq istəyirlər.

**Minonosların Qara dəniz donanmasına təslimi**

İngiltərə Komandanlığı Qara dəniz donanması komandanına təklif etmişdir ki, Türkiyədə və İzmirdə olan 5 ədəd minonoslarını və bir neçə başqa gəmiləri təhvil alsın. Bundan əlavə, İngiltərənin sürətlə gedən balaca gəmilərini Qara dəniz donanmasına daxil etsin. Bu gəmilərin tayfaları [heyətləri] rus zabitlərindən və matroslarından təşkil edilməlidir.

**İngiltərə-rus ittifaqı**

Hal-hazırda Sevastopolda bir dəstə məşhur dövləti və ictimai xadimlər vardır ki, İngiltərə-rus ittifaqı əqd edilməsindən [bağlanmasından] ötrü, İngiltərə Hökuməti ilə və ictimai dairələrlə müzakirat və müxabirat aparmaqdadırlar. Bu məsələ hələ müzakirə halındadır. Lakin mötəbər mənbələrdən verilən xəbərlərə görə, bu məsələ bu yaxınlarda ciddi surət alacaqdır. Sevastopola gəlmiş olan İngiltərə donanması komandanı Seymur, məzkur xadimlər dəstəsi ilə müşavirədə

bulunmuşdur. Müşavirə nəticəsində hər iki tərəf məmnun qalmışdır.

**Kremençukda**

Kremençuk təcili surətdə möhkəmləşdirilir. Bolşevik əsgərləri Kremençukda xəndəklər qazıb Dneprin hər iki kənarını möhkəmləndirirlər. Bu tədarükat Kremençukun əhəmiyyətli bir mövqe olduğunu göstərir. Çünki Kremençuk işğal edilmədən sağ sahil Ukraynaya malik olmaq mühal əmrdir [çətin işdir].

**Kolçakın müvəffəqiyyətsizlik səbəbi**

Yekaterinodardan "Y. K." qəzetəsinə teleqraf edirlər ki, Royter agentəliyinin verdiyi xəbərə görə, Kolçak Sibirya ordusu arasında olan nizamsızlığı yatırmağa müvəffəq olmuşdur. Bir çox alaylar ləğv edilmişlərdir. Ona görə də, nizamsızlıq bütün alaylara sirayət edə bilməmişdir. Şimal ordusu xətərsiz qalmışdır. Buna görə Sibirya ordusunun tezliklə hücuma keçəcəyini gözləmək olar.

**Almaniya silahı**

"Ç. t." qəzetəsi xəbər verir ki, Müttəfiqlər mütarikə şəraitində [atəşkəs şərtlərində] göstərdiyindən ziyadə olaraq almanlardan mühimmati-hərbiyyə [hərbi ləvazimat] almışlardır. Bununla belə, Müttəfiq əsgərləri hərəkət etdikcə mühimmati-hərbiyyə mövcudatı kəşf edilmişdir. Bunlar nəzərə buraxılmış gəlirsə də, lakin gözəl bir halda imişlər. Şərqdə olan alman əsgərləri külli miqdarda silaha və mühimmati-hərbiyyəyə malik olduqlarından, təsəvvür etmək olar ki, mütarikə zamanında da alman hərbi zavodları işləməkdə imişlər.

- Londondan xəbər verilir ki, Bavariyanın sabiq şura diktatoru Toller, hökumət tərəfindən 5 il həbsə məhkum edilmişdir.

Helsinqfors [Helsinki] - Kopenhaqda müntəşir [Kopenhagendə nəşr olunan] "Politiken" qəzetəsinin məlumatına görə, Bolqariyada hər gün hadisə gözləmək olar. Bu axır günlərdə bütün şəhərlərdə böyük nümayişlər qurulmuşdur. Nümayişçilər Şura Hökuməti təşkilini tələb edirlər.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin dövləti vergini almaq qəsdi ilə müzayidə [hərrac] ilə satılacaq əmlaki-mənqulə və qeyri-mənqulə [daşınan və daşınmaz əmlak] qanun layihəsinin dəyişməsi haqqında məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Məruzə təsviblə [bəyənilməklə], Məclisi-Məbusana idxalı tapşırılsın. Qanun layihəsinin ikinci maddəsində "dövləti vergi" sözündən sonra "25 min manatdan artıq olmasın" sözlərinin artırılması məşrutdur [şərtdir].

- Maliyyə nazirinin Nəzarət üzvü Yasenskinin kəndi istidasına [ərizəsinə] görə əzli [işdən kənar edilməsi] və maaş verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Mümaileyhi [haqqında danışılan şəxsi] avqustun 1-dən əzl edilmiş hesab edərək, 20 milyonluq fonddan iki ayının məvacibi 6 400 manat verilsin.

- Daxiliyyə nazirinin 1 fevral qərardadı mövcibincə [qərardadına əsasən] 100 min manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən para 20 milyonluq fonddan buraxılsın.

- Maarif nazirinin İngiltərə Komandanlığının “Komeni” şirkətindən almış olduğu kağızı Tiflisə aparmaq üçün icazə istəməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İcazə verilsin.

- Daxiliyyə nazirinin Nəzarətə iki tərcüman təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə 2 nəfər tərcüman təyininə icazə verməklə, məvacibləri Nəzarətin smetası təsdiqinədək 20 milyonluq fonddan verilsin.

- Xariciyyə nazirinin Nəzarət dəftərxanası müdiri təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Həman vəzifəyə Gürcüstan Hökuməti indindəki Azərbaycan siyasi nümayəndəliyi katibi [Xuramoviç] İsmayıl bəy əfəndini iyulun 1-dən təyin etməli.

- Daxiliyyə nazirinin sabiq Göyçay qəza qaimməqamlığı kargüzarı Əhmədbəyov ailəsinin maaşının artırılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyon fonddan mütəvəffanın [mərhumun] qadını Rübabə xanım Əhmədbəyova verilmək üçün bir dəfəlik iki min manat buraxılsın.

- Maarif nazirinin edadi məkatib şöbəsi müdiri təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Həman vəzifəyə Bakı Müqəddəs Nina məktəbi müəlliməsi Eynülhəyat xanım Yusifbəylini təyin etməli.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Maliyyə Nəzarəti dövləti xidmətçiləri üçün ezamiyyə və gündəlik haqqında bir qanun layihəsi tərtiblə Vükəla Şurasına [Nazirlər Kabinetinə] idxal etmişdir.

- Maliyyə Nəzarəti gəlir vergisi nizamnaməsini pozmaq üçün alınan cərimənin 10 dəfə artırılması haqqında bir qanun layihəsi tərtiblə Vükəla Şurasına təqdim edilmişdir.

- Daxiliyyə Nəzarətində İngiltərə Komandanlığından xəbər alınmışdır ki, İran şahı Əhməd Mirzə Avropaya azim olmaq [getmək] üzrə Bakıya əzimət edir [yola düşür]. Əhməd şahı hamil olmaq [gətirmək] üçün “Kursk” vaporu Ənzəliyə göndərilmişdir.

- İngiltərə komandanlığı Rəisi-vükəla [Baş nazir] həzrətlərinə işbu məzmunda bir təliqə [rəsmi məktub] göndərmişdir:

1) Əlahəzrət İran şahı Bakıya ayın 13 və yaxud 14-də varid olacaqdır [çatacaqdır]. Bundan ötrü, Ənzəliyə vapor göndərilmişdir. Vaporu İngiltərə müsəlləh gəmiləri təşyi [müşayiət] edəcəklərdir.

2) Gömrükxana körpüsündə əlahəzrəti ingilis fəxri qarovulu pişvaz edəcəkdir.

3) Həzrətlərinizdən rica edirəm ki, əlahəzrət üçün məxsusi tren [qatar] verilməsi və yol üzrə yemək və qeyrə təmini üçün tədabiri-lazimə ittixazı [lazımi tədbirlərin görülməsi] haqqında sərəncam verəsiniz.

4) Yaxşı olardı ki, əlahəzrəti pişvaz üçün tiren körpüyə aparılsın.

5) Həzrətləriniz lazım görərsə körpüdən vağzala qədər Azərbaycan qoşunları qoymaqla bərabər xüsusi pişvaz təyin edə bilərsiniz.

6) Ehtimal ki, vağzal təzyin ediləcəkdir [bəzədiləcəkdir].

7) Əlahəzrətin trenini Britaniya qaraqolu təşyi edəcəkdir.

## HANKI QANUN İLƏDİR?

Məclisi-Məbusanın yaxın iclaslarından birisində əsgərlik məsələsi müzakirə olunarkən möhtərəm Rəsulzadə Məhəmməd Əmin bəy əfəndi Əxzi-əsgər idarələrinin hərəkətindən və rus qanunlarından bəzilərinin bizim həyatımıza tətbiq ediləmməz olduğundan bəhslə buyurdular ki:

*"Bir ailənin çörək gətirən bir oğlu olur, onu əsgər alırlar, ailəsi sahibsiz qalır. Rus həyatında bəlkə böylə etmək olar. Çünki onların arvadları kəndilərini idarə edərlər. Amma bizim həyatımızda şəraiti-ictimaiyyəmizdən dolayı bu əsla qabil deyildir."*

O vaxt məbuslardan bir çoxları bizim qanunumuzda böylə şey olmadığını bəyanla müariz çıxdılar [etiraz etdilər]. Məhəmməd Əmin bəy isə: *"Doğru, qanunumuzda yoxdur, fəqət həyatımızda tətbiq və icra edilir"* – dedilər və dəlil olmaq üzrə vilayətləri gəzərkən bu xüsusda çox şikayətlər eşitdiklərini bəyan etdilər.

Parlaman cələsələrində [iclaslarında] böylə şeylərə çox diqqət verilir, bunların üzərinə çox danışıqlar olur. Amma həyat bir dəfə cızılmış yol ilə getməkdədir. Fəqət bu olarmı? Böylə davam edə bilərmi?

Məbus əfəndi vilayətlərdəki haqsızlıqları misal gətirirlərdi. Biz isə bu dəfə məbusların əli altında, Azərbaycanın paytaxtında daha betər olduğunu qeyd **və bu xüsusa Nəzarəti-cəlilənin [möhtərəm Nazirliyin] nəzəri-diqqətini cəlb etmək istəriz.**

Məlumdur ki, son zamanlar Bakıda əsgər yığılır. Əsgər yığmaq barəsində şübhəsizdir ki, əsgəri proqram və nizamnamə vardır. Bunun üzərinə hamını almalıdır. Fəqət böylə edilməyir. Çox vaxt olur ki, yaşı çox olan adam tutulur. Hətta əsgərlik yaşına yetməmiş adamların da tutulduğu az deyildir.

Bundan əlavə, **ailə şəraitinə heç vaxt və əsla diqqət verilmir.** Axır günlər şəhərimizdə bir çox adamlar əsgər alınmışdır. Halbuki halı nəzərdə tutulsaydı, bilmərrə alınmazdı.

Məsələn, Bakıda bir ailə bilirəm. 40-42 yaşında bir arvad. Dişlərinin yoxluğu, saçının ağarmağa başlaması, üzünün qırışması zəmanə yükü altında tez qocaldığını, çox üsrət [çətinlik] çəkmiş olduğunu nümayiş etdirir. Bu arvadın 17, 19 və 21

yaşlarında üç oğlu və 15 yaşında bir qızı var. Ortanca oğlu Məclisi-Məbusan qorucu bölüyündə xidmət edir. Üç gün əvvəl böyük oğlunu da əsgər almışlardır. Ailə tam mənasıyla sahibsiz qalmışdır.

Kiçik qardaşı Əxzi-əsgər [Hərbi Çağırış] idarəsinə getmiş "Ailəmizi idarə edən böyük qardaşımızdır. Mən isə külfət saxlaya bilmərəm. Hökumətə əsgər vermək vacibdir. Üç qardaşdan biri getsin gərək. Binaənileyh [ona görə] rica edirəm, məni əsgər alınız da, böyük qardaşımı buraxınız, anamı, bacımı saxlasın" deyə təklif etmişdir.

Əxzi-[əsgər] idarəsinin cavabı bu olmuşdur ki, sən hələ çocuqsan, səni əsgər almaq olmaz.

Ortancı qardaşı iləri yerimiş: "Öylə isə mən onsuz da əsgəri xidmətdəyəm. Biz dedik, üç qardaşdan biri gedəcəkdir. O halda qoy yaşım az olsa da, könüllü sifəti ilə də olsa, mən gedəyim. Şimdi ki Parlaman qorucu bölüyü əsgər deyilmiş, heç eybi yoxdur. Mən o xidməti buraxayım da, Salyan qışlasına gedəyim. Ancaq, Allah rizasına, qürbət eldə, yad ölkədə bizim ana-bacımızı sahibsiz qoymayın. Məni əsgər alın, böyük qardaşımı buraxın" deyə yalvarmışdır.

Əxzi-əsgər idarəsi: "Sən Parlamanda xidmət edirsən. Onun dəxli yoxdur. Parlaman qorucu bölüyü əsgər deyil. Biz səni oradan da ala bilmərik. Sən öz xidmətinə get" demişdir.

Böyük qardaşı rica edir: "Ağa, öylə isə mən Salyan qışlasında, ortancı qardaşım qorucu bölüyündə, bəs bizim külfəti kim saxlayacaqdır? Öylə isə ailəmizə siz bir tədbir deyiniz. Görəyim nə yapacağam? Anam, bacım necə dolanacaqdır? Bunu düşünürmüsünüz? Allah eşqinə, bir ailəni sahibsiz buraxmayın. Axır heç bir qanunda böylə şey olammaz."

Əxzi-əsgər rəisi hiddətlənir. Bir əsgər çağırır: "Adə, bu bizimlə davaya gəlmişdir. Bunu qat evə."

Məsələ bitmiş olur. Ailə çabalamağa başlayır. Necə olacağız qürbət ellərdə? Kimlər bizi himayə edəcəklərdir deyə fəryad edir (ailə Bakı sakinlərindən olmayıb bir parça çörək dalınca çöllərə düşmüşlərdəndir), qapıya, qonşuya yüyürür.

"Başbilən" axtarır ki, dərdini desin. Bu əsnada ortancı qardaşı bir dəfə daha Əxzi-əsgər rəisi hüzuruna gedir "Ağa, bizə bir çarə" deyə yalvarır. "Ağası" çarə olmaq üzrə deyir ki, iş artıq bizdən çıxmışdır. Qardaşın Salyan qışlasındadır. Oraya get, bəlkə, əvəz edərlər.

Bilmirəm, qanunda öylə şey varmı ki, əxzi-əsgər idarəsi bir adamı əs-gər alsın da qışlaya göndərsin, sonra kimlər isə hankı qanuna görə isə onu əvəz etsinlər.

Bizcə, böylə bir qanun olmasın gərək. Fəqət bunda sözümüz yoxdur. Məsələ yalnız bir adamın başında deyil. Söz burasındadır ki, paytaxtımızda böylə olanda, bilmirəm vilayətlərdə, köylərdə nasıl rəftar edilir. Zənn olunur ki, oralarda, adətən, heç qanun-qayda görülməyərək, hər kəsi tutub "Filan-filan şüdə, əsgərsən, get qışlaya" deyirlər. Bununla da iş bitib gedir.

Məqami-aidinin nəzəri-diqqətini, əvvəla, halını təsvir etdiyimiz ailənin vəziyyətinə, saniyən [ikincisi] də, ümumiyyətlə, bu kimi hərəkətlərə cəlb edərək buna bir çarə qılmasını istəyiriz.

İlla [yoxsa], bizcə, böyləliklə əsgər

toplamaq olmaz. Çox ailələr sahibsiz qalar, yaxud ailəsini yiyəsiz qoymaq istəməyənlər qanun namına fərari kəsilərlər. Bunun da hər ikisi qeyri-məmuldur [arzuedilməzdir].

*Xəlil [İbrahim]*

*"Azərbaycan" təfriqəsi*

**TÜRK İMPERATORLUĞU – ELXANLIĞI**

**3**

“Türk cəmahiri-müttəhidəsi” [Birləşmiş Türk cümhuriyyətləri] pozulduqdan sonra türklərin aldıqları vəziyyəti tarixlər böylə qeyd edirlər:

Çinlilərin təərrüzü [hücumu] nəticəsində Şərq “hiunq-nu”larından ayrılmış tatar, qazax, qırğızlar Amur (Qara su), Lena və Yenisey (Yeni çay) vadilərinə dağıldıqları kimi, Qərb “hiunq-nu”ları da Altay və Tanrıxan dağları yamaclarından Ova nəhri vadisi ilə Aral və Xəzər dənizləri ovasına enmişlər və qərbə, cənuba yürüməyə başlamışlardır. Fəqət cənub cəhətinə gedənləri İran dövləti-əziməsi [böyük dövləti] bir dürlü tövqifə [tutub saxlamağa] müvəffəq olmuşdur. Şimaldan hücum edən bu türklərə iranilər kəndi təbirlərincə turani, məmləkətlərinə Turan namı taxmışlardır. Bu cəhətə cənubda Turan böyüməmişdir.

Qərbə doğru axın edənlər isə heç bir maneəyə təsadüf etməmişlər. Qəbilə-qəbilə Ural dağları ilə Xəzər dənizi arasındakı boşluqdan Dəşti-Qıpçaqdan Avropaya keçmişlər, İdil, Uzi, Dnepr hövzələrinə yayılmışlardır.

Bu mühacirət selinin ən önündə iskitlər, arxalarından avarlar yürümüşlər. Bunlar dəxi Qafqazyada və Tuna mənsəblərində Şərqi Roma imperatorluğu ilə çarpışmışlardır. Bu imperatorluq dəxi ilk təsadüf etdiyi iskitləri, türkləri Qafqaziyada, Tunada durdurmuş, onlar da Qafqaziyadan Tuna mənsəbinə qədər bütün Qara dəniz sahillərinə yerləşmişlərdir.

Bunların arxasınca daha şimaldan fransızların Attila, almanların Atel, normandların Atli dedikləri məşhur qəhrəman təhti-komandasındakı [komandanlığı altındakı] Hun adlanan türklərlə Şərqi və Qərbi Roma imperatorluqlarını eyicə əzərək Qolbaya – Fransaya – Şalon vadisinə qədər irəliləmişlərdir (434-453 miladi). Sonra geriyə dönüb Tuna hövzəsində iqamət etmişlərdir.

Hunların arxasınca peçeneqlər və xəzərlər hərəkət etmişlər. Peçeneqlər isə Orsova keçidinə qədər yürümüşlər. Xəzərlər Azov və İdil hövzələrinə, alanlar dəxi Qafqaziyanın şimalına yerləşmişlərdir.

Eyni zamanda hunların daha şimalından, Ural dağları üzərindən finlər, arxalarından bolqarlar, başqırdlar mühacirət etmişlərsə də, bolqarlarla başqırdlar İdil hövzəsində çadır, otaq qurub qalmışlardır. Halbuki finlər Laponiya, Finlandiya, Estoniya, Livoniyanı işğal etdikdən sonra Baltik dənizini dolaşaraq Norman yarımadasına sarılmışlar, Givlen dağlarına və Atlas dənizinə [Atlantik okeanına] dayanmışlardır. İştə beşinci əsri-miladidə Mühiti-Kəbirdən Mühiti-Atlasa [Sakit okeandan Atlantik okeanına], Kamçatka-

dan Skandinaviyaya, Peçili körfəzindən Tuna hövzəsinə qədər olan bu vase [geniş] ölkədə Böyük Türk imperatorluğu təsis edilmişdir və sonra dünyanın hər bir tərəfinə yayılmışlardır.

Çinlilər bu Türk imperatorluğunu 545 miladidə rəsmən təsdiq etmişlər və kəndi şivələrincə Tu-kiu adlandırmışlardır. "Türk Ulus Oymaq Birliyi"ndən sonra dünyada təsis olunmuş ilk türk imperatorluğu – elxanlığı iştə budur.

Bu dövlət tam türklük içində qurulduğundan həman genişlənməyə başlamış, 20 sənənin zərfində Kaspi dənizinə, İran hüduduna qədər uzanmış və böyümüşdür. Böylə ki, 568-də məşhur türk imperatoru Mukan xan Bizansa İkinci Yustinyasa hərbi ittifaq haqqında müzakiratda bulunmaq üçün bir heyəti-səfarət [səfirlik heyəti] göndərdiyi kimi, böyük türk xanının da nəzdinə Roma dövləti tərəfindən 575-də ticarət müahidəsi əqd etmək [sazişi bağlamaq] üçün iki səfir göndərilmişdir.

Bu tarixlərdə türk imperatorluğu Bizansın şimal hüdudları qarşısına və Qara dəniz şimal sahillərinə qədər imtidad etmişdir [uzanmışdır]. Bir sənə sonra Bizans müstəmərələrindən [müstəmləkələrindən] Krım adası, Kerç qalası zəbt edilmiş, türk imperatorluğuna qoşulmuşdur. Bu aralıqsız fütuhat nəticəsində Türk elxanlığı Amur (Qara su) nəhrindən Dnepr vadisinə qədər uzanıb getmişdir.

Qara sudan Qara dənizədək vüsət peyda edən [genişlənən] bu türk imperatorluğunun dörd hüdudu haqqında Təkin əfəndi şu yolda məlumat verir:

Şərqdə Kinxan dağlarıdır. Bu dağlar türklüyü mançuluqdan ayırır. Bu hüdud cənuba enərək səddi-Çinə mülaqi olur [qovuşur]. Oradan səddi-Çini təqibən qərbə dönür və onunla təmadi edərək [uzanaraq] çinlilərin Huanq-hu* dedikləri Xansuyun şimal dirsəklərini də bilehtiva Ağdağ, Akkadağ ətəklərinə, sonra bu dağları sıralayaraq Pamir yaylasına gedir, Pamirdən Amudərya mənbələrini içəri alaraq Türküstan ovasına enir, Elbrus silsiləsi ilə Kaspi (Xəzər) dənizi kənarına yetişir, sonra Xəzəri adlayaraq Qafqaziya dağlarını təqib eyləyir və Qara dənizə vasil olur.

Qara dənizdən sonra hüdud şimala dönür. İdil və Tuna hövzələrini təqibən şimala çıxır. Şimalda elxanlığın hüdudu müəyyən deyildir. Çünki türk imperatorluğunun nüfuzu bu cəhətdə tatar, qırğız və kazaklarla şimalın buzlu ovalarına doğru qeyri-məhdud irəliləyirdi.

Kültiginlə Bilgə qaanın [xaqanın] zamanında mərkəzdə Altayın dörd tərəfində Xandağdan Balxaş gölünə qədər əsl türklər yaşamışlardır.

Bunların şimalında şərqdən qərbə doğru Kinxan dağları ilə Baygöl arasında Cəlair və Gürgan qəbilələri, Baygölün qərbində xoyratlar, onların qərbində Ural dağlarına qədər uzanan türk ovasında qırğızlar sükunət etmişlərdir.

Mərkəzdəki türklüyün cənubunda səddi-Çindən qərbə doğru Xansu vadisi, Alaxan yaylası və Çaydam hövzəsində unqutuq türkləri, onların qərbində Tanrıxan dağları ilə Ağdağ silsiləsi və Pamir yaylası arasında uyğur və qarluq türkləri, sonra qərbdə türk Çuxurovasında, Aral

* Türklər ibtidada suya "hu" deyirmişlər. Sonra "su" şəklinə soxulmuşdur. Sibiryada yaşayan yakutlar şimdi də suya "hu" deyirlər.

gölünün şimalında oğuzlar, cənubunda teleş türkləri, nəhayət, daha qərbdə Kaspi dənizinə mənsəb olan Yayıq nəhri ilə Tuna və Qafqaziya aralarında qıpçaq türkləri yerləşmişlərdir.

Bu imperatorluq eyni əzəmət, eyni qüvvəti ilə altıncı əsrin ibtidasından səkkizinci əsri-miladinin ortasına qədər, 745-dək iki buçuq əsr davam etmişdir. İmperatorluq dəhşəti bu elxanlığı da yaşatmadı. Böyük imperatorluq Türk Ulus Oymaq Birliyinin onda bir müddəti qədər də davam edəmmədi.

Məmləkətin daxilində ixtilallar, iğtişaşlar vüqu bulmuş, hüquq iddiası, hürriyyət tələbində bulunanlar açıq-açığına meydana çıxmışlar. Əski qanunu, Ulus Oymaq Birliyini xatırlayıb iadəsini [geri qaytarılmasını] arzulamışlardır. Fəqət saray ricalı [saray adamları] başqa sövdada idi. Eyni zamanda ərəblər dünyanı titrətməyə başlamışlardır.

Lakin bu xanlıq zəiflənməkdə, islamiyyət nüfuzu isə Asiyayi-Vüstaya [Orta Asiyaya] doğru irəliləməkdə idi. Ərəblər Sə'd bin Əbu Vəqqas ilə 635 miladidə Qadisiyyədə İran süvarisini əzdikdən, İranı və Xorasanı zəbt etdikdən sonra türk ovasına enməyə başlamışlar və 30 sənə zərfində Ceyhuna (Amudəryaya) qədər yürümüşlərdir.

Sonra Bəni-Ümeyyə zamanında Qüteybə bin Müslüm əl-Bahili Ceyhunu da keçərək Mavəraünnəhri zəbtlə, Seyhun nəhrinə və Fərqanəyə qədər irəliləmişdir.

714-də türklər qəsb olunmuş vilayətlərini istirdad etmişlərsə də [geri almışlarsa da], imperatorluq çinlilərin şiddətli təərrüzünə [hücumuna] məruz qalmış, 745-də uyğurlar üsyan etmişlərdir.

İştə, yek-digərini təvali edən [izləyən] bu zərbələr altında elxanlıq məğlub və pərişan olmuşdur. Fəqət yenə türk səltənəti zavala uğramamışdır. Dərəqəb [arxasınca] Qaşqarda yeni bir elxanlıq – Uyğur xanlığı təsis edilmiş ki, kəndisindən ilərikini bütün ənənatı ilə idaməyə müvafiqət etmişdir [bütün ənənələri ilə davam etdirməyi müvafiq görmüşdür]. Yalnız bircə fərqi bu idi ki, xanlıq Orxun türklərindən uyğur türklərinə, Qaraqorumdan Yarkəndə intiqal etmişdi [keçmişdi]. Uyğur xanlığı isə həman əski hüdudlara malikdi. Şərqdə Orxun dəxi daxil olmaq üzrə bütün Baygöl hövzəsinə hökm edir, cənubda da ərəblərin, bədəhu [sonra] Samanilərin hüdudlarına qədər uzanırdı.

Bu yeni imperatorluq əvvəlkindən daha uzun müddət paydar [mövcud] olmuş, səkkizinci əsrin ortasından on ikinci əsrin əvasitinə [ortalarına], 1130 tarixinə qədər təqribən dörd əsr davam etmişdir. Lakin mütləqiyyət türkləri bir yerə toplayammayırdı. Əksinə, daha da pərakəndə edirdi. İmperator olmaq sevdası ümum başlara yerləşmişdi. Hər komandan, hər vali birər imperator olmaq xülyası ilə uğraşırlardı.

Bu Uyğur xanlığının zamanında türklər neçə-neçə şöbələrə ayrılmışlardır. Uyğurlar türk imperatorluğundan ayrılaraq Aral hövzəsində yeni bir dövlət qurmuşlar. Şərqdə moğollar və xoyratlar ayrıca elani-istiqlal etmişlərdir.

Bunların arasından yalnız oğuzlar qayət qüvvətli bir türk dövləti vücuda gətirməyə, məmləkətin hüdudunu böyütməyə və isimlərini ehtiramla tarixə keçirməyə müvəffəq olmuşlardır.

*Ə. Müznib*

## ŞİMALİ QAFQAZ CÜMHURİYYƏTİ PARLAMENTOSU

### 4

*(mabəd)*

Parlamento mövcudiyyətinin dəlaili-sübutiyyəsinə gəlincə:

1) Vəkilin müvəkkili əleyhinə iqrarı [etirafı] və əmri-vəkalətdə, yəni müvəkkəlbihdə [vəkilə tapşırılan işdə] müvəkkilinə zərər olacaq yolda müamiləsi [rəftarı] mötəbər olammaz. Məbuslar millətin vəkilləri və timsali-hakimiyyətləridir. Ancaq hakimiyyəti-milliyyənin təyid [təsdiq] və təsbiti xüsusuna çalışmaq üzrə tövkil edilmişlərdir [vəkil təyin edilmişlərdir]. Yoxsa hədm və nəqzinə [məhv və ləğv edilməsinə] səy üçün tövkil edilməmişlərdir. Bu etibarla məbuslar gərçi yuxarıda gördüyümüz kimi yalnız xanələrinə taymalarına [qayıtmalarına] qərar vermişlərdir. Lakin bilfərz [fərz edək ki] Məclisin ilğa və fəsxinə [aradan qaldırılmasına və ləğvinə] də qərar vermiş olsaydılar, əsla mötəbər olammazdı. Zira vəkalət buna müsaid deyildir və müvəkkillər bunları o səlahiyyətlə tövkil etməmişlərdir.

2) Cümhuriyyətin ümum məbusları deyil, ancaq ictimada [yığıncaqda] hazır bulunan əzalar [üzvlər] əksəriyyətlə qərar verdilər. İnquş, çeçen, çərkəz, osetin məbusları da bilittifaq davami-ictima rəyində bulundular. İctimada hazır olan əqəliyyətin də [azlığın da] bir haqqı vardır. Baxüsus Dağıstan məbusları Şimali Qafqaz millətlərinin zərərinə və hakimiyyətləri əleyhinə füzuli vəsayət və vəkalətlə qərar verəmməzlər. Versələr də, mötəbər olammaz.

3) Parlamentoda tüm millətlərin mənsubları tam intixab edilərsə [seçilərsə], məcmusu yüz qədərdir. İmkansızlıq səbəbi ilə həpsi intixab ediləmməmiş və hazır olammamışdır. Dağıstan vilayətinin intixabı tamam olmuş və təkmil [bütün] məbusları hazır bulunmuşdur. Əgər Cümhuriyyətin bütün məbusanı gəlmiş olsaydı, dağıstanlılar əqəliyyətdə [azlıqda] qalacaq, maədası [digərləri] bilittifaq davami-ictima [yığıncağın, məclisin davam etməsi] tərəfdarı olacaq və arizuyi-ümuminin davami-ictima olduğu anlaşılacaqdı. Buna görə, Parlamentonun davami-ictimadan mən' edilməsi [yığışmalarına icazə verilməməsi] Şimali Qafqaz əqvamının [xalqlarının] arizuyi-ümumiyyələrinə müğayirdir [ortaq arzularına ziddir]. Dağıstan məbusları arizuyi-ümumi xilafına ilğa və ya fəsxi-məclisə [Məclisin ləğvinə yaxud aradan qaldırılmasına] qərar vermiş də olsa, hökmsüzdür.

4) Hər millət böylə müəzzəmati-əsasiyyədə [prinsipial əhəmiyyətli böyük işlərdə] məbusanın daima sülüsan [üçdə iki] əksəriyyəti ilə qərar verir. Bunda isə yalnız dağıstanlı məbuslardan ibarət olan əksəriyyəti-mütləqə ilə [mütləq əksəriyyəti, yarıdan çoxu ilə] qərar verilmişdir ki, əsla kafi olammaz.

5) Taymaq məzuniyyəti qərarı mühəqqəqül-vürud [baş verməsi mütləq] zənn edilən təhlükə qarşısında qorxudan bizzərurə və ələləcələ [zərurət qarşısında və tələsik] verilmişdir. İctimaya mane qorxudur. Maneyi-ictima olan qorxu qalmadığı zaman və məkanda, məmnu olan [əngəllənən] lüzumi-ictima qaidətən [qaydalara əsasən] övdət etmiş [geri qayıtmış] deməkdir.

İndi, madam ki, məbuslar ancaq məzunən xanələrinə taymışlardır və qərar heyəti-ümumiyyənin şəxsi-mənəviyyəsinə təəllüq də etməyir [mənəvi şəxsiyyətini də əlaqədar etmir], o halda Parlamento yalnız hüquqən deyil, bizzat və bilfeil [şəxsən və əməli olaraq] dəxi mövcuddur. Və hər zaman özü üçün daxildə və xaricdə əmin ədd [hesab] etdiyi hər hankı bir yerdə Parlamento sifət və rəsmiyyəti ilə bəhaqq ictima edə bilər. Hər yerdə deyirəm. Çünki böylə təhlükə səbəbi ilə kəndi hərimləri [özlərinə məxsus yer, məhrəm hesab etdikləri yer] xaricində məcburən təşəkkül etmiş hökumətlərin və ictima etmiş parlamentoların əmsalı nadir deyildir.

Şimali Qafqaz hökuməti-cümhuriyyəsinin düşdüyü vəziyyəti-vəximəyə [çətin vəziyyətə] sövqi-həmiyyətlə [təəssüb sövqü ilə, təəssübkeşliklə] təəssüf ediriz. Lakin məncə bu vəziyyət, qayət zəruriyyüt-təhəqqüq [baş verməsi qaçılmaz] bir hal idi. Hətta hökumət böylə arizəsiz [əngəlsiz, çətinliksiz] təəssüs edə bilmiş olsaydı, şaşacaq idim. Çünki Kotsev zehniyyəti, Kotsev tərzi-məsaisi [iş üsulu] hali-təşəkküldə bulunan bu yeni hökuməti yaşadammazdı.

Şimali Qafqaz kimi düşmənlərinə mücavir və müttəsil [qonşu və bitişik] olan bir hökumətin hər şeydən əvvəl xarici qorxularına qarşı orduya malik olması lazım ikən, Kotsev hökumətinin biləks [əksinə], hər şeydən ziyadə ehmal etdiyi cəhət əsgər məsələsi idi. Filhəqiqə [doğrudan da], böylə yeni bir hökumət deyil, mövcud hökumətlər belə bəqalarını yalnız orduları qüvvəti ilə təmin eylədikləri halda, biz həm əsgərliyi ehmal etmişiz, həm ordunun hərəkati-əsgəriyyəsindən alına biləcək fəvaid və mənafeyi [fayda və mənfəətləri] geridə iqtitaf edəcək [toplayacaq, fayda götürəcək] diplomasi qüvvətini ehmal etmişiz.

Biz ancaq: 1 - əsgəri, 2 - diplomasi fəaliyyətlərini müvazi [paralel] surətdə işlədərək bu iki ünsüri-fəal ilə istiqlalımızı qurtaracaq və hökumətimizi şu düşdüyü vərtəyə [təhlükəyə] düşməkdən alı qoya biləcəkdik. Buna görə hökumət, hər dövlətdə olduğu kimi ilk addımda məcburi mükəlləfiyyəti-əsgəriyyə qanununu yapıb əxzi-əsgər müamiləsinə [əsgər yığma işinə] başlayacaq və ordu qayıracaq idi. Bunu yapa biləcək fərağətli [sərbəst, boş] zamanını ətalətlə keçirmiş və məcburi mükəlləfiyyəti-əsgəriyyə üsulunun qəbulunu parlamentonun ancaq dağıldığı həftə təklif etmişdir.

Səbəb nə idi ki, Kotsev hökuməti türklər Dağıstanda ikən hazır edilən Əxzi-əsgər qanunu layihəsini türklərdən sonra müvəqqətən və dərhal tətbiq etmədi? Halbuki bir ay içində əxzi-əsgər üsulu ilə on min kişilik bir əsgər hazırlamaq qayət qolay idi. Bu miqdar qüvvət o zamankı Denikini deyil Dağıstana, hətta Terek vilayətinə soxmamaq üçün pək əla kifayət edəcəkdi.

Saniyən [ikincisi], cümhuriyyətin diplomasi qismi bütün vaxtını həman uyquda kimi keçirmişdir. Hökumətdə Xariciyyə Nəzarəti və dairəsi yox idi. Böyük dövlətlərdə, məsələn, Fransada olduğu kimi məmurin və şifrə qələmlərini möhtəvi [ehtiva edən] Nəzarət dairəsi, Təşrifat dairəsi, Ümuri-siyasiyyə və ticariyyə müdiriyyəti dairəsi, Ümuri-idariyyə və fənniyyə dairəsi [idari və

texniki işlər şöbəsi], mütəxəssisin heyəti-istişariyyəsi dairəsi [mütəxəssislərdən təşkil olunmuş məsləhət şöbəsi] və sairə və sairə nə üçün təşkil edilmədi deməyirəm. Lakin heç olmasa Ararat erməni cümhuriyyətinin məsaili-xariciyyədəki tərzi-məsaisini [xarici məsələlərdəki iş üsulunu] düşünmək yoxmu idi?

Bir tərəfdən əsgəri, digər tərəfdən diplomasi fəaliyyətlərindən hüsula gələcək vahid qüvvət hüquqi-əsliyyəmizi bəhəməhal [necə olur-olsun] əldə etdirəcəkdi.

Mən Qafqaz cümhuriyyətləri arasında ermənilər qədər xaricdə eyi iş bacaran görməyirəm. Gürcülər də bu barədə ikinci dərəcədə qalırlar.

Kotsev hökuməti isə xarici işlərini külliyyən təsadüfə buraxdı. Bakıya, Tiflisə gələn Etilaf heyəti-əsgəriyyəsi [Antanta hərbi heyətləri] ilə Şimali Qafqaz məsaili-xariciyyəsini [xarici məsələlərini] həll edə biləcəyini zənn etmək qəflətinə hökuməti qurban etdi. Halbuki nə heyətin və nə bir az mafövq [onun fövqündə, vəzifəcə ondan üstün] olan İstanbul heyətinin səlahiyyətləri hər işi həll və fəslə [nəticələndirməyə] kafi deyildi. Binaənileyh [ona görə], doğrudan doğru mərcilərilə də [onların müraciət edəcəkləri məqamlarla da] təmas labüd idi.

Madam ki böylədir, etiqadımca bundan ziyadə vaxt keçirməməli və mövsümünü fövt etməməlidir.

Parlamento həman mümkün olan bir yerdə ictima edib Şimali Qafqaz Cümhuriyyətinə bir rəisi-hökumət seçməli, o rəis dəxi əskidən olduğu kimi yalnız dağıstanlılardan Dağıstan Kabinəsi deyil, fəqət dağıstanlıların iştirak etdiriləcəyi bir Əqvam Kabinəsi [Millətlər Kabineti] (osetin, inquş, çərkəz, çeçen müməssillərindən mürəkkəb [nümayəndələrindən ibarət] Kabinə) vücuda gətirməlidir. Şeyxülislam ilə Xariciyyə naziri zatən mövcuddur və dağıstanlıdır. Və bu Əqvam Kabinəsi Kotsev hökumətinin qüsur eylədiyi nöqtələri bulub ona görə diplomasi fəaliyyətinə başlamalıdır. Şəraitinə müvafiq məsai, əmin olmalı ki, hər dürlü səmərəni əldə etdirə biləcək və məmul [arzu olunur] ki, Denikini Şimali Qafqazdan bilahərb [müharibəsiz] qovacaq bir qərari-düvəli [dövlətlər qərarını] istehsal [əldə] belə edəcəkdir.

Bu dəqiqədə Kabinənin nərədə və nasıl təşəkkül eylədiyini düşünməməliyiz. Qafqaz ərazisi üzərində təşəkkül etsin də, Bakı, Tiflis, həpsi birdir. Bunda forma dəxi mövzubəhs olmamalı. Çünki forma qabil deyildir. Formaya uymamaq bir nöqsan isə, heç bir hökumətin mövcud olmaması daha böyük bir nöqsandır. Qaidətün-əhvəni-şərreyn [iki şərdən ən xeyirli olanını seçmək qaydası] ixtiyar olunar və hökumətsiz, məsaisiz qalacağımıza, formaya tamamən mütabiq [uyğun] olmasa da, çalışacaq bir hökumət vücuda gətirmək övla və əlzəmdir [daha yaxşı və lazımdır]. Bu gün Teymurxanşuraya getmək və orada bir Kabinə qayırmaq mümkün olsa belə, bütün əqvam müməssilləri [bütün xalqların nümayəndələri] tamamən ictima edəmməyəcəklərinə görə, forma öylə də nöqsan qalacaqdır.

Zatən millət şimdi deyil forma məsələsini arasın, tək işlə eyi məşğul olacaq bir hökumət olsun da, ərkani-hökumət [hökumət adamları] kim olursa-olsun, razıdır. Çermoyev və Kotsev hökumətləri

haqqında millətin formaya aid bir şey dediyi yox idi. Yalnız qabiliyyətsizlikdən və bacarıqsızlıqdan şikayət edirlərdi. Formadan şikayət etdiklərini söyləyənlər doğru söyləməyirlər. Şu halda Kotsev hökuməti kimi yapmayalım. Yolunu bulalım, çalışalım, baxınız nasıl olur və baxınız nələr olur.

*Pşimaf*

*Balaca felyeton*

## NAĞIL

*(simsiz telefonoqramma)*

Biri var imiş, biri yox imiş. Xaçmaz pristavından başqa Azərbaycanda heç kəs yox imiş. Pristav özü də rəiyyət deyil, bəy oğlu imiş...

Pristav ağa bir şişə beşulduzlu zaqraniçni konyak boğaza tullayıb, ləziz çığırtma zakuskasını döşə vurmuş və dəm ve-rirmiş taxtın üstündə, döşü-başı açıq, yalın gömlək sərəvəzlənib dişindəki salidnı papirosdan burğularla çıxan tüstü həlqələrini bir gözü ucu ilə seyr edərək özündən əvvəlki pristav kimi milyona, atlara, mülklərə və sürüyə malik olmaq fikrində imiş. Gözünün qabağında gah Bakıda xüsusi beşmərtəbə ev, gah avtomobil, gah şantan kefləri mücəssəm olur və gah da şansanetkaların işvəkar təbəssümləri, dilrüba [cazibədar] qəhqəhələri xəyalı ruhunu oxşayır imiş... Və ağanın hökmü ilə Qrız kəndindən çağırılıb gəlmiş səkkiz kişi Xaçmazın beyin çalxalayan istisi altında saatlarca dayanaraq bəy oğlu tərəfindən hüzura qəbul olmaq şərəfini gözləyirlərmiş.

Bəy oğlunun damağının şeştəng vaxtında birdən qapı açılaraq nəşəsini pozur və mərdimazar, ədəbsiz strajnik içəri daxil olub:

– Pristav ağa, bəlagərdanın [bəlalarını dəf edən] olum, bu yazığı isti lap xəşilə döndərdi. Hərgah qəbul etməyəcəksinizsə, izin veriniz...

Hiddətli səslə strajnikin danışığını kəsərək:

"Sus, qoy .... oğlanları gözləsinlər. Mən özüm çağıran vaxtı gözəlcə anlayıram, – deyə pristav ağa yerindən qalxır.

Artıq nə yapmalı idi. Nəşə pozulmuş, ruhnəvaz və ümidbəxş xəyalat silsiləsinin rişəsi [kökü; ipi] qırılmışdı. Bir əlin qalifə şalvarın cibinə soxaraq dişindəki papirosu bir həmlə ilə döşəmə üzərinə fırlatdıqdan sonra, az da əli barmaqlarının ucu ilə təzəcə tərləməkdə olan bığlarını tumarlamaya və şporları [mahmızları] yek-digərinə [bir-birinə] toxunaraq odanın ötə-bərisinə gəzinməyə başlamış idi. Bu qədər qəzəb-alud matsiyondan [gəzintidən] sonra novdan buzu kimi donub durmuş strajnikə nəzəri düşür:

"Adə, həpənd, ovçu tulası kimi nə marıtdamısan? İtilib çıxıb getsənə! Hələ, adə, dur (bir az təəmmüldən [götür-qoydan] sonra), get çağır görək bu filan-filan şüdələr bizə nə başağrısı vermək istəyirlər" - deyə əmr verir.

Qapı açıldıqda astanada kamaliədəblə başmaqlarını çıxarıb və çarıqlarını yerə sürtərək təmizləməyə çalışan şələpapaq rəiyyətlər görünürlər. Əllərini döşlərinə qoyaraq salaməleyk, salaməleyk, bir-birini sıxa-basa, bir ayaqları içəri

girə, biri girməyə, səkkiz kişi odanın bir küncündə yığışıb büzüşürlər.

Bir xeyli mütəkəbbiranə fasilədən sonra pristav üzünü onlara çevirib xumar gözlərlə başdan-ayağa nəzərdən keçirir. Və iki dabanı üstə qalxaraq arxaya tərəf meyl etdikdə yıxılmadan güc hal ilə özünü saxlayır və başında bir şey arayır imiş kimi bığlarını tumarladığı əli ilə çabuqca baş tüklərini qarışdırır. Dişarıda və çox uzaqda eşidilə bilən bir səda ilə: "Nə istəyirsiniz məndən? Neçün bir az rahat oturmağa qoymayırsınız?" - deyə rəiyyətlərin əhvalını istifsar buyurmağa [soruşmağa] tənəzzül edir.

- Ay ağa, a başına dolanaq, bizi siz özünüz çağırtmısınız ki... Neçə saatdır ki, istinin altında...

- Səsinizi kəsin! Neçün İsa bəy Hacınskinin dəhyekini vermirsiniz? Hə, neçün vermirsiniz?

- Ay ağa, a başına...

- Sus! Bu saat gərək kağıza qol çəkəsiniz ki...

- A bəy, a qadalarını alaq, axır belə işlərdən ötrü sud var, məhkəmə var, bizim də dərdimiz var, şikayətimiz var...

Pristav ağanın qarnındakının hamısı başına qalxaraq fövqəladə qeyzlənir və ayaqlarını yerə döyüb:

- Mən sud-mud tanımıram, bu saat ... oğlanları, gərək kağıza qol çəkəsiniz də, i bolşe niçevo! – deyir.

- A qardaş, neçün söyürsən? Əlhəmdüllah, sən müsəlman qardaş, biz də müsəlman...

- Nə qardaş, adə, ... oğlanları, mən sizə qardaş? Rəiyyət mənə qardaş? Atababanız, ... oğlanları, mənim ata-babamın çəkmələrini siliblər. Siz ... oğlanları da gərək mənim çəkmələrimi siləsiniz. Yoxsa qardaş, bəyə rəiyyət qardaş? Mən bu saat qardaşı sizə göstərərəm. Adə, uryadnik...

- Ay ağa, sən Allah, bizim abrımızı tökmə, vallah-billah, bu saat qol çəkək. Qələt eylədik, peyğəmbər haqqı, bilmədik ki, siz bəy imişsiniz!..

Məşədi İbad talaq kağızına qol çəkdiyi kimi Qrız kəndi vəkilləri də dəhyek kağızına qol çəkib, qada və bəla canınızdan iraq, bəy oğlunun qırbacı altından xilas ola bilmişlər imiş.

Qrızlıların bəy oğlundan etdiyi şikayətlərinin nə olub-olmadığını ravi [rəvayət danışan] sükut ilə keçir. Ancaq adamın xəyalına gəlir ki, bəy, rəiyyət, dadaş, ağa, nökər... Xülasə, xəyal da şaşır bilmirsən nə?!

*Əfi*

## BAKI XƏBƏRLƏRİ

### Avropaya gedən tələbələr

Parlaman fraksiyaları dairəsində Avropaya göndərilən tələbələr arasında əksərən sərvətlilər olmasına ziddiyyət vardır. Ümumiyyətlə, dövlətlilərin öz xərclərinə buraxılması, yalnız fəqirləri hökumət himayəsinə almaq rəyi hökmfərmadır [hakimdir].

### Parlaman komisyonlarında

Tələbələri Avropaya göndərmək üçün lazım olan qədər para təxsis etmək [vəsait ayırmaq] haqqında Parlamana bir layihə təqdim edilmişdir.

### Bələdiyyə İdarəsində

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, polis

dəvairi [polis dairələri] məxaricatı Bələdiyyə İdarəsi öhdəsindən götürülsün.

- Bələdiyyə İdarəsi itfaiyyə [yanğınsöndürən] dəstəsi dairəsi tənviri [işıqlandırılması] haqqında "Elektrik Cəmiyyətinə" müraciətdə bulunmuşdu. Cəmiyyət Bələdiyyə İdarəsinə məlum etmişdir ki, yay zamanı işbu məsələ mümkün olarsa da, qış zamanı mövqifinin [stansiyasının] zorlanacağı ehtimalı üzrə mümkün olmayacaqdır.

- Bələdiyyə İdarəsi Bakı polismeysterinə məlum etmişdir ki, ağustosun 20-də yarmarka meydançasında arabaya və faytonların atlarına baxılmaqla 1919-cu sənənin 2-ci nisfi [yarısı] üçün nömrələr veriləcəkdir. Bələdiyyə İdarəsi rica etmişdir ki, oraya nizam və asayişdən ötrü polis nəfəratı göndərilsin.

**"Müdafieyi-millət"**

İntişara [nəşrə] başlayacağını xəbər vermiş olduğumuz "Müdafieyi-millət" qəzetəsinin 1-ci cümə nömrəsi pəncşənbə [cümə axşamı] günü avqustun 14-də çıxacaqdır.

**Müəllimlər qurultayında**

- Bakı Türk Müəllimləri İttifaqı sədri Ağa bəy İsrafilbəyov həzrətlərinin Maarif müfəttişi təyin edilməsini hər kəs sevinclə eşitdi.

- Müvəqqəti Mərkəzi Müəllimlər İttifaqı Bürosu qurultay dəvəti üçün çalışmaqdadır. Qurultaya məramnamə yapılır.

- Müvəqqəti Mərkəzi Müəllimlər İttifaqı, Bürosunun son iclasında yaşlı və təcrübəli türk müəllimləri tərəfindən üsuli-cədid və təlim tədrisi barəsində müqtədir müəllimlər tərəfindən məruzə oxunmasını çox mənfəətli görmüşdür. Məzkur mövzularda leksiya oxumaq üçün Fərhad bəy [Məşhədi Rəhim oğlu] Ağayev, [Həbib bəy] Mahmudbəyov, Mirzə Məhəmməd Axund oğlu [Axundzadə] və Mirzə Abbas Abbaszadəyə müraciət edilməsi təhti-qərara alınmışdır.

Mərkəzi İttifaq üçün məramnamə tərtibi üçün ayrıca komisyon çalışmaqdadır. İşin qolaylığı üçün qəzalardan təşrif gətirəcək nümayəndələr özləri ilə bərabər ittifaqlarının məranamələrini gətirmələri mərkəzcə xeyirdən xali [faydasız] deyil zənn ediriz.

**"Müsavat"da**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Komitəsinə xəbər verilir ki, Quba qəzasında Rustov mahalının Çərçi qəryəsində [kəndində] şöbə təşkil edilib heyəti-idarə seçilmişdir. Bu vaxta kimi 50 nəfərə kimi üzv yazılmışdır. Üzvlərdən 27 nəfəri əkinçi, 12 nəfəri tüccar, 2 nəfəri dəmirçi, 3 nəfəri molla, 2 nəfəri dərzi, 2 nəfəri xarrat, 1 nəfər mütəallimdir [tələbədir].

**Fəxibəy mahalında**

"Müsavat"ın mərkəzi komitəsinə xəbər verilir ki, Quba qəzasının Fəxibəy mahalında Şəmsəddin əfəndi qazı Hacı Ümid Əfəndizadə vasitəsilə Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin şöbəsi güşad edilmişdir [açılmışdır].

**Talabı kəndində**

Mərkəzi "Müsavat" komitəsinə xəbər verilir ki, Quba qəzasının Rustov mahalında Talabı kəndində, Fəthibəy ma-

halında Nügədi qəryəsində, Fəthibəy mahalının Susay kəndində, Rustov mahalının Afurca, Mərzi və Cimi kəndlərində Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin şöbələri güşad edilmişdir.

**Məlumat vərəqəsi**

Azərbaycan Cümhuriyyətinin qəza və köylərində torpaq, maarif, maldarlıq və ziraət [kənd təsərrüfatı], camaatın hökumətə və üsuli-idarəyə münasibəti məsələsinin nə mərkəzdə olduğu və nə halda olması arzu edildiyini bilməkdən ötrü, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" mahallarda olan şöbələrinə xüsusi surətdə hazırlanmış məlumat vərəqələri göndərmişdir.

**Qubernatorun istefası haqqında**

Qubernator idarəsində vaqe olan üç milyon hadisəsinə Şurayi-Vükəlada [Nazirlər Kabinetində] iki iclas təxsis [həsr] edilmişdir. Şurayi-Vükəlanın sol tərəfi qubernatorun məhkəməyə verilməsini tələb edirdi. Sağlar isə sülh ilə həllini arzu edirdi. Axırda qubernatorun istefa verməsi məsələnin gərginliyini bir az bərtərəf etmişdir [aradan qaldırmışdır].

**Yunanıstan heyəti**

Aldığımız məlumata görə, Zaqafqaziya ilə ticarət və iqtisadi əlaqə peyda etmək qəsdi ilə buraya xüsusi yunan heyəti varid olacaqdır [gələcəkdir].

**Bolşeviklər Azərbaycan haqqında**

Dvinskdən bolşevik teleqraf acentəliyi xəbər verir ki, Azərbaycan Denikin əleyhinə səfərbərlik elan etmişdir.

**Əmirhacıyan yardım alayı**

Əmirhacıyan kəndində təşkil edilmiş yardım alayı nəfinə [xeyrinə] olmaq üzrə Suraxanı "Xalq yurdu" teatrosunda bir teatro-müsamirə [teatr-konsert] tərtib ediləcəkdir.

## AZƏRBAYCANDA

**Şamaxı qəzasında**

Şamaxı qəzasında, baxüsus Qaşunlu uçastokunda vüqu bulmuş hadisələr haqqında yoldan keçərkən, yaxud təsadüfən bir köyə istirahət üçün vardıqda köy əhlinin bir çox poliscə haqlarında zülüm və qanunsuzluqlar yapıldığını kamali-hüzn və müəssir [təsirli] bir hal ilə təsvir etdiklərini insan qulağı ilə eşidir də məhzun olur.

Şamaxı qəzası zəbtiyyə [asayiş; polis] məsələsində bu gün başqa qəzalardan çox geridə və əhalisi də poliscə ən mütəzərrir [zərərçəkən] və ən çox haqsızlıqlara giriftar olan bir qəzadır. Bu gün Şamaxının hansı bir kənd və köyünə ağıllı-başlı bir kimsə gedərsə, o köyün əhlindən zəbtiyyə işlərinə dair bir kəlmə söz, yaxud zəbtiyyə məmurlarına qarşı hörmətmi, nifrətmi ibraz etmələrindən [göstərmələrindən] məlumat almaq istərsə, o zaman zəbtiyyə məmurlarının, baxüsus pristavdan tutmuş onun ən kiçik rütbəli kazakına qədər özlərinə böyük ixtiyar və lazımi cəsarət vermiş olduqları açıqcasına meydana çıxar. Polis məmurlarının rüşvət almaları haqqında, yaxud onların yazıq dünyadan və cümhuriyyətdən bittamam vüqufu olmayan köylü-

lərin haqqında rəva gördükləri zülüm və ədalətsizlikdən bir çox kimsələr məndən daha artıq və məndən daha eyicəsinə təsvir etmişlərdir.

Mən burada ancaq qanunu və üsuli-seçki üzrə intixab olunmuş [seçilmiş] bir vəqəni yazmaqla əhali tərəfindən intixab olunub da, əhalinin etibar və etimadına ləyaqət kəsb etmiş [qazanmış] zatların [şəxslərin] haqqında qanundan dışarı iş görmələrini təsvir etmək istərəm.

Bir ay bundan əvvəl Şamaxı qəzasında ən böyük bir qəsəbə və ticarət və sənayecə, həm də nüfusca böyük hesab olunan Lahıc qəsəbəsi üçün nüfusuna və böyüklüyünə layiq və şayəstə [yaraşan] görülə biləcək bir hakim seçmək üçün ikinci dəfə olaraq Şamaxı qəza qaimməqamı [qəza rəisi] ikinci müavini ilə bərabər Qarşunlu uçastoku pristavı bir çox kazakı ilə bərabər Lahıca azim olmuşdu [yola düşmüşdü]. Seçkidə əhalisinin qismi-əzəmi [böyük hissəsi] isbati-vücud [iştirak] etməklə, müttəhidülrəy [yekdilliklə] və intixab üsulunun qanunu mükəmmələn tətbiqlə, həm də intixab üsuluna dair bir çox məlumat verildikdən sonra əhalinin etibarını, hüsn-təvəccöhünü qazanmış Fərəculla Süleymanzadə seçilib də, haqqında lüzum görülmüş bəratülqövl [protokol], sair vərəqələr hazırlanaraq təqdimi üçün kəndiləri ilə bərabər götürmüşdülər. Fəqət aradan bir ay müddət keçmiş, əhalinin səbir və intizarı həddən keçmiş, təyini xüsusunda bir əmrnamə yox kimidir. Yaxın zamanlarda olacağı da ehtimal xaricindədir. Çünki eşitdiyimə görə, həman seçkinin bəratülqövlü indi də Qarşunlu pristavı nəzdində durmaqdadır. Bu əhalinin istəyi və arzusu ilə müvafiq intixab olunmuş bir şəxsin seçilməsi, tərtib verilmiş bəratülqövlün təxirə salınmasından məqsəd nədir?

Bu iş hökumətin də, camaatın da mənafeyinə müğayir [zidd] deyilmi?

Şamaxı qəzasında ikinci əsəfnak [təəssüf doğuran] bir hal kəndlərdən bu axır vaxtlarda hökumətin əmri ilə toplanacaq at məsələsidir. Bu xüsusda gələcək məqalədə məlumat verilər.

*R. Rəhimli*

## İRƏVAN QUBERNİYASINDA

*(axırı)*

Budəfəki axırıncı hadisələrə ümdə səbəb ermənilərin Vedibasar mahalında təcavüzata başlamaları olmuşdur. İşbu Vedibasar müharibəsinin nəticəsində cənub-qərb Azərbaycan türkləri erməniləri qovub Dəhnə deyilən möhkəm müstəhkəm mövqeyi də işğal edib, hətta Dəhnənin o biri tərəfinə keçmişlərdir və sərhəddə dayanmışlardır. Dəhnə mövqeyi-müstəhkəmi işğal edildikdən sonra ermənilərin hərəkət etməyə hazır olan bir zirehli qatarının ələ keçməsi xəbəri alınmışdır. Dəhnə işğalından sonra ermə-ni əsgərləri içəridə qalmışlardır. Fəqət nə miqdar əsgər qaldığı hələ aşkar edilmə-mişdir.

İrəvan Quberniyası Həmyerliləri İttifaqı üzvü Ermənistanda qalan müsəlmanların vəziyyəti necədir sualına cavab olaraq söyləyir ki:

Ermənistanda olan müsəlmanların vəziyyəti gün-gündən deyil, saatbasaat fəna bir hala düşüb ağırlaşmaqdadır. Ermənistan dəmiryol stasyonlarında bir çox müsəlmanları vaqondan çıxarıb aparırlar və onların başına nə gəlirsə, məlum olmayır. Bundan başqa, yollarda gəlib-gedən müsəlmanlara artıq əziyyətlər verirlər. Hər kəsin nə qədər parası varsa, əlindən alınır. Buna da bəhanə bunu göstərirlər ki, siz Ermənistandan Azərbaycana xəritə aparırsınız. Çox vaxt arvadları da həyasız bir surətdə axtarıb üzərlərində olan qiymətli şeyləri çıxarırlar. Bu qərar üzrə soyğunçuluq geniş bir dairə almışdır.

Naxçıvanda müsəlman ziyalılarından erməni hökuməti xidmətinə girənləri olmuşdurmu sualına müsahibimiz cavab verir ki:

Müsəlman ziyalılarından erməni xidmətinə girənləri, hətta ermənilər üçün casusluq edənləri də olmuşdur.

Bununla da Naxçıvan uyezdini erməni hökumətinə satanların kim olduğu dəxi də aşkar olur. Hələliyə müsəlman əhalisini məşğul edən məzkur [adı çəkilən] uyezdlərin təhlükəsidir. Söz yox ki, təhlükə rəf olduqdan [aradan qalxdıqdan] sonra əhali bir çox xainləri öz cəzasına çatdıracaqdır.

Müsahibimizdən bir də maraqlı bir məsələ xəbər aldıq ki, Azərbaycan Hökuməti tərəfindən məzkur uyezdlərdə olan qaçqınlara göndərilən para çatdımı? Və həman qaçqınların halı təmin edilmişmidir?

Həmyerlilər İttifaqı üzvü cavab verdi ki, alınan məlumata görə, qaçqınların həddi-hesabı yoxdur və halları da təmin edilməmişdir. Naxçıvan Milli Şurası üzvü Məşhədi Abdulla Sultanovun Tiflisə yazmış olduğu məktubdan anlaşılır ki, o paralardan ancaq 350 min manatı Naxçıvana çatmışdır. Qalanı isə İrəvanda Azərbaycan Hökumətinin Ermənistanda olan siyasi nümayəndəsi [Məhəmməd] Xan Təkinskinin öhdəsində qalmışdır.

Naxçıvana göndərilən 350 min manatın kontrolluğuna siyasi nümayəndə Xan Təkinski öz attaşesi İsgəndər xanın atası Rəhim xanı (?!) təyin etmişdir. Rəhim xan isə o paralara kontrolluq deyil, öz öhdəsinə verilməsini tələb etmişdir.

Naxçıvan Milli Şurası qaçqınlar üçün nə qədər para sərf etdiyini Rəhim xana xəbər verdikdə, Rəhim xan Azərbaycan Hökuməti parasının yerli müsəlman qaçqınlarına sərf edilməsindən erməni hökumətinə şikayət etmişdir. Vaxtilə məzkur [deyilən] Milli Şuranın bu barədə Azərbaycan Hökumətinə göndərdiyi protestosunu Tiflisdə aldıq.

Əhali Azərbaycan Hökuməti tərəfindən cənub-qərb Azərbaycan qaçqınlarına göndərilmiş paranın kimin öhdəsində nə qədər qaldığını bilməyir. Bunu da bilmək istəyir. Bu əhvalat da bir çox danışıqlara səbəb olmuşdur ki, gənc Azərbaycan Hökuməti bu işə əhəmiyyət verməlidir.

## İDARƏDƏN CAVABLAR

*Rüstəm Rüfət əfəndiyə:* Yazdığınız nəzm qəzetə malı deyil. Dərc edilməyəcəkdir.

*Qusardan yazan əfəndiyə:* O xüsusda qəzetəmizin yaxın nömrələrində məlumat verilmişdir. Təkrara hacət yoxdur.

**Tələbə**

Təcili surətdə edadi məktəblərin hər sinfinə şagirdlər hazır edir. Telefon nömrə: 51-53. Saat 3-dən 7-ədək.

*7434*

**İtibdir**

Xəlil Məşhədi Cavad oğlunun Şamaxıdan aldığı pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*7431*

**İtibdir**

Müseyib Rəcəb oğlu, 8-9 yaşında, əynində ağ tuman, ayaqyalın, başında araqçın, bu gün 5 gündür bazarda itibdir. Onun barəsində məlumatları olanlardan acizanə rica edirəm ki, bu adresə xəbər versinlər. Nijni-Priyutski nömrə 19, Məşhədi Şaban Kərəm oğlu.

*7428*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bunuyla Bakı ətrafı köylərinə xəbər verir ki, Nəzarət avqust ayının 4-də kənd əhalisinə paylamaq üçün Kəndlilər İttifaqı ixtiyarına manufaktur və şəkər vermişdir. Binaənileyh, kəndlərdə təşkil edilən İttifaqın şöbələri məzkur [deyilən] şeyləri alıb köylərinə təqsim etmək üçün Ticarət, Sənaye və Ərzaq Nəzarətində "Köylülər ittifaqı"nın idarəsinə müraciət etməlidirlər.

*Ticarət, Sənaye və Ərzaq*
*Nəzarəti İdarəsi*

Bakı Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya"nın skladında (Naberejnı və Budaqovski küçələrin küncündə) putu 55 rubləyə arpa unu satılır. Bir kisədən artıq verilməyir. Orada arpa kəpəyi dəxi satılır, putu 5 rubləyə.

*7423*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Elan

səh. 209. "Eyzenşmidt zavodu": Bakıda, əsası alman əsilli Karl Fyodoroviç Eyzenşmidtin varisləri tərəfindən 1891-ci ildə qoyulan metallurgiya və maşınqayırma zavodu.

### İrəvan Vilayəti Vətəndaşlar İttifaqı İdarəsinin mühacirlərə xitabı

səh. 211. "hərfi-vahid böylə yox idi": qəzetdə "hərfi-vahid" yerinə "hərfi-vahə" getmişdir.

### Qəzetələrdən

səh. 215. "Ç. t.": Əsası 1847-ci ildə qoyulmuş amerikan qəzeti "Çikaqo tribune" [Chicago Tribune] nəzərdə tutulur.

### Hankı qanun ilədir?

səh. 217. "və bu xüsusa Nəzarəti-cəlilənin nəzəri-diqqətini cəlb etmək istəriz.": bu hissə qəzetdə nisbətən böyük şriftlə tünd rəngdə yığılmışdır.

"ailə şəraitinə heç vaxt və əsla diqqət verilmir.": bu hissə qəzetdə nisbətən böyük şriftlə tünd rəngdə yığılmışdır.

### Türk imperatorluğu – elxanlığı

səh. 219. "Laponiya" [Laponia]: İsveçin şimalında tarixi-coğrafi ərazi.

"Livoniya" (yaxud Liflandiya): Müasir Latviya və Estoniya ərazilərindən bir qismini əhatə edən tarixi bölgə. 1721-ci ildə Rusiya imperiyasına birləşdirilmiş, imperiyanın süqutundan sonra bölgənin cənubu Latviyanın, şimalı isə Estoniyanın tərkibinə daxil olmuşdur.

səh. 220. "Peçili körfəzi": Sarı dənizdə, Çin sahilində Bohayvan körfəzi nəzərdə tutulur.

"İkinci Yustinyas": burada tarixi uyğunsuzluq var; "Birinci Yustinyas" (Yustinian) olmalıdır.

səh. 221. "Bəni-Ümeyyə" (Əməvilər): 661-750-ci illərdə mövcud olmuş feodal dövlət və bu dövləti idarə edən hakim sülalə.

### Nağıl

səh. 225. "dilrüba qəhqəhələri": qəzetdə "dilrüba və qəhqəhələri" getmişdir.

səh. 226. "dəhyek": kəndlilərin mülkədara verdikləri, məhsulun onda biri miqdarında vergi.

"Əfi": "Azərbaycan" qəzetində bu imza Seyid Hüseyn Sadiqə məxsusdur.


آذربایجان

آذربایجان مجلس مبعوثانده

اعلان

*“Azərbaycan” qəzetinin 250-ci nömrəsinin 1-ci səhifəsi*

**Çərşənbə, 13 avqust 1919-cu il, nömrə 250**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 16 zülqədətül-haram sənə 1337. 13 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## SİRK "MODERN"

Çaharşənbə günü ağustosun 13-də 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 46-cı günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Maryak Makarov – Krayevski.

2-nci: Məşhur pəhləvanların görüşü Zakoroyko – Türk baqatırı Gənc Əli.

3-ncü: Djiovani – Qırmızı Maska.

Tamaşa başlanacaq axşam saat 8 tamamda. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7437*

## ALMAQ İSTƏYİRƏM

Bir dənə tütün doğrayan və bir dənə papiros dolduran, motorlu makina. Xahiş edənlər Parapetdə "Gəncə" şirkəti komisyon ontoruna müraciət edə bilərlər.

*7427*

## HÖKUMƏT TEATROSU
## AXŞAM TAMAŞASI
## DRAMA

Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının Müdiriyyəti
Cümə günü, zilqədə ayının 18-də
(ağustosun 15-də)
möhtərəm camaatın xahişinə görə
ikinci dəfə olaraq
mütəntən [təntənəli] və ən şükuhlu
[dəbdəbəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır

**VƏTƏN**
**yaxud**
**OSMANLI-RUS MÜHARİBƏSİ**

Bu faciədə göstəriləcəkdir:
Rus-Osmanlı müharibəsi əsnasında
rus-Romaniya əsgəri ilə türk
əsgərlərinin vuruşması.
Dəhşətli top atəşləri.
Türk şəfqət bacılarının
göstərdikləri məharət.
Keçən dəfə kassa qabağında basabas
olduğundan möhtərəm camaatın çoxu
biletsiz qalıb geri qayıtmaqla
tamaşadan məyus qaldıqlarını nəzərə
alaraq, bu dəfə camaatın rahatı üçün
biletlər pişəzvəqt [qabaqcadan] teatrın
kassasında satılmaqdadır.

## HÖKUMƏT TEATROSUNDA AXŞAM TAMAŞASI

Həmin tamaşadan hasil olan məbləğdən 25 faizi müsəlman yetimlər yurdu nəfinə [xeyrinə] veriləcəkdir.

Çaharşənbə [çərşənbə] günü, avqustun 13-də 1335-ci (1919-cu) ildə Bakı Türk Səhnəsinin aktyorları iştirakı ilə mövqeyi-tamaşaya qoyulacaqdır:

**"HARUN ƏR-RƏŞİD"**

1 pərdədə Abdulla Şaiqin əsəri.

**"AZƏRBAY-CAN"**

2 pərdədə İsa bəy Aşurbəylinin əsəri.

**"BİZİM KİRAYƏNİŞİN ÖZÜNÜ ÖLDÜRDÜ"**

1 pərdədə [Məhəmməd Sadıq Molla Ruhulla oğlu] Axundovun əsəri.

**KABARE**

Kabaredə iştirak edəcəklər: Xanım Olenskaya – rəqs, Hüseynağa Hacıbabəyov – segah, Nərimanov – rəqs, Sarabski – kərəmi, Qəmər xanım [Topuriya] və Nərimanov – ləzginka, Məhəmmədtağı Bağırov – qatar, Abbas Mirzə – deklamasiya [bədii qiraət], Əbülhəsən Anaplı – kupletlər, Mirpaşa [Sadıqov] və Əliislam [Dadaşov] – meyxana.

Həmin tamaşanın fasilələrində lotereya olacaqdır. Bufetdə məşhur Seyid Şuşalı oxuyacaqdır.

Teatroda yetimlər yurdu nəfinə ayrıca ianə verənlər Pəri xanım Topçubaşova müraciət edə bilərlər. İanə verənlərin adları qəzetədə elan ediləcəkdir.

Biletlər avqustun 12-dən teatroda satılacaqdır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Baş rejissor Abbas Mirzə Şərifzadə. Müsamirənin mütəşəbbisəsi Y. N. Olenskaya. Müsamirənin müdirəsi Pəri xanım Topçubaşov, müdiri-məsul İsa bəy Aşurbəyli.

## ELAN

Azərbaycan Dəmiryol İdarəsi bununla elan edir ki, həmin sənə iyun ayının 27-sindən Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin binagüzarlığı [sərəncamı] ilə Ağstafa stasyonunda Azərbaycan Dəmiryol Gömrük Acentəliyi açılmışdır. Acentəlik yükləri və baqajları aparmaq üçün hər tövr gömrük, aksiz və polis işlərini öhdəsinə götürüb həmçinin ekspedisiya əməliyyatını ifa edir:

a) Əcnəbi məmləkətlərdən Azərbaycana gətirilən və geri aparılan yükləri, həmçinin tranzitlə Azərbaycandan keçən yükləri;

b) Ağstafa Gömrük Acentəliyi adına vəsiqələrlə göndərilmiş malları;

c) Xüsusi adamlar adına gömrükxanaya göndərilmiş malların poşlin [və] gömrük işlərini əmələ gətirməkdən ötrü yük sahibi tərəfindən nakladnoyda qeyd olunaraq acentəyə veriklәcəkdir və;

d) Sərnişinlər tərəfindən Ağstafa gömrükxanasında qalan yüklər və sərnişin əşyası.

Bütün bu işlərin ifası üçün Dəmiryol Gömrük Acentəliyi zeyldəki [aşağıdakı] komisyon vergisi alır:

Gömrüksüz gətirilən mallara – puda 3 qəpik, gömrüklü gətirilən mallara – puda 2 qəpik, gömrüksüz aparılan mallara – puda 4 qəpik, spirtdən başqa – puda 3/8 qəpik, neftdən başqa – puda 1/8 qəpik. Gömrüklü gətirilən və apa-rılan malların, hansıların ki gömrük xərci 1000 (min) manatdan yuxarı deyil, hər 10 manata 3 qəpik, min (1000) manatdan yuxarı olarsa hər 10 manata 30 qəpik.

Hər göndərilən mallardan yaxud hər vaqondan vergi 15 manatdan az olmamalıdır.

Ağstafa gömrükxanasından keçib Azərbaycanın daxili gömrükxanalarına gedən mallara puda – 1 qəpik, tranzit mallara puda – 5 qəpik, göndərilən mallara hər nakladnoya – 5 manat, baqaj və baqaj yükü aparıldığı zaman bir baqaj qəbzi ilə bir taya – 5 manat və hər aparılan taya – 2 manat.

Dəftərxana, posta və qeyri əlavə vergilərə gəldikdə, acentəlik təyin olunmuş dəmiryol taksasına görə vergi alır.

*Kargüzar əvəzinə (imza)*

*T-211*

## ÇOCUQLARIN BƏLƏDİYYƏ MƏKTƏBLƏRİNƏ QƏBUL OLUNMASI

Bələdiyyənin Maarif şöbəsi bununla əhaliyə elan edir ki, həmin ağustosun əvvəllərindən sentyabrın 10-una kimi şəhərin ünas və zükur [qız və oğlan] məktəblərində oxumaq istəyən çocuqların (qız və oğlan) ərizələri Məkatib [Məktəblər] şöbəsində hər gün saat 11-dən 2-yəcən qəbul olunur. Uşaqların sinni [yaşı] 7 yaşından aşağı olmasın.

*T-213*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**7 avqust iclası***

Avqustun 7-də iclasda ibtida Azərbaycanda bələdiyyə məclislərinə vəkillər intixabı [seçilməsi] haqqındakı qanun layihəsi və aksiz vergisi nizamnaməsinin təbdili [dəyişdirilməsi] barəsindəki layiheyi-qanuniyyə [qanun layihəsi] qiraət və qəbul edilir.

Sonra, Məclisi-Məbusan ikinci müavini-sədr inxitabı məsələsi qalxır. "İttihad" fraksiyası Sultanməcid Qənizadənin namizədliyini qoyur. Başqa fraksiyalar namizəd göstərməyirlər. Rəyə vəz edildikdə [səsə qoyulduqda] 45 səs ilə Sultanməcid Qənizadə ikinci müavin intixab edilir.

Badəhu [ondan sonra] təbəəlik haqqındakı qanun layihəsinə keçilir.

Rəis əfəndi layihənin istecalı haqqında bir təklif varid olduğunu bəyan edir. Təklif bilaetiraz qəbul olunur və layihənin müzakirəsinə keçilir.

**Kravçenko** (Slav-Rus Cəmiyyəti nümayəndəsi, keşiş) - Rusca bir nitq irad edir. Nitqinin müxtəsər məzmunu budur:

Təbəəlik məsələsi qanuni-əsasidən [Konstitusiyanın tərkib hissələrindən] olduğu üçün bu xüsusdakı layiheyi-qanuniyyə Məclisi-Müəssisan tərəfindən qəbul edilməlidir və ancaq Məclisi-Müəssisan qəbul edə bilər. Həm də böylə qanunlar bir məmləkətdə o vaxt qəbul edilə bilər ki, məmləkətin istiqlalı millətlər, dövlətlər tərəfindən qəbul və təsdiq edilmiş olsun. Binaənileyh [ona görə], Azərbaycan beynəlmiləl etiraf və təsdiq edilməmiş və Məclisi-Müəssisan çağırılmamış təbəəlik qanununun qəbulu əleyhindəyiz. Bundan əlavə, təbəəlik qanunu beynəlmiləl bir məsələ olduğundan məmləkətin, dövlətin ümum beynəlmiləl işlərindən məsul olan Xariciyyə Nəzarəti tərəfindən idxal edilməlidir,

* İyulun 31-i və avqustun 4-də dəxi iclas təyin edilmişdi. 4 avqust iclası baş tutmadı. İyulun 31-indəki iclasda qəzetəmizin nümayəndəsi idarə işlərindən dolayı iclasın axırınadək olmadığından, məlumat verə bilmədik.

nəinki Ədliyyə Nəzarəti tərəfindən. Ona görə, biz bu qanunun Ədliyyə Nəzarəti tərəfindən verilməsinə təəccüb ediriz. Bir də, bu qanunda bir çox nöqsan var. Məsələn, layiheyi-qanuniyyəyə görə 1870-ci ildə məsələn Gəncədə anadan olub üç yaşında ikən 1873-də Tambov şəhərinə getmiş, orada böyümüş, evlənmiş, övlad sahibi olmuş bir adam bu gün birdən-birə özü, əyalı, övladı və bütün nəsli, həpsi üçün nagəhani [gözlənilməz] bir surətdə Azərbaycan təbəəsi elan edilir. Böylə də şey olarmı? Bu cür qanun feilən cari ola bilərmi? Feilə çıxarılması aydın-aşkara mümkün olmayan bir əsas da qanuna daxil edilərmi? Əlavə, qanunda göstərilir ki, üç ay müddətində hər kəs özünün təbəəliyini xəbər verməlidir. Mən sual edirəm, indiki şəraiti-həyatiyyə altında mümkündürmü ki, uzaqda yaşayan bir adam bu müddət zərfində hökumətə xəbər verə bilsin? Halbuki böylə bir az müddətdə uzaqda yaşayanlar heç qanunun verildiyindən belə xəbər tuta bilməzlər. Bundan maəda [bundan əlavə], kənarda yaşayıb da sonra Azərbaycan daxilinə qayıdan bir adam Azərbaycan təbəəsi olmaq istəmədiyini bildirsə nasıl olar? Qanuna görə, bunun üçün yalnız bir ərizə vermək kafi deyildir. Halbuki böylə şeylərdən çox müşkülat və sıxıntılar törəyə bilər. Nəhayət, burasını da qeyd etməliyiz ki, bu qanun tərtib verilərkən Rusiyanın haqqına riayət edilməmişdir. Bu gün Azərbaycan təbəəsi edilmək istənilənlərin həpsi Rusiya təbəəsi idilər. Şimdi onları Rusiyadan ayırmaq mövcibi-cəza [cəzalandırılmağa səbəb olan] bir əməldir. Bu adamların Azərbaycan təbəəsi olmalarına Rusiyanın rizasını hasil etmək lazımdır. İştə bu mülahizə dəxi qanunun vaxtından tez verilmiş olması haqqındakı rəyimizi təyid [təsdiq] edir. Binaənileyh, biz bu qanunu vaxtsız və qeyri-kafi sayaraq qəbulunun təxirə salınmasını təklif ediriz.

**Vanseviç** (Polyak) - Yenə rusca bir nitq söyləyərək sabiq natiqin əsassız rəy və mülahizələrini rəddlə, qanunun qəbulunu müdafiə edir. Deyir ki:

Burada deyirlər, bu qanunu ancaq Məclisi-Müəssisan qəbul edə bilər. Bu fikir yanlışdır. Çünki bir məmləkətdə hankı qanunun nə vaxt tərtib və qəbul edilə bilməsi hüquqi-düvəl və beynəlmi-ləl [dövlətlər hüququ və beynəlmiləl hüquq] ilə təyin edilməmişdir. Binaənileyh, şimdi bu qanunu vermək vaxtı deyil, yaxud bu qanunu Məclisi-Müəsissan dəvətinədək qəbul etmək olmaz demək, səhvdir və həman Məclisin çağırılmamış olması heç vaxt təbəəlik qanunu qəbuluna mane olammaz. Azərbaycan istiqlalının millətlər tərəfindən etiraf və təsdiq edilməsinin də bu məsələyə dəxli yoxdur. Doğrudur, beynəlmiləl qəbul və təsdiq edilmək məmləkətin bütün işlərini möhkəmləşdirər, təqviyə edər [qüvvətləndirər]. Fəqət bu demək deyil o vaxtadək məmləkətdə heç bir qanun qəbul ediləmməz. Binaənileyh, mən beynəd-düvəl [dövlətlərarası] və beynəlmiləl hüquq əsası ilə deyirəm ki, bu qanunu biz indi də qəbul edə biləriz. O ki, deyirlər, Məclisi-Müəssisan tərəfindən ancaq qəbul edilməlidir, mən deyirəm, biləks [əksinə], biz bu qanunu Məlisi-Müəssisan

dəvətindən qabaq qəbul etməliyiz, çünki təbəəlik qanunu qəbul edilmədikcə heç Məclisi-Müəssisan əzası [üzvləri] seçilə bilməz. Odur ki, biz bu qanunu indi qəbul etməliyiz.

Yalnız mən təklif edərdim ki, ikinci maddədə "əgər onlar əsgəri xidmətlərini görmüşlər və ya əsgərlikdən azaddırlarsa" cümləsi həman maddədən çıxarılsın.

**Əhməd Cövdət** (Sosialist) - Təbəəlik qanununun əsasən qəbuluna zənnimcə burada bir neçə adamdan başqa kimsə əleyhdar deyildir. Həm də böylə də olmalıdır. Zira madam ki, inqilab qanununa görə, elani-istiqlal etdik və xüsusi hökumət təşkil etdik, dövlət əsası qoyduq, böylə olan surətdə əlbəttə öz məmləkətimiz içində hər növ qanun qəbul edə bilərik və kimsənin buna sözü ola bilməz. Öz məmləkətimizdə öz qanunumuzu qəbul etmək üçün Rusiyanın rizası, yaxud Paris Konfransının icazəsini də gözləməyinə ehtiyac yoxdur. Bununla bərabər, madam ki, biz məmləkətimizdə bir burjua hökuməti təşkil etdik, burjua ruhunda olan qanunu da qəbula məcburuz. Fəqət ümumiyyətlə qanunun əsaslarını qəbul etməklə bərabər, bəzi maddələrin bir qədər dəyişməsini lazım bilirik. Məsələn, qanunun bir maddəsində denilir ki, Azərbaycan daxilində anadan olanlar Azərbaycan təbəəsi olurlar. Kənarda doğulanlar isə Azərbaycan təbəəsi olmaq istərsələr, bu xüsusda məqami-aidinə [aidiyyətli quruma] ərizə verməyə məcburdurlar. Bunu bilməlidir ki, Azərbaycan daxilində yüz minlərcə adam var ki, bu maddə ilə təbəəlikdən kənar edilirlər. Doğrudur, eyni qanun ilə onlara ixtiyar verilir ki, Azərbaycan təbəəsi olmaq istəsələr ərizə versinlər. Amma o adamların çoxu savadsız olduğundan, qanunun qəbulundan verilən möhlətdən və qaydadan heç xəbərləri olmayacaq. Ona görə də müəyyən vaxtadək ərizə verə bilməyəcəklərdir. Nəticədə isə özlərinin xəbəri olmadan təbəəlikdən çıxmış olacaqlardır. Ona görə, bizcə lazımdır ki, əksini tələb edək. Yəni qanunun maddəsini öylə dəyişdirməlidir ki, hər kəs təbəə olmaq istəməsə iki ay müddətində bu xüsusda ərizə versin. Öylə olmaz isə çox böyük müşkülat çıxar. Biz təklif ediriz, maddədə göstərilsin ki, elani-istiqlal edildikdə burada olanların həpsi Azərbaycan təbəəsidir və hər kəs təbəə olmaq istəməsə, ərizə verməlidir. Bundan əlavə, ikinci fəsil 5-ci maddədə Azərbaycan təbəələrinin övsafından [xüsusiyyətlərindən] bəhs olunur, denilir ki, əxlaqi-həsənə [gözəl əxlaq] sahibi, xidmətdar və kəndi qüvvəsi məsaisi ilə yaşamağa müstəid [qabil] olan adamlar təbəə ola bilərlər. Fəqət müərrifliyi kim edəcəkdir [kim zəmanət verəcək, kim tövsiyə edəcək]? Polis məmurları. Onlar da, əlbəttə ki, bəyənmədikləri, xoşlanmadıqları adamlara müərriflik etməyəcəklərdir. Polisin ən artıq bəyənmədiyi, xoşlanmadığı da fəhlə sinfidir. Ona görə də bu maddədən ən artıq mütəzərrir olan [zərər görən] fəhlə olacaqdır. Binaənileyh, biz həman maddənin ləğvini təklif ediriz. Bir də qanunda göstərilir ki, Azərbaycan təbəəsi olmaq istəyən əcnəbilər polis idarəsi vasitəsilə Daxiliyyə Nəzarətinə ərizə verməlidirlər. Bununla bərabər, hələ bir neçə sənəlik bir müddət dəxi təyin edilir. Bizcə böylə

müddət və möhlət təyin etməyə əsla ehtiyac və lüzum yoxdur. Digər tərəfdən də bu and içmək məsələsi... Məncə bu dəxi fəzlədir. Çünki təbəə olmaq istəyənlərin andına inanacaq olursaq, daha qanunun qabaqkı maddələrinə (şürut və qüyuda) [şərtlərə və qeydlərə] ehtiyac qalmaz. Yetər ki, bir adam gəlib Qurana yainki İncilə and içsin. Amma böylə deyildir. Təbəə olmaq üçün bir çox şərtlər və qeydlər var. Əgər o şərt və qeydlərə əməl ediləcək olarsa, o halda and içməyə ehtiyac qalmaz. Bir də nəzərdə tutulur ki, and müqəddəs bir şeydir. Onu sındırmaq olmaz. Amma həyat başqa cür göstərir. Məsələn bir vaxt Rusiyada and içilmişdi. Halbuki inqilab qoparıldı, hətta imperator taxtından da devrildi. Deməli, and içmək sədaqəti təmin etməyir. O mənaya gəldikdə, andın qiyməti yoxdur. And müqəddəs bir şeydir. Amma biz bu babda and verdirmək, qövlişərəflə [şərəf sözüylə] söz almaqla and içmənin və söz vermənin müqəddəsliyini pozuruz. Binaənileyh, zənnimizcə qanunun bu maddəsi dəxi fəzlədir.

Bundan maəda, qanunun üçüncü maddəsində denilir ki, təbəəlik haqqını itirmiş və sonradan iadə etmək [geri almaq] istəyənlər bu xüsusda ərizə verdikdən sonra 5 il gözləməlidirlər. Biz beş sənəni artıq sayaraq 2 sənə təklif ediriz. Vaxtilə qanun layihəsi maddə-maddə müzakirə edildikdə, hər maddə haqqında rəy və mülahizəmizi ayrı-ayrı və müfəssələn [təfsilatlı] bəyan edəcəyiz.

İmdilik ümumiyyətlə biz qanunun əleyhində deyiliz.

*(bitmədi)*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqrafının aldığı bolşevik xəbərləri)*

**Kamışin yaxınlığında**

Avqustun 4-də Samaradan xəbər verirlər ki, Kamışin şimal-qərbində bolşeviklər düşmənin iki süvari dəstəsini dağıdıb piyada alayını tamamilə əsir etməklə, bir çox top və başqa şeylər qənimət almışlardır.

**Macarıstanda**

Sosialist hökuməti iclas salonunda olduğu zaman jandarmlar gəlib hökuməti qovmuşlar. Ershersoq İosif [Avqust] Baş nazir olmaq üzrə yeni qaragüruh hökuməti təşkil edilmişdir.

**İngilis əsgərlərinin Rusiyadan getmələri**

İngiltərə Hökuməti general Roulinsonu xüsusi sifarişat ilə Arxangelskə göndərir ki, İngiltərə əsgərlərini Rusiyadan aparsın.

**Romaniyalıların iştahası**

Avqustun 6-da Nauendən xəbər verirlər ki, romaniyalılar Macarıstan Hökumətinə böylə bir mütarikə şəraiti [atəşkəs şərtləri] təqdim etmişlərdir:

1) Macarıstan ordusunun miqdarı 15 min edilsin;

2) Hərbi zavodlarda işlər dayandırılsın;

3) Hərbi zavodlar romaniyalılara verilsin;

4) Mühimmati-hərbiyyə, 50 faiz dəmiryol ləvazimatı və 30 faiz kənd və

fəllahət [kənd təsərrüfatı] makinaları təslim edilsin.

**İsveçrədə**

Bazeldə baş verən ümumi tətil kapitalist hökuməti əleyhinə müsəlləh [silahlı] surətdə çıxmaq halını alır. Bir çox əmələlər [fəhlələr] tüfənglərlə küçəyə çıxmışlardır.

**Donanma**

Avqustun 7-də Liondan xəbər verirlər ki, Fransa Şurayi-Vükəlası [Nazirlər Kabineti] ticarət donanmasının bərpa edilməsi üçün 1 milyard 830 min frank verilməsini Palatadan xahiş edir.

**Yudeniçin məqsədi**

Helsinqforsdan [Helsinkidən] xəbər verirlər ki, Helsinqforsda general Yudeniç tərəfindən təzə hökumət təşkil edilmişdir. Bu hökumət "Siyasi Konfrans" adlanır və qəsdi də budur ki, Petroqrad şəhəri Ağ qvardiya əsgərləri tərəfindən alınan kimi Petroqrad Hökuməti olsun.

**Cəbhələrdə**

Şimali cəbhədə: Morşan[ka] səmtində bolşevik əsgərləri Murman dəmiryol xətti boyu müvəffəqiyyətli hücuma keçmişlərdir. Jmerin rayonunda Severinovka istasyonunda düşmənin bir zirehli qatarı bolşeviklərin topxanası tərəfindən dağıdılmışdır.

Şərq cəbhəsində: Tsarev rayonunda Volqa nəhrinin sağ sahilində bolşeviklərin hücumu genişlənməkdədir. Əsirlər alınıb 20 pulemyot və bir çox başqa mühimmat alınmışdır. Orenburq və Stelitamak rayonlarında bolşevik əsgərləri hücuma davam edib 20 verst irəliləmişlərdir. Yuxarı Ural rayonunda bolşeviklər Çistoye istasyonuna çıxıb düşmənin zirehli qatarının yolunu kəsmişlərdir.

**Romaniyalılar**

Peştdə 70 min Romaniya qoşunu var.

**Triest davası**

Nauendən xəbər verilir ki, Triestdə fəhlələr ilə İtaliya qoşunları arasında küçədə şiddətli vuruşmalar olmuşdur. Ölən və yaralananların miqdarı hələ müəyyən edilməmişdir. İtaliya komandanlığı çox adamları həbs etmişdir.

**Romaniya və macarlar**

Bükreş [Buxarest] - Transilvaniyadan xəbər verirlər ki, Macarıstan qırmızı qoşunları çex-slovak cəbhəsindən geri çəkilib Tisada romaniyalılara hücum etmişlərdir. Vuruşma davam edir.

**Altı adamın həbsi**

Hələbdə İngilis Komandanlığı son erməni qırğınında ittiham edilən və başçı hesab olunan altı adamı həbsə almışdır. Ermənilərə təklif edilmişdir ki, qarət olunmuş mallarının davasını başlasınlar.

**Şahi-məxlu**

London Avamlar Kamerasında Risə cavabən Harmsvort bəyan etmişdir ki, şahi-məxlunun [taxtdan salınmış şahın] təzədən İrana qayıtması haqqında hökumətdə öylə məlumat yoxdur. Bu xüsusda məlumat cəm edilir.

**Macarıstanda yeni inqilab**

Avqustun 9-da Nauendən xəbər verirlər ki, İngiltərə Hökuməti Macarıstanda Ali Hökuməti[n] Frans Ferdinandın oğlu hersoq Qoqenberqskiyə [Hohenberq hersoquna] verilməsi üçün müzakirat başlamışdır. Lakin bu müzakirat nəticəsiz olmuşdur. Bundan sonra hersoq İosifə müraciət edilmişdir. Əsgəri bir heyət hersoq İosifin yanına getmişdir ki, İosifdən böhranı həll etmək işini öz əlinə almağı xahiş etsin. Hersoq Peştədə olan İngiltərə heyəti ilə müzakirata başlamağa hazır olduğunu izhar etmişdir. Hər bir şeydən əvvəl hökumət polisəsi cəm edilmişdir. 8 min müsəlləh [silahlı] adamdan ibarət könüllü dəstəsi hazırlanmışdır. Sabiq nazirlər yanına gedən heyət onların istefasına müvəffəq olmuşdur. Onlar müvəqqəti həbs edilib sonra azad olunmuşlardır. Həyəcandan qorxan Romaniya əsgərləri komandanı Romaniya qarnizonuna hazır olmaq əmrini vermişdir. Heyət naçalnikləri hamısı təzə hökumətə müavinət edəcəklərini bildirmişlər. Hersoq İosif öz sarayındadır. Vyanada olan Macarıstan səfiri gizlin sənədlərin hamısını yandırdıqdan sonra gecə öz avtomobilində qaçmışdır. Sabahı günü Macarıstan anarxistləri Səfarətə [Səfirliyə] gəlmişlərdir. Zabitlər Səfarət qulluqçularını döyüb pəncərədən dişarıya atmışlardır.

**Bolşeviklərin məlumatı**

Samara - Kolçak Çələbini tərk etdikdən sonra üç diviziya qoşun cəm edib öz komandanlığı ilə Çələbiyə hücum eyləmişdir. Çələbinin cənub və şimal tərəfində 6 gün qızğın müharibə davam edirdi. Düşmənlər tamamilə məğlub olmuşlardır. 11-ci diviziyadan 5 min nəfər, 13-cü diviziyadan 4 min nəfər əsir alı[nı]b Kolçak ordusu tamamilə məhv edilmişdir. 4 min ədəd yüklü vaqon, 100 parovoz, külli sklad [anbar] və ərzaq qənimət alınmışdır. Bu qələbə göstərir ki, Kolçakın bütün qüvvəsi məhv edilmişdir.

* * *

N-ski ordunun ştabı - Fərarilər Kolçak arxasında Kostanay şəhərinin üsyançılar tərəfindən işğalını böylə təsvir edirlər: Şəhər 10 gün üsyançıların əlində olmuşdur. Gələn qüvvə ilə amansız bir surətdə üsyan yatırılmışdır. Hər iki tərəfdən iki min tələfat vardır. İki alay Torqaya yaxlaşmışdır. Kolçak ordusunun halı getdikcə fənalaşır. Dabravolların çoxusu bizim tərəfimizə keçir.

**- 2 -**

Son müharibədə bizim qarşımızda iş görən Serdobski alayı bizim tərəfə keçmək istədiyini bildirir. Həman alayın bir hissəsi Şura torpağındadır.

**SÜLH ƏTRAFINDA**

**Royterin 19 iyul tarixiylə məlumatı**

Paris - Müttəfiqlər Bolqariyadan təvəqqe etmişlər ki, öz nümayəndələrini Parisə göndərsinlər ki, onlara sülh müahidənaməsi [sazişi] təslim edilsin. Diplomatlar bəyan edirlər ki, Almaniya tərəfindən müahidənamənin təsdiqi o

vaxta qədər düz olmayacaqdır ki, Prussiya və Bavariya Parlamanı tərəfindən təsdiq edilməyə.

- Roylerə rəsmən xəbər verilir. Rəsmi surətdə Müttəfiqlər Almaniya tərəfindən müahidənamə imzasının təsdiq edilməsi xəbər alınan kimi, Almaniya üzərindən abluka [blokada] qaldırılacaqdır. Fəqət bununla ticarəti məhdudat [ticarət məhdudiyyəti] tamamilə ləğv edilməyir.

Paris - Son Fiume məsələsini həll etməkdən ötrü, Fiumeyə xüsusi komisyon ezam edildiyindən dolayı qət olunmuşdur [qərara alınmışdır] ki, Fiumeyə Müttəfiqlərin üç hərb gəmisi göndərilsin. Bu gəmilərin birisi ingilis, birisi fransız, birisi də Amerika paroxodu olacaqdır. İtaliya gəmiləri hal-hazırda Fiumedədir.

- Müttəfiqlərin Ali Şurası sabahdan etibarən Almaniya ablukası[nın] qaldırılmasına qərar qoymuşdur.

Roma - Tittoni Palatada demişdir ki, nə qədər diplomasi mübarizə davam edir, millət çalışmalıdır ki, İtaliya danışığa girişdiyi millətlə ixtilaf əmələ gətirməsin. O, lazım dərəcədə İtaliya millətinin həyəcanını düşünür, fəqət ümid edir ki, bir həftəyədək etilafa [razılığa] gəlmək mümkün olacaqdır.

- Düvəli-müttəfiqə [Müttəfiq dövlətlər] ilə Polşa arasında bağlanmış olan əhdnamə Polşada olan hər növ millətlərin həyatını və hürriyyətini təmin edir. Polşada sakin olan nemeslər, avstriyalılar, macarlılar və ruslar Polşa təbəəsi hesab ediləcəkdirlər. Polşalı olmayan polyak təbəələrinə ana dilində oxumaq müsaidə ediləcəkdir. Yəhudi dini qanunlarına müxalifət edən hər növ maneələr ləğv ediləcəkdir.

Paris - Bu gün Sülh Konfransı şurası Tyanszində Avstriyaya məxsus olan imtiyazların İtaliyaya verilməsi kimi İtaliya mürəxxəslərinin [nümayəndələrinin] tələbini müzakirəyə qoymuşdur.

## QƏZETƏLƏRDƏN

**Cənubi Amerikada inqilab**

Cənubi Amerikada növbəti inqilab başlamışdır. Yevropaya çatan birinci xəbərlərə görə, iki alay milis və polisə dəstəsi gecə Peru paytaxtı Limada rəisi-cümhur sarayına hücum edib rəisi-cümhur Pardonu həbs etmişlərdir. Sonra üsyan edənlər Auqusto Leqiyanı rəisi-cümhur elan etmişlərdir. Bir neçə güllə atılmışdır ki, bunlardan heç kəs zərərdidə olmamışdır. Sonra alınan xəbərlərə görə, Leqiyanın rəisi-cümhur olmasına ordu, donanma və əhalinin çox hissəsi bir bərabərdə hüsn-təvəccöh göstərmişlərdir. Leqiya əhvali-hazirə haqqında məruzə verməkdən ötrü bir konqre dəvət etmək niyyətindədir. Pardo Qanuni-əsasini xələldar etməkdə müttəhim edilir [Konstitusiyanı pozmaqda günahlandırılır]. Axırıncı alınan xəbərlərdə deyilir ki, Leqiya qanuni surətdə intixab olunmuş [seçilmiş] rəisi-cümhurdur. Pardo öz vəkaləti qurtardığından hökuməti ona

verməli imiş. Əski hökumət öz razılığı ilə hökuməti əldən verməyəcəyi təhlükəsinə görə Leqiya və onun tərəfdarları bu cür təcavüzkaranə bir işə məcbur olmuşlardır. Bu inqilab heç bir protestoya səbəb olmamışdır. Əhali asayişi saxlamaqdadır.

**Amerikada nizamsızlıq**

Londondan xəbər verirlər ki, Vaşinqtonda ağlar ilə qaralar arasında yenə təzədən müsadimə [toqquşma] olmuşdur.

**Avstriyada**

Londondan xəbər verirlər ki, Renner Avstriya Xariciyyə naziri təyin edilmişdir.

**Rumınlar Peştədə**

Romaniyalılara təklif ediləcəkdir ki, əsgərlərini Peştədən çıxarsınlar. Peştəyə göndərilən müttəfiq heyət Macarıstanın yeni kabinəsinin hərəkətinə kontrolluq edəcəkdir ki, tezliklə Macarıstan Qırmızı Ordusu tərxis edilsin.

**İngiltərə donanmasının xərci**

Londondan xəbər verirlər ki, İngiltərə donanması zabitlərinin məvacibi artırıldığından, İngiltərə donanmasının xərci ildə iki milyon ingilis lirəsi artmış olur.

**Fransız-İtaliya ittifaqı**

Londondan xəbər verirlər ki, İtaliyanın Baş naziri Nitti Yevropanın gələcək sülh əsası olaraq Fransa-İtaliya ittifaqına xüsusi əhəmiyyət verir.

**Almaniya konsulları qəbul edilməyir**

Xarkovda general Lukomski bir əmrnamə sadir edərək [əmr verərək] təklif edir ki, dabravollar tərəfindən işğal edilən yerlərdəki alman konsulları qəbul edilməsin. Yalnız qanuni Rusiya hökuməti ilə Almaniya arasında müahidənamə [saziş] bağlandıqdan sonra Almaniya ilə əlaqə başlana bilər.

**Admiral Kolçakın siyasəti**

Hal-hazırda Kolçak nümayəndəsi sifəti ilə Parisdə bulunan sabiq Xariciyyə naziri Sazonov bu yaxınlarda Amerika qəzetəsi müxbirinə admiral Kolçakın Rusiya daxilində yaşayan və muxtariyyət istəyən millətlərə nə nəzərlə baxdığından məlumat vermişdir və demişdir:

*"Təbii, millətlərə muxtariyyət məsələsi Məclisi-Müəssisan tərəfindən həll ediləcəkdir. Məclisi-Müəssisan da ancaq Kolçak tərəfindən Moskva işğal edildikdən sonra ola biləcəkdir. Məclisi-Müəssisan qətnaməsinədək muxtariyyət məsələsi müvəqqətidir. Hər halda, Kolçak ədəmi-mərkəziyyətə çalışmayır. Amma çarizm vaxtında həddən ziyadə mərkəziləşmiş idi."*

Sazonov əlavə eyləmişdir ki:

*"Yeni Rusiyada məhəlli intixab edilmiş müəssisələr bütün həyatın əsası olacaqdır. Əhali məhəlli məsələləri bu müəssisələrdə həll edəcəklərdir. Mərkəzi dövlət məmurları isə Məclisi-Müəssisan qərarına görə, ümumi məsələlərə məşğul olacaqdır.*

*Rusiyada yaşayan millətlərin mədəniyyət və adatları [adətləri] müxtəlif olduğu üçün məhəlli idarə forması da müxtəlif olacaqdır. Hər bir millətə öz adat və qanunları ilə yaşamağa müsaidə ediləcək, onlar öz dil və dinlərində sər-*

*bəst olacaqdırlar. Fəqət bu cür muxtariyyət Rusiyanın vahidliyinə mümaniət [maneçilik] etməməlidir. Muxtariyyət bundan ibarət olacaqdır ki, məhəlli qanun tərtibverici müəssisələr (bunlar əhali tərəfindən seçilməlidir) məhəlli mədaxil və məxarici kontrol edəcək və işlərin ədalətlə aparılmasına nəzarət edəcək. Əhalinin etnoqrafi cəhətcə oblastlar təşkil ediləcəkdir. Mərkəzi hökumət öhdəsində zeyldəki [aşağıdakı] şeylər qalır: xarici rabitə, ordu, flot, pul, yollar, ali məhkəmə, baş və mülki qanun tərtibi. Yeni məşrutə [konstitusiya] ilə Rusiyada əqəliyyətdə [azlıqda] olan millətlərin hüququna riayət ediləcəkdir.*

*Biz anlayırıq ki, bir çox millətlərin nümayəndələri bizlərə inanmayırlar. Keç-miş tarixdən bu etibarsızlıq bizim haq-qımızda ədalətsizlikdir. Fəqət biz bunlara səbr ediriz."*

Borisoqlebsk - Uryupinsk dairəsində Denikin qoşunları arasında həyəcan vardır. Onlarda aclıq vardır. Denikin ordusu Xopyor okruqunu təxliyə edirlər.

**Çikaqoda təyyarə qəzası**

Londondan xəbər verilir ki, sərnişin təyyarəsi qəzaya uğrarkən bir çoxları atəş içində məhv olmuşlardır, 27 nəfər isə ağır surətdə yaralanmışlardır.

**Əfqanıstanda**

Londondan yazılır: Hindistan vis-kralına yazmış olduğu məktubunda əfqan əmiri vis-kralın Əfqanıstana olan dostanə əlaqəsindən son dərəcə məmnun qaldığını bildirir. Əmir məktubunda əlavə edir ki, lütfi-rəbbani [Allahın köməyi] ilə hər iki məmləkət arasında sülh əqd ediləcəkdir.

**CƏNUBİ RUSİYA KONFRANSI**

Cənubi Rusiyada vücuda gələn hökumətlər kəndi aralarında əlaqə və rabitəni və Dabravol ordusuna olan münasibətlərini aşkar etmək üçün məlum olduğu üzrə Yekaterinodarda bir konfrans dəvət etmişdilər. O konfransa Azərbaycan Hökuməti nümayəndəsi dəxi dəvət edilmişdi. Lakin dəvətnamə gec alındığından, Azərbaycan Hökuməti tərəfindən nümayəndə gedə bilməmişdi.

Konfrans baş tutub bir neçə iclaslar olmuşdur. General Denikin nümayəndələri tərəfindən konfransa bir proqramma təqdim edilmişdir. Bu layihəyə görə, general Denikin Cənubi Rusiya cümhuriyyətlərinin istiqlaliyyətinə deyil, muxtariyyətlərinə belə razı deyildir.

Təqdim edilən proqrammanın bir maddəsində deyilir ki:

*"Vahid və bölünməz Rusiya hökuməti admiral Kolçak ali hökumət etiraf [qəbul] edildiyi zamandan bərpa edilmişdir. Məclisi-Müəssisana qədər məzkur [deyilən] hökumət Rusiya bərpasının daimi əsaslarını müəyyən etməlidir. Hazırkı şərait üzrə bütün Rusiya və onun hissələri ancaq ali hökumətdən və ya onun yerini dolandıran vəkillərindən qüvvə ala bilər."*

Bu surətlə görürsünüz ki, Denikin öz sözünü demişdir.

Aşkardır, Cənubi Rusiya konfransı buna razı ola bilməzdi. Məsələ böylə ol-

duqda, Denikin nümayəndələri birinci maddənin təbdilinə [dəyişdirilməsinə] razı olmuşlardır ki, məhəlli [yerli] qanunverici müəssisələr və ali hökumət vasitəsilə muxtariyyət bərpa edilsin. Bu qərar üzrə ali hökumət muxtariyyət məsələsində öz hökumətinin məhəlli qanunverici müəssisələri ilə təqsiminə [bölüşdürülməsinə] razı olmağa məcbur olmuşdur. Həmçinin ali hökumətin muxtariyyətə olan münasibatı haqqındakı məsələdə də güzəşt edilmişdir. Belə ki, ali hökumətin məhəlli qanunverici idarələrə və məhəlli təşkilatların qanuni-əsasisinə [konstitusiyasına] təcavüz etməyə haqqı yoxdur.

Burada bir məsələ vücuda gəlmişdir ki, nə Denikin nümayəndələri, nə də oblast nümayəndələri güzəştə getmək istəməmişlərdir. Məsələ buradadır ki, məhəlli [yerli] Məclisi-Məbusanların fəaliyyətləri nədən ibarət olacaqdır: qanun verməkdən, yaxud ancaq müşavirədən? Denikin nümayəndələri təkid etmişlər ki, oblast nümayəndələri qanun vermək deyil, ancaq müşavirə işlərinə məşğul olsunlar.

Bütün hökuməti öz əlinə almaq təşəbbüsatı general Denikin proqrammasının 6-cı maddəsində aşkar surətdə söylənir. Həmin maddə budur:

*"Ali Hökumət hakimiyyəti olduğu halda və Ali Hökumət namından Rusiyanın əlahiddə oblastlarında hərəkət edən ümumi məmləkət Ali Hökuməti əhvali-hazirə şəraitincə idarə işlərində vəkaləti tamamilə öz əlinə almalıdır və hökumət təşkilatı içində Baş komandanın nümayəndə təşkilatından qanun verməsi indiki şəraitə görə mümkün deyildir ki, ələlxüsus ki nümayəndə təşkilatı ancaq müşavirəçilikdən ibarətdir."*

Denikin nümayəndələri bu maddəni konfransda belə təfsir etmişlər ki, Ali Şuranın əksəriyyət və əqəliyyətinin [azlığının] rəyi Baş komandana vagüzar edilir [tapşırılır] və Baş komandan hətta əqəliyyətin rəyini də təsdiq edə bilər. Ali Şuraya dəxli olan təcili məsələ Baş komandan tərəfindən təklikdə həll edilə bilər.

Oblast nümayəndələri Denikinin bu arzusuna güzəşt etmək imkanı bulmayıblar. Denikin nümayəndələri dəxi qanun vermək işlərini Ali Şuraya vagüzar etməyi qeyri-mümkün hesab etmişlərdir.

Konfrans işləri avqustun 17-nə qədər təxirə salınmışdır. Ali Şuranın qanun vermək və müşavirəçiliyi məsələləri haqqında Denikinlə müzakirat aparılır. Denikinin hökuməti əlindən buraxmağa razı olub-olmayacağını gələcək göstərəcəkdir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Daxiliyyə nazirinin həman Nəzarətin Qazaxdakı xüsusi müvəkkili indində [nəzdində] 200 süvari, 100 nəfər piyada üçün mənzil və qeyri məxaricatı haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Smeta təsviblə [bəyənilməklə], müşarünileyh [adı çəkilən] xüsusi müvəkkilə ona buraxılmış məbləğin mabaqisindən [qalanından] 577.850 manat xərcləməyə icazə verilsin.

## TACİRLƏRİN NƏZƏRİ-DİQQƏTLƏRİNƏ!

"Azərbaycan" qəzetəsinin 236 nömrəli və 28 iyul tarixli nüsxəsində "Batum və Bakı arasında" sərlövhəsi ilə tranzit üsulu ilə göndərilən mallara aid bir şey yazılmışdı. Bununla mühərrir əfəndi mal göndərən tacirlərin çəkdiyi müşkülatdan bəhs edir. Məsələn, Batumdan mal göndərmək istəyənlər gərək Batum şurasına, Azərbaycan siyasi nümayəndəsinə və Gürcüstan konsuluna müraciət edib şəhadətnamələr alsın və bu idarələrə, aldıqları şəhadətnamələr üçün birisində 30, o birisində 156 və başqada dəxi 50 rublə para vermək məcburiyyətində bulunurlar deyir.

Bundan başqa, aldıqları malüt-ticarəni [ticarət malını] Bakıya tez göndərmək üçün sərnişin qatarına baqaja verir.

Bununla belə, mallar aylarla istasyonlarda qaldığını əlavə edib, malın Bakıya baha qiymətə tamam olmasını göstərir və Ticarət [və] Ərzaq Nəzarətinin nəzəri-diqqətini bu məsələyə cəlb edir.

Mühərrir əfəndinin tacirlər çəkdiyi müşkülatı hökumətə göstərmələri, hər halda, şayani-təqdirdir [təqdirəlayiqdir]. Məmləkətin hər işində əhalinin hökumətə müavinət etməsi lazımdır. Fəqət hökumət vaxtilə bu müşkülatı həll etmişdir və bu barədə qəzetədə dəfəatla elanlar buraxılmışdır.

Dəmiryol Nəzarətinin üç aydan ziyadədir [artıqdır] ki, Batumda agenti vardır. Hər kəs oradan mal göndərmək istəyirsə, zəhmət çəkib hökumətin agenturası vasitəsilə malını göndərə bilər. Artıq məsarif və ziyadə müşkülat çəkmək zəhmətindən qurtarıb, göndərdiyi malı vaxtında Bakıda ala bilər.

Binaənileyh [buna əsasən], dübarə tacirlərin nəzəri-diqqətlərini cəlb edib bildiririz ki, Batumda dəniz kənarında Dəmiryol Nəzarətinin agenti Матiевичъ cənablarının kontorasına müraciət edib aldıqları malları məzkur [adı çəkilən] agent vasitəsilə göndərə bilər.

*Ticarət və Ərzaq Nəzarəti İdarəsi*

## QARS OBLASTI VƏ ZAQAFQAZİYA KONFRANSI

Müttəfiqimiz Gürcüstan hökuməti son Qars və Naxçıvan vüquatının [hadisələrinin] böyüyüb ciddiyyət kəsb etdiyini görərək təlaşa düşür. Bu təlaşla Zaqafqaziya konfransını təzələmək və bununla bərabər, o naxoş vüquatın qabağını almaq təklifində bulunur. Qafqaziyada yenidən töküləcək qanlara mane olmaq insanlığında bulunur. Qafqaziyada daimi olan millət münaziəsinə [münaqişəsinə] bir nəhayət vermək istəyir. Hüdud, hakimlik, müqəddərat məsələsini müharibə ilə deyil, müsalihə [sülh] ilə, konfransla qurtarmaq arzusunu göstərir. Versal Sülh Konfransına Qafqaziyada davam edən vəhşət xəbərlərini əks etdirməyi münasib görməyir. Öz işlərimizə, öz dərdlərimizə özümüzün bir çarə etməsini diləyir. Birər siyasi məqsəd və mənfəət təqib edən avropalıların, xarici dostların eylədikləri müavinətin ikiüzlülüyünü, məzərrətini [zərərlərini] anlayaraq öz qədim qonşularını – Azərbaycanla

Ermənistanı müzakirəyə, müsalihəyə dəvət edir. Bir az açıqcası harayına çağırır.

Gürcüstanın bu insaniyyətpərvər dəvətini daima qan tökməkdən qaçan həkəm [arbitr] və müsalihə tərəfdarı olan Azərbaycan qəbul eylədi. Qonşumuz Ermənistanın da acı və qanlı təcrübələrdən sonra həqiqəti, doğru yolu anlayıb qonşu dəvətini qəbul edəcəyi məmuldur [arzuediləndir].

Gürcüstanın bu müsalimətpərvər [barışıq tərəfdarı olan] dəvətinə hər kəsin ləbbeyk [hazıram] deyəcəyi, bu insani hərəkəti cümlənin təqdir və təhsin edəcəyi [bəyənib alqışlayacağı] şübhəsizdir. Dostluq, yaxşılıq, barışıqlıq gec də olsa, hər vaxt məqbuldur. Lakin siyasi dostluqların, siyasi bəsirətin [uzaqgörənliyin] gecikdirilməsi çox vaxt hüsulu arzu edilən etilaf [razılıq] və hüsn-münasibata mane olmaqda müşkülat törətməkdədir. Bu xüsusda yaxındakı vüquatdan bir neçə misal gətirəlim.

Osmanlılar keçən il dekabr ayında Axısxa və Axalkələk uyezdlərini tərk edib getdikləri vaxt, ora camaatı əllərində böyük bir qüvvət olduğu halda qan tökməyib gürcü hökumətinə təslim oldular. Siyasi vəziyyəti nəzərə alaraq muxtariyyəti-idarə ilə Gürcüstana tabe olmağı məsləhət bildilər. Gürcü hökumətinə itaət edərək öz işləri ilə məşğul olmağa, gürcülərlə qardaşca yaşamağa başladılar.

Heyf ki, Osmanlının ənqazı [dağıntıları] üzərində bir tərəfdən Trabzona, digər tərəfdən Ərzuruma qədər böyük bir Gürcüstan qurmaq xəyalına qapılan gürcü millətpərəstləri müsəlmanlarla xoş keçinmək bəsirətindən məhrum idilər. Axısxa və Axalkələk müsəlmanlarının təslimini onların miskinliklərinə, əczlərinə, cəhalətinə həml etdilər [yozdular]. Özgə milləti, özgə din məsləklərini idarə etmək böyüklüyünü, hünərini göstərmədilər. Camaatı idarə namına həddən artıq incitdilər. Silah toplamaq bəhanəsi ilə hüquqi-şəxsiyyələrinə təcavüz etdilər. Xristian malı deyərək müsəlmanların öz ev əşyasını, yeyəcəklərini əllərindən aldılar. Bütün qulluqçuları özlərindən təyin eylədilər. Ən müstəbid, ən ədəbsiz, quldur və əxlaqsız bəylərlə ittifaq edib biçarə əhalini, füqəranı soydular.

Çoxdan bəri rahata möhtac olan camaat umduqlarını bulmayınca ümidsiz olmağa başladılar. Narazılıq getdikcə artdı. İş bu dərəcəyə gəldi ki, camaat hüququnu tələb etməyə məcbur oldu. İdarə başındakı ləyaqətsiz, tədbirsiz gürcülərlə, bəsirətsiz, düşüncəsiz bəzi müsəlmanların şəxsi xətaları isə o məşru [qanuni] tələbi qeyri-məqbul bir hala çevirdi.

İki millət arasında qanlı və qayət acıqlı, intiqamlı müharibə oldu. Hər iki tərəfdən nahaq yerə qanlar töküldü, ocaqlar söndü, yurdlar yıxıldı. Camaat bir ay qədər hər iki uyezdi öz idarəsində saxladı.

Təbii, bu böylə davam edəmməzdi. Gürcü hökuməti 20 min müntəzəm qoşun qüvvəti ilə hücum etdi. Rast gəldiyi kəndləri yıxdı, yaxdı. Bütün uyezdi, hamı mal, heyvan və əşyasını iynəyə varıncaya qədər qarət edib Gürcüstana apardı.

Bu gün o hadisədən tam 7 ay keçdiyi halda, Axısxa və Axalkələk uyezdləri qarətdən, zülümdən, aclıqdan qurtulam-

mayır. Bir çox kəndlərdə bir cift öküz yox ki, xırmanlarını döysünlər. Bir maşrabaları yox ki, su içsinlər. Camaat müavinətsizlikdən, aclıqdan, yersizlikdən milçək kimi qırılır. Aclıq bir tərəf, tif [yatalaq] və qeyri azarlar bir tərəf. Çox kəndlərin yarı camaatı aclıqdan, azardan qırılmış və indi də qırılmaqdadır.

Gürcülər Axısxa və Axalkələk ilə kifayət etməyərək qarətgər [talançı; quldur] qoşunlarını ta Ərdəhana qədər sövq etdilər. Ərdəhanın taxıl anbarlarını boşaltdılar. Bütün ev əşyalarını yəğma edərək Gürcüstana çəkdilər. İdarə yerinə oralarda soyğunçuluq, quldurluq, vəhşilik qurdular. Açıqdan-açığa "intiqamcu" [qisasçı] bir hökumət təşkil etdilər.

Çox çəkmədi, gürcülərin böyüməsi erməniləri təlaşa düşürdü. İngilislər vasitəsilə gürcüləri Ərdəhandan çıxardılar. Bu dəfə Ərdəhana və bütün Qars oblastına ermənilər daxil oldular. Gürcü şaykaları yerinə erməni bandaları oralara sahib oldular. Biçarə müsəlmanlar oddan qurtulub alova düşdülər.

Bu cür bəlaya, intiqamcu bir hökumət pəncəsinə düşən yalnız Axısxa, Ərdəhan, Qars deyildi. Axır vaxtda Naxçıvan, Şərur, Sürməli və sairə də qurban edildilər. Lakin saxtakarlıq, zülüm, qeyritəbii halətlər hər nə də olursa olsun davam edəmməyəcəyi kimi, buralarda davam edəmmədilər.

Hər nə surətlə olursa olsun, əhalinin yüzdə 70-80-nini təşkil edən bir əksəriyyət quldur bir əqəliyyətə [azlığa] tabe ola bilməzdi. Böylə də oldu. Haqq yerini buldu.

İngilis təzyiqi müsəlmanların üstündən qalxan kimi bükülmüş, əzilmiş olan vəziyyət və halət də öz təbii şəklini aldı. Müsəlmanlar üzərlərinə gələn oğruları, qasibləri [qəsbkarları] qovdular, ata-baba yurdlarından çıxardılar. İndi öz yerlərinə özləri sahib olmaq istəyirlər. Lakin əcəba qonşularımız da bu həqiqəti görmək, bu haqqı təslim etmək istəyirlərmi? Öylə sanıram ki, uzun və acı təcrübələrdən sonra onlar da bu təbii halı, bu həqqiməşrunu [qanuni haqqı] sezmək istəyirlər.

İştə, gürcü müttəfiqimizin konfrans dəvəti bizə bir çox gözəl ümidlər verir. Əski qanlı xətaların təshihinə [düzəldilməsinə] çalışıldığı anlaşılır. Qeyri-təbii halların şəkli-həqiqisinə giriləcəyi umulur. Qonşular arasında daimi bir müsalihə və müvazinə hüsula gətirilmək istənildiyi hiss edilir.

Gürcüstanın bu dəvəti hüsn-niyyətinə böyük dəlildir. Gürcüstanın bu üsuli-siyasəti qonşu haqqına riayət ediləcəyinə açıq şahiddir. İştə, Gürcüstanın bu alicənablığına istinad edərək ümidvar oluram ki, əvvəlki konfransda edilən xəta, yəni konfransa Qars vəkillərinin çağırılmaması bu dəfə təkrar edilməz. İki milyona yaxın nüfusa [əhaliyə] malik olan bir məmləkətin müqəddəratı mütləq o məmləkətin mürəxxəsləri [nümayəndələri] ilə birlikdə həll edilməlidir.

Azərbaycan köhnə nöqteyi-nəzərini yenə müdafiə etməli və konfransa Qars vəkillərisiz getməməlidir. Azərbaycan qonşulara anlatmalı və isbat etməlidir ki, indi Qarsda, Ərdəhanda, Naxçıvanda tökülən qanlar tamamilə o məmləkət mürəxxəslərini qəbul etməmək, işlər müşavirə ilə, həkəm ilə qurtarmamaq xətasından irəli gəlmişdir.

Əski xətanı təkrar etmək isə işi qurtarmaq deyil, geriyə buraxmaq, həqiqəti pərdələmək, siyasi oyun oynamaqdır.

Azərbaycan hökuməti qarslı və naxçıvanlıların öz yerlərinə sahib olmalarını qonşular üçün bir təhlükə olmadığını bildirməlidir və bunu bir təhdid şəklində görməmələrini anlatmalıdır. Qarsın, Ərdəhanın yerli müsəlmanlar tərəfindən zəbti Gürcüstanı əndişəyə düşürməməlidir. Naxçıvanın müsəlmanlar əlinə keçməsi erməniləri nahaq yerə rahatsız etməməlidir. Çünki bu hallar onların haqqi-milli və həyatlarıdır. Özgə cürə düşünmək isə həmişəlik münazië [münaqişə] və milli münafirəti [nifrəti; düşmənçiliyi] arzu etməkdir.

Xülasə, ümidvaram ki, təzə konfransda əski xətalar təkrar edilməz. Millətlərin haqqi-mövcud və həyatları nəzəri-bəsirətə alınaraq təsdiq edilər və ancaq bu yol ilə Qafqazda əmnü asayişin vücudu görülər.

Qafqazlıların nicat və səlaməti yadların əlində deyil, özlərinin dirayət və bəsirətlərindədir.

*Ümidvar*

## BİRİNCİ QURULTAYIMIZ

Böyük Rusiya inqilabi-kəbiri sayəsində nail olduğumuz nemətlər sırasında hürriyyəti-ictima [toplaşmaq azadlığı] birinci mövqe tutsa gərəkdir. Hürriyyəti-ictima sayəsində əfradi-millət [millətin fərdləri] həmkarları ilə sıx-sıx görüşə bilir, bir çox dəfələr görüşdükdə hər sinif ümumi dərdlərini bir arada müzakirə etmək xəyalına düşür. Vəhdəti-fikriyyə, vəhdəti-amal hüsula gələr-gəlməz həman demokratiya ittifaqlar, cəmiyyətlər, firqələr bayrağı altına cəm olaraq, zəhmətlə hesablaşmaq lazım olduğunu ərkani-hökumət [hökumət adamlarına], əhalinin burjua sinfinə hiss etdirirlər.

Əski vaxt beş kişi bir yerə toplanmağa izin verilmədiyi halda, inqilab bidayətindən [başlanğıcından] etibarən millətlərin, siyasi firqələrin, sənətkarların, müəllimlərin sıx-sıx qurultaylarını gördük. Fəqət, məəttəəssüf [təəssüf ki], islam cəmiyyətləri ittifaqları, firqələrin təşkilatçısı olan, milli hissi, milli və siyasi amalı xalqa təlqin edən türk və islam xalq müəllimləri inqilabdan bu günə kimi həlalik qurultay yapammamışlar. Özlərinin haqlarını, izzəti-nəfslərini müdafiə edəcək ittifaqlar əmələ gətirməyə ehtiyac görməmişlərdir.

"Hökumət öz hökumətimizdir, daha mübarizə nə lazım" deyə hökumətə etimadlarını elan edərək firqələrdə, cəmiyyətlərdə ən fəal əzalar [üzvlər] sırasında var qüvvələri ilə çalışmışlar və bir çoxları vətən, millət uğrunda işgəncələrlə qətl edilmişlərdir. Ancaq indi, ümumiyyətlə, müəlllimlərin, ələlxüsus türk müəllimінin haqqı, haqqıyla gərək hökumətcə və gərək əhalinin arxayın qismicə gözədilmədiyindən, gec də olsa, can kimi birbirinə sarılaraq ittifaqlar yapmağa başladılar. Maddətən və mənən təmin olunmaları üçün bələdiyyə şuralarına, xüsusi müəssisələrə və hökumətə təklifdə bulundular. Bəzi tələblərinə əməl olundu və bəzilərinə isə əməl olunması üçün ittifaqla müttəhidən [birgə] çalışmalarına davam edirlər.

Azərbaycan qəzalarında təşkil olunmuş müəllimə və müəllimlər ittifaqları məsafənin uzaqlığı, yolsuzluq və pulsuzluqlarından dolayı dərdlərini doğruca mərkəzi-hökumətə [hökumətin mərkəzinə] vaxtilə bildirəmməyirlər. Dərdlərini və tələblərini türkcə məzbətələrlə [protokollarla] Maarif Nəzarətinə göndərirlərsə, vis-direktor cənabları türkcə yazıldığı üçün aylar, sənələrcə yaşıl masa örtüləri altına buraxır. Məruzələrin ardı ilə qəzalardan nümayəndə gəlməyincə, vis-direktor nazirə məlumat verməyir.

Yazdıqları məruzələrə, çəkdikləri türkcə teleqramlara cavab almayan türk müəllimləri ittifaqları naziri və hökuməti laqeydlikdə müttəhim edərək işindən soyuyur, qeyri Nəzarətlərdə məmuriyyət arayır və yaxud xidmətini tərk edərək ticarətə başlayır.

İştə, məzkur [deyilən] kəmetinalıq həsəbi ilə [etinasızlıq səbəbindən] bir çox izzəti-nəfs sahibi müəllimlər məmləkətə böyük məhəbbət bəslədikləri halda, xidmətlərini tərk edirlər.

Bütün müəllimlərə aid böyük-kiçik məsələləri hökumətə ərz edib, müəllimlərin ehtiyacını bizzat [şəxsən] Maarif nazirinə və hökumət ərkanına ərz etmək üçün Bakıda şimdidən müvəqqəti Mərkəzi Büro təşkil olunmuş və həmin müvəqqəti büronun təşəbbüsü ilə avqust ayının 20-dən 30-na qədər Bakıda Azərbaycan və Dağıstan türk və müsəlman müəllimə və müəllimləri nümayəndələri qurultayı dəvət olunmuşdur. Azərbaycan və Dağıstan qəzalarının hərəsindən iki nümayəndə göndərilməsi üçün teleqram və dəvətnamələr göndərilmişdir.

İştə, türk-islam müəllimə və müəllimləri nümayəndələri avqust ayı-nın 20-də paytaxtları olan Bakıya birinci qurultaylarına iştirak etmək üçün dəvət olunmuşlardır. Xalqın ictimai müəllimi olan xalq müəllimləri öz nümayəndələrini, yəqin ki, birinci qurultaylarına göndərəcəklər. Dəvətli nümayəndələrin hamısı gələcəyinə heç şübhə yoxdur. Zira Mərkəzi Büro qurultay dəvət etməklə bütün müəllimlərin arzularına əməl etmiş olur deməkdir. Həyati-xüsusiyyədə müəllimlərlə görüşdükdə "Neyçin özümüzün mərkəzi ittifaqımız yoxdur" deyə sual verməyən olmayırdı.

Qurultaya dəvət olunmuş nümayəndələrin məsarifi üçün hökumət tərəfindən müvəqqəti Mərkəzi Büro ixtiyarına otuz beş min altı yüz rublə buraxılmışdır. Deməк, hökumətin hesabına gələn nümayəndələrə yol və süfrə məsarifi paraları veriləcək və yaşayacaqları üçün də Realnı məktəbi binasında şimdidən qaryolalar [çarpayılar] qoyulub xidmətçi təyin edilmişdir.

Birinci Azərbaycan Türk Müəllimləri Qurultayında zirdəki [aşağıdakı] məsələlər müzakirə olunacaqdır:

1 - Mərkəzi Türk Müəllimə və Müəllimləri İttifaqı heyəti-idarəsi intixabı [idarə heyətinin seçilməsi];

2 - Mərkəzi İttifaq məramnaməsi tərtibi və təsdiqi;

3 - Yazılarımız, təlim, tədris barəsində müqtədir müəllimlərin məruzələri;

4 - Məktəblərin və müəllimlərin əhvalı barəsində uyezdlərdən [qəzalardan] gəlmiş müəllimlərin məruzələri;

5 - Müəllimlərin əhvali-hazirəyə nəzərləri və cari məsələlər.

Balada məzkur [yuxarıda deyilən] maddələrdən maəda [başqa], Maarif naziri həzrətləri də bəzi məsələlər barəsində suallar idxal edəcəyi xəbərini aldıq. Maarif Nəzarəti tərəfindən müəllimlərin maddi və mənəvi xeyri üçün idxal olunan məsələlərə qurultay məəlməmnuniyyə [məmnuniyyətlə] baxacaqdır.

İştə, çoxdan bəslədiyimiz arzumuza tezliklə nail olacağız. Azərbaycan və Dağıstan müəllimə və müəllimlərinin nümayəndələri birinci qurultaylar[ın]da görüşüb anlaşacaqlar və birinci tarixi qurultaylarının övraqını [sənədlərini] yadigar olaraq kəndiləri ilə qəzalarına töhfə götürəcəklərdir. Cənabi-Allah birinci qurultayımızı qutlu eyləsin. Amin.

*İdris [Axundzadə]*

## BAKI XƏBƏRLƏRİ

**Muğanda**

Aldığımız mövsuq [etibarlı] xəbərlərə məbni [əsasən], Muğan Qurultayı Azərbaycan dövlətini qəbul etməyi təhtiqərara almışdır. Muğanlılar silahlarını verməkdədirlər.

**Naxçıvan ətrafında**

Aldığımız məlumata görə, bu günlərdə müsəlmanlar tərəfindən Alagöz mövqifi [stansiyası] tutulmuşdur. Böyləliklə Gümrü (Aleksandropol) ilə İrəvanın əlaqəsi kəsilmişdir. Müsəlmanların əməliyyatı gündən-günə kəsbi-şiddət etməklə İrəvanın özünü təhdid etməkdədir.

**İran şahının vürudu**

Ağustosun 14-də ya 15-də Yevropaya getmək üzrə İran şahı Əhməd Mirzə Bakıya varid olacaqdır [gələcəkdir]. Şahı gətirmək üçün Ənzəliyə “Kursk” paroxodu göndərilmişdir.

Paroxodu müşayiət etməkdən ötrü Müttəfiq Komandanlığı tərəfindən ingilis iskələ naçalnik[i] Adamson yollanmışdır.

Şahın paroxodunu Ənzəlidən buraya İngiltərə hərbi gəmiləri mühafizə edəcək və Şahı Tamojna körpüsündə (Vaqon körpüsü) istiqbal edəcəklər [qarşılayacaqlar]. Oraya xüsusi bir vaqon dəxi göndəriləcəkdir. Körpüdən mövqifə [stansiyaya] kimi xüsusi bir qaraqol qoyulacaq və rəsmi görüş mövqifdə vaqe olacaqdır. Şahı Bakıdan Batuma xüsusi qaraqol dəstəsi aparacaq.

Şayiata görə, Şah Əhməd Mirzə Avropaya, bəzi rəvayətə görə isə Sülh Konfransına gedir.

**“Van” və “Çasovoy” paroxodları**

Bəndər Gəz tərəflərində bolşeviklər tərəfindən həbs edilmiş “Van” və “Çasovoy” paroxodları İngiltərə Komandanlığı tərəfindən göndərilmiş “Yupiter” və “Orlyonok” vasitəsilə azad edilmişdir.

**Kəndçilərin şikayəti**

Daxiliyyə naziri qubernatora müraciətən Şamaxı uyezdinin Çuxuryurd kəndi camaatının məhəlli [yerli] idarələr əlindən şikayətləri haqqında lazımi materiallar toplamasını rica etmişdir.

**[Məhəmməd] Xan Təkinskinin Bakıya vürudu**

Ermənistan Hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəsi Bakıya

çağırıldığından, dün Bakıya varid olmuşdur.

**Tazəşəhər üçün su**

Son zamanlarda bütün Türküstandan gəlmiş qaçqınlar Tazəşəhərə toplanmışdırlar. Qaçqınlar bir çox şeydən üsrət [çətinlik] çəkdikləri kimi, içməli sudan da üsrət çəkməkdədirlər. Aldığımız məlumata görə, iyul ayı zərfində Bakıdan oraya 47 min pud Şollar suyu aparılmışdır. Su yoxluğu şimdi də davam etməkdədir.

**Qaçaqmal tövqifi**

Bir qaç gün bundan əvvəl liman polis müfəttişliyi okolodoçnusu [polis məmuru] Məhəmməd Əliyev müfəttişlik barkazı "Polis" ilə dənizdə gəzdiyi zaman böyük bir qayığa rast gələrək tövqif etmişdir [saxlamışdır]. Qayıqda 23 [yeşik] tütün, 8 yeşik kağız tapılmışdır ki, qaçaq təriqi [yolu] ilə İrana aparılırmış. Qayıq sahibi okolodoçnu Məhəmməd Əliyevə 25 min manat rüşvət təklif etsə də, almayıb qayığı kənara gətirmişdir. Sonra qayıq sahibi Olentsev nam liman polis müfəttiş[in]ə 10 minədək rüşvət vəd etmişdir. Müfəttiş 10 min manatı alıb polismeysterliyə təqdim etmişdir. Qayığın adı "Mayak"dır. Yenə mümaileyh [adı çəkilən] müfəttiş əfəndinin ciddi tədabiri sayəsində "Səmərqənd" və digər vaporlardan bir çox qaçaqmal tutulmuşdur. Məsələn, "Vladimir" vaporunda 23 araba kişmiş, spiçka [kibrit] və qeyrə tutulmuşdur.

**Tələbələr və əsgərlik**

Rəsmi surətdə Hökumət tərəfindən tələbələrin əsgərlikdən buraxılması qərara alınıb əmr olunduğuna baxmayaraq, tələbələr hənuz yerlərində durub və Əxzi-əsgər [Hərbi çağırış] idarəsi tərəfindən aparılırlar. Hökumətin nəzəri-diqqətini buna cəlb edirik.

**Birjada**

Lajın kursu təbəddülatsızdır. Kerenski minliklər 1350 rubləyə, 250 manatlığın min manatı 1225 rublə. Xırda pullar 18 faizə, beş yüzlüklər 1500 rubləyə, yüzlüklər 300 rubləyə. Xırda Nikolay pulları yoxdur. Zaqafqaziya bonları 3-1 faizdir.

**Valyuta**

Qızıl Osmanlı lirəsi 420 rubləyə, kağız lirələr 112 rubləyə. İngilis pulu funt banknot 375 rubləyə. Çek 325 rubləyə. Rus gümüşü 17 rubləyə, böyük 32 rubləyə. İtaliya lirəsi 14 rublə. Frank 18 rubləyə. İstəyən azdır.

**Daxil olmuş mallar**

Ticarət, Sənəat və Ərzaq Nəzarətinin Statistika şöbəsi xəbər verir ki, Bakıya ayın 10-da bu qədər mal gəlmişdir:

taxıl 6482 pud;
furaj [yem] 5671 pud;
kartofel 22 pud;
pambıq 479 pud;
qoyun yunu 649 pud;
odun 1500 pud;
mis əşya 104 pud.

**Parlaman komisyonlarında**

- Avropaya gedən tələbələr üçün Hökumət tərəfindən 410 min frank buraxılması haqqında Parlamana daxil olan layihə Maliyyə-Büdcə komisyonunun müzakirəsinə təqdim edilmişdir.

- Hökumət binagüzarlığına [sərəncamına] açılmış 40 milyon rubləlik fondun 70 milyona qədər artırılması haqqında Parlamanın Maliyyə-Büdcə komisyonuna qanun layihəsi daxil olmuşdur.

- Xalq məktəbləri kitabxanaları üçün türkcə kitablar almaqdan ötrü 1 milyon rublə buraxılması haqqında Parlamanın Maliyyə-Büdcə komisyonuna qanun layihəsi daxil olmuşdur.

**Təbəiyyət qanunu**

Azərbaycan Parlamanının 11 ağustosda vaqe olmuş iclasında Azərbaycan təbəəiliyi [vətəndaşlığı] haqqında qanun layihəsi qəbul edilib qurtarmışdır.

**"Müzeyi-istiqlal"**

Eşitdiyimizə görə, Hüseyin Mirzəcamalov ilə Məhəmməd Ağayevin təşəbbüsü ilə Bakıda Parlaman ixtiyarında olması şərti ilə "Müzeyi-İstiqlal" adlı bir müzə [muzey] təsis edilir. Müəssislər [təsisçilər] bu barədə xüsusi proje və ərzihal tərtib verib Parlaman Divani-rəyasətinə təqdim etmişlərdir. Ümid var ki, Parlaman Divani-rəyasəti bu müzənin açılmasına müzahirət [kömək] göstərəcəkdir. Müzənin əşya və ləvazimatı ianə və satı surəti ilə camaatdan toplanacaqdır.

**Denikin qorxusu**

Parlamanın 11 ağustosda vaqe olmuş iclasında sosialistlər tərəfindən Denikin qorxusu və ingilislərin getməsi haqqında hökumətə bir sorğu verilmişdir. Hökumət gələn dəfə cavab verəcəkdir.

**"Müsavat"da**

Avqustun 10-da "Müsavat" firqəsinin Sabunçu şöbəsinin iclası vaqe olub, Balaxanı-Sabunçu polismeysteri Səməd bəy Əliisgəndərovun istefa verəcəyi məsələsi müzakirə edilib qərar qoyulmuşdur ki, Səməd bəyin yerində qalması barəsində təşəbbüsatda bulunsunlar.

**Hacıqabulda**

Avqustun 7-də Hacıqabul mövqifində [stansiyasında] çalışan bütün fəhlələr ictima [yığıncaq] edib Bakıdan gəlmiş Yusif İbrahimlinin, Eyzenşmidt zavodu tətil edəcəyi xəbəri müzakirə edilmişdir və qərar qoyulmuşdur ki, vətənimizin böylə təhlükəli zamanında biz fəhlələr zabastovkada əsla iştirak etməyəcəyiz və zabastovka edən fəhələlərə də kəndi etirazımızı bəyan ediriz. Ondan başqa, bir taqım əcnəbi xidmətçilər "iqtisadi" adlandırdıqları zabastovkaya Hacıqabul fəhlələri heç bir zaman inanmayıb iştirak etməyəcəyindən başqa, kəndi protestolarını elan edirlər.

**Ucarda**

Avqustun 7-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" şöbəsi təşəbbüsü ilə müsəlman əmələlərinin ictiması vaqe olub Bakıdan gəlmiş Yusif İbrahimlinin məruzəsindən sonra Bakıda vaqe olacaq zabastovkaya iştirak etməmək və böylə təhlükəli bir zamanda var qüvvə ilə hökumət və istiqlalımızı müdafiə etmək təhti-qərara alınmışdır.

## TAĞIYEV FABRİKASINDA

**Əhvali-hazirə və fəhlələr**

Ağustosun 1-də saat 5 radələrində Tağıyev fabrikasının teatro salonunda

müsəlman fəhlələrinin izdihamlı ictiması [yığıncağı] vaqe olmuşdur. İctima şəhərdən getmiş Abbasqulu Kazımzadə, Hüseyn əfəndi Müzəffərov, Nurizadə Nurməhəmməd və Yusif İbrahimli əfəndilərinin təşəbbüsü ilə dəvət edilmiş, bə'd [sonra] ümumiyyətlə, Abbasqulu əfəndini sədr intixab etmişlərdir [seçmişlər].

Məclisdə bir neçə gün irəli seçilmiş olan fabriçni komitənin bitərəfliyi, fabrika fəhlələrinin arasında 100-120 hümmətçi olduğu halda komitənin ancaq onlardan ibarət olduğu, başqa fəhlələrin haqqı nəzərə alınmamış olduğu müzakirə edilib qərar qoyulmuşdur ki, bu mühüm və vətənin təhlükəli bir zamanında, ittihad [birlik] və ittifaq tələb olunan bir gündə fəhlələr arasında ixtilaf salanlara protesto edilsin və arzu edilmişdir ki, fabrika komitəsi etilaf [razılaşma] və ədalət üzrə gizli seçki üsulu ilə intixab edilsin.

Ondan sonra Abbasqulu əfəndi əhvali-hazirə haqqında, vətənin təhlükədə olduğu, onun mühafizə və müdafiəsi üçün ittihad və ittifaq lazımlığını bəyan ilə böyük qurbanlarla əldə edilmiş istiqlalı saxlamağa dəvət etmişdir və istiqlal qurbanları olan türk şühədasının [şəhidlərinin] istirahəti-ruhu üçün ayağa qalxmağı camaata təklif etmişdir. Camaat, ümumiyyətlə, ayağa durmuş, fatihə oxumuşdur.

Abbasqulu əfəndidən sonra Hüseyn Müzəffərov əfəndi iqtisadi məsələlər haqqında bir nitq söyləyib, "Müsavat" firqəsinin həmişə fəhlələrin iqtisadi tələblərini müdafiə etdiyini anlatmışdır.

Abbasqulu Kazımzadə Lənkəran, Şərur, Naxçıvan, Qarabağ, Zəngəzur hadisələri haqqında məlumat verib, bu yerlərdə olan hərəkətin səbəblərini və bu qitələrin bizim üçün siyasi, milli, iqtisadi və strateji əhəmiyyətini təsvir etmişdir.

İctimanın axırında böylə bir qətnamə çıxarılmışdır:

*"Biz zəhmətkeş fəhlələr var qüvvəmizlə Azərbaycan istiqlalını müdafiə edib sağdanmı, soldanmı gələn hər bir təhlükə olsa, qarşısına çıxıb mübarizə etməyə hazırız. Bununla bərabər, arzu ediriz ki, cavan hökumətimiz fəhlələrin iqtisadi hallarını nəzərə alıb ərzaq işlərini bir sərəncama salsın."*

## AZƏRBAYCANDA

### Salyanda

- Salyanda açılmış iki aylıq müəllimlik kursunda hər gün nümunə dərsləri gedir. Ən əvvəl təcrübə görmüş müəllimlərdən işə şüru edib də [başlayıb da], bu günlərdə tələbələr işə başlayacaqlar.

Kursun açılmaq müddəti bir ay olduğu halda xeyli tərəqqi addımları atmış, bu da kurs müəllimlərinin hümmət və səylərindəndir. Ümidvar olmaq olar, iki ay tamamında – intəhayi-ağustosda [avqustun axırında] bu həvəskarani-vətəndən müəllimlik sırasına keçmiş xeyli şəxslər olar.

Ancaq təəssüf olunası hallardan bəzi əsgərlikdən qaçmış şəxslər də buraya pənah gətirirmiş. Demək, bunlar müəllimlik adına xidmətə gəlməyib, əsgərlikdən qorxub gəlmişlər. Böylə şəxslərin, əlbəttə, o dürlü mənfəəti olammaz.

- Salyanda Müəllimlər İttifaqı yetimlər üçün iki şöbədən ibarət məktəb açdıqda, bir darüleytam [yetimxana] açmaq fikrinə də düşmüşdü. İttifaqın parası kafi olammayacağından bu iş təxirə salındı.

Şimdi ittifaqın parası sərçeşməsi fəvəran etməkdə ikən [bulağı fəvvarə vurarkən] bu fikir cəmiyyət üzvlərinin yadından çıxmış, bu təkasül də [başısoyuqluq da], ola bilsin, müəllimlərimizin işinin kəsrətindən [çoxluğundan] olsun. Ancaq hər halda demək lazımdır, bu vaxtda müəllimlərə uyqu haramdır. Müəllimlər də qət etdiyi bir fikri unudarlarsa, qara camaatımız nə yapar?

Müəllimlərimizdən Yusif Qasımlı və müəllimə Mina xanım Axundzadə cənabları bu ağır vəzifəni dəröhdə edib də işə girişiblər. Bir neçə gündür ki, oda arayırlar. Bunlara kömək etməyi qaimməqam [qəza rəisi] cənabları vəd edibdir. Bir həftədir ki, əllini mütəcaviz [50-dən çox] yetim çocuqlara aşpaz dükanında çörək verirlər. Bu haladək münasib oda tapa bilməmişlər.

Bu ağır vəzifəni ifaya qalxışan müəllimə Mina xanım və müəllim Yusif cənablarına təşəkküratımızı bəyan ediriz. Bu cənabların hər ikisi Müəllimlər İttifaqının üzvündən ikən, o biri üzvlərdən də rica ediriz, bu müqəddəs və ağır vəzifəni iki nəfərin üstünə atmayıb da onlar da işə başlasınlar və fikirlərinin üstündə baqi qalsınlar. Çünki qış yaxınlaşır.

**Salyanda yenə qətl**

31 təmmuz [iyul] gecəsi saat 10 radələrdə Cəfər bəyin oğlu Əliağa ziyafətdən gələrkən çayçı Feyzulla tərəfindən qətl olunar. İşin nə üstə vüqu olduğu məlum deyil. Ancaq mütəvəffa Əliağa düz və doğru bir mütəəllim [şagird] idi. Qatil dərdəst olubdur [tutulub]. Məqtulun inhidamına [məhv olmasına] çoxları yanır.

## TEATRO VƏ MUSİQİ

**"Ədirnə fəthi"**

Bizim teatroçularımızın, kəndilərincə əsaslı, bizcə əsassız bir üzrləri var. Bu "üzr" hər zaman ortaya çəkilməkdədir. Səhnə tərtibatında görülən hər bir nöqsanı həmin üzr ilə təsviyə edirlər [boyunlarından atırlar].

Məsələn, filan faciə dekorasiyası və yaxud şəxslərinin əlbisəsi naqisdir dedikdə cavabında "nə yapalım, başqası yoxdur" deyilir. Bu "üzr" ilə işin ortasından çıxılır.

Əlbəttə ki, bir artistin əlbisəsinin yararsızlığından həman artisti müaxizə [məzəmmət] etmək və yaxud bir pərdənin dekorasiyasının münasibətsizliyindən rejissoru təqsirləndirmək doğru olammaz. Məmafih [bununla belə], istər artistlər, istər rejissor və yaxud teatro işi ilə məşğul olanlar səhnələrinin bu kimi nöqsanlarını ikmal və islah etməlidirlər.

Məsələn, yekşənbə [bazar] günü axşam Hökumət Teatrosunda "Ədirnə fəthi" mövqeyi-tamaşaya qoyuldu. İkinci məclisi İstanbulda bir caddədə vaqe olur. Bir əsər lazım olan təsiri tamaşaçılar üzərində icra etmək üçün onun zahiri görünüşünə böyük əhəmiyyət vermək lazım gəlir. Məəttəəssüf [təəssüf ki], şu

ikinci pərdədə əbədən [əsla] İstanbul olduğu hiss edilməyirdi. Orada İstanbul mənzərəsi qətiyyən görülməyirdi.

Əlbəttə, rejissoru burada müaxizə etmək olmaz. Çünki teatroda İstanbul mənzərəsini göstərəcək pərdələr yoxdur. Lakin bu "yoxdurlar" haçan "var" olacaq? Səhnəmizin bu kimi əsaslı nöqsanları haçan islah ediləcək və kim edəcək? Ümid ediriz ki, teatro işləri ilə məşğul olanlar, bunu kəndilərinə bir sənət qərar verənlər bu işə əhəmiyyət verib, heç olmazsa, gələcək teatro mövsümünədək səhnəmizin nöqsanlarını və "yoxdur"larını islah eylər və "var" edərlər.

Səhnə tərtibatından bəhs edərkən, "Ədirnə fəthi" faciəsinin bir fəqərəsini [məsələsini; nöqtəsini] nəzərə almaq istərdim. İkinci pərdə, adəta, bir soqaq mitinqi halını almalı, hərb və sülh kimi mühüm bir məsələni müzakirə etməyə səlahiyyətdar ola biləcək bir ictima [yığıncaq] toplamalı idi. Məəttəəssüf, ikinci pərdənin lazım olan təsiri tamaşaçılar üzərində buraxmasını xələldar edən bir keyfiyyət var idi ki, o da böylə mühüm bir məsələni – hərb və sülh məsələsini müzakirə edən yalnız 6 və ya 7 kişidən ibarət olduğu idi.

Baş rollarda Xəlil Hüseynov Rüfət rolunda, Hacıbaba Şərifov Xalid rolunda, Rza Darablı Kamal rolunda yaxşı idilər. Xüsusən nəzəri-diqqəti cəlb edən Kamal rolunu – intiqam atəşi ilə yanıb-yaxılan, bu uğurda xəyanət yapmaqdan belə çəkinməyən bu ixtiyar türkü, onun hissiyyati-dərunisini ifadə etmək üçün Rza Darablı çox səy edirdi. Bu səy tamaşaçılar üzərində lazım təsiri buraxırdısa, lakin bəzi çığırtıları artıq idi.

İkinci mühüm vəzifə Xalid idi. Bu rolun özündə bəzi qaranlıqlar hiss edilirdi. Bəzi suallar xatirə gəlirdi ki, insan cavab alammayırdı. Təbii, bu artistin nöqsanı deyil, əsərə racidir [məxsusdur].

Başqa rollarda bir artist üçün iqtidarisənətkaranəsini göstərəcək qüvvətlər olmadığından ayrı-ayrı bəhsə lüzum görülməyir. Bunlar da oyunun ahəngiümumisini gözləyirdilər.

Ümumiyyətlə, oyun soyuq keçmədi. Tamaşaçılar məmnun getdilər. "Ədirnə fəthi" əsəri xüsusunda ayrıca bir təhlil və tənqid yazmaq arzusunda bulunduğumdan, bu kərəlik ondan bəhs etmədim.

*Kazımoğlu*

**İtibdir**

Ağabacı Şəmsi qızının kəbin kağızı və qeyri kağızları itib. Etibardan saqitdir [etibarsızdır].

*7435*

**İtibdir**

Ağaqulu bəy Əhməd oğlunun Əmirhacıyan kəndindən aldığı pasportu və atını Azərbaycan Hökumətinə verdiyini sübut edəcək şəhadətnaməsi və qeyri kağızları itibdir. Etibardan saqitdir.

*7436*

**İtibdir**

Məhəmmədrəsul Həsən oğlunun Qubadan aldığı pasportu itib. Etibardan saqitdir.

*7838*

**İtibdir**

Nobat Əliqulu qızının notariusdan aldığı doqovor itib. Etibardan saqitdir.

*3839*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

***Müvəqqəti müdir: Xəlil İbrahim***

# QEYD VƏ ŞƏRHLƏR

**Elan**

səh. 236. "Azərbaycan Dəmiryol İdarəsi bununla elan edir ki...": elanın bəndləri qəzetdə ərəb əlifbasının hərf sırasına görə (əlif, bə, tə, sə kimi) sıralanmışdır.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 237. "dövlətin ümum beynəlmiləl işlərindən məsul olan Xariciyyə Nəzarəti tərəfindən idxal edilməlidir": qəzetdə "Xariciyyə" yerinə "Ədliyyə" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 241. "Avamlar Kamerası": Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 242. "hersoq Qoqenberqski": Avstriya böyük hersoqu Frans Ferdinandın 1914-1919-cu illərdə Hohenberq hersoqu olan oğulları Maksimilian fon Hohenberq və Ernst fon Hohenberq nəzərdə tutulur.

"Bundan sonra hersoq İosifə müraciət edilmişdir.": ershersoq İosif Avqust nəzərdə tutulur.

"Çələbi": Rusiyanın Çelyabinsk şəhərinin yerləşdiyi ərazi keçmişdə belə adlanmışdır.

**Qəzetələrdən**

səh. 243. "Pardo… Auqusto Leqiya": bu adlar qəzetdə təhrif edilmişdir.

səh. 245. "Hindistan vis-kralı": 1916-1921-ci illərdə Hindistanın vitse-kralı və general-qubernatoru olan Britaniya dövlət xadimi Frederik Tezicer nəzərdə tutulur.

"əfqan əmiri": 1919-1926-cı illərdə Əfqanıstanın əmiri, 1926-1929-cu illərdə isə Əfqanıstan şahı olan Əmənulla xan nəzərdə tutulur.

**Qars oblastı və Zaqafqaziya Konfransı**

səh. 249. "işlər müşavirə ilə, həkəm ilə qurtarmamaq": qəzetdə "işlər" yerinə "istər" getmişdir.

**Bakı xəbərləri**

səh. 252. "Əhməd Mirzə": İran şahı Əhməd şah Qacar nəzərdə tutulur.

səh. 253. "Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

**Teatro və musiqi**

səh. 256. "Ədirnə fəthi": Cəfər Cabbarlının pyesi.


آذربایجان

اعلان

تیمور بک قلی بکوف

*"Azərbaycan" qəzetinin 251-ci nömrəsinin 1-ci səhifəsi*

**Cümə axşamı, 14 avqust 1919-cu il, nömrə 251**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 17 zülqədətül-haram sənə 1337. 14 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əli bəy Qulubəyov və Sona xanım Qulubəyova, öz uşaqları ilə; zalım və cabbarlar əlində qətl edilən əvvəlincinin unudulmaz qardaşı, ikincinin istəkli əri və axırıncıların ataları olan mərhum

**TEYMUR BƏY QULUBƏYOVUN**

səneyi-vəfatı münasibətilə mərhumun istirahəti-ruhu üçün bu gün, avqust ayının 14-də, axşam saat 7-də, mərhumun özünün Vrangelski küçədə 6 nömrəli evində fatihəxanlıq məclisi olacağını ümum dost, aşna və qövm- əqrəbalarına elan edirlər.

*7445*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Şərq-Qafqaz Neft və Ticarət Səhmdaran [Səhmdarlar] Cəmiyyətinin idarəsi zalımlar əlində qətl edilən məzkur cəmiyyətin bani və baş müdiri mərhum

**TEYMUR BƏY QULUBƏYOVUN**

səneyi-vəfatı münasibətilə mərhumun istirahəti-ruhu üçün bu gün, avqust ayının 14-də, axşam saat 7-də, mərhumun özünün Vrangelski küçədə 6 nömrəli evində fatihəxanlıq məclisi olacağı elan edilir.

*7446*

## ELAN

1919 sənə 14 avqust pəncşənbə [cümə axşamı] günü, gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-251*

## SABUNÇU İSTEHLAK CƏMİYYƏTİ "EL DÜKANI"

Bununla öz üzvlərinə məlum edir ki, həmin avqust ayının 15-ndə cümə günü səhər saat 10-da Sabunçu Ali-ibtidai məktəbi binasında (Birinci polis idarəsi qarşısında) Cəmiyyətin ümumi iclası təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) 1917-1918-ci illərin hesabına baxılıb və təsdiq olunması barəsində;

2) Yeni idarə heyəti seçilməsi barəsində;

3) İclasda qaldırıla biləcək məsələlər.

Qeyd: İclas, hər nə qədər üzv gələrsə, qanuni hesab olunacaq.

*Heyəti-idarə*
*7447*

**HÖKUMƏT TEATROSU**
**AXŞAM TAMAŞASI**
**DRAMA**

Zülfüqar bəy və Üzeyir bəy Qardaşlarının Müdiriyyəti Cümə günü, zilqədə ayının 18-də (ağustosun 15-də) möhtərəm camaatın xahişinə görə ikinci dəfə olaraq mütəntən [təntənəli] və ən şükuhlu [dəbdəbəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır

**VƏTƏN**
**yaxud**
**OSMANLI-RUS MÜHARİBƏSİ**

Bu faciədə göstəriləcəkdir:
Rus-Osmanlı müharibəsi əsnasında rus-Romaniya əsgəri ilə türk əsgərlərinin vuruşması.
Dəhşətli top atəşləri.
Türk şəfqət bacılarının göstərdikləri məharət.
Keçən dəfə kassa qabağında basabas olduğundan möhtərəm camaatın çoxu biletsiz qalıb geri qayıtmaqla tamaşadan məyus qaldıqlarını nəzərə alaraq, bu dəfə camaatın rahatı üçün biletlər pişəzvəqt [qabaqcadan] teatrın kassasında satılmaqdadır.

---

Bununla möhtərəm camaata elan olunur ki, Parapet qarşısında olan

**DARDANEL**

lokantası bu gündən etibarən "Morskoy restoratorlar" təhti-nəzarətinə [tabeçiliyinə] keçmişdir. Nahar və şam təcrübəli aşpazın təhti-nəzarətində [nəzarəti altında] buraxılır. Nahar və şam vaxtı strunnı orkestr [simli orkestr] icrayi-ahəng edir.

*7433*

**SİRK "MODERN"**

Pəncşənbə günü avqustun 14-ndə 1919-cu ildə Traveli Qardaşlarının benefisi olacaqdır. Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 47-ci günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: İki məşhur pəhləvanın ikinci görüşü: Qırmızı Maska – Naməlum.

2-nci: Mustafa Əhmədov – Aleksandr Kalişeviç.

3-ncü: Djiovani – Raqenbaum.

Tamaşa başlanacaq axşam saat 8 tamamda. Pəhləvanların çıxışı 11-in yarısında. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7443*

**ELAN**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən bu avqust ayının 11-dən başlayaraq "Eyzenşmidt" zavodunun yanında olan (рядомъ съ заводомъ Айзеншмидтъ) Nəzarətin odun və kömür skladından [anbarından] hər adama pudu 20 manatdan bir kisədən fəzlə olmayaraq kömür buraxılacaqdır.

**DAXİLİYYƏ NAZİRİ**
**HƏZRƏTLƏRİ TƏRƏFİNDƏN**
**ELAN**

Bu gün, avqustun 14-cü gününü Fəhlə Konfransı heyəti-rəyasəti Könüllü ordu müqabilinə protesto günü elan etmişdir. Bu gün əlahəzrət İran şahı Bakıya varid

olacağından, əhaliyə təklif edilir ki, tam nizam və asayişi baqi saxlayaraq hər kəs öz işində olsun. Heç bir nümayiş, ictima [toplanma] və mitinqlərə yer verilməyəcəkdir. Nizam və asayişi pozmaq üçün yapılan hər növ çıxış silah gücü ilə yatırılacaqdır.

*Daxiliyyə naziri: N.b.Yusifbəyli*
*Bakı, 14 avqust 1919*

## ZƏHMƏTKEŞLƏRƏ XİTAB

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən bugünkü tətil münasibətilə böylə bir müraciətnamə nəşr edilmişdir:

Millətdaşlar, yoldaşlar!

Sizi ayın 14-də birgünlük zabastovkaya çağırırlar. Sizə deyirlər ki, gəlin "Denikin qorxusu"na qarşı protest edin. Anladırlar ki, Azərbaycan qorxudadır.

Bəli, yoldaşlar, doğrudur, vətəndaşlar!

Mövqemiz çox nazik [həssas], məmləkətimizin qorxusu çox böyükdür. Hamımız bir adam kimi hürriyyətimizi, istiqlalımızı müdafiəyə hazır olmalıyıq. Fəqət bizi bu müdafiəyə kim çağırmalı və kimin sözünə baxaraq istiqlalımızın müdafiəsinə lazım olan hərəkəti etməliyik? Azərbaycan fikrinin xadimlərinəmi, yoxsa istiqlalımızın düşmənlərinəmi qulaq asmalıyıq?

Yoldaşlar, diqqət ediniz, sizi zabastovkaya çağıran nə Parlaman, nə hökumət, nə də Azərbaycan fikrinin anası "Müsavat"dır. Sizi küçəyə çıxartdırmaq istəyən və sizin adınızla öz istədiyini yeritmək qəsdində olan "konferensiya"dır. Bu "konferensiya" havaxtdan istiqlalçı, havaxtdan azərbaycançı oldu? Biçeraxovun başına and içən menşevik eserlərmi, yoxsa Azərbaycan yerinə bizə xarabalar vəd edən Şaumyan bolşevikinin vərəsələri Mikoyan, Mirzoyan naiblərimi bizim istiqlalımızı müdafiə edirlər?

Yox, yoldaşlar, onların istədiyi Azərbaycan deyil, yapmaq istədikləri zabastovka dəxi yalnız Denikini protest deyildir. Onlar bir daşla iki quş vurmaq istəyirlər. Denikinə qarşı deyə xalqın kökünü qazımaq, həbsdə olan bolşeviklərin buraxılmasını istəməklə də əsl istədiklərini almaq.

Konferensiya idarəsində olan böylə bir nümayişə əmin olunuz ki, yalnız bolşeviklər deyil, denikinçilər özləri də iştirak və yürüşə kömək edəcəklərdir. Çünki bu vasitə ilə xalqı bir tərəfdən hökumətə qarşı sözlərlə soyudacaq, digər tərəfdən də ingilislər əleyhində düşmənanə hərəkətlər çıxaracaq, bu surətlə də Bakıda bolşevik qüvvətinin çoxaldığını göstərəcəklərdir. Böylə göstəriş təbiidir ki, Denikinə böyük bəhanə verəcək ingilislərə desin ki, gördünüz, Azərbaycanın hökuməti zəifdir, qüvvət bolşeviklərdədir və onun üçün gərək mənə icazə və qüvvət verəsiniz ki, Bakıya girəm.

Nəüzübillah, Denikin Bakıya girməli olsa, inanınız ki, Mikoyanlar, yoldaşlarından ərinməyən Qarayevlər dava meydanında olarsa, kəndiləri ilə bərabər şübhəli konferensiyaçıları deyil, inanmadıqları və burjuy saydıqları müsavatçıları görəcəklərdir.

İnsan qara torpaqdan da kəmağıl olmalıdır inansın ki, yerləri, yurdları, hiss-

ləri, nəsəbləri, sabiqə və məqsədləri bəlli olmayan bir taqım macəraçı adamlar gəlib mənfəətimizi tanıdığımız, bildiyimiz adamlardan yaxşı dərk etsinlər.

Bolşevikə nə var, babasının yurdu deyil ki... İğtişaş salar, əgər tutarsa bolşevik, tutmazsa Denikin qazanar. Hər halda, rus qüvvəti Bakıya gələr. Macəraçı Bakı bolşevikinin bundan başqa qəsdi olmadığını siz Mart hadisəsi kimi faciəli vəqələrdə görmüşsünüz.

İştə, millətdaşlar, inanmayınız, kasa aşdan isti olammaz. Sizin istiqlalınızı, Cümhuriyyətinizi müdafiəyə məmur namuslu bir şəxsin idarəsində məsul hökumətiniz vardır. Sizi lazım olduğu zaman nümayiş və tətilə çağırar. İnandığınız Azərbaycan fikrinin həqiqi xadimi, tanınmış firqəniz var. Siz onlara baxınız. Yoxsa zahirləri xoş, batinləri batil adamların sözünə baxmayıb yerinizdən olmayınız.

Hökumət indiki zamanda istiqlalımızı təhdid edən asi qüvvətlərlə və xaricdən gələn təhlükələrlə mübarizə etməkdədir. Lənkəranı əvvəl bolşeviklərdən, şimdi də dabravollardan xilas edir. Qəhrəman əsgərlərimiz il yarımdan ziyadə düşmən əlində can verən müsəlman qardaşlarımızı xilasa gedirlər. Namdar [adlı-sanlı] yoldaşlarımız orada, Lənkərandadırlar. Yalama səngərləri köksünü düşmənə sipər etmiş igid əsgərlər və fədakar könüllülərlə möhkəmlənmiş, dəniz tərəfdən dəxi kəndimizi müdafiəyə lazım olan tədbirləri hökumətimiz unutmamışdır. Böylə bir zamanda şübhəli adamların arxasına düşüb də hökumətə qarşı çıxmaq, filan Rusiya bolşevikini xilas eylə deyə nümayişlər yapmaq, həqiqətə baxsanız, köksünü düşmənə gərmiş əsgərlərin kürəyinə xəncər soxmaqdır.

Sən ey azərbaycanlı vətəndaş, ey zəhmətkeş yoldaş, əlbəttə ki, böylə bir hərəkətdə bulunmaz, sabah ayın 14-də çağırılan zabastovkaya əsla iştirak etməzsən!

*Bakı Komitəsi*
*Bakı, 13 avqust 1919*

## TELEQRAF XƏBƏRLƏRİ

**Xüsusi teleqraf**

*(Öz müxbirimizdən)*

Bu gün avqustun 12-də Şuşa şəhərinin yaxınlığında olan Şuşa kəndində 7-ci erməni fövqəladə syezdi iniqad edir [toplaşır]. Syezdin ümdə məsələsi Qarabağ və Zəngəzur ermənilərinin Azərbaycan Hökumətinə tabe olmasıdır. Bu gün və yarın iclas Şuşa kəndində olub, heyəti-rəyasət və komissiyalar intixab ediləcəkdir [seçiləcək]. Sonra syezd Şuşa şəhərinə köçürülüb, general-qubernatorun hüzurunda iclas edəcəkdir. Ümum erməni camaatının arzusu budur ki, syezd əsas məsələni lazımeyi-idraklı və Zaqafqaziyanın indiki ağır vaxtındakı halını nəzərə alıb biduni-mülahizə şəxsən qət etsin. Təfsilatını məktubla gözləyiniz.

*Axundov*

*(Royter agentəliyindən)*

**11 avqust**

“Tayms” bəyan edir ki, səlahiyyətdar şəxslər İngiltərədə vüqu bulmaqda olan şurişlərin [iğtişaşların], əsası əcnəbi məm-

ləkətlərdə, məmləkəti bərbad etmək qəsdi ilə olan sui-niyyətin bir hissəsi olmasına inanırlar.

Ser L. Qrinvud Avamlar Kamerasında bəyan etmişdir ki, Britaniya qoşununun geri çağırılması qət olunması Moskva Bolşevik Hökumətinə qarşı siyasətimizin dəyişilməsini göstərir. Britaniya Hökuməti kəndi malları üçün bazar təmin etmək nə qədər əhəmiyyətli olduğunu dərk və bunun üçün lazım gələn tədbirləri ittixaz edir [tədbirləri həyata keçirir].

Vaşinqton - Hərbiyyə naziri Amerika Konqresinə bir qanun idxal etmişdir. Bu qanun mövcibincə [qanuna əsasən] sülh vaxtı ordunun miqdarı 500.000 nəfərdən ibarət olasıdır və hər bir gənc 19 sinninə [yaşına] yetdikdə üç ay əsgərlik vəzifəsini ifa edəsidir.

Kopenhaq [Kopenhagen] - Vyanadan xəbər verirlər ki, slovaklar bavariyalıların hücumundan ehtiyat edib əsgəri tədbirlər görürlər. Xəbər verirlər ki, general Franşe D'Esperi tələb etmişdir ki, Peştə Hökuməti istefa verib kəndi yerini yeni asudə intixab olunmuş hökumətə buraxsın və bəyan etmiş ki, əks surətdə fövri [dərhal] hərbi binagüzarlıqlar [addımlar] başlanacaqdır.

*(Bolşeviklərin məlumatı)*

- Moskvadan xəbər verirlər ki, Şərq cəbhəsindəki müvəffəqiyyətə görə, Xalq Komissarları Şurası tərəfindən Sibirya işləri haqqında komissiya təşkil edilmişdir.

- Yekaterinburqdan verilən xəbərlərə görə, Kolçak vəhşiliyindən güllələnənlərin və xəsarətdidələrin siyahısı tutulmaqdadır. Minlərcə adam tələf olmuşdur.

Moskva - 9 avqust - Şərq cəbhəsində Mejozer[nı] dairəsində Murman səmtində bizim hissələr müvəffəqiyyətli surətdə hücuma keçib Murman dəmir yol boyu ilə irəliləmişlərdir. Petrozavod[sk] dairəsində müharibə ilə biz Samozer[o] gölü ətrafında bir neçə kəndləri işğal eylədik. Biz əsir və pulemyot almışıq.

Qərb cəbhəsində - Pskov dairəsində bizim hissələr yürüşdə davam edirlər. Porxovun 20 verstliyində bir neçə kəndi işğal etmişlərdir.

Minsk dairəsində Minskin şimal tərəfində düşmənlərin təzyiqi ilə bizim hissələr şiddətli müharibədən sonra, Minskin 5 verstliyində yeni səngərlərə çəkilmişlərdir.

Molodeçno səmtində biz, İzyaslavl mövqifini tərk eylədik. Baranoviç səmtində Nesvijin cənub tərəfində müharibə edirlər.

Cənub cəbhədə - Jmerin dairəsində Severinovka mövqifi yanında topçularımız tərəfindən düşmənlərin zirehli qatarı təxrib edilmişdir.

Şərq cəbhəsində - Çelyabinski dairədə Çistoye mövqifinə çıxmışıq.

Moskva - 10 avqust şimal cəbhəsində Mejozer dairəsində Murman səmtində Sandal gölünün şərq kənarında bizim üçün müvəffəqiyyətli müharibə gedir.

Qərb cəbhəsində - Karel dönümündə [bərzəxində] Beloostrov dairəsində patlanğıc güllələrlə bizi atəşə tutmuşlardır. Narv səmtində bizim hissələr müharibə ilə bir neçə kəndlər işğal etmişlərdir.

Minsk dairədə avqustun 8-də biz müharibə edərək Minsk şəhərini düşmənlərə tərk eylədik.

Sinyavino səmtində bizim hissələr düşmənlərin təzyiqi ilə Sinyavinonun 25

verstliyində olan yeni səngərlərə çəkilmişlərdir.

Cənub cəbhədə - Paltava səmtində Paltavanın 35 verstliyində müharibə gedir.

Boqoduxov səmtində düşmənlərin təzyiqi ilə biz, Axtırka şəhəri ilə Smorodino mövqifini tərk eylədik.

Sudja-Belqorod səmtində biz Qotnya kəndini tərk eylədik.

Pavlov səmtində Bobrovun 40 verstliyində Bityuq nəhri boyunda müharibə davam edir.

Kalaç səmtində bizim hissələr Talov mövqifini işğal eylədilər. Kamışin səmtində Kamışinin 100 və 35 verstliyində müharibə gedir.

Petrov səmtində bizim hissələr 10 verst geriyə çəkilmişlərdir.

Uralsk səmtində Uralskın 100 verstliyində bir neçə kəndi işğal eyləmişik.

Orenburq Sterlitamak səmtində bizim qoşunların müvəffəqiyyətli həmləsi davam edir. Belə ki, qoşunlarımız Buqulçanın 45 verstliyinə çıxmışlardır. Burada 125 nəfər kazaklar bizim tərəfimizə keçmişlərdir.

Çələbi səmtində qoşunlarımız Çelyabinskin 110 verstliyinə çıxmışdır. Şadrin səmtində bizim hissələr Miass nəhri boyuna çıxmışlardır. Turin[sk] dairəsində Tümen şəhəri tərəfimizdən işğal edilmişdir.

* * *

N-ski ordunun ştabı - Pskovun şimal-şərq tərəfində qanlı müharibə vaqe olmuşdur. Bu müharibədə düşmənlər dom-dom güllə [partlayıcı güllə] işlətmişlərdir. Bizim hissələr ağların əks-həmləsini dəf edib irəliləyərək bir neçə kəndləri işğal etmişlərdir. Kurlanda və Liflanda cəbhələrində atışma davam edir.

* * *

Dvinsk səmtində Novo-Aleksandrovkaya üzərinə yürüş edən düşmənlər tərəfimizdən geriyə püskürdülmüşlərdir.

* * *

Konotop – “Yujnı kray” qəzetəsi yazır: Məhəlli [yerli] aksioner səhmdaran və sığorta cəmiyyətləri dabravollar nəfinə [xeyrinə] yarım milyon manat ianə etmişlərdir.

**Bolşeviklərin məlumatı**

8 avqust

Moskva - Şimal cəbhəsində - Peçor[sk] dairəsində bizim hissələr Troistskinin 20 verstliyində bir neçə kəndlər işğal eyləmişlərdir.

Qərb cəbhəsində - Pskov dairəsində Porxov səmtində bizim hissələr Porxovu işğal eylədilər. Minsk dairədə Molodeçin[o] səmtində düşmənlərin təzyiqi ilə bizim hissələr Minskin 35 verstliyində yeni səngərlər işğal etmişlərdir. Baranoviç səmtində bizim hissələr müharibə ilə Nesvijin cənub tərəfində yeni səngərlərə gəlmişlərdir.

Cənub-qərb cəbhəsində - Dubinsk səmtində bizim hissələr Şepetovkanın 50 verstliyində yeni xətlərə çıxmışlardır.

Proskurov səmtində bizim hissələr müharibə ilə 15 verst geriyə çəkilmişlərdir.

Xarkov dairəsində Belqorod səmtində düşmənlərin təzyiqi ilə Qrayvoronu işğal eylədik. [Qray]voronun 20 verstliyində müharibə gedir. Voronej dairəsində Yevstratov[ka] səmtində Liskinin 30 verstliyində bir neçə kəndlər işğal eyləmişik.

Bobrov dairəsində bizim hissələr müharibə ilə Novaya Çiqlanı işğal etmişlərdir.

Novoxopyorsk səmtində bizim hissələr müharibə ilə Abramovka mövqifini işğal etdilər.

Şərq cəbhəsində - Tsarev səmtində Volqanın sağ tərəfində Çornı Yarın 15 verstliyində bir kənd işğal edilmişlərdir. Əsir və 20 pulemyot alınmışdır. Düşmən təyyarəsi Çornı Yara 100 ədəd bomba tökmüşlərdir. Ural dairəsində Uralskın 40 verstliyində bizim hissələr kəndlər işğal eyləmişlərdir. Çələbi səmtində biz Çələbinin 70 verstliyinə çıxmışıq.

**Macarıstanda**

Lion - Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə nəzərən, Peştəyə varid olan [gələn] Romaniya qoşunları əhalini qarət edib rəhn sifəti ilə yeni Kabinənin iki nəfər üzvlərini həbs etmişlərdir. Digər bir rəvayətə görə, romaniyalılar İtaliya səfarəti [səfirliyi] vasitəsilə Müttəfiqlərdən bir nota almışdır. Fəqət onlar notaya əbədən [əsla] əhəmiyyət verməmişlərdir. Hal-hazırda Romaniyanın Peştədə 45 min nəfərlik ordusu vardır. Macarıstanın ricasına görə, İngiltərə, Fransa, İtaliya şəhəri mühafizə etmək üçün birər alay göndərmək istəyirlər. Bundan əlavə, İngiltərə Dunaya xırda hərb gəmiləri göndərir. Müttəfiqlərin ümdə məqsədləri macarlılar üzərində kontrol qoymaqdır. Romaniyalılar Peştədə müstəqildirlər. Müttəfiqlərlə heç bir əlaqədə bulunmayırlar. Romaniyalılar yeni Macarıstan Hökumətini qəbuldan imtina edirlər və tələb edirlər ki, Macarıstan müqəddəratı həllində Romaniyanın qəti səsi olsun.

**Cəbhələrdə**

Volnoye səmtində - Kriniçnoye denilən yeri tərk eylədik.

Cənub-qərb səmtində - Jmerin dairəsində bizim hissələr Jmerinin 10 verstliyində vaqe səngərləri işğal etmişlərdir.

- Cənub cəbhəsində Paltava səmtində biz, Qoqolevka mövqifini tərk eylədik. Axtırka səmtində bizim hissələr hücuma keçərək Axtırkanın şimal-qərb xəttinə çıxmışlardır. Düşmən təzyiqi ilə biz Novoxopyorsku tərk eylədik. Kamışin səmtində bizim üçün müvəffəqiyyətli olan müharibə davam edir.

* * *

Şərq cəbhəsində Ural dairəsində Orenburq səmtində Sterlitamak dairəsində bütün cəbhə boyu bizim yürüşümüz davam edir. Çelyabinsk dairəsində şəhərin 10 verstliyində olan Kilosillesinə yetişdik.

Tümen dairəsində bizim hissələrimiz Yalutorovsk üzərinə hücum edirlər.

* * *

Ukrayna Şura ordusunun məlumati-rəsmiyyəsi - Sarmen dairəsində sakitlikdir. Lutsk dairəsində təbəddülat [dəyişiklik] yoxdur. Radivilovka səmtində bizim hissələrimiz komandanlarının əmri-

nə itaət edərək Qorın çayı tərəfinə çəkilməkdə davam edirlər. Jmerin hissəsində düşmənlər bizə həmlə etmək istəsələr də, pişəzvəqt [qabaqcadan] ittixaz etdiyimiz tədbirlər sayəsində onların qabağını almağa müvəffəq olduq. Dəhşətli müharibə də davam edir. Oçakov dairəsində düşmənlərin hərbi gəmiləri limana daxil olaraq ağır toplarla Oçakovu ciddi surətdə atəşə tutmuşlardır. Saat yarım müddətində şəhərə 500 top gülləsi buraxılmışdır. Şəhərdə bir çox evlər dağıdılmışdır. Xersonun 30 verstliyində vaqe Stanislav düşmən flotu tərəfindən atəşə tutulmuşdur. Arxada quldurların fəaliyyətini bərtərəf ediriz.

Odessanın 25 verstliyində Novı Buldınka [və] Kremidovka düşmən dəstələri tərəfindən dəmir yol xətti dağıdılmışdır.

Mirov mövqifi [stansiyası] və Besansk kəndi dairəsində düşmənlərin cəbhə boyu həmlələri tərəfimizdən dəf edilmişdir.

Çumak səmtində düşmənlər güclü qüvvə ilə bizim hissələrimizi sıxışdırdılar. Ona görə də, qoşunlarımız yeni səngərlərə çəkilirlər. Daxildə quldur dəstələrini məhv ediriz.

Talaşak qəzasında Zilivni dəstələrin fəaliyyətinə xatimə çəkilir.

---

Kiyev - Yekaterinoslav səmtində bizim müvəffəqiyyətli olan müharibə davam edir. Hələlik təhqiq edilməmiş olan məlumata görə, bizim hissələr yenidən Verxnedneprovsku işğal etmişlərdir. Paltava dairəsində heç bir təbəddülat [dəyişiklik] yoxdur. Bəzi yerlərdə bizim qoşunlarımız neçə verst qərbə çəkilmişlərdir. Düşmənlərin qərb tərəfində olan həmlələri bir qədər təxirə düşmüşdür. Ümid var ki, az bir zamanda tamamən onların qarşısı alınıb da yürüşlərini dayandıracağız.

---

Bobruysk - Daxiliyyə nazirinin binagüzarlığı [sərəncamı] ilə sabiq jandarma şefi, Komarov nami-müstəarı [gizli adı] ilə Varşavada yaşayan general Kurlov həbs edilmişdir.

**Lehistanda**

Bobruysk - "Varşavskaya qazeta" yazır ki, Lehistan [Polşa] Kabinəsi tamamilə istefa verdi. Zənn edilir ki, yeni Kabinə Parlaman üzvlərindən deyil, iş bilən fəal şəxslərdən təyin ediləcəkdir.

- Berlindən xəbər verilir ki, Almaniya bolşeviklərinin başçıları Myuzan və Vedler, xəyanət etdiklərindən dolayı, hər biri 15 ildən 18 ilədək həbsə məhkum edilmişlərdir.

- Almaniya Milli Firqəsi konqresi, Hollandiya kraliçasına müraciətlə təvəqqe edir ki, kayzeri-məxlunu [taxtdan salınmış kayzeri] Hollanda Müttəfiqlərə verməsin.

- Sabah, yaxud birisi gün Sülh bayramında iştirak etmək üçün Hindistan qoşunları varid olacaqdır [gələcək].

- Kömür mədənlərinin ümumiləşməsinə qarşı Parlamanın 30 nəfər üzvləri Lloyd Corca protesto etmişlərdir.

London – Buenos-Ayresin cənub tərəfində seylab [sel] əmələ gəlmişdir. İn-

san tələfatı vardır. Camaatın əmlakı çox mütəzərrir olmuşdur [zərər görmüşdür]. Bir çox mal-qara qərq olmuşdur.

Kozlov - Fərarilərin sözünə görə, Ust-Medveditski okruqunda qırmızıların zülmündən dolayı üsyan əmələ gəlmişdir. Kazakların halı fənadır. Luqansk dairəsində əmələlərin səfərbərliyi müvəffəqiyyətsiz olmuşdur. Kletskaya və Konnaya dairəsində 16 yaşından 50 yaşınadək kazaklar səfərbərliyə cəm edilmişlərdir. Ona görə də çöl işləri başsız qalmışdır. Mixaylovka kəndində səfərbərliyə alınmış olan 3 min nəfər dabravol cərgəsinə daxil olmaqdan imtina etmişlərdir. Bunların pulemyotu da vardır. Kilmovski alayın 3-cü batalyonu səngərə getməkdən imtina etdiklərindən tərksilah edilib arxaya aparılmışdır. Borisoqlebsk və Balaşov altında olan vəziyyət kazakların halını dəyişmişdir. Əhali qaçan saldatları gizləyir.

- Londondan xəbər verilir ki, general Denikin Kurska yaxınlaşmışdır.

## TÜRKİYƏDƏ

### Anadoluda konqre

Türkiyə Baş naziri Parisdən qayıtdıqdan sonra xəbər almışdır ki, Anadoludan alınan məlumata görə, müxtəlif tayfa başçıları məmləkətin gələcək müqəddəratı məsələsini müzakirə etməkdən ötrü öz təşəbbüsatları ilə Ankarada bir konqre dəvət etməyi təhti-qərara alıb işə başlamışlardır. Bu münasibətlə Damad Fərid paşa göndərdiyi təmimnamədə [sərəncamda] deyir ki, Qanuni-əsasi [Konstitusiya], paytaxtda dəvət edilib Sultan tərəfindən açılan Parlamandan başqa bu cür ictimalara yol verməyir. Bu cür konqreyə nümayəndə intixabı [seçilməsi] qanunsuz və Qanuni-əsasi əleyhinə hesab olunacaqdır. Orada iştirak edənlər də qanunu xələldar edən [pozan] ədd [hesab] ediləcəklərdir.

### Məhkəmeyi-hərbiyyə

Nazim paşa Daxiliyyə naziri təyin edildiyinə görə, Hərbiyyə Məhkəməsində onun yerini Zikri paşa tutacaqdır. Bu yaxınlarda məhkəmə bir çox işlərə baxmağa başlayacaqdır. Sonra İstanbul polisi müdiri Bədri bəyin və polis siyasi şöbəsi naçalniki Rəşid bəyin və İstanbul komendantı Şahab bəyin işlərinə baxılacaqdır.

### Kayzerin Quranı

Ruhani Müəssisələr naziri [Elmalılı Məhəmməd] Həmdi əfəndi xəlifə Osman tərəfindən yazılan Quranın imperator Vilhelmə hədiyyə edilməsi xəbərini təkzib edir. Nazirin dediyinə görə, həmin Quran hal-hazırda Sultanın xəzinəsindədir. Vilhelmə əl ilə yazılmış başqa bir Quran əta edilmişdir.

### Siyasi mühacirlərin övdəti

Damad Fərid paşa Parisdən qayıtdıqdan sonra, İsveçrədə olan Türkiyə siyasi mühacirlərinin İstanbula qayıtmalarına icazə almaqdan ötrü iqdamatda bulunmaqdadır [təşəbbüs göstərməkdədir]. "Təsvir" qəzetəsinin verdiyi xəbərə görə, bir para təsəvvürata binaən [görə],

hal-hazırda [Məhməd] Şərif paşanın, [Prins] Səbahəddinin, [Salih] Münir paşanın və bir çox başqalarının Türkiyəyə qayıtması arzu edilməyir.

**Rus qaçqınları**

Türkiyədə olan rus qaçqınlarının vətənlərinə qayıtması üçün İstanbulda bir cəmiyyət təşkil edilmişdir. Bu cəmiyyət bolşeviklərdən azad olan rus portlarına sərnişin və mal gətirəcəkdir.

**İzmirdə taun**

İzmir vilayətində taun gəldikcə şiddətlənməkdədir. Buna görə, İstanbulda karantin qoyulmuşdur.

---

İranın məşhur şeyxlərindən Əcəm paşa Osmanlı Hökumətinə bir teleqrafla müraciət edərək xəbər verir ki, ancaq bu günlərdə Diyari-Bitara (Ermənistandadır) varid olmuşam [çatmışam]. İranda olan qəbilələrin bütün şeyxləri Osmanlı Hökumətinə izhari-übudiyyət edirlər [tabe olduqlarını bildirirlər].

**Bir paroxodun qərqi**

Qara dənizin Lazistan kənarında "Tilabaş" namında bir türk paroxodu qərq edilmişdir. Bu paroxod İstanbuldan Batuma qəhvə, qənd, sirkə və sair mallar gətirirmiş. Paroxod seyr edici minaya toxunub qərq olmuşdur. Paroxod arxa tərəfindən dəlinmişdir və nəticədə paroxod suyun dibinə getmişdir. 250 nəfər sərnişindən ancaq 17 nəfər xilas olmuşdur. Bunların bir hissəsi Batuma, bir hissəsi isə Novorossiyskə varid olmuşdur. Paroxodun komandiri, müavini və matrosların əksəri həlak olmuşlardır. Bu paroxodu Batum tacirlərindən Qoqişvili icarəyə götürübmüş. 11 milyon 500 min rubləyə sığorta edilmişdir.

## ƏFQANISTANDA

**Əfqanların hücumu**

İngiltərə xəbərlərində deyilir ki, əfqanların güclü bir dəstəsi Dakka yanında ingilis əsgərləri mövqeyinə hücum edib ingilis əsgərlərinin atəşi ilə dayandırılmışdır. Əfqanlar hücum etmək istəmişsələr də, müvəffəqiyyətsizliklə qurtarmışdır. Bu hücumda əfqanlar 200 nəfər tələfat vermişlərdir. İngilislərdən 12 nəfər yaralanmışdır.

- Əfqanların xırda bir başıpozuq dəstəsi İngiltərə aeroplanlarını xarab etməkdən ötrü aeroplan mövqifinə hücum etmişdir. Qaraqollar əfqanları görüb atəş açmaqla onları geri çəkilməyə məcbur etmişlərdir.

- Əfqan siyasi dairələrinin Kabildə vaqe olan xüsusi müşavirəsi mütarikə şəraiti [atəşkəs şərtləri] təqdim etməkdən ötrü Hindustana sülh heyəti göndərilməsi tərəfdarı olduğunu izhar etmişdir.

## İRANDA

**Kürdüstanda**

"Rə'd" qəzetəsinin yazdığına görə, Kürdüstan əhvalı əvvəlki kimi ciddi və təhlükəlidir. Üsyan edən tayfalardan baş-

qa Cənubi Kürdüstan kürdləri arasında da həyəcan başlanmışdır. Asayiş bərpa edilməsindən ötrü göndərilən hökumət əsgərlərinin köməyinə İngiltərə cəza dəstələri yollanmışdır. Mortke kəndi yanında üsyançıların böyük qüvvəsi olduğu kəşf edilmişdir. Üsyançılarla hökumət əsgərləri arasında müsadimə [toqquşma] olacağı hər gün gözlənir.

**Mazandaran əhalisinin tərksilahı**

İran hökumətinin rəsmi qəzetəsi olan "İran" Mazandaran əhalisinin tərksilah edilməsi haqqındakı hökumət qərardadından bəhs edib, İranın başqa yerləri əhalisinin ümumən, İsfahan vilayətinin xüsusən tərksilah edilməsini məsləhət görür.

**Azərbaycan sərhədində**

Təbrizdən "Rə'd" qəzetəsinə teleqraf edirlər ki, Culfadan verilən xəbərlərə görə, ermənilər uzun müddət qanlı müharibələr etdikdən sonra Naxçıvanı və İrəvan quberniyasının başqa şəhərlərini saxlaya bilmədilər. Ermənilər buraları boşaldıb İran tərəfə qaçmışlardır. Ermənilər İran sərhədinə çatdıqda İran məmurları onların silahlarını əllərindən alıb İrana buraxmışlardır. Təbrizdə bir çox erməni qaçqını vardır ki, artıq ehtiyac içindədirlər.

## ƏRZAQ PAYLAMAQ

Dəhşətli Cahan hərbinin vüqusu [meydana gəlməsi] kimsəyə fayda vermədiyi kimi, yaratdığı şeylər də kimsəyə fayda verməmişdir. Hər bir tərəfinə baxılarsa, həp hiylə, həp budalalıq müşahidə olunur.

İnsanfirib [aldadıcı; hiyləgər] əsas üzərinə qurduğu müəssisat və təşkilat həp şiddət, həp dəhşət, fəqət tam mənası ilə saxtakarlıqdan ibarətdir. Bu şiddət, bu dəhşət sayəsində yüzdə onu təşkil edən bir sinif qayət müstərih [rahat] və geniş bir həyatla keçinir, doxsanı isə böyük bir kütleyi-bəşər daima fəlakət içərisində yuvarlanır, parçalanır, atəşlər şiddəti ilə həyatından məhrum olur. Bəqiyyətüssüyufu [müharibədə qırılmayıb sağ qalanları] da ərzaq və məkulat [yemək] sıxıntısı altında əzilir, boğulur.

Əvət, burası məmləkətin daxilində qiyamətlər qopardı, yağmaçılar hazırladı. Əhali yek-digərinə [bir-birinə] düşmən, cani kəsildilər.

Bu müdhiş qailəni [qayğını, çətinliyi] təhvin və təxfif [asanlaşdırmaq və yüngülləşdirmək] üçün kartoçka üsulu ehdas [yaradıldı] və tətbiq olundu, "kooperasiya" təsis edildi. Məhəllərdə kooperativlər cəmiyyətləri açıldı. Bununla ərzaqsız qalan əhaliyə müəyyən bir miqdar ərzaq verilməyə başla[n]dı.

Fəqət kooperativ başına çökən qara qartalların çəngalından [caynağından] heç bir şey xilas olmayırdı. Əlli pud alınan qəndin ancaq on pudu, iyirmi kisə gətirilən unun yalnız üç kisəsi paylanırdı. Bəqayası [qalanı] həp anbarlara vurulurdu. Kəndi ehtiyaclarını ödəyəcək qədər də saxlanırdı. Fəzləsi ağır fiyata ötədə-bəridə satılırdı.

Yenə biçarə, yoxsul, əli qoltuğunda bomboş geri dönən bu yoxsullar gecələr ayaz altında səki və qənbərlər üzərində

növbətdə dururdu ki, bəlkə un və ya sair ərzaq ala bilsin. Daha çoluq-çocuğunun “acıq” fəryadını eşitməsin.

Bununla bərabər, yenə ala bilməyirdi. Əliboş evə övdət edirdi [qayıdırdı]. Çünki gələn ərzaq məhəllə qoçusuna, zənginina, sahibi-nüfuzuna, çinovnikinə və kooperativ sahibinin qövm-əqrəbasına verilirdi. Qalanı da həzmi-rabedən ötürülürdü.

Xəlayiq [camaat] bu alçaq, bu insafsız müamilədən [rəftardan] bıqdı, islahına təşəbbüs eylədi. Dürlü-dürlü çarələr arandı. Təkrar-təkrar Bələdiyyə İdarəsinə axın etdilər. Gurultu, patıltı qopardılar. Artıq başqa əlac yeri də qalmamışdı. Çünki əhali öylə ehtiyac içində qalmışdı ki, axşamdan sabaha qədər qar, yağış altında dükanlar qarşısında gecələyirlərdi. Qadın, erkək yek-digərinə qarışmışdı. Mal verilən dükanlar qarşısından hər daima ağlaşmalar eşidilirdi. Qış fəslində bir çoxları əl-ayaqlarından məyub [şikəst] oldular.

Bu surətlə növbət bəkləyən yoxsul yenə də ailəsi yanına üzüqara adamlar kimi əliboş qayıdırdı. Artıq səbir kasaları dolmuşdu.

Əhalinin qələyanı [cuşa gəlməsi] və sərkarların [başçıların] təşəbbüsü nəticəsində bu ağır müşkülata bir dürlü çarə yolu bulundu. Ev komitələri təsis olundu.

Həqiqətən bu təşəbbüs keçmişlərə nisbətən qayət yüngül, qayət əlverişli idi. Hər bir ev komitəsi 20 ya 30 evin siyahısını tutub məhəllinə [yerinə] təqdimlə müəyyən miqdarda ərzaq alırdı, siyahı etdiyi evlərə paylayırdı. Bu sayədə həm ərzağın udulması, həm də xəlayiqin soyuqlar altında əzilməsi kimi fənalıqlar bərtərəf edildi [aradan qaldırıldı].

Əlbət, bundan da sui-istifadə edənlər olurdu. Fəqət müfəttişlik iştirakı ilə olurdu. Bəzən müfəttiş para beş-on evi ev komitəsinin zülfünə qurban edirdi. Bəzən də heç kəsə verilməyəcək bir siyahını müfəttiş cənabları təsdiq edir, alınan ərzağı ev komitəsi ilə yarı-yarı paylaşırlardı. Böylə siyahılar şimdi də mövcuddur. Həpsini bilirəm.

Bu xüsusata yalnız mən deyiləm, bütün azərbaycanlı fərdən-fərd [hər kəs] aşnadırlar. Eyi cəhətini də, fəna cəhətini də kamalınca anlayırlar. Həpimiz bu yolda imtahanlar verib təcrübələr hasil etmişiz.

Lakin bu yaxınlarda hökumət tərəfindən buraxılan ərzaq yenə əski üsul üzrə olduğu görüldü. Həman quyruq eynilə irəlidə gördüyümüz kooperativlər qarşısında uzandı. Yenə də erkəncə növbətdə durmaq başlandı.

Bunu görən hər bir fərdin heyrət etməməsi qabil deyildir. Zira xəyala böylə bir şey gəlir ki, guya bildir bu üsul ilə ərzaq alan və paylayan əhalidən biri də sağ qalmamışdır. Həpsi Lut qövmü kimi məhv olmuşdur. Şimdi yerlərinə başqa bir qövm gəlmişdir. Burası insanı pək çox düşündürür. Düşündükcə dürlü-dürlü yollara doğrulayır.

Beş sənəlik ömrünü ərzaq təqsimatı və təhəssüratı [paylanması və həsrəti] ilə çürüdən ərbab nasıl olur ki, yüzlərcə əhalinin payını bir nəfərə mal etməyə riza verir? Əsla ötəsinə-bərisinə diqqət etməyir.

Şimdi baxalım bu qaç günün ərzində

buraxılan qənd, şəkər, parça, ayaqqabı və sair bunlar kimi mallardan kimlər istifadə etdi?

Bütün ömrünü işsizliklə keçirənlər, bütün hiylə ilə keçənlər, bütün əcnəbilər.

Bir nəfər gündə 20 girvənkə qənd, 20 girvənkə şəkər və o miqdarda parça və sair mal aldığı halda, 99 nəfər bir girvənkə olsun ala bilməmişdir. Heç kəs işini buraxammamışdır və buraxa bilməz. Bir girvənkə şəkər üçün bir gün işini buraxarsa, ailəsi evdə ac qalır, yenə də əskidəki müşkülata məruz qalır.

Bunun digər bir cəhəti də vardır ki, o cəhəti daha böyük nöqsandır. O isə ərzağın üsulsuz paylanmasıdır.

Məsələn, bir şəxs kooperativ dükanından fəqət bircə girvənkə qənd, yaxud şəkər ala bilər, qərardad mövcibincə [qərardada əsasən] ziyadə verilməz, deyilmi? Əcəba, səkkiz, on, on iki nəfər ailə sahibi olan bir şəxs bu bir girvənkə şəkərlə nə yapa bilər?

Heç bir şey. Bir gündə deyil, bir saatda tamam olub gedər.

Binaənileyh [odur ki], Ərzaq dairəsi rəyasətində bulunan zəvatdan [şəxslərdən] rica ediriz ki, əhaliyə veriləcək ərzaq yenə də ev komitələri vasitəsilə verilsin və hamısına verilsin. Çox mümkün deyilsə, hər nəfərə yarım girvənkə, ya bir çetver təqsim edilsin. Fəqət ümum ailə hesabı ilə verilsin ki, bir dürlü etinasızlıq kimi tələqqi edilməsin.

Ancaq sadiq müfəttiş, sadiq ev komitələri vasitələri ilə.

Yoxsa bu qərarla paylanan ərzaq hər bir cəhətlə əlverişli deyildir.

*Ayn. Ayn.*

## YENİ BİR MACƏRACULUQ

Kəndi hakimiyyətlərini türk-Azərbaycan xalqı üzərində qurmaq xəyalatı ilə yaşayan Rusiya sosialistləri və onların hakimiyyəti sayəsində bir taqım kənd qəza komissarlıqları qazanmaq arzulayan müsəlman hümmətçiləri bu gün yenə təzə bir avantüra yaratmaq istəyirlər.

Sağ eserlər ilə "Müsavat" firqəsindən başqa bütün siyasi firqələr bu gün ağustosun 14-də ümumi tətil elan etmək istəyirlər.

İntibahnamələrində [vərəqələrində], elanlarında, müraciətlərində tətilin səbəblərini böylə şərh edirlər:

1) Denikin hücumuna protesto;

2) Çar cəlladlarının, Denikin agentlərinin həbsi;

3) Zəhmətkeşlərin azadlığı;

4) Fəhlə təşkilatlarının, fəhlə orqanlarının hürriyyəti;

5) Fəhlə nümayəndələrinin həbsdən xilası və qeyrə.

Həmişə maska altında çalışan Rusiya bolşevikləri bu dəfə də bir bəhanə tapmışlar: "Denikin qorxusu".

Lakin altında xalq arasında provokasiyalar yapan "axperlər"in hürriyyəti, Mikoyan, Mirzoyan, Qoqoberidzelərin həbsdən xilası kimi fikirlər edirlər.

Bu gün istiqlal və hürriyyətindən başqa, Azərbaycan məfkurəsindən ayrı fikir və arzusu olmayan Azərbaycan[ın] sadədil türk zəhmətkeşlərini özlərinə istifadə aləti etmək üçün bolşeviklər bu günün təhlükəsindən istifadə edirlər. İçərimizdə iğtişaş salmaq, Dağıstanda olan kimi bizdə də Denikin və Avropa qüvvələrinin əlinə bəhanə vermək istəyirlər.

Fəqət Denikin qarşısına ən əziz övladını əsgər göndərmiş Azərbaycan-türk camaatı bolşeviklərin bu hiyləsinə inanmamalıdır. İstiqlaliyyəti istiqlaliyyət düşmənləri deyil, istiqlaliyyət sahibi müdafiə edəcəyini anlamalıdır. Hürriyyətimizin düşmənlərinin budəfəki hiylələrini də anlayıb tətildə iştirak etməməlidir. Bilməlidir ki, bolşeviklərin bu hiyləsi hakimiyyət məqsədi üçün tərtib olunmuş bir avantüradan başqa bir şey deyildir.

*Məhəmmədzadə Mirzəbala*

## BAKI XƏBƏRLƏRİ

**Məruzə**

İşbu cümə günü səhər saat 11-də Bələdiyyə İdarəsi salonunda sabiq Dağıstan Cümhuriyyəti nəzdindəki Azərbaycan siyasi nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyev cənabları Dağıstan haqqında ümumi məruzə oxuyacaqdır.

**Türküstan nümayəndəmiz**

Srağagün axşam Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti indindəki [nəzdindəki] Azərbaycan siyasi nümayəndəsi [Əkbər ağa] Sadıqov cənabları xidmət işləri üçün Bakıya varid olmuşdur [gəlmişdir].

**Bugünkü tətil**

Özünü Bakı zəhmətkeşlərinin baş idarəsi adlandıran “Mərkəzi Fəhlə Konfransı” nam təşkilat bu gün ayın 14-də ümumi tətil etməyi təhti-qərara almışdır. Tətilin zahiri səbəblərini böylə göstərirlər: Fəhlə təşkilatları və sosialist qəzetələri əleyhinə görülən tədbirlərin ləğvi, həbs olunmuş bolşeviklərin azad edilməsi və Denikin hücumuna qarşı protesto.

**Dəmiryol istasyonlarında**

Neçə gün əvvəl, “Müsavat” firqəsi tərəfindən Yusif İbrahimli əfəndi Azərbaycan dəmiryoluna fəhlələr arasında təşkilat yapmağa çıxmışdı. Yusif İbrahimli Keşlə, Hacıqabul, Ucar, Gəncə, Ağstafa və bunların arasında olan hamı istasyonları gəzib, fəhlələri toplayıb əhvali-hazirə ilə tanış etmişdir. “Müsavat” şöbəsi olmayan yerdə şöbə açılmışdır.

Öz vəzifəsindən başqa Yusif əfəndi, fəhlələrdən bir çox şikayətlər, məlumat toplayıb götürmüşdür. O cümlədən, Keşlə, Biləcəri, Hacıqabul, Ağstafa fəhlələri öz müdiriyyətlərindən şikayət etmişlərdir.

Ağcaqabul istasyonunda Ermənistana yollanan erməni yetimləri arasında müsəlman çocuqları tapılmışdır. Ağstafadan keçən ingilis eşelonları arasında ingilis libasında olan bir ermənidən 7 tay papaq dərisi tutulmuşdur ki, qiyməti təxminən 600.000 manatdır. Bunlar, ingilislərin məlumatı ilə həbs edilmişdir.

Fəhlələr rica etmişlər ki, naçalniklərin rəftarları əleyhinə tədbirlər görülsün. Onlara ərzaq verilsin və şəhərlərdən həmişə adamlar gəlib onları əhvali-hazirədən xəbərdar etsinlər.

**Muğanda taxıl**

Aldığımız məlumata görə, Muğanda bu il taxıl bol olmuşdur. Hər desyatindən 110-120 pud məhsul gözlənir.

**Hürufatımız haqqında müsahibə**

Bakı Türk Tələbələri Komitəsinin təşəbbüsü ilə bu gün ağustosun 14-də Bələdiyyə salonunda axşam saat 5-də hürufatımızın [hərflərimizin] dəyişməsi haqqında tələbə [Mir Əbdüləziz] Seyidov məruzə oxuyacaqdır. Məruzədən sonra müsahibə olacaqdır.

**Süleyman Abdullayevin sürgünü haqqında**

Qəzetəmizin keçən nömrələrində xəbər verdiyimiz Süleyman Abdullayevin qradonaçalnik tərəfindən sürgün edilməsi haqqında yapdığımız təhqiqatdan anlaşılmışdır ki, Süleyman əfəndinin evini qradonaçalnik zəbt etmək istəmişdir. O isə müqabilə edib razı olmamış, sürgün məsələsi də bu yerdən baş vermişdir.

**Fəhlə həyatı**

- Balaxanıda Əmiraslanovun 22-ci uçastokda olan mədənində işləyən Allahverdi Əsgər oğlunu xidmətdən əzl [kənar] edib kollektiv üsulu ilə bir ay artıq məvacibini vermədiklərindən, "Müsavat" firqəsinin Müsalihə və Mürafiə [Məhkəmə və Barışıq] şöbəsi tərəfindən bu barədə baş müdiriyyətə müraciət olunub məvacibi verdirməyə müvəffəq olmuşdur.

- Balaxanıda Ter-Akopovun mədənində çalışan Qulam Rza oğlu könüllü əsgər qeyd olunmuşdu. Şimdi isə müdiriyyət onu geri qəbul etməyir. Bu barədə "Müsavat"ın Müsalihə və Mürafiə şöbəsi lazımi iqdamatda [təşəbbüsdə] bulunub Qulam əfəndini vəzifəsinə qəbul etdirmişdir.

- Ramanada Şəmsi Əsədullayevin mədənində çalışan Əziz Qurbanəli oğlu xidmətindən qovulmuş olub, kollektiv üsulu ilə məvacibi 360 manat əvəzinə 180 manat verilmişdir. Bu barədə "Müsavat"ın Mürafiə və Müsalihə şöbəsi lazımi binagüzarlıqda bulunub ixtilafı rəf etmişdir [aradan qaldırmışdır].

**Cəmiyyəti-Xeyriyyədə**

Qars nahiyəsindən qaçmış 10 nəfər qaçqın Müsəlman Cəmiyyəti-Xeyriyyəsi tərəfindən yetimlər yurduna göndərilmişdir. Qaçqınların 9-u 6-12 yaşlarında uşaq, biri isə 45 yaşında qadındır.

**Əsir türklər**

Müsəlman Cəmiyyəti-Xeyriyyəsi iki nəfər türk əsirini Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərib Batuma getmək üçün yol xərcindən təmin edilmələrini rica etmişdir.

**Ordubad qaçqını**

Ordubad qaçqınlarından Əbdürrəhim Hacı İsmayıl oğlu Cəmiyyəti-Xeyriyyəyə müraciətən xəbər vermişdir ki, Mahmud adlı üç yaşında oğlunu arvadı mərhum olduğundan saxlaya bilməyir. Cəmiyyəti-Xeyriyyə yetimi yetimlər yurduna yollamışdır.

**Lənkəran komissarları**

Dövran edən şayiata görə, Lənkərandan qaçmış bolşevik komissarları qismən İrana, qismən Petrovska fərar etmişlər və qaçarkən özləri ilə 18 girvənkə təmiz qızıl aparmışlardır. Qaçqınlar Sarı adasında paltarlarını dəyişib İran paltarı geymişlərmiş.

**Ümumi tətil münasibətilə**

Bu gün şəhərdə tətili-ümumi gözləndiyindən Bakı qradonaçalniki tərəfindən şəhərin divarlarına xüsusi elan yapışdırılmışdır. Elanda tətil, ictima [yığıncaq] və toplanış qadağan edilir. "Müsavat" firqəsi ilə "sağ inqilabçı sosialistlər" (eserlər) tətildə iştirak etməməyi təhti-qərara almışlardır.

**Sərgi**

Səşənbə [çərşənbə axşamı] günü avqustun 19-da bulvarda Gömrükxana körpüsündəki üzgüçülük məktəbi nəzdində uşaq rəsm, şəkil və sair əl işləri sərgisi açılır. Sərgini rəssamlar idarə edirlər. Daxil olmaq üçün böyüklər 2 manat, uşaqlar və mütəallimlər [şagirdlər] 50 qəpik verəcəklərdir.

**Daxil olmuş mallar**

Ticarət, Sənaət və Ərzaq Nəzarətinin Statistika şöbəsinin məlumatına görə, ağustosun 11-də Bakıya bu qədər mal gəlmişdir: taxıl 2608 pud; furaj [yem] 1942 pud; taxta 700 pud; dəmir əşya 659 pud; xalis dəmir 2000 pud.

**Birjada**

Kerenski minliklər 1300 rubləyə, 250 manatların 1000 manatı 1250 manata, xırdalar 15 faizə. Nikolay pulları zəifdir: 500-lüklər 1350 rubləyə, 100-lüklər 250 rubləyə. Bon pulları 28 faizə, gümüş xırda 14 rubləyə, manatlar 30 rubləyə.

**Valyuta**

İngilis funt banknotu 400 rubləyə və çek 350 rubləyə. Qızıl Osmanlı lirəsi 415 rubləyə, kağız lirə 95 rubləyə. Fransız frankı 22 rubləyə.

## LƏNKƏRANDAN XÜSUSİ MƏKTUB

Lənkəran mahalını və Astaradan hərəkət edən Azərbaycan qoşunlarını idarə etmək üçün Azərbaycan Hökuməti tərəfindən göndərilmiş olan xüsusi vəkilin vürudundan [gəlişindən] Zuvand, Lənkəran və Astara mahalları əhalisinin nə dərəcə şad olduqlarını mən təsvir edəmməm. Yandırılmış olan kəndlərin əhalisi, uşaqlar, arvadlar şadlıq əşki [gözyaşı] tökərək çoxdan bəri gözlənməkdə olan əziz qonaqları duz-çöréklə istiqbal etdilər [qarşıladılar]. Silah daşımağa istedadı olan şəxslərin burada isbati-vücud [iştirak] etməmələri gözə çarpırdı. Sonradan məlum oldu ki, hər kəsin tüfəngi var isə meydani-müharibəyə getmişdir. Hal-hazırda hər iki tərəf arasında danışıq davam edir. Gərək xüsusi vəkil və gərək muğanlılar guya çalışırlar ki, qan tökülmədən ara düzəlsin.

Xüsusi vəkilin bu cür arzusu doğru və həqiqi isə də, muğanlılar zahirən "cümhuriyyət"çilik macəraculuğunu [avantürasını] uzatmaq istəyirlər və bunlar ingilislərdən, yaxud Denikindən müavinət gözləyirlər. Lakin onlar[ın] bu ümidlərində bolşevikdən müavinət bəklədikləri ingilislər onlara qənim oldular.

Mən muğanlılara bir dəstə deyirəm. Çünki muğanlılar 20 min nəfər olduqları halda əhalinin ondan doqquzunu təşkil edən müsəlmanları son vaxtlarda tamamilə talan edib onlara olmazın zülüm və əziyyət etmişlərdir. Amma müsəlmanlar məcbur idilər ki, muğanlılarla bərabər zalımlara səs versinlər.

Azərbaycan məmurunun buraya gəlməsi ilə əhalinin işi bir dərəcə yüngülləşmişdir. Hər tərəfdən əhalidən izhariübudiyyət [tabeçiliklərini ifadə edən] kağızları gəlmişdir.

İngilis komandanlığı nümayəndələri vürudu ilə iş tamamilə dəyişdi. İngilislər qəti surətdə muğanlılardan tələb etmişlər ki, bilatəxir [dərhal] Azərbaycan hökumətinə tabe olsunlar. Muğanlılar bu xüsusda bir çox dedi-qoduya başladılar. Bu isə ingilis nümayəndələrini səbirdən çıxarıb məktubən muğanlılardan zeyldəki [aşağıdakı] tələbatda bulundular:

*"İngilis Komandanlığı admiral Kolçak və Müttəfiqlərin Paris qətnaməsinə istinad edərək qət etmişdir ki, Lənkəran mahalı və Muğan oblastı Azərbaycan sərhədinə daxil olduğu üçün bu yerləri Azərbaycan məmurları idarə etməlidir. İngiltərə Komandanlığı Azərbaycanın qanuni hərəkətinə müavinət etmək prinsipini gözləyir. Azərbaycan Lənkəran və Muğan oblastına xüsusi heyət göndərir ki, müsəlmanlarla bərabər rusların da mənafeyini müdafiə eyləsin. İştə bu məsələdə İngiltərə Komandanlığı Azərbaycana müzahirət [kömək] edərək muğanlıların Azərbaycana tabe olmasını tələb edir."*

İngilislərin bu tələbatından sonra Muğan hökuməti təvəqqe eyləmişdir ki, bu məsələ ümumi Muğan syezdində [qurultayında] həll edilmək üçün onlara möhlət verilsin. Təbiidir ki, həman syezddə müsəlman olmayacaqdır. Bu rica İngilis Komandanlığı nümayəndəsi və Azərbaycan xüsusi vəkili tərəfindən qəbul edilmişdir. Eyni zamanda muğanlılardan imza alınmışdır ki, avqust ayının 10-u saat 10-dək məsələ həll edilib Lənkəran azərbaycanlılar tərəfindən işğal ediləcəkdir.

Görünür ki, Muğan hökuməti zabitanı da Muğan hökumətinin bu macəraculuğundan təngə gəlmişlərdir. Ona görə də İngilis Komandanlığı namına yazmış olduqları məktubda deyirlər ki, biz Azərbaycan qoşunları əleyhinə açılacaq müharibədə iştirak etməyəcəyiz.

Bu da məxfi qalmaya ki, muğanlılarla olan danışığın axırında İngiltərə nümayəndəsi mister Tori onlara demişdir ki, Salyan tərəfindən Muğana Azərbaycan qoşunları yürüş edirlər. Hərgah muğanlılar komediyadan əl çəkməsələr, onların yürüşlərinin qarşısını almaq qeyri-mümkün olacaqdır.

Bu xəbər muğanlıları böyük bir əndişəyə [təşvişə] salmışdır. Bu fəqərələrin [hadisələrin] həpsi və Muğan qoşunları arasında olan intizamsızlıq ümid verir ki, tez bir zamanda ağılsız olan Muğan macəraculuğu qurtaracaqdır. (Bu məktub yazılandan sonra, təbiidir ki, şəhər alınmışdır.)

Xüsusi Azərbaycan vəkili dəftərxanasında gördüyüm dəhşətli bir mənzərəni mən heç vaxt unutmam. Qəzanın ən uzaq bir guşəsindən gəlmiş olan kənd nümayəndələrindən bir qoca kişi dəftərxanaya girərək Allaha razi-niyaz etdikdən sonra xüsusi vəkil müavinini qucaqlayıb ağlayaraq: "Allah, sənə çox şükür olsun ki, müsəlman hakimi gördük."

Bu mənzərə hazirunun [orada olanların] həpsini ağlatmışdır. İngilis Komandanlığı nümayəndələri yanmış müsəlman kəndlərinə gəldikdə böylə mənzərələrə təsadüf edilmişdir.

## ARÇIQ – TƏNQİD

### "Ədirnə fəthi"

Üç-dörd gün əvvəl Cəfər Cabbarzadə əfəndinin "Ədirnə fəthi" nam [adlı] əsəri Hökumət Teatrosunda mövqeyi-tamaşaya qoyulmuşdu. Bu əsər hər nə qədər bir-iki kərə Bakı səhnəsində oynanmışsa da, lakin acizlərinin birinci kərə gördüyü idi.

Müəllif əfəndi, şu gənc mühərrir [yazıçı] bizzat [şəxsən] müraciətlə bir qələm təcrübəsi olaraq ilk yazdığı şu əsəri haqqında bir mütaliə, mütalieyi-tənqidiyyə yazmamı arzu etdilər. Məlumdur ki, bizimkilər tənqiddən xoşlanmazlar.

Zatən tənqiddə xoşa (?) gedəcək bir şey yox ki... Tənqidçi bir əsərdə bir şeyi qəbul və iltizam edərsə, əvəzində beş yerə barmağını qoyar. Bəlkə müəllifincə möhkəm, yek-digərindən ayrılmaz və sökülməz bir surətdə tərtib edilmiş zənn edilən bir əsəri təhlil edirəm deyə üzərində əməliyyati-cərrahiyyə yapar, onu parça-parça edər, sonunda da üstündən bir dik qələm çəkər.

Tənqidçilərin zatən təbiətləri böylədir ki, onlar həp mənfi cəhətlərdən çox bəhs edərlər. Hələ bəziləri deyəcəyi sözlərini də mülayimətlə söyləməzlər. Qarşılarındakını şiddət və qətiyyətləri altında əzərlər.

Türk mühərrirlərindən birisi, məəttəəssüf [təəssüf ki] ismini unutmuşam, filosof Ten – o münəqqidi-şəhir [məşhur tənqidçi] haqqında yazdığı bir fəqərəsində [yazı parçasında] tənqiddən bəhs edərkən deyir:

*"...Münəqqid var ki, qarelərinə kəndilərinin düşündükləri şeyləri söyləyəcək, onların dimağında [zehnində] hali-müşəvvəşiyyətdə bulunan əfkarı [qarışıq, anlaşılmaz bir halda olan fikirləri] qətiyyətlə ifadə edəcək vasitəni bular. Bu növ tənqid ərbabı faydabəxş bir müəllimlik və mürəbbilik vəzifəsi ilə qarelərini tıpqı birər şagird kimi əllərindən tutaraq çıxılması mətlub olan [arzu edilən] dərəcəyə birlikdə süud edərlər [yüksələrlər]."*

Deməli, bu bir qisim tənqidçilərdir ki, ikinci dərəcədə qalırlar. Mühərrircə, birinci dərəcə münəqqidlər büsbütün bu sifətlərin ziddində olurlar. Onlar qarelərinin səviyyəsinə, mövqeyinə enmək lüzumunu əsla düşünməzlər. Onların əfkar və amalını rəncidə edəcəyini nəzəri-etibara almayaraq, öz fikirlərini kamali-şiddətlə söylərlər. Tənqid nöqteyi-nəzərincə bu daha ziyadə faydalıdır. Çünki bunda mənaziri təbdil [mənzərələri dəyişdirmək], nöqteyi-nəzərləri təksir [çoxaltmaq], mütaliə və tənqid hissini təşhiz [kəskinləşdirmək] vardır. Məşhur filosof və münəqqid Ten dəxi böylə tənqidçi imiş. Budur ki, kimsə tənqiddən xoşlanmaz.

Fransız romançılarından ən məşhuru, realizm məsləki-ədəbisinin müəssisi [banisi] Qüstav Flober[in] münəqqidi görəcək gözü yox idi. Əgər birisi onun yanında xüsusi surətdə olsa belə, "filan fəqərə şöylə yazılsa idi" deməyə cəsarət etsəydi, ən yaxın dostu və səmimi arxadaşı belə olsa, ondan inciyər, adəta, kəndisi ilə duello edəcək dərəcəyə varardı.

Məmafih [bununla belə], tənqid nə qədər çəkilməz bir şey olsa da, yenə olmalıdır və olacaqdır. Ən çox tənqiddən qorxan, onu görmək istəməyən mühərrirlər belə tənqidçilərin o acı və zəhr-

alud [zəhərli] qələmlərindən yaxalarını qurtarammamışlardır. Bununla bərabər, böyük ədib və şairlərin də iqtidarını, dühasını, qüvvətini, fikrini, fəlsəfəsini bu zəhr-alud qələmlər ortaya çıxarmışdır.

Bu halları nəzərə alaraq insan bəzən yazmaq istəyir, lakin mövqeyini sarsıtmamaq, arxadaşlarını, qələm arxadaşlarını kəndisindən rəncidə etməmək, ülfət və məvəddətini [məhəbbətini] qırmamaq üçün sükutu iltizamla ağrımayan başını ağrıtmaq istəməyir.

Tənqidin ən münasib yolu bu idi ki, münəqqidi kimsə tanımaya idi. Onun kim olduğunu bir kəs bilməyə idi.

Cəfər əfəndinin əsəri haqqında tənqid yazılmasını arzu etdikləri, acizlərinə cəsarət verməklə "Ədirnə fəthi" haqqında bir neçə söz söyləməyə müsaidət verir.

"Ədirnə fəthi"nin təhlil və tənqidinə keçmədən əvvəl, başlanğıc olaraq bir fəqərəyə [məsələyə], həm də ədəbiyyatda əsaslı bir mövqe tutan bir fəqərəyə nəzəri-diqqəti cəlb etmək istəyirəm.

Hər kəs sənət və sənətkarlıqdan bəhs edir, "sənət sənət üçündür" deyir, yaxud "sənət həyat üçündür" deyə bunun əksini iddia edir. Əcəba, bu sənət nədir? Əlbəttə ki, sənət haqqında olan bir çox tərifləri sənətkarlıq marağında bulunanlar bilməmiş deyillər. Lakin sənətin bizə lazım olan bir cəhətini qısaca tərif üçün ismi balada [yuxarıda] zikr olunan filosof Tenin bir tərifini təkrar etmək istəyirəm.

Hippolit Ten deyir:

*"Sənət bir şeyin əsasi sifətlərini meydana çıxarmaqdır."*

Məsələn, bir rəssam bir şir rəsmi yapmaq istərkən ibtida [əvvəla] şirin əsasi sifətlərini nəzərə almalıdır. Şirin əsasi sifətləri onun yırtıcılığı və bədəninin ön hissəsinin qayət qüvvətli olmasıdır. Bunun üçün rəssam çəkəcəyi şir rəsmində bu nöqtələri hər zaman nəzərdə tutmalıdır. İlk əvvəl rəsmində şirin dişlərinə və dırnaqlarına əhəmiyyət verməli, sonra köksünün, qollarının sinirlərinə diqqət etməlidir.

Demək, bir rəssam, sənətkar bir rəssam beş-altı cızqı və xətt ilə sizə bütün heybət və dəhşəti ilə qaba taslaq bir şir rəsmi tərsim edə [çəkə] bilər.

Lakin sənətkar olmayan, sənətin nə olduğunu layiqincə dərk etməyən digər bir rəssam bir çox vaxt sərf edər, bir çox cizgilər, xətlər çəkər, sizə bir şir rəsmi ərz edə bilər ki, əbədən [əsla] onda şirə məxsus heybət və dəhşəti göstərə bilməz. Bu ondan irəli gəlir ki, o rəssam şirin əsas sifətlərini nəzərdə tutammamış, lazım olan cızqı və xətləri nəzəri-diqqəti cəlb edə biləcək bir halda çəkməmiş, bir çox artıq xətlər, lüzumsuz cızqılarla vaxtını sərf etmişdir. Nəticədə heç bir şey qazanammamışdır.

Sizə başqa bir misal gətirəlim.

Bir rəssam bir səfalət mənzərəsi tərsim etmək istəyir. Bunun üçün ibtida bir əsas gətirməlidir. Məsələn, əsasını ixtiyar və yaxud xəstə bir qadın surətində alır. Onu bəstəri-mərəzdə [xəstə yatağında] yatırır. Bu, səfalət mənzərəsinin əsasıdır.

Lakin bununla iş bitməyir. Şu yataqda yatan mərizdən [xəstədən] səfalət mənası anlaşılmaz. Hər kəs ona baxarsa, yataqda yatmış bir qadın zənninə zahib olacaq [zənninə qapılacaq] hissi alar. Demək, rəssam mövzusunu bir taqım cüziyyatla

təqviyələndirməli [gücləndirməli], xəstə ilə əlaqədar, həm də onun səfalətinə işarə ola biləcək şeylər tamaşaçılarına ərz etməlidir.

Bunun üçün rəssam səfilanə bir oda, şu odanın səfilanə olduğunu bildirəcək bir taqım ev şeyləri və sairə oraya toplar. Bunları da bir surətdə şu odaya yerləşdirər ki, həp əsasi olan xəstə qadına nisbətlə ikinci, üçüncü dərəcədə nəzərə çarpar. Bununla rəssam sizə bir səfalət mənzərəsi təqdim edər.

Bu, ədəbiyyatda da böylədir. Hər sənətkaranə yazılmış bir əsər, məsələn, roman və teatro nəzərə alınarsa, onda da bu qanunun nəzəri-diqqətdən dur [uzaq] tutulmadığı görülər. Yəni müəllif ibtida bir əsas gətirmiş, moralist və idealist isə müəyyən bir nəticəni, realist isə bəşəriyyətin səadət və fəlakətini mövcib ola biləcək bir təbiət və xasiyyətini nəzərdə tutmuş, onu qarelərinə ərz etmək, bununla onlarda bir həyəcan, bir intibah oyatmaqla çalışmış, müvəffəq də olmuşdur.

Misal üçün, məşahirin [məşhurların] bir əsərini alalım. Götürəlim Şekspirin "Otello"sunu. Burada əsas Otellonun şəxsiyyətidir. Başqaları həp bu əsasın ətrafında dolaşır. Otellonun mahiyyətini, onun qısqanclığını, bundan hasil ola biləcək qəzəbini zahirə çıxarmaq üçün vasitə olurlar. Ona qüvvət verirlər.

Habelə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq"ını alalım. Bunda da əsas qumarbaz Nəcəf bəydir. Müəllifin məqsədi qumarın nəticəsini bütün açıqlığı ilə, dəhşət və fəlakəti ilə nəzərə ərz etmək, onunla bir əxlaq dərsi verməkdir.

Deməк, müəllif ibtida bir əsas qəbul edər. Sonra bunun ətrafında bir mövzu intixab edər [seçər] və yaxud intixab etdiyi və xoşuna getdiyi bir mövzuda əsas nəyi gətirmək istədiyini bəlləməli, ondan sonra da planını cızıb şəxslərini təyin etməlidir. Bu surətdə müəllif nə yazacağını eyicə bildiyindən, hankı nöqtələrə toxunmaq və oxucularının nəzərinə çırpmaq istədiyini bilərək ancaq onun ətrafında gəzib-dolaşar.

Biz indi buradan "Ədirnə fəthi"nə keçmək istəyir, bu nöqteyi-nəzərdən onu təhlil etmək istəyiriz.

*(bitmədi)*

*Kazımoğlu*

**İDARƏDƏN CAVABLAR**

*İdris Axundzadə əfəndiyə:* Son məqaləniz dərc edilməyəcəkdir.

*Həsən Ziya əfəndiyə:* Əncüməni-Xeyriyyə haqqında yazdığınız məqalə dərc edilməyəcəkdir.

*Ayn. C. əfəndiyə:* "Atalarımıza" sərlövhəli müraciətnamənizə ehtiyac belə yoxdur. Kaş ki, ataların oxutmaq istədikləri vətən övladının həpsini qəbul edə bilmək üçün kafi miqdarda məktəbimiz olaydı.

*İrani Nejad əfəndiyə*: Bütün yazınızdan bircə şey başa düşdük ki, Bakıda "İttifaqi-İraniyan" adı ilə bir cəmiyyət təşəkkül etmişdir. Müvəffəqiyyət diləriz. Fəqət yazınız dərc edilməyəcəkdir. Əgər cəmiyyətin məqsəd və məramlarından, daireyi-fəaliyyət və sairəsindən məlumat versəydiniz, məalməmnuniyyə [məmnuniyyətlə] dərc edərdik.

*Süleyman Abdullayev əfəndiyə*: Məktubunuz dərc edilməyəcəkdir. Çünki qəzetəyə dəxli olan bir şey deyildir.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**İtibdir**

Əhməd Cabbar oğlu Rəcəbovun Zaqafqaziya Ruhani İdarəsi tərəfindən 1917-ci ildə verilmiş 2617 nömrəli metrik şəhadətnaməsi itib. Etibardan saqitdir [etibarsızdır].

*7442*

**Şüşələr (butulkalar)**

Araq, şərab və konyak şüşələri alıram. Vrangelski, nömrə 42, Parapet qarşısında "Drujba" şirkəti mağazası. Telefon 2-34.

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi.

Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri.

Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək.

Qiymətlər münasibdir.

*7413*

**Arvad diş həkimləri**

**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər

üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

**Azərbaycan “Kazyonnı Palatası”**

Bununla elan edir ki, iyun ayının 23-də 1919-cu ildə Azərbaycan Parlamanının təsdiq etdiyi qanununa binaən [əsasən], vergi naloqu (padaxodnı naloq) verənlərin gəliri 1918-ci ildə bir beş min (5000) manatdan yuxarı olmayıbsa, vergi naloqunu verməkdən azad edilirlər.

“Yuridiçeski və fiziçeski” vəsiqələri olanların gəliri 1918-ci ildə beş min (5000) manatdan yuxarı olmuş olubsa, 1919-cu ildə vergi naloqu verməlidirlər.

Bu adamlar uçastkovı komitələrin vergi naloqu şöbəsinə (padatnoy inspektorlar dəftərxanasında) nərədə və nə xidmətdə olduqlarını və 1918-ci ildəki gəlirlərini göstərərək lazım olan qayda üzrə ərzi-hal verməlidirlər.

Ərzi-hal yazmaqdan ötrü lazım olan vərəqələri Kazyonnı Palatada və padatnoy inspektorların dəftərxanasında almaq olar.

Ərzi-hal verməyənlər təqsirkar hesab olunaraq böyük məbləğdə cərimə alı-nacaqdır.

*T-209*

**Elan**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, avqust ayının 16-sında səhər saat 11-də Təsərrüfat Şöbəsi dəftərxanasında Petrovski Naberejni balıq satan cərgələrin qarşısında olan şəhər budkasının icarəyə verilməsi barəsində müzayidə (torq) olacaqdır. Təfsilatı Təsərrüfat Şöbəsi dəftərxanasında oxumaq olar.

*T-214*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Zəhmətkeşlərə xitab**

səh. 263. “Mikoyan, Mirzoyan”: Bakıda fəhlə hərəkatının fəal iştirakçıları olmuşlar.

**Teleqraf xəbərləri**

səh. 265. “Avamlar Kamerası”: ikipalatalı Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

“Samozer[o] gölü”: qəzetdə “gölü” yerinə “köyü” getmişdir.

səh. 266. “Kurlanda” (yaxud Kurlandiya): Latviyanın bir qisminin tarixi adı.

“Liflanda” (yaxud Liflandiya): müasir Latviya və Estoniya ərazilərindən bir qismini əhatə edən tarixi bölgə.

səh. 268. “Xersonun 30 verstliyində vaqe Stanislav”: yer adları çox təhrif edilmişdir.

“Yekaterinoslav”: Ukraynanın Dnepre-petrovsk vilayətində indiki Dnepr şəhəri.

“Buenos-Ayresin cənub tərəfində”: qəzetdə çox təhirf edilmiş, “Bubuyenos dairəsinin cənub tərəfində” kimi getmişdir.

səh. 269. “Kozlov”: Rusiyanın Tambov vilayətində indiki Miçurinsk şəhəri; 1932-ci ilə qədər Kozlov adlanmışdır.

**Türkiyədə**

səh. 269. “Ruhani Müəssisələr naziri”: söhbət Osmanlı vəqflərinin idarə edilməsinə nəzarəti həyata keçirən Övqaf Nazirliyindən gedir.

səh. 270. “[Salih] Münir paşanın”: qəzetdə səhvən “Fərid paşanın” getmişdir.

**Yeni bir macəraculuq**

səh. 273. “axperlər”: “axper” ermənicə “qardaş” deməkdir.

“Mikoyan, Mirzoyan, Qoqoberidzelər”: Bakıda fəhlə hərəkatının fəal iştirakçıları olmuşlar.

**Bakı xəbərləri**

səh. 275. “Sarı adası” (yaxud Sara adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

**Lənkərandan xüsusi məktub**

səh. 276. Qəzetdə imzasız gedən bu məktub “Azərbaycan”ın Lənkərandakı xüsusi müxbiri Salman bəy tərəfindən yazılmışdır.

**Arçıq – tənqid**

səh. 278. “Türk mühərrirlərindən birisi, məəttəəssüf ismini unutmuşam”: burada Hippolit Ten haqqında gətirilən sitatlar türk filosofu və hüquqşünası Əhməd Şuayba məxsusdur.



آذربایجان

اعلان

اعلان

اعلان

*"Azərbaycan" qəzetinin 252-ci nömrəsinin 1-ci səhifəsi*

**Cümə, 15 avqust 1919-cu il, nömrə 252**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 18 zülqədətül-haram sənə 1337. 15 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**HÖKUMƏT TEATROSU**
**AXŞAM TAMAŞASI**
**DRAMA**

Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının Müdiriyyəti
Cümə günü, zilqədə ayının 18-də
(ağustosun 15-də) möhtərəm
camaatın xahişinə görə
ikinci dəfə olaraq mütəntən [təntənəli]
və ən şükuhlu [dəbdəbəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır

**VƏTƏN**
**yaxud**
**OSMANLI-RUS MÜHARİBƏSİ**

Bu faciədə göstəriləcəkdir:
Rus-Osmanlı müharibəsi əsnasında
rus-Romaniya əsgəri ilə türk
əsgərlərinin vuruşması.
Dəhşətli top atəşləri.
Türk şəfqət bacılarının
göstərdikləri məharət.
Keçən dəfə kassa qabağında basabas
olduğundan möhtərəm camaatın çoxu
biletsiz qalıb geri qayıtmaqla
tamaşadan məyus qaldıqlarını nəzərə
alaraq, bu dəfə camaatın rahatı üçün
biletlər pişəzvəqt [qabaqcadan] teatrın
kassasında satılmaqdadır.

**ELAN**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq naziri cənabları tərəfindən 1919 sənədə iyulun 3-ndə "Kaspiyski suxoy dok" namında səhmdaran cəmiyyətinin nizamnaməsi təsdiq edilmişdir.

*İdarə müdiri:*
*[Abbasəli bəy] Makinski*
*Kargüzar (imza)*
*7448*

**ELAN**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, avqust ayının 16-sında səhər saat 11-də Təsərrüfat Şöbəsi dəftərxanasında Petrovski Naberejni balıq satan cərgələrin qarşısında olan şəhər budkasının icarəyə verilməsi barəsində müzayidə (torq) olacaqdır. Təfsilatı Təsərrüfat Şöbəsi dəftərxanasında oxumaq olar.

*T-214*

**ELAN**

Azərbaycan Dəmiryol İdarəsi bununla elan edir ki, həmin sənə iyun ayının 27-sindən Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin binagüzarlığı [sərəncamı]

ilə Ağstafa stasyonunda Azərbaycan Dəmiryol Gömrük Acentəliyi açılmışdır. Acentəlik yükləri və baqajları aparmaq üçün hər tövr gömrük, aksiz və polis işlərini öhdəsinə götürüb həmçinin ekspedisiya əməliyyatını ifa edir:

a) Əcnəbi məmləkətlərdən Azərbaycana gətirilən və geri aparılan yükləri, həmçinin tranzitlə Azərbaycandan keçən yükləri;

b) Ağstafa Gömrük Acentəliyi adına vəsiqələrlə göndərilmiş malları;

c) Xüsusi adamlar adına gömrükxanaya göndərilmiş malların poşlin [və] gömrük işlərini əmələ gətirməkdən ötrü yük sahibi tərəfindən naklndişadnoyda qeyd olunaraq acentəyə veriklləcəkdir və;

d) Sərnişinlər tərəfindən Ağstafa gömrükxanasında qalan yüklər və sərnişin əşyası.

Bütün bu işlərin ifası üçün Dəmiryol Gömrük Acentəliyi zeyldəki [aşağıdakı] komisyon vergisi alır:

Gömrüksüz gətirilən mallara – puda 3 qəpik, gömrüklü gətirilən mallara – puda 2 qəpik, gömrüksüz aparılan mallara – puda 4 qəpik, spirtdən başqa – puda 3/8 qəpik, neftdən başqa – puda 1/8 qəpik. Gömrüklü gətirilən və apa-rılan malların, hansıların ki gömrük xərci 1000 (min) manatdan yuxarı deyil, hər 10 manata 3 qəpik, min (1000) manatdan yuxarı olarsa hər 10 manata 30 qəpik.

Hər göndərilən mallardan yaxud hər vaqondan vergi 15 manatdan az olmamalıdır.

Ağstafa gömrükxanasından keçib Azərbaycanın daxili gömrükxanalarına gedən mallara puda – 1 qəpik, tranzit mallara puda – 5 qəpik, göndərilən mallara hər nakladnoya – 5 manat, baqaj və baqaj yükü aparıldığı zaman bir baqaj qəbzi ilə bir taya – 5 manat və hər aparılan taya – 2 manat.

Dəftərxana, posta və qeyri əlavə vergilərə gəldikdə, acentəlik təyin olunmuş dəmiryol taksasına görə vergi alır.

*Kargüzar əvəzinə (imza)*
*T-211*

## NOVXANI MÜSTƏHLİKLƏR CƏMİYYƏTİ DÜKANINDA

Şamaxı yolunda vaqe
35 nömrəli evdə

Avqustun 16-sından başlayaraq aşağıdakı qiymətlə çörək satılacaqdır: birinci dərəcədə ağ çörək 4 manat; ikinci dərəcədə 3 manat 50 qəpik.

## ŞAH HƏZRƏTLƏRİNİN VÜRUDU MÜNASİBƏTİLƏ

Qonşumuz İranın müməssili-tacdarı [tac sahibi nümayəndəsi, hökmdarı], əlahəzrət Əhməd şah [Qacar] həzrətləri bu günlərdə paytaxtımızı təşrif edib Azərbaycan təriqi [yolu] ilə übur edəcəklərdir [keçəcəkdir]. Şah həzrətləri babalarına təməssül edərək [oxşayaraq, onların adətini davam etdirərək] Avropa səyahətinə gedirlər.

Bakı dəfələrlə şahları ziyarət eyləmiş, İranın tacdar mümessillərinə mizbanlıq [ev sahibliyi] etmişdir. Fəqət heç bir zaman nə şahlar böylə Bakı görmüşlər, nə də bakılılar bu hal ilə şah istiqbal etmişlərdir [qarşılamışlar].

Yadımdadır, Müzəffərəddin şah mərhumun müsafir olaraq oturduğu evin qa-

bağına toplaşan xalq padşahın üzünü görüncə salavat çevirirdi. Bu hal müsəlman hökumətinə çəkilən bir həsrətin təzahüratı idi. Siyasi bir təhti-əsarətdə [siyasi bir əsarət altında] yaşayan millət şahı görməklə şəklən də olsa, daha mənus [isinişdiyi, vərdiş etdiyi] bir hakimiyyəti xatırlayır, salavat çevirirdi.

Fəqət bu gün Azərbaycan əhaliyi-islamiyyəsi din qardaşı İran millətinin hakimiyyəti-siyasiyyəsini təmsil edən şahı bir əsarəti-zəruriyyəsini ifadə edən salavatla deyil, istiqlal və hakimiyyətini elan edən üç boyalı bayrağı və səkkiz guşəli ulduzu ilə istiqbal edir.

Heyəti-vükəla rəisi [Baş nazir] Cümhuriyyətlə idarə olunur Azərbaycan millətinin "xoş gəldin"ini İran millətinin müməssili-tacidarına ərz edərkən duyacağı ehtisas [hisslər] ilə heç şübhəsiz ki, millətin hissiyyatına tərcüman olacaqdır.

Azərbaycanlılar hər zaman iranilərlə dindaşlıqdan əlavə bir çox mədəni və irqi rabitələrlə bağlı olduqlarını duymuşlardır. Bu duyğularını onlar hər münasibətlə ərz etmişlərsə də, böylə müstəsna bir surətdə vaqe olacaq mülaqat [görüş], təbii, heç bir zamanda vaqe olmamış, heç bir məkan böylə bir ziyarəti qeyd etməmişdir.

Eşitdiyimizə görə, şah həzrətləri heç bir mərkəzdə dayanmayıb, əzcümlə [o cümlədən] Bakıda dəxi təvəqqüf buyurmayacaqlardır [dayanmayacaq]. Bütün millət, onunla bərabər hökumət dəxi arzu edərdi ki, şah həzrətlərinə daha ziyadə müsafirpərvərlik göstərmək surəti ilə İrana qarşı pərvərdə eylədiyi [bəslədiyi] hüsn-ehtiram və vədadını [məhəbbətini] göstərsin.

Əlbəttə, vaxtları müqtəzi olarsa [icazə verərsə], dost və dindaş bir millətin müməssili olmaq həsəbi [sifəti] ilə şah həzrətləri də yeni elani-istiqlal etmiş həmcivar [qonşu] bir islam millətinin içində heç olmasa bir-iki gün müsafir qalmaq lütfünü əsirgəməzlər.

Sağlıq olsun.

Rəvayətə görə, şah həzrətləri, işbu səyahətləri ilə Avropanın indiki əhəmiyyəti-siyasiyyəsindən İran mənafeyinə bir istifadə qəsdindədirlər.

Vürudi-hümayunlarını [zatililərin gəlişini] təbrik edərkən kəndilərinə arzu etdiyimiz ən səmimi dilək – İran istiqbalına [gələcəyinə] aid amali-məşruələrinin [qanuni, leqal arzularının] hüsulu və səyahətlərinin səlamət və müvəffəqiyyətlə icra edilməsidir.

Xoş amədi [Xoş gəldin]!

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 7 ağustos iclası

*(mabəd)*

Təbəəlik qanununun müzakirəsi davam edir. Qeyri-müsəlman məbuslar tərəfindən bir təklif varid [daxil] olur: məsələ mühüm olduğundan rusca danışılsın, yaxud türkcə irad olunan [söylənən] nitqlər ruscaya tərcümə edilsinlər.

**Mustafa Vəkilov** - *(yerindən)* Qətiyyən öylə şey olammaz. Məclisi-Məbusanda rusca nitq söyləmək qanunumuzda yoxdur.

**Kravçenko** *(Slav-Rus cəmiyyəti nümayəndəsi, rusca)* - Möhtərəm məbuslar! Siz bilirsiniz ki, təbəəlik qanununun böyük əhəmiyyəti var. Bu məsələ hamını maraqlandırır və hər şəxs bununla əlaqədardır. Binaənileyh [ona görə], məlumunuzdur ki, bu məsələ ətrafında nələr danış[ıl]dığını hamı bilmək istər. Bu gün bizləri buraya göndərən xalq Parlamanda bu xüsusda nələr söyləndiyini diqqətlə təqib edirlər.

Hamının rəyini onlara bildirmək lazımdır. Burada sizin milli hissinizə toxunacaq bir şey də yoxdur. Milli mənafeyinizi pozacaq bir şey görülməyir. Bu mülahizə ilə də xahiş edirik bu məsələ haqqındakı nitqlər rus dilində irad, yaxud türkcə söylənib də ruscaya tərcümə edilsinlər.

**Vəkilov Mustafa** *(Müsavat)* - Mən başa düşmürəm, həddindən ziyadə səbirli olduğumuzdanmı yaxud hər şeyə kəmetinalıq göstərdiyimizdənmidir ki, bu gün bizim Məclisi-Məbusanımızda bizdən əcnəbi dildə danışmağımızı tələb edirlər. Ümum millətlərdə, hər bir dövlətdə qəbul edilmiş və heç vaxt əl vurulmamış olan əsaslardan birisini biz də qəbul etmişik ki, Məclisi-Məbusanda öz dilimizdə danışaq. Bizim dilimiz var. O dildə danışmağa haqqımız var və danışmağa qərar vermişik. Qaldı ki, bizim uca səslə bu kürsüdən verilən dərsə də ehtiyacımız yoxdur. Milli hissiyyatımıza nə toxunar, nə toxunmaz onu özümüz yaxşı biliriz. Uca səslə demək lazım deyildir. Bundan əlavə, bu vaxtadək Məclisi-Məbusanda bundan daha böyük, daha mühüm məsələlər müzakirə və həll edilmişdir ki, onlardan da maraqlanmamaq mümkün deyil. Bilmirəm onda nə üçün rusca danışılmağı tələb etməyir, danışıqları anlamaq istəməyirlərdi. İndi nə olmuşdur ki, böylə tələblər verirlər. Bilmirəm nə cəsarətlə deyirlər ki, öz Parlamanınızda özgə dildə danışınız. Bizi çox səbirlimi, yoxsa o qədər anlamazmı hesab edirlər? Böylə təkliflərə heç vaxt əməl etmək olmaz. Burası Azərbaycan Məclisi-Məbusanıdır. Azərbaycanlıların öz dili var, öz məclisində öz dilini danışmalıdır, bir də böylə təkliflər edilməməlidir. Nitqlərin türkcə irad edilib də ruscaya tərcümə edilməsinə gəlincə, bu vaxtadək Parlamanda heç vaxt böylə şey olmamışdır, bundan böylə də olmamalıdır, ola da bilməz.

Bu məsələ səsə qoyulur, əksəriyyətiara [səs çoxluğu] ilə rusca nitq söyləmək, yaxud tərcümə təklifi rədd edilir. Təbəəlik haqqındakı layiheyi-qanuniyyənin müzakirəsi davam edir.

**Mustafa Vəkilov** - Heç təəccüb etməyək ki, bu gün təbəəlik qanunu müzakirə edildikdə hamıdan qabaq Slav-Rus cəmiyyəti nümayəndəsi çıxır və buradan uca səslə qanunun əleyhinə danışır. Onların böylə uca səslə danışmalarına, səs-küy salmalarına da təəccüb etməyək. Bundan əlavə, Slav-Rus cəmiyyəti nümayəndəsi idxal edilmiş qanunu vaxtsız, münasibətsiz hesab edir. Onların zənnincə, hələ böylə qanunlar vermək vaxtı deyil, tez imiş. Həm də münasibəti yox imiş. Onların böylə rəy vermələri də təəccüb ediləcək şeylərdən deyildir. Təəccüb ediləcək bir şey varsa, o da onların Məclisi-Müəssisan tərəfdarı çıxmalarıdır. Görürsünüz ki, sabiq natiq Məclisi-Müəssisan tərəfdarı oldu. Amma onu

bilməlidirlər ki, burada oturanlar Məclisi-Müəssisanın hüququnu onlardan ziyadə və artıq dərəcə məhəbbətlə müdafiə edirlər. Amma özünüz bilirsiniz və yaxşıca anlayırsınız, onların müdafiə etdikləri Məclisi-Müəssisan hüququ deyildir. Kravçenkolar Məclisi-Müəssisandan ziyadə yabançıları, özgə qüvvələri müdafiə edirlər. Halbuki təbəəlik qanunu qəbul edilmədikcə, heç bir mühüm məsələyə əl vurmaq olmaz, hətta Məclisi-Müəssisan çağırmaq olmaz. Çünki bu gün biz təbəəlik məsələsini həll etmədən Məclisi-Müəssisan çağırsaq, özünü zahirdə Azərbaycan təbəəsi kimi göstərib həqiqəti-halda özgə təbəəsi olanlar dəxi keçərlər. Amma bağışlasınlar. Öylə xətaları bir daha işləməyəcəyiz. Doğrudur, qabaqlarda bu kimi nöqsanlarımız çox olmuşdur. Bu barədə çox səhvlər etmişik. Amma indi artıq qabaqkı səhv və nöqsanları təkrar işləməyəcəyiz. Qaldı ki, qanunun Məclisi-Müəssisan tərəfindən qəbul edilməsi və bunun üçün istiqlalımızın beynəlmiləl etiraf və təsdiqi haqqındakı bəhsləri dəxi həp keçinin su bulandırması kimi bəhanələrdir. Hüquqi-düvəl və beynəlmiləlә [dövlətlər hüququna və beynəlxalq hüquqa] dəxli yoxdur. Əlavə, burada deyirlər ki, böylə qanunu Rusiyadan iznsiz qəbul etmək olmaz. Çünki bu adamlar iləricə həp Rusiya təbəəsi olmuşlardır. Şimdi Azərbaycan təbəəliyi qanunu verməklə haqları təhdid edib [məhdudlaşdırıb] bir dairəyə salmamalıdır. Fəqət bizcə Rusiyanın izni-rizasına burada ehtiyac yoxdur və gözləmək lazım deyildir. Qoy rusiyaçılar əllərindən gələn qədər çalışsınlar, ağızlarına nə gəlsə desinlər və bacardıqlarını etsinlər. Zira əgər Kravçenko həqiqətən qanundan bəhs etsəydi, əlbəttə biz də ona cavab verə bilərdik. Onun məqsədi qanunu müdafiə etmək deyil, başqa bir şeydir. Ona görə də mən inanıram ki, bu gün Məclisi-Məbusanımız bu qanunu müttəhidül-rəy [yekdilliklə] qəbul edər və başqa məqsədlər təqib edənlərin məqsudu hasil olmaz.

Sonra sabiq natiqlərdən Əhməd [Cövdət] bəy deyir ki, Azərbaycan daxilində anadan olanların təbəə sayılması doğru deyil, çünki ancaq burada doğulanlar Azərbaycan vətəndaşı hesab edildikdə, xaricdə təvəllüd edib də burada yaşayanlar üçün böyük müşkülat çıxacaqdır. Natiq əfəndi təklif edir ki, Azərbaycanda anadan olanlar yox, Azərbaycanda yaşayanlar təbəə hesab edilsinlər. Amma məncə böylə denilsə, daha artıq müşkülat çıxa bilər. Zira böylə olan təqdirdə bütün əhali özünün vətəndaşlığı haqqında ərizələr verməli, müraciətlər etməli olar ki, bunun da asan olmadığı məlumdur. Halbuki təvəllüd edənlər təbəə hesab olunaraq, kənarda anadan olub da Azərbaycanda yaşa-yanlara da arzu etdikləri təqdirdə ərizə vermək, müraciətdə bulunmaq imkanı verilməsi ilə iş daha da asanlaşdırılmış olar. Onlara da böylə ixtiyar verilmişdir.

Bir də Vansoviç əsgərlik məsələsindən bəhs etdi. Fəqət bir dəfə onlar nəzərə almalıdırlar ki, Azərbaycanda mükəlləfiyyəti-əsgəriyyə məsələsi yalnız türk-islamlara aiddir və bu barədə hər nə qanun və danışıq olsa müsəlmanlar üçündür. Binaənileyh, onlar qabaqcadan əsgərlikdən azaddırlar və əsgəri məsələlərdə mənfəətdar deyildirlər, maraqlanmamalıdırlar da.

Bundan əlavə, Əhməd bəy 2-ci fəsil 5-ci maddəyə etirazla deyir ki, müərriflik [tövsiyə; zaminlik] və qəbul məsələsi tamamilə Daxiliyyə Nəzarəti və polis idarəsi əlində olub xoşlanmadıqlarını qəbul etməyəcəklərdir. Bundan da ən ziyadə fəhlə sinfi mütəzərrir olacaqdır [ziyan çəkəcəkdir]. Buna cavabən bildirmək istəyiriz ki, o məsələ yalnız Daxiliyyə Nəzarəti ixtiyarında olmayıb, Ədliyyə və Xariciyyə nəzarətlərinin iştirakı ilə həll ediləcəkdir. Nəhayət, Əhməd bəy and məsələsi haqqındakı maddənin dəyişməsini tələb edir. Əlbəttə bir sosialist and məsələsinə ancaq böylə baxar və böylə də deməlidir. Fəqət biz isə böylə baxmayırız. Biz and məsələsini əsaslı bir şey bilib, öylə də qəbul ediriz.

Sırada daha natiq yoxdur. Binaənileyh son söz məruzəçi Hacınski Mehdi bəyə verilir.

**Mehdi bəy Hacınski** - Kravçenkonun fikri aşkardır. O təzədən yenə qəyyumluq məsələsi qoyur. Rusiyanı yenidən bizə qəyyum tikir. Şübhəsizdir ki, heç vaxt böylə sözlər ola bilməz və onun təklifi qəbul ediləmməz. Biz qanunumuzu qəbul edəcəyiz. Burada heç bir təhdid ya dairə [məhdudlaşdırma və ya çərçivəyə salma] yoxdur. Hər kəs Azərbaycan təbəəsi olmaq istəsə, bismillah, buyursun, qapı açıqdır. Vansoviçin təklifi üzərinə maddəyə "Hal-hazırda burada yaşayanlar..." əlavə edilməsinə zidd deyiliz. Fəqət mükəlləfiyyəti-əsgəriyyə haqqındakı təklifə əsla razı ola bilməriz. Bilxassə bu qanuna görə xaricilər əsgərlikdən azaddırlar. Mükəlləfiyyəti-əsgəriyyə məsələsinin onlara dəxli yoxdur. O bizim öz işimizdir.

Qanunun 2-ci (maddə-maddə) qiraətinə keçilməsi səsə qoyulur və əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilir.

Birinci maddə Vansoviçin "Hal-hazırda burada yaşayanlar..." məzmunlu təshihi [düzəlişi] ilə oxunur, rəyə vəz edilir [səsə qoyulur]. Ədliyyə və Məsai [Əmək] naziri Səfikürdlü Aslan bəy həzrətləri söz alır.

**Səfikürdlü** - (Sosialist) Burada təbəəlik qanununun müzakirəsinə şüru edildikdə [başladıqda] dedilər ki, bu qanunu ancaq Məclisi-Müəssisən qəbul etməlidir və bu xüsusda özgə dövlətlər və hökumətlərlə müzakirata girişmək, rəylərini sormaq lazımdır; Azərbaycan Hökuməti və Məclisi-Məbusanı böylə qanunları qəbul edə bilməzlər. Bundan əlavə, bizə təklif etdilər ki, burada bu məsələ haqqında rusca danışaq, çünki onlar da anlamaq, rəylərimizi bilmək istəyirmişlər. Fəqət bu sözlərin bir qəpik qiyməti yoxdur. Nə üçün bu qanunu ancaq Məclisi-Müəssisan qəbul edə bilərmiş və nə üçün hökumət və Məclisi-Məbusan qəbul edə bilməzmiş? Bunu tələb edənlərin fikri qanunu, ya Məclisi-Müəssisan hüququnu müdafiə etmək deyil, fikri budur ki, hökumət bu qanunu qəbul etməsin və bu surətlə təbəəlik məsələsi açıq qalsın. Rusca danışmaq haqqındakı tələb dəxi ancaq bu məqsədə xidmət edir.

Qaldı təbəəlikdə təvəllüd məsələsi, bizcə, məhəlli-təvəllüdün [doğum yerinin] böyük əhəmiyyəti var. Ona görə də Ədliyyə Nəzarəti qanunun binasını həman buradan götürmüşdür. Çünki bir adam harada anadan olmuşsa orası həmişə sənədlərdə, vəsiqələrdə də qeyd

olunur. Onun üçün böyük bir məkan olur. Doğma yurd o yer hesab olunur. Digər tərəfdən Azərbaycan daxilində təvəllüd etməyənlərə də ixtiyar verilir, əgər istəsə iki il burada olmuşdursa, Azərbaycan təbəəliyini qəbul edə bilər. Elani-istiqlaldan sonra burada olanların da həpsi – hər kəs təbəə olmaq istəsə, ərizə verib Azərbaycan təbəəliyinə keçə bilər. Bu surətlə, heç kəsin hüququ təhdid edilməyib hamıya geniş ixtiyar verilmişdir. Hələ hökumət Gəncədə bulunan zaman təbəəlik haqqında bir qanun verilmişdi. İndi bu qanun yalnız əvvəlkini islah və təkmil edir. Məlumunuzdur ki, Gürcüstan, Ukrayna, Krım və sair yeni təşkil olunmuş hökumətlər dəxi təbəəlik qanunu vermişlərdir. Onsuz ola da bilməz. Necə ola bilər ki, bir məmləkət təbəəlik qanunu verməmiş qalsın. Həm bu qanun təcilidir də, o qədər təcili ki, hökumət qanun layihəsinin tərtibini Nəzarətə [Nazirliyə] tapşırdıqda ancaq 10 gün möhlət vermişdi. Rica edirəm, siz dəxi bu qanunu təcili surətdə qəbul edəsiniz.

Bir də Əhməd [Cövdət] bəy qanunu tənqid edərkən bir məsələyə diqqət verdi ki, orada deyilir: "Ancaq öz məsaisi [zəhməti] ilə yaşayıb özünü saxlaya bilənlər təbəəliyə qəbul edilirlər." Əhməd bəy burasını qeyd və tənbeh etdi. Ona cavabən mən deyirəm ki, mütləqa böylə də olmalıdır. Çünki özünü saxlamağa qeyrəti, bacarığı olmayan bir adamdan nə vətəndaşlıq gözləmək olar.

And məsələsinə gəlincə, bu da vicdan və məslək məsələsidir. Hər bir məslək sahibi vətənə sədaqətlə xidmət və mənafeyini müdafiə edib, onun uğrunda düşmən müqabilinə getməyə söz verməlidir.

Sosialistlər təklif edirlər ki, elani-istiqlaldan bəri Azərbaycan daxilində yaşayanların həpsi Azərbaycan təbəəsi hesab edilsin.

Məruzəçi bu təklifi qəbul etməyir.

Səsə qoyulduqda birinci maddə təshihlə qəbul edilir.

*(bitmədi)*

## TELEQRAF XƏBƏRLƏRİ

Paris - 1839-cu il müahidənaməsinin [sazişinin] yenidən baxılması xüsusunda Ali Şura Belçika və Hollanda nümayəndələrinin rəyini dinləyir.

- Lordlar Palatasında bu iş ümumun diqqətini buna cəlb eyləmişdir ki, Avstriya müahidənaməsinə müvafiq 200 min almanlarla məskun olan yerlər İtaliyaya verilir.

Roma - Rəisi-Vükəla Heyəti demişdir ki, biz gərək Müttəfiqlərlə bərabər işləyək. Palata 257 səs 111 səsə qarşı olaraq hökumətə öz etimadını bəyan eylədi. İtaliya Rusiya və Macarıstan işlərinə müdaxilə etməməlidir.

- Yeni Çex-Slovak Kabinəsi təşkil edilmişdir. Kabinənin rəisi sosial-demokratdır.

- Estonluların verdiyi məlumata görə, bolşeviklər həmləni dayandırıb Qırmızı qoşunlar isə Pskovu işğal etmək istəyirlər. Qanlı müharibələr davam edir.

- Londondakı bank qulluqçularının milli konferensiyası qət eyləmişdir ki,

əgər onların tələbatı qəbul edilməzsə, avqust ayının 2-dən etibarən tətil elan edəcəklərdir. Tələbatda gecə işlərinin tərki və həftədə ancaq 44 saat işləmək maddəsi də vardır.

Paris - Sülh işlərinə baxan komisyonda Pişon demişdir ki, nə qədər ki, Almaniyaya etibarımız yoxdur, Almaniya Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] buraxılmayacaqdır.

- Koblensdən xəbər verilir ki, Birkenfelddə yeni hökumət təşkil[i], Hersoginya Oldenburqskaya [ilə] əlaqə kəsildiyi və cümhuriyyət təşkil edildiyi barəsində dekret sadir edilmişdir [verilmişdir].

Buenos-Ayres - Argentina Cəmiyyəti-Əqvama daxil olmuşdur.

Madrid - İspaniya Kabinəsi istefa verdi.

Berlin - Kəndçilər arasında həyəcan başlamışdır. Şlezviq, Holşteyn, Pomeraniya, Vestfaliyada taxıl cəm edilmədən qabaq tətillər başlanacağı gözlənilir. Pomeraniyada idareyi-əsgəriyyə [hərbi rejim] elan edilmişdir.

Moskva - Kovel qəzetəsi yazır ki, hal-hazırda Vilna şəhərində dəhşətli aclıq və tif xəstəliyi vardır. Şəhər əhalisinin 4-dən 3 hissəsi işsizdir. Ehtikar və qarət getdikcə artır.

**7 milyon qoyun qərq olmuş**

Moskva - "Tayms" qəzetəsinin məlumatına görə, Argentinada bu günlərdə dəhşətli seylab [sel] əmələ gəlmişdir. Bir çox yerlər su altında qalmış, o cümlədən 7 milyon qoyun qərq olaraq həlak olmuşlardır.

**Hacı-Tərxanda**

Samara - Hacı-Tərxan dairəsində olan son müharibədə dabravolların bir dəstəsi bütün top və pulemyotuyla bizim tərəfimizə keçmişlərdir.

**İngiltərədə tətil artır**

Moskva - İngiltərədə gündən-günə tətil artmaqdadır. Təbii, tətil siyasət rəngindən ari [uzaq] deyildir. Tətilçilər iqtisadi tələblərinə hədd qoymayırlar. Bunlar bəzi siyasi tələbatda da bulunurlar. Bunların əsas tələbləri böylədir: Macarıstan və Rusiya işlərinə müdaxilə etməməli; ümumi tərxis elan edilsin və əmələ nümayəndələri hökumətdə iştirak etsinlər. Əmələlər qayət kəskindir.

**Lenin əhvali-hazirə barəsində**

Moskvada İcra Komitəsində Lenin demişdir ki, Şura Rusiya qayət dəhşətli və qorxulu zamanlar və ən ağır təcrübələr keçirir. Xüsusən iki əhval çox kəskindir. Əvvəla, Denikin Kiyev ilə Moskvaya yaxınlaşır. Saniyən [ikincisi], taxılı çöldən yığmağa fəhlələri yoxdur. Çünki fəhlələr cəbhədədirlər. Hərgah əmələ və kəndçilər son güclərini yığıb da Denikini rədd etməsələr, Şura Rusiyanın halı böhranlı olacaqdır.

**Ukraynanın halı**

Ukrayna Şura rəisi Rakovski Leninə çəkmiş olduğu teleqramında deyir ki, Ukraynanın halı onu böyük əndişələrə salır. [Ataman] Qriqoryev və Petlyura tərəfindən Ukraynada hazırlanmış olan hərc-mərclik və Polşa cəbhəsi bütün qüvvəni kəndisinə cəlb edir. Ukraynanı mühafizət etmək məsələsi müşkülləşir. Rakovski Lenin tərəfindən Moskvaya fövqəladə iclasa dəvət edilmişdir.

## QƏZETƏLƏRDƏN

### Kerenski Denikin və Kolçak barəsində

"Mançester qardian" qəzetəsində Kerenski ilə qəzetə müxbiri tərəfindən edilən müsahibə dərc edilmişdir. Müsahibənin ibtidasında [əvvəlində] Kerenski demişdir ki, Parisdə təbiddə [sürgündə] bulunan sosial-demokratların arzusunu bəyan edir.

Kerenski demiş:

*"Biz diktaturanın əleyhindəyiz, istər Lenin, Trotski olsun, istər Kolçak və Denikin olsun Rusiyanın yenidən təşkil edilməsi vüsətli demokratik üsulu üzərinə olmalıdır. Rusiya Məclisi-Müəssisanı dəvət edilməlidir. Məhəlli [regional] muxtariyyət xüsusunda qanunlar tərtib və camaata həqiqi azadiyyət verilməlidir.*

*Mən düşünməyirəm ki, Qərbi Avropa demokratiyası Kolçakdan necə yaxşılıq gözləyə bilərlər. Qərbi Avropa əfkari-ümumiyyəsinin [ictimai fikrinin] qismi-küllisi böylədir ki, Kolçak Rusiyada demokratik üsulu qoyacaqdır və Rusiyadan hərc-mərcliyi qaldıracaqdır. Mən Kolçakı tanıyıram. O, mənim admirallarımdan birisi idi. Admiral haqqında mən ona qiymət qoyuram. Fəqət siyasətcə o, heç bir şey düşünməyir. Yalnız irticapərəstlərin əlində bir alətdir.*

*Kolçak tək deyil, general Denikin onun eynidir. Denikin Rusiya irticapərəstləri üçün belə qayət müstəbid hesab edilirdi. Kolçakı təsdiq etmək Rusiyada irticaiyyəti möhkəmləşdirmək deməkdir.*

*Biz Kolçakın şəxsən əleyhindəyiz. Eyni zamanda diktaturanın da əleyhindəyiz. Sibiryadan çox uzaq olan fransız və ingilisləri Kolçakın hürriyyət tərəfdarı olması ilə inandırmaq asan bir işdir."*

Kerenski sözünə əlavə olaraq deyir:

*"Kolçak tərəfindən Rusiyanın demokratik bir hala salınmasına heç bir ümid bəsləmək olmaz. Kolçak bir dəstə adamların əlində alətdir ki, o adamlar hər zaman öz məqsədlərini yürütmək üçün Kolçakdan istifadə edirlər. O adamlar öz siyasətlərini dəyişdirmək istədiyi zaman Kolçakı da kənar edə bilərlər. Kolçakın irticapərəst olduğuna bu kifayət edir ki, demokratik Gürcüstan Kolçak əleyhinə mübarizə edir. Şəhər və zemstvo idarələri təsis edilə bilərdi. Fəqət Kolçak hərbi diktatorluq və talandan başqa heç bir şey vəd etməyir. Rusiya irticaiyyəti burada özünə yuva qayırmışdır. Axirüləmr [nəhayət] burada başa düşməlidir ki, Müttəfiqlər admiral Kolçak ilə nəyə nail oldular. Hər halda, Avropa demokratiyası Kolçakın təsdiq edilməsinə mane olmalıdır."*

### Odessa sahilinin ablukası

Sevastopoldan xəbər verilir: Ali İngilis Komandanlığı dabravolların Bəhri [Donanma] Komandanlığına təklif eyləmişdir ki, Şura qoşunları əleyhinə ciddi fəaliyyətdə bulunsunlar və o yerlərin kiçik dairə nüfuzunda olmasına baxılmasın. Bu münasibətlə Qara dənizin şimal-qərb tərəfi abluka [blokada] edilmişdir. Xersondan Nikolayev arasında olan dəniz yolu kəsilmişdir. Hakəza [həmçinin], ümum paroxodların Odessa sahilinə getmələri tərk edilmişdir. Abluka edilən yerlərdən fransız paroxodları çıxmışlardır.

**Dabravolların vəhşəti**

Samara - Denikin əsarətində olan Qırmızı qoşun nəfəratından [əsgərlərindən] birisi nəql edir ki, dabravollar Qırmızı qoşunlardan tutduqları əsirlərə əbədən [əsla] rəhm etməyirlər. Dabravollar əsir almayıb, əllərinə keçənləri atmaqla edam edirlər. Tsaritsın və Hacı-Tərxan cəbhələrində əsir düşən Qırmızı qoşunları soyundurub Kuban oblastına göndərmək bəhanəsi ilə yolda 30-40 nəfəri birdən qətl etmişlərdir.

**Batumda səfərbərlik**

Bu günlərdə Batumdan gələnlər rəvayət edirlər ki, şəhərdə Dabravol Komandanlığı tərəfindən nəşr edilən əmrnaməyə görə dabravollar həkim, afiser və hərbi məmurları səfərbərliyə dəvət eyləmişdir. Ştab ofiserləri 50 yaşınadək, kiçik zabitlər isə 40 yaşınadək dəvət edilirlər. Son səfərbərlik günü avqustun 20-nə təyin edilmişdir. Bu müddətdən sonra gələnlər və yaxud gəlməyənlər divani-hərbə [hərbi məhkəməyə] veriləcəkdirlər. Sabiq Rusiya ordusu afiserləri, həkimləri və məmurları, həpsi səfərbərliyə çağırılırlar.

**General Baratov və Gürcüstan**

General Baratova yaxın olan şəxslərin rəvayətinə görə, Baratov demişdir:

*"Mənim Gürcüstana gəlməkdən məqsədim bəllidir. Dabravol ordusu Gürcüstan ilə dava deyil, sülh ilə yaşamaq istəyir. Dabravol ordusu artıq Gürcüstan Cümhuriyyəti ilə düşmənçilik etmək istəməyir. Ümumun mənafeyinə görə, Gürcüstan ilə gözəl əlaqədə bulunmaq fərzdir. Biz indi Gürcüstan istiqlalı məsələsinə məşğul olmaq istəməyiriz. Bu məsələni Rusiyanın sahibi olan Məclisi-Müəssisan həll edəcəkdir. Şimdi isə biz müvazinəni gözləyib də hər növ güzəştdə bulunmaq istəriz. Hərgah Gürcüstan bizimlə rəftarda bulunarsa, biz Gürcüstan ilə mal mübadilə edəriz. Birinci növbədə taxıl verəriz."*

## MAVƏRAYİ-BƏHRİ-XƏZƏRDƏ

Zakaspidən aldığımız məlumata görə, işbu ağustosun 5-də Tazəşəhərdə Zakaspi Hökuməti kəndisini ləğv edərək miri [mülki] və hərbi idarəni Denikin tərəfindən oraya təyin olunmuş general Borovskinin vürudunadək [gəlişinədək] general Lazarevə təslim etmişdir.

Sabiq baş komandan general Savitski Denikin tərəfindən geri çağırılmışdır. Ehtimal üzrə son müharibəni və Qəhqəhə mövqifi [stansiyası] çarpışmasını itirdiyindən naşi [uduzduğuna görə] hərbi məhkəməyə cəlb ediləcəkdir.

Hal-hazırda ərzaq, ticarət və sənaye və maliyyə işləri Lazarevin idarəsi cənbində [nəzdində] təsis edilmiş bir idarəyə verilib, başına da sabiq Ticarət və Sənaye naziri Pankratov təyin edilmişdir. Xariciyyə Nəzarəti əvəzində yenə həman idarə cənbində [nəzdində] bir diplomasi məmuriyyət təşəkkül etmişdir ki, oraya da sabiq Xariciyyə naziri Makarovun vürudunadək general Lazarevin şəxsi yavəri Kurnakov təyin edilmişdir.

Azərbaycan konsulgərisinin fəaliyyəti son vaxtlar fəqət [sadəcə] qaçqınlar məsələsinin təsviyəsinə [aradan qaldırıl-

masına] münhəsir [həsr] edilmişdir. Konsulumuz Ə[kbər ağa] Sadıqov cənablarının ciddi tədabiri və şəxsi fəaliyyəti sayəsində bütün Azərbaycan qaçqınları[nın] kəndi ölkələrinə qayıtmaları haqqında iqdamatlar [təşəbbüslər] olunmuşdur. Qaçqınlarımız ərzaq, su və başqa cəhətlərdən konsulumuz sayəsində heç bir üsrət [çətinlik] çəkməmişlərdir. Əlavə, konsulgərimizin təşəbbüsatı sayəsində Ermənistan təbəələrinə yemək, pul və su verilməklə Azərbaycan torpağından Ermənistana getmək üçün ciddi tədabir ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

---

Bolşeviklərin təzyiqi sayəsində Tazəşəhərin məcburi təxliyəsi davam etməkdədir. Hər vaporla Petrovsk şəhərinə külliyyətli surətdə qaçqınlar axın-axın axmaqdadır. Şəhərdə böyük həyəcan davam edir. Cəbhə Qızıl-Arvadda olduğu halda, mövqif [stansiya] tamam təxliyə edilmişdir.

Bolşeviklərin 1500 nəfərdən ziyadə gözəl surətdə müsəlləh və fəal süvari dəstələri şərq cəhətindən Qara-Qala tərəfindən ehtimal üzrə çevirmə yapmağa səy edir.

Dəmiryolların dabravollar tərəfindən əsasınadək təxrib edilməsinə baxmayaraq, bolşeviklərin sənaye və fəaliyyəti sayəsində təcili bir surətdə təmir edilərək dar yollu dəmir yolu çəkilir.

Denikin tərəfindən təqviyə [əlavə kömək] dəstəsinin gəlməsi bərbad olduğu kimi, gələcəyi ehtimalı belə yoxdur. Dabravollar arasında dəhşətli surətdə fərar etmək vardır. Bir nəfər də olsun Tazəşəhərdə ingilis qalmamışdır. Tazəşəhərin bu vaxtadək süqut etməməsi fəqət hava şəraitindən asılı olmuşdur. Hər halda, Tazəşəhərin süqut edəcəyi mühəqqəqdir [qətidir].

Tazəşəhərin iqtisadi və maliyyə cəhəti demək olar ki, bərbad bir haldadır. Para yoxdur, bütün işlər qapanmışdır. Bolşeviklərin ordusu haqqında bir çox şayiat davam edir. Hər halda müntəzəm və külliyyətli bir ordu təərrüzü [hücumu] hiss edilməkdədir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə naziri müavininin polis ehtiyacı məsarifindən ötrü para təxsis[i] haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Qradonaçalnikə buraxılmış polis ehtiyatı üçün mabaqisini [qalanını] xüsusi smeta üzrə sərf olunmağa icazə verilsin.

- Ədliyyə nazirinin Xüsusi İstintaq Komisyonu üzvü Sultanovun əzli [azad edilməsi] və onun yerinə Tiflis Nahiyə Məhkəməsi müddəiyi-ümumi [prokuror] müavini [Yevgeni] Draqneviçin təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Birincisi əzl ilə, ikincisi təyin edilsin.

- Rəisi-Vükəlanın [Baş nazirin] Dövləti İşlər müdiri ilə nazir müavinləri maaşlarının müsaviləşdirilməsi [bərabərləşdirilməsi] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], Maliyyə Nəzarətindən xüsusi qanun layihəsi

tərtiblə Məclisi-Məbusana idxalı tapşırılsın.

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin leh [polyak] qaçqınlarının aparılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] ümumi qaçqınlar əsası üzrə 224 nəfər leh qaçqınlarının yol xərcini vermək tapşırılsın;

2) Türüq və Məabir nazirinə lazımi qədər vaqon verilməsi tapşırılsın.

- Türüq və Məabir nazirinin Gədəbəy zavodu haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Türüq və Məabir nazirinin Culfa-Bakı yolu üçün 1 milyon manatlıq Gədəbəy zavoduna mis ismarlanılması haqqındakı məruzəsini işbu əsaslar üzrə təsvib etməli:

1) Misin pudunu min manatdan təyin etməli;

2) Pullar müqavilənamə əqdindən sonra verilməlidir;

3) Zavod üç ayın müddətinədək 1000 pud mis verməlidir;

4) Zavod əməl etməzsə, yarım milyon manat verməlidir;

5) İsmarlamanın təmini üçün zavodun ikinci zaqladkası olmalıdır;

6) Məxaricat Culfa-Bakı yolu istiqrazına hesab olunmalıdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Qaçqınlar şöbəsi sədri Petrov ictimai işlər təşkilatı xüsusi müşavirəsinə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən nümayəndəliyə təyin edilmişdir.

- Bakı Modelçilər İttifaqı kəndi nizamnamələrini tərtib verərək təsdiqdən ötrü Məsai Nəzarətinə [Əmək Nazirliyinə] təqdim etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Gəncə nahiyə müfəttişinə müraciətən rica etmişdir ki, təcili surətdə dağılmış Şadılı kəndinin əhvalını təhqiqlə, lazım olarsa müavinətdə də bulunulsun.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən xüsusi bir layihə tərtib verilərək təsvib üçün Rəisi-Vükəlaya [Baş nazirə] təqdim edilmişdir. Layihədə bütün Azərbaycan torpağındakı korlar üçün darüləcəzə [əlillər evi] və emalatxanalar güşadı [açılması] üçün smetadan xaric olaraq 390 min 716 manat pul istənilmişdir.

- Qazaxda darüleytam güşadına [yetimxana açılmasına] lüzum görüldüyü üçün Ümuri-Xeyriyyə və Nafiə naziri Nahiyə müfəttişliyinə müraciətən rica etmişdir ki, tezliklə təşkilinə şüru edilsin [başlansın].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Beynəlidarə Komisyon [İdarələrarası Komissiya] tərəfindən Şamaxı şəhərinə göndərilmiş Maslov nam memar tərəfindən yeni şəhərin projesi hazırlanmışdır. Nəzarət projeni Daxiliyyə Nəzarətinə göndərmişdir.

- Qaçqınlar şöbəsi Rus Milli Komitəsinə müraciətən məlum etmişdir ki, Samurda toplanmış qaçqınlara Azərbaycan torpağından keçməyə icazə verilmişdir. Fəqət Vladiqafqaz yolu onlara vaqon verməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, təmir edilmiş Şamaxı həbsxanası Nəzarətin ixtiyarına verilsin. Zira həbsxanada emalatxana açılacaqdır.

- Cənub-Qərb Müsəlman Cümhuriyyətinin Hökuməti əzası [üzvləri] Qarsda ingilislər tərəfindən həbs edilərək Batuma göndərilmişdilər. Onların haqqında bir çox zaman məlumat alınmamışdı. Məhbusların ailələri Azərbaycan Hökumətinə müraciətən kəndi sahibləri barəsində məlumat istəmişdilər. İngilislər xəbər vermişdilər ki, onlara heç bir qorxu-filan yoxdur. Fəqət Türkiyə tərəfdarı olduqları üçün həbs edilmişlərdir. Axırıncı ingilis məlumatına görə, məhbuslar Malta adasına göndərilmişlərdir.

## BAKI XƏBƏRLƏRİ

**Parlaman komisyonlarında**

- Parlamanın Maliyyə-Büdcə komisyonunda üç günlük müzakirədən sonra Maliyyə Nəzarətinin Hökumət Bankı təşkili haqqında təqdim etdiyi layihə bəzi təbəddülat və təğriyat [dəyişiklik və düzəliş] ilə qəbul edilmişdir.

- Əlan [hal-hazırda] Maliyyə-Büdcə komisyonunda darülfünun [universitet] haqqındakı qanun layihəsi müzakirə olunur. Birinci iclas bu barədə ağustosun 12-də vaqe olmuşdur.

**Cəmiyyəti-Xeyriyyədə**

Bakı Cəmiyyəti-Xeyriyyəsi qərar qoymuşdur ki, Təzəpirin Mart hadisəsi zamanı zərədidə olmuş hissələrini təmir etsin və şimal və cənub tərəfində dükanlar bina etsin. Buna görə smeta düzəltməkdən ötrü Cəmiyyəti-Xeyriyyə xüsusi komisyon intixab etmişdir [seçmişdir].

**Tətil gedişi**

Özlərini fəhlə xadimləri adlandıran təşkilatın 14 ağustosda elan etmək istədikləri tətil müvəffəqiyyətsiz olmuşdur. Səhər heç yerdən tətil boruları eşidilmədi. Mədən dairələrindən aldığımız məlumata görə, fəhlələr adi qayda üzrə evlərindən çıxıb işlərinə gedirlərdi.

**Tağıyev fabrikasında yanğın**

Ağustosun 13-də gecə Tağıyevin fabrikasında böyük yanğın vücuda gəlmişdir. Yanğın tez söndürülmüşsə də, yenə 11 ədəd pambıq maşını yanmışdır. Fabrika işləməkdə davam edir.

**İran şahının gəlməsi münasibətilə**

Dünən Bakıda İran şahının vürudu [gəlişi] gözlənildiyindən, şəhərdə bir şadlıq və hazırlıq müşahidə olunurdu. Bazar-dükan Azərbaycan milli bayraqları ilə bəzənmişdi.

**Tətilmi, bayrammı?**

Bəzi mədən dairələrində İran təbəələri əksəriyyət təşkil edən məhəllərdə [yerlərdə] bolşevik mübəlliğləri [təbliğatçıları] elan edəcəkləri siyasi tətilə Əhməd şahın istiqbalı [qarşılanması] üçün bayram rəngi dəxi verirmişlər. Fəqət macəraçıların [avantüristlərin] bu hiyləsi də baş tutmamışdır.

**Azərbaycan Ordusu**

Dünən Azərbaycan Ordusunun Zaqatala alayı Bakıya varid [daxil] olmuşdur.

**Kabinə böhranı haqqında**

Nəsib bəyin Kabinə təşkil etdiyi haqqında qəzetələrdə görülən xəbərlərin əsli olmadığı elan edilir.

**Müəllimlər iclası**

Bu gün (cümə) avqustun 15-i səhər saat 10-da Bakı Türk Müəllim və Müəllimələrinin ümumi iclası Birinci Realnı məktəbi binasında vaqe olacaqdır. Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər] cümləsində dəvəti müqərrər olan [qərarlaşdırılan] Müəllimlər Qurultayına nümayəndələr seçmək məsələsi dəxi vardır. Məsələlər mühüm olduğundan ümum arxadaşların təşrif gətirmələri tövsiyə olunur.

**Yeni vis-qubernator**

Daxiliyyə Nəzarətinin binagüzarlığına [sərəncamına] görə, Quba uyezd naçalniki Əmir xan Xoyski istefaya getmiş Bakı vis-qubernatoru yerinə təyin edilir.

**Balaxanı bazarı**

Bahalıqla mübarizə üçün Balaxanı-Sabunçu polismeysteri [Əliisgəndərzadə] Səməd bəyin binagüzarlığı ilə Sabunçuda ayın 15-dən həftə bazarı açılır. Bazar cümə günləri köhnə yerdə vaqe olacaqdır. Ətraf kəndlərdən meyvə-məhsulat gətirmək tövsiyə olunur.

**Daxil olmuş mallar**

Ticarət, Sənaət və Ərzaq Nəzarətinin Statistika şöbəsinin məlumatına görə, ağustosun 12-də Bakıya bu qədər mal gəlmişdir: taxıl 1991 pud; furaj [yem] 421 pud; kartofel 52 pud; odun 750 pud.

**Port İdarəsi**

Eşitdiyimizə görə, ingilislər gedəndən sonra Port Dəniz idarəsini Azərbaycan Hökumətinə təslim edəcəklərdir.

**Fəhlə həyatı**

“Eyzenşmidt” zavodunda vaqe olan tətil hənuz davam edir. Ayın 12-də iclas vaqe olub, qərar qoymuşlar ki, tətili davam etdirsinlər.

**Lənkəran bolşevikləri**

Bakıda alınmış xəbərlərə görə, Lənkərandan qaçmış Lənkəran bolşeviklərindən Suxoruqov ilə Kropotov Bəndər Gəzdə həbs edilib Lənkərana gətirilmişlər. Bu günlərdə Petrovska aparılacaqlardır.

**Birjada**

Kerenski minliklər - 1250 rublə, beş yüzlüklər - 1450 rublə, yüzlük - 270 rublə, Zaqafqaziya bonları 5%.

**Valyuta**

İngilis funt – banknot 405 manata, çek 365 manat; Osmanlı lirəsi – qızıl 420 rublə, kağız lirə 95 rublə; frank – 21 rublə.

**İranda**

İranda rus pulu getdikcə düşür. Azərbaycan pulunun min manatı 78 qrana, Kerenski minlik 78 qrana.

**AZƏRBAYCANDA**

**Salyandan**

Neçə sənələrdir ki, Salyanda həvəs-

karlar dram cəmiyyəti davam edirdi. Bu cəmiyyətdə olan cavan həvəskarlar bütün həvəs və şövqlə vətən və millətə qulluq etmək niyyəti ilə teatro tamaşaları göstərirdi. Hasil olan paralar dəxi xeyriyyə işlərinə sərf olunurdu.

Salyanda teatro binası olmadığından, cavan həvəskarlar teatro oynayan zaman min əziyyət, məşəqqətlə səhnə tərtib edib, hətta stulları özləri yığırdılar. Türklər zamanında bir neçə teatro tamaşası tərtib verib 40 minədək onların mərizxanasına [xəstəxanasına] verdiyi məbləğlər məlumdur.

Bu cəmiyyət bu haladək nizami olmayıb pərakəndə idi. Səbəb isə həvəskarlar təzə olub və cəmiyyət dəxi təsdiq olunmamışdı. Lakin axır zamanda qaimməqamımız [qəza rəisimiz] tərəfindən cəmiyyətimiz təsdiq olunub, bundan sonra Cavad uyezdinin hər bir tərəfində tamaşa verəcəkdir.

"Salyan Müsəlman Aktyorlar Cəmiyyəti" namında olaraq hər həftə, yaxud hər 15 gündə Salyanda tamaşa verəcəkdir. Ümdə məqsədi bütün xeyriyyə işlərinə kömək etmək, biçiz [yoxsul] şagirdlərin, miskinlərin, çocuqların nəfinə [xeyrinə] teatro oynamaq və kasıb üzvlərinin nəfinə dəxi benefis verəcəkdir. Nə oynayacaqdırsa, kimin mənfəətinə olacaqdırsa qəzetədə yazılacaqdır.

Cəmiyyətin üzvləri (aktyorları) cəmiyyətin ümdə banisi olan və camaatın hüsn-rəğbətini qazanan rejissoru Həsənağa Sabit əfəndiyə öz təşəkkürlərini yetirirlər. Hər üzvə cəmiyyət tərəfindən vəsiqə dəxi verilmişdir.

*"Salyan Müsəlman Aktyorlar Cəmiyyəti"*

## ERMƏNİSTANDA

Ermənistan halı kəmafissabiq [əvvəlki kimi] qayət xətrəlidir [təhlükəlidir]. İrəvan və Eçmiədzinin təxliyə edilməsi şayiəsi hələlik təsdiq edilməyir. Təxmin hesaba görə, müsəlmanlarla edilən son müharibədə ermənilərdən 15 nəfər ölən vardır.

"Qruziya" qəzetəsinin yazdığına görə, son erməni-müsəlman müsadiməsindən [toqquşmasından] doğmuş olan Ermənistan vəziyyəti Ermənistan Hökuməti[ni] artıq dərəcə müşkülata uğratmışdır. Bu əhvalı bununla təfsir etmək olar ki, Ermənistan Hökuməti müsəlmanlarla sülh ilə rəftar etməkdən acizdirlər.

Sonra, Ermənistan Hökuməti[ni] öz sərhədlərini saxlaya bilməmələri əndişəyə salır. Bu əhvallardan dolayı ciddi surətdə şayiat var ki, Ermənistan Hökuməti [başçısı] A. Xatisov hərbi müavinət üçün şimala müraciət edəcəkdir.

Eyni zamanda bəyan edirlər ki, son günlərdə Ermənistan Hökuməti öz nöqteyi-nəzərini dəyişmişdir. Yəni, Zaqafqaziya Konfransının qətnaməsini gözləyir və ehtimal edilir ki, Zaqafqaziya Konfransı bu iki millət arasında olan ixtilafı yatıra biləcəkdir.

## TEATRO VƏ MUSİQİ

25 faizi Müsəlman Yetimlər Yurdu faydasına olmaq üzrə Türk səhnəsinin məruf [tanınmış] artistkası xanım Olenskayanın təşəbbüsü və türk aktyorlarının iştirakı ilə çaharşənbə [çərşənbə] gecəsi Hökumət Teatrosunda bir müsamirə-

teatro [teatr-konsert] tərtib edilmişdi. Havanın sıcaqlığından xeyriyyə bir məqsədlə oynanan işbu müsamirəyə tamaşaçı lazımi qədər gəlməmişdi. Oynanan bir pərdəli "Harun ər-Rəşid", iki pərdəli "Azərbay-can", bir pərdəli "Bizim kirayənişin özün öldürdü" faciə və məzhəkələri ümumiyyətlə yaxşı keçdi.

"Bizim kirayənişin özün öldürdü" məzhəkəsi tamaşaçıları özündən məmnun buraxdı. Bunun oyununda Ələkbər Hüseynzadə ilə Darablı bir komik olduqları üçün tamaşaçılar üzərində hüsntəsir buraxdılar. Hacı Fərzəli tipini Hüseynzadə öz siması və əlbisəsi, vəziyyət və qiyafəsi ilə tam mənası ilə yaratmış, səhnədə bir artist deyil, Bakı mülkədarı bir Hacı olduğu zənn edilirdi. Habelə, nökər Sevdiməli rolunu da, necə ki lazım idi, Darablı oynadı. Yalnız nəzəri-diqqəti cəlb edən bir şey var idi, o da həddindən artıq hərəkətlər, əlavələr idi.

Kabare qismi də müvəffəqiyyətlə keçdi. Xüsusən Yunis Nərimanovun rəqsi Hüseynağa [Hacıbababəyov] və Məhəmmədtağının segah və kürd-şahnaz oxumaları, Anaplının kupletləri, Mirpaşa [Sadıqov] və Əliislam [Dadaşov] əfəndilərin meyxanası tamaşaçıların alqışına məzhər [nail] oldu.

Keçən gecəki müsamirə, ümumiyyətlə, insanda bir fikir doğurur: bizim teatro və səhnəmizdə bir çox ayrı-ayrı qüvvətlər var. Fəqət onların tərəqqisi uğrunda bir addım atılmamaqla bərabər, onlardan lazım olan istifadə də edilməyir. Teatro və səhnə işlərimizin təbii yolundan çıxması onların əxlaqına suitəsir edib, onların məharət, daha doğrusu dühaları ölür, tələf olur.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**İtibdir**

1907-ci ildə Zaqafqaz İdareyi-Ruhaniyyəsindən Əhməd Cabbar oğlu Rəcəbovun adına verilmiş 2617 nömrəli metrik şəhadətnaməsi itibdir. Etibardan saqitdir [etibarsızdır].

*7442*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri. Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək. Qiymətlər münasibdir.

*7413*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfününu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, Nəzarətin mallarını (məkulat) şəhərdə və şəhər ətrafında daşımağı podrata götürmək xahişində olanlar gərək avqust ayının 18-nə kimi müzayidədə iştirak etmək üçün ərizə verməli və məktubla öz şərtini bildirməlidirlər. Ərizələr Nəzarətin İdarəsində "Natsional" mehmanxanasında 24-ncü odaya verilməlidir.

*T-216*

**Bakı Şəhər İdarəsi**

Bununla ümum araba və faytonçulara elan edir ki, 1919-ncu sənənin 2-nci yarısı üçün yarmarka meydançasında saat 9-dan 2-yə kimi nömrələr veriləcəkdir. Müəyyən vaxtda nömrə almayan əşxasdan alınacaq vergidən 50 faiz peni dəxi alınacaqdır.

*T-217*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

# QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 291. “iki il burada olmuşdursa”: qəzetdə belə getmişdir: “iki il burada olmuşdur ki”.

**Teleqraf xəbərləri**

səh. 292. “Hersoginya Oldenburqskaya”: Oldenburq Böyük hersoqu II Fridrix Avqustun arvadı Elizabet Aleksandrine nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 293. “Mançester Qardian” [The Manchester Guardian]: İngilis qəzeti. Əsası 1821-ci ildə Mançesterdə qoyulmuşdur. 1959-cu ildə adını Qardian” [The Guardian] kimi dəyişmiş, 1964-cü ildə isə qəzetin redaksiyası Londona köçmüşdür.

**Mavərayi-Bəhri-Xəzərdə**

səh. 295. “Tazəşəhər”: Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

“Qızıl-Arvad”: Türkmənistanda indiki Sərdar şəhəri.

“Qara-Qala”: Türkmənistanın cənub-qərbində, indiki Maxtumqulu şəhəri.

**Bakı xəbərləri**

səh. 298. “Bəndər Gəz”: İranın Gülüstan ostanında, Xəzər dənizi sahilində şəhər.

**Teatro və musiqi**

səh. 300. “Harun ər-Rəşid”: teatr tamaşası; Abdulla Şaiqin əsəri.

“Azərbay-can”: İsa bəy Aşurbəylinin səhnə əsəri.

Bazar, 17 avqust 1919-cu il, nömrə 253

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 20 zülqədətül-haram sənə 1337. 17 ağustos 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

**SİRK "MODERN"**

Yekşənbə günü avqustun 17-ndə
1919-cu ildə

**Böyük Bayram Tamaşası**

Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 50-ci günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qırmızı Maskanın Staroşvili ilə ikinci mübarizəsi. Qırmızı Maska və Qafqaz şiri Apollon Staroşvili.

2-nci: Gənc Əli və Krayevski.

3-ncü: Mustafa Əhmədov və Naməlum.

Tamaşa başlanacaq axşam saat 8 tamamda. Pəhləvanların çıxışı 11-in yarısında. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7450*

**QƏND**

Az bir müddətdə İstanbuldan gətirib İstanbul birjası qiymətinə satırıq. Zeyldəki [aşağıdakı] şeylər alınıb və skladda [anbarda] satılır:

Qara ipək, corab, gömlək (saroçka), qələm bıçaqları, qıfıllar, ayaqqabları üçün pistonlar, sabun və sairələri.

Kaspi Eksport bankir evi, Olqinski, Lalayevin pasajı.

Para xırdalanması, valyuta, çek və neft orderləri.

Bankir evinin şurası: B. A. Abelson, Ya. X. Vadyayev, İ. İ. Dembo.

İdarə: Q. B. Stolberq, B. İ. Dembo.

*7451*

Bununla möhtərəm camaata elan olunur ki, Parapet qarşısında olan

**DARDANEL**

lokantası bu gündən etibarən "Morskoy restoratorlar" təhti-nəzarətinə [tabeçiliyinə] keçmişdir. Nahar və şam təcrübəli aşpazın təhti-nəzarətində [nəzarəti altında] buraxılır. Nahar və şam vaxtı strunnı orkestr [simli orkestr] icrayi-ahəng edir.

*7433*

**ELAN**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən bu avqust ayının 11-dən başla-

yaraq "Eyzenşmidt" zavodunun yanında olan (рядомъ съ заводомъ Айзеншмидтъ) Nəzarətin odun və kömür skladından [anbarından] hər adama pudu 20 manatdan bir kisədən fəzlə olmayaraq kömür buraxılacaqdır.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Məşixətdən [Şeyxülislamlıq İdarəsindən]**

*Əmr nömrə 22*

Ərəş və Cavanşir qəzaları sünniməzhəb qazısı Hacı İsa əfəndi Molla Yusif oğlu xidmətindən əxzi-əsgər [hərbi çağırış] məsələsində müttəhim olduğundan əzl edilərək, yerinə idarə üçün müvəqqətən Ərəş qəzası Əmal prixod mollası Hacı Əziz əfəndi Hacı İbrahimxəlil oğlu təyin edilmişdir.

*Əmrnamə*

Səneyi-cariyə 12 ağustos tarixindən etibarən Şamaxı sünniməzhəb qazısı Əbülqasım əfəndi Əminzadə bu vaxta kimi məhlul [boş] olan Bakı sünniməzhəb qazılığına nəql və təyin edilmişdir.

*Əmrnamə nömrə*

Səneyi-hazirə 13 ağustosdan etibarən Şamaxı sünniməzhəb qazılığına kəndi yerlisi Mahmud əfəndi Rəhim əfəndi oğlu təyin edilmişdir.

*Məşixət sədrləri:*
*[Axund Ağa] Ağaəli[zadə],*
*Mustafa Əfəndizadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Şimali Rusiyada**

Londondan xəbər verirlər ki, 91 nəfərdən ibarət İngiltərə dəstəsi 800 nəfər bolşeviki Arxangelskdən qaçmağa məcbur etmişdir. İngilislər bolşeviklərin mövqeyini işğal edib bir çox qənimət almışlardır.

**İngiltərədə bulkaçılar**

Londondan xəbər verirlər ki, bulka bişirənlər tətil təhdidi ilə həftədə 44 saat iş və 4 girvənkə bulka və gecələr işləməməyi tələb edirlər.

**Kronştadtda**

Londondan xəbər verirlər ki, Helsinqforsdan [Helsinkidən] alınan xəbərlərə görə, İngiltərə aeroplanları Kronştadta bomba salmışlardır. Kronştadt fortlarından aeroplanlara atəşlə cavab vermişlərdir. Şəhər üzərində yüngül tüstü olduğu müşahidə edilir.

* * *

Roma qəzetələri xəbər verirlər ki, polis bir sui-qəsd kəşf eyləmişdir ki, onun müəssisləri də başlıca anarxistlər imiş. Bunların məqsədi bazarı, Romanın sövqülceyş [stratejik] yerlərini işğal etmək idi. Bunlar bir batalyon saldatı da kəndi tərəflərinə çəkmək istəmişlərdir. Fəqət saldatlar bu sui-qəsdə iştirakdan imtina etmişlərdir. Sonra sui-qəsdçilərə atəş açmışlardır. 16 nəfər üsyançılar həbs edilmişlərdir.

**Yevropaya maddi müavinət**

Amerika Konqresində Yevropaya ma-

liyyə müavinəti məsələsi müzakirə edilməkdədir. Amerika Hökuməti etiraf edir ki, müharibədən sonra Yevropa təklikdə düzələ bilməz. Hərgah, Amerika Yevropaya kömək etməsə, inqilab hərəkatı şiddətlənib nəinki Yevropanı, hətta Amerikanı da məhv edər.

**Baltik sahili cümhuriyyətlərinin ittifaqı**

Londondan xəbər verirlər ki, Estoniya, Litva və Latviya cümhuriyyətləri öz aralarında hərbi ittifaq yapmaq müzakiratını bitirmişlərdir. Məsələ hələlik açıq qalmışdır.

- Əhramdan yazılır ki, Yuqoslaviya, yunan və Bolqariya hökumətləri tərəfindən iqtisadi cəhətdən Balkan dövlətləri arasında yeni bir ittifaq bağlamaq üçün danışıq başlanmışdır.

## SÜLH XƏBƏRLƏRİ

**Asiyayi-Suğra haqqında**

Londondan xəbər verirlər ki, Bey-nəl-müttəfiq Şura [Müttəfiqlərarası Şura] Tittoninin Asiyayi-Suğrada [Anadoluda] italyanların və yunanların hərbi vəziyyətləri haqqında məruzəsini müzakirə etməyə başlamışdır.

**Şərqi Afrikada**

Londondan xəbər verirlər ki, Şərqi Afrikanın ablukası [blokadası] götürülmüşdür.

**Beynəlmiləl şəhər**

Yenə Londondan xəbər verirlər ki, Belçikada müharibə naminə tikiləcək beynəlmiləl şəhərinin adı Geopolis qoyulması təhti-qərara alınmışdır.

**Macarıstanda**

Londondan xəbər verirlər ki, hersoq İosif [Avqust] Hökuməti Romaniya mütarikə şəraitini [atəşkəs şərtlərini] qəbul etmişdir. Nüfuzlu dairələr belə hesab edirlər ki, Sülh Konfransının və Beşlər Şurasının əl-qolu bağlanmışdır. Belə ki, romaniyalıları İngiltərə və Amerikanın göstərdiklərini ifa etməyə məcbur etməyə qadir deyildirlər. Çünki İngiltərə və Amerika Macarıstana əsgər göndərə bilməyirlər. Ehtimal ki, Fransa Hökuməti də hal-hazırda Romaniyada olan iki firqə əsgəri işə buraxmağı qərara ala bilməsin.

**Amerika və Sileziya**

Londondan xəbər verirlər ki, Vaşinqtonda Senat tərəfindən Almaniya sülh müahidənaməsi təsdiq edilənə qədər Amerika əsgərlərinin Sileziyaya göndəriləcəkləri haqqında bir söz belə söyləmək olmaz.

**Romaniya və Müttəfiqlər**

Avqustun 12-də Liondan xəbər verirlər ki, Romaniya hər bir şeyi əlinə alıb Müttəfiqlərin vədləri və təhdidləri ilə hesablaşmaq istəməyir. Müttəfiqlərin də əsgəri qüvvəsi yoxdur ki, Romaniyaya təsiri-nüfuz yetirsinlər. Taxıl məhsulatı müvəqqəti olaraq iqtisadi təzyiqata imkan verməyir. Amerikalılar Müttəfiqlərin Balkanda olan nüfuzlarının təhdid edildiyini göstərirlər. Çünki onların tələbatı romaniyalılar tərəfindən nəzərə belə alınmayır.

Amerika simsiz teleqrafı xəbər verir ki, Beşlər Şurası cümə günü Romaniyaya göndərdiyi axırıncı notaya hələ cavab almamışdır.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Tətil hərəkatı**

Yuxarı Sileziya kömür rayonunda tətil başlanmışdır. Mədənlərdə işləyən amələlərin 40 faizi tətil etməkdədir. Kənar edilən fəhlələrin qəbulunu tələb edib, əcnəbi məmləkətdə əsgərlik vəzifəsi əleyhinə protesto etmişlərdir. Tətil artmaqdadır.

**İngiltərədə tətil**

İngiltərədə çörəkçilərin tətili başlanmışdır. Bu tətildə neçə min fəhlə iştirak edir.

- Hamburqda bank xidmətçiləri tətil etmişlərdir.

**Amerikada tətil**

Amerikada 2 milyon fəhləsi olan 14 dəmiryol ittifaqı tezliklə məvaciblərin artması tələbatını təqdim etmişlərdir. Amerikanın təşkilati fəhlələri öz nümayəndələrinin dəmir yol idarələrinə buraxılmalarını tələb edirlər.

**Bela Kun və Müttəfiqlər**

Avqustun 13-də Nauendən xəbər verirlər ki, Vyanadan verilən xəbərlərə görə, Fransa Hökuməti Avstriyanı xəbərdar etmişdir ki, hərgah, Bela Kun gizlənsə, Avstriya Hökuməti məsul olacaqdır. Müttəfiqlər Macarıstanda şura zamanında baş verən cinayətlər və zülümlərə görə, Bela Kunu məsuliyyətə cəlb etmək niyyətindədirlər.

**Rusiya ilə ticarət münasibatı**

Londondan xəbər verirlər ki, Ali Şura Rusiyanın başqa hökumətlərlə ticarət münasibatı məsələsini müzakirə etməyə başlamışdır. Amerikanın bu məsələdə nə rəydə olacağı məlum deyildir. Çünki Amerika Hökuməti əvvəlcədən Rusiya haqqındakı qərarın beynəlmiləl ədliyyə əsası olduğunu arzu etmişdir.

**Macarıstanda**

- Liondan xəbər verirlər ki, amerikalılar və ingilislər Macarıstanın tezliklə romaniyalılar tərəfindən təxliyə edilməsini lazım hesab edirlər. Çünki bolşeviklikdə müttəhim edilən əsgərlərin və vətəndaşların edamı, həmçinin romaniyalıların qalibiyyətli nümayişləri vətənpərəst macar millətində böyük narazılıq oyadır.

- Peştədən xəbər verirlər ki, kral hökumətinin bərpa edilməsi nəfinə [xeyrinə] olaraq şəhər intibahnamələrlə [vərəqələrlə] dolmuşdur. Peştənin romaniyalılar tərəfindən tərk edilməsi üçün də təşviqat aparılmaqdadır. Müttəfiq dövlət heyətləri də bu axırıncı təşviqatda iştirak edirlər.

- Vyana macarlarla dolmuşdur. Bunlar Peştəyə qayıtmaq imkanını gözləyirlər. Yollar Macarıstan paytaxtını işğal edən və uzun müddət orada qalmaq istəyən romaniyalılar tərəfindən kəsilmişdir.

**Sibirya qırğızları**

N. ordusu ərkani-hərbindən [qərargahından] avqustun 10-da xəbər verirlər ki, Sibirya qırğızları arasında iki siyasi dəstə vardır. Bunların biri kadet və ya eserlər kimi "Elleşir" adında milli-demokrat ruhunda siyasi bir firqədir. Digəri isə, "Urdyus" adında bolşevik firqəsidir. Bolşevik firqəsi təşkil edən Marden Ancanov güllələnmişdir. Digəri isə ölüm cəzasına məhkum edilib xəstəxanada tif xəstəliyindən ölmüşdür.

## QƏZETƏLƏRDƏN

**Lion radio[stansiyası] xəbərləri**

"Entransijan" qəzetəsi xəbər verir: Amerika qəzetələri yazırlar ki, romaniyalılar Peştədən çıxmalıdırlar. Hərgah məzkur [adı çəkilən] qəzetə göstərmək istəyir ki, Amerikanın nüfuzlu dairələri tərəfindən təlqin edilmişdir, bununla bərabər, yenə qəzetə həqiqəti-əhvala bələd deyildir. Macarlar özlərinin ikiüzlü olduqlarını göstərdilər. Onların yaxınındakı qonşularını Fransa başına gələn qəzalar gözləyir. Nə qədər ki macarlılar tərksilah edilməmişlər və nə qədər ki camaat nümayəndələrindən hökumət intixab edilməmişdir [seçilməmişdir], Müttəfiqlər Romaniyadan qəti-nəzər etməməlidirlər [gözlərini çəkməməlidirlər]. Bu məsələyə "Entransijan" qəzetəsinin nöqteyi-nəzəri Fransa nöqteyi-nəzəri kimidir. Fəqət bu nöqteyi-nəzər Klemanso nöqteyi-nəzərinə müvafiqət edib-etməyəcəyini [uyğun gəlib-gəlməyəcəyini] biz sonra biləcəyiz.

Macarıstanın şimdiki hökuməti Konfrans tərəfindən təsdiq edilmişdir. Bu hökumətdə olan şəxslər Bela Kun ilə bolşeviklərin düşməsində müqəssirdirlər. Bu hökumət bütün Konfransın təklifinə əməl eyləmişdir. Konfrans və Amerika nümayəndələri Macarıstanı rumınlardan xilas edəcəklərini vəd etmişdilər. Hərgah buna əməl edilməzsə, Konfrans öz etibarını qeyb edəcəkdir.

Yalnız Romaniya 40 milyon Amerika parası xərcləmişdir. Peştədə aclıqdır. Zira ətraf Bela Kun paytaxtını boykot eyləmişlərdir.

Rumınlar barəsində bunu söyləmək olar ki, Avstriya ordusu Romaniyanı xarabaya döndərmişdi. İndi rumınlar Peştəni işğal ilə öz zərərlərini alırlar və lazım gələn şeyləri zəbt edirlər. Amerikanın camaat xadimləri Peştədə bolşeviklərin düşməsini Avropada böyük bir hadisə hesab edirlər və deyirlər ki, millət özü bolşevizmi yıxmışdır. Amerikalılar bu fikirlərini bununla həqiqətləndirirlər ki, Bela Kun həqiqətən də, məğlub olmuşdur, fransız mətbuatı dediyi kimi "fiktsiya" [uydurma] deyildir.

Təbiidir ki, Romaniya nümayəndələri Konfransdan çıxmalıdırlar. Rumınlar Bessarabiyanın Romaniyaya verilməməsi ilə Konfransdan məmnun deyildilər. Amerika pulu ilə rumınlar ordu təşkil edə bilərdilər. Romaniyanın Parisdə olan nümayəndələri deyirlər ki, Romaniya bu fəaliyyəti ilə çalışır ki, macarlılar mütarikə şəraitinə [atəşkəs şərtlərinə] əməl eyləsinlər.

**Petroqrad altında**

Petroqrad halından bəhs edən "Jenevski jurnal" qəzetəsi yazır:

Hərbi nöqteyi-nəzərlə Petroqradın işğal edilməsi bir o qədər də müşkül iş olmazdı. Zira Qırmızı ordu Finlanda bolşevikləri istisna olaraq biintizam bir haldadır. Zahirən onlar qırmızı isələr də, fəqət batinən ağdırlar. İki, yaxud üç müntəzəm diviziya bütün təchizatı ilə bərabər lazım idi ki, Petroqradı almaq üçün aparılan mübarizə müvəffəqiyyətlə qurtara idi. Bu müharibəni apara biləcək yeganə qüvvə Finlanda ordusu və milli qvardiyasıdır. Şimdi meydanda bir məsələ var: Finlanda bolşeviklərə qarşı çıxışda bulunarmı?

Finlanda əfkari-ümumiyyəsi [ictimaiyyəti] bu məsələdə ayrılır. Bir dəstə vadar edir ki, Finlanda çıxışda bulunsun və onlar bu ümiddədirlər ki, Rusiya dirildikdən sonra Finlandaya təvizat [əvəz] verər. Digər qisim isə bu cəsarətli müharibəyə girişməkdən imtina edirlər. Onlar Müttəfiqlərdən maddi cəhətdən təmin edilmələrini istəyirlər, zira müvəffəqiyyət olmadığı təqdirdə Finlanda Ukrayna, yaxud Baltik sahilində olan yerlərin halına düşməsin.

Təbii, Finlanda sosialistləri Rusiya işlərinə müdaxilə edilmək ziddidirlər. Hətta bir qismi isə Rusiya sosialistlərinə qoşulmağı arzu edirlər.

Xarici dairələrdə dəxi Rusiya məsələsi xüsusunda rəylər müxtəlifdir. Bəzi dairələr Rusiyanı indiki halında buraxmağı istəyirlər. Bəziləri Finlandanın müstəqil surətdə çıxışını, ruslarla ittifaqsız iqdamatda bulunmağı istəyirlər. Nəhayət, bir çox ruslar da vardır ki, fin qoşunları tərəfindən Petroqradın işğal edilməsini arzu etməyirlər.

Ortalıqda olan bu qədər güft-gulara [söz-söhbətə] və bu qədər ixtilafa baxmayaraq, hal-hazırda bəzi dairələrlə gizlin danışıq davam edir və mümkündür ki, bu günlərdə bir qətnamə çıxarılsın. Hərgah general Mannerheym iş başında qalarsa, onda çox mümkündür ki, Finlanda Rusiyaya qarşı çıxar. Hər halda, Finlandada olan rus dairələri altı həftə əvvəl bundan başqa bir halda ikən, şimdi Rusiya istiqbalına [gələcəyinə] ümidləri bərkəmaldır. Ruslar indidən ərzaq və yana-caq hazırlayırlar ki, bolşeviklərdən xilas ediləcək Petroqrada yetirsinlər.

Hal-hazırda Finlanda qoşunları sərhədi saxlayırlar. Bolşeviklərin atəşinə atəş və həmlələri dəf etməklə qənaət edirlər.

## TÜRKİYƏDƏ

*(Teleqraflardan)*

İstanbuldan xəbər verirlər ki, Türkiyə mandatının İngiltərəyə verilməsi nəfinə [xeyrinə] hərəkat artmaqdadır.

**Türkiyədə və Bolqariyada üsyan**

Axırıncı alınan xəbərlərə görə, Türkiyədə və Bolqariyada ciddi həyəcan və üsyan başlanmaqdadır.

**Türklərin hücuma hazırlanmaları**

Liondan xəbər verirlər ki, Türkiyədən verilən axırıncı xəbərlərə görə, türklər romaniyalılar tərəfindən mütarikənin xələldar edilməsinə [atəşkəsin pozulmasına], həmçinin Sülh Konfransının onları təzyiq altına alması qərarına görə Asiyayi-Suğrada [Anadoluda] olan yunan, ingilis, Ame-

rika və fransız əsgərləri əleyhinə geniş bir surətdə hücuma hazırlanırlar. Türklər Ermənistan sərhədi boyuna cəm olmaqdadırlar.

**Suriya və Fransa**

Londondan xəbər verirlər ki, Etimadnamə Komisyonunun Suriya məsələsini təftiş edən Amerika şöbəsi Sülh Konfransına verdiyi məruzəsində xəbər verir ki, Suriya əhalisi arasında olan anketaya istinadən əhali əksəriyyətlə Suriyanın mandatla Fransaya verilməsi tərəfdarıdır.

**Asiyayi-Suğra məsələsi**

Londondan xəbər verirlər ki, Ali Şura Asiyayi-Suğra [Kiçik Asiya; Anadolu] əhvalını ətraflıca təhqiq və təftiş etməkdən ötrü bir çox komissarlar təyin edilməsini qərara almışdır. Bu komissarlar xüsusi təlimatla hərəkət edəcəklərdir. Komissarlar məhəllində [yerlərdə] İngiltərə və Fransa komandanlıqları tərəfindən təyin ediləcəklər. Fransa tərəfindən bu mənsəbə general Franşe D'Esperinin təyin ediləcəyi gözlənir.

**İstanbul hadisatı**

- İstanbulda "İttihad-Tərəqqi"nin Mərkəzi Komitəsində Müttəfiq dövlətlərin agentləri tərəfindən təftiş icra edilmişdir. Bir çox sənədlər və övraq [kağızlar] ələ gəlmişdir. Gənc türklərin bir hissəsi Makedoniyaya, bir hissəsi də Almaniyaya getmişlərdir. Türkiyədə qayət vüsətli miqyasda Gənc türkləri təqib edirlər. Onları bolşevik və spartaklarla əlaqədə olmaları ilə ittiham edirlər. Komitə açıq-açığa işləyir.

- Mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, Sülh Konfransından böyük ixtiyarlar alan polkovnik Haskell 60 afiser ilə bərabər üç həftədən sonra Ermənistana varid olacaqdır [gedəcəkdir]. Bunların Ermənistana gəlməsi Amerikanın Ermənistan idarəsi xüsusunda mandat alması ilə əlaqədardır.

**Nuri paşanın qaçması ətrafında**

Tiflisdə müntəşir [nəşr olunan] "Kavkazskoye slovo" qəzetəsi yazır ki, Batumda hal-hazırda ən ciddi surətdə danışılan məsələ Nuri paşanın qaçmasıdır. Nuri paşa Batum təhti-istintaqında [istintaq altında] və ingilislərin ev həbsində idi. İngilislər paşanın bulvara, restorana və sair yerlərə getməsinə müsaidə edirdilər. Nuri paşa qayət məsrur [şad], son dərəcə gözəl əlbisələr geyinmiş, özünə artıq diqqət verməkdə idi. İngilislər Nuri paşaya etibar və etimad edirdilər. Avqustun 8-də axşam saat 8-də Nuri paşa qaçmışdır. Nuri paşanın qaçmağı bu surətlə olmuşdur: Paşa dərya kənarına səyahətə çıxmış imiş. Bunu bir afiser, iki ingilis saldatı müşayiət edirmiş. Birdən kol dibindən atışma başlanar, saldatlar qətl edilib, afiser isə atəş açaraq qaçıb gizlənmişdir. Bu heyndə [bu vaxt] Nuri paşa motorlu lodkaya minib naməlum yerə getmişdir.

## ƏFQANISTANDA

Əfqanıstan ilə bağlanan sülh müahidənaməsinin [sazişinin] şərtlərinin birində Hindustan Hökuməti tərəfindən hər il əmirə verilən 12 min ingilis lirəsinin müsadirə ediləcəyi söylənir. İngiltərə əs-

gərləri Kibrdən qərbə tərəf hüdud təyin edilənə qədər öz əvvəlki yerlərində qalacaqlardır.

### MACARISTANDA

Liondan xəbər verirlər ki, hersoq İosifdən alınan nota hələ Konfrans tərəfindən baxılmamışdır. Məhəlli şuranın iclası olmamışdır. Polk, [Henri] Uayt və qeyrilərinin xüsusi məşvərəsi olmuşdur. Belə görünür ki, onlar [Herbert] Huverin Vyanadan gəlməsini gözləyirlər. Macarıstanın yeni hökuməti haqqında qəti bir qərara gəlməkdən əvvəl onlar onun məruzəsini dinləmək istəyirlər.

Bununla belə, Peştədən verilən xəbərlərdə deyilir ki, romaniyalıların ərzaq şeylərini çıxarıb Konfransdan sərf-nəzər öz tələblərinin ifasını təkid etmələrinə baxmayaraq, əhval yaxşılaşmaqdadır.

Sülh Konfransı Macarıstanda vücuda gələn əhval[ın] bütünü ilə ciddi surətdə məşğuldur. Bu əhval Mərkəzi Yevropanı təhdid edir və ola bilər ki, arzu edilməyən nəticə versin. Çünki bu əhval ancaq qoyulan asayişi xələldar edib və başqa hökumətləri Sülh Konfransının göstərdiyini nəzərə almamağa vadar edir.

Əsgəri dairələrdə böylə hesab edirlər ki, romaniyalıların Peştədə olan artıq qüvvətlərinə baxmayaraq, ola bilər ki, pərişan olmuş macar ordusu kəndlilərlə birləşib vətənpərəstlik dəvətnaməsi ilə əhaliyə müraciətən partizan müharibəsi başlayacaqdır.

Keçən gün Sülh Konfransı tərəfindən teleqrafla mühüm bir nota göndərilmişdir. Fransa hökuməti romaniyalıların vücuda gətirdikləri əhvalı özlərinə göstərmişdir. Romaniyalılar öz hərəkətlərini dəyişənə qədər Huver Peştəyə ərzaq şeyləri gətirməyi dayandırmışdır.

Zahirən Fransa Macarıstanda nəticəsi fəna olacaq əhvaldan narahat olub romaniyalılara qəti nota göndərmişdir. Amerika nümayəndələri söyləyirlər ki, Romaniya ordusunda bir çox fransız zabitləri vardır. Fransa notasının təsiri olacaqdır.

Müttəfiq və başqa dövlətlər Rusiyaya dəxli olan mühüm məsələlər müzakirəsini başlamayaraq böylə görürlər ki, hərgah romaniyalıların hərəkətini dayandırmaq mümkün olmasa, bolşevizm yenə təzədən böyük nüfuz qazanacaqdır.

### VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

* Daxiliyyə nazirinin ticarətxana və başqa mənzillərə müsbət qiymət təyini haqqındakı qanun layihəsinə baxıldıqdan sonra qət edilmişdir [qərara alınmışdır]:

[1)]Təqrir [təklif] bərvəchi-ati [aşağıdakı] əlavə və dəyişmələrlə təsvibən [bəyənilərək], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın:

20-ci maddədəki "şəhər əhalisi" sözlərindən sonrakı "Bakı şəhərindən başqa" sözləri pozulsun.

21-ci maddədəki "müsalihə [barışıq] komisyonları sədr və əzalığına [üzvlüyünə] məhəlli [yerli] əhali intixab edilə [seçilə] bilər" cümləsində "məhəlli əhali" sözlərinin əvəzində "həman şəhərdə yaşayan əşxas [şəxslər]" yazmalı.

32-ci maddədəki "müsalihə və mənzil komitəsi üçün alınan vergi" sözlərindən sonra "bələdiyyə idarəsi mənfəətinə daxil olur" sözlərini əlavə etməli.

32-ci maddə[yə] "məhkəmə məsarifatı müttəhim və müqəssir olan tərəfdən alınır" sözlərini artırmalı.

2) Qanun layihəsini təcili elan etməli.

* Daxiliyyə Nəzarətinə Dövləti Müdafiə Komitəsi nəzdində Müvəqqəti hökumətin 1917-ci sənəsi 5 ağustosda verilmiş olan qanunun Məclisi-Məbusan təsdiqinədək müvəqqəti olaraq qüvvəti havi [qüvvədə] olduğu haqqında təşəbbüsatda bulunmaq tapşırılsın.

* Ədliyyə nazirinin istiqrazın məhkəmə vəzifələri namizədlərinə sərf edilməsi haqqındakı təqririndən sonra qət edilmişdir:

Ədliyyə nazirinə istiqrazdan məhkəmə vəzifələri namizədlərinə: baş namizədlərə 1351 manat, kiçik namizədlərə isə 950 manat miqdarında maaş verməyə icazə verməli.

* Ədliyyə naziri müavininin müvəqqəti dəftərxana xidmətçiləri və maaşları layihəsi təsdiqi haqqındakı təqririndən sonra qət edilmişdir:

Təqdim edilən layihə 1918 sənənin 1 dekabrından təsdiq edilməli.

* Ticarət və Sənaye və Ərzaq nazirinin Şamaxı Cəmiyyəti-Xeyriyyəsi sədri Hacı İsmayıl Veysova 1914-ncü sənənin 4 oktyabrında vəsiqə ilə Şamaxı Ərzaq Komitəsinə verdiyi 70 min manat və həman sənənin 23 noyabrında yenə həman komitəyə verdiyi 60 min manat, bunlardan başqa başqa vaxtlarda 40 min manat qaytarılmışdır. Mabaqi [qalan] 90 min manatın qaytarılması haqqındakı təqriri istemasından [dinlənildikdən] sonra qət edilmişdir:

Rədd edilsin.

* Səhhəti-Ümumiyyə naziri müavininin Şuşa şəhərində məccani [pulsuz] dövləti xəstəxana təsisi haqqındakı təqririndən sonra qət edilmişdir:

1) Şuşa şəhərində məccani dövləti xəstəxana təsis edilsin;

2) Səhhəti-Ümumiyyə Nəzarətinə məsarifat haqqında qanun layihəsi tərtibi və Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək 20 milyonluq fonddan iyun, iyul və avqust ayları məsarifatı üçün 180600 manat buraxılsın.

* Ədliyyə nazirinin İstintaq şöbəsinin təqviyə və təsis haqqındakı təqririndən sonra qət edilmişdir:

Təqrir təsviblə təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

## ARÇIQ – TƏNQİD

### "Ədirnə fəthi"

**- 2 -**

Altı pərdədən ibarət olan "Ədirnə fəthi"nin ixtisarən məzmunu böylədir:

*Birinci pərdə*

Son dəqiqələrini keçirməkdə olan Ədirnə şəhərində bir xəstəxanada xəstə baxıcı şəfqət bacılarından Zöhrəni, qayət vətənpərvər bir zabit Rüfət bəy sevir. Xalid adlı digər gənc bir zabit də Zöhrəni sevməkdədir. Kamal nam [adlı] ixtiyar bir türk ortada böyük rol oynayır. Bu adam gənc qarısını əlindən alan, bununla namusunu təhqir edən Xalidin böyük bəradərindən [qardaşından], daha doğrusu, Xalidin familiyasından [ailəsindən] intiqam, həm də dəhşətli bir intiqam almaq fikri ilə uğraşır. Bunun üçün Zöhrəni sevməkdə olan Xalidin fikrini şaşırır, onu məqsədinə ərmək, Zöhrənin vüsalına yetişmək, Rüfətin şərindən qurtarmaq üçün bolqar casusluğuna sövq edir. Eşq və məhəbbət Xalidin gözünü tutmuş, Zöhrəni əldə etmək üçün hər bir fədakarlığa gedir. Bu uğurda cinayət irtikabından [işləməkdən] belə çəkinməyir. Halbuki Zöhrə onun doğma həmşirəsidir [bacısıdır]. Kəndisi çocuq ikən ailəsindən, İstanbuldan ayrıldığından həmşirəsini tanımayır. Ədirnə süqut edir. Xalid Zöhrəni xəstəxanadan çəkib aparmaq istəyən bolqar zabitlərinin qarşısını alaraq kəndisinin casus olduğunu bildirməklə Zöhrəni onların əlindən alır. Zöhrə də onun casusluğunu bilir.

*İkinci pərdə*

İstanbulda Ədirnənin süqutundan, hökumətin sülh fikrində olmasından dolayı xalqda bir həyəcan var. Xalid bolqar casusu sifəti ilə bolqar faydasına olacaq sülh lehinə təbliğat yapır. Müvəffəq olacağı bir yerdə, gözləmədiyi bir surətdə Rüfət bəy ortaya çıxır. Sülhün əleyhinə bəyani-əfkar edir [fikir bildirir]. Xalidin planları bərbad olur. O, Rüfəti müharibədə şəhid olmuş zənn etdiyindən büsbütün şaşırır. Kəndisinin casus olduğunu bilən Zöhrənin Rüfəti buraxıb onu əbədən [əsla] sevməyəcəyini, Ədirnənin təkrar türklər tərəfindən istirdadı [geri alınması] kəndisi üçün bir fəlakət təşkil edəcəyini hiss edir. Bu halda Ənvər bəy də hərb istəyənlərin başında gəlib çıxır. Xalqı sülhün əleyhinə qaldırır. Bu hal ilə Heyəti-Vükəla [Nazirlər Kabinetinin] qapısına gedirlər.

*Üçüncü pərdə*

Heyəti-Vükəla iclasıdır. Sədr-əzəm Kamil paşa, Hərbiyyə naziri Nazim paşa sülhün lehində, Qazi Muxtar paşa və şeyxülislam sülhün əleyhindədirlər. Nəhayət, Nazim paşanın israrı ilə sülhə qərar verilir. Bu halda dişarıda xalqın "Biz hərb istəyiriz" sədası qalxır. Nəhayət, Ənvər paşa kəndi yavərləri ilə məclisə daxil [olur], Nazim paşa qətl [edilir], Kamil paşa istefa edir.

*Dördüncü pərdə*

Ənvər paşanın təhti-komandasında [başçılığı altında] Türk ordusu Ədirnəyə doğru hərəkət edirlər. O zaman içərisində Türk ordusunun gecə ikən istirahətidir. Rüfət bəy yatmış, uyquda Ədirnəyə hücum əmrini verir. Bu halda Xalid daxil olur. Rüfəti öldürmək, Zöhrəni əldən qaçırmamaq üçün birkərəlik onun şərindən xilas olmaq fikrinə düşür. Qılıncını çəkir, lakin onun uyquda Ədirnəyə hücum etmək əmrini verdiyini, hətta uyquda yaralandığını eşidib görüncə kəndisində bir hiss, vətənpərvəranə bir hiss

oyanır. Kəndisinin nə qədər alçaq və xain olduğunu duyur. Türklük qanı kəndisində cuşa gələrək qılıncı yerinə qoyur. Özünün günahlarını təsviyəyə [təmizləməyə] qalxışır. Rüfəti oyadır. Onun casus olduğunu bilən Rüfət ondan çəkinir. Xalid isə məqsədini ona anladır. Casusluğunu da etiraf edir. Ondan əfv istəyir. Öz qanı ilə günahını yuyacağını bildirir. Nəhayət, Rüfət onu əfv edir. Qərar qoyurlar ki, birlikdə Ədirnəyə hücum etsinlər. Əgər ikisindən birisi hərbdə şəhid olarsa, Zöhrə ötəkinin olar. Hər ikisi şəhid olarlarsa, ortada mövzuyi-bəhs [mübahisə ediləcək] bir şey qalmaz. Əgər salamat qalarsalar, duello edərlər. Böylə bir qərara hər ikisi razı olub ayrılırlar.

*Beşinci pərdə*

Ədirnənin surları [qala divarları] qarşısında iki bolqar zabiti vəziyyəti-siyasiyyədən, Müttəfiqlər arasındakı ixtilafdan, türklərin Ədirnəyə hücumundan, Ənvər paşadan bəhs edirlər. Bu halda Xalid gəlir. Xalid hər nə qədər kəndi fikrini, casusluq kimi bir alçaqlığı qəbul etdiyindən nə qədər peşman olduğunu, şu günahını ancaq Ədirnənin türklər tərəfindən fəth edilməsinə xidmət etməklə təsviyə edəcəyini söyləyirsə də, bolqar zabitləri bunu türklərin yaxınlaşması ilə Xaliddə hasil olan qorxuya həml etməklə söylədiklərini kinayə, yaxud şaqa [zarafat] zənn edirlər. Nəhayət, gedirlər. Ənvər, Rüfət daxil olur. Xalid özünü Ənvərə təqdim edir. Hətta casusluq vəsiqəsini də ona göstərir. Hər şeyi etirafla bərabər şəhərdə türk üsərasından [əsirlərindən] bir qüvvə təşkil etdiyini, əgər kəndisinə bir nəfər arxadaş verilərsə, şəhərə hücum əsnasında arxadan bolqar əsgərlərinə korluq verəcəyini, bununla şəhərin süqutunu təshil edəcəyini [asanlaşdıracağını] söyləyir. Və arxadaşlığı da Rüfət bəy əvvəldə etdiyi əhdinə görə qəbul edir. Ədirnəyə hücum edilir. Fəth edilərək qalası üzərində Türk bayrağı sancılır.

*Altıncı pərdə*

Ədirnə fəth edildiyindən Rüfət və Xalid kəndi əsgəri vəzifələrini bitirmiş olduqlarını bəyanla şəxsi işlərini təsviyəyə qalxışırlar. Duello edərkən Zöhrə gəlib çıxır. Mane olur. Bu halda Xalidi xəyanətə sövq edən Kamal gəlir. Hər bir şeyi etirafla kəndisini intihar edir. Xalid də Zöhrənin kəndi həmşirəsi olduğunu və onu qeyri-məşru [qanunsuz; yasaq] surətdə sevdiyini bilərək intihar edir. Faciə bitir.

* * *

"Ədirnə fəthi"nin icmalən mövzusunu bildiniz. İndi müəllifinin məsləki-ədəbisini bilməliyiz. Zira bir müəllif layiqincə tanınmazsa, hankı məktəbi-ədəbini qəbul etdiyi anlaşılmazsa, əsəri haqqındakı mütaliə və arçıq doğru çıxmaz. Bir əsəri-ədəbi hankı üsul ilə yazılarsa, öylə də qəbul edilib təhlil edilməlidir. Çünki biz ədəbiyyat aləmində ədəbiyyatın roman, teatro və hekayə qismində mübtədi [təcrübəsiz, yeni başlayan] haldayız.

Türk məşahiri-üdəbasından [məşhur türk ədiblərindən] Əbdülhaq Hamid bəyin "Duxtəri-hindu" [Hind qızı] ünvanlı əsəri, yanılmayırsam, Ömər Lütfü [Fikri] bəy tərəfindən "Təcrübeyi-intiqad" [Tənqid təcrübəsi] adı ilə tənqid edilmiş, müəllifinin məsləki-ədəbisi nəzərə alınmadığın-

dan əsəri təhlil olunmuş mühərririn [yazıçının] məsləki başqa, münəqqidinki [tənqidçinin] də başqa olduğundan ortada, bir növ, anlaşılmamazlıq vaqe olmuşdur.

Məsələn, Hamid bəy romantik bir mühərrir olduğundan "Duxtəri-hindu" da romantik bir əsərdir. Romantik mühərrirlər heç bir qanuna tabe olmaq istəməzlər. Onların şəxsi zövqləri onlar üçün bir qanundur. O öz düşüncə və mühakiməsində sərbəstdir. Onlar hər şeydə gözəlliyi güdərlər. Bu yolda hissiyyati-şədidəyə [şiddətli duyğulara] namütənahi [sərhədsiz] bir surətdə qapılarlar. Hələ bəziləri tarixi simalara istədikləri təbiət və xasiyyətləri vermək, tarixin xilafına hərəkət etdirib söz söylətdirmək səlahiyyətinə də malik bulunarlar. Kimsə də onları məsləklərindən dolayı müaxizə [məzəmmət] edəmməz. Romantiklər həyatı istədiyi təcəllidə [görünüşdə] görmək istərlər. Onu bir taqım rəngarəng əlbisələrlə süslərlər. Bu onların təbiətləridir. Bu nöqteyi-nəzərlə də "Duxtəri-hindu" yazılmışdır. Münəqqid isə onu realist bir əsər kimi qəbul etdiyindən, hər şeyi realist nöqteyi-nəzəri ilə təhlil etdiyindən, ortada bir anlaşmazlıq əmələ gəlmiş, "Çoban qızı nasıl olur ki, Yevropa təhsili görmüş bir adam kimi ifadeyi-məram edir" denilir. Budur ki, hər şeydən əvvəl mühərriri tanımalı, onun məsləki-ədəbisini bilməli, o surətlə də bəyani-əfkar etməlidir.

Cəfər əfəndinin "Ədirnə fəthi" əsərini müəyyən etmək bir qədər gücdür. Zira o nə romantik, nə də həyatın üryan tamaşasından zövq alan realistdir. Olsa-olsa, "Ədirnə fəthi" naturalist bir əsərdir. Daha doğrusu, bir az naturalist kimi görülür. İştə, biz də bu nöqteyi-nəzərdən "Ədirnə fəthi"nə baxmaq istəriz.

* * *

Vəhdətdən uzaşmayalım. "Ədirnə fəthi"ndə iki vəqə [hadisə] cərəyan edir. Birinci vəqənin qəhrəmanı Rüfət bəy, sevgilisi, təbiri-digərlə [başqa sözlə] məqsəd və qayəsi Zöhrə, aralıqdakı rəqibi də Xaliddir. Deməк, adi bir roman. İkinci vəqənin də qəhrəmanı Ənvər, qayeyi-amalı vətən, rəqibi Kamil paşa kabinəsi. Bu iki vəqə yek-digərinə [bir-birinə] qarışdırılmış, fəqət öylə bir surətdə qarışdırılıb bitişdirilmişdir ki, yek nəzərdə onun ayrı-ayrı şeylər olduğu sezilir. Yəni bu iki vəqənin hankısı əsas olduğu, hankısı hankısına qüvvət verdiyi anlaşılmayır. Çünki ikisi də bir bərabərdədir.

Pək haqlı olaraq gənc mühərrir arxadaşlardan birisi söyləyirdi: "Mən anlayammadım ki, Ədirnə fəthi zamanında bir romanmı vaqe olmuş və ya roman cərəyan edərkən bir Ədirnə fəthi vüqu bulmuşdur." Bu pək doğru, həm də əsaslı bir mülahizə, tənqidi bir mülahizə idi. Bu iki yek-digərindən ayrı olan mövzulardan gənc müəllif hankısını əsas qəbul etmişdir? Kim bilir, bəlkə, kəndiləri burasını əvvəlcə heç təxmin belə etməmişlər.

Əgər əsas Ədirnənin fəthi, vəqənin qəhrəmanı Ənvər paşa götürülmüş olsaydı, onda gərək Rüfət bəyin Zöhrə ilə müaşiqəsinə [eşqinə], Xalidin rəqabətinə, Kamalın intriqasına ikinci dərəcədə əhəmiyyət veriləydi. Həp qüvvət Ənvər paşaya, Ədirnə süqutuna və fəthinə, onunla əlaqədar olan fəqərələrə veriləydi. Yə-

ni lazım olan cizgilər ancaq Ədirnə fəthinə əsas ola biləcək bir dairədə çəkiləydi. Rüfətin müaşiqəsi Ədirnə fəthi zamanında vaqe olmuş bir roman kimi götürülməli idi.

Və yaxud əsas ikincisi, yəni Rüfətlə Xalidin mübarizəsi və yek-digəri ilə rəqabəti olmuş olsaydı, Ədirnə fəthi, Ənvər paşa, onunla əlaqədar olan Kamil paşa Kabinəsi, Nazim paşanın qətli və sairə ikinci dərəcədə buraxılmalı idi.

Doğrudur ki, teatro kimi əsərlərin içərisində tamaşaçıları yormamaq, onları məşğul etmək üçün romanlar icad edilir, müaşiqələr və şairanə təsvirlər ərz edilir. Fəqət bunların cümləsi ya əsasa qüvvət vermək üçün əsərə daxil edilir və yaxud vəhdətdən ayrılmamaq şərti ilə əsasın ətrafında dolaşmaqla yapılır. Habelə bunun əksini götürdükdə, romanların içərisində tarixi vəqələr keçirilir. Habelə bunda da əsas əgər roman olarsa, tarix ikinci dərəcəyə buraxılar, burada müəllif bir qədər romantik də ola bilər. Yəni tarixi vəqələri öz istək və arzularına görə təğyir və təbdil də edə [başqalaşdıra və dəyişdirə] bilər. Bunlar həp ikinci dərəcədə qaldığından bir o qədər əhəmiyyət verilməz. Yəni əsərinə və əsasına qüvvət vermək, istədiyi nəticəni əldə etmək üçün bunu yapa bilər. Zatən romantik mühərrirlər həp bu surətlə tarixi vəqələri, tarixi simaları təğyir və təbdil etmək səlahiyyətinə malik bulunurlar. Çünki bu kimi əsərlərdə əsas tarix deyil, roman və romanın nəticəsidir.

*(bitmədi)*

*Kazımoğlu*

**HAQQ YERİNİ ALDI**

Muğan nahiyə idarəsi və muğanlılar syezdi son iclasda Azərbaycan hökumətiməşruəsini [qanuni hökumətini] qəbul etməyə qərar verdilər. Nəhayət, Muğan macərası da bitdi.

Bakı və quberniyasının istirdadı [geri alınması] zamanı Lənkəran və Muğan səhrası tamamilə Azərbaycan Hökumətinin təhti-təsəllütünə [hökmü altına] keçirilməyərək, o vaxtdan bəri məzkur [adı çəkilən] əyalətin yüz minlərcə türk-islam əhalisi və onlarla bərabər külli miqdarda rus kəndliləri bir ovuc macəraçuların [avantüristlərin] əlində oyuncaq olmuşdu. Macərapərəstlər gah adlarını bolşevik qoymaq, gah [Lazar] Biçeraxova təzim edib mədhlər oxumaq, gah "mədəni xristianlıları" "barbar müsəlman"lara çiynətməmək [tapdalatmamaq, əzdirməmək] kimi təəssüb oyatmaq, bir vaxt Muğanı Şura Rusiyasının cümhur bir hissəsi elan etmək, gah da "vahid Rusiyanın ayrılmaz bir qismi" adlandırmaqla oranın zəhmətkeş kəndlilərini iğfal edib [aldadıb] kotanlarından, xışlarından, oraqlarından ayırıb, öz məqsədlərinə alət edirdilər.

Digər tərəfdən, yüz mindən ziyadə yerli türk-islam kəndliləri hər növ hüquqi-bəşərdən məhrum edilərək min dürlü zülüm və təəddilərə [insafsızlıqlara] məruz qalırdı. Muğanlıların fəryadı asimana bülənd olmuşdu. Nalə və əfqanları Azərbaycanı bürümüşdü. Fəqət bununla bərabər, övzayi-siyasiyyədən [siyasi vəziyyətdən], vəziyyəti-hazirədən dolayı Azərbaycan Hökuməti onlara imdad əlini uzadıb kömək edə bilməyirdi.

Nəhayət, zülüm və sitəm bir məqama çatdı ki, yerli əhali artıq tab gətirəmmədi. Səbir kasası doldu, aşıb-daşdı. Xalq öz məsələsini özü həll etməyə əzm etdi. Muğanda məhəlli "hökumət" müqabilinə [yerli "hökumətə" qarşı] inqilab başlandı.

Mühərririmizin keçən nömrəmizdə dərc edilmiş olan məktubundan görüldüyü üzrə, Muğanda əli silah tutan bütün azəri türklər silaha sarılaraq, nə- hayət, bu haqsızlığa xitam vermək üçün mübarizəyə başladılar. Şübhəsizdir ki, millət böylə əzm etdikdə, hökumətimiz dəxi laqeyd tamaşaçı olub qalmayacaq idi.

Bakıdan oraya general-qubernator, inzibat məmurları və əsgəri qüvvə göndərildi. Fəqət cəza dəstəsi kimi yox, qətliam üçün yox, haqqı yerinə yetirmək üçün göndərildi. "Oğlanlarım, siz hərbə gedirsiniz. Fəqət unutmayın ki, arvad-uşaqla dava etməyəcəksiniz. Silahlı kişilərlə hərb edirsiniz" deyərək göndərildi. Əsgərlərimizə bildirildi ki, türk-islam əsgəri arvad-uşaq, qoca və silahsız kişilərlə hərb etməz. Yəqindir ki, böylə təlim alan əsgər mümkün olan qədər müdara edəcəkdi [xoşluqla keçinməyə çalışacaqdı].

Nəticədə Muğan qan tökülməksizin deyə biləcək qədər yüngüllüklə alındı. (Bu xüsusda "Lənkəran" sərlövhəsi ilə öz mühərririmizdən aldığımız məktuba baxınız.) Əgər bir qədər atışma olmuş, bir neçə əsgərimiz, bir zabitimiz yaralanmış və tərəfi-müqabil bir qədər tələfat vermişsə, onun da təqsiri bizimkilərdə olmayıb, tərəfi-müqabil atəş açmışdır.

Xülasə, nasıl olmuşsa da, nəhayət, Lənkəran və Muğan təslim olmuşdur. Yüz mindən ziyadə türk-islam əhalisi bir dəstə quldura istinad edən bir ovuc macərapərəstin əlində əsirlikdən və həman dəstənin zülüm və sitəmindən xilas olmuşdur.

Doğrudur, həmişə əhalinin təəssübü ilə oynayan, çarlıqdan qurtardıqdan sonra da yenə də öz məqsədi üçün daima oranın rus əhalisinin təəssüb hissini qıdıqlamış olan rəislərin fəaliyyəti sayəsində Muğan syezdi Azərbaycan Hökumətinə tabe olduqda "özünü" "Böyük Rusiya"nın bir hissəsi sayaraq və rus oriyentasiyasını (təmayüli-siyasiyyəsini) buraxmayaraq qəbul etmişdir. Fəqət əmin oluruz ki, az bir zamanda səhvlərini anlarlar. Bu da Azərbaycan hökumət və əsgərlərinin rəftarı ilə əlaqədardır. İnanırız ki, bunlar öz münasibət və rəftarı ilə oranın rus əhalisinə nə qədər yanlış olduqlarını anladar və hökumətimizin ədalət və hüsn-rəftarı sayəsində rusların məhəbbət və hüsn-rəğbətini qazanarlar.

*X.*

## AZƏRBAYCAN DEMOKRATİYASININ YENİ NÜMAYİŞİ

Azərbaycan demokratiyası kəndi anlaq və idrakını bir daha nümayiş etdirdi. Avqustun 14-də özünü demokratiya pişrovu [öncüsü] adlandıran bir ovuc macərapərəst qarşısında özünün xeyir və şərini nə qədər anlamış, dərk etmiş olduğunu göstərdi və bu nümayişi ilə 3-cü, 4-cü dəfə utanmaz üzlərə tədib [tərbiyələndirmə] silləsi vurdu.

Kəndisini Fəhlə Konfransı adlandıran bir neçə bolşevik kommunistə bildirdi ki, onu heç bir bəhanə ilə iğfal etmək [aldatmaq] olmaz. Azərbaycan demokratiyası heç bir şeyə aldanıb kimsənin dalınca getməz.

Doğrudur, Azərbaycan və ümum Zaqafqaziya üzərində "vahid Rusiya"çılar təhlükəsi var. Doğrudur ki, nə qədər Denikin qüvvələri Dağıstanda durur, Azərbaycan demokratiyası heç vaxt rahat olmaz. Bunlar doğru.

Fəqət o da doğrudur ki, Denikin də, kommunistlərdən də, sağdan da, soldan da, hankı tərəfdən qorxu təhdid etsə, Azərbaycanı, Azərbaycan mənafeyini ancaq Azərbaycan demokratiyası, ancaq Azərbaycanı özünün və özünü Azərbaycanın hiss edənlər, Azərbaycan fikri ilə munis olmuş xalq müdafiə edər və qorur.

Bir kütlə ki Azərbaycanda oturub kənarı düşünə, bir kütlə ki Azərbaycanda yaşayıb onun haqlı amal və arzusuna zidd gedə, bir kütlə ki Azərbaycan demokratiyasının [xalqının] fikrini, məsləkini, amal və arzusunu bilmək belə istəməyə, əsl Azərbaycan demokratiyasını saymaq belə fikrində olmaya, bir kütlə ki Azərbaycanda oturub Azərbaycanı tanımaq istəməyə, o kütlə heç vaxt Azərbaycanı, onun mənafeyini müdafiə edəmməz, onun xeyrinə çalışıb dərdinə yanmaz.

Azərbaycan demokratiyası bunu anlamışdır.

Azərbaycan demokratiyası anlamışdır ki, bu qəbil adamlar Azərbaycan fikrini çəkməyir, onun dərdinə qalmayırlar. Ancaq o müqəddəs sözü əllərində bir alət qayırıb öz istədikləri vaxt, istədikləri məqsəd üçün ondan istifadə etməyə çalışırlar. Onlar Azərbaycan demokratiyasının amal və arzusuna, fikir [və] düşüncəsinə də xidmət etmək deyil, bəlkə o amal və arzu ilə oynayırlar və demokratiyanı oynadırlar.

Azərbaycan demokratiyası bunu bilmiş, başa düşmüşdür.

Odur ki qabaqkılar kimi bu dəfə də macərapərəstlərə bunu anlatdılar. Eyni zamanda may ayından bəri ikinci olmaq üzrə bu dəfə də Azərbaycan demokratiyası macərapərəstlərə anlatdılar ki, nə rəng və bəhanə ilə olur-olsun, nə vəsilə və vasitə ilə olur-olsun, hankı yol ilə getmək istənilir-istənilsin, heç kəs, heç qrup, heç firqə və heç təşkilat Azərbaycan daxilində həqiqi Azərbaycan demokratiyasının rəyi, rizası alınmadan heç bir iqdamata [işə] girişə bilməz, heç bir təşəbbüsdə buluna bilməz. Əgər cəsarət etsə də, heç vaxt müvəffəq olammaz.

Hankı firqə və təşkilat nə işə iqdam etmək istəsə, əvvəla, Azərbaycan demokratiyasının amal, arzu və mənafeyini nəzərə almalı, hərəkətini ona rəbt etməli [bağlamalı] və Azərbaycan demokratiyasının rəyini bilib rizasını hasil etməlidir. Yoxsa beş adam bir yerə yığılıb özünü demokratiya nümayəndəsi elan etmək və demokratiyanın rəyini sormadan onun adından danışmaq, tədbir tökməklə adam demokratiya pişrovu olmaz. Və öz məqsəd və arzusunu demokratiya boynuna bağlaya bilməz.

İştə, 14 avqust tətilini sındırmaq, yatırmaq, bərhəm etməklə [pozub dağıtmaqla] Azərbaycan demokratiyası bunu nümayiş etdirdi, bunu anlatdı. Burasını hamı nəzərə almalı və Azərbaycan demokratiyası ilə zarafat etməməlidir.

*Qarabağlı*

**LƏNKƏRAN MƏKTUBU**

Mən birinci məktubumda yazdığım kimi, bizimlə muğanlılar arasında iyul ayının 24-dən bu anadək Muğan macərasının sülh təriqi [yolu] ilə həll edilməsi barəsində danışıq davam edir. Hərçənd muğanlılar hər bir məktublarında sülh və müsalimət [əmin-amanlıq] tərəfdarı olduqlarını bəyan edirlərsə də, fəqət hər gecə onların qoşunları mütarikə şəraitini [atəşkəs şərtlərini] pozub bizim xəndəklərə qarşı atəş açırlar. Hətta arabir hücuma keçirlər. Əlbəttə, bizimkilər də cavab verirlər.

Bu cür xırda müsadimələr [toqquşmalar] nəticəsi olaraq biz 4 nəfər ölü, 10 nəfər yaralı tələfat vermişik.

Bu minval ilə iş avqustun 10-dək davam edirdi. İngilislərin qəti tələbi ilə muğanlılar Azərbaycan Hökumətinə tabe olmalı idilər. Nə səbəbdənsə vəqti-müəyyənədək muğanlılardan cavab çıxmadı. Şayəd bəzi hallar buna mane olduğunu zənn edirik. Azərbaycan Hökumətinin xüsusi vəkili muğanlılara yenə bavər edərək [inanaraq] cəbhəyə əmr vermişdir ki, muğanlılara atəş açılmasın və onların da əlinə bəhanə düşməsin.

Avqust ayının 10-da axşam bütün cəbhələrdə başlanan şiddətli atışma heyrətə bais oldu. Kimlər tərəfindən atəş açılmışdır? Əlbəttə, bizim cəbhələrdə komandanlıq edən Əhməd bəy cavab vermişdir ki, Lənkəran-Muğan poçta yolunda düşmənlər ibtida [əvvəla] atəş açıb, sonra bütün hissələrdən bizə tərəf bir duman gəlirdi.

Bundan sonra onlar cəbhə boyu hücuma keçdilər. Bu yürüş o qədər iti idi ki, birdən bizim xəndəklərə yanaşıb atdıqları bomba ilə bir pulemyot afiserini və bir əsgəri yaralamışlardır. Bizimkilər müdafiəyə girişməyə məcbur olmuşlardı. Tüfəng, pulemyot və topla onlara atəş açmışdıq.

İş səhərə qədər bu minval ilə keçdi. Sübh vaxtı isə hər iki tərəfin atəşi kəsildi, düşmənlərin bu həmlələri böyük tələfatla rədd edildi. Bizim tərəfdən üç nəfər yüngül yaralanan var, ölən isə yoxdur.

Böylə zənn etmək olar ki, muğanlılar özlərinin son güclərini təcrübə edirlər və qəsdləri də budur ki, bizi pərişan edib, sülh əqd edildikdə ağır şərtlər qoysunlar.

Fəqət bizim müqabiləmiz və onlara verdiyimiz tələfat onları qorxuzdu. Ona görə də avqust ayının 11-də gecə saat 1-də Azərbaycana tabe olacaqlarını İngilis Komandanlığına bildirdilər. Bu xəbəri alan ingilis komandanlığı xüsusi Azərbaycan vəkil[i] bu məzmunda bir məktub göndərmişdir:

*"İngilis heyətindən qubernator [Cavad bəy] Məlik-Yeqanova*

*Gecə saat birdə muğanlıların krayovı upravasından bir məktub aldım. Həman məktubda Azərbaycan Hökumətini qəbula hazır olduqlarını bəyan edirlər. Onların vəkilləri bu gün seçiləcəkdir. Onlar hazır olduğu kimi sizə məlumat verərəm. Birinci mitinqin nə vaxt olacağını da sizə bildirərəm. Ona görə sizdən rica edirəm, lütfən, iqdamatda bulunasınız ki, heç bir çıxış və hərəkati-hərbiyyə olmasın.*

*İngiltərə heyəti sədri: imza"*

Bu saat xüsusi vəkilin dəftərxanası Lənkəran şəhərində muğanlıların qurul-

tayında qoyulan qərarı almışdır. Həman qərardadda denilir:

*"Azərbaycan Hökumətinin muğanlılar tərəfindən qəbul edilməsi barəsində olan İngilis Komandanlığının tələbatını fövqəladə qurultay ətraflıca müzakirə edərək, Sülh Konfransı tərəfindən Azərbaycan sərhədi təyin edilərkən Lənkəran, Muğan mahalının da Azərbaycana idxal eylədiyini nəzərə alaraq, 9 may tarixi ilə İngiltərə Komandanlığının rəsmi "Azərbaycan" qəzetəsində Qafqaziyanın İngiltərə tərəfindən istila edildiyi elanı və muğanlıların Azərbaycana tabe olmaları barəsindəki ingilis tələbatını qanun hesab edərək və qan tökmək, Sülh Konfransının tələbinə əməl edən Müttəfiq Komandanlıq əleyhinə mübarizə etmənin qeyri-mümkün olduğunu etiraf edərək qərar qoyduq:*

*Biz özümüzü Böyük Rusiyanın bir hissəsi hesab, Rusiya oriyentasiyasını qeyb etməyərək, Azərbaycanın qanuni haqqını qəbul etməli, Muğan və Lənkəran mahallarında Azərbaycan Hökumətini tanımalı, istiqlaliyyət məsələsi Ümumrusiya Məclisi-Müəssisanında həll edilənədək Azərbaycan Cümhuriyyətinə daxil olmalı. Fövqəladə Muğan Qurultayı komissiyasına mühəvvəl edilir [tapşırılır] ki, bu şərait tərtib verilsin."*

Deməli, böyləliklə, muğanlılar Azərbaycan Hökumətini qəbul etmişlərdir.

Məktubun axırında İran sərhədinə yaxın olan kəndlilərin İran quldurlarından etdikləri şikayətlər dərc edilir, kəndçilər Azərbaycanın xüsusi vəkilindən rica edirlər ki, bu İran quldurları əleyhinə ciddi iqdamatda bulunsun.

## BAKI XƏBƏRLƏRİ

**Məclisi-Müəssisana İntixab komisyonu**

Ağustosun 14-də vaqe olan Parlaman iclasında Azərbaycan Məclisi-Müəssisanına intixab [seçki] təşkili üçün hər 4 əzadan [üzvdən] bir nəfər olmaq şərti ilə 84 üzvdən 21 nəfərdən ibarət bir komisyon təşkil edilmişdir.

**Cəmiyyəti-Xeyriyyədə**

*İsmailiyyənin əşyası*

İsmailiyyə imarətindən qalmış olan dəmir və qeyri bu kimi əşyanı toplayıb satmaq üçün Cəmiyyəti-Xeyriyyə Əsədulla Əhmədov, Hacı Qasımov və Qasım Qasımovu vəkil etmişdir.

*İsmailiyyə anbarları*

İsmailiyyə mülkündə üç anbar salamat olduğundan kirayəyə verilməsi təhti-qərara alınmışdır. Arzu edən Cəmiyyəti-Xeyriyyəyə müraciət buyursunlar.

*Qaçqınlar*

Cəmiyyəti-Xeyriyyəyə müraciət edən 14 nəfər Lənkəran qaçqınları, bir nəfər ərəb Cavad Kazım oğlu Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərilmişdir.

*Bənna lazımdır*

Cəmiyyəti-Xeyriyyənin İsmailiyyə binasını sökməkdən ötrü usta bənnalar lazımdır. Arzu edənlər Cəmiyyəti-Xeyriyyə idarəsinə müraciət buyursunlar.

**İngilislərin getməsinə dair**

İngilis qoşununu cabəca [yerbəyer] edən Komitə, ingilis qoşunu olan evlərin sahiblərinə məlum edir ki, onların hesabı 1919-cu ilin avqust ayının 20-də

veriləcəkdir. Evləri sahiblərinə təhvil vermək xüsusunda ev sahibləri əsgəri hissələrin evləri kirayə edən baş zabitinə rücu [müraciət] etməlidirlər.

Verilən məlumata görə, ingilislərin getmələri bu qərar ilə olacaqdır: avqustun 21-də onların Dəniz nəqliyyat idarələri gedib, 24-də isə axırıncı qoşun eşelonu yola düşəcəkdir.

İngilislərin Zaqafqaziyadan getmələrinə görə, ərkani-hərblərinin [hərbi qərargahlarının] avqustun 15-də gözlənən qəti ilğası [ləğvi] ayın 24-ünə qalmışdır.

Keçən gün Bakıdan Batuma bir eşelon ingilis qoşunu getmişdir.

**Lənkəran bolşeviklərinin vürudu**

Dünən səhər saat 10-da Lənkərandan gələn "Vyatka" adlı gəmidə 400 nəfərdən ziyadə bir dəstə erməni qırmızı qvardiyası varid olmuşdur [gəlmişdir]. Bunların içində bir qaç nəfər rus dəxi vardır. Varid olanlar öz əşyası ilə bərabər əsgərlər mühafizəsi altında körpüdən iskələ uçastokuna göndərilmişdirlər. Buradan isə, qaçqınlar öz vətənlərinə göndəriləcəklər. Yol ilə şu dəstə keçərkən dalıyca böyük bir izdiham gedirdi. Varid olanların zahirləri çox pərişan və surətləri ölü kimi idi.

**"Rossiya" və "Molot" qəzetələri**

Hökumətin binagüzarlığına [sərəncamına] görə, 31-ci nömrədə olan məqaləyə cəhət, "Rossiya" ruznaməsi qapanması ilə bərabər, Rus Milli Şurasının bundan sonra qəzetə nəşr etməsi qadağan olunmuşdur. Ruznamənin mətbəəsi dəxi möhürlənmişdir. Bolşevik "Molot" ruznaməsi isə zahirən qapadılmışsa da, ümum mətbəələrdən böylə bir məsləkdə ruznamə təb [çap] edilməməsi haqqında imza alınmışdır.

**Petrovsk-Bakı**

Rostovdan varid olanlar [gələnlər] məlum edirlər ki, Bakı-Petrovsk yolu kəsilməyə görə, sərnişinlər Petrovskdan gəmilərə minməli olurlar.

**Böyük bir ianə**

Bakıda sükunət edən O. Donqarov Ermənistanın paytaxtında teatro binası qoymaq üçün artist Orbelyans ixtiyarına yarım milyon manat buraxmışdır.

**Təəccüblü bir hadisə**

Torqovı küçədəki evlərin birisində sükunət edən X. xanım vəzi-həml etdikdə [doğduqda] ikisi oğlan, ikisi qız olmaq üzrə 4 uşaq doğmuşdur.

**Politexnik məktəbinə daxil olmaq şərtləri**

Bakı Politexnik məktəbinin 1-ci sinfinə daxil olmaq üçün imtahanlar hazır olunmuş, məramnamə surəti ilə sentyabrın 8-dən başlanacaqdır. Həqqi-tədris ildə 200 manat olub, əvvəlcə 100 manat birinci yarım illiyi verməlidir. Məktəbin hamı sinfinin təkrar imtahanı sentyabrın 1-dən başlanacaqdır. Sənət məktəbinə daxil olmaq üçün rusca və hesabdan imtahan sentyabrın 1-dən başlanacaqdır.

Məktəbə daxil olmaq istəyənlər[in] birsinifli ibtidai məktəbi tamam etmək şəhadətnaməsi olmalıdır. Slesar-mexanik şöbəsində 40, xarratlıqda 25, heykəltəraşlıqda 25 və zərbdə [metal zərbi; metala naxış basma işi] 15 yer vardır. Həqqi-tədris

ildə 60 manat olub, məktəbə daxil olduqda əvvəlcə nisfini [yarısını] verməlidir. Məktəbi tamam edənlərə öz ictihadına [səyinə, bacarığına] görə, kağız verilir. Politexnik məktəbinə məktəbin dəftərxanasında ərizələr avqustun 25-ə qədər qəbul olunur.

**Böyük oğurluğun açılması**

5-ci uçastokun pristavı Rəfizadənin eylədiyi binagüzarlıqlardan böylə məlum olur ki, Əliyevlərin və Babayevin Şüvəlanda 265.700 manat pulları oğurlanmasında dağıstanlı Ramazan Həsən oğlu, iranlı Ələmdar Məhəmməd oğlu, Şağan kəndinin sakinləri iki qardaş Firidun və Sadıq Teymur oğlanları, mərdəkanlı Xələf Qurbanqulu oğlu iştirak etmişlərdir. Məzkurlar [deyilən şəxslər] həbsə alındıqda kəndi oğurluqlarını inkar etməmişlər. Bunlardan Firidun və Sadıq oğurladıqları 4500 manat pul ilə qızıl güşvarəni [sırğanı] geri vermişlər. Bu əşxasdan [şəxslərdən] başqa oğurluqda Ramanı kəndinin sakini İman Abbasmirzə oğlu və Şağan kəndinin sakini Əlibala Paşa oğlu da iştirak edib, sonra da qaib olmuşlar.

**Birjada**

Pulların qiyməti təğyirsiz [dəyişməz] və süstdür.

**Valyuta**

Valyuta rəvaclaşır. Xüsusən Osmanlı lirəsi rəvaclaşmaqdadır.

* * *

Mal çox kasaddır. Böyük müamilə [əməliyyat; alış-veriş] yapmağa camaat ehtiyat edir. Satıcı alıcıdan çoxdur.

**Məşixətin xahişi**

Azərbaycan Məşixəti [Şeyxülislamlıq İda-rəsi] Bakı qubernatorundan xahiş edir ki, qəza polis məmurlarına Məşixətin binagüzarlıqlarına [sərəncamlarına] və buyruqlarına vaxtında əməl etmək haqqında binagüzarlıq etsin. Həmçinin qəza qazılarının da binagüzarlıqlarına öz vaxtında əməl etsinlər. Çünki bunlar da bu axır vaxtlarda qəzalarda işə soyuq baxmaqdan təkrar şikayət edirlər.

**Fəhlə həyatı**

"Kaspiyski tovarişestva"nın zavodunda çalışan Mirsadıq Mirağa oğlu nam əmələ [adlı fəhlə] Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinə müraciətən bəyan edir ki, həmin firmanın korpusundan bir maşina oğurlandığından mən məhkəməyə verilmişdim. Məhkəmə isə məni təqsirsiz bilib buraxdı. İndi həmin firma məni geri qəbul etməyir. "Müsavat" firqəsi bu barədə lazımi təşəbbüsatda bulunur.

**Buzovnada "Müsavat" şöbəsi**

Ağustosun 8-də 1919-cu [ildə] Buzovnada Türk Ədəmi-Mərkəziyyət firqəsinin şöbəsi açılmışdır.

**Tağıyev fabrikasındakı yanğın haqqında**

"Müsavat" firqəsinin İstixbarat şöbəsinə Tağıyev fabrikasında vaqe olan yanğın haqqında fabrika şöbəsi tərəfindən böylə məlumat verilmişdir:

Axşam ağustosun 3-də "Müsavat" şöbəsinin təşəbbüsü ilə ictima [yığıncaq] olub qərar qoyulmuşdur ki, tətil etməsinlər. İctima dağılarkən, anbarların birindən alov görünmüşdür. O saat şöbə

üzvləri trubaları kəsiblər ki, başqa anbarlara sirayət etməsin.

İstintaq vaxtı, iki rus arvadının xəbəri olduğu və irəlicə böylə bir əhvalat söylədikləri məlum olmuşdur. Arvadlar istintaq üçün əlan [hal-hazırda] həbs edilmişlərdir.

**İran fəhlələri haqqında**

Dəmir yollarında, xüsusən Xaçmaz mövqifində [stansiyasında] naibi-konsul Hacı xan tərəfindən İran fəhlələri haqqında görülən zülüm və əziyyət "Müsavat" firqəsinə yoldaş Balarza tərəfindən xəbər verildikdən sonra firqə İran konsuluna bu barədə müraciət etmişdir.

**Lənkəran qaçqınları**

Lənkəran cəhətlərindən gəlmiş 30 nəfərə kimi müsəlman qaçqınları "Müsavat" firqəsi tərəfindən Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərilmişdir.

**Kazaklardan şikayət**

Novxanı kəndi əhlindən Balakişi Ağakişi oğlu "Müsavat" firqəsinə müraciətən bəyan edir ki, Siyəzən mövqifindən üç verst kənarda olan bostanlarda gecə qaraqolda ikən üç nəfər 7-ci uçastok kazakları tərəfindən döyülüb və soyulmuşdur. Bu barədə "Müsavat" firqəsi Balaxana-Sabunçu polismeysterinə xəbər vermişdir.

**Bir təcavüz haqqında**

Quba qəzasına tabe Əmirxanlı köyü sakini Bibiqüds Əbdülqasım oğlu "Müsavat" şöbəsinə müraciətən xəbər verir ki, Çayılanköy əhli Kərbəlayı Sədrəddin Hacı oğlu onun gənc zövcəsini əlindən almaq istədiyindən, hər zaman ona dürlü-dürlü əziyyətlər edir, cürbəcür böhtanlar, iftiralar söyləyir, döyür və döydürür. "Müsavat" firqəsi bu ərizə barəsində Bakı valisinə xəbər vermişdir.

**Tətil üstə**

Ayın 14-də Tağıyev fabrikasında tətil etmək istəməyənlər tətilçilərin əleyhinə qalxmaq istəmişlərsə də, "Müsavat" firqəsi nümayəndə[si] vasitəsilə qabağı alınmışdır.

**Balaxanada**

Avqust ayının 13-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxanı kənd şöbəsinin əzaları [üzvləri] ilə bərabər, Balaxanı 4-cü uçastka müdiri və okolodoçnı [sahə polis rəisi] əksəriyyətlə cümlə rayonda olan mədənlərə gedib tətilə yol verməmişlər. İştirak edən əşxaslar [şəxslər] Ağabəy Misirxanov, okolodoçnı Hakimov, idarə əzalarından Balasadıq Zeynalzadə, Xeyrəddin Xeyrullazadə, Hümmət Əlizadə və Kərbəlayı Nurulla Tanrıquluzadə əfəndilərdən ibarətdir. Bu zatlar bacardıqlarıyca əlləşib, hər növ nitqlər söyləyib tətil qabağını almışlar.

## AZƏRBAYCANDA

**Qarabağdan**

Bu ayın 12-də Şuşada Qarabağ ermənilərinin ümumi syezdi açılacaqdır. Məlum olduğu üzrə bu yaxında məhəllimüzakirəyə qoyulacaq məsələlərin ən mühümü Qarabağ, Zəngəzur ermənilə-

rinin Azərbaycan Hökumətini qəbul etmək məsələləri olacaqdır.

Bu məsələ bundan qabaq neçə dəfələrlə başa gəlmiş syezdlərdə də müzakirə olunubdur. Lakin hər dəfə böylə qərar qoyub ki, Qarabağ erməniləri Azərbaycanı tanımaq istəmirlər. Bəhanələri də bu olub ki, guya Qarabağ erməniləri nə Azərbaycanı və nə də Ararat hökumətini tanımayırlar və özləri də köhnə zamanlar kimi, yəni Nikolay əsrində Rusiyada yaşadıqları kimi yaşamaq istəyirlər.

Ermənilərə deyəndə ki: "A balam, o zamanlar keçdi, indi nə Nikolay var, nə də Rusiya. İndi Azərbaycan Hökuməti var. Bəs siz Azərbaycanı qəbul etmədikdə sizin üsuli-idarəniz hankıdır?" Ermənilər buna cavab verirlər ki, bəs ki, biz hələ özümüz yaşamaq istəyirik.

Ermənilərin bu tövr politikalarını görən ingilis nümayəndəsi Mak-Mosen, general Şattlvort nə qədər ermənilərə və onların yığınlarına nəsihətlər etdilərsə də və hətta bir dəfə onlara acıqları tutub Gorus üstünə qoşun göndərmək istədilərsə də, "inadlı" ermənilər bunlardan qorxmayıb öz dediklərində davam etdilər.

Bu politikaların hamısını biz bilir və qanırdıq. Erməni syezdlərinin "inadlarını" və bu inadların nə qədər qiyməti olduğunu qarabağlı müsəlmanlar çox gözəlcəsinə anlayırdılar. Hamı bunu bilirdi ki, bu syezddə qətnamələr çıxardanlar hamısı daşnaklardırlar. Bu daşnaklar istəyirlər ki, adət etdikləri politikabazlıqlarını oynasınlar. Onlar Ararat hökumətin-dən milyonlarca pullar, polkovniklər – nizamnamələr, düsturüləməllər [təlimatlar] alıb burada da syezdlər vasitəsilə müəmmalı qətnamələr çıxartmaqla öz fikirlərini yürütmək istəyirdilər.

Azərbaycan Hökuməti isə hər işdə olduğu kimi Qarabağ məsələsinin də qan tökülməksizin sülh ilə həll edilməsinin tərəfdarı idi. Onun nümayəndəsi olan general-qubernator həmişə çalışırdı ki, ermənilərlə müsəlmanlar arasında qədimdən qalma yavuqluq [yaxınlıq] və kirvəlikləri yenə də bərdavam olsun [davam etsin]. O bilirdi ki, ermənilərin syezdlərindən çıxarılan qətnamələr ümum ermənilərin rəyləri deyildir.

Azərbaycan Hökuməti bilirdi ki, ermənilərin yüzdə doxsan prosenti [faizi] bunu yəqinən bilib və etiraf edir ki, Zəngəzur və Qarabağın erməni mahalları heç bir vaxt müsəlmansız dolana bilməyəcəklər. Ermənilər Ağdamdan, Yevlaxdan aldıqları və gözlədikləri nəfləri [faydanı] heç vaxt Ararat hökumətindən, İrəvandan gözləyə bilməyəcəklər.

Ermənilər yəqin bilirlər ki, Zəngəzur və Qarabağ erməniləri öz başlarına qalarlarsa, ilin dörddən bir vaxtını öz çörəkləri ilə dolana bilməzlər və İrəvan hökuməti də onlara beş girvənkə belə çörək verməyə qadir deyildir.

Həmçinin ermənilər bunu da etiraf edirlər ki, ermənistan müsəlmanıstandan ayrılıb, özləri öz başlarına dolanmaq istəsələr, maddi və iqtisadi cəhətlərdən həyat keçirməyə müqtədir olmayacaqlar. Çünki Qarabağ erməniləri ilə müsəlmanların həyati-iqtisadi və maddiləri biri-birləri ilə belə qarışıb, biri-birindən belə asılıdır ki, bu iki ünsür heç vaxt biri-birindən ayrı uzun bir müddət keçinə bilməyəcəklər.

Həmin bu fikirlə Qarabağ hökuməti var qüvvəsi ilə ermənilərin zülüm və azarlarından təngə, bizara gəlmiş müsəlmanları ümumi çıxışdan saxlayırdı. Amma bu tərəfdən ermənilərin xəyanətkaranə hərəkətləri, ötədə-bəridə müsəlmanlara hücumları, qətl-qarətləri bir dərəcəyə çatmışdı ki, axırda Şuşa şəhərinin içində əsgərlərin üstünə gəlib onları tərksilah etmək kimi cəsarət peyda etmiş idilər.

Bu sayaq ağıl və idraksız hərəkətlərin axırı buraya müncər oldu [bununla nəticləndi] ki, yüzlərcə evlər yanıb talan olundu və minlərcə uşaqlar, övrətlər yetim qalıb göz yaşları axıtdı. Zülüm, əziyyət hər iki tərəfin xalqına toxundu. Əsl həqiqi millət və camaat zərərdidə oldu.

İndi həman syezdlərin "qəhrəmanlarından" soruşulur ki, bu bədbəxtliklər, bu faciələr kimə və nəyə lazım idi? Bu göz yaşlarına, ah-nalələrə kimlərin ehtiyacı var idi? Əvvəlinci faciənin nəticəsində təkcə Qaybalı kənd camaatı fələkzədə oldusa, dərhal onlara general-qubernator kömək əlini uzadıb onlara pərəstarlıq [himayədarlıq] etdi.

Amma onun dalısınca Zəngəzurda onlarca müsəlman kəndləri yəğma edilib evlər dağıldı. Minlərcə müsəlmanlar xanimanı qarət edilib özləri darmadağın oldular. Amma o qaçqınların heç bir nəfərinə də bu günə kimi bir qəpiklik belə ianət edən yoxdur.

Politika işlədən, fitnəçilik edən birisi olur, amma zərər çəkən, evsiz, əmlaksız qalan yazıq, fəqir əhali olur. Bəla çəkən, xəsarət görən o adamlar olur ki, onlar nə Araratı və nə də başqa bir kənardan gəlmə adamları tanımayırlar və tanımaq da istəməyirlər. Onlar ancaq onu bilirlər ki, çörəkləri qurtaranda Ağdam bazarına gəlirlər, başqa mayehtacları [ehtiyac şeyləri, ehtiyac malları] da qurtaranda Yevlax stansiyası vasitəsilə öz mayehtaclarını gətirdirlər.

Bu ayın 12-də genə də syezd olacaqdır. Lakin bu dəfə gərək erməni camaatı özü öz fikrinə qalsın. Dəxi xəlvətdə şir, meydanda tülkü olan "qəhrəmanların" yağlı dillərinə aldanıb onları öz aralarına buraxmasınlar. Bu dəfə gərək əsl həqiqi erməni camaatı bunu bilsinlər ki, bu "qəhrəmanlar" ancaq dil pəhləvanıdırlar. Onlar söz danışmaqdan, qətnamələr yazmaqdan başqa heç bir işə qadir deyillər. Onların laəqəl [ən azı] bir həftə erməni mahallarına çörək verməyə də təvanası [gücü] yoxdur.

**Hacıqabul**

Lənkəranı qasiblərdən [qəsbkarlardan] xilas etmək üçün gedən qoşun səşənbə [çərşənbə axşamı] günü ağustosun 12-də öz rəisi general-mayor [Həbib bəy] Səlimov ilə bərabər Hacıqabula salamat varid oldu [çatdı]. General həman gün diqqəti-tamam ilə qoşunu nəzərdən keçirdi. O biri gün qoşun nümayiş yapdıqda böyük bir izdiham cəm olmuşdu. Musiqi dəstəsi qoşunu qarşılayırdı. Rəsmi-keçidi general-mayor Səlimov qəbul edirdi. Kəndilərinin az bir vaxtda təlim aldığından dolayı piyadalar, süvarilər, kazaklar, topçular, qazmaçılar, telefonçular, təftişçilər, makinalı tüfəngçilər öz vəzifələrini artıq dərəcədə gözəl ifa etdiklərinə cəhət kəndi rəisləri tərəfindən təhsin olunurlardı [alqışlanırdılar].

## ERMƏNİSTANDA

### Ermənistan əhvalı

Amerika heyəti Ermənistan müqəddəratı ilə məşğuldur. Avqustun 15-də Ermənistana gedəcək general Harbordun Ermənistana olan təcavüzatın qarşısını almaqda bir şey bacaracağına şübhə vardır. Çox güman var ki, Sülh Konfransı məzkur [adı çəkilən] generalın verdiyi məlumatla işləyəcəkdir. Başqa dövlətlər zahirən Ermənistanın böylə bir böhranlı hala düşməsində Amerikanı müttəhim edirlər. Amerika nümayəndələri deyirlər ki, mandat məsələsi Amerika tərəfindən həll edilməyincə, onlar heç bir iqdamatda buluna [təşəbbüs göstərə] bilməyirlər.

## İDARƏYƏ MƏKTUB

### Balaxanada teatro

İyul ayının 27-də Balaxanada Benkendorfun şərakəti [şirkəti] teatro zalında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxana kənd şöbəsi nəfinə [xeyrinə] olaraq Xeyrulla Hüseynzadənin müdiriyyəti ilə və Şirmirzə Babazadənin rejissorluğuna "Köhnə Türkiyə" adlı üç pərdəli teatro mövqeyi-tamaşaya qoyulmuşdu.

Teatroda mədaxil: 3924 manat;
məxaric 2301 manat 30 qəpik;
"Qardaş birliyi"nə ianə 500 manat;
xalis mənfəət 1122 manat 70 qəpik.

Bununla, cəmi o gündə teatroda iştirak edənlərə təşəkkürümüzü yetiririz. Xüsusən, Balaxana 4-cü uçastka nahiyə müdiri Ağabəy Misirxanov cənablarına ki, artıq fəaliyyətlə əlləşib 1500 manatlıq bileti bir tək özü satmışdır.

*İdarə*

### Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

### Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Bağ satılır**

Şüvəlanda, dəniz kənarında bir bağ satılır. Xahiş edənlər Naberejni küçədə 23 nömrəli evdə vaqe Əliabbas Əmiraslanovun dü-kanına müraciət edə bilərlər. Telefon nömrə: 5-02.

*7455*

**İtibdir**

Qəzənfər Kərbəlayi Ələkbər oğlunun Zaqafqaziya Ruhani İdarəsi tərəfindən verilmiş metrik şəhadətnaməsi itib. Etibardan saqitdir [etibarsızdır].

*7453*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Diş həkimi**
**B. M. Şternin**

Vorontsovski küçə nömrə 22, Karantinni küçənin küncündə. Telefon nömrəsi 48-15.

Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, ağrısız çəkilir və qeyriləri. Qəbul olunur səhər saat 9-dan 2-yədək; axşam saat 4-dən 7-yədək. Qiymətlər münasibdir.

*7413*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, Nəzarətin mallarını (məkulat) şəhərdə və şəhər ətrafında daşımağı podrata götürmək xahişində olanlar gərək avqust ayının 18-nə kimi müzayidədə iştirak etmək üçün ərizə verməli və məktubla öz şərtini bildirməlidirlər. Ərizələr Nəzarətin İdarəsində “Natsional” mehmanxanasında 24-ncü odaya verilməlidir.

*T-216*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 304. "Əmrnamə nömrə": qəzetdə nömrə göstərilməmişdir.

**Cümə günkü mühüm xəbərlər**

səh. 306. "Londondan xəbər verirlər ki, Ali Şura": qəzetdə "Ali" yerinə "Aləmi" getmişdir.

**Qəzetələrdən**

səh. 307. "Entransijan" [L'Intransigeant]: fransız qəzeti; əsası 1880-ci ildə qoyulmuşdur.

"fransız mətbuatı dediyi kimi": qəzetdə "dediyi" yerinə səhvən "indiki" getmişdir.

"Jenevski jurnal": 1826-1991-ci illərdə Cenevrədə nəşr edilmiş "Jurnal-de-Jenev" [Journal de Genève] adlı qəzet nəzərdə tutulur.

səh. 308. "Finlanda sosialistləri Rusya işlərinə müdaxilə edilmək ziddidirlər": qəzetdə "edilmək" yerinə səhvən "edilməmək" getmişdir.

**Türkiyədə**

səh. 309. "Gənc türklər" (yaxud "Jön türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

"Spartaklar": Almaniya marksistləri; ümumdünya proletar inqilabı tərəfdarı idilər.

**Macarıstanda**

səh. 310. "hersoq İosif": 1918-1919-cu illərdə Macarıstan regenti (müvəqqəti idarəçisi) olan İosif Avqust nəzərdə tutulur.

"Polk": Amerika Xarici İşlər Nazirliyinin Paris Sülh Konfransındakı nümayəndəsi.

**Arçıq – tənqid**

səh. 311. "Ədirnə fəthi" (yaxud "Ənvər bəyin Ədirnə fəthi"): Cəfər Cabbarlının pyesi.

səh. 313. "ortada mövzuyi-bəhs bir şey qalmaz": qəzetdə "mövzuyi-bəhs" yerinə "mövcudi-bəhs" getmişdir.

"Duxtəri-hindu": Türk şairi Əbdülhaq Hamid Tarhanın əsəri.

**Haqq yerini aldı**

səh. 316. "X.": bu imza Xəlil İbrahimə məxsusdur.

**Lənkəran məktubu**

səh. 318. Qəzetdə imzasız gedən bu məktub "Azərbaycan"ın Lənkərandakı xüsusi müxbiri Salman bəy tərəfindən yazılmışdır.

səh. 319. "Müttəfiq Komandanlıq əleyhinə mübarizə etmənin qeyri-mümkün olduğunu": qəzetdə belə getmişdir: "Müttəfiq Komandanlıq əleyhinə mübarizə isənin qeyri-mümkün oldusa".

**Bakı xəbərləri**

səh. 320. "ildə 60 manat olub": qəzetdə "60 manat" yerinə "605 manat" getmişdir.

səh. 321. "Kaspiyski tovarişevstvo" [Kaspi ortaqlığı; Каспийское товарищество]: Bakıda və Abşeronda neft istehsalı və ticarəti ilə məşğul olan şirkət. Əsası 1886-cı ildə Qukasov (Qukasyan) qardaşları tərəfindən qoyulmuşdu.

səh. 322. "Xeyrəddin Xeyrullazadə": qəzetdə səhvən "Xeyrülhüseyn Xeyrullazadə" kimi getmişdir.

**Azərbaycanda**
**Qarabağdan**

səh. 322. Qəzetdə imzasız gedən bu yazını Məhəmməd Sadıq Axundov (Aran) yazmışdır.

səh. 323. "ermənistan müsəlmanıstandan ayrılıb": "ermənistan" sözüylə Qarabağda ermənilərin, "müsəlmanıstan" sözüy-

lə isə Azərbaycanlıların çoxluqda olduqları yerləri nəzərdə tutulur.

**İdarəyə məktub**

səh. 325. "Xeyrulla Hüseynzadənin müdiriyyəti ilə": "Xeyrulla Hüseynzadə" yerinə güman ki, "Müsavat"ın Balaxanı şöbəsinin sədri Xeyrəddin Xeyrullazadə olmalıdır.

"Köhnə Türkiyə": Rza Zakinin faciə əsəri.

"Qardaş birliyi": Balaxanıda qurulan maarif cəmiyyəti.

**Çərşənbə axşamı, 19 avqust 1919-cu il, nömrə 255**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 22 zülqədətül-haram sənə 1337. 19 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## SİRK "MODERN"

Səşənbə günü avqustun 19-nda
1919-cu ildə

**indiyədək görünməmiş mübarizə günü**

Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 52-ci günüdür. 1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Məğlub olmamış türk pəhləvanı Gənc Əli və təzə gəlmiş pəhləvan Kreçot.

2-nci: Qırmızı Maska və Baxtıllov.

3-ncü: İki məşhur pəhləvanın görüşü: Kalişeviç – Staroşvili.

Tamaşa başlanacaq axşam saat 8 tamamda. Pəhləvanların çıxışı 11-in yarısında. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*7467*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Bakı qradonaçalnikinin əmri**
**Nömrə 45**

1919[-cu] ilin avqust ayının 17-dən

Aldığım məlumata görə, şəhərdə bir para müfəttinlər (provokatorlar) gah Könüllü qoşunun, gah bolşeviklərin hücumu və gah millətlər davası olacaq deyə camaatı qorxu və təşvişə salırlar. Məlum edirəm ki, bu xəbərlərin heç birisinin əsli yoxdur və ona görə də camaatdan xahiş edirəm ki, bu kimi müfəttinlərin buraxdıqları şayiələrə əhəmiyyət verməyib, rahat əyləşsinlər. Əlalxüsus bu barədə müsinnə övrətlərdən [qoca arvadlardan] xahiş edirəm.

Polis və xəfiyyə xidmətçilərinə böylə müfəttinləri arayıb-tapıb fövri [təcili] həbsə almalarını əmr edirəm.

Böylə müfəttinlərə məlum olsun ki, onlar üçün qanun dairəsində tənbehlər müəyyən etmişəm.

*Bakı qradonaçalnikinin vəzifəsini ifa edən rotmistr: Qudiyev*

**Əxzi-Əsgər İdarəsinin qərardadı**

1919-cu ilin avqust ayının 12-ci günündə Bakı qəzası Əxzi-əsgər [Hərbi çağırış] İdarəsi Bakı qradonaçalstvasında müvəqqəti sükunət edən gənclərin əsgərliyə dəvət olunmaları nə vaxt və nə qayda üzrə olmağı xüsusunda qət etmişdir [qərara almışdır] ki, Bakı, Balaxanı və Sabun-

çu polismeysterləri öz dairələrində sükunət edən və əsgərliyə dəvət olunası əşxasın [şəxslərin] siyahısını yazıb düzəltsinlər və şu polismeysterlər hər bir dəvət olunan gəncin ailə şəraiti xüsusunda kəndi göstərdiyi məlumatı da cəm etsinlər və əmr etsinlər ki, müəyyən gündə bunlar Bakı Əxzi-əsgər İdarəsinə toplandıqda, hər kəs kəndi ailə məişəti xüsusunda şəhadətnamə gətirsin. O şəhadətnamələr məhəlli [yerli] Əxzi-Əsgər İdarəsi tərəfindən təsdiq olunmalıdırlar.

Hər kəs böylə bir şəhadətnaməsiz gələrsə, idarə onun ailə şəraiti və halına baxmayaraq onu qoşuna əsgər təyin etmək üçün əxzi-əsgər rəisinin hüzuruna göndərəcəkdir. Hər kəs kəndisinin əsgər götürülməsini biqanun hesab edib narazı qalarsa, bir aya qədər şu xüsusda Bakı uyezdnı Əxzi-əsgər İdarəsi vasitəsilə Mərkəzi Əxzi-əsgər İdarəsinə ərizə verə bilər.

Bakı qradonaçalstvasında müvəqqəti sükunət edən gənclərin əsgərliyə dəvət olunmaları bu qərarla olacaqdır:

Bakıda:

1 sentyabrda 2 və 6-cı uçastoklarda;

3 sentyabrda 3 və 4-cü uçastoklarda;

6 sentyabrda 1, 5, 7, 9 və 10-cu uçastoklarda;

Balaxanı və Sabunçu polismeystrliyində:

8 sentyabrda 1, 2 və 3-cü uçastoklarda;

10 sentyabrda 4, 5, 6 və 7-ci uçastoklarda.

Əsgərliyə dəvət olunanların siyahısını pristavlar iclasdan əvvəl, yəni saat 9-a qədər idarəyə pişnihad [təqdim] etməlidirlər.

Əslini sədri-Bakı M. Əliyev və üzvlər: qəza əxzi-əsgər rəisi polkovnik Sədrəddin [Mirzə Qacar] və İ. Eldarzadə imza etmişlər.

*Əsli ilə səhihdir: M. Əliyev*

## ZAQAFQAZİYA KONFRANSI

Gürcü Hökuməti təklifinə görə Zaqafqaziya Konfransı yenidən dəvət edilmək üzrədir. Hər dəfə böylə təkliflər varid [daxil] olduqda, Azərbaycan Hökuməti həmıdan qabaq ləbbeyk [hazıram] deyir. Hətta çox vaxt böylə təklifləri Azərbaycan Hökuməti edir. Çünki hökumətimiz həmişə ümum millətlər, xüsusən qonşularla sülh və müsalimətlə [əmin-amanlıqla] yaşayıb, aramızda olan hər növ ixtilaflı məsələni də sülh təriqi [yolu] ilə həll etmək tərəfdarı olmuşdur. Başqa dürlü də ola bilməz. Zira birinci Azərbaycan Milli Şurası ilk dəfə istiqlal bünövrəsi qoyduqda, qonşumuz və ümum millətlərlə münasibatımız haqqında böylə bir xətt cızmışdır:

*"Azərbaycan Xalq Cümhuriyyəti ümum beynəlmiləl vahidlər və xüsusən həmhüdud olan millətlər və dövlətlərlə mehriban qonşuluq münasibatı peyda etməyə çalışır."*

*(Azərbaycan Milli Şurasının Azərbaycan İstiqlalını Mübəyyin Əqdnaməsi, 3-cü maddə.)*

Şübhəsizdir ki, bünövrəsi böylə qoyulan bir bina axıradək bu qərarla da getməlidir. Həm bu vaxtadək getmişdir də. Bizim Milli Şuramız da, Məclisi-Məbusanımız da, hökumətimiz də həmişə bu yolu tutub getmiş və heç vaxt bu yoldan ayrılmamışlardır.

Zaqafqaziya millətləri arasında ən böyük ixtilaflı məsələ torpaq və hüdud məsələsidir. Bu məsələlərdə bizim hökumətimiz daima həddindən ziyadə sülhculuq ibraz etmiş [sülhpərvərlik nümayiş etdirmiş], hətta öylə zaman olmuşdur ki, qayət böyük məsələlərdə ixtilaf çıxmasın deyə qonşularımıza güzəştə getmişdir. Azərbaycanın ayrılmaz bir qismi bildiyimiz və yerli əhalinin həmişə bu meyldə olub, fikrini də daima açıq-aşkara bildirməkdə olduğu Borçalı qəzasının bu vaxtadək Gürcüstan təhti-idarəsində [idarəsi altında] bulunması, eyni vəziyyətdə olmaqla bərabər, tam bir ildən bəridir ki, azərbaycanlılığını əldə silah olaraq müdafiə etmiş, daima Azərbaycanı gözləmiş və yüz minlərcə azəri-türk nüfusu olub, azərbaycanlılıq naminə yüzlər, minlərlə qurban vermiş olan Naxçıvan-Şərur, Vedibasar və sairə kimi ərazinin bu vaxtadək Azərbaycana ilhaq edilməməsi [birləşdirilməməsi] bu iddiamızı gözəlcəsinə isbat edir.

Yetər ki, bir dəfə mehriban qonşuluq münasibatına rəxnə vurmamaq üçün nə qədər güzəştlərə getdiyimiz, elani-istiqlaldan bu zamanadək həmişə qonşularımıza: gəliniz yığılalım, dərdlərimizi müzakirə edəlim, ixtilaflı məsələlərimizi birdəfəlik həll edəlim – deyə müraciətdə bulunduğumuz və həmişə, hər vaxt, hər dəfə qonşularımız bir yerə toplaşmağa meyl göstərdikdə birinci olaraq meydana atıldığımız nəzərə alınsın. O vaxt bizim nə qədər sülhcu, müsalimətpərvər [asayişsevər] olduğumuz gün kimi aşkar görülər.

Biz həmişə sülh və müsalimət tərəfdarı olmuşuz, böylə də olacağız. Binaənileyh [ona görə] də hər vaxt bu yolda bir addım atılmaq istənilsə, qabaqca bizim hökumətimiz olacaqdır. Necə ki, olmuşdur da. Fəqət, mütəəssifanə [təəssüf ki], bu vaxtadək yığılan konfransların heç birindən arzu etdiyimiz səmərə və nəticəni görmədik.

Zaqafqaziya millətləri arasında ölüm-dirim məsələsi təşkil edən torpaq və hüdud məsələsi nəinki hələ həll edilməmişdir, hətta bir çox yerlərdə qanlı müsadimələr [toqquşmalar] və uzun mübarizələrə belə bais olmuşdur. Hökumət və millətimizin arzusuna rəğmən sülh təriqi [yolu] ilə həll etmək istədiyimiz ərazi məsələsi açıq qalmış, hətta erməni qonşularımızla bəzi arzu olunmayan ixtilaflar belə çıxmışdır.

Bu dəfə dəvət olunan Zaqafqaziya Konfransını təhniyətlə [təbrik edərək], ona ənsəmimül-qəlb və məəlməmnuniyyə [məmnuniyyətlə] iştirak edəcəyiz. Yalnız istəriz ki, artıq bu konfrans əvvəlkilər kimi olmayıb, fəaliyyəti məhsuldar olsun və mehribanlıq və hüsn-münasibatımızı hər daim təhdid edən hüdud və ərazi məsələləri bu dəfə artıq qəti surətdə həll edilsin.

Əgər qonşularımız da bir qədər sülh və müsalimət tərəfdarı isələr, artıq onlar da bu konfransa xalis niyyət və səmimiyyətlə gəlib, müzakirə və münaqişədə bulunmaq deyil, məhsuldar fəaliyyətlə birdəfəlik bu mühüm məsələlərə xitam verməklə aramızda sülh, müsalimət və mehribançılıq peydasına çalışmalıdırlar.

*Xəlil İbrahim*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqrafı qəbul etmişdir)*

**İngiltərədə tətil**

İngiltərə qəzetələri İngiltərənin hər yerində başlanan tətili bolşeviklərin təşviqatı ilə təfsir edirlər. Qəzetələrin verdiyi xəbərlərə görə, hərgah son dəqiqədə əsgəri qüvvə çatmasa imiş Liverpul şəhəri bolşeviklər əlinə keçəcəkmiş.

**Danimarkda tətil**

Danimark paytaxtında tətil başlanıb, şəhər xidmətçiləri işdən əl çəkmişlərdir. Qaz zavodu, tramvay, pivə zavodu dayanmışdır. Dəmiryol xidmətçilərinin də tətil edəcəkləri gözlənir.

**Romaniyanın qalibiyyəti**

Beşlər Şurası qərara almışdır romaniyalılara cavab göndərsin. Bu cavabda romaniyalılara Peştə şəhərini tərk etmək əmri verilməyəcəkdir. Bu qərar üzrə romaniyalilar Sülh Konfransı ilə mübarizədə qalib gəlmişlərdir.

**Amerikanın tələbi**

Amerika ricali-hökumətindən [hökumət adamlarından] biri izhar eyləmişdir ki, amerikalılar romaniyalıların Peştədən getmələrini tələb etməkdə davam edəcəklərdir. Hərgah romaniyalılara öz məqsədlərinə nail olmağa yol verilsə, gözləmək olar ki, Almaniya hesablaşmayacaqdır... (Burada teleqrafın dalı alınmamışdır.) Amerikalılar Şura işlərində həqiqətən gücsüzdürlər. Romaniyanın hər bir tərzi-hərəkəti amerikalılardan ötrü ağır bir zərbədən ibarətdir.

**Rusiya-Polşa ittifaqı**

Bolşeviklər əleyhinə Rusiya-Polşa ittifaqı əqd etməkdən ötrü Kolçak Polşaya xüsusi səfir göndərmişdir.

**Rusiya məsələsi**

“Deyli xronikl” qəzetəsinin verdiyi xəbərə görə, Askvit demişdir ki:

*“Hərçənd bizim məmləkətimiz müharibə qurtarması münasibətilə şadlıq edir, lakin biz hələ sülhə nail olmamışıq. Bir para yerlərdə hətta neçə müharibələr davam edir. Bizim qarşımızda hələ dəhşətli bir Rusiya məsələsi vardır. Bütün dünya bu məsələnin qəti surətdə həll edilməsini tələb edir. Hamı bu rəyə gəlmişdir ki, Rusiyaya göndərdiyimiz qüvvələr xeyli zəifdir. Rusiyada hər gün İngiltərə qanı tökülməkdədir, İngiltərə pulları sərf olunmaqdadır, əsgərlər hələ Rusiyadan çıxarılmamışdır. Rusiyada olan əsgəri qüvvəni heç bir vəchlə artıra bilmərik. Biz müstəqil dövlətlərin daxili işlərinə qarışmamalıyız. Rusiyanın gələcək hökuməti nasıl olacaq o, Rusiyanın öz işidir.”*

**Tətilin qurtarması**

Hökumət komissarı Yuxarı Sileziya mədənlərində tətil edən əmələlərə [fəhlələrə] böylə bir təklif etmişdir:

1) Fəhlələr geri qəbul edilsin;

2) Fabrika və zavodlarda işlər başlansın;

3) Mühasireyi-əsgəriyyə yüngülləşdirilsin;

4) Siyasi məhbuslar azad edilsin.

Bu təklif Həmkarlar İttifaqı nümayəndəsi tərəfindən qəbul edilmişdir.

**Petroqrad altında**

Riqada nəşr olan “B. Z.” qəzetəsi xə-

bər verir ki, Finlandiya Hökuməti Petroqradı almağa müavinət etmək üçün hazır olduğunu Lloyd Corca xəbər vermişdir. Bu şərtlə ki, 300 milyon mark pul verilsin və mühimmati-hərbiyyə gətirilsin.

**Kolçakın hücumu**

Sülh Konfransına yaxın olan dairələr bu xəbərlə maraqlanmışlar ki, Kolçak İngiltərə və Amerika əsgərləri müavinəti ilə bolşeviklər əleyhinə böyük hücuma keçmək niyyətindədir. Parisdə olan rus dairələri ümidvardırlar ki, bu hücum müvəffəqiyyətli olacaqdır.

**Kömür qəhətliyi**

Qışda Münhendə kömür qəhətliyi gözlənilir. Məktəblərin bir hissəsi qapanır, böyük sənaət [sənaye] müəssisələri dayanmışdır.

**Xarkovda**

General Kutepov böylə bir əmr vermişdir:

*"Cinayətkaranə təşviqat davam edir. Bolşeviklərin qalibiyyətləri və tezliklə qayıtmaları haqqında şayiələr nəşr edilir. Böylə görünür ki, bolşeviklərdən bir çoxları azad qalıblar. Bu cür adamların tutulmasını əmr edirəm."*

**Bolşeviklərin məlumati-rəsmiyyəsi**

(Teleqrafın ibtidası [əvvəli] alınmamışdır) Biz 1000 nəfər əsir alıb, həştad pulemyot və iki yüz araba qənimət almışıq. Porxovun 40 verstliyində vaqe dairəni atəşə basmışıq. Orada düşmənlərin xəndəkləri varmış. Maribenburq səmtində tüfəng atışması ilə düşmənlərin həmləsini dəf eyləmişik.

Voronej - Xəbər verilir ki, Rostov-Donda kommunist firqəsi üzvləri əmələ arasında ciddi surətdə fəaliyyət göstərirlər. İki Kuban alayı Denikin komandasına itaət etməkdən imtina ilə xətti-hərbə getməmişlərdir.

Nauen - Alınan son xəbərlərə nəzərən Yuxarı Sileziyada kömür mədən əmələlərinin [fəhlələrinin] tətili get-gedə vüsətlənir. Şimdi tətil bütün kömür mədən dairələrinə keçmişdir. Belə ki, ümum mədənlərin yüzdə altmış faizi işləməyirlər.

Nauen - Ermənistan Cümhuriyyətinə mülhəq edilməsi [birləşdirilməsi] qət edilən Şərqi Anadoluda əhval gündən-günə kəskinləşir. Amerika divizyonu[nu] gəmilərə mindirmişlər ki, İstanbula göndərsinlər. Asiyayi-Suğrada [Anadoluda] olan Amerika nümayəndəsi tələb etmişdir ki, Asiyayi-Suğradan ingilis qoşunları çıxmasın.

"Forverts" bu məsələdən bəhs edərək deyir ki:

*"Parisdə təntənəli surətdə vəd edilən sülhü camaata vermək əvəzinə bir məmləkəti yenidən dəhşətlərə salıb zəif millətləri yenidən qanlı müharibələrə sövq edirlər."*

**Norveç Sosialist Firqəsinin qərardadı**

Xristianiya [Oslo] - Norveç Sosialist Firqəsinin qurultayı bu gün qurtardı. Ən sol sosialistlərlə mötədil sosialistlər arasında olan ixtilaf rəf edilmişdir [aradan qaldırılmışdır].

Şura təşkili barəsində olan məsələ bu il təxirə salınmışdır. Hələlik bu məsələdən ötrü firqələr ayrılmamışlarsa da, fəqət ayrılacağı şübhəsizdir.

Konqre əksəriyyəti rəy vermişdir ki, Moskvada əqd edilən 3-cü Beynəlmiləl Qurultaya mülhəq olsunlar [qoşulsunlar].

Konqre bolşevik Rusiyanın abluka [blokada] edilməsinə qarşı protesto eyləmişdir. Konqre Norveç əmələlərinə təklif edir ki, Rusiya, Finlanda əksinqilabçılarına heç bir cəhətdən müavinət edilməsin. Leninə təbrik teleqrafı göndərilmişdir. Bu qərarlar verilərkən mötədil sosialistlər məclisdə isbati-vücud [iştirak] etməmişlərdir.

* * *

Sızran - Xarkov şəhər teatrosunda polkovnik Sviderski mühazirə oxurkən camaatdan "Sən adam asan və cəlladsan" deyə qışqırmağa başlarlar. Dərhal bir dəstə afiserlər amfiteatroya hücum edib yeddi nəfəri tövqif [həbs] etmişlərdir. Bunların həpsi Divani-Hərbə [Hərbi məhkəməyə] verilir.

Lion – "Frankfurtski qəzetə"nin sözünə görə, hersoq İosif [Avqust] "korolevski prins" deyə sənədləri imza edir. Yeni hökumət təşkili üçün müttəhid [birləşmiş] hökumətlə olan danışıq müvəffəqiyyətli surətdə irəliləyir.

Moskva - Koreyanın istiqlalının elan edilməsi münasibətilə vaqe olan mitinqdə qərar qoyulmuşdur ki, Rusiyada və Sibiryada olan koreyalılar cəm edilib, yaponları Koreyadan qovmaq üçün Sibiryaya sövq edilsinlər.

Kiyev - 14 avqustda olan Ukrayna müharibə əməliyyatı: Sarnı səmtində bizim hissələr Strelsk – Çudel xəttinə çəkilirlər. Üç günlük müharibədən sonra bizim hissələr Rovnonu tərk etdilər, biz Dolbunovo mövqifini də tərk eylədik. Vladimirets qəsəbəsi dairəsində düşmən təyyarələri bizə hücum etmişlərdir, lakin onları dəf eyləmişik.

Starokonstantinov səmtində Bazaliyanın 15 verstliyinə düşmənlər cəm olurlar. Bizim hissələr səngərlərini saxlayırlar. Hakəza [eləcə də], hissələrimiz Dnepr limanındakı səngərlərini mühafizə edirlər.

Oçakov dairəsində düşmən gəmiləri Oçakovu bombardman etmişlərdir. Xerson dairəsində ingilis gəmiləri bizim gəmiləri atəşə tutmuşlardır. Düşmən hidroplanları vağzal dairəsini bombardman eyləmişdir, fəqət bizim toplarımız onları qovmuşdur.

Daxili cəbhədə - Xristinovka mövqifi [stansiyası] dairəsində bizim hissələr Petlyuranın müntəzəm dəstəsi və bandaları ilə müharibə edirlər. Mövqif əldən-ələ keçir. Razdelnaya mövqifi dairəsində nemeslərin üsyanı tərk edilmişdir.

Kiyev - Çerniqov quberniyasında əksinqilab sui-qəsdi kəşf edilmişdir. Çerniqov şəhəri, Çerniqovski, Konotopski qəzaları idareyi-əsgəriyyə [hərbi rejim] altında elan edilmişdir.

**Bolşeviklərin məlumatı**

Moskva - Avqust ayının 15-də olan müharibə xəbərləri. Şimal cəbhəsində Şimali Dvina səmtində Şimali Dvinanın hər iki tərəfində qızğın müharibə gedir.

Petrozavodsk və Olonets səmtində, Sundozero səmtində Sundozero ilə Samozero arasında bütün yerlər tərəfimizdən işğal edilmişdir.

Qərb cəbhəsində - Pskov dairəsində,

Proxorov dairəsində bizim cəbhələr şiddətli müharibə ilə Proxorovun 20 verstliyində bir neçə kəndləri işğal eylədilər.

Vilen səmtində Vileykanın 45 verstliyində vaqe Borslav denilən yeri tərk eylədik. Borisovka səmtində Borisovkanın 10 verstliyində vaqe yeni səngərlərə çəkildik.

Cənub cəbhədə Poltava səmtində bizim hissələr Xorol və Romodan mövqiflərini tərk etdilər.

Moskva – Axtır[ka] səmtində düşmənlərin təzyiqi altında biz Serovatka mövqifini tərk eylədik.

Balaşov dairəsində - Balaşovun 50 verstliyində bizim hissələr müvəffəqiyyətlə yürüşlərində davam edirlər.

Krasnoyar səmtində bizim hissələr müharibə ilə Ters[a] xəttinə çıxdılar.

Orenburq səmtində bizim yürüşümüz bütün cəbhə boyu müvəffəqiyyətlə davam edir. Biz Donquzskoye mövqifini işğal eylədik. Bu mövqif Orenburqun cənub cəhətinin 25 verstliyindədir.

Verxneuralsk dairəsində biz şərq tərəfə yürüşdə davam ediriz.

Çelyabinsk dairəsində bizim qoşunlar hücumu müvəffəqiyyətlidir.

Kurqan dairəsində bizim pişdarlarımız [qabaqda gedən, avanqard hissələrimiz] Kurqana yaxınlaşmışlardır.

Kursk - Ağməsciddə (Simferopolda) şəhərin mərkəzində məşhur Türkiyə bolşeviki Mustafa Sübhi dabravollar tərəfindən asılmaqla edam edilmişdir. Sübhi 3-cü beynəlmiləl qurultayında iştirak etmişdir. Mustafa Sübhini dabravollar başıaşağı asmışlardır. Tam 24 saat bu halda qalmışdır. Cənazəsi üstündə üç dildə böylə yazılmış imiş: "Bütün bolşeviklərlə biz böylə rəftar edəriz."

Moskva - Kerjentsev "İzvestiya" qəzetəsində yazır:

*"Kerenski Kabinəsində olan Bəhriyyə naziri [Vladimir İvanoviç] Lebedev Müttəfiqlərin Rusiya siyasətini tənqid edir. Özünün müttəfiq diplomatlarla müttəfiq işlədiyinə bir yekun verərək təsdiq edir ki, Müttəfiqlər Rusiyada nemeslərin əleyhinə cəbhə hazırlamaq bəhanəsi ilə Sibiryada və Rusiyada irticai qüvvələri bərpa etməyə çalışmışdır. Yalnız ən ciddi monarxistlər, müttəfiq diplomatları və çar generalları özlərinə istinadgah hesab etmişlərdir."*

Lebedev əlavə edir ki, müttəfiq diplomatlar həmişə vahid Rusiya iddiasında ikən, həqiqətdə isə Avropa Rusiyasını İngiltərə və Fransa nəfinə [xeyrinə], Sibiryanı da Yaponiya nəfinə bölmək siyasətini aparmışlardır.

Bu fəqərələri yazdıqdan sonra Kerjentsev deyir:

*"Sağ eserlər öz səhvlərini gec başa düşmüşlərdir. Sağ eserlərin möhlik [təhlükəli] siyasətləri Rusiyada qara işlərini gördü. Rusiyanın sosial-etilafçıları hər kəsdən əvvəl Denikinə və Kolçaka müavinət etmişlərdir."*

**Nyu-York iskələsində**

Paris qəzetələrinə yazılır: Amerika bəhriyyunlarının [matroslarının] tətilindən dolayı Nyu-York iskələsinə [limanına] 500-dən ziyadə paroxod cəmləşmişdir. Atlantik dənizinin digər iskələlərində 700 paroxod cəmləşmişdir ki, bunların ədədi getdikcə artır. İskələ qulluqçuları da tətil etdiklərindən paroxodları nə boşaltmaq, nə də yükləmək mümkün olmayır. Körpülərdə bir çox mallar vardır ki, bunların bir qismi tez xarab olan şeylərdir.

**Xəlil paşanın qaçması**

Gürcüstan Teleqraf Acenti avqustun 16-dan xəbər verir:

İngiltərə məlumatı.

Liondan verilən xəbərlərə görə, neçə gün bundan əqdəm [qabaq] məşhur türk generallarından və "İttihad və Tərəqqi" firqəsinin ən fəal üzvlərindən olub neçə ay həbsdə qalmış Xəlil paşa həbsxanadan və İstanbuldan qaçmışdır. Onunla bərabər Yeni türklərdən Kiçik Tələt bəy dəxi qaçmışdır. Məlum olduğu üzrə Xəlil paşa sabiqdə 6-cı Türkiyə Ordusunun Baş Komandanı olub Qafqaz cəbhəsində, Beynənnəhreyndə müharibə əməliyyatında iştirak etmiş və Bakı türklər tərəfindən işğal edildikdə bir neçə gün burada qalaraq İstanbula getmişdi. Xəlil paşa Ənvər bəyin əmisidir.

## QƏZETƏLƏRDƏN

**"Hümmət" firqəsi**

Rusiya Kəndli Firqəsinin Mərkəzi Komitəsi "Hümmət" kommunist firqəsinin davamına icazə vermişdir. Avqustun 2-də "Hümmət" firqəsinin Hacı-Tərxan komitəsi intixab edilmişdir [seçilmişdir]. Komitə heyətinə daxil olan bunlardır: Samurski, Tanrıqulov, katib Şahbazov.

**Almaniyanın Şərq siyasəti**

Fransa mətbuatı Almaniyanın əcnəbi siyasətində müşahidə edilən təzə cərəyana diqqət edir. Bu axır həftə alman qəzetələri Rusiya ilə yaxınlaşmağa dəvət edici məqalələr ilə doludur. Yeni Almaniyadan ötrü Rusiya ələlümdə ticarət və sənaət [sənaye] bazarı olmaqla bərabər, onun gələcək siyasəti üçün bir alət olmalıdır. Almaniya öz mühacirlərini Şərqə və Balkana göndərib, bu siyasətdə davam edəcəkdir ki, bunu da Bismark qeyd etmişdir.

Bu münasibətlə Parisdə nəşr olan "Jurnal" qəzetəsi yazır ki, Rusiyada kifayət qədər neçə alman agentələri vardır. Bunlardan bir paraları hətta hökumət başında durmağa da imkan bulmuşlardır. Belə ki, Türküstanda xalq komissarlarının bir qədəri Vilhelmin təbəələrindəndirlər. Qəzetə axırda deyir ki, sülhün imza edilməsinə baxmayaraq, əqəllən [ən azı] təzə bir şəkildə də olsa müharibə davam edəcəkdir.

**Dalmaçya sosialistləri**

Dalmaçya sosialistlərinin Spalatoda olan konfransında – ki Sibirya sosialistləri də iştirak edirmiş – bir qətnamə qəbul edilmişdir. Bu qətnamədə konqre sırf xorvat və slavların milli ittihadının [birliyinin] lazım olduğunu etirafla [qəbul etməklə], füqərayi-kasibənin [proletariatın] sinfi mübarizəsini[n] hər halda birinci növbədə qoyulmasını lazım hesab edir. Bununla bərabər qətnamədə bir maddə vardır ki, heç bir mətbəə mürəttibi Rusiya bolşevizmi əleyhinə bir şey düzməyib çap etməməlidir.

**Qaib olmuş səyyahlar**

Bir ay bundan əqdəm Pyatiqorskdan Elbrusa səyahətə gedən iki dəstə şagirdlər qaib olmuşlar. Bunlardan bir xəbər verən yoxdur.

**İngilislərin getməsinə dair**

İngilislər Bakıdan gedəndən sonra

şimdiki ştab rəisi polkovnik Klatterbakın təhti-nəzarəti ilə [nəzarəti altında] Bakıda bir dəstə ingilis nümayəndəsi qalacaqdır.

**İngiltərədə tətil**

İngilis qəzetələri İngiltərədə olan ümumi tətili bolşeviklərin təsiri ədd [hesab] edirlər. Qəzetələrin yazmağına görə, axır anlarda qoşun kəndisini yetirməsəydi Liverpul şəhəri bolşeviklərin əlinə keçəcəkmiş.

**Bolşeviklərin əleyhinə**

Kolçak Lehistan [Polşa] ilə birləşib bolşeviklərin əleyhinə iş görmək xüsusunda müzakirə üçün Lehistana nümayəndə göndərmişdir.

## TÜRKİYƏNİN SON MÜXTİRƏSİ

İstanbuldan Parisə əzimət edən [gedən] Türkiyə heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Versal Sülh Konfransına mütəəddid dəfələr müxtirə [yazılı xəbərdarlıq] və notalar verərək, Türkiyə hüququnu Konfransa tanıtdırmaq istəmiş, fəqət müsbət bir cavab alammamışlardır.

Heyəti-mürəxxəsə rəisi və hal-hazırda Türkiyə Sədr-əzəmi Damad Fərid paşa Versal Sülh Konfransına son dəfə bir müxtirə verərək Parisdən ayrılmışlardır.

Müxtirəyə cavab olaraq Fransa Baş vəkili [Baş naziri] və Sülh Konfransı rəisi müsyö Klemanso bir məktub yazmışdır. Gərək müxtirəni və gərəksə Klemansonun məktubunu siyasi bir vəsiqə olmaq etibarı ilə qəzetəmizə nəql ediriz.

Fərid paşanın müxtirəsi:

*"Əfəndilər!*

*Əgər milləti-Osmaniyyənin Avropa ilə Asiyanı qan və ataş içində boğan hərbin yeganə məsulu olduğuna qane olsaydım, bu məclisi-ali hüzurunda isbati-vücud etmək cəsarətini göstərməyəcəkdim. Bu müxtirədə verməyə məcbur olduğum izahat və təfsilat heç şübhəsiz ki, məzur görüləcəkdir [üzrlü sayılacaqdır]. Zira bu məsələdə cahan əfkari-ümumiyyəsi [ictimaiyyəti] hüzurunda ən müşəvvəş [qarmaqarışıq] və ən ziyadə fəna tanınmış davanı müdafiə etmək nöqtəsi mövzu-bəhsdir.*

*Hərbi-ümuminin bidayəti-infilaqında [Dünya müharibəsinin qopmasının başlanğıcında] vicdani-ümumi türklərə ətf edilən cinayətlərdən dolayı qələyan və həyacana düşmüşdü.*

*Bəşəriyyətin vicdanını əbədi bir hissi-xəşyət və fəcaətlə [dəhşət və faciə hissi ilə] doldurmuş olan bu cinayətlərin əhəmiyyətini kiçiltmək fikir və niyyətində bulunmadığım kimi, böyük faciə aktyorlarının məsuliyyətini də təxfifə [yüngülləşdirməyə] çalışmayacağam.*

*İstehdaf etdiyim [hədəflədiyim] qayə dəlail və vəsaiqlə [dəlillər və sənədlərlə] bu məşum cinayətlərin həqiqi faillərini iraədən [göstərməkdən] ibarətdir.*

*Biz ətrafımızı mühit olan [əhatə edən] xüsumətin [düşmənçiliyin] dərəceyi-şiddəti haqqında xəyalata qapılmayırız.*

*Biz surəti-qətiyyədə qane bulunuruz ki, fəci bir silsileyi-vəqaye Türkiyəni qeyri-müsaid rənglərlə göstərdi. Məmafih [bununla belə], həqiqət təzahür etdiyi kimi, mütəməddin millətləri, haqqımızda verilmiş olan hökm və qərarın bütlanı [batil olması] haqqında tənvir və irşad*

*edəcəkdir [məlumatlandıracaq və onlara doğru yolu göstərəck].*

*Padşahın və millətin məlumatı olmaqsızın bir alman admiralı tərəfindən dəröhdə edilən hərb məsuliyyətini, milləti-Osmaniyyə ilə Avropa hökumətlərinin halən mətni və mündəricatını bilmədikləri bir müahideyi-xəfiyyə [gizli saziş] təqib etdi.*

*Bu etilaf [razılaşma] Hökuməti-qeysəriyyə [Kayzer hökuməti] ilə 1913 sənəsinin bidayətində [əvvəlində] bir zərbeyi-hökumət [hökumət çevrilişi] nəticəsi olaraq rə'si-kara [iş başına] gəlmiş olan ixtilalçı bir komitənin rüəsası [başçıları] arasında əqd edilmişdir [imzalanmışdır]. Bu xüsusda hökuməti-mətbuələri [vətəndaşı olduqları hökumət] ilə Fransa süfərası [səfirləri] arasında təati edilmiş [alınıb-verilmiş] olan rəsmi teleqrafları şahid göstərirəm.*

*Hərbin ərəfeyi-elanında [elan edilməsi ərəfəsində] Rusiya ötədən bəri İstanbul üzərində bəslədiyi amal və ehtirasatı izhar etdi. Bu amal və etirasat millətə qəribül-vüqu [baş verməsi yaxın olan] bir təhlükə surətində göstərildi. Mirasi-əcdadı müdafiə etmək arzusu o zamandan etibarən mücadiləni birəhmanə və nomidanə [amandız və ümidsiz] bir hala ifrağ etdi [çevirdi]. Xəzineyi-vəsaiqimizi [sənəd xəzinəmizi, arxivimizi] məclisi-alinizin əmrinə amadə [hazır] bulundururuz. Bu vəsaiq [bu sənədlər] türk millətinin məsumiyyətini nəzərinizdə isbat edəcəkdir.*

*Digər vəqayeyi-fəciəyə [faciəli hadisələrə] gəlincə, bir çox dəfələr Məclisi-Əyani-Osmanidə [Osmanlı Əyan Məclisində] vüqu bulan bəyanata ircayi-nəzər edirəm [nəzər salıram].*

*Türkiyə bir çox xristian vətəndaşları ilə bərabər bir çox islam qardaşlarının da qətlinə ağladı. İttihad və Tərəqqi Cəmiyyəti xristianlara iqa edilən cinayat ilə iktifa etməyərək [işlənən cinayətlərlə kifayətlənməyərək] üç milyon müsəlmanı da məzbəhəyə [qəssabxanaya] sövq etdi. Yurdlarından qovulan bu bədbəxtlərin yüz minlərcəsi bu gün Anadolunun ortasında vəsaiti-həyat və məişətdən [yaşamaq və dolanışıq üçün lazım olan vasitələrdən] məhrum bir halda bulunur. Gərək müsəlman və gərək xristian; bir çox islam və xristian köylər və qəsəbələr tamamən təxrib edilmişlərdir.*

*Anadolu bu gün vase [geniş] bir xarabazardan başqa bir şey deyildir.*

*Hökuməti-hazirə dirayət və kəyasətinə [bilik-bacarığına və uzaqgörənliyinə] rəğmən, bu müsibətin nətayic və təsiratını [nəticələrini və təsirlərini] təsbit edəcək bir halda deyildir. Məhəllində [yerində] icra ediləcək təhqiqat bu bəyanatımı təyidə tövsiq edəcəkdir [doğruluğunu sənədlərlə sübut edəcəkdir].*

*Məmafih cəbr və təzyiqin haqqa qarşı qolaylıqla qabili-tətbiq olduğu dəqiqələrdə belə türk milləti hakimiyyəti altına vəz edilmiş [verilmiş] olan xristian vətəndaşlarının həyatına, namusuna və qəvanini-müqəddəsəyə [müqəddəs qanunlara] daima hörmət və riayət göstərmişdir.*

*Binaənileyh [ona görə], türk millətini, kəndisini fəna bir surətdə göstərən yeganə bir dövrəyə nəzərən tədqiq və mühakimə edəcəyi yerdə, mazisi [keçmişi] nöqteyi-nəzərində tədqiq etmək daha müsib [səhvsiz] və doğru bir hərəkət olacaqdır.*

*Türk ixtilalçılarının manevrələri və prinsipləri nə olursa olsun, rus ixtilalçıları*

*tərəfindən təqib və tətbiq edilən əsasat [prinsiplər] xilafına olaraq, cəmiyyətin əsasatını təsbit etmək qayeyi-yeganəsini istihdaf edir. Avropa ilə Amerika naməhdud fədakarlıqlar bahasına olaraq, Etilaf [Antanta] dövlətlərinə qarşı nifrət və xüsumətləri [düşmənçilikləri] o zamankı türklərin tərzi-hərəkətindən pək az fərqli bulunan slav millətini qurtarmağa çalışırlar.*

*Bu iki millət sükuta icbar [məcbur] edilmişlər və milləti naməsbuq [görünməmiş] bir zülüm və istibdadla fəlcə uğratmışlardır [iflic etmişlər]. İttihad və Tərəqqinin təhti-təhəkkümündə [hökmü altında] bulunmuş olan türklər terrorizm idarəsi altında bulunan ruslar kimi eyni vəziyyətdə bulunurlar. Binaənileyh türklər də cahanın tale və müqəddəratını əllərində bulunduran millətlər tərəfindən eyni müzahirət [kömək] və məhəbbətə müstəhəqq [layiq] bulunurlar.*

*İstanbulda cərəyan edən ittihadçıların böyük mühakiməsi İttihad və Tərəqqi rüəsasının Türkiyənin hərbə surəti-düxulundakı [müharibəyə girməsindəki] və dörd sənə zərfində cərəyan etmiş olan vəqayeyi-əlimədəki [kədərli hadisələrdəki] məsuliyyətlərini isbat etdi. Bu surətlə cahani-mütəməddinənin [mədəni dünyanın] ənzarı [gözləri] önündə iadeyi-etibar və heysiyyət etmiş [etibar və heysiyyətini özünə qaytarmış] olan Osmanlı milləti, istiqbalda [gələcəkdə] bütün qüvvətlərini Cəmiyyəti-Miləldə [Millətlər Cəmiyyətində] nafe [faydalı] bir üzv ola bilmək üçün mütəmadi və hərsi [mədəni] bir qeyrətə həsr və vəqf edəcəkdir.*

*Türk milləti şimal-şərqi hüdudlarında hökm sürən mübhəmiyyət yerinə, bir dövreyi-nizam və sükutun iqamə ediləcəyini [meydana gətiriləcəyini] ümid edir.*

*Bundan başqa işğal edilmiş olan ərazinin təxliyəsini də tələb edir. İşğali-əcnəbi İzmirdə əlim nəticələr tövlid etmiş [doğurmuş] və orada müdafiəsiz ünsüri-islama qarşı bir çox məzalim [zülümlər] iqa edilmişdir.*

*Türk milləti son dörd sənə zərfində ən məhdud hüduda irca edilmiş [qaytarılmış; sıxışdırılmış] olan Osmanlı imperatorluğunun hərbdən əvvəlki statiko əsası dairəsində təmamiyyəti-mülkiyyəsinin [ərazi bütövlüyünün] mühafizəsini də tələb edir.*

*Ən nəhayət, Osmanlı milləti Trakiyada ünsiri-islamın əksəriyyəti-qahirəyi haiz bulunduğu [böyük əksəriyyəti təşkil etdiyi] Ədirnənin qərb və şimalı ilə paytaxtın əmri-müdafiəsini [müdafiə işini] mümkün qılacaq xətti-hüdudun kəndinə bəxş edilməsini təmənni edir.*

*Bu mətalib [tələblər], mütarikənin münəqid olduğu [atəşkəsin bağlandığı] Vilsonun on dörd prinsipinə tamamən təvafüq edir [uyğun gəlir].*

*Digər tərəfdən, Osmanlı imperatorluğunun yeni bir müqasiməsi [bölüşdürülməsi] Şərqdə müvazinəni alt-üst edəcəkdir. Toros silsiləsi bir təhdid [hüdud] xəttindən başqa bir şey deyildir. Bəhri-Səfiddən Bəhri-Əhmərə [Aralıq dənizindən Qırmızı dənizə] qədər bu dağların mavərasında kain olan [arxasında yerləşən] bütün məmləkətlər milliyyət prinsipindən daha dərin rabitələrlə İstanbula bağlı bulunurlar. Torosun iki tərəfində birindən fərqli bir lisan qonuşursa da, eyni məfkurələr, eyni hissiyyat, eyni mənafeyi-maddiyyə və mənəviyyə bu həvali [bu ətraf, bu yerlər] əhalisini İstanbula bağlayır. Bu kəsif*

*kütlənin hali-infisal və iğbirara ilqası [tərk edilmiş və incidilmiş bir vəziyyətdə qoyulması] Şərqdə sülh və sükunu təhlükəyə düşürəcəkdir. İrqi-bəşərin mühüm bir kütləsini təşkil edən üç yüz milyon müsəlmanın müvafiqət və təsvibi istehsal edilmədən [razılığı və icazəsi əldə edilmədən] əvvəl arayi-ümumiyyəyə [xalqın rəyinə, referenduma] müraciət də məsələni həll edər."*

Paris Sülh Konfransı rəisindən Osmanlı heyəti-mürəxxəsəsinə göndərilən məktubun tərcüməsidir:

*"Düvəli-mötəlifə [Antanta dövlətləri] Osmanlı heyəti-mürəxxəsəsinə Sülh Konfransına vaqe olan bəyanatdan dolayı təşəkkür edir. Bəyanati-məzkur [deyilən bəyanat] layiq olduğu vəchlə [surətdə] əhəmiyyətlə nəzəri-etibara alınmış olduğu kimi, bə'dəma dəxi [bundan sonra da] alınmaqda bərdavam olacaqdır.*

*İşbu bəyanat Dövləti-Osmaniyyə mənafeyindən maəda [başqa], düvəli-sairə [digər dövlətlərin] mənafeyinə dəxi təmas eyləməkdə bulunduğundan, beynəd-düvəl bir taqım məsail tövlid eyləməkdədir [bəzi dövlətlərarası problemlər meydana çıxmaqdadır] ki, bunlar haqqında vəhlətən [ani surətdə] bir qərar ittixazı [qərar qəbul edilməsi] məəttəəssüf [təəssüf ki], qabil deyildir.*

*Hər nə qədər Məclis, müqərrərati-qətiyyeyi-sülhiyyənin [qəti sülh qərarlarının] həll və fəslinə [nəticələnməsinə] ziyadəsi ilə xahişkar bulunur və vəziyyəti-hazirənin tövlid etməkdə [yaratmaqda] olduğu qərarsızlığın müntic olacağı [meydana gətirəcəyi] məhaziri [təhlükələri] tamamən təqdir edirsə [nəzərə alırsa, qiymətləndirirsə] də, məsələnin ətrafı ilə tədqiq və tənviri [işıqlandırılması] nəticəsində bir müddət daha təəxxürün [gecikmənin] qeyri-qabili-ixtiyar olduğuna yəqin hasil olmuşdur.*

*Binaənileyhi-zalik [buna görə], Dövləti-Aliyyənin [Osmanlı dövlətinin] Fransaya ezamını tələb eyləmiş olduğu heyəti-mürəxxəsənin vəziyyəti-hazirə qarşısında bundan ziyadə Parisdə təvəqqüf və iqamətlərindən [gözləməsində və qalmasında] bir səmərə hüsulu məlhuz bulunmamaqdadır [gözlənilməməkdədir].*

*Məmafih [bununla belə], bu xüsusda təkrar təatiyi-əfkarın [fikir mübadiləsinin] mövcibi-möhsünat olacağı [faydalı olacağı] hiss və təqdir olunduğu surətdə, qayeyi-mətlubənin surəti-səriyyə və münasibədə istehsalı [arzu edilən qayənin sürətli və münasib bir surətdə əldə edilməsi] üçün hökuməti-səniyyə [uca hökumət] ilə ən müvafiq tərzdə yenidən təsisi-irtibat ediləcəkdir [əlaqəyə keçəcəkdir]."*

## İTALİYA VƏ ŞƏRQ

İtaliyanın Fiume məsələsində etmiş olduğu güzəştlərə əvəz olaraq başqa yerlərdən təvizat [əvəz; kompensasiya] verilməsi barəsində Sen-Bris "Jurnal"da məsələ qaldıraraq deyir ki:

*"İtaliyanın bu güzəşti Sonninonun heç bir güzəştdə bulunmaq istəməyərək London müahidənaməsi [sazişi] qərarını[n] tətbiq edilməsi yolunda təkidatda bulunmasından Fransa mənafeyi üçün əlverişli olacaqdır.*

*Böyük səhvlərindən dolayı baş tuta bilməmiş Sonnino siyasəti bizim üçün şu*

*əhəmiyyəti-məxsusəni haizdir [xüsusi əhəmiyyəti daşıyır] ki, o, İtaliyanın Adriatik dənizi dairəsində olan məntəqeyi-nüfuzunu təkmil edir. Bu dəniz bizim nüfuzumuz dairəsinin xaricindədir. Qətnamə bizi ancaq Avropa müvazinəsinə və gələcək beynəlmiləl etilafa [razılaşmaya] təsir edə biləcəyi dərəcəsində maraqlandırmışdır.*

*Nitti və Tittoni siyasəti İtaliyanı hazırkı vəziyyətdən çıxararaq cahan mənafeyinə də iştirak etmək yoluna sövq edir. O, Adriatik dənizi xaricində böylə daireyi-nüfuz arayır ki, onun İtaliya Fiumesindən olmasa da, slavyan Dalmaçyasından keçməsinə əvəz ola biləcəkdir. Bu yerləri o nerədə bulacaqdır.*

*Afrikada? Tunis ilə Trablus [Tripoli] xətti arasında olan dəyişikliklərdən, Somalidə əldə edəcəyi yerlər İtaliyanı sakit və qane etməyəcəkdir. İtalyanlar Trablusun cənub cəhətində, yəni Tibest[i] və Borkuya gözlərini tikmişlərdir. Amma bu yerlər bizim Mərkəzi Afrika tikilimizin – hələ Tibest[i]də olan dünyanın ən böyük mis mədənləri nəzərə almayaraq – axırıncı daş[ı] yerindədir. Və sonra italyanlar Cənubi Qırmızı dənizdə iskələlərə sahib olmaq xəyalındadırlar. Biz bu Həbəşistan ilə əlaqəmizə xidmət edən yerdən və Madaqaskar və Əqsayi-Şərq [Uzaq Şərq] dəniz yolunda yeganə liman olan bu nöqtədən vaz keçə bilərmiyiz?*

*Şimdi qalır Şərq. Burada da İtaliyanın geniş planı vardır. İtaliya nəinki yalnız Adalyanı [Antalyanı], hətta Herakleya dəxi daxil olmaq üzrə bütün Vəsəti [Mərkəzi] və Şimali Anadoluya da əl uzadır. İtaliyanın bu tələblərinin hətta az bir qisminə əməl edilsə belə, Türkiyənin təqsimi təəyyünü [bölünməsinin meydana gəlməsi] Kiçik Asiyada yeni Balkanlar əmələ gətirilməsi və milli rəqabətlər çıxmasını mövcib olar.*

*Məsələnin əsl əhəmiyyəti burasındadır ki, İtaliyanın Şərq planı bəzi Amerika dairələrində hüsn-təvəccöhlə qarşılanır və İngiltərə ona açıqdan-açığa müzahirət [yardım] edir. İngiltərə siyasətinin əsas ideyası budur ki, Asiyayi-Osmanidə öylə bir vəziyyət əmələ gətirilsin ki, Rusiyanın yenidən istilaculuğuna ən artıq mümaniət [maneçilik] təşkil edə bilsin.*

*Fransanın bu oyunda iştirak etmək üçün heç bir haqqı olmadığını iddia etmək faydasızdır. Fəqət, böylə olan surətdə də Şərq şahmat taxtası üzərində böyük bir müşkülat çıxır. Fransa mənafeyi ilə İtaliyanın yeni siyasətini nasıl birləşdirmək? Bu məsələdə göz yummaq faydasızdır. Maneələri ancaq açıq gözlə baxdıqda rəf və dəf etmək [aradan qaldırmaq və uzaqlaşdırmaq] olar."*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Hərbiyyə nazirinin Azərbaycan ordusu zabitanı və məmurinin [məmurların] məvacibləri haqqındakı təqriri [rəsmi yazılı müraciəti] istemasından [dinlənildik-dən] sonra qət edilmişdir [qərara alınmışdır]:

Qanun layihəsi təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Hərbiyyə nazirinin Bakıda xüsusi komandanlıq idarəsi təsisi haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Qanun layihəsi təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Hərbiyyə nazirinin doktor Kotsevin ailəsinə maaş təyin haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Pensiya qanun layihəsi təsdiqinədək Xankəndi milli xəstəxanası doktoru Kotsevin ailəsinə ayda min manat maaş təyin etməli.

- Hərbiyyə nazirinin sabiq Müsəlman Korpusu xidmətçisi Dəllər kəndi sakini Fətəli Fətəli oğlunun ailəsinə maaş təyini haqqındakı təqririndən sonra qət edilmişdir:

Hərbiyyə Nəzarəti parasından məzkur [deyilən] ailəyə min manat verilməsi tapşırılsın.

- Hərbiyyə nazirinin sabiq Müsəlman Korpusu xidmətçisi Biləcəri kəndi əhli, gəncəli Məhəmməd Saleh oğluna maddi müavinət haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Hərbiyyə Nəzarəti parasından məzkura 5000 manat verilməsi tapşırılsın.

- Hərbiyyə nazirinin ərkani-hərb [qərargah] növbətçi generalının və ərkani-hərb kvartirmeysterinin və hərbi xəritə şöbəsi müdirinin maaş və hüququnun firqə [diviziya] komandanı maaş və hüququ ilə müsavriləşdirilməsi və növbəçi generalın idarəsi xidmətçilərinin hesabı artırılması haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Qanun layihəsi təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılmışdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Hökumətin, məhəllində [yerində] qaçqınların əhvalını təhqiq üçün təşəkkül tapacaq, mərkəzi və şöbəl[ər]i məhəllərində olacaq komisyon haqqındakı qərardadından sonra Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] bütün nahiyə müfəttişlərinə müraciətən elam etmişdir [bildirmişdir] ki, həman komisyonlara daxil olaraq vaxtlı-vaxtında mütəmadiyən fəaliyyət haqqında Nəzarətə məlumat təqdim etməlidirlər.

- Gəncə Nahiyə Müfəttişliyinin ricası nəticəsi olaraq Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müfəttişliyə müsəlman yetimləri üçün əl işləri kurslarına lazım olacaq alətlərin alınmasına icazə vermişdir.

- Ərazi və Dövləti Əmlak naziri Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, Gəncə yaxınlığında olan Vorontsovkaya çəkiləcək kəhrizin məsarifatını [xərclərini] azaltmaq üçün İrəvan quberniyası qaçqınlarından istifadə etmək lazımdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti işbu işə ciddi baxdığı üçün Şamaxı və Gəncə nahiyə müfəttişlərindən lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

- Neft və Mədəniyyat [mədən] məhlələrinin Müştərək İttifaqı, surəti Baş Məsai [Əmək] Müfəttişliyinə və Məclisi-Məbusanın Sosialist fraksiyonuna olmaq üzrə Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, sabiq Eyzenşmidt mərmi zavodu və bolt zavodu fəhlələrinin tətili

16 gündür ki, davam etməkdədir. Halbuki, bu vaxtadək müdiriyyət İttifaqla heç bir müzakirata girişmək təşəbbüsatında olmamaqla fəqət [sadəcə] fəhlələri əzl [işdən kənar] etmək və tətil başçılarını Cümhuriyyətdən nəfy [sürgün] etməklə təhdid edir. Fəhlələrin bir neçə nəfəri tövqif [həbs] edilmişdir. İttifaq rica etmişdir ki, iqtisadi tətil ilə böylə mübarizənin önü alınmaqla, müzakiratla işə xitam verilsin.

## İRƏVAN QUBERNİYASINDA "MÜSƏLMANISTAN"

### 1

İrəvan quberniyasının cənubi və cənub-şərqi tərəfi Araz boyu ilə başdan-başa uzanmış müsəlman kəndlərindən, ictimalarından, uyezdlərindən ibarətdir.

Bu uyezdlərin camaatı isə, ümumiyyətlə türk əhalidən ibarətdir.

Aralarında az miqdarda kürd və erməni ünsürləri bulunmaqdadır.

Məzkur [deyilən] müsəlman-türk mahalları İrəvan quberniyasında Araz boyu ilə bu vəchlə uzanmışlardır:

1) İrəvandan çıxdıqda Zəngibasar mahalı başlanır. Zəngi çayının suvarması ilə adlanan bu mahal 30-40 para müsəlman kəndlərindən ibarət olmaqla, bütün mahalda ancaq 3-5 erməni kəndi vardır. Mahalın türklərdən ibarət yerli əhalisi tamamilə əkinçidirlər. Torpaqları sulu olduğundan artıq miqdarda çəltik (düyü) məhsulu bitirməkdədirlər. Buğda, pambıq, üzüm çəltiyə nisbətən az olur. Yerli türklər bu mahalda bostançılığı da çox irəlilətmişlərdir. İrəvanın qovun-qarpızını ən çox bu mahalın türkləri hüsula gətirməkdədirlər.

Mahalın mərkəzi min evli müsəlman türklərdən ibarət Uluxanlı kəndidir ki, Culfa-Tiflis dəmiryolu üstündə vaqe böyük mövqiflərdən [stansiyalardan] birisidir. Son hadisələr olmasaydı əhəmiyyəti-mövqesinə görə Uluxanlı kəndi 15 verst kənarında olan İrəvan şəhərini batil edəcəkdi. Uluxanlıdan İrəvana ancaq 15 verstlik bir dəmiryol xətti ayrılıb getməkdədir.

Zəngibasar türkləri əkin becərməkdə və pul qazanmaqda olduqca məharət sahibidirlər, cürətlidirlər, gözüaçıqdırlar. Əkinlərinin bərəkəti və fəaliyyətləri sayəsində son illərdə Zəngibasar türkləri arasında bir neçə milyoner əkinçilər dəxi vücuda gəlmiş idi.

2) Zəngibasar mahalının yanı başında qərb tərəfdə böyük Sürməli mahalı vaqedir [yerləşir]. Sürməli mahalı 230 para müsəlman-türk kəndlərini havidir [ehtiva edir]. Bütün mahalda ancaq 22-24 para erməni kəndi olduğu kimi, bir qədər də kürd qəbilələri sakini mövcuddurlar.

Sürməli mahalı cənub tərəfdən Osmanlı məmləkətinin Bayəzid hissəsi ilə həmhüdud olduğu kimi, cənub-şərq tərəfdən də İranın Maku xanlığı ilə yanaşıdır. Məşhur Böyük və Kiçik Ararat dağları bu sərhədlərə fasilə verməkdədir.

Sürməli mahalının mərkəzi İğdır qəsəbəsidir. Sürməli mahalı İğdır vasitəsi ilə cənub tərəfdən Bayəzidə qədər olan şosesi ilə Osmanlı məmləkəti ilə əlaqə peyda etdiyi kimi, qərb tərəfdən olan şosesi ilə də Qulp məşhur duz mədəni[ni] keçə-

rək Kağızman və Qars ilə rabitədə bulunmaqdadır.

Sürməlinin şərq tərəfi Aralıq ictimasıdır. Buranın camaatı isə türk və kürdlərdən ibarətdir. Aralıq ictiması Arazdan keçmək vasitəsilə Şərur mahalı ilə və dağ yolu ilə də Maku xanlığı ilə münasibət peyda edə bilir.

Sürməli mahalı Mərgiz kəndində Araz üstündə olan körpü vasitəsilə Zəngibasar mahalı ilə bitişməkdədir.

Sürməlinin şərqi hissəsi olan Aralıq ictiması 14 para türk və kürd kəndlərindən ibarət olmaqla xüsusi bir ictima təşkil etməkdədir. Aralıq və Vedibasar mahalı ilə üz üzədir. Aradan cari olan [axan] Araz çayı bunları bir-birindən ayırır.

Böyük və zəngin duz mədəni ilə məşhur olan Qulp dəxi Sürməli mahalına daxildir.

Sürməli mahalının məhsulatı Qulp duzu və məhəlli qoyunların yunu olmaqla bərabər, külliyyətli surətdə pambıq, buğda, düyü, üzüm hər qisim meyvəcat, bostan və qeyrədir.

Sürməli torpağı olduqca məhsuldar və münbitdir. Küncüd (çətənə), iydə və əmsalı bol-bol hasil olmaqdadır.

Kür çayı boyunda yaşayan türklər türk qövmünün Qarapapaq denilən soyundan olduqları kimi Araz çayı boyunda yaşamaqda olan türklər də həman Qarapapaq türk cinsindəndirlər. Türk dilinin "zilaflaşmış" [işlək; oturuşmuş] ən sağlam sözlərini bu yerlərin türkləri arasında eşitmək olar.

3) Zəngibasarın cənub-şərqi tərəfində Araz boyu ilə Gərnibasar və Vedibasar mahalları uzanmışdır. Gərni çayı Gərnibasarı, Vedi çayı da Vedibasarı suvarmaqla mahalları da öz adları ilə adlandırmaqdadırlar. Gərnibasar mahalı 40-50 para müsəlman-türk kəndlərindən ibarətdir. Bu mahalda erməni-müsəlman qarışıqdır.

Mahalın mərkəzi Qəmərli qəsəbəsidir. Konyak zavodları ilə məşhurdur. Qəmərli qəsəbəsi son vaxt sabiq Araz-Türk Cümhuriyyətinin paytaxtı idi.

Gərnibasardan sonra Vedibasar mahalıdır ki, 40-a qədər müsəlman-türk kəndlərindən ibarətdir. İçlərində ancaq 2-3 erməni kəndi vardır. Məhsulatı buğda, arpa, pambıq, düyü, üzüm, meyvə və bostandır. Buranın camaatı coşqun qanlı, namuskar türk cinsidir. Azad yaşamağa mail və zülümkarlara intiqam bəsləyəndirlər. Qəsbkarlıq niyyəti ilə kəndi tərəflərinə uzanmış hazırkı erməni hökumətinin qanlı əllərini dəfələrlə kəsib qısaltmağa müvəffəq olmuş qeyrətli cəngavər camaatdırlar.

Araz boyu Qarapapaq türkləri arasında qədimdən bəri bir adət vardır. Bunlar bir məsələ haqqında əhdnamə bağladıqları vaxt, yazı bilənləri yazı ilə imzaladırlar, yazı bilməyənləri barmağını mürəkkəbə batırıb əhdnaməni barmaqlarıyla möhürlərlər. Artıq ölmək var, sözdən dönmək yoxdur. Bir türkü öldürməyincə, barmağının möhürü ilə təsdiq etdiyi sözü inkar etməz. Araz boyu türkünün sağlam qanlı qalanı, indi də birinə söz verdimi, öldürsələr də sözündən dönməz.

Mahalın böyük kəndləri və mərkəzi Böyük Vedi, Dəvəli və Sədərəkdir. Dəvəli kəndinin sakinləri Qarabağ xanı İbrahim xanın zamanında Qarabağda peyda olan şiddətli bir qəhətlik nəticəsində Cavanşir elindən ayrılıb getmiş olan türklərdir.

4) Vedibasar mahalının üst tərəf yan dağlarında Milli dərəsi denilməklə məşhur olan 40-50 para müsəlman-türk kəndləri mövcuddur. Bunun da yanı başında Şərura tərəf genə dağlar arasında olmaq üzrə meşəliklərdən ibarət Cığın dərəsi deyilən 40-45 para müsəlman-türk kəndləri vardır. Aralarında erməni kəndi yoxdur. Kaffətən [tamamən] müsəlman və türkdürlər. Eyni dil və eyni irqə mənsubdurlar.

5) Vedibasar Milli və Cığın dərələrindən sonra şərqi-cənubidə vaqe böyük müsəlmanlıqdan ibarət Şərur mahalı vaqedir ki, ən azı 200 para müsəlman-türk kəndlərindən ibarətdir. İçlərində 1-2 erməni kəndi vardır.

Şərur mahalının torpağı olduqca məhsulavərdir [məhsuldardır]. Şərurun buğdası, pambığı məşhurdur. Pambıq, buğda, arpa, düyü, üzüm ümdə məhsullarındandır. Şərurun pambığı Qafqazdan başqa Avropa bazarlarında da özünə mövqe qazanmışdır. Şərurun buğdası olmasa, İrəvan şəhərini aclıq basar. Demək olar ki, İrəvan quberniyasının yarı hissəsi müqabilində Şərurda buğda hasil olmaqdadır. Şərurun buğdası İrəvan quberniyasının əksərini doyurmaqdadır.

Şərur mahalının şimal tərəfi Dərə Alagöz mahalıdır. Bu mahalda əksəriyyət ermənilərdədir. Aralarında ancaq 20-30 para müsəlman-türk kəndi mövcuddur. Dərə Alagöz mahalı şərq cəhətdən Qarabağın Zəngəzur hissəsi ilə yanaşıdır. Şimal tərəfdən isə Göyçə gölünə, Novo-Bayəzid mahalına müttəsildir [birləşir].

Şərur mahalının mərkəzi Baş Noraşendir. Məşhur qəsəbəsi Yengicədir – bazardır, ticarət məhəllidir. İranın Təbriz, Urmu ticarəti ilə əlaqədardır.

Şərurun iki dağ arasında vaqe yolundan, qədim şose və indi dəmiryol keçməkdədir.

"Qurd Ağzı" və "Şərur Dəhnəsi" denilməklə, bir çox vüquatı [hadisələri] ilə məşhur və sövqülceyş [strateji] nöqteyi-nəzərindən əhəmiyyəti artıq olan yer, iştə Şərurun bu dağarası olan yoludur, mühitidir.

Hazırkı Erməni Hökumətinin müntəzəm və müsəlləh qoşunlarını Şərur türkləri dəfələrlə bu Dəhnə ətrafında püskürdüb pərişan etmişlərdir.

Şərur mahalı dəmiryol vasitəsilə bir tərəfdən İrəvanla, digər tərəfdən Naxçıvan, Culfa və İran ilə əlaqədardır. Bu yerlərin türkləri yaxşı və münzəm [intizamlı], sədaqətli, qeyrətli əl ilə idarə olunarsa, bunlardan hər qisim istifadə etmək mümkündür.

Camaatın safdilliyi və mehmannəvazlığı o qədər artıqdır ki, Rusiyadan gəlmiş bir rus Şatkir Şərurda torpaq məhsulatı ilə milyonlara malik olmuşdur.

6) Şərur mahalından sonra cənub-şərqi tərəfdə böyük Naxçıvan mahalı vaqedir. Ordubad və həvalisi də [ətrafı da] bu mahala daxildir. Culfa dəxi bu mahalın dairəsi içindədir. Yerli əhali kaffətən [bütövlükdə] müsəlman türklərdən ibarətdir. Aralarında ancaq 10-20 faizə qədəri ermənidir.

Naxçıvan mahalının cənub hissəsi ilə Ordubad və ətrafında yaşayan türklər İran Azərbaycanında yaşayan türklər kimi türk qövmünün Ural-Altay cinsinə mənsubdurlar.

Ordubadın meyvə məhsulatı məşhur olduğu kimi, Naxçıvanın ağ və dadlı zəngin "duzlağı" da məşhurdur.

Ordubad-Naxçıvan dağlarında bir çox mədən əlamətləri görünməkdədir. Dağların nəbatatdan ari [ot bitməyən] hissələri, havi olduqları [ehtiva etdikləri] mədən torpaqlarının dürlü-dürlü lətif rəngləri ilə bəzəkli bir kukla kimi nəzərləri cəlb etməkdədir. Torpaq burada da məhsulavərdir. Pambıq, buğda, arpa, üzüm, bostan və qeyri meyvələr hasil olmaqdadır.

Naxçıvanın Culfa mövqifi son ümumi müharibə hadisələri mane olmasaydı, ticarət mövqeyi olmaqla Qafqazın Bakı, Batum dəniz iskələləri kimi, dəmiryol iskələsi olaraq birinciliyi qazanacaqdı. Culfa bu əhəmiyyətini genə itirməmişdir. Azərbaycanın Ələt-Culfa dəmiryolu tamam olub qurtararsa, Culfa genə eyni mövqeyi-ticarətini işğal edə biləcəkdir.

İştə, İrəvan quberniyasının cənubqərb və şərq tərəf hissəsində vaqe Qulp, Sürməli, Zəngibasar, Vedibasar, Gərnibasar, Aralıq, Şərur, Naxçıvan, Ordubad mahallarından ibarət torpaqları yan-yana, müttəsil bir silsilə təşkil edərək müctəmə [birləşmiş] bir “Müsəlmanıstan” vücuda gətirməkdədirlər. Bu “Müsəlmanıstan”ın həmirq, həmlisan türkləri isə ümumiyyətcə əkinçi, kəndçi, zəhmətkeş olaraq yarım milyona qədər nüfusa [əhaliyə] malikdirlər.

İştə, bir dilə, bir irqə, bir torpağa malik olan yarım milyonluq böylə bir demokrat kütləsi özlərində hər cəhətdən haqq və ixtiyar tapırlar.

Bu haqq və ixtiyar sayəsində də torpaqlarını “Müsəlmanıstan” adlandırmağa coğrafi, topoqrafi, tarixi, etnoqrafi nöqteyi-nəzərdən haqlı görürlər.

*M. B.*

*Balaca felyeton*

## TƏƏCCÜB EDİRƏM

Mən bəzi şeylərə çox təəccüb edirəm və nə qədər çalışıram, hər kəsdən soruşuram məni başa salan olmur. Hamıya məlumdur ki, insan caizül-xətadır, yəni hər adam səhv və xəta edə bilər. Daha bundan ötrü adamı öldürməzlər ki! Hələ mən bilən, bir adam səhv edəndə o biriləri gərək çalışıb onun xətasını düzəltsinlər, nəinki gəlib yaxasından yapışsınlar ki, sən nə üçün xəta etdin?

Məsələn, Verxni-Naqornı küçənin məhəllə komissiyası səhv edib yazıb ki, filankəsin Manaf adlı da bir qardaşı var. Əx-zi-Əsgər [Hərbi Çağırış] İdarəsi də gedib Manafın böyük qardaşını tutub dama salıb ki, qardaşın əsgərlikdən qaçıbdır, onu təslim et, səni bura[xa]q.

Bu da gəlib cəza-fəza edir [atılıb-düşür, haray-həşir salır] ki, nə üçün belə yazırlar. Amma mən bilən burada heç cəza-fəza lazım deyil. Nə eybi var, Manaf adlı qardaşın yoxdursa, anana tapşır təzə bir Manaf doğurub versin. Təəccüb burasıdır ki, anası gəlib ağlayır ki, ərim bir ildir ölübdür, daha təzədən Manaf tapa bilmərəm.

Digər bir misal.

Yenə həman komissiya götürüb yazıb ki, bizim qonşuda filankəsin 3 oğlu var. Gəlib saçını yolmaq hədəsi ilə 3 oğlunu istəyirlər. Tutmalını tutublar, gedib.

Sonra komissiya “görüb ki” bir balaca səhv olubdur. Götürüb şəhadətnamə verib ki, balam, mən səhv etmişəm, əsgərliyə alınan adam 7 baş külfətin yeganə çörək gətirənidir.

İndi, doğrudur, o şəhadətnamənin

bahasına bir qəpik verilməz. Amma mənim sözüm burasında deyil, sözüm buradır ki, bütün külfət gedib şikayət edirlər ki, sən nə üçün belə səhv etdin, xəta işlədin? Nə bilim, bizim başımızı kəsdin?

Mən buna da təəccüb edirəm.

Əvvəla nə olar, insan səhv edər. Daha bundan ötrü gedib xalqın qapısının dabanını çıxartmaq lazım gəlməz. Saniyən [ikincisi] də, nə eybi var, bir səhvdir edibdir. Bir komandir demişkən, qoy sənin külfətin qırılsın, batsın, tək millət irəli getsin.

Bunların hamısı yola gedər, amma bir məsələyə lap təəccüb edirəm.

Hamınıza məlumdur ki, bu saat biçin qurtarıb, xırmanın lap şirin vaxtıdır. İndi lazımdır ki, hamı xırman üstündə olub taxılını döydürsün. Bunu da bilirsiniz ki, bu saat taxıl qızıldan yaxşıdır. Heç də insaf deyil ki, kişinin taxılı tayada qalsın, oğul-uşaq döydürsün, özü də gəlib Bakıda otursun. Bu isti, bu rahatsızlıq içində Bakıda həlak olsun. Nə var, nə var, sən Məclisi-Məbusan üzvüsən, gərək Parlamanda olasan.

Təəccüb edirəm ki, o məbuslar burada olmasalar, Məclisi-Məbusanın işləri getməzmi ki, bu saat onların gəlmələrini tələb edirlər. Nə eybi var, çox da ki, deputatdır, bu, öz yerində, o da öz yerində.

Paxıl ki deyilsən, sən burada qanunlarını müzakirə et, qoy, o da orada taxılını döydürsün, əkin əkdirsin, millətə elə taxıl da lazımdır. Taxıl əkmək özü də millətə böyük xidmətdir.

İntəhası, qanunları səsə qoyanda barmaq qaldıran yox isə, yaz xəbər ver, istəyirsən xırman üstündə özü də barmağını qaldırsın, lap nökərlərinin, rəiyyətlərinin hamısı da, istərsən lap ayaqlarını da qaldırsınlar.

Xülasə, belə şeyləri eşidəndə mən lap təəccüb edirəm ki, insanlar nə qədər paxıl və dərdbilməzdirlər.

Amma hərçənd mən çox şeylərə təəccüb edirəm, lakin hamısını desəm, deyəsən uzun olar. Ona görə hələlik bu bəsdir.

*Bən*

## BAKI XƏBƏRLƏRİ

### Bələdiyyə İdarəsində

- Avqustun 18-də Bakı şəhərinin səhiyyə həkimlərinin müşavirəsi təyin edilmişdir. Ruznameyi-müzakirata [müzakirə gündəliyinə] Bakıda vəba xəstəliyi haqqında və bir nəfər baytarın Bakıda 6 ay zərfindəki heyvan xəstəlikləri haqqında təqriri [yazılı bəyanatı] və səhiyyə işlərinə itaət etməmək haqqındakı məzbətə idxal edilmişdir.

- Ağustosun 11-də Bələdiyyə İdarəsinin Tibbiyyə şöbəsinin iclası təyin edilmişdir. İclasda Tibbiyyə-Səhiyyə şöbəsi müdiri intixabıyla [seçilməsiylə], Mixaylovski xəstəxananın bir şöbəsi müdiri intixabı həll ediləcəkdir.

### İran şahı haqqında

Əlahəzrət İran şahı İsveçrəyə xəstəliyinə müalicə üçün azim olmuşdur [getmişdir]. Əlahəzrət "Kursk" vaporu xidmətçilərinə 600 tümən bağışlamışdır. Şahla bərabər Xaticiyyə naziri, Saray naziri və İngiltərə siyasi acentəsi miralay [polkovnik] Vilhelm azim olmuşdur.

**Tağıyev zavodundakı yanğın**

Tağıyev fabrikasındakı yanğını təhqiq üçün xüsusi bir komisyon təşəkkül etmişdi. Komisyon müəyyən etmişdir ki, bir şöbə kamilən yanıb məhv olmuşdur ki, içərisində 1800 puda qədər pambıq varmış. Yanğın fəhlələr tərəfindən söndürülmüşdür. Yanmış şöbənin əvəzində müvəqqəti şöbə qayırılmışdır ki, fabrikanın istehsalat qüvvəti heç azalmamış olur. Məhkəmə tərəfindən təhqiqat icra edilməkdədir. Komisyon məhkəmə təhqiqatı qurtaranadək yanğının nəşəti [meydana gəlməsi] haqqında məlumat verməməyi təhti-qərara almışdır.

**Məmurların sui-niyyətləri**

Rəisi-vükəla [Baş nazir] həzrətlərinin Cümhuriyyət səyahəti nəticəsi olaraq, bir çox məmurların sui-niyyətləri kəşf edildiyindən bərvəchi-ati [aşağıdakı kimi] cəzalandırılmışdırlar:

Ərəş qəza qaimməqamı [qəza rəisi] Məhəmməd Qalabəyov xidmətindən əzl [kənar] edilməklə bərabər, məhkəməyə cəlb edilmişdir. Yenə həman qəzanın birinci dairəsi müfəttişi Həmid bəy Nəzərov əzl edilməklə 3 ay həbsxanaya məhkum edilmişdir. Gəncə qəzasının üçüncü dairə müfəttişi Hüseyn bəy Məlikabbasov xidmətindən əzl edilməklə 3 ay həbsxanaya məhkum edilmişdir.

**Polkovnik Palitsının getməsi**

İngilislər Bakıdan gedərkən onların komandanlığında olan Könüllü ordu nümayəndəsi polkovnik Palitsın da ingilislərlə bahəm gedəcəkdir.

**Həcz komissiyasında**

Ev həcz [müsadirə] edən komissiya Bakı qradonaçalnikinin hüzurunda, lazım olan surətdə kirayənişinləri evdən çıxarmaq əvəzində onları sıxlaşdırmaqla oda həcz etməyi təhti-qərara almışdır. Bundan böylə heç kəs mənzilindən çıxarılmayacaq, ancaq otaqların miqdarı əksildiləcəkdir.

**"Kaspi" qəzetəsi**

Eşitdiyimizə görə, bir neçə nəfərdən ibarət bir dəstə kəndiləri pul verib şərakətən [ortaqlaşa] "Kaspi" qəzetəsinin nəşrini təcdid [bərpa] etmək istəyirlər.

**"Rusiya sədası"**

Neçə nəfərdən ibarət bir dəstə bu günlərdə "Rusiya sədası" adlı siyasi böyük bir qəzetə nəşrinə şüru edəcəkləri [başlayacaqları] xəbər verilməkdədir.

**Azərbaycan Darülfünunu**

Məclisi-Məbusan Maliyyə-Büdcə Komissiyası Azərbaycan Darülfünunu [Universiteti] haqqındakı qanun layihəsini qəbul etmişdir.

**Yardım ordusu nəfinə**

24 təmmuz [iyul]. Yardım alayı nəfinə [xeyrinə] qoyulmuş olan "Vətən" faciəsindən bilet satılmaqla bərabər, ianədən 89185 manat 30 qəpik mədaxil, 20030 manat 30 qəpik məsarif olmuşdur. Saf hasilat 69155 manat qalır. Qəzetəmizdə vüsət [genişlik, yer] olmadığından, ianə verən möhtərəm zatların adı məəttəəssüf [təəssüf ki], dərc ediləmmədi.

* * *

Birinci zükur [oğlanlar] edadiyyə (gimnaziya) məktəbinin milli siniflərinə (əlif-

ba sinfinə, mladşıy və starşıy siniflərinə) girmək istəyənlərin ərizələri qəbul olunur hər gün saat 9-dan 12-yə qədər, cümə və yekşənbə [bazar] günlərindən savayı. Məktəbin ünvanı Balaxanski küçədə, 83 nömrəli böyük ev.

## AZƏRBAYCANDA

### Qalaqayından

Əhvali-zaman büsbütün dəyişmiş, çocuqlarımızın belə mədəniyyət aləminə qədəmnihad olub [addım atıb] vəzifeyi-milliyyələrini [milli vəzifələrini] mühafizə üçün əsgərlik vəzifəsini dəröhdə edib təlim almaları ümuma aşkardır. Eşitdiyimə və gördüyümə binaən [əsasən], hər bir ölkədə və qəryələrdə [kəndlərdə], ələlxüsus Azərbaycan Cümhuriyyəti paytaxtı olan Bakıda belə nə qədər çocuq toplanıb əsgər təlimi alırlar.

Bainhəmə [bununla bərabər], bizim də Qalaqayında bir aydan bəri çocuqlarımız toplaşıb əsgərlik vəzifəsini öhdələrinə alıb təlimə başlamışlar ki, bunlar da gələcəkdə hər biri bir əsgər olub, düşmən müqabilində sabitqədəm olub müqəddəs vətənini mühafizə etsin.

Doğrudan, şimdidən bunlara ürək verməli və təhris və tərğib etməli [təşviq etməli və rəğbət oyandırmalı] ki, gələcəkdə öz əsgərlik vəzifələrini bulub sabitqədəm olsunlar. Hökumətə lazım olan vaxt hər biri qaçıb bir tərəfdə pünhan olmasınlar.

Necə ki, əlan [indi] səfərbərlik elan olan tək hər birisi bir bəhanə ilə özünü bir tərəfdə gizlədib öz müqəddəs vəzifəsini ayaqları altına alır.

Amma camaatımız bunlara nə nəzərlə baxır, camaatımız arasında öylə əşxaslar [şəxslər] var ki, araya provokasiya salıb təlim alan balaca əsgərlərimizi bəzi dillərlə qorxudub təlimdən çəkindirirlər.

Hətta keçən gün ağustosun 9-da Dram Cəmiyyəti həvəskarlarının iştirakı ilə həman balaca əsgərlər nəfinə [xeyrinə] bir teatro tamaşası verildi ki, onlar üçün ayaqqabı və paltar alınsın. Bununla belə kim gəldi və nə qədər pul vüsul oldu [çatdı]?

10 min manatlıq biletdən 2000 manat pul vüsul oldu. Nə üçün?

Əvvəla, əhalinin teatroya nə nəzərlə baxmaları ümuma məlumdur. İkinci, bu yolda gərəkdir ki, hökumət məmurlarımız və əyanlarımız pişrov olub [qabağa düşüb], şu yolda iştirak edib hümmət göstərsinlər ki, həm camaat teatroya gəlib ibrətbərdar olsunlar və həm də balaca əsgərlərin ruhu ölməsin. Çünki, zənnimcə, ən əvvəl lazım və bəlkə vacib olan bir işdir ki, çocuqları şimdidən hazır etməli. Necə ki, müəllim məktəbdə tədrisi çocuqluqda təlim edər, nəinki böyüklükdə!

Amma heyif olsun ki, nə əyanlarımız və nə də hökumət məmurlarımız şu yolda hümmət göstərdilər. Hər hankına bizim üçün bir qədər bilet sat təklifini edirsən, hərə bir üzr gətirir, hətta "başınıza sənət qəhət olsun" deyə cavablar eşidirsən. "Balama dəymə, balanı istəmirəm" məsəlincə hər kəs öz keyfinə məşğuldur.

Şu ağaların və hökumət məmurlarının şu yolda hümmətsizlikləri şayani-təəssüf [təəssüfə layiq] deyilmi?

*Turablı*

**Şamaxıda əsgərlik**

İyul ayının 31-dən etibarən Şamaxı qəzasından əsgər cəminə şüru edilmişdir [başlanmışdır].

Şamaxı qəzası 4 hissəyə bölünmüşdür. Bunlar da Mədrəsə, Qarşunlu, Qobustan və Abdulyan uçastoklarından ibarətdir.

Hələ bu vaxtadək şu iki əvvəlki uçastoklardan əsgər yığılıb Göyçay tərəfə göndərilməkdədir. Əhali və əsgərliyə düşənlərin ruhu fövqəladə yüksəkdir. Əsgərlik sinninə vasil olanlar [əsgərlik yaşına çatanlar] həp Şamaxı Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsinin qabağına toplanıb çox şövq və həvəslə özlərini əsgərliyə yazdırırlar.

Bir vaxt övladlarını əsgərlikdən xilas etmək üçün çalışan atalar, indi özləri oğlanlarının qollarından tutub əsgərliyə qeyd etdirirlər. Şamaxıda əsgərliyə düşmək üçün cavanlar yek-digərləri [bir-birləri] ilə rəqabət etdiklərini gördüm. Üzlərinə az tük çıxmış adamlar "əsgərliyə yazılmaram" deyə cavan görünmək üçün üzlərini taraş etdirirlərdi. Hətta atası qoca, ixtiyar olub əsgərliyə alınmayan bir neçə adamı gördüm ki, Əxzi-Əsgər İdarəsindən əsgərliyə alınmasını təvəqqe edir.

Filhəqiqə [doğrudan da], Şamaxı qəza əhalisinin əsgərliyə olan meyl və məhəbbətləri şayani-təqdirdir [təqdirəlayiqdir]. Demək olar ki, böyük-kiçik hamı özünü əsgərliyə yazdırmaq arzusundadır. Şamaxı qəzasından külliyyətli surətdə əsgər toplanır.

Bunu da ərz etmək istəyirəm, Şamaxıda kazaklar əhali ilə yaxşı rəftar etməyirlər. Özlərini müayinə etdirmək üçün, ölçü vermək üçün doktor və komissiya hüzuruna daxil olmaq istəyən əsgərlərin atalarından, qövm-əqrəbalarından xərclik almamış içəri buraxmayırlar. Halbuki, pul və xərclik az-çox əsgərlərə verilməlidir.

Şamaxı darüleytamında [yetimxanasında] bəslənən çocuqların əsgəri vəziyyətlə əllərində bayraq, umuzlarında taxtadan qayırılmış tüfənglərlə milli marş oxuya-oxuya gəzmələri əhaliyə və əsgərliyə düşən cavanlara böyük təsir buraxır.

Şəhər əhalisindən əsgər seçkisi avqust ayının 17-də olacaqdır. Odur ki, 18 Mart [31 Mart] hadisatından müqəddəm [qabaq] Şamaxıda olub bədəhu [sonra] üz verən fəlakət səbəbi ilə Kürdəmir və qeyri qəsəbələrdə yaşayan adamları da əsgərlik vəzifəsindən ötrü Şamaxıya dəvət etmişlər. Məəttəəssüf [təəssüf ki], vaxtlı-vaxtında minik arabalarının olmaması, olanlarının da böyük kirayə pulu istəmələri gediş-gəliş işlərini çətinliyə salır.

*Əlif. Əlif.zadə*

## GÜRCÜSTANDA

**Gürcü Baş Ərkani-hərbindən**

"K. s." qəzetəsinin 15 avqust tarixli 167-ci nömrəsində məhəlli [yerli] xəbərlər cümləsində böylə bir xəbər vardı:

*"Müttəhid [birləşmiş] Gürcüstan və Azərbaycan qoşunları komandanı general Odişelidze avqustun 14-ü axşam saat 6-da Tiflisdən Bakıya əzimət etmişdir [yola düşmüşdür]. Generalı 7 şəxsdən ibarət Ərkani-hərb ilə mühafizə bölüyü təşyi [müşayiət] edir."*

Bu münasibətlə Gürcüstan Baş Ərkani-hərbi [Baş qərargahı] xəbər verir ki:

*"Hərbiyyə nazirinin əmrinə görə elam edirəm [bildirirəm] ki, bu xəbər yalandır. Bundan əlavə, son zamanlar qəzetələrdə əsgəri işlərə aid bəzi yalan məlumat dərc edilir. Hərbiyyə Nəzarəti bütün mətbuati-mövqutədən [dövri mətbuatdan] xahiş edir ki, Ərkani-hərb şöbəsində təhqiq etmədən böylə xəbərləri verməsinlər. Buna əməl etməyənlər qanuni məsuliyyətə cəlb olunacaqlardır."*

**Ədiblər bayramı**

Avqustun 24-də Tiflisdə gürcü ədibləri ilk dəfə "Ədiblər bayramı" quracaqlardır. Bayrama bütün millətlərin artistləri iştirak edir.

**"Kafkazskoye slovo"**

Gürcü hökumətinin binagüzarlığı [sərəncamı] ilə "Kafkazskoye slovo" qəzetəsi qapanmışdır.

## İDARƏDƏN CAVABLAR

*Müəllim Məhəmməd Səid əfəndiyə:* "Əxlaqımızın pozğunluğu" sərlövhəli məqalələriniz dərc edilməyəcəklərdir.

*Tamaşaçı əfəndiyə:* "Naxçıvan məktubatı" sərlövhəli silsileyi-məqalatınızın son nömrəsi dərc edilməyəcəkdir.

*Cəlal əfəndiyə:* Vəd etmiş olduğumuz üzrə birinci məqalənizi (seçkilər haqqında) öz vaxtında dərc edəcəyiz. O xüsusda bir çox məqalələr olacaqdır. Hətta ola bilər ki, yeni göndərdiyiniz "cavab"ın da dərcinə lüzum görülsün.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə

kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir.

Hər gün saat 3-dən 6-ya kimi.

Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi**
**B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək.

Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

**İtibdir**

Məstəli Əli oğlunun polis idarəsindən aldığı əbədilik pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*7464*

**İtibdir**

Hilal Allahverdi oğlunun Zəngəzur qəzasından [aldığı] pasportu itib. Etibardan saqitdir.

*7465*

**İtibdir**

Əziz İbrahim oğlunun Ərdəbildən aldığı pasportu itib. Etibardan saqitdir.

*7466*

**İtibdir**

Ağarəhim Hacıkərim oğlu Abdullayevin Şamaxıdan aldığı pasportu itib. Etibardan saqitdir.

*7469*

**İtibdir**

Şamaxılı Məhəmmədrza Hacı Əbdülxalıq oğlunun Zaqafqaziya Ruhani İdarəsindən aldığı metrik şəhadətnaməsi itib. Etibardan saqitdir.

*7470*

**Elan**

Azərbaycan Cümhuriyyəti qızıl şeylərinin problarını qeyd edən müdiriyyətin vəzifəsini

kim ifa etmək istəyirsə, bu barədə Ticarət, Sənaye və Ərzaq nazirinə öz elmi və keçmiş qulluğu barəsində kağızları ilə bərabər ərzihal verməlidirlər.

*Ticarət, Sənaye və Ərzaq naziri əvəzinə:*
*Y[usifəli] Əliyev*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Teleqraf xəbərləri

səh. 332. "Deyli xronikl" [Daily Cronicle]: 1872-1930-cu illərdə nəşr edilən ingilis qəzeti.

səh. 333. "Forverts" [Vorwärts] ("İrəli"): Almaniya Sosial-Demokrat Partiyasının orqanı olan qəzet. Əsası 1876-cı ildə qoyulmuşdur. Təqiblərə görə müxtəlif dövrlərdə Leypsiq, Berlin, Praqa və Parisdə nəşr edilmişdir.

səh. 334. "Frankfurtski qəzetə" [Frankfurter Zeitung]: Frankfurtda 1856-cı ildən etibarən nəşr edilən almanca gündəlik qəzet. 1943-cü ildə bağlanmışdır.

səh. 335. "Vilen səmtində": Belarus və Litva ərazisindən axan Viliya çayı nəzərdə tutulur.

"Çelyabinsk dairəsində": qəzetdə "Çelsk dairəsində" getmişdir.

səh. 336. "Yeni türklər" (yaxud "Gənc türklər", "Jön türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

### Türkiyənin son müxtirəsi

səh. 338. "Məclisi-Əyani-Osmani": Osmanlı Parlamentinin yuxarı palatası olan Əyan Məclisi; üzvləri padşah tərəfindən təyin edilirdi.

"məzbəhəyə sövq etdi": "qəssabxanaya göndərdi"; qətl etdi.

### İtaliya və Şərq

səh. 341. "Herakleya": bu ad bir neçə antik yunan və Roma şəhərini ifadə etmişdir ki, onlardan ikisi müasir Türkiyə ərazisindədir: Herakleya Pontika müasir Zonquldağ, Herakleya Kibistra isə müasir Konya ərazi-

sində mövcud olduğundan, bəzi mənbələrdə bu şəhərlər “Herakleya” kimi qeyd edilmişdir. Burada “Herakleya” deyərkən Konya nəzərdə tutulur.

**İrəvan quberniyasında “müsəlmanıstan”**

səh. 345. “Naxçıvanın ağ və dadlı zəngin “duzlağı” da məşhurdur”: “duzlaq” sözü qəzetdə təhrif edilmişdir.

səh. 346. “M. B.”: bu imza Mirabbas Mirbağırzadəyə məxsusdur.

**Təəccüb edirəm**

səh. 346. Verxni-Naqornı (yaxud Yuxarı Dağlıq): Bakıda küçə; indiki Abdulla Şaiq küçəsi.

**Bakı xəbərləri**

səh. 348. “Yardım alayı nəfinə qoyulmuş olan «Vətən» faciəsindən”: güman ki, Namiq Kamalın “Vətən yaxud Silistrə” adlı dram əsəri nəzərdə tutulur.

**Gürcüstanda**

səh. 350. “K. s.”: 1914-1919-cu illərdə Tiflisə rus dilində nəşr edilən gündəlik “Kavkazskoye slovo” qəzeti nəzərdə tutulur. Bu qəzetin arxasında erməni burjuaziyasının böyük nümayəndələri dayanırdı.

Çərşənbə, 20 avqust 1919-cu il, nömrə 256

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 23 zülqədətül-haram sənə 1337. 20 ağustos 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

## SİRK "MODERN"

Çaharşənbə günü avqustun 20-ndə
1919-cu ildə

**indiyədək görünməmiş mübarizə günü**

Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 53-cü günüdür.

1919-cu ilin məşhur cahan pəhləvanı namı və Azərbaycan fəxri şərfi və 30.000 manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Təzə varid olmuş pəhləvan "Sibirya ayısı" adı qazanmış Buyvolov – Makarov.

2-nci: Qırmızı Maska – Kalişeviç.

3-ncü: Təzə varid olmuş Polşa pəhləvanı Kreçetov – Staroşvili.

Tamaşa başlanacaq axşam saat 8 tamamda. Pəhləvanların çıxışı 11-in yarısında.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*7471*

## İXTAR
## [XƏBƏRDARLIQ]

Makinalarımızdan birisi xarab olduğundan bir neçə gün qəzetəmiz bugünkü kimi kiçik qitədə [ölçüdə] çıxacaqdır.

## HÖKUMƏT TEATROSU
## AXŞAM TAMAŞASI
## DRAMA

Bakı Türk aktyorlarının şərakəti
Hüseynqulu Sarabskinin iştirakı ilə
çaharşənbə [çərşənbə] günü
ağustos ayının 20-də 1919-cu ildə
mövqeyi-tamaşaya qoyulacaqdır
məşhur faciənəvislərimizdən
Nəcəf bəy Vəzirovun yazmış olduğu
**"Müsibəti-Fəxrəddin"**
faciəsi, 6 pərdədə.
Fəxrəddinin rolunu ifa edəcəkdir
Hüseynqulu Sarabski.
Həmin faciəyə məxsus libaslar
hazırlanıbdır.
Təfsilat proqramda.
Çalacaq Abutalıb [Yusifov]
və oxuyacaq məşhur Azərbaycan
xanəndəsi Seyid Şişəli.
Biletlər satılır bu gündən
teatronun kassasında.
Tamaşa başlanacaq
axşam saat 9-un yarısında.
Rejissor Sarabski,
müavin Rza Darablı,
məsul Xəlil Hüseynov,
müdiri-məsul İsgəndər Rəcəbov.

## AZƏRBAYCAN HÖKUMƏTİ TEATROSUNDA AXŞAM TAMAŞASI

“Cır-bır” və böyük konsert
Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının Müdiriyyəti
Cümə günü ağustosun 22-də
1919-cu ildə
Hacıbəyli qardaşları əsərlərindən
**“Arşın mal alan”,**
**“Əsli və Kərəm”,**
**“Aşıq Qərib”,**
**“O olmasın, bu olsun”,**
**“Leyli və Məcnun”**
opera və operettalardan mürəkkəb
bir pərdəli “Cır-bır”,
dalıyca 15 nömrədən ibarət
Azərbaycan, Dağıstan,
Gürcüstan və Gilan
milli nəğmələri oxunub,
milli rəqslər ediləcəkdir
və bundan masiva [bundan əlavə]
iki nəfər səhnədə
“qurşaq” tutacaqdırlar.
Bu böyük nümayiş səhnəmizdə
birinci dəfə olduğundan,
şükuhlu [təntənəli] bir mənzərədə
başa gəlib,
böyük simfoniya orkestri
İrandan varid olmuş məşhur tarzən
Qurban Pirimovun
iştirakı ilə
[Maqomayev] Müslüm bəyin
təhti-idarəsində olaraq
milli nəğmələr icra ediləcəkdir.
Biletlər teatrın kassasında
satılmaqdadər.
Tamaşa başlanacaqdır
axşam saat 9-un yarısında.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

***11 avqust iclası***

**Sədr:** doktor Ağayev

**Katib:** Əhməd Cövdət bəy

Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər]:

1. Daxil olmuş kağızlar. O cümlədən Sosialistlər fraksiyasının hökumətə sualı. Mehdi bəy Hacıbababəyovun ərzi-halı; sonra:

1) Bakı gömrükxana heyətində bir müfəttişlik məmuriyyəti təşkili haqqında layiheyi-qanuniyyə [qanun layihəsi];

2) 600 milyon dövləti kağız pul buraxılması haqqında qanun layihəsi;

3) [Bəhram bəy] Vəzirov və [Qara bəy] Əliverdiyevə məzuniyyət verilməsi haqqında ərizələr.

2. Azərbaycan təbəiyyəti [vətəndaşlığı] haqqındakı layiheyi-qanuniyyənin 2-ci qiraəti; məruzəçi: Mehdi bəy Hacınski.

3. Qolçu vergisi nizamnaməsinin qəvaidinin təbdili [qaydalarının dəyişdirilməsi] və qolçu vergisini təmin etmək üçün rəhin qəbulu haqqında layiheyi-qanuniyyə; məruzəçi: Mehdi bəy Hacınski.

4. Sülh məhkəmələrinin cinayət işlərində daireyi-nüfuzunun tövsisi [nüfuz dairəsinin genişləndirilməsi] və sülh hakimləri hökmünün təqviyəsi [gücləndirilməsi] ilə əmvali-xassəyə [xüsusi mülkiyyətə] qarşı icra edilən bəzi cinayətlərə biçiləcək cəzaların təbdil və təğyiri [dəyişdirilməsi] haqqında qanun layihəsi; məruzəçi: Rzayev Bağır.

5. Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqın-

da qanun layihəsi; məruzəçi: [Rza bəy] Ağabəyov.

6. Azərbaycan məmləkəti sərhədində mühafizə bölüyü təsisi haqqında qanun layihəsi; məruzəçi: [Rza bəy] Ağabəyov.

7. Tövcü vergisinin artırılması ilə bərabər, torpaq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarlarının təmdidi [uzadılması] haqqında layiheyi-qanuniyyə; məruzəçi: [Rza bəy] Ağabəyov

8. Nəşri-elan haqqında;

9. Maliyyə naziri Şurası haqqında;

10. Fabrika inspeksiyasına dair qəvaidin [qaydaların] müvəqqətən təğyiri [dəyişdirilməsi] haqqında layiheyi-qanuniyyə;

11. "İttihad" fraksiyasının hökumətə sualı;

12. Ümumi əyləncəxana və tamaşaxana yerlərindən alınan müvəqqəti verginin hökumət məbaliğ müstəhfəzəsinə [hökumət xəzinəsinə] idxalı haqqında layiheyi-qanuniyyə; məruzəçi: [Rza bəy] Ağabəyov

13. Həmin sənə üçün İrəvan Ümuri-Xeyriyyə [Sosial Təminat] naziri vəkilinin maaşı və onun idarə məsarifatı üçün məzkur [adı çəkilən] nazirə 127.000 rublə kredit açılması haqqında qanun layihəsi; məruzəçi: [Səməd ağa] Ağamalov.

14. Damğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzyidi [artırılması] haqqında layiheyi-qanuniyyə; məruzəçi: [Şəfi bəy] Rüstəmbəyov.

15. Şəhadətnaməsiz olan içki ticarətindən alınan cərimələrin qüvvələnməyi haqqında layiheyi-qanuniyyə; məruzəçi: [Mehdi bəy] Hacınski.

16. Bakı Xəzinə Palatası müdiri müavinliyi vəzifəsinin ləğvi haqqında qanun layihəsi; məruzəçi: Muxtar Əfəndizadə.

17. Azərbaycan Cümhuriyyəti Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] ştat siyahısı və maaşlarının artırılması haqqında layiheyi-qanuniyyə; məruzəçi: Vəkilov Mustafa.

Sosialistlərin hökumətə sualı iclasın axırına tərk edilir. Qanun layihələrindən birincisi, yəni gömrükxana heyətində müfəttişlik haqqında olanı Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komissiyasına, 600 milyon kağız pul buraxmaq, sülh məhkəmələri daireyi-nüfuzunun tövsisi, spirt məhsulatından alınan aksiz verginin artırılması, sərhəd mühafizə bölüyü təsisi və tövcü vergisinin artırılması haqqındakı 4-5-6 və 7-ci layihələr isə Maliyyə-Büdcə komissiyalarına göndərilir.

Sonra Bəhram bəy Vəzirov ilə Qara bəy Əliverdiyevin məzuniyyətləri məsələsinə keçərək rəis əfəndi elan edir ki, Bəhram bəy Vəzirov may ayının 28-də bir aylıq məzuniyyət almışdı. Sonra xəstə olduğunu bəyanla möhlət verilməsini xahiş etmişdi və məzuniyyətinin vaxtı iyul ayının axırınadək uzadılmışdır. İndi o möhlətdən 11 gün keçmişdir. Bu surətlə, məzuniyyətin müddəti iki aydan da keçmişdir. Ona görə, Divani-Rəyasət bu xüsusu nəzərə alaraq onun məzuniyyətinin vaxtını bir daha artırmayıb, Parlaman heyəti-ümumiyyəsinə həvalə edir.

Bir də, məzuniyyətin təmdidi [uzadılması] haqqındakı ərzi-hal keçən ayın 28-də yazılmışsa da, bizə ancaq ayın 7-də "İttihad" fraksiyası Ümuri-Xeyriyyə naziri müavini tərəfindən verilmiş bir vəsiqəni təqdim etmişdir. *(Vəsiqəni oxuyur.)* Deməli Bəhram bəy xəstə imiş, bu barədə

"İttihad" firqəsi bizə vəsiqə yetirmişdir. Anlaşılır ki, həman firqə Vəzirova bir teleqraf çəkmişdir və cavabında Bəhram bəy böylə bir teleqraf vurmuşdur: "Mən özümü xəstəliyə vurmayıram, avqustun 15-də gələcəyəm."

Deməli Bəhram bəyin məzuniyyət vaxtından 11 gün, Qara bəyin vaxtından 17 gün keçmişdir. Rica edirəm, Parlaman bu barədə öz rəyini bildirsin.

Uzun müzakiratdan sonra Vəzirova avqustun 15-ə və Əliverdili Qara bəyə 20-ədək məzuniyyət verilməsi təhti-qərara alınır.

Sonra təbəəlik qanununun ikinci (maddə-maddə) qiraətinə keçilir.

**Əhməd Cövdət** - Qanun birinci dəfə ümumiyyətlə müzakirə edilərkən biz bəzi təshihlər [düzəlişlər] təklif etmişdik. Onları təkrar söyləməyi lazım bilirəm. Qanunda denilir ki, Azərbaycan vətəndaşı olmaq istəyən hər bir adam bir neçə şərtləri haiz olmalıdır [daşımalıdır]. Məsələn, əvvəla bir qulluq sahibi olsun gərək, ikincisi gərək hüsn-əxlaq sahibi olsun. Mən keçən dəfə söyləmişdim, indi yenə təkrar edirəm ki, böylə hüdud qoymaq, iş tapmayan vətəndaşları sıxmaq, onları vətəndaşlıq hüququndan məhrum etməkdir. Bir adam bir az çətin qulluq tapdıqda məhz yer olmadığı üçün Azərbaycan vətəndaşı olammaz. Bizcə böylə şeylərə heç vaxt məhəl [yer] buraxmamalıdır. Ona görə biz təklif ediriz ki, qanun layihəsinin bu maddəsi çıxarılsın.

Bir də layiheyi-qanuniyyənin 10-cu maddəsində denilir ki, bir xarici Azərbaycan vətəndaşlığını qəbul etsə, onun arvadı da Azərbaycan vətəndaşı olur. Deməli, bu maddəyə görə, arvadın heç bir haqqı, hüququ yox imiş. Mal kimi bir şey imiş. Ər də onun sahibi imiş, haraya istərsə çəkər. Bu surətlə arvadın haqq və hüququ əsla nəzərə alınmamışdır. Ona görə, bu maddəni qanundan tamamilə çıxarmalıdır. Çünki çox ola bilər ki, bir xarici təbəəsi Azərbaycan vətəndaşlığını qəbul etsin, amma arvadı qəbul etmək istəməsin. Öz istədiyi təbəəlikdə qalsın, yaxud əri hankı təbəəlikdə olduğuna baxmayaraq, arvad özü Azərbaycan vətəndaşlığını qəbul edir. Bu xüsusda ərizə verir. Bu onun öz ixtiyarıdır və bu ixtiyarı onun əlindən almaq olmaz.

Parlaman fraksiyalarının həpsi öz deklarasiyalarında arvadların hüququnu qəbul və etiraf etdiklərini açıq bəyan etmişlərdir. Vaxta ki, ümum firqələr arvadların hüququnu etiraf edirlər, o halda onu müdafiə və riayə dəxi lazımdır. Halbuki bu maddə ilə arvadların hüququ xələldar edilir [pozulur].

Sonra qanunun 11-ci maddəsində and məsələsinə keçərək, qabaqkı iclasda mən bu xüsusda danışmışdım. O vaxt Mustafa Vəkilov dedi ki, sosialistlər başqa dürlü danışmazlar da. Onların mövqeyi öylədir ki, gərək and məsələsinin əksinə, əleyhinə danışsınlar. Mən də deyirəm ki, Mustafanın mövqeyi öylədir ki, o gərək andı müdafiə etsin. Amma söz burasındadır ki, hər yerdə hər işə əxlaqi və mənəvi nöqteyi-nəzərdən baxmalıdır.

Bir mülahizə etməlidir ki, and içən adam andını saxlayacaq, ona əməl edəcəkmidir ya yox.

Siz bir tərəfdən deyirsiniz ki, Azərbaycan təbəəliyini qəbul edən bir şəxs iki il müddətində özünün əxlaq-xəvasiyyət [əxlaq və təmizlik, saflıq] sahibi olduğunu göstərib etimad və etibar qazanmalı, ləyaqətini hökumətin nəzərinə yetirərək

öz mənliyini isbat etməlidir. Bundan sonra da bir çox qeydlər və şərtlər qoyulmuşdur ki, ona da əməl etməlidirlər. Mən deyirəm ki, bu şərtlərə, bu tələblərə əməl edildikdən sonra bir də and içmək lazım deyildir. O maddələrə əməl edilsə kifayətdir. Amma sən deyirsən, xayır, gərək bunların həpsiylə bərabər bir də and içə, vəhalonki [halbuki] heç and içmək sədaqət və xülusu təmin etməz. Ola bilər ki, sən özün indi and içəsən amma bir vaxt hökumət əleyhinə çıxasan. Çünki bu min dəfələrlə görülmüş bir işdir. Bundan əlavə, anda xalq arasında nə qədər əhəmiyyət verildiyi məlumdur. Məhkəmələrdə min dəfə and içilir. Sonra da əleyhinə gedirlər. Bu surətlədir ki, anda əməl edilmədiyindən, andın əhəmiyyəti itir. Əgər siz doğrudan da and tərəfdarısınız, o halda gərək andın qüdsiyyətini saxlayasınız. Ona görədir ki, andı öylə yerdə işlətməlidir ki, müqəddəsliyi itməsin.

Bundan maəda [başqa], vaxta ki, sən vətəndaş olmaq istəyəni cürbəcür qanunlar, maddələr ilə qeyd və şərtlər altına alıb təhdid edirsən [məhdudlaşdırırsan], daha ona bir də and verməyin mənası və lüzumu qalmayır. Ona görə, mən təklif edirəm and haqqında maddə bütün-bütünə qanundan rədd edilsin.

## TELEQRAF XƏBƏRLƏRİ

**General Qurkonun əmrnaməsi**

Şimalda olan rus-ingilis qoşunlarının komandanı general Qurko bütün cəbhəyə əmr vermişdir ki, yürüşdə bulunaraq Qərbi və Cənubi Rusiya ordusuna mülhəq olsunlar [qoşulsunlar].

**General Denikinin yürüşü**

Londondan xəbər verilir ki, general Denikin yenidən bir qədər irəliləmişdir. Onun zirehli qatarları Yelizavetqrad dairəsində əməliyyati-hərbiyyədə bulunmuşdur. Böylə xəbər verilir ki, bolşeviklər Kiyevi təxliyə edirlər. Bolşeviklər Odessanı təxliyə etmək üçün ciddi surətdə hazırlıq görürlər. Odessa fövqəladə komisyonunun sabiqki heyəti şimal tərəfə əzimət etmişlərdir [yola düşmüşlər] və bu yerə yeni adamlar intixab edilmişdir [seçilmişdir]. Pul ehtiyatı da oradan çıxarılır.

- Londondan xəbər verilir ki, Petroqraddan çəkilən teleqrafa nəzərən Qırmızı qoşunlar qanlı bir müsadimə [toqquşma] ilə Şura Hökumətinə protesto olmaq üzrə edilən ümumi tətili yatırtmışlardır.

**Macarıstan Kabinəsi**

Nauen, 15 ağustos. Yeni təşkil edilmiş Macarıstan Kabinəsinə aşağıdakı şəxslər keçmişlərdir: Marton Lovasi – Baş vəzir, Qraf Cyula Andraşi - Xariciyyə vəziri, Stefan Fridrix – Hərbi, Ernyo Qarami – Ticarət, Stefan Saber – Əmlak; İstirahəti-Ümumiyyə vəziri – Yulius və Maarif vəziri – Payden. Burjuaz və etilafçı [uzlaşmaçı] firqələrdən bərabər olaraq heyətə daxil olmuşlardır.

## TÜRKİYƏDƏ

**Türkiyə mürəxxəsləri**

Bütün İstanbul mətbuatı, gərək türk və gərəksə fransız qəzetələri Türkiyə mürəxxəslərinin [nümayəndələrinin] Parisdən

İstanbula övdət etməsi [qayıtması] və onların Fransa səfəri nəticəsi haqqında uzun-uzadıya məqalələr və mütaliələr təxsis edirlər.

Heyəti-mürəxxəsənin rəisi Sədrəzəm Damad Fərid paşa həzrətləri türk qəzetələri mühərrirləri ilə müsahibə edərkən Türkiyə ilə Müttəfiqlər arasında davam edən sülh müzakiratından naümid olmadığını məlum və Türkiyənin gələcəyinə nikbinanə bir nəzərlə baxdığını bəyan etmişdir. Fərid paşa ümid edir ki, Türkiyə heyəti-mürəxxəsəsinin Sülh Konfransına getməsi böyük nəticələr vermişdir və bu yaxınlarda yenidən Parisə övdət etməsi lazım olacaqdır.

Heyətin digər üzvləri dəxi Parisə getdiklərindən artıq dərəcə məmnundurlar. Parisdə onlara ehtiram göstərilmişdir. Fransa isə Türkiyə heyəti-mürəxxəsəsinə başqa nəzərlə baxmış və əleyhinə bir neçə şiddətli məqalələr yazmışdırsa da, bundan əlavə Fransa Rəisi-Vükəlası və Sülh Konfransı sədri Klemanso Türkiyə heyəti rəisi namına yazmış olduğu bir məktubda "Türkiyə heyətinin Parisdə qalması artıqdır" söyləmişsə də, bununla belə, yenə onlar öz vəzifələrindən məyus olmamışlardır.

Türkiyə qəzetələrindən birisi mürəxxəslərdən birinin dilindən söyləyir ki, türklərlə məskun olan vilayətlər və həmçinin İstanbul Türkiyənin əlində qalacaqdır. Bununla bərabər, İzmir məsələsinin dəxi türklərin istədiyi kimi və onların arzusuna müvafiq bir surətdə həll ediləcəyi gözlənir.

Heyət İstanbula varid olduqda [çatdıqda] Mustafa Səbri bəyin təhti-rəyasətində [başçılığı altında] olmaq üzrə Türkiyə Şurayi-Vükəlasının [Nazirlər Kabinetinin] iclası vaqe olmuşdur. Ertəsi gün şəhərdə Kabinənin istefa verdiyi haqqında şayiələr dövran etməyə başlamışdır. "Sabah" qəzetəsi yeni Kabinə təşkilinin [Əhməd] Tofiq paşaya mühəvvəl olunacağı [tapşırılacağı] barəsində məlumat vermişdir.

"Ələmdar" qəzetəsi Türkiyə heyəti-mürəxxəsəsinin sülh müzakiratından çox da məmnun olmayıb, bir dərəcə bədbin olduğunu dərmiyan etmişdir [meydana atmışdır]. Qəzetə bu xüsusda yazmış olduğu bir məqaləsində deyir ki:

*"Həmin heyətin Türkiyə müqəddəratına nə kimi təsiri-nüfuz yetirəcəyi və bu səfərdən nə kimi nəticələr ilə övdət edəcəyi bizə məlum deyildir. Çünki məzkur [deyilən] heyət lazımi dərəcə hazırlıq görmədən və təlimat almadan Parisə getmişdir. Hələ dünəndən etibarən kəndisini millət tanıtdırmış olan bolqarlar bizə nisbət doğru bir xətti-hərəkət qəbul etmiş və kəndisi bizdən artıq hazır olduğunu isbat etmişdir. Biz qeyd etməliyiz ki, heyətimiz öylə təcili bir surətdə Parisə əzimət etmişdi ki, kəndisi ilə bərabər lazım olan sənədləri və təlimatı belə ala bilməmişdir. Bu isə [Damad] Fərid paşanın bəyannamələrindən aşkar bir surətdə məlum olurdu."*

**Çanaqqala və Boğazlar məsələsi**

Hal-hazırda Parisdə olan rus komitəsi knyaz [Georgi] Lvov, Sazonov və [Vasili] Maklakov başda olmaq üzrə Sülh Konfransına bir müxtirə [yazılı xəbərdarlıq] təqdim edərək Türkiyə məsələsində Rusiya nöqteyi-nəzərini göstərmişdir. Həmin müxtirənin Kolçak tərəfindən də təsvib [təs-

diq] edildiyi söylənməkdədir. Müxtirədə göstərildiyindən anlaşılır ki, Çanaqqala beş böyük millətlərin əlində və təhti-idarəsində [idarəsi altında] olmalı imiş və Boğazların mandatı isə Rusiyaya (?!) verilməli imiş. Komitə Boğazların beynəlmiləl bir idarəyə verilməsinə də razı olur, fəqət bu şərtlə ki, orada Rusiyaya da yer verilsin.

## DAĞISTANDA

Dərbənddə naçalnik qarnizon Qarışkov iyulun 16-da bir nəfər tsaxuru zövcəsi ilə bərabər, yanlarında da 150 min rublə para, tövqif edib [tutub] böylə demişdir: "Pullar xəzinəyə, əsirlər qətlgaha." Sonra onları qətl ediblər.

Bundan maəda [bundan başqa], iyulun 16-dan 22-sinə qədər 25 nəfər müsəlman tövqif edilib hərəsinin yanında 50 min rublədən nöqsan [az] para olmamışdır. Bunlardan bu vaxta qədər bir xəbər yoxdur.

Yenə Dərbənddə iyul ayının 22-də Hacı Bəşir deyən bir kişini nahaq yerə ştıklan [süngüylə] öldürüblər.

Denikin tərəfindən Cenqutay, Dargin, Padar kəndlərini qarət edib, hətta yorğanların üzünü soyub yerdə qalanları və kəndləri tamamən qətl-qarət edib yandırmışlar.

Macalis denilən kəndi yandırmayıblarsa da, talan ediblər.

Cenqutay kəndində Axtılı Teyyib əfəndinin bir vətənpərvər igid oğlu var idi Orxanov. Kəndisi də Posta-teleqraf müdiri olduğu halda, Denikin gələndə onun üstündə olan əslihəsini [silahını] alıblar. Sonra müşarünileyh [adı çəkilən şəxs], kəndi əslihəsinin barəsində bir qəbz istəmiş, məzkuru qətl etmişlər.

Dərbənddə çörək tapılmaz, tapılsa da yaramaz. Çörəklər 5 rublə girvənkəsi, meyvəcat əsla tapılmayır. Çünki kəndlilər meyvələrini kəndlərindən kənara çıxarmayırlar. Denikin əsgərləri tərəfindən qətl-qarət olunurlar. Yeməli ləvazimat, qənd və qeyri zəruri şeylər qətiyyən tapılmayır. Ən təəccüblü burasıdır, Denikin kazakları dükanlara, evlərə yönəlib qab və əşyalar istəyirlər, alırlar, sorduqda deyir, qablarımız çatmayır.

Axtı kəndindən iki nəfər – Əbdülkərim Əfəndiyev və Əbdül sabiqən Nikolay yüzbaşısı, Denikin idarəsinə müraciət edib demişlər: "Bizim kəndlərə də kazaklardan göndəriniz, ta ki Allaha dua eyləyən qocaman islamları qırsınlar. Biz Denikin ilə bir məzhəbdə olmaq istəyiriz. Denikinin bura gəlməsi bizim üçün böyük bir şadlıqdır."

Denikin tərəfindən onların təvəqqesinə görə qoşun göndəriləcək.

Qasım kəndində də istəyiblər, ora da göndəriləcək və göndərirlər.

Bir taqım zülümləri yazmaqla qurtarmaz, tükənməz. Kazaklar eyləyən zülümləri bir Allah bilir, bir də qətl olunan islamlar, islam qadınları, islam çocuqları.

* * *

Dağıstanda müsəlmanlara xitabən bolşeviklərin əleyhinə olmaq üzrə naməlum şəxslər tərəfindən böylə bir xitabnamə buraxılmışdır:

*"Müsəlmanlar! Bolşeviklər sizin müqəddəs Quranınızı oğurlamışlar, qəsb et-*

*mişlər. Petroqradda bolşeviklər müsəlmanlara namaz qılmağa və ibadət etməyə mane olub, Kronverski caddədə [prospektdə] olan gözəl məscidlərini qapayıb orada mühafizə edilməkdə olan məşhur Quranı aparmışlardır. Bu Quran mömінin [möminlər] üçün olduqca qiymətli və müqəddəs bir tarixi əsərdir. Çünki bu Quran peyğəmbərin xəlifəsi Ömər radiallahu-anhu [Allah ondan razı olsun] tərəfindən tərtib edilib yazılmışdır. Bu Quran əvvəl Məkkədə, sonra Baxçasarayda, ən axırda Peterburqun Xalq kitabxanasında saxlanırdı. İnqilabın əvvəlinci günlərində bu Quran kitabxanadan alınıb Peterburq məscidinin yaşıl kümbədi və minarələri altında saxlanmaqda idi. İndi isə bolşeviklər onu qəsb etdilər. Möminlər arasında onun məhv olacağı ehtimalına görə böyük həyəcan hökmfərmadır [hökm sürməkdədir]."*

## MƏTBUAT

### Hökumət və sosialistlər

Azərbaycan (Türk) sosialistləri naşiriəfkarı [fikirlərini yayan orqanı] olan "Zarya" qəzetəsi Kabinə haqqındakı məqaləsində yazır ki:

*"Hal-hazırda əksinqilabla mübarizə və xalqın qazanmış olduğu hürriyyətləri müdafiə məsələləri birinci dərəcə əhəmiyyəti kəsb etmişdir və hazırda hökumətin sağ ünsürlər əlinə keçməsi bu mühafizə və müdafiəni təmin etmədiyini, yəni məmləkətin mənafeyinə müvafiq olmadığını dərk ilə sosialistlər fraksiyası qət etmişdir ki, yeni Kabinə təşkilində iştirakdan imtina etməsin. Bu şərtlə ki, sosialistlərin təmini naminə iştirak etdikləri məmləkət müdafiəsi və xalq hürriyyəti müdafiəsi, bilaşərtü-qeyd [qeydsiz-şərtsiz] həyata çıxarılsın. Bunun üçün də daxili siyasəti dəyişib xalqı mülkədarlar və polislərin məzalimindən [zülmündən] qurtarmalıdır."*

Bədəhu [sonra] məmləkət daxilində ictimai islahat icrası, əkinçiləri torpaqdan və fəhlələri rahat həyatdan təmin lüzumunu qeydlə qəzetə deyir ki:

*"Əgər idarə başında duran dairələr doğrudan da məmləkətin mühafizəsi fikrində isələr, sinfi mənafelərini dövlət mənafeyinə tabe edərək hazırkı ciddi zamanın tələb etdiyi güzəştlərə getməlidirlər."*

Sonra məmləkəti ağır vəziyyətdən qurtarmaq üçün "Zarya" böylə tədbirlər göstərir:

*"Məmləkətin xarici qüvvələrdən müdafiəyə hazırlanması qəti və müntəzəm bir surətdə icra edilib, bu vaxtadək olduğu kimi təsadüfi olmamalıdır. Xarici siyasətimiz möhkəm və sabit olub, Cümhuriyyətin tamamiyyət [ərazi bütövlüyü] və istiqlaliyyətinin müdafiə və mühafizəsi məsələsində heç bir tərəddüd olmamalıdır."*

Nəhayət, sosialistlərin Kabinəyə nə şərtlə və nə üçün girə biləcəklərini böylə təsvir edir:

*"Yeni müştərək Kabinəyə sosialistlər ancaq onun üçün daxil ola bilərlər ki, məmləkət müdafiəsi həqiqətən təmin edilsin və lazım gəldiyi təqdirdə azğın düşmənə qəti müqavimət göstərilsin. Əks surətdə, koalisyonun məna və əhəmiyyəti yoxdur. Şimdi söz mərkəzindir.*

*Əgər mərkəz keçirməkdə olduğumuz zamanın əhəmiyyətini anlamazsa, təqsir bizdə deyil. Nəticələrin də məsuliyyəti bizim öhdəmizdə qalmayacaqdır."*

**Rusiya və Zaqafqaziya**

Gürcü "Borba" qəzetəsi mürtəce Rusiya ilə Zaqafqaziyanın münasibatı məsələsinə təxsis etdiyi [ayırdığı] bir məqaləsində bunu Zaqafqaziya cümhuriyyətlərinin beynəlmiləl qəbul və təsdiqi ilə sıxı bir surətdə əlaqədar görərək yazır ki:

*"Zaqafqaziya cümhuriyyətləri məsələsi məsaili-yövmiyyə [gündəlik məsələlər] sırasına keçənədək istiqlal və səlaməti-mülkiyyəmizi müdafiə və hifz edə bilməsək, cümhuriyyətlərimizin beynəlmiləl qəbul və təsdiqi işini qeyb etmiş olarız. Biləks [əksinə], o vaxtadək cümhuriyyətlərimizi Rusiya irticasının təcavüzündən hifz edə bilsək, istiqlalımızın təsdiqi yolundakı müşkülatın dəfi çətin olmaz. Düşmənlərimiz bunu yaxşı bilir və bu vaxtadək cümhuriyyətlərimiz müqabilinə hərb açmadıqlarının səbəbi budur ki, Zaqafqaziyaya müvəffəqiyyətlərini təmin edəcək qədər qüvvə sövqü onlar üçün müşküldür."*

Ona görədir ki, qəzetənin zənnincə:

*"Zaqafqaziyda millətlərin hüququ və hürriyyəti[ni] müdafiə etməyə hazır olan və bacaran ümum qüvvələrlə ən sıxı rabitə hüsulu vacibdir. Azərbaycan ilə bağlanmış olan ittifaq hər günlük ənud [inadlı] fəaliyyət və müttəhid müdafiə uğrunda çalışmaqla feilən icraya qoyulmalıdır."*

Çünki:

*"Ancaq Zaqafqaziyada millətlərin hüququnu, demokratiyanın qələbəsini əziz tutan ümum qüvvələrin sövqü ilə, ancaq bu qüvvələrin birləşməsi və yorulmaqsızın çalışması illədir ki, Zaqafqaziya demokratiyasını şimaldan gələn irtica müqabilinə müvəffəqiyyətlə müdafiə və mühafizə edə biləcək şərait hasil olar."*

Nəhayət, Bakı kommunistlərinin son çıxışının bu məsələdə nə qədər zərərli olduğunu təsvirlə yazır ki:

*"Son aylar zərfində Bakıdakı müəssif [təəssüf verici] fəhlə hərəkatı aşkara isbat etdi ki, xalqda irtica müqabilinə müqavimət qüvvəsini qəşəng sözlər, silah oynatmaq və macəralarla hasil etmək olmaz. Bakı kommunistlərinin fəhlələri çəkdikləri yol ancaq qüvvələrin parçalanması və pozulmasına bais olar, həm də irticaya xeyir verər. İrtica ilə mübarizədə biz adi yolumuzla getməli, qüvvələrimizi dağıtmayaraq, çətin də olsa, yeganə müvəffəqiyyətli yola düşərək müntəzəmən qüvvələrimizi təşkil etməli və bizə müin [köməkçi] ola biləcək bütün ünsürləri toplamalı, birləşdirməliyiz."*

## HƏZİN BİR XATİRƏ "İSMAİLİYYƏ"

Bakı bələdiyyəsi mərhum Musa Nağıyev varislərinə müraciətlə, "İsmailiyyə" binasının "qorxulu" olduğundan bəhslə, onun dağıdılmasına müsaidə verilməsini istəmiş, varislər də buna mümaniət etməyəcəklərini [mane olmayacaqlarını] bildirmişlər. Bu xüsus Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə ixtar edilmiş [xəbər verilmiş], "İsmailiyyə"nin üst qatının sökülərək "zərərsiz" bir hala vəz etdirilməsi

[qoyulması] arzu edildiyindən, Cəmiyyəti-Xeyriyyə idarəsi də "İsmailiyyə" binasının ətrafına ağacdan hasar çəkilməsini təhti-qərara almışdır. Bununla bərabər, qabil bənnalar aranılır ki, "İsmailiyyə"ni söksün. Bir komisyon intixab edilmiş ki, onun ənqazından [xarabalığından] qalan əşyasını satsın.

Biz bunları, bu məlumatı son bir ayın ərzi-müddətində nəşr edilib gəlməkdə olan qəzetə həvadislərində [xəbərlərində] oxuduq.

Keçən gecə həqir, fələkzədə, öksüz bir qızın saçları kimi dağınıq, fikir və xəyalım kimi hali-müşəvvəşdə [dağınıq, qarışıq] bulunan pərişan odamda əyləşib "İsmailiyyə" binasına, o Azərbaycan millətinin, hürriyyət və istiqlalı uğrunda şəhid düşmüş qəhrəmanlar kimi düşmənin amansız qurşunlarına köksünü sipər edən binaya nazir [baxan] pəncərəni açaraq onu seyr edir, düşünür, həm də onun dağıdılması haqqında olan axırıncı qərarı qəzetədə oxuyaraq düşünürdüm.

Bir dürlü bilməyirəm, səbəbini anlamayıram ki, məni nə kimi şeylər, nə kimi əlaqələr "İsmailiyyə" binasına bağlayıb mərbut etmişdir [rəbt etmiş, bağlamışdır] ki, onun sökülüb dağılması fəqərəsi [hadisəsi], onun yandırılıb xarabazara döndərilməsi qədər məni mütəəssir etmişdi. Düşünür, həm də fikirsiz, qayəsiz və mövzusuz olaraq düşünürdüm, xəyalım bir çox geri getmiş, bir çox xatirələrlə məşğul olmuşdu. Nəzərimdə bir taqım rəngarəng şəkillər və mənzərələr tərsim edilirdi [rəsm olunurdu]. Mən "İsmailiyyə" binasının çox da uzun olmayan tarixçəsini, 18-20 sənəlik bir həyatını, tərcümeyihalını gözümün önündə təcəssüm etdirirdim.

Mən "İsmailiyyə"nin o günlərini düşünürdüm ki, orası açıq bir yerdən, boş bir düzəngahdan, şəhərimizin mərkəzində vaqe olmuş bir boşluqdan ibarət idi. Ta əski zamanlardan orası ətraf köylərdən, uzaq mahallardan gələn gətiricilərin bir mərkəzi, bir bazarı idi. O zamanlar bura "Qapan dibi" adı ilə məruf idi [tanınırdı]. Bura Qubadan, Şamaxıdan, ta Ağdaş və Ərəş uyezdindən taxıl, alma, qoz və sair bu kimi şeylər gətirilib satılardı.

"Qapan dibi" şəhərimizin mərkəzində rus mədəniyyətinin təsirinə heç bir növ ilə tabe olmayaraq özünün əski ruhunu, təbiət və xasiyyətini mühafizə etmiş bir parça, yevropalaşmış Bakı şəhərində Şərqin bir nümunəsini göstərən bir mənzərə idi.

Burada hər zaman gövdəsini yerə sərmiş və boyunlarını kəmali-əzəmətlə dik tutmuş qara gözlü dəvələrin istirahət etdiklərini, müdhiş və mühib [heybətli, qorxulu] buynuzlu kəllərin yanı üstə yatıb gövşədiklərini görmək olurdu. Hər zaman burada dəvə qatarlarının Şərq əzəmət və ehtişamını dərxatir etdirən [yada salan] zəng və zınqırovlarının həzin səsləri, kəl arabaları təkərlərinin munis, ruhnəvaz bir musiqi qədər munis cırıltıları eşidilirdi.

Hələ gecələr "Qapan dibi"nin nə qədər başqalaşdığından, nə qədər səmimiləşdiyindən bəhs etmək istəməyirəm. Siz gərək o zaman Azərbaycanın müxtəlif nöqtələrindən gəlmiş müxtəlif ləhcəli köylülərin, o yek-digərinə "qonaq" olanların yatmış dəvələr arasında od yandırıb başına toplaşdıqlarını və söhbət etdiklərini görə idiniz ki, məni indi başa düşə idiniz.

Hələ Qurban bayramı ərəfəsində "Qapan dibi" özgə bir hal alırdı. Satılmaq üçün Bakı bazarına gətirilən qurbanlıq qoyunlar həp buraya toplanırdı. Bunların mənzərəsi daha dilbəranə, daha şairanə olurdu.

* * *

Mən daha çocuq ikən, təxminən bir iyirmi il əvvəl eşitmişdim ki, Bakı Şəhər İdarəsi "Qapan dibi" bazarını məscid bina etmək üçün Bakı müsəlmanlarına güzəşt etmişdir. Lakin nədənsə, bir dürlü təfsilatını şimdi də bilməyirəm, məscid tikmək məsələsi bir qədər təxirə uğradı. Sonra Bakıda təşkil edilmiş olan Müsəlman Cəmiyyəti-Xeyriyyəsi istifadəsiz bir halda qalan şu "Qapan dibi"ndən həm maddi istifadə etmək, həm də təkrar əldən çıxarmamaq məqsədilə, Bələdiyyənin müsaidəsi [icazəsi] ilə oraya sahiblənib, xırda alış-verişçilərə müəyyən bir vaxtadək icarəyə verdi. Böyük qapan tərazusu [tərəzisi] orada qalmaqla, ətrafında ağacdan dükanlar və budkalar yapıldı. Bu kərə "Qapan dibi" ismi "Şeytanbazar" adına mübəddəl oldu [çevrildi]. Artıq burası Şeytanbazar olmuşdu.

Bir kərə yadımdadır, yanılmayırsam 1908-inci sənədə idi, Mövlud bayramı münasibətilə indiki Parlaman binasının ərəbkari [ərəb üslubunda tərtib edilmiş və bəzədilmiş] böyük salonunda görüş məclisi tərtib edilmişdi. Şu məclisdə camaata bir xoş xəbər, bir başarət [muştuluq] verildi. Bu xəbəri verən də Hacı Zeynalabdin Tağıyev cənabları idi. Hacı cənabları deyirdilər:

– Şeytanbazarı[nda] artıq məscid tikilməyəcək. Burası Cəmiyyəti-Xeyriyyə üçün bir bina yapılacaqdır. Bunun da bütün xərcini mərhum oğlu Ağa İsmayılın bəqayi-namı olmaq [adını əbədiləşdirmək] üzrə məclisdə hazır bulunan Musa Nağıyev öz öhdəsinə götürəcəkdir.

Hacının bu nitqi hazirun [orada olanlar] tərəfindən alqışlanmış, Musa Nağıyev də edəcəyi işbu böyük ehsan və ianədən dolayı ayrıca təqdir edilmişdi. Hətta bina edilməsi təsəvvür olunan "İsmailiyyə" binasının müsəddəq [təsdiq olunmuş] plan və nəqşəsi [şəkli] də həman məclisdə divardan asılmışdı.

Bu tarixdən sonra haçan binaya başlanacağını kamali-səbirsizliklə gözləyir, hərdənbir qəzetə sütunlarında, həvadis qismində bu binanın nə surətlə işinə başlanacağını gördükdə, onu maraqla təqib edirdim. Hətta o zamanlar nəşr edilməkdə olan "Tazə həyat" qəzetəsində əlinə yeni qələm almaqda olan acizləri ərzi-şükran [təşəkkür bildirən] kimi bir şey də yazmışdı.

İsmailiyyənin ilk bina qoymaq mərasimi qayət təntənəli surətdə vaqe olmuşdu.

Taxta dükanlar və budkalar sökülmüş, qapan tərazusu oradan köçürülmüş, o vəsi [geniş] yerin ətrafına indi çəkilməkdə olan kimi ağac hasar çəkilmiş, torpağı qazılıb dişarı çıxarılmışdı.

Bina qoymaq mərasimində Bakının bir çox əyan və əşrafı, Bələdiyyə rəisi, uprava əzası [üzvləri], Bakı qradonaçalniki və valisi, mülki və əsgəri bir çox məmurlar və sahibmənsəblər, erməni və rus rəisi-ruhaniləri, Bakıda mövcud rus, erməni, yəhudi, polyak və sairə cəmiyyətlərinin nümayəndələri, bir çox cama-

at xadimi və ziyalıları iştirak edirdilər. Bəzi nitqlər söyləndi, sabiq Bakı qazısı Ağa Mir Məhəmməd Kərim cənabları kəndilərinə xas əzəmətli bir əda ilə ibtida [əvvəla] Rusiya çarı Nikolay və xanədanını dua ilə "İsmailiyyə" binasına başlamasını dualadılar. Bunu mütəaqib [bunun ardınca] "İsmailiyyə" binasına birinci daş qoyuldu. Bu daş da Musa Nağıyev əli ilə qoyuldu. Sonra orada iştirak edənlər də yenə fəxri olaraq "İsmailiyyə" binasına birər daşlar qoydular. Böyləliklə, rəsmi surətdə "İsmailiyyə"nin tikilməsi başladı.

*(bitmədi)*

*Seyid Hüseyn [Sadiq]*

**RUS MİLLİ ŞURASININ ƏRZİ-HALI**

Rus Milli Şurası Azərbaycan Hökumətinə böylə bir ərzi-hal pişnihad [təqdim] etməyi təhti-qərara almışdır:

Bu axır vaxtlarda bütün azərbaycanlılar həyəcandadırlar. Müxtəlif qəzetələr xaricdən Azərbaycanı təhdid edən təhlükələrdən bəhs edirlər. Camaat arasında başqa xəbərlər intişar bulmaqdadırlar [yayılmaqdadır]. Biz isə rus camaatı hamıdan artıq iztirab və həyəcanda yaşayır deməyə haqlıyız.

Böylə bir həyəcanlı günlərdə Bakıda nəşr olunan "Bakinskaya jizn" qəzetəsinin avqust ayının 13-də çıxan 10-cu nömrəsində bir məqalədə böylə sətirlər dəxi var idi:

Məgər "Rusiya" tərəfdarları hər nə növ olursa-olsun qan tökülməsini görmək istəyirlər və məgər qəzetə anlamayır ki, könüllülər gələndə cəbhədəki əsgərlərdən başqa Denikinin gəlməsinə şad olanlar və əcələ ilə onu gözləyənlərin bir çoxları kəndi arzularına nail olmadan məhv və nabud [puç; yox] olacaqdırlar.

1) Şu sətirlərin məzmununa gəldikdə, hamıdan əvvəl yəqin etməlidir ki, Denikin gələcək olsa çox-çoxlarının məhv və nabud olmasına böyük bir hədə var.

2) Bu hədə "Rusiya" tərəfdarlarının əleyhinə olması məlum olur ki, müəllif bir çox rusların qırılacağını göstərir.

3) Mühərrir bu qırğın-dava vaxtı heç kəsin təqsiri olmadan çox adam qırıla biləcəyi zamanına deyil, hələ Denikin gəlmədən qabaq çox-çoxları bir xüsusda kəndi arzularına nail olmadan əvvəl məhv və nabud olacağını bəyan edir.

4) Məqalənin ümum mənası provokasiya olmayıb da şu qırğının hətta olmasını göstərir.

"Bakinski jizn" təəccüb edir ki, "Rusiya" qəzetəsi hamıya aydın və müəyyən olan bu hadisələri nəzərə almayır və anlamayır.

"Bakinski jizn" kimin adından və kimin tərəfindən "Rusiya" tərəfdarlarına bu binagüzarlıqları [addımları; sərəncamları] xəbər verir?

Məqalənin məzmunundan, şu işarə və məlumatı Azərbaycan camaatının halına və ya bizə naməlum olub da "Bakinski jizn"ə məlum olan Azərbaycan Hökumətinin qərardadına müstənidən [istinadən] ədd etməliyiz [saymalıyıq, qəbul etməliyik].

Rus Milli Şurası "Bakinski jizn"in yazdığı böylə bir məlumatın nə Azərbaycan camaatı fikri və nə də Azərbaycan Höku-

mətinin qərardadı olmasına isnad verməyir.

Fəqət böylə fitnəəngiz sözləri yazıb camaatı həyəcana salmağın müqabilində tənbeh olunmamasına Rus Milli Şurası təəccüb edir.

Böylə hallar müsəlləmdir [şübhəsizdir] ki, rus camaat dairələrini həyəcana salıb, külliyyətli bir surətdə Azərbaycandan çıxmalarına bir zəminə hazırlayır.

Bakı Rus Milli Şurası şu yazdıqlarını pişnihad etməyi kəndisinə bir vəzifə bilir.

## BAKI XƏBƏRLƏRİ

### General Kori ilə mülaqat [görüş; söhbət]

18 avqustda Bakıdan İngiltərəyə getmədən əvvəl general Kori Rəisi-vükəla [Baş nazir] hüzuruna getmişdir. Burada Xariciyyə, Hərbiyyə və Türüq-Məabir [Nəqliyyat-Rabitə] nazirləri dəxi var imiş. Ümum məsaili-cariyyəyə [cari məsələlərə] aid tulani [uzun-uzadı] söhbət arasında general Kori bütün məmləkətdə indiki halda möhkəmləşmiş olan nizam və qanunu, həm də hökumətin tutmaqda olduğu möhkəm xətti-hərəkəti məmnuniyyətlə qeyd və davamına ümidvar olduğunu bəyan etmişdir. Buraları buraxdıqda gözəl bir təsir ilə getdiyini və Azərbaycan Hökuməti ilə İngiltərənin şu əlaqəsi qət olmamasına [kəsilməməsinə] artıq ümidvar olduğunu bildirmişdir.

General Kori Hərbiyyə nazirinə xitabən Azərbaycan qoşununun qanun, nizam və təlimi nə dərəcədə ona gözəl bir təsirbəxş olduğunu söyləmişdir. Türüq və Məabir vəzirinə general Kori şu ağır vaxtlarda hamı xətaları böylə bir müsəlləm [müsbət] və mükəmməl hala bu qədər az bir vaxtda salınmasına kəndi təəccübünü bəyan etmişdir.

Axırda Xariciyyə nazirinə söyləmişdir ki, Xariciyyə Nəzarətində işlər indiki ağır vaxtda artıq şayani-təhsin [alqışa layiq] bir halda davam edir və kəndisinin təsadüf edəcəyi hər cür ağırlıqları həll etməyə qadir və müstəiddir [gücü çatar]. Ələlxüsus şu Nəzarətin sülh tərəfdarı olub da hər bir məsələni sülh yolu ilə həll etməyə çalışması ona artıq dərəcə hüsn-təsirbəxş olduğunu bəyan etmişdir.

Rəisi-vükəla həzrətləri buna cavabən irad etdikləri [söylədikləri] nitqində general Korinin Azərbaycan Hökumətinə olan məhəbbətinə və həmişə ona xeyirxah olmasına görə artıq təşəkkürlər edib generalın səhih-salim İngiltərəyə vürudunu [çatmasını] arzu etmişdir.

### İngilislərin getməsinə dair

İngiltərədən gələn təcili hökmə görə Bakıdakı ingilis ştabına bilatəxir [təcili surətdə] kəndi işlərini bitirmək əmr olunmuşdur. Buna binaən [buna əsasən], hər gün aldığımız "Royter" məlumatları avqustun 18-dən etibarən qət olmuşdur [kəsilmişdir].

* * *

Aldığımız məlumata görə, ingilislərin getmələri Londondan gələn binagüzarlığa [sərəncama] görə 5-6 gündən artıq çəkməməlidir. Bu hesabla avqustun 26-na qədər bütün Zaqafqaziyada olan hamı ingilislər getməlidirlər.

**Bir izah**

"Teleqraf" qəzetəsinin axırıncı nömrəsində Gürcü hökuməti ilə Könüllü ordunun nümayəndəsi Baratov ilə olan etilaf [razılıq] xüsusunda bir məlumat verilmişdir. Ən mövsuq [etibarlı] mənbələrdən bizə bu məlumatın tamamilə yalan olmasını xəbər verirlər. Çünki Könüllü ordu ilə Gürcü Hökumətinin miyanında [arasında] böylə bir etilaf olmamışdır və qəzetədə dərc olunan şərtlərlə heç bir vaxt ola da bilməz.

* * *

Bir ay həbsdə qalandan sonra Biçeraxovun kəşfiyyat dəstəsinin rəisi general Razuvayev Azərbaycan məmləkətindən nəfy [sürgün] edilmişdir.

**Çörək qiyməti xüsusunda**

Ticarət, Sənaye və Ərzaq Nəzarətində avqustun 17-də dəyirmançıların və düyütəmizləyən zavod sahiblərinin iştirakı ilə bir şura qurularaq çörək qiymətinin ucuzlanması xüsusda müşavirədə bulunmuşdur. Məlum olur ki, un mövcudu yox mənzələsində [dərəcəsində] olmağa görə çörək qiyməti dəxi də qalxması gözlənir. Şurada qərar qoymuşlar ki, dəyirmançılar Kubana 20 min pud düyü aparıb buğda ilə dəyişsinlər və əlaveyi-əzin [ondan əlavə], bu il buğda məhsulatı yaxşı olmağa görə Azərbaycanda da buğda almağı təhti-qərara almışlar.

**İrandan mal gətirilməsi qadağan olmuşdur**

İrandan varid olan [gələn] tacirlər xəbər verirlər ki, İran hökuməti xaricəyə mal buraxmağı qadağan etmişdir.

**Yüzbaşıların məsuliyyətə cəlbi**

Bakı İstinaf Məhkəməsi [Məhkəmə Palatası] müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna məlum etmişdir ki:

1) Şamaxı qəzasının Q. Qaşınski cəmiyyətinin yüzbaşısı Mirzəheydər Mirzəqasım oğlu 377 və 378-ci maddələrə görə;

2) Quba qəzasının Mucuq cəmiyyətinin yüzbaşısı Şeyxsəid Hacı oğlu 346-cı maddəyə görə;

3) Quba qəzasının Rük cəmiyyətinin yüzbaşısı Nuru Hacı Babakişi oğlu və onun müavini Zeyd Şirin oğlu, camaat vəkilləri Fəttah İsmayıl oğlu, Nüsrət İsmayıl oğlu və Salman Arzuman oğlunu bir ay müddətinə həbsə almışdır.

Məzkurların [adı çəkilən şəxslərin] təqsiri əsgərlik sinninə [yaşına] dolmuş cavanları gizlətmək olubdur.

**Bankın yarılması**

Üç gün əqdəm [qabaq] Poliseyski küçədə Tiflis Əsilzadə Bankının zalına beş nəfər naməlum şəxs daxil olmuşdur. Bunların üçü gürcü və ikisi erməniyə bənzəyirlərmiş.

"Bankın müdiri nərədədir?" deyə bunlardan birisi xidmətçiyə rücu [müraciət] etmişdir. Bu isə bir az şübhəyə düşən kimi olduqda tapança parlaşır.

"Heç kəs yerindən tərpənməsin!" deyə qışqırıb quldurlar kassaya hücum etmişlərdir.

Kassada 20 manata qədər bon var imiş. Qeyri yerləri də aradıqda 9 min manata qədər də Tiflis parası tapmışlardır.

Bankda gərək imiş çox pul olsun və bunu da bilməyə görə, məzkurlar [deyilən adamlar] kassirdən "Milyonlar nərədədir?" deyə sual etmişlər.

Kassir isə cavabında pulların qeyri banklara göndərilməsini göstərmişdir. Bədəfkarlar [cinayətkarlar] şu cavaba kifayət edib bankdan xaric olmuşdurlar.

Bir qaç dəqiqə bu hadisədən sonra banka 2.000.000 (2 milyon) manatdan ziyadə pul gəlmişdir. Görünən budur ki, bədəfkarlar bu məbləğdən ötrü gəlmiş imişlər. Məlumdur ki, 10 dəqiqə gec gəlsə imişlər arzularına nail olacaqmışlar.

Hökumət tərəfindən ciddi surətdə aranırlarsa, naməlumlar hələ tapılmamışlardır.

**Sirkdə axtarış**

Şənbə günü avqustun 16-da "Modern" sirkində oyunlar tamama yetdiyi zaman sirk Azərbaycan əsgəri tərəfindən tamam əhatə edilmişdir. Oyunlar qurtardıqda hamıdan başburt tələb etmişlər. Pasportu olanları buraxıb olmayanları toplayıb polisəyə göndərmişlər.

**Sui-qəsd**

Zavedenski küçədə sükunət edən [yaşayan] polis qorucularının rəisi polkovnik Seyidməhəmməd Süleymanov polisəyə məlum etmişdir ki, avqust ayının 14-də sübh saat 4-də məzkura [deyilən şəxsə] evinə gedərkən Zavedenski küçə ilə dalanın küncündən naməlum bir nəfər güllə atmışdır. Güllə döşündən dəymişdir.

## AZƏRBAYCANDA

**Lənkəranda**

Lənkəran general-qubernatoru Cavad bəy Məlik-Yeqanov tərəfindən Lənkəranda böylə bir müraciətnamə nəşr edilmişdir:

"Lənkəran və Muğan əhalisinə

Vətəndaşlar! Tam iki il davam edən Lənkəran nahiyəsində və Muğanda anarşiya başsızlığı sizə böyük zərərlər yetirmişdir.

Muğanla heç bir əlaqəsi olmayan Suxorukov və rüfəqası [yoldaşları] kimi yabançılar vaxtdan istifadə edərək sizi xış və kotandan ayırıb, əllərinizə silah verib səngərlərə göndərib, yek-digərinizə [bir-birinizə] atəş açdırıb, özləri üçün müşkül vaxtda dəryaya qaçmağa vaxt ayırıb, özlərinə talan etdiyi şeyləri dəxi qaçırtmağı asan etsinlər. İştə bu gün Muğanın ali fikirli zəhmətkeş camaat vəkilləri ayın 10-da Lənkəranda toplaşıb fövqəladə iclasında əksəriyyəti-ara [səs çoxluğu] ilə Azərbaycan Hökumətinin qanuni haqlarını tanıyıb və təslim olmağa razılıq veriblər.

Vətəndaşlar! Sizi dəvət edirəm ki, bu gündən keçmiş ədavəti yaddan çıxarıb yenidən asudə öz zəhmətkeş həyatınıza şüru edəsiniz [başlayasınız]. Bütün aranızda olan işlərin təhqiqatında bulunmayıb, fəqət tamam Lənkəran uyezdini həyat öz adi qaydasına gəlincəyə qədər idareyi-əsgəriyyədə [hərbi rejimdə] qərar verirəm.

İştə, qadağan olunur:

1. Müfəttinlik [fitnəkarlıq] edib Azərbaycan Hökumətinin hərəkatına zidd danışanlar;

2. İznsiz silah daşımaq və müsəlləh şəhərə girmək;

3. Ərzaq və qeyri mühüm şeylərin qiymətini artırmaq;

4. Havayı güllə atıb xalqın istirahətini pozmaq;

5. Şəhərin küçələrində sərxoş halda gəzmək;

6. Şəhərin küçələrində axşam saat 10-dan sonra gəzmək;

7. Talan olunan və xəzinə malı alıb-satmaq, əhalidə olan əsgəri şeylər və ləvazimi-hərbiyyə [hərbi ləvazimat] bilatəxir [dərhal] hökumətə təslim edilməlidir.

Yuxarıda yazılan maddələri pozanlar şiddətli cəzaya uğrayacaqlar. Böylə cəzalara talançı, qətl və qarət və oğurluq edənlər də məhkum ediləcəklərdir.

Məlum olsun ki, demokratiya əsası ilə təşkil olunmuş Azərbaycan Cümhuriyyətində bütün vətəndaşlar bilafərqi-millət və məzhəb [millət və məzhəb fərqi olmadan] qanun nəzərində müsavidir [bərabərdir].

İdarələrdə hər cür ərizələr və şikayətlər türk və rus dilində qəbul olunur.”

*(İmza)*

## ERMƏNİSTANDA

### Parlamento seçkiləri

Məlum olduğu üzrə, Ermənistanda seçki işləri ancaq daşnak firqəsi əlində olmuşdur. Gərək təşkilatsızlıqları saiqəsi [səbəbi] ilə, gərək az olmaları səbəbinə sosialistlər seçkilərdə dirilik hərəkəti göstərə bilmədikləri kimi, kadetlər də seçkilərə boykot elan etmişdir.

Daşnak mübəlliğləri [təbliğatçıları] öz siyahıları “nömrə 1”ə səs verilməsinə təbliğat etdikdə, əhalini, xüsusən müsəlman və erməni qaçqınlarını inandırırlarmış ki, hər kəs daşnak siyahısına səs versə çörək (ətmək) alacaq, səs verməyənlər isə məhrum ediləcəklərdir.

Müsəlman əhalisinin parlamento seçkilərinə iştirakı bütün-bütünə qeyri-təbii bir qərar üzrə icra edilmişdir. Seçki siyahılarına müsəlman əhalisi yazılmamışlardır və yazılmaları və siyahılara düşmələri də imkan xaricində imiş. Zira, axırıncı hadisələrdən sonra ətrafa dağılıb qaçmış müsəlman əhalisi kəndi yurdlarına qayıtmamışlardır. Müsəlman deputatları əhalinin yurdlarına qayıtmalarını və başqa şu yollu mümaniətlər [maneçilik] təşkil edən səbəbləri iraə ilə [göstərməklə], müsəlman əhalisi üçün iki-üç ay sonra yeni seçki tərtib verilməsini rica etmişlərsə də, hər dürlü təzyiqatla siyahılarını təqdim etməyə məcbur edilmişlərdir və 4 gün vəqti-müəyyəndən [təyin olunmuş vaxtdan] gecikməsinə baxmayaraq müsəlman siyahıları “qanuna müvafiq” hesab edilərək qəbul olunmuşdur. Müsəlmanlara Parlamentoda 11 məbus yeri veriləcəyini vəd edən bəzi erməni hökuməti üzvlərinin itminanına [xatircəmlik verməsinə] rəğmən, müsəlman əhalisinə ancaq 2 məbus yeri verilmişdir.

### Əhvali-maliyyə

Ermənistanın maliyyə işləri qayət müşkülat içindədir. Azərbaycan Cümhuriyyəti taxıl, neft cövhəri, mazut və başqa mayehtac [ehtiyac malları] verməklə Ermənistana böyük müavinətlər edir, pulları olmadığına görə, Ermənistandan alınan əşyaya qarşılıq təminat çeklərlə (banknotlarla) icra edilir. Şu çeklər Dövlət Bankı namına verilirlər. Erməni Cümhuriyyəti xidmətçi və məmurlarının bir çoxu neçə aylardır ki, maaş almayırlar.

Mədaxil mənbəyi Ermənistanda çox azdır. Onlardan ən başlıcasını Qulp duzlaqlarını hesab etmək olar. Nəhayət aşağı qiymətə əhalidən həcz [müsadirə] edilən Gürcüstan pambıq məhsulatı da Ermənistan Cümhuriyyəti üçün arakəsmədə bir mədaxil mənbəyi olmuşdur.

Onu da qeyd etməlidir ki, Ermənistan Hökuməti həcziyyat işlərində böyük suiistemallar [sui-istifadələr] rəva görmədədir. Əhalinin bütün mayehtacı həcz edilir. Xüsusən həcziyyat işlərində müsəlmanlarla sui-müamilədə [pis rəftarda] bulunaraq onların haqq və hüququ heç nəzərə alınmayır.

Bu yaxın zamanda kəndi paralarını buraxmaq üçün Erməni Hökuməti təşəbbüsatda bulunur. Həman paralar İtaliyada düzəldilmiş erməni çapxanalarından birində çap ediləcəkdir.

## TEATRO [VƏ] MUSİQİ

Bu gün avqustun 20-də Suraxanıda Əbdülhüseyn Heybətzadənin təhti-idarəsində [başçılığı altında] Əmirhacıyan səhnə həvəskarları tərəfindən Əmirhacıyan xüsusi müdafieyi-milli könüllü təşkilatı nəfinə [xeyrinə] olaraq Benkendorf teatrosunda mövqeyi-tamaşaya qoyulacaqdır: "Axşam səbri xeyir olar", "Bizim kirayənişin özün[ü] öldürdü".

Bundan əlavə, fasilələrdə leksiya oxunacaqdır.

**"Zorən təbib"**

Balaxana, Sabunçu dairələrində çalışan müsəlman işçi qardaşlara elan edilib ki, işbu ağustos ayının 21-də cümə axşamı Balaxana krujokunda Əmirhacıyan həvəskarları tərəfindən Əbdülhüseyn Heybətzadənin təhti-idarəsində olaraq mövqeyi-tamaşaya qoyulacaqdır "Zorən təbib" – dördpərdəli komediya. Fasilələrdə musiqi tərənnüm edəcək və milli şərqilər oxunacaqdır.

*Müdiri-məsul:*
*Zülfüqar Fərəc*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**İtibdir**

Abbasmirzə Məhəmməd bəy oğlunun 9-cu polis idarəsindən aldığı pasportu itib, etibardan saqitdir [etibarsızdır].

*7472*

**İtibdir**

Əkbər Əsgər oğlunun İrəvan qəzası Baş Noraşendən aldığı pasportu itib, etibardan saqitdir.

*7469*

**İtibdir**

İmaməli İsa oğlunun İrəvan qəzası Baş Noraşendən aldığı pasportu itib, etibardan saqitdir. Həmin pasportda həddi-buluğa çatmamış Xanlar adında bir qardaşı da qeyd olunmuşdur.

*7474*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

# QEYD VƏ ŞƏRHLƏR

**Hökumət Teatrosu axşam tamaşası**

səh. 355. "Müsibəti-Fəxrəddin": Nəcəf bəy Vəzirovun əsəri.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 356. "Məsaili-yövmiyyə": qəzetdə bu sətirin yeri səhv düşmüşdür.

"cinayətlərə biçiləcək cəzaların": qəzetdə "cəzaların" yerinə "qanunların" getmişdir.

**Dağıstanda**

səh. 362. "Kronverski caddədə olan gözəl məscidlərini": söhbət Sankt-Peterburq Cümə məscidindən gedir. Rusiya imperiyasının əsas məscidi olan bu məscid 1909-1920-ci illərdə inşa edilmişdir. Məscidin inşası üçün lazım olan vəsait Rusiya müsəlmanlarının, həmçinin Azərbaycandan Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov və başqalarının ianələri hesabına toplanmışdı.

**Mətbuat**

səh. 363. "Zaqafqaziya cümhuriyyətləri məsələsi məsaili-yövmiyyə sırasına keçənədək...": burada, Zaqafqaziya cümhuriyyətləri məsələsinin Paris Konfransının gündəliyinə alınmasından söhbət gedir.

**Bakı xəbərləri**

səh. 368. "Şamaxı qəzasının Q. Qaşınski cəmiyyətinin": qəzetdə "Q. Qaşınski" yerinə "N. Qoşunski" getmişdir; Qaraqaşlı kəndi nəzərdə tutulur.

"Poliseyski küçə": Bakıda "Köhnə polis" küçəsi, indiki Yusif Məmmədəliyev küçəsi nəzərdə tutulur.

səh. 369. "Zavedenski küçə": Bakıda, indiki Neftçi Qurban küçəsi.



آذربایجان

*"Azərbaycan" qəzetinin 257-ci nömrəsinin 1-ci səhifəsi*

**Cümə axşamı, 21 avqust 1919-cu il, nömrə 257**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 24 zülqədətül-haram sənə 1337. 21 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

21 avqust 1919 pəncşənbə [cümə axşamı] günü saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

## SİRK "MODERN"

Pəncşənbə günü avqustun 21-ndə 1919-cu ildə Gürcüstanın igid oğlu cahan pəhləvanı Apollon Vladimiroviç Staroşvilinin benefisi olacaqdır. Bu gün Staroşvili öz benefisi münasibətilə zurnanın çalınması ilə Qafqaz gürcü mübarizəsini öz gürcü paltarında ifa edəcək. Zurnanı məşhur zurnaçı Qrişa Nikolay və Məşhədi İbad çalacaqdır. Axırda Staroşvili ləzginka oynayacaqdır.

Bu gün 4 cift pəhləvan mübarizə edir.

1-nci: Qafqaz gürcü mübarizəsi (çuxada) Staroşvili və Raqenbaum.

2-nci: Qəti fransız mübarizəsi Aleksandr Qalişeviç və Staroşvili.

3-ncü: Buyvolov və Jan-de-Kolon.

4-ncü: Təzə varid olmuş pəhləvan Yemelyanov və Qırmızı Maska.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də və qurtaracaq 12-də.

*7475*

## AZƏRBAYCAN HÖKUMƏTİ TEATROSUNDA AXŞAM TAMAŞASI

"Cır-bır" və böyük konsert
Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının Müdiriyyəti
Cümə günü ağustosun 22-də
1919-cu ildə
Hacıbəyli qardaşları əsərlərindən
**"Arşın mal alan",**
**"Əsli və Kərəm",**
**"Aşıq Qərib",**
**"O olmasın, bu olsun",**
**"Leyli və Məcnun"**
opera və operettalardan mürəkkəb
bir pərdəli "Cır-bır",
dalıyca 15 nömrədən ibarət
Azərbaycan, Dağıstan,
Gürcüstan və Gilan
milli nəğmələri oxunub,
milli rəqslər ediləcəkdir
və bundan masiva [bundan əlavə]
iki nəfər səhnədə
"qurşaq" tutacaqdırlar.
Bu böyük nümayiş səhnəmizdə
birinci dəfə olduğundan,
şükuhlu [təntənəli] bir mənzərədə
başa gəlib,
böyük simfoniya orkestri

İrandan varid olmuş məşhur tarzən
Qurban Pirimovun
iştirakı ilə
[Maqomayev] Müslüm bəyin
təhti-idarəsində olaraq
milli nəğmələr icra ediləcəkdir.
Biletlər teatrın kassasında
satılmaqdadər.
Tamaşa başlanacaqdır
axşam saat 9-un yarısında.

**İTİBDİR**

Naberejnı, Olqinski, yaxud Nikolayevski küçədə bir daşlı altı karatlı bir brilyant sırğa itibdir. Tapan yaxud yerini göstərən şəxsə sırğanın qiymətini bəxşiş olaraq verirəm. Ünvan "Avropa" mehmanxanası, nömrə 35.

*7479*

**TELEQRAF XƏBƏRLƏRİ**

**Salyan**

*(öz müxbirimizdən)*

Əsgər qitəatı [hərbi hissələr] səhih-salim [sağ-salamat] Lənkəran qəzası Xan Təkləsinə varid oldu [çatdı]. Rus əhalisi duz-çörəklə istiqbal edir [qarşılayır].

*Bolşevik xəbərləri*

**Cəbhələrdə**

Şimal cəbhəsində - Şimali Dvinsk tərəfdə bolşevik əsgərləri 5 verst geri çəkilmişlərdir.

Qərb cəbhəsində - Kurulski tərəfdə düşmənin hücumu dəf edilmişdir.

Pskov rayonunda - Ostrov şimalında 4 verst uzunluğunda cəbhədə müharibə davam edir. Bolşevik əsgərləri dəmiryol rayonu boyunda bir neçə kənd almışlardır.

Cənub cəbhəsində - Minsk tərəfdə Sluç çayında bolşevik dəstələri müharibə edirlər. Zenkovski tərəfdə Qadyaç şəhərinin 5 verst şimalında düşmənin hücumu dəf edilmişdir. Sumı şəhəri bolşevik əsgərləri tərəfindən tərk edilmişdir. Kursk - Belqorodski tərəfdə Oboyan şəhərinin 15 verst cənubunda inadlı müharibələr davam edir.

Belqorodski tərəfdə bolşevik əsgərləri Borisoqlebskin 15 verst şimal-qərbində Qribanovski stasyonunu və şərqə tərəf bir çox başqa məntəqələri işğal etmişlərdir. Krasnoyarsk və Kamışin tərəfdə bolşevik əsgərləri müvəffəqiyyətlə irəliləməkdədirlər.

Kamışinin 70 verst şimalında vaqe olan müharibədə bolşeviklər min nəfər əsir, 80 pulemyot, 200 araba və başqa şeylər almışlardır.

N-ski ordusu ərkani-hərbindən [qərargahından] avqustun 14-də xəbər verirlər ki, Pskov tərəfdə bolşevik əsgərləri düşmənin qüvvəsini sındırıb hücuma keçməklə bərabər, müharibə ilə bir çox kəndlər almışlardır. Pskovdan cənub tərəfdə hücum başlanmışdır. Düşmənin Lokot istasyonuna yaxınlaşan zirehli qatarı bolşevik top atışı ilə qaytarılmışdır.

Düşmən Porxovun 30 verst cənub-qərb rayonunda xəndəklər qazdığı yerdə bolşevik əsgərləri tərəfindən atəşə tutulmuşdur. Mariunburq səmtində tüfəng atəşi ilə düşmənin  Qusakovo kəndinə olan hücumu dəf edilmişdir. Podona tərəfdə düşmənin artıq qüvvəsi olduğun-

dan bolşevik əsgərləri verst yarım geri çəkilmişlərdir.

**Macarıstan füqərayi-kasibəsinə salam**

Kiyev - 15 ağustos. Beynəlmiləlçi Qırmızı ordu əsakiri [əsgərləri] radio vasitəsi ilə Macarıstan füqərayi-kasibəsinə [proletariatına] salam göndərərək onları ruhdan düşməməyə və yeni Şura Hökuməti bərpa etməyincəyə qədər tərki-silah etməməyə dəvət edir. "Biz füqərayi-kasibə inqilabi mübarizləri yəmin ediriz ki, daha şiddətlə, daha rəhmsizcəsinə burjuaz əşqiyaları [quldurları] ilə vuruşmada davam edəcəyiz. Etiqadımız bərtamamdır ki, Qərb füqərayi-kasibəsi də bizə müavinət edərək və rus qardaşları ilə birlikdə məramlarına yetişməyə müvəffəq olarlar" sözləri ilə radio xitam bulur.

*(Azərbaycan simsiz teleqrafı qəbul etmişdir)*

**Rostovda**

Voronejdən xəbər verirlər ki, Rostovda kommunist firqəsi üzvləri fəhlələr arasında ciddi təşviqat aparmaqdadırlar. İki Kuban alayı cəbhəyə getməkdən və Denikin komandanlığına tabe olmaqdan imtina etmişdir.

**Macarıstan əhvalı**

Nauendən xəbər verirlər ki, Peştədən alınan axırıncı xəbərlərə görə, Lovasinin Kabinəsi pərişan olmuşdur. Sosial-demokratlar qəflətən elan etmişlər ki, onlar bu hökumətdə iştirak edə bilməzlər. Çünki bu hökumətin demokratik bir hökumət olacağına təmin edilməmişlərdir. Bunun səbəbi ondan ibarətdir ki, Şura Hökuməti ilə əlaqədar olanların hamısını hər kəs olursa-olsun təqib etmək başlanmışdır. Bir para adamlar həbs edilmişdir. O cümlədən, Şura Hökuməti nəfinə [xeyrinə] təşviqatda bulunan bir çox arvadqız həbsə alınmışdır. Mərkəzi İcraiyyə Komitəsinin əvvəlki sədri Qarbai həbs edildiyindən, hökumət əleyhinə narazılıq başlanmışdır.

**Romaniya mandatı**

Nauendən teleqraf edirlər ki, Vyanadan verilən xəbərlərə görə, Müttəfiqlər Romaniyaya mandat vermək məqsədi ilə Macarıstan işlərini təftiş etmək istəyirlər. Bu xəbər Peştədə böyük həyəcana bais olmuşdur. Macarıstandan verilən rəsmi xəbərlərə görə, ərzaq böhranı gözlənir.

**Bolşevik ordusunun həziməti**

*(Rus agentəliyi teleqrafı "Rusagent")*

Aleksandrovskdan xəbər verirlər ki, dabravol dəstələri Buzuluk çayında bolşevik əsgərlərini dağıtdıqdan sonra Apostolovo istasyonunu müdafiə edən əsgərləri qovmaqla istasyonu işğal edib Krivorojski daş kömür rayonuna hərəkət etmişlərdir. Vücuda gələn əhval münasibətilə bolşeviklər müqavimət göstərə bilməyib İnqulets çayına tərəf ricət etmişlərdir [geri çəkilmişlər]. Dabravol əsgərləri 150 əsir, 2 top, 5 min tüfəng, 400 top gülləsi və bir çox başqa şeylər qənimət almışlardır.

**Qriqoryevin hücumu**

Alınan məlumata görə, [Ataman] Qriqoryevin dəstəsi Yelizavetqrad həbsxanasında olan məhbuslara əziyyət edil-

diyindən xəbərdar olub, Yelizavetqrada hücum etmişdir. Bolşevik əsgərləri geri çəkilməyə məcbur olmuşlardır. Qriqoryev əsgərləri şəhəri alıb bolşevik komissarlarından bir paralarını güllələmişlərdir. Həbsxanada olanları azad etdikdən sonra bolşevik idarələrini dağıdıb şəhərdən çıxmışlardır.

**Saratov altında**

Tsaritsından xəbər verirlər ki, Kamışin-Saratov boyunda hücum edən dabravol dəstələri bolşeviklər tərəfindən ciddi müqavimətə düçar olurlar. Saratovdan bolşeviklərə böyük qüvvə gəlməkdədir. Bununla belə, bolşeviklər böyük tələfat verməkdədirlər. Hal-hazırda Fransuzski kəndin şimal rayonunda dəhşətli müharibə başlanmışdır ki, hələ nəticəsi məlum deyildir.

**Fransızların getməsi**

Taqanroqdan xəbər verirlər ki, İstanbuldan dabravol ordusu ərkani-hərbinə [qərargahına] rəsmi sifarişatla gələn bir zabit Rus Teleqraf Agentəsi müxbirinə xəbər vermişdir ki, fransızların Cənubi Rusiyadan getmələrinə səbəb Fransa ordusunun tərxisidir. Bundan əlavə, hal-hazırda müharibəyə yarar Romaniya ordusu bolşeviklərlə mübarizə edə bilər. Axırıncı alınan məlumata görə, fransızlar Kişinyov, Bender və Akkermandan çıxıb getmişlərdir.

## QƏZETƏLƏRDƏN

**Hacı-Tərxanda inqilab**

Hacı-Tərxandan xəbər verirlər ki, şəhərdə nagəhani [gözlənilməz] bir inqilab əmələ gəlmişdir. Camaatın təərrüzünə [hücumuna] bais olan bolşevik komissarları yavaş-yavaş şəhərdən çıxırlar. Bunlar şəhərdən gedərkən özləri ilə güclü pul da aparırlar. Avqustun 9-da şəhərdə bir qədər təhəmmül ediləcək [dözüləcək] şəxslərdən komissarlıq təşkil edilmişdir. Deyirlər ki, komissariyyata bolşevik olmayanlar da daxil olurlar. Kimlərlə isə danışıq davam edir ki, bu danışıq gizli saxlanır. Şəhərdə böylə şayiat davam edir ki, kənardan təcavüz olmadan Hacı-Tərxan müqəddəratı avqustun axırında həll ediləcəkdir.

* * *

Bu günlərdə Kamışindən gələnlərin rəvayətinə görə, Saratov altında hal-hazırda bolşeviklərlə dabravol qoşunları arasında qızğın müharibə gedir. Fərarilərin sözünə görə, bolşeviklər şəhəri tərk edərkən 500 ədəd müxtəlif top gülləri aparmışlardır və bunları düşmənlərinə təslim etmək istəməmişlərdir.

**Gürcülər və osetinlər**

Osetin Milli Şurası qət etmişdir [qərara almışdır] ki, gürcü əsgəri qitəatının [hərbi hissələrinin] Çxinval ətrafında rəva gördüyü naməqbul [nalayiq] hərəkətlərdən Gürcüstan Cümhuriyyəti Hökumətinə şikayət verilsin.

**Mavərayi-Bəhri-Xəzər müsəlmanları**

"V. A. K. V." qəzetəsinin verdiyi xəbərlərə nəzərən, Mavərayi-Bəhri Xəzər [Zakaspiysk] müsəlmanları bolşeviklərə qarşı üsyan etmişlər imiş. Asilər toplanaraq

bolşevikləri Məvərayi-Bəhri Xəzər dairəsindən qovurlarmış. Tazəşəhərdən varid [daxil] olmuş rəsmi xəbərlərə görə, Göktəpə mövqifində [stansiyasında] cəbhələri olan bolşeviklər şimdi Aşqabada tərəf geri çəkilməkdədirlər. Verilən xəbərlərə nəzərən, geriyə çəkilən hissələr Daşkənddən üsyan etmiş bolşeviklərə qarşı göndərilmişlərdir. Tazəşəhərdə həyat adi qərarını alır.

**Dabravol hissələrinin hərəkəti**

Axırıncı xəbərlərə görə, Petrovsk və Dərbənddə təhəşşüd etmiş [yığılmış] dabravol əsgəri qitəatı [hərbi hissələri] geri çağırılmışlardır. Şu yerlərdə ancaq ufacıq qarnizon əsgərləri qalmışlardır.

* * *

Petrovskdan bu günlər Bakıya varid olmuş paroxod xidmətçilərinin rəvayətinə nəzərən, Petrovskdan gedən hərbi paroxodun tutmuş olduğu radioteleqrafda denilir ki, Alya qəsəbəsi yenidən dabravollar tərəfindən işğal edilmişdir.

**Ali məktəblərdə**

Xarkovda Kommerçeski İnstituta daxil olmaq istəyənlərin ərizələri qəbul olunur. Ali mədrəsəyə daxil olmağa layiq olan əşxas [şəxslər] daxil ola bilərlər. Birinci kursda 2000 qədər yer vardır. Hələ indiyə qədər az ərizə varid olmuşdur. Dərslər sentyabrın 1-12-dək şüru olmağa [başlamağa] ümid var. Məktəb qoşuna könüllü gedən tələbələrin yerlərini kəndiləri üçün saxlamağı qət etmişdir və hər kəs payızda məktəbə övdət edə [qayıda] bilməsə, onun birinci yarım illik həqqi-tədrisi bağışlanacaqdır. Tibbiyyə şöbəsində 200-250 nəfər üçün yer vardır.

**Odessada**

Bolşeviklər Odessanı tərk etməyə hazırlaşırlar. Odessa Fövqəladə Komisyonunun əvvəlki heyəti çıxıb şimal tərəfə getmişdir. Komisyona təzə adamlar daxil olmuşdur. Şəhərdə olan pulları bolşeviklər çıxarıb aparırlar.

**Marşal Foş ingilis ordusu haqqında**

"Deyli meyl" qəzetəsinin mühərriri ilə müsahibə edərkən marşal Foş demişdir ki, İngiltərə ordusu təcili bir ordudur. Bu şəraitlə bu cür ordu vücuda gətirmək tarixdə təsəvvür edilməyir. Qəzetə mühərririnin yeni müharibə ola biləcəyi işarəsinə və bu müharibədə İngiltərənin nə rol oynaya biləcəyi sualına Foş cavab vermişdir ki, İngiltərə ordu düzəltməkdən ötrü 2-3 ay müddətində adam cəm edə bilər. Lakin bu adamlardan yaxşı əsgər olmaq üçün bir il keçməlidir. Digər dəfədə İngiltərə 1914-cü ildə olduğu kimi ola bilər. İngiltərə hazır olmasa, biz onu gözləməliyiz.

**İtaliyada**

Bolşevik xəbərləri bilaaram [fasiləsiz] İtaliyada inqilab olduğunu məlum edirlər. Əcnəbi qəzetələri İtaliyada inqilab olması haqqında bir şey yazmayırlar. Doğrudur, bir çox şəhərlərdə bahalığa görə iğtişaşlar olmuşdur, lakin bu intizamsızlıqlar yatırılmışdır. "Tan" qəzetəsi yazır ki, Florensiyada olan iğtişaşda süvari dəstəsi polisə zabitinin əmrinə tabe olmaqdan imtina etmişdir. Bolonyada Bələdiyyə İdarəsi şeylərə qiymət qoyan

kimi tacirlər öz agentlərinə teleqraflar göndərib ərzaq və qeyri şeylər göndərilməməsini təkid etmişlərdir. Lakin teleqrafxana xidmətçiləri 78 ədəd bu cür teleqrafları tutub göndərməmişlərdir. Nəticədə Bolonyaya mal gətirildikdə, hamısı həcz [müsadirə] edilmişdir.

## TÜRKİYƏDƏ

**Türkiyədə milli hərəkət başçıları**

Bütün Asiyayi-Suğra [Anadolu] türk xalqını qaplamış milli qələyan [həyəcan, coşğu] başında Mustafa Kamal paşa və Rauf bəy [Orbay] dururlar. İstanbulda nəşr edilən "L'Entente" qəzetəsi məzkur [adı çəkilən] başçılar xüsusunda aşağıdakı xəbərləri dərc edir.

Üçüncü qolorduya [korpusa] inspektor təyin edilmiş Mustafa Kamal paşa Samsuna yetişcək, əhalini məscidə toplayaraq atəşin bir lisanla söyləmiş olduğu nitqi içində əhaliyə şu yollu müraciətdə bulunmuşdur:

*"Dindaş və millətdaşlar! Vətənimiz uçurum qarşısında durur. Millətimiz bir çox fəlakətlərə məruz qalmışdır. Böylə ətalətə qapılıb oturmaqla heç bir iş görəmməyiz. Vaxtdır ki, həyat əsəri göstərəlim, yaşayışa haqlı olduğumuzu və ya-şayacağımızı sübuta qalxışalım."*

İstanbul Hökumətinə Mustafa paşanın hərəkətləri xoş olmadığı üçün məzkuru geri çağırdılar. Fəqət o, heç də etina etməyərək getməkdən imtina etdi. Əhvalı böylə görən Daxil[iyy]ə vəziri göndərmiş olduğu təmimnamələrlə [direktivlərlə] Mustafa Kamal paşanın xidmətdən kənar edildiyini vilayət sultasına [hakiminə] xəbər verir. O, yenə nəzəri-etinaya almayaraq vəzifəsi ifasında davamla, kəndi işini işləmədən çəkinməz.

Bir az vaxtdan sonra kəndisi istefa verərək daha ziyadə əzmkarlıqla işə sarılıb, vilayətlərə göndərmiş olduğu təmimnamələrlə təmmuzun [iyulun] 23-də qərar tutacaq Ərzurum Konqresinə nümayəndələr göndərilməsini əhaliyə təklif edir. Rəsmi surətdə mən' [qadağan] edilməsinə baxmayaraq həman gün konqrenin açılmasına müvəffəq olur.

Mustafa paşanın bu hərəkətlərini üsyan kimi tələqqi edən [qiymətləndirən] İstanbul hökuməti Mustafa Kamal paşanın və onunla birlikdə çalışan sabiq Bəhriyyə vəziri [Dənizçilik naziri] Rauf bəyin həbs edilmələrinə əmr verir.

Mustafa Kamal paşa bir qəhrəmani-hərb olduğu üçün əhali içində böyük hörmət və nüfuza malikdir. Axırıncı müharibə zamanında göstərmiş olduğu ciddi yararlıqlarla xalq içində məşhur olduğu kimi, hökumət tərəfində də təqdir edilmişdir. O, Trablus müharibəsində və axırıncı Dardanel müharibəsində böyük şücaətlər göstərmiş və qələbələrə müvəffəq olmuşdur.

Rauf bəy isə "Həmidiyyə" kruvazeri [kreyseri] komandanı olduğu zaman şöhrət qazanmışdır. Rauf bəy mütarikə [atəşkəs] müqaviləsini imza etməyə müvəkkil edilmiş və [Əhməd] İzzət paşa kabinəsində də Hərbiyyə vəziri portfelini almış idi.

**Tələt paşa**

Paris mənabeyindən [mənbələrindən] çıxan xəbərlərə nəzərən, alman deleqat-

ları Klemansoya vermiş olduqları notasında sabiq Türkiyə Baş vəziri Tələt paşanın Müttəfiqlərə verilməsinə prinsip nöqteyi-nəzərincə Alman Hökumətinin mail olduğunu bildirmiş və mabaqi [qalan] Gənc türk başçılarının Almaniyada olmadıqlarını xəbər vermişlər imiş.

**İzmir hadisələri**

"M. A." nam [adlı] yunan qəzetəsi türklər tərəfindən Aydının alınmasını bərvəchi-ati [aşağıdakı kimi] təsvir edir:

*"Türklər hücuma başladıqda fövqəladə bir rəşadətlə irəliləmişlərdir. Mürur ilə [vaxt keçdikcə] vuruşma şəhərin mərkəzi hissələrinə keçib, 60 saata qədər vaxt imtidad [davam] etmişdir. Türklər irəlilərkən qarşılarına nə çıxmışsa, yaxıb məhv etmiş, atəşə məruz qaldıqlarından böyük tələfata düçar olmuşlar imiş. Türklər toplardan atəş açdıqda Səlibi-Əhmər [Qırmızı Xaç] xəstəxanası xəsarətdidə olub bir məhəllə tamamən yanmışdır.*

*Türklərin qəhrəmanana təərrüzlərinə [hücumlarına] qarşı durammayan yunan ordusu ricətə [geri çəkilməyə] məcbur edilmişdir. Türk əsakiri [əsgərləri; ordusu] gözəl surətdə müsəlləh olub, miqdarca yunan əsakirindən 6 dəfə artıq imiş.*

*Hücum edən Türk ordusu 4-cü qolordu [korpus] və Aydın qolordusunun 4-dən 3 hissəsindən ibarət imiş.*

*Yunan ordusu ricət edərkən yunan əhalisinin bir hissəsinə nicat verə bilmiş imiş. Yunan qoşunlarına Aydının 14 çağırımlığında [kilometrliyində] olan dəmiryol mövqifində [stansiyasında] kömək yetişmişdir."*

Bu xəbərləri dərc edən məzkur [adı çəkilən] qəzetə övzanı [vəziyyəti] təfsir edərək yazır ki:

*"Zənn ediriz ki, Fransa ordusu Strasburqu işğal edərkən atəşi-qələyan ilə yanan əhalinin hücumuna məruz qalmış olaydı. Yaxud almanlar mütarikə [atəşkəs] müqaviləsini imza etdikdən sonra topların ağzını çevirib atəşə başlaya idi və hər alman evindən müdhiş qurşunlar yağdırıla idi və bu hücumda Almaniyada kəndi mənafeyi nöqteyi-nəzərini təqib edən Müttəfiqlərdən bəzilərilə əlaltı təyid [təsdiq] edilmiş olaydı. O zaman fransızlar almanların şu əhdşikənanə [müqaviləni pozan] hərəkətlərinə nə nəzərlə baxardılar və nə dürlü cəzalara onları məhkum qılmağı rəva bilərdilər!*

*Bizə söyləməzlərmi ki, nə qədər Misir əhalisi yunan və başqalarını hesaba almayaraq Misirdə qalxmış milli həyəcanı yatırmaq zamanı tələf oldular?*

*Bu sualları Fransa və İngiltərə jurnallarına vermək lazım gəlir.*

*Türkiyə mətbuatı ilə mübahisəyə girişmənin mənası olmadığı kimi, üçüncü – Müttəfiq mətbuatıyla da münaziəyə [mübahisəyə] qalxışmaq fəzlədir. Zira, onlar da türklərlə birlikdə işləyirlər. Bu sualı İngiltərə məbuslarına verməlidir.*

*Yunan xalqı işbu suallarına təkcə bir cavab istəyir. Yunanlıların istəyi budur ki, hərgah mütarikədən sonra almanları tərksilah etməyərək, əhalini müsəlləh etməyə başlayaraq Müttəfiqlərə qarşı çıxmış olsaydı, İngiltərə, Fransa yaxud amerikalılar nasıl bir müamilədə [rəftarda] olmuş olsa idilər, bizə də həman müaminləni qullanmağa izn versinlər."*

Məqalənin axırında İtaliya üzərinə töhmətlər yağdırılaraq türklər hədələnir və şu hadisədən dolayı qələyana gəlmiş yunan əfkari-ümumiyyəsi [ictimaiyyəti] təsvir edilir.

## HİNDUSTAN HAQQINDA "OBSERVER" QƏZETƏSİ

"The Observer" qəzetəsi Hindustanın övzayi-hazirəsi [indiki vəziyyəti] haqqında yazdığı bir məqaləsində deyir ki:

*"Hindustanda ədədcə az olan siyasi məfkurə sahiblərindən əlavə, cəhalət içərisində boğulan və Hindustanın gündən-günə artmada olan sərvətinə baxmayaraq fəqr, zillət və ehtiyac içində sürüklənən əhali içində də oyanıqlıq əsəri görünmədə və hallarından, səfalətli yaşayışlarından bezikmələri, səbirsizlik etmələri müşahidə olunmaqdadır. Hərgah, Hindustan xalqı bir azacıq kəndi əhval və övzalarına fikir verib düşünmüş olsalar, həyati-səfilələrinin [səfalətli həyatlarının] səbəbini bular [tapar] və göstərmiş olduqları səbirsizlik və narazılığın haqlı və yerində olmasını anlarlar.*

*Qəzetə və kitablar vasitəsilə inqilab fikri hindular içinə keçib zehinlərinə yerləşə bilmişdir. İnqilabi nitqlər əhali içində ən birinci müsahibə mövqeyini işğal etmişdir. Həman inqilab fikirləri hinduların ən aşağı təbəqəyə mənsub əhalisi içində də yavaş-yavaş intişar bulmaqdadır [yayılmaqdadır].*

*Ancaq şu fikirlər Avropa mənbələrindən çıxan inqilab fikrindən fərqli olaraq, hindu aşağı sinifləri içinə keçir. Zira, inqilab ədəbiyyatı, ən əvvəl Avropa lisanından tərcümə edilərkən təbəddülata [dəyişikliyə] uğradığı kimi, hindu əhalisi əzhanında [zehinlərində] dürlü təbir və təfsirata [şərh və yozumlara] da məruz qalır. Yəni əhali həman fikirləri eyni surətdə kəndilərinə təsvir edəmməyərək, kəndi istedadları dairəsində ölçüb biçirlər.*

*Şu fikirlər hansı bir qəlibə girdirilmiş olsa da və nə dürlü rənglərlə boyadılsa da, yenə inqilabi bir fikir olaraq əhali arasına girərək intişar bulmuş və hindu içində inqilab hərəkəti törətməyə müvəffəq ola bilmişdir.*

*Şu fikirlər sayəsində zalım və müstəbidlərə qarşı çıxmaq əməlləri [arzuları] bütün hərarəti ilə hindular içində qüvvətlənməkdədir. Güclü və sərvətlilər hökumətini yıxaraq yerinə zəiflər və məzlumlar hökuməti qaim etmək [qurmaq] xəyalları xəyalxanələrini oxşamadadır. Hərgah Lenin təlimatı [təlimləri] güclənərsə, yəni bolşevizm tərəfdarı çoxalarsa, füqərayi-kasibə diktaturası bərpa etmək arzuları bəslənmədədir.*

*Hərgah üsyan zamanı yetişərsə, əhali kimə qarşı üsyan bayrağı qaldıracaqdır? Britaniya Hökumətinə qarşı üsyan edəmməyəcəklərinə etiqadım bərqərardır. Onlar, şu cahil hindular kəndilərindən xeyli uzaqda olan Britaniya hökuməti üzərinə saldırammayacaqlardır.*

*Onlar 18-ci əsrdə üsyan qaldırmış Fransa köylüləri, yaxud şimdiki rus müjikləri kimi kəndi köylərində kəndilərinə beşəxsən məlum olan məmurlar və onları əllərində istifadə aləti yapmış sərvətlilər əleyhinə qalxacaq və onlara qarşı əməliyyatda bulunacaqlardır. Şu inqilab brəhmənlər, mülkədarlar və möhtəkirlərə qarşı olacaqdır. Bir sözlə, hərgah Lenin təlimatı təqviyə [güc; qüvvə] bularsa, sərvətlilərin, imtiyazati-məxsusə ilə təşxis edilənlərin qiyaməti qopacaqdır.*

*Hürriyyət və sosializm fikirləri istibdad pəncəsi altında əzilən hindular içində tam mənası ilə intişar bulduqda [yayıldıqda], ətrafa vulkanvari atəşlər*

*yağdıracağı da şübhə xaricindədir. Şu məzlumlar, şu qul adlandırılaraq murdar hesab edilən (“hindu”nun təlimatına görə “qul”lar murdar hesab olunduğu üçün ali siniflər, imtiyaz sahibləri kəndilərini də murdar etməsinlər deyə onlara toxunmaqdan böylə çəkinirlər) bu zavallılar 75 milyona qədərdirlər. Onların kəndilərini təmizləmək və pakə çıxarmaq vaxtı yetişdiyi kimi, şu yolda hər vasitəyə təvəssül etməyə haqları vardır da.*

*Şu bəxtsiz “qul”lardan bəziləri o qədər murdar hesab edilirlər ki, hətta ali sinif yaşayan kənd içinə çıxmaq ixtiyarından da məhrum edilirlər. Onlar, həman alilər su gətirdiyi quyudan su gətirmək ixtiyarından da məhrum edilmişlərdir.*

*Böylə təhqirlərə qarşı əhali içində olan narazılıq hərəkətləri çoxdan bəri müşahidə edilməkdədir. Füqərayi-kasibə diktaturası sədaları onların içində əksəndaz olarsa [əks-səda taparsa], üsyan qaldırılaraq Ömər (hindu bolşevikləri lideri) də brəhmənlərdən əski intiqamını alacaqdır. Üsyan zamanı nə qədər qanlar axıdılacağını və nə vəhşətlər icra edilə biləcəyini ancaq təsəvvür etmək olar.”*

Sonra məqalə sahibi tez zamanda Hindustanda islahat icra etməyi və əldə vaxt və fürsət var ikən onu itirməyərək çabuk və səri [sürətli] yollarla çarə düşünməyi tövsiyə edir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə nazirinin Bakı qubernatorunun əzli [vəzifədən uzaqlaşdırılması] haqqındakı təqririndən [rəsmi yazısından] sonra qət edilmişdir [qərara alınmışdır]:

Bakı qubernatoru Rəşid bəy Axundzadə kəndi ərizəsinə məbni [əsasən] əzl edilsin.

- Posta və Teleqraf nazirinin Quba qəzasının Yalama və Xudat mövqiflərində [stansiyalarında] posta və teleqraf kontorları güşadı [açılması] haqqındakı təqririndən sonra qət edilmişdir:

Təqrir təsviblə [bəyənilməklə], qanun layihəsi kimi Məclisi-Məbusana idxalı tapşırılsın.

- Post və Teleqraf nazirinin Nəzarət Dəftərxanası xidmətçiləri hesabını azaltmaq haqqındakı təqriri istemasından [dinləndikdən] sonra qət edilmişdir:

Təqrir təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maarif nazirinin ibtidai məkatib [məktəblər] müəlliminə hökumətin 28 dekabr və 28 fevral qərardadı üzrə maaş verilmək haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Rədd edilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Tağıyev fabrikası müdiriyyəti Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən rica etmişdi ki, zavod komitəsi əzasından [üzvlərindən] iki nəfəri son tətil əsnasında kəndilərini eyi aparmadıqlarından naşi [ötrü] əzl edilmələrinə icazə verilsin. Nəzarət cavabən məlum etmişdir ki, məzkurlara [deyilən şəxslərə] Nəzarət tərəfindən nüfuz yetirildiyindən dolayı çıxarılmalarına artıq lüzum görülməyir.

- İşbu ağustosun 17-də Maliyyə Nəzarəti tərəfindən vergi verməyənlərin əmlakının alınması haqqında tərtib verilmiş qanun layihəsini Nəzarət təsdiq üçün Məclisi-Məbusana idxal etmişdir.

- Yenə həman Nəzarət tərəfindən dövləti vergi, mədən və ticarət naloqları və gəlir vergisini havi [əhatə edən] müvəqqəti bir qanun layihəsini tərtiblə, işbu ağustosun 18-də təsvib üçün Vükəla Şurasına idxal edilmişdir.

## MƏNZİL VƏ HƏCZ MƏSƏLƏSİ ƏTRAFINDA

"Müsavat" fraksiyası rəisi Rəsulzadə Məhəmməd Əmin bəy həcz [müsadirə] məsələsi ətrafındakı qeyri-adiliklər münasibətilə Daxiliyyə naziri həzrətlərinə böylə bir məruzə təqdim etmişdir:

Daxiliyyə Nəzarəti-cəliləsinə

Həcz məsələsi son zamanlarda əndazədən xaric bir şəkil almış olduğu hər gün vaqe olan müraciətlər və şikayətlərlə sabit olmaqdadır [təsdiqlənməkdədir].

Hədd-zatında [əslinə qalsa], ali hökumət məmurları, ələlxüsus zabitani-əsgəriyyəyə məxsus olmaq üzrə qəbul[u] bir dərəcəyə qədər zəruri və dövlət müəssisələrindən ötrü müsəlləm [lazımlı, qaçılmaz] görülən ev, oda həczi o dərəcə ümumiləşmişdir ki, əvamiri-məxsusə [xüsusi işlər] məmurları, Parlaman əzaları [üzvləri] deyil, hər növ xidəmati-mülkiyyə və zəbtiyyə [mülki və polis xidmətləri] üçün ev-odalar həcz edilir. Hətta vaxt olmuş ki, idareyi-rəsmiyyədə xidmət edən reminqtonistkalar [makinaçı qadınlar] üçün belə ixtiyar bir ailə dişarı çıxarılmışdır.

Həczlər son dərəcədə ədalətsiz bir surətdə icra olunaraq, bütün ailəni adəta küçəyə tökmək surəti ilə vaqe olur. Öylə olmuşdur ki, bir ailə bir məmurun xatiri üçün soqağa atılmış, digər bir xəvişinin [qohumunun] evinə sıxılmaq istədikdə, orası da həcz olunaraq iki ailə birdən dişarıda qalmışlar.

Bu surətlə vaqe olan həczlər eyni zamanda ev sahiblərinin və bir taqım ev icarədarlarının dəxi spekulyasiyasından xaric qalmayır. Bir kirayənişin əlində "aciz" qalan ev sahibi əksərən məmurin ilə münasibata girişərək odasını "həcz etdirməklə" ticarət edir.

Həcz məsələsi o dərəcədə asan bir şəkil almış və ümumi bir hala gəlmişdir ki, əksərən məmurlar mənzil sahibi ikən məhza kəndisinə xoş gələn digər bir mənzilə sahib olmaq üçün həcz vasitəsinə müraciətdən çəkinməyirlər. Bəzi idarələrin məhza məmurları kəndisinə yaxın olsun deyə o həvalidəki [yaxınlıqdakı] odaların idarə məmurları üçün həcz edilməsini tələb edərək Həcz Komisyonuna müraciət eylədiyi vaqe olmuşdur.

Böylə bir haldan mütəvəllid suyi-müamilənin [əmələ gələn sui-istifadənin] və bu müamilədən doğacaq ümumi məmnuniyyətsizliyin əfkari-ümumiyyə [ictimaiyyət] üzərində nə kimi bir suyi-təsir [mənfi təsir] hasil edəcəyini və xalqın hissiyyati-hüquqpərvəranəsinə nə dərəcədə bir xələl verəcəyini əlbəttə təqdir edərsiniz.

Bu son dərəcə müxilli-hüquq [qanuna zidd] və heysiyyəti-dövlətlə namünasib olan əhvalın önünü almaq üçün atidəki tədabirin [aşağıdakı tədbirlərin] icrası əmri-alilərinə aiddir.

1) Rəsmi idareyi-əsgəriyyə və mülkiyyədən başqa bir müəssisə və ya şəxs üçün, o şəxs hankı bir məqam və məmuriyyəti haiz olsa [daşısa] da ev və ya oda həczini qətiyyən mən' [qadağan] etmək; yalnız nazirlər bu qanundan bəlkə müstəsna tutula bilər.

2) Həcz məsələsi bir zərurət halını aldığı zaman, ailəni tamamilə evdən çıxarmaq deyil, heç olmasa "uplotneniye" deyilən sıxışdırma üsuluna müraciət edilsin.

3) Həcz olunacaq ev və ya odanı boşaltdırmaq və yaxud sıxışdırmaq üçün ev və ya oda sahibinə 5 gündən 1 aya qədər möhlət vermək lazım.

4) Hər halda bir ailəni 3 gün və ya daha az bir müddət zərfində tərki-məskən etdirmək qədər şiddətli bir tədbirə müraciətdən qətiyyən imtina etmək.

Bu xüsusda sərih bir tədbirin ittixazına [tədbir görülməsinə] lüzum vardır, yoxsa ərkani-hürriyyətdən olan məsuniyyəti-məskən [hüquq və azadlıqların dayaqlarından olan məskən toxunulmazlığı] məsələsi Azərbaycan Cümhuriyyəti paytaxtında ənqa quşu halına gəlmiş bir hal kəsb edərək [qazanaraq], münafirəti-amməni mövcib olar [hər kəsin nifrətinə səbəb olar].

*"Müsavat" fraksiyonu rəisi:*
*Məhəmməd Əmin Rəsulzadə*
*Əslinə mütabiqdir:*
*Katib (imza)*

## ZAVALLI ERMƏNİSTAN TÜRKLƏRİ

Ermənistanda yaşayan türk və müsəlmanlar haqqında ermənilər tərəfindən icra edilən qanunsuzluqlar, zülüm və təcavüzlər barəsində qəzetəmiz sütunlarında bir çox şeylər yazılmışdır. Bu zülüm və təcavüz ümumi bir şəkil aldığından yüzlər, minlərlə hamisiz müsəlmanlar öldürülür, qarət edilir, sərvət və miknəti [var-dövləti] əlindən alınır. Təəssüf ediləcək bir hal vardır ki, bu zavallılaların keçirdikləri fəcayeni [faciələri] kimsə bilməyir. Halbuki, Azərbaycanda yaşayan ermənilər hər zaman həbbəni qübbə göstərmiş, nəşr etdikləri qəzetələr vasitəsilə gurultular qoparmış, hətta bəzən sırf iftira qəbilindən olan fəqərələri [yazıları] ta Yevropa qəzetələrinə belə əks etdirmişlərdir.

Bu günlərdə çoxdan bəri İrəvan quberniyasında vaqe Sürməli uyezdinə [qəzasına] tabe İğdır qəsəbəçəsindən çıxıb Azərbaycanda, Bakıda yaşayan bir irəvanlı müsəlman Ermənistana öz evinə getmiş və Bakıya qayıdaraq Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın İstixbarat [Xəbər] şöbəsinə şu uyezddə yaşayan müsəlmanlar haqqında və özünün keçirdiyi fəcaye xüsusunda işbu məlumatı vermişdir:

Mən öz evimizə vardıqda evdə mənə söylədilər ki, bu qiyafə ilə gəzmə. Əlbisəni dəyişdir, papağını əvəz et, sonra dişarı çıx, çünki məni yeni əlbisədə görsələr ermənilər həman saat soyundurub qarət edərlər. Mən də təbdili-qiyafə edib [paltarımı dəyişib] küçəyə çıxdım.

Mənim qəsəbəçəyə yeni varid olduğumu [gəldiyimi] ermənilər nərədənsə duymuşdular. Həman gün ermənilərdən bir məktub aldım. Məktubda mənim Azərbaycan taciri olduğum qeyd edilməklə bərabər, məndə külli para olduğu iddia edilir və 15 min manat tələb edilirdi. Əks halda qətl ediləcəyimlə təhdid olunurdum. Mən də naəlac qalıb istənilən paranı verdim.

Orada yaşayan müsəlmanlar qayət ümidsiz bir halda həyat keçirirlər. Kimsə özünün həyatından, mülk-əmlakından əmin deyildir. Mən ölkəmizdə 3-4 gündən artıq qala bilmədim. Bu neçə günün ərzində kiçik bir qəsəbəçədə bir neçə zülüm və təcavüzlər oldu.

Küçədə gündüz hər kəsin gözü qarşısında müsəlman soymaq adi şeylərdən birisidir. Mən orada olarkən Sürməli qazısını yanında para olduğunu bildiklərindən bazarda öldürüb 6000 manatını apardılar. Qəsəbədə hər nə qədər namuslu və əlindən iş gələn igidlər varsa hərəsini bir bəhanə ilə aparıb öldürmüşlərdir.

Yayçı, Çarıqçı, Aşağı Çarıqçı, Küllük, Pirli, Küncü, Ərəbkörü, Hacıməhəmməd, Quzugüdən, Sarıçoban, Ağaver, Qazançı, Qarakir islam köyləri türklərin vürudundan [gəlişindən] əvvəl tamamilə dağılıb, əhalisi dağlara, meşələrə qaçmışdı. Türklərin vürudu ilə işbu qaçqınlar yenə öz yerlərinə qayıdıb öz boğazlarından və ailələrindən kəsmək, çörək əvəzinə ot-ələf yeməklə hərə bir qədər özü üçün taxıl əkmiş, onunla gələcək güzəran və məişətlərini yoluna qoymaq fikrinə düşmüşdülər. Taxılın və məhsulun biçiləcəyi bir zamanda bütün o kəndlərin əhalisini öz evlərindən çıxarıb erməniləri orada sükunət etdirmişlər. Bununla bərabər, onların məhsulatlarını da əllərindən almışlar, təkrar onları dağlarda ot-ələflə güzəran etməyə vadar etmişlərdir.

Bu kimi zülüm və təcavüzlərin, haqsızlıq və qanunsuzluqların bir sərhədi yoxdur. İğdırda xoylu Məşhədi Abbas Tağı oğlu və Məşhədi Ağaəli Murad oğlu nam iki nəfər axşam öz evində ailəsi ilə şam yeyərkən ermənilər tərəfindən tövqif [həbs] edilmişlər, "Sizdə pul var, veriniz" deyə onları sıxışdırmağa başlamışlar. Bundan xəbər tutan qonşu müsəlmanlar haraya gəldiyindən, ermənilər onları buraxıb getmişlərdir. Sabahısı həman canilər öz hökumətlərinə şikayət etməklə, məzkur [deyilən] iki müsəlmanla bərabər haraya gələn müsəlmanların cümləsi tutulmuş, bəzisi qətl edilmiş, bəzisi də həbsə alınmaqla paraları alınıb xilas edilmişlər.

Budur ki, ailəm mənim orada qalmayıb tez Bakıya qayıtmağımı istədilər. Mən də 10-12 yaşlı kiçik bir oğlumla bərabər ailəmi gözüyaşlı qoyub vətənimi tərk etməyə məcbur oldum. 50 verstlik uzun bir məsafəni təğyiri-libas edərək piyada gəldim. Erməni lisanını layiqincə bildiyimdən, hər kəs məni erməni zənn edib mümaniət [maneçilik] etməyirdi. Qarakilsə istasyonunda mənim əsgərlikdən qaçdığımı iddia etdikdə, məcbur islam olduğumu bildirəcək pasportumu göstərməyə vadar oldum. Budur ki, məni və oğlumu təftiş etdilər. Hamil olduğumuz [üstümüzdə daşıdığımız] 1160 kağız lirə pulumu əlimdən alıb məni buraxdılar.

İştə, Ermənistanda yaşayan müsəlmanların halı.

Ermənistan Baş vəkili [Aleksandr] Xatisov Azərbaycanda yaşayan ermənilərin halına yanaraq həsrətlə bir kərə demişdi ki, kaş Azərbaycanda yaşayan ermənilər Ermənistanda yaşayan müsəlmanlar kimi rahat və salamat yaşaya idilər.

Xatisovların müsəlmanlar üzərində nə qədər nəzəri-hökmdarları varsa, müsəlmanlar həp bu surətlə yaşayacaqdır.

*H. S.*

## LƏNKƏRAN ŞƏHƏRİNİN SÜQUTU VƏ AZƏRBAYCAN ORDUSUNUN VÜRUDU

**16 avqust 1919**

Neçə vaxtdan bəri od içində yanıb yabançılar ayaqları altında əzilən Lənkəran şəhəri bu gün avqust ayının 12-də ədalətli Azərbaycan Hökumətinin təhtiidarəsinə [tabeçiliyinə] keçdi. İştə, nə gözəl bir tamaşa! Nə sevimli bir mənzərə!

Şəhərin tam islam əhalisi ya qadın, ya kişi küçələrə dağılıb, özünü ölüm yatağından xilas edəni bəkləyirdi.

Hər tərəfdən cəlladlar əlində dəstgir [əli-qolu bağlı; əsir] olan Lənkəran müsəlmanları qəflətən islam ordusunu istiqbal etdi [qarşıladı]. Küçələr camaatla məmlu [dolu] idi. Şəhərin üç yerində "alaqapı" qayırılmışdı. Alaqapılar rəngbərəng ipək parçalarla bəzənmişdi. Küçələrdə camaat səf-səf durub vali həzrətlərini gözləyirdi. Alaqapılarda Osmanlı paşaları, cahani-islam qəhrəmanları və Şah Səlim, Şeyx Şamil əfəndilərin əksləri asılmışdı.

Neçə yerlərdə dəxi qızıl rəngdə "Yaşasın Azərbaycan" yazıları asılmışdı. Camaat əlində çiçəklər və qızılgüllər hazır idi.

Şəhərin Qazacılar hissəsində "muzika" [hərbi musiqi] və "Yaşasın Azərbaycan" səsləri ilə qoşun istiqbal olundu. Qoşunun qabağında vali Cavad bəy [Məlik-Yeqanov], müavini-vali Mehrəli bəy, komandan Əhməd bəy və bütün islam mücahidləri, dəstə komandanı Camal bəy həzrətləri atlı gəlirlərdi.

Muzika İran marşı çalırdı. Hər kəsin üzündə bəşaşət [sevinc] zahir olurdu. Qoşun və hökumət qədəm-qədəm irəli hərəkət edirdi. Bu minval ilə Şahbaz bəy küçəsinə gəlincəyə qədər dəfələrlə islam qadınları hökumətə duz və çörək təqdim edib orduya çiçəklər və qızılgüllər atırlardı.

Məzkur [deyilən] Şahbaz bəy qapısında qurulan böyük "alaqapı" qabağında böyük izdiham qoşunu istiqbal etdi. Havanın tutqunluğuna və yağmurun şiddətlə tökülən qətrələrinə baxmayaraq camaat həpsi küçələrə tökülmüşdü. Camaat tərəfindən təbriknamələr oxunub "Yaşasın Azərbaycan" sədaları asimana bülənd olurdu. Muğan mahalı tərəfindən Nuriyev nam [adlı] bir şəxs çox müəssir [təsirli] bir nitq söyləyib camaatı yandırdı. İşbu nitq o qədər təsir bağışladı ki, camaat və hökumət ağlaşdı.

Vali həzrətləri camaata xitabən:

*"İslam qardaşlarım! Bizim qoşunumuz Bakıdan "Lənkəran" deyib çıxmışlardır. Onlar qət etmişlər: "ya ölüm, ya Lənkəran". Bunu da bilməlisiniz ki, höku-*

*mətimiz Lənkəranı yaddan çıxartmamışdı. Amma hər bir tərəfdən düşmən bizi əhatəyə salmışdı. Onları dəf edib sizin imdadınıza gəldik və sizi düşmənin çəngalından* [caynağından] *xilas etdik. Hərçənd bir neçə şəhid verdiksə də, zərər yoxdur. Fəqət sizdən rica edirəm ki, köhnə ədavətləri unudub bilafərqi-millət və məzhəb bir yerdə mehriban yaşayasınız."*

Camaat "baş üstə", "Yaşasın Azərbaycan" deyə bağırdı. Buradan qoşun hərəkət edib Daşdəmirov caddəsində dayanıb yenə də camaat tərəfindən istiqbal olundu. Şeyx Kərbəlayi Hüseyn nam bir qoca hökuməti təbrik edib qoşunu dua eylədi. Cavabında isə qubernator:

*"Çox razıyam, islam əhalisi, çoxdan bəri arzu edirdim ki, sizi görüb əhvalınızı sorum* [soruşum]*. Həmd olsun Xudaya ki, qansız şəhərə girmək müyəssər oldu və analarımızı, bacılarımızı xilas etdik. Şimdi dəxi asudə yatıb, rahat dirilməlisiniz* [yaşamalısınız] *və mənimlə gələn cavan əsgərlərimiz sizə qurban olmağa hazırdırlar."*

Yenə də "Yaşasın Azərbaycan hökuməti", "məhv olsun düşmənlər" sədaları ərşə çıxdı.

Buradan böyük dəstə ilə əhatə olunmuş əsgərlər və hakimlər irəli yürüyüb Böyük Bazar məscidinin həyətində toplaşan mollalar, tüllab [tələbələr; şagirdlər], ağsaqqal və möhtərəmlər görüşdülər. Uzaqdan camaat "Allah, Məhəmməd, ya Əli!" deyə qışqırdı. Mollalardan Mirzə Əhməd nam bir axund çox lətif və şirin bir nəzmlə qoşunu və hökuməti təbrik və dua etdi.

Vali isə cavabında:

*"Ey millətin xadimləri, ey Peyğəmbər əmanətləri! İslam camaatı və hökuməti sizə əmin və arxayındırlar ki, siz millətə böyük xidmət edirsiniz. Bilin ki, neçə vaxtdan bəri Lənkəranda [zir]zəmilərdə evlər altında əziyyət, əzab çəkən islam qadınları şimdi hüzura çıxmalıdırlar və öz qoşunlarını görməlidirlər."*

Yenə də "Yaşasın", "maşallah" sədaları qopdu. Camaat hərəkət edib qoşun ilə məa [birgə] yürüməyə başladı. Həzərat konsulxana qabağında valini və qoşunu təbrik edib və hökumətin paydar olmasını iltimas etdikdə, qubernator:

*"Camaat, bax həman odadır ki, dəfəatla burada şəhərin davasız verilməsini tələb etmişəm və axırda öz muradıma yetişirəm. Mən ucadan deyirəm ki, bu odanın sahibi anarşiya zamanı gözəl imarətindən əl götürüb məzkur* [deyilən] *odanın pamal olmasına* [ayaq altında qalmasına] *və millət yolunda çalışmasına razı olub, bizimlə hər yerdə uğraşır. Böylə bir şəxsə mən səmimi qəlbimdən təşəkkür və razılıq edirəm." – dedikdə oda sahibi Kərbəlayi Tağı Əkbərov camaat arasında: "Qurban olsun Azərbaycan Hökumətinə. Yaşasın Cümhuriyyətimiz, məhv olsun düşmənlər!"* – deyə cavab verdi.

Camaat yenidən "Yaşasın Azərbaycan ordusu, yaşasın Müsavat, yaşasın millət vəkilləri!" deyə təhniyət edirdi [təbrik edir, alqışlayırdı]. Hökumət şəhər upravası tərəfindən dəxi təbrik edilib dua olundu. Qoşun və komandanlar qızılgül və çiçəklər arasında itmişlərdi. Hər yerdə islam xanımları çiçək və rəngbərəng güllər atırdı.

Buradan ordu Kiçik Bazar və sonra Xan imarəti qabağına və dəxi sonra müəyyən olunmuş mənzillərə üz qoydular. Tam məxluqda bəşaşət zahir idi. Muzika səsi ilə və "yaşasın Hökumət, yaşasın islam, puç olsun düşmənlər" deyə-deyə camaat hakimləri və ordunu ötürürdü.

Xülasə, Lənkəran müsəlmanları çoxdan bəri etdikləri arzularına yetişib, Azərbaycan qoşununu görüb, yeddi dənə qoyun qurban etdilər.

Yaşasın Azərbaycan Hökuməti!

Yaşasın cavan ordumuz, bütün qəhrəmanları ilə!

Amin!

*Şahverdili*

**Məryəm xanımın təbrik nitqi**

Azərbaycan qoşunu Lənkərana girdikdə, islam-türk qadınları namından Bayraməlibəyova Məryəm xanım ordumuzu bu sözlərlə təbrik etmişdir:

*"Lənkəran türkləri bu gün ilk dəfə olaraq böyük bir gün – azadlıq günü gördülər. Tam bir il kiçik Lənkəran şəhəri, bu gördüyünüz kəndlər, qəsəbələr qanla dəmir arasında yabançılar yumruğu, zalımlar yükü altında məhv olmaq dərəcəsinə gəlmiş bir zamanda siz vətəndaşlar – sevimli arxadaşlar bizi məsud və məsrur* [şad] *günlərə nail etdiniz.*

*Gülərüzlə qonaq kimi gəldiniz!*

*Kəndi haqqi-həyatımızı, haqqi-ictimaimizi bizə bildirdiz!*

*Nə böyük xoşbəxtlik!*

*İllərlə qəlblərdə bəslənən arzulara çatdıq. Nə böyük səadət!*

*İştə bu gün nahaq qanları, keçən fəlakətli günləri xatırlayaraq, bu günün nə dərəcədə əziz və möhtərəm olduğunu müşahidə edərək, kəndimizi nəhayət dərəcədə şad və fərəhnak* [sevincli, fərəhli] *görürük.*

*Bu gün bütün müsəlman qadınları, bağrı yanıq analar, gözü yolda qalan bacılar, gözüyaşlı çocuqlar istiqlal günəşini görüb də səmimi dualarla sizi qarşılayırlar.*

*Həpsi "Allah sənə şükür, qardaşlarımızı gördük" deyirlər. Gözlərdən şad və xürrəm axan yaşlarla təbrik edirlər.*

*Siz – bizim taci-sərimiz* [başımızın tacı]*!*

*Siz – şöleyi-şücaətimiz!*

*Siz – yüksək əməllərimiz* [arzularımız]*!*

*Yaşasın Azərbaycan!*

*Yaşasın türk oğulları!*

*Yaşasın Cavad bəy!"*

**BAKI XƏBƏRLƏRİ**

**Azərbaycan Türk Müəllimləri Qurultayı**

Dün Birinci Realnı məktəbi salonunda Azərbaycan Türk Müəllim və Müəllimələrinin Birinci Qurultayı açıldı. Qurultayda Cümhuriyyətin hər tərəfindən müəllim və müəllimələr nümayəndələri iştirak edirlər. Bir çoxları da müşavirə səsi ilə olaraq iştirak edirlər.

Qurultayı Türk Müəllimləri İttifaqının sədri Ağa bəy İsrafilbəyov açıb, müxtəsər bir nitqlə hazirunu qurultayın dəvətindən məqsəd nə olduğu və onun işləri ilə aşina etdi. Bədəhu [sonra] dua oxunub fatihə deyilərək zeyldəki [aşağıdakı] şəxslər qurultayı təbrik edir:

Maarif naziri Rəşid xan Qaplanov, Parlaman Divani-Rəyasəti tərəfindən rə-

is müavini Sultanməcid Qənizadə, Bələdiyyə İdarəsi namından Əlicabbar Orucov, "Müsavat" Parlaman fraksiyonu namından Məhəmməd Əli Rəsulzadə, sosialistlər namından Əhməd Cövdət, "Azərbaycan" qəzetələri namından Piri Mürsəlzadə, Parlaman erməni fraksiyonu və Daşnaksutyun firqəsi namından Malxazyan, Zaqatal, Teymurxanşura Müəllimləri namından birər əfəndilər, Gəncə Türk Müəllimləri İttifaqı tərəfindən İdris Axundzadə, Salyan müəllimləri, Bakı Müsəlman Tələbələri Komitəsi namından bir nəfər, İran Maarif Cəmiyyəti "İttihad" mədrəsəsi namından Cavad, Quba müəllimləri tərəfindən və müəllim Abbas bəy Minasazovdan təbrik teleqrafları alınmışdır.

Təbriklər bitdikdən sonra sədr əfəndi nümayəndələr tərəfindən natiqlərə izhari-təşəkkür edərək, müəllimlərin kəndi ağır vəzifəsində ümum Azərbaycan xalqına istinad etdiklərini, əlavə və var qüvvələri ilə çalışacağını ümid ilə rəsmigüşada [açılış mərasiminə] xitam verirlər.

Qurultayın birinci iclası həman gün axşam saat 6-da açılıb heyəti-rəyasət intixabından [seçkisindən] sonra məramnamədə olan məsələlərin müzakirəsinə şüru olunacaqdır [başlanacaqdır].

Təfsilat yarın.

**Könüllü təşkilat rəyasətindən**

Bakıda mövcud olub şimdiyə qədər vətən və milləti hər bir dürlü fəlakətlərdən mühafizə xüsusunda gecə-gündüz çalışmaqda olan Yardım alayı heyəti-təlimiyyəsi ilə əfradı [təlimçilər heyəti və əsgərləri] bu kərə eyni məqsədlə və daha vase [geniş] surətdə çalışmaqda olan hökumət təşkilatı ilə müştərək çalışmaq üzrə birləşmiş olduqlarından, bu tarixdən etibarən təşkilat idarəsi xaricində verilən vəsaiq [vəsiqələr] mötəbər deyildir. Məmləkətimizdə mövcud bilümum könüllü təşkilatı doğrudan-doğruya təşkilat idarəsinə mənsubdurlar.

*Könüllü təşkilat rəisi:*
*[Yusif Ziya] Talıbzadə.*
*Bakı, 20 ağustos 335*

**Parlaman komissiyalarında**

Maliyyə Nəzarətindən Məclisi-Məbusan Maliyyə-Büdcə Komissiyasına:

1) Ağdamda təsis olunacaq xəzinənin ştatı haqqında;

2) Dövlət xidmətçilərinə yeni maaş miqdarı təyin edilməsi;

3) Gömrük idarələrində alınan vergi barəsində maliyyə nazirinin hüququnun genişləndirilməsi haqqında;

4) Dövlət varidatı almaq üçün əhalinin malı siyahı edilib satılması haqqındakı qərarların bəzi təbdilatı [dəyişiklikləri] haqqında olmaq üzrə dörd qanun layihəsi idxal edilmişdir.

Şu layihələrin iki axırıncıları Məclisi-Məbusana pişnihad [təqdim] olunmuşdur.

**Cəmiyyəti-Xeyriyyədə**

- Məşhədi İslam Abdulla oğlunun gözləri şikəst olduğundan Cəmiyyəti-Xeyriyyə məzkura [deyilən şəxsə] 49 nömrəli qəbz mövcibincə 3 pud un vermişdir.

- Durdu İsmayıl oğlu adında bir nəfər şikəst türkə "Müsavat" tərəfindən ona yardım olunmasına dair verilən vəsiqə mövcibincə [vəsiqəyə əsasən], Cəmiyyəti-

Xeyriyyə tərəfindən lazımi binagüzarlıq edilmişdir [addımlar atılmışdır].

- Cəmiyyəti-Xeyriyyə Batum təriqi [yolu] ilə kəndi vətənlərinə göndərilməsi üçün 4 nəfər qaçqını Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərmişdir.

- Cəmiyyəti-Xeyriyyə evlərinə göndərmək üçün 8 nəfər Lənkəran qaçqını[nı] Ümuri-Xeyriyyə Nəzarətinə göndərmişdir.

- Cəmiyyəti-Xeyriyyə Bakı məscid nümayəndələrindən xahiş edir ki, cəmiyyətdən apardıqları un kisələrini geri qaytarsınlar.

**Radio-mövqif haqqında**

Dün başda Post və Teleqraf naziri Camo Hacınski olmaq üzrə bir heyət Bayıldakı simsiz teleqraf mövqifini [stansiyasını] İngiltərə Komandanlığından təhvil almışdır.

**Lənkəran bolşevikləri**

Srağagün Bəndər Gəzdən iki hərbi vaporun [gəmi] müşayiəti ilə "Qretsiya" vaporu gəlib Nargin adası arxasında duraraq Bakıdan lazımi mühimmat aldıqdan sonra Petrovsk şəhərinə getmişdir.

Vaporda Lənkərandan qaçmış və tutulmuş 200 nəfərədək Lənkəran bolşevikləri var imiş. Onların cümləsində Suxorukov, Kropotov və digər komissarlar da var imiş. Xüsusi məlumata görə, Suxorukovdan 12 milyon manat pul və başqa qarət edilmiş əşya tapılmışdır.

**Gəmilər haqqında**

Dün Azərbaycan Hökuməti nümayəndəsi ilə İngilis Komandanlığı və "Qafqaz Merkuri", "Rus", "Samolyot" vapor cəmiyyətləri nümayəndələrinin Su Nəqliyyat İdarəsinin təsviyəsi [ləğvi] haqqında bir müşavirəsi vaqe olmuşdur.

Xüsusi xəbərlərə görə, idarə bütünlüklə ləğv ediləcəkmiş. Zira son vaxtlarda fəqət idarənin bir kontrol şöbəsi fəaliyyətdə bulunaraq digər şöbələri ləğv edilmişdi. Yenə xüsusi xəbərlərə məbni [əsasən], idarədə çalışanlara təsviyeyi-maaş verilməyəcəkmiş.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**İtibdir**

Hüseyn Rza oğlunun Ərdəbildən aldığı pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*7478*

**İtibdir**

Rəzzaq Məhəmməd oğlunun Astara konsulxanasından aldığı pasportu itib. Etibardan saqitdir.

*7476*

**İtibdir**

Xudadad Məlikovun Astara rus konsulxanasından aldığı pasportu itib. Etibardan saqitdir.

*7477*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Qəzetələrdən

səh. 379. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

### Türkiyədə

səh. 381. "Gənc türk başçılarının": "Gənc türklər" (yaxud "Jön türklər") Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

### Hindustan haqqında "Observer" qəzetəsi

səh. 382. "Observer" [The Observer]: Londonda, ingilis dilində nəşr olunan həftəlik qəzet. Bazar günləri çıxır. Əsası 1791-ci ildə qoyulmuşdur. Dünyanın ilk bazar qəzetidir.

### Mənzil və həcz məsələsi ətrafında

səh. 385. "ənqa quşu": əfsanəyə görə, heç kimin görə bilmədiyi, adı olub özü olmayan quş, simurq quşu.

### Zavallı Ermənistan türkləri

səh. 385. "həbbəni qübbə göstərmiş": "həbbə" buğda yaxud arpa dənəsi kimi kiçik bir "dən", hətta ən kiçik şey, "zərrə" mənasına gəlir; həbbəni qübbə göstərmək isə çox kiçik bir şeyi, bir zərrəni həddən artıq şişirdərək qübbə ölçüsündə böyütmək deməkdir.

### Bakı xəbərləri

səh. 390. "20 ağustos 335": burada il, rumi təqvimlə verilmişdir (1335); miladi təqvimlə 20 avqust 1919-cu ilə uyğundur.

səh. 391. Bəndər Gəz: İranın Gülüstan ostanında, Xəzər dənizi sahilində şəhər.


آذربایجان

صلح

غزته‌لردن

سهمداران جمعیتی «روس»

تلغراف خبرلری

*"Azərbaycan" qəzetinin 258-ci nömrəsinin 1-ci səhifəsi*

**Cümə, 22 avqust 1919-cu il, nömrə 258**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 25 zülqədətül-haram sənə 1337. 22 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## AZƏRBAYCAN HÖKUMƏTİ TEATROSUNDA AXŞAM TAMAŞASI

"Cır-bır" və böyük konsert
Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının Müdiriyyəti
Cümə günü ağustosun 22-də
1919-cu ildə
Hacıbəyli qardaşları əsərlərindən
**"Arşın mal alan",**
**"Əsli və Kərəm",**
**"Aşıq Qərib",**
**"O olmasın, bu olsun",**
**"Leyli və Məcnun"**
opera və operettalardan mürəkkəb
bir pərdəli "Cır-bır",
dalıyca 15 nömrədən ibarət
Azərbaycan, Dağıstan,
Gürcüstan və Gilan
milli nəğmələri oxunub,
milli rəqslər ediləcəkdir
və bundan masiva [bundan əlavə]
iki nəfər səhnədə
"qurşaq" tutacaqdırlar.
Bu böyük nümayiş səhnəmizdə
birinci dəfə olduğundan,
şükuhlu [təntənəli] bir mənzərədə
başa gəlib,
böyük simfoniya orkestri
İrandan varid olmuş məşhur tarzən
Qurban Pirimovun
iştirakı ilə
[Maqomayev] Müslüm bəyin
təhti-idarəsində olaraq
milli nəğmələr icra ediləcəkdir.
Biletlər teatrın kassasında
satılmaqdadər.
Tamaşa başlanacaqdır
axşam saat 9-un yarısında.

## SİRK "MODERN"

Cümə günü avqustun 22-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 55-ci günüdür.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Məşhur Sibirya ayısı Buyvolov – Raqenbaum.

2-nci: Təzə varid olmuş Rusiya pəhləvanı Vladimir Oleynikov – Krayevski.

3-ncü: Djiovani – Kreçetov.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır. Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

*7480*

**Tiflis Müsəlman bazarında**
**«—»**
**Balabəy Xəlilbəyli tərəfindən**
**YENİ AÇILMIŞ OLAN**
**«KASPİ» MEHMANXANASI**

32 təmiz nömrələri ilə hazırdır. Mehmanxanada ancaq qonaqlara məxsus təamlar hazırlanır. Nömrələrin qiyməti adidir. Telefon 8-69.

**SƏHMDARAN CƏMİYYƏTİ**
**«RUS»**

Bununla mal göndərənlərə elan edir ki, yekşənbə günü avqust ayının 24-ndə 1919-cu ildə saat 12-də 25-ci körpüdən "Mariya" paroxodu yük və sərnişinlər ilə İran Astarasına və Ənzəliyə gedəcəkdir.

*T-222*

**İTİBDİR**

Naberejnı, Olqinski yaxud Nikolayevski küçədə bir daşlı brilyant sırğa itib. Tapan və yaxud yerini göstərən şəxsə əlli min (50000) manat mükafat verirəm.

Adres: "Avropa" mehmanxanası nömrə 35 yaxud Birjevaya küçə (Bakı Tacirlər Bankı qarşısında) "Dinamo" kontoru müdirinə müraciət etməli.

*7481*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan Radio mövqifi [Radio stansiyası] qəbul etmişdir)*

*(Bolşevik xəbərləri)*

Şimal cəbhəsi – Mejozernı ətrafında Olonets istiqamətində Samozero hövzəsi və Fin sərhədi arası düşməndən təmizlənmişdir. Düşmən sərhəd xaricinə qaçmış, biz mitralyoz, tüfəng və mərmilər ilə dolu arabalar qənimət almışıq.

Qərb cəbhəsi - Pskov dairəsində düşmənin təzyiqatı altında bizim qitəatımız [hərbi hissələrimiz] yeni cəbhələrə keçmişlərdir. Ostrov istiqamətində bizim qoşunlar hücumda davam edərək İzborskun 25 çağırımlığında olan kəndi işğal etmişlərdir.

Poltava-Vilça istiqamətlərində bizim hissələrimiz şiddətli vuruşmalarla Qlubokiye Luji kəndi xəttində yeni cəbhələrə çəkilmişlərdir.

Cənub-qərb cəbhəsi - Ronin və Proskurov istiqamətlərində iki gün davam edən vuruşmadan sonra bizim qitəatımız Sluç nəhri arxasına çəkilməyə məcbur edilmişlərdir. Jmerinka istiqamətində Kalinovka və Lipovets mövqifləri [stansiyaları] düşmən tərəfindən işğal edilmişdir.

Cənub cəbhəsi - Belqorod istiqamətində Bubnı şəhərini almaq üstündə vuruşmalar davam edir. Kursk və Belqorod istiqamətində şiddətli vuruşmadan sonra bizim hissələrimiz Oboyanı boşaltmışlardır. Koroça, Novı Oskol, Biryuç və Yevstratovka istiqamətlərində qoşunlarımız düşmənin təərrüzatına qarşı çıxaraq Koroça – Novı Oskol – Biryuç – Yevdakovo mövqifi xəttinə çıxmışlardır. Novoxopyorsk istiqamətində Makarovo kəndi bizim tərəfdən işğal edilmişdir.

Kamışin istiqamətində Kamışinin 65 çağırımlığında olan kəndləri bizim qoşunlar zəbt etmişlərdir.

## SÜLH

**Cəmahiri-Müttəfiqə və sülh müahidənaməsi**

Vaşinqtondan xəbər verirlər ki, məhəlli [yerli] siyasi dairələrdə dövran edən şayiələrə görə, Amerika Hökuməti Müttəfiqlərdən sual etmiş ki, Amerika Senatına imzalanmaqdan ötrü verilmiş sülh müahidənaməsi [sazişi] məzmumuna təshihat [düzəlişlər] əlavə etmək istəyən senator [Elihu] Rutun təklifinə nə nəzəriyyə ilə baxacaqlar?

Ümumi rəylərə görə, hərgah Senat şu təshihatı qəbul edərsə, o zaman başqa dövlətlər də əks təkliflərdə bulunacaqlardır.

Müahidənamənin imzalanması tərəfdarları Rutun şu təshihatının qeyri-məmul nəticələri mövcib [arzuedilməz nəticələrə səbəb] olacağını söyləyirlər. Əvvəlcə, təshihat müahidənamənin imzalanmasını gecikdirmiş olacaqdır və əlavə, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] çağırmaq işlərini təxirə salacaqdır və bir çox həll olunmuş məsələləri yenidən şübhəli hala salacaqdır.

Bəzi siyasiyyunun [siyasətçilərin] rəyincə, şu təshihatı qəbul etmək müahidənamənin büsbütün qüvvədən düşməsinə də bais ola bilər imiş. Həmçinin, qeyd edirlər ki, hərgah Cəmahiri-Müttəfiqə [ABŞ] mühacirət məsələsinin Cəmiyyəti-Əqvam dairəsindən götürülüb ancaq milli siyasətin etiraf [qəbul] edilməsi təkidatında bulunarsa, o zaman Yaponiya tələb edəcəkdir ki, mühacirlərin irq və milliyyəti aranmayaraq, müsavi [bərabər] olmaları prinsipi nəzərə alınsın.

## QƏZETƏLƏRDƏN

**Bolşeviklər və ingilislər**

Kopenhaqdan xəbər verirlər ki, Britaniya donanmasının oralarda olan gəmiləri matrosları içində bolşevizm təbliğatı geniş dairələr tutur. İngilis dilində yazılmış bolşevik kitabçaları fövqəladə intişar bulur [yayılır]. Polisin səy və ehtimamına rəğmən şu-şu kitabçaların hansı mənbədən intişar bulduğu gizli qalır. Kitabçalarda şu yolda bəyani-əfkar edilir [fikir bildirilir] ki, İngiltərə imperializminin qarışmasına görə, Rusiya inqilabı qorxu altındadır.

Bolşeviklər britaniyalı yoldaşlarını İngiltərənin şu siyasətinə etiraz etməyə və Şura Hökuməti ilə mübarizədən imtina etməyə dəvət edirlər.

"T." qəzetəsi xəbər verir ki, şu təbliğatlar bu vaxta qədər heç bir müvəffəqiyyəti haiz olmamış [əldə etməmiş], komandanın ruhu əvvəlki kimi yüksəkliyində davam edirmiş.

**Bolqariyada həyəcan**

30 təmmuzda [iyulda] Parisdən yetişən teleqramlar xəbər verirlər ki, Sofiyadan "Tan" qəzetəsinin almış olduğu teleqramların mündəricatı Bolqariyada İstanbulinski və Sakazovun vəsatəti ilə nümayişlər hazırlandığını bildirir.

Şu nümayişlər Bolqariyanın Macarıstanı təqlid etməyə meyyal [meylli] olduğunu göstərəcəkdir. Bütün şəhərlərdə intibahnamələr [vərəqələr] yapışdırılaraq əhali Şura Cümhuriyyəti bərpasına dəvət edilir. Şu yolda əvvəlinci addım olaraq çar Boris xəl ediləcəkdir [taxtdan salınacaqdır].

**General Yudeniç nə fikirdədir**

"Tayms" qəzetəsi Helsinqfors [Helsinki] müxbirinin vermiş olduğu əxbara [xəbərlərə] nəzərən, general Yudeniç Kolçak Hökumətinə tabe olaraq müvəqqət hökumət təşkili fikrindən imtina etmişdir. Onun fikri budur ki, işğal edəcəyi ümidində olan Petroqrad və qonşu vilayətlərdə Omsk Hökumətinin ümumi siyasi əsasları üzrə məhəlli [regional] idarə təsis etsin və şu proqrama müvafiq kəndi hüzurunda olacaq Siyasi Şuraya adamlar seçəcəkdir. Petroqrad alındıqdan sonra həman Şura Baş komandan nəzdində Zəbtiyyə [Asayiş] Şurası rolunu oynayacaqdır. General Yudeniç "Hökumət", "Nəzarət" və başqa müşabih təbirləri [oxşar mənalı ifadələri] qullanmadan nəhayət ehtiyat edir. Siyasi Şuranın bütün üzvləri, o cümlədən, professor [Anton Vladimiroviç] Kartaşyov həman Şuraya müsaviyül-hüquq [bərabərhüquqlu] olaraq general Yudeniçin təyini ilə daxil olmuşlardır.

**Çrezvıçayka vəhşətləri**

Ağustosun 7-də xüsusi işlər müstəntiqi Poltava çrezvıçaykası xüsusi heyəti olan evin bağında təhərri [axtarış] icra edərək 3 qəbir tapmışdır. Qəbirlərdə 17 meyit var imiş. Bunlardan bəziləri tanınmışdır. Tanınanlar içində vəkil Kozubovun da meyiti vardır.

Meyitlərin qolları dallarına bağlanmasından əlavə bir neçəsi də yek-digərinə [bir-birinə] bağlanmışlar imiş. Məqtullara [qətl edilənlərə] fövqəladə əziyyət verildiyi ondan məlum olur ki, ağızlarına əsgi tıxanıb boyunları kəndir və telefon məftilləri ilə çəkilib uzadılmış və qafaları əzidilərək bədənlərində də qanlı izlər görünmədə imiş. Hətta bir meyitin aləti-rəcüliyyəsi də [cinsi orqanı da] kəsilmiş imiş. Meyitlərin birisi arvaddır.

**Odessanın süqutu şayiələri**

Ağustosun 7-də axşam çağı Odessadan Sevastopola yetişmiş motor qayığı komandası xəbər vermişdir ki, Matroslar İttifaqının məhəlli [yerli] şöbəsinin istixbaratına [aldığı xəbərlərə] nəzərən, 23 təmmuzda [iyulda] Odessa süqut etmişdir.

Flot komandanı nəzdində şu xəbəri təyid [təsdiq] edəcək bir məlumat hələlik alınmamışdır.

Qara dəniz səvahilində [sahillərində] kəndi nüfuzunu paydar etmək [möhkəmləndirmək] üçün Fransa Hökuməti şu səvahili yenidən mühasirə altına almaq təşəbbüsünə girişmişdir. Heç gözlənilmədən Fransa Komandanlığı kəndi tərəfindən olaraq Odessanın mühasirə altında olduğunu elan etmişdir. Odessa iskələsinə 4 Fransa zirehlisi daxil olmuşdur.

**Bolşeviklərin həziməti**

Yenisey quberniyasında Krasnoyar[sk] və Nijneudin[sk] arasında əməliyyatda bulunan bolşeviklər tələf edilmişlərdir. Yeniseyin daxili cəbhələrində əməliyyat yapan bolşevik başçıları kəndiləri ilə böyük məbləğlər götürərək Monqoliyaya qaçmışlardır.

**Avstriya taxtına yeni namizəd**

Nauen - Avstriya sarayı dairələrində Antantanın Avstriya taxtına sabiq imperator Karlın oğlu Ottonu keçirmək təşəbbüsü hüsn-rəğbətlə qarşılanmadadır. Şu təşəbbüsü klerikallar və xristian sosialistləri də təqdir edirlərmiş.

## TÜRKİYƏDƏ

### İstanbulun övzası

3 gün əqdəm [qabaq] İstanbuldan Bakıya varid olan [gələn] bir nəfər müsəlman taciri mühərririmizə Türkiyə və İstanbul övzası [vəziyyəti] haqqında böylə məlumat vermişdir:

Türkiyənin siyasi vəziyyəti çox gərgin olub da öylə ağır bir haldadır ki, birdənbirə ümum camaat inqilabı olacağı bütün əhaliyə və Müttəfiqlər Komandanlığına aşkardır. Yunanların rəftarı Türkiyə camaatını o dərəcədə mütəəssir edir ki, hər an bunların arasında toqquşmalar gözlənir.

İstanbulun Anadolu və Rumeli ilə əlaqəsi bilmərrə qət olmasına [tamamən kəsilməsinə] görə, oralardan artıq həyəcanlı xəbərlər gəlir. Şu yerlərin camaatı silahlanıb mərkəzi hökumətə itaət etmədiyindən dolayı, bunun qarşısına şuriş [qiyam] qaldırmaqları dəxi gözlənir. Kiçik Asiyada da həmin halət hökmfərmadır [hökm sürür].

İstanbula xəbər gəlmişdir ki, Asiyayi-Suğranın [Kiçik Asiyanın; Anadolunun] da müxtəlif nöqtələrində Türkiyə mərkəzi hökumətinə tabe olmayan türk generalları ətrafında böyük qüvvələr cəm olmuşdur.

Yunanların İzmiri işğalı əsnasında bir çox müsəlman camaatı qırılmasına cəhət böyük şurişlər törəmişdir və nəticəsində müsəlman camaatı böyük tələfat vermişdir. Buna görə, işğal əməliyyatı dayandırılmışdır.

İzmir ətrafında və bütün vilayətdə yerli türk əhalidən böyük qüvvələr toplanmaqdadır.

İstanbul nəhayət dərəcədə bahalıqdır. Külli miqdarda hər cür mal mövcud olduğu halda, qiymət gündən-günə tərəqqi etməkdədir. Anadolu ilə əlaqə kəsilmiş olduğundan çörək azdır. Anadoludan heç bir şey gəlməməyə görə, çörək Avropa və Amerikadan gəlir.

Böylə ağır hallara camaat artıq əhəmiyyət verməyib də kəndilərinin imdadına Anadolu[nun] yetməsinə göz tikmişlər.

## MAVƏRAYİ-BƏHRİ-XƏZƏRDƏ

Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] cəbhəsində Dabravolların böyük müvəffəqiyyətsizliklərə düçar olmaları Dabravol komanda heyətinin dəyişikliklərinə bais olmuşdur. Bu dəyişikliyin müharibə işlərinin müvəffəqiyyətlə getməsinə təsiri olacağı da şübhə altındadır.

Yekaterinodardan alınan binagüzarlıqlara məbni [sərəncamlara əsasən] Mavərayi-Bəhri-Xəzər qoşunları komandanı general Savitski dəyişilərək onun yerinə general Borovski təyin edilmişdir. Mavərayi-Bəhri-Xəzər cəbhəsi bilavasitə general Erdeliyə tabe edilmiş, Erdeliyə rəsmi olaraq "Tersk-Dağıstan və Mavərayi-Bəhri-Xəzər qoşunları komandanı" adı verilmişdir.

Yaşayışı müşkül şəraitə bağlı olan Tazəşəhərdən xəzinəxana və postaxanadan qeyri bütün dəftərxanalar köçürülmüşlərdir. Onlar da səhra dəftərxanası vəziyyətini almışlardır. Aşqabad Bankası Petrovska köçürülmüşdür. Oradan xəbər verilməsinə nəzərən Rus-Asiya Bankası mənzilində yerləşdirilmişdir.

Tazəşəhərdən bir çox paroxodlarda qaçmış hesabsız qaçqınlar Mavərayi-Bəhri-Xəzər Hökumətinin pulu olmadığına görə, nəhayət ağır vəziyyətə düçar olmuşlardı. Hərbi məmurların ailələrinə edilən tərcih qaçqınların ədəmi-xoşnudisini bais [məmnuniyyətsizliyinə səbəb] olmuşdur.

General Savitski, Barsov, Verman, Lastoçkin, Yavkinski, Rzadorski və dr. [və başqaları] Aşqabaddan qaçarkən bütün faytonları və başqa nəqliyyat vasitələrini zəbt edərək, onların ixtiyarına verilmiş xüsusi vaqonlara bütün var-yoxlarını xalı və royala kimi daşıyıb, doldurmuşlardır. Adi qaçqınlar isə libas və camaşırlarından başqa bir şey götürəmməmişlərdir.

Həman eyni fəqərə [hadisə] Tazəşəhərdə də təkrar edilmədədir. Petrovska gedən paroxodlarda adi qaçqınlar paroxodun anbarında yerləşdikləri halda, general arvadları və ştab məmurları faytonlarda yer tutaraq özləri ilə apardıqları inəkləri və başqa heyvanları üçün də xüsusi yerlər təmizlətmişlərdir [boşaltmışlardır].

Tazəşəhərdən əzimət edərkən [yola düşərkən] general Savitski ötədən bəri postaxanada toplanmış pasılkaları açdırıb içində olan əşyanı general arvadları arasında təqsim etmişdir [bölüşdürmüşdür]. Bu, açıqcasına talan təqsimi, posta məmurlarının həsrətlərinə [həsədlərinə] rəğmən və rütbə-nişana röyətən [görə] bulunmuşdur. Böylə ki, ağır qiymətli əşyanı general Savitskinin arvadı ən əvvəl özü üçün götürmüşdür.

Böylə naməqbul və naşayəstə [qəbuledilməz və nalayiq] hərəkat xüsusunda general Denikin ştabına xəbər verilmişdir.

## MÜƏLLİMLƏR QURULTAYI

Yaponiya müharibəsinin nəticəsi olan rusların birinci inqilabından bir il keçmişdi. İstibdad dövrü təzələşirdi. General Faddeyev Bakının mirqəzəbi [cəlladı] kəsilmişdi. Bunun qorxusundan üç nəfər də küçədə bir-birinə rast gələmməzdilər. Bakı müəllimləri bir ictima [yığıncaq] yapmaq istədilər. Maarif Nəzarətinin misyonernüma hərəkatından xəbərdar olmuş müəllimlər direktor ağanın heç qapısını da döymədilər. Bilirdilər ki, böylə şeylərə əbədən [əsla] müsaidə [icazə] verilməz. Hələ, bəlkə mütəşəbbisləri də [təşəbbüskarları da] məmuriyyətdən kənar edərdilər.

Məcbur qalaraq mərhum Həsən bəy Məlikov vasitəsilə general Faddeyevi aldatdılar ki, guya dərs proqramının tərtibi üçün müəllimlər bir yerə yığılmaq istəyirlər. Həsən bəyin təhti-sədarəti şəraiti ilə [rəhbərliyi altında olmaq şərtiylə] buna izn verildi. Bundan istifadə edərək Bakı müəllimləri Qafqazın hər cəhətinə dəvətnamələr göndərib “Müsəlman Müəllimlərinin Qafqazda Birinci İctiması”nı çağırdılar. (1906-cı sənə avqustun 15-dən axırınadək.)

İkinci ictimanı həm mərkəz nöqteyi-nəzərlə, həm də müstəbid Bakı direktorunun qorxusundan Gəncə şəhərində tərtib vermək istədilər. Onun üçün də oraya bir nümayəndə göndərildi. Gəncədə qurulacaq ictimanın proqramı həman şəhərin bir məclisində bir çox ziyalı və müəllimlərin hüzurunda oxundu və təsdiq edildi.

Proqramın, “ictimaya müəllimlərlə bərabər müəllimələr də dəvət ediləcəkdir”

kimi bir maddəsi də var idi. Zatən bu maddə prinsip üçün proqrama idxal edilmişdi. Zira, o vaxtlar Qafqazda Tağıyevin ünas [qızlar] məktəbindəki beş-altı müəllimədən başqa sairləri hələ mövcud deyildi. Bunlar da çadralı olaraq, hələ cəmiyyət işlərinə heç qarışmazdılar. Binaənileyh [ona görə], bunların ictimaya gəlmək ehtimalı yox idi. Lakin bu maddə gələcək ictimalara əsas olsun deyə idxal edilmişdi.

Bununla belə, məclisdə bulunan mütəşəxxis üləmadan [görkəmli alimlərdən] biri həman maddəyə qarşı şiddətli etirazlarla onun qaralanmasını tələb etdi. Məclis əhlinin tərəfindən verilmiş bir çox faydalı bəyanat axundu təskin etmədi. Axırda qərar qoyuldu ki, müsəlman müəllimələri ictimaya dəvət edilməsinlər.

Buna kifayət etməyərək, axund həzrətləri sabah Gəncədə bir "Ruhani İttifaqı" tərtib verib onun adından Qafqazın Bakı kimi mühüm nöqtələrinə təxminən bu məzmunda birər məktub yazdırdı:

*"Gəncədə açılacaq ictimaya müsəlman müəllimələrini dəvət edib çadralarını götürmək (?) istədilərsə də, biz burada ona mane olduq. Bunun icrasına orada çalışanlar varsa, rica edirik, siz də orada da mane olasınız.*

*İmza: Gəncə Ruhaniləri İttifaqı"*

Gəncədən göndərilən bu məktublar, həm də o vaxtlar müsəlman arvadlarının hüququna dair "Molla Nəsrəddin" jurnalında yazılan bir çox müfid [faydalı] məqalə və bəhslər əhalinin dargöz və mühafizəkar qisminin əlində böyük bir bəhanə oldu. Hətta arvadların rus paltarında küçələrdə görünməsinə mane olmaq üçün nadan və cahil şəxslər tərəfindən Bakıda bir "cəmiyyət" də təşkil edildi ki, onun üzvləri əli ilə biçarə arvadlara bir çox haqsız təcavüzlər edildi. Məsələn, günün günorta çağı arvadların ayaqlarından çəkmələri çıxarılıb atılırdı və tələb edilirdi ki, çəkmə əvəzinə başmaq geysinlər. Gəncə ruhaniləri əli ilə başlanmış bu hərəkətin təsiri hələ indi də Bakıda qalmışdır! (İstiqlal bayramındakı hərəkətlər, bulvarlarda milis nəfəratının arvadlara qarşı yapdıqları müamilələri [rəftarları], keçən ilki çəkmə əhvalatı, ilax...)

Əlqissə [əlqərəz], proqramdan bəzi şeylər atılıb, əvvəl Gəncə qubernatoruna, sonra da mahal direktoruna təqdim edildi. Lakin müstəbid ağaların tədbiri ilə proqram bir hala salındı ki, Qafqaz müəllimləri deyil, hətta yalnız Gəncə mahalının müəllimlərinə müsaidə verilmədi. Labüd qalaraq yenə Bakı cəmiyyətlərinə müraciət edildi. "Nicat" cəmiyyətinin nizamnaməsinə görə, neçə ildə bir dəfə müəllimlər ictiması çağırmağa haqlı olduğundan, bu dəfə "Nicat" vasitəsilə "Müsəlman Müəllimlərinin Qafqazda İkinci İctiması" dəvət edildi. (1907-ci sənə ağustosun 25-dən sentyabrın 5-dək.)

Qafqaza yeni təyin edilmiş Maarif müdiri Rudolf ildə bir dəfə Bakıda çağırılan Müəllimlər ictimasından əsla xoşlanmayaraq buna xitam vermək üçün Bakıya gəlib bunun müəssislərini ciddi aramağa başladı və az bir zamanda buldu [tapdı]. Bilirmisiniz bu kim idi? El məktəblərinin naziri biçarə Şəmsəddinov cənabları idi!! Halbuki, müəllimlər ictiması icra edildiyi halda, bu Şəmsəddinov yenicə Bakıya təşrif gətirmişdi və müəllimlər ictimasının müəssisləri tamamən başqa şəxslər olduğu halda, bunu məhz onun

üçün müttəhim etdilər ki, bu, doğru danışan və haqqa tərəfdar bir şəxs idi.

İştə, Şəmsəddinovu xidmətindən məzul [kənar] etdilər, ta ki bunun yerinə təyin ediləcək şəxsə bir ibrət dərsi verilsin ki, məbada müəllimlərlə əlaqədar olub minbəd [bundan sonra] üçüncü müəllimlər ictimasına müsaidə və ruyi-riza [razılıq üzü] göstərməsin. Öylə də oldu. Bakı müəllimlərinin üçüncü ictiması daha bir kəsə müyəssər olmadı.

Zatən o vaxtlar irticaçı Stolıpinin başladığı istibdadı bir dərəcəyə varmışdı ki, ictimalara heç bir vəchlə izn verilməzdi. Odur ki, müsəlman müəllimləri yeni bir təşəbbüsata cürət etmədilər. Hətta keçmişdə gördükləri işlərin bir çoxu səmərəsiz qaldı. Zira, hökumət bunu təsdiq etmək istəmədi. Hal-hazırda şagirdlər əllərində bulunan təlim kitablarının bir çoxu həman ictimaların ən böyük faydalarından biridir. Hərgah üçüncü ictimaya bir yol tapılsaydı, bu səmərə və faydalar daha artıq hüsula gələ bilərdi.

Həm də hökumətin fitnə və tədbiri ilə müəllimlər arasına böyük bir təfriqə [ayrıseçkilik] düşdü ki, bundan naşi [buna görə] bir çox mahir müəllimlər iş başından kənara çəkildi və yaxud çəkirildi.

İndi on iki ildir ki, müəllimlər ictimasından heç bir səs və səda çıxmayırdı.

Azərbaycanın hürriyyətindən istifadə edərək bu gün "Müəllimlər Qurultayı" dəvət edilmişdir. Müəssis əfəndilər unutmasınlar ki, indiki qurultay keçmişdə verilmiş bir çox qurban və fədakarlığın səmərəsidir. Baxalım, qurultayımız bu qurbanlara qarşı nə kimi ehtiram göstərəcəkdir?!

*Sabiq müəllim*

## AZƏRBAYCAN TÜRK MÜƏLLİMLƏRİ QURULTAYININ RƏSMİ-GÜŞADI

Saat 10 radələrində Birinci Realnı məktəbinin salonu Azərbaycanın bütün nöqtələrindən gəlmiş olan nümayəndələr və camaatla dolmağa başlayır. Əvvəlinci cərgələrdə Bakıdakı bütün müəllimlər və ətrafdan varid olmuş [gəlmiş] nümayəndələr əyləşirlər.

Xanım əfəndilərin birinci dəfə olaraq Azərbaycan istiqlaliyyəti dövründə Birinci Türk Müəllimləri qurultayında isbati-vücud edib və iştirak etmələri şayani-qeyd və təhsindir [qeyd edilməyə və alqışa layiqdir]. Bundan maəda [bundan əlavə], onların böylə tarixi bir gün müəllim və müəllimələr həyatında böyük əhəmiyyəti və mənası olan bir məclisdə iştirak etmələri hər kəsi sevindirir və ruhunu yüksəldirdi. Millət anaları olan müəllimə əfəndiləri kamali-ədəb və mərifətlə məhbubanə [sevimli] bir surətdə əyləşib böyük şövq və həvəsi-fövqəladə ilə məclisin açılmasını bəkləyir və bu gün burada söyləniləcək sözlərə tam mövcudiyyətlə iştirak edəcəklərini pişəzvəqt [qabaqcadan] bildirirlərdi.

Saat 11-də Türk Müəllimləri İttifaqı sədri Ağabəy İsrafilbəyov qurultayı açmaqla bərabər, məclisdə hazır olan axunddan dua oxunmağı[nı] rica edir. Camaat ayağa qalxaraq dua oxunur və fatihə verildikdən sonra sədr əfəndi müxtəsər bir nitqlə qurultayın məqsədini və onun vəzifələrini izhar edərək, bunu "Azərbaycan istiqlaliyyətinin Birinci Türk Müəllimləri qurultayı" adlandırır və ümid edir ki, müəllim əfəndilər və həmçinin camaatımız qurultayın qərardadlarını qövldən

feilə [sözdən əmələ] gətirmək üçün səy və kuşiş edəcəklərdir [çalışacaqlar].

Bundan sonra qurultayı təbrik etmək istəyənlərə söz verilir. Əvvəlcə Parlaman rəisi müavini Sultanməcid Qənizadə uzun-uzadıya bir nitq söyləyərək Parlaman tərəfindən qurultayı təbrik edir və deyir ki:

– Bu vaxta qədər müəllimlərin bir çox qurultayları olmuş. O qurultaylar da öylə bir zaman çağırılmışdır ki, onda söz söyləmək istəyənlər qapıya və ətrafa baxmışlar ki, məclisdə qulaq asan və casus olub-olmadığını bilsin. İndi, əlhəmdüllah, istiqlaliyyət bizim, hökumət özümüzündür. Heç kəs sizə mane ola bilməz. Müəllimlərimiz millətimiz üçün böyük işlər görüb və xidmətlərdə bulunmuşlardır. İnşallah bundan sonra yenə görəcəklərdir. Millətimiz və Parlamanımız da buna kömək edəcəklərdir. Mən ümidvaram ki, müəllimlərimiz bundan sonra daha kəndi vəzifələrində baqi qalıb işləyəcəkdir. Bununla deyirəm ki: Yaşasın xalq məktəbləri və onlarda çalışan bizim xalq müəllimlərimiz. Yaşasın Azərbaycan istiqlaliyyəti!

**Əlicabbar Orucəliyev** - Bu gün Azərbaycan türk müəllimləri həyatında tarixi bir gün olduğundan böyük bir gündür. Bu münasibətlə mən Bələdiyyə İdarəsi tərəfindən vəkil olaraq bu qurultayı təbriklə müvəffəqiyyət dilərəm. Yaşasın müəllimlərimiz!

**Məhəmməd Əli Rəsulzadə** - Məşhur alman siyasiyyunlarından Bismark demişdir ki, biz fransızlara silah gücü ilə deyil, müəllimlərimizin qüvvəsi ilə qalib gəldik. Bir millətin müəllimi olmazsa, o millətin tərəqqi və təalisi də [ucalması, inkişafı da] olmaz. Biz də bir millət olduğumuz üçün birinci dərəcədə olaraq müəllimlərimizi artırmalı və onların qüvvəsindən istifadə ilə millətimizi rahi-nicata [nicat yoluna] çıxarmalıyız. İştə bu nöqteyi-nəzərlə bizim firqə – "Müsavat" firqəsi milli bir firqə olduğundan, birinci növbədə onun müəllimlərinə əhəmiyyət verəcək və bu yolda çalışacaqdır. Siz də kəndi vəzifənizi ifa etməklə Azərbaycana böyük xidmət edirsiniz. Var olsun Azərbaycan, yaşasın xalq müəllimləri!

**Əhməd Cövdət** - Müəllim yoldaşlar! Özünüzə məlumdur ki, xalq həyatında zəhmətkeş sinfi arasında böyük bir mövqe işğal edən zəhmətkeş müəllimlərdir. Onlar bütün qüvvələri ilə çalışıb avam xalqı elm və maarifə doğru aparırlar. Bu isə olduqca böyük xidmətdir. Bu gün görürsünüz, dünyada davam edən böyük inqilab yenə müəllimlərin qüvvəsinə vabəstədir [bağlıdır]. Onların hərəkəti inqilabı daha da vüsətləndirir. İştə, siz də inqilab uğrunda çalışmaqla kəndinizin həqiqi istiqlaliyyət tərəfdarı olduğunu isbat edirsiniz. İştə, var olsun inqilab, yaşasın Azərbaycan istiqlaliyyəti. *(alqış)*

**Maarif naziri Rəşid xan Qaplanov** - Əfəndilər! 8 əsr bundan əqdəm [qabaq] islam aləminin mədəniyyəti tamam dünyanı bəhrəvər etdiyi [bəhrələndirdiyi] halda, Avropa avam və cahil olaraq qalmışdı. O vaxtdan İspaniya və İngiltərə millətləri islam ülum və fünunundan [elmlərindən və fənlərindən] əxz etmək məqsədi ilə Misirə və islamın başqa məmləkətlərinə gedirlərdi. Ərəbistan, Türküstanda olan elm və hünər, islamı parlaq bir mövqedə saxlayaraq bütün cahanın diqqətini kəndisinə cəlb etmişdi. Sonra isə islam aləmi bu böyük səadətdən məhrum oldu. Av-

ropa İslam mədəniyyətinə malik olaraq, biz onun əvvəlki yerini işğal etdik.

Əfəndilər! Bu gün qarşınızda böyük və ağır vəzifələr vardır. Məktəblərimiz milliləşmək üzrədir. Bir çox ağır işlərə təhəmmül etməlisiniz [dözməlisiniz]. Əvət, sizin böylə ağır işlərinizin əvəzini millət sizə verəcəkdir. Mən ümid edirəm ki, siz kəndi qüvvələrinizi toplayaraq millətin səadət və rifahiyyəti üçün çalışarsınız. İştə, yaşasın müəllimlərimiz! *(gurultulu alqış)*

**Piri Mürsəlzadə** - Əfəndilər! Müsaidənizlə bu gün Azərbaycan istiqlaliyyətinin Birinci Türk Müəllimləri qurultayını azəri türkləri tarix, ədəbiyyat və mətbuatında birinci olan "Azərbaycan" adlı qəzetə tərəfindən təbrik edirəm.

Möhtərəm nazir əfəndi, sizin ağır və çətin vəzifələr qarşısında bulunduğunuzu göstərdi. Bu vəzifələr birinci nəzərdə ağır görünürsə də, fəqət kəndi əməyi və çarpışması ilə bugünkü Azərbaycan istiqlaliyyətini vücuda gətirən müəllimlər, bu böyük ad sahibləri üçün çətin deyildir. Onlardan keçən il bu günlər bu istiqlaliyyəti bizə vermək üçün çarpışan türk qardaşlarımızla bərabər çarpışıb və bu yolda şəhid olanlar da vardır. Əvət, istiqlaliyyəti siz zahirdə cüzi, batində isə böyük əhəmiyyəti olan əmək və çalışqanlığınızla meydana gətirdiniz. Azərbaycan türk milləti bağ və bostanının böyük bağbanları oldunuz. Onun uğrunda hər bir zəhmət və məşəqqətə qatlanaraq qiymətli bir [töhfə] hüsula gətirdiniz və dediniz ki:

*"Bərgi-səbz əst töhfeyi-dərviş*
*Çe konəd binəva nədarəd biş"*

İştə, meydana gətirdiyiniz o töhfənin pozulmaması, onun rəqiblər əlinə düşməməsi üçün həman bağı suvarmaqdan, qorumaqdan geri durmamalısınız. Bununla bir an əvvəl ümum cahana elan etməlisiniz ki, kəndi əmək və zəhmətinizlə hüsula gətirdiyiniz o töhfəni kimsəyə verməyəcəksiniz. Var qüvvənizlə onun, o yaşıl vərəqin [yarpağın] qorusunda duracaqsınız. Bu uğurda ümum Azərbaycan zəhmətkeş kütləsi ilə bərabər can fəda etməyə belə hazırsınız. Bununla xətmi-kəlam edir və deyirəm ki, var olsun Azərbaycan! Yaşasın onun həqiqi xadimləri, yaşasın müəllim və müəllimələrimiz! *(gurultulu alqış)*

**Malxazyan** - (rusca) Mən Parlaman Erməni fraksiyonu və erməni Daşnaksaqan firqəsi tərəfindən Türk Müəllimləri Qurultayını təbrik edib, türk müəllimlərinin Azərbaycan istiqlaliyyəti və onun maarifi yolunda var qüvvələri ilə çalışdıqlarını alqışlayıram. Ta əvvəldən türk müəllimləri kəndi millətinin içərisində böyük fəaliyyətdə bulunub, heç vaxt öz xidmətini əsirgəməmişdir və bundan sonra dəxi onların işləməsi türk millətinin istiqlaliyyətini bir daha vüsətləndirib və möhkəmləşdirəcəkdir. İştə, var olsun Azərbaycan türkləri istiqlaliyyəti. *(alqış)*

**İdris Axundzadə** - Müəllimlərin nə dərəcə böyük fəaliyyət göstərmələri hər kəsə məlumdur. Buna görə də, Sədinin bir beyti ilə iktifa [kifayət] edirəm:

*"Vəsfe tora gər konəd vər nə nə konəd əhle eşq,*
*Hacəte məşşateist ruye delaramra."*

(Ruscaya tərcümə edir) Mən də Gəncə Türk Müəllimlər İttifaqı tərəfindən bugünkü tarixi qurultayı təbrik edirəm. Yaşasın Azərbaycan istiqlaliyyəti, yaşasın türk müəllim və müəllimələri! *(alqış)*

Bundan sonra Zaqatala, Teymurxanşura, Salyan müəllimləri namından, müsəlman tələbələri və İran Maarif Cəmiyyəti tərəfindən birər natiqlər təbrik edib qurultaya müvəffəqiyyət dilədilər.

Sədr Quba müəllimləri və müəllim Abbas bəy Minasazovdan gələn teleqrafları oxuyur. Teleqraflarda birinci Azərbaycan Türk Müəllimləri qurultayı təbrik edi[li]r və müvəffəqiyyət təmənni olunur.

Təbrik bitdikdən sonra sədr əfəndi nümayəndələr tərəfindən natiqlərə izhari-təşəkkür edir və deyir ki:

– Müəllimlər nə qədər qüvvətli olsalar da, bir əldən səs gəlməz, buna görə də ümum müəllimlər və camaatımız bir nəfər kimi hərəkət edib çalışmalıdırlar. Bir də müəllimlər firqə həyatından uzaq olmalıdırlar. Müəllimlər İttifaqı fəqət [ancaq, sadəcə] millətin səadəti üçün çalışıb Azərbaycan istiqlalı uğrunda var qüvvəsi ilə işləyəcəkdir.

Bununla məclis xitam olunur və birinci iclas axşam saat 6-ya təyin edilir.

* * *

Saat 6-da qurultayın birinci iclası açılıb bir çox müzakirələrdən sonra heyətirəyasət və mandat komisyonu intixab edilir [seçilir].

İntixab edilənlər:

Heyəti-rəyasət: Ağabəy İsrafilbəyzadə, Şəfiqə xanım Əfəndizadə, Məhəmmədəli əfəndi Xəlifəzadə, İdris Axundzadə, Əliməhəmməd Mustafayev.

Mandat Komisyonu: Cəlil bəy Babazadə, Musazadə və Zeynalov.

İkinci iclas ayın 21-də axşam saat 7-yə təyin edilmişdir. Bu gündən etibarən qurultay növbədəki məsələlərin müzakirəsinə şüru edəcəkdir [başlayacaqdır].

## BAKI XƏBƏRLƏRİ

### Türk Ocağı

Azərbaycan daxilində türklük və müsəlmanlığın tərəqqi və təalisi [ucalması] üçün "Türk Ocağı" namında bir ocaq təsis və güşad ediləcəkdir [açılacaqdır]. Bu xüsusda hökumətə müraciəti-lazimədə bulunuldu.

Ocağın məqsədi: türklərin hərsi [mədəni] birliyinə və mədəni kamalata çalışmaq. Şüarı: Dində islamlıq, dildə birlik, işdə xalqçılıq və təşkilatda səbatkarlıqdır.

Ocaq türklərin ürfan, rifah və sihhətini [sağlamlığını] təmin üçün konfranslar, moizələr, müsamirələr [konsertlər] tərtib, kitablar, risalələr [broşüralar], qəzetələr nəşr, məkatiblər, kitabxanalar, xəstəxanalar güşad, təşəbbüsati-iqtisadiyyəni təşviq, türkün sihhi və ictimai vəziyyəti haqqında tədqiqat, zəki və müstəid [istedadlı] çocuqların təhsilini dəröhdə və təshil [boynuna götürmək və asanlaşdırmaq], səfalətə və xəstəliyə qarşı mücadilə [mübarizə] etmək üçün səhhət orduları təşkil, xeyirli işlərə müavinət [kömək], nümunə köyləri ehdas etməkdir [yaratmaqdır]. Yaxında Ocağın nizamnaməsi qəzetə ilə nəşr və elan ediləcəkdir.

*Türk Ocağı müəssisanından [qurucularından]: Təhsin*

### Məclisi-Məbusan üzvlərinin övdəti

Lənkəran şəhər və qəzası əhalisinin əhval və övzasını [vəziyyətini] öyrənmək qəsdi ilə oraya getmiş olan M[əhəmməd] Ə[min] Rəsulzadə, A[bbas] Q[ulu] Kazımzadə və M[əhəmməd] B[ağır] Şeyxzamanov cənabları srağagün səfərdən qayıtmışlardır.

**Bələdiyyə rəisi əvəzində**

Bələdiyyə rəisi P. F. İlyuşkin məzuniyyət aldığından, müvəqqəti olaraq rəisin yerini M[ustafa ağa] Şərifov idarə edir.

**Neft seylanının təmiri**

Daxiliyyə naziri Bələdiyyə İdarəsinə müraciətən xahiş etmişdir ki, Azərbaycan Dəmiryolunun neft seylanı [kəməri] təmirinə təyin olunmuş agentlərinə işə şüru etdikdə [başladıqda] mümaniət [maneçilik] göstərməsin. Bələdiyyə İdarəsi şu icazəni verməsinə qol vermişdir, bu şərtlə ki, əvvəl Bələdiyyə kassasına olan vergi qalığı gərək verilsin.

**Həkimlər iclasında**

18 avqustda Bələdiyyə İdarəsində həkimlər iclasında Bakıda əvvəlinci dəfə olaraq vəba ittifaqı [hadisəsi] xüsusunda xəbər verilmişdir. Avqustun 4-də Rostovdan dəmiryol ilə varid olmuş V. cənabları həman gün naxoşlayıbdır. Ayın 10-da naxoşluğu şiddət edib 11-də məzkur [deyilən şəxs] kəndi mənzilində ölmüşdür. Məzkurun ətrafında olan 15 nəfərdən heç birisini naxoşluq tutmamışdır.

Naxoşluq haqqında şu nüktələr [məqamlar] qeyd olmuşlar:

1) Naxoşa müalicə edən həkimlər bu xüsusda Səhiyyə şöbəsinə xəbər verməmişlər.

2) Naxoşu müsri naxoşluqlar mərizxanası [yoluxucu xəstəliklər xəstəxanası] əvəzində Mixaylovski mərizxanaya götürmüşlər və burada da mərizi [xəstəni] qəbul etməkdən imtina etmişlər.

3) Naxoşu Səhiyyə miniklərində götürməyib, şəhərdə işləyən faytonlarda aparmışlar.

Bu dəfəlik böylə keçmişsə də bundan sonra böylə ittifaqlarda:

1) Müsri naxoşluqlar tutanlara xidmət etdikdə artıq diqqət etməli;

2) Naxoşluq ittifaq düşcək Bakıda olan hamı səhiyyə idarələrinə xəbər verməli.

Bir çox məsələlər müzakirə olduqdan sonra atidəki [aşağıdakı] qərarlar qəbul edilmişdir:

1) Təthirat [dezinfeksiya] istasyonunun keçən sənə etdiyi fəaliyyətini göstərmək;

2) Şəhərdə olan mərizxanaların hamısında təthirat məsələsinə artıq dərəcədə diqqət etmək;

3) Balıq qurudulan yerlərdə sihhiyyə [gigiyena] məsələsinə diqqət etdirmək.

**Boğulmuş**

Ağustosun 17-də İran təbəəsi Hüseynqulu Abbas oğlu xəbər vermişdir 10 gündür ki, onun əmisi oğlu Fəttah Hacı Əbdussultan oğlu xəbərsiz itmişdir. Kəndisinin dediyinə görə məzkur [adı çəkilən şəxs], İran təbəələri Əsgər Molla Vəli oğlu, Ələsgər Molla Bağır oğlu, Ziqam Molla Vəli oğlu, Yəhya Səbzəli oğlu, Əziz Əli oğlu tərəfindən öldürülmüşdür. Onlar tövqif edilmişlərsə də [tutulmuşlarsa da], kəndilərini müqəssir hesab etməmişdirlər. Mütəvəffa [vəfat edən şəxs] boğazında qayış olduğu halda Binəqədidə bir quyudan tapılmışdır. Canilər məhkəməyə veriləcəklərdir.

**Mütəəllimlər arasında**

Çoxdan bəri idi mütəəllimlər [şagirdlər; tələbələr] əxlaqı xüsusunda gözəl müəllimlər və mütəəllimlərin dərdinə mütəəssir olan əşxas [şəxslər], mütəəllimlər bikar vaxtlarını nəyə sərf etsinlər məsə-

ləsində aciz qalmışlardı. İndi isə edadi məktəblərinin valideyn cəmiyyəti şu xüsusda müzakirə edib məsələyə əncam vermişlər. Cəmiyyət məktəblərdən mütəallimlər iclası təsis etmişdirlər. Bu iclasda mütəallimlər bikar vaxtlarını saat 6-dan 10-a qədər keçirirlər. İclasda dram, musiqi, nəğmə, oynamaq, şətrənc [şahmat], şaşqa oyunu, nərdtaxta və damka oyunları şöbələri açılmışdır. Hər şöbə ictihad yetirmiş [məlumatlı, bilikli] bir şəxsin idarəsindədır. Yekşənbə [bazar] günləri saat 11-dən 2-yə qədər mütəallimlər üçün elmə dair və müfid sinematoqraf [faydalı filmlər] göstərilir və axşam saat 8-dən 11-ə qədər məşğul olurlar. Gələcəkdə təsisat artması gözlənir. Hamıdan artıq mütəallimlərin Bakının ətrafına və başqa uzaq yerlərə səyahətə getmələri müfid olasıdır. Mütəallimlər Cəmiyyətinə edadi məktəbin ikinci mərtəbəsində hər gün üzv yazılmaq olar. Sezon haqqı 5 manatdır. Cəmiyyətə üzv olmayıb, birdəfəlik idxal haqqı 1 manat, böyüklərdən ötrü 3 manatdır. Hər gün axşamlar bufetdə ucuz qiymətə mütəəlimlər üçün çay, çörək və peçenye verilir.

**Birjada**

Kerenski minlik 1250 manat yenisi və 1200 manat əskisi, Kerenski 250-lik 1150 manatdır. 500-lük 1300 manat, 100-lük 230 manatdır. Türk altun lirəsi 390 manat, gümüş xırda pul 12 manata qədər tənəzzül etmişdir.

**Mal bazarı**

Kibritin yaşiki 1200 manatdır. Qəndin pudu 1050 manatdır və ümumən malların qiyməti düşməkdədir.

**FƏHLƏ HƏYATI**

Seyidli qəryəsindən [kəndindən] "Müsavat"a yazırlar:

İyul ayının 30-da Seyidli kəndinin civarında olan vətəgələrdə gəzərkən güzarım 5-ci Yalama adlı vətəgənin fəhlələri yaşadıqları odadan düşərkən odanın içindən cürbəcür dəhşətəngiz sədalar eşitdikdə içəri daxil olub bir çox fəhlənin yerdə yan-yana döşənərək kimisi Allahı çağırmasını, kimi "acından öldüm", kimisi "atəşdən ciyərim yandı" deyə fəryad edirdi. Bu hal məni təəccüb aləminə götürdü. Bu nə olası şeydir deyə heyrətlə ətrafa baxırdım. Axırda bunu bilmək üçün odadan çıxıb kontorşikdən əhval tutmaq niyyəti ilə kontora tərəf gedərkən, böylə dəstə də bu yanda gördüm. Kontorşik Lemkindən bunun nə olduğunu sorduqda cavab verdi ki, şu "Rıbak" vətəgəsini bakılı Nurulla Əsədulla oğlu icarə etmişdir. Məzkur [adı çəkilən şəxs], tutduğu fəhlələri ayda 850 manata danışıbdır. Bu şərtlə ki, ayda hər bir fəhləyə 2 pud ağ un, 3 girvənkə kişmiş, 1/8 girvənkə çay və 400 manat nağd pul versin. İdarədən 2800 manat fəhlələrə məsarif etmək üçün pul almışsa da, bir qəpik də xərc etməyib fəhlələri acından və susuzundan qırır. Fəhlələrə ağ un əvəzində pudu 150 manatdan arpa unu verir və iki aydan ziyadədir ki, bir şahı pul da heç bir fəhləyə verməmişdir. Ona görə fəhlələr naxoşlayaraq qırılırlar. Öylə ittifaq [hadisə, hal] olubdur ki, bir həftə zərfində 40 fəhlədən 4 nəfəri ölmüşdür. Əlavə-əzin [bundan əlavə], fəhlələr kəndimə nəql edirlər ki, bu ayın 29-da Nurulla Əsədulla oğlu vətəgəyə gəlib ac-çılpaq və naxoş

fəhlələri tapança zoru ilə odadan çıxarıb işləməyə göndərirdi. Biçarə naxoş fəhlələrin çoxunun qorxudan ürəyi getmişdir. Bu işə "Kukleviç" ticarət evinin xidmətçisi Krokman, Kanabolski və Seyidli kəndinin sakini Abdulla və praporşik M. Əliyev dəxi şahiddirlər. Mən təəccüb edirəm, nə vaxta qədər biz bədbəxt millət böylə bir vəhşi və yırtıcıların sıxıntısı altında qalıb da imdadsız bir surətdə zindəganlıq edəcəyiz.

*Feldşer: İ. B. Vəkilov,*
*5 avqust 1919*

Mürasilənin [məktubun] bir surəti "Müsavat" tərəfindən Məsai Nəzarətinə [Əmək Nazirliyinə], digər surəti də idarəmizə göndərilmişdir.

## AZƏRBAYCANDA

### Qubadan

17 ağustos Quba üçün bir matəm günü yerini almışdı. Bir çox simalarda hüzün və ələm müşahidə olduğu kimi, bəzilərində də qorxu və ümidsizlik gözə çarpmada idi. Vilayətə vali vəzifəsini ifa etmək üçün təyin edilmiş sevimli, mehriban qaimməqamlarından [qəza rəislərindən] deyil, yoldaşlarından ayrılmaları hüzün və ələmə səbəbiyyət verirdisə də, qorxu və ümidsiziliyin mənasını da cahanın hərc-mərci-biamanı [amansız hərc-mərcliyi] içində Quba qəzasında cənnəti bir asayiş vücuda çıxarıb, hər kəsin qibtəsini mövcib [qibtəsinə səbəb] ola biləcək dəmir bir intizam bərpa etmiş olan hakimlərinin getməsində anlamaq lazım gəlirdi.

Yuxarıda qaimməqamı yoldaş deyə adlandırmışdım.

Əvət, Əmir xan [Xoyski] əfəndi Quba qəzası əhalisi üçün qaimməqam olduğundan maəda [əlavə], ən mehriban bir yoldaş idi də. O hər kəsin, xüsusən füqərayi-kasibənin dərdinə qalır, hakim kimi deyil, yoldaşcasına ona kömək etmək, müavinətdə bulunmaq üçün qüvvəsi daxilində olan vəsilələri qullanmada müsamihəkarlıq [başısoyuqluq] göstərməyirdi. Dinc əhali ilə bu qədər yoldaşcasına rəftar edən qaimməqam əfəndi quldur, cinayətkar və vətən xainlərinin də o qədər rəhmsiz düşməni idi.

Saat 12 tamamda qaimməqamları ilə vidalaşmaq, xudahafiz demək istəyən əhali məscidi-came həvalisinə [ətrafına] toplanıb, onun vürudunu [gəlişini] bəkləyirdi. Qaimməqam əfəndi gəldikdə, əhaliyə xitabən şu yollu sözə başlayır:

Qardaşlar, sizinlə xudahafizləşmədən irəli bir qaç kəlimə ərz edəcək sözlərim və bəradəranə [qardaşcasına] tövsiyələrim vardır. Sizə məlumdur ki, bu gün məsum qanlarımız və bəlkə də ismət və namusumuz bahasına bizə mal olmuş vətənimiz bu gün bizi yenə təzədən əsir, hüquq və ixtiyaratımızı qəsb etmək xəyalı bəsləyən düşmənlərin hədəsinə məruz qalır. Həman düşmənlərlə mübarizə etmək yollarından biri və bəlkə də başlıcası vətənimizin daxili səlamətliyidir. Hərgah siz vətəninizi sevirsəniz ata-babalarınızın müqəddəs qəbirlərinin [ayaq] altında tapdanmasını istəməyirsəniz, milli vicdanınız var isə, salamat yaşamağa səy ediniz də, heç kəsin hüzur və rahatını pozmayınız.

Düşməniniz ancaq vətəninizə tamah dişlərini itiləmiş qara general ordusudur. Həman ordu ilə mübarizədə bulunmağa, onun əbləhanə xəyallarının bərhəva [puç] edilməsinə çalışınız. Sizə etdiyim bu tövsiyədən sonra onu ərz etmək istəyirəm ki, mən qaimməqamlığımda olduğu kimi, valiliyimdə də sizə və bütün vətəndaşlarıma yoldaş olacağam. Mənim dəftərxanamın qapıları həmişə, vaxtlı-vaxtsız, gecəli-gündüzlü sizin üçün açıqdır. Nə dərdiniz olarsa, nə şikayətiniz varsa, hansı məmurdan ədalətsizlik görərsəniz, buyurunuz kömək etmək üçün var qüvvəmlə çalışaram.

O da gizli qalmasın ki, mən sizdən çox uzaq getməyirəm. Həmişə sizi görməyə, sizin işlərinizdən xəbərdar olmağa vüsətim [imkanım] olacaqdır. Bu günə qədər sizə qaimməqam olmuşamsa, bundan sonra daha geniş ixtiyarat ilə vali yerində olacağam. Vay olsun o şəxsin halına ki, vətənimiz daxilində şuluqluq, quldurluq kimi mənfur xəyallar cəsarətində buluna. O zaman o adam üçün yoldaş deyil, rəhmsiz düşmən kəsiləcəyəm və ən şiddətli cəzalar verəcəyəm. İştə, bu qədərlə iktifa [kifayət] edərək sizə hələlik bir xudahafiz deyirəm.

"Xudahafiz, çox yaşa, min yaşa!" sədaları hər tərəfi bürüyür, məsciddən qaimməqam əfəndi şərəflərinə hazırlanmış banketə təşrif gətirirlər.

Klub salonunda kəşidə [tərtib] edilən ziyafət məclisində müddəiyi-ümumi [prokuror] müavini başda olaraq bütün hökumət məmurları, Bələdiyyə rəisi başda olaraq qlasnıları, ağsaqqallar, ətrafdan gələn kənd vəkilləri və yəhudi nümayəndələri hazır idilər.

Ən əvvəl Bələdiyyə rəisi sözə başlayaraq qaimməqamın Quba qəzasında ibraz etmiş olduğu [göstərdiyi] yararlıqları və xüsusən Denikin qorxusu vətənimizi təhdidə başladıqdan sonra nə kimi cansipəranə [canla-başla] fəaliyyətlərdə bulunduğunu və istirahəti kəndisinə haram edərək fədakarlıqlar etdiyini tədad ilə [saymaqla], şəhər əhalisi namından izhari-qədrşinasi edərək [qədirbilənlik göstərərək] və tərfiyi-rütbə [rütbəsinin artırılması] münasibətilə Xan əfəndini təbrik edir.

Sonra vergi müdiri Popov Quba qəzası daxilində yaşayan rus əhalisi namından təbrik edərək, cümhuriyyətimiz daxilində heç bir millətə ögey nəzərlə baxmayan və xüsusən ruslara hüsn-rəğbət göstərmiş olan hökumətimizdən və Azərbaycan türklərindən razılıq edir. Asayişi-ümumi bərpa edilərkən Avropa hökumətləri qarşısında Azərbaycan Cümhuriyyətinin bütün millətləri, xüsusən rusları kəndi yavrusu kimi qoruduğuna və ruslara xüsusi imtiyazat verən çar hökuməti zamanında işbu azadəliyi, rifahihal və istirahəti görmədiklərinə rusların şəhadət edəcəyini vəd edir.

Sabiq Dağıstan Parlamanı məbusu tələbə Hacıxanov Dağıstan Cümhuriyyəti Dabravol ordusu tərəfindən işğal edildikdə qara generala itaət etmək istəməyən bir qaç köylər Azərbaycana mülhəq olduqlarını [qoşulduqlarını] və oğrular yatağı, quldurlar ocağı olan köylərin bu gün cənnətmisal bir asayiş və istirahət içində yaşadığını zikr ilə Azərbaycan Hökumətinə, xüsusən Əmir xan Xoyski əfəndiyə mədyun [borclu] olduqlarını qeyd edir, deyir: Yaşasın Azərbaycan Hökuməti, yaşasın Əmir xan!

Bədəhu [sonra] kənd vəkilləri, yəhudi nümayəndəsi və bir çox başqa natiq Xan əfəndinin xidəmatını [xidmətlərini] sayaraq təbrik edirlər.

Cavab olaraq, vali əfəndi əhalinin qədrdanlığını [qədirşünaslığını] kəndisi üçün böyük bir səadətədd [hesab] etdiyini söyləyir və yenə tövsiyə olaraq ən gözəl bir məhbubədən də ziyadə dilbər olan vətənimizə, Azərbaycanımıza təcavüz xəyalı bəsləyən rəqibləri püskürtmək üçün qısqanclıqla hazır olmamızın hər işimizdən irəli və vacib olduğunu xatirlərə gətirir.

Quba xanımları Xan əfəndiyə yadigar olaraq bir gözəl münəqqəş [naxışlı] balış hədiyyə etmişlərdir.

*H. R.*

## ERMƏNİSTANDA

### Polkovnik Haskellin vürudu

Avqust ayının 15-də Sülh Konfransı vəkaləti ilə Ermənistana göndərilən polkovnik Haskell Tiflisə varid olmuşdur [gəlmişdir]. Vağzalda Amerika heyəti tərəfindən istiqbal edilmişdir [qarşılanmışdır].

"Nor aşxatavor" qəzetəsinin Batum müxbirinin rəvayətinə görə, avqustun 15-də Tiflisə varid olan Ermənistan diktatoru polkovnik Haskellin iki vəzifəsi vardır. Birisi siyasi, digəri iqtisadidir. Haskellin dəftərxanası Tiflisdə bulunacaq, bu dəftərxana iki şöbədən ibarət olacaqdır ki, bir şöbəsi siyasi və digəri iqtisadi iş aparacaqdır.

Ermənistan fərarilərinin yerlərinə qaytarılmasına ayrıca əhəmiyyət veriləcəkdir. İngiltərə, Fransa, İtaliya və Amerika tərəfindən göndərilmiş olan polkovnik Haskell bütün Zaqafqaziyaya, Ermənistana, Gürcüstana və Azərbaycana kontrolluq edəcəkdir. Mumaileyhin [adı çəkilən şəxsin] məqsədi Zaqafqaziyada sülh və müsaliməti [əmin-amanlığı] bərpa etməkdir.

İstanbulda müntəşir "Caqatamart" qəzetəsinin müxbiri yazır ki, avqustun 2-də Ermənistanın Ali Komissarı Haskell Ruşçukda ermənilər tərəfindən qayət ehtiramla qarşılanmışdır. Sofiyada məhəlli [yerli] ermənilər hakəza [həmçinin] Haskelli ehtiramla qarşılamışlardır. Polkovnik Haskell erməni nümayəndələrinə demişdir ki, o, Beşlər Şurası tərəfindən Qafqaziyaya göndərilir ki, Ermənistan, Gürcüstan və Azərbaycan arasında olan sərhəd məsələsini həll eyləsin. O, Türkiyə-Ermənistan məsələsini də həll edəcək və dekabr ayınadək fərarilər öz yerlərinə qaytarılacaqdır.

### Xüsusi müsəlman təvəllüdxanası
### Gövhər xanım Qazızadə

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Arvad diş həkimləri**

**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**

**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Elan**

Neçə illərdən bəri Petropavlovka köyündə vaqe olan ziraət [kənd təsərrüfatı] anbarımızda hər cür ziraətə uyğun makinalar mövcuddur. Xahiş edənlər Bakı kontoruna müraciət edə bilərlər.



Ünvan: Milyutinski caddə, Adamovun evində, Mirzeynal Məstanzadə və qardaşları

*7454*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 396. Proskurov: Ukraynanın qərbində şəhər; indiki Xmelnitski şəhəri.

**Qəzetələrdən**

səh. 397. "T.": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

"çar Boris": 1918-1943-cü illərdə Bolqarıstan çarı olan III Boris nəzərdə tutulur.

səh. 398. "Çrezvıçayka": Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyası.

"imperator Karlın oğlu Otto": 1916-1918-ci illərdə Avstriya-Macarıstan imperatoru olan I Karl və onun oğlu Otto fon Habsburq nəzərdə tutulur.

**Mavərayi-Bəhri-Xəzərdə**

səh. 399. Yekaterinodar: Rusiyada, indiki Krasnodar şəhəri.

"Borovski": bu soyadı qəzetdə təhrif edilmişdir.

"Tazəşəhər": indiki Türkmənbaşı şəhəri.

**Azərbaycan Müəllimləri Qurultayının rəsmi-güşadı**

səh. 404. "Bərgi-səbz əst töhfeyi-dərviş / Çe konəd binəva nədarəd biş": (farsca) "Dərvişin töhfəsi yaşıl yarpaqdır, / Yazıq neyləsin, başqa şeyi yoxdur."

"Vəsfe tora gər konəd vər nə nə konəd əhle eşq, / Hacəte məşşateist ruye delaramra": (farsca) "Eşq əhli sənin tərifini etsin ya etməsin, / Gözəlin üzü məşşatəyə ehtiyac duyur."

Teymurxanşura: İndiki Buynaksk şəhəri. Rusiya Federasiyasının tərkibində Dağıstan Respublikası Buynaksk rayonunun inzibati mərkəzi. Əsası XIX əsrdə qoyulan şəhərin adı 1922-ci ildə dəyişdirilərək Buynaksk olmuşdur.

**Azərbaycanda**

səh. 410. "H. R.": bu imza "Azərbaycan" qəzetinin əməkdaşı Hüseyn Rza Məhəmmədbəyliyə məxsusdur.

**Ermənistanda**

səh. 410. "Nor aşxatavor": "Daşnak" partiyasının Tiflis şöbəsinin qəzeti.

"Ruşçuk": Bolqarıstanın şimalında, Ruminiya ilə sərhəddə Dunay çayı sahilində yerləşən Ruse (yaxud Rusçuk) şəhəri nəzərdə tutulur.

**Bazar, 24 avqust 1919-cu il, nömrə 259**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 27 zülqədətül-haram sənə 1337. 24 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## "AZƏRBAYCAN" QƏZETƏSİ KONTORU TƏRƏFİNDƏN

Qəzetəni nəşr etmək üçün məxaric artdığından, kağızın və bir para mətbəə materiallarının bahalandığından dolayı "Azərbaycan" qəzetəsi nəşriyyatı həmin avqust ayının 23-dən müvəqqəti olaraq qəzetənin tək nüsxəsi fiyatını 2 manat etməyə məcbur olmuşdur. İşbu abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-ədək hesab olunur.

## "İTTİHADİ-İRANİYAN" MƏKTƏBİNDƏ

Daxil olmaq istəyən şagirdlərin ərizələri qəbul olunmaqdadır. Xahiş edənlər hər gün saat 9-dan 1-ədək məzkur [adı çəkilən] məktəbin sabiq binasında (Sadovaya nömrə 19) idarəyə müraciət edə bilərlər.

*İdarə*

*7487*

## GECƏ KURSLARI

Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi" heyəti-idarəsi tərəfindən kübara (böyüklərə) məxsus gecə kursları açılmışdır. Həman kurslarda ibtidai farisi, türki, rusi, hesab tədris olunacaqdır. Oxumaq arzusunda bulunan zəvat [şəxslər] hər gün saat 9-dan 1-dək "İttihad" məktəbində idarəyə müraciət edib adlarını qeyd etdirə bilərlər.

*7486*

## SİRK "MODERN"

Yekşənbə günü avqustun 24-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 57-ci günüdür.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Buyvolov – Staroşvili.

2-nci: Oleynikov – Yemelyanov.

3-ncü: Raqenbaum – Kreçetov.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7483*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Posta və Teleqraf nazirinin əmrnamələri**

*Əmrnamə 86*

Bu ağustosun 11-dən 1919 sənəsi Bakı telsiz teleqraf qəbul mövqifinə [stansiyasına] radio-teleqramçı Sergey Lıkov baş telsiz teleqraf müxabirəçiliyinə təyin olunur.

*Əmrnamə 87*

19 ağustos 1919

Bakı Baş Teleqraf Bürosunun müdiri Abbas bəy Ağayev müvəqqəti olaraq dəftərxanamın 1-ci şöbəsi müdiriyyətinin idarələnməsinə götürülür. Bakı Teleqraf Bürosunun müdiri müavini Aslan bəy Mirzəyev yenə müvəqqəti olaraq məzkur müdirin yerində müdir təyin olunur. Hər ikisi ağustosun 20-dən etibarən təyin olmaqla, ifa etdikləri vəzifələrinə mütənasib maaş alacaqlar.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Xariciyyə nazirinin bəyanatı***

Məclisi-Məbusanın 14 avqust tarixli iclasında Sosialistlər fraksiyası tərəfindən Denikin təhlükəsi və məmləkətin əhvali-hazirəsi [hazırkı vəziyyəti] haqqında hökumətə bir sual verilmişdi. 18 avqust tarixli iclasda Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov həzrətləri həman suala cavabən böylə bəyanat vermişdir:

Möhtərəm məbuslar! Keçirməkdə olduğumuz halların əhəmiyyətini dərklə, hökumət bu suallara cavab verməyə hazırdır. Bilxassə ki, hökumət özü ən yaxın zamanda Parlaman və camaata xarici övzamız [vəziyyətimiz] haqqında məlumat vermək təsəvvüründə idi.

Sosialistlər tərəfindən verilmiş olan sual bir neçə maddədən ibarətdir ki, onların da ümdəsi donanma, xətti-hüdud [sərhəd xətti], məmləkət daxilində Denikin agentlərinin fəaliyyəti və ümumiyyətlə "Denikin təhlükəsi" adlandırıla biləcək bir neçə sair məsələdir. Bu suallara ətraflı cavab vermək üçün mən qabaqca diqqətinizi yaxın keçmişə cəlb edərək bəzi əmrləri [işləri] xatırlatmaq istərdim.

Məlumunuzdur, general Denikin qoşununun Dağıstan üzərinə hərəkəti və Petrovsk [Mahaçqala] ilə Dərbəndin işğalı xəbəri yetişdikdə, Azərbaycan əhalisi burasını məmləkətin səlamət və tamamiyyətinə və dövlətin istiqlalına böyük bir təhlükə sayaraq bir həyəcana düşmüşdü. Həmişə camaatın mənafeyini gözləyən hökumət dərhal Könüllü ordunun irəli hərəkətini dayandırmaq üçün lazımi tədbirlər gördü. Bu tədbirlər iki cür idi. Birisi sırf əsgər tədbirləri idi ki, Hərbiyyə Nəzarətinə aid olduğundan, mən bu xüsusdan bəhs etməyəcəyəm. Digəri də siyasi-diplomasi tədbirlər idi.

Siyasi iqdamatımız [addımlarımız] isə

* Qəzetəmizdə sırada 11, 14 və sonra 18 avqust tarixli iclaslar ikən, Xariciyyə naziri həzrətlərinin bəyanatını növbədənxaric olaraq biz dərc etməyi lazım bildik. Gələcək nömrədən, əvvəlki qayda ilə sırası ilə yazılacaqdır.

general Denikinə etdiyi köməklərə görə onun nəzərində böyük nüfuz və etibara malik olan İngilis Komandanlığına kərratla [dəfələrlə] protesto ver[il]mişdir. Bu iqdamat və protestolar nəticəsində İngiltərə Hökuməti bir xətti-hüdud təyin etdi ki, bu xüsus vaxtilə Rəisi-vükəla [Baş nazir] tərəfindən bu kürsüdən sizə xəbər verilmişdir. Fəqət xətti-hüdud təyini və İngilis Komandanlığı tərəfindən Könüllü ordu qoşunlarının həman xətt ötəsinə çəkilməsinin qəti surətdə tələb edilməsinə baxmayaraq, Könüllü ordu qoşunları bu vaxtadək Dərbənd və ümum Dağıstanda qalmaqdadır. Bu münasibətlə kərratla İngilis Komandanlığına yenidən protestolar verdiksə də nəticəsiz qaldı.

Sonra iyunun 28-də mən Gürcüstan Xariciyyə naziri Gegeçkori ilə bərabər ingilis heyəti-əsgəriyyəsi rəisi general Korinin yanına gedib müsahibədə bulunduq. Könüllü ordu barəsində ilk dəfə bildik ki, general Denikin Dağıstanı könüllü qoşunlardan təmizləmək istəməyib, biləks [əksinə] oranı kəndi daireyi-nüfuzuna [nüfuz dairəsinə] daxil etmək istəyir və bu xüsusda İngiltərə Hökuməti ilə müzakiratda [müzakirələrdə] bulunur.

General Kori bizim bu məsələyə nə nəzərlə baxdığımızı bilmək istədi. Buna cavabən bu xüsusda bizim nəzərimiz və rəyimiz müəyyən olduğunu qeydlə, dedik ki, hal-hazırda bizi ən artıq maraqlandıran budur ki, İngilis Komandanlığı və hökuməti bu işə nə nəzərlə baxır. Çünki həmişə bizi inandırırdınız ki, general Denikin İngiltərə Hökuməti tərəfindən xətti-hüdud haqqında qoyulmuş qərara əməl edəcəkdir. Halbuki həqiqətdə əməl etməyirdi. Bu müsahibədən biz anladıq ki, general Denikin barəsində İngiltərə Hökuməti siyasətində təbəddülat [dəyişiklik] vaqe olmuşdur. Fəqət heç bir müəyyən və həqiqi nəticə əldə edəmmədik.

Avqust ayının 4-ünədək əhval böylə qeyri-müəyyən bir surətdə qalırdı. Həman avqustun 4-də İngiltərə Komandanlığı hökumətimizə rəsmi surətdə xəbər verdi ki, yeni xətti-hüdud təyin edilmişdir və həman xətt Samur çayı boyu ilə yəni Bakı quberniyası sərhədi ilə keçir. İngilis təbliğati-rəsmiyyəsinin [rəsmi bildirişinin] surəti budur:

*İngilis Baş Ərkani-hərbi [Baş Qərargahı], 27-ci firqə [diviziya], Bakı 4 avqust 1919*

*Azərbaycan Hökuməti-Cümhuriyyəsi Rəisi-vükəlasına:*

*Alişan [Əlahəzrət]! 11 iyun 1919 tarixli 39/244 nömrəli təliqəmə [rəsmi məktubuma] istinadən sizə xəbər verirəm ki, Əlahəzrət Kral hökumətindən Komandanlığa böylə bir teleqraf gəlmişdir:*

*Qərar verilmişdir ki, Zaqafqaziya ştatları ilə general Denikin arasında irəlicə təyin edilmiş olan xətti-hüdud dəyişərək, Dağıstan, Könüllü ordu məntəqeyi-nüfuzuna daxil edilsin.*

Dəyişmiş xətti-hüdud şimdi Bzıb çayı mənsəbindən başlayaraq, onun şimalında Suxum oblastı sərhədi ilə gedir; oradan şərqə dönərək Suxum, Kutais və Tiflis quberniyalarının şimali sərhədi ilə keçir və şərqə dönərək Dağıstanın cənubi hüdudu ilə keçəcəkdir. Hazırkı dəyişmiş xətti-hüdud xəritəsi göndərilir.

Teleqrafda təkrar edilir ki, Zaqafqaziya cümhuriyyətləri Könüllü ordu müqabilinə təcavüzkaranə çıxışdan saqınmalı və general Denikinə heç olmazsa

Bəhri-Xəzər donanması üçün [neft] verməklə kömək etməlidirlər. Eyni zamanda, bolşevik qüvvələrinə neft verməməlidirlər.

Bundan əlavə, teleqrafda göstərilir ki, buna əməl edilmədiyi təqdirdə İngiltərənin xeyirxahlığını qeyb edər və Əlahəzrət [Kral] hökuməti üçün general Denikindən məzkur [deyilən] xətt şimalında dayanmağı tələb etmək qeyri-mümkün olar.

Şübhəsizdir ki, bu xəbəri biz lazımi cavabsız buraxa bilməzdik. Bu münasibətlə İngilis Komandanlığına bir nota verərək bildirdik ki, yeni xətti-hüdud haqqında İngiltərə Hökumətinin qərarı bizim hökumətimiz üçün nagəhani [gözlənilməz] bir şeydir və çünki İngilis Komandanlığı bizi inandırmışdı ki, general Denikin qoşununu əvvəlki xətti-hüdud ötəsinə çəkəcəkdir, ona görə də vəziyyəti-hazirəni olduğu kimi təhkim edir.

Hökumətimiz yeni xətti-hüdud təyinini qeyri-məqbulədd [hesab] və əskisində israr edir. Təvəqqe etmişdik bu xüsus İngiltərə Hökumətinə bildirilsin. Fəqət bu vaxtadək İngiltərə Hökumətindən bir cavab yoxdur.

Donanmaya gəlincə, bildirməliyəm ki, indi daha artıq kəsbi-şiddət etmiş [kəskin hal almış] olan bu məsələ (gəmilərin Denikinə verilməsi) irəlicə də əhəmiyyətli bir mərkəzdə idi. Bəhri-Xəzərdə Azərbaycana düşmən olan qüvvənin bulunması həmişə hökumətimizi düşündürmüşdür. Hökumət sahillərimizin, xüsusən paytaxtımızın təmini üçün tədbirlər düşünmək məcburiyyətindədir və o vaxt təmin edilə bilər ki, dənizdə hökumətimizin binagüzarlığında [sərəncamında] dava gəmiləri olsun. Ona görə, hələ general Tomson Bakıda olan zaman hökumət bu xüsusu ona bildirərək, donanmanın bir qisminin bizim əlimizdə olması lüzumunu göstərirdi. Tomsonu əvəz etdikdən sonra general Kori nəzdində dəxi böylə təşəbbüslər edildi.

Zaqafqaziyadan ingilislər gedib italyanlar gəlmək məsələsi çıxdıqda İtaliya heyəti-əsgəriyyəsi rəisi Qabba ilə müsahibə əsnasında donanma məsələsi açıldı və polkovnik Qabba donanma məsələsini bizim nəfimizə [xeyrimizə] həll etmək və lazım gələrsə istənilən miqdarda müəllimi-bəhriyyun [donanma instruktorları] verməyə hazır olduğunu bildirdi.

Möhtərəm məbuslar! Necə ki, sizə məlumdur, italyanlar daha buraya gələcək olmadılar və donanma yenə İngilis Komandanlığı ixtiyarında qaldı. Komandanlıq bizi inandırırdı ki, bütün ingilis qoşunları çıxıb getsələr də donanma kimsəyə verilməyəcəkdir. Buna baxmayaraq, Bakıda müntəşir [nəşr olunan] “Rossiya” qəzetəsinin 30 iyul tarixli nömrəsində yazılmışdı ki, donanma Könüllü orduya verilir.

Bununla əlaqədar olaraq mən İngilis Komandanlığına müraciətlə sorğu verdim və bildirdim ki, donanmanın bir qisminin könüllülərə verilməsi Azərbaycanın səlaməti-mülkiyyəsini dənizdən təhdid altına alır və bir çox müşkülat çıxarır. Binaənileyh [ona görə], donanmanı verməməlidir. Protestomuza cavabən İngilis Komandanlığı xəbər verdi ki, bu xüsusu Ali Komandanlığa bildirər.

Sonra, avqustun 4-də İngilis Komandanlığına müraciətlə məmləkətimizi dənizdə mühafizə üçün hankı şəraitlə olur-olsun Könüllülərə verildiyi qədər gəmi-

nin bizə də verilməsini təklif etdik. Buna cavab verdilər ki, Bəhri-Xəzər donanması ancaq bolşeviklərlə mübarizə üçün və bu siyasətin davam etdiyi müddətə əmələ gətirilmişdir. İngilislərin buradan getmələri qət edildikdə [qərar verildiyi zaman] İngiltərə Hökuməti donanmanın general Denikinə verilməsini əmr etmişdir.

Burasını da demək lazımdır ki, İngilis Komandanlığı ilə müzakirat əsnasında həmişə deyirlər ki, Denikinə silah, ləvazım, hər nə verilirsə bolşeviklərlə mübarizə üçün verilir. Donanmanın Denikinə verilməsi münasibətilə general Kori bizə xəbər verdi ki, Yekaterinodardakı ingilis heyətini ən müsbət bir surətdə inandırır ki, donanmadan Bakı müqabilinə istifadə edilməyəcəkdir və Denikin qoşunları Azərbaycan əleyhinə heç bir iqdamatda bulunmayacaqlardır.

İngilis Komandanlığından xahiş etdik bizim Bəhri-Xəzər donanmasını istəməmizi İngiltərə Hökumətinə bildirsin. Fəqət bu vaxtadək hələ cavab alınmamışdır. Bundan sonra da ingilis qoşunlarının Zaqafqaziyadan getmələri haqqında binagüzarlıq edildi ki, bununla da əlaqədar olaraq əhali arasında həman sualımda denilən həyəcan çıxdı.

İngilis qoşunlarının getmələri münasibətilə mən Gürcü Hökuməti ilə həmrəy olaraq İngilis Komandanlığı ilə müzakirata girişdim və şimaldan təhdid olduğu üçün onların getmələrindən dolayı Zaqafqaziyada böyük müşkülat çıxa biləcəyini göstərərək qalmalarını xahiş etdim. Bizə cavab verildi ki, ingilis qoşunlarının getmələri haqqındakı binagüzarlıq qətidir, fəqət bizim xahişimizi öz hökumətlərinə bildirərlər.

Dağıstanın Denikin tərəfindən işğalı, donanmanın ona verilməsi və ingilislərin getmələrindən dolayı hasil olan vəziyyəti mən simsiz teleqraf ilə Parisdə heyəti-mürəxxəsimizə [nümayəndə heyətimizə] bildirərək lazımi tədabir görməsini tövsiyə etdim.

Dövlətimizin daxili düşmənləri və Denikin tərəfdarlarına gəlincə, bunlar ilə mübarizə məsələsi Daxiliyyə nazirinin səlahiyyətindədir. Binaənileyh, bu xüsusdan bəhs etməyəcəyəm, ancaq mənim bildiyimə görə hökumətimiz sağdan və soldan istiqlalımızın düşmənləri ilə mübarizə üçün tədbirlər görmüş və görməkdədir.

Əsgəri məsələlərdən də məlumunuz olan səbəblərə görə bəhs edəmməm.

Xətmi-kəlam olaraq mən lazım bilirəm deyim ki, məmləkətin vəziyyəti çox ciddidir. Şimaldan təhdid edən təhlükə güclüdür. Fəqət hökumət lazım gələn hər növ tədbirlər görür və mən inanıram ki, bütün millətin köməyi ilə Azərbaycanın hürriyyət və istiqlalını müdafiə və mühafizə edə biləcəyiz.

**XÜSUSİ TELEQRAF**

*(Öz müxbirimizdən)*

*(Bu teleqraf cümə günü idarəmizə yetişdiyindən, bir gün təxirə uğramışdır.)*

General-qubernatorla müzakirədə bulunmaq üçün ağustosun 16-da 7-ci erməni syezdinin 20 kişidən ibarət dele-

qatları Şuşikənddən Şuşa şəhərinə varid oldular [gəldilər]. İclas iki gün qədər imtidad etdi [uzandı]. Uzun müzakirələrdən sonra 26 maddədən mürəkkəb [ibarət] bir etilafnamə [razılaşma] tərtib edilmişdir. Ümdə maddələr atidəki [aşağıdakı] qərar üzrədir:

Sülh Konfransı tərəfindən qəti surətdə həll edilənə kimi etilafnamə müvəqqəti olaraq qəbul edilir.

Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının erməni hissələri Azərbaycan general-qubernatoruna tabe olurlar. Üçü müsəlmanlardan və üçü ermənilərdən olmaq şərti ilə bir şura təsis edilir. General-qubernatorun mülkiyyə işləri müavinliyinə erməni təyin edilir. Şuşada hüzur vaxtı (sülh zamanı) miqdarında əsgər saxlanılaraq mabaqisi [qalanı] Xankəndində mənzil edir. Qarabağ müsəlman və erməni əhalisinin tərksilah edilməsi durdurulur.

Baxılmaq və axırıncı qərar verilmək üçün etilafnamə məzmunu ağustosun 18-də Şuşikənd syezdlərinə göndərilmişdi. Təbəiyyət şəraitinin [vətəndaşlıq şərtlərinin] qəbul olunması xəbəri ayın 19-da bitmişdi. Şu münasibətlə, şəhərin hər iki hissəsinin bazarları, meydanları, bayraqlar, xalılar və çiçəklərlə donadılmışdı [bəzədilmişdi]. Sübh əvvəldən küçələrdə, meydanlarda musiqi çalırdı. Dəftərxanalarda məşğələ tərk edilmişdi. Syezdin tam heyətinin Şuşaya vürudu [gəlməsi] gözlənilir. Bu surətlə Qarabağ məsələsi həll edilmiş hesab olunur da və həpsində şadlıq və razılıq hisləri qaldırır. Təfsilat məktub ilə.

*Axundov*

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Lion - Belqraddan verilən xəbərlərə görə, Klemansonun sifarişi ilə Fransa səfiri və hökuməti nəzdində olan siyasi nümayəndəsi ixbar etmişdir [xəbər vermişdir] ki, Sülh Konfransı qəti surətdə olaraq Bzedmor nahiyəsini Serb-Slovak dövləti nəfinə kəsmişdir. Onlara ixtiyar verilir ki, məzkur [deyilən] nahiyəni bilatəxir [dərhal] serb-slovak əsgərləri ilə istila etsinlər.

## İRAN İŞLƏRİ

**Azərbaycan və İran**

11 şəhri-şəvval 1337

Tehranda nəşr olan “İran” ruznaməsinin [qəzetinin] Azərbaycan Cümhuriyyəsi barəsində yazdığı məqalata protest olaraq Məşhədi-müqəddəsdən İran azərbaycanlıları tərəfindən Tehrana böylə bir teleqraf çəkilmişdir:

طهران جریده مبارکه رعد دامت بقایها
چهار کپیه حضرت حجه السلام اقای حاجی
امام جمعه خویی جناب اجل اقای زیادخانوف
مجمع اذربایجان جریده رهنما.
ما اذربایجانیان قمین خراسان قالات مسلسله
روزنامه ایران را راجع بجمهوری اسلام
اذربایجان جزبر القای نفاق بجیزی حمل
قوانیم کرد.
شکنا دراین موقع که تعصبات و اختلافات
جاهلانه شیعی م سنی در کار خاتمه یافش است
روزنامه ایران دامن زن نایره خانمان سوز
نزاع ترک و عجم گردید اسلامیانرا بانتساب
پرویز و چنگیز بر ضد یکدیگر انگیخته بسوی
بدبختهای نازمتری سوق میدهد.


وظیفه جراید ایجاد اتحاد مابین عموم ملل اسلامی
است نه فراهم ساختن موجبات فصل و افتراق.
ما از تاسیس یک جمهوری مستقل همجواری
بنام وطن خود آذربایجان فوق العاده جوشوقت و
استحکام بنای استقلال و مزید سعادت و ترقی
برادران هم زبانی خودرا در این قبه اسلام از
درگاه حضرت مالک الملک مسئلت مینماییم.

İsmayıl Xoyi, Əlizadə Təbrizi, Hacı Məhəmmədbağır Fərşçi Təbrizi, Cəfər Səlmasi, Hüseyn Antiqaçı Təbrizi, Əli Əmioğlu, Məhəmmədtağı Çayçı Təbrizi, Məhəmməd Ehrabi, Nağı Səlmasi, Mahmud Təbrizi, Məhəmmədzadə Təbrizi, Qulamrza Şəbüstəri, Əbdürrəhim Zəncani, Mirzə Ələkbər Xalxali, Əsgər Xoyi, Hüseyn Urmiyeyi, Ələsgər Ərdəbili, Hacı Mirhüseyn İslambulçu, Mirnağı Təbrizi.

### Teleqramın məzmunu

Mübarək olan "Rə'd" qəzetəsinə və kopyası [surəti] həzrəti-höccətülislama, Ağa Hacı İmamcümə Xoyluya, ağayi-Ziyadxanov cənablarına və "Rəhnüma" qəzetəsinə.

Xorasanda sükunət edən [yaşayan] biz İran azərbaycanlıları "İran" qəzetəsinin Azərbaycan Cümhuriyyətinə raci [müraciətlə] yazdığı müsəlsəl [silsilə] məqalələri nifaq qaldırmaqdan başqa bir şeyə həml edə [yoza] bilməyiriz.

Sünni və şiə məsələsi də müsəlman aləmində intəhaya yetib məhv olmaqda ikən, "İran" qəzetəsi yenidən türk və əcəmlik məsələsi salıb, Pərviz və Çingiz arasında olan ədavət kimi islam aləminə bir ziddiyyət salmaq fikrindədir.

Qəzetədən mənzur [məqsəd], ümum islam millətləri arasında ittihad və ittifaqa pərvəriş verməkdir, nəinki bunların miyanında [arasında] yenidən bir ixtilaf və ədavət törətməyə bais olmaqdır.

Biz kəndi vətənimizin həmcivarlığında [qonşuluğunda] yeni bir həmdinimiz və millətdaşımız cümhuriyyətin təşkil olmağından xoşvaxt olub, istiqlalı möhkəm və payidar [əbədi] olması ilə bərabər, tərəqqi edib xoşbəxt olmasını Allahtaala həzrətləri dərgahından səmimanə istida [xahiş] ediriz.

### Kürdüstan hakiminin əmri

"Gülşən" qəzetəsində Kürdüstan hakimi Şərifüd-dövlənin əhaliyə müraciətən bir əmrnaməsi dərc edilmişdir. Əmrnamədə məzkur [adı çəkilən] əyalətin əhalisi nizam və asayişə dəvət edilir və deyilir ki, bu vaxta qədər Kürdüstan əhalisi mərkəzi hökumətə sadiq olaraq yaşamış, lakin axır vaxtlar bəzi quldurlar tərəfindən əhalinin rahatlığı pozulmaqla bərabər, hökumətin əleyhinə üsyan qaldırılmışdır. Bu isə əhalinin hökumətə olan etimadını xələldar edərək [pozaraq] bir çox şəxslərin quldurlar tərəfinə keçməsinə səbəb olmuşdur. Hökumət iğtişaşın önünü almaq üçün lazımi tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür].

Əmrnamənin axırında deyilir ki, nizam və sakitliyi pozmaqda və quldurlara müavinətdə bulunmaqda müttəhim edilənlər asılacaq və güllələnəcəklərdir. Asayişi pozmağa səbəb olan hər bir hərəkət qətiyyən dayandırılacaqdır.

### Şahsevənlərin hərəkəti

"Rə'd" qəzetəsinin yazdığına görə,

Xocabəyli tayfasından olan Şahsevənlər əhalidən mürəkkəb [ibarət] müsəlləh [silahlı] bir atlı dəstəsi düzəldib Ərdəbil və başqa nöqtələrdə şərarət [fitnə-fəsad] və qətl-qarət başlamışlardır. Bunların könüllü dəstələri Qaracadağ ətrafında hərəkət etməkdədirlər. Əhali quldurların hərəkatından təngə gəlmiş və hökumətdən kömək diləmişdir. Quldurlarla mübarizə etmək üçün Təbrizdən oraya bir dəstə hökumət qoşunu göndərilmişdir.

**Qoşun dəstəsinin qaçması**

Kaşan və Həmədan tərəflərində məşhur quldur Naib Hüseyni tutmaqdan ötrü göndərilmiş olan bir dəstə hökumət qoşunu naməlum yerə qaçmışdır. Dəstəni axtarıb və tövqif [həbs] etməkdən ötrü hökumət tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir.

**Azərbaycan sərhədində**

İran Culfasının hakimi Vüsuqül-məmalik İran-Azərbaycan sərhədində vüqu bulmuş axırkı hadisat haqqında Tehrana zeyldəki [aşağıdakı] məlumatı təqdim etmişdir:

*"Dünən axşam səhərə qədər rus Culfası tərəfindən şiddətli surətdə tüfəng və pulemyot atışması eşidilirdi. Səhər məlum oldu ki, müsəlmanlar ermənilərin səngərlərinə hücum edib onları geri çəkilməyə məcbur etmişlərdir. Ermənilər çəkildikdə müsəlmanlar onların arxa yollarını kəsmək qəsdi ilə ataş açmışlardır. Ermənilər İran sərhədinə cəm olub silahlarını təslim edirlər. Bu gün yenidən 700 nəfər erməni qaçqını varid olmuşdur [gəlmişdir]. Onların silahı alınıb, özləri isə Səraba göndərilmişlərdir."*

## TÜRKÜSTANDA

**Bolşevik qüvvələri**

Qızılarvad işğal ediləndən sonra Tazəşəhərə hücum edən Türküstan Qırmızı qoşunları ki, sövqülceyş [strateji] cəhətdən Bəhri-Xəzər dənizinə də yolları vardır, 7-8 min piyada, iki min süvari və otuza qədər müxtəlif çaplı toplardan ibarət və mütəşəkkildirlər. Qırmızıların əllərində olan beş zirehli qatarın ikisi zəbt edildiyi kimi, toplarının bir hissəsi də tərk edilmişdir. Mavərayi-Bəhri-Xəzər cəbhəsi "Baş komandanı" Sokolov nam bir zabit imiş. Müharibə cizgilərini tərtib verən də [hərbi əməliyyatları planlayan da] Kuşka qalasından bir müstəfe [istefada olan] general imiş.

Tazəşəhər üzərinə aşağıdakı alaylar hücum edirlər:

Birinci Şura Türküstan alayı, Səmərqənd alayı, Daşkənd Lenin alayı və Kazan alayı.

Kazan alayı vaxtilə Kazan tatarlarından təşkil edilib Orenburqa göndərilmişdi. Qırmızılar geri oturduqları zaman Daşkəndə düşmüşlərdir.

Bolşevik qoşunları içində sart və türkmənlər çoxdur. Bunlar Mərv ətrafı işğal edildikdən sonra Qırmızı orduya daxil edilmişlərdir.

Süvari, mitralyozçu və topçuların çoxu macar əsgərlərindən ibarətdir. Onlar gözəl təlim görmüş əsgərlərdir. Bir neçə min kişidən ibarət olan macarlar bu yaxın zamanlarda Türküstan Mərkəzi İcra Komitəsindən vətənlərinə buraxılmalarını tələb etmişlərdir.

İcra komitəsi yol olmadığını göstərərək, Tazəşəhər tez zamanda alınarkən o

vaxt Bakı-Batum təriqi [yolu] ilə vətənlərinə övdət edə [qayıda] biləcəklərini vəd və gözləmələrini təklif etmişdi. Bu vədlər və maaşlarının artırılması macarları təskin edəmmədi. Nəticə olaraq aralarında zühur etmiş həyəcandan dolayı onlar cəbhədən geri çağırıldılar. Qalanlar ancaq könüllü macarlar olmuşlar ki, onların da maaşları bir neçə qat artırılmışdır. Mabaqisi [qalanı] isə Daşkənd dəmiryolu mövqiflərinin birində təhəşşüd etmişlərdir [toplaşmışlar].

* * *

İndiki Mavərayi-Bəhri-Xəzər qoşunları hərb nöqteyi-nəzərincə öylə bir əhəmiyyəti haiz olmayan [əhəmiyyət daşımayan] ufacıq bölüklərdən ibarət qalmışdır. Bolşeviklərin irəliləmələrinə mümaniət [maneçilik] edən vuruşma olmayıb, ancaq dəmiryol xəttinin sökülməsidir. Mavərayi-Bəhri-Xəzər ölkəsi şəraiti içində dəmiryolsuz müharibə etmək heç bir növ mümkün deyildir.

General Savitski ilə Şimali Qafqaziyadan gəlmiş dabravol əsgərlərinin miqdarı isə 180-200 adamı mütəcaviz deyildir [keçmir]. Həman əsgərlərin çox hissəsi ki, Vladiqafqzda əsir alınmış bolşeviklərdən idi ki, Qəhqəhə vuruşmasında əsir düşmüşlərdir və həman Qəhqəhə vuruşması Bəhri-Xəzər müqəddəratını həll etmişdir. Belə ki, dabravollar həzimətə [məğlubiyyətə] düçar edilərək zirehli qatarlarını, topxanalarının çox hissəsini qaib etdikləri kimi, kəndiləri də darmadağın edilmişlərdir. Türkmən piyada və süvariləri isə yurdlarına dağılaraq iki bölük erməni əsgərləri də bolşeviklərə tərəf keçmişlərdir.

**Türküstan cəbhəsi**

Turqay oblastında Orenburq kazakları İnçik və Akterin ətrafını əldə saxlayaraq mürur ilə cənub-şərqə doğru irəliləyirlər. Qırmızılar isə Yar-Qamış gölünün şimal cəhətində olan İrqiz-Turqay dairəsində toplaşırlar.

Sarısuyun şimal cəhətində olan qırmızılar əsəri-həyat göstərməyirlər. Onlar miqdarca 6 min süngüdən ibarətdirlər. Üssül-hərəkələri [bazaları] Daşkənddir. Yeddisu oblastında Petrenko dəstələri Balxaş gölünün şimal-şərq cəhətlərində toplaşırlar.

## PARİS XƏBƏRLƏRİ

*(Azərbaycan heyəti-mürəxxəsəsinin irsal qıldığı təqrirdən)*
*[Azərbaycan nümayəndə heyətinin göndərdiyi məktubdan]*

Qəzetələrdə verilmiş olduğu xəbərlər üzrə bir çox səbəblərdən dolayı İstanbulda saxlanılan bizim heyəti-mürəxxəsəmiz [nümayəndə heyətimiz] Parisə qeyrilərindən gec varid olmuşdu [çatmışdı].

Heyəti-mürəxxəsəmizin vürudu Sülh Konfransının ən ciddi işləri ilə məşğul olduğu vaxta – Almaniya ilə sülh şəraiti tərtib verdiyi zamana təsadüf etmişdi. Almaniyaya verilən fövqəladə tələblər əhali içində böyük qorxular doğurmuş, həman tələblərin qəbul edilməyəcəyi və ümumiyyətlə, Almaniyanın şu təklif edilən şəraitə nasıl baxacağı və nə cavab verəcəyi həyəcan hüsula gətirmişdi. Gündən-günə əhali içində və mətbuatda Müt-

təfiqlərin fövqəladə tələbatına qarşı etiraz sədaları eşidilmədə və protestolar edilmədə idi. Sosialistlər isə bütün şiddət və kəskinliklə Sülh Konfransı üzərinə qəhrlər yağdırırdılar. Hətta protesto olaraq Parisdə və İngiltərənin bir çox yerlərində tətillər elan edilmişdi.

İştə, bunların həpsi öylə bir qaranlıq üfüq yaratmış, öylə mütəraddid övza [qeyri-stabil vəziyyət] çıxarmışdı ki, övzaya aşina olmayan şəxsin sərzədeyi-zühur olan [meydana çıxan] şu əlaqə və övza incəliklərini təfriq etməsini çətinləşdirirdi. Yəqin ki, ortaya çıxmış şu şərait içində sabiq Rusiya imperatorluğundan ayrılıb yeni dövlətlər təşkil etmək istəyənlərin müxtəlif tələbatına, münaqişə və mübahisələrinə Dördlər Şurası etina edəmməyəcəkdi və dolayısı ilə ümum Rusiya məsələsi ilə əlaqədar olan yeni təəssüs etmiş [qurulmuş] dövlətlər məsələsi həman Rusiya məsələsi növbəsi yetişmədiyindən, baxılmayacaqdı.

Sırası gəlmişkən, onu dəxi iraə etmək [qeyd etmək] faydasız deyil ki, hal-hazırda bolşeviklərdən qaçmış bir çox ruslar Parisə toplanmışlardır. Qərib eldə düşmüş rusların çoxları qət etmişlərdi [qərara almışlardı] ki, Rusiyaya "nicat" versinlər. Onlardan hər biri və həpsi kəndilərini Rusiya və hökumət nümayəndəsi ədd [hesab] edərək, işbu cahan güclüləri qarşısında iqdamatda [təşəbbüsdə] bulunurlar. Hərgah onlara hansı Rusiya namından və hansı hökumətin vəkaləti ilə çalışırlar sualı verilsə, bir cavabi-şafi [qənaətbəxş bir cavab] verməyə söz bulammayacaqlardır.

Az-çox bir mövqe ehraz edə [qazana] bilən və artıq nüfuza malik ola bilən [Vasili Alekseyeviç] Maklakov və [Georgi Yevgenyeviç] Lvov başda olaraq "Sabiq rus süfərası [səfirləri] və rus siyasiyyunu [siyasətçiləri] müşavirəsi" namını daşıyan cəmiyyətdir ki, o da əsas etibarilə Kolçak və Denikin hökumətinin tərəfini iltizam edir. Həman müşavirə üzvləri sırasında bir qaç sabiq generallar və amirallar və həmçinin Marqulies, Minor və başqaları kimi Rusiya yəhudiləri nümayəndələrindən də vardır.

Bunlardan bir azacıq fərqli yol ilə gedən Kerenski və Avksentyev başda olaraq sollardan ibarət bir yığın daha vardır. Onların siyasi nəzəriyyələrinin əsas etibarilə fərqli olmasına baxmayaraq, həpsi "Vahid Rusiya" tərəfdarı olub guya düvəli-müəzzəmə [böyük dövlətlər] sırasında qalacaq Rusiyadan ayrılmış hissələr müqəddəratının və onların Rusiya ilə olacaq əlaqələrinin ədəmi-mərkəziyyət üsulu ilə təşəkkül edəcək Məclisi-Müəssisanda həll edilməsi fikrini təqib edənlərdir.

Zahiri əlamətlərinə baxdıqda Fransanın vahid Rusiya tərəfdarı olduğu müşahidə edilir. Lakin qeyri Etilaf dövlətlərinin [digər Antanta dövlətlərinin] şu məsələdə nə fikir iltizam etmiş olduqları məlum deyildir.

Əlbəttə ki, bu əhvallardan qəti bir nəticə çıxarmaq olammaz. Zira övza və hadisat öylə bir ildırım sürəti ilə dəyişir və keçir ki, hər zaman yeni bir rəng ala bilməsi də mümkünatdandır. Hal-hazırda və gələcəkdə guya birlikdə işləmək üçün bir tərəfdən Almaniya və Yaponiya, digər tərəfdən isə bolşeviklər arasında etilaf [razılıq] hüsula gəlməsi xəbərini bir sosialist qəzetəsi dərc etmişdi ki, iştə bu xəbər konfrans işlərinə əlaqədar olan

mütərəddid övzanı təsvir etmək üçün gözəl bir nümunə olsa gərəkdir.

Fövqdə [yuxarıda] ərz olunduğu üzrə, həman vücuda çıxmış işbu halların təşxis və təhlil edilməsi və yek-digəri ilə əlaqə peyda etmək işləri heyəti-mürəxxəsəmiz üçün bir dürlü əngəllər törədə bilmişdir. Odur ki, Parisə varid olan günün əvvəlindən heyəti-mürəxxəsəmiz başqa heyətlərin nümayəndələri ilə görüb tanışmağa çalışmışdır.

Həqiqətdə düvəli-müəzzəmə və yeni təəssüs etmiş dövlətlər nümayəndələri ilə əlaqə peyda etmək və mətbuat, siyasi dairə və müəssisələr nümayəndələri ilə tanışmaq, heyəti-mürəxxəsəmiz əzası [üzvləri] üçün mümkün olmuşdur. Məsələn, Amerika, Yaponiya, İngiltərə, Lehistan [Polşa], Gürcüstan və sairə nümayəndələri ilə əlaqə hasil edilmişdir.

İngiltərə və Amerika deleqasiyası nümayəndələri dəfələrcə olaraq heyətimiz əzası ilə görüşdükdə, Azərbaycanın siyasi övzasından və iqtisadi həyatından maraqlanaraq istixbaratda bulunmuş [xəbər almış] və Azərbaycan istiqlalı fikrinin tərəfdarı olduqlarını bildirərək onun müstəqil olmaq məsələsi müzakirə edilərkən var qüvvələri ilə müdafiə edəcəklərini vəd etmişlərdir.

*(mabədi var)*

## BİR MÜSAHİBƏ

Dün İstanbuldan şəhərimizə gələn Şirvanlı Şərif bəyi qəzetəmiz müxabirlərindən birisi ziyarət edərək kəndisindən bəzi məsələlər haqqında istizahda [sorğuda] bulunmuş və mümaileyh [adı çəkilən şəxs] də sorulan suallara atidəki [aşağıdakı] cavabları vermişlərdir:

1) İstanbulun vəziyyəti nasıldır? Oralarda nə düşünülür?

- Əfəndim, İstanbul şimdi bir intizar dövrəsi yaşayır. Sülh Konfransının bu şəhər haqqında verəcəyi qərar hənuz qəti olaraq məlum olmadığından, bir çox rəvayətlər dövran etdiyi kimi, ati [gələcək] haqqında bədbinanə və nikbinanə bir çox sözlər də söylənir. Şəhərdə şimdiki halda bir miqdar ingilis, fransız əsgərləri və italyan jandarmları vardır ki, bunlar hal-hazırda yeni gəldikləri zamanlarda yapdıqları kimi əhalinin hissiyyatlarına pək çox toxunmayırlar. Hələ italyan jandarmlarının hərəkatı pək şayani-təqdirdir [təqdirəlayiqdir]. İngilis və fransızlar türk idarəsinə o qədər qarışmayırlarsa da, dənizdən gəlib-gedən yolçuları bunlar kontrol edirlər. Şəhərdə həyat pək çox bahalı isə də, istənilən hər şey mövcuddur.

2) Türkiyənin bəzi yerlərində mərkəzi tanımamaq kimi sözlər söylənir. Bunlar doğrumudur?

- Əvət, hökuməti-hazirənin pək axmaqcasına hərəkatına qarşı Ərzurum və Aydın tərəflərində bulunan hüquq müdafeləri [müdafiəçiləri] bəzi işlərdə mərkəzi tanımamaq məcburiyyətində qalmışlardır. Fəqət hal-hazırda hökuməti-mərkəziyyə Məclisi-Məbusanın güşadı [açılması] ilə məbusların intixabına [seçilməsinə] müsaidə və mübaşirət etmiş olduğundan, bu ziddiyyət bittəb' az zaman sonra mündəfe olacaqdır [aradan qaldırılacaqdır].

3) Avropa və Türkiyə məsələsi hal-hazırda nə mərkəzdədir?

- Açıqca söyləmək lazım gəlirsə, Avropa böyük və qüvvətli bir islam hökumətinin mövcudiyyətini artıq istəməyir. Məmafih [bununla belə], Türkiyə məsələsi pək müfəssəl bir məsələ olduğu üçün məsələni qolay-qolay həll edəmməyirlər. Sülh Konfransı hal-hazırda pək çox zamanlarını Türkiyə məsələsinə həsr etdiyi halda, bu məsələnin daha bir qaç aydan əvvəl bitə biləcəyi də şübhəlidir. Türkiyənin bu müharibədən, hər halda, kiçilmiş olaraq çıxacağı mühəqqəq [şübhəsiz] isə də, bunun hüdudunu təhdid [sərhədini müəyyənləşdirmək] və təyin etmək pək müşküldür. Ermənistan məsələsi üçün İstanbula gələn amerikan heyəti hələ İstanbulda bu məsələ ilə uğraşdıqları kimi Suriya, Anadolu və sair yerlərə göndərilən amerikan heyətləri də hənuz övdət etməmişlərdir [qayıtmamışdır]. Türkiyə və İstanbul üzərinə amerikan mandaterliyi haqqında Vilsonun amerikan Əyan Məclisindən [Senatından] istədiyi müsaidəyə də hənuz Əyan Məclisi cavab verməmişdir. Baxalım nə olur? Hər halda, deyə bilərəm ki, Vilson məşhur prinsipləriylə qalanı içəridən fəth etdi. Onun türklər haqqında söyləmiş olduğu məhud [məşhur] 12-ci maddə şimdiki halda quru bir lafdan ibarət kimi görünür. Məmafih, mən türk millətinin istiqbalına [gələcəyinə] əminəm, kəndisini anlayan bir milləti öldürmənin badəma [bundan sonra] mühal [imkansız] olduğuna bütün mövcudiyyətimlə qailəm [inanıram].

4) İzmir məsələsi nə mərkəzdədir?

- İştə, Vilson nəzəriyyəsinin boşluğunu isbat edən bir vəqə [hadisə]: İzmir şəhərində 100-də 56, vilayətində 100-də 85 müsəlman və türk var ikən, məhza İtaliyaya qarşı Fransanın Bəhri-Səfid müvazinəsini [Aralıq dənizi balansını] mühafizə edə bilməsi üçün Fransa və İngiltərə dövlətləri bu gözəl türk şəhərini İtaliyanın təbii rəqibi bulunan Yunanıstana vermək istəyirlər ki, bundan daha haqsız müamilə [rəftar] təsəvvür edəmməyirəm. Fəqət İzmirin arxası Anadolu və türk məmləkəti olduğu üçün yunanilərin İzmirdə iləlэbəd [əbədi] qala biləcəklərini ümid etməm. İzmirin işğalı günü bizzat [şəxsən] İzmirdə idim. O günü bərhəyat [sağ] qaldığımı təsadüfən soqaqda bulunmayıb evdə qaldığıma mədyunam [borcluyam]. Zira yunanilər İzmiri işğal etdikləri 15 mayıs və ertəsi günü İzmir soqaqlarında gördükləri bilümum [bütün, ucdantutma] fəsliləri öldürmüşlərdi ki, bu surətlə bir barbarlığı tarix hənuz qeyd etməmişdir. Halbuki yunanilər pək müntəzəm olan propaqanda ajanları vasitəsilə dünyanın hər tərəfinə bu işdə də türklərin haqsız olduqlarını isbat etməyə çalışdılar. Şimdiki halda İzmirə düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən müntəxəb [seçilmiş] bir heyət getmişdir. Baxalım o heyətin qənaəti nə mərkəzdə olacaqdır? Hal-hazırda şəhər yunanilərin təhti-işğallarında [işğalı altında] isə də, içərilərə doğru nüfuz edəmməyirlər. Zira içərilərdə hüquqi-milliyyələrini müdafiə edən 20-30 minə qədər könüllü əsgər vardır.

5) Avropanın ümumi vəziyyəti nə mərkəzdədir?

- Avropanın həman hər yerində bahalıqdan naşi [bahalığa görə] böyük bir xoşnudsuzluq [qeyri-məmnunluq] möv-

cuddur. Bundan bir ay müqəddəm [qabaq] bizzat İsveçrəyə qədər gedib-gəlmiş olduğumdan oraları rəyüleyn [öz gözümlə] gördüm. Hər yerdə yaşamaq və keçinmək pək müşkül olmuşdur. İtaliya kimi bəzi yerlərdə bahalığa qarşı ciddi tədbirlər ittixaz edilib [tədbirlər görülüb], bir dərəcəyə qədər füqəra əhalinin ehtiyacları tətmin edilirsə də, yenə oralarda əhali bir çox şeylərdən məhrum yaşayırlar. Sonra Avropanın bugünkü siyasətixaric[iyy]ələri də pək süni və köksüzdür. Zatən daha şimdidən Fransa ilə İtaliya arasında bürudət [soyuqluq] və təxalüfimənafe [maraqların toqquşması] görünməkdədir ki, bu surətlə bugünkü ittihadların [birliklərin] ancaq bir qaç sənə yaşaya biləcəyi şübhəsizdir.

6) Avropada bolşevizm varmıdır?

- İsminə hər nə deyirsiniz deyiniz, hər halda, Avropada həyatın bahalığından və hərb zənginlərinin ehtikarlarından naşi zəngin və möhtəkirlərə qarşı bir hüsn-xüsumət [düşmənçilik] vardır. Buna, Macarıstanda olduğu kimi, nətayici-hərbdən [müharibənin nəticələrindən] məmnun olmayan millətlərin xoşnudsuzluqlarını da əlavə edəcək olarsaq, deyə bilərəm ki, hərbin nətayici məlum olduqdan sonra Avropa və hətta Asiyanın bir qismi yenə yenidən qarışıb pək çox qeyri-müntəzəm vəqələr olacaqdır. Məncə, hərb daha bitməmişdir. Hərbin daha acı səfhələrini [mərhələlərini] bundan sonra görəcəyiz. Zənn edirəm, əgər Vilson prinsipləri mövcibincə [əsasında] doğru və haqlı bir sülh yapılıb millətlərin bilümum haqları gözədilmiş olsaydı, bəlkə bir müddət daha bəşəriyyəti-müztəribə [iztirab çəkən bəşəriyyət] rahat üzü görmüş olardı. Fəqət iştə görürüz ki, o prinsiplər siyasi birər lafdan ibarət imiş.

7) Avropa ilə Rusiya münasibətləri haqqında nə düşünürsünüz?

- Çar Rusiyası Fransa ilə ittifaqı üzündən hərbə girmiş olduğu kimi, Avropa dövlətlərinin Rusiyada pək çox alacaqları olduğundan bu dövlətlər təbiidir ki, yenə Rusiyanın ehyasını [dirilməsini] istəyirlər. Slav istilasına qarşı İran və Hindistan ilə Rusiya arasında keçilməz bitərəf ufaq dövlətlərin mövcudiyyətləri Avropa və bilxassə İngiltərənin mənafeyi iqtizasında [mənafeyinə uyğun] olmaq lazım gəlirsə də, bu cəhətləri eyi idarə edəcək müqtədir [qabiliyyətli] diplomatlara ehtiyac vardır. Hər halda, əgər Qafqaziya millətləri istiqlaliyyətlərini mühafizə etmək istəyirlərsə, vaxt qaib etməyib həman Azərbaycan, Ermənistan və Gürcüstan hökumətləri ciddi ittihad edərək müttəfiqən hərəkət etməlidirlər. Yoxsa Avropaya qalarsa, onlar Rusiyanı yenidən ehya etmək istəyəcəklərdir. Qafqaziya millətlərinin bilxassə şimdi pək sıxı bir surətdə ittihad etmələri lazım gələrkən, Gürcüstan ilə Azərbaycan arasında bir ticarət müahidəsi [sazişi] hənuz yapılmamış olduğundan, bu məmləkətlərdə səyahət etmək belə müşkül olmuşdur. Batumdan Bakıya qədər səyahətim əsnasında İstanbuldan İsveçrəyə qədər gedib-gəldiyim zamankı müşkülatın min misli müşkülata təsadüf etdim. Gürcülər kəndi əşyayi-zatiyyəmi [şəxsi əşyalarımı] belə Gürcüstandan almış götürürəm deyə müsadirə etmək istəyirlərdi. Kəndilərinə sərzəniş [məzəmmət] edildiyi zaman, Azərbaycanın onlara daha ziyadə müşkülat çıxardıqlarını irəli sürürlərdi ki, bunlara gülməkdən başqa insanın bir şey yapacağı gəlməyir.

8) Yeni təşəkkül etmiş dövlətlərə Avropada nə nəzərlə baxırlar?

- Mövcudiyyətləri Avropanın mənafeyinə müvafiq hökumətlərə, təbii, eyi nəzərlə baxdıqları kimi, düşmənləri alman və türklərin irəlidə istifadə edə biləcəkləri hökumətlərə də fəna nəzərlə baxırlar. Binaənileyh, yeni hökumətlər Avropanın bu haləti-ruhiyyələrini eyicə bilib ona görə hərəkət etməlidirlər ki, istiqlaliyyətlərini mühafizə edə bilsinlər. Nə yapmalı, Avropa bəşəriyyət hissiyyatından hələ qurtulmamışdır. Vilsonun şu məşhur prinsipləri ilə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] sözləri, filanlar həp yalanlardan ibarətdir. Avropalıların mənafeyi ilə istiqlaliyyətiniz müvafiq gəlmədiyi zaman bu millətlər daha kəndilərini idarə edəcək dərəcəyə gəlməmişlərdir deyə bir nəzəriyyə irəli sürərək sizi yenə əsarətə alar və bunu da yenə kitaba uydurarlar. Avropa siyasətinin mehvəri mənfəət olduğunu Şərq millətləri heç bir za-man xatirlərindən çıxarmamalıdırlar.

Şərif bəyin verdiyi məlumata qarşı müxabirimiz kəndisinə təşəkkür edərək ayrılmışdır.

**BATUMDA**

Bu günlərdə Batumdan Bakıya varid olmuş [gəlmiş] mötəbər bir zat [şəxs] ilə mühərririmiz müsahibədə bulunmuşdur. O zat Batumun əhvalını böylə təsvir edir:

Batum ingilis qubernatoru təhti-idarəsindədir [idarəsi altındadır]. Bütün baş idarələr habelə ingilislərin əlindədir. Fəqət ikinci dərəcəni haiz olan idarələr isə rusların əlindədir. İngilislərin Qafqaziyadan getməsi münasibətilə orada da bir qaç cərəyan vücuda gəlmişdir ki, bir-birlərini daima zorlamaqla məsələnin həllini bəkləyirlər. Birinci sırada türklərdir ki, Batumun yetmiş verstliyindədirlər. Orada türklərin müntəzəm surətdə müsəlləh əsgəri qitəatları [silahlı hərbi hissələri] durur. Digər tərəfdən gürcülərdir ki, Batumun sahibi olduqlarını isbat etməyə çalışırlar. Bunlardan maəda [başqa], bir də Batumda olan Dabravol ştabıdır ki, Batumu Denikin Rusiyasına mülhəq etmək [birləşdirmək] xəyalını bəsləyir.

Müsəlmanlar, yəni məhəlli [yerli] türk və acarlılar, ümumiyyətlə, Batumun türklərə verilməsi tərəfdarıdırlar. Onların iki qəzetələri də nəşr edilməkdədir ki, birisi “Sədayi-millət”, digəri “İslam Gürcüstanı”dır. Gürcülər və məhəlli əhalidən bir qismi isə Gürcüstan tərəfdarıdırlar. Ruslar, ermənilər və rumlar (qreklər) xüsusi bir kütlə təşkil edərək Batumun Denikin Rusiyasına mülhəq olmasını istəyirlər. Hal-hazırda işbu üç qüvvət hazırlaşmaqdadır ki, ingilislər gedən kimi şəhəri və ətrafını işğal etsinlər. Onu da qeyd etməlidir ki, Batumun ətrafında kim olduğu bəlli deyildir. Məsələ Batum şəhəri üstündədir.

Batumda bahalıq son zaman yüksək nöqtələrə varmışdır. Bir adamın gündə 300 manat xərci vardır. Bahalığın gündən-günə artmasına bir də külliyyətli surətdə gəlmiş ac, çılpaq erməni qaçqınları səbəb olmuşlardır.

Həftədə bir dəfə İtaliya vapor cəmiyyətinə mənsub bir vapor [gəmi] İstanbula gedir. İngilislər hər gün dəstə-dəstə çıxıb gedirlər.

Son zamanlar Batumda qətl və qarət, şuluqluq təzayüd etməyə [artmağa] başlamışdır. Belə ki, adam qorxudan bayıra çıxmaq belə istəməyir. Bundan dolayı da ingilislər idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi rejim] elan etmişlərdir.

Dəmiryollar və teleqrafda əksəriyyən gürcülər çalışırlar. Şəhər əhalisi dəhşətli bir həyəcan içində yaşayırlar. Min növ şayiat [şayiələr] çıxarılır.

Nuri paşanın qaçması şəhərdə dedi-qoduya səbəb olmuşdur. Müşarünileyh [haqqında danışılan şəxs] qaçdığı zaman iki saat atışma olmuşdur. Qəzetələrin verdiyi xəbərlərin əksinə olaraq, ingilis zabiti də qətl edilmişdir. Fəqət paşanın nerəyə getdiyi məlum olmamışdır. Erməni və qreklər şəhərdə fitnə qalxızmışlar ki, Nuri paşanı azərbaycanlılar qaçırtmışlardır.

Azərbaycan, xüsusən Bakı haqqında gündə min növ yalan şayiələr çıxır. Bir gündə bir qaç dəfə Bakını dabravollar işğal edib Azərbaycanı təxrib edirmişlər.

Denikin ştabı zabitan və çinovnikləri səfərbərliyə alır. Həman zabitan arasında bir çox erməni zabitləri vardır. Şayiata görə, Denikin Ermənistanla ittifaq əqd etmiş imiş.

Birjanın əhvalı möhkəm deyildir. Son zamanlar Kerenski minlik 1150-dən 1175 manatadək, kağız lirə 105-dən 110-dək, altun lirə isə 380 manatadək satılır.

Batum halı həyəcanlı olduğu, kimi ən yaxın zamanda qan töküləcəyi də xalq arasında mühəqqəq [şübhəsiz] olmuşdur. Bu vaxtadək Mürsəl paşa və başqa türk zabitanı azad surətdə gəzinirdilər. Şimdi isə bir daha buraxılmayırlar.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Baş Məsai müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Mirzəbekyans qardaşlarının tənbəki və papiros fabrikasındakı tətil bitmişdir.

- Vaxtilə "Kavkazskoye slovo" qəzetəsində "Amerikalılar və tatarların çıxışı" sərlövhəsi ilə yazılmış məlumatdan dolayı Gürcüstan Hökuməti indində [nəzdində] siyasi nümayəndə Amerika konsulgərinə müraciətən bu barədə isticvabda [sorğuda] bulunmuşdu. Konsulgəri cavab olaraq məlum etmişdir ki, həman məlumat konsulgəridən iznsiz olaraq dərc edildiyi kimi, konsulgəri ilə məlumatın heç bir əlaqəsi yoxdur.

- İrəvan hökuməti indindəki Azərbaycan siyasi nümayəndəsi [Məhəmməd] Xan Təkinski bir daha Ermənistana getməyəcəkdir. Onun əvəzində siyasi nümayəndəliyə sabiq Cibaliyyun [Dağlılar] Hökuməti indindəki Azərbaycan siyasi nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyev təyin edilmişdir.

## MÜƏLLİMLƏR QURULTAYI

*İkinci məclis*

Məclis avqust 20-də axşam saat 6-da açılır. Növbədəki məsələlərdən heyəti-rəyasət seçkisinə şüru edilir [başlanır]. Nümayəndələrdən olmayan İsrafilbəyzadə Ağabəy ilə Əfəndizadə Şəfiqə xanım bir səslə heyəti-rəyasətə seçilir. Di-

gər seçilən nümayəndələrlə bərabər heyəti-rəyasət aşağıdakı zatlardan [şəxslərdən] ibarət olur:

Sədr: İsrafilbəyzadə Ağabəy; müavin: Əfəndizadə Şəfiqə xanım; katib: Xəlifəzadə Məhəmmədəli. Müavinlər: Axundzadə İdris, Mustafazadə Əliməhəmməd.

Bədəhu [sonra] Etimadnamə komisyonu intixabına [seçkisinə] başlanır. Babazadə Cəlil bəy, Zeynalzadə Mirzə Məhəmməd və Mürsəlzadə seçilirlər. Məclis saat 10-da qapanır.

*Üçüncü məclis*

Məclis avqust 21-də saat 7-də açılır. Növbədəki məsələlərin həllindən əvvəl başqa məsələlər həll olunur:

1) Gəncədən gələn nümayəndələr teleqrafları oxunaraq məclisə təqdim edilir. Zaqatala müfəttişi Qəbulzadə İslam bəyin təbrik teleqrafı oxunur. Təbrik teleqraflarına qəzetə ilə cavab verilməsinə qərar verilir.

[2)] Bakıda sükunət edən [yaşayan] bütün müəllimlərin müşavirəçi sifəti ilə qurultaya qəzetə ilə dəvət olunmasına qərar verilir. Bütün müəllimlərin iştiraka qoşulmaları rica olunur.

[3)] Cəbrayıl uyezdinin nümayəndəliyini ifa etmək istəyən Cəlal əfəndi etimadnaməsiz olduğundan qurultaya daxil olammayacağı qət olunur [qərara alınır]. Bunun kimi bütün etimadnaməsizlər qurultayda müşavir ola biləcəyi və onlardan sədr İsrafilbəyzadə ilə Şəfiqə xanım və Əfəndizadə İdrisin səsləri olammayacağı qət edilir.

[4)] Etimadnamə komisyonunun işləmədiyindən bundan sonra ciddi işləmək lazım gəldiyindən söz açılır.

Növbədəki məsələlərə keçilir.

Növbədəki məsələlərin şu sıra ilə müzakirə ediləcəyinə qərar verilir: 1) Məruzə komisyonu intixabı; 2) Məramnamə komisyonu intixabı; 3) Maliyyə komisyonu intixabı; 4) Nümayəndələrin məruzələri.

Bu arada Məhəmmədəli Xəlifəzadə tərəfindən dərs kitabları və proqramması üçün təklif olunan komisyon münaqişəyə səbəb olur. Hökumət komisyonunun məktəblər üçün həm kitab yazdığı, həm də proqramma düzəltdiyi söylənərək, bəzilər tərəfindən bu komisyon rədd olunur. Bəziləri də bu komisyonun ancaq gələcək sənə çağırılacaq ümumi müəllimlər qurultayında təşkili münasib olacağını söyləyirlər.

Xəlifəzadənin kitablar xüsusunda "Hökumətin monopoliyası vardır, gərək kitablarımız və gərək proqrammamız bizim gözümüzdən keçməlidir" sözünə hökumət nümayəndəsi cavab verir: "Proqramma yapmaq üçün sizin içinizdə mütəxəssis yoxdur. Hökumət də kitabları inhisar altına almamışdır. Hər kəsin yaxşı kitabı varsa, hökumət qəbul edəcəkdir" deyir.

Təzədən bir daha hökumətin bu işi şiddətli tənqid edilir. "Mütəxəssisimiz olmazsa da, proqram yazan və kitab yazan mütəxəssislərlə qarşı-qarşıya gəlməmiz və kitablarla proqrammanı müzakirəyə qoymamız lazımdır. Zərər yoxdur. Bizim ixtisasımız yoxsa, özümüzün əczimizi, onların mütəxəssisliyini təsdiq edərək həm kitabları, həm də proqrammanı qəbula hazırız" tərzində sözlər söyləyərək Xəlifəzadə təklifində israr edir. Nəhayət, bu məsələlər üçün də komisyon intixabına qərar verilir.

Hər komisyonda üçər, məktəb kitabları və proqramması komisyonunda beşər əza [üzv] bulunmaq qəbul edilərək seçkiyə şüru olunur [başlanır].

Məramnamə komisyonuna Əfəndizadə Məbud əfəndi, Qasımbəyzadə Qulammirzə bəy və [İbrahim] Eminbəyli əfəndilər; Maliyyə komisyonuna Ağarəhimzadə Sultan, Musazadə Hüseyn, Babazadə Cəlil bəy; Məruzələr komisyonuna Axundzadə Cavad əfəndi, Zeynalzadə Mirzə Məhəmməd əfəndi, Qəbulzadə Baba əfəndi; Proqram və kitablar komisyonuna [İdris] Axundzadə, Məhəmmədəli Xəlifəzadə, Əfəndizadə İdris, Yusifzadə Cəlal əfəndilərlə Şəfiqə xanım intixab olunur.

Nümayəndələr məruzələrinin ya planını, yaxud təfsilatını təhriri [yazılı] olaraq Məruzə komissiyasına verdikdən sonra istər şifahi söyləyəcək, istərsə oxuyacaqdır.

Nümayəndələrin iclasa davamları məcburi görülür. Dəftər yoxlanma yapılması və bilaxirə [daha sonra] göndərildiyi ittifaqa davamı haqqında ixbari-keyfiyyət olunması [vəziyyətin bildirilməsi] lazım bilinir.

Komissiyaların gündüzlər işləyəcəyinə və hər gecə saat 6-da qurultayın iclası olacağına qərar verilir.

## BAKI XƏBƏRLƏRİ

**Britaniya Baş komissarının gəlməsi**

Rəisi-vükəla [Baş nazir] həzrətləri İngiltərə ştabından aşağıdakı teleqramı almışdır:

Azərbaycan Rəisi-vükəlası həzrətləri hüzuri-alilərinə

Bununla birlikdə, Tiflisdəki 27-ci firqə [diviziya] ştabından alınan teleqramı zati-aliləriniz hüzurlarına irsal qılıram [göndərirəm].

*Ərkani-hərb miralayı [Qərargah polkovniki] (imza)*

Tiflisdəki 27-ci firqə ştabından alınan 981 nömrəli teleqram:

"Xariciyyə naziri ümuma elan etmək istəyir ki, siyasi vəzifə ilə onun tərəfindən mister Vordrop Zaqafqaziyaya göndərilmişdir. O, Britaniya Baş komissarı namını daşıyacaqdır. Gürcüstan, Azərbaycan və Ermənistan (İrəvan) cümhuriyyətlərinin rəsmi surətdə dövlətli Kral hökuməti tərəfindən təsdiq olunmamalarına baxmayaraq, o, müvəkkil edilmişdir ki, məzkur [deyilən] hökumətlərlə sıxı rabitədə bulunsun və onun təyin edilməsi xüsusunda Paris Sülh Konfransında olan hökumət müvəkkillərinə məlumat veriləcəkdir.

Baş komissar məiyyətində [müşayiətçi qismində] mister Uet, mister Milqan, Qrandi və bir daha başqası olacaqdır. Mister Vordrop münaziələrə mümaniət [münaqişələrə maneçilik] etmək üçün hər vasitə ilə səy edəcək, öz qüvvəsini sərf edəcəkdir və əlavə, Britaniya ticarəti mənafeyini Qafqaziyada güdərək o xüsusda izahat verəcəkdir."

- İngilis Komandanlığı Bakı cəmiyyəti-xeyriyyələrinə üç milyon yarım manat pul ianə etmişdir. Bu məbləğin 480 min manatı Rus Cəmiyyəti-Xeyriyyəsinə, 180 min manatı Yəhudi Cəmiyyəti-Xeyriyyə-

sinə, 210 min manatı Erməni Cəmiyyəti-Xeyriyyəsinə və 320 min manatı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə verilib, qalanı uşaqlar ocağı, uşaqlar mərizxanası [xəstəxanası] və qeyri cəmiyyətlərə təqsim olunacaqdır [bölüşdürüləcəkdir].

**İngilislər və darülfünun**

Darülfünun [universitet] komissiyası ingilislərdən 40.000 manatlıq kəndiləri ticarət məktəbində olan, kəndi mərizxanalarında işlətdiyi əsbabları [ləvazimatları] almışdır. Bu şeylər vanna, truba və qeyri bunun kimi əsbablardan ibarətdir. Hərçənd tüccardan bu şeylərə verilən məbləğdən çox artıq təklif edirlərsə də, ingilislər onların təkliflərini rədd edib məktəbdə işlənmək üçün məktəb komissiyasına aşağı qiymətə vermişdir. Bundan başqa, ingilislər məktəb üçün başqa şeylər bağışlamışdır. Məktəb komissiyası İngilis Komandanlığına göndərdiyi kağızda izhari-təşəkkür etmişdir.

**İngilislərin getməsinə dair**

İngilis Dəniz Nəqliyyatı İdarəsində xidmət edən bir dəstə ingilis avqust ayının 21-də Batumdan İngiltərəyə getmişdir. Şu dəstənin rəisi keçmişdə Müamilat [Nəqliyyat] şöbəsinin rəisi Yanqdır.

**Kontrolun Azərbaycana təhvil verilməsi**

Avqustun 20-də ingilislərin dəniz nəqliyyat və “Rus”, “Samolyot” və “Qafqaz və Merkuri” kimi ticarətxana nümayəndələri arasında olan iclasda dəniz kontrolunun Azərbaycan Hökumətinə təhvil verilməsi təhti-qərara alınmışdır. Şu təftişatın rəisi Türuq-Məabir [Nəqliyyat-Rabitə] naziri Xudadad bəy Məlikaslanov olacaqdır.

**İskələ idarəsində**

Türuq və Məabir rəisi Ticarəti iskələ [Ticarət limanı] rəisindən xahiş etmişdir ki, şu idarədə xidmət edən müsəlman zabitlərinin siyahısını yazıb ona göndərsin.

**Osmanlı lirəsi**

Səşənbə [çərşənbə axşamı] günü avqustun 19-da tamojna xidmətçisi Quliyev “Abu” gəmisinin kamaneyerindən 400 Osmanlı altun lirəsi tutmuşdur. İndiki qiymətlə bu məbləğ 160.000 manat edir.

**Dövləti Bankın Azərbaycan Hökumətinə verilməsi**

İngilis Komandanlığı Dövləti Bankın [Dövlət Bankının] Azərbaycan Hökumətinə verilməsi xüsusunda Azərbaycan Hökuməti ilə ciddi müzakirəyə girmişdir. Bu xüsusda bir iclas olmuşdur. Axırıncı Vükəla Şurası, İngilis Komandanlığının iştirakı ilə avqustun 20-də olmuşdur.

**Batumda**

Batumdan xəbər verirlər ki, bizim mahal kibrit ilə məmludur [doludur]. Avqustun 12-dən 19-na qədər gəmidən 120 min yeşik kibrit boşalmışdır.

**Yeni məcmuə**

Bu günlərdə Bakıda “Səhnə və həyat” adlı rusca yeni məcmuə nəşrinə başlanacaqdır. Hər nüsxəsinin qiyməti 5 manatdır.

**İdil-boyu türkləri arasında**

Bakı qubernatoru 17 həziran [iyun] 9028 nömrəli məktubu ilə Bakı polismeysterinə xəbər verir ki, İdil-boyu türklərinin Balaxanski və Maqazinni küçələrinin küncündə məscid bina etmək üçün ümumi iclas tərəfindən intixab edilmiş [seçilmiş] Maliyyə komisyonunun üzvləri və namizədləri təsdiq edilir.

Həqiqi üzvlər bunlardır: Ramazan Tanrıqulov, Hüseyn Sübhanqulov, Hüseyn Müzəffərov, Səlahəddin Möhtacəddinov, Sabir Qabıyev, Xeyrulla Parolin, Zakir Denkayev.

Namizədlər: Zərif Akçurin, İshaq Akçurin və Qazilxan Baybekov.

**Təşəkkür**

Həmin komitet 8 ağustos iclasında qərar qoymuşdur ki, Vladiqafqaz taciri İsay Lobodin Zalkinə məscid binası üçün 25 min manat ianə verdiyindən səmimi təşəkkürünü izhar etsin. Həmin məscid üçün verilən ianələrin miqdarca ikincisidir. Birinci böyük ianə 50 min rublə miqdarında Hacı Zeynalabdin Tağıyev vermişdi.

**"Van" gəmisi və bolşeviklər**

"Van" gəmisinin komandiri Bakı ticarət iskələsinin idarəsinə şu gəminin bolşeviklər tərəfindən zəbt olunması haqqında böylə məlumat vermişdir:

İyul ayının 28-də KAMVO gəmi şirkətinin gəmisi "Van", Bəndər Gəzdə "Naslednik" adlı körpüdə dayanıb minik götürüb Məşhədsər-Ənzəli-Bakı təriqi [yolu] ilə azim olmaq [yola düşmək] istərkən axşam saat 6-da gəminin yanına silahlanmış miniklərlə "Pereboynya" adlı barkas gəlib "Van" gəmisindən neft istəmişlər. 40 dolça neft aldıqdan sonra bunlar barkasdan gəmiyə keçib gəminin kapitanını odaya çəkib tələb etmişlər ki, hamı minikləri (400 nəfər imiş) gəmidən çıxartsın. Kapitan təklifi qəbul etməyə məcbur olmuşdur. Saat 9-da miniklər boşaldıqdan sonra silahlanmış bolşeviklər barkasdan gəmiyə minib yola düşmüşlər. KAMVO gəmi şirkətinin "Van" gəmisinin agentini bolşeviklər gedənə qədər həbs etmişlərdir.

**Bakı Birinci ali-ibtidai məktəbi**

Bakı Birinci ali-ibtidai məktəbinə daxil olmaq istəyənlər avqustun 31-nə qədər ərizə verməlidirlər. Düxul [qəbul] imtahanı sentyabrın 2-də, təkrar imtahanlar isə sentyabrın 11-də olacaqdır.

**İclas**

Bakı Türk Müəllimlər İttifaqı idarəsi ağustosun 24-də təcili ümumi iclas dəvət edir. Həman iclasda Bakıda açılmış Müəllimlər Qurultayına nümayəndə olaraq iki müəllim və iki müəllimə intixab olunmalıdır [seçilməlidir]. İclas axşam saat 5 radələrinə təyin edilir. Əgər saat 5-də kafi dərəcədə toplanmasalar, ikinci iclas saat 6-da açılıb qanuni hesab olunacaqdır. Müəllim və müəllimələrin iclasa gəlmələri rica olunur. İclas Bakı Birinci realnı məktəbində kurslar odasında olacaqdır, üçüncü mərtəbədə.

**On min manat**

Avqustun 19-cu gecəsi Bibiheybətdə Kaspi Cəmiyyətinin mədənində su godlarının [çəlləklərinin] yanında qayışla boğulmuş Baraqim Tumasovun meyiti tapılmışdır. Mədən gözətçisi Murad Əhmədovun deməyinə görə, Tumasovu fəhlə

Yeqbiyans ilə qorodovoy Qurban öldürmüşlər imiş. Qurban qaçıb gizlənmişdir. Məlum olduğu üzrə bunu öldürməyin cəhəti bu olmuşdur ki, guya məzkurun [adı çəkilən şəxsin] libasına 10000 manat tikilmiş pulu vardır. Öldürdükdən sonra Tumasovdan bu pul çıxmayıbdır.

**Oğurluqlar**

- İngilis Komandanlığının dəniz kənarında olan dəniz ştabının qapısını naməlum bədəfkarlar [cinayətkarlar] kəsib kontora daxil olmuşlar. Burada Ağaqəni Məhəmmədovun dəmir kassasını sındırıb içinin mexanizmini aparmışlar.

- Sofiya Kripkovskaya polisəyə məlum etmiş ki, avqustun 18-ci gecəsi o yatdığı zaman açıq balkondan onun evinə daxil olub 16500 manatlıq qızıl-gümüş əşyalar aparmışlar.

- Vahab Mirzəyev polis idarəsinə məlum etmişdir ki, əyalı Mariya Odişelidze evindən bir çox qızıl-gümüş şeylər və 236.700 manat nağd pul götürüb bilməyir Bakıdan nerəyə fərar etmişdir.

- Avqustun 17-ci gecəsi üçüncü uçastokun qorodovoyu Əsgər Hüseynov yatdığı zaman divarını deşib evindən bir çox ev əşyası və 17400 manat nağd pul götürmüşlər. Polis təftiş etdikdə Məhəmmədəli Seyfulla oğlu ilə Həsən Hacı Kərim oğlundan şu əşyaların bəzisi tutulmuşdur.

**Mühazirə**

Sabunçu-Balaxana mədənlər mərkəzi "Müsavat" şöbəsi idarəsi bütün Sabunçu, Balaxana, Zabrat, Ramana dairələri mədənlərində çalışmaqda olan müsəlman işçi qardaşlarımıza elan edir.

İşbu ağustos ayının 26-da seşənbə [çərşənbə axşamı] günü saat 2 bədəzzəval [günortadan sonra] Mərkəzi şöbə təşəbbüsü ilə Balaxana krujokunda mühazirə məclisi tərtib veriləcək. Məclisdə ədibi-möhtərəm Rəsulzadə Məhəmməd Əmin əfəndiləri tərəfindən mühazirə oxunacaq və elani-istiqlal etdiyimiz vaxtdan hal-hazıra qədər keçirmiş olduğumuz siyasi böhranlara və müşkülat içərisində əldə etmiş olduğumuz müvəffəqiyyətlərə və vəziyyəti-hazirəmizə və icabatına [ehtiyaclarına] dair ətrafı ilə məlumat veriləcək. İşçi qardaşlarımız bütün Azərbaycan xalqıyca qiymətdar və arzu olunan bu kimi mühazirə məclisindən istifadəni qənimət sanaraq dəfül-vaxt etməyəcəklərinə [vaxt itirməyəcəklərinə] əminiz.

*Balaxana mədənlər mərkəzi*
*"Müsavat" idarəsi*
*Sədr əvəzində katib: İmza*

**Birjada**

Bu axır iki gündə qiymət çox tənəzzül etmişdir. Xırda Kerenski 10 %-dir. Xırda Nikolay parası 80 faizə düşmüşdür. 100-lük 300 manatdır. 500-lük 1300 manatdır. Kerenski minlik 1250 manat və 250-lik 1200 manatdır. Tiflis parası iki yarım faizdir. Osmanlı altun lirəsi 400 manatda durmuşdur.

## BALAXANA MƏKTƏBİ

**Türk Ədəmi-Mərkəziyyət Firqəsi "Müsavat"ın Balaxana kənd şöbəsindən**

Möhtərəm müdir əfəndi, sizdən aci-

zanə rica edirəm ki, mənim bu neçə kəlmə sözümü qəzetənizdə dərc edəsiniz.

1906-cı ildə Balaxana kəndində neçə illərlə arzu etdiyimiz bir zükur [oğlanlar] məktəbi bina etdilər. Həman məktəb binasını yapanlara artıq dərəcədə izhari-təşəkkürümüzü yetirdik. Məktəb binasını bitirdilər. Bakı "Nəşri-Maarif" Cəmiyyəti tərəfindən kənd çocuqlarına təhsili-kamalat üçün türk və rus müəllimləri göndərdilər. Artıq səy və həvəslə çocuqlarımız məktəbə gəlib neçə illər etdikləri arzuya nail oldular. Dörd sənə müddətində həman müəllimlər çocuqlara gözəl bir surətdə təlim verirdilər.

Dörd sənənin müddətində həman müəllimlər sayəsində məktəb çocuqları gözəlcə imtahanlarını verib şəhadətnamələrini aldılar və məktəbdə təhsili bitirən çocuqlar ən gözəl dərəcədə savadlı oldular. Böylə ki, möhtərəm Əhməd Kamal əfəndi zamanında firəngcə də təhsil etmişdilər.

Dörd sənədən sonra həman fəaliyyətli müəllimlərimiz nədənsə məktəbi buraxıb getdilər. Onlar gedəndən sonra yenə "Nəşri-Maarif" Cəmiyyəti tərəfindən başqa müəllimlər göndərildi. Lakin onlar həman keçmiş müəllimlər kimi fəaliyyətləri olmadı amma yenə çocuqlarımızı maarifdən məhrum qoymayıban onlara dərs verirlərdi. Bunlar dəxi təhsillərini bitirdilər, imtahanlarını verib şəhadətnamələrini aldılar, lakin dəxi o keçmiş şagirdlər kimi olmadılar.

Həman 1914-cü ildə Cahan müharibəsi başlandı. Sənədən-sənəyə müəllimlər azaldı və mütəallimlər [şagirdlər] də müəllimlərin azalmağına baxıb çox miqdarda azaldılar və dərslərinə ciddi surətdə baxmayırdılar. Axırda həman müəllimlərin əksəriyyəti ölüb də, məktəbimiz iki müəllimə tabe oldu.

Əlbəttə, iki müəllim əski beş müəllimin yerini tuta bilmədilər. Əvvəla, vaxtında təhsilə başlamayırdılar. İkinci, bir sinif içərisində iki sinfin şagirdlərinə dərs verirlərdi. Yəqin ki, o müəllimlərin vaxtı-vaxtında gəlməməklərinə və mütəallimlərin dərsə soyuq baxmaqlarına səbəb söylədiyimiz Cahan müharibəsi, yaxud başqa bir nöqsan işləri oldu.

Lakin bu sənə yeni təşkil olunmuş cavan hökumətimizin sayəsində məktəbimiz yenə əski qanun üzrə getməsinə və yenə həman məktəbdə ildə üç-dörd müəllimlər göndərilib çocuqlarımızı təhsilə öyrətmələrinə və kənd məktəb rəislərinin dəxi gələcəkdə məktəbə soyuq baxmayacaqlarına ümidvarız.

*Katib: Şirmirzə Babazadə*

* * *

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxana kənd şöbəsi vasitəsilə Balasadıq Zeynalzadənin sədarəti ilə və Şirmirzə Babazadənin katibliyi ilə və idarə əzalarının [üzvlərinin] əksəriyyətiylə həman bu ağustos ayının 22-də üç nəfər heyətdən ibarət Müsalihə və mürafiə [Barışıq və məhkəmə] şöbəsi açılmışdır. Həman şöbəyə atidəki [aşağıdakı] şəxslər intixab olunmuşdur [seçilmişdir]:

1) Əli Kərimzadə, 2) Hümmət Manafzadə, 3) Qulu Məhəmmədzadə.

Bununla, cəmi rayonda olan fəhlələrə bildiririz ki, həman bu ağustos ayının 23-dən etibarən cəmi şikayətçilərin ərizələri qəbul olunur.

Ünvan Balaxanada Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxanı kənd şöbəsi, "Nəşri-Maarif" Cəmiyyəti zükur [oğlanlar] məktəbinin binasıdır.

*Katib: Şirmirzə Babazadə*

**AZƏRBAYCANDA**

Lənkərana göndərilmiş olan Azərbaycan qüvayi-əsgəriyyəsi [hərbi qüvvələri] rəisi tərəfindən Lənkəran uyezdi [qəzası] əhalisinə xitabən böylə bir müraciətnamə nəşr edilmişdir:

Qrajdanlar [Vətəndaşlar]!

Birdəfəlik qrajdanlar müharibəsinin önünü alaraq məhəllində [yerində] nizam və qayda bərpa etmək və siz günahsız camaatı qatillərin və zorbaların əziyyətindən xilas etməyə əmr almış qitəati-əsgəriyyəni [hərbi hissələri] Azərbaycan Cümhur hökuməti əmri ilə Lənkəran uyezdinə göndərirəm.

Azərbaycan ordusu Azərbaycanın ayrılmaz parçası olan Lənkəran uyezdində yaşayan əhali arasında qanun vəz etmək [qoymaq] üçün gəlirlər.

Əhalini idarə etmək üçün tez bir vaxtda müsəlləh [silahlı] qüvvə sayəsində uyezdin hər tərəfində mülkiyyə hökuməti təşkil olunacaqdır.

Siz Azərbaycan Cümhuriyyətinin hüquqca tam müsavi [bərabər] qrajdanları olduğunuzdan, salim yaşamaq üçün uyezdinizdə bütün mənası ilə asayiş və nizam bərpa olunmasını arzu etmənizə inanıram. Binabərin [buna görə] bir çox vasitələrlə uyezddə nizam və intizam bərpa olunmasına yardım edərək, Azərbaycan Hökuməti nümayəndələri ilə gözəl müamilədə [rəftarda] bulunub qanuna müvafiq bütün əmrlərinə, əlbəttə, öz arzunuzla itaət və əməl edərsiniz.

Bununla bərabər, "Muğan Cümhuriyyəti" adını daşıyan və qeyri kəndi başına təşkil olunmuş növbənöv şuraların və komitələrin meydana gəlməsinə və yaşamasına qətiyyən rüxsət verilməyəcəyini indidən xəbər verirəm. Lənkəran uyezdində ancaq Azərbaycan Cümhuriyyəti hökumətinin hakimiyyəti qəbul olunmalıdır. Məzkur [deyilən] hökumətin əmrlərinə itaət etməyənlər asi sayılaraq idareyi-örfiyyə qanunu mövcibi [hərbi rejim qanununa əsasən] mühakimə olunaraq cəzalanacaqdır.

Qitəat komandanının əmri ilə əhali silahlarını təslim etməlidir. Əmrə itaət etməyənlər isə hərbi məhkəməyə veriləcəkdir.

Uyezddə yaşayan rus camaatını Azərbaycan Cümhuriyyəti qrajdanları saydığımdan, məzkurlar hüquqca uyezddə yaşayan o biri millətlərlə bərabər olduqları üçün rus camaatına əziyyət verməyə və soymağa kimsəyə qəti surətdə meydan verməyəcəyimi xəbər verirəm. Rus camaatının malını, canını mühafizə etməyə söz verərək, onlardan bütün mənası ilə qanuna itaət və əmrlərə əməl etmələrini tələb edirəm.

Silahla qarşı duranlar kamilən edam ediləcəkdir. Əsgərlər qarşı duranlarla amansız olunmaları üçün əmr almışlardır.

Bu və yaxud o vasitələrlə əsgərlərə və hökumətə qarşı durdurmaq qəsdi ilə əhali arasında təbliğat yaparaq məzkurları qələyana gətirmək istəyənlərə bal-

ada məzkur [yuxarıda deyilən] əmri şimdidən xəbər verirəm.

Sülhpərvər qrajdanlara əziyyət və zülm edənlər şiddətli cəzalar görəcəkdir. Əsgərin əhalini incitməməsi üçün kəndi tərəfindən tədabiri-lazimədə bulunması üçün qitəat komandanına da əmr verilmişdir.

*9 ağustos 1919*
*Bakı*
*Azərbaycan Cümhuriyyəti Hərbiyyə naziri Birinci fəriq [Ordu generalı] Mehmandarov*

* * *

Göyçay qəza naçalniki Bakı qubernatoruna məlum etmiş ki, onun binagüzarlığına [sərəncamına] görə, Vəng kəndinin sakini Danilyan-Kasparyan hökumətin əleyhinə təbliğatda bulunmağına görə bir ay həbsə alınmışdır.

**Kəndlilərin şikayəti**

Şamaxı kənd camaatı Bakı qubernatoruna müraciətən təvəqqe etmişlər ki, Şamaxı qəzası Mədrəsə kəndinin sakini Markar Tavkilyevin camaat arasında erməni-müsəlman iğtişaşına bais ola biləcək fitnələr salmasına görə onu həbsə alsın. Tavkilyev bu fəqərəni [əhvalatı] bilib qaib olmuşdur.

**Qaçqınlar arasında yatalaq**

Şamaxı qəzasında İrəvan qaçqınları arasında yatalaq intişar bulmaqdadır [yayılmaqdadır] və hər gün neçə nəfəri aparır. Xəstəliklə mübarizə etmək üçün Şamaxı qəzasına həkim Vladimir Levin göndərilmişdir.

**Yüzbaşıdan şikayət**

Şamaxı qəzası Xıdırlı kəndinin sakinləri Bakı qubernatoruna ərizə verib həmin kəndin yüzbaşısı Mehrəli Səlim oğlunun biqanun [qanunsuz] rəftarını göstərərək onlara başqa bir yüzbaşı təyin edib, kəndilərini bunun əlindən xilas etməklə bərabər, məzkur [deyilən] yüzbaşını məhkəməyə çağırmasını xahiş və təvəqqe etmişlər.

## İDARƏDƏN CAVABLAR

*El imzası ilə yazan əfəndiyə*: Əvvəla, adınızı və ünvanınızı açıq yazmasanız, məqalənizə əhəmiyyət verilməz, dərc edilməz. Saniyən [ikincisi], əgər Çalılı qəryəsinin [kəndinin] kəndxudası, doğrudan da, camaatdan pul və taxıl yığır və rüşvət alıb adamların yaşını artıq, ya əskik yazırsa, el tərəfindən yazmış olduğunuz müxabirədə [xəbərdə] həman camaatdan bir çox adamın imzası olmalıdır ki, el tərəfindən yazıldığı anlaşılsın. Salisən [üçüncüsü] də, doğru isə həm bizə çox imza ilə xəbər verin, həm də camaat hökumət idarələrinə ərizə versin.

*Quba, "Kişi oğlu" əfəndiyə*: Nə hesab edirsən et, amma sənin kimi dərvişin nağılı Qusar çayxanasında yaxşı işə keçər.

*Yoldaş əfəndiyə*: Görüşməyə ehtiyac var.

*Qutqaşendən yazan əfəndiyə*: İmzasız yazılan şey dərc edilməz.

*Azərbaycanlı M. əfəndiyə*: "Naqil", ya vəsaili-"nəqliyyə" yoxluğundan "nəql"iniz ancaq səbətə "nəql" edilə bildi.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnınınküncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul

edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**İtibdir**

Əliisgəndər Hacı Abdulcabbar oğlu Bağırovun Zaqafqaziya Ruhani İdarəsindən 1916-cı ildə avqust ayının 16-da aldığı 4023 nömrəli metrik şəhadətnaməsi itib. Etibardan saqitdir [etibarsızdır].

*7439*

**İtibdir**

Hənifə Babaəli oğlunun Şağan kəndinən aldığı pasportu itib, etibardan saqitdir.

*7438*

**İtibdir**

Heybət Allahqulu oğlunun Kiş kəndindən aldığı pasportu və Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsindən aldığı şəhadətnaməsi itib. Etibardan saqitdir.

*7485*

**İtibdir**

Molla Mirəhməd Molla Əhməd oğlunun 1901 tarixində Müfti İdarəsindən aldığı 844 nömrəli şəhadətnaməsi (attestatı) itib. Etibardan saqitdir.

*7582*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**"İttihadi-İraniyyan" məktəbində**

səh. 413. "Sadovaya": Bakıda, indiki Şövkət Ələkbərova küçəsi.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 415. "39/244 nömrəli": qəzetdə "nömrəli" yerinə "tarixli" getmişdir.

səh. 416. "ona görə də vəziyyəti-hazirəni olduğu kimi təhkim edir": cümlənin doğru başa düşülməsi üçün mətnin bu hissəsində "ona görə də" yerinə "halbuki" olmalıdır.

**Sülh ətrafında**

səh. 418. "Serb-Slovak": güman ki, "Serb-Sloven" olmalıdır; qəzetdə belə getmişdir.

**İran işləri**

səh. 418. "11 şəhri-şəvval 1337": tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 10 iyul 1919-cu ilə uyğundur.

**Türküstanda**

səh. 420. "Sokolov": qəzetdə bu soyadı təhrif edilmişdir.

Kuşka: Türkmənistanın cənubunda şəhər; indiki Sərhədabad şəhəri.

**Paris xəbərləri**

səh. 422. "Sabiq rus süfərası və rus siyasiyyunu müşavirəsi": Keçmiş Rusiya imperiyasının xarici strukturlarının birləşmiş nümayəndəliyi kimi 1918-ci ilin axırlarında Parisdə yaradılan siyasi qurum olan Rus Siyasi Müşavirəsi [Русское политическое совещание] nəzərdə tutulur.

**Bir müsahibə**

səh. 423. “Şirvanlı Şərif bəy”: söhbət Məhəmməd Şərif Əfəndizadədən gedir.

**Bakı xəbərləri**

səh. 431. “Balaxanski və Maqazinni”: Bakıda, indiki Füzuli və Süleyman Rüstəm küçələri.

**Bazar ertəsi, 25 avqust 1919-cu il, nömrə 260**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 28 zülqədətül-haram sənə 1337. 25 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## "AZƏRBAYCAN" QƏZETƏSİ KONTORU TƏRƏFİNDƏN

Qəzetəni nəşr etmək üçün məxaric artdığından, kağızın və bir para mətbəə materiallarının bahalandığından dolayı "Azərbaycan" qəzetəsi nəşriyyatı həmin avqust ayının 23-dən müvəqqəti olaraq qəzetənin tək nüsxəsi fiyatını 2 manat etməyə məcbur olmuşdur. İşbu abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-ədək hesab olunur.

## ELAN

1919 sənə 25 avqust bazar ertəsi gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

## SİRK "MODERN"

Düşənbə günü avqustun 25-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 58-ci günüdür.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Buyvolov – Gənc Əli.

2-nci: Oleynikov – Raqenbaum.

3-ncü: Yemelyanov – Djiovani.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır. Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7484*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Ticarət və Sənaat və Ərzaq Nəzarətinin əmrnamələri**

*Əmrnamə 127*

16 ağustos 1919

Dürlü Nəzarətlərdə sui-istemallar [sui-istifadələr] təftiş edən Xüsusi Təftiş-İstintaq Komissiyasının katibi P. A. Yuzefoviç Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti xidmətinə köçürülüb mənim hüzurumda xüsusi sifarişlər məmurluğuna işbu ağustosun 16-dan təyin edilir.

*Əmrnamə 129*

18 Ağustos 1919

Petroqrad Darülfünunu [Universiteti] Hüquq şöbəsini təkmil etmiş Əli Poltorjinski xidmətə götürülüb, Ticarət, Sənaət

və Ərzaq Nəzarəti Dəftərxanası ümumi işləri müvəqqəti naçalniki vəzifəsini ifa etməyə işbu ağustosun 18-dən təyin edilir.

*İmza etdi:*
*Ticarət, Sənaət və Ərzaq naziri:*
*[Ağa] Əminov;*
*Kargüzar: S. Məhəmmədyarov*

**Vidalaşma**

Bakıdan gedərkən Azərbaycan Hökuməti camaatı, ələlxüsus Bakı camaatı ilə ingilis qoşunu tərəfindən vidalaşıram. Səmimi təəssüflərlə çox-çox dost və tanışlarımızla vidalaşdıqda onların gələcəkdə xoşbəxt, mehriban yaşamaqlarını arzu ediriz. İngilis ordusunun hamı məmurları Azərbaycan məmləkətində sərf etdikləri vaxtdan kəndiləri üçün gözəl bir yaddaşt [xatirə] aparırlar. Bizim burada yüngüllüklə yaşamağımıza bais, azərbaycanlıların bizə olan yardımları sayəsində olmuşdur.

*Bakı şəhərinin*
*Müttəfiq qoşunlarının komandanı:*
*Şattlvort*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 14 ağustos iclası

**Sədr:** Həsən bəy Ağayev
**Katib:** Əhmət Cövdət

Sədr iclası açaraq məsaili-yövmiyyəni [gündəlikdəki məsələləri] elan edir və Mərkəzi Məclisi-Müəssisan intixabat [seçki] komissiyası ilə Zəngəzur qaçqınlarına yardım komissiyasına əza [üzv] seçilməsini təklif edir. "Müsavat" və "Sosialistlər" fraksiyaları rəisləri yardım komissiyasına əza intixabatı fraksiyalarda müzakirə edilməmiş olduğunu qeydlə, məzkur əzanın [deyilən üzvlərin] bu gün seçilməməsini təklif edirlər. Məclisi-Müəssisan intixabatı hazırlayan Mərkəzi komissiyaya isə tənəffüs vaxtı namizəd göstərilməsini təklif edirlər. Növbədəki məsələlərə keçilir.

**Rzayev Bağır** - Cinayət işlərində sülh məhkəmələrinin daireyi-nüfuzunun tövsisi [genişləndirilməsi] və sülh hakimləri hökmünün təqviyəsi [gücləndirilməsi] ilə əmvali-xassəyə [xüsusi mülkiyyətə] qarşı icra edilən bəzi cinayətlər haqqındakı qanunların təbdil və təğyiri [dəyişdirilməsi] haqqında məruzə verir: Bu vaxtadək mövcud olan rus qanununa görə əmvali-xassəyə qarşı işlənən cinayətlər əgər əmval 300 manatdan artıq olmasa sülh məhkəmələrində, ondan artığı isə ümum qayda ilə mühakimə edilirdi. Şimdi pul kursu tənəzzüldə olduğundan sülh hakimləri daireyi-nüfuzu pək məhdud olur və biləks [əksinə], işlərin həpsi İstinaf Məhkəməsi [Məhkəmə Palatası] öhdəsində qalır; bu da ağır olur. Binaənileyh, 300 əvəzinə 10 min təyin etməlidir. Digər tərəfdən də, ümumiyyətlə nahiyə məhkəməsi təhti-mühakiməsində [mühakiməsi altında] bulunan bir çox şeyləri də sülh məhkəməsinə verməlidir.

Layiheyi-qanuniyyə [qanun layihəsi] əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilir.

Növbədə Azərbaycan sərhədində mühafizə bölüyü təsisi haqqındakı qanun layihəsidir.

Məruzəçi – **Rza bəy Ağabəyov:** İbtida Azərbaycan sərhədlərində qaçaqmal alış-

verişi ilə mübarizə və sərhədi mühafizə etmək üçün inqilabdan qabaq Qafqaziya xətti-hüdudunda olduğu kimi sərhəd qaraqolları qoyulması təsəvvür olunurdu. Bu xüsusda bir layihə dəxi tərtib verilmişdi. Lakin gömrük mədaxili indiki halda və şəraiti-hazirədən dolayı ancaq 13 milyon manat olduğu halda, sərhəd qaraqolunun xərci bu il 80 milyon və sonrakı ildə 50 milyona çatırdı. Digər tərəfdən bir çox sair müşkülat dəxi vardı. Ona görə məzkur [deyilən] layihə qeyri-məqbul görüldü. Binaənileyh, Maliyyə Nəzarəti daha yüngül bir layihə hazırladı. Həman layihəyə görə bütün sərhəd boyunda zabitlər təhti-komandasında [komandanlığı altında] sərhəd qaraqolxanaları təsis olunur. Hər quberniyada məzkur qaraqolxanalar sərhəd mühafizə naçalniki təhti-idarəsində [tabeçiliyində] yerləşir və mərkəzi idarə olmaq üzrə xüsusi bir şöbə təsis edilir.

Bu qərar ilə təşkil olunan sərhəd mühafizəsinin xərci də az olur. Həman qaraqolxanalar şəraiti-məhəlliyyəyə [yerli şəraitə] müvafiq olaraq sərhəddə, yainki xətti-hüdud yaxınlığında, sərhəddəki yollarda, yainki məzkur yolların düyüm nöqtələrində yerləşəcəklərdir. Qaraqolluğa yerli əhalidən könüllü olaraq atlı və piyada adamlar qəbul ediləcəklərdir. Könüllülərin atı, silahı və libası özündən olub, etibarnamə təqdimi ilə etimada müstəhəqq [layiq] olduğunu isbat edə bilənlər qəbul ediləcəklərdir. Layiqli bir adamın öz silahı olmazsa, xəzinədən veriləcəkdir.

Azərbaycanın sərhəd xətti dənizdən təxminən 560 verst və qaradan 1300 verst hesab olunur. Bu xətdə cümlətanı 942 qaraqol ilə 99 əsasi qaraqolxana olmalıdır. Qaraqolların 332-i atlı, 660 nəfəri piyada olacaqdır. Qaraqolxanaların məhəlli [yeri] bu qərar ilə təsəvvür olunur:

1 - Zaqatala quberniyasında 102 qaraqoldan ibarət 12 qaraqolxana;

2 - Gəncə quberniyasında 230 qaraqoldan ibarət 28 qaraqolxana;

3 - Qarabağ general-qubernatoruluğunda 180 qaraqoldan ibarət 18 qaraqolxana;

4 - Lənkəran qəzasından başqa Bakı quberniyasında 220 qaraqoldan ibarət 20 qaraqolxana;

5 - Lənkəran qəzasında 210 qaraqoldan ibarət 21 qaraqolxana.

Məzkur qaraqolxanaların təsisi və onunla əlaqədar olaraq Nəzarət cənbində [nəzdində] xüsusi şöbə açılmasına iyunun 1-dən bu ilin axırınadək birdəfəlik 518 min manat, qaraqolxanalar inşası və daimi xərc üçün və iyulun əvvəlindən yanvaradək 5 milyon 272 min 850 manat sair xərclərə lazımdır.

Məclisi-Məbusan Maliyyə-Büdcə komissiyası bu layihəni müzakirə və qəbul etmişdir.

**Sanıyev** - (Hümmət) Bizim fraksiyamız bu layihənin əsasi bir maddəsinə razı deyildir. Çünki qanun layihəsində denilir ki, sərhəd qaraqolları Maliyyə Nəzarəti təhti-idarəsində olacaqdır. Bu vaxtadək sərhəd qaraqolları sərhəd boyundakı qəzaların məhəlli hökuməti təhti-idarəsində olmuşdur. İndi onu Maliyyə Nəzarəti ixtiyarına verərək, bunun üçün də bir çox xərc çəkib yeni təşkilat əmələ gətirmək lazım deyildir. Əgər sərhəd qaraqolu məhəlli hökumət təhti-idarəsindən çıxarılaraq yeni təşkilat vücuda gətiriləcək olsa, o halda Hərbiyyə Nəzarəti təhti-idarəsində bulunmasını təklif ediriz və ancaq böylə olsa razı ola biləcəyiz.

## TELEQRAF XƏBƏRLƏRİ

**Cənubda övza**

Cənubi cəbhədə övzanı [vəziyyəti] tədqiq edərək "Pravda" yazır:

*"Hadisatın gedişi cənub cəbhəsində çevrilmədə olan övzanın müəyyən edilməsi ilə təqərrür edəcəkdir [qərarlaşacaqdır]. Bütün mübarizənin ağırlığı əlan [indi] cənubda toplanmışdır. Düşmənlərimizin ən başlıca qüvvələri burada təhəşşüd etmişdir [toplanmışdır]. Denikin Velikorus Şura torpaqlarına daxil olmuşdur."*

**Lehistan və Romanya yaxınlığı**

Lion - Milli müdafiə işlərini birləşdirmək niyyəti ilə Lehistan [Polşa] ilə Romanya arasında dostanə müqaribət [yaxınlıq] əmələ gəlmədədir.

**Yekun**

London - Lloyd Corc Aşağı Palatada bəyanat verdikdə demişdir ki, təsisat işlərinə deyil, təxribat işlərinə sərf edilən müharibə məsarifi 40 milyard funt-sterlinqi baliğ olmuşdur [çatmışdır]. 36 min adam dəxi tərxis edilmişdir.

**Almaniya əsgərləri Reyndə**

Berlin - Müttəfiq dövlətlər Reynin şərqi səvahilinə [sahillərinə] əsgər göndərmək üçün Almaniyaya izn vermişlərdir. Tətil və qələyan [çaxnaşma] baş verdikdə asayiş və nizam bərpa etmək üçün orada olan əsgərlərin miqdarı çox az imiş.

Moskva - Şimal cəbhəsi Murman istiqamətində Kraum gölünün şərq cəhətində düşmən iki kənd işğal etmişdir. Poloçki istiqamətində bizim qoşunlarımız Qlubokiye Dokşi qəsəbəsi ətrafında vuruşurlar. Bobrovsk istiqamətində vuruşmadan sonra Obyov mövqifini [stansiyasını] boşaltmışıq.

**Sileziyada tətil**

Sileziyada kömürçülər tətili tam bir üsyana mübəddəl olmuşdur [çevrilmişdir]. Fəhlələrlə nemes qoşunları arasında qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur.

**Denikin cəbhəsi**

Şiddətli vuruşmalardan sonra, Lakoyça və Koroçanı tərk etmişiz. Valuysk istiqamətində qənimətlər əldə edərək düşməni təqib ediriz. Bizim hücum edən hissələrimiz Kamışinin 25 çağırımlığında olan vuruşmalarda 1000 əsir almışız. O cümlədən düşmənin piyada Hacı-Tərxan alayı bütün heyəti ilə, mitralyozlar, fişənglər, mərmi və arabalar əlimizə keçmişdir.

*(Gürcü teleqraf agentəliyindən)*

**Lüksemburqda iğtişaş**

Lüksemburq hersoqluğu paytaxtında iğtişaş olmaq xəbərləri təəyyüd etmədədir [təsdiqlənir]. İğtişaşçılar Məclisi-Məbusana girərək bir neçə atəş açmışlardır.

**Lizbonda iğtişaş**

Lizbonda dəmiryol tətili elan edilmişdir. Santa Apoloniya mövqifinə [stansiyasına] üç bomba atılmışdır. Tətilçilərdən 5 adam həbs edilmişlərdir.

Kiyev - Xalq Komissarları Şurası tərəfindən bütün tələbələrin xidməti-əsgəriyyəyə [hərbi xidmətə] alınması üçün dekret verilmişdir.

**Yenə bir Rusiya Hökuməti**

Revel [Tallin] - 17 ağustos. Şimal-qərbi Rusiyada yeni bir hökumət təşkil edilmişdir. Hökumət general Yudeniç, Baş nazir Lianozov və Hərbiyyə naziri [Mixail Nikolayeviç] Suvorovdan ibarətdir. Hökumət, Estlanda əsgəri müavinətdə bulunarsa onun istiqlalını təsdiq edəcəyini vəd etmişdir.

**Odessanın süqutu**

Batuma yetişən xəbərlərə görə, Odessa süqut etmişdir. Yerzul tərəfindən hücum edən Petlyura əsgərləri tərəfindən şəhər alınmışdır. Odessanın fəlakəti bununla da qurtarmayır. Malok tərəfindən hücumda bulunan rumınlarla petlyuraçıların müsadiməsi [toqquşması] gözlənilir.

*(Azərbaycan radio mövqifi qəbul etmişdir)*

*(Bolşevik xəbərləri)*

**Sileziyada**

Lion - Huver Varşavadan teleqraf edir ki, Yuxarı Sileziyada lehlər [polyaklar] ilə nemeslər, spartaklarla lehlər və spartaklarla nemeslər arasında müsadimə [toqquşma] gedir. Lehistan hökumətinin Yuxarı Sileziyaya Beynəlmüttəfiqin Komissiyası [Müttəfiqlərarası Komissiya] göndərmək səyləri nəticəsiz qalmışdır.

Yuxarı Sileziyada olan həyəcanı yatırmaq üçün bir vasitə varsa, o da Müttəfiq ordunun o yerləri təxirsiz işğal etməsi və Müttəfiqlər heyətinin oralara götürülməsi olacaqdır. Sileziyanı vətəndaş müharibəsi qaplamışdır. Avropanı hədələyən sənaət gərginliyinin [sənaye böhranının] önünü almaq, heç olmasa bir qədər kömür əldə etməklə şu gərginliyi təbid etmək [uzaqlaşdırmaq] üçün Sileziyanı işğal etməyə Müttəfiq əsgərləri qüvvələrini məcbur edəcəkdir.

Avstriyada və başqa Avropa mərkəzlərində dəmir yollar işləməsindən ötrü kömür qəhətliyi duyulmadadır. Parisdə kömür qəhətliyindən Şərq Ekspresi Yaxın Şərqlə adi müxabirədə bulunammayır. Nəqliyyat işlərinin böyük fəlakətə məruz qalmasının ciddi məhzurları [zərərləri] vardır. Hərgah, böylə gedərsə bir məkulat [ərzaq] qəhətliyi də ortaya çıxacaqdır. O zaman hər tərəfi dəhşət bürüyüb böyük hərc-mərclik əhatə edəcəkdir.

Yuxarı Sileziyada üç düşmən – nemeslər, lehlər və spartaklar yek-digəri [bir-biri] ilə vuruşurlar. Hərgah, onların bu vuruşmalarına intəha [son] verilməsə, bütün Avropa üçün nə kimi nəticələr törədəcəyini söyləmək müşkül olacaqdır.

Kömür məhsulatı getdikcə əskilir. Hərgah, Huverin xəbər verdiyi üzrə Konfrans Yuxarı Sileziyaya qoşun göndərmiş olarsa, o zaman Amerikanın nasıl iştirak edəcəyi məsələsi qalxır. Amerika başqa dövlətlərlə birlikdə hərəkətdə bulunmağa həp onları və həp kəndisini vaxtında mühafizə etməyə məcbur olacağı ehtimalı vardır.

Lion - Varşavadan xəbər verirlər ki, tətil hərəkətləri Almaniya hökumətlərinin müffətinanə [araqarışdıran] fəaliyyətindən dolayı Yuxarı Sileziyada üsyan şəkli alır. Lehlər tərəfindən bir neçə mühüm yerlər işğal edilmişdir. Nemsə qoşunları ilə üsyançılar arasında qanlı müsadimələr vaqe olmuşdur.

**Sofiyada iğtişaş**

Lion - "Deyli meyl" qəzetəsinin rəvayətinə görə, Sofiyada radikallarla əsgərlər arasında qanlı müsadimələr vüqu bulmuşdur. Nümayişçilər kral sarayını əhatə edib, çar Borisin xəlli [taxtdan salınmasını] və cümhuriyyət təsisini tələb etmişlərdir.

Bolqariya heyəti iki nota vermişdir. Əvvəlinci, Qərbi Frakiyanın bolqarlara verilməsi tələbini mütəzəmmin olub [ehtiva edib], ikincisi də Beynəlmüttəfiq komandanlığının Bolqariyaya qarşı tələb etdikləri tədbirlərə protesto notasıdır.

## SÜLH ƏTRAFINDA

*(Teleqraflardan)*

**Türkiyə Kabinəsində təbəddülat [dəyişiklik]**

Nazim paşa ilə Sədrəzəm miyanında [arasında] çıxan ixtilafdan dolayı Hərbiyyə naziri sifəti ilə olaraq Nazim paşa yerinə Süleyman [Şəfiq] paşa keçmişdir. [Əhməd] Tofiq paşa dəxi istefaya çıxmışdır.

**İstanbul məsələsi ətrafında**

Məşhur Amerika hüquqşünası doktor Teodor İstanbul və xilafət məsələsini müzakirə edərək söyləmişdir ki, nə qədər ki xəlifəlik, yəni sultan İstanbulda qalır, Yaxın Şərq məsələsi həll edilməyəcəkdir. Xilafətin Darüssalama köçürülməsi müsəlmançılıq və xristianlıqla əlaqədar deyildir. Xilafətin Türkiyə sultanlarında qalmasının qanuni olub-olmaması da ancaq müsəlmanlara təəllüq edən [aid olan] bir məsələdir. Müsəlmanlardan soruşmalıdır ki, sultanın hazırkı həqarətamiz (?!) övzasına [vəziyyətinə] baxdıqda, başqa yerə köçməsi və peyğəmbər xəlifəsinin münasib bir məkanda iqamət etməsi [yaşaması] islam üçün faydalı (??) deyilmidir?

**Balkanlarda sülh və Bolqariya**

Yaxın Şərq işlərində böyük bir nüfuza malik olan Kroxold yazır ki: "Avropa üçün nəhayət mühüm olan Yaxın Şərq sülh və müsalimətini [asayişini] Bolqariyaya edilən güzəştlərlə əldə etmək mümkün olmayacaqdır." Məzkurun [adı çəkilənin] rəyinə görə, edilən güzəştlər həmişə müvazinəni pozub ixtilafa səbəb olmuşdur. Bolqariyaya hansı bir təklif edilərsə, razı olmayacaqdır. Hər bir güzəşt onun tələblərini və Balkan yarımadasında hakimiyyət saxlamaq tamahlarını daha da genişlədəcəkdir.

**Albanların ricası**

Lion - Sülh Konfransına getmiş Albaniya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] prezidentinə müraciətlə, qonşularının imperializmindən onları müdafiə etməsini rica etmişlərdir.

Rəyi-amm [referendum] ilə sərhədlərinin müəyyən edilməsi təkidatında bulunan Albaniya nümayəndələrinin söyləmələrinə görə, yunanlar, italyanlar və serblər Albaniya torpağını qəsb etmədədirlər.

Heyət əzası [üzvləri] Cəmahiri-Müttəfiqə Senatının ədalətinə istinad edərək yalvarır ki, Albaniya xalqının hüququnu müdafiə etmək üçün onlara müavinətdə bulunsunlar.

İstiqlal yolunda etmiş olduğu mübarizə zamanları Albaniya, torpağından məhrum edilərək qonşuları nəfinə [xeyrinə] tərk etmiş və 1913-cü ildə müstəqil bir dövlət olaraq tanınmışdır. Amma müharibə əvailində [başlanğıcında] əvvəlcə Müttəfiqlər qoşunları və sonra da düşmənlər tərəfindən ləğv edilərək (burada teleqraf buraxılmışdır) və müharibə dəhşətləri onu bütün-bütünə təxrib edərək, onun minlərcə övladını ehtiyac və aclığa məhkum qılmışdır. Müstəqil həyata millətlərin haqları varlığını Amerika elan etdiyi zamandan albanlar silaha sarılaraq Müttəfiqlər sırasında vuruşmağı iltizam etmişdir [lazım bilmişdir].

Ədalət və hüquq bəşarəti [müjdəsi] verən Müttəfiqlərin qələbəsindən sonra albanlar Sülh Konfransına milli arzu və istəklərini müntəşir [yayan, bildirən] təqdimatda bulunmuşlardır.

Onlar yəqin edirlərdi ki, Albaniya müharibə illərindən sonra qonşu dövlətlər arasında təqsim edilmiş [paylaşılmış] yer və torpaqları yenə məmləkətlərinə mülhəq edilər [birləşdirilər].

Albaniya mürəxxəsləri dəfələrcə Konfransdan rica etmişdir ki, yunan hücumlarının fəlakətini keçirmiş və serblərin zəruri etilafına məruz qalmış alban əhalisinə rəyi-amm ilə mühakimə edilmək haqqı verilib, Amerika qoşunları mühafizəsi verilib, Amerika qoşunları mühafizəsi altına alınsınlar. Onun əvəzinə, məmləkətimizin əlyövm [hal-hazırda] bütün-bütünə bir təqsim hədəsi qarşısında bulunduğunu məəttəəssüf [təəssüf ki], görür və seyr ediriz.

İtaliya Volonsk iskələsini onun geniş dairəsi ilə mənimsəmək istəyir. Yunanıstan Şimali Epiri tələb edir. Serbiya Albaniyanın şimali hissəsini tutmaq istəyir. Fiume, Dalmaçya və Frakiya məsələləri müzakirə edildikdə cənub slavyanları, italyan və yunanlar milliyyət prinsipini ortaya sürürdülər. Amma Albaniyaya olan tələblərində şu prinsiplərə heç etina etmək istəməyirlər.

**Sülh Konfransı**

18 ağustos - Ali Müttəfiq Şura Romanyanın Müttəfiqlər notasına cavabına baxmış, cavabın qane bir üsul ilə yazılması hüsn-təsir bağışlamışdır. Ali rumın komandanlığı Antanta üsuluna müvafiq hərəkətdə bulunmaq üçün təlimat almışdır. Ali Müttəfiq Şura Rumıniyaya "Rumıniya hökumətinə məsləhət görülür ki, kəndi xətti-hərəkətini Peştəyə göndərilmiş Beynəlmüttəfiqin Komissiya üsulu ilə uyğunlaşdırsın" təbirini havi [ifadəsini ehtiva edən] cavab göndərməyi təhti-qərara almışdır.

Lion - Macarıstanda olan Amerika nümayəndələrindən ümidbəxş xəbərlər varid olmasına [gəlməsinə] görə, tez zamanda Macarıstan ilə bilavasitə sülh müahidənaməsi əqd etmək [sülh sazişi imzalamaq] mümkün olacağı ümidləri Sülh Konfransı dairələrində artmadadır. Bolqariya işləri isə həman qaranlıqlar içində qalmasında davam edir. Frakiya məsələsinin Türkiyə məsələsi ilə birlikdə həll ediləcəyi güman edilir. Bu da Amerika deleqasiyasının Türkiyə mandatı xüsusunda nə dürlü bir vəziyyət alacağından asılıdır. Amerikalılar şu rəydədirlər ki, Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] xüsusi bir qərara gəlmədən İngiltərə, Fransa və

İtaliya heç bir hərəkətdə bulunmayacaqlardır. Məmafih [bununla belə], Asiyayi-Suğradan [Anadoludan] qoşunlarını çıxarmaq üçün İngiltərəyə qarşı təzyiqat icra edilir. Bolqariya müahidənaməsinin iqtisadi hissəsini təsviblə [təsdiqləməklə], gələcək iclas Ali Müttəfiq Şura tərəfindən bazar ertəsinə təyin edilmişdir.

**Fransa-Amerika müahidənaməsi**

Vaşinqtondan Paris qəzetələrinə teleqraf edirlər ki, Almaniya Fransaya təərrüz [hücum] etdiyi təqdirdə Amerikanın müavinətdə bulunacağını müş'ir olan [bildirən] Fransa-Amerika müahidənaməsi təsdiq olunmaq üçün Senata təqdim edilmişdir və şu münasibətlə prezident namizədi hesab olunan senator Noks aşağıdakı təklifləri etmişdir:

1) Konqrenin rizası olmadan Amerika Fransaya heç bir müavinətdə buluna bilməyəcəkdir;

2) Prinsip cəhətincə heç bir başqa dövlətin Amerika torpağında müstəmləkə əldə etməyə ixtiyarı ola bilməz;

3) Müstəmləkə və gömrük kimi daxili məsələlər isə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] fəaliyyətinin xaricində qalmalıdır.

## QƏZETƏLƏRDƏN

**İngilislər və Qafqaziya**

London, 11 ağustos. İngiltərə Hərbiyyə Nəzarətinin rəsmi məlumatında Qafqaziya haqqında denilir ki, Rusiya, Ermənistan Cümhuriyyəti cənubi sərhədindən Britaniya müsəlləh [silahlı] qüvvələrinin götürülməsi müsəlmanlarla ermənilərin yenidən müharibəyə başlamasına bais olmuşdur. Türklər on min müsəlmanı silahlandıraraq müharibəyə hazırlamışdır. İngilislərə dəxi təərrüz [hücum] olunduğu qeyd edilir.

**Övzayi-hazirə [hal-hazırkı vəziyyət] haqqında Askvit**

Moskva, 15 ağustos. "Deyli xronikl" qəzetəsinin xəbərlərinə görə, Askvit bir nitqində söyləmişdir ki:

*"Əgərçi müharibənin xitamı münasibətilə məmləkətimizdə dürlü şənliklər yapılır, lakin sülh hələ yetişməmişdir. Bəzi yerlərdə müharibə gedir və hətta bir qaç müharibə ilə bərabər qarşımızda müdhiş Rusiya məsələsi bütün mühimmatı ilə ərzi-əndam edir. Bütün dünya tələb edir ki, bu məsələ qəti bir surətdə həll edilsin. Hamısı bu rəyə gəlmişlər ki, bizim Rusiyaya göndərmiş olduğumuz qüvvə qayət zəifdir. Rusiyada hər gün ingilis qanı axıdılaraq ingilis sərvəti sərf edilir. Qoşunlarımız hələ götürülməmişdir. Rusiyada hərbi qüvvələrimizin artırılmasına heç bir vəchlə biz razı olmayaq gərək. Müstəqil hökumətlərin daxili işlərinə qarışmaq bizim vəzifəmizin xaricində qalmalıdır. Rusiyanın gələcək hökumətinin nə yol ilə gedəcəyi bizim borcumuz deyildir. O, Rusiyanın öz işi olduğu üçün başqasına dəxli yoxdur."*

**Amerikada bahalıq**

Lion - Rəsmi xəbərlərə görə, 1914-cü ilə nisbətən Amerika həyatı 79 faiz irtifa etmiş [qalxmış], məkulat [ərzaq] 75 faiz və əlbisə isə 138 faiz qalxmışdır.

**Macarıstanda rumınlar**

Berlin - Bükreşdən alınan işara [işarəyə; xəbərə] nəzərən Rumıniya istila ordusu bolşevizmi yatırmaq qəsdi ilə bütün Qərbi Macarıstanı işğal etmək niyyətindədir.

**Almaniyada həyəcan**

Nauen - Həyatın bahalaşmasından dolayı Saksoniya fəhlələri tətil edərək maaşlarının artırılmasını tələb edirlər. Katovitsedən verilən məlumata nəzərən lehlər [polyaklar] üsyan qaldırmaq təşəbbüsündədirlər.

Paris - Ali Şura Vyana hökumətinə təklif etmişdir ki, "Avstriya Nemes Cümhuriyyəti" əvəzinə məmləkəti "Avstriya Cümhuriyyəti" adlandırsınlar.

**Çörçillin bəyanatı**

London - Avamlar Kamerasında [İcmalar Palatasında] Britaniya əsgəri qüvvələrinin azaldılması məsələsi haqqında Çörçill bəyanat vermiş ki, Britaniyanın Reyn ordusu miqdarı bir livaya [briqadaya] qədər endiriləcəkdir. Mosul və Fələstində dəxi əsgərlər azaldılaraq əvəzinə zirehli avtomobillər, təyyarələr və tanklar göndəriləcəkdir.

**Çex-Slaviyada**

Lion - Hökumətin əmrnaməsi mövcibincə [əsasında] çex-slav qoşunu Dunay nəhri körpüsünü işğal etmişlərdir.

**Serbiyada**

Yeni təşkil edilən Serbiya Kabinəsinə Demokrat Bloku nümayəndələri və bir neçə də sosialistlər daxil olurlar.

* Lion - Çex-slovak ordusunun Macarıstana daxil olmaq xəbərləri xırda millətlərin Rumıniyanın tutduğu xətti-hərəkəti təqib edəcəkləri qorxularını təyid etmədədir [haqlı çıxarmaqdadır]. Romanyanın hərəkatı məsələsini müzakirə etməyi təxirə buraxmaq üçün Konfrans bəhanələr arayır. Qorxurlar ki, ershersoq İosifin naib (regent) qərar verilməsi, bütün xəll edilmiş monarxların [taxtdan salınmış padşahların] baş qaldırmasına səbəbiyyət verə.

Sabiq yunan kralı Konstantin bəyan etmişdir ki, onun İngiltərədə rəfiqləri vardır və Yunanıstan İngiltərə ilə əlbir olaraq işləməlidir. Hərgah ershersoq Macarıstan taxtına otura bilərsə, Avstriyada monarxizm üsulu bərpa edilməməsi bir dürlü şübhə altında qalar.

Parisdə dövran edən bir çox şayiələr onu göstərir ki, Kolçakın qalibiyyəti Romanovların yenidən Rusiya taxtına keçməsinə xidmət edəcəkdir. Kolçak ən qatı mürtəcelərdən olduğu üçün çarizmin bəqayası [qalıqları] ona müavinət və müzahirətdə [köməkdə] bulunmaqdadır.

## İRAN İŞLƏRİ

**İngiltərə-İran müqavilənaməsi**

Bu günlərdə mətbuatda İngiltərənin İran dövlətini öz təhti-himayəsinə [himayəsi altına] aldığı xəbərləri gözə çarpmaqdadır. Bunlar miyanında [arasında] bir müqavilənamə dəxi bağlanmış olduğu deyilirdi. Şimdi Tehranda çıxan "Rə'd" qə-

zetəsindən məzkur [deyilən] iki dövlət arasında bağlanmış olan müqavilənaməni bittərcümə [tərcümə edərək] qarelərimizə [oxucularımıza] təqdim ediriz.

İştə, müqavilənamə:

İngiltərə və İran dövlətlərinin sabiqdən aralarında mövcud olan rabitə və dostluğa gələcəkdə hər iki dövlətin mənfəətləri əsasını möhkəmləşdirmək üçün, hər iki dövlət İran dövlətinin səadət və tərəqqi vəsilələrinin ucalması əsbabının [vasitələrinin] hazırlanmasını lazım görərək, bu nöqteyi-nəzərdən İran dövləti ilə İngiltərə kralının vəziri-muxtarı öz dövləti adından aşağıda yazılan maddələri təhti-qərara alırlar:

1) İngiltərə dövləti İranın təmamiyyəti-mülkiyyə [ərazi bütövlüyü] və istiqlaliyyətinin mühafizəsi üçün sabiqdə öhdəsinə aldığı bütün təəhhüdatı [öhdəlikləri] yenə yenidən təcdid [bərpa] edir.

2) İngiltərə dövləti müxtəlif idarələrdə xidmət etməkdən ötrü lazım olacaq müstəşar [məsləhətçi] mütəxəssisləri hər iki dövlətin rizası hasil olandan sonra İran xərci ilə hazır edəcəkdir. Bu müstəşarlar müqavilənamə mövcibi [əsası] ilə tutulacaq və onların özlərinə nisbət ixtiyarat veriləcəkdir. Veriləcək ixtiyaratın nə qayda ilə olacağı hər iki dövlətin və müstəşarın aralarında saziş hüsulu ilə olacaqdır.

3) İran dövləti sərhəd və daxili nizam və asayişi mühafizədən ötrü təsisi mütəsəvvir olan [planlanan] müttəhid [birləşmiş] bir qüvvə təşkil etdiyi vaxtda, İran dövlətinin xərci ilə İngiltərə dövləti lazım olan qədər məmurlar, zəxirə [taxıl; ərzaq] və axırıncı ixtira edilmiş mühimmat [hazır] edəcəkdir. Məmurların miqdarı, zəxirə [ərzaq] və mühimmatın qədəri və yuxarıda zikr edilmiş qüvvənin təşkili üçün lazım olacaq zəruriyyat İran və İngiltərə dövlətləri tərəfindən təşkil olunacaq mütəxəssislər komisyonu vasitəsilə müəyyən ediləcəkdir.

4) İki və üçüncü maddələrdə zikr olunan islahatın icrası üçün lazım olacaq nəqdiyyəni İngiltərə dövləti İran dövlətinə lazım olan və kifayət edəcək qədəri borc surəti ilə hazır edəcək və ya onun tərtibinə əncam verəcəkdir. Bu borca hər iki dövlətin nəzəri ilə gömrük və ya İran dövlətinin ixtiyarında olan qeyri gəlir təzminat təyin edilir. İstiqraz müzakiratı uzun çəkdiyi və ya tamam olmadığı müddət əsnasında məzkur [deyilən] islahatın icrası üçün lazım olan müavinəti İngiltərə dövləti İrana etməlidir.

5) İngiltərə dövləti məmləkəti qəhətlikdən qurtaracaq və ticarəti genişləndirmək üçün İran dövlətinin həml və nəqlə [yük və sərnişin daşınmasına] olan ehtiyacının təmininə və İran dövləti ilə əl-ələ verib dəmiryollar təsisinə və ya nəqliyyatın əlahiddə qisim vəsilələrinə təşviq və iqdamata hazırdır. Bu xüsusda əvvəlcə mütəxəssislərə müraciət edilib, iki dövlət arasında ən lazım, ən asan və ən faydalı planlar hasil edilməlidir.

6) Hər iki dövlət mütəxəssislərindən ibarət gömrük təyini və yenidən nəzərdən keçirilməsi, məmləkət mənafeyini gözləyərək onun tərəqqi vasitələrinin genişləndirilməsi üçün bir komissiya təşkil ediləcəkdir.

**Mühacirlər**

Təqribən 50 il bundan əqdəm [qabaq] İran torpağından bir neçə yüz evdən iba-

rət ailə Türküstana köçüb orada iqamət və sükunət etməkdə idilər. İndi "Rə'd" qəzetəsinin yazdığına görə, o ətrafda iğtişaş olduğuna və əhalinin əmin-amanda olmadığına görə məzkur [deyilən] camaat oradan hərəkət etmişlərdir. Bunlara dövlət idarələri tərəfindən müsaidət edildiyinə [icazə verildiyinə] görə onların cavanları Nur Həsən xan hökumətə müraciətlə, onların İran dövlətinə tabe və bütün əmrlərinə itaət etməyə hazır olduqlarını bildirərək İranda qalmalarına icazə verilməsini xahiş və təmənna etmişdir. Bunların xahişləri qəbul olunub, zilhiccənin əvvəlindən etibarən İrana gəlmələrinə icazə verilmişdir.

**Abadə və Şiraz yolu**

Şirazdan teleqrafla Tehrana Abadə ilə Şiraz arasında olan yolun ingilislər tərəfindən təmir edilib qurtardığı və neçə gündən bəri həman yol ilə ticarət mallarının avtomobillərdə həml və nəql olunduğu [daşındığı] bildirilir.

**Amerika səfiri**

Amerika vəziri-muxtarı [səfiri] mister Kolduell bu günlərdə Ənzəlidən Tehrana varid olmuşdur [gəlmişdir].

**Astrabadda**

Astrabaddan "Rə'd" qəzetəsinə bildirildiyinə görə, bolşeviklər günbəgün Aşurada və Bəndər Gəzin sair nöqtələrində çoxlaşıb bəzi əməliyyatda bulunurlar. Bunlar Astrabada tərəf hərəkət etmək fikrindədirlər. Bundan dolayı sərhəd vəziyyəti bunların iqdamatı [təşəbbüsləri] nəticəsi olaraq məğşuş [çaxnaşmalı] və əhali iztirab və həyəcandadır.

**İran üzərində İngiltərə himayəsi**

Liondan verilən xəbərlərə nəzərən, istirahətə getmiş Klemansonun, Vaşinqtonda olan Vilsonun, Londonda olan Lloyd Corcun qiyabətlərindən [yoxluqlarından] dolayı, müzakirə edilməkdə olan İran üzərində İngiltərə himayəsi məsələsini təhlil etmək müşkülləşmişdir. Dörd gündür ki, İngiltərə ilə İran arasında saziş hüsula gəldiyi söylənilir. Şahın İsveçrəyə getmək xəyalı məlum olcaq, İngiltərə-İran müahidənaməsinin [sazişinin] təfsilatı Londonda cümə günü elan edilmişdir. Bu əhval Fransanın gözləmədiyi bir halda vüqu bulmuşdur. İngilislərin kəndi bəyanatlarına istinadən – ki, bu saziş İrana müavinətdə bulunmaq üçün əvvəlinci addımdır – fransızlar onu göstərirlər ki, İranın təmamiyyəti-mülkiyyə [ərazi bütövlüyü] və istiqlalı haqqında denilən hazırkı sözlər 1907-ci ildə də söylənmişdi. İranın İngiltərə himayəsi altına keçməsi şübhə xaricindədir. Ancaq fransızlar bu məsələdə Vilsonun nə rəydə olmasın bilmək istəyirlər.

## HEYƏTİ-MÜRƏXXƏSƏMİZ

*(Azərbaycan heyəti-mürəxxəsəsinin irsal qıldığı təqrirdən)*

*(mabəd)*

28 mayısda heyət Vilson hüzuruna qəbul edilmişdir. Hərgah ələladə [adi qaydada] hökumət rəislərinin heyəti-mürəxxəsə əzasını [üzvlərini] qəbul etmədiklərini nəzərə almış olsaq, bizim Azərbay-

can istiqlalı səneyi-dövriyyəsinin [ildönümünün] bayramı gününə təsadüf edən bu qəbulu böyük bir əlamət hesab etmək lazım gəlir.

Qəbul zamanı heyəti-mürəxxəsə rəisi atidəki [aşağıdakı] təbrik nitqi ilə Rəisicümhura [Prezidentə] müraciət etmişdir:

*"Prezident həzrətləri! Azərbaycan heyəti-mürəxxəsəsi namından böyük Amerikanın prezidenti hüzurlarına ərz etməyi vəzifəm ədd [hesab] edirəm ki, cahan xalqının sülh və müsalimət [əmin-amanlıq] içində yaşaması banisi olub böyük prinsiplər elan etməklə, əsrlərcə özgə boyunduruğu altında inləyən xırda millətlərin iqazına [oyanmasına, gözünü açmasına] xidmət edən bir vücudu bizzat [şəxsən] görmək və təbrik etmək şərəfinə nail olduğumuzdan kəndimizi bəxtiyar sanırız.*

*Bizim uzaq Qafqaziyadan, buradan minlərcə çağırım [kilometr] uzaq məsafədə olan Azərbaycanımızdan gəlməmizin məqsədi azadə və müstəqil yaşayış ruhu ilə dəmgüzar olan xalqımızın ehtiramat və təşəkküratını zati-alilərinizə ərz etmək olmuşdur.*

*Prezident həzrətləri! Siz müqtədir [qüdrətli] Amerikanın nümayəndəsinə müraciətlə onu rica etmək istəyiriz ki, siz ən əvvəl bizim məmləkətimizin və xalqımızın haqqında bizdən məlumat alasınız. Zira biz eşidiriz və xüsusən Avropa və Amerika mətbuatında səhvli, yalan və dürlü nöqsanata uğramış xəbərlərin haqqımızda nəşr edildiyini görürüz.*

*Doğrudur, bizi hələ tanımayır[sınız], bizim Avropaya gəlməmiz əvvəlincidir. Ancaq sizi inandırırız ki, bizim müstəqil yaşayış üçün hər bir sübut və dəlailimiz [dəlillərimiz] vardır. Ümid ediriz ki, Sülh Konfransı tərəfindən biz istema olunar [dinlənər] və Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] iştirak etmək üçün buraxılarız.*

*Sizin böyük prinsipləriniz üzəri ilə həyata çağırılmış bütün başqa millətlər kimi, bizim də bunu istəməyə haqlı olduğumuza etiqadımız bərkamaldır. Biz məlum ediriz ki, nə Kolçak, nə Denikin hökumətini və nə də sabiq Rusiyanı ehya [bərpa] etmək istəyən başqa bir hökuməti qəbul edəmməyəcəyiz. Bizim tanıdığımız və qəbul edəcəyimiz bir hökumət vardır ki, o da ancaq öz hökumətimiz və Azərbaycanımızın Parlamanıdır. Biz ancaq vahid Qafqaziya və Qafqaziya millət-ləri erməni, gürcü və nümayəndələri ilə birlikdə hüzurunuza qəbul olunduğumuz əziz qonşularımız dağıstanlılar konfederasyonu haqqında söz söyləyə biləriz və söyləyiriz də.*

*Xatimə olaraq müsaidənizlə [icazənizlə] onu ərz etmək istəyirəm ki, biz ümid ediriz ki, bizim məsrudatımız [bəyanatlarımız] nəzəri-etinaya alınaraq, hüzurunuza təqdim etdiyim müxtirədə [yazılı qeyddə] qeyd edildiyi təriq ilə [qaydada] məqbul olunacaqdır."*

Cavab olaraq prezident söyləmiş ki, Konfrans istəmir ki, Qafqaziya xırda hissələrə bölünsün. Qafqaziya millətləri üçün konfederasiya təsisi daha gözəl olardı və Qafqaziya Konfederasiyası da Cəmiyyəti-Əqvamın binagüzarlığı [qərarı] ilə dövlətlərdən birinin himayəsi altında ola bilərdi və Azərbaycan məsələsinin Rusiya məsələsindən irəli həll olunması da mümkün deyildir.

Nəticədə Konfransa müxtirə verməyi təklif edərək, heyəti-mürəxxəsəmizi gör-

məsindən və məmləkətimizin ehtiyacatını dinləməsindən şad olduğunu söyləyib və hər zaman bizi qəbula hazır olduğunu bildirdi.

Tam bu sıralarda idi ki, Kolçak hökumətinin bütün sabiq Rusiya üzərində Müttəfiqlər tərəfindən qəbul və təsdiq edilməsi xəbərləri mətbuatda görünməyə başladı. O zaman başqaları ilə birlikdə bizim heyəti-mürəxxəsəmiz dəxi iyunun 5-də Konfransa protesto izhar etdilər.

İyunun 13-də Vilsonun, Lloyd Corcun, Klemanso, Orlando və Makinonun imzası ilə Kolçak hökumətinin yarım qəbul edilməsini xəbər verən bir məktub nəşr edildi.

Gürcüstan, Dağıstan heyəti-mürəxxəsələri və sabiq Rusiya torpağında yeni təşəkkül etmiş eston, latış, Belarus, Ukrayna və başqaları nümayəndələri ilə birlikdə əhvalı ətraflı müzakirə edərək bütün cümhuriyyətlər namından iyunun 17-də Konfransa etiraz notaları verilmişdi. İyunun 23-də də bizim, Gürcüstan və Şimali Qafqaziya heyəti-mürəxxəsələri namından protesto verilib Denikinə qarşı dəxi etiraz edilmişdir.

Dağıstan Cümhuriyyətinin Denikin əsgərləri tərəfindən işğalı, Dağıstan hökumətinin qovulması və Gürcüstan və Azərbaycan cümhuriyyətləri istiqlalının qorxu altında olması xəbərləri alındıqda, "Sabiq Rusiya millətləri hüququnu müdafiə Cəmiyyəti" sədri məşhur sosialist Albert Tomasın təşəbbüsü ilə Etilaf [Antanta] dövlətlərinin cəmi Xariciyyə nazirlərinə yeni bir protesto notası verilmişdir.

Prezident Vilsonun dediyinə görə, heyəti-mürəxxəsəmiz əzası texnika cəhətindən olan müşkülata, işsiz mətbəə, fəhlə yoxluğuna, bahalığa və xüsusən kağız qəhətliyinə baxmayaraq, bilatəxir [dərhal] müxtirəni hazırlamağa müvəffəq oldu və şimdi gərək Konfransa vermək, gərəksə siyasət və camaat xadimləri arasında intişar qılmaq [yaymaq] üçün lazımi xəritələri və dürlü statistik xəbərlərini mütəzəmmin [ehtiva edən] məcmuə çap edilməkdədir.

Siyasi məsələlərlə bərabər, Azərbaycan əhalisi üçün mal ələ gətirməkdən ötrü heyəti-mürəxxəsəmiz Amerika və Fransa ticarətxanaları nümayəndələri ilə müzakirata girişdi. Ehtimal var ki, tez bir zamanda bəzzaziyyə malı [parça, arşın malı], ayaqqabı və başqa mallar çox ucuz qiymətlə göndərmək mümkün olsun. Ümid var ki, iqtisadi və bəlkə də siyasi məsələləri yerində öyrənmək üçün Azərbaycana xüsusi bir heyət göndərilmiş olsun.

Başqa heyəti-mürəxxəsələrlə əlaqəmizə gəldikdə, bütün-bütünə rəfiqanədir [dostcadır], onlar bir çox məsələlərdə bizimlə birlikdə hərəkət edirlər. Ancaq bircə erməni heyəti-mürəxxəsəsi kəndisini kənara çəkmişdir. Erməni mürəxxəslərinin virdi [dilinin əzbəri] Türkiyə və Qafqaziya Ermənistanından vahid Ermənistan yaratmaq sözləri olduğu üçün onlar ayrılmaya da bilməzlərdir.

Heyəti-mürəxxəsəmiz fəaliyyətini müxtəsər təriqlə təsvir etməmizin xatiməsində onu da söyləmək lazımdır ki, şu qeyri-təbii şərait daxilində, ki şimdi heyəti-mürəxxəsələr işləyirlər, bizim heyəti-mürəxxəsəmiz bir çox işlər görə bilmişdir. Xüsusən onların həpsindən gec Parisə vürudlarını nəzərə alsaq, onların nasıl bir fəaliyyətdə bulunmaları zahir olar.

Heyəti-mürəxxəsəmiz az bir zaman içində bir çox siyasiyyun [siyasətçi] və başqa heyətlərlə sıxı əlaqələr bağlamağa müvəffəq olub, Konfrans üçün geniş məlumat hazır etmiş və camaatı dəxi onunla aşina etmişdir. Bu saat "Azərbaycan" sözü – ki az bir zaman irəliyə qədər heç də avropalılar içində bilinməyirdi – qəzetə sütunlarını doldurmaqda və böylə bir müstəqil dövlətin varlığını qarelərə anlatmaqdadır.

Heyəti-mürəxxəsəmizin ehtimamı [səylə çalışmaları] sayəsində Azərbaycan bir çox dairələrin marağını cəlb edir və gündən-günə onun gizli dövlətləri və iqtisadi həyatı bir çoxlarını kəndisinə tərəf çəkir. Azərbaycana göndərilmək üçün komissiyalar təşkil edilir və Azərbaycan həyatı ilə mükəmməl aşina olmaq və övzanı [vəziyyəti] yerində öyrənmək üçün nümayəndələr irsal qılınır [göndərilir].

Heyəti-mürəxxəsəmiz şu yolda işləməkdə davam edir ki, yeni əlaqə peyda etmək və əskilərini bərkitməklə camaatı hazırlasın və Konfransda Azərbaycan məsələsi qaldırıldıqda, hər kəscə tanınmış və bilinmiş olsun.

Bu tez vaxtlarda Azərbaycan müqəddəratının həll olunması gözlənilməyirsə də, istiqlal məsələsinin ümidbəxş bir vəziyyət almasına bir çox sübutlar vardır.

*(bitmədi)*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Rəisi-vükəlanın [Baş nazirin] xüsusi şöbə məsarifatı [xərcləri] və "Azərbaycan Cümhuriyyəti hökumətinin əxbarı" qəzetəsi nəşrinə məbləğ təxsisi [ayrılması] haqqındakı təqriri istemasından [rəsmi məktubu dinlənildikdən] sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyonluq fonddan mətlub [istənilən] məqsəd üçün 1919-cu sənənin axırınadək olmaq şərti ilə 200 min manat buraxılsın.

- Rəisi-vükəlanın Mart hadisatı əsnasında xırsızlardan [oğrulardan] alınıb bu vaxtadək Dövləti Bankda saxlanılan qiymətli əşya haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Əmvalı [malları] kəndi sahiblərinə qaytarmaq üçün Maliyyə, Daxiliyyə, Dövləti Müfəttişlik, Ədliyyə nəzarətləri nümayəndələri və Dövləti Bank nümayəndəsindən mürəkkəb [ibarət] xüsusi bir komisyon təşkil edilsin. Komisyon Ədliyyə naziri müavininin sədarəti təhtində [sədrliyi altında] çalışacaqdır.

- Ədliyyə nazirinin məhkəmə vəzifələri namizədləri haqqındakı təqriri istema-sından sonra qət edilmişdir:

Qanun layihəsini təsviblə [bəyənməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Ədliyyə nazirinin ölümü təsdiq üçün veriləcək şəhadətnamə haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Ədliyyə Nəzarəti tərəfindən təqdim edilən müvəqqəti nizamnamə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Dövləti müfəttişin Nəzarət məmurunun artırılması haqqındakı təqriri iste-

masından sonra qət edilmişdir:

Qanun layihəsini təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın. O vaxtadək Nəzarətə bir qaç vəzifə təsisi icazəsi verilməklə, 20 milyonluq fonddan məsarifatı üçün smeta hesabına olaraq 200 min manat buraxılsın.

- Maliyyə nazirinin 1918-ci sənədə Türkiyə üçün alınan və Şəki şəhərində qalmış 400 min manat qiymətində olan ipəyin dövlət malı hesab edilməsi haqqındakı [təqriri] istemasından sonra qət edilmişdir:

1) Vergi müfəttişi tərəfindən Şəkidəki ipək dövləti mal hesab edilərək dəmiryolu ləvazimatına mübadilə üçün Türuq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] verilsin.

2) Türuq və Məabir Nəzarətinə həman Nəzarət nümayəndəsi sədarəti ilə məhəlli [yerli] vergi müfəttişi olmaq şərti ilə xüsusi bir komisyon təşkil etsin ki, sabiq mal sahibləri ilə malın qiymətini qət etsin. Fəqət komisyon üçün əsasi qiymət 3200-4200 manatadək olmalıdır. Şimdi qiyməti təyin etmək mümkün olmazsa, o vaxt Türk Komandanlığı tərəfindən alındığı zaman məzənnə üzərinə təyin etməlidir.

3) Türuq və Məabir Nəzarətindən rica edilsin ki, birinci maddədə yad edilmiş yun və ipək alındıqda, Türk Komandanlığından peşkəş surəti ilə alınmış 2.598.879 manat 50 qəpiyi xəzinəyə verilsin.

4) Sahibsiz ipək xəzinəyə qəbul edilərək birinci maddə üzrə müamilədə bulunsun.

5) Göstərilmiş yun və ipəyi Bakı-Culfa yolları məbləğindən alınsın.

- Rəisi-Vükəlanın Səhhəti-Ümumiyyə nazirinin bir ay məzuniyyət istəməsi haqqındakı təqririndən sonra qət edilmişdir:

Müşarülileyh [haqqında danışılan] nazirə ağustosun 19-dan sentyabrın 19-dək bir aylıq məzuniyyət verilsin.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Məclisi-Məbusan üzvü Şıxəliyevin təsərrüfatı təxrib edilmiş şamaxılılara kəndi təsərrüfatını qaydaya salmaq üçün para buraxılması haqqındakı iqdamatına dair təqriri istemasından sonra qət edilmişdir:

Mart hadisatından zərərdidə olmuş şamaxılılar[a] istiqraz təriqilə [borc yoluyla] müavinət etmək haqqında Ümuri-Xeyriyyə və Nafiə, Maliyyə nazirləri, Dövləti müfəttiş həzrətləri müştərəkən məsələni müzakirədən sonra Rəisi-Vükəlaya təqdimi tapşırılsın.

- Posta-Teleqraf nazirinin hökumətin 12 noyabrdakı xidməti teleqram fiyatları haqqındakı qərardadın dəyişməsinə dair təqriri istemasından sonra qət edilmişdir:

Sabiq qərardad dəyişməklə işbu qərarlar qəbul edilir:

1) Məccani [pulsuz] teleqraf göndərmək ixtiyarına Rəisi-Vükəla, Məclisi-Məbusan rəisi, Post və Teleqraf naziri və Post-Teleqraf Komissiyası malikdir.

2) Xidməti teleqraf vermək ixtiyarına ümum nazirlər və müavinləri, general-qubernator, İstinaf Məhkəməsi [Məhkəmə Palatası] sədri və nahiyə məhkəmələri sədrləri Kazyonnı və Kontrolnı palata müdirləri, Dövlət Bankı müdiri, qubernator və qəza qaimməqamları malikdirlər.

3) Başqa müəssisələrin teleqramı isə ümum əsas üzrə, yəni para ilə qəbul edilir. Fəqət xidməti havi olarsa, ikincilər kimi veriləcəkdir.

4) Bütün müəssisələrə, verilmiş və veriləcək teleqraflar məsarifatını kəndi smetalarına düxulu tapşırılsın.

5) İkinci və üçüncü maddələrdə göstərilən məsarifat üçün istiqraz açılanadək müəssisə müəyyən dəftərlər üzrə depeşa verməlidirlər.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- İtaliya heyəti rəisi miralay [polkovnik] Qabba cənabları dün [dünən] Xariciyyə nazirini ziyarət edib uzun-uzadı müsahibədə bulunmuşdur.

- Finlandiya Cümhuriyyəti hökumətinin Azərbaycan Hökuməti indində [nəzdində] siyasi nümayəndəliyə təyin etmiş olduğu miralay Bitu Rinvist Bakıya varid olmuşdur.

- Xariciyyə naziri tərəfindən Parisdəki Azərbaycan sülh heyəti rəisi namına işbu məzmunda bir teleqraf göndərilmişdir:

*"Lənkəran məsələsi sülh üzrə həll olunmuşdur. Lənkəran qəzasında Azərbaycan Hökuməti bərqərar edilmişdir. Qarabağın erməni əhalisi nümayəndələrinin yeddinci qurultayı Azərbaycan hökumətinə tabe olmaq haqqında qərardad qəbul etmişdir.*

*Xariciyyə naziri:*
*[Məmməd Yusif] Cəfərov"*

## SEVDİYİM

*Azərbaycan bayrağına*

Altun köksün hilal-yıldız işıqları öpüncə,
Zirvəsindən Şah dağının gün doğuşu denilir.
Rəhm allahı, gözəlliklər tanrısı tək pək incə,
Bir səyaqla könüllərə hey salamlar söyləyir.
O yerlərdə qardaşları, dostları var, pək sevir,
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.

Canalıcı bir görkəmlə dağ başında durduqca,
Oxşadıqca bahar yeli açıq-dağınıq tellərin,
Nazlı əlin umuzunda saçlarına vurduqca,
Birər-birər oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altun dağdan doğma səslər bəkləyir
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.

Rümuzuyla dörd bir yana işıq saçmaq istəyir,
Ara-sıra tərpəniyor, yüksək uçmaq istəyir,
Qollarilə türk ellərin bütün qucmaq istəyir,
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.

*Cəfər Cabbarzadə*

## HƏZİN BİR XATİRƏ "İSMAİLİYYƏ"

*(mabəd)*

Günlər, aylar, illər keçdi, İsmailiyyə binası tədriclə tikilirdi. Acizləri hər zaman kəndi şəxsi işim kimi onu təqib edirdim. Orada olan və baş verən xoş və narəva [xoşagəlməz] hadisələrə şahid oldum. Böyləliklə, "İsmailiyyə" binası dörd illik bir zaman içərisində tamam olaraq başa gəldi. Onun üzərində cəli [qalın] xətlə yazılmış:

*"Və ən leysə lil-insani illa mə sə'a / Və ənnə sə'yəhu səvfə yurə"*

həqiqətləri ta uzaqlardan parlamaqda, hər kəsin nəzəri-diqqətini cəlb etməkdə idi.

Bu tarixdən sonra "İsmailiyyə" binası ictimai həyata başladı. Birinci olaraq "Cəmiyyəti-Xeyriyyə" idarəsi və dəftərxanası oraya daşındı. Onu mütəaqib [onun ardınca], Bakıda mövcud bütün maarif cəmiyyətlərinə orada yer verildi. Yersiz qalan "Səadət" ruhani cəmiyyəti məktəbini "İsmailiyyə"yə köçürdü. "Nicat" və "Səfa" maarif cəmiyyətləri idarə və dəftərxanalarını orada yerləşdirdilər.

Böyük müharibə başlandı. Bakı sərvətdarları rus hökuməti-müstəbidəsinə kəndi ixlasi-übudiyyətkaranələrini [səmimi qulluqlarını] göstərmək məqsədilə bir fədakarlıqda bulunmaq, bir xidmət göstərmək istədilər. Bunun üçün özünün hüsn-ü lətafəti ilə, nəqş-ü nigarı ilə Bakının birinci dərəcədə binalarından mə'dud olan [sayılan] "İsmailiyyə"ni əsgəri bir xəstəxana halına salmağa qərar verdilər. Orada yerləşən "Səadət" məktəbini, maarif cəmiyyətlərini həp dişarı çıxardılar.

Birinci kərə olaraq "İsmailiyyə"nin o möhtəşəm salonunda açılmış olan xəstəxananın rəsmi-güşadı [açılış mərasimi] vaqe oldu. Rəsmi-güşadda bir çox Bakı əyanı hazır bulunurdu. Bakı qazısının Nikolay və xanədanına etdiyi duasını mütəaqib, "Boje tsarya xrani" nəğməsinin türkcəyə tərcüməsi oxundu. Artıq "İsmailiyyə" binası Qafqaz cəbhəsində yaralanan saldatlara xidmət edirdi.

Zavallı "İsmailiyyə" bir çox zaman rus saldatlarının məskəni oldu, hətta onun divarlarının birisində, qarşısında xəfif bir mum yanmaqda olan Həzrəti-İsanın rəsmi də asılmışdı. "İsmailiyyə"dən səhər və axşam çağları rus saldatlarının duası və əsgəri nəğmələri səsi eşidilirdi.

* * *

"İsmailiyyə" binası Qars və Ərdahan hərbzədələrinə müavinət və qardaşlıq əlini uzatmaqla, xalq arasında məşhur oldu. Azərbaycanın hər yerindən zavallı qardaşlara yardım üçün ianələr gəlirdi. "Qardaş köməyi" günü təsis edildi, Qars və Ərdahan çöllərindən bir çox sahibsiz qalmış çocuqları "İsmailiyyə" binası müşfiq bir ana kimi ağuşi-şəfqətində bəslədi. Bütün fələkzədələrin, müavinətə möhtac olanların nəzəri "İsmailiyyə"də idi. Hər kəs üzünü ona tərəf tutsa idi, naümid qayıtmazdı. "İsmailiyyə" binası hər kəsi özündən razı sala bilirdi.

Zaman bir hal ilə davam etməz. Rusiyada inqilab oldu. Nikolayın Rusiyə taxtından enməsi ilə rus saldatlarının "İsmailiyyə"dəki iqballarıdəyişdi. Artıq onların vücudu orada artıq idi. Budur ki, tədriclə "İsmailiyyə" binası rus saldatlarının vücudundan təmizləndi.

* * *

İnqilabdan sonra "İsmailiyyə" binası siyasi cərəyanların mərkəzi oldu. Birinci Qafqaz Müsəlman Qurultayı orada açıldı. Birinci olaraq muxtariyyət və ədəmi-mərkəziyyət fikri orada açıldı, meydana atıldı. Bu tarixdən sonra bütün yığıncaqlar, siyasi müsahibələr, məruzələr həp orada olur, oxunur, dinlənirdi.

"İsmailiyyə"nin o kimsəyə baş əymək istəməyən möhtəşəm salonu bir çox tarixi vəqələrin şahididir. Bir çox natiqlərin nitqini onun yanmış daşları hələ də əks

etdirməkdədir. Biz azərbaycanlılar "İsmailiyyə"də bir çox şad və qəmgin günlər keçirmişik, müqəddəratımız haqqında orada bir çox məruzələr dinləmişik, gələcəyimiz barəsində bir çox qərarlar çıxarmışıq. Biz onun büllurin çıraqları, Bakının bir çox uzaq yerlərindən nəzəri-diqqəti cəlb edə biləcək bir halda pərtövəndaz [işıq saçan] səqfi altında bir çox gecələr keçirmişik ki, bizlərdən kimsə onları unutmamışdır.

"İsmailiyyə" binası bizimlə bərabər böhranlı zamanlar da keçirmişdir. Orada vaqe olan rəsmi-güşadında oxunan "Rəbbim, şahı hifz et" qədər məşum bir iclas[ı], son iclasını heç bir halda unutmayıram. Bu da "İsmailiyyə" binasının iki sənəlik bir həyatının son parçası, tarixi bir faciənin pərdəsi idi. Oranın mövqeyi-sədarətini bir taqım qeyri-məsul şəxslər qəsb edib, Mirmöhsünlər, Quliyevlər millətin müqəddəratı ilə oynayır, hissiyyata qapılaraq bilərəkmi, bilməyərəkmi milləti, xalqı uçuruma, müdhiş bir uçuruma, fəlakətli bir girivəyə, daha doğrusu qanlı bir məzbəhə, qətlgaha sövq edirdi.

*(bitmədi)*

*Seyid Hüseyn [Sadiq]*

**MÜƏLLİMLƏR QURULTAYI**

*Dördüncü məclis*

Məclis 15 nümayəndənin iştirakı ilə 22 avqust saat 7-də açılır. Növbədəki məsələlərin müzakirəsindən əvvəl:

1) Sədr [Ağababa bəy] İsrafilbəyzadə bir məruzə oxuyaraq nümayəndə olduğu üçün məclisdə iştirak edəmməyəcəyini söyləyərək istefa edir. Bununla bərabər, Axundzadə İdris də heyəti-rəyasətdən müəyyən qanuna görə ayrılmaq istər. İstefa qəbul olunur. Yerlərinə Axundzadə Cavad ilə Əfəndizadə Məbud əfəndilər keçirlər.

2) Bakı müəllimləri tərəfindən çoxluqları və lazımi üzərinə iki müəllimə nümayəndəsi qəbuluna qərar verilir. O zümrədən birisi Əfəndizadə Şəfiqə xanım sayılaraq heyəti-rəyasətində qalır.

3) Təbrik teleqrafları oxunur. Qarabağdan:

*[A)] "Böylə ağır bir zamanda türk millətinin rifah və səadətini mütəzəmmin məsaili [ehtiva edən məsələləri] həll və müzakirə üçün əziz vətənimizin müxtəlif tərəflərindən toplanmış maarif xadimlərini Qarabağ müəllimlər kursu müdavimləri namından səmimiyyətlə alqışlar, əziz qardaşlarımızın ciddi zəhmətləri müsbət nəticələr verməklə qəlbimizi məsrur [şad] edəcəyinə əminiz. Müqəddəs iqdamatınız [təşəbbüsünüz] üçün Cənabi-Haqdan istirham edər.*

*Məkatib müfəttişi [Haşım bəy] Nərimanbəyov"*

*B) "Türk milləti-nəcibəsinin ehtiyacati-ürfaniyyəsinə xidmət üçün toplanmış qurultayı ümum Qarabağ Müəllimləri İttifaqı namından təbrik və Cənabi-Haqdan tofiq [kömək] istirham edir."*

Sonra növbədəki məsələlərdən məramnamə müzakirəsinə keçilir.

4) Məramnamə hazır olmadığından, iki gün zərfində tamam edilməsinə qərar verilərək məsələ təxir olunur. Müzakirə

üçün növbədə məsələ olmadığından, bəzi təkliflər vaqe bulur:

Müəllimlər[ə] ərzaq təmini, təqaüd təmini və bu təqaüdün milli və qeyri-milli Azərbaycan daxilində xidmət edən bütün müəllimlərə təşmili [şamil edilməsi], bir də məktəblərdə təsxinat [qızdırma], tənvirat [işıqlandırma] və müəlliminin [müəllimlərin] maaşı üçün bilxassə bu məsələlərdə – ki şəhər müəllimlərinin də hüququ müdafiə edilmək şərti ilə – bir komissiya təşkili təklif və qəbul olunur. Hüseynəli[yev] Əliməhəmməd və Zeynalzadə Mirzə Məhəmməd əfəndilər bu komissiyaya seçilərək yarından etibarən işə başlamaları ixtar olunur [tapşırılır]. Bu komisyon üç gün[ə] qədər təşəbbüsü haqqında qurultaya məruzə verməlidir.

5) Maliyyə Komisyonunun, nümayəndələrin yerləşmələri və yerləri üçün şimdiyə qədər yataq bulunmadığından və tədarükü mümkün olmadığından hotellərdə odalar rekvizitə olunması haqqında məruzəsi qəbul olunur.

Yarın saat 4-də açılmasına qərar verilərək məclis saat 9-da qapanır.

## BAKI XƏBƏRLƏRİ

### Seyri-səfain işləri

Bazar günü saat 12-də Velikobritaniya Seyri-səfain [Gəmiçilik] idarəsi kəndi fəaliyyətini bitirərək hər bir işini və idarə maməlәkini [mal-mülkünü] Azərbaycan xüsusi komissiyasına təslim edəcəkdir.

### Müşavirə

Azərbaycan hökuməti ilə "Rus", "Samolyot" və "Qafqaz-Merkuri" paroxod cəmiyyətləri müttəfiq bürosunun bəhri-Xəzərdə seyri-səfain [gəmi naviqasiyası] işlərini yoluna salmaq məsələsində saziş yapmaq üçün bir qaç müşavirələri olmuşdur.

### Şattlvort Rəisi-vükəla hüzurunda

İngilis qoşunlarının Bakıdan getmələri münasibətilə şənbə günü avqustun 23-də İngilis Komandanlığı rəisi general Şattlvort ərkani-hərb [qərargah] naçalniki ilə bərabər Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli həzrətlərinin ziyarətlərinə getmişlərdir.

İki saata qədər imtidad [davam] etmiş olan söhbət əsnasında Şattlvort çox razılıq edərək Azərbaycanın idarəsindən, hökumətindən və xalqından çox razı qaldığını bildirmiş və Azərbaycana qarşı səmimi xeyirxah olduğunu bəyan etmişdir.

Dübarə, eyni münasibətlə bazar günü avqustun 24-də yenə həman general Şattlvort hökumət idarəsində Rəisi-vükəla həzrətlərinin rəsmi görüşünə gedərək ingilis ərkani-hərbi və ümumiyyətlə, Bakıdakı ingilislər namından Rəisi-vükəla həzrətləri ilə vidalaşaraq yenə Azərbaycandan və azərbaycanlılardan çox məmnun olub səmimi xeyirxahlığını bəyan etmiş və hökumət rəisi ilə vidalaşmışdır.

General Şattlvort Bakıda və Azərbaycanda bulunduqları zaman ingilislərin gördükləri mehmannəvazlıq və hüsn-rəftarı qeydlə məmləkət, hökumət və ümumiyyətlə idarə işlərimizin ingilislərə hüsn-təsir bağışlamış və onlarda Azərbaycana hüsn-təvəccöh və yaxınlıq və xeyirxahlıq hissi oyatmış olduğunu bəyan etmişdir.

**Rəsulzadə əfəndinin leksiyası**

Ayın 26-da Balaxanıda Balaxanı Mərkəzi "Müsavat" şöbəsinin təşəbbüsü ilə Balaxanski krujokda Rəsulzadə Məhəmməd Əmin əfəndi tərəfindən "Azərbaycan Cümhuriyyətinin Parlaman dövrü" mövzusunda müfəssəl bir leksiya oxunacaqdır.

**Parlaman komissiyalarında**

Məclisi-Məbusanın Maliyyə-Büdcə komisyonunda Maliyyə Nəzarətinin zeyldəki [aşağıdakı] ləvayehi-qanuniyyəsi [qanun layihələri] müzakirə olunub qəbul olunmuşdur:

1) Azərbaycan məmləkətindən xaricə çıxarılan ispirto məşrubatına [spirtli içkilərə] alınan gömrük vergisi miqdarı haqqında Maliyyə Nəzarətinin qanun layihəsi (məruzəçi Əbdüləli bəy Əmircanov);

2) Maliyyə Nəzarəti idarəsi cənbində [nəzdində] qeyri-hissəyi-şayiə vergilərinin (neokladnoy sbor) və inhisar şöbəsi təsisi haqqında qanun layihəsi (məruzəçi Əbdüləli bəy Əmircanov);

3) Balıq və məhsulatı ixracı vergisinin artırılması haqqında qanun layihəsi (məruzəçi Əbdüləli bəy Əmircanov);

4) Vergi müdiriyyətləri hissələrində qapıçı tutulması üçün sənəvi [ildə] əlavə olaraq 70200 manat təxsis edilməsi [ayrılması] haqqında qanun layihəsi (məruzəçi Əbdüləli bəy Əmircanov).

**"Müsavat"da**

Avqust ayının 21-də Quba qəzasında olan Taqay kəndində Mirhidayət cənabları sədarəti ilə, 22-də Quba qəzasının Eynibulaq kəndində Mirhidayət cənablarının sədarəti ilə və Ərəb Həmyə camaatı Mirhidayət Mirdamadzadə cənablarının sədarəti ilə iclaslar tərtib verilərək Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Mərkəzi Komitəsi tərəfindən gəlmiş Miryusif İbrahimli "Müsavat"ın şöbəsi açılmasını təklif edir və bu münasibətlə Denikinin təhlükəsi, Lənkəranın alınması, xaricilərin daxilimizdəki hiylələri, hökumətimizin hal-hazırda fəaliyyəti, ingilislərin politikaları və yeni təsis olası şöbənin nə yolda işləməsi xüsusunda verdiyi məlumatlardan sonra iclasda qərar qoymuşlar ki:

1) "Müsavat"ın şöbəsi açılsın və:

2) Şu kəndlərin Quba üstündən götürülüb Bakıya mülhəq olunması [birləşdirilməsi] xüsusda qubernatordan xahiş olunsun.

**İttihadi-İraniyan məktəbinə**

Daxil olmaq istəyən şagirdlərin ərizələri qəbul olmaqdadır. Xahiş edənlər hər gün saat 9-dan 1-dək məzkur [deyilən] məktəbin sabiq binasında (Sadovı, nömrə 19) idarəyə müraciət edə bilərlər.

**Gecə kursları**

"Cəmiyyəti-Maarifi-İraniyan" Tərəqqi heyəti-idarəsi tərəfindən böyüklərə (kübara) məxsus gecə kursları açılmışdır. Həman kurslarda ibtidai farsi, türki, rusi, hesab tədris olunacaqdır. Oxumaq arzusunda bulunan zəvat [şəxslər] hər gün saat 9-dan 1-dək "İttihad" məktəbində idarəyə müraciət edib adlarını qeyd etdirə bilərlər.

**Qubernator**

Qubernator təyin olana qədər Bakı

vilayətini idarə etmək üçün Bakı qubernatorunun baş müavini Əmir xan Xoyski təyin olunmuşdur. Dünən məhkəməni təhvil götürüb işə şüru etmişdir [başlamışdır].

**İngilislərin getməsinə dair**

Böylə xəbər verirlər ki, ingilislərin axırıncı eşelonu Bakıdan avqustun 26-da gedəcəkdir. Şu qoşunların çox hissəsi bir qaç vaxt Tiflisdə saxlanasıdır.

**Könüllü ordu nümayəndəsinin getməsi**

Könüllülər komandanlığının nümayəndəsi polkovnik Palitsın general Radko-Dmitriyevin oğlu ilə bahəm Bakıdan getmişlərdir. Bakıda ancaq Könüllülər Komandanlığının siyasi nümayəndəliyindən bir məmur qalacaqdır.

**Ziminin vürudu**

Mavərayi-Bəhri-Xəzər hökumətinin qabaqkı rəisi Zimin bir müddətlik Bakıya gəlmişdir.

**Hacı-Tərxanda**

Petrovskdan varid olan [gələn] "Sergey" adlı hərbi gəminin baş qulluqçuları xəbər verirlər ki, Bakıya gəldikləri zaman yolda Hacı-Tərxandan çıxmış iki yelkən gəmisini və bir motorlu qayığın qərq olunmasını xəbər verilən telsiz teleqraf xəbərini zəbt etmişlərdir. Bunların verdikləri xəbərə görə, Hacı-Tərxan tərəfinə böyük piyada və süvari qüvvələri toplanmaqdadır və buna binaən [buna görə], bu yaxınlarda şiddətli vuruşmalar gözlənməsinə şübhə ola bilməz.

**Ziraət**

Ziraət [Əkinçilik] naziri Bakı qubernatorundan xahiş etmişdir ki, Quba qəzasının əkinçilərindən xəzinəyə təəllüq [məxsus] olan buğdanın sürətlə toplanması haqqında binagüzarlıqlar etsin [tədbirlər görsün].

**Teleqraf xətləri**

Türüq-Məabir [Nəqliyyat-Rabitə] naziri Bakı qubernatoruna müraciətən xahiş etmişdir ki, qəza polis məmurlarına naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən teleqraf xəttini[n] xarab olunması-nı bildirərək, onun müqabilinə ciddi binagüzarlıqlar olunması haqqında düs-turüləməl versin.

**Bir arvadın yanmağı**

Avqustun 20-də Nobel firmasından xəbər vermişlər ki, ayın 19-da orada xidmət edən Akulina Vaxatinaya adlı arvad səhər saat 8-də samovarın üstündə parafinlə iskipidar qaynadarkən samovarın üstündə bu əcza [məhlul] od almışdır. Arvadın libasına da od düşüb bədənini tamamilə yandırmışdır. Arvad Sovet Syezd xəstəxanasına göndərilmiş və orada vəfat etmişdir.

**Dəmiryol ətrafında**

Məsai Nəzarəti [Əmək Nazirliyi] Vükəla Şurasına [Nazirlər Kabinetinə] Azərbaycan dəmir yollarının baş emalatxanası "Eyzenşmidt", "Snaryad" və "Bolt"da olan tətilə dair böylə məlumat verilir:

"Şu zavodlar ümdə emalatxana olduğu zamandan bəri oradakı xidmətçilərə hökumət tərəfindən təyin olunub da Parlamento təsvib [təsdiq] etdiyi məvacib

verilirdi. Yeni maaş irəlikindən əskik olmağından və 33 mütəxəssis xidmətçilərə irəli aldıqları məvacib verilməsi xidmətçilər miyanında [arasında] iğtişaş və narazılığa səbəb olmuşdur. Məsai naziri şu məsələ münasibətilə Vükəla Şurasına müraciətlə, Parlamento xidmətçilərə yeni maaş təyin edənə qədər bir layihə pişnihad [təqdim] etmişdirsə də, hələ indiyə qədər şu layihəyə baxılmamışdır.

Bu müddətdə emalatxanalarda davam edən iğtişaş şimdiyə qədər davam edən tətilə mübəddəl olmuşdur [çevrilmişdir]. Nəzarətin binagüzarlığına görə, Məsai müfəttişi tətili dayandırmaq üçün kəndi sədarəti altında iki Sentrosoyuz nümayəndələri ilə iki nəfər Azərbaycan dəmiryollarının idarəsi nümayəndəsindən ibarət bir komissiya təşkil etmişdir.

Yollar rəisi və müvəqqəti general-qubernator [Teymur bəy] Məlikaslanov Baş Məsai müfəttişinə xəbər vermişdir ki, şu zavodlar onun təhti-idarəsində [tabeçiliyində] olan dəmiryollarda olmağa görə, onlara aid məsələlər yolların idarələrində rəislər nümayəndələri ilə fəhlə nümayəndələri arasında həll oluna bilərlər. Buna binaən də [buna görə də] əvvəlki komissiya işləyə bilmədi və ümdə emalatxanaların rəisləri isə müzakirəyə şüru etmədən [başlamadan] əvvəl güc ilə tətili yatırmaq fikri ilə 95 və 2 nömrəli hökmləri verib iki nəfər fəhləni həbsə almışdır.

Məsai naziri Vükəla Şurasına bu məlumatı verdikdə xahiş edir ki, müahidənamənin [sazişin] nöqtələrini həll etməklə bərabər, fəhlələrə tətil günlərinin maaşını da versinlər. Çünki bu məsələlərin qəbul olunması hətta tətildən qabaq lazım görülürdü.

## AZƏRBAYCANDA

**Azərbaycan əsgərlərinin Salyana vürudu**

Salyanın pək sıcaq və tozlu havası o günü sərin və təmiz idi. Ancaq ruzigar həzin-həzin səslənib yari-dilrübasının [könül alan, məftun edən yarının] intizarında olan bir şeyda [dəlicəsinə aşiq] kimi mizrabını sazına vurub da yavaş-yavaş o həqiqi ürəkdaşını oxşar kimi görünürdü.

Əcəba, o ürəkdaşı kim idi?

Cavan Azərbaycanın cavan əsgərləri.

Bu əsgərlər Salyandan keçib də Lənkəran məzlumlarının dadına yetişəsidirlər. Neçə gündür hamının qulağı səsdə, “əsgər gəlir, əsgər gəlir” deyə hamının qəlbi pək səmimi qələyan [coşğu] və həyəcan ilə doludur. Əsgər isə hələ gəlməyir.

Fəqət budur avqustun 15-i cümə günü camaat axın-axın Kürün o biri tərəfinə pişvaza keçir. Əsgərlərin gəlməyi həqiqətə çıxır. Mən də arxadaşlarımla Kürün o biri sahilinə gedirəm. Hamının üzü aydın, dodaqları gülər, hamının ürəyi həqiqi sevinclə dolu, qadın, erkək, uşaq – hamı öz məhəbbətini, öz hissiyyatını büruzə çıxarmaq istər. Fəqət “Yaşasın əsgərlərimiz!” kimi sadə və təbii hissiyyatla dolu olan bu ləfzlərdən [sözlərdən] başqa ayrı bir təbirat [ifadələr] bulammazlar. Hər yanda bu sözlərlə əsgərləri alqışlarlar.

Budur, əsgərlər şəhər sahilinə keçib küçə ilə qərargahlarına getməyə başlarlar. İrəlidə musiqi çalınır. Komandanlar irəlidə at üstə gedir. Əsgərlər isə səfbəsəf onların arxasınca şərqi oxuya-oxuya yürüyürlər. Hamısının üzü sağlam, qəlb-

ləri açıq və şad. Hamısının ruhu yüksək, hamısı qədəmlərində möhkəm və sabit. Üzlərindən, gözlərindən şücaət, vətən hissi, millət eşqi yağır.

Küçələr camaatla dolu, qadın, erkək, uşaq – hamısı biri-birinə qarışıb, hamı xeyir-dua eylər. "Xoş gəlmisiniz, qardaşlarımız, oğlanlarımız" deyə qadınlar sevincindən axan göz yaşları ilə əsgərləri qarşılayarlar.

O gün həqiqi bir bayram oldu. Hamı geniş nəfəs aldı. Hamının ürəyindən bir qubar götürülüb ruhu saflaşdı. Hey "Bundan sonra başımızla, canımızla, pulumuzla gərək Azərbaycanımızı saxlayaq" kimi ciddi və qəti sözlər eşidilirdi.

Şimdi mən də öz səmimi hissiyyatım ilə bölüşmək istərəm. Və üzümü o cavan əsgərlərimizə tutub deyirəm:

"...Və siz ey ordumuzun anlı-şanlı əfradı,

Siz ey gözəl vətənin bərgüzidə övladı,

Siz ey güşadəalınlar, güzidə vicdanlar,

Siz ey ürəkli və arslan ürəkli insanlar!.."

Uğur olsun, Cənabi-Haqq sizə kömək etsin. Sizi salamat ailənizə qaytarsın. Yaşayın, ey cavan vətənimizin aslanları, ey dizimizin taqəti, ürəyimizin süruru [sevinci], yaşayın və var olun, ey vətənin mühafizəsi yolunda can qoyan qardaşlar.

*Müəllimə Mina [Axundzadə]*
*Salyan*

## İDARƏYƏ MƏKTUB

**Səadət idarəsinə açıq məktub**

Əfəndim, rica edirəm, şu zeyldəki [aşağıdakı] bir qaç kəlməyə qəzetənizin bir guşəsində yer verəsiniz:

Kəndi öhdəmdə olan vəzifəni itmama yetirməkdən [tamamlamaqdan] ötrü Səadət idarəsinə elam edirəm [bildirirəm] ki, sentyabr ayının birinədək əgər məktəbi açmalıdırlarsa, rəsmən xəbər versinlər. Açmalı deyillərsə yenə bəndəyə xəbər versinlər və gəlib əşyalarını məzkur [deyilən] vax-tadək təhvil almalıdırlar. Əks surətdə mən də məsul deyiləm.

*Bakı Səadət mədrəsəsinin müdiri:*
*Hacı Şıxəli Feyzullazadə*
*Bakı, 23 ağustos 1919*

**İtibdir**

Ağahüseyn Ağadadaş oğlunun Bakı Məşixət [Şeyxülislamlıq] İdarəsindən aldığı 111 nömrəli pasportu və Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsindən aldığı şəhadətnaməsi itib. Etibardan saqitdir [etibarsızdır].

*7493*

**İtibdir**

Fatma xanım Süleyman qızının ev dəftəri itib. Etibardan saqitdir.

*7491*

**İtibdir**

Əsədbala Hüseynbala oğlunun dördüncü polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir.

*7490*

**İtibdir**

Hənifə Bəhman oğlunun Bakı Məşixət İdarəsindən aldığı pasportu itib. Etibardan saqitdir.

*7492*

**Tüfəng**

Ovçu kostyumu, bir böyük durbin (binokl), bir puda qədər qırma (saçma), 5 girvənkə barıt və sair ovçu ləvazimatı ittifaqən [təsadüfən] satılır.

Nijni Təzəpirski (Poçtovının küncü), nömrə 1. Evin komitə sədrindən, saat 5-7 xəbər almaq olar.

*7494*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfününu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 440. "Vidalaşma" adlı xəbər qəzetdə səhvən "Teleqraf xəbərləri" içində verilmişdir, halbuki "Qismi-rəsmi" içində olması lazım gəlir.

**Teleqraf xəbərləri**

səh. 442. "Cənubda övza" adlı xəbər və "Lehistan və Romanya yaxınlığı" adlı xəbərin bir hissəsi qəzetdə səhvən "Qismi-rəsmi" içində verilmişdir, halbuki "Teleqraf xəbərləri" içində olması lazım gəlir.

səh. 443. "Şimal-qərbi Rusiyada yeni bir hökumət təşkil edilmişdir.": Söhbət Şimal-Qərb Hökumətindən gedir. Şimal-Qərb Hökuməti (yaxud Rusiyanın Şimal-Qərb Vilayətinin Hökuməti) 1919-cu ildə Reveldə (indiki Tallində) qurulmuşdu. Rus siyasi partiyalarının və Rusiyada Müttəfiqlər Komandanlığının birgə koalisiyası ilə qurulmuşdu. 1919-cu ilin avqustundan dekabrına qədər mövcud olmuşdur. Baş nazir Stepan Georgiyeviç Lianozov, Hərbi nazir və Baş komandan Nikolay Nikolayeviç Yudeniç idi.

səh. 444. "çar Borisin xəlli": 1918-1943-cü illərdə Bolqarıstan çarı olan III Boris nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 445. "Romanyanın... Rumıniyaya": qəzetdə ölkə adı hər iki şəkildə işlənmişdir.

**Qəzetələrdən**

səh. 446. "Deyli xronikl" [Daily Cronicle]: 1872-1930-cu illərdə nəşr edilən ingilis qəzeti.

səh. 447. "ershersoq İosif": 1918-1919-cu illərdə Macarıstan regenti olan ershersoq İosif Avqust nəzərdə tutulur.

"sabiq yunan kralı Konstantin": 1913-1917 və daha sonra 1920-1922-ci illərdə Yunanıstan kralı olan I Konstantin nəzərdə tutulur.

**İran işləri**

səh. 449. "zilhiccənin əvvəlindən etibarən": miladi təqvimlə 1919-cu il avqustun axırlarına düşür.

"Astrabad": İranın şimalında bugünkü Gürgan (yaxud Qorqan) şəhərinin keçmiş adı.

"Aşurada" (yaxud Aşuradə): Xəzər dənizinin cənub-şərqində ada; Xəzərdə İrana məxsus yeganə adadır.

Bəndər Gəz: İranın Gülüstan ostanında, Xəzər dənizi sahilində şəhər.

**"Sevdiyim" şeiri (səh. 454) üçün lüğət:**

rümuzuyla: rəmzləriylə.

**Nəzarətlərdə**

səh. 454. "Bitu Rinvist": bu adı dəqiqləşdirmək mümkün olmadı.

**Həzin bir xatirə İsmailiyyə"**

səh. 454. "Və ən leysə lil-insani illa məsə'a / Və ənnə sə'yəhu səvfə yurə": Quranın "Nəcm" surəsinin 39-40-cı ayələri; mənası: "İnsana ancaq öz zəhməti qalar! Şübhəsiz ki, onun səyi görünəcəkdir!"

səh. 455. "Boje, tsarya xrani": (Tanrım, çarı qoru) 1833-1917-ci illərdə Rusiya imperiyasının dövlət himni olmuşdur. Sözləri Vasili Jukovskinin, musiqisi Aleksey Lvovundur.

"siyasi müsahibələr": qəzetdə "siyasi" sözü təhrif edilmişdir.

**Bakı xəbərləri**

səh. 458. "Taqay": Siyəzən rayonunun Tuğay kəndi nəzərdə tutulur.

"Ərəb Həmyə": Siyəzən rayonunun indiki

Böyük Həmyə kəndi keçmişdə belə adlanmışdır; qəzetdə səhvən "Ərəb Həmid" kimi getmişdir.

"Sadovı": Bakıda küçə; indiki Səbail rayonunda Şövkət Ələkbərova küçəsi.

səh. 459. "Şu zavodlar ümdə emalatxana olduğu...": qəzetdə cümlənin (abzasın) əvvəlində səhvən "vermişdir." sözü getmişdir.

səh. 460. "Sentrosoyuz": İstehlak Cəmiyyətləri Mərkəzi İttifaqı; istehlak cəmiyyətlərinin ali koordinasiya orqanı olan qeyri-ticarət qurumu.

**Azərbaycanda "...Və siz ey ordumuzun anlı-şanlı əfradı" misrası ilə başlayan bənd (səh. 461) üçün lüğət:**

əfrad: fərdlər, şəxslər

bərgüzidə: xüsusilə seçilmiş

güşadəalınlar: açıq alınlılar; alnıaçıq olanlar

güzidə: seçilmiş, bəyənilmiş

**Tüfəng**

səh. 462. "Nijni Təzəpirski": Bakıda, indiki Mirzə Fətəli küçəsi.

"Poçtovı": Bakıda, indiki Süleyman Tağızadə küçəsi.

Çərşənbə axşamı, 26 avqust 1919-cu il, nömrə 261

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 29 zülqədətül-haram sənə 1337. 26 ağustos 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat.

Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-nədək heasb olunur.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

## "AZƏRBAYCAN" QƏZETƏSİ KONTORU TƏRƏFİNDƏN

Qəzetəni nəşr etmək üçün məxaric artdığından, kağızın və bir para mətbəə materiallarının bahalandığından dolayı "Azərbaycan" qəzetəsi nəşriyyatı həmin avqust ayının 23-dən müvəqqəti olaraq qəzetənin tək nüsxəsi fiyatını 2 manat etməyə məcbur olmuşdur. İşbu abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-ədək hesab olunur.

## SİRK "MODERN"

Səşənbə günü avqustun 26-nda 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 59-cu günüdür.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Zakoroyko – Kalişeviç.

2-nci: Oleynikov – Jan-de-Kolon.

3-ncü: Buyvolov – Krayevski.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır. Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

**Elan:** Təzə artistlər və pəhləvanlar gəlir.

*7495*

## ELAN

Azərbaycan Dəmiryol İdarəsi bununla elan edir ki, həmin avqust ayının 22-dən hər gün, cümə və bayram günlərindən başqa, saat 10-dan Bakı yük istasyonunun 11-ci skladında sahibləri tərəfindən aparılmayan mal və yüklər, məsələn hər cür kağızlar, kitablar, ev əşyaları, mətbəx qabları, köhnə-təzə paltar, gömlək, aptek malları və sairələri müzayidə (torq) [hərrac] təriqi [yolu] ilə satılacaqdır. Həmin malları yuxarıda zikr olunan skladda torq olan günlər görmək olar. Torq edən Həcz və Təsviyə [Müsadirə və Ləğvetmə] Komissiyası Azərbaycan Hökumətinin 1919-cu sənəsi 7 may qətnaməsi mövcibincə [qətnaməsinə əsasən] hərəkət etməkdədir.

*T-225*

## ELAN

Azərbaycan Dəmiryol İdarəsinin Ekspluatasiya Qulluğunun [İstismar Xidmətinin] ticarət hissəsi elan edir ki, dəmiryol ilə işi olanlara, Batuma və geri məktub göndərməyə imkan vermək məqsədilə avqustun 26-dan Dəmiryol nazirinin icazəsi ilə (21 avqust, 1919,

nömrə 1246) Bakı şəhərində Bakı şəhər stansiyasında (Olqinski və Merkuryevski küçələrinin küncündə) məktubat [məktublar] qəbul ediləcəkdir. Batum şəhərində isə Azərbaycanın Batum agentliyində (Naberejni nömrə 8) bayram günlərindən başqa hər gün səhər saat doqquzdan birə qədər məktubat qəbul edilib veriləcəkdir. Səkkiz lotdan artıq olmamaq üzrə paketlər (zərflər) bağlanmamış bir halda qəbul ediləcəkdir. Poçta markasından əlavə hər paketə 25 manat komisyon haqqı alınacaqdır. Məktubat həftədə iki dəfə beş və altı nömrəli sürət qatarları ilə aparılıb-gətiriləcəkdir.

*T-224*

## "İTTİHADİ-İRANİYAN" MƏKTƏBİNDƏ

Daxil olmaq istəyən şagirdlərin ərizələri qəbul olunmaqdadır. Xahiş edənlər hər gün saat 9-dan 1-ədək məzkur [adı çəkilən] məktəbin sabiq binasında (Sadovaya nömrə 19) idarəyə müraciət edə bilərlər.

*7487*

## PULSUZ GECƏ KURSLARI

Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi" heyəti-idarəsi tərəfindən kübara (böyüklərə) məxsus gecə kursları açılmışdır. Həman kurslarda ibtidai farisi, türki, rusi, hesab tədris olunacaqdır. Oxumaq arzusunda bulunan zəvat [şəxslər] hər gün saat 9-dan 1-dək "İttihad" məktəbində idarəyə müraciət edib adlarını qeyd etdirə bilərlər.

*4386*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Azərbaycan əhaliyi-islamiyyəsinə [müsəlman əhalisinə]**

Bu günlərdə rayonlarda və məhəllat aralarında Könüllü təşkilatı haqqında bəzi kimsələr tərəfindən əhaliyə propaqandalar yapılmaqda və guya təşkilat tərəfindən təlim və tərbiyeyi-əsgəriyyəyə alışdırılan könüllülərin bilaxirə [daha sonra] zorla cəbhəyə və ya xidməti-əsgəriyyəyə alınacağını və daha bəzi gunə [bəzi cür] təlqinatlarda bulunduqları məələsəf [təəssüflə] xəbər alınmaqdadır.

Əvvəla, hər kəs bunu bilməlidir, hökumətin əsgər almaq üçün özünəməxsus qanunu vardır ki, o qanun daxilində istədiyi miqdarda əsgər almağa müqtədir və səlahiyyətdardır. Bu gün 25 sinninə [yaşına] qədər aldığı kimi, yarın arzu edərsə 30-na qədər ala bilər. Hökumətin böylə təşkilatlara ehtiyacı yoxdur.

Saniyən [ikincisi], Könüllü təşkilatında könüllü olaraq təlim və tərbiyə görənlər isə sinni-əsgəridə [əsgərlik yaşında] olmayıb, müxtəlif yaşda bulunan əhalidir. Böylə qarışıq yaşda olan insanlar hökumətə əsgər ola bilməzlər.

Salisən [üçüncüsü], hökumət əsgərində lazım olan zəbtü-rəbt [nizam-intizam] laəqəl [ən azı] iki sənə qışla [kazarma] həyatında sıxı inzibat altında təlim etməklə olur. Könüllü təşkilatı isə hər kəs yazılmasında, təlim və tərbiyəsində sərbəst olmaqla bərabər, iki-üç ay ancaq təlim edilir. Cəbhəyə gedəcək əsgər üçün bu qədər təlim və tərbiyə kafi olmadığı məlumdur.

Rabiən [dördüncüsü], Könüllü təşkilatında təlim və tərbiyə edən əhalinin bir çoxusu ailə və digər cəhətlərcə də əlaqədar olduqlarından, bu kimi adamların bir dəfə əsgərliyə alınammayacaqlarını kəndiləri də bilməlidirlər.

Xamisən [beşincisi], rayon əmələləri [fəhlələri] dəxi bilməlidirlər ki, mədənlərdə çalışan əmələlərimiz hökumətə cəbhələrdə bulunan əsgərlərdən daha ziyadə mənfəət gətirirlər. Zira Azərbaycan Hökumətinin bütün sərvət və samanı [vardövləti] onlara tapşırılmış olan mədənlərdən ibarətdir. Bu adamlardan da əsgər olammayacağı bədihidir [açıq-aşkardır].

İştə, balada [yuxarıda] bəyan olduğu vəchlə [kimi], millətin səlah və səadətini təmin və icabında [lazım gələrsə] kəndi xanə və öz şəxsi ailəsi və məhəlləsini müvəqqət olaraq müdafiə etmək üçün hazırlıqda bulunmaq lüzumunu hiss edərək könüllü təlim və tərbiyəsinə müsaidə edilmişdir. Onun üçün milləti bir taqım propaqandalarla iğfal edən [aldadan] mənfəətpərəst adamların millətin zəif qalmasına və irəlidə bu üzdən bir fəlakətə düçar ola biləcəklərinə səbəb olduqlarından, xaini-millət olduğu cəhətlə, o kimi adamların sözlərinə əhəmiyyət verməməlidir.

Şimdiki fürsətdən istifadə edib sonra peşman olmamaq üçün hər bir əfradi-millət [millətin hər fərdi] ağlını başına toplayaraq, təlim və tərbiyə almaq üzrə təşkilat təlimgahlarına gəlməlidirlər.

*Könüllü təşkilat rəisi:*
*[Yusif Ziya] Talıbzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**14 avqust**

*(mabəd)*

**Rəhim Vəkilov** - (Müsavat) Sanıyevin qaldırdığı məsələdə mən tamamilə əks rəydəyəm. Burasını ərz etməliyəm ki, sərhəd qaraqolxanalarının qəza hökuməti-məhəlliyyəsi təhti-idarəsinə [qəzaların yerli hökumətlərinin tabeçiliyinə] verilməsini tələb etməklə yanlışlıq işləyir və gətirdiyi misal onun əksini isbat edir. Çünki sərhəd qaraqolunun qəza qaimməqamına [qəza rəisinə] tabe edilməsi xətti-hüdud mühafizəsini çürük bir əsas üzərində buraxır. Çünki böylə olan surətdə sərhədlərimizin mühafizəsi hər bir qəza qaimməqamının əhvali-mənəviyyəsindən asılı olur. Əgər böylə olsa keçən il payız və qışda məhəlli hökumətin fənalığından dolayı Qazax qəzası və bütün Cümhuriyyətin düşdüyü hal təkərrür edər [təkrarlanar]. Bundan əlavə, sərhəd məsələsi qəza məmurlarına tapşırıldıqda kəndlilər üçün bir çox müşkülat çıxar. Məsələn, nəinki sərhəddə, hətta 50-60 verst içərilərdə bir kəndli bazardan gələrkən hər bir strajnik onu axtarıb min əziyyət verəcəkdir. Bu nöqteyi-nəzərdən sosialist yoldaşların rəyinə iştirak etməyiriz. Amma sərhəd mühafizə bölüyünün Hərbiyyə Nəzarəti təhti-idarəsinə verilməsinin əleyhində deyiliz. Çünki Hərbiyyə Nəzarəti məzkur [adı çəkilən] təşkilatı nizam və qaydaya salıb namuskarlıq hüsula gətirə bilər.

**Əfəndizadə Muxtar** - (Əhrar) Hacı Kərim Sanıyevin rəyinə iştirakla təklif edir ki, yenidən strajniklər toplanmayıb, bu məqsəd üçün cümhuriyyət sərhədlərinə yaxın qəzaların qaimməqamı binagüzarlığında [cərəncamında] bulunan strajniklərdən istifadə edilsin.

**Əhməd Cövdət** - (Hümmət) Bu məsələdə mən tamamilə Sanıyevin rəyinə iştirak etməklə bərabər, bunu da bildirməliyəm ki, biz ümumiyyətlə gömrükxana haillərinin [maneələrinin] əleyhindəyiz. Bu xüsusda iyulun 14-də Parlamanda rəyimiz açıq və aydın zikr edilmişdir. Bizim zənnimizcə, sərhəd qaraqolu təsis və təşkilinə xərc olunan pullar hədərdir. Ələlxüsus ki, bütün sərhəddəki qəzalarda, məsələn Quba və Qazax qəzalarında və Qarabağ general-qubernatorluğu dairəsində xüsusi dəstələr təşkil edilmiş və buna milyonlarla pul xərclənmişdir. Hər bir qəza qaimməqamı həman dəstələrin köməyi ilə qaçaqmal alış-verişi ilə mübarizə və sərhədi qaçaqçılıqdan mühafizə edə bilər.

**R[əhim] Vəkilov** - (Müsavat) Görünür ki, bu məsələdə sosialistlər ilə bizim rəylərimiz arasında mənim təsəvvür etdiyimdən dərin ixtilaf varmış. Çünki sosialistlər tamamilə gömrükxana olmasının əleyhindədirlər. Ona görə də bu məsələyə belə yüngülcə baxaraq sərhəd qaraqolunu qəza hökuməti-məhəlliyyəsi ixtiyarına verməyi təklif edirlər. Biz isə məsələni mühüm hesab edərək və əsas etibarı ilə onun həllinə qalxışmayaraq, ancaq hələlik əhval və şəraiti-hazirə daxilində sərhədlərimizin mühafizəsi üçün möhkəm və mükəmməl bir aparat hasil etmək istəyiriz. Hacı Kərim Sanıyev yaxşı bilir ki, keçən il Qazax qəzasında nələr olurdu. İndi sərhəd mühafizəsi məhəlli hökumət təhti-idarəsinə verildikdə həman aparat daha da xarab olub, Sanıyevin yaxşı bələd olduğu keçən ilki pozğunluq, pərişanlıq təzələnər. İş böyləliklə həll ediləcək olarsa sərhəd yaxınındakı qəzalarda hər bir strajnik üçün təcrübə göstərdiyi kimi geniş bir soyğun meydanı açıla biləcəkdir. Bundan böylə, daha strajniklər bütün qəza dairəsində kəndlilərə imkan verməyəcəklər gəlib keçsinlər. Böylə təşkilat sərhədlərdə kontrabandı [qaçaqmalçılığı] deyil, sərhəd boyundakı qəzalar daxilində ticarəti öldürər. Binaənileyh [ona görə], mən öz rəyimdə baqi qalaraq təklif edirəm layiheyi-qanuniyyə varid [daxil] olduğu kimi də qəbul edilsin. Yaxud dəyişmək lazım gəlsə, ancaq Hərbiyyə Nəzarəti təhti-idarəsinə verilsin.

*(10 dəqiqə tənəffüs elan edilir.)*

Tənəffüsdən sonra Məclisi-Müəssisan intixabatı [seçkisi] işlərinə baxacaq Mərkəzi Komissiyaya namizədlər siyahısı təqdim olunduğu xəbər verilir. Namizədlər bunlardır:

"Müsavat"dan: Rəsulzadə Məhəmməd Əmin, Rüstəmbəyli Şəfi bəy, Vəkilov Mustafa bəy, Hacıbababəyov Mehdi bəy, Ağabəyov Rza bəy, Aşurov Ağa.

Sosialistlərdən: Rzayev Bağır, Əhməd Cövdət, Camalbəyov Qasım bəy.

"İttihad"dan: Əmirov Əsəd bəy, Vəzirov Zeynal bəy, Məhəmmədbəyov Heybətqulu.

Bitərəflərdən: Lənbəranski Cəmil bəy və Əsədulla Əhmədov.

"Əhrar"dan: Abdulla bəy Əfəndiyev və Bayram Niyazi Kiçikxanov.

Ruslardan: [Mixail] Vinoqradov.

Ermənilərdən: [Arşak] Malxazov və [İsak] Xocayev.

Yəhudi: [Moisey] Quxman.

"Əhrar" 3 yer istəyərək, Hacı Hüseyn Əfəndizadənin də namizədliyini qoyur. Etiraz vaqe olur. Hacı Hüseyn əfəndi öz namizədliyini götürür və nəticədə 21 nəfərdən ibarət birinci siyahı qəbul olunur.

Sonra sərhəd qaraqolu haqqındakı layiheyi-qanuniyyənin müzakirəsi davam edir.

Biri "Əhrar" fraksiyası tərəfindən, digəri də Qarabəyli ilə [Rəhim] Vəkilovun imzası ilə olmaq üzrə iki təklif varid [daxil] olur. Sərhəd qaraqolunun Hərbiyyə Nəzarəti təhti-idarəsinə verilməsi təklif edilir.

**[Rza bəy] Ağabəyov** - (Məruzəçi) Görünür ki, bu təklifin tərəfdarları məzkur [deyilən] təşkilatın Hərbiyyə Nəzarəti təhti-idarəsinə verilməsini istəməklə, orada möhkəm nizam və qayda hüsulunu arzu edirlər. Fəqət yalnız nizam naminə işin əslini dəyişmək olmaz. Fəqət bilməlidir ki, bu təşkilat yeni bir şey deyildir. Bizdən əvvəl dəxi böylə şeylər vardı. İndi biz də onun kimi və o əsas ilə təşkilat vücuda gətirmək istəyiriz. Ona görə böylə yenilik və təbəddülat [dəyişiklik] icrası ancaq qeyri-məmul [arzuolunmaz] müşkülat çıxara bilər. Binaənileyh, mən qanunun təbəddülatsız qəbulunu təklif edirəm.

**Yusifbəyli Nəsib bəy** - (Rəisi-vükəla) mən öylə bilirəm ki, burada bir yanlışlıq var. Çünki sərhəd qaraqolxanaları hərbiyyə işləri üçün olmayıb, ancaq gizli və qaçaq alış-veriş ilə mübarizəyə xidmət edəcəkdir. Bu da gömrükxana məsələsi ilə sıxı surətdə əlaqədardır. Məlumunuzdur ki, gömrükxanalar Maliyyə Nəzarəti təhti-idarəsindədirlər. Bu surətlə qaraqolxanalar Hərbiyyə Nəzarətinə tabe olduqda, bir iş iki nəzarət altında qalır. Deməli, bir məsələ olduqda qaraqolxanalar xəbər verəcəklər öz baş idarələrinə, o da Hərbiyyə Nəzarətinə. Orada[n] gedəcək Maliyyə Nəzarətinə və o təriq [yol] ilə gömrükxanaya. Bu vəchlə əvvəla bir iş iki olur. Saniyən [ikincisi], sərhəd xəttində bir şey olanda Hərbiyyə Nəzarəti deyəcək Maliyyə Nəzarəti xidmətçiləri etdilər, onlar da Hərbiyyə Nəzarəti xidmətçilərini müqəssir tutacaqlardır. İki nəzarət miyanında [arasında] daima mübahisə olacaqdır. Bütün məmləkətlərdə sərhəd qaraqolları Maliyyə Nəzarətinə tabedirlər. Binaənileyh, bu qanun bilatəğyir və təbdil [dəyişdirilmədən] qəbul edilməlidir. Varid olan təklifi qəbul etmək, işi daha da müşkülə və pozğunluğa salar.

**[Mehdi bəy] Hacıbababəyov** - (Müsavat) Təklifə görə sərhədləri kontrabandadan qurtarmaq və qaçaq alış-veriş ilə mübarizə etmək üçün müntəzəm, mötəbər və bütün əmalında [işlərində] Divanihərb [Hərbi məhkəmə] hüzurunda məsul əsgəri qitəat [hərbi hissə] təşkil edilməsi istənilir və bu kimi bir müəssisə yaratdıqda iki nəzarətin arasında mübahisə çıxacağını göstərmək o qədər də əsaslı bir dəlil deyildir. Binaənileyh, mən təklif edərdim ki, sərhədimizi mötəbər və müntəzəm qüvvəyə tapşırmaq üçün qaraqollar Hərbiyyə Nəzarəti təhti-idarəsinə verilsin.

**Hacınski Mehdi bəy** - (Müsavat) Layiheyi-qanuniyyələrdə böylə bir təbəddülat icrası heç vaxt mümkün olacaq şey-

lərdən deyildir. Çünki sərhədlərin gömrükxana qaraqolu əsla Hərbiyyə Nəzarətinə aid bir şey olmayıb, tamamilə Maliyyə Nəzarətinin işidir. Ona görə də Maliyyə Nəzarətinə aid bir məsələni heç vaxt Hərbiyyə Nəzarətinə tapşırmaq olmaz.

**Əmircanov Əbdüləli bəy** - (Bitərəf) Böylə bir təklifi qəbul etmək heç şübhəsiz böyük bir xətadır. Hər bir məmləkətdə həmişə sərhəd qaraqolları Maliyyə Nəzarəti təhti-idarəsində olmuşdur. İnqilabdan qabaq Rusiyada Maliyyə naziri hətta sərhəd mühafizə bölüyünün şefi idi. Gömrükxana işləri sırf Maliyyə Nəzarətinə aid bir iş olduğundan, sərhədin mühafizəsi dəxi məzkur nəzarət təhti-idarəsində olmalı, yəni sərhəd qaraqolları Maliyyə Nəzarətinə tabe olmalıdırlar.

**Qarabəyov Qara bəy** - (İttihad) Bu təklifi rədd etdikdə təcrübəyə istinad etmək, yainki filan məmləkətdə, filan vaxt böylə idi demək düz deyildir. Çünki köhnə işlərə nisbətən şimdi nəzərlər, fikirlər və üsullar çox dəyişmişlərdir. Biz sərhəd qaraqolunun Hərbiyyə Nəzarətinə tabe olmasını istədikdə, bir şeyi də nəzərə alırız ki, böylə olsa həmişə sərhədlərimizdə müəyyən miqdarda əsgəri qüvvəmiz olar və şayəd xaricdən bir şey olsa daima onlar müdafiəyə hazır olaraq, vətən sərhədlərini əcnəbi təcavüzlərindən sinələri ilə hifz və müdafiə edərlər. Bundan əlavə, sərhəd qaraqolları uzun müddət bir yerdə qaldıqda birdən özləri də həman alış-veriş işlərinə qarışa bilərlər, yainki orada alış-verişçilərlə əlaqə peyda edərlər. Bu surətlə də vəzifələrini hüsn-ifa edəmməzlər. Halbuki Hərbiyyə Nəzarəti təhti-idarəsində olsa qoşun tez-tez dəyişər və əsgərlər heç bir əlaqə və münasibat peyda edəmməzlər.

**Rəsulzadə Məhəmməd Əmin** - (Müsavat) Bu məsələnin lehinə də, əleyhinə də çox sözlər demək olar. Fəqət bizcə lehinə danışdıqda heç vaxt bunu dəlil gətirmək olmaz ki, sərhədlərimizi nizami əsgər qitəatı mühafizə edər və bu əsgər eyni zamanda həm hərbiyyə vəzifəsini görər, həm də gömrükxana işlərinə xidmət edər. Cümhuriyyətimizi düşmənlərdən müdafiə etmək ümum əsgərlərin borcudur. İstər sərhəddə olsun, istər arxada, ümum qüvveyi-əsgəriyyə bu işə xidmət etməlidir. Bundan əlavə, Cümhuriyyətin əsgəri müdafiəsi Hərbiyyə Nəzarətinə aid bir məsələdir. Bir də əsgərlik vəzifeyi-müqəddəsəsini gömrükxana qaraqolluğu ilə qarışdırmamalıdır. O bir müqəddəs vəzifədir ki, onu olduğu kimi müqəddəs saxlamaq lazımdır. Burası da ixtilafsız bir həqiqətdir ki, sərhəd mühafizə bölüyü ancaq gömrükxana qaraqolluğundan ibarət, yalnız Maliyyə Nəzarətinə tabe olmalıdır. Çünki vəzifə birdir. Bu bir vəzifəni iki nəzarət arasında paylamaq ancaq ixtilaf çıxara bilər.

Layiheyi-qanuniyyə səsə qoyularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə komissiyanın qəbul etmiş olduğu surətdə qəbul edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Romaniya vəliəhdi**

Bükreşdən [Buxarestdən] teleqram edirlər ki, kral Ferdinandın böyük oğlu vəliəhd Karol rəsmi surətdə olaraq yenidən Romaniya taxtından və öz hüququndan əl çəkmişdir. Bu xüsusda atasına yazıb, Romaniya siyasi firqələri liderlərinə də məlumat vermişdir.

*(Qafqaziyada Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Vladivostokda**

Londondan xəbər verirlər ki, zirehli kruvazer [kreyser] və müxriblərdən [destroyerlərdən] ibarət Yaponiya eskadrası Vladivostoka yetişib və içəri reyddə ləngər atmışdır.

**Almaniyada ticarət**

Londondan xəbər verirlər ki, İtaliya Hökuməti Almaniya ilə ticarət əlaqəsinin bərpa edilməsi üçün dekret vermişdir. İtaliyada olan almanlara mütəalliq [məxsus] əmlaki-qeyri-mənqulə [daşınmaz əmlak] müsadirəsi qüvvəsini saxlayır.

**Rumınların bolşeviklər üzərinə hücumu**

Rumınlar bolşeviklərə qarşı hücum hazırlayaraq Denikin ilə birləşmək üçün fəaliyyətdə bulunurlar. Denikin pişdarları [öncüləri, avanqard qüvvələri] Romaniya müqəddimətül-ceyşinin [Romaniya ordusunun öncü qüvvələrinin] 50 kilometrlik məsafəsindədirlər. Bükreşdə olan Petlyura nümayəndəsi Matsinski Ukrayna ilə Romaniya arasında bolşeviklərə qarşı birlikdə hərəkət etmək sazişləri yapmaq üçün iqdamatda [təşəbbüsdə] bulunmadadır.

## SÜLH ƏTRAFINDA

**Almaniya səfiri Fransada**

Parisdən xəbər verirlər ki, Almaniya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] üzvü baron fon Larsner Fransaya Almaniya səfiri təyin edilmişdir.

**Kayzer Vilhelm**

Londondan xəbər verirlər ki, Niderland hökuməti kayzeri-əsbaqın [sabiq kayzerin] Müttəfiqlərə təslim edilməsinə razı olmuşdur. Kayzeri Haaqada Müttəfiqlər agentələrinə təslim edəcəklərdir. Sülh Konfransının xəsarətlərə baxan komissiyası Betman-Holveq və Hindenburqun Vilhelmlə birlikdə mühakimə edilmələri ricasını mütəzəmmin [ehtiva edən] məktubları münasibətilə Ali Şuraya kəndi nəzəriyyələrini təqdim etmişlərdir. Komissiyanın nəzəriyyəsinə müvafiq, onların ricası qəbul edilməmişdir.

**Radio Nauen-Amerika**

Londondan xəbər verirlər ki, ağustosun 1-dən Almaniya radio mövqifi [stansiyası] Nauen ilə Amerika radio mövqifləri arasında müntəzəm əlaqəyə başlanılmışdır.

**Şanduna aid vəsiqələrin elanı**

Londondan xəbər verirlər ki, Vilson hökumət departamenti vasitəsilə Yaponiya hökumətinə müraciət edərək Sülh Konfransında olan Şanduna aid hamı vəsiqələrin bilatəxir [dərhal] elan edilməsinin lazım olduğunu bildirmişdir.

## HEYƏTİ-MÜRƏXXƏSƏMİZ

*(Azərbaycan mürəxxəsəsinin irsal qıldığı təqrirdən mabəd)*

**Azərbaycan müxtirəsi**

Heyəti-mürəxxəsəmiz Amerika rəisicümhuru Vilsona böylə bir müxtirə [yazılı müraciət] təqdim etmişdir:

25 oktyabr 1917 sənəsi bolşevik inqilabından Rusiyada və xüsusən Qafqaziyada mərkəzi hökumət sultasının [hakimiyyətinin] süquta uğramasından sonra Azərbaycan xalqının ümumi iştirakı ilə seçilmiş Milli Şura 1918-ci sənə mayısın 28-də Azərbaycan Cümhuriyyəti istiqlalını elan etdi.

Hali-hazırda məmləkətin ali sultası Parlamentoya təəllüq edir [məxsusdur]. Parlamento heyətinə yalnız məhəlli [yerli] müsəlman əhalisi nümayəndələri daxil olmayıb, erməni, rus, leh (polyak) və başqa qeyri-islam millətlərin nümayəndələri də vardır. Hətta hökumət əzası [üzvləri] sırasına qeyri-müsəlman nazirlər də daxil edilmişlərdir.

Qafqaziyada bu surətlə təəssüs etmiş [qurulmuş] Azərbaycan dövləti bir il ərzində bütün-bütünə müstəqil olaraq Parlamento tərəfindən idarə edilir.

Böyük Cahan müharibəsi imtidadında [müddətində] Qafqaziya Azərbaycan xalqı Müttəfiqlərə geniş dairədə maddi müavinətlər qılmış və çarlıq dövrlərində əsgərliyə alınmamalarına baxmayaraq, Etilaf [Antanta] ordusu ixtiyarına azərbaycanlı general [Hüseyn] xan Naxçıvanski, [Səməd bəy] Mehmandarov, [Əliağa] Şıxlinski, [İbrahim ağa] Yusifov və qeyriləri kimi generalların komandası altında böyük miqdarda ərlikləri, rəşadətləri və qəhrəmanlıqları ilə təşhir bulmuş [şöhrət qazanmış] könüllülər və iki yüzdən ziyadə zabitlər vermişdir.

Şu məmləkət Müttəfiqlərin səhiyyə ehtiyaclarına dəxi müavinətdə bulunaraq Müttəfiq ordular[a] xəstəxanalar və böyük məbləğlərə mal olmuş başqa səhiyyə ləvazimatı da vermişdir.

Rusiya inqilabı və Qafqaziya bolşevik hərəkatı dövründən bəri xalqımızın ruh və əxlaqına büsbütün müğayir [zidd] olan hadisata qarşılıq yapmaq məcburiyyətində qaldığımızdan var qüvvəmizlə mübarizatda bulunaraq hədsiz qurbanlar vermiş olduq.

Əlavə olaraq, xarici bolşevik əşqiyalarının əfali-mənfuranələri saiqəsi ilə [bolşevik quldurlarının mənfur əməllərinə görə] böyük tələfata düçar olub, iki şəhərimiz və 500 köylərimiz talan edilərək yaxılıb bərhəva [tələf] edildi və o yerlərin 100 mindən 150 minə qədər əhaliyi-islamiyyəsi məqtul [qətl] edilərək kəsildi. Maddi zərərlər isə çox böyük məbləğləri havi bulur.

Bizim yerlərin vəziyyəti-coğrafisini nəzərdən keçirdikdə asanlıqca görmək olar ki, oralar Qafqaziya silsileyi-cibalı [sıra dağları] ilə Rusiyadan büsbütün təfriq edilərək [ayrılaraq] ayrıca bir mövqe işğal edir. Və həmçinin etnoqrafi nöqteyi-nəzərdən bizim xalqımızla Moskov və slavyan xalqı ənənatının [ənənələrinin] heç bir ümumi rabitə və əlaqəsi yoxdur.

Azərbaycan xalqı qəti bir ümiddədir ki, göndərmiş olduğu mürəxxəslər [nümayəndələr] vasitəsilə onların ehtiyacatimilliyyələri sülhi-ümumi müctəhidi və beynəlmiləl münaqişələrin bitərəfanə hakimi olan rəis həzrətləri tərəfindən lütfən nəzəri-etinaya alınıb və onun himayəsi sayəsində istədiklərinə yetişərlər ki, ibarət olsun:

1) Kəndi torpağı, kəndi əhalisi, kəndi Parlamentosu, kəndi hökuməti və kəndi ordusu olan Qafqaziya Azərbaycanı istiqlalının təsdiqi;

2) Vilson ali prinsiplərinin cümlə millətlər haqqında həyata çıxarılması;

3) Cahan və onun vətəni müqəddəratını həll etməyə müvəzzəf olan Sülh Konfransı işlərinə iştirak etmək üçün Azərbaycan hökuməti nümayəndələrinin buraxılması;

4) Azərbaycan Cümhuriyyətinin Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] buraxılması;

5) Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] Hərbiyyə Nəzarəti anbarlarından əhali ehtiyacatından ötrü Azərbaycan hökuməti ixtiyarına müəyyən miqdarda emalat və əşya buraxılması;

6) Diplomasi və ticarəti əlaqələrin Amerika ilə təmini ki, çox miqdarda xammalların manufaktur emalatı ilə təbdil edilməsinə bizə imkan verər. Zira bizim məmləkətin təbii sərvətləri qurtarmaz, neft mənbələrindən ipək, balıq, orman (meşə), yun, kürü və başqalarından təşəkkül edir ki, o da sabiq Rusiya borclarının Azərbaycan öhdəsinə düşən hissələrini tədiyə etməyə [ödəməyə] imkan verəcəkdir.

*Azərbaycan Cümhuriyyəti*
*Heyəti-mürəxxəsəsi rəisi (imza)*

*(yenə var)*

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Məclisi-Məbusana Suraxanı ilə Mərdəkan köyləri miyanında [arasında] yol çəkmək məsarifatı üçün 3 milyon 300 min manatlıq smetadan xaric bir məbləğ təxsisi [ayrılması] haqqında bir qanun layihəsi təqdim etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ərazi və Dövləti Əmlak Nəzarətinə müraciətən, hökumətin 20 ağustos qərardadı üzrə Novo Vasilyevka və Nikolayevka köyləri əhalisinə toxum və ziraət, fəllahət [əkinçilik və kənd təsərrüfatı] alətləri verilməsi haqqında təşəbbüsatda bulunmuşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti soqaq ətfalı [küçə uşaqları] üçün darüleytam güşadı [yetimxana açılması] haqqındakı kəndi ehtimalını qövldən feilə [sözdən işə] gətirmək qəsdi ilə Ətfala Yardım Bürosundan işbu haqdakı nəzəriyyatını istəmişdir.

- Qarabağ general-qubernatoru Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, Ermənistana getmək üzrə olan 400 erməni qaçqınları Ağstafa mövqifində [stansiyasında] gürcü məmurini [məmurları] tərəfindən saxlanmışdır. Nəzarət Gürcüstan siyasi nümayəndəsindən onların təcili surətdə buraxılmaları haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Maliyyə nazirinin dövləti məmurinə [dövlət məmurlarına] vəzifə ilə göndərildikləri vaxt gündəlik maaş təyini haqqındakı təqriri [rəsmi müraciəti] istemasından [dinlənildikdən] sonra qət edilmişdir [qərara alınmışdır]:

Qanun layihəsi təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

Qeyd: Yol məsarifi məvacibinə müsavi alan məmurlara məvacibin 9/10 hissəsi verilməlidir.

- Ədliyyə naziri müavininin Bakı həbsxanalarına şəhər tərəfindən 1918-ci sənədə buraxılan suyun pulunu verməkdən ötrü 31122 manat təxsisi [ayrılması] haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Ədliyyə Nəzarətinə 1918-ci sənəsinin 15 sentyabrından 31 dekabrınadək buraxılan suyun fiyatı təyinlə, Vükəla Şurasına təqdimi tapşırılsın.

- Maliyyə nazirinin Bakı gömrükxanasının sabiq vapor müdiri müavini Karpinskiyə 1918-ci sənəsinin iyunundan 1919-cu sənənin 1 noyabrınadək məvacib verilməsi haqqındakı təqriri istemasından sonra qət edilmişdir:

Rədd edilsin.

## HƏZİN BİR XATİRƏ "İSMAİLİYYƏ"

*(son)*

"İsmailiyyə"nin, bizim, "müqəddəs" adını bəhaqq [haqlı olaraq] qazanan o millət evinin, o bizim siyasi fikirlərimizi, istiqlaliyyət məfkurəsini, Azərbaycan qayəsini bir ana kimi, müşfiq və mehriban bir ana kimi ağuşunda, qəlbində bəsləyən dilbəranə binası, məhrəmi-əsrarımız [sirlərimizə məhrəm] olan divarları martın fəci günlərində bir çox düşmən qurşununa köks gərmişdi. Bir vaxt yetişmişdi ki, orada məskən edən təşkilatlar onu müdafiəsiz bir halda buraxıb getmişlərdi, orada yalnız "Müsavat" firqəsinin telefonu işləyir, şəhərin hər tərəfindən imdad istəyənlərə mümkün edə bildiyi cavabı verirdi. "İsmailiyyə"ni ən son buraxıb çəkilməyə məcbur olan müsavatçılar olmuşdu. Onlar "İsmailiyyə"ni bir halda buraxmışdılar ki, bolşevik və erməni əsakiri [əsgərləri] Nikolayevski küçəyə hücum edir, "Metropol" mehmanxanasının qarşısında vəz edilmiş [qoyulmuş] pulemyot özünün ürək üzücü şaqqırtısı ilə "İsmailiyyə"ni nişanəyə alırdı.

Millət başını itirmiş, kəndisini şaşırmış, nə yapacağını bilmədiyi halda özünü qəzanın təqdirinə buraxdığı kimi, sevgili "İsmailiyyə"sini də kəndi başına buraxmış, onun üç-dörd nəfərdən ibarət olan mücavirləri də oradan çəkilmiş, "İsmailiyyə"də yalnız bir neçə müharibədə şəhid düşmüşlərin qanlı və soyuq meyitləri qalmışdı.

* * *

Xain düşmənlər, əhdlərini sındıran və müsəlmanları iğfal edən [aldadan] Erməni Milli Polku "İsmailiyyə"ni işğal etmiş, oradakı müxtəlif təşkilatların kağız-dəftərlərini qarışdırır, bəzi şeylər arayırdılar. Bu qədər müxtəlif təşkilatlardan bir kərəlik xilas olmaq, daha doğrusu xalqda doğan muxtariyyət fikrini əbədiyyən basmaq üçün bu fikrə pərvəriş verən [bəsləyən, yetişdirən və böyüdən] "İsmailiyyə" nin edamına qərar verilmiş, ona düşmən əlilə od vurulmuşdu. Bu kərə "İsmailiyyə" qəzəbindən atəşlər püskürür, düşmənləri yaxmaq diləyirdi.

* * *

Söylədiyim işbu xatirələr həzindir. Olduqca həzindir. Hələ mənim üçün daha da həzin, bəlkə müdhişdir. Lakin bu qədər xoş olmayan hallar içərisində bəndən ötrü müsibət, tam mənası ilə müsibət olacaq bir hal, daha doğrusu bir təsadüf var ki, vəhdətdən kənar düşsəm də, yenə söyləyəcək və hər zaman söyləyəcəyəm.

Deyirlər, fəlakət ümumi olduqda bir o qədər insanı müztərib etməz [iztirab verməz]. Lakin Mart faciəsi barışığından sonra kimsə o məşum günlərin bir daha təkrar etməyəcəyinə əmin olmadığından, xalqda böyük bir iztirab müşahidə edilirdi.

Mən də şu iztirab halında sınıq bir qəlb, düşkün bir ruhla yanmış "İsmailiyyə"nin qarşısında durub, onun xaraba halını görüb zövq alan rus və erməni tamaşaçılarının mütəbəssim [gülən] çöhrələri qarşısında əzilməkdə idim. Bu halda mənimlə hər zaman məslək münaqişəsini edən bir sosialist arxadaşıma, daha doğrusu, tanış bir sosialistə rast gəldim.

Mənimlə görüşdü, məhzun [hüznlü, kədərli] bir halətlə "Nasılsınız, səlamətmisiniz?" - deyə halını sordum. Zatən bu, o günlərin mövzusu idi.

Dişlərini ağardaraq üzümə güldü. Arsızcasına, həm də "İsmailiyyə" binasının içərisindən hələ çıxmaqda davam edən o xəfif, dəruni [daxildən gələn] tüstüdən utanmadan bir söz dedi. Mən ömrümdə o qədər acı söz eşitməmişdim və o qədər də müztərib olmamışdım. Sosialist yoldaş mənə dedi:

- Hə, necə gördün bizim sınmaz qüvvətimizi?!

Məni mütəəssir edən fəqərə [hadisə] yalnız eşitdiyim bu söz deyildi, bununla pək sıxı münasibəti olan ikinci bir təsadüfün ixtiyarsız olaraq xatirimə gəldiyi idi.

İnqilabın ilk günlərində Milli Müsəlman Komitəsi təşkil edildikdən sonra hümmətçilər bir çox prinsip məsələlərindən dolayı Milli Komitə ilə müttəhidən [birgə] işləməkdən boyun qaçırırdılar. O zaman Milli Komitə sədri Məhəmmədhəsən Hacınski dəfələrlə Realnı məktəbində iqamət etməkdə [yerləşməkdə] olan "Hümmət" firqəsinə müraciət etmişdisə, müsbət cavab alammamışdı.

Bir gecə saat 2-3 radələrində "İsmailiyyə" qarşısında bir-iki hümmətçi ilə bir-iki müsavatçının mübahisəsinə təsadüf etdim. Mübahisə nə üçün hümmətcilərin Milli Komitədə iştirak etməkdən imtina etdikləri üzərində idi. Hümmətçilərdən birisi əlini "İsmailiyyə"nin divarına vurub uca səslə deyirdi:

"Bu bina burjuy pulu ilə tikilmişdir. Buradan füqərayi-kasibəyə şərdən başqa xeyir gəlməz. Füqərayi-kasibə əgər öz səadətini istəyirsə, birinci olaraq gərək bu binanı dağıtsın."

Demək, "İsmailiyyə"nin yandırılması ilə bir çox məqsədlər hasil olmuşdu. Füqərayi-kasibənin səadəti hasil olmuşdu. Sosialistlərin sınmaz qüvvətləri mötərizlərinə [rəqiblərinə] isbat edilmişdi. Bununla bərabər, rus bolşevikləri ilə erməni daşnakları da öz arzu və məqsədlərinə çatmışdılar.

* * *

"İsmailiyyə", o kimsəsiz, zavallı "İsmailiyyə" o gündən sonra mətruk oldu [tərk edilmiş, boş qaldı]. Kimsə onun qapısını açmadı, kimsə oraya müraciət etmədi. Daha orada işıq yanmadı. Yalnız xəzan aylarının aydınlıq gecələri onun içərisini və dişarısını işıqlandırırdı.

"İsmailiyyə" daha artıq kimsəni ağuşi-şəfqətində bəsləyə biləcək səlahiyyətdə deyildi. O, şimdi başqalarının himayəsinə möhtac idi. O, vaxtilə əziz idi, möhtərəm idi. O, hər kəs tərəfindən sevilir, ehtiram edilirdi. Onun bir çox cəlalı, təntənəsi, açıq süfrəsi var idi. Fəqət qəzanın gərdişi həpsini onun əlindən aldı. Onu səfil bir hala vəz etdi. O, gənc ikən xainlər əlilə xaki-həlakətə [ölüm torpağına] sərildi. Bununla bərabər, heç bir zaman millətdən ayrılmadı. Millətin qəmli və matəmli günlərində qəmgin və məhzun görükdüyü kimi, bayram və şad günlərində də şad idi. O, hər zaman yenə şən və şatir [sevincli] görünürdü. O, ümid edirdi ki, millət onu unutmaz, etdiyi xidmətləri unudulmaz. Onu yaşadan yalnız bu idi. Lakin indi özünün aldandığını hiss edir.

İndi Bakı Bələdiyyə İdarəsi onun qorxulu olduğunu iddia edir. Musa Nağıyev vərəsələri onun sökülüb dağıdılmasına mümaniət [maneçilik] etməyəcəklərini bildirirlər. "Cəmiyyəti-Xeyriyyə", o özünü "İsmailiyyə"nin yeganə sahibi zənn edən "Cəmiyyəti-Xeyriyyə" onu sökmək, ənqazından [xarabalığından] çıxacaq əşyanı satmaq istəyir. Bunun üçün ətrafına hasar çəkir. Budur ki, "İsmailiyyə" indi məhzun, qayət məhzun bir mənzərə ərz edir.

Ey bakılı qardaş, ey azərbaycanlı vətəndaş, niyə dayanıb baxırsan! Qoş! "İsmailiyyə"nin, hər vaxt böyük salonunda öz gələcəyin üçün gün ağladığın "İsmailiyyə"nin qarşısına gəl, onu səndən ayırırlar. Onu lüzumsuz bir meyit kimi dəfn edirlər. Həm də sənin gözünün qabağında dəfn edirlər. Halbuki onun məhzun gözləri səni gözləyir, sənin həsrətini çəkir. Son kərə olmaq üzrə səni görmək istəyir. Niyə durub baxırsan, get, son kərə olmaq üzrə get ona. O müqəddəs binaya, o Azərbaycan bayrağını yuxarı qaldıran binaya doyunca bir tamaşa et, çünki bir daha onu görmək sənə müyəssər olmayacaqdır. Çünki onu sökür, dağıdırlar.

*Seyid Hüseyn [Sadiq]*

## İRƏVAN QUBERNİYASINDA "MÜSƏLMANISTAN"

**2**

"Azərbaycan"ın 255-ci nömrəsində İrəvan quberniyasında vaqe "Müsəlmanıstan"ın əhvali-coğrafiyyə, etnoqrafiyyə və topoqrafiyyəsini müxtəsər bir vəchlə ərz etdik.

Və Qulp, Sürməli, Aralıq, Zəngibasar, Vedibasar, Şərur, Naxçıvan, Ordubad, Arazboyu həvalisindən ibarət həmin "Müsəlmanıstan"ın sakinlərinin, yerlilərinin başdan-başa az bir istisna türklərdən mürəkkəb [ibarət] olduğunu göstərdik.

Kəndçi, əkinçi, zəhmətkeşlərdən vahid bir kütlə təşkil edən bu "Müsəlmanıstan" müvəqqəti bir taqım manelərə, səbəblərə görə öz irq və dindaşı bulunan Azərbaycan türkləri ilə bilavasitə əlaqə

peyda edəmməmişdi. Binaənileyh [ona görə], naçar olaraq İrəvan quberniyasının işbu "Müsəlmanıstan"ı əlləri Azərbaycan Cümhuriyyətinə çatıncaya qədər aralarından müntəxəb [seçilmiş] idarə adamları ilə özlərini demokratik halda idarə etməkdə bulunmuşlardı.

Qabaqca "Araz Türk Cümhuriyyəti", sonra isə "Naxçıvan Məşrutiyyəti" namları ilə olan bu idarələr vaxtında qonşularına nisbətən əmin-amanlıq, rahatlıq, ucuzluq, kəndilərinə məxsus nizam və qayda buralarda tam mənası ilə hökmfərma [hökm sürməkdə] idi.

Fəqət məlum olan səbəblərə görə, erməni idarəsi başında duranlar İrəvan quberniyası "Müsəlmanıstan"ının bu demokrat asayişini xoş görmədilər, çəkəmmədilər. Ermənilər, necə ki ruslar Qafqaz hüdudunu təxliyə etdikləri vaxt Qafqaz xətti-hərbini "biz müdafiə edib saxlayacağız" deyib rusları aldatdılar, dava ləvazimatını hiyləgərliklə qasibanə [qəsbkarlıqla] halda sahibləndilər, öylə də İrəvan quberniyasının "Müsəlmanıstan", bilxassə Şərur, Naxçıvan barəsində ingilisləri aldatdılar.

Ermənilər ingilislərə anlatdılar ki, bu yerlər "Ermənistan"dır. Camaat da erməni hakimiyyətinə rağibdir. (?!) Binabərin [ona görə], bu yerlər erməni təhti-idarəsinə [idarəsi altına] alınarsa, erməni hökumətinin adilanə və mədəni (!?) idarə etməsi sayəsində Təbrizdən çıxan vaqonlar birbaş rahatcasına Batuma gedər. İngilis ticarətinə rövnəq verər. İngilis fikrinə zəmin hazırlar.

İştə, bu vasitə ilə ingilislərin bəzi komandanları ermənilərin yalanlarına, boy vermələrinə inandılar. Hamı ingilis demokratlarının rəyinə, fikrinə, məsləyinə zidd olaraq, İrəvan quberniyası müsəlman demokratlarının torpaqlarını zəbt və qəsb etməyə ermənilərə yol verdilər. Və məhəlli müsəlman demokratlarının yarım milyonluq səsinə, rəyi-ammına [ümumi fikrinə, referenduma] heç bir vaxt müraciət etmədilər.

Yerli müsəlmanların ingilislərə göstərdikləri məhəbbət və ehtiramdan ermənilər mühüm-mühüm istifadələr etdilər. İngilislərin nüfuzu ilə ermənilər İrəvan quberniyası "Müsəlmanıstan"ın bir çox yerlərini min dürlü hiylə və cəbr ilə istila etdilər. Məhəlli müsəlmanlara qan uddurdular.

İngilislər məhza ermənilərin vədinə görə İran dəmiryolunu işə salmaq üçün erməniləri Şərur, Naxçıvan və Culfaya qədər yürütdülər.

Zatən İran dəmiryolunun işləməsi ilə müsəlmanlar tərəfindən heç bir mane yox idi. Və ola da bilməzdi. Zira məhəlli müsəlmanlar dəmiryolunun işləməsi ilə ticarətlərinin və ətrafla əlaqələrinin rövnəq tapacağını ermənilərdən artıq dərk edəndirlər. Arada başlıca bir mane vardısa, o da lokomotivləri işlətmək üçün mazut yoxluğu idi. Bu manelik ora müsəlmanlarına nə əndazədə idisə, ermənilərə ondan daha artıq əndazədə idi. İngilislərin vasitəçiliyi olmasa, bu hal iki tərəf üçün də bir qərarda idi. Binaənileyh ermənilərin özlərinə boy vermələri əbəs və yalan idi. İngilislərin də müsəlmanları buraxıb ermənilərə yanaşmaları diplomasi və əsgəri olmaqla böyük bir yanlışlıq idi.

Nə isə, atıcı öz nəcabətini tez zühura verdiyi kimi ermənilər də İrəvan quber-

niyası "Müsəlmanıstan"ını ingilislər əli ilə istila etdikdən sonra özlərinin mədəni və adilanə (!?) idarələrinin müsəlmanlar üstündə təsirini tezlikcə göstərdilər.

* * *

Bir münasibətlə bu yaxınlarda İrəvana gedib qayıtmış olan rəfiqim deyir ki:

İrəvana getdiyim və övdət etdiyim [qayıtdığım] vaxtlarda erməni dəmiryol vaqonlarında Daşnak partiyasından olmayıb bitərəf olan ayrı-ayrı bir erməni mühəndisi və bir erməni hüquqşünası ilə bir kupedə oturmuşdum. Bir yanımızda, təbii, başqa ermənilər də əyləşmişdilər. Söhbət erməni hazırkı hökumətindən və bu hökumətin geniş-geniş torpaqları istila etmək iddiası üstündə davam edirdi. İrəvana getdiyim zaman təsadüf edən vaqon həmnişinim [həmsöhbətim, yoldaşım] erməni mühəndis ilə övdətdə müsadifim olan [təsadüfən rastlaşdığım] erməni hüquqşünasının ikisinin də sözü və rəyi bu məalda [məzmunda] idi:

– Daşnaklar indiki halda erməni demokratiyasını cəbrən [zorla] susdurub, erməni ümuri-idarəsini [idarə işlərini] əllərinə almışlardır.

Binaənileyh [ona görə də], bugünkü gündə erməni hökuməti, erməni hakimiyyəti yalnız daşnaklardan ibarətdir. Daşnaklar bu mövqelərini əldən buraxmamaq üçün hökumət dairələrinin kaffəsinə [hamısına] öz parti adamlarını təyin etdirmişlərdir və təyin etdirdikləri o adamlarının ləyaqətli olub-olmadığına heç əhəmiyyət verməmişlər. Yalnız o məmurun daşnak olması Daşnak partiyası üçün kifayət ədd [hesab] edilmişdir. Buna görə, iş başına bir çox ləyaqətsiz adamlar keçmişdir.

Erməni ümuri-idarəsini əllərinə almış olan bu kimi hökumət adamları Daşnak partiyasına arxalanıb məmləkət daxilində hər növ rüsvalığı, qətli, qarəti, cəbri, təzyiqi, intiqam hissləri oyatmağı bərpa etməkdə və bu vasitə ilə ciblərini doldurmaqdadırlar.

Daşnak partiyasına arxalanan bu hökumət məmurları iştə bu kimi nalayiq hərəkətləri ilə bir tərəfdən Ermənistan Cümhuriyyəti daxilində yaşayan ermənidən başqa millətləri bizə nifrətləndirirlər, bizə küsdürürlər. Digər tərəfdən də qonşu cümhuriyyətləri bizdən uzaqlaşdırırlar. Zira daşnakların erməni hökuməti başında durmaları qonşu cümhuriyyətlərlə dostanə əlaqə peyda etməyə bizə imkan verməyir.

Daşnakların yalançılığı, rəngdən-rəngə girmələri, qatillikləri, tamahkarlıqları aləmə məşhurdur.

Hələ özümüz-özümüzü idarə edəmmədiyimiz halda ermənidən çox başqa ünsürə malik olan Qars oblastını işğal etmək, Naxçıvan və həvalisinə göz tikmək, bilməm Ərzurum, Trabzon, Sivas-filan tərəfləri haqqında xülyalar bəsləmək büsbütün mənasız və bəlkə, bizcə, gülünc bir haldır. Çünki indiki əlimizdə olan İrəvan və həvalisindən ibarət balaca məmləkəti idarə etməyə daha ləyaqət kəsb edəmmədik [qazana bilmədik].

Bugünkü gündə Erməni Cümhuriyyətinin paytaxtından başlamış hər tərəfində bir hərc-mərclik, basqınlıq, soyğunluq, təzyiq, zülüm, qətl, aclıq, pulsuzluq, işsizlik bütün mənası ilə vəlvələəndazdır.

Hər bir erməni vətənpərvəri bütün

bu acı həqiqətləri tamam acılığı ilə söyləməkdən çəkinməməlidir.

Əsgərsiz, pulsuz, ac-yalavac bir halda bulunarkən əksəriyyəti qeyri ünsürlərdən ibarət böyük-böyük torpaqları istila xəyalına düşmək tam mənası ilə ağılsızlıqdır, məhza cib mənfəəti üçün erməni demokratiyasını bərbad etməkdir. Bu hərəkət isə "sərçə" ikən, bizə "qaz" yürüşü yeritməkdir – deyərək, ətrafdakıları da bu həqiqətləri etirafa mütəmayil edirlər.

*M. B.*

## "ZARYA"YA CAVAB

Müdiri-möhtərəm, möhtərəm qəzetənizdə aşağıda yazdığım şu qaç sətirlərə yer vermənizi rica edirəm.

"Zarya" qəzetəsinin 104-cü nüsxəsində "Təhqiqat lazımdır" sərlövhəsi ilə bir bəndi-məxsus dərc edilmişdi. Mühərrir cənabları yazmış olduğu şu bəndi-məxsusda deyir ki:

*"Bu axır vaxtlarda Ticarət Nəzarətində bir çox nizamsızlıqlar vüqu bulmaqda və bir çox şikayətlər dəxi eşidilməkdədir. Və ələlxüsus Ticarət naziri müavini Yusifəli Əliyev haqqında qəzetəmiz idarəsində bu kimi işlərə aid bir çox övraqi-vəsaiq [sənədlər, sübutlar] mövcuddur.*

*O cümlədən Batuma Azərbaycan konsulu adına gedən bəzi şeylər vardır ki, bu xüsusda Tiflisdən Parlaman üzvü adına gələn bir teleqrafda neçə vaqon ot, qoyun, buğda və başqa şeylərin Batuma getdiyini isbat edir. Və bu barədə Parlaman əzasından [üzvlərindən] bir zat Ticarət Nəzarətinə müraciət edərək yapdığı təhqiqat nəticəsində bu şeylərin Batuma getməyə icazə verildiyin doğru olduğunu bilmişdir.*

*Və bunlardan başqa, Bakıdan çıxması məmnu [yasaq] olan dəmir, mıx, kağız və bu kimi başqa şeylərin İrana keçməsinə də bir çox icazələr verilmişdir."*

"Zarya" qəzetəsi nizamsızlıq olaraq həqiqət deyə göstərdiyi bu şeylərə hökumətin nəzəri-diqqətini cəlb edir və bu xüsusda icazə verən zatın, yəni Ticarət naziri müavininin fəaliyyəti haqqında səriyyən [sürətlə] və ciddən təhqiqat icra olunmasını tələb edir.

Mən "Zarya" qəzetəsini mənafeyi-ümumiyyəni müdafiə etdiyindən dolayı ciddən təqdir edirəm. Fəqət icazə vermək barəsində mənə isnad edilən "qanun xaricində" etdiyim hərəkətləri yaxşı olardı ki, "Zarya" qəzetəsi səlaməti-vətən və millət naminə açıq bir surətdə xilafi-qanun olduğunu göstərəydi.

Batuma konsul adına ot, qoyun və əlli pud un verildiyi gizli olmayaraq açıqdan-açığa bir şeydir. Lakin buğda verilmişdir deyə yazması doğru deyildir.

Qaldı ki, Şurayı-Nəzarət konsul cənablarının ərzaq haqqında istidasını [xahişini] rədd etdiyi halda bunun qarşısında məzkur [deyilən] ərzağın Batuma getməsinə icazə verdiyimə, bu barədə işin nə gunə [nə cür] olduğundan bəhs etmək icab edir [lazım gəlir].

Mən Batumda olduğum zaman konsul cənabları ora əhaliyi-müsliməsinin ərzaq və məkulat tərəfindən çəkdiyi sıxıntını bəyan edərək, Azərbaycandan buraya bir qədər ərzaq buraxılmasının lazım gəldiyini söylədilər. Buna cavab olaraq

Nəzarətə rəsmi surətdə müraciət etmələrini söylədim. Konsul cənabları ərizəni yazıb Ticarət Nəzarətinə göndərdi və bir neçə gündən sonra da kəndisi də Bakıya azim oldu [yola düşdü]. Mən isə öhdəmə götürdüyüm hökumət işini bitirib Tiflisə, oradan Bakıya gəldim.

Bu vaxt konsul cənabları verdiyi ərizənin nəticəsini bilmək üçün Ticarət Nəzarətinə müraciət etdi. Ərizənin Şurayi-Nəzarətə göndərildiyi və hənuz Şurayi-Nəzarətdən bir cavab alınmadığı məlum oldu. Bu vaxt konsul cənabları Batum siyasi nümayəndəliyi ehtiyacı üçün "Zarya"nın yazdığı ərzağın aparılmasına icazə verilməsi üçün yeni bir ərizədə əlavə olaraq Şurayi-Nəzarətə göndərilən əvvəlki ərizənin dəxi tezlikdə baxılması haqqında Ticarət Nəzarəti tərəfindən bir təşəbbüs olmasını rica etmişdi.

Deməli, o vaxt Şurayi-Nəzarət məzkur ərizə haqqında hənuz bir rəy verməmişdi. Mən məzkur şeylərə icazəni iyulun 4-də verdiyim halda Şurayi-Nəzarətdən iyulun 11-də rəddi cavab alındığı təəyyün etmişdir [aşkar olmuşdur].

Mən isəm burada heç bir xilafi-qanun bir şey görməyib namusuna əmin olduğum konsul cənablarına şu tarixi icazəni verdim. Çünki şimdiyə qədər deyil Azərbaycan konsuluna, bəlkə İran konsuluna və Gürcüstan, Ermənistan və başqa dövlətlərin siyasi nümayəndələrində[n], hətta Məclisi-Məbusan əzalarından bəzisinə də Tiflisə aparmaq üçün on pudlarla un və başqa şeylər icazələri verilmişdir.

Görünür ki, Parlaman üzvü Ticarət Nəzarətində təhqiqat yapdığı zaman gözünə eynəyini taxmamışdır. Əgər eynəyini taxsaydı, əlbəttə, verilən icazələrin arasında Parlaman üzvlərindən bəzilərinə də "qanun xaricində" verilən un icazələri görərdi və yazardı. Hər halda, qonşumuz erməni və gürcülərə dəsti-mərhəmət və müavinətimizi [mərhəmət və kömək əlimizi] uzatdığımız halda, din qardaşlarımız olan acariyalılara da yardım etməyi vəzifeyi-insaniyyədənədd [hesab] etdik.

Bakıdan məmnu [qadağan] olan bir çox şeylərin İrana göndərilməsi xüsusunda icazə verilməsinə gəlincə, burada gizli olacaq bir şey yoxdur. Zira "Zarya" nın dəmir, mıx və bu kimi başqa şeylərin Bakıdan çıxması haqqında Ticarət Nəzarətinin qanun xaricində icazə vermişdir deməsi yalandan başqa bir şey deyildir.

Məncə, heç bir vaxt namuslu bir mühərrir və qeyrətli bir millət xadimi işin həqiqətini bilmədən başqalarını ləkələmək kimi bir vicdansızlığa cəsarət etməməlidir. Əgər, doğrudan da, "Zarya"nın idarəsində Ticarət Nəzarətinin xilafi-qanun bir iş gördüyünü təsdiq edəcək sənədləri mövcud isə, lütfən, onların meydana çıxarılmasını rica edirəm.

Doğrudur, bu şeylərin Bakıdan çıxması bəzi mülahizələrə görə qadağandır. Fəqət məzkur malların Azərbaycan təriqi [yolu] ilə gəlib keçməsi sərbəstdir. Lakin zaryaçıların xilafi-ümidi olaraq, tədad etdikləri [sadaladıqları] malların hamısının qanun daxilində icazə verildiyini Nəzarətdə isbat edəcək sənədlər və vəsiqələr mövcuddur. Əgər zaryaçılar Batuma gedən ərzaq haqqında, ərzağın sui-istemalı [sui-istifadəsi] haqqında şübhəli isələr, o vaxt bu işi kəşf etmək üçün burada deyil, lazım gələn təhqiqatı orada icra etməlidir.

Bunlara əlavə olaraq, ənzari-amməyə [ictimaiyyətin nəzərinə] ərz edəcəyim bir

şey daha vardır ki, o da bundan ibarətdir: "İttihad" səhifələrini təzyin edən [bəzəyən] "Şantaj" və "Zarya" sütunlarını işğal edən "Təhqiqat lazımdır" və "El" qəzetəsinin tam yarısını tutmuş olan "Əski Kabinə ilə yeni Kabinənin fərqi" sərlövhəli fəlsəfə müxəyyəlləsindən məqsəd hökuməti-hazirənin təşkil etdiyi xətti-hərbin ən zəif bir nöqtəsini kəşf edib də onu yarmaqdan ibarətdir.

Fəqət düşmənlərimiz bunu bilməlidirlər ki, Ticarət Nəzarətində nə çayın bulanlıq suyunda balıq ovlayanlardan və nə də Van soqaqları qəhrəmanlarına tənəzzül edənlər [onların səviyyəsinə enənlər] vardır.

Vaqeən [əslində] portfel düşkünü olan müxtəlif firqələrin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan bu qəzetələr təqib etdikləri yol başqa isə də, lakin hədəfi-arzuları həp birdir.

Heç bir həqiqətə istinad etmədən "Şantaj" sərlövhəsi ilə meydana çıxarmış olduqları məqaləni düzüb-qoşacaqları, yerdə İran səyahətnaməsinin ən maraqlı bir səhifəsini təşkil edən Van qəhrəmanından bir qədər bəhs etsəydilər, məqsədə daha ziyadə yaxlaşmaq və "İttihad" firqəsi üçün daha ziyadə iftixara layiq bir hərəkətdə bulunmuş olarlardı.

*Yusifəli [Əliyev]*

## BAKI XƏBƏRLƏRİ

### Bələdiyyə İdarəsində

- Bələdiyyə İdarəsinin Tibbiyyə və Səhiyyə şöbəsində məlumat alınmışdır ki, Bakı şəhərində Nasosnı mövqifində də [stansiyasında da] bir nəfər Sibirya yarası xəstəliyi müşahidə olunmuşdur.

- Dün şəhər həkimlərinin müşavirəsi vaqe olmuşdur. Müşavirədə işbu məsələlərə baxılmışdır:

1) Süni mədəni sular zavodlarının səhiyyə cəhəti;

2) Soqaq dəlləkləri haqqında;

3) Hifzüssihhə [gigiyena] laboratoriyasının kimya şöbəsi;

4) Şəhər arabaları;

5) Hifzüssihhəni pozanlar məzbətəsi [protokolu].

- Bir həftə ərzində şəhərdə 78 nəfər müsri [yoluxucu] xəstəliklərə mübtəla olan olmuşdur. Halbuki keçən həftədə 46 nəfər az olmuşdur.

### Zakaspidə

Ağustosun 25-də Zakaspidəki Azərbaycan konsulgərisi "Türkmən" vaporunda Bakıya köçmüşdür.

Zakaspinin hərbi nöqteyi-nəzərdən əhvalı qayət müşküldür.

Zakaspi qoşunları baş komandanlığına yeni təyin edilmiş general Borovski cəbhə əhvalı ilə tanış olduqdan sonra təcili surətdə Petrovsk təriqi [yolu] ilə dabravol ordusu baş qərargahına azim olmuşdur [getmişdir] ki, müavinət istəsin. Əgər bu yaxın günlərdə müavinət gəlməzsə, Tazəşəhərin müqəddəratı həll ediləcəyi mühəqqəqdir [şübhəsizdir].

Qızıl-Arvad mövqifindən bolşeviklər bir neçə zaman müqəddəm [qabaq] geri çəkilməyə başladılar. Dabravollar onları təqib edirdilər ki, birdən bolşeviklər Qa-

ra-Qalanı işğal ilə dabravolların gerilərinə keçməklə təhdidə başlamışlardır.

İşbu günlərdə bolşeviklər Qızıl-Arvadı işğal edəcək olarlarsa, Aşqabad ilə həman mövqif miyanındakı [arasındakı] dabravollar məngənə arasında qalmaq məcburiyyətində olacaqlardır. Hər halda, Tazəşəhərdə hazırlıqlar görülməkdədir.

Tazəşəhər süqut edəcək olarsa, şəhərin anbarlar tərəfi dabravollar tərəfindən patladılacaqdır.

**Hərbi vaporlar**

Srağagün axşam saat 7 radələrində bulvar qarşısında durmuş 4 ədəd müsəlləh [silahlı] və 3 ədəd də nəqliyyat ingilis vaporları Ənzəliyə azim olmuşdurlar [yola düşmüşlər]. Aldığımız məlumata görə, ingilislərlə İran miyanında [arasında] etilaf [razılıq], yəni İranın İngiltərə təhtihimayəsinə [himayəsi altına] keçməsi məsələsi mühəqqəq olarsa [qətiləşərsə], ingilislər Ənzəlidə kəndi Kaspi donanmaları üçün üssülhərəkə [baza] qayıracaqdırlar.

**Sentrodom yanın[d]a üzgüçülük müsabiqəsi**

1919-cu ilin avqust ayının 5-də cümə günü üzgüçülük məktəbində cürbəcür üzgüçülük fənlərinə prizlər təyin olunmuşdur. Müsabiqədə Azərbaycan Cümhuriyyətində olan hamı cəmiyyətlər və əşxas [şəxslər] iştirak edə bilər. Müsabiqədə iştirak etmək xahiş edənlərin adları sentyabr ayının 2-nə qədər hər gün məktəbin kassasında səhər saat 9-dan 1-ə qədər və axşamlar saat 5-dən 7-yə qədər müsabiqə siyahısına idxal olunur. Məlumat istəyənlər bu saatlarda kassaya müraciət etməlidirlər.

**Hindlərin qafqazlılara salamı**

*İngilis hindu əsgərləri Bakıdan getmələri münasibətilə Bakı Cəmiyyəti-Xeyriyyəsinə onların zabitləri Cahan xan, Müluk xan, Əmir xan, Bahadır xan və Nadir xan şu məzmunda bir kağız göndərmişlər:*

*"Biz hind müsəlmanlarına Qafqaziya müsəlmanları öylə bir şey nəzərə verilmişdi ki, bizim nəzərimizə onlar müsəlman deyil, başqa bir şey gəlirlərdi. Şimdi isə biz bunların miyanında [arasında] yaşayıb və eydi-fitrdə [Orucluq bayramında] olan bayram münasibətilə bunların bizə nə dərəcədə ixlas və məhəbbət bəslədiklərini gördükdə, bunlara bizim məhəbbət və rəğbətimiz nə dərəcədə artmağını bəyan ediriz. Qafqaziyadan gedərkən kəndi dindaşımız olan şu millətə biz kəndi salamımızı yetirməklə bərabər, vətənimizə getdikdə orada nəşr olunan qəzetələr vasitəsilə qafqazlıların onlara salamlarını yetirməyi kəndi vəzifəmiz hesab ediriz."*

**"Yaşıl qələm" cəmiyyəti**

Bakıda yaşayan gənc ərbabi-qələmdən [qələm sahiblərindən] bir neçəsinin təşəbbüsü ilə türk ədəbiyyatına xidmət edən gənc yazıçılar üçün bir məktəbi-ictihad [çalışma, səy göstərmə, səy göstərərk öyrənmə yeri] olmaq üzrə "Yaşıl qələm" adında bir ədəbi cəmiyyət təşkil olunur. Bu gün ağustosun 26-da cəmiyyət müəssisləri [qurucuları] tərəfindən birinci ümumi iclas təyin edilmişdir.

İclasda baxılacaq məsələlər bunlardır:

1) Cəmiyyət haqqında heyəti-mütəşəbbisənin məruzəsi [təşəbbüs heyətinin];

2) Tərtib və tənzim edilmiş məramnamənin qəbul və təsdiqi;

3) İdarə heyəti seçkisi;

4) İclasda qalxa biləcək məsələlər.

İclas Parlaman binasında qiraətxanada axşam saat 6-da açılacaqdır. Ümum ədib, mühərrir və bədayeyi-nəfisə [incəsənət] ərbabının təşrif gətirmələri arzu olunur.

**Türk Aktyorları İttifaqında**

Avqust ayının 24-də axşam saat 6-da Zülfüqar bəy Hacıbəylinin təhti-sədarətində [rəhbərliyi altında] Bakı Türk Aktyorları İttifaqının ümumi iclası açılır.

Sədr cənabları sabiq İttifaq xüsusunda məlumat verir. Bədəhu [sonra] məclis sabiq İttifaq heyətinin ədəmi-səyini [fəaliyyətsizliyini] nəzərə alaraq onun ləğvini və yeni heyətin intixabını [seçilməsini] münasib görür.

Bir çox müzakirədən sonra sədrliyə Hüseynqulu Sarablı, müavini-sədrliyə Xəlil Hüseynov, katibliyə Kazım Kazımzadə, xəzinədarlığa Əliislam Dadaşov, idarəyə xanım Ş. Olenskaya, Rza Darablı, Əbülhəsən Anaplı və müfəttişliyə Müslüm bəy Maqomayev, Səlimbəyov və Ələkbər [Hüseynzadə] əfəndilər əksəriyyətlə seçilirlər.

Bundan sonra Müslüm bəy və Xəlil əfəndi Hüseynov İttifaqın gözəl səmərələr verməsi xüsusunda birər nitq irad edirlər [nitq söyləyirlər].

Nəhayət, bu gözəl İttifaqın əsasına aktyor əfəndilər 1300 manat ianə edirlər.

Məclis axşam saat 9-da qapanır.

**"Təməddün" məktəbi**

Sabunçuda vaqe "Təməddüni-İraniyyan" məktəbinə bu gündən etibarən şagirdlər qəbul olunmağa şüru edilmişdir [başlanmışdır]. Yazılmaq istəyən şagirdlər hər gün saat 2-dən 5-dək məktəbin idarəsinə gəlməlidir.

**Tələbələr kütübxanası**

Bakı Türk Tələbələr Komitəsi kütübxanası nəfinə [xeyrinə] türk və rus lisanlarında hər cürə kitablar ianə olunaraq qəbul olunur.

**Tapılmışdır**

2 ağustosda, cümə ertəsi günü kazarmanın önündə sahibsiz 4 qoyun bulunmuşdur [tapılmışdır]. Sahibi hənuz zühur etmədikdə, tərəfimizcə kazarmamızda hifz edilməkdədir. Sahibi Şamaxı yolunda 13-cü lazaretdə mühafizə taboru komandan vəkilinə müraciət etsin.

**Cəmiyyəti-Xeyriyyədə**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi Bakıda sükunət edən füqəraya hər nəfərə 20 girvənkə hesabı ilə 5 iyundan məccanən [pulsuz] təqsim etdiyi [payladığı] unun surəti-hesabı:

Un məscid nümayəndələrinə füqəraya paylamaqdan ötrü qəbz mövcibincə [qəbz əsasında] verilmişdir. Bu qərarla un verilmişdir:

1) İttifaq məscidi nümayəndəsi Kərbəlayı Mikayıl Hacı Baxış oğluna 196 nəfər füqəra üçün 147 pud;

2) Cümə məscid füqərasına 34 nəfər üçün 25 pud yarım;

3) Gilək məscidi nümayəndəsi Hacı Yunis Hacı Yaqub oğluna 203 nəfər füqəra üçün 152 pud 10 girvənkə;

4) Hacı Pirverdi məscidi nümayəndəsi

Ağahüseyn Nəcəfzadəyə 152 nəfər üçün 114 pud;

5) Hacı İmaməli məscidi nümayəndəsi Dadaş Əliyevə 22 nəfər üçün 16 yarım pud;

6) Hacı Baba təkyəsi nümayəndəsi Molla Ruhulla Hacıabdullazadəyə 74 nəfər üçün 55 yarım pud;

7) Hacı Qasım bəy məscidi nümayəndəsi Molla Ruhulla Hacı Abdullazadəyə 140 nəfər üçün 105 pud;

8) Təzəpir came nümayəndəsi Məşhədi Cabbar Bağırova 132 nəfər üçün 99 pud;

9) Məhəmmədyar məscidi nümayəndəsi Kərbəlayı Kazım Hacınəcəfquluzadəyə 153 nəfər üçün 113 pud 30 girvənkə;

10) Kərbəlayı Hüseyn məscidi nümayəndəsi Mirzəəli Kərbəlayı Məlik Rza oğluna 112 nəfər üçün 84 pud;

11) Hacı İbrahim məscidi nümayəndəsi Məhəmməd Qulu İslamova 208 nəfər üçün 156 pud;

12) Hacı Ağababa məscidi nümayəndəsi Hacı Əhməd Ağaməhəmmədzadəyə 117 nəfər üçün 87 3/4 pud;

13) Məhəmmədli məscidi nümayəndəsi Nurməhəmməd Kərimova 259 nəfər üçün 194 1/4 pud;

14) Dağlı məscidi nümayəndəsi Yusif İbrahim oğlu və Ağa Seyidəli Mirheydər oğluna 137 nəfər üçün 127 3/4 pud;

15) Hacı İbrahim məscidi nümayəndəsi Əliabbas Sultanov və Hüseyn Hacıyevə 402 nəfər üçün 301 ½ pud;

16) Təzəpir məscid nümayəndəsi Məşhədi Cabbar Bağırova 79 nəfər üçün 59 1/4 pud;

17) Məhəmmədyar məscidi nümayəndəsi Kərbəlayı Kazım Hacı Nəcəfqulu oğluna 94 nəfər üçün 70 1/2 pud;

18) Hacı Hüseynqulu məscidi nümayəndəsi Eyyub bəyə 152 nəfər üçün 114 pud;

19) Hacı Ağababa məscidi nümayəndəsi Hacı Əhməd Ağaməhəmmədzadəyə 22 nəfər üçün 16 1/2 pud

20) Hacı Hüseyn məscidi nümayəndəsi Kərbəlayı Dadaş Hacı Mirzəməhəmməd oğluna 30 pud;

Cümlətanı 20 qəbz mövcibincə 2070 pud edir.

## “MÜSAVAT”DA

- Şubanıdan “Müsavat”a gəlib orada şöbə açmaq iştiyaqında [arzusunda] bulunmaqlarını məlum edirlər. Keçən sənə “Müsavat”ın Şubanıda şöbəsi bulunduğuna binaən [görə], fəhlələr hər bir dərdlərini söyləyə bilirdilər. Ərzaq və qeyri cəhətdən yaxşı keçirdi. Şimdi isə şöbə olmadığına görə çox bəd keçir. Bu barədə lazımi binagüzarlıq olunur [tədbirlər görülür].

- “Müsavat”ın Müsalihə-Mürafiə [Barışıq və Məhkəmə] şöbəsinin cəmi şöbələrdə qolu təşkil olunmuşdur. Fəhlələrin nə qədər şikayəti olsa, həman şöbələrə müraciət edib şikayətinə sərəncam verilir. Təşkil olunan komitələrin əzaları [üzvləri] bunlardır:

Sabunçuda - Məşhədi Məhərrəm Məcidzadə, Şıxəli Xəlilzadə, Məşhədi Məhərrəm Hüseynzadə; Ramanada - Əziz Yusifzadə, Bilal Cəfərzadə; Zabrat - Yarəhməd Ağaquluzadə, Rəcəb Nağdəli-

zadə; Balaxanı - Mollaqədeş Mollaəlizadə, Əsgər bəy Yeganzadə.

Bunların müdiri Balaxanı mədənləri Mərkəzi Şöbəsinin katibi: Yusifzadə Əbdürrəhim.

- Koçeqar Haqverdi Əziz oğlu və Hüseyn Məşhədiqulu oğlu tərəfindən Müsalihə-Mürafiə şöbəsinə şikayət verilib ki, "Amasb" mədənində vəzifələrindən xaric edilmişlərdi. Sonra təklif olunub mədəndə iş versinlər. Mədən müdiri qəbul etməmişdir. Lazımi təhqiqat yapılır.

- "Müsavat"a Sayad Xızıdan bu məzmunda bir ərzi-hal verilmişdir:

*"1337-ci ildə şəvval ayının 29-da biz Bakı quberniyasının Sayad Xızı camaatı ali hökumət dairəsinə müraciətlə təvəqqe edirik ki, bizim əlimizdə olan xəzinə yerləri – ki olsunlar Barutca, Gilənsəki, Ərəb gədiyi – 1901-ci ildə çar hökuməti fövqdə məzbur* [yuxarıda adı çəkilən] *yerlərimizi məcburən alıb rus xaxollarına məskən etmişdi. 1917-ci ildə inqilab münasibətilə məzkur* [deyilən] *xaxollar evlərin və məzruatların* [əkin yerlərini] *bizim camaata ağır qiymətə satıb getdilər. Yersizlikdən təngə gəlmiş biçarə camaat ən zəruri şeylərini satmağa məcbur oldular. Evləri aldılar, həman yerlərdə əkin-biçinə məşğul oldular.*

*1918-ci ildə Mart hadiseyi-əliməsi* [kədərli Mart hadisəsi] *vaqe oldu. Bizimlə həmhüdud olan malakanlardan hücuma üz qoyub ətrafa dağıldılar. Məzkur malakanlar kəndi talan edib də taxta-şalbanı daşıyıb apardılar. Buna binaən* [buna görə] *var-yoxumuz talan olub da sərgərdan qalmış camaatımız ümidini cavan hökumətimizə bağlayıb, əlsiz-ayaqsız müsəlmanların halını nəzərə alaraq dərdlərinə əlac etməyə, biçarələrin maaşını təmin edəcəklərinə inanırız. Belə ki, mümkün olarsa, ətrafımızda olan meşədən taxta-şalban verib də xanimanlarını bina etsinlər. Və fövqdə məzkur yerləri yersiz adamlara verərək yersizlik dərdindən xilas etsinlər. Biz bu halda ikən həman yerlərdən ötrü agent gəlib bizdən dövlət pulu istəyir. Məqamından tələb olunmasını rica ediriz."*

"Müsavat" firqəsi bu barədə Ərazi Nəzarətinə müraciət etmişdir.

- "Müsavat"a xəbər verirlər ki, Ənzəlidə köhnə istibdad konsullarından Salayev kəndi tərəfindən şəhadətnamə verir.

Hər adamdan doqquz qran alır.

Lazımi təhqiqat olunur.

## AZƏRBAYCANDA

**Lənkərandan**

Zülumat bitdi, nur parladı!

Son günlərdə islam ordusunun göstərdikləri rəşadətlər və qəhrəmananə mübarizələri, vəsfəgəlməz qorxusuz hücumları düşməni vəhşət və iztiraba salaraq böyük bir müzakiratdan sonra təslimə məcbur etdirdi. Təslim qitəatı itmam bulduqdan sonra Muğan ordusu düşənbə [bazar] günü şəhəri təxliyə edib, məlulməyus vətənlərinə övdət etməyə [qayıtmağa] başladılar.

İştə bunların müqəvva kimi bir surətdə məhcubanə [başıaşağı] getməsi, vaxtında cəlladanə və qəddaranə şəhərə varid [daxil] olmalarını təsvir edərək, sitəmdidə [zülüm görmüş] əhalinin qəlbində həm riqqət və həm vəcd oyadaraq güldürüb ağladırdı.

Nəhayət, səşənbə [çərşənbə axşamı] günü islam ordusunun istiqbalına [qarşılanmasına] hazırlaşan əhali ünasən-zükurən, [qadınlı-kişili] böyük və kiçik, həp əllərində gül dəstələri pişvaza Böyük Bazar tərəfə məsruranə [sevincli] bir surətdə axın-axın gedirlərdi. Gedib də yolda çahi-veyldən (cəhənnəm quyusu) istixlas bulan [qurtulan] günahkarlar kimi ana və oğul, qohum-qardaş bir-birləri ilə müsafihələşərək [görüşərək, bir-birlərini təbrik edərək] şadlanırlardı. Sanki bunlar salhasal [illərlə] zülumatda qalıb, şimdi nuri-bərqfəşana [parlaq işığa] nail olmuşlar.

Əvət, zalımların rişteyi-iqbalı [bəxt ipi; uğuru] artıq özü-özünə qırıldı. Qara buludlar üzərimizdən çəkildi. Haqq parladı, haqqın parlayışı, günün şüası həmdəst olaraq [əl-ələ verərək] qəlb ayinəsi zəngarına [pasına] seyqal [cila] verərək, yerinə çətirəndaz [çətir kimi açılmış] al bayraqlarla islam ordusu qitəatını [birliklərini] əksəndaz etdi [əks etdirdi]. Yavaş-yavaş şu əksi-dilruba [könül oxşayan mənzərə] göz nuru qarşısında mücəssəm qılmağa başladı. Əsakiri-islamın [müsəlman əsgərlərinin] nəğmə və şərqilərinin məlahəti, zabitlərin amiranə bir vəziyyətlə qədəməndaz olması [addımlaması], aylı-ulduzlu bayraqların mütəntən [təntənəli] bir surətdə şəşəəpaş olması [işıq saçması] xəstə ürəklərdən bütün cəfa və sitəmləri unutduraraq təqdim və təzbihə [kəsilməyə] hazırladıqları qurbanlıq deyil, kəndilərini payəndaz etməyə [ayaq altına atmağa] belə həvəsləndirirdi.

Bəli, ordu komandanı və qubernator həzrətləri camaat tərəfindən pişnihad olan [təqdim edilən] Qurani-şərifi ziyarət edib, təqdim olunan duz-çörəyi daddılar. Qubernator Cavad bəy [Məlik-Yeqanov] həzrətləri nitqə başlayaraq, xalqa Azərbaycan təhti-hakimiyyətində [hakimiyyəti altında] asudə və fərsudə yaşayışı vəd, kəndi hakimiyyəti sayəsində ümidbəxşa, şükrəfşa sözlərlə nəvaziş verib sınıq qəlblərdə məsudiyyəti-müstəqbələ [gələcəyə sevinclə baxmaq] hissi oyadırdı.

Natiqin nitqi-bəliğinə [bəlağətli, ifadəli nitqinə] qarşı əhalidən "Yaşasın Azərbaycan", "Yaşasın ordu", "Yaşasın islam hakimiyyəti" sədası təninəndaz olurdu [əks-səda verirdi].

Əlhasil, qurbanlar kəsildi, orduya yürüş əmri verildi. Üləma və sadat [ruhani alimlər və seyidlər], gənc və bərna [cavanlar] sənaxan olaraq [mədh edərək], çocuqlar, balaca qızlar əllərində rəngarəng güllərlə əziz qonaqları təyin olunan binaya qədər təşyi [müşayiət] etdilər.

Burada yenidən qubernator cənabları bir nitq irad edərək [nitq söyləyərək] camaata izhari-rizaməndlik etdilər [razılıqlarını bildirdilər]. Camaat isə səmimi-qəlbdən xeyir-dua verərək sürəkli alqışlar içində xudahafiz etdilər.

İştə, biz də Müdəbbiri-kainatdan, Saniyi-qüdrətdən [kainatı yaradıb idarə edən, qüdrət əli ilə hər şeyi yaradan Allahdan] bizə nəsib etdiyi şu neməti-üzmanın [böyük nemətin] bəd-əyanını rəf [ona kəm gözlə baxanları aradan qaldırmasını], izmihlalını bərtərəf [onu puç olmağa qoymamasını], davami-bəqasını [əbədi olmasını] arzu və təmənna edəriz.

*A. Məhəmmədli*

**İDARƏDƏN CAVABLAR**

*Conqutay hadisəsini yazan əfəndiyə:* Özünüzlə görüşmək lazım gəlir.

*Acentə əfəndiyə:* Sorğunuz pək müvəffəqiyyətsiz tərtib verilmişdir.

*Hüseynzadə Tağı əfəndiyə*: Ararat hökumətinin o tərəf türk islamları ilə müharibəsi haqqında müxabirəniz [xəbəriniz] ancaq dün idarəmizə varid [daxil] olmuş və o vaxtdan bəri vəziyyət tamamilə dəyişmiş olduğundan, dərcinə lüzum görmədik.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, 1919-ncu sənəsi 28 iyul hökumətinin binagüzarlığı mal aparıb-gətirmək qanununun 6-ncı maddəsinə görə, Salyana hər cür mal aparıb-gətirməyə ixtiyar verilir. Bunun üçün heç bir icazə lazım deyildir.

*Nazir: [Ağa] Əminov*
*Müdir: Makinski*
*T-227*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, Bakıda yaşayan şəxslər qeyri yerlərə mal aparmaq üçün icazə almaqdan ötrü Nəzarətə posta vasitəsilə ərzihal yazaraq, öz adreslərini göstərməlidirlər. Nəzarət də posta vasitəsilə dəxi onlara cavab verəcəkdir.

*Müavini-nazir: Y[usifəli] Əliyev*
*T-226*

**Tüfəng**

Ovçu kostyumu, bir böyük durbin (binokl), bir puda qədər qırma (saçma), 5 girvənkə barıt və sair ovçu ləvazimatı ittifaqən [təsadüfən] satılır.

Nijni Təzəpirski (Poçtovının küncü), nömrə 1. Evin komitə sədrindən, saat 5-7 xəbər almaq olar.

*7494*

**Elan**

Milyutinski, Krivoy, Tarqovı, Malakan bağı və Baryatinski küçələrdə bir portfel içində 500 manat pul, kağızlar və Kalinkus adına türkcə-fransızca yazılmış vizitni kartoçkalar itibdir. Tapan şəxsdən acizanə təvəqqe edirəm pulu özü götürüb, kağızları isə min manat mükafat almaq üzrə bu adresə gətirsin: Milyutinski, nömrə 3. Mağaza 23, Kalinkus.

*7497*

Cümə günü zilhiccə ayının 2-si (avqustun 29-da) saat 9 tamamda "İttihad" məktəbində (Sadovaya, nömrə 19) Bakı və ətrafında yaşayan iranlıların ümumi ictiması [yığıncağı] olacaqdır. Binaənileyh [ona görə], bütün iranlıların vəqti-müəyyəndə gəlmələri rica olunur.

*Heyəti-İttifaqi-İraniyyan dər Badi-Kubə*
*7496*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Qismi-rəsmi

səh. 467. "Könüllü təşkilat rəisi: Talıbzadə": qəzetdə "Talıbzadə" yerinə səhvən "Mütəllibzadə" getmişdir.

### Teleqraf xəbərləri

səh. 470. "kral Ferdinand": 1914-1927-ci illərdə hakimiyyətdə olan Rumıniya kralı I Ferdinand nəzərdə tutulur.

"vəliəhd Karol": 1930-1940-cı illərdə Rumıniya kralı olan II Karol nəzərdə tutulur.

### Heyəti-Mürəxxəsəmiz

səh. 472. "25 oktyabr 1917 sənəsi bolşevik inqilabı": Petroqradda Rusiya Müvəqqəti hökumətinin devrildiyi silahlı üsyan nəzərdə tutulur. Rus (və SSRİ) tarixşünaslığında "Oktyabr inqilabı", "Böyük Oktyabr sosialist inqilabı" kimi adlandırılan bu üsyan köhnə təvqimlə 25 oktyabrda, yeni təqvimlə 7 noyabrda baş vermişdi.

səh. 473. "kürü": qəzetdə təhrif edilmiş, "kürs" kimi getmişdir.

### Nəzarətlərdə

səh. 473. "Novo Vasilyevka və Nikolayevka köyləri": indiki Kürkənd (Meftçala rayonu) və Qara Nuru (Saatlı rayonu) kəndləri nəzərdə tutulur.

### İrəvan quberniyasında "müsəlmanıstan"

səh. 479. "M. B.": bu imza Mirabbas Mirbağırzadəyə məxsusdur.

### Bakı xəbərləri

səh. 481. "Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Qızıl-Arvad": Türkmənistanda şəhər; indiki Sərdar şəhəri.

"Qara-Qala": Türkmənistanın cənubqərbində, indiki Maxtumqulu şəhəri.

səh. 483. "Əbülhəsən Anaplı": qəzetdə "Əbdülhəsən Anaplı" kimi getmişdir.

"İttifaq məscidi": Bakıda, indiki Əjdər bəy məscidi nəzərdə tutulur.

səh. 484. "Hacı Baba təkyəsi": "təkyə" müsəlmanların yığışaraq namaz qıldıqları, mərsiyə oxuduqları və digər dini ayinlər həyata keçirdikləri yerə deyilirdi.

### "Müsavat"da

səh. 485. "Sayad Xızı": indiki Xızı rayonunun Sayadlı kəndi.

"bu məzmunda bir ərzi-hal verilmişdir": ərizənin dili qüsurludur; bəzi cümlələri düzəltdik.

"1337-ci ildə şəvval ayının 29-da": burada tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 28 iyul 1919-cu ilə uyğundur.

### Azərbaycanda

səh. 486. "Böyük Bazar": Lənkəran şəhərinin məhəlləsi.

"bir-birləri ilə müsafihələşərək": qəzetdə "bir-birləri ilə müsafələşərək" getmişdir.

"fərsudə": əslində "köhnəlmiş, yıpranmış" mənasına gələn bu söz burada güman ki, "asudə" ilə həmqafiyə olmasının da təsiri ilə, "keçmişdəki" (Muğan diktatoriyasından əvvəlki) mənasında işlənmişdir.

### İdarədən cavablar

səh. 486. "Conqutay hadisəsi…": Conqutay (yaxud Cenqutay) Dağıstanın indiki Buynaksk rayonunda yerləşən kənd.


آذربایجان

*"Azərbaycan" qəzetinin 262-ci nömrəsinin 1-ci səhifəsi*

**Cümə axşamı, 28 avqust 1919-cu il, nömrə 262**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 1 zihiccətül-haram sənə 1337. 28 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

1919 sənə 28 avqust pəncşənbə günü gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-229*

## "AZƏRBAYCAN" QƏZETƏSİ KONTORU TƏRƏFİNDƏN

Qəzetəni nəşr etmək üçün məxaric artdığından, kağızın və bir para mətbəə materiallarının bahalandığından dolayı "Azərbaycan" qəzetəsi nəşriyyatı həmin avqust ayının 23-dən müvəqqəti olaraq qəzetənin tək nüsxəsi fiyatını 2 manat etməyə məcbur olmuşdur. İşbu abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-ədək hesab olunur.

* * *

Azərbaycan Dəmiryol İdarəsi bununla elan edir ki, həmin avqust ayının 22-dən hər gün, cümə və bayram günlərindən başqa, saat 10-dan Bakı yük istasyonunun 11-ci skladında sahibləri tərəfindən aparılmayan mal və yüklər, məsələn hər cür kağızlar, kitablar, ev əşyaları, mətbəx qabları, köhnə-təzə paltar, gömlək, aptek malları və sairələri müzayidə (torq) [hərrac] təriqi [yolu] ilə satılacaqdır. Həmin malları yuxarıda zikr olunan skladda torq olan günlər görmək olar. Torq edən Həcz və Təsviyə [Müsadirə və Ləğvetmə] Komissiyası Azərbaycan Hökumətinin 1919-cu sənəsi 7 may qətnaməsi mövcibincə [qətnaməsinə əsasən] hərəkət etməkdədir.

*T-225*

* * *

Azərbaycan Dəmiryol İdarəsinin Ekspluatasiya Konsulluğunun [İstismar Xidmətinin] ticarət hissəsi elan edir ki, dəmiryol ilə işi olanlara, Batuma və geri məktub göndərməyə imkan vermək məqsədilə avqustun 26-dan Dəmiryol nazirinin icazəsi ilə (21 avqust, 1919, nömrə 1246) Bakı şəhərində Bakı şəhər stansiyasında (Olqinski və Merkuryevski küçələrinin küncündə) məktubat [məktublar] qəbul ediləcəkdir. Batum şəhərində isə Azərbaycanın Batum agentliyində (Naberejni nömrə 8) bayram günlərindən başqa hər gün səhər saat doqquzdan birə qədər məktubat qəbul edilib veriləcəkdir. Səkkiz lotdan artıq olmamaq üzrə paketlər (zərflər) bağlanmamış

bir halda qəbul ediləcəkdir. Poçta markasından əlavə hər paketə 25 manat komisyon haqqı alınacaqdır. Məktubat həftədə iki dəfə beş və altı nömrəli sürət qatarları ilə aparılıb-gətiriləcəkdir.

*T-224*

**SİRK “MODERN”**

Pəncşənbə günü avqustun 29-nda 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 61-nci günüdür.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: qəti mübarizə Staroşvili – Zakoroyko.

2-nci: Buyvolov – Djiovani.

3-ncü: Oleynikov – Kreçetov.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır. Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

*7499*

**HƏRBİYYƏ NƏZARƏTİ TƏRƏFİNDƏN ELAN**

“Azərbaycan” qəzetəsinin təmmuz 9, 142-ci nömrəsində Hərbiyyə Nəzarəti tərəfindən türk və rus lisanlarında nəşr olunan elanlara baxmayaraq, qanunən doğru əsgərə dəvət olunmayanlar tərəfindən hədsiz-hesabsız istidalar və şəkvalar [xahişlər və şikayətlər] alınmaqdadır. Şikayətçilər elə zənn edirlər ki, nahaq əsgərə alınanların azad edilməsi Hərbiyyə Nəzarətinə aid məsələdir. Binabərin [buna görə], bir çox dəfələr şikayətlərini şifahən və təhrirən [şifahi və yazılı olaraq] bizzat [şəxsən] Hərbiyyə nazirinə təqdim edirlər. İkinci dəfə olaraq, bərayi-məlumat [məlumat üçün], əsgərə alınmışlara və əsgərə düşənlərin əqrəbalarına elan edir ki, əxzi-əsgər [hərbi çağırış] məsələlərinə aid şikayətlərə baxmağa Hərbiyyə Nəzarətinin ixtiyarı olmadığı üçün əxzi-əsgər barəsində verilən şəkvalara baxılmayacaqdır. Əxzi-əsgər məsələləri ancaq Daxiliyyə Nəzarətinə tabe uyezd və mərkəz əxzi-əsgər dairələrinin işi olduğundan, doğruca balada məzkur [yuxarıda deyilən] dairələrə müraciət edilməlidir. Bununla belə, Hərbiyyə Nəzarəti, əlbəttə kəndi tərəfindən təzə əsgər doğru çağırılmasını arzu etdiyindən, əxzi-əsgər məsələsini kamali-diqqətlə təqib edir. Kiçik bir xəta duyduqda həman Daxiliyyə Nəzarəti ilə yazışır. Nəticədə əxzi-əsgər məsələlərini yoluna qoymaq səlahiyyətinə malik Daxiliyyə Nəzarəti lüzum görülən tədabiri ittixaz edərək [tədbirləri görərək] məsələni doğru yoluna qoyur.

*T-228*

**HÖKUMƏT TEATROSU AXŞAM TAMAŞASI TƏZƏ OPERA**

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının Müdiriyyəti cümə günü zilhiccə ayının 2-də (ağustos ayının 29-da 1919-cu ildə) bu mövsümdə birinci dəfə olaraq mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Hacıbaba Şərifov tərəfindən yazılmış olan təzə opera “Tahir və Zöhrə” 7 şəkildə. Bu tamaşada Müdiriyyətin müqtədir [qüdrətli] aktyor və aktrisaları iştirak edib oyun gözəl və şükuhlu bir mənzərədə başa gələcəkdir. Böyük musiqi orkestri bu dəfə isə Slavinskinin təhti-idarəsində

[idarəsi altında] olacaqdır. Orkestrdə Tehrandan varid olmuş [gəlmiş] məşhur tarzən Qurban Pirimov həm iştirak edəcəkdir. Qızlar və oğlanlar xoru və balet. Təfsilat proqramdadır. Biletlər teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 9-un yarısında.

## ƏRAZİ MƏSƏLƏSİNDƏKİ MÜVƏFFƏQİYYƏTİMİZ

Lənkəran düşmənlərdən təmizləndi. Muğana çəkilən xaxollar Azərbaycan ordusunun vürudu [gəlişi] üzərinə silahlarını təslim etməyə başladılar. Qarabağ erməniləri Azərbaycan hakimiyyətinə boyun qoydular. Naxçıvan, Şərur və Dərələgöz qəzaları haqsız olaraq kəndisinə təhəkküm [hökm] etmək istəyən erməni saldatlarını məmləkətdən çıxartdılar.

İştə mətbuati-milliyyənin son həftələr içərisində nəşr etməkdə olduğu mühüm xəbərlər silsiləsi.

Azərbaycan Cümhuriyyətinin ərazi məsələsindəki maəqəll [minimal] tələbatı ilə aşina olanlar bu xəbərləri oxurkən hökuməti-hazirənin müvəffəqiyyətini təslim etmək məcburiyyətində qalacaqlardır.

Demək olar ki, Kabinə proqramının bu fəsli haman-haman tətbiq edilmişdir.

Bu nöqteyi-nəzərdən, bundan doqquz ay əvvəlki vəziyyətimizlə şimdiki vəziyyətimiz müqayisə edilərsə, görülər ki, bir çox bədbinlərin təsəvvür eyləmədiyi böyük bir müvəffəqiyyət Azərbaycan xalqının nəsibi olmuşdur.

Doqquz ay bundan müqəddəm [qabaq] ümumi vəziyyəti-siyasiyyənin dəyişməsi ilə ingilislər Azərbaycana qədəm qoyduqları zaman bütün mövcudiyyətimiz təhlükədə təsəvvür olunur, daxilən dəxi Qarabağ, Lənkəran, Borçalı kimi vətənin ayrılmaz parçaları bizi tanımayan yabançı əllərdə bulunurdu. Naxçıvan, Şərur və Dərələgöz qəzaları ilə Sürməli və sair bu kimi Azərbaycan əhalisi ilə məskun olan vilayətlərimizin müqəddəratı dəxi mərkəzdən uzaq olmaları həsəbi [səbəbi] ilə olduqca qaranlıq bir şəkildə idi.

Bu gün ingilisləri dostanə bir şəkildə yola saldıqda, ərazi məsələmizin də daha müvafiq bir şəkildə həll edilmiş olduğunu görürüz. Təbii, fövqdə [yuxarıda] zikr olunan məsələlərdən başqa, ərazi proqramına daxil olub bir an əvvəl həllini tələb edən Zəngəzur məsələsi ilə Borçalı məsələləri vardır.

Fəqət bunlardan birincisi yaxın bir zamanda həll olunacağı kimi, o birisi də müttəfiqimiz Gürcüstan ilə sülhən həll oluna biləcək bir hala qoyulmuşdur. Hər halda bu məsələ bizi kəndisi ilə bərabər daha mühüm bir təhlükeyi-ümumiyyə qarşısında bulunduğumuz və bu təhlükənin rəfi [aradan qaldırılması] üçün silah arxadaşı olduğumuz Gürcüstan ilə pozuşduracaq bir mahiyyətdə deyildir.

Şu surətlə Nəsib bəy Kabinəsi başlıca məqsədləri içərisində ən mühümünü təşkil edən ərazi məsələsini əsasən həll etmiş kimidir.

Şimdi ərazi məsələsi deyil, Azər-baycan üçün hüdudunu təyin və təmin etmək məsələsi qalır ki, bu bir tərəfdən zamana, digər tərəfdən tədabiri-siyasiyyə və ələlümdə [birinci növbədə] qüvayi-əsgəriyyəyə bağlı bir məsələdir.

Nəsib bəy Kabinəsinin digər xüsusati-idarədəki gördüklərini bir yana qoyub, yalnız bu xüsusdakı tətbiqatını alarsaq, kəndisinə təyin eylədiyi məqsədlərinin yüzdə əllisində müvəffəq olduğuna hökm etmək məcburiyyətindəyiz.

Kabinənin bu xüsusdakı müvəffəqiyyəti heç şübhəsiz ki, əsgəri təşkilatımızda göstərilən fəaliyyət və müvəffəqiyyətə bağlıdır.

Bundan dörd ay əvvəl əsgərlərimizdə fərarilik vardı. Xalq lazım olduğu həvəslə əsgər verməyirdi. Təşkilati-əsgəriyyədə nöqsan vardı. Bilxassə [xüsusilə] xəstəlik əsgərləri qorxudurdu. Əsgərlər iaşələrindən şikayət edirlərdi.

İştə o zaman Azərbaycan Cümhuriyyətinin tamamiyyəti-mülkiyyəsi [ərazi bütövlüyü] də təmin edilmiş deyildi. Şimdi tamamiyyəti-mülkiyyəmiz feilən təmin edilməklə mütənasib olaraq, qüvayi-əsgəriyyəmizin kəmiyyət və keyfiyyətini nəzəri-etibar və mühakiməyə alarsaq görəriz ki, bu iki hal arasında bir növ münasibət vardır.

Ordumuz əlhəmdüllah sağlam, fərarimiz yox kimi, xəstəliklər yox, məmləkətin nüqati-mühimməsində [mühüm nöqtələrində] ümidli alaylar durur. Lənkəran, Qarabağ, Naxçıvan təslim olur.

Bu gün deyə biləriz ki, qismi-küllisində təmin edilmiş olan Azərbaycan ərazisi üzərində yaşayan türk xalqında getdikcə möhkəmləşən fikri-istiqlal və fədakari nəticəsində Cümhuriyyətimiz daxili əngəllərdən təmin edilmişdir.

Bu gün bütün xalqımızı, hər bir vətəndaşı əndişədar edəcək bir məsələ varsa, o da şimaldakı qüvvənin təhdididir. Fəqət daxildəki məsailimiz [problemlərimiz] həll olunduğu bir zamanda, bu kimi təhlükələr istiqlalını göz bəbəyi kimi qorumağa and içmiş olan bir millət üçün qorxulu olammaz.

Yetişir ki, hökumət idarəsi ilə əlaqədar olan bəzi siyasi məhfillərimiz [dairələrimiz] ümuri-idarədəki [idarə işlərindəki] əsaslı müvəffəqiyyətləri gözdən iraq buraxıb da əksərən prinsipdən ziyadə bir taqım şəxsi təmayülata qapılıb siyasət oyunu çıxartmasınlar.

Bitərəf xalq əlbəttə görür ki, bu qədər dedi-qodularla bərabər hökumət tutduğu yol ilə ciddiyyətlə gedir və digər məsail [məsələlər] arasında pək haqlı olaraq məsələnin canını təşkil edən xarici siyasətlə ərazi məsələlərində gündən-günə müvəffəqiyyətlərə nail olur. Böylə ikən, yeni böhranlar törətməyə mətuf olan [yönələn] "tənqid"lərin cavabı nə olduğunu əfkari-ümumiyyə [ictimaiyyət] kəndisi verər.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

***18 ağustos iclası***

**Sədr**: Həsən bəy Ağayev

**Katib**: Mehdi bəy Hacınski

Sədr məsaili-yövmiyyəni [gündəlik məsələləri] elan etdikdən sonra sülh məhkəmələrinin daireyi-nüfuzu[nun] artırılması haqqındakı layiheyi-qanuniyyənin [qanun layihəsinin] 3-cü qiraətinə keçilir və qiraətdən sonra qanun əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilərək Təshih Komissiyasına verilir.

Bədəhu [sonra], Azərbaycan sərhədlərində mühafizə bölüyü təsisi barəsindəki layiheyi-qanuniyyə dəxi üçüncü qiraətdə qəbul və Təshih Komissiyasına irsal edilir [göndərilir].

Növbədə Darülfünun [Universitet] açılması haqqındakı layiheyi-qanuniyyənin müzakirəsidir.

**Mahmudov Mustafa** (Müsavat) məsələnin böyük əhəmiyyətini qeydlə təxirini təklif edir.

Təklif əksəriyyəti-ara ilə qəbul olunaraq, növbədəki Dövlət Bankı təsisi layihəsinin müzakirəsinə keçilir.

**Rzayev Bağır** (Sosialist) bu məsələyə onların fraksiyasında baxılmamış olduğunu bəyanla təxirə salınmasını təklif edir.

Təklif əksəriyyəti-ara ilə rədd edilir.

**Ağabəyov Rza bəy** (Müsavat, məruzəçi) - Məmləkətin iqtisadi və mali işlərini bir qaydaya salmaq üçün bir Dövlət Bankı açılmasına ehtiyac vardır. Məlumdur ki, dövlət və məmləkətin maliyyat və iqtisadiyyatını adi bir yola və nizama salmaq üçün hökumətin əlində tamamilə ona tabe olan bir müəssisə lazımdır. Əsrimizdə böylə bir rol oynayan müəssisə Dövlət Bankından ibarətdir ki, bütün məmləkətlərdə mövcuddur və onun siyasəti-maliyyə və iqtisadiyyəsi məmləkət həyatında qəti bir amildir.

Cümhuriyyətimiz bu vaxtadək böylə bir müəssisədən məhrum idi. Halbuki ticarət və sənaətimiz [sənayemiz] dövlət dairə və ölçüsündə müzahirət [kömək] tələb edir. Bundan əlavə, məmləkətimizdə mövcud olan xırda istiqraz müəssisələri, məsələn xüsusi banklar, əmanət sandıqları və sairləri də onları birləşdirəcək mərkəzi bir müəssisəyə möhtacdırlar. Böylə bir müəssisə də ancaq Dövlət Bankından ibarətdir.

Bir də özünüz bilirsiniz, köhnədən qalmış və bu vaxtadək mövcud olan banklara və istiqraz müəssisələrinə camaat inanmayır, etibar etməyirlər. Ona görə də əhali pulunu onlara verməyir. Bundan dolayı milyonlarla pul camaatın əlində qalır, işləməyir. Nəticədə hökumət hər daim yeni kağız pul kəsməyə məcbur olur. Bu isə hökumətin borcunu artırır və pulun qiymətinin] düşməsinə bais olur. Halbuki əgər Azərbaycan Hökuməti özü Dövlət Bankı açsa, həm camaatın öz içində olmaq, həm də xalq ruhuna müvafiq gəlib köhnə dolaşıq hesablardan uzaq olması həsəbi [səbəbi] ilə, digər tərəfdən də banka verilən pulların hamısı həmişə camaatın öz cibində kimi olacaqdır.

Ona görə də şübhəsizdir ki, camaat Azərbaycan Dövlət Bankına inanıb etibar edəcək və pulunu o banka verəcəkdir. Həman Dövlət Bankı xırda istiqraz müəssisələrinə pul buraxmaqla, əvvəla onları mərkəzi idarəyə yaxınlaşdırar, saniyən [ikincisi] də bu vaxtadək bankdan kömək ala bilməyən yerlər və camaatın bankdan uzaqda qalmış olan sinif və təbəqələrini hərəkətə gətirər.

Nəhayət, Dövlət Bankı xırda istiqraz müəssisələrinə kredit açıb münasibat və əməliyyatını nizam və qaydaya salmaqla, bir tərəfdən həman müəssisələr ümum məmləkət həyatında yeni cərəyan hüsula gətirər, digər tərəfdən də yavaş-yavaş məzkur [deyilən] müəssisələrə qarşı etimad və etibarı möhkəmləşdirərək çek müamilatı [əməliyyatları] baş-

lanmasına bais olar ki, bu təriq [yol] ilə də nağd pula olan ehtiyac azalar.

Dövlət Bankının vəzifə və məqsədləri ticarət banklarınınkından geniş və çox olacaqdır. Məsələn, emissiya məsələsi, dövlətin maliyyə mərkəzi olmaq üzrə əcnəbi məmalik mərkəzləri ilə uzlaşma hüsulu, valyuta məsələsini nizama salmaq və sairə kimi mühüm vəzifələr ifa edəcəkdir. Maliyyə Nəzarəti bu xüsusda 5 fəsil, 142 maddədən ibarət bir layihə təqdim etmişdir. Layihə, bankın daxili nizamnaməsini dəxi havidir [əhatə edir]. Bank idarəsi başında bir şura duracaqdır. Həman şuraya camaat nümayəndələri dəxi cəlb ediləcəklərdir.

Yuxarıda ərz etdiyim mülahizələrdən anlaşıldığı üzrə Dövlət Bankı haqqındakı layiheyi-qanuniyyənin tezliklə qəbulu və bir an əvvəl bankın təsisi məmləkət həyati-iqtisadiyyə və maliyyəsinin tezliklə və möhkəm əsaslar üzərinə təcdidinə [bərpasına] bais ola biləcəkdir. Binaənileyh [ona görə], Maliyyə-Büdcə Komissiyası bu layiheyi-qanuniyyəni qəbul və təsdiqini təklif edir.

**[Səməd ağa] Ağamalıoğlu** (Hümmət) - Yoldaşımız Bağır Rzayev fraksiyamız namından [adından] bu layihəyə yaxşı baxa bilməmiş olduğumuzu göstərərək, müzakirəsinin təxirə salınmasın[ı] təklif etdi. Bizim məqsədimiz bu surətlə layihəyə ətraflı bir surətdə aşina olmaq idi. Çünki bu məsələ çox mühümdür. Onu asanlıqla keçmək olmaz. Özünüzə məlumdur ki, Dövlət Bankı öylə bir müəssisədir ki, oraya camaat pulu qoyulacaqdır. Ona görə də həman bankdan bizim zənnimizə görə camaat özü istifadə etməlidir. Amma bu cür ki, indi bizə təklif edirlər, biz böylə bir bank açsaq, ondan ancaq dövlətlilər istifadə edə biləcəklərdir. Halbuki biz gərək öylə bir bank açaq ki, ondan əkinçilər, kəndlilər, fəhlələr və ümumiyyətlə camaatın aşağı təbəqəsi istifadə edə bilsin. Bu bank ki, açılır, onu camaat, füqəra sinfi mənafeyindən uzaq duran bir şura idarə edəcəkdir. Bundan əlavə, qanun layihəsində bir çox örtülü, dumanlı, qaranlıq yerlər var ki, gələcəkdə bu şeylərdən sui-istifadə etməyə imkan verər. Ona görə, mən təklif edirəm ki, bu layihəyə yaxşı diqqət verilsin. O maddələrə də ciddi surətdə baxılsın ki, sonra qaranlıqlar, örtülülüklər qalmasın.

**Aşurov Ağa** (Bitərəf) - Qabaqkı natiqlərin danışıqlarından böylə görüldü ki, onlar Dövlət Bankı açılmasına müarizdirlər [etiraz edirlər]. Amma mən belə bilirəm ki, Dövlət Bankı açmaq məsələsi öylə bir şeydir ki, heç vaxt onun ziddinə getmək olmaz. Çünki Dövlət Bankının olması məmləkətdə adi həyati-iqtisadiyyə hüsuluna xidmət edir. Onu açmaq və aydınlaşdırmaq lazımdır. Ümidvaram ki, bu məsələyə də kafi cavab verilər.

Mən bilmək istərdim ki, Azərbaycan Dövlət Bankı açıldıqda qabaqkı Dövlət Bankı və sairləri ilə əlaqə və müamiləsi necə olacaqdır.

**Əhmədzadə Yusif** (Bitərəf) - Dövlət Bankı öylə bir şeydir ki, hər bir hökumət və məmləkətə lazımdır. Buna heç kəs zənnimcə etiraz edə bilməz. O ki qaldı bankın demokratlaşdırılmasına, mən belə bilirəm ki, heç kəs kəndlərdə əkinçilər, kəndlilər üçün xırda banklar açılmasına da etiraz etməz. Ola bilər ki, qabaqlarda banklarda öylə siyasət işləmişlər, füqəra əhali banklardan istifadə etməmişlər,

nəfbərdar ola [faydalana] bilməmişlərdir. Bu siyasəti yürüdən qabaqkı banklar idi. Amma indi Azərbaycan özü üçün Dövlət Bankı açdıqda böylə siyasətləri rəf edər [aradan qaldırar]. Camaatı bankdan uzaqda buraxmaz və öylə edər ki, füqəra əhali dəxi banklardan nəfbərdar ola bilsinlər.

**Əbilov İbrahim** (Sosialist) - Biz əsas etibarilə Azərbaycanda Dövlət Bankı açılmasının ziddinə getmədik və getməyiriz. Biləks [əksinə], məmləkətdə Dövlət Bankı açılmasına böyük əhəmiyyət verərək, biz təklif etdik ki, bu məsələ təxirə salınaraq ətraflıca və müfəssəl surətdə müzakirə edək. Çünki biz fraksiyamızda bu məsələni geniş surətdə müzakirə etməmişik. Ancaq bizim təklifimiz qəbul olunmadı. Ona görə də bu məsələnin nə müzakirəsində lazım bildiyimiz kimi iştirak edəcəyiz, nə də səsə qoyulduqda rəy verəcəyiz.

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

**Xüsusi teleqraf**

**Salyandan**

Azərbaycan Muğan qoşunları sərəsgəri [komandiri] general [Həbib bəy] Səlimov tərksilah edilən muğanlılardan 16 yeni sistem top, 22 mitralyoz və xeyli fişəng və mərmi qəbul etmişdir. Qəbul və təslim davam edir.

**Türkiyədə**

İstanbuldan xəbər verirlər ki, Anadolu vilayətlərində övza [vəziyyət] kəskinləşmişdir. Üsyançı dəstələri Uşak şəhərinə daxil olmuşlardır.

**Hava polisi**

Sərhəd xaricinə uçanları təqib etmək üçün nemeslər təyyarələrdə xüsusi bir polis təşkil edirlər. Sərhəd xaricinə alman sərvətini daşıyan cinayətkar və möhtəkirləri havada dərdəst etmək [tutmaq] tədarükü görürlər.

**Denikin cəbhəsində**

Tambov istiqamətində müvəffəqiyyətli surətdə düşməni təqib ediriz. Yaroslavlı vuruşaraq işğal etdik. Düşmənin zirehli qatarını və bir çox mühimmatihərbiyyəsini qənimət almışıq. Kamışin dairəsində, Kamışinin cənub tərəfində bizim hissələr bir kənd işğal etmişlərdir. Flotumuz düşməni təqib edərək iki kater, bir gəmi, 11 top və xeyli miqdar mərmilərlə zəbt etmişdir.

**Kolçak cəbhəsində**

Kizlyar istiqamətində, Hacı-Tərxanın cənub-qərb cəhətində düşmənin təzyiqatı nəticəsi olaraq bizim hissələr bir neçə çağırım geri çəkilmişlərdir. Çari dairəsində dəyişikli müvəffəqiyyətlə bizim hissələr vuruşmada bulunurlar.

**Ərəbistanda**

Dəməşqdə nəşr olunan ərəb qəzetələri tələb edirlər ki, Ərəbistana müstəqil bir dövlət təşkil etmək ixtiyarı verilib, vahid bir Ərəbistan yaradılaraq əqəliyyətdə [azlıqda] olan millətlərin tələblərinə riayət olunmasın. Ərəblər içində böyük ixtilaflar vardır. Onlardan bəziləri

Şamat və xüsusən Hicaz istiqlalını tələb edirlər. Bəziləri isə düvəli-müəzzəmədən [böyük dövlətlərdən] birinin himayəsi olmadan heç bir iş mümkün olmayacağını ortaya sürürlər. Üçüncü firqə isə Şamat və Hicazın ümumi himayə altına keçməsini təkid edirlər və bu dürlü qeyri və qeyri rəylər ortada hökmran olduğu üçün istəkləri heç bir nəticəyə müncər olammayır [nəticə verə bilmir].

“Müqtəbəs” qəzetəsi müdiri düvəli-müəzzəmədən birisinin Şamat üzərində himayəsi lehinə yazdığı məqalədən dolayı döyülmüşdür. “Lisanül-ərəb” qəzetəsi müdiri 100 lirə cəriməyə məhkum qılınaraq hərbi məhkəməyə verilmişdir.

**Fələstində**

Londondan verilən xəbərlərə baxdıqda Fələstinə daxil olmaq büsbütün mən’ [qadağan] edilmişdir. İngiltərə Hökuməti qəti surətdə məlum etmişdir ki, edilən bu yasaq müvəqqətidir. Bu mən’dən Fələstin qaçqınları müstəsna edilmişlərsə də, onlar da həftələrcə Fələstindən cavab gözləməyə məcbur qalırlar.

**Fələstin xüsusunda rus müxtirəsi**

Xarkovda müntəşir [nəşr olunan] “Novaya Rossiya” qəzetəsində Parisdən yeni varid olmuş [gəlmiş] Üçüncü və Dördüncü Padşahlıq Duma məbusi-əsbaqı [üçüncü və dördüncü Dövlət Dumasının keçmiş üzvü] və Ümumrusiya Kəlisaları Cəmiyyəti üzvü [Yevqraf] Kovalevskinin bir müsahibəsi dərc edilmişdir. Məzkur [deyilən şəxs], bəyan etmişdir ki, Knyaz [Georgi] Lvov, [Vasili] Maklakov, Sazonov və Çaykovski tərəfindən imza edilmiş Türkiyə məsələsinə aid bir müxtirə [rəsmi müraciət] Sülh Konfransına verilmişdir. Həman müxtirədə denilir ki, Rusiya təklif edir ki, Fələstində olan müqəddəs yerlər Cəmiyyəti-Miləl [Millətlər Cəmiyyəti] ixtiyarına verilsin. Bu şəraitin tətbiqi ilə məa [yanaşı], Fələstində Yəhudi Milli Mərkəzi təsis edilməsinə qarşı da Rusiya bir söz deməyəcəkdir.

*(Azərbaycan radio mövqifi [stansiyası] qəbul etmişdir)*

*(Könüllü ordu ərkani-hərbindən [qərargahından])*

**Kolçakın hücumu**

Yekaterinodar - İletsk cəbhəsindən məlumat alınmamışdır.

Uralsk cəbhəsi - Bizim süvarilər Karmendən çəkilmişlər. Qırmızılar hücumlarını tövsi edərək [genişləndirərək] (teleqraf buraxılmış) yetişdilər. Saat 4-də bizim piyadamız əks-hücuma keçərək qırmızıların hücumunu müvəffəqiyyətlə Saxarnıda saxlamışlardır. Ağustosun 19-da saat 6-da qırmızılar Podlipilin xutorunu tərk edib bizim təzyiqat altında 300 nəfər piyada, 130 araba və bir eskadron süvarilərdən ibarət qırmızılar Poqodayevo xutoruna çəkilmişlərdir.

Lbişensk istiqamətində düşmənləri təqib ediriz. Qırmızılar ricət edərkən [geri çəkilərkən] məqtullarını [ölülərini] və əsbabi-nəqliyyələrini [nəqliyyat vəsaitlərini] buraxırlar. Bir neçə adam əsir almışıq. Slomixen dairəsindən məlumat alınmamışdır.

Quryev dairəsi Hacı-Tərxan istiqamətində təbəddülat [dəyişiklik] olmamışdır. (Teleqrafın mabədini qəbul etməyə ruzigar mane olmuşdur.)

**Bolşevik xəbərləri**

Qərb cəbhəsi - Bizim hissələrimiz düşməni təqib edərək Pskovun 10 çağırımlığında cənub tərəfə çıxmış və iki ağır top da qənimət almışlardır.

Bobrinsk dairəsində düşmənin təzyiqatı altında bizim qoşunlar yeni cəbhələrə çəkilmişlər.

Cənub-qərb cəbhəsi – Novoqrad-Volnski şəhərini almaqdan ötrü vuruşma gedir. Moqilyov-Podolski istiqamətində bizim hissələr düşməni təzyiq etmədədir.

Denikin cəbhəsi – Obayan, Koroça ətrafında şiddətli vuruşmalar gedir. Valuyki bizim hissələrimiz tərəfindən işğal edilib, hücumumuz davam etmədədir.

Povorino mövqifi və Balaşovun cənub tərəfində bir kənd bizim tərəfimizdən işğal edilmişdir.

Tambov dairəsində - Bizim qoşunlar Tambovu işğal etmişlər. Düşmən süvarilərini yararaq bir hissəsini əsir almışıq, hücumumuz davam edir.

Kamışin dairəsində - Kamışin şəhərini işğal etdik. Hücumumuz müvəffəqiyyətlə davam edir.

Kolçak cəbhəsində - Kostanay şəhərini zəbt etdik. Uralsk dairəsində Kolçak alaylarından bir tabor bizim tərəfə keçmişdir.

**Sibiryada**

Bizim tərəfə qaçanlar rəvayət edirlər ki, Yekaterinburq Çelyabinsk, Zlatoustu işğal etməmizi Kolçak qəzetələri sükunətlə keçirlər. Hər kəs şu xüsusda bir söz söyləsə qurşuna dizilir.

Sibiryanın Beloqvardiya qəzetələri burjuazların əsgərliyə alınmalarını tələb edir. Burjuaz əsgərləri qırmızıların yaxınlaşdığını eşitcək, qaçaraq öz əmlaklarını mühafizə etməyə çalışırlar.

**Bolşeviklər Riqada**

Riqa ətrafında və Venden qəzasında meşədə gizlənmiş bolşeviklər yenidən fəaliyyətə başlamışlar.

**Boğucu qaz**

Hərbi İnqilab Şurası üzvünün verdiyi xəbərlərə görə, şimal cəbhəsində ingilislər boğucu qazlı mərmilər istemal edirlər [işlədirlər]. İngilis təyyarəçiləri kəndlərə və əkin yerlərinə bomba ataraq əkinləri yandırırlar. Kəndlilər onları boğucu və yandırıcı adlandırırlar.

**Kolçak cəbhəsində**

Kostanay istiqamətində bizim müvəffəqiyyətli hücumumuz davam edir. Kurqan dairəsində irəliləyərək 150 əsir almışıq, qoşunlarımız Tobol tərəfə hərəkət edirlər.

**İngiltərə və bolşeviklər**

Çiçerin İngiltərə Hökumətinə bir nota vermişdir ki, hərgah ingilislər əsir düşmüş qırmızı ordu əsgərlərinə vəhşiyanə rəftarlarını kəsməsələr, biz də Şura Cümhuriyyətinə qarşı edilən müharibələrdə iştirak edib bizə əsir düşmüş könüllülərlə hüsn-müamilədə bulunmayacağız [yaxşı rəftar etməyəcəyik]. Notasına cavab olaraq İngiltərə vəziri-xaricəsi [Xarici İşlər naziri] Kerzon Çiçerinə hədəli bir nota göndərmişdir. Notada denilir ki, ingilis könüllüləri və hərbi əsirləri ilə fəna müamilədə bulunarsa Lenin, Trotski və Çiçerin məsul olacaqlardır. Bu qaba notaya

Çiçerin göndərdiyi cavabında İngilis Komandanlığının və onların agentləri Kolçak, Denikin, Yudeniç, [Yozef] Hallerin rus əsirləri ilə insaniyyətsizcəsinə rəftar etdiklərini yenidən qeyd edərək deyir ki, Şura Hökuməti fəhlə sinfinə mənsub hərbi əsirlərə əvvəlki qayda üzrə azadəlik verərək monarxizm üsulu bərpa etmək üçün öz rizaları ilə orduya daxil olanları müstəsna tutacaqdır. Çiçerin Şura Hökuməti namından bəyan edir ki, İngiltərə Hökumətinin qaba hədələri Şura Hökuməti siyasətinə təsir edəmməyəcəkdir. Böylə hədələrin təkrarı Şura Hökumətini məcbur edir ki, hərbi əsirlər barəsində İngiltərənin hazırkı hökuməti ilə müzakirəyə girişmək üçün də düşündürsün.

**Cəbhələrdə**

Moskva - Şimal cəbhəsi - Murman istiqamətində düşmənin təzyiqatı altında bizim hissələr Zaon[ej] yarımadasını tərk etmişdir.

Petrovsk istiqamətində Petrozavodskun şimal-qərb cəhətində biz irəliləmişik.

Qərb cəbhəsi - Ostrov istiqamətində bizim qoşunlar düşməni təqib edərək Pskovun cənubunda bir kənd işğal etmişlər.

Polotsk istiqamətində düşmənin təzyiqatı altında bizim hissələr yeni cəbhələrə çəkilirlər.

Borisov istiqamətində düşmənlər Borisovu top atəşinə tutmuşlardır.

Cənub-qərb cəbhəsi – Jitomir və Berdıçevi biz tərk etmişik. Moqilyov istiqamətində 10 çağırım irəliləyərək bir çox əsir, mitralyozlar və başqa əslihə [silahlar] əlimizə keçmişdir.

**Salyandan**

*(xüsusi Bəhri-Xəzərdən)*

Ağustosun 20-də Pokrovka kəndində bütün Muğan rusları nümayəndələrinin general [Həbib bəy] Səlimov və qubernator Cavad bəy Məlik-Yeqanov hüzurlarında ümumi iclasları vaqe olaraq, topları və mitralyozları cümlə mücəhhəzatı [təchizatı] ilə Azərbaycan Hökumətinə təslim etməsini qərara almışlardır. Təslimə başlanmışdır.

## TÜRKİYƏDƏ

**Mustafa Kamal paşa və Rauf bəy**

Mustafa Kamal paşa və Rauf [Orbay] bəyin Türkiyə Hökuməti tərəfindən həbs edilmələri binagüzarlığı münasibətilə qəzetə yazır ki:

*“Türkiyə Hökuməti Ərzurum və Bursada anarşi qaldıran Mustafa Kamal paşa və Rauf bəyin həbs edilməsi üçün əmrnamə vermişdir. Bir çox tərəddüddən sonra hökumət əxirən qəti qərara gəlmişdir. Bu qərarın nəticəsi nə ola biləcəkdir? Bu da Lenin və Trotskinin həbs edilməsi əmrinə bənzəyir. Görək onları kim həbs edəcəkdir? Calibi-maraq orasıdır ki, İstanbulda şayiələr dövran edir ki, Mustafa Kamal paşa ilə Ənvər paşa münasibatda bulunmadadır. Türkiyə əfkari-ümumiyyəsini* [ictimai fikrini] *təsvir etmək üçün o bəs edər ki, bir neçə Türkiyə qəzetələri ciddi təriq ilə* [ciddi surətdə] *öz qarelərinə xəbər verirlər ki, Ənvər paşa Azərbaycanda bolşevik qoşunları komandanlığını edir.”*

**Amerika və Türkiyə mandatı**

İstanbulda nəşr edilən Amerika qəzetələri yazırlar ki, hərgah Cəmahiri-Müttəfiqə [Amerika Birləşmiş Ştatları] Türkiyə mandatını qəbul etməyə razı olsaydı, o zaman Qərbi Frakiyanın Türkiyə hüduduna daxil edilməsini tələb edəcəkdi. Amerika Hökumətinin rəyinə görə, yunanlar İstanbul yaxınlığında qalmamalıdırlar.

**Kürdlər və Mandat Komissiyası**

İstanbulda olan Amerika Mandat Komissiyası kürdlərin arzularını öyrənmək qəsdi ilə onların nümayəndələrini dəvət etmişdir.

Kürd mürəxxəsləri [nümayəndələri] başında duran Süleyman Nazif paşa bəyan etmişdir ki, Şərq vilayətlərində, yəni Türkiyə Ermənistanında müharibədən irəli zamanlarda da müsəlman əhalisi əksəriyyət təşkil edirlərdi. Amma şimdi isə ermənilər əhalinin yüzdə onunu təşkil edirlər. Binabərin [buna görə], oralarda müstəqil Ermənistan təşkil etmək, yaxud onları Ermənistana ilhaq etmək [birləşdirmək] heç yol ilə yaramayacaqdır.

Mürəxxəslərə Komissiya tərəfindən şu suallar verilmişdir:

1) Türkiyədə və İranda nə qədər kürd vardır?

2) Qara dəniz təriqi [yolu] ilə Avropa ilə ticarət əlaqəsi mümkün olmadığından, hansı iskələ [liman] vasitəsilə şu əlaqə Kürdüstanla mümkün olar?

3) Mosul şəhəri Kürdüstan hissəsidirmi ya yox?

Mürəxxəslər aşağıdakı cavabı vermişlər:

1) Kürdlərin miqdarı Türkiyədə dörd-beş milyona baliğ olub [çatıb], İranda isə üç milyondur.

2) Dəclə və Fərat nəhirləri vasitəsilə Bəhri-Mühiti-Hindi [Hind okeanı] və Beynənnəhreyn ilə əlaqədə olmaq yaxşı olardı. Avropa ilə də Ayas və Yumurtalıq iskələləri vasitəsilə əlaqədə bulunmaq mümkündür.

3) Mosul şəhəri əhalisi ərəbdir. Və ona görə oranın Kürdüstana mülhəq olunması mütəmənnadır [arzuediləndir].

**Sultan həzrətləri ilə mülaqat**

"Morninq post" qəzetəsi mühərrirlərindən birisi sultan həzrətləri ilə mülaqatda [müsahibədə] buluna bilmişdir. Mülaqat əsnasında sultan həzrətləri buyurmuşlar ki:

*"Mən burasını qeyd etməliyəm ki, Qərb ricali-dövlətinin [dövlət adamlarının] Türkiyə və türklər haqqındakı fikir və təsəvvürləri həqiqəti-hala müvafiq deyildir.*

*Siz qəzetəçilər və diplomatlar məmləkətdə səyahət edərək ümdə ünsürlərlə yaxından münasibata girişməklə bərabər, bir çox şeylərə də məhəllində [yerində] yaxından aşina olmalı idiniz. Fəqət İstanbula gəldikdə Bəyoğluna gedirsiniz, orada sizləri daima Türkiyə və türklərə hücum edib iftiralar deməyi kəndisinə vəzifə bilən adamlar əhatə edir. İstanbula gələrkən məscidləri, bazarları gəzirsiniz. Fəqət həqiqəti-halda millətin nə olduğunu bilmək istəməyirsiniz.*

*Türk milləti müharibəyə girişməklə böyük bir xəta işlədi və demək olar ki, şimdi cəzasını çəkir. Lakin məmləkətin hərbə girişməsinə cavabdeh olmayan minlərcə adama bundan dolayı cəza ver-*

*mək dürüst deyildir. Nə üçün hökumətin xətasına Kiçik Asiyadakı minlərcə əhali cavabdeh olsun ki, rum (yunan) qoşunları və əşqiya [quldur] dəstələri onları qırıb qətl-qarət edirlər.*

*Rumların Kiçik Asiyaya girmələrini heç bir dəlillə haqlı göstərmək olmaz. Əminəm ki, bir gün gələr ki, həqiqət aşkar olar və işlənmiş olan ədalətsizliklər o vaxt anlaşılar. Fəqət o zaman bədbəxtanə iş-işdən keçmiş olacaqdır.*

*Şimdi mənim üçün çox ağır bir vəziyyət çıxır. Şəhərlər yanır, minlərcə adam böyük vəhşiliklə tələf edilir. Bu saat türk milləti arasında böylə böyük həyəcan və qələyan var ki, sanki hərb davam edir. Fəqət mütarikə şəraiti [atəşkəs şərtləri] bilvasitə rumlara himayə və müzahirət [köməklik] göstərir və onların cinayətinə qarşı müdafiədən bizi məhrum edir. Halbuki, biz rumlarla hərb etmədik.*

*Eyni zamanda, həman şəraitlə biz tərksilah etdiriliriz. Əsgərlərimiz tərxis edilmişdir. Vəziyyət daha da fənalaşmış, dövlətlər bu qırğına xitam verməlidirlər."*

Mühərrir göstərir ki, hərb vaxtı rumlar və ermənilər çox mütəzərrir olmuşlardır [zərər çəkmişlər]. Ona görə də, şimdi qisas hissi oyanmasında bir növ haqlıdır. Sultan həzrətləri buna cavabən bəyan edirlər ki:

*"Doğrudur, hərb vaxtı iş başında olanlar ağır cinayətlərdə müqəssirdirlər. Heç kəs mən qədər buna təəssüf etməz. Onlar həbsxanaları boşaldaraq, bütün cani ünsürləri toplayaraq öz məqsədlərinə xidmət etdirmişlərdir. Fəqət, burası Avropa üçün bir dəlil və əsas deyil ki, rumlara, ya başqalarına cinayət işləməyə izn versinlər.*

*Rumlar öz iddialarına rəğmən pək az mütəzərrir olmuşlardır. Onlar qırğına məruz olmamışlardır. Digər tərəfdən, rumları qərbin böyük millətləri ilə müqayisə etmək böyük xətadır. O millətlər nə kimi bir siyasət yürütsələr də insaniyyətpərvərlik əsaslarını nəzərdən qaçırmazlar. Halbuki, rumlar özlərini Qüruni-ula [Qədim dövr] barbarlarından da vəhşi aparmış və aparmaqdadırlar. Buna xitam və intəha [son] verməlidir.*

*Onlara izn verməməlidir ki, nərəyə istəsələr getsinlər yandırsınlar, məhv etsinlər, camaatı qırsınlar. Mən ingilislərin ədalətinə inanıram. Əgər İngiltərə əmr etsə, fəlakətlər bilatəxir xitampəzir olarlar [dərhal sona çatar]."*

## QƏZETƏLƏRDƏN

**İran şahının İstanbula vürudu**

İstanbuldan xəbər verirlər ki, İran şahı Əhməd Mirzə Qacar bu gün oraya varid olmuş [çatmış]. Şah yarın Sultan həzrətləri hüzuruna qəbul ediləcəkdir.

**Ənzəlidə ingilis üssül-hərəkəsi**

İran üzərində İngiltərə himayəsi ilə əlaqədar olaraq "Kruger", "Slava", "Pantera" və qeyri paroxodlar məsələsi başqa bir cərəyana sövq edilmişdir. Məzkur [deyilən] paroxodlar Ənzəli iskələsinə göndərilərək Bəhri-Xəzər dənizində ingilis mənafeyini təqib edəcəklərdir. Paroxodlar Bakıdan hərəkət etmişlərdi.

**Azərbaycanda yaşayan rus zabitləri**

Azərbaycan Cümhuriyyəti daxilində yaşayan sabiq rus ordusu zabitləri gene-

ral Denikinin əmrnaməsi ilə orduya çağırılmışlar. Ağustosun 25-dən (əski stil) Rostov və Taqanroqda əxzi-əsgər [hərbi çağırış] idarələrinə gəlməlidirlər. Evli zabitlər hələlik azad edilirlər.

**Denikin ordusunda**

Denikin ordusundan bolşeviklər tərəfə qaçan saldatlar rəvayət edirlər ki, Denikin ordusunda olan saldatlar qırmızıların hücumu başlanarkən bolşeviklərə təslim olacaqlar imiş.

**Acaryada səfərbərlik**

Erməni teleqraf agentəliyinin vermiş olduğu əxbara nəzərən [xəbərlərə görə] Acarya [Acarıstan] əhalisi içində səfərbərlik icra edilmədədir. Səfərbərliyin nə məqsədlə icra edildiyi məlum deyilmiş.

**Denikin ordusunda bolşevik əsirləri**

Əsir düşmüş bolşeviklərdən Petrovsk ilə Qroznı arasında general Denikin firqə [diviziya] təşkil edir. Onlar çox da etibarlı hesab olunmadıqlarına görə, aralarına plastun kazakları da daxil edilirlər. Hər bölüyə üç-beş zabit yerinə 23 zabit təyin edilir. Baş çavuşlar dəxi zabitlərlə əvəz edilirlər. Yerli əhali şu firqəyə daxil edilməyib, onlardan başqa alaylar təşkil edilir.

## ŞAH HƏZRƏTLƏRİNİN SƏFƏRİ

Şah həzrətləri Azərbaycan təriqi [yolu] ilə gedən yolların hamı istasyonları milli bayraqlar və göyərti ilə bəzənmişdirlər. Artıq təntənə ilə Şah həzrətlərini Hacıqabul, Kürdəmir və Gəncə istasyonlarında istiqbal etmişlərdir [qarşılamışlar]. Bu istasyonlarda ətraf kəndlərin camaatı duz-çörəklə çıxıb Şah həzrətlərini istiqbal edirlər.

Şah həzrətlərini Azərbaycan Hökumətinin Xariciyyə naziri müavini Adil xan Ziyadxan müşayiət edirdi. Kürdəmir istasyonunda Şah həzrətləri onu hüzuruna dəvət edib, azərbaycanlıların Şah həzrətlərinə göstərdiyi məhəbbətlərinə və istiqbalına izhari-təşəkkür etmişdir.

Cavabında isə Adil xan, azərbaycanlılar kəndi vətənlərini qəsbkarlardan xilas etmək üçün qanlarını axıtdıqları yerləri göstərib, "Şimdi isə həman yerlərdə camaat kəndi həbibi və əbədi dostu olan dindaş bir millətin Şahı həzrətlərini istiqbal edir" [demişdir].

Tiflisdə Şah həzrətlərini təntənəli bir surətdə istiqbal etmişlərdir. Vağzalda Gürcü Hökumətinin hamı üzvləri hazır imişlər. Şah həzrətləri Gürcüstan Cümhuriyyətinin üzvlərini hüzuruna dəvət edib tulani müsahibətdən [uzun söhbətdən] sonra Batuma azim olmuşlar [yola düşmüşlər]. Vağzalda gürcü qoşunlarından fəxri qaraqol qoyulmuş imiş.

Batumda Şah həzrətlərini İngilis Komandanlığının nümayəndələri pişvaz etmişlər. Burada ingilis-hind qoşunlarının fəxri qaraqolu qoyulmuş imiş. Şah kreyserə əyləşib İstanbula azim oldular. Kreyseri bir minonos [torpedo gəmisi] müşayiət edir.

Adil xan ilə vidalaşdıqda Şah həzrətləri böylə fərmayiş etmişlərdir:

*"Mənim səmimi salamımı Rəisi-vükəlaya [Baş nazirə] və Azərbaycan Hökumətinə yetirin. Mən heç vaxt azərbaycanlılar və onun hökuməti mənə göstərdikləri ehtiramı unudammaram."*

Şah həzrətləri mükəmməl surətdə fransız, rus və türk dilinə daradır [dilini bilir].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Məsai Nəzarəti [Əmək Nazirliyi] bütün zavod və firma müdiriyyətlərinə xəbər vermişdir ki, orduya alınmış və könüllü olaraq orduya gedən fəhlə və xidmətçilər yenidən xidmətə girmək istəsələr kəndi yerlərini tuta biləcəklərdir.
- Daxiliyyə Nəzarətinin müdiri müavini tərəfindən Bakı polismeysterliyinin maddi cəhəti təftiş edilməyə başlamışdır.
- İşbu günlərdə Xariciyyə Nəzarəti şimdiki mülkündən həman soqaqda vaqe Qukasovun evi – sabiq ingilis ərkanihərbi [qərargahı] olduğu evə köçəcəkdir.
- Daxiliyyə Nəzarətindən alınmış məlumata görə, Zaqatala quberniyasında son vaxtlar bir çox fəlakətlər çıxarmaqda olan məşhur bir quldur dəstəsi hökumətin tədabiri [tədbirləri] sayəsində pərakəndə edilmişdir. Quldurlardan məqtul və sağ ələ keçənlər də vardır.

## İRƏVAN QUBERNİYASINDA "MÜSƏLMANISTAN"

## [3]

Ermənilər ingilislərin qoltuqlaması ilə və ingilis qaraqollarının gözətçiliyi ilə girib nəhayət Şərura və Naxçıvana yerləşdilər. Ermənilər[in] bu qasibanə [qəsbkarcasına] və namüvafiq hərəkətlərinə qarşı yerli müsəlmanların hər yerdə göstərdikləri narazılıqları və rəsmi etirazları ingilis general-qubernatoru və ingilis komandanları, erməni hökumət başçıları nəzəri-etinaya almadılar.

Ermənilər də, hər iki tərəf, genə müsəlmanları dürlü-dürlü yalan vədlərlə oyaladılar.

Şimdiki halda, zatən ermənilərdə idarə az bulunduğundan erməni hökuməti əxlaqsızlığı, tərbiyəsizliyi keçmiş müsəlmanlarca bəlli olan bir neçə ləkəli nasiyələri [alınları ləkəli adamları] müsəlmanlar üstünə "amir" [başçı, əmr verən] tikib, Şərura, Naxçıvana göndərdi və İrəvanda səsləri, harayları bir yana çatammayan müsəlmanları soyub talamağa, öldürməyə adət etmiş mauzerist quldurlardan bir neçəsini də zəbtiyyə [asayiş] məmuru olaraq Naxçıvana təyin etdi.

Erməni Hökuməti bir tərəfdən də başdan-ayağa "mikrobdan" ibarət erməni qaçqınlarını salamat qalmış müsəlmanların içinə cəbrən doldurmağa, yerləşdirməyə başladı.

Erməni Hökuməti Şərurda, Naxçıvanda güc-hal yerini bərkidər-bərkitməz, yerli müsəlmanların bir bəhanə ilə mallarını zəbt etməyə, silahlarını almağa (bütün əvvəlki vədlər xilafına olaraq) iqdam etdi [qədəm qoydu]. Bu hallara qarşı müsəlmanlar tərəfindən dəfələrlə edilən etirazlar genə yalan vədlərlə qarşılandı.

Sonra ermənilər təbii adətləri olduğu kimi, yerli müsəlmanlardan köhnə intiqamları almaq sevdasına düşdülər.

Məsələn, Vedibasar müsəlmanlarından silahlarını istəməklə bərabər, keçmiş intiqamlara əvəz olaraq 17 nəfər başçılarının təslimini istədilər. Bundan əlavə, yarım milyon manat da bunlardan cəzayi-nəqdiyyə tələb etdilər. Taxıllarının da yarısını cəbrən alıb zəbt eylədilər.

Vedi müsəlmanlarından zəbt etdikləri taxılları daşımaq üçün erməni hökumətinin əmri ilə Necili, Uluxanlı, İmanşalı nam müsəlman kəndlərinin hər yerindən 45 araba "padavod" olaraq alınıb aparıldı. Böyləcə, müsəlman kəndlilərinin taxıllarını cəbrən daşıtdırıb erməni içinə gətirtdilər.

Bu sayaq cəbr və təzyiqlərlə, qəsb və qarətlərlə, zülüm və əziyyətlərlə müsəlmanlar təngə gəldilər. Ermənilərin təhəkkümünə [hökmranlığına] daha artıq dayanammadılar. Namuslarının, hüquqlarının mühafizə və müdafiəsi üçün heç bir tərəfdən bir ümid, bir kömək bəkləmədilər. Yerli müsəlmanlar ancaq öz zəhmətkeş qabarlı əllərinin gücünə arxalanıb, erməni təcavüzlərinə qarşı durdular.

Vedi, Şərur kəndliləri hətta əkin alatı [alətləri] ilə erməni müntəzəm qoşunlarının qabağına çıxdılar, mərdanə surətdə hüquqları uğrunda ölüb-öldürdülər. Namusların[ı], hüquqların[ı], torpaqların[ı] qanları ilə müdafiə edən Şərur, Vedi kəndliləri dəfələrlə qüvvələr alıb hücumavər olan [hücum edən] erməni müsəlləh [silahlı] və nizami qoşunlarını qeyrətlərlə dayandırıb məhv və pərişan etdilər.

Qasibanə və hiyləkaranə bir surətlə gəlib içlərinə dolmuş və dolduqdan sonra təcavüzlərə, həyasızlıqlara başlamış erməni hökumətini və erməni əsgərlərini yerli müsəlmanlar bu nəhv ilə [bu üsulla] aralarından çıxarıb qovdular. Erməni hökumətinin son əsgəri qüvvəsi də bu müsəlman demokratlarının [xalqının] payi-qeyrəti [qeyrətli ayaqları] altında dağılıb pozuldu.

İştə bu pozğunluq erməni hökumətini əcnəbilər nəzərində ehtiram və məhəbbətdən saldı. Bu pozğunluq nəticəsində erməni hökuməti öz camaatı arasında da nüfuzdan düşmüş oldu.

Daşnak siyasətinin peyrovu olan [arxasınca gedən] erməni hökuməti bir tərəfdən minlərcə Vedi, Şərur, Naxçıvan kəndlilərinin məsum qanlarının axıdılmasına və minlərcə füqərayi-kasibə ailələrinin sahibsiz qalmasına səbəb oldu. Digər tərəfdən də, onsuz da halları pərişan olan erməni demokratlarının [xalqının] hallarının pərişanlığı[nı] daha da artırdı.

İştə bu halları düzəltmək, bu fənalıqları islah etmək niyyəti iledir ki, (qabaqca heç bir vəchlə yanaşmaq istəmədiyi halda) erməni hökuməti indi Zaqafqaziya Konfransı iniqadına [toplaşmasına] həvəs etməyə başladı.

Erməni hökuməti ümid edir ki, çapıb-çapaladığı halda tüfəngi ilə həll edəmmədiyi sərhəd məsələsini genə qasibanə surətdə diplomasi sözlərlə, bir taqım kombinasiyalarla həll edə bilsin.

*M. B.*

## İRAN "TƏRƏQQİ" CƏMİYYƏTİNDƏ

Ümuma məlumdur ki, Bakıda üç aydan bəri maarifpərvər İran cavanları

tərəfindən məhz İran camaatının maarif yolunu genişlətmək məqsədi ilə Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi" namında bir cəmiyyət təşkil etmişlər.

Məzkur [deyilən] cəmiyyət nəzdində biri drama və digəri nəşriyyat şöbəsi olmaq üzrə iki şöbə açılmışdır.

Drama şöbəsinin məqsədi həftədə və yaxud ayda bir dəfə teatrolar mövqeyi-tamaşaya qoyub həm mənəvi mənfəət vermək, həm də maarif-tərəqqi cəmiyyətini maddi cəhətdən təmin etməkdir. Nəşriyyat şöbəsinin məqsədi isə heç bir şeydən xəbəri olmayan və daima kəndi ağalarına qul olmaqdan başqa bir şey bilməyən İran füqərayi-kasibəsini qəzetələr və məcmuələr vasitəsilə maarifə doğru aparıb müqəddəs fikrini yerinə yetirməkdir. Və natiqlər vasitəsilə iranilərin ictimai işlərini islah edib maarifə doğru getməyə təşviq etməkdir.

Əlbəttə, cəmiyyətin bu şöbələri açıldığı kimi, bu yaxın zamanda da maliyyə şöbəsi dəxi açılacaqdır.

Əlbəttə, cəmiyyətdə çalışan həvəskar cavanların bu tövr çalışmaları təhsinə [alqışa] layiqdir. Məzkur maarif cəmiyyəti 10 və bəlkə də 15 il bundan əqdəm [qabaq] iranilər, daha doğrusu tacirlər tərəfindən təşkil olunan Əncüməni-Xeyriyyənin [Xeyriyyə Cəmiyyəti] fəaliyyətsizliyini nəzərə alaraq, üç nəfərdən ibarət bir heyəti-möhtərəmə məzkur Əncüməni-Xeyriyyənin işlərinə bələd və aşina olmaqdan ötrü intixab edib [seçib] və lazımi düsturül-əməl [təlimat] verildiyindən sonra, həvalə olundu [tapşırıldı] ki, cəmiyyətin gələn iclasında əncüməni-xeyriyyə barəsində müfəssəl bir surətdə məlumat versinlər.

*Məhəmmədəli Tabaqçı*

## MÜƏLLİMLƏR QURULTAYI

*Beşinci iclas*

Avqustun 23-də, axşam saat 4-də 19 nümayəndənin iştirakı ilə başlanır. Dünkü məzbətə [protokol] oxunaraq qəbul edilir. Məsələlərin müzakirəsinə keçilir.

- [Əfəndizadə] Şəfiqə xanımın istefası qəbul edilir.

- Müəllimlər İttifaqına uzun mübahisələrdən sonra "Azərbaycan Müəllim və Müəllimələr İttifaqı" namı verilməsi təhti-qərara alınır.

- Qazaxdan gələn nümayəndə Şirin xanım Şirinbəyzadə alqışla qəbul olunaraq Azərbaycanda təşəkkül edən ilk Müəllimlər Qurultayını təbrik edir.

- Etimadnamə Komisyonu məruzəni təqdim edir, məruzə qəbul olunur.

- Maliyyə Komisyonu bəyanat verir. Nəticədə nümayəndələrdən xərc smetası tərtibi təklif olunur. Nümayəndələr üçün "Ermitaj" müsafirxanasında odalar hazır olduğu söylənir. Qəbul edilir.

- Təlifat Komisyonu hökumət tərəfindən təşkil olunan Təlifat Komisyonunun vəzifəsini anlatır. Deyir ki, o komisyon yalnız təlif və tərcümə ilə müvəzzəf bulunur [məsuliyyət daşıyır]. Hökumətdən, Azərbaycanda yazılan bütün məktəb kitablarını tədqiq və müsabiqə icrası üçün ayrıca bir komisyon təşkili tələb edilməsi təklif olunur. Bu təklif qəbul edilir, bu şərtlə ki, bu komisyonun əzala-

rını [üzvlərini] hökumət deyil, Qurultay kəndisi göstərməlidir. Bu xüsusda hökumətə müraciətnamə göndərilməsi heyəti-rəyasətə həvalə olunur.

*Altıncı iclas*

İclas avqustun 24-də, axşam saat 3-də açılır. İclas açıldıqda Bakı Edadi Məktəblər Müəllimləri İttifaqı tərəfindən Andreyev Qurultayı təbrik edərək ümum Azərbaycan müəllimləri[ni] bilafərqi-din və millət [din və millət fərqi olmadan], İttifaqa dəvətlə, ayrılmamalarını tövsiyə edir.

Bundan sonra Məramnamə Komitəsi tərəfindən İttifaqın məramnaməsi oxunur. Əvvəlinci fəsil qəbul olunur. Bu fəsildə göstərildiyinə görə, İttifaqa müəllim və müəllimələr məcburi olaraq daxil olurlar.

Məramnamədən sonra nizamnamə dəxi oxunur. Birinci fəsli bəzi təbdilat və tağyirat ilə [dəyişiklik və düzəlişlərlə] qəbul olunur. Digər fəsillərin qiraəti və qəbulu ikinci iclasa təxir edilir.

Bədəhu [sonra] iclas növbədə olan müəllimlərin əsgərliyə alınması məsələsini müzakirə edir. Məruzələrdən anlaşılır ki, Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsi tərəfindən müəllimlərin əsgəri vəzifədən azad edilmələrinə baxmayaraq, bir neçə müəllimlər dəvət edilib də bu vaxta qədər azad edilməmişlərdir. Bir çox müzakirədən sonra iclas qərardad edir ki, müəllimlərin azad edilmələri üçün Qurultay heç bir təşəbbüs və iqdamatda bulunmasın [heç bir addım atmasın]. Onların azadı üçün fəqət ittifaqlar kəndiləri səy və iqdamatda bulunmalıdırlar.

Bununla, vaxt gec olduğundan məclis qapanır və gələcək iclas yarın səhər saat 10-a təyin edilir.

## BAKI XƏBƏRLƏRİ

**İxtar [xəbərdarlıq]**

Mətbəəyə aid bəzi şəraitə görə, qəzetəmizin dünkü növbəti nömrəsi çıxammamışdı.

**Şərabxanaların bağlanması**

Balaxanı-Sabunçu qalabəyisinin [komendantının] binagüzarlığı [sərəncamı] ilə mədən dairəsində olan 70-dən ziyadə gizli və 30-a qədər açıq içki və müskirat [spirtli içki] dükanlarının qapanmasına qərar verilmişdir. Şimdilik onlardan 15-i qapanmış, qalanları isə bu günlərdə qapanacaqlardır. Onlardan əlavə, məzkur [deyilən] dairədə bir çox qumarxana və fahişəxanalar dəxi kəşf edilmişdir ki, onlar dəxi qapanıb və sahibləri isə Azərbaycan torpağından sürgün edilmək üçün qradonaçalnikə təqdim edilmişlərdir.

**"İttihadi-İraniyan" məktəbində**

Daxil olmaq istəyən şagirdlərin ərizələri qəbul olunmaqdadır. Xahiş edənlər hər gün saat 9-dan 1-dək məzkur [adı çəkilən] məktəbin sabiq binasında (Sadovaya, nömrə 19) idarəyə müraciət edə bilərlər.

**Pulsuz gecə kursları**

Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi" heyəti-idarəsi tərəfindən kübara (böyüklərə) məxsus gecə kursları açılmışdır.

Həman kurslarda ibtidai, farsi, türki, rusi, hesab tədris olunacaqdır. Oxumaq arzusunda bulunan zəvat [şəxslər] hər gün saat 9-dan 1-dək "İttihad" məktəbində idarəyə müraciət edib adlarını qeyd etdirə bilərlər.

**Ziyafət**

Yekşənbə [bazar] günü avqustun 24-də, axşam saat 8-də "Metropol" müsafirxanasının zalında ingilislərin getmələri münasibətilə Azərbaycan Hökuməti tərəfindən Şattlvortun başçılığı ilə İngilis Komandanlığı şərəfinə bir ziyafət verilmişdi.

Yusifbəyli Nəsib bəy başçılığı ilə Vüzəra Kabinəsi tam heyəti ilə, Parlamento üzvləri, generallar və Azərbaycan Hökumətinin bir çox alimənsəbləri hazır idilər. Bakıda olan əcnəbi dövlətlər nümayəndələri və həmçinin İtaliya nümayəndəsi polkovnik Qabba məclisdə hazır idilər.

Yusifbəyli Nəsib bəy ilə general Şattlvort səmimanə nitqlər irad etmişlərdir [söyləmişlər].

Saat 11-də hökumət avtomobilləri hazır olaraq qonaqlar və onları müşayiət edənlər vağzala getmişlərdir. Vağzal milli bayraqlar və göyərti ilə gözəl bəzənmişdi. Vağzalda Azərbaycan qoşunu tərəfindən musiqi dəstəsi ilə belə fəxri qaraqol təyin olunmuşdu. Məclisdə olan əşxasın [şəxslərin] hamısı vağzalda mövcud idi.

Burada vidalaşdıqdan sonra qonaqlar xüsusi qatarla Batuma azim olmuşlardır [yola düşmüşlər].

**General Baratovun vürudu [gəlişi]**

Avqust ayının 24-də Könüllülər Komandanlığının nümayəndəsi general Baratov Tiflisdən Bakıya varid oldu [gəldi].

**Edadi məktəblərdə islahat**

Maarif naziri hamı edadi məktəblərin müəllimlər şurasına məktəblərin islahatı haqqında hər kəs kəndi nəzər və rəyini sentyabr ayının 5-ə qədər pişnihad [təqdim] etməsini təklif etmişdir.

**Həczin dayandırılması**

Daxiliyyə vəziri dünən binagüzarlıq etmişdir [sərəncam vermişdir] ki, evləri həcz [müsadirə] etmək fəqərəsi [məsələsi] bu xüsusda müəyyən bir qanun təsdiq olana qədər dayandırılsın. Ona görə, bu gündən etibarən hər kəs üçün olarsa-olsun ev həcz olunmayacaqdır. Şu binagüzarlığa bəzi biqanun rəftarlar səbəb olmuşdur.

**İmtahan üçün bir komissiya**

Maarif Nəzarəti cənbində [nəzdində] imtahan etmək üçün bir komissiya təşkil olunmuşdur. Şu komissiyaya Bakı şəhərinin xalq məktəblərinin müdiri Mahmud bəy Mahmudbəyov, Üçüncü Ali-ibtidai məktəbinin müdiri Səməd bəy Hacıəliyev, Bakı Birinci Realnı məktəbi müəllimi Mirzə [Abdulla] Şaiq Talıbzadə, Dördüncü İbtidai məktəbin müdiri Süleyman bəy Axundov və Birinci Gimnaziya müdiri Rəşid bəy Əfəndiyev intixab olunmuşlar [seçilmişlər]. İbtidai məktəblərə müəllim olmaq istəyənləri şu komissiya imtahan edəcəkdir.

**Rus coğrafiyası ilə tarixinin götürülməsi**

Yeni təhsil sənəsinin əvvəlindən Ma-

arif nazirinin binagüzarlığına [sərəncamına] görə rus coğrafiyası ilə rus tarixi hamı məktəblərdə fəsx [ləğv] olunasıdır.

**Dərslərə şüru**

Maarif naziri binagüzarlığına görə, Azərbaycan Hökumətində olan hamı məktəblərdə sentyabr ayının 5-dən dərslərə şüru etməlidir [başlamalıdır].

**Ucuz dəftər**

Valideyn Şuraları Mərkəzi İdarəsi Maarif nazirindən Şuranın ixtiyarına 940 pud kağız buraxılmasını xahiş etmişdir. Şuranın fikri şu kağızdan dəftərlər tikib kəndisinə çıxan qiymətə dəftərləri Bakı məktəblərinə qismət etməkdir.

**Saxta kağız**

"Mirzəağa" gəmisində İrandan gələn mallara S. K. Qirşiş ilə S. M. Subbotin saxta kağızlar qayırmaqlarına görə, Xüsusi Təftiş Komissiyası tərəfindən təqsirləndirilib həbsə alınmışdırlar.

**Ehtiyat polis taborunun vürudu**

Lənkəran işğalında böyük yararlıq və şücaətlər ibraz etmiş [göstərmiş] olan ehtiyat polis taboru dün Bakıya qayıtmışdır. Taboru pişvaz olmaq üzrə şəhər milli bayraqlar və xalılarla bəzənmişdi.

* * *

- Pəncşənbə günü axşam saat 7-də Mahmud bəy Mahmudbəyov tərəfindən "Əlifba üsuli-tədrisi" sərlövhəsində mühazirə oxunacaqdır. Bütün müəllimlər buyura bilərlər.

**İngilislərin getməsinə dair**

Rəisi-vükəla [Baş nazir] üç gün əqdəm [qabaq] ingilis generalı Şattlvortdan şu məzmunda Ağstafadan bir teleqram almışdır:

*"Azərbaycan torpağından dişarı çıxarkən ingilis zabitləri və əsgərləri tərəfindən sizdən və Azərbaycan Hökumət xidmətçilərindən bizim Azərbaycandan yığışıb getməyimizdə bizə göstərdiyiniz mehribançılıqlara və etdiyiniz yardıma qarşı dübarə izhari-təşəkkür edirəm. Allah-Taala həzrətlərindən istidam [istəyim] sizin və millətinizin xoşbəxt olub da rahat yaşamağınızdır."*

**General Baratovun gəlməsinə dair**

Avqustun 24-də varid olmuş Könüllülər qoşununun nümayəndəsi general Baratov üç gün əqdəm Rəisi-vükəla sədri Yusifbəyli Nəsib bəyin hüzuruna gedib tulani [uzun-uzadı] müsahibədə bulunmuşdur.

**Kassirin soyulması**

Şənbə günü avqustun 23-də Bibiheybətdə Mantaşev mədəni dəxldarını [kassirini] soyub böyük məbləğ aparmışdırlar. Məzkur [adı çəkilən şəxs] o gün xidmətçilərə maaş verməli imiş. Kontorda telefon üstündə duran arvad telefonla polisə xəbər vermək istərkən bədəfkarlar [cinayətkarlar] məzkurənin başından öylə vurmuşlar ki, biçarə bihuş yıxılmışdır.

**Vəzarətin köçməsi**

Ümuri-Xaricə Vəzarəti [Xarici İşlər Nazirliyi] Dəniz kənarında olduğu Mirbabayevin evindən çıxıb Sadovı küçədə İngilis Komandanlığı ştabı olan Qukasovun evinə köçür.

**Ali-ibtidai məktəb**

Bakı Birinci Ali-ibtidai məktəbində müsəlmanlardan ötrü birinci sinif açılmışdır. İbtidai məktəbləri itmam edənlər [bitirənlər] qəbul olunarlar. Adres: Üçüncü Paralelni küçə, nömrə 47, birinci dördsinifli məktəb.

**Cəmiyyəti-Xeyriyyədə**

Cəmiyyəti-Xeyriyyə tərəfindən Bakıda sükunət edən füqəraya verilən unun surəti-hesabı:

21) Hacı Əbdül məscidi nümayəndəsinə 118 nəfər üçün 88 pud yarım;

22) Hacı Cəbrayıl məscidinin 175 nəfər füqərasına 131 pud 10 girvənkə;

23) Kərbəlayı Kazım Zeynal oğluna 4 nəfər 3 pud;

24) Qasımovun icarəsində olan 8 nəfər füqəraya 6 pud;

25) Hacı Cavad məscidinin 120 nəfər füqərasına 90 pud;

26) 27 nömrəli qəbz mövcibincə [qəbzə əsasən] 4 nəfərə 3 pud;

27) Kərbəlayı Hüseynqulu Aydəmir oğluna 5 nəfər üçün 3 pud 30 girvənkə;

28) Gülbacı Yarməhəmməd qızına 2 nəfər 1 pud yarım;

29) Şeyx Qənizadə cənablarının icazəsi ilə 15 nəfər üçün 11 pud 10 girvənkə;

30) Yenə o cənab vasitəsilə 7 nəfər üçün 5 pud 10 girvənkə;

31) İsmət Abbas qızına 4 nəfər 3 pud;

32) Sona Məhəmmədcəfər qızına 4 nəfər 3 pud;

33) Bədirnisa Mirzə qızına 5 nəfər 3 pud 30 girvənkə;

34) Münəvvər Həsən qızına 4 nəfər 3 pud;

35) Xədicə Qasım qızına 5 nəfər 3 pud 30 girvənkə;

36) Leyla Əzim qızına 4 nəfər 3 pud;

37) Mirzə Ələsgər oğluna 4 nəfər 3 pud;

38) Fatma xanım Həsən qızına 5 nəfər 3 pud 30 girvənkə;

39) Nağı məscidi nümayəndəsi Kərbəlayı Əliquluya 159 nəfər üçün 119 pud 10 girvənkə;

40) Əbdürrəhim Hacı İsmayıl oğluna 4 nəfər 3 pud;

41) Məşhədi Mahmud Əhmədova 132 nəfər üçün 99 pud;

42) Çənbərəkəndinə 178 pud;

43) Əliağa Piri oğluna 3 nəfər 2 pud 10 girvənkə;

44) Əlipaşa Gülmirzə oğluna iki nəfər 1 pud yarım;

45) Mustafa Abidin oğluna 7 nəfər 5 pud 10 girvənkə;

46) Kərbəlayı İslam Məşhədi Abdulla oğluna 5 nəfər 3 pud, 30 girvənkə.

Bu surətlə təqsim olunan [paylanan] unun cümlətani 2881 pud 30 girvənkə edir. Cəmiyyəti-Xeyriyyə məscid nümayəndələrindən unların torbalarını gətirib verməyi rica edir.

## “MÜSAVAT”DA

- “Müsavat”a Xanqılan tərəfindən böylə bir ərzi-hal verilmişdir:

Qədimkənd kəndxudası Əbdülqəni Cəfər oğlu camaatları çox bədhal ilə keçirir. Fəqir-kasıb camaatları onun zülmünün artıqlığından və bəd hərəkatından yaşamaqları qeyri-mümkündür. Sarıqa-

mış denilən kənddə həman kəndxuda bir neçə mülk almış, camaata pulsuz güclə sökdürür. Pulsuz kasıbların arabalarını işlədir. Camaatdan külli rüşvət alıb, rüşvət verən şəxslərə şəhadət verirlər.

Firqə tərəfindən lazımi təhqiqat olunur.

- "Müsavat"ın İstixbarat [Məlumat] şöbəsinə 24 avqustda Quba qəzasına tabe Əlikan kəndindən Canaxar sakini Qafar Səfər oğlu tərəfindən böylə bir şikayət verilmişdir:

Mən bir qaç nəfər yoldaşlarımla Dağıstanda idim. Avqustun 21-də vətənimə övdət etdim [qayıtdım]. Mən kəndimdə olan zaman bizim köyün kənarında mənim bostanım vardı. Bostanın çardağına bir nəfər çocuq çıxıb oturmuş imiş. Bir digər şəxs də tüfəngini oynadarkən, qəflətən tüfəng açılıb çocuğa dəymiş, çocuq ölmüşdür. Mənim bu işdən heç xəbərim yoxdur. Gəlib məni yüzbaşı tərəfindən tövqif edib [tutub] tövləyə salmışlar. Onun sabahı günü pristav gəlib məni bir qədər nahaq döyəndən sonra məni həbsə saldı. Camaat bu ədalətsizliyi görəndə mənim məsuliyyətimi kəndi öhdələrinə alıb məni xilas etdilər. Mənim bu işdən xəbərim olmadığına şəhadət verənlər dəxi vardır. (Şahidlər də göstərilir.)

- "Müsavat"ın Təbliğat-Təşkilat şöbəsi tərəfindən Qubaya getmiş Yusif İbrahimli əfəndinin dakladı.

İşbu avqust ayının 19-da "Müsavat" tərəfindən getdim Quba qəzasına. Ərəb Həmyə kəndində camaat pristavdan çox şikayət eyləyirlər ki, Dəvəçi stansiyasında o çox biqanun hərəkətlər edir. Kasıb fəqir-füqəranı pulsuz işləməyə göndərib, külfətləri kənddə acından tələf olurlar. Bir də Qızılburun stansiyasında duran bir jandarma, adı Bəşir Şirin oğlu, Fındığanlı camaatına və gələn-gedənlərə çox əziyyət edir, şeylərini alır, döyür, həbsə alır. Bir taqım yaramaz işlər eyləyir. Dəmiryolu ilə gedən müsafirlərdən rüşvət alır. Müsafirləri çox döyüb incidir. Bu cür jandarmlardan Qızılburun stansiyasında da vardır. Bunlardan maəda [başqa] Taqay-Eynbulaq camaatı pristavdan çoxlu şikayətlər eyləyirlər. Pristav füqəra camaatı incidib aylarla şikayətlərinə əncam verməyir.

## AZƏRBAYCANDA

**Qarabağ məsələsinin həlli**

Yenə də bir qələbə; yenə də Azərbaycan Cümhuriyyəti üsuli-idarəsinin ən həqiqi, səmimi, demokratik üsulu üzrə tərtib tapmasına yeni bir nümunə və sübut.

Lənkəranda qan tökməksizin Azərbaycan Hökuməti tərəfindən Lənkəran avantürasının xətm edilməsindən sonra, Qarabağın da erməni məsələsinin sülhlə nəticəpəzir olması bizim üçün və bizim diplomasi şan və yüksəkliyimiz üçün böyük bir qələbədir.

Keçən məqaləmdə və həmçinin xüsusi teleqrafımda göstərdiyim kimi, Şuşakənddə təşkil edilmiş yeddinci erməni ictiması [yığıncağı] bu dəfə məsələyə bir az geniş nəzərlə baxıb, daha doğrusu ermənilərə verilən firib [aldadıcı] və xainanə vədələrin puç və bimənа ol-

duqlarını anlayıb, səkkiz gün sərasər Qarabağ general-qubernatoru [Xosrov bəy] Sultanovun təkliflərini müzakirə edəndən sonra qərar qoyulmuşdu ki, Qarabağda olan ermənilərin Azərbaycan Hökumətini qəbul etmək məsələsi əsasən qəbul edilsin.

Məsələ əsasən qəbul edildikdən sonra yığın tərəfindən qubernatorun hüzuruna xüsusi bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] gəlib Qarabağ camaatı üçün ən mühüm və lazım olan məsələnin həlli barəsində müzakiratda bulundu. Danışıq ayın 16-dan başlanıb iki gün tamam davam etdi. Heyəti-mürəxxəsədən əlavə, Şuşa şəhərinin heyəti-ruhaniyyəsi də, o cümlədən yepiskop Vağan və baş keşiş Ter-Xambapet İsgəndərov və sairləri də müzakiratda iştirak edirdilər.

Ayın 18-də general-qubernatorun səvabdidi [razılığı] ilə böylə bir layihə tərtib verildi:

1- Şu zeyldəki [aşağıdakı] etilaf [razılıq] hər iki tərəfcə müvəqqəti olaraq qəbul edilir. Məsələ Sülh Konfransı tərəfindən həll edilərkən, Konfransın qətnaməsi tərəfeyn [hər iki tərəf] üçün məcburidir.

2- Qarabağın Şuşa, Cavanşir və Cəbrayıl uyezdlərinin dağ mahallarında, yəni erməni əhalisi olan (Dizaq, Vərəndə, Xaçın və Carabert) mahalları özlərini Azərbaycan Cümhuriyyətində müvəqqəti olaraq hesab edirlər.

3- Şuşa, Cəbrayıl və Cavanşir uyezdləri xüsusi general-qubernator təhti-idarəsində [idarəsi altında] qalıb da erməni mahallarında ermənilərdən hakimlər təyin olurlar. Əqəliyyətin [azlığın] hüququnu mühafizə etmək şərti ilə.

4- Qarabağ general-qubernatoru indində bir xüsusi şura təşkil ediləcəkdir ki, bu şura 6 kişidən – 3 erməni, 3 müsəlmandan ibarət olacaqdır.

5- Şuranın erməni əzaları [üzvləri] erməni ictiması tərəfindən intixab edilib [seçilib] sonra təyin olunacaqlar.

6- Beynəlmiləl əhəmiyyəti olan məsələlər hamısı qabaqca Şurada müzakirə ediləcəkdir.

7- Şuranın üçdən bir hissəsinin general-qubernatorluq dairəsində yeni işlərin, məsələlərin müzakirəsi barəsində təşəbbüsatda bulunmaq ixtiyarı vardır.

8- Şuranın ixtiyarı var ki, general-qubernatorluq dairəsində olan hökumət idarələrində məhəlli [yerli] hökumətin işlərinə qarışmamaq şərti ilə təftiş etsin.

9- General-qubernatora mülkiyyə işlərinə baxmaq üçün bir də mülkiyyə müavini təyin olunur. Bu müavin erməni olmalıdır.

10- General-qubernator müavini vəzifəsini tanımaq üçün Azərbaycan Hökumətinə iki namizəd təklif olunur. Bunların biri təyin olunur.

11- Qarabağ erməniləri mədəni muxtariyyət hüququ alırlar.

12- Qarabağ ermənilərinin mədəni muxtariyyət hüququ Erməni Milli Komitəsi tərəfindən məhfuz olunur [qorunur]. Milli Komitə Qarabağ Erməni Syezdi tərəfindən intixab olunur.

13- Azərbaycan Cümhuriyyəti Hökuməti Erməni Milli Komitəsinin işlərini özünün erməni vəkilləri vasitəsilə təftiş edir.

14- Qüvveyi-hərbiyyə, sülh zamanı miqdarında Xankəndində və Şuşada iqamət edəcəkdir [yerləşəcək].

15- Qüvveyi-əsgəriyyə Cəbrayıl, Şuşa və Cavanşir uyezdlərinin dağ hissələrindən, yəni erməni mahallarından keçdikləri zaman gərək Şuranın üçdən iki hissəsinin rizası ilə olsun.

16- Siyasi əqidəsindən heç kəs, həm məhkəmə və həm də hökumət tərəfindən məsuliyyətə alınmayacaqdır.

17- Siyasi əqidəsi münasibətilə buradan qaçmağa məcbur olan ermənilər öz yerlərinə övdət edirlər [qayıdırlar].

18- Qarabağda ermənilərin və müsəlmanların tərksilah edilmək məsələləri Qarabağ işi Sülh Konfransında müzakirə edilənə kimi təxirə düşür.

Qeyd: Çün tərksilah edilmək məsələsi ümumi Azərbaycanda elan edilmişdir, buna görə də, ancaq tərksilah edilmənin sakit edilməsi barəsində sərəncamda bulunmalıdır.

19- Azərbaycan Hökuməti maddi və mənəvi cəhətincə dağıdılmış erməni və müsəlman kəndlərinin təmirinə müavinət etməlidir.

20- Beynəlmiləl əlaqələri düzəltməkdən ötrü Şura tərəfindən mütəmadiyən qarışıq erməni-müsəlman iclasları dəvət olunur.

21- Hürriyyəti-kəlam, ittifaq və mətbuat [söz, ittifaq və mətbuat azadlığı] elan edilir. İctimalar [yığıncaqlar] isə Azərbaycanın idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi rejim] altında elan edildiyi üçün ancaq hökumət tərəfindən olmalıdır.

22- Hökumət qulluqçularının və kənarların təqsirləri ancaq məhkəmə vasitəsilə təftiş və tənbeh edilir. Fəqət, 11 iyunda 1919-cu ildə Məmləkət Mühafizəsi Komitəsi göstərdiyi ittifaqlar [hallar] istisnadır.

23- Bu vaxtadək ittifaq düşən beynəlmiləl toqquşmalarda iştirak etmək üçün heç kəs məsuliyyətə alınmayır.

24- 7-ci erməni ictiması Parlamana üzvlər intixab edir.

25- Bu sülhnamə 7-ci erməni ictiması təsdiq etdiyi zamandan qəbul edilir.

26- Bu etilafnamə hər bir halda idareyi-örfiyyə [fövqəladə rejim] vaxtında da öz qüvvəsində qalacaqdır.

Bu layihə yazılandan sonra ayın 19-da heyəti-mürəxxəsə dübarə Şuşakəndə gedib layihəni ictimaya bəyan etdilər. Həman axşam ictimadan məktub alındı ki, layihə ictima tərəfindən yekdil, yekcəhət qəbul edilir.

Bu zaman şəhərin həm erməni, həm müsəlman hissələrində böyük şadlıq və bayram gününün yavuqlaşması müşahidə edilməyə başladı. Küçələr təmizlənib, balkonlar, evlər zinətlənib, camaat dəstə-dəstə gəzinib, biri-birilərini təbrik edib öpüşürdülər. Orada-burada zurnalar çalıb oynayırdılar. General-qubernatorun evinin qabağı xalq ilə dolub, camaat qubernatoru təbrik edirdi. Biri-birilərinə rast gələn erməni və müsəlmanlar "Allaha şükür ki, iki qardaş genə birləşdi" deyə öpüşüb qucaqlaşırdılar.

*(yenə var)*

*Məhəmməd Sadıq [Aran]*

**İtibdir**

Məşhədi Saleh Qarayevin Üçüncü polis idarəsindən aldığı pasportu itib, etibardan saqitdir [etibarsızdır].

*7500*

Bazar küçəsi yaxınlarında 2-3 otaqdan ibarət kirayə ev lazımdır. Qiyməti əhəmiyyətsizdir. Adres: Bazarnı, nömrə 48. Saatsaz.

*9004*

**İtibdir**

9 yaşında sarı papaqlı, qara şalvarlı və ağ arxalıqlı Ağababa adında bir uşaq itmişdir. Bu uşaq barəsində xəbəri olanlardan Dördüncü polis idarəsinə xəbər verməléri rica olunur.

*9003*

**İtibdir**

Bibixanım Əkbər qızının Bakı Ruhani İdarəsindən aldığı nikahnaməsi itib, etibardan saqitdir.

**İtibdir**

Avqust ayının 26-da bir dəftər, içində bir neçə şot vardır. Tapan şəxsdən təvəqqe olunur ki, mükafat alaraq gətirib dərya kənarında Çuxur karvansara yanında iranlı İsmayıl Hüseynəli oğlunun dükanına versin.

*Kərbəlayı Məhəmmədhəsən Məşhədi İbrahim [oğlu]*

*8972*

**İtibdir**

Kərbəlayı Hüseyn Qasım oğlunun Ərdəbildən aldığı pasportu və Şəhər İdarəsindən aldığı şəhadətnaməsi itib. Etibardan saqitdir.

*7498*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Elan**

Milyutinski, Krivoy, Tarqovı, Malakan bağı və Baryatinski küçələrdə bir portfel içində 500 manat pul, kağızlar və Kalinkus adına türkcə-fransızca yazılmış vizitni kartoçkalar itibdir. Tapan şəxsdən acizanə təvəqqe edirəm pulu özü götürüb, kağızları isə min manat mükafat almaq üzrə bu adresə gətirsin: Milyutinski, nömrə 3. Mağaza 23, Kalinkus.

*7497*

Cümə günü zilhiccə ayının 2-si (avqustun 29-da) saat 9 tamamda “İttihad” məktəbində (Sadovaya, nömrə 19) Bakı və ətrafında yaşayan iranlıların ümumi ictiması [yığıncağı] olacaqdır. Binaənileyh [ona görə], bütün iranlıların vəqti-müəyyəndə gəlmələri rica olunur.

*Heyəti-İttifaqi-İraniyan dər Badi-Kubə*
*7496*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**“Azərbaycan Dəmiryol İdarəsinin...”**

səh. 491. “Səkkiz lotdan”: “lot” təxminən 12,80 qrama uyğun ağırlıq ölçüsü idi.

**Ərazi məsələsindəki müvəffəqiyyətimiz**

səh. 493. “kimidir” yerinə “deyildir” getmişdir.

**Teleqraf xəbərləri**

səh. 498. “Kovalevski”: qəzetdə soyadı təhrif edilmişdir.

səh. 499. “qoşunlarımız Tobol tərəfə hərəkət edirlər”: qəzetdə “Tobol” yerinə “Tobolsk” getmişdir; burada söhbət Tobol çayından gedir.

“Çiçerin”: qəzetdə təhrif edilmişdir; “Çerçin” yazılmışdır.

**Türkiyədə**

səh. 501. “sultan həzrətləri”: Osmanlı imperiyasının sonuncu sultanı olan VI Məhməd nəzərdə tutulur.

“Bəyoğlu”: İstanbulun Avropa hissəsində yer alan rayonlardan (ilçələrdən) biri.

**Şah həzrətlərinin səfəri**

səh. 503. “Şah həzrətləri”: 1909-1925-ci illərdə İran şahı olan Əhməd şah Qacar nəzərdə tutulur.

**İrəvan quberniyasında “müsəlmanıstan”**

səh. 505. “padavod” [подвода]: əsasən atla çəkilən yük arabası.

“M. B.”: bu imza Mirabbas Mirbağırzadəyə məxsusdur.

**Müəllimlər Qurultayı**

səh. 506. "Təlifat Komisyonu": əsərlər (xüsusilə dərs kitabları) yazmaq yaxud yazdırmaq məqsədi ilə qurulmuş komissiya.

**Bakı xəbərləri**

səh. 509. "Lənkəran işğalında...": "işğal" sözünün əsl mənası "tutmaq, ələ keçirmək"dir. O dövrdə "işğal" sözü bugünkü mənfi çalarını qazanmamısdı. Burada "işğal" sözü düzgün başa düşülməlidir.

"Dəniz kənarında": Bakıda, o dövrdə Naberejni küçəsi adlanan, indiki Neftçilər prospekti nəzərdə tutulur.

"Sadovı" (yaxud Sadovaya küçə): Bakıda küçə; indiki Səbail rayonunda Şövkət Ələkbərova küçəsi.

səh. 510. "Üçüncü paralelni küçə": Bakıda, indiki Əbilov küçəsi.

**"Müsavat"da**

səh. 510. "Xanqılan": güman ki, Xanqışlaq olmalı idi.

**Azərbaycanda**

səh. 512. "Şuranın erməni əzaları": qəzetdə "əzaları" yerinə "ünsürləri" getmişdir.

**Cümə, 29 avqust 1919-cu il, nömrə 263**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 2 zihiccətül-haram sənə 1337. 29 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## "AZƏRBAYCAN" QƏZETƏSİ KONTORU TƏRƏFİNDƏN

Qəzetəni nəşr etmək üçün məxaric artdığından, kağızın və bir para mətbəə materiallarının bahalandığından dolayı "Azərbaycan" qəzetəsi nəşriyyatı həmin avqust ayının 23-dən müvəqqəti olaraq qəzetənin tək nüsxəsi fiyatını 2 manat etməyə məcbur olmuşdur. İşbu abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-ədək hesab olunur.

* * *

Azərbaycan Dəmiryol İdarəsi bununla elan edir ki, həmin avqust ayının 22-dən hər gün, cümə və bayram günlərindən başqa, saat 10-dan Bakı yük istasyonunun 11-ci skladında sahibləri tərəfindən aparılmayan mal və yüklər, məsələn hər cür kağızlar, kitablar, ev əşyaları, mətbəx qabları, köhnə-təzə paltar, gömlək, aptek malları və sairələri müzayidə (torq) [hərrac] təriqi [yolu] ilə satılacaqdır. Həmin malları yuxarıda zikr olunan skladda torq olan günlər görmək olar. Torq edən Həcz və Təsviyə [Müsadirə və Ləğvetmə] Komissiyası Azərbaycan Hökumətinin 1919-cu sənəsi 7 may qətnaməsi mövcibincə [qətnaməsinə əsasən] hərəkət etməkdədir.

*T-225*

* * *

Azərbaycan Dəmiryol İdarəsinin Ekspluatasiya Konsulluğunun [İstismar Xidmətinin] ticarət hissəsi elan edir ki, dəmiryol ilə işi olanlara, Batuma və geri məktub göndərməyə imkan vermək məqsədilə avqustun 26-dan Dəmiryol nazirinin icazəsi ilə (21 avqust, 1919, nömrə 1246) Bakı şəhərində Bakı şəhər stansiyasında (Olqinski və Merkuryevski küçələrinin küncündə) məktubat [məktublar] qəbul ediləcəkdir. Batum şəhərində isə Azərbaycanın Batum agentliyində (Naberejni nömrə 8) bayram günlərindən başqa hər gün səhər saat doqquzdan birə qədər məktubat qəbul edilib veriləcəkdir. Səkkiz lotdan artıq olmamaq üzrə paketlər (zərflər) bağlanmamış bir halda qəbul ediləcəkdir. Poçta markasından əlavə hər paketə 25 manat komisyon haqqı alınacaqdır. Məktubat həftədə iki dəfə beş və altı nömrəli sürət qatarları ilə aparılıb-gətiriləcəkdir.

*T-224*

## HÖKUMƏT TEATROSU
## AXŞAM TAMAŞASI
## TƏZƏ OPERA

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının Müdiriyyəti cümə günü zilhiccə ayının 2-də (ağustos ayının 29-da 1919-cu ildə) bu mövsümdə birinci dəfə olaraq mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Hacıbaba Şərifov tərəfindən yazılmış olan təzə opera “Tahir və Zöhrə” 7 şəkildə. Bu tamaşada Müdiriyyətin müqtədir [qüdrətli] aktyor və aktrisaları iştirak edib oyun gözəl və şükuhlu bir mənzərədə başa gələcəkdir. Böyük musiqi orkestri bu dəfə isə Slavinskinin təhti-idarəsində [idarəsi altında] olacaqdır. Orkestrdə Tehrandan varid olmuş [gəlmiş] məşhur tarzən Qurban Pirimov həm iştirak edəcəkdir. Qızlar və oğlanlar xoru və balet. Təfsilat proqramdadır. Biletlər teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 9-un yarısında.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Posta və Teleqraf nazirinin əmrnamələri**

*Əmrnamə 88*

Bu ağustosun 24-dən Dəftərxananın qulluqçusu Vasilyev müvəqqəti olaraq Bakı Sahil telsiz teleqraf mövqifinə [stansiyasına] göndərilir.

*Əmrnamə 89*

Xankəndi 6[-cı] dərəcəli Posta və Teleqraf Bürosu müdiri Əhməd bəy Məhəmmədqulubəyov Ağdamın 5[-ci] dərəcəli Posta və Teleqraf Bürosunun müdirliyinə və Bakı Teleqraf Bürosunun 3[-cü] dərəcəli məmuru Cəlal Rəhimov Xankəndi 6[-cı] dərəcəli Posta və Teleqraf Bürosunun müdirliyinə təyin olunurlar. Hər ikisi bu ağustosun 24-dən, 1919 sənəsi.

*Əslində imza etdi:*
*Post və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*
*Əslinə mütabiqdir:*
*Kargüzar: imza*

## MƏSULİYYƏTİMİZ ARTDI!

Məqaləmizin ünvanını oxuyan qarelər [oxucular], – Əcəba nə oldu? Könül arzu etməyən bir hadisəmi oldu? – deyəcəklərdir.

Fəqət heç də təlaş edilməsin. Könlü rəncidə edəcək [incidəcək] bir hadisə yox, biləks [əksinə], sevincli vəqələr [hadisələr, işlər] vardır!

Bir il altı aydan ziyadə ana vətəndən ayrı düşüb müxtəlif rəngli macərapərəstlərin əlində əsir qalan Lənkəranımız, o ərzaq anbarımız, ləhülhəmd [Allaha şükür olsun], əda [düşmənlər] əlindən qurtardı. Yeni ordumuzun ilk səfəri müvəffəqiyyətlə keçərək, Muğanda bərkişən iyirmi minlik silahlı rus qüvvətini təslimə məcbur edərək, onlarca top, pulemyot və minlərcə tüfəng, fişəng və mərmilər aldı.

Qarabağ – vətənimizin o gözəl bucağı, həyati-iqtisadiyyəmizi parçalayan, sularımızın başını tutaraq bizi fəlc [iflic] bir hala qoymaq istəyən inadlı qonşularımızın israrından qurtardı.

Fəzlə qanlara məhəl [yer] vermədən erməni əhalisi məsələnin sülhən həllini iltizam edərək Azərbaycan hakimiyyətini qəbul etdilər.

Naxçıvan – şəraiti-təbiiyyəsi ilə həqiqətən də "nəqşi-cahan" olan o Azərbaycan ölkəsinin ayrılmaz qitəsi [hissəsi], qəhrəman və fədakar övladının hümməti sayəsində, aldanaraq ayrı düşdüyü vətənə qovuşmaq üçün üsyan haqqından istifadə etdi. Naxçıvan qasib [qəsbkar] Ermənistan ordusunu hüdudu xaricinə atdı.

Ortada böyür ağrısı və məqsədlərimizi təhdid edərək duran Zəngəzurun da yaxın zamanda zərərsiz bir hala qoyulub Astara çayı və Samur körpüsündən tutub, Araz nəhri ilə Culfa körpüsünə qədər maneəsiz bir yol açılacağını ümid edə bilərik.

Azərbaycan[ın] ərazi mətalibi [tələbləri] bu surətlə qismi-mühümü ilə həll edilmiş deməkdir. Cümhuriyyətimizin hakimiyyəti təhtinə [altına] keçən bu ərazi daxilində zamanımızdakı əhvali-fövqəladəyə nəzərən nisbi bir əmniyyət [asayiş] və intizamın dəxi hökmfərma [hökmran] olduğu inkar olunammaz.

Böylə bir zamanda məmləkətimizdə bulunan xarici ingilis qüvvəti neçə gündür ki, torpağımızı tərk edib getmişdir. Ayın [avqustun] 26-dan etibarən Azərbaycan həqiqətən də müstəqil olub kəndi qüvvətinə qalmışdır.

Bu günə qədər İngiltərə Komandanlığının buradakı hüzuru [varlığı] idareyi-məmləkətdəki məsuliyyətimizi bizimlə bölüşürdü. Bu məsuliyyət təqsimi [bölgüsü] yalnız maddi və müəyyən şeylərdə deyil, mənəviyyatda da vardı. Xalqın ruhiyyatı, bilxassə türk olmayan azərbaycanlıların mənəviyyatı üzərinə bunun böyük bir təsiri vardı. Halbuki indi iş böylə deyildir. Tamamilə özümüzə buraxılmış bir haldayız.

Bu vaxta qədər Azərbaycan daima xarici bir qüvvət sayəsində durmuşdur. Bir zaman türklər gəldilər, bizi mühəqqəq [qaçılmaz] ölümdən qurtardılar. İngilislər zamanında idarə və hürriyyətlərimizin daha ziyadə kökləşməsinə çalışa bildik. Kəndi qüvvətimizə inanmayan bir çox süst ünsürlərimizlə düşmənlərimiz bu dövrlərdəki müvəffəqiyyətlərimizi özümüzdən ziyadə xarici təsirlərə bağlamaq istəyirlər. İngilislər olmasaydı, bunu yapammaz, onu doğruldammaz, öz qüvvətinizlə idarə edə bilməzdiniz, deyirlər. Bunu burada bizim üzümüzə qarşı açıq deyil, kinayə ilə ehsas [hiss] etdirirlərsə də, xaricdə, Avropada Müttəfiq [Antanta] qəzetələrində aşkara söyləyirlər. Deyirlər ki, azərbaycanlılar asiyai [asiyalı] bir millətdirlər. Özlərini hürriyyətlə idarədən acizdirlər. Hələ xristian millətlərini heç idarə edə bilməzlər.

Bu, haqqımızda söylənən böhtanların ümumi bir şəkli-ifadəsidir. Yoxsa düşmənin qələmindən, dilindən çıxan böhtanları nəql edəcək olarsaq tüklər ürpər.

Bu böhtanları daha əvvəlcə də söyləmişlərdi. İngilislər buraya gəldikləri zaman o böhtanlarla zəhərlənmişlərdi. Bunun üçün də bundan doqquz ay əvvəl hissiyyatımıza toxunulmuş, mənəviyyatımız təhqir edilmişdi.

Fəqət əhval ilə vasitəsiz aşina olan avropalılar, əzcümlə [o cümlədən] ingilislər işin əksini gördülər və buradan gedərkən bizim ən eyi müərriflərimiz [bizi

tərifləyənlər, təbliğ edənlər] olaraq getdilər. Avropadan aldığımız xəbərlər dəxi İngiltərə mənabeyi-rəsmiyyəsi [rəsmi mənbələri] tərəfindən haqqımızda verdiyi məlumatın lehimizdə olduğunu təyid [təsdiq] etməkdədir.

Fəqət indi tamamilə kəndi-kəndimizə tərk edildiyimiz bu zamanda məsuliyyətimiz daha ziyadə artır. Çünki görəcəyimiz işə müdaxilə edən yox, istiqlalımızı təhdid edən [məhdudlaşdıran] nə maddi, nə də mənəvi bir qüvvət var. Bu günə qədər olan müvəffəqiyyətlərimizi düşmənlər xarici təsirə çıxa bilərlərdi. Bu gün isə onu da yapammazlar.

İstiqlalımız təsdiq olunacaqmı? – bu bir sualdır.

Fəqət istiqlalımız feilən mövcuddur – bu bir həqiqətdir.

Bu həqiqəti hüsn-idarə edər, bu həqiqət zamanında özümüzün həqiqətən itiqlala şayəstə [layiq] bir millət olduğumuzu isbat edərsək, o zaman əmin ola bilərik ki, yuxarıdakı suala müsbət bir cavab alacağız. Bu sualın cavabı üçün daha bir neçə ay gözləmək lazım.

Ehtimal ki, üç-dörd ay sonra Sülh Konfransı Zaqafqaziya hökumətləri haqqında bir qərar verər. O qərar alın[ın]caya qədər özümüzü həm daxildə zühur edəcək, həm də xaricdən gələ biləcək əmri-vaqelərdən [iradəmiz xaricində cərəyan edən, arzuedilməz hadisələrdən] qorumalıyız.

Bu xüsusda Avropa əfkari-ümumiyyəsi [ictimaiyyəti], bilxassə Sülh Konfransı və Müttəfiq məhfilləri [dairələri] üzərinə icrayi-təsir edəcək vəqələr [işlər], heç şübhəsiz ki, hazırkı vəziyyətin, indiki nizam və asayişin mühafizəsi şərtdir. Fəqət şərti-əzəm [ən böyük şərt] müsəlman olmayan millətlərlə olan münasibat və rəftarımız olacaq.

Düşmənlərimiz çoxdur – bunu biliriz. Düşmənlərimizin bizə qarşı ən böyük silahı bizi özümüzdən olmayan millətləri idarə edə bilməmək töhmətidir. Biz, bizdən olmayanları kəsər, qaba qüvvətlərmişiz.

Bu isnadın sırf böhtan olduğu yenə Lənkəran, Qarabağ məsələləri ilə Gəncədə yaşayan ermənilərin bu günə qədər burunlarının olsa da qanamadığı ilə sabitdir. Fəqət bunu daha qüvvətli bir surətdə isbat etmək günləri şimdidir.

Bu şərtdən sonra məmləkətimizi daxili ixtilallardan [hərc-mərcdən], anarşidən, bolşevizm bəlasından saxlamaq dəxi böyük vəzifədir. Çünki bir an əvvəl Qafqaziyaya gəlmək istəyən Denikinin Avropaya qarşı məram anlatması üçün yeganə bəhanə "bolşevizm" bəhanəsidir. Məmləkətimizi bolşevizmdən əmin saxlarsaq, bununla şimal təhlükəsinə qarşı siyasi bir üstünlük qazanarız.

Üç-dörd ay bu surətlə məmləkəti idarə edərsək, Sülh Konfransından bizi tanıyacaq bir qərar almaq ümidi pək o qədər də uzaq deyildir. İngilis ordusu buradan gedirsə də, Avropa ilə münasibatımız qət olunmayır [kəsilmir]. Sülh Konfransı naminə Zaqafqaziya hökumətləri nəzdinə məmur olaraq amerikalı Haskell təhti-rəyasətində [başçılığı altında] bir komissarlıq təyin edilmişdir. Haskell Ermənistana gəlmiş, Gürcüstana gəlmiş, yaxında Bakıya da gələcəkdir. Bundan əlavə, İngiltərə Xariciyyə Nəzarəti tərəfindən yenə Zaqafqaziya hökumətləri nəzdinə təyin olunmaq üzrə Vordrop rəyasətində bir heyəti-məxsusə [xüsusi bir heyət] gön-

dərilmişdir. Vordrop müstəşriqlərdən [şərqşünas] olub, olduqca alim bir zatdır [şəxsdir]. Türkcə, gürcücə və ermənicəyə aşinadır. Vəzifəsi bu vaxta qədər olan əsgəri komandanlıqlar kimi deyil, sırf siyasi və iqtisadidir. Bunlardan əlavə, İtaliya Hökuməti tərəfindən dəxi polkovnik Qabba təyin olunmuşdur. Bu dəfə Qabba Komandanlığın deyil, Xariciyyə Nəzarəti məmurudur.

Bunlar tamamilə Zaqafqaziya hökumətini tanımaq demək deyilsə də, yarım tanımaq kimi tələqqi [qəbul] oluna bilər. Bilxassə Vilson sözlərini dəxi burada yada salmalıyız. Amerika rəisi-cümhuru Parisdəki sülh heyətimizlə görüşərkən Zaqafqaziyanın bir cümhuriyyəti-müttəfiqə [müttəfiq bir respublika] şəklinə girməsinin daha ziyadə mətlub [arzuedilən] olacağını söyləmişdir. Sülh Konfransı tərəfindən Rusiya hökuməti olaraq tanınan Kolçak komandanlığına dəxi Zaqafqaziya cümhuriyyətlərinin vəziyyəti-hazirəsinə təcavüz etməmək yolunda verilən düstur bu nöqteyi-nəzəri işıqlandırmaqdadır.

Bu əlamətlər, əlbəttə, bizə ümid verir ki, hər halda Zaqafqaziya hökumətlərinin müqəddəratı Rusiyadan ayrı olaraq tələqqi edilir.

İştə, bu əlamətlərə əhəmiyyət verərək, əlimizə keçmiş istiqlali-feilimizi [feili, həqiqi, əməli istiqlalımızı] daha ziyadə ciddiyyət və əhəmiyyətlə müdafiə etməliyiz.

Ayın 26-dan etibarən millət tamamilə kəndi müqəddəratına kəndisi hakim bir vəziyyətdədir. Bu vəziyyəti qan bahasına, can bahasına olsa da əldə saxlamaq boynumuzun vəzifəsidir.

Bir tərəfdən zövqi-istiqlal, digər tərəfdən vəzifə məsuliyyəti ilə böyük olan bu günlərdə hökumətə tədbir və qətiyyət, firqələrə həmiyyət və etidal [təmkin], millətə ciddiyyət və fədakarlıq lazım.

Əvət, möhtərəm qarelər, istiqlalımıza feilən nail olmaqla böyük bir zövqi-milli duyuruz. Fəqət bu zövq, biliniz ki, məsuliyyətimizi artdırır.

Məsuliyyətdən qorxalım, vəzifə başına qoşalım!

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 18 ağustos iclası

*(mabəd)*

**[Rza bəy] Ağabəyov** - Sosialistlər şikayət edirlər ki, layiheyi-qanuniyyə [qanun layihəsi] ilə aşina ola bilməmişlərdir. Halbuki bu layihə iki aydır ki, Maliyyə-Büdcə komissiyasında yatır və ümumi iclasa qoyulmaq növbəsi gözləyir. Bu müddətdə sosialistlər ona ətraflıca aşina ola bilərlərdi. Daha bundan artıq gözləmək olmaz.

Hökumətə lazımdır Dövlət Bankı açsın, daha onun əllərini bağlamaq olmaz. Bundan əlavə, [Səməd ağa] Ağamalıoğlu bankda sui-istifadəyə məhəl [imkan] buraxa biləcək nöqtələr olduğunu göstərir. Doğrudur, 1886 tarixinədək banklarda sui-istemallara [sui-istifadələrə] geniş imkan vardı. Lakin Səhmdarlıq Qanunu verildikdən sonra intəha verilmişdir və indi

cəsarətlə deyə bilərəm ki, sui-istifadəyə məhəl yoxdur.

Bir də Ağamalıoğlu etiraz etdikdə deyir ki, bu banklardan ancaq dövlətlilər istifadə edə biləcəkdir. Amma əgər diqqətlə baxmış olsaydı görərdi ki, kəndlilər, əkinçilər üçün də orada geniş istifadə yeri var. Çünki kəndlilər üçün xırda borc açılır. Bundan da məhz füqəra sinfi istifadə edəcəkdir.

Bankı idarə edəcək Şuraya gəlincə, mən və Büdcə komissiyası bu rəydə olduq ki, Şura[da] kooperasiyalar və təsis olunan zaman zemstvoların da nümayəndələri cəlb olunmalıdırlar. Ağa Aşurovun verdiyi suala isə Nəzarət [Nazirlik] cavab verməlidir. Onun da nümayəndəsi burada yoxdur. Komissiyada bu xüsusda məlumat yoxdur.

*10 dəqiqə tənəffüs elan edilir.*

*Tənəffüsdən sonra*

Sədr elan edir ki, tənəffüs vaxtı layiheyi-qanuniyyənin ikinci qiraətinin təxirə salınması təklif edilmişdir.

**Qarabəyli Qara bəy** - (İttihad) Bu təklifi bizim fraksiyamız etmişdir. Səbəbi də budur ki, layihə fraksiyalarda müfəssələn [təfsilatlı] müzakirə edilməmişdir. Bir də Dövlət Bankı açılması bir çox örtülü məsələlərlə əlaqədardır ki, onları da açmaq lazımdır. Bu bank sabiq Rus Dövlət Bankının varisidir və sabiq bank ilə bir çox məsələlərlə, xüsusən rus bankının borcu məsələsində əlaqədardır. Bu gün Maliyyə Nəzarətinin nümayəndəsi burada olaraq bütün bu məsələlərə cavab verməli idi. Fəqət yoxdur. Ona görə təklif ediriz ikinci qiraət təxir edilsin, tainki nazir gəlib bəyanat versin.

Əksəriyyəti-ara [səs çoxluğu] ilə təklif qəbul olunur.

Növbədənxaric [Əliheydər] Qarayevə söz verilir.

**Qarayev** - (Hümmət) Mənim növbədənxaric bəyanat üçün söz almağıma bais hökumətə məxsus Eyzenşmidt emalatxanasında davam edən tətil ilə əlaqədar olaraq fəhlələrin fəna bir halda olmalarıdır. Tətil 18 gündür davam edir. Fəhlələr 18 gündür acdırlar. Fəqət haqlı tələblərinin qəbulu uğrunda heç təşəbbüs edilməmişdir. Orada işlər çox qarışıqdır. Fəhlələrin bəziləri maaşlarını Moskva dekreti əsası ilə, digərləri isə Məsai Nəzarətinin [Əmək Nazirliyinin] son dekreti əsası ilə alırlar. Eyzenşmidt emalatxanası dəmiryolu müdiriyyəti təhtiidarəsindədir [tabeçiliyindədir], həman müdiriyyət orada bir növ ayrıca bir idarə əmələ gətirmişdir ki, Məsai Nəzarətinin ixtiyarı çatmayır. Əhval artıq böylə davam edəmməz. Bilxassə ki, əgər böylə şeylər xüsusi müəssisələrdə olsaydı, yenə də adam bəlkə səbir və təhəmmül edərdi [dözərdi]. Amma hökumətə məxsus emalatxanalarda böylə şeylərə əsla təhəmmül ediləmməz.

Bundan sonra keçən iclasda sosialistlərin Xariciyyə Nəzarətinə vermiş olduqları suala keçilir.

Hökumət namından Xariciyyə naziri həzrətləri cavab verirlər. *(Cavab qabaqkı nömrəmizdə dərc edilmişdi.)*

**Əhməd Cövdət** - (Sosialist) Biz sualımızda beş mühüm məsələ qaldırmışdıq və gözləyirdik ki, hökumət bu məsələlərin həpsinə kafi və şafi [qənaətləndirici] cavab verəcəkdir. Fəqət Xariciyyə naziri bizə bir çox əmrlərdən [işlərdən] bəhs etdi ki, onsuz da həpsini bilirdik. Amma yeni bir söz söyləmədi. Biz bu sualı ve-

rərkən bilmək istəyirdik ki, hökumət bu məsələlər haqqında nə kimi tədbirlər görmüşdür, yainki görmək fikrindədir. Lakin o şeyləri ki, bilmək və eşitmək istəyirdik, əsla eşitmədik. Ona görə də Xariciyyə nazirinin cavabı bizim üçün kafi deyildir. Məclisi-Məbusan Nizamnaməsinin müəyyən bir maddəsi əsası ilə sualımızı sorğuya mübəddəl edərək [çevirərək], yaxın iclaslardan birisində məsaili-yövmiyyəyə [gündəliyə] daxil edilməsini təvəqqe ediriz.

*İclas bununla qapanır.*

**21 avqust iclası**

**Sədr**: Qənizadə Sultanməcid

**Katib**: Hacınski Mehdi bəy

**Sədr**: İclası açıb məsaili-yövmiyyəni [gündəliyi] elan edir və deyir ki, Şamaxı Ermənilərinin Bakıdakı Həmvilayətlər İttifaqı Parlamana müraciətlə Şamaxı ermənilərinə bir yer verilməsini rica etmişlər və məbusluğa Nacarovu namizəd göstərmişlərdir. Divani-Rəyasət bunu müzakirə edərək rəddini təhti-qərara almışdır. Çünki qanuna görə buna izn veriləmməz. Erməni Milli Şurası tərəfindən seçilən məbuslar da Şamaxı ermənilərinin də nümayəndəsidirlər.

**Darülfünun**

Növbədə Azərbaycan Darülfünunu açılması haqqındakı qanun layihəsidir. Məruzəçi Hacınski Mehdi bəy.

**Hacınski** - (Müsavat) Məlumunuzdur ki, Bakıda Darüfünun açmaq məsələsi ətrafında çox müzakirə, mübahisə və gurultular olmuşdur. Gərək Parlaman dairəsində və gərəksə camaat idarələrində iki cərəyan çıxmışdır – birisi Darülfünun açılmasının lehinə, digəri əleyhinə.

Bakıda Azərbaycan Darülfünunu açmaq məsələsi hökumət təşəbbüslərindən olub, məşhur professor Razumovskinin sədarəti ilə bir Darülfünun Komissiyası təşkil edildi və bu məsələ üstündə çalışmaq ona tapşırıldı. Məzkur [deyilən] komissiya məsələni ətraflı müzakirə edərək bir layihə tərtib vermişdir. Həman layihə də ki Məclisi-Məbusanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komissiyasında baxılaraq şimdi heyətiümumiyyə iclasına təqdim edilir.

Layihə komissiyada müzakirə edilərkən hələ fraksiyalarda baxılmamışdı. Ona görə də əksəriyyən şəxsi rəylər verilirdi. Fəqət bununla bərabər, orada da iki cərəyan əmələ gəldi. Darülfünun açılması tərəfdarları bu layihədə Darülfünunun lüzumu haqqında göstərilən dəlillərə tamamilə iştirak edirlərdi. Əleyhdarlar isə bunun bir türk Darülfünunu olmadığını qeydlə, açılması əleyhinə bir çox dəlillər gətirirlərdi və ümdə olaraq göstərirlərdi ki, hələ Darülfünun açmaq vaxtı yetişməmişdir.

"Əhrar" firqəsi dəxi bu rəydə idi. Bir çox mübahisə və müzakirə nəticəsində ümum fraksiyalar etilafa [razılığa] gəldilər və açmağı qərarlaşdırdılar. Yalnız "Əhrar" firqəsi əvvəlki rəyində baqi qaldı.

Bundan əlavə, fraksiyalarda dəxi bu məsələnin müzakirəsi əsnasında iki cərəyan əmələ gəlib qızğın mübahisələr çıxdı. Fəqət orada dəxi tərəfdarlar üstün gəldilər. Məlumunuzdur ki, qəzetələrdə dəxi bu xüsusda cərəyanlar rəylərini bildirdilər. Ona görədir ki, lehinə və əleyhinə verilmiş olan rəylər və dəlillərdən müfəssələn bəhs etməyəcəyəm. Mən ancaq bu layiheyi-qanuniyyə ilə bərabər

təqdim edilmiş olan izahatnamədə göstərilən dəlillərdən bəhs edəcəyəm ki, həman dəlillər də hökuməti bu il tədris sənəsi ibtidasından [əvvəlindən] etibarən Darülfünun açılması lüzumuna qane etmişdir.

Onlar əvvəla bunu göstərirlər ki, Şərqi Qafqaziya, yəni Azərbaycanda və həmcivar yerlərdə çoxdan bəri Darülfününa və dolayısı ilə nahiyəni mədəniyyətdən və həyatın bütün xüsusatına aid mədəni qüvvələrdən təmin etmək üçün kəndinə məxsus bir Darülfünuna ehtiyac hiss olunur. Bu barədə Bakıda bütün müəssisələrlə bərabər darülfünunu sığışdıracaq abad evlər, binalar olmasının da əhəmiyyəti az deyildir. Böylə binalardan birisi Ticarət məktəbi və onun laboratoriya və sair qisimləridir. Birisi də Birinci Gimnaziyadır ki, Darülfünun klinikaları orada yerləşdirilə bilər. Bundan maəda [başqa], Ali Tibbiyyə məktəbində klinika tədrisatı üçün xəstəxana materialları da lazımdır ki, bu xüsusda Mixaylovski, Çornı-qorod və sairləri kimi xəstəxanalar böyük xidmət edə bilərlər.

Komissiya mümkün olan qədər xərci azaltmağa çalışaraq ancaq müvəqqəti heyət göstərmiş və birinci sənənin smetasını təqdim etmişdir. Bu qərar ilə ki, sonra xəzinənin mədaxili artdıqca dövlət və mədəniyyət tələbinə müvafiq surətdə Darülfünun tövsi [genişləndirilsin] və təkmil edilsin.

Təqdim edilmiş olan layihədə birinci il Darülfünun heyəti, güşadının [açılmasının] qaydası, idarə, təşkili və lazım gələn məxarici təyin və qət edir [qərarlaşdırır]. Layihə ilə bərabər Darülfünunun nizamnaməsi, heyət siyahısı və 1919-1920-ci ilin məxaric smetası dəxi təqdim edilmişdir. Bu layihədə ancaq o məsələlər qeyd edilmişlərdir ki, onlarsız Darülfünun açılıb davam edəmməz. Nizamnamədə ancaq Darülfünunun və ali məkatib müdərrislərinin [ali məktəblərin müəllimlərinin] hüquq və imtiyazatından bəhs edən və sair Nəzarətlərə əsla dəxli olmayan maddələr qeyd edilmişdir. Bir çox sair məsələlər var ki, onlar son həll ediləcəklərdir.

Məclisi-Məbusanın Ləvayehi-Qanuniyyə komissiyası bu layihəni tamamilə qəbul edərək, ancaq 30-cu maddəsində bəzi şeyləri dəyişmişdir. Şimdi də layiheyi-qanuniyyəni Parlamanın heyətiümumiyyəsinə təqdimlə ümidvar olur ki, Məclisi-Məbusan Azərbaycanda dövləti darülfünun açılmasının əleyhində olmaz.

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan radio mövqifi qəbul etmişdir)*

*(Bolşevik xəbərləri)*

**Macarıstan kabinəsi**

Kiyev qəzetələri xəbər verirlər ki, sosialist firqələri iştirakı ilə Macarıstanda müştərək Vüzəra Kabinəsi təşkil edilmişdir.

**Dombrov hövzəsində tətil**

Nauen - Krakovdan verilən məlumata nəzərən, Dombrovun dağ nöqtəsində

ümumi tətil elan edilmişdir. 35 mindən ibarət bütün şaxtaların əmələləri tətil etmişdir.

**Türkiyə paroxodu**

Novorossiysk - Qara dəniz sahilində İstanbuldan Batuma şəkər, qəhvə, sirkə, taxıl və başqa əşya aparan Türkiyə paroxodu minaya toxunaraq qərq olmuşdur.

**Sibiryada**

Kopenhaq qəzetələrinin əxbarına [xəbərlərinə] görə, Sibirya bolşevikləri Xita [Çin] qoşunları tərəfindən böyük bir qüvayi-əsgəriyyə ilə təhkim edilərək [möhkəmləndirilərək], Amur nəhri ətrafında yaponlarla müsadimədə [toqquşmada] bulunmuşlardır.

**Sileziyada**

Lion - Sileziyada kömür məhsulu iqa edil[mə]sə [istehsal edilməsə], Mərkəzi Avropa dəmiryolları 10 gündən sonra hərəkətdən qalacaqdır.

Almaniya Hökuməti tərəfindən icra edilən hədsiz fəhlə həbsləri və qulluqdan ixrac edilmələri Sileziyada ümumi tətili intac etmişdir [əmələ gətirmişdir]. Ağustosun 21-dən üsyan hərəkətləri şiddətlənmədədir. Nemeslərə qarşı lehlər [polyaklar] doğru bir müharibə açmışlardır. Nemeslərin tədabiri-şədidə [şiddətli tədbirlər] qullanmalarından lehlər qaçaraq kəndiləri ilə nemsə zirehlilərini də Lehistana [Polşaya] aparlrlar.

**İngiltərə kömürünün müqəddəratı**

İngiltərə mətbuatı vəziyyəti-hazirədən nəhayət müztərib [narahat] olmuş, qazğılarda tətilçilərin ədədi hər dəqiqə artmadadır. Hökumət dəmiryol hərəkatı, qaz və elektrik istemalını [istifadəsini] məhdud qılmaq üçün tədabir ittixaz etmədədir [tədbirlər görməktədir]. Tətilçilərin yerinə maryaklar qonulurlar. Övza [vəziyyət] kəskinləşmədədir.

**Xorvatiyada üsyan**

Xorvatiyada üsyan qalxmışdır. Kəndlilər deputatı Radek məqtul edilmişdir [öldürülmüşdür]. Ordu mütəfərriq olmuş [parçalanmış], intizam düşmüş, saldatlar öz mövqelərini buraxaraq zabitlərin poqonlarını qırırlar. Bütün dəmiryolları, telefon və teleqraflar üsyançılar tərəfindən zəbt edilmişdir. Dürlü şəhərlərdən xəbər verirlər ki, Xorvat saldatları Xorvat Cümhuriyyəti istiqlalını elan etmişlərdir.

**İtalyanlar və Rusiya**

Bolqar qəzetələrinin xəbərinə görə, Rusiyada olan İtaliya qoşunları tez zamanda geri çağırılacaqlardır.

**Hərbi əməliyyat**

Moskva - Pskov üzərinə hücumumuz davam edir. Qırmızı əsgərlər şəhərin 5 çağırımlığındadırlar. Biz yenidən İzborskun cənub-şərq tərəfində hücuma keçərək Jitomiri işğal etmişik. Petlyuraçılar Fastov və Ağkilsəni zəbt etmişlərdir. Qırmızı ordu hücumları cənub və şərq cəbhələrində şiddətlə tövsiyi-dairə etmədədir [genişlənməkdədir].

*(Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Bolşeviklərə qarşı fitva**

Londondan xəbər verirlər ki, Qahirədən yetişən məlumata görə, ora baş

müftisi bir fitva verərək hamı müsəlmanları bolşeviklərlə mübarizə etmək üçün dəvət edir.

**Yaponiya və Xita**

Londondan xəbər verirlər ki, Yaponiya Xariciyyə vəziri Baron Uşida bəyan etmişdir ki, Yaponiya Parlamanı Versal müahidənaməsini [sazişini] qəbul və imza etcək bütün Kiao-Çao torpağını Xitaya [Çinə] qaytarmağı Yaponiya dövləti qət etmişdir. Və əlavə Şandunda Xitanın bəzi torpaq ixtiyaratını da qəbul etməyə Yaponiya dövləti hazırdır.

**Cəmahiri-Müttəfiqə ordusu**

Londondan xəbər verirlər ki, sülh zamanı 500 min nəfərdən ibarət ordu saxlamaq və 19 yaşlarında dəliqanlılara üç aylıq hərbi təlimat verərək müddəti-əsgəriyyənin iki sənə vaxt yapılması üçün Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] Konqresinin səvabdidinə [təsdiqinə] qanun layihəsi idxal edilmişdir.

**Bolqar komitəçiləri**

Bolqar komitəçiləri Ristovat[s] dəmiryol körpüsünü partladaraq Serbiya ilə Selanik [Saloniki] müxaribəsini qət etmişlərdir [rabitəsini kəsmişlər].

**Şah Prinkipoda**

İran şahı Prinkipoda iqamət edən [yaşayan] atasının yanında bir neçə gün qalacaqdır.

**Meksika müharibə qarşısında**

Meksika övzası [hadisələri] öylə bir vəziyyət almışdır ki, hər dəqiqə müharibə zühur edə biləcəyi mümkünatdandır.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Parisdən teleqraf edirlər ki, Ali Şura bitərəf məmləkətlər nümayəndələrindən bir müşavirə məclisi dəvət etməyi təhti-qərara almışdır.

Müşavirədə müzakirə ediləcək məsələlər bunlar olacaqdır:

Almaniya ilə Rusiyanı ayırmaq hansı bir ölçüdə mümkün olacaqdır və əlavə onların Rusiya ilə ticarəti əlaqələrində təhdid nəzərə alınmaq üçün düsturüləməllər [təlimatnamələr] veriləcəkmidir?

Konfrans işlərini saxlayan o olmuşdur ki, Rusiya ilə Müttəfiqlər arasında müharibə vəziyyəti olduğunu qəbul etmədən Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] dövləti imtina edib, Rusiya mühasirəsində iştirak etməyəcəklərini və həmçinin bolşeviklərə qarşı mübarizə etmək üçün heç bir dürlü kömək etməyəcəklərini bildirmişdir.

**Bolqar mürəxxəslərinin notası**

Bolqar mürəxxəsləri [nümayəndələri] Sülh Konfransına iki nota vermişlərdir. Notanın birində başqa xırda dövlətlər içində qorxu icad edən Bolqariya xüsusunda və ortaya çıxmış rəylərə qarşı etiraz edilərək, ikincisində də Sofiyada iğtişaş olduğunu intişar edən [yayan] agent xəbərlərinə qarşı protesto olunur.

**Almanların notası**

Parisdən xəbər verirlər ki, cümə axşamı baron fon Lersner Xaric[iyy]ə vəzirinə üç nota vermişdir. Əvvəlincisi, Müttəfiqlərin "qara lövhə"ni məhv etmələrinə irtibat edərkən, ikincisi Nemsə gəmilərinin məsuliyyətindən bəhslə, üçüncüsü də Fransa istila qoşunları tərəfindən zəbt edilmiş Almaniya torpaqlarına, iqtisadi heyət tərəfindən Almaniya ticarətgahlarına qarşı görülən tədbirlərə protesto notasıdır.

**Alman müstəmləkələri**

Vaşinqtondan xəbər verirlər ki, Ağ Evdə olan konfransda Vilson bəyan etmişdir ki, sülh müahidənaməsi mövcibincə [sülh sazişinə əsasən] Almaniya bu gün müstəmləkələri ixtiyaratından vaz keçərək onları Müttəfiqlər mənafeyinə tərk edir. Bu o deməkdir ki, o yerlər Müttəfiqlərin ancaq qəyyumluğu altına keçirlər. O müstəmləkələri idarə etmək və qəti olaraq müqəddəratını həll etmək məsələsinə getdikdə, Vilson söyləmişdir ki:

*"Nemsə müstəmləkələri xüsusunda müvəqqəti bir saziş hüsula gəlmişdir. Ancaq, o saziş Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti], Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] tərəfindən təsvib [təsdiq] edildikdən sonra gərək gücə minsin."*

Vilsona ancaq Afrikada olan nemsə müstəmləkələri xüsusunda Fransa ilə Velikobritaniya dövlətləri arasında edilən etilaf [razılaşma] məlumdur.

**Balkanlar məsələsi**

Müttəfiqlərlə Bolqarlar arasında sülh müahidənaməsi imza edilcək, Venizelos iki həftə vaxta Londona əzimət edəcəkdir [gedəcəkdir]. Atinada [Afinada] güman edirlər ki, Sülh Konfransı Bolqariyaya artıq mərhəmətlər qılmadadır. Söyləyirlər ki, Ali Şura Amerikanın rəyi ilə razılaşarsa, bir səhv etmiş olacaq və nəticədə də Frakiyada inqilab başlanacaqdır. Amerika müdaxiləsini yunanlar kəndiləri və başqa Balkan hökumətləri üçün təhqir hesab edirlər.

**Aland adalarının bitərəfliyi**

Londondan xəbər verirlər ki, Sülh Konfransının Baltik Komissiyası Aland adalarının müvəqqəti də olsa, Cəmiyyəti-Əqvam kontrolu altına alınıb bitərəf məntəqə halına salınmasının lazım olması rəyindədirlər.

## TÜRKİYƏDƏ

Türkiyənin şimdiki halına bələd olan bir nəfər səlahiyyətdar şəxsin söylədiyinə görə, türklərin guya Zaqafqaziyaya hücum edəcəklər[i] şayiəsi bilmərrə yalandır.

Hal-hazırda Türkiyənin halı Rusiyanın halı kimidir. Başqa-başqa vilayətlər kəndisinin istiqlalına çalışarkən, mərkəzi hökumətə təbəiyyət etməyirlər [tabe olmayırlar].

Məsələn, İzmirdə Yunanıstan hökuməti əleyhinə və Ərzurumda isə Böyük Ermənistan təşkil etməsi ilə Türkiyənin parçalanması əleyhinə mübarizə edirlər. İstanbuldan Türkiyə zabitanı və hamı ziyalıları gedib də Anadoluya cəm olaraq,

Türkiyənin başqa bir hökumətin himayəsi altında olması əleyhinə təbliğatdadırlar.

Bir kəlmə, hal-hazırda Türkiyədə o ittifaq və mərkəziyyət yoxdur ki, yeni böyük bir işə iqdam edə [addım ata] bilsin.

Bundan maəda [bundan başqa], Şərqi Anadolu qoşununun başında ən əvvəldən Zaqafqaziyaya hücum etmək ziddinə olan [Hüseyn] Rauf bəydir.

Hərgah, indi Acarıstanda qoşun səfərbərliyi olarsa, bundan murad Batumu kəndisinə ilhaq etmək [birləşdirmək], nəinki Zaqafqaziyaya hücum etməkdir.

Acarlar Batumu kəndilərinin hesab etməyə görə, yəqin ingilislər oradan gedəndən sonra bunu izhar edəcəklər.

**Ənvər paşa nərədədir?**

Ənvər paşa xüsusunda olan hamı şayiələr ki, guya Ənvər paşa Mavərayi-Bəhri-Xəzərdə [Zakaspiyskdə] olub bolşevik qoşunlarının başındadır, tamamilə yalandır. Yəqin Ənvər paşa əlan [indi] Germaniya və ya Hollandadır.

## HEYƏTİ-MÜRƏXXƏSƏMİZ

*(Azərbaycan Heyəti-mürəxxəsəsinin irsal qıldığı təqrirdən)*

*(mabəd)*

19-31 mayıs 1919 sənə. Paris.

**Nota**

Sülh Konfransı rəisi Həzrətlərinə!

Bütün Paris mətbuatında nəşr edildiyi üzrə admiral Kolçak hökumətinin süqut etmiş Rusiya imperatorluğu torpaqlarında Rusiya Hökuməti kimi bərpa və təsdiq edilməsi ehtimalı xəbəri sabiq Rusiya dövlətindən ayrılmış vilayətlər sırasında Qafqaziya Azərbaycanının da mənafeyi-həyatiyyəsinə ən qatı tərzdə toxunduğu üçün Azərbaycan heyəti-mürəxxəsəsini müvəzzəf edir [vəzifələndirir] ki, Sülh Konfransı qarşısında aşağıdakı bəyanatla iqdamatda bulunsun:

Çar hökumətini əvəz etmiş Hökuməti-Müvəqqətə qovulub Rusiya ali sultasının zimamı [ali hökumətinin cilovu] 1917-ci sənə təşrini-əvvəlində (oktyabr) qasib [qəsbkar] bolşeviklər əlinə keçdikdən sonra Azərbaycan, başqa Qafqazya millətləri gürcü və ermənilərlə birlikdə Mərkəzi Rusiyadan ayrılaraq kəndi hökumətlərini təsis etdilər.

Bütün Zaqafqaziya üçün şər'i [qanuni] və nüfuzlu olan şu hökumət tam müstəqil olaraq 1918-ci sənə mayısına qədər səri-karda [iş başında] bulunmuşdur.

Bütün Mərkəzi Rusiyanı qarışdıraraq gündən-günə güclənmədə olan bolşevizm tövsiyi-dairə edərək [əhatə dairəsini genişləndirərək], o cümlədən Zaqafqaziyanı da əhatə qılmağa başlamışdır. Zaqafqaziyada başlanan bolşevizm hərəkətlərinin ən müdhiş zərbələri də, onun müxrib [dağıdıcı] nəticələri ancaq Azərbaycan üzərinə yağdırılmışdır.

1918-ci sənə mayısından bida ilə [başlayaraq] həman sənə eylülünə [sentyabrına] qədər Azərbaycan paytaxtı olan Bakı şəhəri, onun mədən dairələri ilə və həmçinin Bakı, Şamaxı, Quba, Cavad, Göyçay, Lənkəran qəzaları bolşevik Qır-

mızı ordusu tərəfindən işğal edilib, qətl, talan, yanğın və başqa min dürlü bağları, evləri bərbad edib abadiləri bərhəva etmək [abadlıqları məhv etmək] kimi təsviri naqabil cinayətlər, vəhşətlər və dəhşətlər icra edilmişdir.

Martın 18-dən 22-nə qədər az bir vaxt içində yalnızca Bakıda 12 min müsəlman gərək bolşeviklərin, gərəksə milli ədavətləri həsəbi [səbəbi] ilə müsəlmanlarla hesablaşmaq istəyən, bolşevik bayrağı altında icrayi-vəhşət edənlərin fədayi-cinayətkaranələri olmuşdur. Həman cinayətkarların iştirak və ittifaqı ilə onlarca yerlə yeksan edilən müsəlman köyləri sırasında Azərbaycanın ən qədim şəhərlərindən mədud edilən [sayılan] Şirvan şəhəri dəxi büsbütün təhriq edilərək bərhəva qılınmışdır [yandırılaraq məhv edilmişdir].

Azərbaycanı təzyiq edən bolşeviklərə qarşı durmağı bacarammayan Zaqafqaziya Hökumətinin əcz və qüvvəsizliyi və dolayısı ilə hökuməti-məzkurənin [adı çəkilən hökumətin] süqut etməsi nəticəsi olaraq Azərbaycan kəndi başına buraxılmış idi.

Böylə bir çıxılmaz vəziyyətə məruz qalan Qafqaziya Azərbaycanı erməni və gürcülər kimi, Rusiya hökmranlığı zamanlarının sabiq vilayətləri olan Bakı, Gəncə vilayətləri, Zaqatala nahiyəsi və Tiflis, İrəvan və Dağıstan vilayətləri hissələrindən 100 min mürəbbe kilometrə [kvadrat kilometr] təxmin edilə bilib və 4 milyondan ziyadə nüfusa malik bir dairədə cümhuriyyətini təsis etmiş və Azərbaycan Milli Şurasının qərarı ilə 1918-ci sənə mayısın 28-də kəndi istiqlalını elan etmişdir.

Yeni Cümhuriyyətin əvvəlinci işi bu olmuşdur ki, kəndi torpaqlarını, xüsusən paytaxtı olan Bakı şəhərini bolşeviklərdən xilas etmək üçün təşəbbüsati-əzmkaranəyə sarılsın.

Və şu əzmkarlığı sayəsində Azərbaycan Cümhuriyyəti bolşeviklərlə imtidad [davam] edən 6 aylıq qanlı mübarizəni müvəffəqiyyətlə xitama yetirmiş və eylül ayında Bakı şəhərini və yuxarıda məzkur [deyilən] qəzaları bolşeviklərdən təmizləmişdir.

Şu, Azərbaycan xalqı üçün insanca bir çox qurbanlara və böyük maddi zərərlərə bais olmuş mübarizə Qafqaziya Azərbaycan əhalisini öz hüququnu müdafiə edərək ancaq müstəqil Azərbaycan Cümhuriyyətini və Azərbaycan Parlamento və Hökumətini tanımaq işlərində bərkitmiş və qəti olaraq inandırmışdır ki, tarix və həyatın isbat qıldığı üzrə hər dürlü başqa hökumət onların ruh və əxlaqının tərcümanı olmayıb (necə ki, 100 sənəlik rus hökuməti dövründə görmüşlər) zərərli nəticələri mövcib olduğu [doğurduğu] üçün qeyri-məqbuldur.

Anifüzzikr [yuxarıdakı] mülahizata nəzərən, Azərbaycan heyəti-mürəxxəsəsi güman edir ki, sabiq Rusiyanın nümayəndəsi kim tanınacaq[s]a və şu məsələdə nə yollu qət və qərar çıxarılacaqsa çıxarılsın, Qafqaziya Azərbaycanı gələcək Rusiya dövləti torpaqlarından kənarda qalaraq heç bir təriqlə [heç bir halda] şu torpaqlardan sanılmasın gərək.

*Azərbaycan*
*Heyəti-mürəxxəsəsi sədri*
*(imza Əlimərdan bəy Topçubaşov)*
*(yenə var)*

## MƏTBUAT

### Ermənistan hadisələri və onun əhəmiyyəti

"Znamya revolyutsii" qəzetəsi şu sərlövhə ilə yazdığı məqaləsində Ermənistan hadisatını ümum türk-islam və daha geniş Şərq-asiyalılıq hərəkətinin bir başlanğıcı kimi təsvir edərək yazır ki:

*"Ermənistandan gəlmiş axırıncı xəbərlərdən anlaşılır ki, orada meydangir olmuş hadisələr xitama yetişmədə olmayıb, bərəks [əksinə], gündən-günə artmada və təqviyə bulmadadır [güclənməkdədir]. Bütün məmləkət bir qan ocağına mübəddəl olub [çevrilib], erməni nizami qoşunları cümhuriyyətin müsəlmanlarla məskun tərəflərində tatar əşqiyası (?!), kürd süvariləri və şimdi də türk qitəatı [hərbi hissələri] ilə müttəsil [daim] vuruşmadadır.*

*Axırıncı sənələr zərfində Zaqafqaziya millətləri arasında böyük müsadimələr [toqquşmalar] vaqe olduğunu görmüşdünüz. Fəqət, Ermənistanı qaplamış şimdiki hadisələr ölçü və əndazəni atlayaraq beynəlmiləl bir rəng və surət almadadır.*

*Cahan müharibəsinin gözəçarpan nəticələrindən biri bütün aləmi-islamın istinadgahı olan Osmanlı dövlətinin bərbad edilməsi olmuşdur. Türkiyə səri-karında [iş başında] olan ricali-dövlətin [dövlət adamlarının] düşüncələri xüsusi bir məhəl [yer] və dövlət dairəsində məhdud qalmayıb, islam aləminin həpsinə şamil olur. Sülh Konfransına verilən Türkiyə mürəxxəsləri müxtirəsində göstərilən xüsusi bir təsəvvürdə bütün cahan müvazineyi-ədyanı [bütün dünya dinlərinin tarazlığı] üçün Osmanlı dövlətinin saxlanılması lazım olduğu söylənilir.*

*Hərçənd qalib dövlətlər diplomatları "İstanbulda məqərri-hökumətin [hökumət mərkəzinin] yeni tarixi ərbabi-məfkurə [məfkurə sahibi] olan cümlə müsəlmanlar üçün nə sürur [sevinc] və nə də iftixar mənbəyi olammayacağını" sübuta çalışırlarsa da, fəqət əmri-vaqe [fakt] büsbütün əksini iraə edir [göstərir].*

*Türkiyə mürəxxəsləri Sülh Konfransında da bu vaxta kimi heç bir nəticəyə nail olammamışlar. Türkiyə məsələsi hələlik müəlləq [havada asılı] olaraq qalır. Ancaq zahirdə görülən bir şey varsa, o da budur ki, hərgah fövqəladə hadisələr şimdiki sülh vəziyyətini başqa qəlibə ifrağ etməzsə [başqa qəlibə salmazsa], Türkiyə dövləti Şərqdə əhəmiyyəti haiz [əhəmiyyət daşıyan] bir rol oynamadan uzun müddət məhrum edilmişdir.*

*Daxilən məğlub edilmiş Osmanlı dövləti və onun hədsiz agentləri müsəlmanların dini təəssüblərini qaşıyaraq müsəlmanlarla məskun nöqtələrdə bütün mövcudiyyətləri ilə çalışmada, işləmədədirlər. Müharibə siyasət və iqtisadca geridə qalmış millətləri hərəkətə gətirdi və onları müstəmləkə* siya*sətləri üçün alət qullanan qalib Avropa imperializmi əfkarına qarşı təbliğatda bulunmaq üçün meydan açdı. İştə, həman hər yerdə işə başlanıb müstəmləkələrdə görünən xalq hərəkətləri bizim məsrudatımızı təyid etmədədir [meydana atdığımız fikirləri təsdiqləməkdədir].*

*Əfqanıstanda İngiltərə hökumət dairələrini ciddi əndişələrə salmış müsəlman hərəkətləri başlanmış, Türkiyədə dəxi həman həyəcan əlamətləri görünmədədir. Zaqafqaziya övzası [halı] dəxi həyəcanlıdır. Müsəlmanları qaldırmaq*

*yolunda işləyən ittihadi-islam [islam birliyi] agentləri ilə birlikdə bolşeviklər dəxi digər təriqlə [başqa yolla] fəaliyyətdə bulunmadadır.*

*İqtisad və mədəniyyətcə geridə qalmış millətlər bolşevik fikirlərinin ən gözəl xadimi və arxasıdırlar. Onlar imperializmlə mübarizə etmək üçün gözəl bir müttəfiqdirlər. Xita [Çin], Hindustan və Türkiyədə Şərq əhalisinə məxsus təəssüb ilə uyğunlaşan bolşevik fikirləri intişar bulmada [yayılmada] və təbliğat icra edilmədədir. Qərbə qarşı cihad şəşəələri [parıltıları] asimanda pərtöv-əndaz olmadadır [bərq vurmaqdadır].*

*Asiya, Afrika, Hindustan və Xita müsəlmanları – dünyanın şu qəhhar [qəhredici, qüdrətli] qüvvələri bir dəfə cünbüşə gəldilərmi, böyük hərəkətlərlə Avropa dövlətlərini qanlı müharibələr əmri-vaqesi [faktı] qarşısına vəz edəcəklərdir [qoyacaqlar].*

*Hərgah bütün Ermənistanda zühur edən hadisələri nəzəri-tədqiqdən keçirsək, anlarız ki, bu adi bir erməni-müsəlman qırğını olmayıb, cahanşümul bir əhəmiyyəti haizdir. Bu gün Ermənistan üzərinə yağdırılan qiyam etmiş müsəlmanlığın qanlı zərbələri, yarın dərin və mütəşəkkil bir surət alaraq din və bolşevik bayraqları altında geniş və cahanşümul bir dairə tutacaq və tarixdə yeni səhifələr açacaqdır.*

*Şərq oyanmışdır, qanlı müharibə ilə Qərbə qarşı gedir.*

*Bolşevizm dəxi geridə qalmış millətlərlə birlikdə Avropa imperializminə qarşı axırıncı vuruşmasını edir. O, qələbə edəcəkmidir, ya etməyəcəkdir? Biz ancaq yeni bir cahanşümul tarixi vüquat qarşısında dururuz."*

## AZƏRBAYCAN BAYRAĞINA

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yaprağı!
Göy yarpaqlar, al çiçəklər, yaşıl otlar topasımı?
Xayır, xayır! Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yıldızlardan, hilaldan da yüksəklərdən fırlanır.

Kölgəsində ay əyilib bir gözəli qucmada,
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada.
Şu görünüş bir ananın şəfqətinə oxşayor,
Düşündükcə duyğularmı, vicdanımı oxşayor.

Bu ay-yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək:
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yıldız da səkkiz hərfli "Od Yurdu"
Əsarətin gecəsindən fürsət bulmuş quş kimi,
Səhərlərə uçmuşdur.
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağa intiqal,
Birər-birər doğru olmuş, bir ad almış – istiqlal!
Ürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın!

*Cəfər Cabbarzadə*

## MÜƏLLİMLƏR QURULTAYI

*Yeddinci iclas*

Avqustun 25-də axşam saat 4-də 17 nümayəndənin iştirakı ilə məclis açılır.

1) Mahmud bəy Mahmudbəyzadənin pəncşənbə [cümə axşamı] günü saat 7-də əlifba tədrisi xüsusda və kəza Axundzadə İdris əfəndinin hökumət xüsusunda oxuyacaqları məruzənin dinləməsinə qərar verilir.

2) Məramnamənin məqsədinin müzakirəsinə keçilir. İkinci maddə "hüquq" kəlməsinin əlavəsi "edilmək" kəlməsinin yerinə "etmək" vəzi ilə [qoyulmasıyla] qəbul olunur.

3) Üçüncü maddədən "müəllimlərin hüquqlarını müdafiə etmək" cümləsi qaldırılır.

4) Bu maddənin qeydi də "lüzumu təqdirində" sözünün əlavəsi ilə qəbul olunur.

5) Dördüncü maddə dəyişdirilərək "xalqın tərbiyeyi-fikriyyə, mədəniyyə, əxlaqiyyə və ictimaiyyəsinə və bir də xalq arasında demokratizm fikrinin yapılmasına çalışır" surətinə qoyulur.

6) 5, 6, 7, 8, 9-cu maddələr qəbul olunur. Bu maddəni Qulammirzə bəy [Qasımbəyzadə], Əliməhəmməd və Məhəmmədəli Xəlifəzadələr qəbul etmədiklərinin təsrihlərini [açıqlamasını] tələb etdiklərindən, tələbləri qəbul olunur.

7) İttifaqın fəaliyyətinə keçilir. Burada 1, 2, 3, 4 (darüleytam qaldırılmaq şərti ilə), 8, 9 (maarif qeydi qaldırılmaq şərti ilə), 12, 13, 14, 15-ci maddələr qəbul olunur.

8) Dördüncü, 5, 12, 14 maddələrin bir maddə halında söylənməsinə qərar verilir.

9) 17-ci maddə əlavə olunur (mütəallim [şagird] və tərbiyə işlərində zərərli olan hərəkətlərə qarşı mübarizə etmək).

10) Maliyyə Komisyonunun smetası qəbul olunur. Heyəti-rəyasətə ixtiyar verilir ki, hökumətə müraciət edərək smetada müəyyən olan məbləği alsın.

11) Bundan sonra qurultayın iki dəfə toplanmasına qərar verilir. Birinci iclas saat 10-dan 12-yə qədər, ikinci iclas axşam saat 4-dən 7-yə qədər davam edəcəkdir.

Səadət mədrəsəsi tərəfindən bir məktub göndərilib qurultay təbrik edilir.

Məclis saat 9-da qapanır.

*Səkkizinci iclas*

Məclis avqustun 26-da səhər saat 11-də açılır. Mədrəseyi-Səadətdən gələn təbrik teleqrafı oxunur:

*"Hürriyyətin səmərəsi olaraq keçmiş təzyiqlərdən sonra, əlhəmdüllah, kəndi vətənimiz Azərbaycanda rifah və səadətimizin tərəqqi və təalisinə [ucalmasına] ən birinci səbəb olan Azərbaycan-türk müəllimlərinin qurultayını səmimi-qəlbdən təbrik edərək, müəllim arxadaşlarımızın müvəffəqiyyətini diləyirik."*

Müzakirəyə keçilir.

1) Əsgərzadə müavini-katib seçilir.

2) İttifaqın fəaliyyəti haqqında olan maddələrə "İttifaq müəllimlər üçün kooperativ açır" maddəsi əlavə olunur.

3) İttifaqın təşkilati maddələrinin müzakirəsinə keçilir; birinci maddə ləğv olunur.

4) İkinci maddə "Hər qəza mərkəzində qəza şöbəsi təşkil olunur" surətinə soxulur.

5) İkinci maddə qəbul olunur. Bu maddədən istintaq edən Xəlifəzadə, Hüseynqulu, Soltan bəy, Əhmədağa istintaqlarının qeydini tələb edirlər.

6) 5, 6, 7, 8, 9-cu maddələr qəbul olunur. Buraya "İttifaqın məsləkinə müxalif hərəkətindən dolayı bir əza [üzv] İttifaqdan çıxarıldıqda, iclasi-ümuminin əksəriyyətinin səs verməsi şərtdir - 1" qeydi əlavə olunur.

7) Nümayəndələr Şurası təşkili haqqındakı maddələrə keçilir. Birinci maddə "Hər sənə Mərkəzi Büro qəza şöbələrindən müsavi ədəddə olmaq şərtli ilə istədiyi miqdarda nümayəndə dəvət edərək Nümayəndələr Şurasını təşkil edir" səyaqına qonulur.

8. İclas saat 1-in yarısında qapanır.

*Doqquzuncu iclas*

Avqustun 26-da axşam saat 5-də məclis açılır. Növbədəki məsələ, məramnamənin Nümayəndələr Şurası olduğuna görə, söz Məramnamə Komisyonuna verilir. Məramnamənin bu hissəsinə aid maddələr oxunaraq müzakirə başlanır.

1) İkinci maddəyə "bir katib müavini" də əlavə olunaraq qəbul olunur.

2) 3, 4 və 5-ci maddələr qəbul olunur.

3) Nümayəndələr Şurası fəslindən sonra "Heyəti-idarə" fəslinə keçilir. Birinci maddə "öz aralarından" sözünü qaldırmaq şərti ilə qəbul olunur.

4) İkinci maddə "Heyəti-idarə sədri özü seçir" surətində qəbul olunur.

5) İkinci maddəyə "Şura Heyəti-idarəyə üç dənə namizəd intixab edir" sözləri əlavə olunur.

6) 3, 4 və 5-ci maddələr qəbul olunur.

7) 2, 3 ləğv, 4 və 5-ci maddələr qəbul olunur.

8) Seksiyalar haqqında müzakirəyə keçilir. Birinci maddə "Müxtəlif millətlərin məktəblərinə aid məsələləri həll üçün İttifaqın seksiyaları olacaqdır." şəklində qəbul olunur.

9) 2, 3, 4-cü maddələr qəbul olunur.

10) Varidat fəslinə keçilir. Birinci maddə "İttifaqın bankada məhfuz 2 qisim sərmayəsi olacaqdır: birisi ehtiyat, birisi dövriyyə. Ehtiyat aqçası bankada mühafizə olunacaqdır. Dövriyyə hesabati-cariyyədə bulunacaqdır." səyaqında qəbul olunur.

11) 4 və 5-ci maddələr qəbul olunur.

12) Aşağıdakı maddələr də Varidat fəslinə əlavə edilir:

b) Şöbə və seksiyalar varidatının 20 faizini Mərkəzi İdarəyə verəcəkdir.

v) Mərkəzin varidatının 20 faizi ehtiyat aqçası olacaqdır.

h) Hər əzadan düxuliyyə [daxil olmaq haqqı] 5 manat, aylıq üzv haqqı maaşının 1 faizi alınacaqdır.

## BAKI XƏBƏRLƏRİ

**Valideyn nəzəri-diqqətinə**

İbtidai məktəbləri itmam etmiş [bitirmiş] müsəlman çocuqları Bakı Birinci Ali ibtidai məktəbin birinci sinfinə imtahansız qəbul olunurlar. Məktəbdə kursun ümum məlumatından başqa, Fransa və alman dili də tədris edilirlər. Şu aliibtidai məktəbi itmam etdikdə, Mütəallimlər Gimnaziyasının 5-ci sinfinə imtahansız qəbul olunacaqdırlar. Həmçinin, buranı itmam edənlər hərbi məktəbə, sənət məktəbinə və sair edadi məktəblərə qəbul olunacaqdırlar. Həqqitədris ildə 50 manatdır.

Adres: Şamaxı yolunda, Üçüncü Paralelnı küçə, nömrə 47. Birinci Ali dördsinifli məktəb.

**Yeni qubernator**

Bakıya Hökumət Mühafizə Komitəsi rəisi Əmir bəy Nərimanbəyov qubernator təyin olunmuşdur.

**Erməni nümayəndəsi**

Üç gün əqdəm [qabaq] Qarabağdan erməni camaatı nümayəndələri Bakıya varid olub [gəlib] rəis Yusifbəyli Nəsib bəy həzrətlərinin hüzurlarına getmişlərdir. Nümayəndələr Qarabağ məsələsinin sülhlə bitməsi ilə arzularına nail olmalarını hamı Qarabağ erməniləri tərəfindən izhari-təşəkkür etmişlərdir.

**Lehistan konsulxanası**

S. Rılskinin Azərbaycanda Lehistan [Polşa] konsul acentəsi olmasını Azərbaycan Hökuməti qəbul etmişdir.

**Finlanda səfiri**

Polkovnik Birqvistin Bakıda Finlanda Xariciyyə Nəzarəti vəkili olmasını Azərbaycan Hökuməti qəbul etmişdir. Məzkura [adı çəkilən şəxsə] Finlanda Hökuməti Azərbaycanda sükunət edən finlandalıların maddi və mənəvi mənafeyini mühafizə etməyi mühəvvəl etmişdir [tapşırmışdır].

**Qubernatorun hökmü**

Bakı qubernatoru qəza qaimməqamlarına [qəza rəislərinə] əmr etmişdir ki, təhti-idarələrində [tabeçiliklərində] olan qəzalarda cinayətlərin azalmasına, açılmasına və camaata əziyyət edən əşxasın [şəxslərin] fövrən [dərhal] həbs edilməsinə son dərəcə diqqət versinlər.

**Darülfünunun açılması**

Bakıda şu 1919 ilin sentyabr ayının əvvəlindən etibarən Darülfünun açılması qanun layihəsi qəbul olan kimi, Darülfünun Komissiyası bu günlərdə Darülfününa daxil olmaq istəyənlərin ərizələrini qəbul etməyi qət etmişdir [qərara almışdır]. Dərslərə sentyabrın əvvəllərində şüru olunacağı [başlanacağı] gözlənilir.

**Qətl**

Avqustun 23-də axşam saat 5-də Qala kəndində 60 sinnində [yaşında] Leyla Məhəmmədhəsən qızını yatdığı zaman naməlum bədəfkar [cani] güllə ilə öldürmüşdür.

**Soyğuntu və atışma**

Dünən Mixaylovski küçədə 3 nəfər naməlum bədəfkar [cani], içində böyük məbləğ pul olan çanta aparan bir naməlum rusun üstünə hücum edib, çantanı alıb, birisi Olqinski küçəyə və ikisi də Sisyanovski küçəyə qaçmışdırlar. Çantanı Olqinski küçəyə gedən aparmışdır. Gizlənmək istərkən məzkuru [deyilən şəxsi] polis qarovulu Ələkbər Məhəmməd oğlu görüb təqib etmişdir. Bunu gördükdə bədəfkar faytona sıçrayıb ətrafa güllə ata-ata faytonu Merkuryevski küçəyə döndərmişdir. Bu halda milisionerin yardımına okolodoçnı [polis sahə rəisi] Məhəmmədhəsən Babayev gəlib faytonu piyada təqib etmişdir. Beşinci polis hissəsinə çatmamış faytonu saxladıb bədəfkarı çanta ilə belə tutmuşdur. Həmin əsnada Sisyanovski küçədə də, oraya

qaçan iki nəfər də, yüngül surətdə yaralandıqdan sonra tutulumuşdurlar. Soyğunçuları həbsxanaya göndərib çantanı sahibinə vermişlərdir. Atışmadakı iki nəfər kənar adam yaralanmışdır.

**Posta markası**

Hal-hazırda posta markaları kəsilməyə şüru olunmuşdur [başlanmışdır]. Markalar böylə olacaqdırlar:

Bəzilərinin üstündə İçərişəhərin şəkli olacaqdır. Bunlar üç rəng marka olacaqdır: qırmızısı 2 manatlıq, göy 5 manatlıq və yaşıl rəngli 10 manatlıqıdr.

Biçinçi şəkli olan markanın qırmızısı 60 qəpik, göy rəngi 1 manat və yaşıl rəngi 40 qəpiklikdir.

Üstündə əsgər şəkli olan markanın göy rəngi 10 qəpik və qırmızısı 20 qəpikdir.

Suraxanı şəkli marka 2 rəngdir: göy rəngi 25 manat və qırmızısı 50 manatdır.

**Məclisi-Müəssisan Mərkəzi Komissiyasında intixab**

Azərbaycan Məclisi-Müəssisanına seçki hazırlayan Mərkəzi Komissiyasında sədrliyə M. Ə. Rəsulzadə, katib Mustafa Vəkilov, müavini-sədr Əhməd Cövdət bəy və xəzinədarlığa Heybətqulu Məhəmmədbəyov intixab edilmişdir [seçilmişdir]. Axırıncı iclasda şu komissiya kəndisindən yeni bir komissiya ayıraraq Ş. Rüstəmbəyovu, Malxazyanı və Məhəmmədbəyovu intixab edib Azərbaycanda Məclisi-Müəssisan seçkisi üçün düsturüləməl [nizamnamə] hazır etməsini şu komissiyaya vagüzar etmişdir [tapşırmışdır].

**Birja**

Birjanın halı ölü kimidir. Heç bir nəfər də alıcı və satıcı olmadığından, möhtəkirlər çox məyusdurlar. Qiymət gündəngünə tənəzzül etməkdədir və yəqin də, çox yaxın vaxtlarda Nikolay pulunun qiyməti Azərbaycan parasının qiyməti ilə bərabərləşə. Mal adi surətdə gəlməkdədir. Qiymət hərçənd hələ yuxarı isə də, keyfiyyət-kəmiyyətcə gözəlləşməkdədir.

**Təshih [düzəliş]**

Qəzetəmizin keçən nömrələrinin birisində ingilislər getmələri münasibətilə Bakı cəmiyyəti-xeyriyyələrinə verdikləri ianə haqqında məlumat vermişdik. Göstərilən rəqəmlərdə səhv olmağa görə, Bakı Cəmiyyəti-Xeyriyyə[si] tərəfindən onu təshih etmək idarəmizdən xahiş olunmuşdur. İngilislər Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə verdikləri ianə 320 min manat olmayıb da 294 min 25 manat 34 qəpik imiş.

## YAŞIL QƏLƏM

Səşənbə [çərşənbə axşamı] günü ağustosun 26-da Parlaman binasının qiraətxanası salonunda ədib və mühərrirlərin [yazıçıların] iştirakı ilə təşkil edilməsi təsəvvür edilən ədəbi, elmi "Yaşıl qələm" cəmiyyətinin birinci müəssislər [təsisçilər] iclası vaqe oldu. İclasda 35 nəfərədək ədib və mühərrir iştirak edirdi.

İbtida [əvvəla] cəmiyyət müəssislərindən [qurucularından] Seyid Hüseyn Sadiq əfəndi iclası açdı. Sonra ümumiyyətlə sədarətə Hüseyn Sadiq, katibliyə Ağaoğlu Məhəmməd intixab edildi [seçildi].

Sonra sədr “Yaşıl qələm” cəmiyyətinin nə məqsədlə təşkil edildiyindən, nə kimi işlər görəcəyindən məlumat verərək müəssislər tərəfindən tərtib edilmiş Məramnamə və Nizamnaməni oxudular.

“Yaşıl qələm” cəmiyyətinin Məramnaməsi böylədir:

1) Cəmiyyətin məqsədi Azərbaycan xalqının fikrən yüksəlməsinə çalışmaq və Azərbaycan ədəbiyyatında müşahidə edilməkdə olan yeniliyi qüvvətləndirmək, onu türklüyə və sadələşməyə doğru sövq etməkdir. Cəmiyyət məqsədinə ərmək üçün:

a) Ədəbiyyatımızı təhlil və tarixi-ədəbiyyatımızı tərtib edəcək;

b) Yazıçılıq sənətini təşviq və tərğiblə [ona rəğbət qazandırmaqla], bu sənət həvəskarlarını və gənc mühərrirləri bir araya toplayacaq, onları ədəbi bir ailə halına vəz etməklə [gətirməklə], aralarında yazı müsabiqələri açacaq;

c) Ədəbiyyatımıza, ülum və fününa [elmlərə və fənlərə] aid konfranslar verəcək və referatlar tərtib edəcək;

d) Milli tariximizə və ənənatımıza aid əsərlərin toplanıb nəşrinə çalışacaq;

e) Nəşriyyata əhəmiyyət verəcək, ədəbi məcmuə və qəzetələr təsis edəcək;

f) Gənc qələmləri yeni ədəbiyyat üsulu ilə aşina edəcək, yeni fikirlərin onların arasında nəşvü-nümasına [bəslənib inkişaf etməsinə] səy edəcək;

g) Xalqımızın istifadəsini mövcib olan [istifadəsinə lazım gələn] və bizə aid əcnəbi lisanlarda yazılmış mühüm əsərlərin dilimizə nəql və tərcüməsinə çalışacaqdır.

Cəmiyyətin bu Məramnaməsi üstündə bir neçə natiq danışdıqdan sonra məclisdə iştirak edən möhtərəm şairlərimizdən Salman Mümtaz əfəndi itib - batmış türk lüğətlərinin bir araya toplanması üçün cəmiyyətin çalışmasını tövsiyə etməklə, bu xüsusda Məramnaməyə bir maddə əlavəsini təklif etdilər. Bunun lehinə və əleyhinə bir neçə natiqlər danışdıqdan sonra əksəriyyətiraylə [səs çoxluğuyla] böylə bir maddənin əlavə edilməsi qərara alındı:

h) Cəmiyyət itib-batmış türk lüğətlərinin toplanması üçün çalışacaqdır.

Nə məqsədlə cəmiyyətə “Yaşıl qələm” adı verildiyi sualına müəssislər tərəfindən böylə cavab verildi:

Cəmiyyətin məqsədi yeniliyə doğru getdiyindən dekadent bir ad qəbul etmişdir. Bu nöqteyi-nəzərdən “yaşıl” kəlməsi bir çox mənanı ifadə edir. Əvvəla, yaşıl baharı andırır, saniyən [ikincisi] yaşıl rəngi ümid və nicat işarələrini mütəzəmmindir [daxilində ehtiva edir]. Bunun üçün də, istiqlaliyətimizdən naşi [ötrü], ədəbiyyatımızda bir bahar mövsümü gələcəyini cəmiyyət öz adı ilə təbşir edir [müjdələyir].

Məclisin sonunda heyəti-idarə intixabına şüru edilib [başlanıb], bir səslə Hüseyn Sadiq, Ağaoğlu Məhəmməd, Əli Yusif, Məhəmmədzadə Mirzəbala, Hənəfi Zeynallı seçildilər.

Məclisdə hazır olanların bir qismi üzvlük haqqı verərək cəmiyyətə üzv yazıldılar. Əlavə olaraq möhtərəm Salman Mümtaz əfəndi cəmiyyətə hər xüsusda yardım edəcəyini vəd ilə bir 1000 manat da ianə verdilər.

Cəmiyyətin ikinci ümumi iclası bu həftənin axırında olacaqdır. Müvəffəqiyyət diləriz.

**AZƏRBAYCANDA**

**Qarabağda**
*(müxbirimizdən)*
*(mabəd)*

General-qubernator tərəfindən ayın 20-si bayram edildi. Küçələr xalı, gəbələrlə bəzənib, qarabağlıların ümumi bayramları yavuqlaşması hər yerdə hiss edilirdi.

Sabahı günü sübh tezdən erməni zurnaçı dəstələri böyük izdihamla müsəlman bazarına və meydana çıxıb ermənilər oynaya-oynaya şadlıq edirdilər. Bir neçə meydançalarda musiqi dəstələri də durub çalırdılar. Şəhərdə izdiham, kəsrət [çoxluq, qələbəlik], gediş-gəliş öylə bir tərzdə idi ki, Qarabağ heç bir bayramı böylə şənliklə keçirməmişdi.

Saat 9-da qubernatorun evinin qabağı camaatla dolmuşdu. Qubernator idarəsinə gəldiyi zaman camaat "Afərin, afərin, çox yaşa" sədası ilə onu istiqbal etdilər [qarşıladılar]. Bu arada şəhərin əyan-əşrafı idarəxanaya cəm olub heyəti-mürəxxəsəni [nümayəndə heyətini] gözləyirdilər. Saat 11 radələrində camaatın böyük "Sağ olsun qonşularımız, yaşasın qubernatorumuz!" sədaları ilə 20 kişidən ibarət olan erməni heyəti idarəyə gəldilər.

Məclisi genə qubernator cənabları öz nitqi ilə açdı. Sonra camaat namından bir deklarasiya tərtib verdiyini elan edib, heyəti-mürəxxəsənin sədrinə verdi.

Heyəti-mürəxxəsənin və həmçinin Yeddinci erməni ictimasının [yığıncağının] sədri İonesyan deklarasiyanı oxuyub, sonra heyəti-mürəxxəsənin ictima tərəfindən aldığı mandatı qubernatora təqdim etdikdən sonra sülhnamənin rəsmi surətdə imza edilməsini axşamkı iclasa qoyub, indilik küçələrdə on minlərlə cəm olub nigaran qalan camaatı təbrik üçün rəsmi nümayişə qərar qoydular. Bunun üçün general-qubernator öz məiyyəti və heyəti-mürəxxəsə və sair əyan-əşraf idarədən çıxıb Hürriyyət meydanına gəldilər.

Hürriyyət meydanında qoşun dəstəsi kamali-nizam və qayda ilə durub nümayişçiləri musiqi dəstəsi Azərbaycan marşı ilə istiqbal etdi [qarşıladı]. Qubernator həzrətləri salam deyib cavabını alandan sonra ümum əsgərlərə bir müxtəsər xitabda bulunub, bundan sonra hamı vətəndaşlar bir qardaş olub, hamının hüququ hökumət qarşısında müsavi olub və heç bir cəhətlə heç kəsə zülüm, sitəm olmayacağını bildirdi. Axırda "Yaşasın Azərbaycan Hökuməti, yaşasın Heyəti-vükəla" sözləri ilə nitq tamam oldu.

Böyük küçələr izdihamla o qədər məmlu [dolu] idi ki, hətta yol ilə getmək mümkün olmadığından erməni hissəsinə gedənlər aşağı küçə ilə getməyə məcbur oldular. Qabaqca qoşun hissəsi və sonra heyət erməni hissəsində Realnı məktəbinin qabağındakı meydançaya gəldilər. Burada kürsü qoyulub meydanın bir tərəfi qoşun və sair yerləri də əhali ilə tutulub, böyük bir cəlal ilə qabaqda heyəti-ruhani, qubernator, heyəti-mürəxxəsə və sair əyan-əşraf olduqları halda nitqlər başlandı.

Qabaqca Yeddinci erməni ictimasının sədri İonesyan rusca bir nitq irad etdi [nitq söylədi]. Məzkur [adı çəkilən şəxs], böyük Avropa müharibəsindən sonra yer üzündə nə tövr inqilablar olduğunu və bu inqilabların nəticəsi olaraq nə qədər bədbəxtliklər, xarabalıqlar, zülümlər olduğunu təzkarla [yada salmaqla], Qara-

bağın bu günə kimi binnisbə [nisbətən] salamat qaldığını göstərdi və Qarabağ məsələsinin Sülh Konfransında həll ediləcəyi cəhətlə, erməni və müsəlman arasında olan ixtilafın bilüzum [lazımsız] olduğunu və bu cəhətlə də Yeddinci syezdin rəyinə görə, Qarabağ ermənilərinin Sülh Konfransına kimi Azərbaycan təbəiyyətini [vətəndaşlığını] qəbul etməsini izhar etdi. İoanesyanın nitqi böyük şad alqışı ilə qurtardı.

Sonra qubernator divanxanası kargüzarı Mirzə Məhəmmədhəsən Mirzəcamalov türkcə bir nitq irad edərək əyyami-qədimdən bu Qarabağda müsəlmanlarla ermənilərin qonşuluqlarını və hətta nücəba [əsilzadələr] arasında ermənilərlə müsəlmanların biri-birilərinə qohum və qardaş olmalarını göstərib, hər iki milləti dostluğa və birliyə çağırdı.

Bədəhu [ondan sonra], ermənilərin baş rəisi-ruhaniləri Vağan ermənicə bir nitq irad etdi. Hər iki milləti sülh və müsalimətlə yaşamağa dəvət edib dedi ki:

*"Bizim bu Qarabağa Rusiya da gəlmişdi. O getdi, yerinə türklər gəldi. Onlardan sonra ingilislər gəldi. Onlar getdi, deyirlər ki, italyanlar gələcək. Bəlkə onlar da gəlsinlər, lakin bunu hamımız görüb, bilib anlamışıq, bu gəlmələrin heç birisi bizə bir yaxşılıq, istirahət, insancasına yaşayış vermədilər və verə də bilməzlər. Bizim Qarabağda həmişə ermənilərə müsəlmanlar və müsəlmanlara da ermənilər lazımdırlar. Biz gərək hər ikimiz biri-birimizə bel bağlayıb yaşayaq. Bizə öz hökumətimiz lazımdır. Özümüzdən tikilmə hökumət Azərbaycandır. Ona görə də, yaşasın Azərbaycan!"*

Sonra Ticarət və Sənaye və Ərzaq Nəzarətinin Qarabağ vəkili Məhəmməd Sadıq Axundov kürsiyi-xitabətə çıxıb böylə bir nitq irad etdi. İnqilabadək ermənilərlə türklər arasında olan ixtilaf və müsadimələr [toqquşmalar] həmişə "Allah şeytana lənət eyləsin!" deyə şeytana isnad verildiyini, indi isə köhnə şeytan arada yox ikən, yenə də şeytənət [şeytanlıq] davam etdiyini qeydlə, erməni və müsəlmanlara xitabən deyir ki:

*"Bu şeytanları aramızdan çıxardınız! Onların fitnələrinə uymayınız! Onlara lənət və nifrət ediniz! Yaşasın erməni-müsəlman qardaşlığı! Yaşasın Azərbaycan Hökuməti! yaşasın Qarabağda müsavat fikri və əqidəsi və yaşasın Qarabağ hakimi general-qubernator!.."*

Axundovun bu nitqindən sonra qubernator cənabları rusca bir nitq irad edərək, Azərbaycanın və hökumət kişilərinin həmişə sülh-səlah ilə cümlə Azərbaycan dairəsindəki millətlərin müsaviyyül-hüquq olmaq üzrə yaşamalarını arzu etməsini göstərib, ermənilərlə müsəlmanların Qarabağda həm maddi-mənəvi və həm də siyasi nöqteyi-nəzərlərdən bərabərlikdə yaşamağa məcbur olmalarını göstərib, axırda "Yaşasın Azərbaycan!" kəlməsi ilə nitqini tamam etdi.

Bədəhu elan edildi ki, Yay Klubuna nahara dəvət edilmiş həzərat nahara buyuracaqlar. Heyəti-mürəxxəsə və sairləri kluba buyurdular. Naharda 200-dən ziyadə əhali nümayəndələri var idi. Yenə də, həmçinin qərarla nitqlər irad edilib, Azərbaycan Cümhuriyyəti sağlığına, erməni-müsəlman qardaşlığı və qubernator cənabları sağlığına badələr içilib, ümumi bir şadlıq edildi.

Axşam saat 6-ya kimi nahar davam edib ümumi təbriklərlə məclis tamam oldu.

## TEATRO VƏ MUSİQİ

Cümə günü ağustos ayının 20-də Azərbaycan Dövlət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən bu mövsümdə birinci dəfə olaraq, mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır təzə opera "Tahir və Zöhrə". Bu oyunda Müdiriyyətin müqtədir [qüdrətli] aktyorları iştirak edib, tamaşa gözəl bir mənzərədə başa gələcəkdir. Böyük musiqi orkestri, qızlar və oğlanlar xoru. Biletlər teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

**İtibdir**

Ağaəli Qəni oğlunun Şamaxıdan aldığı pasportu itib, etibardan saqitdir [etibarsızdır].

*9007*

**İtibdir**

Çarhanlı Soltanəhməd Molla Mahmud oğlunun Şamaxı ruhani idarəsindən aldığı attestatı itib, etibardan saqitdir.

*9006*

**İtibdir**

Əlirza Məhəmmədəli oğlunun Bakı konsulxanasından aldığı pasportu itib, etibardan saqitdir.

*9008*

**İtibdir**

Xanağa Məşhədiağa oğlunun Qusardan aldığı əsgərlikdən azad olma kağızı itib, etibardan saqitdir.

*9009*

**Elan**

Mən İsmayıl Ağaəliyev bununla elan edirəm ki, mənim şərikim olan Məşhədi Həsən və İsmayıl Ələkbərovlar bu gündən etibarən məndən ayrılmışlar. Onlar etdiyi işlərinin cavabdehəndəliyini mən öz öhdəmə götürmürəm. Naberejni, nömrə 63. İsmayıl Ağaəliyev.

*9005*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

## Arvad diş həkimləri
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə.

Telefon nömrə 50-28 və 93.

*10244*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

Cümə günü zilhiccə ayının 2-si (avqustun 29-da) saat 9 tamamda "İttihad" məktəbində (Sadovaya, nömrə 19) Bakı və ətrafında yaşayan iranlıların ümumi ictiması [yığıncağı] olacaqdır. Binaənileyh [ona görə], bütün iranlıların vəqti-müəyyəndə gəlmələri rica olunur.

*Heyəti-İttifaqi-İraniyyan dər Badi-Kubə*

*7496*

**Elan**

Neçə illərdən bəri Petropavlovka köyündə vaqe olan ziraət [kənd təsərrüfatı] anbarımızda hər cür ziraətə uyğun makinalar mövcuddur. Xahiş edənlər Bakı kontoruna müraciət edə bilərlər.



Ünvan: Milyutinski caddə, Adamovun evində, Mirzeynal Məstanzadə və qardaşları

*7454*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

# QEYD VƏ ŞƏRHLƏR

### Məsuliyyətimzi artdı!

səh. 519. “bu ərazi daxilində”: qəzetdə “və ərazi daxilində” getmişdir.

### Teleqraf xəbərləri

səh. 525. “Ağkilsə”: Ukraynanın Kiyev vilayətindəki Belaya Tserkov şəhəri nəzərdə tutulur.

səh. 526. “Prinkipo” (yaxud Böyükada): Mərmərə dənizində, İstanbul yaxınlığındakı arxipelaqın (Prins adalarının) ən böyük adası.

“Azərbaycan bayrağına” şeiri (səh. 531) üçün lüğət:

təcəddüd: yeniləşmə

əməl: arzu

intiqal etmək: köçmək

“Od Yurdu”: ərəb qrafikalı əlifbada səkkiz hərflə yazılır: او د يو ر د ي

### Yaşıl qələm

səh. 536. “Cəmiyyət məqsədinə ərmək üçün”: bundan sonrakı bəndlər əlif, be, cim, dəl, he, ve, zeyn kimi qarışıq bir şəkildə işarələnmişdir.

“Əlavə olaraq möhtərəm Salman Mümtaz əfəndi...”: qəzetdə “Salman” yerinə “Süleyman” getmişdir.

### Azərbaycanda

səh. 537. “Qarabağda”: qəzetdə imzasız gedən bu yazı, 28 avqust 1919-cu il tarixli 262-ci nömrədəki “Qarabağ məsələsinin həlli” adlı yazının davamıdır və Məhəmməd Sadıq Axundzadə (Aran) tərəfindən qələmə alınmışdır.



آذربایجان

*"Azərbaycan" qəzetinin 264-cü nömrəsinin 1-ci səhifəsi*

**Bazar, 31 avqust 1919-cu il, nömrə 264**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 4 zihiccətül-haram sənə 1337. 31 ağustos 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## "AZƏRBAYCAN" QƏZETƏSİ KONTORU TƏRƏFİNDƏN

Qəzetəni nəşr etmək üçün məxaric artdığından, kağızın və bir para mətbəə materiallarının bahalandığından dolayı "Azərbaycan" qəzetəsi nəşriyyatı həmin avqust ayının 23-dən müvəqqəti olaraq qəzetənin tək nüsxəsi fiyatını 2 manat etməyə məcbur olmuşdur. İşbu abunə şəraiti ancaq həmin sənə oktyabr ayının 1-ədək hesab olunur.

## ELAN

Mən, İsmayıl Ağaəliyev, bununla elan edirəm ki, mənim şərikim olan Məşhədi Həsən və İsmayıl Ələkbərovlar bu gündən etibarən məndən ayrılmışlar, onlar etdiyi işlərinin cavabdəhəndəliyini mən öz öhdəmə götürmürəm. Naberejnı, nömrə 23, İsmayıl Ağaəliyev

*9010*

## SİRK "MODERN"

Yekşənbə günü avqustun 31-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş Fransa güləş mübarizəsinin 61-nci günüdür.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Zakoroyko – Oleynikov.

2-nci: Staroşvili – Jan-de-Kolonani.

3-ncü: Buyvolov – Kreçetov.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır. Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

*9012*

Bakı Şəhər İdarəsi şəhərin Rozinov qardaşları ilə Bakı şəhər konkalarının işləməsi barəsində 4 avqust 1919-cu ildə başladığı müahidənaməsi [sazişi] 9-cu maddəsinə binaən [əsasən], bununla ümuma elan edir ki, həmin müahidənamənin 9-cu maddəsinə görə, müahidənamə bağlandığı gündən hesab olunaraq 3 ay, yəni noyabrın 4-ə qədər 1919-cu ildə hər sərnişindən 1 manat 80 qəpik alınacaqdır. Mütəallimlərə [şagirdlərə] isə öz şə-hadətnamələrini göstərmək şərti ilə 50 faiz güzəşt olunacaqdır. Polis məmurlarına və şəhər qulluğunda olanlara minmək haqqı təyin olunmamışdır.

Vağzal-Mixaylovski bağ xətti-hərəkəti [hərəkət xətti] yekşənbə [bazar] günü avqustun 31-də 1919-cu ildə açılır. Vağzaldan Mixaylovski bağa tərəf səhər saat 6:45 dəqiqədə gəlib, gecə saat 11-ə qədər hərəkətdə bulunacaqlar.

*Şəhər İdarəsi*

*T-231*

**HÖKUMƏT TEATROSU**
**AXŞAM TAMAŞASI**

**Bu mövsümdə birinci dəfə olaraq "Gülmək və ağlamaq" gecəsi**

Müsəlman Aktyorlar İttifaqı artistləri iştirakı ilə bazar günü zilhiccətül-haram ayının 4-də 1337 sənəsi (ağustos ayının 31-də 1919-cu ildə) şükuhlu [görkəmli] bir mənzərədə mövqeyi-tamaşaya qoyulacaqdır Əbülhəsən Anaplının və Rza Darablının əsərləri olan

**BAKI MAHALINDA MÜSƏLMAN QOÇULARININ TOY MƏCLİSİ**

Toy məclisində oxuyacaq Seyid Şişəli. Qoşa zurna daha çalacaqdır. Toyda oynayan qızlar, mütrüblər, Lotu Cabbarlar göstəriləcəkdir. Axırda qoçuların bir-biri ilə qız üstə atışmaları və qazamata düşmələri olacaqdır.

**AĞLAMAQ VƏ GÜLMƏK GECƏSİ**

"Nadir şah Əfşar" drama, "Xırdavat alan" operetta, "Vurhavur" operetta, "Ağa Məhəmməd şah Qacar" drama, "Molla Cəbi" operetta, "Pəri cadu", "Dağılan tifaq"

**MƏHƏMMƏDƏLİ (Şah), NİKOLAY VƏ ƏBDÜLHƏMİD (Sultan)**

Bir pərdədə şarj əsər: Cabbarzadə və Darablı.

**MİLLİ MEYXANA – DİVERİTSMENT**

Seyid Şişəli, Rza Darablı – kuplet, Mirzağa Əliyev – "Millət uğrunda", Əbülhəsən Anaplı – "Kiyev", Hacıağa Abbasov – deklamasiya, Sarabski – "Əsli və Kərəm", rəqslər və qeyriləri. Biletlər teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 9-un yarısında.

Rejissor: Rza Darablı, Dirijor: Müslim bəy [Maqomayev], Məsul: X[əlil] Hüseynov, Müdir: Z[ülfüqar] b[əy] Hacıbəyli.

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

*Kopiya*

**Posta və Teleqraf nazirinin əmrnamələri**

*Əmrnamə 90*

26 ağustos 1919

Bu tarixdən məmuriyyətə dair Bakıdan gedəcəyimdən Nəzarətin idarələnməsini müvəqqəti olaraq övdətimədək [qayıdanadək] Ədliyyə və Məsai [Əmək] naziri Aslan bəy Səfikürdlü cənablarına həvalə edirəm.

*Əslində imza etdilər:*
*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

*Əmrnamə 91*

Ağustos 27-si 1919

Bu tarixdən mən Posta və Teleqraf Nəzarətini müvəqqət olaraq idarə etməyə iqdam edirəm [başlayıram].

*Ədliyyə və Məsai naziri:*
*Aslan bəy Səfikürdlü*
*Dəftərxana baş müdiri: Blajevski*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**21 ağustos iclası**

*(mabəd)*

**Keşiş Kravçenko** - (Slav-rus) Məclisi-Məbusanın Slav-rus fraksiyası Azərbay-

canın iqtisadi tərəqqisi və camaatın maddi rifahiyyətini nəzərə alaraq həmişə Azərbaycan üçün lazım olduğunu bəyan edir. Bakıda darülfünun [universitet] açmaq məsələsi hər daim bizi də məşğul etmişdir. Fəqət biz onu məmləkətin zinəti hesab edərək deyirdik birinci növbədə ali ziraət [kənd təsərrüfatı] və sənaye məktəbləri açılsın, darülfünun isə ikinci növbədə dursun. Bakıda rus qüvveyi-elmiyyələri köməyi ilə darülfünun açılması ilə biz təbrik ediriz. Zira bu iş rus mədəniyyətini məmləkətdə daha dərin bir surətdə möhkəmləşdirər. Darülfünun açılmasını bir də onun üçün təbrik ediriz ki, imanımız kamildir ki, o darülfünun camaat içinə və oradakı zülmətə rus mədəniyyəti və ənənəsi nuru saçar. Bu məsələ komissiyada müzakirə edilərkən çox danışıqlar oldu. Qəzetələrdə də çox yazıldı. Fəqət rus mədəniyyəti mənbəyi yaratmaq fikri üstün gəldi. Hal-hazırda tarix və ədəbiyyat məktəbi açıla bilməsi və davam edəcəyi Bakıda professor yoxluğundan bir növ şübhə altında isə, ali tibbiyyə açılmasına heç şübhə və tərəddüd olmaz, əgər rus darülfünunlarında təhsil görüb rus elm və mədəniyyətinin qüvvəsini dərk etmiş və onun bayrağını uca tuta biləcək olan qüvvələr cəlb edilsə.

Darülfünun komissiyasında möhtərəm Razumovskidən başqa məşhur adlar yox isə də, lakin darülfünun açmaq ideyasının əhəmiyyəti bizi vadar edir inanaq ki, cavan Azərbaycan Darülfünunu rus ülum və fününuna dara [rus elm və fənlərindən xəbərdar] və bu mənbədən həqayiqi-elmiyyə əxz edəcək olanların qəlbində rus mədəniyyətinə qarşı məhəbbət odu yandıra biləcək bir çox adamlar görəcəkdir. Doğrudur, elm beynəlmiləldir. *(Səslər: "Doğrudur!")* Fəqət darülfününuna rus professorları cəlb edilməsi bizi ruhən şad edir ki, Bakıda tezliklə darülfünun açıla biləcək və rus elmi, rus mədəniyyəti qalib olacaqdır. *(Gülüş, səslər, anlaşılmaz sözlər, səs-küy.)* Parlaman əzalarının müttəhidül-rəy [yekdil] olaraq darülfünun açmağı lazım gördüklərini təbriklə, biz sizinlə bərabər onun açılmasına və davamına səs verəcəyiz. Bakıda darülfünun açmaq haqqındakı qərarınız tezliklə bütün dünyaya və bütün Rusiyaya məlum olacaq və inanırız ki, çox elmi qüvvələr tapılacaq ki, cavan Azərbaycanın səsinə səs verib öz elm və təcrübələrini ona təxsis edəcəklərdir.

**Qarabəyli** - (İttihad) Darülfünun açmaq məsələsinə çox diqqət və əhəmiyyət vermək lazımdır. Bir çox məsələlər var ki, ətraflıca bütün cüziyyatı [xırdalıqları] ilə müfəssəl surətdə təhlil və müzakirə etmək lazımdır. Ona görə biz layihəyə təcili surətdə baxılmasına etiraz ediriz.

Azərbaycanda darülfünun açılması əleyhinə əsasən etiraz edən olmamışdır, yoxdur, ola da bilməz. Məsələ burasındadır ki, onu necə açmalıdır, kim açacaq və necə olacaqdır. Ona bol məbləğlər sərf olunacaqdır. Görək necə sərf olunur? Bu məsələlər hələ aydınlaşmamışdır. Ona görədir ki, təklif ediriz bu layihəyə təcili surətdə baxılmayıb, komissiya və fraksiyalara qaytarılsın.

Sədr səsə qoyaraq deyir ki, layiheyi-qanuniyyənin müzakirəsi təxirə salınır.

**Rəsulzadə Məhəmməd Əmin** - (Müsavat) Mən belə bilirəm ki, "İttihad"ın təklifi yaxşı anlaşılammamışdır. Onlar tə-

cili surətdə baxılmasının əleyhində oldular. Fəqət bu o demək deyil ki, məsələ növbədən götürülərək təxir edilsin. Mən təklif edərdim ki, layiheyi-qanuniyyəni bu gün qeyri-təcili surətdə müzakirə edək. Nizamnaməyə görə üçüncü qiraəti gələn iclaslara qalmalı olacaqdır. O vaxtadək "İttihad" fraksiyası istədiyi kimi təhlil və müzakirə edər.

Səsə qoyularaq əksəriyyəti-ara ilə layihənin qeyri-təcili surətdə müzakirə edilməsi təhti-qərara alınır.

**Rəsulzadə M. Ə.** - Azərbaycanda darülfünun açılması barəsində iki rəy var. Bu məsələyə müariz çıxanlar [etiraz edənlər] dəlil gətirirlər ki, bu saat bizim özümüzün darülfünun açmaq üçün lazım olan miqdarda elmi qüvvəmiz və mütəxəssislərimiz yoxdur. Halbuki darülfünun açmaq hökumətin fikri olmalı idi. Necə ki, böylə olduğunu ibraz və bütün maneələri rəf etdi [aradan qaldırdı]. Bu məsələnin ən mühüm cəhəti professor heyətidir ki, onun da əsası hazırdır. Yaxşı olardı ki, bu elm və mədəniyyət mənbəyi türkcə olaydı. Fəqət hələlik bu mümkün deyildir. Fəqət bu maneə də heç vaxt və heç kəsi özgə dildə də olsa darülfünun açmaqdan daşındırmamışdır, daşındırammaz da. Necə ki, ruslar, yaponlar və sairləri təzə başlayanda öyləcə də etmişlərdir. Bir sual ariz olur [meydana gəlir] ki, bəs nə üçün biz rus dilində açırız. Səbəbi məlumdur. Çünki bütün tələbə rusca bilirlər. Amma başqa öylə bir dil yoxdur ki, ümum tələbələr bilsinlər.

Bir də deyə bilərlər ki, bir az tələbəmiz var, göndərsinlər əcnəbi məmləkətlərə, necə ki, 100 nəfərini Qərbi Avropaya göndərmək haqqında hökumətimiz tərəfindən təşəbbüs edilməkdədir. Lakin bunlarla bərabər məmləkətin daxilində bir elm mənbəyi olmalıdır.

Darülfünun oxudur. Fəqət məmləkəti öyrənir, öyrədir də. Darülfünun professorları eyni zamanda tədris edəcəkdir, həm də tətəbböatda bulunacaqdır [tədqiqat aparacaqdır]. Bu vasitə ilə də darülfünun ətrafında elmi işlər başlanacaqdır.

Bundan qorxmamalıdır ki, keşiş Kravçenkonun göstərdiyi kimi açdığımız rus darülfününu olacaqdır. Şübhəsiz ki, bir türk məmləkətində, türk mühitində darülfünun müəyyən xüsusi bir rəng alacaqdır. Komissiyada bütün Slav-rus fraksiyası namindən darülfünun açılmasına etiraz edən məbuslar şimdi lehinə səs verməyə hazır olduqlarını bildirirlər. Kravçenko tez-tez "rus-rus" deməklə bizi qorxudammaz. Özü dediyi kimi, elm beynəlmiləl bir şeydir. Biz onu Çində də oxuya bilərik. Azərbaycanda bir çinlidən də oxuyarız. Azərbaycanda darülfünun təmsil [assimilyasiya edici] rolu oynayammaz. Hətta köhnə Rusiyada təmsil ilə mübarizə edənlər darülfünunlarda yetişmişlərdir.

Bundan əlavə, məlumunuzdur ki, darülfünun açılan gündən etibarən milliləşdirmə bünövrəsi qoyulur. Darülfünunda türkcə tədris ediləcək və tələbələrimiz türk mühiti içərisində öz millətinə yaxın olacaqlardır.

Bir də deyirlər ki, tarix və ədəbiyyat şöbəsi kimi bəzi ali məktəblər nəşvü-nüma [inkişaf] edəmməzlər. Həmişə ibtidada böylə olar. Rusiya, Türkiyə və sairlərinin darülfünunları təcrübəsi bunu yaxşı göstərmişdir. Türkiyə darülfününunda indi də bəzi fənlər alman və fransız dillərində tədris edilir.

Elmi hər yerdə, hər dildə oxumaq olar. Ona görədir ki, bizim fraksiyamız tezliklə darülfünun açılması tərəfdarıdır. Elmi qüvvələrin azlığından da darıxmamalıdır. Ümidvaram ki, Bartold kimi adamlar Petroqradda əyləşməyəcək, Türkistanda yer qazmayacaqlardır. Onlar türk milləti paytaxtında daha məhsuldar bir surətdə işləyə bilərlər. Mən əminəm ki, böylə elm və fənn həvəsliləri də çox tapılar. *(alqış)*

*(yenə var)*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan radio mövqifi [stansiyası] qəbul etmişdir)*

*(Bolşevik xəbərləri)*

**Şimali-Qərb hökuməti**

Roytera xəbər verirlər ki, yeni təşkil edilmiş Şimal-Qərb Rus Hökuməti, siyasi layihəsini nəşr edəcəkdir. Layihənin prinsipləri şunlardan ibarətdir: Hökumət, Müttəfiqlər və Kolçak ilə birlikdə işləyəcək, bolşevizmə qəti müharibə elan ilə bütün vətəndaşların müsavat və hürriyyətini təmin edəcək.

**İngiltərədə bolşevizm**

Axırıncı tətillər zamanı həbs edilənlərdə bulunmuş vəsiqələri İngiltərə qəzetələri nəşr etmişlər. Onların məzmunu aşağıdakı yeni inqilab proqramından ibarətdir: Burjuazların hamısı gərək tərksilah edilsin. Qırmızı ordu təşkil qılınsın. Bütün dövlət işləri fəhlələrin öhdəsinə tərk edilsin. Parlaman buraxılaraq əvəzinə Şura təsis edilsin. Ticarət və nəqliyyat dəstgahlarının xalq malı olduğu elan edilsin.

**Almaniyada bolşevizm**

Nauen - Almaniyanın bəzi şəhərlərində - Breslav, Maqdeburq, Bremen, Braunşveyqdə spartaklar yenidən baş qaldıraraq təbliğata başlamışlardır. Paytaxtda olan spartaklara qarşı tədabiri-ehtiyatkarnəsini Almaniya Hökuməti ikiqat artırmışdır.

**Şura Rusiyası mühasirəsi**

Şura Hökuməti ilə ticarəti əlaqəyə başlanılması üçün İsveç mətbuatında propaqanda edilməyə başlanmışdır. Stokholm Sənaətkarlar İttifaqının Mərkəzi Komitəsində şu yolda qərari-məxsus çıxarılmışdır. Həman eyni təriq [yol] ilə də İsveç tacirləri tələbatda bulunmadadırlar.

**Macarıstanda**

Lion - Ershersoq, Kabinəsi ilə məa [birlikdə] istefası qəbul edildiyi təəyyüd etmədədir [təsdiqlənməkdədir]. Sülh müahidənaməsini müzakirə etmək üçün Kabinə salı [çərşənbə axşamı] günü Budapeştəyə övdət edəcəkdir [qayıdacaq].

**Yenə Fiume**

Lion - Turindən teleqraf edirlər ki, Fiume məsələsi Vilson ilə müzakirata girişilməsi ilə əlaqədar olaraq təşrini-əvvəldən [oktyabrdan] irəli həll edilə bilməyəcəkdir. Bu təxir italyanların ədəmi-xoşnudisini mövcib olmuşdur [narazılığına səbəb olmuşdur].

**Əlbisə yoxluğu**

Lion - Köstəncədən "Tan" qəzetəsinə yazırlar ki, Romaniyanın bəzi yerlərində əlbisə olmadığından kəndlilər yarpaqlardan özləri üçün libas yapırlar.

**Nyu-Yorkda tətil**

Londondan xəbər verirlər ki, yeraltı dəmiryolunun tətili davam etmədədir. Yeraltı dəmiryolları vasitəsilə hər gün 3 milyon sərnişin səyahətdə bulunmada imiş. Nyu-York bələdiyyə rəisi sərnişinlər hərəkatı üçün avtomobillər təyin etmişdir.

**Avam Kamerasında**

Londondan xəbər verirlər ki, Avam Kamerası axırıncı iclasında İngiltərə ticarəti və sənaəti [sənayesi] övzası [vəziyyəti] xüsusunda Lloyd Corc danışmışdır. O söyləmişdir ki, bütün cahan üçün müharibəyə sərf edilən məsarifatın yekunu qırx min milyon funt sterlinq olmuşdur. Və sonra söyləmişdir ki, hər yerdə emalatın nəhayət aşağı düşdüyü və ixracatın azaldığı müşahidə edilmədədir.

Emalatın az yapılması səbəblərindən başlıcası odur ki, hərbdən sülhə keçmək müşkül bir surət almış və müharibə şədaidi [şiddətləri] nəticəsi olaraq insanların əsabı [əsəbləri] lərzədar olmuşdur. Rəis bəyan etmişdir ki, Müttəfiq Sənaət Şurası vaxt və muzd məsələsində etilaf [razılıq] və sazişə gəlmişdir və bu saziş billdə [Parlamentin qanununda] ifadə ediləcəkdir. Az istisna ilə iş vaxtını bill həftədə 48 saat qərar verib muzdun artırılmasını da nəzərə almışdır.

**Ershersoq İosif**

Müttəfiq Ali Şura notası nəticəsi olaraq Ershersoq İosifin iş başından getməsi xəbəri təəyyüd etmədədir [təsdiqlənməkdədir].

**BİZƏ DARÜLFÜNUN LAZIMMI?**

Axır vaxtlarda hökumət komisyonları, Məclisi-Məbusan və Müəllimlər Qurultayı ilə əhali ağzında darülfünun [universitet] məsələsi boyuna dönüb-dolaşır. Bu xüsusda müxtəlif fikirlər dövr edir.

Azərbaycan hökumətinin kiçikliyindən bəhs açaraq nə paraca və nə də ləvazimatca darülfünun idarə edəmməyəcəyini iddia edirlər.

Filvaqe [doğrudan da], darülfünun böyük məbləğə bağlı bir müəssisədir. Azərbaycan hökuməti də kiçik bir dövlətdir. Darülfünun məsarifatı bunun üçün o qədər də yüngül bir şey deyildir.

Digər tərəfdən, darülfünun üçün icab edən [lazım gələn] ləvazimat tədarükü şimdiki halda çətin olduğundan və tədarük mümkün olsa belə, 200 faiz bahalı olduğundan, bu da ayrıca müşkülat törədə biləcəkdir.

Fəqət Avropa[da] həman bizim qədər, bəlkə, mənabeyi-sərvəti [gəlir mənbələri] bizdən daha az bir çox hökumətlər vardır ki, içində iki, üç, dörd darülfünun mövcuddur. Amerika kimi cəmahiri-müttəfiqə [Birləşmiş Cümhuriyyətlər] surətində yaşayan hökumətlərdə öylə vilayətlər vardır ki, iki darülfünun mövcuddur. Bunların həpsinə sorsanız ki, "Siz bu məktəblər üçün nə üçün bu qədər məbləğ sərf edirsiniz?" – "Bizdən nə gedir, sərf ediriz, özündən qazanırız" cavabını verərlər.

Bunun üçün deyə biləriz ki, darülfününa xərclənən paralar digər dövləti məsariflər kimi istehlak qəbilindən deyildir, istehsal qəbilindəndir. Vələv [istər] şimdi, vələv gələcəkdə bu məsarif Azərbaycan üçün heç bir ağırlıq deyildir.

Bəzi adamlar da darülfünun məsələsinə özgə nöqteyi-nəzərdən baxırlar. Deyirlər ki, biz rus dilində darülfünun təşkil edəmməyiz, milliyyət və heysiyyətimizi qırır. Bu cürə darülfünunun bizə milliyyət cəhətindən faydası yoxdur. Biləks [əksinə], zərəri var. Bizi ruslaşdıracaqdır. Həm də darülfünunumuz milliləşməzsə, edadi məktəblərimiz milliləşəmməz. Sonra milli edadilərdən çıxan tələbələri nə yapalım?

Məsələyə yanpörtü baxdıqda, doğrudan da, insana öylə gəlir. Lakin darülfünuna başqa nöqteyi-nəzərlə də baxmaq olar. O, məktəbi-tərbiyədən ziyadə elm və fənn məktəbidir. Dil və milliyyətdən ziyadə, insanlıq, ümumpərəstlik mövqeyidir. Doğrudur, bir millətin darülfünunu milli dil ilə olsa, o daha eyi olar. Fəqət eyiliyi genə milli dildə olduğundan deyil, ülum və fününa milli dildə xidmət etdiyindəndir. Hankı dildə olursa olsun, elm və fənnə xidmətimiz, bizim milliyyət və heysiyyətimizi, biləks, daha yüksəldəcəkdir.

Rus dilində məmləkətimizdə açılan darülfünun bizi ruslaşdıracaqdır kimi sözlər bihudə dəlil və vahi [boş] fikirlərdir. Bir kərə rus dilində tədris edən professorlar Azərbaycanda maaş alıb natsionalistlik edəcəklərini ağla gətirmək olmaz. Çünki onların idarəsi bizim əlimizdə olduqdan sonra, gətirdiyimiz kimi çıxarmağı da bacaracağız. Bundan başqa, darülfünunda oxuyan bişmiş beyinləri ruslaşdırmaq qolay bir şey olmadığı kimi, bir müdərrisin də bu səqim məsləkdə olması da əqldən [bə]iddir [uzaqdır]. Sonra, nasionalistlik fikri yürütüləbiləcək fənlər, fünun [fənlər, elmlər] içində o qədər azdır ki, bu dürlü fənləri türkcə də verdirmək mümkündür.

Darülfünun milliləşməzsə edadilər milliləşməz, milliləşsə belə, darülfünuna edadi tələbələri gətirəmməzlər fikri heç doğru değildir. Əvvəlki fikir, "böyük siniflər milliləşməzsə kiçik siniflər milliləşməz" deməyə oxşar. Bu isə doğru deyildir.

Bütün ibtidai və ali məktəblər birbirinə bağlı bir məktəb kimidir; kiçiyindən başlayaraq hər sənə tədriclə milliləşməsi münasibdir. Hansı sinfə milli tələbə hazırlandısa, o sinif milliləşə bilər. Edadinin son sinifləri milliləşincə də, darülfünunun birinci və sonra da o biri sinifləri milliləşər. Və bu darülfünun milliləşməsə belə, genə milli edadidən çıxanların oraya girməsinə mane deyildir. Nasıl ki, bir dövlətin edadisində oxuyan tələbələr başqa dövlətin edadisinə gedib oxuya bilirlər, öyləcə də bizim milli edadimizdən çıxanlar rus darülfünunlarında oxumayı bacarırlar. Halbuki edadi milliləşdikdən sonra darülfünunun milliləşməməsi mümkün deyildir, bu, təbiətilə meydana gələcəkdir.

Məsələ bu cürə açıldıqdan sonra özümüzdən professor yetişincəyə qədər darülfünun açmayalım fikri öz-özünə meydandan çəkilir. Lakin genə əlavə edirəm ki, özümüzdən beş-üç sənə zərfində professor yetişməsi mümkün deyildir.

Avropada professorluq üçün bir qanun vardır. İbtidada darülfünun tələbələrindən istedad izhar eyləyən bir adam professor tərəfindən müavinliyə qəbul olunur. Sonra bir qaç sənə, kimi beş, kimisi on beş sənə məzkur professora müavinlik yapar. Özünə güvənənlər imtahana girər, qazanar, sonra professorluğa qəbul olar. İştə, professor yetişməsi üçün bu qədər uzun müddət lazımdır. Bir də, professorluğa qabil adamın hər zaman çıxması Avropa kimi mədəni yerdə mümkün olmazsa, bizdə bu imkansızlıq daha çox olar.

Əgər bir darülfünunu idarə edəcək qədər professor hazırlanıncaya qədər gözləmək lazım gəlsə, o vaxt 30 sənə bundan sonra darülfünun açmaq ancaq mümkün ola bilər.

O biri tərəfdən, professoru da biz Avropa darülfünununda deyil, öz darülfünunumuzda daha qolay hazırlaya biləriz.

Avropa professorları öz tələbələrini buraxıb bizim tələbələrdən heç bir zaman müavin seçməyəcəkdir. Amma bizim darülfünunumuzda oxuyan tələbələrdən bizim professor müavin seçəcəkdir. Bu surətlə, bizə onlar professor da hazırlayacaqdırlar. Bu professorlarla biz irəlidə darülfünunumuzu milliləşdirə biləcəyiz. Darülfünun yalnız professorlarla milliləşəmməz. Tələbə üçün mükəmməl elm dəxi kitabları da lazımdır.

Şurasını iqrar etməliyiz ki, türk dilində bu kitablar, məəttəəssüf, yoxdur. Osmanlı tələbələri belə fransız kitablarına baxaraq ehtiyac izalə edirlər [aradan qaldırırlar]. Bizim tələbələrin də darülfünun milliləşsə belə, müraciətgahı genə rusca kitablar olacaqdır.

Məmafih [bununla birgə], bizdə açılacaq darülfünun hankı dildə olursa olsun, böyük elm və fənn kitablarının da məmləkətdə artmasına səbəb olacaqdır.

Gənclər, anlayanlar burasını da bilməlidirlər ki, darülfünun kimi böyük məktəblərdə elmi istilahlar [terminlər] şimdiyə qədər nə bizdə və nə də Osmanlıda, məəttəəssüf, milliləşəmməmişdir. Ülum [elmlər] türk dilində söylənsə belə, istilah genə əcnəbi dilində deniləcəkdir.

Darülfünun bu məmləkətə qəti surətdə lazımdır. Bizim kimi ixtisassızlardan mürəkkəb [ibarət] bir hökumət yaşayammaz. Hər hankı dildə olursa olsun, bir an əvvəl məmləkətdə ixtisası artırmağa baxmalıdır.

Denilə bilər ki, tələbələrimizi Avropaya göndərəlim də, orada təhsil etsin, gəlsin. Fəqət şimdiki halda böyük kütləni Avropaya göndərmək darülfünundan çox məsrəfə mal ola bilər. Bir də, Avropada Avropa dilində oxuyanlarla burada rus dilində oxuyanlar arasında heç fərq yoxdur.

Demək, Avropaya tələbə göndərdikdə nə para cəhətindən və nə də milliyyət cəhətindən qazanammayırız. Yalnız arada darülfünun itiririz. Bu isə yuxarıda söylənən darülfünun faydalarından məhrum qalırız deməkdir.

O biri tərəfdən, darülfünun bizi bu tövr mədəniyyət aləminə təqdim edən bir məziyyətdir ki, biz Avropa nəzərində bununla şəxsiyyəti-mədəniyyə kəsb edəcəyiz [mədəni kimlik əldə edəcəyik]. Ancaq layiqi-istiqlal olduğumuzu isbat eyləyəcəyiz.

Bəziləri də deyirlər ki, şimdiki halda bərkə düşən rus professorları Rusiya din-

cəlincə gedəcəkdirlər. Neyçün onlara paraları yedirəlim?

Əvvəla, şurasını nəzərə almalıyız ki, bu professorlar, hər halda, Rusiya düzəlincəyə qədər oxudacaqlardır. Sonra fəzlə pul verilsə, genə getməzlər. Getsələr belə, səfərləri tez olammaz. Çünki Rusiya 10 sənəyə qədər düzələmməz. 10 sənə zərfində də bunlar bizə müdərris hazırlarlar. Zərər yoxdur, sonra getsinlər.

Hər nasıl olsa da, darülfünun açılmalıdır. Fəqət hökumət mümkün edə bildiyi qədər milli şöbələrə əhəmiyyət verməlidir. Professorları türkcə öyrənməyə məcbur etmək, Türkiyədən professor gətirtmək, professorlara mütərcim təyin eyləmək surəti ilə bu cəhəti təmin eyləmək mümkündür.

Bəzilərinin dediyi kimi, edadilərin rus dilində olması buna mane deyildir. İcbar olunarlarsa, tələbələr türkcə öyrənərlər. Bunları türkcə öyrətmək üçün Bakıda gecə kursu da açmaq mümkündür.

*Nuxu nümayəndəsi: Xəlifəzadə*

## TÜRKİYƏDƏ

### İzmir vilayəti nasıl və neyçün işğal edildi

İzmir vilayəti Anadolunun hər cəhətcə ən zəngin qismi olduğu kimi, İzmir şəhəri də Asiyayi-Suğranın [Kiçik Asiyanın, Anadolunun], təbii, ən böyük limanı olduğundan ticarəti fövqəladə vase [geniş] bir məhəldir [yerdir]. Əzmineyi-qədimədə [qədim zamanlarda] Türkiyənin şimdiki İzmir vilayətində bir qaç krallıq və hökumətlər mövcud ikən, müruri-zamanla [vaxt keçdikcə] bu hökumətlər münqəriz olub [süqut edib], bu gün ancaq Ayasuluq, Sart və Berqama şəhərlərində möhtəşəm xarabaları qala bilmişdir.

İzmir vilayəti bilxassə səvahildən [sahillərdən] ibarət olduğu üçün Bəhri-Səfidə [Aralıq dənizinə] hakim olan hökumətlər tərəfindən buralarda müxtəlif surətlərlə müstəmləkələr dəxi təsis edilmişdir ki, əski yunan və romalılar buralarda birər müddət icrayi-səltənət də etmişlər. Fəqət ötə-bəri [təxminən] 12-ci əsrlərdən etibarən Anadolunu təhti-idarələrinə [idarələri altına] alan türklər buralarda artıq başqa hökumətlər buraxmayıb, o zamandan bəri bu yerlərdə hakimi-mütləq olmuşlardır.

Osmanlı türklərindən əvvəl buralarda hökumət təsis edən Səlcuq, Qaraman və Aydın oğlanları türkləri bir-iki əsr idareyiümur etdikdən sonra [işlərini idarə etdikdən sonra] bilaxirə [nəhayət], İdırım Bayəzid zamanında bu yerlər Osmanlı türklərinin əlinə keçib, o zamandan bəri əczayi-məmaliki-Osmaniyyədən [Osmanlı ölkəsinin hissələrindən] olaraq qalmışdır.

İzmir vilayətində bu gün Osmanlı və sair türklərin buraxdıqları pək çox ənafisi-asar [nəfis əsərlər] olduğu kimi, Aydın oğlanlarından Məhəmməd bəyin Ayasuluqda inşa etdirmiş olub, bu gün ancaq xarab bir halda qalan camesi də Əlhəmradan sonra bilümum asari-islamiyyəyə mürəccəh [bütün islam əsərlərindən üstün] və sənətcə həpsindən yüksək olduğunda Avropa sənayeyi-nəfisə ərbabı [incəsənət biliciləri] ittifaq etməkdədirlər.

İştə, türklük və müsəlmanlığa bu dərəcədə mərbut [bağlı] olan bu yerlərin,

bilxassə səvahil qisimlərində, məəttəəssüf [təəssüf ki], ticarət bir müddətdən bəri yabançı rum əllərinə keçmiş olduğundan, gündən-günə bu qisimlərdə rumlar tək [ağalıq] etməkdə bulunurlardı.

Türklər zənn edildiyi kimi ticarətdən bibəhrə bir millət deyildirlər.

Yüz sənə əvvəlinə qədər Bəhri-Səfid və Bəhri-Siyah [Qara dəniz] ticarətində olduqca mühüm rollar oynayan bu millət Navarin və Sinopda ingilis, fransız və Rusiya tərəfindən flotlarının məhvindən sonra artıq səvahildə qalammayıb, daxilə doğru çəkilərək ziraətlə [əkinçiliklə] məşğul olmuşlar və bu surətlə rumların səvahilə dolaraq ticarətlə iştiğallarına [məşğul olmalarına] meydan vermişlərdi.

İştə bundan dolayı bilxassə İzmir şəhəri və civarında yerləşib zəngin olan rumlar getdikcə bu yerləri mənimsəməyə və buralarının Yunanıstana ilhaqına [birləşdirilməsinə] çalışmağa başlamışlardı. Böyük bir Yunanıstan təşkilinə çalışan Yunanıstandakı mütəəddid [müxtəlif] firqələr, bilxassə İzmir zənginlərindən aldıqları paralarla bir tərəfdən hərb gəmiləri tədarük edilmiş, digər tərəfdən də məktəb çocuqlarına varıncaya qədər İzmirin yunanilərə aid əski bir şəhər olduğu haqqında propaqandalar yapır və bu surətlə rumlarda "Meqali İdeya" – böyük bir məfkurə xəlq edirlərdi.

Sultan Əbdülhəmid zamanında zavallı türklərin ikisi bir araya toplanammazkən, rumlar bu propaqandalarına gərmi verərək [qızışdıraraq], İzmirdə mütəəddid yunan məktəbləri, yunan klubları və yunan cəmiyyətləri vücuda gətirərək, bu yerlərin Türkiyədən ayrılmasına çalışır və Avropa əfkari-xristianiyyəsini [xristian ictimaiyyətini] də hazırlayırlardı.

İştə bu sırada Osmanlı inqilabı vücuda gəlmiş və ondan sonra artıq Türkiyə daxilində yunan propaqandalarına İttihad və Tərəqqi Cəmiyyətincə meydan verilməmiş idisə də, məəttəəssüf, Əbdülhəmidin 33 sənəlik zamani-səltənətində olduqca eyi surətlə çalışmış olan yunanilər artıq səhneyi-fəaliyyətlərini xaricə götürərək qayələrinə vüsul [çatmaq] üçün Avropa və Balkan hökumətlərinin siyasətlərindən istifadəyə qoyulmuş və bu surətlə naili-məram olmaq istəmişlərdi.

İştə bunun üçün, hər halda, zəkayi-şeytənəti [şeytani zəkası] qeyri-qabili-inkar olan [inkar edilməsi mümkün olmayan] krit Venizelos Krit dağlarındakı çətəciliyini buraxaraq Atinada Kabinə təşkilinə məmur edilmiş və bundan sonra Rusiya çarının səhabəti [himayəsi] və müttəfiqləri Fransa və İngiltərənin müsaidəsi [icazəsi] ilə məşhur Balkan İttifaqı vücuda gətirilərək, Türkiyə hakimiyyətinə Makedoniya, Epir, Arnavudluq və qismən Trakiyada nəhayət verildikdən sonra, İzmirin anaxtarı məsabəsində olub bu yerlərin qeyri-münfək əczasından [ayrılmaz parçalarından] olan Bəhri-Səfid adaları da Yunanıstan üçün təmin edilmiş idi.

Demək ki, "Meqali İdea" sahibi yunanilər bu surətlə artıq İzmirə yaxlaşmış bulunurlardı ki, Avropa Hərbi-ümumisi başladı.

Balkan müharibələrindən ən çox qazancla çıxan yunanilər ibtida bitərəf qalıb yeni ovladıqları şikarı eyi həzm ilə məşğul olmaq istəyirlərdisə də, o sıra hər iki tərəfin tatlı vəd və hətta icab edərsə [lazım gələrsə] təzyiqlərinə əhə-miyyət verməyib kənarda qalmanın imkan xari-

cində olduğunu bildiklərindən, hər iki tərəflə ibtida bazarlığa girişməyə başladılar. Almanlar; yunanilərin kəndi tərəflərində hərbə girdikləri və yaxud, heç olmasa, bitərəf qaldıqları təqdirdə, Serbistanın Makedoniyadan almış olduğu hissənin bir qismi ilə bolqar və türklərlə təshihi-hüdud [sərhədlərdə düzəliş] etdirərək, bu üç hökuməti iləlebəd [əbədi olaraq] eyi keçinəcək bir surətə ifrağı [qəlibə salmağı; qaydaya salmağı] vəd etdiyi kimi; ingilis və fransızlar da şayəd Yunanıstan onlar tərəfindən hərbə girəcək olarsa, kəndinə Türkiyənin İzmir vilayətini verirlərdi.

O sıra mövqeyi-iqtidarda bulunan kral Konstantin Etilaf [Antanta] hökumətlərinin bu təklifini rədd edərək bitərəf qalmaq istəyir və məğlub Türkiyənin bir vilayətini almaq ibtida qolay olarsa da, bilaxirə orada qalmanın imkansızlığını düşünərək "Bizə nə müstəmləkə və nə də müstəmləkə müharibəsi lazım deyildir, İzmir şəhərini bilaxirə türklərin yalnız başıpozuqlarından mühafizə üçün orada daimi 100 min əsgər saxlamaq lazım gələcəkdir ki, buna Yunanıstan kimi ufaq bir hökumətin büdcəsi qətiyyən təhəmmül edəmməz [dözə bilməz]" deyirdi.

Fəqət Venizelos və tərəfdarları "İzmir müstəmləkə olammaz, orası ana vətəndən olacaqdır" deyə yayqaralar qoparıb, məlum olduğu üzrə bilaxirə kral Konstantini də xəl etdirərək [taxtdan saldıraraq], Etilaf hökumətləri tərəfindən hərbə daxil oldular.

Tühafı [qəribəsi] şudur ki, İzmir kimi Bəhri-Səfidin ən böyük limanlarından birisinin irəlidə Yunanıstanın təhti-idarəsinə keçməsini dərpiş ilə [nəzərə alaraq], bunun nəticəsi olaraq böyük bir Yunanıstan ilə Fransanın gələcəkdə İtaliyaya qarşı ittifaq edəcəklərindən qorxan İtaliya hökuməti daha müharibəyə girmədən əvvəl Fransa, İngiltərə və Rusiya ilə yapdığı Sen-Jan-de-Moryene müahidəsi [sazişi] ilə İzmirdə İtaliya üçün bir məntəqeyi-nüfuz tələb edərək, bunu düvəli-mümalieyhə [adları çəkilən dövlətlərə] qəbul etdirmiş ikən, bilaxirə yenə eyni hökumətlərdən Fransa ilə İngiltərə xəfi [gizli] bir müahidə ilə İzmiri Yunanıstana vəd edirlərdi.

İştə, əhval bu mərkəzdə ikən və türklər bütün bu müahidələrə vaqif olduqları halda, Vilsonun məşhur prinsiplərinə, müşarünileyhin [adı çəkilən şəxsin] xəfi müahidələri tanımayacağı haqqındakı mütəəddid bəyanatına [çoxsaylı bəyanatlarına] etimadən mütarikə [atəşkəs] tələbində bulunmuş və bu surətlə hərbə nəhayət verilmişdi.

Müharibə müddətincə İzmirdə vali bulunan Rəhmi bəy şiddəti-idarə və əzmi ilə təmayüz etmiş [özünü göstərmiş] bir kimsə bulunduğundan, onun zamani-idarəsində rumlar bir şey yapammayıb, hətta ingilislər tərəfindən şəhərə bir qaç təcavüzatda bulunulmuş idisə də, yenə mümaileyhin hüsn-idarəsi sayəsində şəhər bu təcavüz[də]n məsun [toxunulmaz] qalmış idi. Fəqət çifayda ki, Rəhmi bəy müharibə zamanında vilayəti keyfi və diktator bir tərzdə idarə etmiş olduğunda hər kəsi dilgir [dilxor] etmiş və bundan dolayı da mütarikə əqəbində [atəşkəsdən sonra] əzl edilərək [vəzifədən uzaqlaşdırılaraq] yerinə vəkalətən [müvəqqəti olaraq] Qutül-Əmarə qəhrəmanı və qolordu [korpus] komandanı [Məhməd] Nurəddin pa-

şa təyin və az zaman sonra da əsalətən [daimi olaraq] Şam [Dəməşq] və Ərzurum valiyi-sabiqi [keçmiş valisi] [Həsən] Təhsin bəy göndərilmişdi.

Gərək Nurəddin paşa və gərək Təhsin bəyin zamani-idarələrində İzmiri qolay-qolay istila edəmməyəcəklərini anlayan yunanilər bu iki vali əleyhində propaqandalar yapdıqları kimi, o sıra mövqeyi-iqtidara keçib "Etilaf" firqəsinin təhti-nüfuzunda [təsiri altında] bulunan [Əhməd] Tofiq paşa Kabinəsi nəzdində icrayi-təsir ilə Təhsin bəyi əzl etdirərək [vəzifəsindən uzaqlaşdıraraq], yerinə mücəssəmeyi-əcz və məskənət [acizlik və miskinlik mücəssəməsi] olan Ədhəm bəy namında birisini vali təyin etdirdilər.

Fəqət Ədhəm bəy İzmirə gəldikdən sonra valilik yapammayacağını anladığına, az zaman sonra çəkilib yerinə ikinci Tofiq paşa Kabinəsi tərəfindən yenə Nurəddin paşa vali olaraq göndərildi. İştə bu sırada idi ki, yunanilər artıq üzlərindən maskanı ataraq İzmir vilayətini işğal üçün bir qaç min əsgərlərini əşqiya [quldur] surəti ilə İzmir civarında Sökəyə ixrac etdilər. Fəqət Nurəddin paşanın göndərmiş olduğu qüvveyi-əsgəriyyə şu yunan əsgərlərindən bir qismini tələf edərək, mütəbaqisini [qalanını] gəmilərə minərək qaçmağa məcbur etmişdir.

İştə bunun üzərinə yunanilər daha şiddətli olaraq Nurəddin paşa əleyhində şikayata [şikayətlərə] başlayıb, o sıra "Etilaf" firqəsi namına Kabinə təşkil edən [Damad] Fərid paşa nəzdində də təşəbbüsatda bulunub, Nurəddin paşanı əzl etdirərək, yerinə təbiətin kəndisini qüvayi-bədəniyyə, əxlaqiyyə və zehniyyədən məhrum etdiyi [Əhməd] İzzət bəy namında birisini vali təyin etdilər.

İşin bilxassə təəssüf ediləcək cəhəti şudur ki, yunanilər qayələrinə vasil olmaq üçün hər işlərində bizzat türklərin kəndilərini alət edinərək o surətlə iş görürlərdi. İstəmədikləri valiləri "ittihadçıdır" deyə "etilafçılara" əzl etdirdiyi kimi İstanbulda və İzmirdə "etilafçı" türklərdən bəzilərini para ilə satın alıb onlar vasitəsilə işlərini görür və qayələrinə doğru gedərlərkən türklər "ittihadçı" və "etilafçı" namları ilə yek-digərlərinin [bir-birlərinin] quyularını qazırlardı.

Hasili, Sökə vəqəsi ilə naili-məram olammayan yunanilər İzzət bəy kimi bir valinin vücudundan istifadə edərək, bir an əvvəl İzmiri işğal üçün bəhanə və səbəblər icadına çalışır və bunun üçün də rumlardan əşqiya tərtib edərək vilayət daxilində soyğunçuluq kimi işlər gördürüb, digər tərəfdən, yunan ajansları [xəbər agentlikləri] vasitəsilə İzmir vilayətində asayişin müxtəl olduğunu [pozulduğunu] Avropaya yağdıraraq, diplomatları vasitəsilə İzmirin yunanilər tərəfindən işğalına düvəli-müəzzəmədən müsaidə istehsalına [böyük dövlətlərin icazəsini əldə etməyə] çalışırlardı.

Ötə tərəfdən, Parisdə bulunan Venizelos gərək Sülh Konfransında və gərəksə qəzetə müxbirlərinə türklərin zatən kəndi hökumətlərindən bıqıb yunan hökumətini sevinclə qəbul edəcəklərindən, türklərlə rumlar pək eyi keçinməkdə olub aralarında hətta qız alıb-vermək üsulu yenə cari olmaqda bulunduğundan, İzmirin yunanilər tərəfindən işğalında bir fənalıq olammayacağından bəhs edirdi. Halbuki İzmirdə təşəkkül edən "Müdafieyi-Hüquqi-Osmaniyyə" cəmiyyəti İzmir vilayətinin türklərə aid olduğunu statistiklərlə göstərməkdə olmasına

rəğmən, Avropa əfkari-tərəfgiranəsi [tərəf tutan Avropa ictimaiyyəti] müsəlmanlar tərəfindən nəşr edilən asara [əsərlərə] əhəmiyyət vermədikləri kimi, yunanilər də "Müdafieyi-Hüquqi-Osmaniyyə" Cəmiyyətinin İttihad və Tərəqqi oyunu olduğundan bəhslə, məzkur [deyilən] cəmiyyəti Avropa əfkari-ümumiyyəsində büsbütün düşürməyə çalışırlardı.

Hasili, mayıs ayının 12-də İngiltərə dövlətinin Bəhri-Səfid filosu [Aralıq dənizi donanması] ilə Fransa, Amerika və İtaliyanın [donanmalarının] bir qismi İzmir limanına gələrək orada ləngərəndaz oldular. Vaqeən [əslində], mütarikədən [atəşkəsdən] sonra İzmirə müxtəlif dövlətdən hərb gəmiləri gəlmiş idilərsə də, bu dəfə böylə müttəfiqən [hamılıqla] İzmirə gəlmələri hər kəsi düşündürməyə başladı. Zatən yunanilərin məşhur "Averof" zirehlisi ilə sair bir qaç gəmiləri də bir aydan bəri İzmirdə bulunmaqda və "Averof" komandanı ilə sair bir qaç guya Səlibi-əhmər [Qızıl xaç] məmurları mütəmadi propaqandalar yapmaqda idilər.

Mayısın 14-cü günü öglədən bir saat sonra çarşıda bulunan bilümum [bütün] dükanlar qapanıb hər kəs qaçışmağa başlamışdı.

*(mabədi var)*

*Məhəmməd Şərif [Əfəndizadə]*

## ZAQAFQAZİYA KOMİSSARI HASKELLİN VÜRUDU [GƏLİŞİ]

**Mərasimi-istiqbal [qarşılama mərasimi]**

Sülh Konfransının Beşlər Şurası tərəfindən erməni qəzetələrinin yazdığı kimi Ermənistan komissarı deyil, bütün Zaqafqaziya komissarı təyin olunan Haskell cənabları pəncşənbə [cümə axşamı] günü axşam şəhərimizə vürud edərək [gələrək] vağzalda başda Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Məlikaslanov Xudadad bəy olduğu halda, Xariciyyə Nəzarəti və sair böyük mənsəbli məmurlar və əsgəri qaraqol tərəfindən istiqbal və gəlişi təbrik edilmişdir. Kəndisi ilə bərabər bulunan xanımı dəxi Azərbaycan xanımları tərəfindən gül dəstələri ilə istiqbal olunmuşdur. Müşarünileyhə [adı çəkilən] xanım intizarının [gözlədiyinin] fövqündə olaraq xanımlarımızın kəndisini ingiliscə təbrik etməkdə olduqlarına son dərəcədə heyran qalmışdır.

Möhtərəm qonaqlara "Avropa" mehmanxanasının bir qismi ayrılaraq, qapısına əsgəri növbətçi qoyulmuşdur.

**Hökumətlə mülaqat [söhbət]**

Sabahı günü erkən saat 10-da müsyö Haskell hökumət dairəsinə gələrək, Xariciyyə naziri [Cəfərov] Məhəmməd Yusif bəy də hazır olduğu halda, Heyəti-nüzzar rəisi [Nazirlər Kabinetinin sədri] Yusifbəyli Nəsib bəy cənabları ilə görüşmüşdür. Bu görüş rəsmi olmaqla bərabər, eyni zamanda da siyasi və əməli bir müsahibə şəklini almışdır. Müsahibə tam 4 saata qədər davam eyləmişdir.

Müsyö Haskell müsahibəsinə, qismiməxsusumuzda mündəric [dərc olunan] erməni parlamanında söylədiyi nitq haqqında izahat verməklə başlamış və "Mən erməni parlamanında söylədiyim nitq qəzetələrdə yazılan deyildir. Öylə bir nitqi deyəmməzdim. Təkzibini Tiflis qəzetələrinə verdim" demişdir.

Vəzifəsinə gəldikdə, Sülh Konfransı tərəfindən göndərilib, Konfrans Zaqafqaziya məsələləri ilə məşğul olduğu zaman burada milli toqquşmalara meydan verməmək olduğunu və təsəvvür olunduğu kimi yalnız Ermənistan avukatı [vəkili] deyil, bütün Zaqafqaziya cümhuriyyətləri ilə bir dürlü əlaqədə bulunacağını xüsusi bir qərəz və təmayül ilə hissiyyatidiniyyədən mücərrəd olduğunu təminən söyləmişdir.

Bədəhu [sonra] müsahibə Azərbaycana təəllüq edərək [Azərbaycan mövzusuna gələrək], əvvəlcə möhtərəm qonaq Cümhuriyyətimizdə gördüyü intizam və asayişdən son dərəcədə məmnun qaldığını söyləmişdir. Neft ticarətinə qarşı xüsusi olaraq bir əlaqə və maraq bəslədiyini də ayrıca ehsas [hiss] etdirmişdir. Denikin ilə Azərbaycan münasibatına aid ümidli novidlər [xəbərlər, muştuluqlar] vermişdir. Dağıstan məsələsinin ayrıca və müstəqil bir məsələ olaraq Sülh Konfransı tərəfindən baxılacağını təxmin ilə Denikinin xətti-fasili [ayırıcı xətti, sərhəd xəttini] enəmməyəcəyini təmin etmişdir. Bu xətti-fasilin Azərbaycandan ötrü nə kimi xətər və təhlükələri mütəzəmmin olduğunu [daşıdığını] nazirlərdən eşidincə, orasını dəxi ayrıca dəftərinə qeyd eyləmişdir.

Daha sonra müsyö Haskell Ermənistan ilə Azərbaycan münasibatına nəqlikəlam edərək [sözü gətirərək], naxçıvanlılarla ermənilər arasında vaqe olub da hələ davam edən müharibənin dayandırılması üçün bu iki hökumət arasında sərhəd deyil, bir xətti-fasil təyin eyləmək lüzumundan bəhslə, Zaqafqaziyadan top səsləri və istimdad [imdad istəmək] fəğanları gəldikcə, Konfransın hüzuri-qəlblə bu məsələlərlə məşğul olammayacağının təbii olduğunu qeyd eyləmişdir.

Müsahibənin bu qismi mülaqatın ən mühüm nöqtəsini, eyni zamanda da, demək olar ki, əsl mətləbi təşkil eyləmişdir. Bu xüsusdakı müzakirələrdən Qarabağ ilə Zəngəzurun kamilən və tamamən Azərbaycan idarəsinə təslim olunacağı Haskell tərəfindən qəbul edilmiş, yalnız Naxçıvan, Şərur, Dərələgöz qəzalarının bir zamani-müvəqqət üçün Ermənistanla Azərbaycan arasında yerli əhalinin kəndisi tərəfindən idarə olunar bitərəf bir məntəqə təşkil edəcəyi üzərində israr eyləmişdir. Bu bitərəf məntəqə əhali tərəfindən intixab olunmuş [seçilmiş] bir məclis və bu məclisin seçdiyi heyəti-icraiyyə və məmurlar tərəfindən idarə olunub, zabitənin başında avropalı və yaxud amerikalı bir general-qubernator duracağı təsəvvür olunmaqdadır.

Böylə ikən, Azərbaycan Culfa yolunun itmamı [tamamlanması] üçün bu qitədən [ərazidən] lazım gələn hissəsinin Azərbaycan idarəsində bulunduğu kimi, sikkə olaraq dəxi bitərəf məntəqədə Azərbaycan pulu tədavül edəcəkdir. Daha ziyadə bitərəf məntəqə büdcə etibarilə Azərbaycana mərbut [bağlı] olub, özündən çatmayan məsarifi Azərbaycan xəzinəsindən ödənəcəkdir.

Bu şəraitlə bərabər, Hökumət, təyin olunacaq general-qubernatorun müavinətinə Azərbaycan nümayəndəsinin təyini haqqında bir çox dəlillərlə israr eyləmişdir. Bitərəf məntəqənin Ermənistan ilə heç bir əlaqəsi olmayacaq, Ermənistan oraya heç bir surətlə əsgəri qüvvət gətirdəmməyəcək, yalnız orada yeri-yurdu olan qaçqın əhali silahsız olaraq öz yerlərinə buraxılacaqdır.

Bitərəf məntəqə əsası qəbul edildiyi təqdirdə, Ermənistan ilə hüdud təyin olunacaq və bundan sonra üsyan zamanında təhəddüs edən [meydana gələn] cinayətlərə şamil olmaq üzrə əfvi-ümumi elan olunaraq, kimsə təhti-məsuliyyətə [məsuliyyət altına] alınmayacaqdır.

Nəticədə, Haskell tərəfindən Ermənistana və Heyəti-nüzzar rəisi tərəfindən Naxçıvana birər teleqraf göndərilərək hərb dayandırılması tövsiyə edilmişdir.

**Axşam ziyafətində**

Müsyö Haskell o günü getməli olduğundan, axşam saat 8-də "Metropol"da kəndisi xanımı ilə bərabər olduğu halda şərəfinə bir ziyafət kəşidə edilmişdir [ziyafət verilmişdir]. Ziyafətdə ricali-dövlətdən [dövlət adamlarından] və kübar Azərbaycan xanımlarından iyirmiyə qədər adam hazır olub, məclis saat 12-yə qədər davam eyləmişdir. Yemək əsnasında Heyəti-nüzzar rəisi Amerika rəisi-cümhuru Vilson şərəfinə qədəh qaldırdığı kimi, Haskell cənabları da cavab olaraq Azərbaycan Cümhuriyyəti ilə Hökumət rəisinin şərəfinə badənuş olmuşdur.

Daha sonra Hökumət rəisi, müsyö Haskellin kəndi şərəfinə söz söyləmiş, o da cavabi nitqində vəzifəsinin bir Cümhuriyyətə deyil, bütün Zaqafqaziya cümhuriyyətlərinə aid olduğundan, bu xüsusda tamamilə bitərəf qalacağından bəhs edərək, hökumət rəisi cənablarının ibraz etdikləri [göstərdikləri] üsuli-aşinalıq sayəsində vəzifəsini hüsn-ifa edə biləcəyini bəyan edərək, Nəsib bəy əfəndiyə müqabilə etmişdir.

Bədəhu [sonra] Məhəmməd Əmin Rəsulzadə, doktor Qarabəyov, xanımlardan Nağıyev, Aslan bəy Səfikürdlü cənablarının söylədikləri nitqlərə birər-birər cavab verərək, nəhayət, haziruna ərzi-imtinan [təşəkkür] edərək, qonaqlar saat 12-də mövqifə təşrifərma olmuşlardır [stansiyaya təşrif aparmışlar, getmişlər].

Azərbaycan tərəfindən kəndilərinə qarşı ibraz olunan mehmannəvazlıqdan dolayı müsyö Haskell və xanımı bilxassə məmnun olduqlarını təkrarən söyləmişlərdir.

**Parlamanı ziyarət arzusu**

Müsyö Haskell xüsusi olaraq, Ermənistanda olduğu kimi Parlamana gəlib, o vasitə ilə Azərbaycan xalqını təbrik etmək istədiyini, fəqət cümə olduğu münasibətilə Parlamanın iclası mümkün olammayacağını bildiyindən və Tiflisə gələcək ərkani-hərbini istiqbal [qərargahını qarşılamaq] üçün əcələ qayıtmaq məcburiyyətində olduğundan, yarına qalıb da Parlamanı ziyarətə gedəmməyəcəyindən mütəəssif olduğunu söyləmişdir.

## GENERAL BARATOV AZƏRBAYCAN PARLAMANINDA

27 ağustos gün[d]üz saat 2 radələrində Dabravol komandanlığı nümayəndəsi general Baratov kəndi adyutantı məiyyətində olaraq [müşayiəti ilə] Azərbaycan Parlamanına gəlmişdir.

General Parlaman rəisi kabinəsinə dəvət edilmiş və orada da bütün Heyəti-rüəsa [Rəyasət heyəti] hazır olmuşdur.

General Parlamento və Heyəti-rüəsanı təbrik edərək bəyan etmişdir ki, Dab-

ravol ordusu Baş komandanı general Denikin tərəfindən o müvəzzəf edilmişdir [vəzifələndirilmişdir] ki, Azərbaycan xalqı içində intişar edən [yayılan] yalan şayiələri və Dabravol ordusu üzərinə atılan ittihamları bərtərəf qılsın [aradan qaldırsın]. O, vəkil edilmişdir ki, Dabravol ordusu ilə Azərbaycan arasında ən dostanə əlaqələr peyda etsin. Azərbaycana qarşı general Denikin heç bir sui-niyyət [pis niyyət] bəsləməyib, onun istiqlalına qarşı sui-qəsd etmək xəyalında deyildir. Onun məqsədi Rusiya vücudunda mənfur bir yara kəsilmiş bolşevizmlə mübarizədir. Təyin edilmiş hüdud dairəsi bolşeviklərlə müharibə bitdikdən sonra bilatəxir [təxirə salınmadan] dəvət ediləcək Ümumrusiya Məclisi-Millisində müzakirə ediləcəkdir.

General Baratovun bəyanatına cavab olaraq Parlaman katibi Əhməd bəy Pepinov söyləmişdir ki, Azərbaycan türkləri böyük bir həyəcan və iztirab içindədirlər. Onlar Dabravol ordusunun Azərbaycana qarşı sui-niyyət bəsləmədiyinə inanmayırlar. Həman eyni təminat Dabravol komandanlığı tərəfindən əvvəlcə Dağıstan xalqına da verilmişdi. Lakin şu təminatın verilməsi Dağıstan istiqlalını məhv etməyə general Denikin üçün bir maneə təşkil etmədi. Azərbaycan türkləri ruslarla həmişə dostanə və sülh-müsalimətlə [əmin-amanlıqla] yaşamışlardır. Onlar gələcək demokrat Rusiya ilə kəndi istiqlallarının bəqası [davamı] şərtilə sıxı rabitə və hüsn-əlaqədə bulunmadan qeyri bir şey arzu etməyirlər.

Cənab Pepinovun sözlərinə cavabən Baratovun adyutantı söyləmiş ki, general Denikinin Dağıstana qoşun göndərməsi orada kəndisinə əsaslı bir aşiyanə [yuva] yapmış bolşevizmi qaldırmaqdan ötrü olmuşdur. Türk və nemesləri qovub çıxarmaq üçün ingilislərin Bakıya gəlməsi kimi, dabravollar da öz arxasını təmin etmək və bolşeviklərlə mübarizə etmək üçün Dağıstana daxil olmuşlardır. Onlar orada asayiş və nizam bərpa etmək və bolşeviklərdən özlərini qorumaqla kəndi vəzifələrini ifa etmişlərdir. O, general Denikin namından dübarə təkrar edir ki, bolşevizmə vüsət verilməmək şərti daxilində Azərbaycana qarşı heç bir əks-hərəkət tədabiri ittixaz edilməyəcəkdir [tədbiri görülməyəcəkdir].

Saat 3-də general Baratov Parlamandan getmişdir.

## MÜƏLLİMLƏR QURULTAYI

*(10-ncu iclas)*

Məclis avqustun 27-də saat 10-da açılır.

1) Lənkərandan gələn iki nümayəndə alqışla qəbul olunur. Mandatları Mandat komisyonuna verilir.

2) Haqsız yerə əzl olunduğunu [işdən çıxarıldığını] və maaşları da verilmədiyini istida edən Göyçay müəllimlərinin istidası [ərizəsi] kəndi məntəqəsinin nümayəndələrinə bərayi-istintaq [araşdırılmaq üçün] həvalə olunur.

3) Qurultay hürufatımızın [hərflərimizin] dəyişdirilərək latın hürufatının qəbulu tərəfdarıdır. Bu xüsusda Nəzarət tərəfindən göstəriləcək fəaliyyət hüsn-rəğbətlə qarşılanacaqdır.

4) Qurultay imla xüsusunda şimdilik müəyyən bir qərar verməyir.

5) Ümum ibtidai məktəblər üçün hazırlanmış təlim kitablarının vaxtilə yerlərinə irsalı [göndərilməsi] üçün təşəbbüsdə bulunulacaqdır.

6) Məkatibi-ibtidaiyyəyə türkcə "Azərbaycan" və "Hökumət xəbərləri" qəzetələri ilə təlim və tərbiyə və ədəbiyyata aid məcmuələr göndərilməsi tələb olunacaqdır.

7) Ticarət, sənaye və fəllahət [kənd təsərrüfatı] məktəblərinin açılması üçün təşəbbüsdə bulunulacaqdır.

8) Yeni ünas [qız] məktəblərinin açılması və müəlliməsiz qalan bu cür məktəblərə müəllimə təyin edilməsi hökumətdən tələb ediləcəkdir.

9) Məclis saat 12-də qapanır.

*11-nci məclis*

Məclis avqustun 27-də axşam saat 5-də açılır.

1) Mühərriri-şəhir Halim Sabit əfəndi qurultaya təqdim olunur. Alqışla qarşılanır. Müşarünileyh [deyilən şəxs] də müəllimlərlə təşərrüfündən dolayı bəxtiyar olduğunu izhar ilə müqabilədə bulunur.

2) Müəllimlərin təqaüd müddətinin miqdarı məsələsi hökumətdən məlumat alıncaya qədər təxir olunur.

3) Maarif naziri və müfəttişlərlə məkatib beynindəki mürasilatın [məktəblər arasındakı yazışmaların] türkcə olması və türkcə yazılmayan məktublara cavab verilməməsi təhti-qərara alınır.

4) Müəllimlərə qabiliyyəti-elmiyyələrinə görə maaş verilməsi və heç qabiliyyəti olmayan müəllimlərin məktəblərdən ixracı qəbul olunur.

5) Qeyri məmurlara verilən ərzaq müəllimlərə də verilməsi xüsusunda hökumətə müraciət olunacaqdır.

6) İttifaqın ümumi mərkəzi Bakı olacaqdır.

7) Mərkəzi idarə seçkisi üçün Bakı müəllimlərinin hazır olması lazım olduğundan, seçkidən əvvəl qəzetə ilə elan olunaraq Bakı müəllimlərinin seçkiyə dəvət olunması qəbul olunur.

8) Şəhər məktəblərinin idarəsi bələdiyyədə qalacaqdır və ora müəllimlərinin maaşları da hökumət məktəblərində bulunan müəllimlərin maaşları ilə müsavi olacaqdır. Bu vaxta qədər almadıqları əlavələri də alacaqlardır.

9) Mövqufat və məscid məktəbləri də Maarif Nəzarətinə keçəcəkdir.

10) Maliyyə Komissiyası Qurultay üçün təxsis olunan [ayrılan] paranın 20 milyonluq fonddan para bitdiyindən dolayı alınammadığını söyləyir. Qurultay bu paranın və smetada əlavə olunan on min manatın alınmasına təzədən iki nümayəndə seçir: Əliməhəmməd Mustafazadə və Qasımzadə Qulammirzə bəy.

11) İdris Axundzadənin "Müəllimlər və məktəblərimiz ilə hökumət" haqqında söylədiyi məruzəsi dinlənir və alqışla qəbul olunur.

Məclis saat 9-un yarısında qapanır.

## BAKI XƏBƏRLƏRİ

**Parlaman komisyonlarında**

- Ədliyyə Nəzarətindən Parlamana istintaq əqsamının təşkil və tədilən [dəyişdirilərək] islahı haqqında qanun layihəsi təqdim olunaraq Ləvayehi-qanuniyyə [Qanun layihələri] komisyonuna göndərilmişdir.

- Hərbiyyə Nəzarətindən Parlamana Azərbaycan ordusu məmurlarına yeni maaş miqdarları haqqında bir qanun layihəsi təqdim olunaraq, Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

- Daxiliyyə Nəzarətindən Azərbaycan Cümhuriyyətində ərazi təşkilatları təsisi haqqında bir qanun layihəsi təqdim olunaraq, 27 avqustdaLəvayehi-qanuniyyə komisyonuna göndərilmişdir.

- Səhhəti-Ümumiyyə Nəzarətindən Şuşa şəhərində məccani [pulsuz] bir dövlət xəstəxanası açılması haqqında bir qanun layihəsi Parlamana təqdim olunmuşdur.

- Səhhəti-Ümumiyyə Nəzarətindən 23 iyunda qəbul edilmiş qanunun Mərkəzi Dəniz Tibbiyyə İstasyonu məmurlarına aid olması haqqında bir qanun layihəsi Parlamana təqdim olunmuşdur.

- Maliyyə Nəzarətindən zinət əşyasına təəllüq edib də [əlaqədar olub da] xaricdən Azərbaycana daxil olan əmtəə üçün xüsusi müvəqqəti tarifənin mövqeyi-tətbiqə qonulması haqqında Parlamana bir qanun layihəsi təqdim olunmuşdur.

**Quba xaçpərəstləri**

Qubada olan xaçpərəstlər Bakı qubernatorundan teleqrafən rica etmişdirlər ki, onların Rusiyaya getmələri üçün vəsiqə verilməsi haqqında binagüzarlıq etsin [sərəncam versin]. Qubernator bunu qəbul edib lazımi binagüzarlıqlar etmişdir.

**Qəza məktəbləri**

Maarif Nəzarəti Daxiliyyə Nəzarətindən xahiş etmişdir ki, qəzalar polisinə qəzalarda olan məktəblərə şagirdlər toplanıb dərsə şüru etmələrinə [başlamalarına] yardım etmək üçün düsturüləməl [təlimatnamə] göndərsin. Buna binaən [buna əsasən], Bakı qubernatoru tərəfindən lazımi binagüzarlıqlar edilmişdir.

**Qaçqınlara dair**

Əmlak naziri Daxiliyyə nazirinə xəbər vermişdir ki, qaçqınlar işinə baxan komissiyanın üzvü Şpitalskini Şamaxı, Göyçay, Qalaqayın və Qubaya göndərmişdir. Məzkur [deyilən şəxs], bu yerlərdə qaçqınlara kömək olmaq üçün komissiyalar təşkil edəcəkdir. Şu komissiyalar Mərkəzi Komissiyaya dair işlər haqqında da məlumat verməlidirlər.

**Bələdiyyə İdarəsində**

- Mərkəzi Ev Komitəsi Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, son zamanlar Komitənin maddi cəhəti ciddi bir vəziyyətdə olduğundan naşi [olduğuna görə], bir çox fəaliyyətdən məhrum qalmışdır. Hətta Komitə külliyyətli surətdə olan odun mövcudunu belə satıb bitirmişdir. Hal-hazırda ucuz satmaq üçün bişirilən çörək üçün belə odun yoxdur. Komitə çörəyin bahalanmasının önünü almaq qəsdi ilə Bələdiyyə İdarəsindən rica etmişdir ki, odun verilmək haqqında lazımi binagüzarlıqda bulunulsun.

- Dünəndən etibarən konka yollarının təmizlənməsinə şüru edilmişdir [başlanmışdır]. Bu gün yaxud sabahdan etibarən konkalar işləməyə başlayacaqdır. Konka fiyatı 1 manat 80 qəpikdir.

**Yetimlər yurdu nəfinə müsamirə nəticəsi**

Avqustun 13-də Hökumət Teatrosunda xanım Olinskayanın təşəbbüsü ilə 25 faizi yetimlər yurdu nəfinə [xeyrinə] ol-

maq üzrə tərtib edilən müsamirənin mədaxili, məxarici bu qərar üzrə olmuşdur:

Bütün hasilat 32763 manat 70 qəpik;

Məxaric 29888 manat 80 qəpik;

Təmiz hasilat 2874 manat 90 qəpik;

25 faizi 718 manat 75 qəpik.

Həmin faiz məbləği yetimlər yurduna verilməkdən ötrü müsamirə müdirəsi Pəri xanım Topçubaşovaya tapşırılmışdır.

**Axtarış**

Avqustun 28-də Mariinski küçə ilə Tarqovı küçənin küncündə olan kinoteatr "Renessans"ı polis məmurları gecə saat 11-də əhatə edib camaatdan başburt tələb etmişdir. Bir çoxlarının başburdu olmadığından polis idarəsinə göndərilmişdir.

**Atışma**

Dünən axşam Nikolayevski küçə tərəfində müsəlsəl [ardıcıl] atışma eşidilirdi. Bu axır vaxtlarda çox atışmalar ittifaq düşür. Ümumən bakılılar tərk etdikləri adətlərini əllərinə almışdırlar.

**İskələ müdiri**

Ticarət iskələsinə rəis olmaq üzrə Əmirov cənabları təyin olunmuşdur. Məzkur [adı çəkilən şəxs], Batumda da şu xidmətdə idi.

## AZƏRBAYCANDA

**Məbuslar Lənkəranda**

Avqustun 16-da küləkli bir gündə yanaşan paroxod lənkəranlıların xəbəri olmadan möhtərəm məbus Rəsulzadə Məhəmməd Əmin cənabları ilə Abbasqulu Kazımzadə və Məhəmmədbağır Şeyxzamanov cənablarını Lənkərana çıxarmışdı.

Mehmanlar o günü günorta naharında Parlaman məbusu olub Lənkəran fəthində çiynində tüfəng xəndəklərə patron daşımaq surəti ilə bilfeil iştirak edən Hacı Molla Səlim əfəndiyə qonaq idilər. Qonaqların ayağı altında məxsusi bir qurban dəxi zəbh edilmişdi [kəsilmişdi].

Azərbaycanın bənam [adlı-sanlı] natiqi Rəsulzadə cənablarının vürudunu [gəlişini] xəbər alan camaat həman gün saat 4-də bazar-dükanı bağlayaraq Böyük məscid həyətinə cəm olmuş və möhtərəm natiqi dinləmək istəmişdi.

Saat 4-də 5-6 min camaatın toplandığı came həyətinə müsafirlər gəldilər. Gurultulu alqışlar altında Rəsulzadə Məhəmməd Əmin cənabları Hacı Axund tərəfindən camaata təqdim olundu.

Məhəmməd Əmin əfəndi nitqə başlayaraq lənkəranlıları xilas olduqlarından dolayı təbrik eylədi. Bədəhu [sonra] Azərbaycan Cümhuriyyətinin surəti-təşəkkülü haqqında saat yarıma qədər bəyanat verdi. Natiqin sözləri təkrarən alqışlar vasitəsilə qət olunurdu [kəsilirdi]. Nəhayət, nitq "Hökumətə əsgər vermək surəti ilə əsasi-istiqlalımızı möhkəmlətməlisiniz" cümləsi ilə qurtardıqda "Azərbaycan üçün ölümə də hazırız" cümləsi ilə xalq hökumətə təcdidi-beyət etmiş oldu [tabe olduğunu bir daha ifadə etdi].

Natiq sürüncəli alqışlar və "Yaşasın Rəsulzadə" nidaları içində mövqeyini tərk edərək xalqla vidalaşdı.

O gün axşamçağı qonaqlar şəhərin ətrafında səngərləri səyahət etdilər. Şiləvar kəndində əhali tərəfindən istiqbal

olundular [qarşılandılar]. Lənkəran fəthi əsnasında şəhid düşən şühəda qəbrini ziyarət etdilər.

Sabahı günü qonaqlar İstisulara getmişdilər. İstisudan qayıtdıqda Karpoviç mülkündəki rus kəndçiləri yol qabağına çıxıb qonaqları çay ziyafətinə dəvət etdilər. Dəvət qəbul olunub, nəticədə Rəsulzadə əfəndi rus camaatını təskinamiz sözlərlə Azərbaycan[ın], haqlarında adil olacağını kəndilərinə təmin etdi. Əhvallarını sordu. Əmin və amanda olduqlarını ərz etdilər.

O günü saat 4-də qubernatorluq dairəsində qonaqların şərəfinə ziyafət verilmişdi. Ziyafətdə İran konsulu ilə ingilis nümayəndəsi dəxi iştirak edirlərdi.

Ziyafətdən sonra axşam saat 6-da musiqi sədası qonaqların getməkdə olduğunu camaata xəbər verirdi. Bir cəmi-qəfir [böyük bir qələbəlik] dəniz sahilinə toplanmışdı. Camaatın "Yaşasın Rəsulzadə", "Yaşasın Azərbaycan" sədaları nidası altında qayıq sahildən aralanıb gəmiyə doğru hərəkət etdi.

General-qubernator, İran konsulu həzrətləri, məmurini-mülkiyyə və əsgəriyyə [mülki və hərbi məmurlar], əyani-bəldə möhtərəm müsafirləri yola salmaq üçün qayıqlarla gəmiyə qədər gəlmiş, musiqi bandosu dəxi ayrı bir qayıqda qonaqların şərəfinə tərənnümsaz olmuşdu. Müsafirləri təşye [yola salmaq] üçün bir qitə Lənkəran fatehi əsgərlər dəxi sahilə qədər gəlmişlərdi.

**Gəncədən**

*(Öz müxbirimizdən)*

Burada adətdir, hər il Hacıkənd yaxınında bulunan erməni köylərinə dəstələrlə səyahətə çıxarlar. Böylə səyahətlərdən birisi də bu günlərdə Gəncə valisi Xudadad bəy [Rəfibəyli] başda olduğu halda Hacıkəndin yaxınında bulunan erməni köyü Çaykəndə getmişdi.

Dəstəni təşkil edən zatlar bunlar idi: Parlaman üzvü və sabiq Daxiliyyə naziri Xəlil bəy [Xasməmmədov], müddəiyiümumi [prokuror] Nəsrəddin bəy, Parlaman üzvü doktor Musa bəy [Rəfiyev] və vits-qubernator [Əmir] xan Xoyski.

Bunlar daha yarı yolda bulunan rus köyü Mixaylovkaya girdikləri zaman iş rəsmi bir şəklə girmiş, ətrafda bulunan erməni köylərinin vəkilləri bunların həman köydə istiqbalına çıxıb "xoş gəldin" söyləmişlərdir.

Bundan sonra Çaykəndə gedilir və orada ermənilər tərəfindən köyün girəcəyində yapılan alaqapıda köyün ağsaqqal və ruhaniləri tərəfindən istiqbal edilirlər [qarşılanırlar]. Erməni vəkilləri Azərbaycan hökumətinə bəyani-sədaqət olunmaq üzrə hökumət əzalarını [üzvlərini] əvvəlcə duz-çörəklə qarşılayıb bəyani-xoş amədi edirlər [xoşgəldin deyirlər]. Və sonra kəndilərinin hökumətə sadiq qalacaqlarını söz verdikləri kimi, onlara da Azərbaycandakı sair millətlərlə bir dərəcədə baxılmasını istirham edirlər.

Qubernator həzrətləri onlara cavabən müsavatın [bərabərliyin] icrasında indiyə qədər heç qüsur edilmədiyini və bundan sonra da edilməyəcəyini anlatır.

Bu mərasimdən sonra ermənilərin müsafirlər üçün açmış olduğu süfrə başına gedilib oturulur. Yemək əsnasında möhtərəm məbuslarla erməni vəkilləri arasında türkcə nitqlər söylənib, ermənilər tərəfindən söylənən nitqlərin qeyd

ediləcək mühüm bir nöqtəsi vardır. Onların hər birisi təkrar-təkrar hökuməti sevdiklərini, ancaq bəzi xarici təsirlərin nüfuzunu və onların da bu yaxında dəf ediləcəyini söyləyir, qubernatora müraciətlə üçüncü nahiyədəki erməni köylərinin təslim olunmaları üçün tədbir görülməsini rica edirlər.

Ziyafətdən sonra müsafirlər dönərkən köyün iki yerində xalı çəkilmiş yerlərdə qarşılanıb köyün kəndi məhsulatı ilə qonaq edilirlər. Bundan sonra vidalaşıb hər iki tərəf ayrılır.

Çaykənd erməniləri bu civar ermənilərinin başçısı olduğundan, ötəki köylərə də icrayi-təsir edə bilmişdir. Onun üçündür ki, bu il Gəncəbasar köçəriləri bu köylərin arasından salamat olaraq keçmişlərdir. Söylənildiyinə görə, erməni başçıları bütün köylərə elan etmişlər ki, köçəri müsəlmanlara sataşan ermənilər şiddətlə cəzalanacaqdırlar. Həqiqətən, bu il bu elanın təsiri də görülmüşdür.

## ERMƏNİSTANDA

### Erməni Parlamanında polkovnik Haskellin nitqi

Erməni teleqraf agentəliyindən aldığı məlumat əsası ilə məhəlli [yerli] rusca qəzetələr xəbər verirlər ki, Ermənistan Parlamanında Haskell bu məzmunda bir nitq söyləmişdir:

Əfəndilər, mən bilirəm ki, sizin hamınız hal-hazırda yalnız bir fikir edirsiniz ki, o da tez zamanda Müttəfiqlərdən kömək almaq və qorxu altında olan vətəninizi mühafizə qılmaqdan ibarətdir.

Amerika xalqı təəmmül ilə [ətraflı düşünüb-daşınaraq] iş görür. O, Cahan müharibəsində iştirak etmək məsələsində də təəmmül etmişdi. Fəqət iştirak etcək, bütün qüvvəsini sərf etdi də, müharibənin xitama yetişməsinə nail oldu.

Şimdi isə Sülh Konfransı tərəfindən təsdiq edilmiş sülh müahidənaməsini [sazişini] imza etmək məsələsini təxirə salmış və nə qədər ki müahidənamə imza edilməmiş, Ermənistan mandatı məsələsi də müzakirə ediləmməyəcəkdir. Əlbəttə ki, bu sizin və mənim üçün də mövcibi-təəssüfdür [təəssüf vericidir].

Şimdi istiqbalı [gələcəyi] kənara qoyaraq hal-hazıra dair qonuşalım. Bu saat ən mühüm məsələ odur ki, Müttəfiqlərdən Ermənistan xalqı nə qədər maddi müavinət ala biləcəkdir.

Şübhə yoxdur ki, Ermənistan əsgəri [hərbi] kömək alacaqdır. O da Azərbaycan və Gürcüstana qarşı çıxmaq üçün olmayıb, ancaq öz sərhədlərini müdafiə etmək üçün qalacaqdır.

Mən Parisdə olduğum zaman Ermənistan övzasından [vəziyyətindən] xəbərdar oldum və bu rəyə gəldim ki, Ermənistana əsgəri müavinət lazımdır. Və başqa dövlətlərdən birinin qoşunları əvəz edincəyə qədər Britaniya qoşunlarının Zaqafqaziyada qalması lazımdır.

İngiltərə qoşunlarının Zaqafqaziyadan çəkilməsi binagüzarlığı [sərəncamı] xəbərini mən İstanbulda eşitcək həman saat Sülh Konfransı və Klemanso qarşısında protesto izhar etdim. Şimdi bu məsələ Parisdə müzakirə edilir. Mən etiqad edirəm ki, mənim təvəqqem qəbula keçəcək və ingilis qoşunları Zaqafqaziyada qalacaqlar. Hərgah onlar Zaqafqaziyadan

getmiş olsalar da, əvəzlərinə bəs qədər qüdrətli qoşunlar tapa biləriz.

Ərzaq, hərbi, maddi və əlbisə cəhətindən təmin etmək üçün lazımi binagüzarlıq edilmişdir. Amma şimdi bu məsələ ikinci dərəcədə qalır.

Şübhəsizdir ki, Britaniya hökuməti tərəfindən təyin edilmiş hüdudu Azərbaycan nəqz [ləğv] etmişdir. Bu fəqərə [hadisə] məni məcbur edir ki, Azərbaycanı xəbərdar etmək üçün Tiflisə və Bakıya gedim. Əgər bu hadisələrə qarşı Azərbaycan tədbirlər ittixaz edib [tədbirlər görüb] müharibə əməliyyatını qət etməzsə [kəsməzsə], Azərbaycan üçün ciddi nəticələri mövcib olacağından qeyri, Azərbaycan hökuməti üzvlərini də məsuliyyət altına alacaqdır. *(alqışlar)*

Ermənistana əsgəri müavinətdə bulunmaq məsələsini Tiflisdə mən İngilis Komandanlığı ilə danışıb məsləhətləşəcəyəm. Torpaq və sənaət [sənaye] işlərini qaydaya salmaq üçün və doğru yola sövq etmək üçün bu yaxın zamanda Parisdən mütəxəssislər gələcəkdirlər. Əgər mənim müxabiratım [xəbərləşməm, rabitəm] Parislə sürətlə getməz isə, mən özüm bizzat [şəxsən] Parisə əzimət edər [yola düşər] və Ermənistana təxirsiz müavinət edilməsini Konfransdan tələb edərəm. Şu təqdirdə mənim ixtiyarımda Qara dənizin ən səri [sürətli] hərəkətli paroxodu olacaqdır. *(alqışlar)*

Sərhəd məsələsində bir çağırım yerin o dövlətə, ya bu dövlətə keçməsi heç əhəmiyyəti-qatiəni haiz deyildir [həlledici əhəmiyyət daşımır]. Netəkim Blezikin müvəqqəti işğalı, yaxud Romaniyanın bir azacıq torpaqdan ayrılmasının heç bir əhəmiyyəti olmadı. Erməni xalqına lazımdır ki, başqa məsələləri istiqbala buraxıb, şimdilik edilməkdə olan müavinəti qəbul etmək üçün hazırlansınlar. Əsaslı məsələlər həll edildikdən sonra başqaları kəndi-kəndinə həll ediləcəkdirlər.

Mən rica edərdim ki, məni Türkiyəyə, Azərbaycana və Gürcüstana sui-niyyətdə və ədavətdə bulunan kimi təfəhhüm etməyəsiniz [başa düşməyəsiniz]. Fəqət mən Sülh Konfransından təlimat aldığım üçün sizin məmləkətinizi müdafiə etməyə borcluyam.

Məmafih [digər tərəfdən], erməni xalqı və hökumətinə lazımdır ki, gələcək-[də] baş verə biləcək ixtilal və münaqişəyə meydan verməmək üçün öz qonşuları ilə hüsn-əlaqədə bulunmuş təşəb-büsatında bulunsunlar. Məmləkəti müdafiə qılmaq üçün hökumətin və məmurların ehtimamını [səyini] mən müşahidə edirəm. Şimdi siyasi proqramlarla uğraşmaq zamanı olmayıb, xalqın həyatını təmin etmək lazımdır. Mənim proqramımın həyata çıxarılması erməni xalqı və hökumətindən asılıdır.

Mənə edilən hörmət və ehtiramdan dolayı təşəkkürümü izhar edərək vətən yolunda işləməniz üçün əzmkar olmanızı arzu edirəm. *(şiddətli alqışlar)*

Qismi-məxsusumuzda Haskelin vürudu xəbərində qeyd edildiyi üzrə, mümaileyh [adı çəkilən] nümayəndə bu nitqin təğlit [təhrif] edilmiş, xüsusən Azərbaycan və Gürcüstana aid qisminin tamamilə həqiqətdən uzaq olduğunu qeydlə, Tiflis qəzetələrində bunun təkzibi haqqında binagüzarlıq etmiş olduğunu da ayrıca bildirmişdir.

## TEATRO VƏ MUSİQİ

**"Gülmək gecəsi"**

Bu gün axşam yekşənbə [bazar] günü avqustun 31-də müsəlman aktyorlarından Rza Darablı və Əbülhəsən Anaplının iştirakı ilə "Ağlamaq və gülmək" gecəsi adında tamaşa göstəriləcəkdir. Bu tamaşada faciələrdən, opera və operettalardan şəkillər göstərilib, artistlər tərəfindən gülməli nömrələr oxumaqla bərabər, "Qoçuların toy məclisi" dəxi mövqeyi-tamaşaya qoyulacaqdır. Bundan əlavə, Məhəmmədəli, Nikolay, Əbdülhəmid arasında olan müsahibə dəxi Darablı, Anaplı və Ələkbər Hüseynzadə tərəfindən göstəriləcəkdir və axırda Əliislam [Dadaşov] və Mirpaşa [Sadıqov] tərəfindən "milli meyxana" söylənəcəkdir. Şuşalı Seyid oxuyub, Sarabski "Əsli-Kərəm"-dən söyləyəcəkdir. Mirzəağa Əliyev və Hacıağa Abbasov kupletlər oxuyacaqlar.

## TƏŞƏKKÜR İZHARI

Möhtərəm müdir əfəndi!

Yaşıl Qələm cəmiyyətinə maddi müavinət olmaq üzrə, möhtərəm şairimiz Salman Mümtaz əfəndi tərəfindən verilən bir min rublə ianədən dolayı cəmiyyət heyəti-idarəsinin təşəkkürünü ərz etmək üçün mötəbər qəzetənizin vasitə olmasını istida eylərəm.

*Yaşıl Qələm heyəti-idarəsi naminə:*
*Hüseyn Sadiq*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-

7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*7440*

**Elan**
**Culfa-Bakı dəmiryol idarəsi**

Bununla Yevlaxdan Qaryaginə və Qaryagindən Culfa-Bakı dəmiryolunun qayırılan xətti Zəngəzur qəzası Nüvədiyə qədər yol yükünün aparılmasını öz öhdələrinə götürmək istəyən şəxsləri şifahi müsabiqəyə dəvət edir. Yükün miqdarı 30 min puda qədərdir. Müsabiqə 13 sentyabrda Yol İdarəsinin binasında (Bakı, Velikoknyajeski, nömrə 2, sabiq "Qrand hotel", saat 10-da). Şəraiti öyrənmək istəyənlər sentyabrın 5-dən hər gün yuxarıda zikr olunan idarə binasında saat 10-dan 12-ə qədər müraciət edə bilərlər.

*Müdir əvəzinə injiner: N.Yaroş*

*9011*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Hökumət Teatrosu axşam tamaşası

səh. 544. "Lotu Cabbarlar": "Lotu Cabbar" məzəli söhbətləri, parodiyaları və oyunları ilə səhnələrdə və toyxanalarda camaatı güldürən Cabbar Vahidovun ləqəbi idi. Burada "Lotu Cabbarlar" deyərkən, onun üslubunda çıxış edən komiklər nəzərdə tutulur.

"divertisment": səhnə əsərinin mahnılar, rəqslər və parodiyalardan ibarət olan xüsusi hissəsi.

### Azərbaycan Məclisi-Məbusanında

səh. 545. "biz təbrik ediriz": qəzetdə "bizi təbrik ediriz" getmişdir.

### Teleqraf xəbərləri

səh. 547. "spartaklar": Almaniya marksistləri; ümumdünya proletar inqilabı tərəfdarı idilər.

səh. 548. "Avam Kamerası": ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

"Ershersoq İosif": 1918-1919-cu illərdə Macarıstan regenti olan İosif Avqust nəzərdə tutulur.

### Türkiyədə

səh. 551. "Sart": Türkiyədə, Manisa ilinin Salihli ilçəsinin qəsəbəsi; Sart qəsəbəsi yaxınlığında Sardes (yaxud Sardeis) adlı qədim şəhərin xarabalıqları var.

səh. 552. "Meqali İdeya": yunanların, İstanbul mərkəz olmaqla Bizans imperiyasını bərpa etmək məqsədi güdən nəzəriyyəsi.

"Sultan Əbdülhəmid zamanında": 1876-1909-cu illərdə Osmanlı sultanı olan II Əbdülhəmid nəzərdə tutulur.

"Krit": Aralıq dənizində Yunanıstana məxsus ada. 1669-1898-ci illərdə Osmanlı dövlətinin bir əyaləti olmuşdur.

səh. 553. "Qutül-Əmarə qəhrəmanı": Birinci Dünya müharibəsinin gedişatında İraq cəbhəsində Bağdadın 160 km cənubunda ingilis qarnizonu Osmanlı korpusu tərəfindən mühasirə edildi. Məhməd Nurəddin bəy, miralay rütbəsiylə, Qutül-Əmarədə ingilis qarnizonunu mühasirəyə alan Osmanlı qolordusunun (korpusunun) komandanı idi. 1915-ci il dekabr ayının əvvəllərində başlayan mühasirə 1916-cı il aprel ayının axırlarında ingilislərin təslim olmasıyla başa çatdı.

səh. 554. "Etilaf firqəsi": 1911-1913 və 1918-1919-cu illərdə Türkiyənin siyasi həyatında əhəmiyyətli rol oynayan "Etilaf və Hürriyyət" partiyası nəzərdə tutulur.

"ittihadçı": 1913-1918-ci illərdə Türkiyədə böyük nüfuz sahibi olmuş "İttihad və Tərəqqi" partiyasının üzvləri nəzərdə tutulur.

### Zaqafqaziya komissarı Haskellin vürudu

səh. 555. "Sülh Konfransının Beşlər Şurası": ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya dövlətlərinin nümayəndələrinin təmsil olunduqları Şura.

### Teatro və musiqi

səh.565. "Məhəmmədəli, Nikolay, Əbdülhəmid": İran şahı Məhəmmədəli şah Qacar, Rusiya imperatoru II Nikolay və Osmanlı sultanı II Əbdülhəmid nəzərdə tutulur.

### Elan Culfa-Bakı dəmiryol idarəsi

səh. 566. "Nüvədiyə qədər...": rus dilindən tərcümə edilən bu elan mətnində "Nüvədiyə" yerinə "Nyuvadova" getmişdir.

# ADLAR GÖSTƏRİCİSİ

Abbas Rza oğlu (Hacı Rza oğlu): İrəvan quberniyasının Qəmərli kəndindən olan qaçqın. 119

Abbas Tağı oğlu (Məşhədi Abbas): İğdır sakini; xoylu. 386

Abbasmirzə Məhəmməd bəy oğlu. 372

Abbasov, Hacıağa: bax. Abbaszadə, Hacıağa.

Abbaszadə, Abbas (Mizə Abbas; yaxud A. Mollazadə; 1870-1920): Azərbaycanlı pedaqoq və folklorşünas. Azərbaycan məktəbləri üçün dərsliklər qələmə almışdır. Bəzi əsərlərində "A. Mollazadə" imzasından istifadə etmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 227

Abbaszadə, Hacıağa (yaxud Hacıağa Abbasov; 1888-1975): Azərbaycan aktyoru; Kəndçilər İttifaqının sədri. 544, 565

Abdulla: Seyidli kəndinin sakini. 408

Abdulla Şaiq: bax. Talıbzadə, Abdulla Şaiq.

Abdullayev, Ağarəhim Hacıkərim oğlu: Şamaxılı. 352

Abdullayev, Süleyman. 202, 275, 281

Abdullazadə, Ruhulla (Molla Ruhulla Hacı Abdullazadə): Bakıda, Hacı Qasım bəy məscidinin nümayəndəsi olmuşdur. 484

Abelson, B. A.: Kaspi Eksport bankir evi şurasının üzvü. 303

Adamski: Tsaritsında bolşevik qoşunlarının rəhbərlərindən olmuşdur. 10

Adamson: Bakıdakı İngilis qoşunlarının liman rəisi. 252

Ağa Mirəşrəf: Cavad mahalında camaat xadimi olmuşdur. 22, 176

Ağababa: Bakılı uşaq. 514

Ağabacı Şəmsi qızı: Bakı sakini. 257

Ağabəyov, Rza bəy (1894-1961): Göyçayda anadan olmuş, Moskvada hüquq təhsili almışdır. Göyçaydan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, "Müsavat" fraksiyasının üzvü olmuşdur. 357, 440, 468, 469, 495, 521

Ağaəli Qəni oğlu: Şamaxı sakini. 539

Ağaəli Murad oğlu (Məşhədi Ağaəli): İğdır sakini. 386

Ağaəliyev, İsmayıl: Bakı sakini. 539, 543

Ağaəlizadə, Axund Ağa (1871-1954): Azərbaycanın dini xadimi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin, 1944-1954-cü illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 2, 212, 304

Ağahüseyn Ağadadaş oğlu: Bakı sakini. 461

Ağakişibəyov, Səlim bəy: Quba qəza rəisinin (qaimməqamının) müavini olmuşdur. 40

Ağaqulu Əhməd oğlu: Əmirhacıyan kəndi sakini. 257

Ağaquluzadə, Yarəhməd: "Müsavat"ın Zabrat şöbəsinin üzvü olmuşdur. 484

Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 357, 496, 521, 522

Ağamalov: bax. Ağamalıoğlu, Səməd ağa.

Ağaməhəmmədli: Lənkərandan "Azərbaycan" qəzetinə yazmışdır. 486

Ağaməhəmmədzadə, Əhməd (Hacı

Əhməd): Bakıda, Hacı Ağababa məscidinin nümayəndəsi olmuşdur. 484

Ağamir: "Azərbaycan" qəzetinə Şamaxıdan yazmışdır. 98

Ağaoğlu, Məhəmməd bəy Həsən bəy oğlu (1895-1949): İrəvanda doğulmuş, Moskvada oxumuş, Azərbaycanda dövlət qulluğunda müxtəlif vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra xaricə getmiş, təhsilini Berlin və Vyanada davam etdirmişdir. Türkiyə və ABŞ universitetlərində işləmişdir. 535, 536

Ağarəhimzadə, Sultan: müəllim. 429

Ağayev, Abbas bəy Kərim bəy oğlu: Bakı Mərkəzi teleqraf şöbəsinin müdiri olmuşdur. 414

Ağayev, Fərhad bəy Məşhədi Rəhim oğlu: bax. Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu.

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 28, 356, 440, 494

Ağayev, Məhəmməd. 254

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün "İkinci il" dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin "Azərbaycan" qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 17, 90, 227

Ahi (? - 1517): Osmanlı şairi. 115

Axıcanov, Müseyib bəy (1892-1920): Azərbaycanın dövlət xadimi. Kiyevdə Müqəddəs Vladimir Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı qubernatorunun müavini, Bakı qubernatoru, Azərbaycan Parlamentinin üzvü olmuşdur. Bolşeviklər tərəfindən güllələnmişdir. 120

Axıskalı: "Azərbaycan" qəzetində imza; çox güman ki, Əhməd Cövdət Pepinova məxsusdur.

Axundov: "Azərbaycan" qəzetinin Qarabağdakı müxbiri; bax. Aran, Məhəmməd Sadıq.

Axundov: Bakıda 6-cı polis sahəsinin pristavı olmuşdur. 71, 95

Axundov, Bəhram bəy Məşhədi Mirzə Cəfərqulu bəy oğlu (1872-1932): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 1

Axundov, Cəmil bəy Məşhədi Mirzə Cəfərqulu bəy oğlu (? - 1920): müəllim. 1

Axundov, Əliəkbər Məşhədi Mirzə Cəfərqulu bəy oğlu (? - 1929): müəllim. 1

Axundov, Məcid: Bakıda Dördüncü polis müfəttişliyinin müavini olmuşdur. 44

Axundov, Məhəmməd Sadıq: Ticarət və Sənaye və Ərzaq Nəzarətinin Qarabağ vəkili olmuşdur. 538

Axundov, Məhəmməd Sadıq Molla Ruhulla oğlu: bax. Axundzadə, Məhəmməd Sadıq Molla Ruhulla oğlu.

Axundov, Mirzə Fətəli: Azərbaycanın ictimai xadimi. "Qafqaz Arxeologiya Komissiyası"nın sədri (1864-1878) olmuşdur. 43, 91

Axundov, Nəsir bəy (? - 1919): Şuşalı mülkədar. 1

Axundov, Rəşid bəy (? - 1919). 1

Axundov, Süleyman bəy: müəllim; Dördüncü İbtidai məktəbin müdiri olmuşdur. 508

Axundzadə, Cavad: bax. Əhməd Cavad.

Axundzadə, Əbdülvahab: Şamaxı Müəllimlər İttifaqının üzvü olmuşdur. 97

Axundzadə, Hacı Mirzə Səlim Mirzə

İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 561

Axundzadə, İdris: Gəncə Türk Müəllimləri İttifaqının sədri olmuşdur. 36, 37, 38, 39, 96, 97, 171, 252, 280, 390, 404, 405, 428, 429, 456, 532, 559

Axundzadə, Məhəmməd Sadıq Molla Ruhulla oğlu (1887 - ?): Azərbaycan jurnalisti, publisisti, tərcüməçisi və teatr xadimi. Həştərxanda anadan olmuşdur. "Hümmət" partiyasının üzvü idi. Teatr tənqidinə dair çoxsaylı məqalələrin müəllifidir. 207, 210, 236

Axundzadə, Məhəmməd Səid: Azərbaycan Milli Şurası idarəsinin müdiri olmuşdur. 171

Axundzadə, Məhəmmədhənifə: Azərbaycan Şeyxülislamlıq İdarəsində arxiv işçisi olmuşdur. 212

Axundzadə, Mina xanım: Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 256, 461

Axundzadə, Mirzə Məhəmməd (1875-1923): şair, dramatur, maarifçi və teatr xadimi. "Difai" təşkilatının üzvü olduğu üçün 1908-ci ildə həbs edilərək sürgünə göndərilmişdir. Maarif sahəsində çalışmış, "Müsavat" partiyasının üzvü olmuşdur. Dram əsərləri, şeirlər, ictimai-siyasi mövzulu məqalələr, eləcə də ədəbiyyatşünaslığa və teatr sənətinə dair monoqrafiyalar qələmə almışdır. 227

Axundzadə, Rəşid bəy Hacı Əbdüssalam oğlu (1880-1940): Azərbaycanın ictimai-siyasi xadimi. 1895-1907-ci illərdə Qafqaz müsəlmanlarının Şeyxülislamı olan Axund Hacı Əbdüssalamın oğlu olmuşdur. Kiyevdə hüquq təhsili almışdır. Salyandan Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 1919-cu ilin fevralından avqustunadək Bakının valisi (qubernatoru) vəzifəsini tutmuşdur. Sovet hakimiyyəti dövründə Sibirə sürgün edilmiş və sürgündə ölmüşdür. 120, 383

Akçurin, İshaq. 431

Akçurin, Zərif. 431

Akuşin, Əli Hacı: bax. Akuşinski, Əli Hacı.

Akuşinski, Əli Hacı (1847-1930): XX əsrin əvvəllərində Dağıstanın ictimai-siyasi xadimi və dini lideri olmuşdur. 197

Allahverdi Əsgər oğlu: Balaxanıda fəhlə olmuşdur. 275

Allahverən Hüseyn oğlu (Kərbəlayı Hüseyn oğlu): Zəngəzurlu. 75

Anaplı, Əbülhəsən: bax. Anaplinski, Əbülhəsən.

Anaplinski (Anaplı), Əbülhəsən (1894-1921): Teatr aktyoru. Bir sıra teatr truppalarında, o cümlədən Hacıbəyov qardaşlarının teatr dəstəsində çıxış etmişdir. Əsasən komik rollar oynamışdır. Qarabağda qastrol səfərində olarkən ermənilər tərəfindən xaincəsinə qətl edilmişdir. 126, 179, 210, 236, 300, 483, 489, 544, 565

Ancanov, Marden: Sibirya qırğızlarının siyasi xadimi; bolşevik. 307

Andraşi, Cyula [Gyula Andrássy; 1860-1929]: Macarıstanın siyasi xadimi və diplomatı. 24 oktyabr – 2 noyabr 1918-ci ildə Macarıstanın Xarici İşlər naziri olmuşdur. 160, 359

Andreyev: müəllim; Bakıda Edadi Məktəblər Müəllimləri İttifaqının üzvü olmuşdur. 506

Angel, Yevgeni Petroviç (1897 - ?): Ukraynalı ataman. 33

Apaşev, Danyal Apaş-Mamayeviç (1870-1920): Dağıstanın ictimai-siyasi xadimi. Milliyyətcə kumık. 197

Aran, Məhəmməd Sadıq (Axundzadə; 1895-1976): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, jurnalist. Cümhuriyyətin süqutundan sonra fəaliyyətini mühacirətdə davam etdirmişdir. 48, 51, 181, 264, 327, 418, 513, 541

Arslan, Mustafa Rəhmi (yaxud Evrə-

noszadə Rəhmi bəy; 1874-1947): Türk dövlət adamı. 1908 və 1912-ci illərdə Osmanlı Məclisi-Məbusanına (Parlamentinə) üzv seçilmişdir. 1913-1917-ci illərdə Aydın valisi olmuşdur. İstanbulun ingilislər tərəfindən işğal edilməsindən sonra Maltaya sürgün edilmişdir. Türkiyədə soyadı qanunu çıxdıqdan sonra “Arslan” soyadını qəbul etmişdir. 553

Artold: pəhləvan. 211

Askvit, Herbert Henri [Herbert Henry Asquith; 1852-1928]: Britaniyanın dövlət xadimi. 1908-1926-cı illərdə Britaniya Liberal Partiyasına başçılıq etmiş, 1892-1895-ci illərdə Daxili İşlər naziri, 1905-1908-ci illərdə Maliyyə naziri, 1908-1916-cı illərdə Baş nazir olmuşdur. 332, 446

Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçisi. Bakı Şəhər Dumasının və “Nicat” cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda “Həqqi” təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 205, 207, 210, 236, 302

Aşurov, Ağa (1880-1936): Azərbaycanın dövlət xadimi. Bakıda anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə Ticarət və Sənaye naziri, Ərzaq naziri, Poçt və Teleqraf naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra Rostova köçmüş, orada vəfat etmişdir. 6, 29, 30, 54, 55, 77, 468, 496, 522

Atatürk: Türkiyə Cümhuriyyətinin qurucusu. 192, 380, 500

Atayans, İshak Avetisoviç: Bakıda həkim olmuşdur. 282, 301, 352, 392, 436, 487, 540, 566

Attila (yaxud Atel; Atli): Hun hökmdarı. 219

Avanesov, X.: Bakıda əmlak kontoru olmuşdur. 105

Avksentyev, Nikolay Dmitriyeviç (1878-1943): Rusiyanın siyasi xadimi. Sosialist İnqilabçılar Partiyasının üzvü idi. Ümumrusiya Müvəqqəti Hökumətinin (Ufa Direktoriyasının) sədri olmuşdur. 422

Ayn. Ayn.: “Azərbaycan” qəzetində imza. 147, 200, 273

Ayn. C.: “Azərbaycan” qəzetinə məktub yazmışdır. 280

Ayn. Y.: bax. Əli Yusifzadə.

“Azərbaycanlı M.”: “Azərbaycan” qəzetinə məktub göndərmişdir. 435

Babayev: Şüvəlan sakini. 321

Babayev, Əliheydər: Fabrik müfəttişi. 162

Babayev, Məhəmmədhəsən: Bakıda polis sahə rəisi olmuşdur. 534

Babazadə, Cəlil bəy: müəllim. 405, 428, 429

Babazadə, Şirmirzə: “Müsavat” partiyasının Balaxanı şöbəsinin katibi. 325, 433, 434

Bağırov, Cabbar (Məşhədi Cabbar): Bakıda, Təzəpir camesinin nümayəndəsi olmuşdur. 484

Bağırov, Əliisgəndər Abdulcabbar oğlu (Hacı Abdulcabbar oğlu). 437

Bağırov, Məhəmmədtağı: bax. Bağırzadə, Məhəmmədtağı.

Bağırzadə, Məhəmmədtağı: aktyor. 210, 236, 300

Bahadır Xan: Bakıdakı ingilis qoşunlarının müsəlman zabitlərindən olmuşdur. 482

Baxtıllov: pəhləvan. 1, 106, 329

Balakişi Ağakişi oğlu: Novxanı sakini. 322

Balarza: Xaçmaz sakini. 322

Bammatov, Heydər (yaxud Heydər Bammat; 1889-1965): Dağıstanın siyasi xadimi. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsində oxumuşdur. Dağlılar Respublikasının Xarici İşlər naziri olmuş, 1921-ci ildə mühacirətə getmişdir. 197

Bandholts, Harri Hill [Harry Hill Bandholtz; 1864-1925]: Amerikanın hərbi xadimi; general-mayor. Birinci Dünya müharibəsindən sonra Müttəfiqlərin Macarıstandakı hərbi heyətinə daxil idi. 212

Baratov, Nikolay Nikolayeviç (1865-1932): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsi dövründə İranda xidmət edən Birinci Qafqaz süvari korpusunun komandiri olmuşdur. Oktyabr inqilabından sonra Ağqvardiyaçılar hərəkatına qoşulmuş, Gürcüstan Hökuməti yanında Denikinin nümayəndəsi olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 73, 122, 294, 368, 508, 509, 557, 558

Barsov: Rus ordusunun zabiti; Türküstanda xidmət etmişdir. 400

Bartold, Vasili Vladimiroviç (1869-1930): Rus tarixçisi, şərqşünası və filoloqu. Rusiyada şərqşünaslıq məktəbinin qurucularından idi. 1926-cı ildə Bakıda baş tutan Birinci Türkoloji Qurultayının təşkilatçılarından biri olmuşdur. 547

Baybekov, Qazilxan. 431

Bayəzid II (1447-1512): Osmanlı padşahı; 1481-1512-ci illərdə hakimiyyətdə olmuşdur. 115, 551

Bayraməlibəyova, Məryəm xanım (1898-1987): pedaqoq, xeyriyyəçi. Teymur bəy Bayraməlibəyovun qızı, Cavad bəy Məlik-Yeqanovun həyat yoldaşı idi. 389

Bayramov, Əhməd əfəndi Muxtar oğlu: Şəkidə müəllim işləmişdir. 97

Bek: Rusiyada Vətəndaş müharibəsi illərində ukraynalı üsyançı atamanlardan olmuşdur. 33

Bekzadyan, Tiqran Arutyunoviç (yaxud Artyomoviç; 1877-1942): Şuşada anadan olmuş, 1917-ci il inqilabından əvvəl Bakıda neft sənayesi sahəsində işləmişdir. Cümhuriyyət dövründə Ermənistanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. Fransaya mühacirətə getmişdir. 142, 143, 144

Berje, Adolf Petroviç (1828-1886): Rusiya tarixçisi və şərqşünası. Qafqazla xüsusilə maraqlanmış, 1864-1886-cı illərdə Qafqaz Arxeoqrafiya Komissiyasının sədri olmuşdur. 43, 51

Betman-Holveq, fon Teobald [Theobald von Bethmann Hollweg; 1856-1921]: Almaniyanın siyasi xadimi; 1909-1917-ci illərdə Baş nazir olmuşdur. 10, 471

Bədri bəy: Osmanlı dövründə İstanbulun Polis İdarəsinin müdiri olmuşdur. 269

Bədirnisa Mirzə qızı: Bakı sakini. 510

Bən: "Azərbaycan" qəzetində imza. 347

Bəşir Şirin oğlu: Quba qəzasının Qızılburun stansiyasında jandarma olmuşdur. 511

Bibixanım Əkbər qızı: Bakı sakini. 514

Bibiqüds Əbdülqasım oğlu: Quba qəzasının Əmirxanlı kəndinin sakini. 322

Biçeraxov, Lazar Fyodoroviç (1882-1952): Rusiyanın hərbi xadimi. İrandakı Rusiya korpusunda xidmət edərkən, təxminən 1000 nəfərlik bir dəstə yaratmış, ingilislərlə əməkdaşlıq etmişdir. Bakı Komissarları da Qafqaz İslam Ordusuna qarşı Biçeraxovun yardımına müraciət etmişdilər, ancaq daha sonra bolşeviklərlə Biçeraxov arasında ixtilaf meydana gəldi və Biçeraxov öz dəstəsi ilə birgə Dağıstana çəkildi. Sentrokaspi Diktaturası Xəzər dənizindəki hərbi donanmanı Biçeraxovun əmrinə vermişdi. 41, 263, 315, 368

Bilal Məhəmməd oğlu (Molla Bilal Hacı Məhəmməd əfəndi oğlu): Şəkinin Birinci Biləcik kəndinin prixod mollası olmuşdur. 2

Bilgə xaqan (683-734): Şərqi Göytürk xaqanlığının xaqanı olmuşdur. 220

Bilgə qaan: bax. Bilgə xaqan

Birqvist: Finlandiya Xarici İşlər Nazirliyinin Bakıdakı vəkili olmuşdur. 534

Bismark, Otto fon [Otto von Bismarck; 1815-1898]: Almaniyanın dövlət xadimi. Almaniyanın birləşdirilməsini həyata keçirmiş, Alman imperiyasının birinci kansleri olmuşdur. 336, 403

Blajevski, V. F.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyi Dəftərxanasının müdiri olmuşdur. 54, 80, 133, 414, 518, 544

Boni: Macarıstan generalı. 84

Bora, Vilyam [William Borah; 1865-1940]: Amerikanın siyasi xadimi, senator (1907-1940). 191

Boris III (1894-1943): Bolqarıstan çarı; 1918-1943-cü illərdə hakimiyyətdə olmuşdur. 397, 412, 444, 463

Borovski, Aleksandr Aleksandroviç (1877-1939): Rusiyanın hərbi xadimi; general-leytenant. Türküstan ordusunun (Zakaspi vilayəti) komandiri təyin edilmişdir. 294, 399, 481

Bortsov, V. Y.: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin, Poçt və Teleqraf Nazirliyinin katibi olmuşdur. 80

Brantinq, Yalmar [Hjalmar Branting; 1860-1925]: İsveçin siyasi xadimi. İsveç Sosial-Demokrat Partiyasının liderlərindən, 1920-ci ilin mart-oktyabr aylarında, 1921-1923 və 1924-1925-ci illərdə üç dəfə Baş nazir olmuşdur. 86

Buyvolov: pəhləvan; "Sibirya ayısı" ləqəbi ilə tanınmışdır. 355, 375, 395, 413, 439, 465, 492, 543

C. B.: Bakı Realnı məktəbinin şagirdi. 153

Cabbarlı, Cəfər: bax. Cabbarzadə Cəfər.

Cabbarov, Bağır: bax. Cabbarzadə, Bağır.

Cabbarzadə, Bağır (1894-1951): Azərbaycan aktyoru. 126

Cabbarzadə, Cəfər (yaxud Cəfər Cabbarlı; 1899-1934): Azərbaycanın məşhur dramaturqu, şairi və teatr rejissoru. Cümhuriyyət dövründə Qafqaz Türk Tələbələri Mərkəzi Komitəsinin üzvü, Parlamentin türkcə stenoqrafı olmuşdur. 158, 179, 259, 278, 279, 314, 327, 454, 531, 544

Cahan Xan: Bakıdakı ingilis qoşunlarının müsəlman zabitlərindən olmuşdur. 482

Camal bəy: Muğan diktaturasına qarşı döyüşən dəstə komandiri. 387

Camalbəyov, Qasım bəy (1881-1938): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Hümmət" partiyasının üzvü idi. Azərbaycan Parlamentinin üzvü olmuşdur. 41, 468

Cavad: İran Maarif Cəmiyyəti "İttihad" məktəbinin mənsubu. 390

Cavad Kazım oğlu: ərəb; Cəmiyyəti-Xeyriyyəyə müraciət etmişdir. 319

Ceyms, Konneli: İngilis siyasətçisi. 59

Cəfər: Qəmərli sakini. 48

Cəfər Dadaş oğlu (Məşhədi Cəfər Məşhədi Dadaş oğlu): Ağdamın bələdiyyə rəisi. 14

Cəfər Əliağa oğlu (? - 1919): Salyan sakini. 177

Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 45, 150, 193, 414, 454, 555

Cəfərzadə, Bilal: "Müsavat"ın Ramana şöbəsinin üzvü olmuşdur. 484

Cəlal əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 351

Cəlal əfəndi: Azərbaycan Müəllimlər Qurultayına Cəbrayıl qəzasının nümayəndəsi kimi müraciət etmişdir. 428

Cuvarlı, Cavad bəy: bax. Cuvarlinski, Cavad bəy.

Cuvarlinski, Cavad bəy Nəcəf bəy oğlu (1886-1963): Qori Müəllimlər Seminariyasını bitirmiş, ömrünün axırına kimi təhsil sahəsində işləmişdir. Azərbaycan məktəbləri üçün dərsliklər hazırlamışdır. 121

Çapıqin, İlya: Tərtər və Gəncədə poçt-teleqraf bürosunda işləmişdir. 133

Çarıkov, Nikolay Valeryeviç (1855-1930): Rusiyanın siyasi xadimi və diplomatı. Diplomat kimi bir sıra ölkələrdə fəaliyyət göstərmiş, o cümlədən 1909-1912-ci illərdə Türkiyədə Fövqəladə və səlahiyyətli səfir olmuşdur. Sulkeviçin Krım Regional Hökumətində (iyun-noyabr 1918-ci il) Maarif naziri

vəzifəsini tutmuşdur. 19

Çaykovski, Nikolay Vasilyeviç (1851-1926): Rus inqilabçı. Sankt-Peterburq Universitetini bitirmişdir. Sosialist İnqilabçılar Partiyasına qoşulmuşdur. 1874-1907-ci illərdə Amerika və Avropada yaşamışdır. Bolşeviklərin hakimiyyəti ələ keçirməsinə etiraz etmiş, Ümumrusiya Müvəqqəti Hökumətinin üzvü, Şimal Vilayəti Müvəqqəti Hökumətinin sədri olmuşdur. 498

Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində "Vəhşi diviziya"nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 196, 224

Çəmənzəminli, Yusif Vəzir (Vəzirov; 1887-1943): Azərbaycan yazıçısı və diplomatı. 17, 25, 44, 68, 77, 92

Çiçerin, Georgi Vasilyeviç (1872-1936): Rusiyanın siyasi xadimi və diplomatı. 1918-1923-cü illərdə Rusiyanın, 1923-1930-cu illərdə SSRİ-nin Xarici İşlər xalq komissarı olmuşdur. 499, 500, 515

Çingiz xan (1162-1227): Monqol sərkərdəsi və Monqol imperiyasının banisi. Tarixin yetişdirdiyi ən böyük sərkərdələrdən biri olmuşdur. 63, 419

Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 447

Dadaş Mirzəməhəmməd oğlu (Kərbəlayı Dadaş Hacı Mirzəməhəmməd oğlu): Bakıda, Hacı Hüseyn məscidinin nümayəndəsi olmuşdur. 484

Dadaşov, Əliislam: Azərbaycan aktyoru. 126, 182, 210, 236, 300, 483, 565

Dadaşov, Məhəmməd: Bakı sakini. 150

Damad Fərid paşa (1853-1923): Osmanlı imperiyasının dövlət xadimi. 4 mart – 30 sentyabr 1919-cu il və 5 aprel – 17 oktyabr 1920-ci il tarixlərində Baş nazir olmuşdur. 11, 269, 337, 360, 554

Danilyan-Kasparyan: Göyçayın Vəng kəndinin sakini. 435

Darablı, Rza (yaxud Rza Darablinski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. "Nicat", "Səfa", "Hacıbəyov qardaşları müdiriyyəti" truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 105, 126, 131, 257, 300, 355, 483, 544, 565

Davidov, Avqust Yulyeviç (1823-1886): Rus riyaziyyatçısı. 90

Debuçi, Katsuyi (1878-1947): Yaponiyanın diplomatı; 1928-1934-cü illərdə ABŞ-da səfir olmuşdur. 186

Dembo, B. İ.: Kaspi Eksport bankir evi idarə heyətinin üzvü. 303

Dembo, İ. İ.: Kaspi Eksport bankir evi şurasının üzvü. 303

Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 8, 18, 19, 20, 48, 62, 81, 84, 93, 106, 110, 111, 122, 138, 139, 163, 164, 165, 166, 188, 192, 196, 197, 202, 223, 224, 228, 245, 246, 254, 263, 264, 269, 273, 274, 276, 292, 293, 294, 295, 317, 333, 335, 359, 361, 366, 377, 400, 409, 414, 415, 416, 417, 422, 426, 427, 442, 450, 451, 458, 471, 497, 499, 500, 503, 520, 556, 558

Denkayev, Zakir. 431

D'Esperi, Franşe [Franchet d'Espèrey; 1856-1942]: Fransanın siyasi və hərbi xadimi, marşal. Cənubi Rusiyada Fransanın Ali komissarı olmuşdur. 265, 309

Devi, K. M.: Britaniya ordusunun Qafqazdakı general-mayoru olmuşdur. 42

Djiovani: pəhləvan. 1, 53, 132, 235, 262, 395, 439, 492

Donqarov, O.: Bakı sakini. 320

Dostoyevski, Fyodor Mixayloviç (1821-1881): Rus yazıçısı. 70

Dostu Məhəmməd qızı: Bakı sakini; Məhəmməd Dadaşovun arvadı. 150

Dövlət Əlibaba oğlu: fəhlə. 119

Draqneviç, Yevgeni Vasilyeviç (1882-1929): Tiflisdə ədliyyə sistemində işləmiş, Kutais prokurorunun müavini olmuşdur. 1919-cu ilin yanvarında Bakıya köçmüş, neft sənayesi sahəsində (Benkendorfun şirkətində) işləməyə başlamışdır. 1919-cu ilin avqust ayında Ədliyyə Nazirliyi nəzdində Xüsusi İstintaq Komissiyasının üzvü təyin edilmişdir. 295

Dumenko, Boris Mokeyeviç (1888-1920): Rusiyada Vətəndaş müharibəsi illərində Qırmızı ordunun süvari korpusunun komandiri olmuşdur. 61, 77

Durdu İsmayıl oğlu. 390

Ebert, Fridrix [Friedrich Ebert; 1871-1925]: Almaniyanın siyasi xadimi; sosial demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin fevralına qədər Almaniyanın Baş naziri, 1919-cu ilin fevralından 1925-ci ilin fevralına qədər Almaniya Prezidenti olmuşdur. 186

Ehrabi, Məhəmməd: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

"El": "Azərbaycan" qəzetinə məktub göndərmişdir. 435

Eldarzadə, İ: Bakı qəzası Hərbi Çağırış İdarəsinin üzvü. 330

Elizabet Aleksandrine [Elisabeth Alexandrine; 1869-1955]: Oldenburq Böyük hersoqu II Fridrix Avqustun arvadı. 302

Elmalılı Məhəmməd Həmdi: bax. Yazır, Məhəmməd Həmdi.

Elmer, Teodor: Erməni və suriyalılara yardım üzrə Amerika Komitəsinin Azərbaycan nümayəndəsi. 167, 168

Eminbəyli, İbrahim (1894-1937): Azərbaycanın müxtəlif şəhərlərində müəllimlik etmiş, Sovet dövründə mətbuat və nəşriyyat sahəsində işləmişdir. 1937-ci ildə güllələnmişdir. 429

Erdeli, İvan Georgiyeviç (1870-1939): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun qurucularından olmuşdur. 1919-cu ilin yanvarından Zaqafqaziya və Şimali Qafqazda fəaliyyət göstərmişdir. 399

Esmarx, Fridrix fon [Friedrich von Esmarch; 1823-1908]: Alman həkimi; cərrah. 154

Eyyub bəy: Bakıda, Hüseynqulu məscidinin nümayəndəsi olmuşdur. 484

Eyyub paşa: Kürd silahlı dəstələrinin başçılarından olmuşdur. 74

Eyzenşmidt, Karl Fyodoroviç: Alman əsilli sənayeçi; Bakıda fəaliyyət göstərmişdir. 77, 233

Əbdül: Axtı (Dağıstan) sakini; Nikolay ordusunda yüzbaşı olmuşdur. 361

Əbdüləhəd Nəsrulla oğlu (Molla Əbdüləhəd Molla Nəsrulla oğlu): Göyçayın Qaraxıdır kəndinin sakini və mollası olmuşdur. 80

Əbdülhaq Hamid: bax. Tarhan, Əbdülhaq Hamid.

Əbdülhəmid II [1842, 1918]: Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 327, 353, 393, 552, 567

Əbdülhəsən Mirəbdülbaqi oğlu (Seyid Əbdülhəsən): Bakının Türkan kəndinin mollası olmuşdur. 80

Əbdülkərim İsa oğlu (Molla Əbdülkərim İsa əfəndi oğlu): Göyçay qəzasının Şahsünni (indiki Zərdab rayonunun Şahhüseynli) kəndinin sakini olmuşdur. 2

Əbdülqasım Həbib oğlu: Bakıda yaşamış iranlılardan. 118

Əbdülqəni Cəfər oğlu: Qədimkənd (Neftçala) kəndxudası. 510

Əbdürrəhim Əbdülkərim oğlu (Molla Əbdürrəhim Molla Əbdülkərim oğlu): novxanılı; Corat prixodunun mollası olmuşdur. 2

Əbdürrəhim İsmayıl oğlu (Hacı İsmayıl oğlu): Bakı sakini. 510

Əbdürrəhim İsmayıl oğlu (Hacı İsmayıl oğlu): Ordubad qaçqınlarından. 275

Əbdürrəhimzadə: Azərbaycan Şeyxülislamlıq İdarəsində arxiv işçisi, kargüzar olmuşdur. 212

Əbdürrəhman xan (1844-1901): Əfqanıstan əmiri. 1880-1901-ci illərdə hakimiyyətdə olmuşdur. 146, 155

Əbilov, İbrahim (1881-1923): Azərbaycanın siyasi xadimi, inqilabçı və diplomat. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının Türkiyədə Fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutmuşdur. 497

Əbubəkr (573-634): Səhabə; Dörd xəlifədən birincisi. 206

Əcəm paşa: İranlı şeyx. 270

Ədhəm bəy: 1919-cu ildə İzmir valisi təyin edilmişdir. 554

Əfəndiyev, Abdulla bəy: bax. Əfəndizadə, Abdulla bəy.

Əfəndiyev, Baba əfəndi: Zaqatalada müəllim olmuşdur. 177

Əfəndiyev, Əbdülkərim: Axtı (Dağıstan) sakini. 361

Əfəndiyev, Nurulla əfəndi: Zaqatalada müəllim olmuşdur. 177

Əfəndiyev, Rəcəb əfəndi: Zaqatalada müəllim olmuşdur. 177

Əfəndiyev, Rəşid bəy: bax. Əfəndizadə, Rəşid bəy.

Əfəndizadə, Abdulla bəy İsmayıl əfəndi oğlu (yaxud Əfəndiyev; 1875-1928): Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra şəhərlərində müəllimlik etmiş, Şəkidə müəllim kursları və məktəblər açdırmışdır. Şəki Şəhər Bankının və Şəki Şəhər Dumasının sədri olmuşdur. Şəkidən Azərbaycan Parlamentinə üzv seçilmişdir. 468

Əfəndizadə, Hacı Hüseyn (yaxud Əfəndiyev; 1887-1920): Göyçay qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir. 133, 469

Əfəndizadə, İdris: müəllim. 428, 429

Əfəndizadə, Məbud: Şəki-Ağdaş Müəllimlər İttifaqının sədri olmuşdur. 429, 456

Əfəndizadə, Məhəmməd Şərif (yaxud Mehmet Şerif Bilgehan; 1887-1954): müəllim. Şamaxıda doğulmuş, Türkiyə və İsveçrədə təhsil almışdır. Türkiyədə mühacirətdə yaşamış, müəllimlik etmiş, təhsil sistemində işləmişdir. 423, 426, 438, 555

Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. Maarif sahəsində böyük xidmətləri olmuşdur. Ərəş qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 357, 468

Əfəndizadə, Mustafa: Qafqazın müftüsü. 2, 4, 80, 212, 304

Əfəndizadə, Rəşid bəy (yaxud Əbdürrəşid bəy; 1863-1942): Azərbaycanın görkəmli maarifçisi. Qori Seminariyasını və Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Zaqafqaziya Sünni Ruhani İdarəsində işləmiş, Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Uşaq bağçası", "Bəsirətül-ətfal" dərsliklərinin müəllifidir. Şeir və hekayə də yazmışdır. Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 508

Əfəndizadə, Şəfiqə (1882-1959): Azərbaycan pedaqoqu və publisisti. 405, 427, 428, 429, 456, 506

Əfi: bax. Seyid Hüseyn Sadiq.

Əhməd I (1590-1617): Osmanlı sultanı; 1603-1617-ci illərdə hakimiyyətdə olmuşdur. 146

Əhməd bəy: Muğanın Azərbaycanlı camaatının, Muğan diktaturasına qarşı döyüşən qüvvələrinin komandirlərindən olmuşdur. 387

Əhməd Cavad (Axundzadə, 1892-1937): Azərbaycanlı şair və ictimai xadim. Azərbaycan Respublikasının Dövlət Himninin sözləri Əhməd Cavada məxsusdur. 429, 456

Əhməd Cövdət: bax. Pepinov, Əhməd bəy.

Əhməd İzzət paşa (yaxud Əhməd İzzət Furqaç; 1864-1937): Türkiyənin hərbi və siyasi xadimi. Alman ordusunda təlim keçmişdir. Birinci Dünya müharibəsində Şərq Ordular Qrupunun tərkibindəki İkinci Ordunun komandanı olmuşdur. 14 oktyabr – 8 noyabr 1918-ci ildə Osmanlı dövlətinin Sədrəzəmi (Baş naziri) olmuşdur. Türk Qurtuluş Savaşında iştirak etmişdir. Türkiyədə soyadları haqqında qanun çıxdıqdan sonra "Furqaç" soyadını qəbul etmişdir. 380, 554

Əhməd Kamal (Akünal; 1873-1942): müəllim, jurnalist. İstanbulda anadan olmuşdur. 1906-1911-ci illərdə Balaxanıda Nəşri-maarif məktəbinin müdiri olmuşdur. 433

Əhməd Mirzə: bax. Qacar, Əhməd şah.

Əhməd şah: bax. Qacar, Əhməd şah.

Əhməd Şuayb (1876-1910): Türk filosofu və hüquqşünası. 283

Əhməd Tofiq paşa (Okday; 1845-1936): Osmanlı dövlət xadimi. 1909-cu ildə, 1918-1919-cu illərdə və 1920-1922-ci illərdə Baş nazir olmuşdur. Eyni zamanda Osmanlı dövlətinin axırıncı Baş naziri idi. Paris Sülh Konfransında Osmanlı heyətinin rəhbəri olmuşdur. Soyadı qanunu çıxdıqdan sonra "Okday" soyadını qəbul etmişdir. 360, 444, 554

Əhmədağa: Azərbaycan müəllimi; Müəllimlər İttifaqı Qurultayının nümayəndəsi. 532

Əhmədbəyov: Göyçay qəza idarəsinin kargüzarı olmuşdur. 216

Əhmədbəyova, Rübabə xanım: Göyçay qəza idarəsi kargüzarının arvadı. 216

Əhmədbəyzadə, Soltan bəy: Göyçay Müəllimlər İttifaqı üzvü. 97

Əhmədov, Əsədulla Əhməd oğlu (1867-1941): Azərbaycanın ictimai-siyasi xadimi, xeyriyyəçi. Nəşri-Maarif Cəmiyyətinin təsisçilərindən biri idi. Bakı Bələdiyyə Məclisinin, Azərbaycan Cümhuriyyəti Parlamentinin və "Müsavat" partiyasının üzvü olmuşdur. 319, 468

Əhmədov, Mahmud (Məşhədi Mahmud): Bakı sakini. 510

Əhmədov, Murad: "Kaspi" şirkətinin Bibiheybətdəki mədənində gözətçi işləmişdir. 431

Əhmədov, Mustafa: pəhləvan. 79, 132, 157, 262, 303

Əhmədov, Yusif (yaxud Yusifəli Əhmədov; ? - 1938): Ticarət və Sənaye İttifaqının sədri olmuşdur. Azərbaycan Parlamentinin üzvü idi. 496

Əhmədzadə, Yusif: bax. Əhmədov, Yusif.

Əkbər Əsgər oğlu: İrəvan qəzasının Baş Noraşen kəndindən. 372

Əkbərov, Tağı (Kərbəlayi Tağı): Lənkəran sakini. 388

Ələkbər Məhəmməd oğlu: Bakıda polis işçisi olmuşdur. 534

Ələkbərov, Həsən (Məşhədi Həsən): Bakı sakini. 539, 543

Ələkbərov, İsmayıl: Bakı sakini. 539, 543

Ələmdar Məhəmməd oğlu: Bakıdakı iranlılardan. 321

Ələsgər Baba oğlu: Bakıdakı İran təbəələrindən. 202

Ələsgər Bağır oğlu (Molla Bağır oğlu): Bakıdakı İran təbəələrindən. 406

Əli ibn Əbu Talib (601-661): İslam xəlifəsi, Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni. 206

Əli paşa (? - 1511): Osmanlı imperiyasının dövlət xadimi. 1501-1503 və 1506-1511-ci illərdə sədrəzəm (baş vəzir) olmuşdur. 115, 129

Əli Şövqi: bax. Şeyxzamanlı, Əli Şövqi.

Əli Yusif: bax. Yusifzadə, Əli.

Əliağa Cəfər bəy oğlu (? - 1919): Salyan sakini. 256

Əliağa Piri oğlu: Bakı sakini. 510

Əlibala Paşa oğlu: Şağan kəndinin sakini. 321

Əlif. Əlif.zadə: "Azərbaycan" qəzetində imza; Kürdəmirdən, Şamaxıdan yazmışdır. 204, 350

Əliisgəndərov, Səməd bəy: bax. Əliisgəndərzadə, Səməd bəy.

Əliisgəndərzadə, Səməd bəy: mühəndis; "Müsavat" üzvü. Balaxanı-Sabunçu polismeysteri olmuşdur. 119, 254, 298

Əlikərimov, Nasir: "Müsavat" üzvü. 202

Əlikərimzadə, Nasir: bax. Əlikərimov, Nasir.

Əliqulu (Kərbəlayı Əliqulu): Bakı sakini; Nağı məscidinin nümayəndəsi. 510

Əliməhəmməd: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 532

Əlipaşa Gülmirzə oğlu: Bakı sakini. 510

Əlirza Məhəmmədəli oğlu: Bakı sakini. 539

Əliverdibəyov, Qara bəy (1879-1929): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 15, 356, 357, 358

Əliverdili, Qara: bax. Əliverdibəyov, Qara bəy.

Əliverdiyev, Qara bəy: bax. Əliverdibəyov, Qara bəy.

Əliyev: Şüvəlan sakini. 321

Əliyev, Dadaş: Bakıda, Hacı İmaməli məscidinin nümayəndəsi olmuşdur. 484

Əliyev, M.: praporşik. 408

Əliyev, M.: Bakı Hərbi Çağırış İdarəsinin sədri. 330

Əliyev, Məhəmməd: Bakı limanının polis müfəttişliyinin məmuru olmuşdur. 253

Əliyev, Mirzəağa: bax. Əlizadə, Mirzəağa.

Əliyev, Yusifəli: Ticarət və Sənaye nazirinin müavini olmuşdur. 353, 479, 481, 488

Əlizadə, Hümmət: "Müsavat" partiyasının Balaxanı şöbəsinin üzvü olmuşdur. 322

Əlizadə, İsa (Mirzə İsa): Gəncə sakini. 180

Əlizadə, Mirzəağa (1883-1954): Azərbaycan aktyoru. "Həmiyyət", "Nicat" truppalarında çıxış etmişdir. 1924-cü ildən etibarən Azərbaycan Dövlət Dram Teatrında çalışmış, 1949-cu ildə Xalq artisti adına layiq görülmüşdür. 53, 74, 105, 124, 125, 131, 544, 565

Əmanulla xan (1892-1960): Əfqanıstan hökmdarı. 1919-1926-cı illərdə Əfqanıstan əmiri, 1926-1929-cu illərdə Əfqanıstan şahı olmuşdur. 259

Əmidulla: Qubanın Nügədi kəndinin sakini. 48

Əminov, Ağa Məşhədi Kərim oğlu (yaxud Əminzadə; 1888-1921): "Müsavat" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 1919-cu ildə Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 184, 440, 488

Əminzadə, Əbülqasım əfəndi: Şamaxı və Bakının sünniməzhəb qazısı olmuşdur. 304

Əmioğlu, Əli: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Əmir Xan: Bakıdakı ingilis qoşunlarının müsəlman zabitlərindən olmuşdur. 482

Əmiraslanov, Əliabbas: Bakıda Naberejni küçədə (indiki Neftçilər prospektində) dükanı olmuşdur. 326

Əmircanov, Əbdüləli bəy (1870-1948): Azərbaycanın ictimai-siyasi xadimi. Tiflisdə Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra yerlərində müəllim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə naziri, Dövlət Nəzarəti naziri vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirətə getmişdir. 458, 470

Əmirov: Ticarət limanının müdiri olmuşdur. 561

Əmirov, Əsəd bəy Abdulla bəy oğlu (1887 - ?): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Bakı Bələdiyyəsinin, Azərbaycan Parlamentinin üzvü olmuşdur. 468

Ənvər paşa (1881-1922): Osmanlı dövlətinin hərbi və siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən idi. 1914-1918-ci illərdə Osmanlı dövlətinin Hərbi naziri, Baş Qərargah rəisi olmuşdur. Türk

xalqlarını birləşdirmək uğrunda mübarizə aparmışdır. 312, 313, 314, 315, 336, 500, 528

Ərdəbili, Ələsgər: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Ərəbli, Hüseyn (yaxud Hüseyn Ərəblinski; Xələfov; 1881-1919): Azərbaycanın teatr aktyoru və rejissoru. "Nicat", "Səfa", Hacıbəyli Qardaşları müdiriyyəti truppalarında çıxış etmişdir. 179

Ərəblinski, Hüseyn: bax. Ərəbli, Hüseyn.

Əsədbala Hüseynbala oğlu: Bakı sakini. 461

Əsədullazadə, Məhəmmədəli (yaxud Məhəmmədəli Tabaqçı). 74, 75, 127, 506

Əsgər Vəli oğlu (Molla Vəli oğlu): Bakıdakı İran təbəələrindən. 406

Əsgərzadə: Azərbaycan müəllimi; Müəllimlər İttifaqı Qurultayının nümayəndəsi. 532

Əsgərzadə, Abbas: İrəvan sakini. 49

Əşrəf Abbas oğlu: Salyan sakini. 176

Əzimzadə, Süleyman bəy. 119

Əziz Əli oğlu: Bakıdakı İran təbəələrindən. 406

Əziz İbrahim oğlu: Ərdəbilli. 352

Əziz İbrahimxəlil oğlu (Hacı Əziz əfəndi Hacı İbrahimxəlil oğlu): Ərəş qəzasında prixod mollası; Ərəş və Cavanşir qəzalarının qazısı olmuşdur. 304

Əziz Qurbanəli oğlu: Ramanada fəhlə olmuşdur. 275

Faddeyev, Semyon Andreyeviç (1835-1909): Rusiyanın hərbi xadimi, general. 1905-1906-cı illərdə Bakının general-qubernatoru olmuşdur. 400

Fatma Həsən qızı (Fatma xanım Həsən qızı): Bakı sakini. 510

Fatma Süleyman qızı: Bakı sakini. 461

Faysal I (1885-1933): Hicaz kralı Şərif Hüseynin oğlu idi. 1920-ci ildə Suriya kralı, 1921-1933-cü illərdə İraq kralı olmuşdur. 34

Ferdinand I [Ferdinand I, 1861-1948]: Bolqarıstan çarı. 1908-ci ildə Üçüncü Bolqar çarlığının əsasını qoymuşdur. Bolqarıstanın Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra, 3 oktyabr 1918-ci ildə oğlu III Borisin xeyrinə taxtdan çəkilmişdir. 184

Ferdinand I [Ferdinand I; 1865-1927]: Rumıniya kralı. 1914-1927-ci illərdə taxtda olmuşdur. 470, 489

Feyzulla: Salyan sakini; çayçı. 256

Feyzulla Sadıq oğlu (Məşhədi Sadıq oğlu): Salyan sakini. 177, 181

Feyzullazadə, Şıxəli (Hacı Şıxəli): Bakıda "Səadət" mədrəsəsinin müdiri olmuşdur. 461

Fərəc Cəfərqulu oğlu: Salyan sakini. 176

Fərəczadə, Zülfüqar: "Müsavat" partiyası Mərkəzi Komitəsinin və Bakıdakı Zəngəzurlular Komitəsinin üzvü olmuşdur. 371

Fətəli Fətəli oğlu: Dəllər kəndinin sakini; Müsəlman Korpusunda xidmət etmişdir. 342

Fətəlizadə, Əli: Zəngəzur qəzasının Xocahan kəndinin sakini. 72

Fəttah Əbdussultan oğlu (Hacı Əbdussultan oğlu; ? - 1919): Bakıdakı İran təbəələrindən. 406

Fəttah İsmayıl oğlu: Qubanın Rük kəndinin camaat nümayəndəsi olmuşdur. 368

Filatov: Tsaritsında bolşevik qoşunlarının rəhbərlərindən olmuşdur. 10

Firidun Teymur oğlu: Şağan kəndinin sakini. 321

Fiskin: Azərbaycan Sosial Müdafiə Nazirliyi Dəftərxanasının müdiri olmuşdur. 14

Flober, Qüstav [Gustave Flaubert; 1821-1880]: Fransız realist yazıçısı. 278

Foş, Ferdinand [Ferdinand Foch, 1851-1929]: Fransanın hərbi xadimi, marşal. 60, 135, 379

Frans Ferdinand [Franz Ferdinand; 1863-1914]: Avstriya böyük hersoqu. Suiqəsd nəticəsində öldürülməsi Birinci Dünya müharibəsinin başlanmasına bəhanə olmuşdur. 242, 259

Fridrix Avqust II [Frederick Augustus II, Grand Duke of Oldenburg; 1852-1931]: 1900-1918-ci illərdə Oldenburq Böyük hersoqu. 302

Fridrix, Stefan (yaxud İştvan Fridrix) [István Friedrich; 1883-1951]: Macarıstanın siyasi xadimi. 359

Gegeçkori, Yevgeni Petroviç (1881-1954): Gürcüstanın dövlət xadimi. Menşevik. Hüquq təhsili almışdır. Zaqafqaziya Komissarlığının sədri seçilmişdi. Gürcüstan müstəqilliyini elan etdikdən sonra xarici işlər naziri, 1921-ci ildə isə ədliyyə naziri oldu. Gürcüstanın sovetləşməsinin ardından mühacirət etdi. 45, 122, 162, 415

Gənc Əli İbad: pəhləvan. 1, 53, 106, 132, 211, 235, 303, 329, 439

Gimranov: Türkmən komissarı. 214

Gülbacı Yarməhəmməd qızı: Bakı sakini. 510

Gvoans: kapitan. 151

H. R.: "Azərbaycan" qəzetindəki imzalardan biri; bax. Məhəmmədbəyli, Hüseyn Rza.

H. S.: "Azərbaycan" qəzetində imza. 387

Hacı Axund (lənkəranlı). 561

Hacı Bəşir (? - 1919): Dərbənd sakini. 361

Hacı Cəbrayıl oğlu (Gəncəli). 75

Hacı xan: İran konsulunun Xaçmazdakı naibi. 322

Hacı Molla Səlim əfəndi: bax. Axundzadə, Hacı Mirzə Səlim.

Hacı Rza xan: İranlı qoşun başçısı. 12

Hacıabdullazadə, Ruhulla (Molla Ruhulla): Bakıda, Hacı Baba təkyəsinin və Qasım bəy məscidinin nümayəndəsi olmuşdur. 484

Hacıbababəyov, Hüseynağa (1898-1972): Azərbaycanın opera müğənnisi. Azərbaycan SSR Xalq artisti. Şamaxıda anadan olmuşdur. 1, 210, 236, 300

Hacıbababəyov, Mehdi bəy (1871-1925): Azərbaycanın ictimai-siyasi xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 356, 468, 469

Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycanlı bəstəkar, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və jurnallarında, o cümlədən "Azərbaycan" qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 105, 131

Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycanlı bəstəkar. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 483, 544

Hacıəliyev, Səməd bəy: bax. Hacıəlizadə, Səməd bəy.

Hacıəlizadə, Səməd bəy (yaxud Hacıəliyev): Azərbaycanın maarif xadimi. Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının üzvü olmuşdur. 508

Hacıxanov: Dağıstan Parlamentinin üzvü; tələbə. 409

Hacınəcəfquluzadə, Kazım (Kərbəlayı Kazım): bax. Kazım Nəcəfqulu oğlu.

Hacınski, Camo bəy (1888-1942): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuş, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 1938-ci ildə sürgün edilmiş, həbs düşərgəsində ölmüşdür. 54, 80, 133, 391, 414, 518, 544

Hacınski, İsa bəy (1860-1919): Azərbaycanın ən böyük neft sənayeçi və xeyriyyəçilərindən biri. 226

Hacınski, Mehdi bəy Süleyman bəy oğlu (yaxud Hacızadə; 1879-1941): Azərbaycanın ictimai-siyasi xadimi. Bakı Şəhər Dumasının, "Nicat" və "Səfa" cəmiyyətlərinin üzvü, Daxili İşlər nazirinin müavini, Azərbaycan Parla-

mentinin üzvü idi. Parlamentin katibi vəzifəsini tutmuşdur. 290, 356, 357, 469, 494, 523

Hacınski, Məhəmmədhəsən (1875-1931): Azərbaycanın dövlət xadimi. Peterburq Texnologiya İnstitutunu bitirmişdir. Cümhuriyyətdən əvvəl Bakının abadlaşdırılmasında xidmətləri olmuşdur. Zaqafqaziya Seyminin üzvü idi. Zaqafqaziya Demokratik Federativ Respublikasında Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. Azərbaycan Milli Şurasının üzvü idi. Azərbaycan Cümhuriyyəti Hökumətində Xarici İşlər naziri, Dövlət Nəzarəti naziri, Maliyyə naziri, Daxili İşlər naziri, Ticarət, Sənaye və Ərzaq naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra repressiyaya məruz qalmışdır. 475

Hacıyev, Hüseyn: Bakıda, Şeyx İbrahim məscidinin nümayəndəsi olmuşdur. 484

Hakimov: Balaxanıda polis sahə rəisi olmuşdur. 322

Haqverdi Əziz oğlu: Bakıda fəhlə olmuşdur. 485

Haqverdiyev, Əbdürrəhim bəy (1870-1933): Azərbaycanın yazıçısı və dramaturqu, ədəbiyyatşünası və teatr xadimi. Azərbaycan Cümhuriyyətinin Dağıstandakı siyasi nümayəndəsi olmuşdur. 274, 280, 427

Halim Sabit bəy (1883-1946): Tatar əsilli türk ziyalısı. Kazanda doğulmuşdur. 1901-ci ildə təhsil məqsədi ilə İstanbula getmişdir. Daha sonra İstanbulda müxtəlif dərəcəli təhsil ocaqlarında dərs demişdir. 1919-1939-cu illərdə ticarətlə məşğul olmuş, bir çox Avropa ölkəsini gəzmişdir. İkinci Dünya müharibəsi başladıqdan sonra Türkiyəyə qayıdaraq "İslam Ensiklopediyası"nın nəşr bürosunda və Din İşləri Qurumunda işləmişdir. Ziya Gökalp, Əhməd Ağaoğlu kimi türkçülərlə yaxın dostluq əlaqələri var idi. 559

Haller, Yozef [Józef Haller; 1873-1960]: Avstriya-Macarıstanın və Polşanın hərbi xadimi, general. 1919-cu ilin ortalarında general Hallerin qoşunları Rusiyada Qırmızı orduya qarşı döyüşürdü. 500

Hamazasp: bax. Srvandzyan, Hamazasp.

Harbord, Ceyms [James Harbord; 1866-1947]: Amerikanın hərbi xadimi; general-leytenant. Birinci Dünya müharibəsindən sonra vəziyyəti yerində öyrənmək məqsədi ilə Yaxın Şərqə, Anadoluya və Qafqaza göndərilən Amerika missiyasının rəhbəri olmuşdur. 325

Harmsvort, Sesil [Cecil Harmsworth; 1869-1948]: Britaniyanın siyasi xadimi. 1915-ci ildə Daxili İşlər nazirinin müavini, 1919-cu ilin əvvəlindən 1922-ci ilin axırlarına qədər Britaniya Parlamentində Xarici İşlər üzrə Dövlət Katibinin müavini olmuşdur. 241

Haskell, Vilyam Nefyu [William Nafew Haskell; 1878-1952]: Amerikanın hərbi və ictimai xadimi; general-leytenant. Amerika Yardım Administrasiyasının [American Relief Administration] heyətində Rusiyada xidmət etmiş, 1921-1923-cü illərdə bu qurumun Rusiya direktoru olmuşdur. 309, 410, 520, 555, 556, 557, 563, 564

Heybət Allahqulu oğlu: Kiş kəndinin sakini. 437

Heybətzadə, Əbdülhüseyn: "Müsavat" partiyasının Əmirhacıyan şöbəsinin katibi olmuşdur. 371

Heydər Hüseyn oğlu: "Russki neft" şirkətində işləmişdir. 96

Heydərov, Əliəkbər: Xəzər Müstəhliklər İttifaqı "Kooperatsiya"nın Müavinət şöbəsində işləmişdir. 54

Heydərov, Qədir: bax. Heydərzadə, Qədir.

Heydərzadə, Qədir: Azərbaycan jurnalisti. 54

Heyq, Duqlas [Douglas Haig; 1861-1928]: Britaniyanın hərbi xadimi; feldmarşal. 81

Hənifə Babaəli oğlu: Şağan kəndinin sakini. 437

Hənifə Bəhman oğlu: Bakı sakini. 461

Həsən Kərim oğlu (Hacı Kərim oğlu): Bakı sakini. 432

Həsən Təhsin: bax. Uzer, Həsən Təhsin

Həsən Ziya: bax. Həsənzadə, Həsən Ziya.

Həsənov, Əliağa (1871-1933): Azərbaycanın ictimai-siyasi xadimi; Cümhuriyyət dövründə Maliyyə naziri, Dövlət Müfəttişi, Azərbaycan Parlamentinin üzvü olmuşdur. "Nəşri-maarif" cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmiş, Bakı Şəhər Dumasının üzvü olduğu dövrdə Şollar su kəmərinin çəkilişi və şəhərdəki digər quruculuq-abadlıq işlərində xüsusilə böyük xidməti olmuşdur. 28, 158

Həsənzadə, Əliağa: bax. Həsənov, Əliağa.

Həsənzadə, Həsən Ziya: şair. 280

Hilal Allahverdi oğlu: Zəngəzurlu. 352

Hindenburq, Paul fon (Paul von Hindenburg, 1847-1934): Almaniyanın hərbi və siyasi xadimi, Birinci Dünya müharibəsinin ən məşhur sərkərdələrindən biri. 1925-1934-cü illərdə Almaniya prezidenti olmuşdur. 10, 135, 471

Hohenberq, Ernst fon [Ernst von Hohenberg; 1904-1954]: Hohenberq hersoqu (1914-1919-cu illərdə). Avstriya böyük hersoqu Frans Ferdinandın oğlu idi. 259

Hohenberq, Maksimilian fon [Maximilian von Hohenberg; 1902-1962]: Hohenberq hersoqu (1914-1919-cu illərdə). Avstriya böyük hersoqu Frans Ferdinandın oğlu idi. 259

Huver, Herbert [Herbert Hoover; 1874-1964]: Amerikanın ictimai-siyasi xadimi. 1918-1923-cü illərdə Avropa ölkələrinə qida köməyi göstərən Amerika Yardım Administrasiyasının [American Relief Administration] rəhbəri olmuşdur. 1929-1933-cü illərdə 31-ci ABŞ prezidenti olmuşdur. 310, 443

Hüseyn Qasım oğlu (Kərbəlayı Hüseyn): Bakıdakı İranlılardan. 514

Hüseyn Məşhədiqulu oğlu: Bakıda fəhlə olmuşdur. 485

Hüseyn Nazim paşa (1848-1913): Osmanlı dövlət xadimi; 1912-1913-cü illərdə Hərbiyyə naziri olmuşdur. 312, 315, 444

Hüseyn Rauf (Orbay; 1881-1964): Türkiyənin hərbi və siyasi xadimi. 1911-1912-ci illər Osmanlı-İtaliya müharibəsində və Balkan müharibələrində qəhrəmanlıq göstərmişdir. 1918-ci ilin oktyabr ayında Bəhriyyə naziri olmuş, Mudros sazişini Osmanlı dövləti adından imzalamışdır. 192, 206, 380, 500, 528

Hüseyn Rza oğlu: Ərdəbilli. 392

Hüseynəliyev, Əliməhəmməd: müəllim. 457

Hüseynqulu: Azərbaycan müəllimi; Müəllimlər İttifaqı Qurultayının nümayəndəsi. 532

Hüseynqulu Abbas oğlu: Bakıdakı İran təbəələrindən. 406

Hüseynqulu Aydəmir oğlu (Kərbəlayı Hüseynqulu): Bakı sakini. 510

Hüseynov, Əsgər: Bakıda, üçüncü sahənin qorodovoyu olmuşdur. 432

Hüseynov, Xəlil: bax. Hüseynzadə, Xəlil.

Hüseynzadə: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 127

Hüseynzadə, Ələkbər (1887-1967): teatr və kino aktyoru. Azərbaycan SSR Əməkdar artisti idi. 300, 483, 565

Hüseynzadə, Əli bəy (1864-1940): Azərbaycanın və Türkiyənin görkəmli ictimai xadimi, eyni zamanda həkim, publisist və pedaqoq. 119

Hüseynzadə, Xeyrulla. 325, 328

Hüseynzadə, Xəlil Hacı Mahmud oğlu (1890-1943): Azərbaycan aktyoru və rejissoru. 126, 257, 355, 483, 544

Hüseynzadə, Məhərrəm (Məşhədi Məhərrəm): "Müsavat"ın Sabunçu şöbəsinin üzvü olmuşdur. 484

Hüseynzadə, Tağı: "Azərbaycan" qəzetinə İrəvan quberniyası müsəlmanları haqqında məktub yazmışdır. 487

X.: "Azərbaycan" qəzetində imza; bax. İbrahimov, Xəlil.

X. xanım: Bakı sakini, Torqovı (indiki Nizami) küçəsində yaşamışdır. 320

Xaqani Şirvani (Əfzələddin Xaqani): XII əsrdə yaşamış Azərbaycan şairi. Fars dilində yazmışdır. 141

Xalxali, Mirzə Ələkbər: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Xanağa Məşhədiağa oğlu: Qusar sakini. 539

Xasməmmədov, Xəlil bəy (yaxud Xasməhəmmədov; 1873-1947): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət Dumasının, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Ədliyyə naziri, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Azərbaycanın Türkiyədə səfiri təyin edilmiş, Cümhuriyyətin süqutundan sonra Azərbaycana qayıtmamışdır. Siyasi fəaliyyətini mühacirətdə də davam etdirmişdir. 562

Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 299, 387

Xeyrullazadə, Xeyrəddin: "Müsavat" partiyasının Balaxanı şöbəsinin sədri. 322, 327, 328

Xədicə Qasım qızı: Bakı sakini. 510

Xələf Qurbanqulu oğlu: Mərdəkan sakini. 321

Xəlifəzadə, Məhəmmədəli: Şəki ziyalılarından, müəllim. 405, 428, 429, 532, 551

Xəlil bəy: Qafqaz İslam Ordusu zabiti, mayor (binbaşı); Naxçıvanda və onun ətrafındakı türk hərbi hissələrinin komandanı təyin edilmişdi. 73, 100

Xəlil Cavad oğlu (Məşhədi Cavad oğlu): Şamaxı sakini. 231

Xəlil İbrahim: bax. İbrahimov, Xəlil.

Xəlil paşa: Xəlil Qut (1882-1957). Osmanlı İmperiyasının hərbi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin üzvü olmuşdur. Ənvər paşanın əmisi (Ənvər paşadan 1 yaş kiçik idi), eyni zamanda Hərbi Akademiyada Mustafa Kamalın (Atatürk) sinif yoldaşı olmuşdur. Birinci Dünya müharibəsində İraq cəbhəsində böyük müvəffəqiyyət qazanmış, Qafqaz İslam Ordusu ilə birgə Bakıya daxil olmuş, Türk Qurtuluş Savaşında iştirak etmişdir. 336

Xəlilbəyli, Balabəy: Bakıda, Vorontsovski (indiki İslam Səfərli) küçəsində yerləşən "Dardanel" yeməkxanasının müdiri olmuşdur. Tiflisdə "Kaspi" mehmanxanasını açmışdır. 396

Xəlilov, Mikayıl Maqomedoviç (1869-1935): Rusiyanın hərbi xadimi; general-mayor. Lak əsillidir. 1918-ci ilin axırlarından Könüllü orduya qoşulmuşdur. 1918-1920-ci illərdə Dağıstanın hərbi komendantı olmuşdur. Kotsevdən sonra Dağıstan Hökumətinə rəhbərlik etmişdir. Daha sonra Türkiyəyə mühacirətə getmişdir. 197, 198

Xəlilzadə, Şıxəli: "Müsavat"ın Sabunçu şöbəsinin üzvü olmuşdur. 484

Xocahanski, Musa Lütfəli oğlu (Musa bəy Lütfəli bəy oğlu): Zəngəzur qəzasının Xocahan kəndinin sakini. 72

Xocayev, İsak Nikitiç: Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur; Erməni fraksiyasına daxil idi. 469

Xosrov II (Xosrov Pərviz; 570-628): Sasani şahı; 591-628-ci illərdə hakimiyyətdə olmuşdur. 419

Xoyi, İsmayıl: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Xoylu, Ağa Hacı: İranlı din xadimi. 419

Xoyski, Əmir xan (1888-1954): Azərbaycanın ictimai-siyasi xadimi, milli istiqlal hərəkatının iştirakçısı. Bakı qubernatorunun müavini, eləcə də bir sıra yerlərdə qəza rəisi olmuşdur. 39, 63, 64, 122, 298, 408, 409, 459, 562

Xoyski, Fətəli xan (1875-1920): Azərbaycan Cümhuriyyətinin qurucularından biri, görkəmli dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının sədri (1917-1918), Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının Xalq Maarifi naziri (1918) olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin sədri seçilmiş, Cümhuriyyət dövründə bir neçə dəfə Baş nazir, eləcə də Daxili İşlər naziri, Ədliyyə naziri, Xarici İşlər naziri vəzifələrini icra etmişdir. Bolşevik işğalından sonra Tiflisə mühacirət etmiş və orada erməni daşnakları tərəfindən şəhid edilmişdir. 41, 193

Xudu: Salyandan "Azərbaycan" qəzetinə məktub yazmışdır. 127

Xuramoviç, İsmayıl bəy: Tiflisdə Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri olmuş, Azərbaycanın Gürcüstandakı siyasi nümayəndəliyinin katibi, Azərbaycan Xarici İşlər Nazirliyi Dəftərxanasının direktoru vəzifəsini tutmuşdur. 216

İbrahim xan (yaxud İbrahim Xəlil xan; 1732-1806): Qarabağ xanı. 344

İbrahim Nəcəfqulu oğlu (Kərbəlayi Nəcəfqulu oğlu): Salyan sakini. 176

İbrahimli, Miryusif: "Müsavat"ın Bakı Mərkəzi Komitəsinin üzvü. 458

İbrahimli, Yusif (Məşhədi Yusif): Azərbaycan Dəmiryolu İdarəsində işləmişdir; "Müsavat" üzvü olmuşdur. 254, 255, 274, 511

İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 24, 50, 76, 102, 107, 128, 154, 181, 206, 219, 232, 258, 282, 301, 316, 326, 327, 331, 353, 372, 392, 411, 437, 462, 488, 515, 540, 566

İlyaşeviç: Muğanda Azərbaycan Cümhuriyyətinin ordusuna qarşı döyüşən qüvvələrin komandirlərindən biri olmuşdur. 44, 72, 149

İlyuşkin, Pyotr Fyodoroviç: Bakı Şəhər İdarəsinin və Bakı Şəhər Dumasının üzvü olmuşdur. 1917-ci ildə Bakı Şəhər İdarəsinin rəisi və Bakı qubernatoru vəzifələrini müvəqqəti olaraq icra etmişdir. Cümhuriyyət dövründə Bakı Şəhər İdarəsinin rəisi olmuş, sovet dövründə isə Bakı Şəhər Sovetində müxtəlif vəzifələrdə işləmişdir. 406

İmaməli İsa oğlu: İrəvan qəzasının Baş Noraşen kəndindən. 372

İman Abbasmirzə oğlu: Ramanı kəndinin sakini. 321

İonesyan: Qarabağ ermənilərinin liderlərindən olmuşdur. 537, 538

İosif Avqust [Joseph Augıst; 1872-1962]: ershersoq; 1918-1919-cu illərdə Macarıstan regenti olmuşdur. 240, 242, 259, 305, 310, 327, 334, 447, 463, 548, 567

"İrani Nejad": "Azərbaycan" qəzetində imza. 280

İsa Peyğəmbər. 70, 455

İsa Yusif oğlu (Hacı İsa əfəndi Molla Yusif oğlu): Ərəş və Cavanşir qəzalarının qazısı olmuşdur. 304

İsgəndər xan. 230

İsgəndərov, Ter-Xambapet: Şuşada baş keşiş olmuşdur. 512

İskəndərzadə, Əsədulla: "Azərbaycan" qəzetinin Salyan müxbiri Rüstəm İskəndərzadənin qardaşı. 176

İskəndərzadə, Rüstəm (? - 1919): Salyan sakini, "Müsavat"ın Salyan komitəsinin katibi; "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 21, 22, 23, 98, 101, 176

İslam Abdulla oğlu (Məşhədi İslam): Bakı sakini. 390

İslam Abdulla oğlu (Kərbəlayı İslam Məşhədi Abdulla oğlu): Bakı sakini. 510

İslambulçu, Mirhüseyn (Hacı Mirhü-

seyn): Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

İslamov, Məhəmməd Qulu: Bakıda, Hacı İbrahim məscidinin nümayəndəsi olmuşdur. 484

İsmayıl Abdulla oğlu: "Russki neft" şirkətində işləmişdir. 96

İsmayıl Fərhad oğlu (Kərbəlayı Fərhad oğlu): Zəngəzur qəzasının Xocahan kəndinin sakini. 72

İsmayıl Hüseynəli oğlu: Bakıdakı iranlılardan; Çuxur karvansara yanında dükanı olmuşdur. 514

İsmayıl Yunis oğlu (Molla Yunis oğlu). 127

İsmayılov, Rəşid bəy (1877-1942): Azərbaycanın ictimai-siyasi xadimi, pedaqoq və publisisti. İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. Qafqazın müxtəlif yerlərində pedaqoji və publisistik fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan tarixi və ədəbiyyatına dair əsərlər yazmışdır. Araz Türk Cümhuriyyəti Hökumətinin nümayəndəsi olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökuməti Dəftərxanasının müdiri olmuşdur. Sovet dövründə repressiyaya məruz qalmışdır. 42

İsmət Abbas qızı: Bakı sakini. 510

İsrafilbəyov, Ağa bəy: bax. İsrafilzadə, Ağababa bəy.

İsrafilbəyzadə, Ağa bəy: bax. İsrafilzadə, Ağababa.

İsrafilzadə, Ağababa bəy (yaxud İsrafilbəyli): Azərbaycanın maarif xadimi; dərslik müəllifi; Bakı Müəllimlər İttifaqının üzvü. 35, 36, 94, 96, 101, 171, 227, 389, 402, 405, 427, 428, 456

İstanbulinski: bax. Stamboliyski, Aleksandr.

"İzçi": Gəncədən "Azərbaycan" qəzetinə məktub yazmışdır. 127

İzçi M. R.: "Azərbaycan" qəzetində imza. 117

Jan-de-Kolon: pəhləvan. 27, 79, 132, 157, 375, 465, 543

Jukovski, Vasili Andreyeviç (1783-1852): Rus şairi; rus poeziyasında romantizmin banilərindən biri kimi qəbul edilir. 463

Kalantarov: Şuşa ermənilərindən. 34

Kaledin, Aleksey Maksimoviç [1861-1918]: Rusiyanın hərbi xadimi; general; Don kazaklarının atamanı. 19, 20

Kalinkus. 488, 514

Kalişeviç, Aleksandr: pəhləvan. 27, 106, 132, 157, 262, 329, 355, 465

Kamil paşa (Qıbrıslı Məhməd Kamil paşa; 1833-1913): Osmanlı dövlətinin siyasi xadimi. Dörd dəfə (1885-1891-ci illər arasında, 1895-ci ilin oktyabr-noyabr aylarında, 1908-1909-cu illərdə, 1912-1913-cü illərdə) Sədrəzəm (Baş nazir) olmuşdur. 312, 314, 315

Kanabolski. 408

Karl I, Frans İosif [Karl I. Franz Josef; 1887-1922]: Avstriya-Macarıstan imperatoru; 21 noyabr 1916 – 12 noyabr 1918 tarixləri arasında hakimiyyətdə olmuşdur. 398, 412

Karol II [Carol II; 1893-1953]: Rumıniya kralı I Ferdinandın oğlu və vəliəhdi; 1930-1940-cı illərdə Rumıniya kralı olmuşdur. 470, 489

Karpinski: Bakı gömrükxanasında işləmişdir. 474

Kartaşyov, Anton Vladimiroviç (1875-1960): Rusiyanın dövlət xadimi; mühacirətə getmişdir. 398

Kazım Nəcəfqulu oğlu (Kərbəlayı Kazım Hacı Nəcəfqulu oğlu): Bakıda, Məhəmmədyar məscidinin nümayəndəsi olmuşdur. 484

Kazım Zeynal oğlu (Kərbəlayı Kazım): Bakı sakini. 510

Kazımoğlu: bax. Seyid Hüseyn Sadiq.

Kazımov, Kazım: Hacıbəyov Qardaşları truppasının əməkdaşı. 483

Kazımzadə, Abbasqulu (1882-1947): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 119, 202, 255, 405, 561

Kazımzadə, Kazım: bax. Kazımov, Kazım.

Kazımzadə, Nadir: "Müsavat" partiyasının Balaxanı şöbəsinin üzvü olmuşdur. 118

Kerenski, Aleksandr Fyodoroviç (1881-1970): Rusiya Müvəqqəti Hökumətinin (iyul-noyabr 1917) başçısı. 1918-ci ildə mühacirətə getmişdir. 293, 335, 422

Kerjentsev, Platon Mixayloviç (1881-1940): Rusiyanın ictimai-isiyasi xadimi; diplomat və jurnalist. 335

Kerzon, Corc Nataniel [George Nathaniel Curzon; 1859-1925]: İngiltərənin dövlət xadimi. 1916-1925-ci illərdə Lordlar Palatasının başçısı, 1919-1924-cü illərdə Xarici İşlər naziri olmuşdur. 499

Kərim Məhəmməd oğlu (Kərim əfəndi Molla Məhəmməd oğlu): Göyçayın Qarabaqqal kəndinin mollası olmuşdur. 80

Kərimov, A.: Bakıda əmlak kontoru olmuşdur. 105

Kərimov, Nurməhəmməd: Məhəmmədli məscidinin nümayəndəsi olmuşdur. 484

Kərimzadə, Əli: "Müsavat" partiyasının Balaxanı şöbəsinin üzvü. 433

Kərimzadə, Əli: "Russki neft" şirkətində işləmişdir. 96

Kərimzadə, Rəhim: Maarif Nazirliyi dəftərxanasında işləmişdir. 183

Kəsəmənski, Şirin bəy (1887-1920): Azərbaycanın hərbi xadimi; polkovnik. Praporşiklər məktəbinin rəisi, İkinci Bakı Piyada alayının komandiri olmuşdur. 64

Kiçik Tələt bəy: bax. Muşkara, Tələt.

Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. "Əhrar" partiyasının üzvü idi. 177, 468

Kirpiçnikov, Aleksandr İvanoviç (1845-1903): Rus filoloqu və ədəbiyyat tarixçisi. 90

"Kişi oğlu": Qubadan "Azərbaycan" qəzetinə məktub göndərmişdir. 435

Klatterbak: Azərbaycandakı ingilis ordusunun zabiti; polkovnik. 88, 152, 337

Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş nazir olmuşdur. 11, 110, 337, 360, 381, 418, 449, 451, 563

Klenevski, Viktor Viktoroviç (1883 - ?): Milliyyətcə polyak olan Klenevski Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, 1919-cu ilin mart-dekabr aylarında Sosial Təminat naziri olmuşdur. 167

Kolçak, Aleksandr Vasilyeviç (1874-1920): Rusiyanın hərbi və siyasi xadimi; admiral. Ağqvardiyaçılar hərəkatının başçısı, Rusiyanın Ali rəhbəri (noyabr 1918 – fevral 1920) və Rus ordusunun Ali Baş komandanı (noyabr 1918 – yanvar 1920) olmuşdur. 9, 60, 62, 70, 84, 85, 86, 110, 111, 137, 163, 165, 185, 188, 215, 242, 244, 245, 265, 277, 293, 332, 333, 335, 337, 360, 398, 422, 447, 450, 451, 497, 498, 499, 500, 521, 528, 547

Kolduell, Con Lourens [John Lawrence Caldwell; 1875-1922]: Amerika diplomatı; 1914-1921-ci illərdə Amerikanın İranda səfiri olmuşdur. 449

Kondratyev: Maarif Nazirliyi Dəftərxanasında kargüzar müavini olmuşdur. 36

Konstantin I (1866-1923): Yunanıstan kralı; 1913-1917 və 1920-1922-ci illərdə hakimiyyətdə olmuşdur. 447, 463, 553

Kopelioviç, Samuil İzrailoviç: Bakıda fəaliyyət göstərmiş həkim. 23, 49, 75, 102, 128, 153, 180, 205, 232, 258, 282, 301, 326, 352, 372, 392, 411, 436, 462, 488, 514, 540

Kori, Corc Norton [George Norton Cory; 1874-1968]: Birinci Dünya müharibəsindən sonra Qafqazdakı ingilis ordusunun (27-ci diviziyanın) komandiri olmuşdur. 45, 120, 367, 415, 416, 417

Kornilov, Lavr Georgiyeviç (1870-1918): Rusiyanın hərbi xadimi; general. 1917-ci ilin iyul-avqust aylarında rus ordusunun Ali Baş komandanı olmuşdur. 164

Kosay, Utida [1865-1936]: Yaponiyanın dövlət xadimi və diplomatı. Müxtəlif ölkələrdə, o cümlədən Rusiyada səfir kimi öz ölkəsini təmsil etmişdir. 1911-1912, 1918-1923 və 1932-1933-cü illərdə Xarici İşlər naziri vəzifəsini tutmuşdur. 526

Kotikov, Qriqori: Bakı qəzası Altıağac kəndinin kəndxudası olmuşdur. 71

Kotsev: doktor; Xankəndi xəstəxanasının həkimi olmuşdur. 342

Kotsev, Pşemaxo Tamaşeviç (1884-1962): Şimali Qafqazın siyasi xadimi; Dağlılar Respublikasının Baş naziri olmuşdur. 195, 196, 197, 206, 223, 224, 225

Kovalevski, Yevqraf Petroviç (1865-1941): Rusiyanın siyasi xadimi. Rusiya Dövlət Dumasının (III və IV çağırış) üzvü olmuşdur. Mühacirətə getmişdir. 498, 515

Kozubov: vəkil. 398

Köçərli, Firidun bəy (1863-1920): Azərbaycanın görkəmli maarif xadimi, ədəbiyyatşünası və yazıçısı. Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək müstəqil bir seminariyaya çevirmiş və bu seminariyanın direktoru olmuşdur. Azərbaycan Milli Şurasının üzvü kimi İstiqlal Bəyannaməsini imzalayanlar arasında yer alan Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri xüsusilə dəyərlidir. Bolşeviklər tərəfindən güllələnmişdir. 43, 44

Kravçenko, Vasili Aleksandroviç (1882-1972): Bakıda Aleksandro-Nevski kilsəsinin keşişi, Müqəddəs Nina məktəbinin şəriət müəllimi olmuş və Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 237, 288, 289, 290, 544, 546

Krayevski: pəhləvan. 53, 79, 211, 235, 303, 395, 465

Kreçetov: pəhləvan. 329, 355, 395, 413, 492, 543

Kriçinski, Olqert: bax. Kriçinski-Nayman, Olqert Konstantinoviç.

Kriçinski-Nayman, Olqert Konstantinoviç (1884-1942): Polşa-Litva tatarlarından; hüquqşünas. Vilnüsdə anadan olmuşdur. 1918-ci ildə Krımda Ədliyyə nazirinin müavini olmuşdur. Krım Qızıl ordu tərəfindən işğal edildikdən sonra Bakıya köçmüşdür. Bakı Məhkəmə Palatasının prokuroru, Azərbaycan Ədliyyə nazirinin müavini olmuşdur. Vilnüsdə repressiyaya məruz qalmış – güllələnmişdir. 161

Kripkovskaya, Sofiya: Bakı sakini. 432

Kroxold. 444

Krokman: "Kukleviç" ticarət evində işləmişdir. 408

Kropotov, D. N.: Muğan hökumətinin üzvü; hərbçi. Sara adasında hərbi hidroaviasiya bazasının rəisi olmuşdur. Ağqvardiyaçılar tərəfindən güllələnmişdir. 298, 391

Kun, Bela [Béla Kun; 1886-1938]: Macarıstanın və SSRİ-nin siyasi xadimi; kommunist. 1919-cu ildə Macarıstan Sovet Respublikasının Xarici İşlər xalq komissarı olmuşdur. 10, 84, 306, 307

Kurlov, Pavel Qriqoryeviç (1860-1923): Rusiyanın hərbi və dövlət xadimi; general-leytenant. Kiyevin və Minskin qubernatoru, Daxili İşlər nazirinin müavini, Əlahiddə Jandarm Korpusunun baş komandanı olmuşdur. Mühacirətdə "Komarov" soyadı ilə yaşamışdır. 268

Kurnakov: Türküstan ordusunun komandiri general Lazarevin yavəri. 294

Kutepov, Aleksandr Pavloviç (1882-1930): Rusiyanın hərbi xadimi, ağqvardiyaçı general. 333

Kültigin (685-731): Şərqi Göytürk xaqanlığını özündən böyük qardaşı Bilgə xaqanla birgə idarə etmişdir. 220

Qabba, Melçiade [Melchiade Qabba; 1874-1952]: İtaliyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsindən sonra Zaqafqaziyadakı İtaliya hərbi heyətinin rəhbəri olmuşdur. 73, 416, 454, 508, 521

Qabıyev, Sabir. 431

Qacar, Əhməd şah (1898-1930): Qacar nəslindən İran şahı; 1909-1925-ci illərdə hakimiyyətdə olmuşdur. 216, 252, 259, 286, 297, 502, 515

Qacar, Sədrəddin Mirzə (1873-1921): Azərbaycanın hərbi xadimi. Bakı nahiyəsi Hərbi çağırış idarəsinin rəisi olmuşdur. 330

Qafar Səfər oğlu: Canaxar kəndinin (Xaçmaz) sakini. 511

Qalabəyov, Məhəmməd: Ərəş qəzasının rəisi olmuşdur. 348

Qalişeviç, Aleksandr: pəhləvan. 375

Qanem, Şükrü (1861-1929): Livanlı yazıçı; Livanın müstəqilliyi uğrunda mübarizə aparmışdır. 190

Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İstanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad (aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 35, 184, 389, 403

"Qarabağlı": "Azərbaycan" qəzetində imza. 15, 317

Qarabəyli, Qara bəy (1873-1953): Azərbaycanın ictimai-siyasi xadimi, eyni zamanda həkim və jurnalist; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. "Difai" partiyasının rəhbərlərindən, "İttihad" partiyasının sədri olmuşdur. "Həyat", "İrşad", "Kaspi" kimi bir sıra nəşrlərlə əməkdaşlıq etmişdir. 469, 470, 522, 545, 557

Qarabəyov, Qara bəy: bax. Qarabəyli, Qara bəy.

Qarakamanyan: Erməni hərbi xadimi; polkovnik. Naxçıvan ətrafında fəaliyyət göstərən erməni hərbi hissələrinin komandiri olmuşdur. 73

Qarami, Ernyo [Garami Ernő; 1876-1935]: Macarıstanın siyasi xadimi. 359

Qarayev, Əliheydər (1896-1938): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonra Bakı Sovetinin sədri, Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz İşləri xalq komissarı, Əmək xalq komissarı və Ədliyyə xalq komissarı olmuş, bir sıra digər vəzifələrdə işləmişdir. 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir. 263, 522

Qarayev, Saleh (Məşhədi Saleh): Bakı sakini. 513

Qarbai, Sandor [Garbai Sándor; 1879-1947]: Macarıstanın siyasi xadimi, sosialist. 1919-cu ildə Macarıstan Sovet Respublikası Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin sədri olmuşdur. 377

Qarışkov: Dağıstanda qarnizon rəisi olmuşdur. 361

Qarmil. 186

Qartonq, Fyodor Fyodoroviç: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyi dəftərxanasının kargüzarı olmuşdur. 184

Qasımbəyzadə, Qulammirzə bəy: müəllim. 429, 532, 559

Qasımlı, Yusif: Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 256

Qasımov: Bakı sakini. 510

Qasımov, Əli Səbri (1892-1983): Azərbaycanlı yazıçı, tərcüməçi, müəllim. Naxçıvan müsəlmanlarının ictimai xadimi olmuşdur. 195

Qasımov, Hacı: bax. Qasımzadə, Hacı.

Qasımov, Heydər (Mirzə Heydər): Bakı quberniyasının Qaraqaşlı kəndinin yüzbaşısı olmuşdur. 368

Qasımov, Qasım: Bakı Şəhər Dumasının üzvü. 319

Qasımzadə, Hacı (yaxud Qasımov): Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 319

Qaspıralı, İsmayıl bəy (1851-1914): Əslən Krım tatarı olan ziyalı, ictimai-siyasi xadim. Türkçülüyün ən böyük ideoloqlarından biri olaraq qəbul edilir. Xüsusən Rusiya imperiyasının müsəlman-türk xalqlarının ziyalıları arasında böyük nüfuza malik olmuşdur. Qaspıralının çap etdirdiyi "Tərcüman" qəzeti isə Rusiya imperiyasının sərhədlərindən kənarda da məşhur idi. 18

Qazalius: bax. Qazalyan.

Qazalyan: "Hindistanlı sehrbaz Qazalius" kimi tamaşalar göstərmişdir. 27, 131

Qazızadə, Gövhər xanım. 23, 50, 76, 102, 128, 154, 180, 205, 231, 258, 281, 301, 325, 351, 372, 392, 410, 436, 462, 487, 514, 539, 565

Qazi Əhməd Muxtar paşa (1839-1919): Osmanlının hərbi və siyasi xadimi; marşal. 1912-ci ildə Sədrəzəm (Baş nazir) olmuşdur. 312

Qeddes, Erik [Eric Geddes; 1875-1937]: Britaniyanın hərbi və siyasi xadimi. Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirlikdə Hərbi dəmiryollarının Baş Direktoru, Britaniyanın Baş Nəqliyyat müfəttişi, Hərbi dəniz qüvvələrinin Baş Müfəttişi kimi vəzifələr tutmuşdur. Müharibədən sonra, 1919-1921-ci illərdə Britaniyanın Nəqliyyat naziri olmuşdur. 60

Qəbulov, İslam bəy (1879-1920): Azərbaycanın ictimai-siyasi xadimi. Qaxda və Bakıda müəllimlik etmiş, mətbuatda məqalələrlə çıxış etmiş, dərsliklər yazmışdır. Müsavat partiyasının, Zaqafqaziya Seyminin üzvü olmuşdur. 177

Qəbulzadə, Baba. 429

Qəbulzadə, İslam. 428

Qənizadə, Əbdülhəmid bəy (yaxud Həmid bəy Qənizadə): Azərbaycanlı həkim. Ağdamda işləmişdir. Azərbaycan Hökuməti tərəfindən Naxçıvan və Şərur-Dərələyəz qəzalarındakı qaçqınlara yardım etmək üçün göndərilmişdir. 42

Qənizadə, Sultanməcid Murtuzəli oğlu (1866-1938): Azərbaycanın ictimai-siyasi xadimi; yazıçı, pedaqoq və publisisti. Tiflis Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 172, 237, 390, 403, 523

Qəzənfər Ələkbər oğlu (Kərbəlayi Ələkbər oğlu). 326

Qırmızı Maska: pəhləvan. 27, 106, 235, 262, 303, 329, 355, 375

"Qıyığ": "Azərbaycan" qəzetində imza; Məhəmməd Sadıq Axundzadəyə (Aran) məxsusdur; bax. Aran, Məhəmməd Sadıq.

Qirşiş, S. K.: Azərbaycanda dövlət qulluğunda olmuşdur. 509

Qobeçiya: Gürcüstan Məclisi-Müəəssisanının üzvü, eser. 122, 129

Qobeçiya, İosif Pavloviç (1879-1963): Gürcüstanın siyasi xadimi. Gürcüstan Müəssislər Məclisinin üzvü olmuşdur. Ölkənin sovetləşməsindən sonra mühacirətdə yaşamışdır. 129

Qobeçiya, İvan Pavloviç (1883-1937): Gürcüstanın siyasi xadimi, Gürcüstan Məclisi-Müəssisanının üzvü. 129

Qoca Raqib paşa (1698-1763): Osmanlı dövlət xadimi və şairi; 1757-1763-cü illərdə sədrəzəm (baş vəzir) olmuşdur. 207

Qoqişvili: Batumlu tacir. 270

Qoqoberidze, Levan Davidoviç (1896-1937): inqilabçı; 1918-ci ilin əvvəllərində Bakıya gəlmiş, burada fəhlə hərəkatının rəhbərlərindən birinə çevrilmişdi. 202, 273, 283

Qorton, Reginald [Reginald Gorton; 1866-1944]: İngiltərənin hərbi xadimi; general-mayor. Birinci Dünya müharibəsindən sonra Müttəfiqlərin Macarıstandakı hərbi heyətinə daxil idi. 212

Qrabovski, S.: Polşanın siyasi xadimi. 70

Qrandi: 1919-cu ildə Qafqaza göndərilən ingilis diplomatik heyətinin tərkibində olmuşdur. 429

Qratsiani, Jan Sezar [Jean César Graziani; 1859-1932]: Fransanın hərbi xadimi; ge-

neral-mayor. Birinci Dünya müharibəsindən sonra Müttəfiqlərin Macarıstandakı hərbi heyətinə daxil idi. 212

Qriqoryev, Nikifor Aleksandroviç (Ataman Qriqoryev, 1884-1919): Ukraynada Avstriya-Almaniya işğalçılarına, Antanta qoşunlarına və Qızıl orduya qarşı mübarizə aparmışdır. 10, 33, 69, 292, 377, 378

Qrinvud, L.: Britaniya Parlamentinin İcmalar Palatasının üzvü. 265

Qrişa Nikolay: zurnaçı. 375

Quans: Müttəfiqlərin Zaqafqaziyadakı zabitlərindən; kapitan. 87

Qudiyev, Quda (1880-1920): 1919-1920-ci illərdə Bakının komendantı (polis rəisi) olmuşdur. Milliyyətcə inquş idi. 329

Quxman, Moisey Arkadyeviç: Qulaq-burun-boğaz həkimi. Yəhudi Milli Şurasından Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, Parlamentdə Milli azlıqlar fraksiyasının üzvü olmuşdur. 469

Qulam Rza oğlu: Balaxanıda fəhlə olmuşdur. 275

Quliyev: limanda gömrük işçisi. 430

Quliyev, Ağabala (1862-ci ildə doğulmuşdur): Azərbaycanlı sahibkar və xeyriyyəçi. Bakıda və Rusiyanın bir sıra şəhərlərində un dəyirmanlarına və düyü təmizləmə fabriklərinə sahib idi. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qurucularından idi. Cümhuriyyətin süqutundan əvvəl İrana gedən Quliyev bir daha Azərbaycana qayıtmamışdır. 118

Quliyev, İbrahim: jandarma. 95

Qulubəyov, Əli bəy: Teymur bəy Qulubəyovun qardaşı idi. 261

Qulubəyov, Teymur bəy (1885-1918): Azərbaycanlı sənayeçi, milyonçu və xeyriyyəçi. Neft mədənlərinin, kerosin və benzin zavodlarının sahibi olmuşdur. 261

Qulubəyova, Sona xanım: Teymur bəy Qulubəyovun həyat yoldaşı idi. 261

Qurban: Bibiheybətdə qorodovoy olmuşdur. 432

Qurko: Rusiyanın hərbi xadimi, general. Şimali Rusiya qoşunlarının komandiri olmuşdur. 359

Qüteybə bin Müslüm əl-Bahili (669-715): ərəb sərkərdəsi. Əməvilərin Xorasan valisi olmuşdur. 221

Lansinq, Robert [Robert Lansing; 1864-1928]: ABŞ-ın dövlət xadimi; 1915-1920-ci illərdə Dövlət katibi vəzifəsini tutmuşdur. 82

Larsner, fon: Alman diplomatı. 471

Lastoçkin: Rus ordusunun zabiti; Türküstanda xidmət etmişdir. 400

Lauton [Lawton]: polkovnik; Müttəfiqlərin Şərur-Naxçıvan bölgəsindəki general-qubernatoru olmuşdur. 42

Lazarev: Rusiyanın hərbi xadimi; Könüllü ordunun (Türküstan ordusunun) generalı. 294

Lebedev, Vladimir İvanoviç (1885-1956): Rusiyanın hərbi və siyasi xadimi; Kerenski hökumətində Dənizçilik Nazirliyini idarə etmişdir. 335

Leqiya: bax. Leqiya-i-Salsedo, Auqusto.

Leqiya-i-Salseda, Auqusto [Augusto Leguía y Salcedo; 1863-1932]: Perunun siyasi xadimi; 1908-1912 və 1919-1930-cu illərdə Peru prezidenti olmuşdur. 243, 244, 259

Lemkin: Xəzər vətəgələrində işləmişdir. 407

Lenin, Vladimir İliç (1870-1924): Rus inqilabçı və marksist. Əsl soyadı Ulyanov idi. Rusiyada 1917-ci il Oktyabr inqilabının təşkilatçısı və rəhbəri, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) qurucusu və SSRİ Nazirlər Sovetinin ilk sədri olmuşdur. 188, 292, 293, 382, 499, 500

Lersner, Kurt fon [Kurt von Lersner; 1883-1954]: Alman diplomatı; Paris Sülh Konfransının işində aktiv iştirak etmişdir. 527

Levin, B. L.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 282, 301, 352, 392, 436, 487, 540, 566

Levin, Vladimir: həkim. 435

Leyla Əzim qızı: Bakı sakini. 510

Leyla Məhəmmədhəsən qızı (? - 1919): Qala kəndinin sakini. 534

Lənbəranski, Cəmil bəy (1884-1959): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Kiyevdə tibb təhsili almış, Azərbaycanın müxtəlif yerlərində həkim kimi işləmişdir. Cavad qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üvz seçilmişdir. 468

Lətifbəyov, Rza (Rza Zaki): Azərbaycanlı pedaqoq və yazıçı. Bakı, Gəncə, Şəki, Göyçay və Batumda müxtəlif təhsil ocaqlarında ana dili və şəriətdən dərs demişdir. Bədii yaradıcılıqla da məşğul olmuş, xüsusilə tarixi mövzularda əsərlər yazmışdır. 130, 328

Lıkov, Sergey: Azərbaycan Poçt və Teleqraf Nazirliyində işləmişdir. 414

Lianozov, Stepan Georgiyeviç (1872-1949): Erməni əsilli neft sənayeçisi. 1907-ci ildə "G. M. Lianozov və oğulları" adlı neft şirkətini qurmuşdu. 1919-cu ildə Şimal-Qərb Hökumətinin (Rusiya) tərkibində Baş nazir, Xarici İşlər naziri və Maliyyə naziri olmuşdur. 443, 463

Lizina, Nataliya: aktrisa. 125

Lizqar, Konstantin Nikolayeviç: Slavyan-Rus Cəmiyyətinin üzvü; Azərbaycan Cümhuriyyətinin Ərzaq naziri olmuşdur. 112

Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 9, 11, 32, 59, 160, 186, 268, 333, 442, 449, 451, 548

Lotu Cabbar: bax. Vahabov, Cabbar.

Lou, Bonar [Bonar Law; 1858-1923]: Britaniyanın siyasi xadimi. 1916-1921-ci illərdə Mühafizəkarlar Partiyasının lideri olmuş, 1922-1923-cü illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 32, 82, 212

Lovasi, Marton [Márton Lovászy; 1864-1927]: Macarıstanın siyasi xadimi. 359, 377

Lui Bonar: bax Lou Bonar.

Lukomski, Aleksandr Sergeyeviç (1868-1939): Rusiyanın hərbi xadimi, general. Ağqvardiyaçılar hərəkatının liderlərindən və Könüllü ordunun qurucularından biri olmuşdur. Ağqvardiyaçıların Vətəndaş müharibəsində məğlubiyyətindən sonra mühacirətə getmişdir. 244

Lurye, Maksim İsayeviç (1890-1983): Bakıda fəaliyyət göstərmiş həkim. 50, 76, 102, 128, 154, 181, 205, 231, 258, 281, 300, 326, 351, 372, 392, 411, 436, 462, 487, 514, 540, 565

Lüdendorf, Erix (Erich Ludendorf, 1865-1937): Almaniyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsinində, 1916-cı ilin avqust ayından etibarən alman ordularını faktiki olaraq Lüdendorf idarə etmişdir. 10

Lvov, Aleksey Fyodoroviç (1798-1870): Rus bəstəkarı. 1833-1917-ci illərdə Rusiya imperiyasının dövlət himni olan "Boje tsarya xrani" himnini bəstələmişdir. 463

Lvov, Georgi Yevgenyeviç (1861-1925): Rusiyanın siyasi xadimi; knyaz. 1917-ci ilin mart-iyul aylarında Müvəqqəti Hökumətin başçısı olmuşdur. Paris Sülh Konfransına göndərilən Rusiya heyətinin tərkibində olmuşdur. 360, 422, 498

M. B.: "Azərbaycan" qəzetində imza; bax. Mirbağırzadə, Mirabbas.

"M. Ə.": "Azərbaycan" qəzetində imza; bax. Rəsulzadə, Məhəmməd Əmin.

Mahmud Əbdürrəhim oğlu: Ordubad qaçqınlarından; uşaq. 275

Mahmud Rəhim oğlu (Mahmud əfəndi Rəhim əfəndi oğlu): Şamaxının sünniməzhəb qazısı olmuşdur. 304

Mahmudbəyov, Həbib bəy (1864-1928): Azərbaycan maarifçisi. Şamaxıda anadan olmuş, Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Bakıda pedaqoji fəaliyyətlə məşğul olmuş, bir müddət Sosial Təminat Nazirliyində işləmişdir. 227

Mahmudbəyov, Mahmud bəy (1863-

1923): Azərbaycanın görkəmli pedaqoqu. Qori Seminariyasını bitirmişdir. Azərbaycanın müxtəlif yerlərində müəllim və məktəb müdiri işləmişdir. "Rəhbər" jurnalının redaktoru olmuşdur. "Yeni əlifba kitabçası", "Birinci il: müsəvvər türk əlifbası və ilk qiraət" (1918-ci ilə qədər 14 çap); "Yeni məktəb" (Abbas Səhhətlə birgə; 1918-ci ilə qədər 8 çap); "Türk ədəbiyyatına ilk qədəm" (Abbas Səhhətlə birgə); "Müntəxəbat: türk ədiblərindən nümunələr" (Abdulla Şaiqlə birgə); "Üçüncü il" kimi dərsliklərin müəllifidir. 508, 509, 532

Mahmudbəyzadə, Mahmud bəy: bax. Mahmudbəyov, Mahmud bəy.

Mahmudov, Əli bəy: "Azərbaycan" qəzetinə Zaqataladan yazmışdır. 177

Mahmudov, Mustafa (1878-1937): Azərbaycanın siyasi xadimi. Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. Rusiya II Dövlət Dumasının, Azərbaycan Milli Şurasının və Parlamentinin üzvü olmuşdur. Sovet rejimi tərəfindən repressiyaya məruz qalmış, güllələnmişdir. 495

Mak-Mosen: Müttəfiqlərin Qarabağdakı hərbi heyətinin başçısı; mayor. 323

Makarov: pəhləvan. 53, 79, 157, 211, 235, 355

Makarov: Zakaspi Hökumətində Xarici İşlər naziri olmuşdur. 294

Makenzen, Avqust fon [August von Mackensen; 1849-1945]: Almaniyanın hərbi xadimi; general-feldmarşal. Birinci Dünya müharibəsinin əvvəllərində şərq cəbhəsində ruslara qarşı döyüşmüşdür. 1915-ci ildə alman, Avstriya-Macarıstan və bolqar ordularından ibarət Makenzen Ordular Qrupunun Baş komandanı kimi serblərlə, 1916-cı ildə alman, bolqar və türk əsgərlərindən ibarət ordunun komandanı kimi rumınlarla mübarizə aparmışdır. 86, 213

Makino Nobuaki (1861-1949): Yaponiyanın siyasi xadimi. 1913-1914-cü illərdə Xarici İşlər naziri olmuşdur. Paris Sülh Konfransında ölkəsini təmsil etmişdir. 451

Makinski, Abbasəli bəy (1888-1938): Azərbaycanlı hüquqşünas. Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Cümhuriyyət dövründə müxtəlif dövlət qurumlarında hüquq məsləhətçisi və xüsusi tapşırıqlar üzrə məmur kimi fəaliyyət göstərmiş, həmçinin Ticarət, Sənaye və Ərzaq Nazirliyi Dəftərxanasının müdiri olmuşdur. 1938-ci ildə güllələnmişdir. 285, 488

Makinski, Teymur bəy (1874-?): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Bir müddət Ədliyyə naziri vəzifəsini tutmuş, daha sonra Ermənistan Hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 42

Maklakov, Vasili Alekseyeviç (1869-1957): Rusiyanın siyasi xadimi. Dövlət Dumasının üzvü olmuşdur. Müvəqqəti Hökumət tərəfindən Parisə səfir təyin edilmiş, fəqət vəzifəsini icra etməyə başlaya bilməmişdir. Mühacirətə getmişdir. 360, 422, 498

Maqomayev, Müslüm (1885-1937): Azərbaycanlı bəstəkar və ictimai xadim. Milli musiqinin inkişafında müstəsna xidmətləri olmuşdur. 178, 356, 376, 395, 483, 544

Malxazov: bax. Malxazyan, Arşak İoanesoviç.

Malxazyan, Arşak İoanesoviç (yaxud Malxazov, İvanoviç): "Daşnaksutyun" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 5, 134, 390, 404, 469, 535

Malinin, Aleksandr Fyodoroviç (1835-1888): Rus pedaqoqu; riyaziyyat və fizika sahəsində çoxsaylı dərsliklərin müəllifi. 90

Manafzadə, Hümmət: "Müsavat" partiyasının Balaxanı şöbəsinin üzvü. 433

Mannerheym, Karl Qustav Emil [Carl Gustaf Emil Mannerheim; 1867-1951]: Rusiyanın və Finlandiyanın siyasi və hərbi xadimi. 308

Maren: Fransanın siyasi xadimi; Parlamentin Büdcə komissiyasının üzvü olmuşdur. 11

Marinovski, Nikolay: Azərbaycan Poçt-Teleqraf Nazirliyi Dəftərxanasında işləmişdir. 54

Marqulies, Manuil Sergeyeviç (1868-1939): Rusiyanın ictimai-siyasi xadimi; həkim və hüquqşünas. Sankt-Peterburq məhkəməsinin andlı vəkili idi. Kadetlər Partiyasının, Rusiyanın Dövlət Birliyi Şurası bürosunun üzvü olmuşdur. Yassı görüşündə iştirak etmişdir. Rusiyada Vətəndaş müharibəsi başa çatdıqdan sonra mühacirətdə yaşamışdır. 422

Maslov: memar. 296

Matsinski: Ukrayna Direkrotiyasının rəhbəri olan Petlyuranın Buxarestdəki nümayəndəsi idi. 471

Mazetti: İtaliya konsulu. 187

Mdivani, Mixail Dmirtiyeviç: Bakıda fəaliyyət göstərmiş həkim olmuşdur. 23, 49, 75, 101, 127, 153

Mehmandarov, Səməd bəy (1856-1931): Azərbaycanın hərbi xadimi. Peterburqda hərbi məktəb bitirmiş, Çar Rusiyası ordusunda xidmət etmiş, Rusiya-Yaponiya müharibəsində göstərdiyi şücaətlərə görə mükafatlandırılmış, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci ilin fevral inqilabından sonra Rusiya ordusundan istefa vermişdir. Cümhuriyyət dövründə Azərbaycanın Hərbi naziri olmuş, ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən həbs edilmiş, azadlığa çıxdıqdan sonra müxtəlif vəzifələrdə işləmişdir. 33, 39, 40, 64, 65, 193, 435, 472

Mehrəli bəy: Lənkəran qubernatorunun müavini olmuşdur. 387

Mehrəli Səlim oğlu: Şamaxı qəzasının Xıdırlı kəndinin sakini olmuşdur. 435

Məcid Zeynal oğlu (Molla Məcid Molla Zeynal oğlu): Ağdamın Cinli kəndinin sakini; Bərdənin Saatlı kəndinin mollası olmuşdur. 80

Məcidzadə, Məhərrəm (Məşhədi Məhərrəm): "Müsavat"ın Sabunçu şöbəsinin üzvü olmuşdur. 484

Məhəmməd III (1566-1603): Osmanlı sultanı; 1595-1603-cü illərdə hakimiyyətdə olmuşdur. 146

Məhəmməd bəy (Aydınoğlu): XIV əsrin əvvəllərindən XV əsrin əvvəllərinə qədər Anadolunun cənub-qərbində mövcud olmuş Aydınoğlulları bəyliyinin qurucusu və ilk hökmdarı; 1308-1334-cü illərdə hakimiyyətdə olmuşdur. 551

Məhəmməd qəssab: İrəvan sakini. 49

Məhəmməd Peyğəmbər. 3, 189, 206

Məhəmməd Saleh oğlu: Müsəlman Korpusunda xidmət etmişdir. 342

Məhəmməd Səid əfəndi: müəllim; "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 351

Məhəmmədbəyli, Hüseyn Rza (yaxud Hüseynağa Məmmədbəyli, Hüseynağa Məmmədbəyov): jurnalist; "Azərbaycan" qəzetinin əməkdaşı olmuşdur. 41, 51, 66, 77, 122, 410, 412

Məhəmmədbəyov: Bakıda 4-cü sahənin pristavı olmuşdur. 71

Məhəmmədbəyov, Heybətqulu (yaxud Heybətqulu Məhəmmədbəyli; Məmmədbəyov; 1888-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin dekabrından 1920-ci ilin aprel ayına qədər Dövlət Nəzarəti naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən həbs edilmiş və güllələnmişdir. 29, 468, 535

Məhəmmədbəyov, Məhəmməd bəy: Quba mövqe komandanı. 40

Məhəmmədəli Seyfulla oğlu: Bakı sakini. 432

Məhəmmədəli şah Qacar (1872-1925): Qacarlar sülaləsindən İran şahı; 1907-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 567

Məhəmmədhəsən İbrahim oğlu (Kərbəlayı Məhəmmədhəsən Məşhədi İbrahim oğlu): Bakı sakini. 514

Məhəmmədxanov: Balaxanı-Sabunçu polismeysterstvasının 7-ci dairə polis sahə rəisi. 150

Məhəmmədqulubəyov, Əhməd bəy: Ağdam və Xankəndində poçt və teleqraf bürosu müdiri olmuşdur. 518

Məhəmmədli, A.: bax. Ağaməhəmmədli.

Məhəmmədov: Bakı sakini; indiki Cəlil Məmmədquluzadə döngəsində yaşamışdır. 49, 51

Məhəmmədov, A.: Rusiyada təhsil alan Azərbaycanlı tələbə. 72

Məhəmmədov, Ağaqəni. 432

Məhəmmədov, Şıxveyis: Xaçmazın pristavı olmuşdur. 48

Məhəmmədov, Zülfüqar: bax. Məhəmmədzadə, Zülfüqar.

Məhəmmədrəsul Həsən oğlu: Quba sakini. 257

Məhəmmədrəsul Zeynal bəy oğlu: Azərbaycan Şeyxülislamlıq İdarəsində işləmişdir. 212

Məhəmmədrza Əbdülxalıq oğlu (Hacı Əbdülxalıq oğlu): Şamaxılı. 352

Məhəmmədyarov, S.: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyində kargüzar müavini, sonra kargüzar olmuşdur. 440

Məhəmmədyarov, S.: Rusiyada təhsil alan Azərbaycanlı tələbə. 72

Məhəmmədzadə, Qulu: "Müsavat" partiyasının Balaxanı şöbəsinin üzvü. 433

Məhəmmədzadə, Mirzə Muxtar (yaxud Mirzə Muxtar Məmmədov; 1852-1929): Azərbaycanlı xanəndə və teatr aktyoru. 125, 126

Məhəmmədzadə, Mirzəbala (1898-1959): Azərbaycanın ictimai-siyasi xadimi, publisist və dramaturq. 1924-cü ildən mühacirətdə yaşamışdır. 148, 274, 536

Məhəmmədzadə, Zülfüqar: Bakıda fəhlə təşkilatlarının işində fəal iştirak etmişdir; "Müsavat"ın Bakı Komitəsinin üzvü olmuşdur. 95

Məhərrəm Balasadıq oğlu: Bakı sakini. 49

Məhməd VI (1861-1926): Osmanlı imperiyasının sonuncu sultanı Məhməd Vəhidəddin. Sultan Əbdülməcidin oğlu idi. 3 iyul 1918-ci ildə Osmanlı sultanı olmuş, Türkiyə Böyük Millət Məclisinin monarxiyanı ləğv etdiyi 1 noyabr 1922-ci il tarixinə qədər hakimiyyətdə qalmışdır. Mühacirətdə ölmüşdür. 515

Məhməd Nurəddin paşa (yaxud Saqqallı Nurəddin; 1873-1932): Türkiyənin hərbi və siyasi xadimi. 553, 554, 567

Məhməd Şərif paşa (1865-1951): Osmanlı dövlətinin siyasi xadimi və diplomatı. 270

Məlik-Yeqanov, Cavad bəy (1878-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin avqustundan 1920-ci ilin aprel ayına qədər Lənkəranın general-qubernatoru olmuşdur. 1930-cu ildə Sovet rejimi tərəfindən həbs edilmiş, 1937-ci ildə güllələnmişdir. 149, 187, 318, 369, 387, 389, 486, 500

Məlikabbasov, Hüseyn bəy: Gəncə qəzası üçüncü dairəsinin müfəttişi olmuşdur. 348

Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 44, 54, 72, 91, 95, 193, 430, 555

Məlikaslanov, Teymur bəy: Azərbaycan Dəmiryolu İdarəsinin rəisi idi. 460

Məlikov, Həsən bəy: bax. Zərdabi, Həsən bəy.

Məlikov, Xudadad: Astaralı. 392

Məlikyeganzadə, Əsgər bəy: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin mühasibi olmuşdur. 485

Məmmədquluzadə, Cəlil (1869-1932): Azərbaycan yazıçısı və dramaturqu. 53, 74, 124

Məsihi: XV əsrin axırları – XVI əsrin əvvəllərində yaşamış Osmanlı şairi. 115

Məstanzadə, Mirzeynal. 411, 540

Məstəli Əli oğlu. 352

Məşhədi İbad: zurnaçı. 375

Mixaylov: tibb professoru. 282, 301, 352, 392, 436, 487, 540, 566

Mikayılov, Vəli (Kərbəlayi Vəli): Cümhuriyyət dövründə Hökumət mətbəəsinin müdiri olmuşdur. 44, 95

Mikoyan: Bakıda Fəhlə Konfransının işində aktiv iştirak etmişdir. 263, 273, 283

Milqan: 1919-cu ildə Qafqaza göndərilən ingilis diplomatik heyətinin tərkibində olmuşdur. 429

Mim. Ayn.: bax. Səfərov, Məhəmməd Əli Sidqi.

Minasazov, Abbas bəy Mirzə Baxşəli bəy oğlu (1878-1942): Bakıda və Azərbaycanın bir sıra başqa yerlərində müəllim kimi fəaliyyət göstərmişdir. "Nicat" cəmiyyətinin üzvü olmuşdur. 390, 405

Minor, Osip Solomonoviç (1861-1932): Rusiyanın siyasi xadimi. 1919-cu ildə Parisə mühacirətə getmişdir. 422

Mir Məhəmməd Kərim Ağa Bakuvi (1853-1938): Azərbaycanın ruhani alimi. Bakının qazısı olmuşdur. Quranı, eləcə də ərəb dilindən bəzi əsərləri Azərbaycan dilinə tərcümə etmişdir. Sovet rejimi tərəfindən 85 yaşında həbs edilərək güllələnmişdir. 366

Mirbağırzadə, Mirabbas: Azərbaycanın publisisti və ictimai xadimi; eyni zamanda İrəvanda və Bakıda kitab ticarəti ilə məşğul olmuşdur. Dövrünün mətbuatında çoxsaylı yazılarla çıxış etmişdir. Əsasən tarix mövzusunda olmaqla bir neçə kitabın müəllifidir. Başçılıq etdiyi heyət Azərbaycan Cümhuriyyəti Hökumətinin Naxçıvanın problemləri ilə tanış olması və bu problemləri aradan qaldırmaq istiqamətində adımlar atılması baxımından çox önəmli rol oynamışdır. 41, 43, 51, 346, 354, 479, 489, 505, 515

Mirbədrəddin əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 101

Mirdamadzadə, Mirhidayət: Quba qəzasının sakini, "Müsavat" üzvü. 458

Mirəhməd Əhməd oğlu (Molla Mirəhməd Molla Əhməd oğlu). 437

Mirələkbər Mirtağı oğlu (Hacı Mirtağı oğlu): "Azərbaycan" qəzetinin Salyan müxbiri Rüstəm İskəndərzadənin qətlində günahlandırılmışdır. 22, 176

Mirəli Mirheydər oğlu: İrəvan sakini. 48, 49

Mikayıl Baxış oğlu (Kərbəlayı Mikayıl Hacı Baxış oğlu): Bakıda İttifaq (indiki Əjdər bəy) məscidinin nümayəndəsi olmuşdur. 483

Mirsadıq Mirağa oğlu: Bakıda fəhlə; "Kaspi ortaqlığı"nın zavodunda işləmişdir. 321

Mirsüleymanzadə. 122

Mirtükəzban Mirəsgər qızı: "Azərbaycan" qəzetinin Salyan müxbiri Rüstəm İskəndərzadənin anası. 23, 101

Mirzə Əhməd: Lənkəran sakini; axund. 388

Mirzə Ələsgər oğlu: Bakı sakini. 510

Mirzəcamalov, Hüseyn bəy Məhəmmədrəfi bəy oğlu (1890-1974): Azərbaycan Cümhuriyyəti Ziraət nazirinin katibi, Parlamentdə Qanun Layihələri şöbəsinin müdiri olmuşdur. Cümhuriyyətin süqutundan sonra maarif sahəsində çalışmış, 1921-1922-ci illərdə Türkiyəyə mühacirətə getmişdir. Türkiyədə "Yanar" soyadını qəbul etmişdir. 254

Mirzəcamalov, Məhəmmədhəsən (Mirzə Məhəmmədhəsən): Qarabağ qubernatorluğu divanxanasının kargüzarı olmuşdur. 538

Mirzəəli Məlik Rza oğlu (Kərbəlayı Məlik Rza oğlu): Bakıda, Kərbəlayı Hüseyn məscidinin nümayəndəsi olmuşdur. 484

Mirzəheydər Mirzəqasım oğlu: bax. Qasımov, Heydər.

Mirzəyev, Aslan bəy: Bakı Teleqraf Bürosunun müdir müavini olmuşdur. 414

Mirzəyev, Vahab: Bakı sakini. 432

Mirzəzadə, Mirzə Musa Mirzə Sadiq oğlu: Maarif Nazirliyinin dəftərxanasında işləmişdir. 183

Mirzoyan: Bakıda fəhlə hərəkatının fəal iştirakçılarından. 263, 273, 283

Misirxanov, Ağabəy. 322, 325

Mişel, Şarles: Zaqafqaziyadakı İtaliya heyətinin zabiti; polkovnik. 62

Molla Abdulla: Balaxanı sakini. 202

Mollabəşir Abdulla oğlu: Salyan sakini. 176

Mollaəlizadə, Mollaqədeş: "Müsavat"ın Zabrat şöbəsinin üzvü olmuşdur. 485

Molyer [Molière; 1622-1673]: fransız dramaturqu; Qərbi Avropa ədəbiyyatında klassik komediya janrının banisi sayılır. Əsl adı Jan-Batist Poklen [Jean-Baptiste Poquelin] idi. 130

Mombelli, Ernesto [Ernesto Mombelli; 1867-1932]: İtaliyanın hərbi xadimi; general-mayor. Birinci Dünya müharibəsindən sonra Müttəfiqlərin Macarıstandakı hərbi heyətinə daxil idi. 212

Morvanov: tacir. 13

Möhsünzadə, Əliağa: Azərbaycan Şeyxülislamlıq İdarəsində işləmişdir. 212

Möhtacəddinov, Səlahəddin. 431

Muxtar paşa: bax. Qazi Əhməd Muxtar paşa.

Muxtarov, Murtuza (1855-1920): Azərbaycanlı sahibkar və xeyriyyəçi. 373

Mukan xan (yaxud Bukan xan; ? - 572): 553-572-də Göytürk xaqanı. 220

Murad IV (1612-1640): Osmanlı sultanı; 1623-1640-cı illərdə hakimiyyətdə olmuşdur. 146

Muradov: Türkmən müəllimi. 214

Muradov, İsmayıl: Bakı sakini; İçəri şəhərdə yaşamışdır. 49

Musabəyov, Süleyman bəy Mehdi bəy oğlu (1866-1949): Bakı qubernatoru Dəftərxanasının müdiri; Mərkəzi Hərbi Çağırış İdarəsinin müdiri olmuşdur. 2

Musabəyzadə, Süleyman: bax. Musabəyov, Süleyman bəy.

Musazadə, Hüseyn: müəllim. 405, 429

Musazadə, İsmayıl: İrəvan sakini. 49

Mustafa: Xaldan qəsəbə məktəbinin şagirdi. 124

Mustafa Abidin oğlu: Bakı sakini. 510

Mustafa Kamal: bax. Atatürk.

Mustafa Səbri əfəndi (1869-1954): Osmanlı dövlətinin ictimai-siyasi xadimi; "Hürriyyət və Etilaf" partiyasının qurucularından. Məclisi-Məbusan üzvü idi. 1919-1920-ci illərdə Osmanlı şeyxülislamı olmuşdur. 360

Mustafa Sübhi (1883-1921): Türk inqilabçısı, kommunist. 335

Mustafayev, Əliməhəmməd: müəllim. 405

Mustafazadə, Əliməhəmməd (1883-1970): maarif xadimi; Şamaxıda anadan olmuşdur; Müsəlman Müəllimlər İttifaqının (Bakı) üzvü olmuşdur. 97, 428, 559

Muşkara, Tələt (Kiçik Tələt bəy): Türkiyənin siyasi xadimi; İttihad və Tərəqqi partiyasının üzvü olmuş, "Kiçik Tələt bəy" kimi tanınmışdır. 336

Müller, Herman [Hermann Müller; 1876-1931]: Almaniyanın siyasi xadimi; sosial-demokrat. 1919-cu il iyunun axırlarından 1920-ci il martın axırlarına qədər Almaniyanın Xarici İşlər naziri olmuşdur. Versal sazişini Almaniya tərəfindən Yohannes Bell ilə birgə imzalamışdır. 159

Müluk Xan: Bakıdakı ingilis qoşunlarının müsəlman zabitlərindən olmuşdur. 482

Münəvvər Həsən qızı: Bakı sakini. 510

Mürsəl paşa (Mürsəl Bakü; 1881-1945): Türkiyənin hərbi və siyasi xadimi. Qafqaz İslam Ordusu ilə birlikdə Bakının azad edilməsi hərəkatında iştirak etmişdir. Türk Qurtuluş Savaşında iştirak etmiş, İzmirə daxil olan ilk türk generalı olmuşdur. Müharibədən sonra Türkiyə Böyük Millət Məclisinin üzvü seçilmişdir. Soyadı qanunu çıxdıqdan sonra "Bakü" soyadını qəbul etmişdir. 427

Mürsəlzadə: Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 428

Mürsəlzadə, Piri: "Müsavat" üzvü. 390, 404

Müseyib əfəndi: Zəngəzurlu müəllim; Azərbaycan və Dağıstan Türk-Müsəlman Müəllimləri İttifaqının üzvü. 171

Müseyib Rəcəb oğlu: Bakı sakini, uşaq. 231

Müzəffərəddin şah (1853-1907): Qacarlar sülaləsindən İran şahı; 1896-1907-ci illərdə hakimiyyətdə olmuşdur. 286

Müzəffərov, Hüseyn. 431

Müzəffərov, Hüseyn: Azərbaycanda fəhlə hərəkatının fəal iştirakçılarından olmuşdur. 255

Müznib, Əliabbas (Mütəllibzadə; 1883-1938): Azərbaycan yazıçısı və jurnalisti. Eyni zamanda ədəbiyyatşünas və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. 116, 221

Myuzan: Alman kommunistlərinin liderlərindən olmuşdur. 268

Nacarov, A.: Şamaxı Ermənilərinin Həmvilayətlər İttifaqının (Bakı) nümayəndəsi. 523

Nadir Xan: Bakıdakı ingilis qoşunlarının müsəlman zabitlərindən olmuşdur. 482

Nağdəlizadə, Rəcəb: "Müsavat"ın Zabrat şöbəsinin üzvü olmuşdur. 484

Nağıyev. 557

Nağıyev, İsmayıl Ağa Musa oğlu: Musa Nağıyevin gənc yaşda vəfat edən oğlu. 365

Nağıyev, Musa (1842-1919): Azərbaycanın neft sənayeçisi və xeyriyyəçi. 119, 132, 363, 365, 366, 476

Naxçıvanski, Bəhram xan (1872 - ?): Araz Türk Cümhuriyyətinin siyasi xadimi. 42

Naxçıvanski, Hüseyn xan Kəlbəli xan oğlu (1863-1919): Rusiya ordusunun generalı. Rus-yapon müharibəsində və Birinci Dünya müharibəsində iştirak etmişdir. 472

Naib Hüseyn: İranda Kaşan və Həmədan tərəflərində quldurluqla məşğul olmuşdur. 420

Naməlum: pəhləvan. 1, 27, 53, 79, 150, 157, 262, 303

Namiq Kamal (1840-1888): Türk şair, dramaturq və ictimai xadimi. "Hürriyyət şairi" kimi tanınmışdır. Türk ədəbiyyatı və siyasi mühiti üzərində böyük təsirə malik olmuşdur. 354

Nazim paşa: Osmanlı Hərbi Məhkəməsi üzvü. 269

Nazim paşa: bax. Hüseyn Nazim paşa.

Neizvestnı: pəhləvan; bax. Naməlum

Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 145, 250

Nəcəfbəyov, Mehdi bəy: Bakı quberniyasının xüsusi işlər məmuru. 71

Nəcəfzadə, Ağahüseyn: Bakıda, Hacı Pirverdi məscidinin nümayəndəsi olmuşdur. 484

Nərimanbəyov, Əmir bəy Nəriman bəy oğlu (1871 - ?): Araz Türk Hökumətinin rəisi, Azərbaycan Cümhuriyyəti Dövlət Müdafiə Komitəsi İşlər İdarəsinin başçısı, Bakı valisi (qubernatoru) olmuşdur. Sovet dönəmində repressiyaya qurban getmişdir. 534

Nərimanbəyov, Haşım bəy Nəriman bəy oğlu (yaxud Nərimanbəyli; 1863-1942): Azərbaycanın maarif xadimi. Qori Seminariyasını bitirmiş, İrəvanda və Şuşada müəllim işləmişdir. Azərbaycan məktəbləri üçün başqa müəlliflərlə birgə tərtib etdiyi "Ana dili" kitabı İrəvanda və Tiflisdə çap edilmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü və Dövlət Nəzarəti naziri Nəriman bəy

Nərimanbəyovun atasıdır. 456
Nərimanov: rəqqas. 210, 236
Nərimanov, Yunis: bax. Nərimanzadə, Yunis.
Nərimanzadə, Yunis (yaxud Nərimanov; 1895-1964): aktyor; rəqqas. 210, 236, 300
Nəsrəddin bəy: prokuror. 562
Nəsrulla Bəşir oğlu (Nəsrulla bəy): Böyük Vedi kəndinin sakini. 143
Nəzərov, Həmid bəy: Ərəş qəzası birinci dairəsinin müfəttişi olmuşdur. 348
Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə hakimiyyətdə olmuşdur. 14, 73, 163, 323, 361, 366, 455, 567
Nitti, Françesko [Francesco Nitti; 1868-1953]: İtaliyanın siyasi xadimi. Kənd Təsərrüfatı, Ticarət və Sənaye naziri (1911-1914), Maliyyə naziri (1917-1919), Baş nazir və Daxili İşlər naziri (1919-1920) olmuşdur. 244, 341
Nizami Gəncəvi (1141-1209): Dahi Azərbaycan şairi. 141
Nobat Əliqulu qızı: Bakı sakini. 257
Noks, Filander Çeyz [Philander Chase Knox; 1853-1921]: Amerikanın siyasi xadimi, senator (1904-1909; 1917-1921). 191, 446
Novruzov, Teymur bəy (1880-1961): Azərbaycanın hərbi xadimi; general-mayor. Tatar süvari alayının komandiri olmuşdur. 1919-cu ildə general-mayor rütbəsi almışdır. 1920-ci ildə mühacirətə getmişdir. 64, 141
Nubar paşa: bax. Poqos, Nubar paşa.
Nur Həsən xan: Türküstandakı iranlı mühacirlərdən. 449
Nuri paşa (Killigil; 1889-1949): Osmanlı ordusunun general-leytenantı. Qafqaz İslam Ordusunun komandanı olmuşdur. 309, 427
Nuriyev: Muğan mahalı sakini. 387
Nurizadə, Nurməhəmməd: Azərbaycan Parlamenti İdarəsində kuryer işləmişdir. 255
Nuru Babakişi oğlu (Hacı Babakişi oğlu): Qubanın Rük kəndinin yüzbaşısı olmuşdur. 368
Nurulla Əsədulla oğlu: Bakılı; "Rıbak" vətəgəsinin icarədarı. 407
Nüsrət İsmayıl oğlu: Qubanın Rük kəndinin camaat nümayəndəsi olmuşdur. 368
Odişelidze, İlya Zuraboviç (1865-1925): Gürcüstanın hərbi xadimi; general-leytenant. Gürcüstan ordularının Baş komandanı olmuşdur. 350
Odişelidze, Mariya: Bakı sakini; Vahab Mirzəyevin arvadı. 432
Olenskaya, Ş: Türk Aktyorlar İttifaqının idarə heyətinin üzvü olmuşdur. 125, 179, 210, 236, 299, 483
Olenskaya, Yeva Nikitiçna (1900-1959): Azərbaycan aktrisası. Qubada doğulmuş, kiçik yaşda ailəsiylə birgə Bakıya köçmüşdür. "Nicat" və "Səfa" truppalarının, "Hacıbəyov qardaşları müdiriyyəti" truppasının üzvü olmuşdur. Uzun müddət Milli Dram Teatrının səhnəsində çıxış etmişdir. 1949-cu ildə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür. 204, 210, 236, 560
Olentsev: Bakı limanının polis müfəttişliyinin məmuru olmuşdur. 253
Oleynikov, Vladimir: Rus pəhləvan. 395, 413, 439, 465, 492, 543
Orbay: bax. Hüseyn Rauf.
Orbelyans: Ermənistan aktyoru. 320
Orxanov: Dağıstan sakini. 361
Orlando, Vittorio Emanuele [Vittorio Emanuele Orlando; 1860-1952]: İtaliyanın siyasi xadimi; 1917-1919-cu illərdə Baş nazir olmuşdur. 451
Oruc: İrəvanlı; 1919-cu ilin iyulunda Qəmərli vağzalında ermənilər tərəfindən öldürülmüşdür. 48
Orucəliyev, Əlicabbar: Azərbaycanın maarif xadimi. Bakı Bələdiyyəsinin Məktəblər şöbəsinin sədri olmuşdur. 390, 403
Orucov, Əlicabbar: bax. Orucəliyev, Əlicabbar.
Osman I (Osman Qazi; 1258-1324): 1299-cu ildə Osmanlı dövlətini qurmuşdur. 146

Osman ibn Əffan (? - 656): Səhabə; Dörd xəlifədən üçüncüsü. 206, 269

Otto fon Habsburq [Otto von Österreich; 1912-2011]: Avstriya-Macarıstan imperatoru I Karlın oğlu. 398, 412

Ömər: Hindistan bolşeviklərinin liderlərindən olmuşdur. 383

Ömər ibn Xəttab (? - 644): Səhabə; Dörd xəlifədən ikincisi. 206, 362

Ömər Lütfü Fikri (1872-1934): Türk siyasətçisi və hüquqşünası; ədəbiyyat və tarix mövzusunda da əsərlər yazmışdır. 313

Palitsın: Könüllü ordunun Bakıdakı İngiltərə Komandanlığı nəzdindəki nümayəndəsi. 348, 459

Pankratov: Zakaspi Hökumətində Ticarət və Sənaye naziri olmuşdur. 294

Paraskevopulos, Leonidas (1860-1936): Yunanıstanın hərbi və siyasi xadimi, general-leytenant. 1918-1920-ci illərdə Yunanıstan ordusunun Baş komandanı olmuşdur. 11

Pardo: bax. Pardo-i-Barreda, Xose.

Pardo-i-Barreda, Xose [José Pardo y Barreda]: Perunun siyasi xadimi. 1904-1908 və 1915-1919-cu illərdə Peru prezidenti olmuşdur. 243, 259

Parolin, Xeyrulla. 431

Paşazadə, Həmid (Məşhədi Həmid): Bakıda yaşayan İranlılardan, "Müsavat" üzvü. 202

Payden: Macarıstan Maarif naziri. 359

Pekarski, L. M.: Bakıda işləmiş polyak əsilli mühəndis. 70

Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. (ayrıca bax: Axıskalı). 7, 28, 54, 55, 57, 58, 239, 289, 290, 291, 356, 358, 390, 403, 440, 468, 522, 535, 558

Pesoa, Epitasiu [Epitácio Pessoa; 1865-1942]: Braziliyanın siyasi xadimi. Paris Sülh Konfransında Braziliya heyətinin rəhbəri olmuşdur. 1919-1922-ci illərdə Braziliya prezidenti postunu tutmuşdur. 112

Petlyura, Simon Vasilyeviç (1879-1926): Ukraynanın siyasi və hərbi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 33, 292, 443, 471, 525

Petrenko: Zakaspiyskdə fəaliyyət göstərmiş hərbi dəstələrin komandirlərindən olmuşdur. 421

Petrov: Azərbaycan Cümhuriyyəti Sosial Təminat Nazirliyinin Qaçqınlar şöbəsinin sədri olmuşdur. 296

Pərviz: bax. Xosrov II.

Piletski, İvan Andreyeviç: Poçt və Teleqraf Nazirliyi Dəftərxanasında işləmişdir. 80

Pirimov, Qurban (1880-1965): Azərbaycan tarzəni. 356, 376, 395, 493, 518

Pişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 292

Pokrovski, Viktor Leonidoviç (1889-1922): Rusiyanın hərbi xadimi, general-leytenant. Birinci Dünya müharibəsinin və Rusiyada Vətəndaş müharibəsinin iştirakçısı olmuşdur. 108

Poqos Nubar paşa (1851-1930): Osmanlı dövlətində yaşayan ermənilərin siyasi təşkilatı olan Erməni Millət Məclisinin və Ümumi Erməni Xeyriyyə İttifaqının sədri olmuşdur. 12, 170

Polk: Amerika Xarici İşlər Nazirliyinin Paris Sülh Konfransındakı nümayəndəsi. 82, 310, 327

Poltorjinski, Əli B.: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyinin Dəftərxanasında işləmiş, sonra bu Nazirliyin Ticarət şöbəsinin müdiri olmuşdur. 439

Popov: Quba qəzasında vergi müdiri olmuşdur. 409

Prins Səbahəddin (Məhməd Səbahəddin; 1879-1948): Türkiyənin siyasi xadimi. Anası

Osmanlı sultanı Əbdülməcidin qızı idi. 270

Prjevalski, Mixail Alekseyeviç (1859-1934): Rusiyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsi dövründə, 1917-ci ilin iyun-dekabr aylarında Qafqaz cəbhəsinin komandiri olmuş, daha sonra Ağqvardiyaçılar hərəkatına qoşulmuşdur. 41

Prokofyev, Q. K.: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyinin katibi olmuşdur. 184

Prut: Xarkov sakini yəhudi. 139

Pşimaf: "Azərbaycan" qəzetində imza; Dağlılar Respublikası haqqında yazmışdır. 167, 198, 225

Pyotr I (Karageorgiyeviç; 1844-1921): 1903-1921-ci illərdə Serbiya kralı olmuşdur. 82

R. Rəhimli: Lahıcdan "Azərbaycan" qəzetinə məktub yazmışdır. 229

Radek: Xorvatiyada üsyançı kəndlilərin nümayəndəsi olmuşdur. 525

Radko-Dmitriyev, Radko Dmitriyeviç (1859-1918): Bolqarıstanın və Rusiyanın hərbi xadimi, general. 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsində, Balkan müharibələrində və Birinci Dünya müharibəsində iştirak etmişdir. 459

Rakovski, Xristian Georgiyeviç (1873-1941): Ukrayna Xalq Komissarları Sovetinin sədri (1919, 1920-1923), SSRİ-nin Britaniyada (1923-1925) və Fransada (1925-1927) səlahiyyətli nümayəndəsi olmuşdur. 292

Raqenbaum: pəhləvan. 27, 79, 106, 262, 375, 395, 413, 439

Ramazan Həsən oğlu: Bakıdakı dağıstanlılardan. 321

Razumovski, Vasili İvanoviç (1857-1935): cərrah; Tiflis Universitetinin (1918-1919) və Bakı Universitetinin (1919-1921) rektoru olmuşdur. 523, 545

Razuvayev: Rusiyanın hərbi xadimi; general. Biçeraxovun əks-kəşfiyyat xidmətinin başçısı olmuşdur. 368

Rebrux: fəhlə hərəkatının fəal iştirakçısı; Arbitraj Komissiyasının üzvü. 142

Renner, Karl [Karl Renner; 1870-1950]: Avstriyanın siyasi xadimi. 1918-1920-ci illərdə Avstriya hökumətinin sədri, həmçinin 1919-1920-ci illərdə Xarici İşlər naziri olmuşdur. 244

Reyn: İsveçrə konsulluğunun agenti. 187

Rəcəbli: Mərkəzi Hərbi Çağırış İdarəsinin baş katibi olmuşdur. 2

Rəcəbov, Əhməd Cabbar oğlu. 281, 300

Rəcəbov, İsgəndər: Hacıbəyli Qardaşları Müdiriyyətinin əməkdaşı. 355

Rəcəbov, Məcid: Salyanda Mal Mübadiləsi Komissiyasının sədri olmuşdur. 176

Rəfibəyli, Xudadad bəy (1877-1920): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Xalq Səhiyyə naziri vəzifəsini tutmuşdur. Gəncə qubernatoru olduğu dövrdə erməni quldurlarının dinc əhaliyə qarşı törətdikləri soyqırımın qarşısının alınmasında böyük rol oynamışdır. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 33, 562

Rəfibəyov, Xudadad bəy: bax. Rəfibəyli, Xudadad bəy.

Rəfiyev, Musa bəy (1888-1938): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Səhiyyə və Sosial Təminat naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 193, 562

Rəfizadə: Bakıda 5-ci sahənin pristavı olmuşdur. 321

Rəhim xan. 230

Rəhimli, Rəsul: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyində kargüzar işləmişdir. 80

Rəhimov, Cəlal: Bakıda və Xankəndində poçt və teleqraf bürosunda işləmişdir. 518

Rəhmi bəy (İzmir valisi): bax. Arslan, Mustafa Rəhmi.

Rəsulov: Bakı Bələdiyyə İdarəsinin xüsusi işlər məmuru olmuşdur. 71

Rəsulzadə, Məhəmməd Əli (1884-1982): Azərbaycan Cümhuriyyətinin ictimai-siyasi xadimi, Parlamentin üzvü. Məhəmməd Əmin Rəsulzadənin əmisi oğlu idi. 1922-ci ildə mühacirətə getmişdir. 390, 403

Rəsulzadə, Məhəmməd Əmin (1884-1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və “Müsavat” partiyasının sədri; eyni zamanda jurnalist və publisist. 55, 119, 139, 217, 384, 385, 405, 432, 458, 468, 470, 521, 535, 545, 546, 557, 561, 562

Rəşid bəy: Osmanlı dövründə İstanbul Polis İdarəsinin Siyasi şöbəsinin müdiri olmuşdur. 269

Rəzzaq Məhəmməd oğlu: Astaralı. 392

Rılski, S.: Polşanın Azərbaycanda konsul agenti olmuşdur. 534

Rinvist, Bitu. 454, 463.

Ris, Con [Sir John Rees; 1854-1922]: Britaniya Hindistanının müstəmləkə administratoru; 1906-1910 və 1912-1922-ci illərdə Britaniya Parlamentinin üzvü olmuşdur. 241

Roulinson, Henri [Henry Rawlinson; 1864-1925]: İngilis generalı; İngiltərə qoşunlarının Arxangelsk və Murmanskdan çəkilmələri hərəkatına rəhbərlik etmişdir. 240

Rudolf: Çarlıq dövründə Qafqazda Maarif müdiri olmuşdur. 401

Ruprext, fon Bayern [Rupprecht von Bayern, 1869-1955]: Bavariya vəliəhd şahzadəsi, general. Bavariya kralı III Lüdviqin oğlu idi. 213

Rut, Elihu [Elihu Root; 1845-1937]: ABŞ-ın siyasi xadimi. Xarici İşlər naziri, Hərbi nazir kimi vəzifələr tutmuşdur. 397

Rübabə Ruhulla qızı: Bakıdakı İran təbəələrindən. 202

Rüstəm Rüfət: “Azərbaycan” qəzetinə şeir göndərmişdir. 230

Rüstəmbəyli, Şəfi bəy (1893-1960): Azərbaycanın ictimai-siyasi xadimi. Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, “Azərbaycan” qəzetinin redaktorlarından biri olmuşdur. 4, 29, 56, 357, 468, 535

Rüstəmbəyov, Şəfi bəy: bax. Rüstəmbəyli, Şəfi bəy.

Rüstəmzadə, Əbülqasım: “Müsavat” partiyasının Quba şöbəsinin sədri olmuşdur. 65

Ryabovol, Nikolay Stepanoviç (1883-1919): Kazakların ictimai-siyasi xadimi; Kuban Radasının sədri olmuşdur. 139

Rza Zaki: bax. Lətifbəyov, Rza.

Rzadorski: Rus ordusunun zabiti; Türküstanda xidmət etmişdir. 400

Rzayev, Bağır (1891-1927): Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuşdur. Araz Türk Hökuməti sədrinin müavini idi. 30, 356, 440, 468, 495, 496

Sabiq müəllim: “Azərbaycan” qəzetində imza. 402

Sabit, Həsənağa: Salyanda teatr rejissoru olmuşdur. 299

Sadıq Teymur oğlu: Şağan kəndinin sakini. 321

Sadıqov, Əkbər ağa Hacı Xəlil oğlu (1892-1928): Azərbaycan Cümhuriyyətinin Zakaspi Hökuməti nəzdindəki konsulu olmuşdur. 274, 295

Sadıqov, Mirpaşa (? - 1921): Azərbaycan aktyoru; yazıçı Seyid Hüseynin qardaşı. Qarabağda ermənilər tərəfindən xaincəsinə qətl edilmişdir. 126, 179, 210, 236, 300, 565

Sakazov, Yanko (1860-1941): Bolqarıstanın siyasi xadimi və diplomatı. 1918-1919-cu illərdə Ticarət, Sənaye və Əmək naziri olmuşdur. 397

Salih Münir paşa (1859-1939): Osmanlı dövlətinin ictimai-siyasi xadimi. Bursa valisi, Paris səfiri olmuşdur. Vəzifədən uzaqlaşdırıldıqdan sonra uzun müddət İsveçrə və İtaliyada mühacir həyatı yaşamışdır. 270, 283

Salman Arzuman oğlu: Quba qəzasının Rük kəndində camaat nümayəndəsi olmuşdur. 368

Salman bəy: "Azərbaycan" qəzetinin Lənkəranda xüsusi müxbiri olmuşdur. 283, 327

Salman Mümtaz Məhəmmədəmin oğlu (1884-1941): Azərbaycanın şair və ədəbiyyatşünası. Klassik poeziya və şifahi xalq ədəbiyyatı irsinin toplanması və tədqiqi sahəsində misilsiz xidmətləri olmuşdur. Sovet hakimiyyəti tərəfindən repressiyaya məruz qalmışdır. 536, 541, 565

Salman Zərbəli oğlu: Bakıdakı İran təbəələrindən. 202

"Salyanlı": "Azərbaycan" qəzetində imza. 177

Samne, Corc [Georges Samné; 1877-1938]: Suriyalı həkim, yazıçı; millətçi. Sükrü Qanemlə birgə Mərkəzi Suriya Komitəsini qurmuşdu. 190

Samurski: "Hümmət" partiyasının Hacı-Tərxan komitəsinin idarə heyətinin üzvü. 336

Sanders, Otto Liman fon [Otto Liman von Sanders; 1855-1929]: Almaniyanın hərbi xadimi; general-leytenant. Birinci Dünya müharibəsi dövründə Osmanlı imperiyasında hərbi məsləhətçi olmuşdur. 213

Sanılı, Hacı Kərim (yaxud Sanıyev; 1878-1937): Azərbaycanın ictimai-siyasi xadimi, şair. Qori Seminariyasında təhsil almış, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Azərbaycan Parlamentinin üzvü olmuşdur. Repressiyaya məruz qalmışdır. 57, 441, 467, 468

Sanıyev: bax. Sanılı, Hacı Kərim.

Sarablı, Hüseynqulu (yaxud Hüseynqulu Rzayev; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 1, 210, 236, 355, 483, 544, 565

Sarabski: bax. Sarablı, Hüseynqulu.

Sariyev, İvan: Ağdam poçt-teleqraf bürosunun müdiri olmuşdur. 133

Savitski, İppolit Viktoroviç (1863-1941): Rusiyanın hərbi xadimi; general-leytenant. Rusiyada Vətəndaş müharibəsi illərində Cənubi Rusiya Silahlı Qüvvələri tərkibində Türküstan ordusunun komandiri olmuşdur. 294, 399, 400, 421

Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 19, 244, 360, 498

Sen-Bris. 340

Seyid Hüseyn Sadiq (1887-1938): Azərbaycan yazıçısı, müəllimi, jurnalisti və naşiri. Sovet rejimi tərəfindən güllələnmişdir. 94, 126, 179, 226, 233, 257, 280, 315, 366, 456, 476, 535, 536, 565

Seyidəli Mirheydər oğlu (Ağa Seyidəli): Bakıda, Dağlı məscidinin nümayəndəsi olmuşdur. 484

Seyidov, Mir Əbdüləziz (1895-1988): publisist və hüquqşünas. Türkiyədə mühacirətdə Əziz Alopud kimi tanınmışdır. 275

Seyidzadə, Bədrəddin (yaxud Mir Bədrəddin Seyidzadə; 1882-1945): Azərbaycan şairi. 90, 141

Seymur [Seymour]: İngiltərə donanması komandanı. 214

Səbahəddin: bax. Prins Səbahəddin.

Səbri bəy: Türkiyənin siyasi xadimi, Türkiyə Parlamentinin üzvü. 192

Sə'd bin Əbu Vəqqas (592-675): ərəb sərkərdəsi. 221

Sədi Şirazi: XIII əsrdə yaşamış fars şairi. 404

Sədrəddin Hacı oğlu (Kərbəlayı Sədrəddin): Quba qəzasının sakini. 322
Sədrəddin Mirzə Qacar: bax. Qacar, Sədrəddin Mirzə.
Səfərov, Məhəmməd Əli Sidqi (1888-1956): Azərbaycan publisisti, yazıçısı və jurnalisti; Məhəmməd Tağı Sidqi Səfərovun oğlu. Azərbaycan Cümhuriyyəti Parlamentinin katibi (stenoqrafisti) olmuş, eyni zamanda teatrda müxtəlif rollarda çıxış etmişdir. 53, 77, 125
Səfikürdlü, Aslan bəy: bax. Səfikürdski, Aslan bəy.
Səfikürdski, Aslan bəy (yaxud Səfikürdlü, 1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 290, 544, 557
Səlim I (Yavuz; 1470-1520): Osmanlı sultanı; 1512-1520-ci illərdə hakimiyyətdə olmuşdur. 115, 189, 387
Səlimbəyov, Süleyman bəy (1888-1951): Azərbaycan aktyoru. 179, 483
Səlimov, Həbib bəy (1881-1920): Azərbaycanın hərbi xadimi; general-mayor. 324, 497, 500
Səlmasi, Cəfər: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419
Səlmasi, Nağı: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419
Sidqi, Məhəmmədəli: bax. Səfərov, Məhəmməd Əli Sidqi.
Sin: Britaniya Parlamentinin Lordlar Palatasının üzvü. 136
Sitarə Ələsgər qızı: Bakıdakı İran təbəələrindən. 202
Sklodovski, Vikenti-Frants Bernardoviç: Bakı Texniki Komitəsinin sədri. 184, 206
Slavinski, D.: dirijor. 492, 518
Slutkin, M. İ.: diş həkimi. 23
Sokolov: Zakaspiysk cəbhəsinin Baş komandanı. 420
Sokolovski. 32
Soltan bəy: Azərbaycan müəllimi; Müəllimlər İttifaqı Qurultayının nümayəndəsi. 532
Soltanəhməd Mahmud oğlu (Molla Mahmud oğlu): Şamaxının Çarhan kəndinin sakini. 539
Sona Məhəmmədcəfər qızı: Bakı sakini. 510
Sonnino, Sidney [Sidney Sonnino; 1847-1922]: İtaliyanın siyasi xadimi. 1906-cı ildə və 1909-1910-cu illərdə Baş nazir olmuşdur. 1914-1919-cu illərdə Xarici İşlər naziri idi. 340
Srvandzyan, Hamazasp (1873-1921): "Daşnaksutyun" partiyasının liderlərindən, erməni qatil və terrorist. Türkiyənin Van şəhərində anadan olmuşdur. Gəncə, Şuşa, Quba, Bakı və başqa yerlərdə dinc azərbaycanlı əhaliyə divan tutmuş, minlərlə dinc sakini qətl etmişdir. Bolşeviklər tərəfindən İrəvanda həbs edilmiş, həbsxanada öldürülmüşdür. 41
Stamboliyski, Aleksandr (1879-1923): Bolqarıstanın siyasi və dövlət xadimi. Bolqarıstan Aqrar Xalq İttifaqı partiyasını təmsil edirdi. 1919-1923-cü illərdə Bolqarıstanın Baş naziri olmuşdur. 397
Staroşvili, Apollon Vladimiroviç: Gürcüstan pəhləvanı. 106, 132, 211, 303, 329, 355, 375, 413, 492, 543
Stefan Saber: Macarıstan Əmlak naziri. 359
Stolberq, Q. B.: Kaspi Eksport bankir evi idarə heyətinin üzvü. 303
Stolıpin, Pyotr Arkadyeviç (1862-1911): Rusiyanın dövlət xadimi. 1906-1911-ci illərdə Baş nazir və Daxili İşlər naziri olmuşdur. 402
Struk, İlya Timofeyeviç (1896-1969): Ukraynalı ataman. 32

Subbotin, S. M.: Azərbaycanda dövlət qulluğunda olmuşdur. 509
Suxorukov, V. D.: Eser; Muğanda yaradılan diktatura hökumətinin (Beşlər diktaturasının) başçısı olmuşdur. Ağqvardiyaçılar tərəfindən güllələnmişdir. 298, 369, 391
Sultan Xəlilulla oğlu (Molla Sultan): Kürdəmir sakini; Göyçay qəzasının Xəlilli Qasımbəyli kəndinin mollası olmuşdur. 80
Sultanov: Ədliyyə Nazirliyi nəzdində Xüsusi İstintaq Komissiyasının üzvü. 295
Sultanov, Abdulla (Məşhədi Abdulla): Naxçıvan Milli Şurası üzvü. 230
Sultanov, Əliabbas: Bakıda, Şeyx İbrahim məscidinin nümayəndəsi olmuşdur. 484
Sultanov, Xosrov bəy (1879-1943): Azərbaycan Cümhuriyyətinin siyasi və hərbi xadimi. Azərbaycanın İstiqlal Bəyannaməsini imzalayanlardan biri olan Xosrov bəy Sultanov Cümhuriyyət dövründə Hərbiyyə naziri, Kənd Təsərrüfatı naziri, Qarabağ general-qubernatoru kimi vəzifələr daşımışdır. Sovet işğalından sonra mühacirət etmişdir. 34, 512
Suvorov, Mixail Nikolayeviç (1877-1948): Rusiyanın hərbi xadimi, general-mayor. Mühacirətə getmişdir. 443
Sübhanqulov, Hüseyn. 431
Süheyli, Əliəkbər (Əliəkbər Fərəc oğlu Əliyev; 1879-1927): Azərbaycan aktyoru. 105, 126, 131, 178, 179
Süleyman Nazif (1870-1927): Türkiyənin dövlət xadimi; şair və yazıçı. 501
Süleyman Şəfiq paşa (1860-1946): Türkiyənin hərbi xadimi; 1919-cu ilin avqust-oktyabr aylarında Hərbi nazir olmuşdur. 444
Süleymanov, Seyidməhəmməd: polkovnik; qorucuların (mühafizə bölüyünün) rəisi olmuşdur. 369
Süleymanzadə, Fərəculla: Lahıc sakini. 229
Svoboda: pəhləvan. 1
Syaqarov, Georgi Yevgenyeviç: Poçt-Teleqraf Nazirliyinin mühəndisi. 133
Şaban Kərəm oğlu (Məşhədi Şaban): Bakı sakini. 231
Şahab bəy: Osmanlı dövründə İstanbulun komendantı olmuşdur. 269
Şahbazov: "Hümmət" partiyasının Hacı-Tərxan komitəsinin idarə heyətinin katibi. 336
Şahsüvarov, Nurməmməd bəy Adilxan bəy oğlu (1883-1958): Azərbaycanın və Dağıstanın maarif və dövlət xadimi. Azərbaycanın Zəngəzur qəzasında anadan olmuş, Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Azərbaycan və Dağıstanda maarif sahəsində işləmişdir. 1918-ci ilin mayından 1919-cu ilin mayına qədər Dağlılar Respublikasının Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyətinin Maarif və Dini Etiqad nazirinin müavini, həmçinin nazir (qısa müddət) olmuşdur. Sovet dövründə yenə maarif sahəsində fəaliyyət göstərmiş, repressiyaya məruz qalmış, 1943-cü ildə sürgündən qayıtmışdır. 36
Şamil (Şeyx Şamil; 1797-1871): Qafqaz dağlılarının rəhbəri, Şimali Qafqazda milli-azadlıq hərəkatının lideri. 387
Şahverdili: "Azərbaycan" qəzetində imza; Lənkərandan yazmışdır. 389
Şatkir. 345
Şattlvort, Diqbi [Digby Shuttleworth; 1876-1948]: Britaniya Hindistanı Ordusunun zabiti; general. 1917-1919-cu illərdə Britaniyanın Qafqazdakı 39-cu piyada briqadasının və Qara dənizdəki 83-cü piyada briqadasının komandiri olmuşdur. 150, 323, 440, 457, 508, 509
Şaumyan, Stepan (1878-1918): Erməni əsilli bolşevik, Bakı Kommunasının lideri. Bolşeviklərin və daşnakların 1918-ci ilin mart ayında Bakıda dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımına rəhbərlik etmişdir. 263
Şexter, Z. A.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 23, 49, 75, 102, 128, 153, 181, 206, 232, 258, 281, 301, 326, 352, 372, 392, 411, 436, 462, 488, 514, 540, 566

Şekspir, Uilyam [William Shakespeare; 1564-1616]: İngilis şairi,yazıçısı və aktyoru. 280

Şerbaçeviç: Yekaterinodar Sofiya Hərbi Məktəbinin müdiri. 112

Şerbaçyov, Dmitri Qriqoryeviç (1857-1932): Rusiyanın hərbi xadimi; general. Rusiyada Vətəndaş müharibəsi illərində Ağqvardiyaçılar hərəkatının əsas üzvlərindən biri olmuşdur. 184

Şeyx Kərbəlayi Hüseyn: Lənkəran sakini. 388

Şeyx Qənizadə. 510

Şeyx Şamil: bax. Şamil.

Şeyxsəid Hacı oğlu: Quba qəzasının Mucuq kəndinin (Qusarın kəndi) yüzbaşısı olmuşdur. 368

Şeyxzamanlı, Əli Şövqi (1879-1925): Azərbaycan şairi. Gəncədə anadan olmuş, bir müddət Bakıda işləmişdir. Gəncədə dəfn edilmişdir. 90, 141

Şeyxzamanov, Məhəmməd Bağır: bax. Şeyxzamanzadə, Məhəmmədbağır.

Şeyxzamanzadə, Məhəmmədbağır bəy Saleh bəy oğlu (1880-1920): "Müsavat" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 405, 561

Şəbüstəri, Qulamrza: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Şəmsəddin Ümid oğlu (Şəmsəddin əfəndi qazı Hacı Ümid əfəndi oğlu): Qubanın Fəxibəy mahalının sakini, "Müsavat" üzvü. 227

Şəmsəddinov: Bakıda xalq məktəbləri müfəttişi olmuşdur. 401, 402

Şərifov, Hacıbaba: bax. Şərifzadə, Hacıbaba.

Şərifov, Mustafa Ağa İsmayıl oğlu (1875 - ?): Azərbaycanlı həkim. Xarkov Universitetinin Tibb fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Bakı şəhər Bələdiyyə İdarəsinin Səhiyyə şöbəsinin müfəttişi, Tibbi-sanitar şöbəsinin müdiri olmuşdur. 406

Şərifüddövlə: İranın Kürdüstan əyalətinin hakimi olmuşdur. 419

Şərifzadə, Abbas Mirzə (1893-1938): Azərbaycan aktyoru. "Səfa" və "Nicat" cəmiyyətlərinin truppalarında çıxış etmiş, "Hacıbəyli qardaşları müdiriyyəti"nə rejissor kimi dəvət edilmişdir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuşdur. Sovet rejimi tərəfindən repressiyaya məruz qalmış, güllələnmişdir. 53, 125, 158, 179, 210, 236

Şərifzadə, Hacıbaba (yaxud Hacıbaba Şərifov; 1895-1920): Azərbaycanın teatr aktyoru və rejissoru. 257, 492, 518

Şıxəlibəyov, Asəf bəy Nurəli bəy oğlu (1886-1920): Azərbaycan Parlamentinin üzvü olmuşdur. Şamaxıdan seçilmişdir. "Müsavat" faksiyasına daxil idi. 453

Şıxəliyev, Asəf bəy: bax. Şıxəlibəyov, Asəf bəy.

Şıxlarski, Məhəmmədşah: Dəvəçidə müstəntiq olmuşdur. 172, 202

Şıxlinski, Əliağa (1863-1943): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-leytenant rütbəsinə yüksəlmişdi. Azərbaycan Cümhuriyyəti ordusunun qurulmasında böyük xidmətləri olmuşdur. Azərbaycan Hərbi nazirinin müavini vəzifəsini tutmuşdur. 472

Şıxməhəmmədov, Əbülfəz: Bakı teleqrafxanasında işləmiş, Poçt-Teleqraf Nazirliyi Dəftərxanasında kargüzar olmuşdur. 54

Şirəli Təhməz oğlu: "Russki neft" şirkətində işləmişdir. 96

Şirinbəyzadə, Şirin xanım: Qazaxda müəllimə olmuşdur. 506

Şirvanlı Şərif bəy: bax. Əfəndizadə, Məhəmməd Şərif.

Şişəli, Seyid: bax. Şuşinski, Seyid.

Şkuro, Andrey Qriqoryeviç (1887-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Kuban kazaklarındandır. Birinci Dünya müharibəsində və Rusiyada Vətəndaş müharibəsində iştirak etmişdir. 1920-ci ildə

mühacirətə getmişdir. İkinci Dünya müharibəsində Hitler Almaniyası ilə əməkdaşlıq etmişdir. İngilislər tərəfindən tutularaq SSRİ-yə təhvil verilmiş və Moskvada edam edilmişdir. 85

Şort, Alfred [Alfred Short; 1882-1938]: Britaniyanın siyasi xadimi; leyborist. 160

Şpitalski, Anatoli İvanoviç: Cümhuriyyətdən əvvəl Bakı quberniyası Torpaq və Dövlət Əmlakı İdarəsində çalışmışdır. Cümhuriyyət dövründə Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin Torpaq şöbəsinin müdiri olmuşdur. Cümhuriyyətin süqutundan sonra Xalq Torpaq Komissarlığında Torpaq idarəetməsi şöbəsinin müfəttişi işləmişdir. 560

Ştamm, Q.: Azərbaycan Cümhuriyyəti Sosial Təminat Nazirliyinin kargüzarı, Nazirliyin Dəftərxana müdirinin müavini olmuşdur. 14

Şternin, Boris Moiseyeviç: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 102, 128, 154, 180, 205, 231, 258, 281, 301, 326

Şuşalı: "Azərbaycan" qəzetində imza. 169

Şuşalı Seyid: bax. Şuşinski, Seyid.

Şuşinski, Seyid (1889-1965): Azərbaycanın məşhur xanəndəsi. 205, 210, 236, 335, 544, 565

Tabaqçı, Məhəmmədəli: bax. Əsədullazadə, Məhəmmədəli.

Tağıyev, Nəsir bəy Hacı Məhəmməd oğlu (1879-1953): Şamaxıda anadan olmuşdur. Dövlət Əmanət Kassaları və Kiçik Kredit İdarəsi müdiri. Sovet dövründə Azərbaycanın Maliyyə komissarı olmuşdur. Bakıda və Moskvada bir sıra yüksək vəzifələrdə işləmişdir. Moskvada vəfat etmişdir. 13, 28, 158

Tağıyev, Zeynalabdin: Azərbaycan milyonçusu və xeyriyyəçisi. 101, 119, 365, 373, 401, 431

Tahirov: Rusiyada təhsil alan Azərbaycanlı tələbə. 72

Talıbzadə, Abdulla Şaiq (1881-1959): Azərbaycan şairi, yazıçısı və pedaqoqu. 207, 210, 236, 302, 508

Talıbzadə, Yusif Ziya (1877-1923): Azərbaycanın hərbi və siyasi xadimi, pedaqoq. 390, 467, 489

Tamaşaçı əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 351

Tanrıqulov: "Hümmət" partiyasının Hacı-Tərxan komitəsinin idarə heyətinin üzvü. 336

Tanrıqulov, Ramazan. 431

Tanrıquluzadə, Nurulla (Kərbəlayı Nurulla): "Müsavat" partiyasının Balaxanı şöbəsinin üzvü olmuşdur. 322

Tarhan, Əbdülhaq Hamid (1852-1937): Türk şair və yazıçısı. 313, 314, 327

Tavkilyev, Markar: Şamaxının Mədrəsə kəndinin sakini. 435

Ten, Hippolit [Hippolyte Taine; 1828-1893]: fransız filosofu; ədəbiyyat və sənət nəzəriyyəçisi. 278, 279, 283

Teodor: Amerikalı hüquqşünas. 444

Terpilo, Daniil İliç (Ataman Zelyonı; 1886-1919): Ukrayna inqilabçısı. Təşkil etdiyi silahlı dəstə ilə birgə əvvəlcə getmanlıq tərəfdarlarına və alman işğalçılarına qarşı döyüşmüş, Ukrayna Direktoriyasının hakimiyyətini qəbul etmiş, sonra Direktoriyaya qarşı çıxaraq Ukrayna bolşevikləri ilə əməkdaşlıq etmiş, nəhayət, bolşeviklərə də qarşı çıxmış və Qırmızı ordu dəstələri tərəfindən məhv edilmişdir. 51

Tetureşkin-Somov: bolşevik. 71

Teymur: XIV əsrdə yaşamış görkəmli türk sərkədəsi; Teymurilər dövlətinin banisi. 63

Teymurxanov, Murad: Maarif Nazirliyində idarə məmuru olmuşdur. 184

Teyyib əfəndi: Dağıstan sakini; Axtılı. 361

Tezicer, Frederik [Frederic Thesiger; 1868-1933]: Britaniyanın dövlət xadimi. 1916-1921-ci illərdə Hindistanın vitse-kralı və general-qubernatoru olmuşdur. 259

Təbrizi, Əlizadə: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Təbrizi, Hüseyn Antiqaçı: Tehranda nəşr

edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Təbrizi, Mahmud: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Təbrizi, Məhəmmədbağır Fərşçi (Hacı Məhəmmədbağır): Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Təbrizi, Məhəmmədtağı Çayçı: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Təbrizi, Məhəmmədzadə: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Təbrizi, Mirnağı: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Təhsin: Azərbaycan Türk Ocağının qurucularından olmuşdur. 405

Təkin əfəndi: İstanbulda 1914-cü ildə nəşr edilmiş "Turan" kitabının müəllifi. 220

Təkinski, Məhəmməd xan (1880-1938): Azərbaycanın siyasi xadimi və diplomatı. Azərbaycan Cümhuriyyətinin Ermənistandakı siyasi nümayəndəsi (səfiri), həmçinin Azərbaycan Xarici İşlər nazirinin müavini olmuşdur. 48, 142, 144, 230, 252, 427

Tələbə D. U.: pəhləvan. 1

Tələt paşa (Məhməd Talat paşa; 1874-1921): Osmanlı dövlət xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən biri idi. Daxili İşlər naziri, Poçt və Teleqraf naziri, Baş nazir vəzifələrini tutmuşdur. Berlində erməni terrorçusu Teyliryan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 380, 381

Tittoni, Tommazo [Tommaso Tittoni; 1855-1931]: İtaliyanın siyasi xadimi və diplomatı. İngiltərə və Fransada səfir, Xarici İşlər naziri (1903-1905, 1906-1909, 1919), Daxili İşlər naziri (1905), Baş nazir (1905), Senatın Sədri (1919-1929) olmuşdur. 243, 305, 341

Toller, Ernst [Ernst Toller; 1893-1939]: Alman inqilabçı və şairi; Bavariya Sovet Respublikasının başçısı olmuşdur. 215

Tomas, Albert [Albert Thomas; 1878-1932]: Fransanın siyasi xadimi, sosialist. 1916-cı ildə Fransanın Silahlanma naziri təyin edilmişdi. 451

Tomson, Vilyam Montqomeri [William Montgomerie Thomson; 1877-1963]: Britaniya generalı. Bakının general-qubernatoru olmuşdur. 42, 165, 166, 416

Topçubaşov, Əlimərdan bəy (1863-1934): Azərbaycanın siyasi xadimi; Azərbaycan Cümhuriyyətinin banilərindən biri. Tiflisdə anadan olmuş, Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya müsəlmanlarının təşkilatlanmasında və siyasi həyatında müstəsna xidmətləri olmuşdur. Rusiya Dövlət Dumasının üzvü, Dumada Müsəlman fraksiyasının sədri, "Kaspi" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Hökumətində portfelsiz nazir və Xarici İşlər naziri vəzifələrini tutmuş, Azərbaycan Cümhuriyyətinin Fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilmişdir. Paris Sülh Konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri idi. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmış, siyasi fəaliyyətini davam etdirmişdir. Parisdə vəfat etmişdir. 119, 529

Topçubaşova, Pəri xanım (yaxud Topçubaşzadə; 1873-1947): Həsən bəy Zərdabinin qızı, Əlimərdan bəy Topçubaşovun həyat yoldaşı. 205, 210, 236, 561

Topuriya, Qəmər (Tamara Topuriya; 1902-1947): Tiflisdə anadan olmuş, Tiflisdə və Bakıda müxtəlif truppalarda və teatrlarda çıxış etmişdir. 179, 210, 236

Tori: Qafqazdakı ingilis zabitlərindən. 277

Trepov: Rusiyada Vətəndaş müharibəsi illərində Ağ qvardiyanın Ukraynadakı komandirlərindən olmuşdur. 33

Trotski, Lev Davidoviç (1879-1930): Rus

inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Sovet Rusiyasının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 9, 11, 293, 499, 500

Tsentner: Bakıda qadın həkimi olmuşdur. 23, 50, 76, 102, 128, 154, 180, 205, 231, 258, 281, 301, 325, 352, 372, 392, 410, 436, 462, 487, 514, 539, 565

Tumasov, Baraqim (? - 1919): "Kaspi" şirkətinin Bibiheybətdəki mədənində işləmişdir. 431, 432

Turablı: "Azərbaycan" qəzetində imza, Qalaqayından yazmışdır. 349

Türkoğlu: "Azərbaycan" qəzetində imza. 48

Uayt, Henri [Henry White; 1850-1927]: ABŞ diplomatı. Paris Sülh Konfransında ABŞ heyətinin tərkibində olmuşdur. 310

Uet: 1919-cu ildə Qafqaza göndərilən ingilis diplomatik heyətinin tərkibində olmuşdur. 429

Ulaqay, Sergey Georgiyeviç (1876-1944): Rusiyanın hərbi xadimi; general-leytenant. 83

Uluq xan: bax. Uluqbəy.

Uluqbəy (1394-1449): türk riyaziyyatçısı, astronomu, şairi və dövlət xadimi. Görkəmli sərkərdə Teymurun nəvəsi idi. 141

Urmiyeyi, Hüseyn: Tehranda nəşr edilən "İran" qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Urusov: knyaz. 138, 155

Uşida: bax. Kosay, Utida.

Uzer, Həsən Təhsin (1878-1939): Türkiyənin siyasi xadimi. Van, Ərzurum, Dəməşq və İzmirdə vali olmuşdur. 554

Ümidvar: "Azərbaycan" qəzetində Ömər Faiq Nemanzadəyə məxsus imza; bax. Nemanzadə, Ömər Faiq.

V. (? - 1919): Rostovdan Bakıya gəlmiş şəxs; vəbadan ölmüşdür. 406

Vadyayev, Ya, X.: Kaspi Eksport bankir evi şurasının üzvü. 303

Vağan (Şuşalı yepiskop). 512, 538

Vahabov, Cabbar (Məşhədi Cabbar): Bakılı xarrat, kloun və səhnə artisti. Baməzə söhbətləri, parodiyaları və oyunları ilə səhnələrdə və toyxanalarda camaatı güldürmüşdür. "Lotu Cabbar" adıyla tanınmışdır. 544, 567

Vaxatinaya, Akulina (? - 1919): "Nobel" şirkətində işləmişdir. 459

Vanseviç: bax. Vonsoviç, Stanislav.

Vansoviç: bax. Vonsoviç, Stanislav.

Vasilyev: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyinin Dəftərxanasında işləmişdir. 518

Vasserman: Bakıda mama-feldşer olmuşdur. 23, 50, 76, 102, 128, 154, 180, 205, 231, 258, 281, 301, 325, 352, 372, 392, 410, 436, 462, 487, 514, 539, 565

Vedler: Alman kommunistlərinin liderlərindən olmuşdur. 268

Venizelos, Elefterios (1864-1936): Yunanıstanın siyasi xadimi. 1910-cu ildən 1933-cü ilə qədər dəfələrlə (o cümlədən 1917-1920-ci illərdə) Baş nazir vəzifəsini tutmuşdur. 11, 58, 527, 552, 553, 554

Verman: Rus ordusunun zabiti; Türküstanda xidmət etmişdir. 400

Veysov, İsmayıl (Hacı İsmayıl). 311

Vəkilov, İ. B.: feldşer. 408

Vəkilov, Mustafa bəy Nadir ağa oğlu (1896-1965): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Parlamentin üzvü olmuş, 1920-ci ildə Daxili İşlər naziri vəzifəsini tutmuşdur. 95, 133, 287, 288, 357, 358, 468, 535

Vəkilov, Rəhim bəy (1898-1934): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. Sovet rejiminin təqibləri üzündən intihar etmişdir. 56, 467, 468, 469

Vəlixanlı, Abbasqulu: Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 96, 97

Vəlixanzadə, Abbasqulu: bax. Vəlixanlı, Abbasqulu.

Vəlizadə: mütərcim. 119

Vəzirov, Bəhram bəy (1857-1921): Azərbaycan Cümhuriyyətinin ictimai-siyasi xadimi; hüquqşünas. Cəbrayıl qəzasından Azərbaycan Parlamentinə üzv seçilmişdir. Eyni zamanda şair olan Bəhram bəy, "Fədai" təxəllüsü ilə şeir yazmışdır. Sovet dövründə həbs edilmiş, həbsxanada ölmüşdür. 356, 357, 358

Vəzirov, Nəcəf bəy (1854-1926): Azərbaycanlı dramaturq və ictimai xadim. Moskvada Kənd Təsərrüfatı və Meşəçilik Akademiyasını bitirmişdir. Azərbaycanın bir sıra yerlərində meşəbəyi işləmiş, eləcə də Azərbaycan Meşələri müdiri (Baş meşəbəyi) olmuşdur. Dram əsərləri və publisistik yazıları ilə tanınmışdır. 355, 373

Vəzirov, Yusif: bax. Çəmənzəminli, Yusif Vəzir.

Vəzirov, Zeynal bəy (1854-1933): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 468

Vilhelm: polkovnik. 336, 347

Vilhelm II (Wilhelm II, 1859-1941): Almaniya imperatoru, 1888-1918-ci illərdə hakimiyyətdə olmuşdur. 9, 10, 24, 160, 186, 213, 269, 471

Vilson, Vudro (Woodrow Wilson; 1856-1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). Birinci Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 10, 11, 32, 82, 159, 186, 339, 424, 425, 426, 449, 451, 471, 472, 521, 527, 547, 553, 557

Vinoqradov, Mixail: Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. 469

Vonsoviç, Stanislav Aleksandroviç (1888-1937): Polyak Milli Komitəsindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. Sovet dövründə repressiyaya məruz qalmışdır. 5, 57, 58, 134, 238, 289, 290

Vordrop, Oliver [Oliver Wardrop; 1864-1948]: Britaniyalı diplomat və tədqiqatçı. Hələ 1887-ci ildə Qafqaza (əsasən Gürcüstana) gəlmişdi. Britaniyanın müstəqil Gürcüstanda siyasi nümayəndəsi təyin edilmiş, daha sonra səlahiyyətləri bütün Zaqafqaziyaya şamil edilmişdi. Gürcüstanın sovetləşməsindən sonra öz ölkəsinə qayıtmışdır. 429, 520, 521

Vrangel, Pyotr Nikolayeviç (1878-1928): Rusiyanın hərbi xadimi; general-mayor. Rusiyada Vətəndaş müharibəsi illərində Ağqvardiyaçılar hərəkatının rəhbərlərindən olmuşdur. 61, 137

Vüsuqül-məmalik: İran Culfasının hakimi. 420

Yaqub Həsən Səid (1875-1940): Hindistanın siyasi xadimi. Mədrəs Qanunvericilik Şurasının, Ümumhindistan Müsəlman Liqinin, Hindistan Milli Konqresinin üzvü, Britaniya Hindistanının inzibati ərazi vahidi olan Mədrəs Prezidentliyinin ictimai işlər naziri olmuşdur. 7

Yanq: Qafqazdakı ingilis zabitlərindən, kapitan; Dəniz Nəqliyyatı şöbəsinin rəisi olmuşdur. 430

Yao: Eramızdan əvvəl XXIV-XXIII əsrlərdə yaşamış Çin imperatoru. 20 yaşında taxta çıxmış və 80 ilə yaxın ölkəni idarə etmişdir. 115

Yaroş, N.: mühəndis, Azərbaycan Dəmiryol İdarəsində işləmişdir. 566

Yasenski: Azərbaycan Cümhuriyyəti Maliyyə Nazirliyində işləmiş; 1 avqust 1919-cu ildə öz ərizəsinə əsasən işdən çıxarılmışdır. 215

Yavkinski: Rus ordusunun zabiti; Türküstanda xidmət etmişdir. 400

Yazır, Məhəmməd Həmdi (Elmalılı; 1878-1942): Türk din alimi. 1919-1920-ci illərdə Övqaf naziri olmuşdur. "Haqq dini Quran dili" adlı çoxcildli təfsiri ilə tanınmışdır. 269

Yeganzadə, Əsgər bəy: bax. Məlikyeganzadə, Əsgər bəy.

Yeqbiyans: "Kaspi" şirkətinin Bibiheybətdəki mədənində fəhlə işləmişdir. 432

Yelizarov, Pyotr Nikolayeviç: idmançı. 1, 27, 53, 79, 106, 132, 157, 211, 235, 262, 303, 329, 355, 375, 395, 413, 439, 465, 492, 543

Yemelyanov: pəhləvan. 375, 413, 439

Yəhya Səbzəli oğlu: Bakıdakı İran təbəələrindən. 406

“Yoldaş”: “Azərbaycan” qəzetinə yazı göndərmişdir. 435

Yudeniç, Nikolay Nikolayeviç (1862-1933): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsində Qafqaz ordusunun qərargah rəisi, Rusiyada Vətəndaş müharibəsində Şimal-Qərb ordusunun komandiri olmuşdur. 137, 185, 241, 398, 443, 463, 500

Yulius: Macarıstan İstirahəti-Ümumiyyə naziri. 359

Yunis Yaqub oğlu (Hacı Yunis Hacı Yaqub oğlu): Bakıda Gilək məscidinin nümayəndəsi olmuşdur. 483

Yusif İbrahim oğlu: Bakıda, Dağlı məscidinin nümayəndəsi olmuşdur. 484

Yusif Səməd oğlu: Mirbabayev mədənində fəhlə olmuşdur. 150

Yusif Zülfüqar oğlu: Bakıda yaşamış lənkəranlılardan. 118

Yusifbəyli, Eynülhəyat (1887-1955): müəllimə. Penzada anadan olmuşdur, Kazan tatarlarındandır. Qızlıq soyadı Baişeva idi. Nəsib bəy Yusifbəylinin həyat yoldaşı olmuşdur. 216

Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 33, 39, 44, 54, 64, 70, 71, 193, 263, 298, 457, 469, 493, 494, 508, 509, 534, 555, 557

Yusifov, Abutalıb (1884-1937): Azərbaycan qarmonçusu və tarzəni. 355

Yusifov, Əliheydər: Cavad qəzasının rəisi olmuşdur. 97, 98

Yusifov, İbrahim ağa (yaxud Usubov; 1872-1920): Rusiyanın və Azərbaycanın hərbi xadimi; general-mayor. 472

Yusifzadə, Cəlal (Mirzə Cəlal; 1862-1931): Azərbaycanın siyasi xadimi; şair, yazıçı, pedaqoq. Azərbaycan Cümhuriyyəti Milli Şurasının üzvü olmuşdur. 429

Yusifzadə, Əbdürrəhim: “Müsavat” partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin katibi olmuşdur. 485

Yusifzadə, Əli (1900-1937): Azərbaycanlı şair, publisist və mütəfəkkir. Şuşada doğulmuşdur. Cümhuriyyət Hökuməti tərəfindən xaricə təhsilə göndərilmişdir. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 169, 181, 536

Yusifzadə, Əziz: “Müsavat”ın Ramana şöbəsinin üzvü olmuşdur. 484

Yustinyas I [I Iustinianus; 483-565]: Bizans imperatoru; 527-565-ci illərdə hakimiyyətdə olmuşdur. 233

Yustinyas II [II Iustinianus; 669-711]: Bizans imperatoru; 685-695 və 705-711-ci illərdə hakimiyyətdə olmuşdur. 220, 233

Yuzefoviç, P. A.: Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyi nəzdində Fövqəladə İstintaq Komissiyasının katibi olmuş; Ticarət, Sənaye və Ərzaq Nazirliyində işləmişdir. 439

Zakoroyko, Pavel: pəhləvan. 1, 27, 53, 150, 157, 211, 235, 465, 492, 543

Zalkin, İsay Lobodin: Vladiqafqaziyalı tacir. 431

Zeyd Şirin oğlu: Qubanın Rük kəndində yüzbaşının müavini olmuşdur. 368

Zeynalabdin Şıxəli oğlu: Böyük Vedi kəndinin kəndxudası. 143

Zeynallı, Hənəfi (1896-1937): Azərbaycanlı müəllim, yazıçı, tənqidçi və ədəbiyyatşünas. Bakıda anadan olmuşdur. İlk qələm təcrübələri Cümhuriyyətdən əvvəl çap edilmişdir. “Azərbaycan” qəzetində “M. Hənəfi”, “M. H.” imzaları Hənəfi Zeynallıya məxsusdur. Bolşevik işğalından sonra ədəbiyyatşünas kimi fəaliyyətini davam etdirmiş, xüsusilə Azərbaycan şifahi xalq ədəbiyyatını tədqiq etmişdir. Eyni zamanda ictimai həyatda yaxından iştirak edən Zeynallı, represiya qurbanı olmuş, 1937-ci ildə Bakıda güllələnmişdir. 1957-ci ildə bəraət almışdır. 536

Zeynalov, Əhməd: Muğan nahiyə idarəsinin Bakıya göndərdiyi nümayəndə. 152

Zeynalov, Əliağa: Salyanda müəllim olmuşdur. 405

Zeynalzadə, Balasadıq: Balaxanı sakini; “Müsavat” partiyasının Balaxanı şöbəsinin sədri. 322, 433

Zeynalzadə, Məhəmməd (Mirzə Məhəmməd): Cavad qəzasında Süleymankənd (indiki Salyan rayonunun Çuxanlı kəndi) məktəbinin müəllimi; “Müsavat” partiyasının Salyan komitəsinin üzvü. 428, 429, 457

Zəncani, Əbdürrəhim: Tehranda nəşr edilən “İran” qəzetinə Məşhəddən məktub göndərmişdir. 419

Zəngəzurlu: “Azərbaycan” qəzetinə Zəngəzurdan yazmışdır. 73

Zərdabi, Həsən bəy (1837-1907): Azərbaycan publisisti, pedaqoqu. “Əkinçi” qəzetinin redaktoru və Azərbaycan milli mətbuatının banisidir. 43, 400

Zərri Məhəmməd qızı (Məhəmməd bəy qızı): İrəvan qaçqınlarından. 95

Zikri paşa: Osmanlı Hərbi Məhkəməsi üzvü. 269

Ziqam Vəli oğlu (Molla Vəli oğlu): Bakıdakı İran təbəələrindən. 406

Zimin: Türküstan Hökumətinin Xarici İşlər naziri olmuşdur. 459

Ziya paşa (Əbdülhəmid Ziyaəddin; 1829-1880): Osmanlı imperiyasının dövlət xadimi, mütəfəkkir, şair və yazıçı. 25

Ziyadxanov, Adil xan (yaxud Ədil xan; 1877-1957): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 419, 503

Zülfüqar Fərəc: bax. Fərəczadə, Zülfüqar.

Zülqədərli, Lütfəli bəy: Şamaxı və Göyçayda qəza rəisi olmuşdur. 13

Zülqədərov, Lütfəli bəy: bax. Zülqədərli, Lütfəli bəy.

Korrektor: Azad Ağaoğlu
Kitab üzlüyü və tərtib: Fikrət Məlikov

**Nəşriyyat direktoru:** Rəhilə Soltanqızı
**Mətbəənin direktoru:** Zöhrab Vəlibəyli
**Texniki redaktor:** Ruslan Mahmudov

Çapa imzalanmışdır: 11.09.2024
Formatı 70x100 $^{1}/_{16}$. F.ç.v 30.5
Ofset kağızı, Ofset çapı. Səhifə sayı: 628
Tiraj: 300, Bakı-2024

**Hazır materiallar əsasında**
**GALAXY PRINTING MMC**
**mətbəəsində çap edilmişdir.**

ISBN 978-9952-8426-9-2
9 789952 842692